AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU PHŞ

“ÜMUMİ TƏHSİLİN AKTUAL ELMİ PROBLEMLƏRİ”
mövzusunda

(əyani və videobağlantı formatlarında)

V RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ MATERİALLARI

Naxçıvan, 22 may 2026

RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ TƏŞKİLAT KOMİTƏSİ

SƏDR

– Elşən Məmmədov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru v.i.e.

SƏDR MÜAVİNİ

– Qurban Qurbanlı, Naxçıvan Müəllimlər İnstitutunun Elm və innovasiya məsələləri üzrə prorektoru

MƏSUL KATİB

– Gülnar Hüseynova, Naxçıvan Müəllimlər İnstitutunun Elmi fəaliyyətin təşkili və təhlili üzrə baş metodisti

ÜZVLƏR

– Xəyal Camalov, Ümumi işlər üzrə prorektor;
– Samirə Həsənova, Pedaqoji fakültənin dekanı;
– Nazilə Muradova, Təbiət və incəsənət fakültəsinin dekanı;
– Qızıltac Şahbazova, Magistratura və doktorantura şöbəsinin müdiri;
– Yaqub Məmmədov, Riyaziyyat və tədrisi metodikası kafedrasının müdiri;
– Həsənəli Eyvazov, Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri;
– Sevinc Vəliyeva, Pedaqogika və psixologiya kafedrasının müdiri;
– Həbibə Allahverdiyeva, İncəsənət kafedrasının müdiri
– Aytəkin Qəhrəmanova, Humanitar və ictimai fənlər kafedrasının müdiri;
– Nurlanə Novruzi, Ümumi fənlər kafedrasının müdiri;
– Bəyim Tarverdiyeva, Xarici dillər və tədrisi metodikası kafedrasının müdiri;
– Rasim Babayev, Təsərrüfat və xidmət şöbəsinin müdiri;
– Ənnağı Əsgərov, "Məktəb" nəşriyyatının direktoru.

ELM (EKSPERT) KOMİTƏSİ

Kamal Camalov – Pedaqogika və psixologiya kafedrasının professoru, pedaqogika elmləri doktoru;
Yusif Səfərov – Azərbaycan dili və ədəbiyyat kafedrasının professoru, filologiya elmləri doktoru;
Nuray Əliyeva – Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti, filologiya elmləri doktoru;
Zeynəb Quliyeva – Humanitar və ictimai fənlər kafedrasının dosenti, tarix elmləri doktoru;
Azad Novruzov – Riyaziyyat və tədrisi metodikası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru;
Rövşən Həsənov – Riyaziyyat və tədrisi metodikası kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru.

Konfrans materiallarının nəşri haqqında

Toplu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2026-cı il üçün təsdiq etdiyi respublika üzrə elmi tədbirlər planına və Naxçıvan Müəllimlər İnstitutunun həmin ilə aid tədbirlər planına daxil edilmiş və Naxçıvan şəhərində 22 may 2026-cı il tarixdə hibrid (əyani və videobağlantı) formatda keçirilmiş Naxçıvan Müəllimlər İnstitutunun "Ümumi təhsilin aktual elmi problemləri" mövzusunda V Respublika elmi-praktik konfransının materialları əsasında hazırlanmış və Naxçıvan Müəllimlər İnstitutu Elmi Şurasının 26 may 2026-cı il tarixli (pr. №12) qərarı ilə nəşrə tövsiyə edilmişdir. Topluya daxil edilən materiallar Strikeantiplagiarism proqramından keçirilmişdir.

Buraxılışına məsul

Qurban Qurbanlı, *Naxçıvan Müəllimlər İnstitutunun Elm və innovasiya məsələləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent*
Gülnar Hüseynova, *Naxçıvan Müəllimlər İnstitutunun Elmi fəaliyyətin təşkili və təhlili üzrə baş metodisti*
Qeyd: Elmi məlumatların səhihliyinə görə məsuliyyət müəlliflərin üzərinə düşür.

Naxçıvan Müəllimlər İnstitutu
“Şəhərsalma və memarlıq ili”nə həsr edilmiş
“Ümumi təhsilin aktual elmi problemləri”
mövzusunda
V Respublika elmi-praktik konfransı
22 MAY 2026

"Ümumi təhsilin aktual elmi problemləri"
V Respublika elmi-praktik konfransı
22 MAY 2026
DONDUR
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU
2000

"Ümumi təhsilin aktual elmi problemləri"
V Respublika elmi-praktik konfransı
22 MAY 2026
DONDUR
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU
2000

"Ümumi təhsilin aktual elmi problemləri"
V Respublika elmi-praktik konfransı
22 MAY 2026
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU
2000

NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU
2000

"Ümumi təhsilin aktual elmi problemləri"
V Respublika elmi-praktik konfransı
22 MAY 2026
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU
2000



MÜNDƏRİCAT

AÇILIŞ MƏRASİMİ VƏ PLENAR İCLAS	
ÇIXIŞLAR	
17	**Elşən Məmmədov** – Naxçıvan Müəllimlər İnstitutunun rektoru v.i.e.
18	**Əli Vəliyev** – Naxçıvan Muxtar Respublikasının təhsil nazirinin müavini
19	**Qurban Qurbanlı** – Naxçıvan Müəllimlər İnstitutunun elm və innovasiya məsələləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent
	MƏRUZƏ
20	**İlham Cavadov** – Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent
	PANEL 1. ÜMUMİ TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ-01
24	**İntiqam Cəbrayılov**. Rəqəmsal transformasiya dövründə şagirdlərin funksional savadlılığının inkişafı: probelmlər və həll yolları
26	**Ramiz Qasımov.** Azərbaycançılıq məfkurəsinin formalaşmasında Heydər Əliyevin rolunun təlim-tədris prosesində öyrədilməsi məsələləri
28	**Nigar İsmayılova.** Azərbaycan təhsil sistemində davamlı islahatların dinamikası və inkişaf tendensiyaları
29	**Нигяр Мурадова.** Научно-педагогические основы интеграции имени Общенационального лидера в школьные детские организации
31	**Gülnar Hüseynova.** Müəllim hazırlığında innovativ yanaşmalar və peşəkar kompetensiyaların formalaşdırılması
33	**Məhərrəm Talıbov, Lalə Talıbova.** Azərbaycanda ümumi təhsil sahəsində dövlət siyasətinin müasir istiqamətləri və inkişaf perspektivləri
35	**Həmidə İsgəndərova.** Müstəqillik dövründə ümumitəhsil siyasətinin transformasiyası: reallıqlar və perspektiv yanaşmalar
36	**Gülər Bayramova.** Azərbaycanda ümumi təhsil siyasətində keyfiyyət təminatı və strateji idarəetmə
38	**Turan Zeyniyeva.** Azərbaycanda ümumi təhsilin normativ-hüquqi bazası və müasir inkişaf istiqamətləri
40	**Yadulla Həziyev, Nigar Rüstəmova, Tünzalə Ələkbərova.** Ümumi təhsil sisteminin təkmilləşdirilməsində innovativ strategiyalar
42	**Sevil Mişiyeva.** Ümumi təhsil sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin əsas istiqamətləri
44	**Sədaqət Nemətova.** Ümumi təhsildə fərdiləşdirilmiş təlimin əhəmiyyəti
46	**Aygül Məmmədova, Zöhrə Əsədova.** Yaradıcı müəllim modelinin formalaşdırılmasında magistratura təhsilinin elmi-pedaqoji imkanları
48	**Ракиф Ибадов, Сенубер Билалзаде.** Актуальные проблемы общего образования
	PANEL 2. ÜMUMİ TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ - 02
50	**Rüfət Hüseynzadə.** Təhsilin tarixi məkanı
51	**Rühəngiz Əliyeva.** Çağdaş təhsil yanaşmalarının paradiqmatik əsasları
54	**Ayşən İmanlı.** Ümumi təhsil sistemində idarə etmənin aktual məsələləri
55	**Gülnarə Paşayeva.** Diferensiallaşmanın tətbiq mexanizmi və şərtləri
58	**Könül Mustafayeva.** Azərbaycanda ümumi təhsil siyasətinin ibtidai təhsil mərhələsində tətbiqi xüsusiyyətləri

60	**Nahirə Tağızadə.** Dövlət ümumi təhsil müəssisələrində təhsilverənlərin sertifikatlaşdırılmasının əhəmiyyəti
62	**Türkan Hüseynova.** Dövlət ümumi təhsil müəssisələrində təhsilverənlərin sertifikatlaşdırılması: nəticələr və çağırışlar
63	**Fidan Quliyeva.** Təhsilin idarə olunmasının müasir modeli
65	**Məsumə Piriyeva.** Müxtəlif ölkələrin təhsil sistemlərində ətraf mühit və dayanıqlı inkişafın tətbiq edilməsi
67	**Səyyarə Cəfərova.** Azərbaycan təhsil sistemində müasir çağırışlar
71	**Mədinə Abdullayeva.** Azərbaycanda təhsil islahatları: yeni yanaşmalar
73	**Ülviyyə Fətəliyeva.** Müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının formalaşdırılması
	PANEL 3. TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR - 01
75	**Rövşən Vəliyev.** Ümumtəhsil məktəblərində riyaziyyatın tədrisində informasiya-kommunikasiya texnologiyaları və süni intellektdən istifadə məsələləri
78	**Yaqub Səmədov, Elmir Haqverdiyev.** Ümumtəhsil məktəblərinin tarix dərslərində rəqəmsallaşma: süni intellektin tədris prosesində tətbiqi imkanları
80	**Şəhla Fətəliyeva.** Təhsildə rəqəmsallaşma: müasir təhsil sistemində innovativ yanaşmalar
81	**Təranə Qəbulova.** Təlim prosesində rəqəmsal vasitələr və süni intellektdən istifadə yolları
84	**Humay Əliyeva.** Rəqəmsal resursların dərs prosesində istifadəsi və səmərəliliyi
86	**İlhamə İsmayılova, Aygün İsmayılova.** Məktəbəqədər təhsil sistemində rəqəmsal texnologiyaların tətbiqi
88	**Arzu Əsədova.** Təhsilin inkişafında müasir texnologiyaların rolu və tətbiqi imkanları
90	**Xalidə Hüseynova.** Rəqəmsal qiymətləndirmə alətlərinin tətbiqi və onların şagird nailiyyətlərinə təsiri
92	**Şəbnəm Əliyeva.** Azərbaycan dili dərslərində rəqəmsal texnologiyalardan istifadənin səmərəliliyi
94	**Gülnarə Səfərova.** Biologiya dərslərində rəqəmsal texnologiyaların rolu
96	**Nail Əsədzadə.** Tarixin tədrisində rəqəmsal resurslardan istifadə
97	**Elnarə Əhmədova.** Rəqəmsal təhsil mühitində şagirdlərin tənqidi təfəkkürünün inkişaf etdirilməsi yolları
	PANEL 4. TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR - 02
99	**Həsənəli Eyvazov.** Dərs prosesində metodik yanaşmaların müasir istiqamətləri
102	**Əsməd Şərifova.** İnnovasiyalar təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm amil kimi
104	**Mehriban Əsədullasoy.** Ana dilinin tədrisində innovativ və müasir yanaşmalar
106	**Ülviyyə Nağıyeva.** Pedaqoji təcrübənin məqsədyönlü təşkili və aparılması
108	**Günay İsmayılova.** Texniki fənlərin tədrisində innovativ yanaşma və metodlar
110	**Püstə Cəfərova.** Ümumi təhsildə innovasiyaların tətbiqi problemləri
111	**Nərgiz Qənbərli.** Riyaziyyat dərslərində tətbiq olunan süni intellekt əsaslı platformların təhsil prosesinə təsiri
113	**Sevda Axundova.** Pedaqoji kolleclərin innovativ idarə edilməsinin bəzi məsələləri
115	**Gülən İmamquliyeva.** İnformasiya texnologiyalarının təhsildə rolu
117	**Aygün Əsgərova.** İngilis dilinin tədrisində süni intellektin istifadəsi: üstünlüyü və yaratdığı problemlər
119	**Jalə Xəlilova.** Süni intellektin ümumi təhsildə tətbiqi və müəllim fəaliyyətinin yeni pedaqoji istiqamətləri
121	**Turac Bayramova.** Müasir təhsilin gələcəyi: rəqəmsallaşma və süni intellektin inteqrasiyası

	PANEL 5. TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR - 03
122	**Fəxriyyə Cəfərova.** Təhsildə süni intellektin tətbiq perspektivləri və innovativ idarəetmə mexanizmləri
124	**Südabə Məmmədova.** İKT vasitəsilə riyaziyyat dərslərində mürəkkəb məsələlərin tədrisi
126	**Dilbər Rüstəmova.** Təhsildə innovasiya fəaliyyətinin rəqəmsallaşma və süni intellekt kontekstində təhlili
128	**Günel Əbilova.** Təhsilin rəqəmsal modernləşdirilməsi şəraitində süni intellekt və innovasiya fəaliyyətinin prioritetləri
130	**Natella Rzayeva.** Rəqəmsal təhsil mühitində süni intellektin rolu və innovativ transformasiya prosesi
132	**Aydın Adilxanov.** Süni intellekt və rəqəmsallaşmanın təhsil psixologiyasına təsiri:yeni reallıqlar və psixoloji çağırışlar
133	**Kəmalə Bayramova.** Müasir təhsildə süni intellekt əsaslı innovasiyaların elmi-pedaqoji təhlili
135	**Gülyaz Quliyeva.** Müasır təhsilin təşkilində süni intellektin rolu: fərdiləşdirilmiş təlim
136	**Nuranə Cəfərzadə.** Müasir təhsil sistemində süni intellekt və innovasiya fəaliyyətinin inkişaf tendensiyaları
138	**Asudə Məmmədova.** Təhsildə rəqəmsal innovasiyalar: süni intellekt kontekstində yeni çağırışlar
140	**Ramilə Həsənova.** Süni intellekt əsaslı təhsil mühiti: reallıqlar, tendensiyalar və çağırışlar
142	**Abbasəli Tarverdiyev.** Rəqəmsal təhsil mühitində innovasiya fəaliyyəti və süni intellekt texnologiyalarının tətbiqi
144	**Rəşad Rüstəmli.** Təhsildə rəqəmsallaşma və süni intellektin tətbiqinin əhəmiyyəti
	PANEL 6. ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏ MƏSƏLƏLƏRİ
146	**Ayşən Məmmədova.** İbtidai təhsil sistemində təlim çətinliklərinin diaqnostikasında müasir yanaşmalar və monitorinq modelləri
148	**Aygün Verdiyeva.** Təhsilin keyfiyyətinin yüksəldilməsində monitorinq-qiymətləndirmə sisteminin rolu
151	**Ayşən İsgəndərova.** Ümumtəhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri və istiqamətləri konteksində təsviri incəsənət məşğələlərində yuxarı sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması
153	**Rəfiqə Cavadova.** Formativ qiymətləndirmənin tətbiqi zamanı qarşıya çıxan problemlər və onların həlli yolları
155	**Sona İsmayılova.** Tədris mühitində refleksiya üsullarının tətbiqinin əhəmiyyəti
159	**Türkan Müslümlü.** Azərbaycanda rəqəmsal qiymətləndirmənin tətbiq vəziyyəti və əsas problemləri
161	**Aysun Məmmədova.** Təlimdə şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji və psixoloji meyarları
163	**Aysun Niyazzadə.** Pedaqoji prosesin qiymətləndirilməsi meyarları
165	**Natavan Cəfərli.** Ümumi təhsil sistemində inklüzivliyin problemləri və inkişaf perspektivləri
167	**Samirə Mustafayeva.** Müasir dövrdə fənlərin tədrisində müəllim-şagird qarşılıqlı fəaliyyətinin yeni modelləri
169	**Elza Məmmədova.** Təhsilverənlərin sertifikatlaşdırılmasının ümumi təhsilin inkişafına təsiri
171	**Gülayə Novruzova.** Ümumi təhsil sistemində monitorinq və qiymətləndirmə

172	**Инара Джафарова.** Развитие творческих способностей учащихся в учебном процессе
	PANEL 7. TARİX VƏ COĞRAFİYA FƏNLƏRİNİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ
174	**Aytəkin Qəhrəmanova.** Tarix dərslərində fəal təlim metodları və etnoqrafik məzmun
177	**Sona Məhərrəmova.** Tarixin tədrisində inteqrativ yanaşmalar: nəzərimetodoloji əsaslar və praktiki tətbiq perspektivləri
179	**Aytac Tağıyeva.** Coğrafiyanın tədrisində motivasiya mərhələsinin təşkili zamanı Azərbaycan coğrafiyası materiallarından istifadə imkanları
181	**İlkin Abdullayev.**Ümumtəhsil müəssisələrində coğrafiyanın tədrisi və şagird fəaliyyətinin yaradılmasında motivasiyanın əhəmiyyəti
184	**Həbibə Vəliyeva.** Ümumi təhsildə strateji transformasiya: coğrafiya tədsirində STEAM metodologiyası və süni intellekt elementlərinin metodik sinergiyası
186	**Günay Əlizadə.** Tarix dərslərində müasir texnologiyalardan istifadənin üstünlükləri
188	**Məkan Ağaverdiyev.** Coğrafiya müəllimliyi üzrə işğaldan azad edilmiş ərazilərdə çöl təcrübələrinin aparılması: elmitədqiqat və milli-mənəvi dəyərlər kontekstində
190	**Qorxmaz Hacızadə.** Qədim dövlətlərdə qullara qarşı fərqli münasibətlərin tədrisi məsələləri
192	**Suzana Vəlizadə.** Azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası tarixinin tədrisi məsələləri
194	**Əhəd Əhədov.** 44 günlük Vətən müharibəsinin ümumtəhsil məktəblərində tədrisi məsələləri
195	**Səriyyə Hüseynli.** İbtidai təhsildə incəsənət nümunələrinin inteqrasiyasının şagirdlərin inkişafına təsiri
	PANEL 8. ÜMUMİ FƏNLƏRİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ
197	**Nurlanə Novruzi.** Ekoloji mədəniyyətin formalaşdırılmasında biologiya dərslərinin rolu
200	**Məhəbbət Paşayeva.** Biologiyanın tədrisində müxtəlif tapşırıq növlərindən istifadə yolları
202	**Həbibə Allahverdiyeva.** Təsviri incəsənətdə kompozisiya əsas ifadə vasitələrindən biri kimi
204	**Fərahim Zeynalov.** İbtidai siniflərdə təsviri incəsənətin digər fənlərlə inteqrativ tədrisinin aktual problemləri
207	**Yeganə Mustafayeva.** Ümumtəhsil məktəblərində şagirdlərin musiqi əsərinin qavranılmasında bədii-semantik təhlil mühüm amil kimi
209	**Ruqiyyə Tağıyeva, Ayşə Məmmədova.**Təsviri incəsənət dərslərində mənzərə janrının tədrisinin pedaqoji-psixoloji məsələləri
211	**Oktay Rzayev, Gülnar Babayeva.** Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixinin elmi-metodoloji əsasları
215	**Zeynab Mehdiyeva.** Məktəbəqədər yaşlı uşaqların ekoloji və estetik tərbiyəsində didaktik oyunların rolu
216	**Nizami Quliyev.** Texnologiya fənninin şagirdlərin praktik bacarıqlarının formalaşmasında rolu
219	**Şəhla Tarverdiyeva.** Ümumi təhsil məktəblərində musiqi fənninin tədrisinin aktual məsələləri və innovativ yanaşmalar
221	**Xatın Ağayeva.** Basketbol dərslərinə verilən müasir tələblər
223	**Səbinə İsmayılova.** Biologiyanın tədrisində müasir didaktik yanaşmaların tətbiqinin pedaqoji aspektləri
225	**Coşqun Qurbanov.** Ümumi təhsil məktəblərində texnologiya fənninin tədrisinin aktual problemləri və həlli yolları

228	**Emilya Həsənova.** Təsviri incəsənətin tədrisində yeni pedaqoji yanaşmalar: VII sinif dərsliyi və müəllimlər üçün metodik vəsaitin təhlili
230	**Teybə Əfəndiyeva.** Müasir təhsil sistemində fənlərin tədrisinin prioritet problemləri
	PANEL 9. AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT FƏNLƏRİNİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ
232	**Sədaqət Həsənova.** Söz birləşmələrinin tədrisində qarşıya çıxan problemlər
234	**Nuray Əliyeva.** Ana dili tədrisinin milli kimliyin formalaşmasında rolu
236	**Asif Hacıyev (Şirvanelli).** Azərbaycan dili dərslərində mətn üzərində iş şagirdlərin hərtərəfli nitq fəaliyyətinə yiyələnməsində mühüm vasitə kimi
238	**Samirə Həsənova.** Fənlərarası və fəndaxili inteqrasiyanın Azərbaycan dili fənninin tədrisində reallaşdırılmasının imkan və yolları
241	**Aytən Cəfərova.** Orta məktəbdə ədəbiyyat fənninin tədrisi: yeni metodlar, səmərəli üsullar
243	**Eyvaz Eminalıyev, Türkan Hüseynova.** Yazıçının tərcümeyı-halının tədrisi və yaradıcılığının dərkində rolu
245	**Günay Şirəliyeva.** Süni intellekt dövründə Azərbaycan dilinin tədrisində yeni üsullar
246	**Könül Şxəliyeva.** Oxu dərslərinin interaktiv təşkili şəraitində şagirdlərin nitq və təfəkkür bacarıqlarının inkişafı
249	**Aytəkin Zeynalova.** Şagirdlərin dialoji nitq bacarıqlarının inkişafında bədii mətnlərin rolu (IX sinif materialları əsasında)
251	**Cəmilə Məhərrəmova.** Müasir oxucu və bədii dil problemləri: ümumi təhsil kontekstində
253	**Xuraman Hacızadə.** Orfoepik problemlərin aradan qaldırılmasında oyun və interaktiv üsulların tətbiqi
255	**Natavan İbrahimova.** Hüseyn Cavid yaradıcılığının tədrisinin bəzi məsələlərinə dair
	PANEL 10. XARİCİ DİLLƏRİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ
257	**Firuzə Rzayeva.** İngilis dilinin tədrisi zamanı tələbələrin müstəqil işlərinin təşkili yolları
260	**Fəridə Hüseynova.** Tələbələrin ingilis dili bacarıqlarının qiymətləndirilməsində süni intrellektin rolu
262	**Bəyim Tarverdiyeva.** Ümumtəhsil məktəblərində ingilis dili fənninin tədrisinin aktual məsələlərinə dair
264	**Həyat Əliyeva.** Fransız dilində felin keçmiş zaman növlərinin öyrənilməsı zamanı təhsilalanların qarşılaşdıqları çətinliklər
266	**Aynur Məmmədova.** İngilis dilində ictimai-siyasi leksikanın tədrisində kontekstual anlayışlar
268	**Səidə İsmayılova.** Müasir ingilis dilində “Təbiət” konseptinin transformasiyası və onun xarici dil tədrisinə təsiri
270	**Fidan Quliyeva.** Orta məktəblərdə ingilis dilinin tədrisinə motivasiyanin artirilmasi məqsədi ilə texnoloji alətlərdən istifadə
272	**Gülmirə Əliyeva.** Xarici dil öyrənilməsində kommunikativ kompetensiyanın formalaşdırılması yolları
274	**Fatma Kərimova.** Ümumi təhsil sistemində rəqəmsallaşma və ingilis dilinin tədrisində müasir innovativ yanaşmalar
276	**Sakina Rustamova.** The role of reading in the development of communicative skills in foreign language education
278	**Allahverdi Allahverdiyev.** İngilis dili dərslərində şagirdyönümlü təlim strategiyalarının tətbiqi və fərdi iş təcrübəsi
280	**Aygün Xudiyeva.** Sosial dəyişikliklər və onların dil tədrisinə təsiri

	PANEL 11. DƏQİQ ELMLƏRİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ
282	**Yaqub Məmmədov.** Riyazi məsələlərin həllində sonlu fərdlər üsulunun tədrisi texnologiyası
284	**Nazilə Muradova.** Məktəb riyaziyyatı kursunda VII siniflərdə mərkəzi simmetriyanın tədrisi xüsusiyyətlərinə dair
287	**Sahib Əliyev, Təranə Əliyeva.** Müəyyən inteqralın düzbucaqlılar üsulu ilə təqribi hesablanmasında İKT- dən istifadə təcrübəsindən
289	**Fatma Hacıyeva.** İbtidai siniflərdə riyaziyyat və informatika dərslərinin inteqrasiyası
291	**Arzu Səfərova.** Riyaziyyat dərslərində tənqidi və yaradıcı təfəkkürün formalaşdırılması
294	**Aygün Sultanova.** Fizikanın tədrisində informasiya kommunikasiya texnologiyalarından istifadənin əhəmiyyəti
296	**Sahil Əliyev.** Avtomatlaşdırılmış təhsil sistemləri (ATS) və onların tətbiq xüsusiyyətləri
299	**Zinyət Əliyeva.** İnformatika dərslərində layihə əsaslı təlimin rolu və tətbiqinin aktual məsələləri
301	**Aysen Məmmədova.** Riyazi fənlərin öyrənilməsi prosesində tələbələrin idrak fəaliyyətinin gücləndirilməsi üçün metodik sistem
303	**Hicran Qurbanova.** Fənlərin tədrisinin aktual məsələləri
305	**Aygün Məmmədova.** Riyazi analizin tədrisi metodikasının ikişaxəli məsələsinin həlli meyarı
308	**Kəmalə İbrahimova.** Ümumitəhsil məktəblərində informatika və onun tədrisi
310	**Fatma Cəfərova.** Orta məktəbdə riyaziyyatın tədrisində yeni yanaşmalar
312	**Zərnişan İsayeva, Duyğu Fətəliyeva.** Riyaziyyatın tədrisində yeni metodlarin tətbiqinə dair
	PANEL 12. PEDAQOJİ PSİXOLOGİYANIN AKTUAL MƏSƏLƏLƏRİ
314	**Solmaz Həsənli.** Məktəb psixoloqunun valideynlərlə birgə işinin mahiyyəti
316	**Elçin Cavadov, Elçin Məmmədov.** Təhsil mühiti və inklüziv təhsil şəraitində interaktiv və fərdi yanaşmaların tətbiqi
318	**Gülbəniz Sultanova.** Kiçikyaşlı məktəblilərə pedaqoji-psixoloji dəstəyin əsas amilləri
320	**Jalə Məmmədova.** Kiçik məktəbyaşlı uşaqlarda diqqət və təlim uğuru arasındakı əlaqə
322	**Aynur Qasımova.** Müasir təhsildə inklüziv yanaşmalar
325	**Elvar Əliyev.** Ümumi təhsil müəssisələrində inkluziv mühitin qorunması
327	**Nüşabə Məmmədova.** Psixodiaqnostikanın müasir problemləri və inkişaf istiqamətləri
329	**Kişvər Seyidova.** Rəqəmsallaşma dövründə şagirdlərin psixoloji rifahi və məktəb mühitinə adaptasiyasi
331	**Aytəkin Hacıyeva.** İntellektual geriliyi olan ibtidai sinif şagirdlərinin özünüqiymətləndirməsində pedaqoqun rolu və istifadə etdiyi metodlar
335	**Mirzə Həşimov.** Müasir təlimdə motivasıyanın formalaşdırılmasının psixoloji mexanizmləri
339	**Leyla Xanlarova.** Məktəbəqədər yaş dövründə uşaqların inklüziv təhsil mühitinə sosial-psixoloji adaptasiyası
340	**Ayxan Hüseynli.** Məktəbdə psixoloji xidmətin təşkili məsələləri və müasir yanaşma
342	**Aysel Abdullayeva.** İnklüziv təhsildə müəllimin roluna müasir yanaşmalar
344	**Günel Allahverdiyeva.** Deviant davranış və onun təsnifatı
	PANEL 13. ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ İDARƏETMƏNİN AKTUAL MƏSƏLƏLƏRİ
346	**Ruhiyyə Mehdiyeva.** Təhsildə uğurlu idarəetmənin formulu: insan intellekt ilə süni zəkanın sintezi
348	**Fatma Sofiyeva.** Ümumi təhsil sistemində strateji idarəetmənin tətbiqi

350	**Lamiyə Hüseynzadə.** Ümumi təhsil sistemində idarəetmənin səmərəliliyi: problemlər və inkişaf perspektivləri
352	**Natiq Məmmədov.** Ümumi təhsil müəssisələrində təlim-tərbiyə işləri üzrə direktor müavininin idarəetmə fəaliyyətinin əsas istiqamətləri
355	**Sara Qurbanlı.** Təhsil müəssisələrinin idarə olunmasında innovativ yanaşmalar
357	**Səadət Mənəfova.** Ümumtəhsil sistemində struktur problemlərin təhlili və təhsil keyfiyyətinə təsir edən amillər
359	**Arzu Qurbanova.** Ümumtəhsil müəssisələrinin idarə edilməsində müasir yanaşmalar və problemlər
361	**Bulqeyis Nağıyeva.** Ümumtəhsil sistemində idarəetmənin nəzəri və praktik problemləri
362	**Fatma İslamlı.** Ümumi təhsil müəssisələrində idarəetmə prosesində emosional intellektin rolu
364	**Sanur Bəylərli-Sədiyeva.** Ümumi təhsilin idarə olunmasında qanunvericiliyin rolu
366	**Arif Bağırov.** Ümumtəhsil sistemində effektiv idarəetmə modelinin formalaşdırılması məsələləri
368	**Orxan Babayev.** Məktəb idarəetmə sistemində müasir islahatların pedaqoji aspektləri
370	**Sevinc Tağıyeva.** Təhsilin idarə olunmasının aktual problemləri
371	**Asya Piriyeva.** Ümumi təhsil islahatları kontekstində fənlərin tədrisində şəxsiyyətyönümlü və steam əsaslı yanaşmanın əhəmiyyəti
	PANEL 14. ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ
373	**Kamal Camalov.** Xaqani Şirvani yaradıcılığında vətən sevgisi və vətən həsrətinin tərənnümü
381	**Zeynəb Quliyeva.** Gənclərdə tarixi yaddaşın formalaşdırılmasına təsir edən sosial-mədəni amillər
383	**Rəhiməxanım Məmmədzadə.** Tərbiyə texnologiyaları mənəvi tərbiyənin səmərəliliyini şərtləndirən amil kimi
386	**İradə Əmirəliyeva.** Şagirdlərdə tolerantlığın tərbiyə olunması
389	**Emilya Hüseynova.** Məktəblilərin fəal vətəndaşlıq tərbiyəsinin bəzi məsələləri
392	**Lalə Məmmədli.** Fəal həyat mövqeyinin formalaşdırılması ilə bağlı tələbələrin şagirdlərlə apardığı işlər
394	**Şəhla Süleymanova.** Fənnlərin tədrisi zamanı fəal təlim metodları vasitəsilə estetik tərbiyənin təşkili və şagirdlərin istedad potensialının inkişafı
396	**Aygün Qafarova.** Gənclərin müstəqil təhsil həyatına hazırlanmaları
398	**Hicran Verdiyeva.** Şəxsiyyətinin təşəkkülündə qadın tərbiyəsinə aid ənənələrdən faydalanmanın vacibliyi
400	**Altay Cəfərli.** Mədəni irsin qorunmasının gənclərin vətənpərvərlik tərbiyəsində rolu
402	**Xəyal İskəndərov.** Gənclərin iqtisadi tərbiyə və təhsili
403	**Təranə Paşayeva.** Səfərəli bəy Vəlibəyov Azərbaycan maarifçilik hərəkatinin görkəmli nümayəndəsi kimi
405	**Leyla Babayeva.** Pedaqoji tolerantlıq gələcək müəllimin mühüm mənəvi keyfiyyətlərindən biri kimi
408	**Pərihan Əhmədova.** Ağarəhim Rəhimovun tarixi romanlarında şagirdlərin mənəvi tərbiyəsinin qoyuluşu
	PANEL 15. ÜMUMİ TƏHSİLİN DİGƏR AKTUAL MƏSƏLƏLƏRİ ELMİ TƏDQİQATLARDA - 01
411	**Yusif Səfərov.** Ədəbiyyat dərslərində aktual problemlərin tədrisinə dair
413	**Əhruz Mahmudova.** Azərbaycan dili dərslərinin səmərəli təşkilində məzmun standartlarının reallaşdırılmasında uyğun təlim metodlarının seçilməsi məsələləri

415	**Ləman Məcidova.** Ümumi təhsil sistemində məsafədən təlimin tətbiqi: problemlər və inkişaf istiqamətləri
417	**Gülnar Cəfərova.** Ümumi təhsildə məsafədən (distant) təlimin bəzi aktual məsələləri
418	**Gülnar Ziyad-zadə.** Ümumi təhsildə distant təhsil və rəqəmsallaşma: Azərbaycan təcrübəsində problemlər və həll yolları
420	**Səbinə Ələsgərova.** Pedaqoji proses zamanı oyun əsaslı texnologiyaların tətbiqi təcrübəsinə konseptual baxış
422	**Nəzmiyə Qurbanlı.** Texnologiya fənninin tədrisində fənlərarası inteqrasiyanin tətbiqi təcrübəsindən
424	**Leyla Əliyeva.** Fənn müəlliminin fərdi iş təcrübəsi islahatlar konteksində
426	**Günel İbrahimova.** Təhsil prosesində idrak fəaliyyətinin və analitik düşünmə bacarıqlarının inkişafına müasir yanaşmalar
428	**Günel Keçiliyeva.** İbtidai sinif şagirdlərində tənqidi düşüncə bacarıqlarının formalaşdırılması: pedaqoji yanaşmalar
429	**Tahirə Xasməmmədova.** Ümumi təhsil sistemində xarici dilin tədrisində oxu bacarıqları üzrə monitorinq və qiymətləndirmə məsələləri (5-6-ci siniflər)
431	**Günel Abbasova.** Fənlərin tədrisinin bəzi ümumi məsələlərinə dair
433	**Turanə Atakişiyeva.** Təhsil sisteminin rəqəmsal transformasiyasının imkanları və yeni çağırışlar
436	**Aytən Kərimova.** Fizika müəlliminin fərdi təcrübəsində layihə əsaslı təlimin tətbiqi xüsusiyyətləri
	PANEL 16. ÜMUMİ TƏHSİLİN DİGƏR AKTUAL MƏSƏLƏLƏRİ ELMİ TƏDQİQATLARDA -02
438	**Natiq Axundov.** Orta ümumi təhsil məktəblərində “Texnologiya” fənninin tədrisinin aktual problemləri
440	**Etibar Musayev, Xədicə Musalı.** Onlayn tədrisin effektivliyi və şagird motivasiyası
442	**Gültəkin Ərəbova.** Süni intellekt dövründə müəllim hazırlığı: pedaqoji elmi araşdırmalar və gələcəyin kompetensiyaları
444	**Afaq Qasımova, Mədinə Abdullayeva.** Humanizm ideyalarından irəli gələnə təhsil
446	**Könül Mikayılova.** Ümümi təhsildə öyrənmə nəticələrinin qiymətləndirilməsində formativ və data əsaslı yanaşmalar
449	**Gülnarə Şahmuradova.** Rəqəmsal texnologiyaların ümumi təhsildə tətbiqi imkanları
451	**Adilə Nəzərova.** Ümumi təhsildə süni intellektin tətbiqi: imkanlar və risklər
453	**Təranə Əliyeva, Vüqar Əliyev.** Mesencerlərin tədrisdə tətbiqi
459	**Günay Hüseynova.** Süni intellektin strateji perspektivləri və müasir təhsil sistemində tətbiqi imkanları
461	**Nizami Əkbərov, Yeganə Əskərova, Nərminə Quliyeva.** Fənlərin tədrisinə yeni metodların tətbiqinin təhsilin keyfiyyətinə təsiri
463	**Ülviyyə Verdiyeva.** Müasir təhsil mühitində sosial adaptasiya problemlərinin aktual vəziyyəti
465	**Nərmin Cabbarlı.** İnteraktiv təlim metodlarının itidai siniflərdə yaradıcı təfəkkürün formalaşmasına təsiri
467	**Həmdəm Hüseynli.** Azərbaycan dilinin leksik-semantik sisteminin problemləri

AÇILIŞ MƏRASİMİ VƏ PLENAR İCLAS

ÇIXIŞLAR

ELŞƏN MƏMMƏDOV

Naxçıvan Müəllimlər İnstitutunun rektoru v.i.e.

Hörmətli konfrans iştirakçıları, dəyərli qonaqlar, hörmətli təhsil ictimaiyyəti nümayəndələri!

Sizi Naxçıvan Müəllimlər İnstitutunda keçirilən “Ümumi təhsilin aktual problemləri” mövzusunda V Respublika elmi-praktik konfransının açılışında səmimi-qəlbdən salamlayır, hər birinizə xoş gəlmisiniz deyirəm. Konfransın həm əyani, həm də onlayn formatda təşkil olunması, respublikanın müxtəlif ali təhsil və elmi müəssisələrindən nümayəndələrin, ümumtəhsil məktəblərinin gənc tədqiqatçıları və tərəfdaş qurumların burada bir araya gəlməsi tədbirin geniş miqyasından və yüksək elmi-praktik əhəmiyyətindən xəbər verir. Bu cür elmi platformalar təcrübə mübadiləsi, yeni pedaqoji yanaşmaların formalaşması və təhsil sisteminin inkişafına yönəlmiş əməkdaşlığın gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Müasir dövr təhsil qarşısında tamamilə yeni çağırışlar qoyur.

Elm və texnologiyanın sürətli inkişafı, rəqəmsal transformasiya proseslərinin dərinləşməsi, informasiya axınının artması və sosial münasibətlərdə baş verən dəyişikliklər ümumi təhsil sisteminin məzmun və mahiyyət etibarilə yenilənməsini zəruri edir. Bu gün artıq aydın şəkildə görünür ki, ənənəvi təhsil modeli müasir dövrün sürətli inkişafı ilə ayaqlaşmaqda çətinlik çəkir və bu səbəbdən daha çevik, innovativ və inteqrativ yanaşmalara ehtiyac artır.

Bu baxımdan təhsil yalnız biliklərin ötürülməsi funksiyası ilə kifayətlənə bilməz. O, eyni zamanda analitik düşünən, qərar qəbul edən, yaradıcı və innovativ bacarıqlara malik şəxsiyyətlərin formalaşdırılmasına xidmət etməlidir. Məktəb mühiti artıq öz funksional mahiyyətini genişləndirərək təkcə tədris məkanı deyil, həm də şəxsiyyətin formalaşdığı, sosial bacarıqların inkişaf etdiyi, tənqidi və yaradıcı düşüncənin təşviq olunduğu mühüm ictimai institut kimi çıxış edir. Bu reallıq təhsil sistemində innovativ yanaşmaların tətbiqini daha da aktuallaşdırır.
Eyni zamanda, bu gün təhsil sahəsində bir sıra mühüm elmi və praktik problemlər mövcuddur. Təlimin keyfiyyətinin yüksəldilməsi, kurikulumun müasir dövrün tələblərinə uyğunlaşdırılması, qiymətləndirmə mexanizmlərinin daha obyektiv və çevik əsaslar üzərində qurulması, müəllim hazırlığının gücləndirilməsi və rəqəmsal texnologiyaların tədris prosesinə səmərəli inteqrasiyası bu sahədə əsas prioritet istiqamətlərdəndir. Hazırkı dövrdə süni intellekt və rəqəmsal texnologiyalar elmi tədqiqatların və tədris prosesinin ayrılmaz hissəsinə çevrilmişdir. Lakin bu texnologiyalardan istifadə heç bir halda insan düşüncəsini, yaradıcılığını və elmi təhlil qabiliyyətini əvəz etməməlidir. Əksinə, onlar bu bacarıqları gücləndirən vasitə kimi çıxış etməlidir. Təhsil sisteminin əsas vəzifəsi texnologiyadan kor-koranə istifadə edən deyil, onun mahiyyətini anlayan və düzgün istiqamətləndirə bilən kadrların hazırlanmasıdır. Eyni zamanda, orta ümumi təhsil səviyyəsində şagirdlərin rəqəmsal savadlılıqla yanaşı, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik bacarıqlarına yiyələnməsi də xüsusi əhəmiyyət daşıyır. Çünki gələcəyin təhsil sistemi yalnız bilik ötürən deyil, həm də təhlükəsiz rəqəmsal mühitdə düzgün davranış bacarıqları formalaşdıran sistem olmalıdır.

Əziz həmkarlar, bu konfransın yüksək səviyyədə təşkil olunmasında əməyi olan hər kəsə öz dərin minnətdarlığımı bildirirəm. Xüsusilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin rəhbərliyinə — hörmətli nazir Elxan Nəcəfov başda olmaqla Nazirliyin kollektivinə, həmçinin konfransa dəstək verən və iştirak edən bütün ali və orta təhsil müəssisələrinin rəhbərlərinə, elmi-pedaqoji heyətə və iştirakçılara təşəkkürümü ifadə edirəm. Əminəm ki, bu gün burada səsləndiriləcək məruzələr, aparılacaq müzakirələr və irəli sürüləcək elmi təkliflər ümumi təhsil sisteminin inkişafına mühüm töhfə verəcəkdir. Bir daha hər birinizi salamlayır, konfransın işinə uğurlar arzulayıram.

ƏLİ VƏLİYEV

Naxçıvan Muxtar Respublikasının təhsil nazirinin müavini

Hörmətli konfrans iştirakçıları, dəyərli elm və təhsil nümayəndələri, sizi başda Naxçıvan Muxtar Respublikasının təhsil naziri cənab Elxan Nəcəfovun adından, şəxsən öz adımdan Naxçıvan Müəllimlər İnstitutunda keçirilən "Ümumi təhsilin aktual problemləri" mövzusunda V Respublika elmi-praktik konfransında səmimi-qəlbdən salamlayır, hər birinizə uğurlar arzulayıram. Bu gün keçirilən konfransın həm əyani, həm də onlayn formatda təşkili müxtəlif ali və orta təhsil müəssisələrinin nümayəndələrini, ümumtəhsil məktəblərinin gənc tədqiqatçılarını, eləcə də tərəfdaş qurumların təmsilçilərini bir araya gətirərək geniş elmi müzakirə mühitinin formalaşmasına şərait yaradır. Bu isə öz növbəsində tədbirin elmi-praktik əhəmiyyətini və aktuallığını daha da artırır. Belə konfranslar təhsil sistemində mövcud problemlərin müzakirəsi, yeni pedaqoji yanaşmaların təqdim olunması və elmi nəticələrin paylaşılması baxımından xüsusi əhəmiyyət daşıyır. Xüsusilə müasir dövrdə təhsil qarşısında duran çağırışlar fonunda bu cür platformalar fikir mübadiləsi üçün vacib elmi mühit rolunu oynayır.

Bu konfransın əsas dəyərli istiqamətlərindən biri aparılan elmi tədqiqatların real təhsil mühitinə, xüsusilə ümumtəhsil məktəblərinə inteqrasiyası məsələsidir. Hesab edirəm ki, elmi araşdırmaların məktəb praktikasında tətbiqi ümumi təhsilin keyfiyyətinin yüksəldilməsinə, tədris prosesinin daha səmərəli və müasir tələblərə uyğun təşkilinə mühüm töhfə verir. Elmi nəticələrin yalnız nəzəri müstəvidə qalması deyil, birbaşa tədris prosesinə tətbiq olunması təhsil sisteminin inkişafı üçün əsas şərtlərdən biridir.

Eyni zamanda, müəllimlərin tədqiqat prosesinə daha fəal cəlb olunması xüsusi əhəmiyyət kəsb edir. Müəllim yalnız bilik ötürən deyil, həm də araşdıran, təhlil edən və pedaqoji innovasiyalar yaradan biri kimi formalaşmalıdır. Bu yanaşma təhsil prosesini daha dinamik, yaradıcı və nəticəyönümlü edir. Müəllimlərin tədqiqat bacarıqlarının inkişafı həm onların peşəkar səviyyəsini yüksəldir, həm də ümumilikdə məktəb mühitinin elmi əsaslar üzərində qurulmasına şərait yaradır. Bildiyimiz kimi, müasir dövrdə təhsil sistemi sürətlə dəyişən qlobal proseslərin təsiri altındadır. Rəqəmsal transformasiya, innovativ texnologiyaların geniş tətbiqi və süni intellektin təhsilə inteqrasiyası yeni yanaşmaların formalaşdırılmasını zəruri edir. Bu baxımdan elmi konfranslarda irəli sürülən fikirlər və təqdim olunan tədqiqat nəticələri təhsil sisteminin inkişaf strategiyasında mühüm yer tutur.

Mən hesab edirəm ki, elmi-pedaqoji müzakirələrin nəticələrinin ümumtəhsil məktəblərində tətbiqi gələcək nəsillərin daha keyfiyyətli, daha yaradıcı və daha analitik düşüncəyə malik şəkildə formalaşmasına imkan yaradacaqdır. Bu isə ölkəmizin təhsil siyasətinin əsas məqsədlərinə xidmət edir.

Sonda bir daha konfransın təşkilində əməyi olan hər kəsə təşəkkür edir, bütün iştirakçılara uğurlar arzulayıram. Əminəm ki, bu konfransda səsləndirilən fikirlər və təqdim olunan elmi nəticələr ümumi təhsilin inkişafına mühüm töhfə verəcəkdir.

QURBAN QURBANLI
Naxçıvan Müəllimlər İnstitutunun elm və innovasiya məsələləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent

Hörmətli qonaqlar, elm və təhsil təşkilatşıları, pedaqoqlar, tədqiqatçılar və müəllimlər!
Hörmətli konfrans iştirakçıları!

Mən də öz növbəmdə **Təşkilat Komitəsi adından** sizləri ***V Respublika Elmi-Praktik Konfransında*** – **“Ümumi təhsilin aktual elmi problemləri”** mövzusuna həsr olunmuş bu ənənəvi elmi tədbirdə salamlayır, bugünkü birgə işimizə uğurlar diləyimi bildirir və bəzi fikirlərimi sizinlə bölüşmək istəyirəm.

İlk növbədə qeyd etmək istərdim ki, bu gün burada ölkəmizin müxtəlif elm və təhsil müəssisələrini təmsil edən alimlərin, tədqiqatçıların, pedaqoqların, təhsil təşkilatçılarının və mütəxəssislərin bir araya gəlməsi Azərbaycan təhsilinin inkişafına göstərilən diqqətin, elmə və müəllim əməyinə verilən yüksək dəyərin bariz ifadəsidir.

Hörmətli konfrans iştirakçıları!

Məlumdur ki, Azərbaycan dövlətinin inkişaf strategiyasında təhsil həmişə xüsusi yer tutmuşdur. Ümummilli lider Heydər Əliyev təhsili ***millətin gələcəyini müəyyən edən əsas qüvvə kimi*** qiymətləndirərək bildirirdi: **“Təhsil millətin gələcəyidir.”** Bu fikir bu gün də Azərbaycan təhsil siyasətinin ***əsas ideoloji istiqamətlərindən biri*** olaraq öz aktuallığını qoruyur.

Məhz Heydər Əliyev ideyalarına əsaslanan dövlətçilik fəlsəfəsi milli-mənəvi dəyərlərə bağlı, yüksək dünyagörüşünə malik, rəqabətqabiliyyətli və vətənpərvər gənclərin yetişdirilməsini ***strateji vəzifə kimi müəyyən etmişdir***. Bu siyasi kurs bu gün ***Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev*** tərəfindən uğurla davam etdirilir, ölkəmizdə təhsil sahəsində genişmiqyaslı islahatlar həyata keçirilir, innovativ yanaşmalar tətbiq olunur və insan kapitalının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilir.

Əziz həmkarlar!

Bugünkü konfrans öz miqyasına və elmi potensialına görə xüsusi əhəmiyyət daşıyır. Hibrid formatda təşkil olunan tədbirdə ölkənin müxtəlif bölgələrindən 20-dən artıq ali təhsil və elmi müəssisənin nümayəndələri iştirak edir. **Konfransa ümumilikdə 200 məruzə və elmi material** təqdim olunmuşdur.

Konfrans çərçivəsində fəaliyyət göstərəcək **16 panel üzrə müzakirələr** ümumi təhsilin aktual elmi problemlərini və inkişaf istiqamətlərini əhatə edir. Bu panellərdə ümumi təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri, təlimin keyfiyyəti, müasir pedaqoji yanaşmalar, rəqəmsal transformasiya, süni intellektin ümumi təhsildə tətbiqi, inklüziv təhsil, məktəb idarəçiliyi, qiymətləndirmə mexanizmləri, fənlərarası inteqrasiya və digər mühüm məsələlər geniş elmi müstəvidə müzakirə olunacaqdır.

Bu ənənəvi respublika elmi-praktik konfransına ev sahibliyi edən Naxçıvan Müəllimlər İnstitutuna tərəfdaş olan əsas qurumlar – **Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Təhsil İnstitutuna** belə əhatəli və mühüm elmi platformanın təşkilində fəal iştiraklarına görə Təşkilat Komitəsi adından təşəkkürümüzü bildiririk.

Statistik və təmsilçilik göstəriciləri konfransın yüksək elmi nüfuzunu və geniş əhatə dairəsini aydın şəkildə nümayiş etdirir. Tədbirdə ən çox təmsil olunan qurumlar sırasında Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və digər ali təhsil və elmi müəssisələr yer alır.

Adları qeyd olunan və olunmayan bütün ali təhsil müəssisələrinin, elmi qurumların rəhbərlərinə, təşkilati dəstək göstərən aidiyyəti şəxslərə, eləcə də konfransın elmi-təşkilati işində fəal iştirak edən bütün tərəfdaşlara Təşkilat Komitəsi adından səmimi minnətdarlığımızı bildiririk. İnanırıq ki, bu cür ***elmi əməkdaşlıq və akademik həmrəylik*** ümumi təhsil sahəsində aparılan tədqiqatların daha da inkişafına və elmi əlaqələrin genişlənməsinə mühüm töhfə verəcəkdir.

Yeri gəlmişkən bir məsələni də qeyd etmək istərdik ki, Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərində müəllimlərin ***sertifikatlaşdırılması prosesinin birinci, test mərhələsinin uğurla başa çatması t***əhsil sistemində aparılan islahatların mühüm nəticələrindən biri kimi qiymətləndirilə bilər. Bu prosesin təşkilinə tam ciddiyyətlə və böyük məharətlə rəhbərlik etmiş Naxçıvan ***Muxtar Respublikası Təhsil Nazirliyinin rəhbərliyini, başda hörmətli nazir Elxav Nəcəfov olmaqla bütün kollektivini***, bu prosesin birinci mərhələsində ***uğur qazanmış müəllimləri təbrik edir***, onlara gələcək fəaliyyətlərində yeni nailiyyətlər arzulayırıq.

Hörmətli konfrans iştirakçıları!

Müasir dünya sürətlə dəyişir. Süni intellekt, rəqəmsal texnologiyalar və qlobal transformasiyalar təhsil qarşısında yeni çağırışlar müəyyən edir. ***Bu gün məktəbin əsas vəzifəsi yalnız bilik ötürmək deyil, düşünən, araşdıran, yaradıcı, milli kimliyini qoruyan və gələcəyin çağırışlarına hazır olan şəxsiyyət formalaşdırmaqdır.***

Bu baxımdan ümumi təhsilin problemlərinə elmi yanaşma artıq zamanın, ***necə deyərlər, vazkeşilməz*** tələbidir. ***Biz gələcəyin məktəbini yalnız texnologiyalar üzərində deyil, milli dəyərlər, humanizm, elm və müəllim nüfuzu üzərində qurmalıyıq.***

Bu konfrans sadəcə elmi məruzələrin təqdim olunduğu platforma deyil. Bu tədbir ***Azərbaycan təhsilinin gələcəyini düşünən insanların ortaq intellektual məkanıdır. Elmə əsaslanan təhsil modeli Azərbaycanın gələcək inkişafının əsas təminatıdır.*** Burada səslənəcək hər bir elmi fikirin, hər bir innovativ təklifin və hər bir əsaslandırılmış yanaşmanın, gələcəyin daha güclü Azərbaycan məktəbinin formalaşmasına xidmət edəcəyinə əminliyimizi ifadə etmək istərdik.

Sonda Təşkilat Komitəsi adından bir daha konfransın işinə uğurlar arzulayır, bütün iştirakçılara məhsuldar panel müzakirələri, faydalı elmi əməkdaşlıqlar və uğurlu nəticələr diləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm!

MƏRUZƏ

İLHAM CAVADOV
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Direktor müavini
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0009-0004-8522-320X
i.cavadov@arti.edu.az

AZƏRBAYCANDA İLKİN MÜƏLLİM HAZIRLIĞI: NAİLİYYƏTLƏR, PERSPEKTİVLƏR

Tezisdə təhsildə keyfiyyətin təmin olunması istiqamətində dünyada və Azərbaycanda həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlardan bəhs edilir. Eyni zamanda beynəlxalq tədqiqatlara əsalanaraq bildirilir ki, təhsildə keyfiyyətə daha çox maliyyə vəsaiti ayrmaqla nail olmaq mümkün deyil, təhsildə keyfiyyətə nail olmaq üçün yalnız mövcud resurslardan səmərəli və məqsədyönlü istifadə olunmalıdır. Həmçinin, ölkəmizdə də təhsilin keyfiyyətinin artırılması baxımından ilkin müəllim hazırlığına qəbul prosesinin və ilkin müəllim hazırlığının məzmununun dünya ölkələrinin mütərəqqi təcrübəsi əsasında təşkili vacib hesab olunur.

Açar sözlər: *təhsilin məzmunu, təhsilin keyfiyyəti, ilkin müəllim hazırlığı, pedaqoji təcrübə*

Müasir dünyanın demək olar ki, hər bir ölkəsində təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilir. Bu islahatlara təhsilin məzmununun səriştəəsaslı yanaşma əsasında yenilənməsi, əmək bazarının dəyişən tələbləri fonunda pedaqoji kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, müasir çağırışlara cavab verən təhsil infrastrukturunun formalaşdırılması və s. aid edilir.

Dünya Bankı, UNESCO və McKinsey & Company-nin hesabatlarına əsasən, dünya ölkələri tərəfindən təhsilə yönəldilən ümumi maliyyə vəsaiti 2006-cı ildə təxminən 2 trilyon ABŞ dolları, 2021-ci ildə 5,7 trilyon ABŞ dolları, 2022-ci ildə isə 5,8 trilyon ABŞ dolları səviyyəsində olmuşdur. Bununla yanaşı, əvvəlki ilə nisbətən (2023) 2024-cü ildən təhsil xərclərində təqribən 12% azalma müşahidə edilmiş, 2027-ci ilə qədər isə əlavə 14% azalma proqnozlaşdırılır ki, bu da qlobal təhsil sistemlərinin maliyyələşdirilməsində yeni çağırışların meydana çıxmasını şərtləndirir. Gələcəkdə (2030+) milli təhsil sistemlərinin inkişafına ayrılan maliyyə vəsaitinin həcminin artaraq 10-11 trilyon ABŞ dolları səviyyəsinə çatması proqnozlaşdırılır ki, bu da təhsil sistemlərinin maliyyələşdirilməsində yeni yanaşmaların tətbiqini, resursların daha səmərəli idarə olunmasını və təhsil islahatlarının sürətlənməsini zəruri edir.

Azərbaycanda isə dövlət büdcəsindən və elm sahəsinə ayrılan maliyyə vəsaitinin həcmi hər il dinamik şəkildə artmaqdadır. Belə ki, son üç ilə nəzər saldıqda görürük ki, ölkəmizdə təhsil və elm sahəsinə ayrılan dövlət vəsaiti 2024-cü ildə təxminən 4,55 milyard manat, 2025-ci ildə 4,95 milyard manat, 2026-cı ildə isə 5,2 milyard manat təşkil etmişdir. Ölkə başçısı cənab İlham Əliyevin elm və təhsilə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Dünya ölkələri içərisində Amerika Birləşmiş Ştatları və Çin Xalq Respublikası təhsil və elm sahəsinə ən çox maliyyə vəsaiti ayıran aparıcı dövlətlər sırasındadır. Lakin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən aparılan tədqiqatlar göstərir ki, bir sıra ölkələr (27 ölkə) Sinqapur ilə müqayisədə ümumi təhsilə daha çox maliyyə vəsaiti ayırmasına baxmayaraq, PISA qiymətləndirməsində Sinqapur şagird nailiyyətləri üzrə daha yüksək göstəricilərə malikdir. Buradan da göründüyü kimi, daha çox maliyyə vəsaitinin ayrmaqla təhsildə keyfiyyətə nail olmaq mümkün deyil, təhsildə keyfiyyətə nail olmaq üçün mövcud resursların səmərəli və məqsədyönlü idarə olunması mühüm şərtdir.

Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən 2024-cü ildə “Ali təhsil müəssisələrində müəllim hazırlığının təşkili vəziyyətinin araşdırılması” mövzusunda aparılmış tədqiqat çərçivəsində 3 istiqamətdə iş aparılmışdır:

- beynəlxalq təcrübə öyrənilmidir. Bu zaman dünyanın 3 inkişaf etmiş (Yaponiya, Sinqapur, Finlandiya) və 3 inkişaf etməkdə olan (Türkiyə, Estoniya, Qazaxıstan) ölkəsinin təcrübəsi araşdırılmışdır;

- respublikanın 9 ali təhsil müəssisəsində (Azərbaycan Dövlər Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Lənkəran Dövlət Universiteti, Gənc Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Dövlət Unuiversiteti, Sumqayıt Dövlət Universiteti) hüquqi-normativ və pedaqoji sənədlər təhlil edilmişdir;

- təhsil sənədləri araşdırılan ali təhsil müəssisəsində təhsil alan 1922 nəfər tələbə ilə sorğu keçirilmişdir.

Araşdırmalar nəticəsində müəyyənləşdirilmişdir ki, Yaponiya, Sinqapur və Finlandiya kimi ölkələrdə pedaqoji ixtisaslara qəbul çoxmərhələli formada həyata keçirilir. Abituriyentlər qəbul imtahanından uğurla keçdikdən sonra, universitetlər tərəfindən hazırlanmış xüsusi metodikalar əsasında (müsahibələr, situasiya tapşırıqları, praktiki fəaliyyətlər və psixoloji qiymətləndirmə alətləri vasitəsilə) onların pedaqoji qabiliyyətləri, kommunikativ bacarıqları, motivasiyası və şəxsi keyfiyyətləri kompleks şəkildə qiymətləndirilir.

Sonda, yalnız akademik göstəriciləri yüksək olan deyil, eyni zamanda pedaqoji fəaliyyət üçün zəruri olan peşəkar və şəxsi keyfiyyətlərə malik abituriyentlər seçilərək pedaqoji ixtisaslara qəbul olunurlar. Fikrimizcə, gələcəkdə bu yanaşmanın ölkəmizdə də tətbiqi daha keyfiyyətli müəllim kadrlarının hazırlanmasına zəmin yarada bilər.

Son illərdə bu istiqamətdə ölkəmizdədə təqdirəlayiq islahatlar aparılmaqdadır. Buna misal olaraq, pedaqoji ixtisaslara yüksə balla qəbul olmuş tələbələrə xüsusi təqaüdlərin təsis edilməsini qeyd etmək olar.

Beynəlxalq təcrübənin təhlili göstərir ki, pedaqoji təhsilin müddətində də ölkələr üzrə müəyyən oxşar və fərqli yanaşmalar mövcuddur. Türkiyə, Qazaxıstan, Estoniya, Sinqapur və Yaponiya kimi ölkələrdə bakalavriat səviyyəsində pedaqoji təhsilin müddəti Azərbaycan modelinə uyğun olaraq əsasən 4 il təşkil edir. Amma Finlandiya təcrübəsində daha diferensial yanaşma müşahidə olunur. Belə ki, Finlandiyada ibtidai təhsil müəllimliyi ixtisası üzrə təhsil müddəti 4 il, fənn müəllimliyi istiqaməti üzrə isə 5 il nəzərdə tutulur. Fikrimizcə bu yanaşma da müəllim peşəsinin yüksək akademik və peşəkar statusunun təmin olunmasına xidmət edir.

Araşdırmalar göstərir ki, tədqiqata cəlb olunan ölkələrin müəllim hazırlığı sistemində pedaqoji təcrübəyə xüsusi əhəmiyyət verilir. Belə ki, pedaqoji təcrübəyə Türkiyədə 42 həftə, Yaponiyada 30 həftə, Estoniyada 24 həftə, Sinqapur və Qazaxıstanda isə 22 həftə vaxt ayrılır və bu proses mərhələli şəkildə I-IV kurs müddətini əhatə edir. Azərbaycanda isə pedaqoji təcrübəyə 18 həftə vaxt ayrılır və bu proses əsasən IV kursun ikinci semestri ərzində təşkil olunur.

Fikrimizcə, Azərbaycanda ilkin müəllim hazırlığı səviyyəsində tələbələrin müəllimlik peşəsinə dair bilik və bacarıqlarının sistemli şəkildə inkişaf etdirilməsi, həm pedaqoji kollektiv və valideynlərlə səmərəli ünsiyyət bacarıqlarının formalaşdırılması, həm də məktəb sənədləşməsi ilə praktiki tanışlığın təmin olunması məqsədilə pedaqoji təcrübənin mərhələli şəkildə I-IV kursları əhatə etməklə müddətinin artırılması məqsədəuyğun hesab olunur.

McKinsey & Company tərəfindən aparılmış "Dünyanın ən yüksək nəticə göstərən məktəb sistemləri necə lider mövqeyə yüksəlir" ("How the World's Best-Performing School Systems Come Out on Top") adlı tədqiqatın nəticələri göstərir ki, ölkələrin təhsil sistemlərinin PISA qiymətləndirməsində yüksək nəticələr əldə etməsinin əsasını ilkin müəllim hazırlığına qəbul prosesinin mərhələli şəkildə təşkili, eləcə də universitetlərdə müəllim hazırlığının məzmununun praktikyönlü, səriştəəsaslı və davamlı peşəkar inkişaf prinsipləri əsasında qurulması təşkil edir.

Ölkəmizdə də təhsilin keyfiyyətinin artırılması baxımından ilkin müəllim hazırlığına qəbul prosesinin və ilkin müəllim hazırlığının məzmununun dünya ölkələrinin mütərəqqi təcrübəsi əsasında təşkili məqsədəuyğun hesab olunur.

Çünki Təhsil İnstitutu tərəfindən aparılmış tədqiqatda tələbələrə "Pedaqoji ixtisas üzrə təhsil almağınızın səbəbi nədir?" sualı ilə müraciət olunmuşdur. Sorğuda iştirak edən tələbələrin 32,57%-i gələcəkdə müəllim olmaq arzusu ilə, 25,55%-i dövlət statuslu universitetdə təhsil almağa görə, 20,49%-i ailə üzvlərinin tövsiyəsi əsasında, 20,24%-i imtahan balına uyğun təsadüfi seçim

nəticəsində, 1,15%-i isə müxtəlif digər səbəblərə görə pedaqoji ixtisas üzrə təhsil aldıqlarını bildirmişdir.

Buradan da göründüyü kimi, təsadüfən, ailə və ya yaxınların tövsiyəsi əsasında pedaqoji ixtisası seçən tələbələrin təhsili başa vurduqdan sonra bu sahə üzrə işləmək istəməməsi müşahidə olunan əsas amillərdən biridir. Bu hal 4 illik təhsil müddətinin bəzi hallarda yalnız formal xarakter daşıdığını, yəni əsas məqsədin peşəkar hazırlıqdan daha çox diplom əldə etməyə yönəldiyini göstərir.

Eyni zamanda, beynəlxalq təcürbənin təhlilində qarşılaşılan diğər mühüm məqam Finlandiya modelində müəllim hazırlığında magistr təhsili icbari xarakter daşıyır.

Ölkəmizdə isə subbakalvr, bakalavr və magist təhsilli şəxslər ümumtəhsil müəssiələrində pedaqoji fəaliyyətlə məşğul ola bilirlər. Lakin müşahidələr göstərir ki, ölkəmizdə pedaqoji ixtisaslar üzrə magistraturaya qəbul imtahanının formatının yenilənməsi zəruridir. Mövcud yanaşmaya görə iddiaçılar magistraturaya qəbul imtahanında xarici dil, məntiq və informatika fənlərindən sınağa çəkilirlər. Bu zaman qeyri-ixtisas sahələri üzrə bakalavr təhsili almış məzunlar yüksək nəticə göstərərək pedaqoji ixtisaslara magistraturaya qəbul olurlar. Bakalavr təhsili müddətində müvafiq ixtisas sahəsi üzrə baza biliklərinə yiyələnmədiklərindən, onların ixtisas biliklərinin yetərsizliyi səbəbindən təhsil prosesində ciddi çətinliklərlə üzləşirlər. Nəticədə, onların kifayət qədər peşəkar və keyfiyyətli pedaqoji kadr kimi yetişməsi təmin olunmur.

Belə halların qarşısının alınması üçün magistratura səviyyəsinə qəbul imtahanına qeyd olunan fənlərlə yanaşı pedaqoji-metodik fənn blokunun da daxil edilməsi qəbul prosesinin məzmun etibarilə zənginləşdirilməsinə və namizədlərin peşəkar hazırlıq səviyyəsinin daha obyektiv qiymətləndirilməsinə şərait yaradar.

PANEL 1. ÜMUMİ TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ-01

İNTİQAM CƏBRAYILOV
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika elmləri doktoru, professor
intiqamcebrayilov@arti.edu.az
https://orcid.org/0000-0003-2437-5926

RƏQƏMSAL TRANSFORMASİYA DÖVRÜNDƏ ŞAGİRDLƏRİN FUNKSİONAL SAVADLILIĞININ İNKİŞAFI: PROBLEMLƏR VƏ HƏLL YOLLARI

Tezisdə müasir dövrdə şagirdlərin funksional savadlılığının inkişafının aktual məsələləri tədqiq edilir. İlk növbədə, rəqəmsal dövrdə yeni savadlılıq növləri olan informasiya, media və İKT savadlılığı anlayışlarının formalaşmasının zəruri tələbata çevrilməsi diqqətə çatıdırılır. Qeyd olunur ki, rəqəmsal transformasiya dövründə şagirdlərin informasiyaya sürətlə çatması əslində təqdirəlayiqdir. Lakin onu dərindən dərk etməkdə çətinlik çəkmələri müəyyən problemlər yaradır. Bu baxımdan müəllimlərin zəruri bacarıqlarının inkişaf etdirilməsi vacibdir. Bu gün müəllimlərin humanitar təhsildə rəqəmsal alətlərdən şagirdin tənqidi təfəkkürünü və yaradıcı potensialını üzə çıxaran strateji bir resurs kimi istifadə qaydalarını da mənimsəməsi bacarıqlarına yiyələnməsi mühüm bir problem kimi diqqəti cəlb edir. Tezisdə bu məsələlər aydınlıq gətirilmişdir.

Açar sözlər: *təhsil, rəqəmsal transformasiya dövrü, şagirdlərin funksional savadlılığı, humanitar fənlərin tədrisi, müəllim, ümumtəhsil məktəbi, bacarıq, texnologiya, informasiya, tədqiqatçılıq, bilik*

Müasir dövrdə təhsilin qarşısında duran fundamental sual artıq şagirdə nəyi öyrətmək deyil, öyrənilən biliklərin rəqəmsal ekosistemdə necə tətbiq olunmasıdır. Rəqəmsal transformasiya təkcə sinif otaqlarına texnologiyanın gəlməsi demək deyil, həm də düşüncə tərzinin dəyişməsidir. Bu prosesdə funksional savadlılıq, yəni şagirdin oxuduğu mətni analiz etmək, rəqəmsal məlumatlar arasındakı məntiqi əlaqəni tapmaq və real həyat problemlərini həll etmək bacarığı (həyati bacarıqlar) təhsilin əsas keyfiyyət göstəricisinə çevrilmişdir. Buraya qeyri-standart vəziyyətlərdə hərəkət etməyə kömək edən yaradıcı düşüncə və qlobal səriştələr də daxildir.

Daha konkret ifadə etsək, funksional savadlılıq anlayışı şagirdin məktəbdə aldığı bilikləri real həyatda, xüsusilə rəqəmsal mühitdə tətbiq etmək bacarığı kimi izah edilə bilər.

Rəqəmsal dövrdə yeni savadlılıq növləri: informasiya, media və İKT savadlılığı anlayışları da formalaşmış və zəruri tələbata çevrilmişdir. Rəqəmsal dövrdə funksional savadlılıq həm də humanitar fənlərin tədrisi səmərəliliyinin artırmaq üçün də olduqca vacibdir. Lakin mövcud təcrübə göstərir ki, humanitar fənlərin tədrisində biz tez-tez "rəqəmsal səthilik" problemi ilə qarşılaşırıq. Məsələn, şagirdlərin informasiyaya sürətlə çatması əslində təqdirəlayiq olduğu halda, onu dərindən dərk etməkdə çətinlik çəkmələri müəyyən problemlər yaradır. Ona görə də müəllimlər rəqəmsal alətlərin humanitar təhsildə sadəcə bir köməkçi vasitə deyil, eyni zamanda şagirdin tənqidi təfəkkürünü və yaradıcı potensialını üzə çıxaran strateji bir resurs kimi necə istifadə olunması qaydalarını da mənimsəməsi, problemləri həll etmək bacarıqlarına yiyələnməsi vacibdir. Bizim məqsədimiz texnologiyanın kölgəsində qalan deyil, texnologiyanı idarə edən, savadlı və rəqabətədavamlı vətəndaş yetişdirməkdir.

Elmi araşdırmalar və təcrübə göstərir ki, şagirdlərin funksional savadlılığının artırılmasında aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir:

1. İnformasiyadan biliyə keçid. Rəqəmsal dövrdə məlumat əlçatandır, lakin həmin məlumatı məna kəsb edən biliyə çevirmək funksional savadlılığın nüvəsidir. Ona görə də bu məsələyə xüsusi önəm verilir.

2. Humanitar fənlərin rəqəmsal laboratoriyası. Tarix və ədəbiyyat dərsləri sadəcə faktların yadda saxlanılması deyil, rəqəmsal arxivlər və simulyasiyalar vasitəsilə analitik təhlil laboratoriyasına çevrilməsi mühüm şərtlərdən biridir.
3. Süni intellektlə rəqabət deyil, əməkdaşlıq. Şagirdlərə süni intellektdən hazır cavab almağı deyil, ona düzgün sual verməyi (prompt engineering) və alınan cavabı tənqidi süzgəcdən keçirməyi öyrətmək müəllimin başlıca vəzifələri sırasında yer alır.

Təcrübə və araşdırmalar göstərir ki, şagirdlərin funksional savadlılığını artırmaq üçün aşağıda qeyd edilən məsələlərə daha ciddi diqqət yetirilməsi məqsədəuyğun olardı:

1. Fənlərarası rəqəmsal inteqrasiya. Rəqəmsal alətlərin təkcə təbiət-riyaziyyat fənlərinin deyil, humanitar fənlərin də tədrisində tətbiqi çox vacibdir. Müasir dövrdə humanitar fənlərin tədrisində rəqəmsal alətlərin (məsələn, tarixi xəritələrin rəqəmsal analizi və ya ədəbi mətnlərin vizuallaşdırılması) tətbiqi mümkünlüyünü nəzərə alaraq onun kurikulumun ayrılmaz hissəsinə çevrilməsi diqqət mərkəzində olmalıdır.
2. Qiymətləndirmə sisteminin yenilənməsi. Şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsində müasir yanaşmalara üstünlük verilməsi onların funksional savadlılığının artırılmasına ciddi təsir göstərir. Ona görə də şagirdlərin yaddaşını deyil, onların rəqəmsal mühitdə məlumatı tapma, analizetmə və tətbiqetmə bacarıqlarını ölçən situativ testlərə (PISA tipli tapşırıqlara) üstünlük verilməsi vacibdir.
3. Müəllimlərin rəqəmsal mentorluğu. Şagirdlərin funksional savadlılığının artırılması ilk növbədə, müəllimin səriştəliliyi ilə bilavasitə bağlıdır. Ona görə də müəllimlər üçün yalnız İKT kursları deyil, eyni zamanda "humanitar fənlərdə rəqəmsal pedagogika" mövzusunda praktik treninqlər, təlimlərin təşkil edilməsi mühüm tələblərdən biri kimi nəzərə alına bilər.
4. “Açıq mənbə” tədqiqatları. Bu gün ümumtəhsil məktəblərində şagirdlərdə tədqiqatçılıq bacarıqlarının formalaşdırılması da mühüm tələblərdən biridir. Ona görə də şagirdlərin funksional savadlılığını artırmaq üçün onlara sərbəst iş kimi hazır referatlar deyil, bir neçə rəqəmsal mənbəni müqayisə edən kiçik elmi tədqiqat layihələrini də vermək səmərəli nəticələrin əldə olunmasına imkanlar yaradardı.

Yekun olaraq qeyd etmək istərdik ki, rəqəmsal transformasiya təhsildə bir seçim deyil, qaçılmaz bir reallıqdır. Lakin texnologiya öz-özlüyündə şagirdə savad vermir. O, sadəcə bir alətdir. Bizim əsas vəzifəmiz bu alətdən istifadə edərək şagirdlərimizdə “rəqəmsal hikmət”, yaradıcı düşüncə formalaşdırmaqdır. Humanitar fənlərin tədrisi vasitəsilə biz onlara yalnız texnologiyadan istifadəni deyil, eyni zamanda həmin texnologiyanın təqdim etdiyi informasiya selində öz kimliyini, məntiqini və tənqidi baxışını qorumağı öyrədir, şagirdi şəxsiyyət kimi formalaşdırmaq imkanlarımızı genişləndiririk.

Məhz bu məqsədyönlü işlərin nəticəsi olaraq funksional savadlı şagird gələcəyin sadəcə istifadəçisi deyil, onun yaradıcısı kimi formalaşır və inkişaf edir.

RAMİZ QASIMOV
Naxçıvan Müəllimlər İnstitutu
AMEA Naxçıvan Bölməsi
Filologiya elmləri doktoru, dosent
ramizqasimli44@gmail.com
https://orcid.org/0000-0001-9905-4348

AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLUNUN TƏLİM-TƏDRİS PROSESİNDƏ ÖYRƏDİLMƏSİ MƏSƏLƏLƏRİ

Tədqiqatda ümumi və orta təhsil pilləsində tədris zamanı azərbaycançılığın təlim-tədrisinin metodoloji məsələlərindən bəhs edilmişdir. Göstərilmişdir ki, dövlə\t müstəqilliyinin bərpasından sonra azərbaycançılıq məfkurəsi dövlətçilik ideologiyası olaraq yer almışdır. Yeni insan və şəxsiyyət tərbiyəsində azərbaycançılığın təlim edilməsi və bu zaman Ulu Öndər Heydər Əliyevin ideya və fikirlərinin milli məfkurənin məzmunu olaraq mənimsədilməlisi diqqətdə saxlanılmalıdır.

Açar sözlər: *Azərbaycançılıq məfkurəsi, milli ideologiya, Heydər Əliyev, şəxsiyyət tərbiyəsi, təlim*

Qəti və yekdil bir nəticədir ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının milli ideologiyasının, Azərbaycançılıq məfkurəsinin müəllifi və banisidir. Tamamilə haqlı yanaşmadır ki: "Azərbaycançılıq anlayışı milli siyasi müstəvidə özünün ən yüksək ifadəsini Ümummilli Liderimiz Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti sayəsində tapa bilmişdir. Məhz görkəmli dövlət xadimi Heydər Əliyev çoxəsrlik tariximizdə ilk dəfə olaraq Azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin ideologiyası səviyyəsində çatdırmağa nail olmuşdur". Məhz bu baxımdan orta və ali təhsil prosesində Azərbaycançılığın milli məfkurə, ideologiya kimi bitkinləşməsi və formalaşması məsələsi tədris edilərkən məhz Ümummilli Lider Heydər Əliyevin xidmətləri onun konkret fəaliyyəti, müdrik fikirləri və əldə olunan nəticələr çərçivəsində öyrədilməlidir.

Təlim-tədris prosesində formalaşmaqda olan yeni çağdaş Azərbaycan gənclərinə öyrədilməlidir ki, milli idolologiya kimi formalaşmış Azərbaycançılığın müddəa və tezislərinin müəllifi məhz Ulu Öndər Heydər Əliyevdir. Onun müdrik və uzaqgörən fikirləri bu ideyanın əsas məğzi, mənası və müddəalarını təşkil edir. Bunun üçün tədris prosesində həm vacib fakt baxımdan, həm də sintaktik təhlil, müxtəlif mövzuların tədrisi ilə əlaqədar örnək, müxtəlif ədəbi əsərlərin təhlili, xüsusilə icmal xarakterli mövzuların öyrədilməsi prosesində istifadə etmək olar. Həm tələbələrin, həm də şagirdlərin mənəvi-əxlaqi tərbiyəsində, öyrənənlərin şəxsiyyətində milli və vətəndaşlıq keyfiyyətlərinin formalaşmasında müdrik lider Heydər Əliyevin həyatı, fəaliyyəti və fikirləri nümunə olaraq mənimsədilməlidir. Əbədiyaşar Liderin: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz ən əsası Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənlərini yaşatmalıyıq" kimi dahiyanə fikri yeni nəsillərin əxlaqi-mənəvi və ideoloji tərbiyəsi baxımdan mühüm mənbə təşkil edir. Dahi Liderin: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" fikirləri Azərbaycançılığın andı, vətəni və milli kimliyi sevmə baxımındantəlqin edilmək üçün örnəkdir. Müdrik və uzaqgörən rəhbərin: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" – müdrik kəlamı Azərbaycançılıq ideologiyasının məzmunu, məğzi, miqyası, parametrləri və atributları, azərbaycanlı və azərbaycançı vətəndaşın vəzifələri, məqsədi, ideyasınının müfəssəl, proqram xarakterli manifesti səciyyəsini daşıyır.

Təlim-tədris prosesində şəxsiyyətin milli keyfiyyətinin formalaşması nümunəsində Heydər Əliyev şəxsiyyəti əsl örnək təşkil edi. Dahi Liderin şəxsiyyəti xalqımızın ümummilli məsələlərinin təcəssüm və hərəkət xəritəsidir. Ümummilli Liderimiz öz şəxsiyyəti ilə vətənçilik, vətəndaşlıq, azərbaycanlılıq və Azərbaycançılıq kimi vacib ümummilli xarakterin ideal daşıyıcısıdır. Onun

vətəndaşlıq nümunəsi böyük təlim-tərbiyə mənbəyidir. Təsadüfi deyilmir ki, Heydər Əliyev ən ideal vətəndaş, bütün zamanların ən böyük azərbaycanlısı və Azərbaycançısıdır. Dahi rəhbər Heydər Əliyev həm də öz uzaqgörənliyi və müdrikliyi ilə dünya azərbaycanlılarının həmrəylik ideyasının müəllifi və onun lideridir. “Azərbaycançılığın milli ideologiya kimi bitkinləşməsi və formalaşmasının müəllifi, banisi məhz ümummilli lider Heydər Əliyevdir”.

Ümummilli Liderimiz Heydər Əliyev öz dərin, yığcam ibarəsi ilə: “Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır” - deyərək azərbaycanlılığın və Azərbaycançılığın məğzini ifadə etmişdir. Dahi Lider azərbaycanlılığın qarşısında ən böyük vəzifə və məqsədi müstəqillik, azadlıq və bütövlük üzərinə müəyyənləşdirmişdir: “Hər bir vətənpərvər adam millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir. Torpağımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur”. Azərbaycan bir vətən kimi müqəddəs mənasını “Bizim hamımızın bir vətəni var – bu Azərbaycandır” - deyən bu böyük dahinin fikir və nümunəvi ideal sevgisində tapmışdır.

Dahi rəhbərin zəngin, müdriklik dolu fikirlərində Azərbaycan müqəddəs vətən, qibləgah və səcdəgahdır. Bu böyük insanın qüdrətli xarakter və şəxsiyyətinin məzmununda, fəaliyyət təhrikində müstəqilliyi əbədi və dönməz olan bütöv, böyük Azərbaycanın konturları çulğaşıb. Fikrimizcə, Heydər Əliyevin ömür yolu, həyat fəaliyyəti və fikir ümmanında Vətən qibləsinə durub Azərbaycan adlı Tanrıya səcdə edən, iman dolu sözlərini imanla ifadə edən vətən qazisinin ibadəti görünür. Bu mənada doğru deyilib ki: “Heydər Əliyev əsl Ümummilli Lider, azərbaycanlıların mənəvi atası”dır. Müdrik Liderin siyasi kursunun uğurlu davamçısı cənab İlham Əliyevin: “Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsas məzmununu xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, vətənə bağlılıq, azərbaycançılıq duyğuları və ideyaları təşkil edir. Bu yüksək ideyaların birləşdirici dəyərlər kimi bütün dünyada yaşayan azərbaycanlılar arasında yayılması, dilimizin, mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin yaşadılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin müqəddəs amalı idi” kimi fikirləri Azərbaycançılıq ideologiyasıın mükəmməl şərhi kimi səslənir.

NİGAR İSMAYILOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
niay.83@mail.ru

AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏ DAVAMLI İSLAHATLARIN DİNAMİKASI VƏ İNKİŞAF TENDENSİYALARI

Müstəqillik illərində Azərbaycanda ümumi təhsil sistemində genişmiqyaslı və davamlı islahatlar keçirilmişdir. Bu islahatlar, əsasən təhsilin məzmununun yenilənməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və maddi-texniki bazanın gücləndirilməsi istiqamətlərini əhatə etmişdir. Yeni kurikulumların tətbiqi şagirdyönümlü yanaşmanı ön plana çıxarmış, onların tənqidi və yaradıcı düşünmə bacarıqlarının inkişafına şərait yaratmışdır. Eyni zamanda müəllimlərin peşəkar inkişafı, sertifikatlaşdırma prosesi və müasir təlim metodlarının tətbiqi təhsilin keyfiyyətinə müsbət təsir göstərmişdir.

Açar sözlər: *ümumi təhsil, kurikulum, təhsil islahatları, rəqəmsallaşma, müəllim inkişafı*

1991-ci ildə müstəqillik Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsil sistemimiz də yeniləndi və dəyişikliklərlə xarakterizə olundu. Sovet dövründən miras qalan təhsil modeli yeni dövrün tələblərinə tam cavab vermirdi. Buna görə də ümumi təhsil sistemində islahatlar aparılması meydana çıxdı. Bu islahatlar ölkənin sosial-iqtisadi inkişaf sistemi ilə bağlı şəkildə reallaşmış və təhsilin keyfiyyətin daha yüksək pilləyə çıxmasına əsas yaratmışdır.

İlk mərhələdə təhsil sahəsində normativ-hüquqi baza formalaşdı. Belə ki, "Təhsil haqqında" Qanun qəbul edildi. Bu Qanun özündə təhsilin məqsədlərini, prinsiplərini və idarəetmə mexanizmlərini birləşdirmişdir. Bununla yanaşı, ümumi təhsilin məzmununun yenilənməsi istiqamətində Kurikulumla bağlı məsələlərin həyata keçirilməsi də mühüm idi. Yeni kurikulum yanaşması şagirdyönümllü təhsili ön plana qoyaraq, tənqidi düşünmə, problem həll etmə və yaradıcılıq bacarıqlarının inkişafına xidmət etmişdir.

Müstəqillik illərində aparılan islahatların mühüm istiqamətlərindən biri də təhsilin maddi-texniki bazasının gücləndirilməsi olmuşdur. Yenu məktəb binalarının tikilməsi, mövcud məktəblərin təmiri, müasir avadanlıqlarla təchiz olunması təhsilin keyfiyyətini artıran mühüm meyarlardan biridir. Eyni zamanda İnformasiya-Kommunikasiya Texnologiyalarının (İKT) tədris prosesinə daxil olması təhsilin keyfiyyətində mühüm dönüş nöqtəsi idi. Çnüki 2004-cü ildən etibarən I siniflərdə İnformatika fənninin tədris və uşaqların bu istiqamətdə biliklənməsi vacib məsələdir. Elektron resursların tətbiqi, distant təhsil imkanlarının genişləndirilməsi müasir dövrdə islahat kimi dəyərləndirilə bilər.

Müəllim hazırlığı və onların peşəkar mütəxəssis kimi yetişməsi istiqamətində aparılan işlər də islahatlar sırasındadır. Belə ki, müəllimlərin işə qəbulu üzrə müsabiqələrin təşkili, sertifikatlaşdırma prosesinin tətbiqi, ixtisasartırma proqramlarının həyata keçirilməsi pedaqoji kadrların keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımdır. Müasir müəllim təkcə bilik ötürmür, o cümlədən şagirdlərin inkişafını istiqamətləndirən bələdçi rolunu oynayır.

Qeyd etdiyim məqamlarla yanaşı, ümumi təhsil sistemində qiymətləndirmə mexanizmləri də inkişaf etmişdir. Belə ki, formativ və summativ qiymətləndirmə üsullarının tətbiqi şagird nailiyyətlərinin daha düzgün qiymətləndirilməsinə şərait yaratmışdır. Monitorinq və qiymətləndirmə sistemləri təhsilin keyfiyyətinə nəzarəti gücləndirmişdir.

Gələcək perspektivlər baxımından təhsilin daha da rəqəmsallaşdırılması, yeni təlim metodlarının tətbiqi və inklüziv təhsilin inkişafı vacib istiqamətlər sırasındadır. Həm də beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi Azərbaycan təhsil sisteminin qlobal rəqabət qabiliyyətini artırmağa imkan verəcəkdir.

Nəticə olaraq qeyd etmək istərdim ki, müstəqillik illərində ümumi təhsil sistemində həyata keçirilən islahatlar mühüm bəhrəsini vermiş, təhsil sisteminin modernləşdirilməsinə imkana yaratmışdır. Qarşıda dayanan əsas vəzifə bu islahatların davamlı olmasını təmin etmək və təhsilin keyfiyyətini daha da yüksəltməkdir.

НИГЯР МУРАДОВА
Института Образования Азербайджанской Республики
Доктор философии по педагогике, доцент
rita-nigar@mail.ru
https://orcid.org/0000-0003-1742-7847

НАУЧНО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ИНТЕГРАЦИИ ИМЕНИ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА В ШКОЛЬНЫЕ ДЕТСКИЕ ОРГАНИЗАЦИИ

Научно-педагогические основы интеграции имени Общенационального лидера Гейдара Алиева в школьные детские организации базируются на синтезе классических принципов воспитания и идеологического фундамента «азербайджанства». Такой подход является рационально-целесообразным и стратегически необходимым шагом для обеспечения преемственности поколений, укрепления национальной идентичности и гражданского сознания в Азербайджане, а также призвано стать мощным инструментом защиты молодежи от негативного влияния глобализации, воспитания преданности Родине и укрепления национальной идентичности.

Ключевые слова: *Общенациональный лидер Гейдар Алиев, научно-педагогические основы, интеграция, школьные детские организации*

На современном этапе научно-педагогическая система воспитания предлагает не выбирать между старым и новым, а сочетать ключевые элементы прошлого (опыт, ценности) с их активной модернизацией и адаптацией под новые условия, где классическое содержание получает идеологическое оформление и современную технологическую реализацию.

Воспитание гражданина-патриота-хозяина своей страны в современной общеобразовательной школе подразумевает целенаправленную педагогическую систему, включающую инновационную методическую работу по организации и проведению процесса воспитания учащихся в национальном духе. Ключевую роль в этом процессе играют школьные детские организации, которые превращают теорию в практику в этом направлении. Продуманное именование обеспечивает структуру, порядок и понимание идеологических целей организации, как стратегический инструмент управления ею, играет важную роль в обозначении ее воспитательной деятельности.

В настоящее время подход «от мероприятия к мероприятию» является одной из ключевых проблем современной воспитательной системы в общеобразовательных школах. Этот подход не способен обеспечить формирование целостной личности, особенно в условиях современных вызовов. Потому что, если воспитательный процесс ограничивается только мероприятиями (например, классные часы к датам), а между этими датами воспитательная работа может отсутствовать, то последствия такого подхода показывают, что ценности (патриотизм, уважение, честность) не формируются за один час классного часа. Воспитание должно идти так же системно, как и учебный процесс, например, урок за уроком, по программе, каждый день. Так и воспитание в национальном духе требует системной работы, встроенной в ежедневную жизнь школьника. Поэтому для перехода к ценностно-ориентированному воспитанию необходим пересмотр структурной и содержательной трансформации воспитательной системы школы.

В Азербайджане по решению Кабинета Министров существует система присвоения школам имен национальных героев и шехидов. Эта система активно функционирует, являясь важным элементом национально-патриотического воспитания учащихся. Однако, несмотря на разнообразие форм школьной и внешкольной работы, на обилие мероприятий, кружков и воспитательных акций, в современном воспитательно-образовательном пространстве

отсутствует единый стержень, объединяющий их в целостную педагогическую систему, ориентированную на воспитание учащихся в национальном духе.

Под созданием **единой, целостной системы воспитания** подразумевается новая детская организация, которая в современных условиях заменяет структуру аналогичной пионерской организации прошлого. Это не значит, что нужно слепо копировать позитивный опыт постсоветских пионерских организаций. С учетом принципов преемственности и модернизации целесообразно использовать опыт пионерской организации в формате ретроинноваций, адаптируя старые формы под новые цифровые и социальные реалии, включая присвоение имени общенационального лидера для формирования национально-гражданской идентичности. Отметим, что слово «пионер», первоначально обозначавшее детскую организацию, не утратило своей актуальности и сохраняет свое фундаментальное значение «идущий впереди».

В Азербайджане нет единой централизованной детской организации (по типу пионерской), носящей имя Гейдара Алиева. Его имя присвоено ряду ключевых образовательных и благотворительных структур, что показывает глубокое уважение народа к его наследию. Гейдар Алиев запечатлен в памяти как спаситель и основатель современного Азербайджана, что делает его личность объединяющей. Интеграция имени, идей и наследия общенационального лидера в школьные детские организации имеет научно-педагогическое обоснование, опираясь на принципы патриотического воспитания, этнопедагогики.

Современная педагогика в Азербайджане активно использует наследие Общенационального лидера Гейдара Алиева как фундаментальную базу для воспитания и обучения. Его наследие рассматривается как богатая научно-педагогическая и духовно-нравственная основа. Оно используется в научно-методической базе, где педагогические исследования, программы и учебники содержат темы, основанные на анализе деятельности и идеологии Гейдара Алиева. Все это в целом составляют научно-педагогические основы интеграции имени общенационального лидера Гейдара Алиева и его идеологии азербайджанства в школьные детские организации, что является ключевым элементом государственной политики Азербайджана в сфере воспитания подрастающего поколения в национальном духе. Следовательно, в педагогике воспитание через имя лидера выступает как метод социального примера, который развивает у учащихся ответственность: «Я представляю организацию имени Гейдара Алиева, я не могу поступить плохо» или же стимулируется их лидерский потенциал, стремясь подражать волевым качествам и целеустремленности исторической личности.

Вывод. Научно-педагогические основы интеграции имени Общенационального лидера Гейдара Алиева в школьные детские организации формируют и выдвигают педагогическую стратегию, основание которой показывает, что функционирование школьных детских организаций, глубоко укорененных в идеологии «азербайджанства» и носящих имя Гейдара Алиева, являются эффективным педагогическим инструментом для гармоничного развития личности, сочетающей в себе национальные ценности и современное мировоззрение.

GÜLNAR HÜSEYNOVA
Naxçıvan Müəllimlər İnstitutu
Fəlsəfə doktoru hazırlığı üzrə doktorant
huseynovag110@gmail.com

MÜƏLLİM HAZIRLIĞINDA İNNOVATİV YANAŞMALAR VƏ PEŞƏKAR KOMPETENSİYALARIN FORMALAŞDIRILMASI

Tədqiqatda müasir təhsil sistemində müəllim hazırlığının aktual problemləri, innovativ yanaşmaların tətbiqi və peşəkar kompetensiyaların formalaşdırılması məsələləri araşdırılmışdır. Müəllim hazırlığında kompetensiya əsaslı təhsil modelinin əhəmiyyəti, rəqəmsal texnologiyaların, innovativ təlim metodlarının və müəllimlərin sertifikatlaşdırılması prosesinin rolu təhlil edilmişdir. Müəyyən edilmişdir ki, müəllimlərin pedaqoji, kommunikativ və rəqəmsal kompetensiyalarının inkişafı təhsilin keyfiyyətinin yüksəldilməsinin əsas amillərindəndir. Tədqiqatda Azərbaycanda həyata keçirilən sertifikatlaşdırma prosesinin müəllimlərin peşəkar inkişafına təsiri də araşdırılmışdır.

Açar sözlər: *müəllim hazırlığı, innovativ yanaşmalar, peşəkar kompetensiyalar, sertifikatlaşdırma, pedaqoji fəaliyyət, rəqəmsal bacarıqlar, kompetensiya əsaslı təhsil.*

Müasir dövrdə qloballaşma, rəqəmsallaşma və informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində köklü dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər müəllim peşəsinə olan tələblərin artmasına, müəllim hazırlığının məzmununun yenilənməsinə və yeni peşə standartlarının formalaşmasına gətirib çıxarmışdır. Müasir müəllim yalnız fənn biliklərinə malik olan mütəxəssis deyil, həm də innovativ düşünən, rəqəmsal texnologiyalardan istifadə edən, şagirdyönümlü təlim mühiti yaradan və davamlı öyrənən peşəkar şəxsiyyət olmalıdır.

Təhsil sistemində aparılan islahatlar müəllim hazırlığında kompetensiya əsaslı yanaşmanın tətbiqini aktuallaşdırmışdır. Bu yanaşma müəllimlərin yalnız nəzəri biliklər əldə etməsinə deyil, həm də praktik bacarıqlar, peşəkar dəyərlər və müasir pedaqoji kompetensiyalar formalaşdırmasına yönəlmişdir.

Müəllim hazırlığında innovativ yanaşmaların mahiyyəti

İnnovativ yanaşmalar təlim prosesinin səmərəliliyini artırmaq məqsədilə yeni metod, texnologiya və strategiyaların tətbiqini nəzərdə tutur. Müəllim hazırlığında problem əsaslı təlim, layihə metodu, əməkdaşlıq əsaslı öyrənmə, tədqiqat yönümlü fəaliyyət, reflektiv təcrübə və rəqəmsal təhsil texnologiyaları geniş istifadə olunur.

Bu metodlar gələcək müəllimlərin yaradıcı düşünmə, qərarvermə, problem həll etmə və tədqiqat aparma bacarıqlarının inkişafına şərait yaradır. Eyni zamanda onlar müəllimlərin real təhsil mühitində qarşılaşa biləcəkləri problemlərə praktik həll yolları tapmasına kömək edir.

Ali pedaqoji təhsil müəssisələrində innovativ təlim metodlarının tətbiqi tələbələrin fəallığını artırır, müstəqil öyrənmə vərdişlərini formalaşdırır və onların peşə fəaliyyətinə hazırlığını gücləndirir.

Peşəkar kompetensiyaların formalaşdırılması

Müəllim hazırlığında əsas məqsəd yüksək peşəkarlığa malik müəllimlərin yetişdirilməsidir. Bunun üçün gələcək müəllimlərdə bir sıra mühüm kompetensiyalar formalaşdırılmalıdır:

- pedaqoji kompetensiya;
- kommunikativ kompetensiya;
- rəqəmsal kompetensiya;
- tədqiqatçılıq kompetensiyası;
- sosial və etik kompetensiyalar;
- liderlik və idarəetmə bacarıqları;
- yaradıcı və tənqidi düşünmə bacarıqları.

Bu kompetensiyalar müəllimin təlim prosesini səmərəli təşkil etməsinə, şagirdlərlə düzgün ünsiyyət qurmasına və müasir təhsil mühitində uğurla fəaliyyət göstərməsinə imkan verir.

Azərbaycanda müəllimlərin sertifikatlaşdırılması və peşəkar inkişaf

Azərbaycanda təhsil sahəsində aparılan mühüm islahatlardan biri müəllimlərin sertifikatlaşdırılması prosesidir. Sertifikatlaşdırma müəllimlərin peşəkar bilik və bacarıqlarının qiymətləndirilməsi, onların inkişaf ehtiyaclarının müəyyənləşdirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilir.

Bu proses müəllimlərin ixtisas biliklərini, pedaqoji hazırlığını və metodiki bacarıqlarını qiymətləndirməyə imkan verir. Sertifikatlaşdırma müəllimləri davamlı peşəkar inkişafa təşviq edir, onların öz üzərində işləmək motivasiyasını artırır və müasir təhsil tələblərinə uyğun kompetensiyaların inkişafına şərait yaradır.

Xüsusilə son illərdə sertifikatlaşdırma prosesinin tətbiqi müəllimlərin innovativ təlim metodlarına, rəqəmsal texnologiyalara və müasir qiymətləndirmə mexanizmlərinə marağını artırmışdır. Bu baxımdan sertifikatlaşdırma müəllim hazırlığında kompetensiya əsaslı yanaşmanın mühüm tərkib hissəsi kimi çıxış edir.

Rəqəmsal texnologiyaların rolu

Rəqəmsal texnologiyalar müəllim hazırlığında yeni imkanlar yaradır. Elektron təlim platformaları, virtual siniflər, onlayn kurslar, süni intellekt əsaslı təhsil proqramları və elektron qiymətləndirmə sistemləri gələcək müəllimlərin peşəkar inkişafına müsbət təsir göstərir.

Rəqəmsal texnologiyaların tətbiqi müəllimlərin informasiya ilə işləmə, elektron resurslardan istifadə, distant təlimin təşkili və rəqəmsal qiymətləndirmə bacarıqlarının inkişafına şərait yaradır. Müasir müəllim rəqəmsal savadlılığa malik olmalı və texnologiyaları tədris prosesinə səmərəli şəkildə inteqrasiya etməyi bacarmalıdır.

Nəticə

Aparılan təhlillər göstərir ki, müəllim hazırlığının keyfiyyəti innovativ yanaşmaların tətbiqindən və peşəkar kompetensiyaların formalaşdırılmasından birbaşa asılıdır. Kompetensiya əsaslı təhsil modeli gələcək müəllimlərin nəzəri biliklərlə yanaşı, praktik bacarıqlar əldə etməsinə imkan yaradır. Azərbaycanda həyata keçirilən sertifikatlaşdırma prosesi müəllimlərin peşəkar inkişafını dəstəkləyən mühüm mexanizm kimi çıxış edir və onların müasir təhsil tələblərinə uyğun fəaliyyət göstərməsinə şərait yaradır. Rəqəmsal texnologiyaların və innovativ təlim metodlarının tətbiqi isə müəllim hazırlığının səmərəliliyini artıraraq təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.

MƏHƏRRƏM TALIBOV
Naxçıvan Muxtar Respublikası Nazirlər kabineti
qisimemi@gmail.com
https://orcid.org/0009-0002-8587-573X
LALƏ TALIBOVA
Naxçıvan Dövlət Universiteti
lalatalibova2013@gmail.com
https://orcid.org/0009-0004-8259-8567

AZƏRBAYCANDA ÜMUMİ TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN MÜASİR İSTİQAMƏTLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Məqalədə Azərbaycanda ümumi təhsil sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən dövlət siyasəti təhlil edilir. Təhsilin keyfiyyətinin artırılması, rəqəmsallaşma və infrastrukturun yenilənməsi əsas prioritetlər kimi araşdırılır. Həmçinin, gələcək inkişaf perspektivləri və strateji hədəflər barədə elmi-nəzəri mülahizələr irəli sürülür.

Açar sözlər: *ümumi təhsil, dövlət siyasəti, təhsil islahatları, rəqəmsal transformasiya, inkişaf perspektivləri*

Əsas hissə. Müasir dünyada hər bir dövlətin rəqabət qabiliyyətliliyi onun insan kapitalının inkişaf səviyyəsi ilə birbaşa bağlıdır. Azərbaycan Respublikasında ümumi təhsil sahəsində həyata keçirilən dövlət siyasəti milli mənəvi dəyərlərə sadiq, eyni zamanda qlobal çağırışlara cavab verən şəxsiyyətin formalaşdırılmasına xidmət edir.

Azərbaycanda təhsil sisteminin müasirləşdirilməsi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinə əsaslanır. Bu çərçivədə əsas diqqət təhsilin məzmununun yenilənməsinə və nəticəyönümlü idarəetmə modelinə keçidə yönəlmişdir.

Kurikulum islahatları: Şagirdlərdə faktoloji biliklərdən daha çox, tənqidi təfəkkür, yaradıcılıq və əməkdaşlıq kimi 21-ci əsr bacarıqlarının formalaşdırılması ön plana çəkilir.

İnfrastrukturun müasirləşdirilməsi: "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində ölkənin ən ucqar kəndlərində belə müasir tipli məktəb binalarının inşası və modul tipli məktəblərin qurulması təhsilə əlçatanlığı təmin edir.

Rəqəmsal Transformasiya və İnnovasiyalar

Müasir dövlət siyasətinin ən mühüm hədəflərindən biri təhsilin rəqəmsallaşdırılmasıdır. Bu proses təkcə texniki təchizatla deyil, həm də tədris metodologiyasının dəyişməsi ilə müşayiət olunur: "Rəqəmsal bacarıqlar" layihəsi: Şagirdlərə proqramlaşdırma və alqoritmik düşüncənin aşılanması rəqabətədavamlı kadr potensialının təməlini qoyur.

STEAM təhsili: Elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrasiyası şagirdlərin layihə əsaslı öyrənmə metoduna cəlb olunmasına şərait yaradır.

Elektron resurslar: "Virtual Məktəb" platforması və rəqəmsal dərsliklər təhsilin zaman və məkan məhdudiyyəti olmadan davamlılığını təmin edən mühüm alətlərə çevrilmişdir.

Müəllim Heyətinin Peşəkar İnkişafı

Təhsilin keyfiyyəti, ilk növbədə, müəllimin peşəkarlığından asılıdır. Dövlət siyasətinin mərkəzində müəllimlərin stimullaşdırılması və onların nüfuzunun artırılması dayanır. Bu istiqamətdə həyata keçirilən sertifikatlaşdırma prosesi müəllimlərin bilik və bacarıqlarının differensiasiyasına, nəticə etibarilə isə əməkhaqlarının differensial qaydada artırılmasına xidmət edir.

Nəticə. Azərbaycanda təhsil sisteminin müasirləşdirilməsi təkcə infrastrukturun yenilənməsi deyil, həm də milli genofondun qorunması və insan kapitalının rəqabətədavamlılığının artırılmasına xidmət edən kompleks bir prosesdir. "Azərbaycan 2030" Milli Prioritetləri çərçivəsində atılan addımlar göstərir ki, ölkə təhsili "bilik iqtisadiyyatı"nın tələblərinə uyğunlaşdırılır.

Rəqəmsal bacarıqların və STEAM metodologiyasının tətbiqi şagirdləri gələcəyin əmək bazarına hazırlayır, müəllimlərin sertifikatlaşdırılması isə təhsildə keyfiyyətə nəzarət və peşəkar motivasiya mexanizmini təmin edir. Yekun olaraq qeyd etmək olar ki, bu islahatların uğuru texnoloji innovasiyalarla humanist pedaqoji yanaşmaların vəhdətindən asılıdır. Müasir təhsil modeli Azərbaycanın qlobal dünyada intellektual liderliyini təmin edəcək əsas strateji rıçaqdır.

HƏMİDƏ İSGƏNDƏROVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
Müəllim
isgndrlihemide@gmail.com

MÜSTƏQİLLİK DÖVRÜNDƏ ÜMUMTƏHSİL SİYASƏTİNİN TRANSFORMASİYASI: REALLIQLAR VƏ PERSPEKTİV YANAŞMALAR

Məqalədə ümumi təhsil sahəsində qarşıya çıxan aktual problemlər geniş şəkildə təhlil edilmişdir. Müəllimlərin peşə hazırlığı, tədris proqramlarının müasir tələblərə uyğunlaşdırılması, qiymətləndirmə sistemindəki çatışmazlıqlar, rəqəmsal imkanlardan istifadə, şagird motivasiyası və inklüziv təhsil məsələləri araşdırılmışdır. Həmçinin bu problemlərin aradan qaldırılması üçün praktik həll yolları göstərilmişdir.

***Açar sözlər**: ümumi təhsil, aktual problemlər, müəllim hazırlığı, kurikulum, qiymətləndirmə sistemi, rəqəmsallaşma, şagird motivasiyası, inklüziv təhsil, təhsil islahatları, tədris prosesi*

Giriş. Müasir dövrdə təhsil cəmiyyətin inkişafının əsas istiqamətlərindən biri hesab olunur. Xüsusilə, ümumi təhsil sistemi insan kapitalının formalaşmasına, sosial dəyərlərin ötürülməsinə və şəxsiyyətin hərtərəfli inkişafına mühüm təsir göstərir. Təhsil yalnız biliklərin mənimsədilməsi deyil, həm də tənqidi düşüncə, yaradıcılıq və sosial bacarıqların formalaşdırılması prosesidir.

Qloballaşma, informasiya texnologiyalarının inkişafı və əmək bazarındakı dəyişikliklər təhsil sisteminə yeni tələblər irəli sürür. Bununla yanaşı, mövcud sistemdə bir sıra problemlər qalmaqdadır. Əsas problemlərdən biri müəllim hazırlığı ilə bağlıdır. Ali təhsil müəssisələrində nəzəri biliklərə üstünlük verilməsi praktik bacarıqların kifayət qədər formalaşmamasına səbəb olur. Müəllimlərin davamlı peşəkar inkişaf imkanlarının məhdudluğu və sosial təminatın zəifliyi də tədrisin keyfiyyətinə mənfi təsir göstərir.

Tədris proqramlarının müasir tələblərə tam cavab verməməsi də ciddi problemdir. Ənənəvi proqramlar şagirdlərin yaradıcı və analitik düşüncə qabiliyyətlərini lazımi səviyyədə inkişaf etdirmir. Buna görə kurikulumların yenilənməsi, STEM yanaşması və layihə əsaslı öyrənmənin tətbiqi vacibdir. Qiymətləndirmə sistemində test yönümlülük və əzbərçiliyin üstünlük təşkil etməsi şagirdlərin biliklərini praktik tətbiq etməsinə mane olur. Formativ və bacarıq əsaslı qiymətləndirmənin genişləndirilməsi zəruridir. Rəqəmsallaşma təhsildə yeni imkanlar yaratsa da, texnoloji bərabərsizlik və rəqəmsal savadlılıq problemləri mövcuddur. Bütün məktəblərin eyni texniki imkanlara malik olmaması təhsildə fərqlər yaradır.

Şagird motivasiyasının azalması, psixoloji gərginlik, təhsildə bərabərlik və inklüzivlik problemləri, həmçinin valideyn-məktəb əməkdaşlığının zəifliyi də ümumi təhsilin qarşısında duran aktual məsələlərdəndir. Bu problemlərin həlli üçün müəllim hazırlığının gücləndirilməsi, tədris proqramlarının yenilənməsi, rəqəmsal imkanların artırılması və təhsil islahatlarının ardıcıl şəkildə davam etdirilməsi vacibdir. Yalnız bu halda ümumi təhsil sistemi müasir dövrün tələblərinə uyğun inkişaf edə bilər.

GÜLƏR BAYRAMOVA
Naxçıvan Dövlət Universiteti nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
Qeydiyyat qiymətləndirmə və monitorinq bölməsinin müdiri
glr.bayramova@inbox.ru

AZƏRBAYCANDA ÜMUMİ TƏHSİL SİYASƏTİNDƏ KEYFİYYƏT TƏMİNATI VƏ STRATEJİ İDARƏETMƏ

Azərbaycanda ümumi təhsil siyasəti milli dəyərlərə və beynəlxalq standartlara əsaslanan strateji hədəfləri əhatə edir. Əsas prioritetlər təhsilin məzmununun yenilənməsi, rəqəmsallaşma və idarəetmədə müasir yanaşmaların tətbiqidir. Dövlət səviyyəsində həyata keçirilən islahatlar hər bir şagird üçün bərabər imkanlar yaradaraq intellektual potensialın inkişafını təmin edir.

***Açar söz**: təhsil siyasəti, strateji islahatlar, rəqəmsallaşma, dövlət standartları, intellektual potensial*

Azərbaycan Respublikasının müasir inkişaf mərhələsində təhsil sistemi dövlət siyasətinin ən strateji sahələrindən biri hesab olunur. Ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisi birbaşa olaraq insan kapitalının keyfiyyətindən asılıdır. Ümumi təhsil bu zəncirin ilk və ən mühüm həlqəsidir. Müasir dövrün tələbləri, rəqəmsal transformasiya və qlobal rəqabət təhsil sistemində köklü islahatların aparılmasını və elmi əsaslara söykənən idarəetmə modelinin qurulmasını zəruri edir.

Azərbaycanın təhsil siyasəti möhkəm hüquqi baza üzərində qurulub. Qanunvericilik aktları və dövlət proqramları təhsilin gələcək simasını müəyyən edir. Bu sənədlər təhsilin hər bir vətəndaş üçün əlçatan olmasını, keyfiyyətin yüksəldilməsini və şəxsiyyətyönümlü yanaşmanın prioritetliyini təsbit edir. Dövlət strategiyası çərçivəsində həyata keçirilən tədbirlər təhsilin infrastrukturunun yenilənməsindən tutmuş, tədris proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılmasına qədər geniş spektri əhatə edir.

Təhsil qanunvericiliyi ölkədə fərdin, cəmiyyətin və dövlətin maraqlarını qoruyaraq, təhsil alanların hüquqlarını təmin edir. Əsas məqsəd müstəqil yaradıcı düşünən, milli və bəşəri dəyərlərə sahib, demokratik prinsiplərə hörmət edən vətəndaş yetişdirməkdir. Bu prosesdə dövlət tərəfindən müəyyən edilmiş standartlar həm tədrisin məzmununa, həm də maddi-texniki təchizata dair minimum tələbləri formalaşdırır.

Ümumi təhsilin ən mühüm prioritetlərindən biri məzmunun yenilənməsidir. Əvvəlki dövrlərdən fərqli olaraq, hazırda şagirdlərə yalnız nəzəri biliklərin ötürülməsi deyil, həm də onların bacarıq və vərdişlərinin inkişaf etdirilməsi ön plana çıxıb. Müasir kurikulum sisteminin əsasında kompetensiya əsaslı təlim dayanır. Bu yanaşma şagirdlərdə tənqidi təfəkkür, problemlərin həlli, əməkdaşlıq və ünsiyyət kimi həyati bacarıqları formalaşdırır.

Elmi yanaşma tələb edir ki, tədris proqramları şagirdlərin yaş və psixoloji xüsusiyyətlərinə uyğun olsun. Bu məqsədlə fənlərarası inteqrasiya tətbiq edilir ki, bu da biliklərin pərakəndə deyil, bir-biri ilə əlaqəli şəkildə mənimsənilməsinə şərait yaradır. Təhsilin məzmunu mütəmadi olaraq yenilənərək müasir elmi kəşflər və texnoloji yeniliklərlə zənginləşdirilir.

Hər hansı bir təhsil islahatının uğuru birbaşa müəllimdən asılıdır. Müasir çağırışlara cavab verən təhsil sistemi yüksək ixtisaslı, yeniliklərə açıq və metodiki cəhətdən hazırlıqlı müəllim kadrları tələb edir. Bu məqsədlə Azərbaycanda müəllimlərin işə qəbulu və sertifikatlaşdırılması prosesləri şəffaf və obyektiv əsaslarla həyata keçirilir.

Müəllimlərin peşəkar inkişafı üçün müntəzəm olaraq treninqlər, ixtisasartırma kursları və seminar proqramları təşkil edilir. Elmi yanaşmaya əsaslanan bu təlimlər müəllimlərin həm fənn biliklərini, həm də müasir təlim metodologiyalarını mənimsəmələrinə imkan verir.

Təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi sistemli fəaliyyət tələb edir. Ümumi təhsildə keyfiyyət təminatı daxili və xarici qiymətləndirmə mexanizmləri vasitəsilə həyata keçirilir. Şagird nailiyyətlərinin izlənilməsi üçün tətbiq edilən diaqnostik, formativ və summativ qiymətləndirmələr təhsilin vəziyyəti barədə dəqiq məlumat almağa imkan verir.

Beynəlxalq qiymətləndirmə proqramlarında (PISA, PIRLS, TIMSS) iştirak Azərbaycan təhsil sisteminin dünya təhsil məkanındakı mövqeyini müəyyən etməyə kömək edir. Bu tədqiqatların nəticələri əsasında təhsil siyasətində zəruri düzəlişlər edilir və çatışmazlıqların aradan qaldırılması üçün elmi əsaslandırılmış tədbirlər görülür. Keyfiyyət yalnız bilik səviyyəsi ilə deyil, həm də təhsil mühitinin təhlükəsizliyi və inklüzivliyi ilə ölçülür.

Demokratik təhsil siyasətinin ən vacib prinsiplərindən biri inklüzivlikdir. Sağlamlıq imkanları məhdud olan uşaqların digər həmyaşıdları ilə birgə təhsil alması üçün lazımi şəraitin yaradılması dövlətin prioritetidir. Bu yanaşma cəmiyyətdə tolerantlığın və sosial həmrəyliyin artmasına xidmət edir.

Bərabər təhsil imkanlarının yaradılması həm də regionlar arasındakı fərqlərin aradan qaldırılmasını nəzərdə tutur. Kənd və şəhər məktəbləri arasındakı infrastruktur və resurs bərabərliyi təmin edilməli, istedadlı uşaqların üzə çıxarılması üçün xüsusi proqramlar tətbiq olunmalıdır. Təhsilin əlçatanlığı hər bir fərdin öz potensialını reallaşdırması üçün əsas zəmindir.

Azərbaycanda ümumi təhsil siyasəti kompleks və dinamik bir prosesdir. Dövlətin strateji hədəfləri milli köklərə bağlı, eyni zamanda müasir dünyanın nailiyyətlərini mənimsəmiş şəxsiyyət formalaşdırmaqdır. Elmi tədqiqatlara əsaslanan islahatlar, texnoloji yeniliklər və keyfiyyətə yönəlmiş idarəetmə Azərbaycan təhsilinin beynəlxalq arenada rəqabət qabiliyyətini artırır. Bu yolun uğurla davam etdirilməsi ölkənin dayanıqlı inkişafının və parlaq gələcəyinin ən böyük zəmanətidir.

TURAN ZEYNİYEVA
Naxçıvan Dövlət Universiteti nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
turanzeyniyeva@gmail.com
https://orcid.org/0009-0005-4986-0735

AZƏRBAYCANDA ÜMUMİ TƏHSİLİN NORMATİV-HÜQUQİ BAZASI VƏ MÜASİR İNKİŞAF İSTİQAMƏTLƏRİ

Ümummilli lider Heydər Əliyev təhsili prioritet sahə kimi inkişaf etdirərək güclü insan kapitalının formalaşmasına nail olmuşdur. Onun siyasəti İlham Əliyev tərəfindən davam etdirilir. Məqalədə ümumi təhsilin hüquqi bazası, islahatlar, məzmun yenilikləri və rəqəmsallaşma məsələləri təhlil olunur.

Açar sözlər *- Ümummilli lider Heydər Əliyev, təhsil siyasəti, islahatlar, sertifikatlaşdırma, rəqəmsallaşma*

Giriş. Ümummilli liderimizin təhsilə verdiyi töhfələrin bugünkü inkişafımıza təkan verməsi mövzusu Azərbaycan cəmiyyətinin formalaşmasında mühüm yer tutur. Heydər Əliyev tərəfindən təhsilə göstərilən diqqət və qayğı ölkənin intellektual potensialının yüksəldilməsində həlledici rol oynamışdır.

Ulu öndər hakimiyyətdə olduğu dövrlərdə təhsili dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Onun təşəbbüsü ilə yeni məktəblər tikilmiş, mövcud təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilmiş, müəllimlərin sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Xüsusilə gənclərin xarici ölkələrdə təhsil alması üçün yaradılan imkanlar Azərbaycanın gələcək inkişafı üçün yüksək ixtisaslı kadrların hazırlanmasına zəmin yaratmışdır.

Heydər Əliyevin təhsil sahəsində həyata keçirdiyi islahatlar yalnız maddi baza ilə məhdudlaşmamış, həm də milli təhsil sisteminin məzmununun yenilənməsinə yönəlmişdir. Milli dəyərlərə əsaslanan, eyni zamanda müasir dünya standartlarına cavab verən təhsil modelinin formalaşdırılması onun əsas məqsədlərindən biri olmuşdur. Bu yanaşma nəticəsində Azərbaycan təhsili beynəlxalq təhsil sisteminə inteqrasiya yolunda mühüm nailiyyətlər əldə etmişdir.

Bu siyasət bu gün də uğurla davam etdirilir. İlham Əliyev tərəfindən həyata keçirilən təhsil strategiyaları, məktəblərin yenidən qurulması, rəqəmsal texnologiyaların tətbiqi və müəllimlərin peşəkar inkişafına yönəlmiş proqramlar ulu öndərin müəyyən etdiyi xəttin davamıdır. Müasir dövrdə təhsildə innovasiyaların tətbiqi, elektron resursların genişləndirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi ölkənin davamlı inkişafına mühüm töhfə verir.

Materiallar və metodlar. Tədqiqat zamanı Azərbaycan Respublikasının təhsil sahəsində qəbul etdiyi normativ-hüquqi sənədlər, rəsmi strategiya materialları və elmi ədəbiyyatlar təhlil edilmişdir. Araşdırmada müqayisəli təhlil, sistemli yanaşma və məzmun analizi metodlarından istifadə olunmuşdur. Bu metodlar vasitəsilə ümumi təhsil sistemində aparılan islahatların mahiyyəti və nəticələri qiymətləndirilmişdir.

Müasir dövrdə təhsil sistemi cəmiyyətin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Azərbaycan Respublikasında ümumi təhsil sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi daim diqqət mərkəzində olmuşdur. Bu sahədə həyata keçirilən islahatlar və qəbul edilən normativ-hüquqi sənədlər təhsil sisteminin müasirləşdirilməsinə yönəlmişdir. "Təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlar ümumi təhsilin hüquqi əsasını təşkil edir və təhsil sisteminin strukturunu, idarə olunmasını və inkişaf istiqamətlərini müəyyən edir.

Nəticələr və müzakirə. Aparılan təhlil göstərir ki, Azərbaycan Respublikasında ümumi təhsilin inkişafı güclü normativ-hüquqi baza üzərində qurulmuşdur. "Təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlar təhsil sisteminin səmərəli fəaliyyətini təmin edən əsas sənədlərdir. Nəticə etibarilə, ümummilli lider Heydər Əliyevin təhsilə verdiyi töhfələr Azərbaycanın bu günkü inkişafının əsas dayaqlarından biridir. Onun müəyyən etdiyi strateji kurs nəticəsində ölkədə güclü

təhsil sistemi formalaşmış, bu isə öz növbəsində sosial-iqtisadi tərəqqiyə və milli inkişafın davamlılığına mühüm təkan vermişdir. Dövlət siyasətinin humanistlik, demokratiklik və bərabərlik prinsiplərinə əsaslanması təhsilin əlçatanlığını və keyfiyyətini artırır.Müstəqillik illərində həyata keçirilən kurikulum islahatları, müəllimlərin işə qəbulu və sertifikatlaşdırılması mexanizmləri, eləcə də məktəb infrastrukturunun yenilənməsi təhsil sistemində müsbət dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə kompetensiya əsaslı yanaşmanın tətbiqi şagirdlərin praktik bacarıqlarının inkişafına imkan yaradır.

Müəllimlərin sertifikatlaşdırılması prosesi onların peşəkar inkişafını stimullaşdırmaqla yanaşı, tədrisin keyfiyyətinin yüksəlməsinə də təsir göstərir. Bununla belə, bu sahədə uyğunlaşma problemləri və davamlı təlim ehtiyacı kimi çağırışlar qalmaqdadır.Təhsildə rəqəmsallaşma və süni intellektin tətbiqi yeni imkanlar açır. Elektron resurslar və onlayn təhsil platformaları tədrisin effektivliyini artırır və fərdiləşdirilmiş öyrənməni mümkün edir. Bununla yanaşı, rəqəmsal bərabərsizlik və texnoloji hazırlıq səviyyəsi kimi problemlər də mövcuddur.

Ümumilikdə, aparılan islahatlar təhsil sisteminin modernləşdirilməsinə və beynəlxalq təcrübəyə uyğunlaşmasına müsbət təsir göstərir. Nəticə olaraq müəyyən edilir ki, aparılan islahatlar təhsilin keyfiyyətinin yüksəldilməsinə və beynəlxalq standartlara uyğunlaşmasına şərait yaradır.

YADULLA HƏZİYEV
Naxçıvan Dövlət Universiteti
Baş müəllim
yadohazi@gmail.com
NİGAR RÜSTƏMOVA
Naxçıvan Dövlət Universiteti
Laborant
nigarrüstəmli@gmail.com
TÜNZALƏ ƏLƏKBƏROVA
Naxçıvan Qarnizonu tam orta məktəb
Müəllim
tünzaleelekberova@gmail.com

ÜMUMİ TƏHSİL SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ İNNOVATİV STRATEGİYALAR

Müasir dövrdə məktəb təhsilinin effektivliyini artırmaq və təhsilalanların fərdi qabiliyyətlərini üzə çıxarmaq üçün yenilikçi metodologiyaların tətbiqi qaçınılmazdır. Tədqiqat işində rəqəmsal transformasiya prosesləri, intellektual texnologiyaların tədrisə inteqrasiyası və yeni nəsil pedaqoji yanaşmalar elmi-nəzəri baxımdan təhlil edilmişdir.

Açar sözlər: *məktəb təhsili, innovasiya, rəqəmsal transformasiya, süni zəka, təhsil proqramı (kurikulum).*

Giriş. Qlobal dünyadakı sürətli texnoloji sıçrayışlar təhsil mühitinin qarşısında yeni vəzifələr qoyur. Klassik tədris modelləri müasir əmək bazarının dinamik tələblərini qarşılamaqda çətinlik çəkir. Məhz bu səbəbdən, ümumi təhsil pilləsində innovativ alətlərdən istifadə edilməsi artıq bir seçim deyil, obyektiv zərurətdir (Şəkil 1).

Azərbaycanın təhsil siyasətində də bu istiqamət prioritet təşkil edir. Həyata keçirilən islahatlar çərçivəsində tədris proqramlarının modernləşdirilməsi və kadr potensialının gücləndirilməsi prosesi birbaşa təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsinə xidmət edir.

Əsas hissə

1. İnnovasiyaların təhsil səviyyəsinə təsiri

Təhsildə innovasiya dedikdə, sadəcə texniki avadanlıqlar deyil, həm də idarəetmədə və metodikada tətbiq edilən yeni konseptlər nəzərdə tutulur. Bu yanaşmanın mərkəzində şagirdin şəxsiyyət kimi formalaşması, onun tənqidi və yaradıcı təfəkküründün stimullaşdırılması dayanır. Çağdaş təhsilin prioriteti şagirdə yalnız hazır informasiya vermək deyil, onda müstəqil analiz aparmaq və mürəkkəb problemləri həll etmək bacarığını aşılamaqdır.

2. Rəqəmsal texnologiyalar və süni zəka

Rəqəmsallaşma təhsilin daxili arxitekturasını kökündən dəyişmişdir. Müxtəlif e-platformalar və interaktiv resurslar öyrənmə mühitini daha əlçatan və cəlbedici edir. Xüsusilə süni intellekt (Sİ)

alətləri hər bir şagirdin qavrama sürətinə uyğun fərdiləşdirilmiş tədris planlarının qurulmasına imkan verir. Bu texnoloji dəstək tədrisin səmərəliliyini artırmaqla yanaşı, müəllimlərin inzibati yükünü azaldır və qiymətləndirmədə obyektivliyi təmin edir.

3. Yeni metodoloji yanaşmalar

Müasir kurikulumun tərkib hissəsi olan layihəyönümlü və problem əsaslı təlim metodları şagirdlərin dərslərdəki passiv dinləyici rolunu aktiv iştirakçı statusu ilə əvəz edir. Bu tip yanaşmalar biliklərin praktikada tətbiqinə və kompetensiya əsaslı mənimsəməyə şərait yaradır. Nəticədə şagirdlər nəzəriyyəni real həyat ssenariləri ilə əlaqələndirməyi öyrənirlər.

4. Pedaqoji kadrların rolu

İnnovasiyaların uğuru birbaşa müəllimin hazırlıq səviyyəsindən asılıdır. İndiki dövrdə müəllim sadəcə məlumat mənbəyi deyil, həm də şagirdə yol göstərən fasilitatordur. Pedaqoqların rəqəmsal savadlılığının artırılması və onların mütəmadi olaraq peşəkar sertifikatlaşdırma proseslərindən keçməsi sistemin inkişafı üçün mühüm şərtdir.

5. Mövcud maneələr

Yeniliklərin tətbiqi yolunda bəzi çətinliklər hələ də qalmaqdadır:

- Maddi-texniki bazanın bəzi yerlərdə zəif olması;
- Müəllimlərin İKT bacarıqları arasındakı fərqlər;
- Regional imkan bərabərsizliyi;
- Yeniliklərə qarşı yaranan psixoloji baryerlər.

Nəticə. Ümumi təhsilin modernləşdirilməsi cəmiyyətin gələcək inkişafının təməl daşıdır. Texnoloji imkanların tədris metodikası ilə düzgün sintezi, müəllim heyətinin peşəkarlığı və sistemli yanaşma təhsilin rəqabətədavamlılığını təmin edəcəkdir. İnnovativ addımların genişləndirilməsi ölkənin ümumi intellektual potensialının artmasına birbaşa töhfə verəcəkdir.

SEVİL MİŞİYEVA
Lənkəran Dövlət Universiteti
Magistrant
quluzadesevil99@gmail.com

ÜMUMİ TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Azərbaycan Respublikasının Təhsil Qanunu Azərbaycanda təhsil sisteminin hüquqi əsaslarını müəyyən edən əsas sənəddir. Qanunda təhsilin məqsədi, prinsipləri, təhsil pillələri, idarəetmə mexanizmləri, müəllim və şagird hüquqları, eləcə də təhsilin keyfiyyətinə nəzarət məsələləri öz əksini tapmışdır.

Açar sözlər: *Təhsil Qanunu, bölmə, standartlar, məzmun, inkişaf, qaydalar*

Azərbaycan Respublikasının Təhsil Qanunu 19 iyun 2009-cu ildə qəbul edilmiş və ölkədə təhsil sahəsinin hüquqi əsaslarını müəyyən edən əsas normativ sənəd hesab olunur. Bu qanun təhsil sisteminin təşkili, idarə olunması, təhsil iştirakçılarının hüquq və vəzifələri, dövlətin təhsil siyasəti və təhsilin inkişaf istiqamətlərini əhatə edir. Qanunun əsas məqsədi vətəndaşların keyfiyyətli təhsil alma hüququnu təmin etmək, milli və ümumbəşəri dəyərlərə əsaslanan təhsil sistemi yaratmaqdır. Qanunda təhsilin əsas prinsipləri xüsusi yer tutur. Buraya humanistlik, demokratiklik, bərabərlik, dünyəvilik, milli və ümumbəşəri dəyərlərə bağlılıq, fasiləsizlik və keyfiyyətlilik daxildir.

Təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri də qanunda əks olunmuşdur. "Dövlət təhsil sisteminin inkişafına şərait yaradır, maddi-texniki bazanı gücləndirir və təhsilin əlçatanlığını təmin edir. Qanunun bölmələrində Azərbaycan Respublikasında mövcud olan təhsil pillələri geniş şəkildə izah edilir. Məktəbəqədər təhsil uşaqların ilkin inkişafını və məktəbə hazırlanmasını təmin edir. Ümumi təhsil ibtidai, ümumi orta və tam orta mərhələlərdən ibarətdir. Peşə təhsili əmək bazarına uyğun ixtisaslı kadr hazırlığını həyata keçirir. Orta ixtisas və ali təhsil pillələri isə mütəxəssis hazırlığını təmin edir. Doktorantura elmi-pedaqoji kadrların hazırlanmasına xidmət edir. Qanunda təhsilin idarə olunması məsələləri də öz əksini tapmışdır".

Təhsil sahəsində idarəetmə müvafiq icra hakimiyyəti orqanları, yerli idarəetmə strukturları və təhsil müəssisələri tərəfindən həyata keçirilir. Təhsil müəssisələrinin hüquq və vəzifələri, onların fəaliyyət istiqamətləri və maliyyələşmə qaydaları qanunla tənzimlənir. Təhsil iştirakçılarının hüquqları da mühüm yer tutur. Şagirdlər keyfiyyətli təhsil almaq, müəllimlər isə peşə fəaliyyətini sərbəst həyata keçirmək hüququna malikdirlər. Valideynlərin də təhsil prosesində iştirak etmək, övladlarının təlim-tərbiyəsi ilə bağlı məlumat almaq hüquqları vardır. Qanunda təhsilin keyfiyyətinə nəzarət məsələləri ayrıca qeyd olunur. Dövlət təhsil standartları müəyyən edilir, akkreditasiya və attestasiyalar həyata keçirilir. Bu isə təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsinə və keyfiyyətin yüksəldilməsinə xidmət edir. Qanunda təhsil sahəsində beynəlxalq əlaqələrin qurulması, xarici ölkələrlə əməkdaşlıq, tələbə və müəllim mübadiləsi kimi məsələlər də öz əksini tapmışdır. Bu, Azərbaycan təhsil sisteminin dünya təhsil məkanına inteqrasiyasını təmin edir.

"Azərbaycan Respublikasının Təhsil Qanunu ölkədə təhsil sisteminin formalaşdırılması və inkişaf etdirilməsi üçün mühüm hüquqi baza rolunu oynayır. Qanun təhsil sahəsində şəffaflığın, keyfiyyətin və bərabər imkanların təmin olunmasına xidmət edir. Qanunda təhsilalanların sosial müdafiəsi məsələlərinə də geniş yer verilmişdir.

Dövlət xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almasına şərait yaradır, aztəminatlı ailələrin övladlarına müxtəlif güzəştlər tətbiq edir. Təqaüdlər, sosial yardımlar və digər dəstək mexanizmləri təhsil hüququnun təmin olunmasına xidmət edir. Təhsil müəssisələrinin fəaliyyəti qanunvericiliyə uyğun şəkildə qurulur. Dövlət, bələdiyyə və özəl təhsil müəssisələrinin yaradılması və fəaliyyəti qanunla tənzimlənir. Hər bir təhsil müəssisəsi öz nizamnaməsinə əsasən fəaliyyət göstərir və dövlət standartlarına əməl etməyə borcludur". Qanunda müəllim peşəsinin əhəmiyyəti xüsusi vurğulanır. Müəllimlərin peşə hazırlığının artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və əməyinin stimullaşdırılması təhsil siyasətinin əsas istiqamətlərindən biri hesab olunur. Müəllimlərin

attestasiyası və sertifikatlaşdırılması onların peşəkarlıq səviyyəsinin müəyyən edilməsinə kömək edir. Təhsil proqramları və dövlət standartları qanunun mühüm hissəsini təşkil edir. Tədris proqramları şagirdlərin yaş və psixoloji xüsusiyyətlərinə uyğun hazırlanır. Kurikulumların tətbiqi nəticəsində şagirdyönümlü və nəticəyönümlü təlim prinsipləri əsas götürülür.

Qanunda inklüziv təhsil məsələləri də əks olunmuşdur. Fiziki məhdudiyyətli və xüsusi təhsil ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası üçün bərabər təhsil imkanlarının yaradılması nəzərdə tutulur. Bu, humanist və demokratik təhsil prinsiplərinin həyata keçirilməsinin göstəricisidir. Təhsil sahəsində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi də qanunda öz əksini tapmışdır. Müasir texnologiyalardan istifadə tədrisin keyfiyyətinin artırılmasına, elektron təhsil resurslarının inkişafına və distant təhsil imkanlarının genişlənməsinə şərait yaradır.

Azərbaycan Respublikasının Təhsil Qanunu Azərbaycan təhsil sisteminin bütün istiqamətlərini əhatə edən mühüm hüquqi sənəd kimi çıxış edir və təhsilin inkişafında əsas rol oynayır. Azərbaycan Respublikasının Təhsil Qanunu bir neçə əsas bölmədən ibarətdir və hər bölmə təhsil sisteminin müəyyən istiqamətlərini əhatə edir. Qanunun bölmələri təhsil sahəsində hüquqi münasibətlərin tənzimlənməsinə xidmət edir.

SƏDAQƏT NEMƏTOVA
Naxçıvan Müəllimlər İnstitutu
sedaqetnemet@gmail.com
https://orcid.org/0009-0001-5682-1639

ÜMUMİ TƏHSİLDƏ FƏRDİLƏŞDİRİLMİŞ TƏLİMİN ƏHƏMİYYƏTİ

Məqalədə ümumi təhsildə fərdiləşdirilmiş təlimin əhəmiyyəti araşdırılmışdır. Qeyd olunur ki, müasir təhsil sistemində şagirdlərin fərdi xüsusiyyətlərinin, maraq və bacarıqlarının nəzərə alınması təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Məqalədə ənənəvi təlim modelində mövcud problemlər, fərdiləşdirilmiş təlimin tətbiqi imkanları və bu sahədə qarşıya çıxan çətinliklər təhlil edilmişdir. Eyni zamanda müəllimlərin peşəkar inkişafı, rəqəmsal texnologiyaların tətbiqi və formativ qiymətləndirmənin əhəmiyyəti vurğulanmışdır. Nəticə olaraq göstərilmişdir ki, fərdiləşdirilmiş təlim şagirdlərin motivasiyasının artırılmasına, onların müstəqil düşünmə bacarıqlarının inkişafına və daha səmərəli təhsil mühitinin formalaşmasına müsbət təsir göstərir.

Açar sözlər: *ümumi təhsil, fərdiləşdirilmiş təlim, şagirdyönümlü yanaşma, təlim keyfiyyəti, motivasiya, innovativ təhsil*

Giriş. Müasir təhsil sistemində baş verən yeniliklər təlim prosesinin daha çevik, səmərəli və şagirdyönümlü şəkildə qurulmasını tələb edir. Qloballaşma, rəqəmsallaşma və informasiya texnologiyalarının sürətli inkişafı ənənəvi tədris metodlarının yenilənməsini zəruri etmişdir. Bu şəraitdə bütün şagirdlərə eyni yanaşmanın tətbiqi onların fərdi bacarıq və potensiallarının tam şəkildə inkişafına imkan vermir. Buna görə də fərdiləşdirilmiş təlim müasir ümumi təhsilin əsas istiqamətlərindən biri hesab olunur.

Fərdiləşdirilmiş təlim şagirdlərin fərdi xüsusiyyətlərini, maraq dairələrini, öyrənmə tempini və hazırlıq səviyyəsini nəzərə alaraq tədris prosesinin təşkil edilməsidir. Bu yanaşmanın əsas məqsədi hər bir şagird üçün uyğun öyrənmə mühiti yaratmaq və onların təlim prosesində fəal iştirakını təmin etməkdir.

Ənənəvi təhsil modelində müəllim əsas fiqur hesab olunur və dərs prosesi daha çox standart yanaşma üzərində qurulur. Bu zaman şagirdlər arasındakı fərdi fərqlər kifayət qədər nəzərə alınmır. Nəticədə bəzi şagirdlər dərs materialını mənimsəməkdə çətinlik çəkir, digərləri isə mövzunu daha tez qavradığı üçün dərsə marağını itirir. Bu isə ümumi təlim keyfiyyətinə və şagird motivasiyasına mənfi təsir göstərir.

Digər mühüm problemlərdən biri siniflərdə şagird sayının çox olmasıdır. Müəllimin hər bir şagirdə fərdi yanaşma tətbiq etməsi praktiki baxımdan çətinləşir. Eyni zamanda məktəblərdə texnoloji resursların məhdudluğu və bəzi müəllimlərin müasir pedaqoji metodlar üzrə hazırlıq səviyyəsinin yetərli olmaması fərdiləşdirilmiş təlimin tətbiqində müəyyən maneələr yaradır. Bundan əlavə, qiymətləndirmə sistemində daha çox summativ yanaşmanın üstünlük təşkil etməsi şagirdlərin fərdi inkişaf dinamikasının tam izlənilməsinə imkan vermir. Halbuki müasir təhsil şagirdin yalnız nəticəsini deyil, inkişaf prosesini də qiymətləndirməyi tələb edir.

Fərdiləşdirilmiş təlimin effektiv tətbiqi üçün ilk növbədə müəllimlərin peşəkar inkişafı gücləndirilməlidir. Müəllimlər müasir təlim metodları, rəqəmsal texnologiyalar və diferensiallaşdırılmış tapşırıqların hazırlanması istiqamətində mütəmadi təlimlərə cəlb olunmalıdırlar.

Təlim prosesində rəqəmsal platformaların və elektron resursların istifadəsi genişləndirilməlidir. Bu vasitələr şagirdlərin fərdi inkişaf səviyyəsini izləməyə, onların ehtiyaclarına uyğun tapşırıqlar təqdim etməyə və interaktiv öyrənmə mühiti yaratmağa imkan verir. Dərslərdə layihəəsaslı və tədqiqatyönümlü fəaliyyətlərin tətbiqi də fərdiləşdirilmiş təlim baxımından mühüm əhəmiyyət daşıyır. Belə fəaliyyətlər şagirdlərin müstəqil düşünmə, problem həll etmə və yaradıcılıq bacarıqlarının inkişafına kömək edir.

Eyni zamanda formativ qiymətləndirmənin daha geniş tətbiqi məqsədəuyğun hesab olunur. Bu qiymətləndirmə növü şagirdlərin inkişaf prosesini izləməyə, onların zəif və güclü tərəflərini müəyyən etməyə şərait yaradır.

Nəticə. Nəticə etibarilə, fərdiləşdirilmiş təlim ümumi təhsildə keyfiyyətin yüksəldilməsi baxımından mühüm pedaqoji yanaşmalardan biridir. Bu model şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla onların potensial imkanlarının inkişafına şərait yaradır. Fərdiləşdirilmiş təlim şagirdlərin motivasiyasını artırır, onların təlim prosesində fəal iştirakını təmin edir və müstəqil düşünmə bacarıqlarını formalaşdırır.

Müasir dövrdə innovativ və şagirdyönümlü təhsil mühitinin yaradılması üçün fərdiləşdirilmiş təlimin tətbiqinin genişləndirilməsi vacibdir. Bunun üçün məktəblərin texnoloji imkanlarının artırılması, müəllimlərin metodiki hazırlığının gücləndirilməsi və müasir qiymətləndirmə mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət daşıyır. Bu yanaşma gələcəkdə daha keyfiyyətli və rəqabətqabiliyyətli təhsil sisteminin formalaşmasına töhfə verə bilər.

AYGÜL MƏMMƏDOVA
Naxçıvan Müəllimlər İnstitutu
Doktorant
Metbuat@nmi.edu.az
ZÖHRƏ ƏSƏDOVA
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
Zohreesedova05@gmail.com

YARADICI MÜƏLLİM MODELİNİN FORMALAŞDIRILMASINDA MAGİSTRATURA TƏHSİLİNİN ELMİ-PEDAQOJİ İMKANLARI

Müasir dövrdə təhsil sistemində aparılan islahatlar, rəqəmsallaşma və kompetensiya əsaslı təlim yanaşmaları rəqabətqabiliyyətli və innovativ müəllim kadrlarının hazırlanmasını zəruri edir. Bu məqalədə yaradıcı müəllim modelinin formalaşdırılmasında ali təhsilin magistratura mərhələsinin rolu və onun elmi-pedaqoji imkanları tədqiq olunur. Magistratura təhsili tələbələrin yalnız nəzəri biliklərini dərinləşdirmir, həm də elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr vasitəsilə onların analitik təfəkkürünü, reflektiv düşüncəsini və yaradıcı potensialını inkişaf etdirir. Məqalədə magistrantların təcrübə prosesində innovativ texnologiyalardan istifadə etməsi, dərs planlaşdırması və real pedaqoji situasiyalara çevik yanaşma bacarıqları təhlil edilir. Nəticə olaraq qeyd edilir ki, ümumi təhsilin keyfiyyətini yüksəltmək üçün müəllim hazırlığında magistratura pilləsinin elmi-tədqiqat imkanlarından daha səmərəli istifadə olunmalıdır.

Açar sözlər: *yaradıcı müəllim modeli, magistratura təhsili, elmi-pedaqoji fəaliyyət, elmi-tədqiqat təcrübəsi, müəllim hazırlığı, ümumi təhsil*

Müasir dövrdə ümumi təhsil sistemində aparılan islahatlar müəllim hazırlığı məsələsini aktual elmi problemlərdən birinə çevirmişdir. Təhsil mühitində baş verən yeniliklər, rəqəmsal texnologiyaların tətbiqi, şagirdyönümlü və kompetensiya əsaslı təlim yanaşmalarının genişlənməsi yaradıcı və innovativ müəllim modelinə olan ehtiyacı daha da artırmışdır. Bu baxımdan müəllim hazırlığında magistratura pilləsinin rolu xüsusi əhəmiyyət kəsb edir. Magistratura təhsili yalnız nəzəri biliklərin dərinləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda gələcək müəllimlərin elmi-pedaqoji və tədqiqat yönümlü fəaliyyət vasitəsilə yaradıcı potensialının formalaşdırılmasına xidmət edən mühüm mərhələ kimi çıxış edir.

Müasir ümumi təhsil sistemi müəllimdən təkcə fənn bilikləri deyil, həm də analitik düşüncə, tədqiqat aparmaq bacarığı, innovativ yanaşmaları tətbiq etmək və pedaqoji prosesə yaradıcı münasibət göstərmək kimi keyfiyyətlər tələb edir. Bu keyfiyyətlərin formalaşdırılması ali təhsilin magistratura mərhələsində daha sistemli xarakter alır. Magistratura təhsili gələcək müəllimlərin elmi dünyagörüşünün genişlənməsinə, pedaqoji hadisələrə tədqiqat baxımından yanaşmasına və peşə fəaliyyətində yaradıcı mövqe nümayiş etdirməsinə imkan yaradır.

Yaradıcı müəllim modeli müasir pedaqogikanın əsas istiqamətlərindən biri hesab olunur. Belə müəllim yalnız tədris proqramını icra edən şəxs deyil, eyni zamanda təlim prosesini təhlil edən, yeni metod və texnologiyaları tətbiq edən, problem situasiyalarında çevik qərarlar qəbul edən və şagirdlərin yaradıcı potensialını inkişaf etdirməyə çalışan pedaqoji şəxsiyyətdir. Yaradıcı və innovativ təlim yanaşmaları da məhz bu tip müəllimin formalaşmasına xidmət edir.

Magistratura mərhələsində həyata keçirilən elmi-pedaqoji və elmi-tədqiqat təcrübələri müəllim hazırlığında mühüm əhəmiyyət daşıyır. Bu təcrübələr magistrantların elmi araşdırma aparmaq, məlumatları təhlil etmək, pedaqoji prosesə elmi yanaşmaq və innovativ metodlardan istifadə etmək bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, magistrantların ali təhsil mühitində pedaqoji fəaliyyətlə tanış olması onların peşəkar kompetensiyalarının formalaşmasına müsbət təsir göstərir. Azərbaycan Universitetinin magistratura tələbələrinin təcrübə prosesində tədris prosesinə cəlb olunması da bu istiqamətdə elmi-pedaqoji hazırlığın praktik əhəmiyyətini göstərir.

Bu gün magistrantlar elmi-pedaqoji təcrübə zamanı əldə etdikləri nəzəri bilikləri praktik fəaliyyətlə əlaqələndirərək pedaqoji bacarıqlarını təkmilləşdirirlər. Keçirdikləri dərslər ənənəvi yanaşmalarla yanaşı, yeni təlim metodları və innovativ texnologiyalar əsasında qurulur. Belə fəaliyyət magistrantlarda dərs planlaşdırma, şagirdlə ünsiyyət, pedaqoji situasiyalara çevik münasibət və reflektiv düşüncə kimi keyfiyyətlərin inkişafına şərait yaradır. Nəticədə onlar tədricən müasir tələblərə cavab verən pedaqoji kadr kimi formalaşırlar.

Müşahidələr göstərir ki, magistratura təhsili zamanı elmi fəaliyyətə cəlb olunan tələbələr pedaqoji prosesə daha analitik və yaradıcı yanaşırlar. Elmi-tədqiqat fəaliyyətində iştirak edən magistrantlar yeni təlim texnologiyalarının tətbiqi, fərqli pedaqoji yanaşmaların müqayisəli təhlili və innovativ həll yollarının müəyyənləşdirilməsi istiqamətində daha fəal mövqe nümayiş etdirirlər. Bu isə gələcəkdə ümumi təhsil müəssisələrində fəaliyyət göstərəcək müəllimlərin peşəkar inkişafına və təhsilin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir.

Müasir təhsil mühitində müəllim hazırlığında ən vacib məsələlərdən biri nəzəri hazırlıqla praktik və elmi fəaliyyət arasında əlaqənin təmin edilməsidir. Magistratura təhsili bu baxımdan geniş imkanlara malikdir. Magistrantların elmi konfranslarda, tədqiqat layihələrində, pedaqoji müzakirələrdə və elmi-pedaqoji təcrübələrdə iştirakı onların həm elmi təfəkkürünün, həm də yaradıcı pedaqoji baxışlarının inkişafına səbəb olur. Xüsusilə tədqiqat yönümlü fəaliyyət müəllimlərin gələcək peşə fəaliyyətində yenilikçi mövqe formalaşdırmasına imkan verir.

Yaradıcı müəllim modelinin formalaşdırılması ümumi təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm amillərdən biridir. Bu baxımdan magistratura təhsilində elmi-pedaqoji fəaliyyətin daha məqsədyönlü təşkili, magistrantların tədqiqat və innovativ fəaliyyətə təşviq olunması, ali təhsil müəssisələrində yaradıcı akademik mühitin formalaşdırılması mühüm məsələlər hesab olunur. Eyni zamanda magistrantların müstəqil elmi araşdırmalara cəlb edilməsi onların gələcək pedaqoji fəaliyyətində yaradıcı və reflektiv müəllim kimi formalaşmasına şərait yaradır.

Nəticə etibarilə qeyd etmək olar ki, magistratura təhsilinin elmi-pedaqoji imkanları yaradıcı müəllim modelinin formalaşdırılmasında mühüm rol oynayır. Magistratura mərhələsində əldə olunan elmi-tədqiqat və pedaqoji fəaliyyət təcrübəsi müəllimlərin peşəkar inkişafına, innovativ yanaşmalarının formalaşmasına və ümumi təhsildə keyfiyyət göstəricilərinin yüksəlməsinə müsbət təsir göstərir. Buna görə də müasir dövrdə yaradıcı və tədqiqat yönümlü müəllim hazırlığında magistratura təhsilinin imkanlarının genişləndirilməsi aktual elmi problemlərdən biri kimi diqqət mərkəzində saxlanılmalıdır.

РАКИФ ИБАДОВ
Лянкоранский государственный университет
Кандидат исторических наук, доцент
ibadov_rakif@mail.ru
СЕНУБЕР БИЛАЛЗАДЕ
Лянкоранский государственный университет
Магистрантка
senuber123bilalzade@gmail.com

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ОБЩЕГО ОБРАЗОВАНИЯ

Современное общее образование сталкивается с проблемами обновления содержания обучения, цифровизации, индивидуализации учебного процесса, подготовки педагогов и обеспечения равного доступа к качественному образованию. Решение этих вопросов способствует развитию компетентной, конкурентоспособной и всесторонне развитой личности учащегося.

Ключевые слова: *общее образование, качество образования, цифровизация обучения, подготовка учителей, инклюзивное образование.*

Современная система общего образования находится в условиях постоянных изменений, связанных с развитием общества, технологий и требований рынка труда. Образование перестаёт быть только передачей знаний и всё больше ориентируется на формирование у учащихся компетенций, необходимых для жизни в XXI веке. Однако, несмотря на реформы и инновации, в сфере общего образования сохраняется ряд актуальных проблем, требующих внимания. Одной из ключевых проблем является несоответствие содержания образования современным требованиям. Во многих школах учебные программы перегружены теоретическим материалом, который не всегда имеет практическое применение. Это приводит к тому, что учащиеся заучивают информацию, но не умеют применять её в реальных жизненных ситуациях. В результате снижается мотивация к обучению и интерес к предметам. Ещё одной важной проблемой является недостаточная индивидуализация обучения. В классе обучаются дети с разным уровнем подготовки, способностями и интересами, однако учебный процесс часто строится по единому стандарту для всех. Это затрудняет развитие сильных учеников и создаёт трудности для тех, кто нуждается в дополнительной поддержке. Также актуальной остаётся проблема подготовки и профессионального развития педагогов. Учитель играет ключевую роль в образовательном процессе, но не всегда имеет доступ к современным методикам, технологиям и качественным курсам повышения квалификации. Не менее важной проблемой является цифровизация образования. С одной стороны, внедрение технологий делает обучение более доступным и интересным. С другой стороны, не все школы обеспечены необходимым оборудованием, а не все учителя и ученики обладают достаточными цифровыми навыками.

Серьёзное значение имеет и проблема воспитательной функции школы. Образование должно формировать не только знания, но и ценности, такие как ответственность, уважение, толерантность и гражданская активность. Одной из дополнительных проблем современного общего образования является неравенство в доступе к качественному обучению. В зависимости от региона, материально-техническая база школ может существенно различаться. В городских школах чаще доступны современные лаборатории, цифровые ресурсы и квалифицированные кадры, тогда как сельские школы нередко испытывают дефицит ресурсов. Также стоит отметить проблему недостаточного финансирования образовательной сферы. Ограниченные бюджеты влияют на уровень заработной платы учителей, обновление учебных материалов и внедрение новых технологий. Это может замедлять процесс модернизации системы образования. Важную роль играет и участие родителей в образовательном процессе. Недостаточная вовлечённость семьи в обучение ребёнка может снижать его успеваемость и мотивацию. Эффективное взаимодействие школы и семьи является важным фактором успешного обучения и воспитания учащихся.

Итог: Таким образом, актуальные проблемы общего образования связаны с повышением качества обучения, внедрением цифровых технологий, развитием инклюзивного образования и совершенствованием профессиональной подготовки педагогов, что способствует формированию конкурентоспособной и всесторонне развитой личности учащегося.

PANEL 2. ÜMUMİ TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ – 02

RÜFƏT HÜSEYNZADƏ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə elmlər doktoru, professor
Əməkdar müəllim
prof.rufat@gmailşcom

TƏHSİLİN TARİXİ MƏKANI

Çox qədim tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türk islam dünyasının mərkəzində yerləşən Azərbaycan və bu yurdun qədim sakinləri hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər.

Açar sözlər: *təhsil, tarix, Naxçıvan*

Pedaqoji mənbələrdə göstərilir ki, qədim Yunanıstanda quldar balalarını xüsusi təlim-tərbiyə müəssisəsinə aparıb-gətirən, onların təlim tərbiyəsi ilə məşğul olan adamlara "Peydaqoqos" deyilirdi. Qədim yunan dilində "Paydas" - "uşaq", "gogos" - "yola salan" deməkdir ki, "pedaqogika", "pedaqoq" sözləri də buradan meydana gəlmişdir. Oradakı xüsusi təlim tərbiyə müəssisəsinin adına "Şkola" deyilirdi ki, bunun da mənası kitablarda yazıldığı kimi qədim yunan dilində "Asudə vaxt keçirilən yer" deməkdir.

Pedaqogika elminin banisi, XVII əsrin görkəmli pedaqoqu Yan Amos Komenski yazır ki, yunanlar bu sözü – yəni "Şkola" sözünü Şumerlərdən götürmüşlər. Daha sonra o, "Böyük didaktika" əsərində qeyd edir ki, tarixdə ilk məktəbi Nuhun oğlu yaratmışdır. Adını Skala adlandırmışdır. Y.A.Komenski bu fikri bizim eradan əvvəl I əsrdə yaşamış yəhudi əsilli yunan filosofu İosif Flavidən götürmüş və ona əsaslanaraq bunu yazmışdır.

"Skala" ilkin mənasında "pillə", "mərhələ" mənasını vermişdir. Rus dilində "Şkala" - "dərəcə", "mərhələ" deməkdir. Nuhun dövründə də pilləli, mərhələli məktəb yaradılmışdır. İngilis dilində məktəb mənasını verən "Skul", fransız dilində "Lekol", alman dilində "Şule", türk dilində "Okul", rus və belarus dillərində "Şkola" kəlmələri "Skala" sözündən əmələ gəlmişdir.

Həmçinin başqa dildən götürülmüş rus dilində işlənən "Skala" sözü qaya mənasında işlənməkdədir. Nuhun Gəmisi dağa deyil, məhz qayaya - Gəmiqayaya yön almış, orada dayanmışdır. Bəs bu ad – "Skala", Şkola" Şumerlərə necə gedib çıxmışdır ki, yunanlar da bunu oradan götürmüşlər. Tarix kitablarında göstərilir ki, Şumerlərlə Arattalıların həmişə sıx əlaqələri, xüsusilə, müntəzəm olaraq sıx ticarət əlaqələri olmuşdur. Naxçıvan da Aratta, sonralar Manna dövlətinin tərkibində olmuşdur.

RÜHƏNGİZ ƏLİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
ruhangiz.aliyeva@list.ru
https://orcid.org/0000-0002-9466-4822

ÇAĞDAŞ TƏHSİL YANAŞMALARININ PARADİQMATİK ƏSASLARI

Müasir dövrün tələblərinə cavab verən fəal təhsil modelinin tətbiqi, təhsil sisteminin qabaqcıl innovasiyalar əsasında inkişaf etdirilməsi və bu sahədə mövcud obyektiv problemlərin aradan qaldırılması son 4 ildə dünyada həyata keçirilən siyasətin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Yeni əsasların formalaşması, elm və təhsil sistemində adekvat şəkildə əks olunması müasir tariximizdə bu sahənin inkişafının ən mühüm göstəricilərindən biri olmuşdur.

Təhsil və öyrənmənin gəlir və sosial status əldə etməklə eyniləşdirildiyi bilik iqtisadiyyatında geniş yayılmış fikir ondan ibarətdir ki, yüksək maaşlı iş əldə etmək üçün təhsilə investisiya qoymaq lazımdır. Bu yanaşma öz köklərini İnsan Kapitalı Nəzəriyyəsindən (İKN) götürür. İKN-ə görə, təhsilə çəkilən xərclər investisiya kimi qiymətləndirilir və hesab edilir ki, bu investisiyalar məhsuldarlıq və gəlirlər arasındakı fərqləri izah etməyə kömək edir.

Açar sözlər: *Müasir təhsil paradiqması, fəal təhsil modeli, təhsil sisteminin inkişafı, təhsildə innovasiyalar*

Müasir dövrün tələblərinə cavab verən fəal təhsil kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiqi ilə təhsil sisteminin inkişafı, bu sahədə özünü göstərən obyektiv problemlərin aradan qaldırılması son 4 ildə dünyada həyata keçirilən siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Elm və təhsil sistemində yeni bünövrə, adekvat əks-səda çağdaş tariximizdə bu sahəni inkişafının ən mühüm izlərinə çevrilmişdir.

Təhsil almaq və öyrənmənin gəlir və status qazanmaqla eyniləşdirildiyi bilik iqtisadiyyatında yüksək gəlirli iş əldə etmək üçün təhsilə sərmayə qoymaq lazım olduğu anlayışı üstünlük təşkil edir. Buna görə də, bu yanaşmanın kökləri İnsan Kapitalı Nəzəriyyəsində (HVC) yatır. ISK-da təhsilə edilən xərclər investisiya kimi qəbul edilir və bu investisiyanın məhsuldarlıq və qazancdakı fərqləri izah etmək üçün istifadə oluna biləcəyi təklif edilir.

Müasir Dünyanın ehtiyac duyduğu işçi qüvvəsinin yetişdirilməsi funksiyasının əsasları Sənaye İnqilabına təsadüf etsə də, son dövrlərdə qlobal səviyyədə baş verən hadisələr nəticəsində təhsil və məşğulluq arasında daha sıx əlaqə qurulmuşdur və əslində, Təhsilin demək olar ki, tək funksiyası yeni dünyanın ehtiyac duyduğu nitelikləri təmin etməkdir. Demək olar ki, kapitalizmin dəyişən şərtlərinə uyğun olaraq formalaşan bu funksiya qlobal savadlılığın təmin edilməsindən qlobal kompüter savadının yayılmasına qədər təkamül yolu keçib. Yeni dünya quruluşunda təhsilə verilən funksiya informasiya iqtisadiyyatı ətrafında müzakirə edilir və təhsilin informasiya tələblərinə uyğun olaraq yenidən formalaşdırılmalı olduğu irəli sürülür.

Teoloji və siyasi meydan oxuma qavrayışı IX və X yüzillikdən sonra mədəni təhlükənin qavranılması kimi başa düşülür. Bua görə də təhsil informasiyası 21. yüzillikdə tərifi informasiyaya aid edilən funksiyaya uyğun olaraq “post-sənaye cəmiyyəti”, “kimi siyasi anlayışlara əsaslanır. Sosial dəyişiklikləri “dalğalar” adlandıran Tofflerin Təhsil almaq və öyrənmənin gəlir və status qazanmaqla eyniləşdirildiyi bilik iqtisadiyyatında yüksək gəlirli iş əldə etmək üçün təhsilə sərmayə qoymaq lazım olduğu anlayışı üstünlük təşkil edir. Buna görə də, bu yanaşmanın kökləri İnsan Kapitalı Nəzəriyyəsində (HVC) yatır. ISK-da təhsilə edilən xərclər investisiya kimi qəbul edilir və bu investisiyanın məhsuldarlıq və qazancdakı fərqləri izah etmək üçün istifadə oluna biləcəyi təklif edilir. 1960-cı illərdə ortaya çıxan və inkişafın işçi qüvvəsinin bilik və bacarıqlarından asılı olduğunu və buna görə də təhsilə investisiya etməklə mümkün ola biləcəyini müdafiə edən İSK sonrakı illərdə populyarlığını itirsə də, yenilənərək yenidən gündəmə gətirildi.

Bu reallığı düzgün dəyərləndirən bəhs edən Azərbaycan Respublikasının dövlət başçısı Cənab İlham Əliyev hələ 2003-cü ilin dekabrnda Cenevrədə keçirilən Ümumdünya Sammitində çıxış

edərkən demişdir ki, Azərbaycanda neftdən sonra prioritet sahə informasiya və kommunikasiya texnologiyaları olmalıdır.

Yeni İnsan Kapitalı Nəzəriyyəsində əvvəlki nəzəriyyədə irəli sürülən iddia, qlobal iqtisadiyyatın tələblərinə uyğun olaraq, fərdlərin, şirkətlərin və dövlətlərin beynəlxalq səviyyədə rəqabət üstünlüyünü əhatə edəcək şəkildə genişləndirilmişdir. Bu, rasional fərdin tərifinə əsaslanır.

Təhsil almaq və öyrənmənin gəlir və status qazanmaqla eyniləşdirildiyi bilik iqtisadiyyatında yüksək gəlirli iş əldə etmək üçün təhsilə sərmayə qoymaq lazım olduğu anlayışı üstünlük təşkil edir. Buna görə də, bu yanaşmanın kökləri İnsan Kapitalı Nəzəriyyəsində (HVC) yatır. ISK-da təhsilə edilən xərclər investisiya kimi qəbul edilir və bu investisiyanın məhsuldarlıq və qazancdakı fərqləri izah etmək üçün istifadə oluna biləcəyi təklif edilir. 1960-cı illərdə ortaya çıxan və iqtisadi inkişafın işçi qüvvəsinin bilik və bacarıqlarından asılı olduğunu və buna görə də təhsilə investisiya etməklə mümkün ola biləcəyini müdafiə edən İSK sonrakı illərdə populyarlığını itirsə də, yenilənərək yenidən gündəmə gətirildi. son illərdə qlobal aktorların fəal səyləri ilə. Yeni İnsan Kapitalı Nəzəriyyəsində əvvəlki nəzəriyyədə irəli sürülən iddia, qlobal iqtisadiyyatın tələblərinə uyğun olaraq, fərdlərin, şirkətlərin və dövlətlərin beynəlxalq səviyyədə rəqabət üstünlüyünü əhatə edəcək şəkildə genişləndirilmişdir.

Bu gün formal təhsilin müddətinin azaldılması və alınan təhsilin məzmununun qlobal iqtisadiyyatın tələblərinə uyğun tənzimlənməsi üçün təhsil sistemlərinə böyük təzyiqlər var. İqtisadiyyat üçün təhsil anlayışının inkişafında mühüm rol oynayan OECD, Aİ, YUNESKO və Dünya Bankı kimi beynəlxalq təşkilatlar təhsil haqqında məlumatların təşkil olunduğu mərkəzlərə çevrilmiş və islahatların həyata keçirildiyi barədə diskurs inkişaf etdirmişlər. Təhsildə qlobal iqtisadiyyatın ehtiyaclarına uyğundur. Xüsusilə İƏİT-in qlobal səviyyədə təşkil etdiyi imtahanlar vasitəsilə iqtisadiyyat üçün zəruri olan bəzi ixtisasların ölçülməsində və inkişaf etdirilməsində həlledici mövqedə olduğunu söyləmək olar. Beynəlxalq səviyyədə keçirilən bu imtahanlar dövlətlər arasında qlobal rəqabətin göründüyü sahələrdən birinə çevrilib. Ehtimal olunur ki, imtahanlardan əldə edilən məlumatlar ölkələrin gələcək iqtisadiyyatı haqqında məlumat verir və dövlətlər performansa əsasən yaradılmış liqa cədvəlləri vasitəsilə rəqiblərinin reytinqlərini görə bilirlər. Lakin bu imtahanlar mədəniyyət, bilik və pedaqogikadakı fərqləri və subyektiv şərtləri nəzərə almadan onları texniki problemlərə çevirir və qlobal səviyyədə şagird nailiyyətlərini müqayisə edir

Təhsil həm savadlılığın təmin edilməsində, həm də nizam-intizamın, müxtəlif vərdişlərin öyrədilməsində mühüm rol oynamışdır. Təhsil siyasəti ilk dəfə 19-cu əsrdə ibtidai məktəb təhsilinin kütləviləşməsini təmin etdi və ibtidai məktəbdən yuxarı təhsilə olan ehtiyacın artması ilə orta və ali təhsil qlobal səviyyədə genişlənməyə başladı. Hazırda formal təhsillə yanaşı, ömürboyu təhsil və digər öyrənmə formaları vasitəsilə "rəqəmsal savadlılıq", "sahibkarlıq", "çeviklik" və "uyğunlaşmaq" kimi xüsusiyyətlərin qazanılması üçün səylər göstərilir. Görünür ki, hər iki dövrdə təhsil vasitəsilə müxtəlif keyfiyyətlərə yiyələnmək az sayda insana deyil, çoxlu sayda insana yönəldilmiş və bu istiqamətdə kütləviləşməyə yönəlmiş siyasətlər aparılmışdır. Bununla belə, texnologiya-bacarıq müzakirələrində göründüyü kimi, qabaqcıl texnologiyaların tətbiqi ilə bir tərəfdən məşğulluğun azalması, digər tərəfdən isə ixtisaslı işçilərə ehtiyacın azalması gözlənilir. Bununla belə, işəgötürənlər az sayda ixtisaslı, buna görə də güclü işçilərlə qarşılaşmaq və ya danışıqlar aparmaq istəmirlər. Onlara lazım olan şey, ehtiyac duyduqları bacarıqları əldən vermək qorxusu olmadan, ehtiyac duyduqları zaman işə götürə və ehtiyac duyduqları zaman onları işdən çıxara bilən, asanlıqla dəyişdirilə bilən kompüter savadlı işçilərin böyük ehtiyatıdır. Bu təchizatı təmin etməyin yolu təhsildən keçir.

Ümumiyyətlə, bilik və bacarıqlar kimi anlayışlara aid edilən mənaların və bu anlayışların istifadə olunduğu kontekstlərin diferensiallaşdırılması ömürboyu təhsilin tərif və yanaşmalarında dəyişikliklərə səbəb olur. Bu gün qlobal təhsil siyasətinin mərkəzində dayanan ömürboyu öyrənmə yanaşması keçən əsrin əvvəllərində qeyri-peşəkar öyrənmə üslublarını əhatə etməklə ortaya çıxdı; Yaş, vaxt və imkan baxımından məhdud olmayan, insanın bütün aspektlərdə inkişafına imkan verən qeyri-məhdud öyrənmə prosesi kimi qəbul edilmişdir. 1970-ci illərdə ömür boyu öyrənmə anlayışı yenidən gündəmə gəldi və təhsil və təlim siyasətlərini ehtiva edən mənada istifadə edildi. Konsepsiyanın mənasında əsl dəyişiklik 1990-cı illərdə başladı. İstehsalın təşkili və

texnologiyasındakı dəyişikliklərə paralel olaraq işçi qüvvəsinin ixtisasları əhəmiyyətli dərəcədə dəyişsə də, bu dəyişikliyin tələblərinə cavab vermək üçün təhsil vacib və zəruri olmuşdur.

Bu gün qlobal təhsil siyasətinin mərkəzində dayanan ömürboyu öyrənmə yanaşması keçən əsrin əvvəllərində qeyri-peşəkar öyrənmə üslublarını əhatə etməklə ortaya çıxdı; Yaş, vaxt və imkan baxımından məhdud olmayan, insanın bütün aspektlərdə inkişafına imkan verən qeyri-məhdud öyrənmə prosesi kimi qəbul edilmişdir. 1970-ci illərdə ömür boyu öyrənmə anlayışı yenidən gündəmə gəldi və təhsil və təlim siyasətlərini ehtiva edən mənada istifadə edildi. Konsepsiyanın mənasında əsl dəyişiklik 1990-cı illərdə başladı. İstehsalın təşkili və texnologiyasındakı dəyişikliklərə paralel olaraq işçi qüvvəsinin ixtisasları əhəmiyyətli dərəcədə dəyişsə də, bu dəyişikliyin tələblərinə cavab vermək üçün təhsil vacib və zəruri olmuşdur. Buna görə də ömürboyu öyrənmə dəyişən işçi qüvvəsinin ixtisaslarının əldə edilməsi və dəyişən əmək bazarına uyğun olaraq işçinin yenilənməsi yolu kimi görülür və bu prosesin davamlılığı vurğulanır.

AYŞƏN İMANLI
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
ImanliAysen@nmi.edu.az

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ İDARƏETMƏNİN AKTUAL MƏSƏLƏLƏRİ

Məqalədə ümumi təhsil sistemində idarəetmənin əsas problemləri və onların həlli yolları araşdırılmışdır. Təhsildə keyfiyyətin artırılması, rəqəmsal idarəetmə, müəllim hazırlığı və effektiv nəzarət mexanizmlərinin əhəmiyyəti təhlil edilmişdir.

Açar sözlər: *təhsil sistemi, idarəetmə, məktəb idarəçiliyi, təhsildə keyfiyyət, rəqəmsallaşma*

Müasir dövrdə təhsil cəmiyyətin inkişafında mühüm rol oynayan əsas sahələrdən biridir. Təhsil sisteminin düzgün idarə olunması insan kapitalının formalaşmasına, sosial rifahın yüksəlməsinə və ölkənin iqtisadi inkişafına birbaşa təsir göstərir. Buna görə də ümumi təhsil sistemində idarəetmənin aktual məsələlərinin araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Təhsil idarəçiliyi yalnız inzibati fəaliyyət deyil, həm də təlim-tərbiyə prosesinin səmərəli təşkilini təmin edən mühüm mexanizmdir. Müasir məktəblərdə idarəetmə prosesi innovativ yanaşmalar, informasiya texnologiyalarının tətbiqi və strateji planlaşdırma ilə sıx bağlıdır.

Ümumi təhsil sistemində mövcud olan əsas problemlərdən biri idarəetmə mexanizmlərinin müasir tələblərə tam uyğunlaşmamasıdır. Bəzi hallarda məktəblərdə idarəetmə ənənəvi üsullarla həyata keçirilir ki, bu da çevik qərar qəbul etməyə mane olur.

Digər mühüm məsələlərdən biri müəllim hazırlığı və peşəkar inkişaf problemidir. Müasir dövrdə müəllimlərin rəqəmsal bacarıqlara yiyələnməsi və yeni təlim metodlarından istifadə etməsi vacib hesab olunur. Lakin bütün təhsil müəssisələrində bu istiqamətdə lazımi şərait tam formalaşmamışdır. Təhsil sistemində maddi-texniki bazanın zəifliyi də idarəetməyə təsir edən amillərdəndir. Müasir texnologiyaların çatışmazlığı tədris prosesinin keyfiyyətini aşağı sala bilər. Bundan əlavə, valideyn-məktəb münasibətlərinin düzgün qurulmaması idarəetmədə müəyyən çətinliklər yaradır.

Hazırda təhsil sahəsində rəqəmsal idarəetmə sistemlərinin tətbiqi geniş yayılmışdır. Elektron jurnal, onlayn qiymətləndirmə və rəqəmsal məlumat bazaları idarəetmənin daha şəffaf və operativ həyata keçirilməsinə imkan yaradır.

Strateji idarəetmə yanaşması da mühüm əhəmiyyət kəsb edir. Məktəblərdə uzunmüddətli inkişaf planlarının hazırlanması, müəllim və şagird fəaliyyətinin davamlı qiymətləndirilməsi təhsilin keyfiyyətinə müsbət təsir göstərir. Eyni zamanda demokratik idarəetmə prinsiplərinin tətbiqi məktəb kollektivində sağlam əməkdaşlıq mühitinin formalaşmasına kömək edir. Müəllim, valideyn və şagirdlərin idarəetmə prosesində iştirak etməsi qərarların daha effektiv qəbul edilməsinə şərait yaradır.

Beləliklə, ümumi təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi təhsilin keyfiyyətinin artırılması baxımından mühüm əhəmiyyətə malikdir. Müasir texnologiyaların tətbiqi, müəllimlərin peşəkar inkişafı və effektiv idarəetmə mexanizmlərinin qurulması təhsil sisteminin inkişafına müsbət təsir göstərir. Bu sahədə aparılan islahatlar gələcəkdə daha keyfiyyətli və rəqabətqabiliyyətli təhsil modelinin formalaşmasına şərait yaradacaqdır.

GÜLNARƏ PAŞAYEVA
Qarabağ Universiteti
Müəllim
Gulnara.pashayeva@karabakh.edu.az
https://orcid.org/0009-0005-7095-6395

DİFERENSİALLAŞMANIN TƏTBİQ MEXANİZMİ VƏ ŞƏRTLƏRİ

Diferensiallaşma təlim prosesində şagirdlərin fərdi xüsusiyyətlərini, bilik səviyyəsini və öyrənmə sürətini nəzərə alaraq tətbiq olunan pedaqoji yanaşmadır. Onun effektiv tətbiqi üçün uyğun metodlar, resurslar və müəllimin planlı təşkilati fəaliyyəti mühüm rol oynayır.

***Açar sözlər**: diferensiallaşma, təlim prosesi, fərdi yanaşma, pedaqoji metodlar, təhsil strategiyası, öyrənmə səviyyəsi*

Müasir təhsil sistemində diferensiallaşma təlim prosesinin fərdiləşdirilməsinə yönəlmiş innovativ pedaqoji yanaşmalardan biridir. Bu yanaşma şagirdlərin fərqli bilik səviyyələrini, maraqlarını və öyrənmə sürətini nəzərə alaraq tədris fəaliyyətinin çevik təşkilini təmin edir. Diferensiallaşma nəticəsində təlim vahid model əsasında deyil, müxtəlif öyrənmə ehtiyaclarına uyğun şəkildə qurulur və hər bir şagirdin potensial inkişafı üçün şərait yaradılır.

Diferensiallaşdırılmış təlimin tətbiq mexanizmi bir neçə ardıcıl və qarşılıqlı əlaqəli mərhələdən ibarətdir. Bu mərhələlər təlim prosesinin planlı və sistemli şəkildə təşkilinə imkan yaradır və şagirdlərin fərdi inkişaf xüsusiyyətlərini nəzərə almağa şərait yaradır.

- Diaqnostik qiymətləndirmə mərhələsi;
- Təlim prosesinin diferensial planlaşdırılması;
- Təlim fəaliyyətinin təşkil edilməsi.

Diferensiallaşdırılmış təlimin diaqnostik qiymətləndirmə mərhələsi şagirdlərin mövcud bilik səviyyəsinin, bacarıqlarının və öyrənmə xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə bağlıdır. Bu mərhələdə müəllim şagirdlərin əvvəlki biliklərini, mövzu üzrə hazırlıq səviyyəsini, öyrənmə tempini və fərdi maraqlarını təhlil edir. Diaqnostik qiymətləndirmə müxtəlif üsullar vasitəsilə həyata keçirilə bilər. Buraya testlər, müşahidə, sorğu, şifahi suallar, kiçik yazılı tapşırıqlar və interaktiv fəaliyyətlər daxildir.

Bu mərhələnin əsas məqsədi şagirdlərin güclü və zəif tərəflərini müəyyən etməkdir. Müəllim əldə olunan məlumatlar əsasında hansı şagirdlərin əlavə dəstəyə ehtiyac duyduğunu və hansı şagirdlərin daha mürəkkəb tapşırıqları yerinə yetirə biləcəyini müəyyənləşdirir. Beləliklə, diaqnostik qiymətləndirmə diferensiallaşdırılmış təlimin əsasını təşkil edir və müəllimə təlim prosesini daha məqsədyönlü şəkildə planlaşdırmağa imkan verir. Bu mərhələ eyni zamanda şagirdlərin fərdi öyrənmə ehtiyaclarını müəyyən etməyə və təlim strategiyalarını həmin ehtiyaclara uyğunlaşdırmağa kömək edir.

Təlim prosesinin diferensial planlaşdırılması mərhələsində müəllim diaqnostik qiymətləndirmə nəticələrinə əsaslanaraq təlim prosesini diferensial şəkildə planlaşdırır. Bu mərhələdə təlim materiallarının seçilməsi, tapşırıqların hazırlanması və öyrənmə fəaliyyətlərinin təşkili şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılır. Müəllim eyni mövzunu müxtəlif səviyyələrdə təqdim edə bilər və bu zaman şagirdlərə fərqli çətinlik dərəcəsinə malik tapşırıqlar təqdim olunur.

Diferensial planlaşdırma zamanı təlim məzmunu, öyrənmə prosesi və qiymətləndirmə üsulları fərqləndirilə bilər. Məsələn, bəzi şagirdlər üçün mövzunun əsas anlayışlarını mənimsəməyə yönəlmiş sadə tapşırıqlar təqdim olunduğu halda, digər şagirdlər üçün analitik düşünmə və tədqiqat bacarıqları tələb edən daha mürəkkəb tapşırıqlar hazırlanır. Bu yanaşma şagirdlərin fərdi öyrənmə tempinə uyğun təhsil almağa imkan yaradır və onların təlim prosesində fəal iştirakını təmin edir. Nəticədə hər bir şagird öz imkanlarına uyğun şəkildə öyrənmə fəaliyyətinə cəlb olunur.

Diferensiallaşdırılmış təlimin təlim fəaliyyətinin təşkil edilməsi mərhələsi təlim fəaliyyətinin praktiki şəkildə təşkil edilməsidir. Bu mərhələdə müəllim planlaşdırılmış fəaliyyətləri həyata keçirir

və şagirdlərin öyrənmə prosesini müxtəlif üsullarla təşkil edir. Təlim fəaliyyətləri fərdi iş, cütlərlə iş və qrup işi kimi müxtəlif formalarda həyata keçirilə bilər.

Fərdi fəaliyyətlər şagirdlərin müstəqil düşünmə və öz biliklərini tətbiq etmə bacarıqlarını inkişaf etdirir. Cütlərlə və qrup şəklində həyata keçirilən fəaliyyətlər isə şagirdlər arasında əməkdaşlıq, ünsiyyət və qarşılıqlı öyrənmə bacarıqlarının formalaşmasına kömək edir. Müəllim bu prosesdə istiqamətləndirici rol oynayır və şagirdlərin fəaliyyətini koordinasiya edir. Müxtəlif layihələr, müzakirələr, problem həll etmə tapşırıqları və yaradıcı fəaliyyətlər diferensiallaşdırılmış təlimin effektivliyini artırır.

Təlim fəaliyyətinin düzgün təşkil edilməsi şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alan və onların potensial imkanlarını inkişaf etdirən öyrənmə mühitinin formalaşmasına şərait yaradır. Diferensiallaşdırılmış təlim sayəsində şagirdlər daha aktiv öyrənmə prosesinə cəlb olunur və onların akademik nailiyyətləri daha yüksək səviyyədə inkişaf edir.

Diferensiallaşma yalnız tapşırıqların səviyyəsinin dəyişdirilməsi ilə məhdudlaşmır. Bu yanaşma təlim məzmununun, öyrənmə prosesinin və nəticələrin də fərqləndirilməsini nəzərdə tutur. Məsələn, bəzi şagirdlər üçün vizual materiallar və praktik fəaliyyətlər daha effektiv olduğu halda, digər şagirdlər analitik və tədqiqat yönümlü tapşırıqlarla daha yaxşı nəticə əldə edə bilirlər.

Diferensiallaşdırılmış təlimin səmərəli şəkildə həyata keçirilməsi üçün bir sıra pedaqoji və təşkilati şərtlərin təmin olunması vacibdir. Bu şərtlər təlim prosesinin daha məqsədyönlü və effektiv təşkilinə imkan yaradır, həmçinin şagirdlərin fərdi inkişaf xüsusiyyətlərinin nəzərə alınmasına şərait yaradır. Diferensiallaşma yalnız metod kimi deyil, həm də təlim prosesinin sistemli şəkildə qurulmasını tələb edən kompleks pedaqoji yanaşma kimi qiymətləndirilir.

Diferensiallaşdırılmış təlimin tətbiqində əsas rol müəllimə məxsusdur. Müəllimin innovativ pedaqoji yanaşmalara açıq olması, müasir təlim metodlarını bilməsi və onları praktik fəaliyyətində tətbiq edə bilməsi bu prosesin uğurlu həyata keçirilməsində mühüm əhəmiyyət daşıyır. Müəllim şagirdlərin fərdi xüsusiyyətlərini, onların öyrənmə tərzini və bilik səviyyəsini nəzərə alaraq təlim prosesini təşkil etməlidir.

Müəllimin analitik düşünmə və planlaşdırma bacarıqları da vacibdir. O, müxtəlif səviyyəli tapşırıqlar hazırlamalı, fərqli qiymətləndirmə üsullarından istifadə etməli və şagirdlərin inkişaf dinamikasını izləməlidir. Bu baxımdan müəllimin davamlı peşəkar inkişafı, təlimlərdə və metodiki seminarlarda iştirak etməsi diferensiallaşdırılmış təlimin keyfiyyətinə müsbət təsir göstərir.

Diferensiallaşdırılmış təlimin tətbiqi üçün müxtəlif tədris resurslarının mövcudluğu mühüm şərtlərdən biridir. Müxtəlif səviyyəli dərs materialları, əlavə vəsaitlər, vizual vasitələr və interaktiv resurslar şagirdlərin fərqli öyrənmə ehtiyaclarını qarşılamağa imkan verir.

Müasir rəqəmsal texnologiyaların istifadəsi də bu prosesdə mühüm rol oynayır. Elektron tədris platformaları, onlayn təhsil resursları və interaktiv proqramlar şagirdlərin fərdi öyrənmə tempinə uyğun fəaliyyət göstərməsinə imkan yaradır. Rəqəmsal texnologiyalar vasitəsilə müəllim şagirdlərin inkişaf səviyyəsini daha asan izləyə və təlim prosesini onların ehtiyaclarına uyğun şəkildə tənzimləyə bilər.

Diferensiallaşdırılmış təlimin uğurlu tətbiqi üçün inklüziv və psixoloji cəhətdən rahat sinif mühitinin yaradılması da vacib şərtlərdən biridir. Belə mühitdə hər bir şagirdin fərdi xüsusiyyətləri nəzərə alınır və onların öyrənmə prosesində aktiv iştirak etməsi üçün əlverişli şərait yaradılır.

Dəstəkləyici sinif mühiti şagirdlər arasında qarşılıqlı hörmət, əməkdaşlıq və tolerantlıq prinsiplərinə əsaslanır. Bu mühitdə şagirdlər öz fikirlərini sərbəst şəkildə ifadə edir, müzakirələrdə iştirak edir və müxtəlif öyrənmə fəaliyyətlərinə cəlb olunurlar. Belə yanaşma şagirdlərin motivasiyasını artırır və onların öyrənmə prosesinə daha fəal şəkildə qoşulmasına imkan yaradır.

Diferensiallaşdırılmış təlimin effektivliyi şagirdlərə fərdi yanaşmanın təmin olunması ilə sıx bağlıdır. Müəllim şagirdlərin maraq dairəsini, öyrənmə üslubunu və psixoloji xüsusiyyətlərini nəzərə alaraq təlim fəaliyyətlərini təşkil etməlidir. Fərdi yanaşma şagirdlərin təlimə olan marağını artırır və onların öz bacarıqlarını daha yaxşı inkişaf etdirməsinə imkan verir.

Motivasiya amilləri də diferensiallaşdırılmış təlimdə mühüm rol oynayır. Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi, onların təşəbbüslərinin dəstəklənməsi və yaradıcı fəaliyyətlərə

cəlb olunması təlim prosesinin daha effektiv olmasına kömək edir. Nəticədə şagirdlər təlim fəaliyyətində daha fəal iştirak edir və onların akademik nəticələri yüksəlir.

Diferensiallaşmanın uğurlu tətbiqi müəllimin peşəkar hazırlığı, tədris resurslarının mövcudluğu, müasir texnologiyaların istifadəsi və inklüziv sinif mühitinin yaradılması kimi bir sıra mühüm şərtlərin təmin olunmasını tələb edir. Bu amillər birlikdə təlim prosesinin daha səmərəli təşkilinə və şagirdlərin fərdi inkişafının dəstəklənməsinə imkan yaradır.

Son illərdə rəqəmsal təhsil platformaları, adaptiv öyrənmə sistemləri və süni intellekt əsaslı təlim vasitələri diferensiallaşmanın tətbiq imkanlarını daha da genişləndirmişdir. Bu texnologiyalar şagirdlərin fərdi inkişaf trayektoriyasını izləməyə və təlim prosesini real vaxt rejimində uyğunlaşdırmağa imkan verir.

Diferensiallaşma müasir təhsil sistemində hər bir şagirdin fərdi xüsusiyyətlərini, bilik səviyyəsini və öyrənmə tərzini nəzərə alan mühüm pedaqoji yanaşma kimi böyük əhəmiyyət daşıyır. Bu yanaşmanın düzgün və məqsədyönlü tətbiqi təlimin keyfiyyətini yüksəldir, şagirdlərin dərs prosesində fəallığını artırır, onların potensial imkanlarının daha dolğun üzə çıxmasına şərait yaradır və inklüziv, çevik, şagirdyönümlü təhsil mühitinin formalaşmasını təmin edir. Buna görə də diferensiallaşdırılmış təlim yalnız metodik seçim deyil, həm də müasir təhsilin səmərəli təşkili və davamlı inkişafı üçün zəruri şərt kimi qiymətləndirilməlidir.

KÖNÜL MUSTAFAYEVA
Goranboy şəhər 2 №-li tam orta məktəb
Müəllim
Mustafayevakonul0023@gmail.com
https://orcid.org/0009-0006-0552-8172

AZƏRBAYCANDA ÜMUMİ TƏHSİL SİYASƏTİNİN İBTİDAİ TƏHSİL MƏRHƏLƏSİNDƏ TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

Azərbaycanda ibtidai təhsil siyasəti müasir kurikulum islahatlarına və dövlət standartlarına əsaslanır. Bu mərhələdə əsas diqqət şagirdlərdə fundamental bacarıqların formalaşdırılmasına, təlimin keyfiyyətinin yüksəldilməsinə və innovativ metodların tətbiqinə yönəlmişdir. Strateji hədəflər təhsilin inklüzivliyini təmin etməklə intellektual potensialın inkişafını prioritet hesab edir

Açar sözlər: *ibtidai təhsil, təhsil siyasəti, kurikulum islahatları, dövlət standartları, təlim keyfiyyəti*

Azərbaycanda ibtidai təhsil mərhələsi ümumi təhsilin təməl daşı olmaqla, fərdin intellektual, emosional və sosial inkişafının fundamentini qoyur. Müasir dövlət siyasətinin əsas hədəfi bu pillədə keyfiyyətli təhsil mühiti yaratmaq, şagirdlərin potensial imkanlarını üzə çıxarmaq və onları ömürboyu təhsilin növbəti mərhələlərinə hazırlamaqdır. İbtidai təhsilin tətbiqi xüsusiyyətləri həm hüquqi-normativ bazanın tələblərini, həm də pedaqoji innovasiyaların sintezini özündə birləşdirir.

İbtidai təhsilin struktur və funksional xüsusiyyətləri

Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə əsasən, ibtidai təhsil I-IV sinifləri əhatə edir. Bu dövr uşağın oyun fəaliyyətindən sistematik təlim fəaliyyətinə keçid etdiyi həssas bir mərhələdir. Təhsil siyasətinin tətbiqində əsas diqqət şagirdlərdə oxu, yazı və hesablama kimi fundamental bacarıqların formalaşdırılmasına yönəlir. Lakin müasir yanaşma yalnız bu texniki bacarıqlarla məhdudlaşmır; burada həm də məntiqi təfəkkür, ətraf aləmin dərki və ilkin ünsiyyət mədəniyyətinin aşılanması prioritetdir.

İbtidai təhsilin idarə olunmasında dövlət standartları mühüm rol oynayır. Bu standartlar hər bir fənn üzrə şagirdin əldə etməli olduğu minimum bilik və bacarıqları müəyyən edir. Məzmunun müasirləşdirilməsi prosesində əsas prinsiplərdən biri varislikdir. Yəni məktəbəqədər hazırlıq mərhələsində qazanılan vərdişlər birinci sinifdə genişləndirilir, dördüncü sinfin sonunda isə şagird ümumi orta təhsilə keçid üçün zəruri olan akademik bazaya sahib olur.

Kurikulumun tətbiqi və şagirdyönümlü yanaşma

Azərbaycanda tətbiq edilən milli kurikulum islahatları ibtidai təhsilin fəlsəfəsini kökündən dəyişmişdir. Əvvəlki dövrlərdə tətbiq olunan "müəllimyönümlü" model yerini "şagirdyönümlü" modelə vermişdir. Bu modelin tətbiqi xüsusiyyətləri aşağıdakı aspektlərdə özünü büruzə verir:

Fərdi yanaşma - Hər bir uşağın qavrama sürəti və maraq dairəsi fərqlidir. Təhsil siyasəti müəllimdən tələb edir ki, təlim prosesini sinifdəki bütün şagirdlərin səviyyəsinə uyğun differensial şəkildə qursun;

Nəticəyönümlülük - Dərs prosesi yalnız mövzunun mənimsənilməsinə deyil, həmin mövzunun real həyatda tətbiqinə və müəyyən edilmiş son nəticələrə çatmağa xidmət edir;

İnteqrasiya imkanları - İbtidai siniflərdə fənlərarası inteqrasiya xüsusi əhəmiyyət kəsb edir. Məsələn, riyaziyyat dərsində hesablama apararkən şagirdin ana dili qaydalarına əməl etməsi və ya həyat bilgisi fənni ilə əlaqə qurulması biliyin bütövlüyünü təmin edir.

Məzmunun sadələşdirilməsi və vizuallaşdırılması da tətbiqin əsas xüsusiyyətlərindən biridir. İbtidai sinif dərslikləri uşaqların yaş və psixoloji xüsusiyyətləri nəzərə alınaraq, daha çox illüstrasiyalar, oyun tipli tapşırıqlar və praktik işlərlə zənginləşdirilmişdir.

Təlim prosesində inovasiyalar və texnoloji resurslar

Rəqəmsallaşma dövründə ibtidai təhsil siyasəti informasiya texnologiyalarının dərslərə inteqrasiyasını zəruri edir. Məktəblərdə "Elektron məktəb" layihələrinin genişlənməsi, siniflərin

interaktiv lövhələrlə təmin olunması təlimin keyfiyyətini artırır. Bu vasitələr mücərrəd anlayışların uşaqlar üçün somutlaşdırılmasına xidmət edir.

Xüsusilə son illərdə tətbiq edilən layihə əsaslı öyrənmə metodları şagirdlərin tədqiqatçılıq qabiliyyətini erkən yaşlardan inkişaf etdirir. Uşaqlar kiçik qruplarda işləyərək problemləri həll etməyi, birgə qərar verməyi və təqdimat bacarıqlarını öyrənirlər. Bu, təkcə bilik qazanmaq deyil, həm də müasir əmək bazarının gələcəkdə tələb edəcəyi "yumşaq bacarıqların" (soft skills) təməlinin qoyulmasıdır.

Qiymətləndirmə sistemi və inkişafın monitorinqi

İbtidai təhsil pilləsində qiymətləndirmə mexanizmi şagirdin cəzalandırılmasına deyil, onun inkişafının izlənilməsinə və stimullaşdırılmasına yönəlib. Müasir siyasət çərçivəsində tətbiq olunan formativ qiymətləndirmə müəllimə dərsin hər mərhələsində şagirdin hansı çətinliklərlə qarşılaşdığını görməyə imkan verir.

Summativ qiymətləndirmələr isə müəyyən bir tədris bölməsinin sonunda şagirdin nailiyyətlərini rəsmiləşdirir. Lakin ibtidai siniflərdə qiymətləndirmə apararkən uşağın psixoloji vəziyyəti, özünəinam hissi mütləq nəzərə alınmalıdır. Qiymətləndirmənin şəffaf və obyektiv aparılması həm valideynlərin məktəbə etibarını artırır, həm də təhsilin ümumi effektivliyini ölçməyə kömək edir.

Müəllim hazırlığı və peşəkar inkişaf

İbtidai təhsil siyasətinin uğurlu tətbiqi birbaşa müəllim amilinə bağlıdır. Müəllimlərin yeni metodikalarla tanış olması, psixoloji hazırlığı və İKT bacarıqları dövlət tərəfindən mütəmadi olaraq diqqət mərkəzində saxlanılır. Sertifikatlaşdırma prosesi müəllimlərin bilik səviyyəsini yoxlamaqla yanaşı, onlara öz üzərində işləmək üçün motivasiya verir.

Müəllim-şagird-valideyn üçbucağının düzgün qurulması ibtidai təhsildə uğurun açarıdır. Təhsil siyasəti valideynlərin tədris prosesinə cəlb olunmasını, onların övladlarının inkişafı barədə mütəmadi məlumatlandırılmasını təşviq edir. Məktəb və ailənin sıx əməkdaşlığı uşağın sosial adaptasiyasını sürətləndirir və təlim göstəricilərini yüksəldir.

Azərbaycanda ibtidai təhsil siyasəti dinamik inkişaf yolundadır. Tətbiq edilən yeniliklər, qəbul olunmuş dövlət proqramları və kurikulum islahatları təhsilin milli dəyərlərə söykənən, lakin qlobal standartlara cavab verən bir sistem kimi formalaşmasına xidmət edir. İbtidai təhsildə kəmiyyətdən keyfiyyətə keçid prosesi şagirdlərin yalnız bilikli deyil, həm də geniş dünya görüşlü, müstəqil düşünən və cəmiyyət üçün faydalı fərdlər kimi yetişməsini təmin edir. Gələcəyin savadlı nəsli məhz bu mərhələdə qoyulan düzgün və elmi əsaslı təhsil siyasətinin bəhrəsidir.

NAHİRƏ TAĞIZADƏ
Naxçıvan Qızlar Liseyi
Müəllim
nahirtagizad@gmail.com

DÖVLƏT ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİLVERƏNLƏRİN SERTİFİKATLAŞDIRILMASININ ƏHƏMİYYƏTİ

Tezisdə təhsilin millətin inkişafındakı mühüm rolu vurğulanır və Azərbaycanda təhsil sahəsinə göstərilən dövlət qayğısından bəhs edilir. Müəllimlərin peşəkar inkişafının vacibliyi əsaslandırılır, sertifikatlaşdırma prosesinin təhsilin keyfiyyətinin yüksəldilməsinə, müəllimlərin bilik və bacarıqlarının yenilənməsinə xidmət etdiyi qeyd olunur. Həmçinin sertifikatlaşdırmanın müəllimlər üçün motivasiya yaratdığı və onların öz üzərində daha çox işləməsinə şərait yaratdığı göstərilir. Müəllif bu prosesin müasir təhsilin tələblərinə cavab verən müəllimlərin formalaşdırılmasında mühüm əhəmiyyət daşıdığı qənaətinə gəlir.

Açar sözlər: *təhsil, kurikulum, metodika, sertifikatlaşdırma*

“Təhsil millətin gələcəyidir” ümummilli lider Heydər Əliyev.

Ümumilli liderimizin bu kəlməsi çox böyük və dərin məna daşıyır. Bir millətin millət kimi var olması, öz milli kimliyini, mənsubiyyətini, dəyərlərini, adət-ənənələrini bilməsi və onu düzgün şəkildə əks etdirməsi üçün təhsilli olması əsas amillərdən biridir. Məhz bunun təzahürü kimi ölkəmizdə təhsilin inkişafına hər zaman nəzarət edilib və xüsusi diqqət ayrılıb.

Azərbaycan təhsili istər güclü və müasir infrastrukturu, istər yüksək səviyyəli təhsilverənləri, istərsə də innovativ və çevik yanaşması ilə daim dünya təhsil sistemində baş verən yeniliklərə anında inteqrasiya etməyi bacarıb. Ölkəmizdə hər zaman təhsil sahəsinin daim inkişaf etməsi və irəli getməsi dövlət siyasətinin əsas prioritet məsələlərindən biri olub.

Möhtərəm prezidentimiz İlham Əliyev cənabları və birinci xanım Mehriban Əliyeva Azərbaycan təhsilində baş verən yenilikləri daim yaxından izləyir və dünya təhsil sistemindəki müsbət dəyişikliklərin ölkəmizdə tətbiqi üçün hər cür şərait yaradırlar.

Bu gün Azərbaycanın ən ucqar kəndlərində belə müasir tələblərə cavab verən təhsil ocaqları tikilir, şagirdlərin yüksək səviyyədə təhsil alması üçün məktəblərimizin infrasturkturu, maddi-texniki bazası yenilənir. Kurikulum tələbləri ilə desək təhsildə tamlıq və dəstəkləyici mühitin yaranması prinsiplərinə əməl olunur.

Elə bu diqqətin nəticəsi kimi də təhsilverənlər daim öz üzərində çalışmalıdır. Dövlətimiz bu sahəyə də xüsusi maraq göstərir. Bu gün məktəblərimizdə pedaqoji heyət tam şəffaf və obyektiv şəkildə keçirilən “Müəllimlərin işə qəbul imtahanı” (MİQ) vasitəsilə formalaşır. Bu imtahanlar gənclərə həm öz potensiallarını göstərmək, həm də təhsil sahəsində öz sözlərini demək imkanı yaradır. Amma MİQ imtahanı ilə heç də hər şey bitmiş hesab olunmur. Hər bir müəllim yeniliklərə daim açıq olmalı, dünya təhsil sistemində baş verən dəyişiklikləri daim izləməli, öz üzərində dayanmadan,yorulmadan çalışmalı və yenilikçi olmalıdır.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi bütün bunlardan yola çıxaraq 2022-ci ildən etibarən müəllimlərin beş ildən bir sertifikatlaşdırılması prosesinə başladı. Naxçıvan Muxtar Respublikasında isə bu proses 2021-ci ildən həyata keçirilməyə başlanıb. Bu qərar ölkəmizdə əksər müəllimlər tərəfindən müsbət qarşılansa da, mənfi qəbul edən tərəflər də oldu. Gəlin məsələyə obyektiv şəkildə yanaşaq. Müəllimə imtahan tutulması və üstəlik də bunun beş ildən bir həyata keçirilməsi nə dərəcədə doğrudur?

Real tərəfdən baxsaq,bu gün öz üzərində çalışan təhsilverənlərlə yanaşı, biliklərini dörd illik universitet təhsili səviyyəsində saxlayanlar da var. Nəzərə alsaq ki,müasir təshil sisteminin bir çox fərqli tərəfləri və yanaşmaları var,müasir şagird daha araşdırmaçı və yeniliyi sevəndir, texnologiya əsrinin içindədir, elə buna görə də müəllim əvvəlkindən iki qat artıq çalışmalıdır. Şagird qarşısında cavabsız qalmamaq, onun suallarına tam dolğun şəkildə cavab vermək üçün özü hər yenilikdən xəbərdar olmalıdır. Müasir müəllim şagirddən öncə özü kurikulumun tələb və prinsiplərinə cavab verməlidir. Bu gün ən azından orta səviyyədə rəqəmsal savadlılığa, biliyə, dünyagörüşünə malik

olmayan müəllim şagirddən bunu necə tələb edə bilər? Məhz buna görə də sertifikasiya imtahanlarının keçirilməsi müsbət hal kimi qiymətləndirilməlidir.

İmtahanlarda ixtisas sualları ilə yanaşı kurikulum və metodika suallarının salınması da təqdirəlayiqdir. Ən azından bu zaman təhsilverən müasir təlim metodları, inteqrasiya növləri, iş üsulları, biliyn növləri, qiymətləndirmə meyarları kimi anlayışlarla tanış olur və bunu dəsrlərdə istifadəsinin gətirdiyi üstünlükləri daha da dərindən mənimsəyir.

Dövlətimizin bu sahədə də diqqəti yüksək hiss olunur. Çünki imtahanlarda yüksək nəticə göstərən (51-60 bal arası) müəllimlərin aylıq əməkhaqqlarına 35% əlavə olunur. Bu isə təhsilverənlərə yüksək motivasiya və stimul olur. Bunun nəticəsi kimi yaşı 60-ı ötmüş bir çox müəllim imtahanlarda öz ərizələri ilə könüllü şəkildə iştirak edərək uğur qazanmışdır. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikasında təhsilverənlərin sertifikstlaşdırılmasının ikinci dövriyyəsində birinciyə görə 50 və daha yüksək bal toplayanların sayı daha çox oldu. Bu isə müəllimlərin əzmkarlığının, öz peşələrini sevmələrinin, öz üzərlərində çalışmalarının bariz nümunəsidir.

TÜRKAN HÜSEYNOVA
Ordubad rayon Aşağı Əylis kənd tam orta məktəbi
Dərs hissə müdiri
turkanhuseynova0803@gmail.com

DÖVLƏT ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİLVERƏNLƏRİN SERTİFİKATLAŞDIRILMASI: NƏTİCƏLƏR VƏ ÇAĞIRIŞLAR

Tezisdə Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılması prosesi, bunun müəllimlərin metodik hazırlığına təsiri və imtahan nəticələrinə əsasən peşəkar inkişaf ehtiyaclarının müəyyən edilməsi məsələləri təhlil olunur, prosesin gətirdiyi əsas çağırışlar və tövsiyələr işıqlandırılır.

Açar sözlər: *sertifikatlaşdırma, peşəkar inkişaf, metodik hazırlıq, ümumi təhsil, çağırışlar*

Giriş. Müasir dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsi birbaşa olaraq təhsilverənlərin peşəkarlıq səviyyəsindən asılıdır. Azərbaycan Respublikasının ümumi təhsil sistemində həyata keçirilən islahatların ən mühüm mərhələlərindən biri dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılması prosesidir. Bu proses təkcə müəllimlərin mövcud bilik və bacarıqlarını yoxlamaqla qalmır, həm də onların gələcək peşəkar inkişaf istiqamətlərini və metodik ehtiyaclarını xəritələndirmək üçün mühüm bir mexanizm rolunu oynayır.

Sertifikatlaşdırmanın Nəticələri və Metodik Hazırlıq

Sertifikatlaşdırma prosesi müəllimlərin həm ixtisas biliklərini, həm də təlim strategiyaları, pedaqogika və metodika (kurikulum) sahəsindəki səriştələrini ölçür. Keçirilən imtahanların və qiymətləndirmələrin nəticələri göstərir ki, müəllimlərin nəzəri bilikləri yüksək olsa da, situasiya tipli tapşırıqlarda, idrak taksonomiyalarının dərslərdə tətbiqində və şagirdyönümlü təlim modellərinin qurulmasında müəyyən metodik dəstəyə ehtiyac duyulur. Bu baxımdan, sertifikatlaşdırma müəllimin zəif və güclü tərəflərini üzə çıxaran diaqnostik bir vasitə kimi qiymətləndirilməlidir.

Peşəkar İnkişaf Ehtiyacları və Çağırışlar

Sertifikatlaşdırmadan sonrakı mərhələnin əsas çağırışı imtahan nəticələrinin doğru analiz edilərək müəllimlər üçün hədəflənmiş (fərdiləşdirilmiş) təlim proqramlarının hazırlanmasıdır. Müəllimlərin peşəkar inkişafı artıq ümumi xarakter daşımamalı, məhz sertifikatlaşdırma zamanı çətinlik çəkilən mövzulara (məsələn, differensial təlim, effektiv qiymətləndirmə vasitələrinin hazırlanması, virtual platformalarla iş) yönəlməlidir. Bu istiqamətdə regional ehtiyacların qarşılanması və xüsusilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən müəllimlərin metodik hazırlığının gücləndirilməsi məqsədilə ödənişsiz əsaslarla təşkil edilən kurikulum və metodika dəstək proqramları mühüm praktik əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, bu növ sosial-pedaqoji təşəbbüslər və ödənişsiz metodik məsləhətlər müəllimlərin imtahan həyəcanının azaldılmasında və çətin situasiya tipli tapşırıqların mənimsənilməsində effektiv rol oynayır. Bu yanaşma, müəllimlərin metodik hazırlığını sistemli şəkildə artırmağa və təhsilin ümumi keyfiyyətini yüksəltməyə imkan verəcəkdir.

Təhsilverənlərin sertifikatlaşdırılması ümumi təhsil sistemində rəqabətədavamlılığı və hesabatlılığı artıran uğurlu bir addımdır. Lakin prosesin yekun hədəfi yalnız qiymətləndirmə deyil, müəllimlərin davamlı peşəkar inkişafını stimullaşdırmaq olmalıdır. Regionlarda, o cümlədən Naxçıvan bölgəsində müəllimlərə göstərilən ödənişsiz metodik və kurikulum dəstəyi layihələrinin genişləndirilməsi, müəllimlərin peşəkar inkişaf ehtiyaclarının vaxtında və düzgün qarşılanması ümumi təhsildə keyfiyyət dönüşünə səbəb olacaq ən əsas amildir.

FİDAN QULİYEVA
Lənkəran Dövlət Universiteti
Magistrant
fidanquliyeva023@gmail.com

TƏHSİLİN İDARƏ OLUNMASININ MÜASİR MODELİ

Bu tezisdə təhsilin idarə olunmasının müasir modeli araşdırılmışdır. Strateji planlaşdırma, rəqəmsallaşma, insan resurslarının idarə olunması və demokratik idarəetmə prinsiplərinin təhsilin keyfiyyətinə təsiri təhlil edilmişdir. Müasir idarəetmə modelinin innovasiya, şəffaflıq və əməkdaşlıq əsasında təhsil sisteminin səmərəliliyini və davamlı inkişafını təmin etdiyi müəyyən olunmuşdur.

Açar sözlər: *təhsilin idarə olunması, müasir model, strateji planlama, keyfiyyətin təminatı,effektiv idarəetmə*

Müasir dövrdə təhsilin idarə olunması cəmiyyətin inkişafında mühüm rol oynayan əsas amillərdən biri kimi çıxış edir. Qloballaşma prosesi, informasiya texnologiyalarının sürətli inkişafı və bilik iqtisadiyyatının formalaşması təhsil sistemində yeni yanaşmaların tətbiqini zəruri edir. Bu baxımdan, təhsilin idarə olunmasının müasir modeli ənənəvi idarəetmə üsullarından fərqlənərək daha çevik, innovativ və nəticəyönümlü xarakter daşıyır. Belə hesab edirəm ki,müasir idarəetmə modelinin əsas xüsusiyyətlərindən biri strateji planlaşdırmanın ön plana çıxmasıdır. Təhsil müəssisələri artıq yalnız cari problemlərin həlli ilə kifayətlənmir, eyni zamanda uzunmüddətli inkişaf strategiyaları hazırlayır və bu strategiyaların həyata keçirilməsinə yönəlmiş fəaliyyət göstərirlər. Bu yanaşma təhsilin keyfiyyətinin yüksəldilməsinə və rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır. Onu da əlavə edib, deyə bilərik ki, digər mühüm cəhət insan resurslarının effektiv idarə olunmasıdır. Tədqiqat çərçivəsində beynəlxalq təhsil platformalarının və inkişaf etmiş ölkələrin (məsələn, Sinqapur və Estoniya) təhsil modellərinin müqayisəli təhlili aparılmışdır. Müəyyən edilmişdir ki, müasir idarəetmədə mərkəzləşdirilmiş nəzarətdən daha çox, məktəb muxtariyyəti və strateji liderlik prinsipləri üstünlük təşkil edir. Bu yanaşma hər bir təhsil müəssisəsinin öz daxili potensialına uyğun çevik qərarlar qəbul etməsinə şərait yaradır.

Müasir dövrdə müəllimlərin peşəkar inkişafı, onların motivasiyası və yaradıcılıq potensialının üzə çıxarılması idarəetmənin əsas istiqamətlərindən birinə çevrilmişdir. Təhsil rəhbərləri liderlik keyfiyyətlərinə malik olmalı, kollektivdə sağlam psixoloji mühit formalaşdırmalı və əməkdaşlığı təşviq etməlidirlər.

Bundan əlavə, müasir modeldə demokratik idarəetmə prinsipləri geniş yer tutur. Qərarların qəbulunda müəllimlərin, şagirdlərin və digər maraqlı tərəflərin iştirakı təmin olunur. Bu isə şəffaflığın artmasına, etimad mühitinin formalaşmasına və idarəetmənin daha effektiv həyata keçirilməsinə imkan yaradır. Bir vacib məsələni də diqqətinizə çatdırmaq istəyirəm ki,rəqəmsallaşma müasir təhsil idarəetməsinin ayrılmaz hissəsidir, çünki elektron idarəetmə sistemləri, onlayn platformalar və məlumat bazaları vasitəsilə idarəetmə prosesi daha operativ və səmərəli həyata keçirilir. Bu texnologiyalar həm məlumatların toplanmasını və təhlilini asanlaşdırır, həm də qərarların daha əsaslandırılmış şəkildə qəbul olunmasına şərait yaradır.

Xüsusilə qeyd edilməlidir ki, idarəetmənin rəqəmsallaşması təkcə sənəd dövriyyəsinin elektronlaşması deyil, həm də Böyük Verilənlərin (Big Data) analizi vasitəsilə təhsilin keyfiyyətinə monitorinq sisteminin qurulmasıdır. Bulut texnologiyalarına əsaslanan vahid məlumat sistemləri subyektiv amilləri minimuma endirərək, şagird nailiyyətlərinin və müəllim fəaliyyətinin real vaxt rejimində izlənilməsinə, beləliklə də daha ədalətli qiymətləndirmə mexanizminin formalaşmasına xidmət edir.

Tədqiqatın praktiki əhəmiyyəti təklif olunan müasir idarəetmə modelinin təhsil müəssisələrində tətbiqi metodikasının hazırlanması ilə bağlıdır. Bu modelin tətbiqi idarəetmə subyektləri arasında kommunikasiya maneələrini aradan qaldırmağa, kadr potensialından maksimum səmərə ilə istifadə etməyə və təhsilin məzmunca yenilənməsinə birbaşa təsir göstərə bilər.

Belə nəticəyə gəlmək olar ki, müasir idarəetmə modeli keyfiyyətin təmin olunmasında xüsusi imkanlarla zəngindir. Təhsil müəssisələrində daxili və xarici qiymətləndirmə mexanizmləri tətbiq olunur, tədris prosesinin nəticələri mütəmadi olaraq təhlil edilir və təkmilləşdirmə tədbirləri həyata keçirilir. Bu yanaşma davamlı inkişafın təmin olunmasına xidmət edir.Belə bir nəticəyə gələ bilərik ki, təhsilin idarə olunmasının müasir modeli innovasiya, əməkdaşlıq, şəffaflıq və strateji yanaşma prinsiplərinə əsaslansa təhsil sisteminin səmərəliliyini və keyfiyyətini artırmağa xidmət edəcək.

MƏSUMƏ PİRİYEVA
Bakı Dövlət Univesiteti
Fəlsəfə doktoru proqramı üzrə doktorant
masumaosm@gmail.com

MÜXTƏLİF ÖLKƏLƏRİN TƏHSİL SİSTEMLƏRİNDƏ ƏTRAF MÜHİT VƏ DAYANIQLI İNKİŞAFIN TƏTBİQ EDİLMƏSİ

Məqalədə müxtəlif ölkələrin təhsil sistemlərində ətraf mühit və dayanıqlı inkişaf mövzusu müxtəlif yanaşmalarla tətbiq olunur. Bir sıra ölkələrdə bu istiqamət fənlərarası və layihə əsaslı şəkildə bütün tədris proqramına inteqrasiya edilir, şagirdlərin təbiətlə birbaşa əlaqəsi və praktik fəaliyyətlərə üstünlük verilir. Ancaq digər ölkələrdə ətraf mühit və dayanıqlılıq mövzusu ayrı bir mövzu olaraq daxil edilir. Ümumiyyətlə, təhsil sistemlərində bu mövzunun məqsədi şagirdlərin ekoloji biliklərini, məsuliyyətli davranışlarını və dayanıqlılı inkişaf haqqında düşüncələrini formalaşdırmaqdır.

Açar sözlər: *ekoloji təhsil, praktik bacarıqlar, təhsil sistemi, inteqrasiya*

Müasir anlayışda ekoloji problemlər 1970-ci illərdən bəri dünya gündəmindən çıxmır. İlk dəfə 1987-ci ildə BMT-nin ətraf mühit və İnkişaf üzrə Ümumdünya Komissiyasının “ümumi gələcəyimiz” hesabatında səslənən “Dayanıqlı inkişaf” termini həm elmi ədəbiyyatda, həm də praktikada möhkəm yer tutmuşdur. “Dayanıqlı İnkişaf” Konsepsiyası ətraf mühiti və mənbələri qoruyarkən, yəni gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə zərər gətirmədən insanın öz ehtiyaclarını ödəməyə yönəlmiş tədbirlər kompleksinə aiddir. 2015-ci ildə BMT Baş Assambleyası Dayanıqlı İnkişaf Məqsədlərini və 2030-cu ilə qədər 17 hədəfi əhatə edən və tarazlığı dayanıqlı inkişafın əsasını təşkil edən üç əsas komponenti-sosial, iqtisadi və ekoloji təmin edən Dayanıqlı İnkişaf gündəliyini təsdiqlədi.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə çatmağın müxtəlif yolları ildən-ilə artır. Məqsədlərə çatmaq üçün BMT müxtəlif səviyyələrdə - qlobal (strateji vəzifələr və səylər) fərdi (gənclər, vətəndaş cəmiyyəti nümayəndələri, elmi dairələr və hər bir fərdi vətəndaşın təşəbbüsləri daxil olmaqla) səylərin cəlb edilməsinə çağırır. Tədricən, dayanıqlı inkişaf məqsədlərinə çatmaqla əlaqəli proseslərə əvvəllər kənarda qalan yeni qurumlar daxil edilir. Son zamanlarda məktəblər təsir gücünü dərk etməyə başladılar. Daha dəqiq bir yanaşma üçün ətraf mühit və dayanıqlı inkişaf prinsiplərinin tədrisinin ölkələrin təhsil sistemlərinə tətbiq edilir.

YUNESKO- nun hesablamalarına görə, ölkələrin 73%-i təhsildə dayanıqlı inkişaf məsələlərinə toxunur, 55%-i tədris proqramlarında “Ekologiya” (ecology) və 47%-i “ekoloji təhsil” (environmental education) terminindən istifadə edir.

Avstraliyada “dayanıqlılıq” bütün tədris proqramının üç fənlərarası mövzusundan biridir. Üç əsas anlayışlar - sistem, dünyagörüşü, gələcək vasitəsilə əşkərlanır. Dayanıqlı inkişaf mövzusu İngilis dili, riyaziyyat, təbiət elmləri, sosial və humanitar elmlər, sənət, texnologiya, xarici dillərin öyrənilməsində, bədən tərbiyəsi dərslərində və karyera rəhbərliyi zamanı müzakirə olunur.

Şotlandiyada ekoloji təhsil məktəbin vahid kollektiv və yerli icma kimi qarşılıqlı əlaqəsi üzərində qurulub. Bu, şagirdlərə ətraf mühit, cəmiyyət, iqtisadiyyat, sosial bərabərsizlik məsələləri arasındakı sıx əlaqələri anlamağa imkan verir. Təhsil prosesində bütün müəllimlər və məktəb rəhbərləri iştirak edir, ekoloji məsuliyyət məktəb mədəniyyəti və fiziki mühit (bina, ətraf ərazi, davranış qaydaları) tərəfindən dəstəklənir. Hər gün dərslərin bir hissəsi təbiətlə birbaşa təmasda olur (outdoor learning).

Ontario (Kanada) da əhəmiyyətini vurğulamaq təlim ilə əlaqə təbiət. Açıq havada təhsil mühitləri açıq tipli tapşırıqların həlli və layihə fəaliyyəti üçün nəzərdə tutulub. Ekoloji mövzular məktəb fənlərinə daxil edilib: biznes əsasları, incəsənət, Kanada və dünya, xarici dillər, kompüter elmləri, ingilis və fransız dilləri, fiziki tərbiyə, riyaziyyat, təbiət elmləri, sosial və humanitar elmlər, texnologiya.

Finlandiyada məktəblərin ekoloji təhsillə necə məşğul olmaları barədə dəqiq bir göstəriş yoxdur, lakin bütün təhsil müəssisələri bu və ya digər şəkildə proqramlarına ekoloji mövzuları daxil edirlər. Çox vaxt praktik bacarıqlara və gündəlik məsuliyyətə yönəlmiş bir layihə işidir.

Hindistanda bir neçə il əvvəl bütün təhsil səviyyələri üçün bütün məktəb dərslikləri ətraf mühit mövzularını daxil etmək üçün yenidən işlənmişdir.

İngiltərədə 2014-cü il təhsil islahatından sonra ətraf mühit təhsili tədris proqramlarında açıq şəkildə təmsil olunmur və əvvəlki kimi rəsmi olaraq "fənlərarası mövzu" olaraq qeyd edilmir.

Rusiyada ekoloji təhsilin məktəb Proqramına daxil edilməsi ilkin mərhələdədir və daha çox deklarativdir. Bəzi mütəxəssislər ayrı bir mövzu kimi, digərləri isə tədris proqramına inteqrasiya olmaqını istəyir. Rusiya məktəbi ekoloji qurğuların formalaşması üçün praktik bir yanaşma təklif etmir.

Azərbaycanda ətraf mühit və dayanıqlı inkişaf mövzuları 8-ci sinifdən başlayaraq, coğrafiya fənni üzrə tədris proqramına əlavə olunub.

Nəticə. Tədqiq olunan ölkələrin təcrübəsi onu göstərir ki, ekoloji və dayanıqlı inkişaf təhsil sisteminə nə qədər tez və sistemli şəkildə inteqrasiya olunarsa, ekoloji düşüncə və şagirdlərin məsuliyyət hissi o qədər güclü formalaşar. Düzgün yanaşma onu göstərir ki, ətraf mühit və dayanıqlılıq tək bir mövzuya deyil, bütün tədris planına inteqrasiya edilməsidir.

SƏYYARƏ CƏFƏROVA
Naxçıvan şəhər 8 №-li orta məktəb
Müəllim
d.sayyara85@gmail.com
https://orcid.org/0009-0002-0842-9835

AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏ MÜASİR ÇAĞIRIŞLAR

Təhsilin keyfiyyəti istənilən müasir cəmiyyətin ən vacib aspektlərindən biridir. Bu, gənc nəsil vətəndaşların zehni və deməli, gələcək, iş və intellektual potensialına təsir göstərir və ölkənin ümumi gələcəyinə inkişaf etdirir. Bu məqalədə yalnız kövrək "müasir Azərbaycan" şkalasında ən böyük mənfi çəki daşıyan müasir təhsil məsələləri vurğulanır.

Açar sözlər: *təhsil sistemi, təhsil sistemi, tərbiyə, tələbələr, motivasiya*

Giriş. Hazırda təhsil sistemimiz həll tələb edən bir sıra problemlərlə üzləşir. Cəmi 20-30 il əvvəl Azərbaycan təhsili dünyanın ən yüksək keyfiyyətli təhsil sistemlərindən biri hesab olunurdu və bu, o dövrdə təhsilin inkişafına böyük səylər göstərildiyi və tələblərin daha sərt olması ilə əlaqədar idi. Bu gün hər kəs təhsil sistemimizi tənqid edir. Daha da məyusedicisi odur ki, daxili təhsil sisteminin təkmilləşdirilməsi üçün müntəzəm islahatlara baxmayaraq, keyfiyyət hələ də aşağı səviyyədədir. Müasir Azərbaycan təhsilinin vəziyyəti yaxşılaşmaqdan daha çox sürətlə pisləşir.

Bugünkü təhsil sisteminin ilk və əsas problemi aşağı motivasiyadır:

- Təhsil cəmiyyətin inkişafı və ölkənin gələcəyi üçün vacibdir.

Mövzunun aktuallığı 20-ci əsrin ən vacib xüsusiyyətlərindən biri, şübhəsiz ki, təhsildə əldə edilən nəhəng irəliləyişlərdir. Təhsil sistemində baş verən nəhəng dəyişikliklər olmasaydı, 20-ci əsr misli görünməmiş sosial transformasiya və elmi-texnoloji tərəqqi əsri olmazdı. Effektiv iqtisadi inkişaf yalnız çox sayda yüksək ixtisaslı mütəxəssislə mümkündür. Millətin əsas kapitalının - onun insan resurslarının qorunması demokratik və iqtisadi cəhətdən səmərəli Azərbaycan dövlətinin yaradılmasına imkan verəcəkdir. Təhsilin keyfiyyəti təhsil müəssisəsinin fəaliyyətinin əhəmiyyətli bir xüsusiyyətidir və təhsilin sosial institut kimi cəmiyyətdəki digər sosial institutlarla qarşılıqlı əlaqəsinin sosial tənzimlənməsi vasitəsi kimi xidmət edir. Dövrün tələblərinə cavab verən təhsilin keyfiyyətini təmin etmək Azərbaycan Respublikasının təhsil orqanlarının, regional və bələdiyyə səviyyələrində, təhsil müəssisələrinin rəhbərləri və müəllim heyətinin ən vacib vəzifəsidir. Təhsil nəticələri ölkənin rəqabət qabiliyyətinin əsas göstəricilərindən birinə çevrilib. Keyfiyyətin qiymətləndirilməsi məsələsi həmişə Azərbaycan təhsil sisteminin diqqət mərkəzində olub. Son on ildə təhsilin keyfiyyətinin qiymətləndirilməsinə yanaşmalar ümümazərbaycan, regional və beynəlxalq təhsil keyfiyyətinin monitorinqi sistemi, vahid dövlət imtahanının tətbiqi təcrübəsinin bir hissəsi kimi və həm dövlət, həm də regional səviyyələrdə aparılan elmi və praktik tədqiqatlar vasitəsilə hazırlanmışdır. Son tədqiqatlar aşağıdakılara əsaslanan test alətlərinin hazırlanması və nəticələrin emalı sahəsində qlobal təcrübəni əks etdirməyə başlamışdır. Təcrübədə Azərbaycanda o cümlədən Naxçıvan Muxtar Respublikasında təhsil keyfiyyətinin qiymətləndirilməsi sistemi yeni yaranmağa başlayır. Təhsil keyfiyyəti məsələləri və onun ölçülməsi və qiymətləndirilməsinə yanaşmalar barədə vahid konseptual və metodoloji anlayış hələ də qurulmayıb. Sınaqdan keçirilməmiş və standartlaşdırılmamış qiymətləndirmə vasitələri tez-tez istifadə olunur. Təhsil keyfiyyətinin qiymətləndirilməsi ilə məşğul olan müxtəlif təşkilatların fəaliyyəti əlaqələndirilmir. Obyektiv və etibarlı məlumatların toplanması üçün zəruri elmi və metodoloji dəstək yoxdur. Bu sahədə ixtisaslı kadrların çatışmazlığı qeyd olunur. Bu məsələlərin həlli həm təhsil keyfiyyətinin qiymətləndirilməsi üçün müasir institusional modellərin, həm də müxtəlif təhsil keyfiyyəti göstəricilərinin qiymətləndirilməsi üçün müasir texnologiyaların hazırlanması və tətbiqi, eləcə də fərdi keyfiyyət göstəricilərinin əldə edilməsinə təsir edən amillərin müəyyən edilməsi üçün məqsədyönlü səylər tələb edir. Qiymətləndirmə funksiyasının təhsil müəssisələri tərəfindən göstərilən xidmətlərin keyfiyyətinə artan təsirini vurğulayaraq, tədqiqatçıların diqqətini

qiymətləndirmə göstəricilərinin və prosedurlarının keyfiyyətinə yönəltmək vacibdir. İnstitusional yanaşma prinsiplərindən istifadə tədqiqatçıları qiymətləndirmənin əsasını təşkil edən qayda və prosedurların formalaşdırılması prosesini təhlil etməyə yönəldir. Bu gün istifadə olunan təhsil keyfiyyətinin qiymətləndirilməsi göstəricilərinin cəmiyyətin təhsil müəssisəsindən gözləntilərini nə dərəcədə əks etdirdiyini, təhsil prosesindəki çoxsaylı iştirakçıların maraqlarını nə dərəcədə əks etdirdiyini və ya bu göstəriciləri formalaşdıranların (təhsil orqanlarının) maraqları naminə yaradıldığını anlamaq vacibdir. Müəllim icması tez-tez təhsil orqanlarının qiymətləndirmə meyarlarını hazırlayarkən mövcud göstəricilərdən sui-istifadə etməsindən şikayətlənir.

Bu gün məktəblərdə fizika təhsili tam şəkildə həyata keçirilməyib. Digər fənlər kimi, fizika da hələ də tərifləri əzbərləmək və verilən düsturlardan istifadə edərək tipik məsələləri həll etməklə tədris olunur. Fiziki təcrübələrə və laboratoriya işlərinə az diqqət yetirilir. Bütün dərslər dərslikdə yazılanlara əsaslanır. Bugünkü sosial-iqtisadi şəraitdə şagirdlərin idrak maraqlarını, yaradıcı düşüncəsini və müstəqil intellektual bacarıqlarını inkişaf etdirmək aktual məsələdir. Buna görə də müəllimlər tez-tez özlərinə sual verməlidirlər: "Hər dərsin elmi kəşf kimi hiss olunması və şagird üçün mənalı olması üçün təlim prosesini necə təşkil edə bilərik?!" Ümumiyyətlə, müəllimlər uşaqların idrak maraqlarını, müxtəlif sahələrdə problemləri müstəqil həll etmək qabiliyyətini və tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün lazımi şərait yaratmaq vəzifəsi ilə üzləşirlər. Bundan əlavə, müəllimlər şagirdlərin fizika üzrə elmi biliklərini inkişaf etdirməlidirlər. Fizikanın tədrisinin ən təsirli metodlarından biri laboratoriya metodudur. O, tez-tez fizika dərslərində istifadə olunur və təcrübənin göstərdiyi kimi, praktik və işlə bağlı bacarıqların inkişafı üçün ən uyğundur. Bu, həm fərdi, həm də kiçik qruplarda həyata keçirilə bilər. Məsələn, "Üzmə Qüvvəsinin Təyin Edilməsi" mövzusunda laboratoriya tapşırığını yerinə yetirərkən, tələbələr üzmə qüvvəsinin cismin batırıldığı mayenin növündən və cismin həcmindən necə asılı olduğunu müəyyən etməlidirlər. Onlar laboratoriya işinin nəticələrini ətraflı hesabat şəklində təqdim edirlər və bu hesabatda öz mülahizələri, istifadə olunan avadanlıqlar, fəaliyyət planı və laboratoriyadan çıxarılan nəticələr təqdim olunur. Bu, tələbələrə yalnız müəyyən hərəkətlər ardıcıllığının mexaniki icrasını deyil, həm də işlərinin nəticələrinə düşünülmüş yanaşmanı və tədqiqat bacarıqlarının inkişafını öyrədir.

Lakin, çox az məktəb fizika dərsləri üçün hətta minimum laboratoriya avadanlığı ilə belə kifayət qədər təchiz olunub.

Bu gün məktəb təhsilində üç problem var. Həll yolu müasir təhsil standartlarına cavab verən müasir dərsliklərin nəşrinə yönəldilməlidir:

1) Bütün şagirdlər müstəqil şəkildə məlumat əldə etməyə və tədris ədəbiyyatını oxumağa öyrədilməyib;

2) Təlim və inkişaf arasında seçim edərkən onlar daha asan variantı - öyrənməyə üstünlük verirlər;

Birinci problem yalnız dərslikdəki materialı əlçatan və ətraflı şəkildə təqdim etməklə həll edilə bilər. Bu, şagirdlərə dərslikləri oxumağa və müstəqil şəkildə məlumat əldə etməyə öyrəşməyə kömək edəcək. Bu gün müəllimin əsas vəzifəsi şagirdlərin beynini guya həyatda lazım olacaqları məlumatlarla doldurmaq deyil, onlara lazımi məlumatları müstəqil şəkildə əldə etməyi və dərslikləri şüurlu şəkildə oxumağı öyrətməkdir. Şagirdlərin dərsliyi müstəqil oxuya bilməsi üçün dərslik ilk növbədə onlar, yəni şagirdlər üçün yazılmalıdır, müəllim üçün deyil. 1968-ci ildən bəri məktəb fizika dərsliklərinin əksəriyyətinin müəllimlər üçün yazıldığı və buna görə də uşaqların onları oxumadığı heç kimə sirr deyil. Yalnız son illərdə vəziyyət yaxşılaşmağa başlayıb: bir çox yeni müəllif qrupları əsasən şagirdlərə diqqət yetirməyə çalışırlar. İndiki vaxtda ən azı fizikanın əsaslarını mənimsəmək mədəni fərdin vacib xüsusiyyətidir. Buna görə də, mənim fikrimcə, fizika və fiziki modellərin öyrənilməsi məktəbdə mümkün qədər tez - ibtidai məktəbdə deyilsə, mütləq 7 və 8-ci siniflər üçün fizika kursunda tətbiq olunmalıdır. Fizikanın tədrisində üç yanaşma mövcuddur ki, bunların hamısı müxtəlif dərəcələrdə problem əsaslı təlimlə əlaqələndirilir: problem əsaslı təlim, problem əsaslı təlim və problem əsaslı təlim. Problem əsaslı təlim metodu müəllimin şagirdlərə hələ həll edə bilmədikləri bir problem təqdim etməsini nəzərdə tutur. Onlar bəzi anlayışları izah edir, yeni nəzəri elementlər təqdim edir, sonra orijinal problemə qayıdır və onu tamamlayır. Prinsipcə, bu, tamamilə məqbul bir tədris metodudur, lakin onun bir əsas çatışmazlığı var: şagird mərkəzli deyil. Dərsdə araşdırılan

problem şagird üçün deyil, müəllim üçündür. Müəllim bunu şagirdlərə tətbiq edir, çünki bu, yeni materialın izah edilməsi prosesini daha rahat edir. Eyni şey problem əsaslı təlim metoduna da aiddir. Müəllim şagirdi problemli vəziyyətə məcbur edir və sonra onları adətən eyni dərs zamanı oradan çıxarır. Bu iki metodla şagirdlər passiv olmağa meyllidirlər. Hesab edirəm ki, problem əsaslı təlimə düzgün yanaşma iki prinsipə əsaslanır:

1) şagird birbaşa problemlə qarşılaşmalıdır; problemi həll edərkən və ya mühakimə yürüdərkən, şəxsən bir şeyin onların imkanlarından kənarda olduğunu dərk etməlidirlər, çünki görünür, bunu bilmirlər;

2) problemin həlli təxirə salınmalı və problemin bir müddət "dayanmasına" imkan verilməlidir. Yalnız bu şərtlər daxilində, həll yoluna çatdıqdan sonra tələbə inkişaflarında irəliləyiş əldə etdiyini anlayacaq.

Məktəb Fizika kursu beş əsas və metodoloji bölmənin sintezidir: Mexanika, Molekulyar Fizika, Kvant Fizika, Optika və Elektrodinamika. Mən əmin oldum ki, Mexanika prioritetdir. Bu, ilk növbədə, öyrənilən fizika dərsindən asılı olmayaraq, materialın demək olar ki, həmişə ciddi bir düstura uyğun olaraq qurulmasında özünü göstərir: düstur - tənliklər - çevrilmələr.

İşimdən belə nəticəyə gələ bilərəm ki, tələbələrin Fizika kursunu bütövlükdə başa düşmələri üçün ilkin modelləri tam şəkildə anlamaları vacibdir. Bu, onların müəyyən bir mövzuda öyrənmə fəaliyyətlərini elə təşkil etmək deməkdir ki, yeni bir obyekti (müəyyən bir fiziki model - düstur) sistematik şəkildə, müxtəlif bucaqlardan, fərqli vəziyyətlərdə araşdırsınlar. Eyni zamanda, bu sistematik yanaşma müxtəlif siniflər üçün düsturların dəyişdiyi təsadüfi ssenarilər toplusu olmamalıdır - bu, öyrənmə çətinliklərinə səbəb olacaq. Müəyyən bir düstur sinfini öyrənmək üçün çalışmalar sistemində altı sahəni müəyyən etməkdə metodoloji problem yaranır:

1) qrafik məsələ həlli;
2) düstur əvəzetmə həlləri;
3) qrafik çevrilmələri;
4) naməlumların çıxarılması;
5) bütöv bir bütövə inteqrasiya edən hissə-hissə məsələlər;
6) qrafik oxu.

Mənim fikrimcə, məktəb fizika kursunun humanitar potensialı, birincisi, riyazi dilin və riyazi modelləşdirmənin mənimsənilməsinin şagirdlərə təbiətdə və cəmiyyətdə daha yaxşı istiqamət tapmağa imkan verməsində; ikincisi, riyaziyyatın təbiətinə görə şagirdlərin düşüncə və xarakterinin inkişafı üçün zəngin imkanlar təqdim etməsində; üçüncüsü, riyaziyyat dərslərinin şagirdlərin nitqinin inkişafına rus dili və ədəbiyyatı dərslərindən heç də az olmayan dərəcədə töhfə verməsində; və dördüncüsü, inkişaf və problem əsaslı təlimin tədris prosesinin həyata keçirilməsindədir.

Nəticə.

- Təhsil islahatları hələ də fizika tədrisinin keyfiyyətini artırmayıb.
- Fundamental elmlərin təməli olan fizikanın tədrisi genişləndirilməlidir.
- Fizika insanın ümumi mədəniyyətinin bir hissəsinə çevrilməlidir və buna nail olmaq üçün kurs əsas anlayışları vurğulamalı və fizikanın əsas ideyalarını əhəmiyyətsizlərindən ayırmalıdır.
- Fizika kursunun yalnız məzmununu deyil, həm də tədris metodlarını yeniləmək lazımdır (yeniləmə üçün konkret sahələri nəzərə alın).
- Fizika təhsilinin praktik komponentinin inkişafında fizika məsələlərini həll etmək bacarığı əsas prioritet olmalıdır.
- Laboratoriya işlərinin və fizika praktik məşğələlərinin sayının azaldılması çox arzuolunmazdır.
- Hazırkı keçid dövründə fizika tədrisi həm köhnə, həm də yeni nəsillərin tədris və metodoloji ədəbiyyatından istifadəni birləşdirməlidir.
- Fizika olimpiadaları şagirdlərin zəkasının inkişafında və fizika ilə əlaqəli peşənin təşviqində mühüm amildir.
- Məktəblər yeni texnologiyalar üzrə təcrübəli müəllimlərlə təmin edilməlidir.
- Fizika kabinetini müasir tədris avadanlığı ilə təchiz etmək lazımdır.

- Məktəb fizika tədris proqramında texniki yaradıcılığın inkişafına xüsusi diqqət yetirilməlidir.
- Bütün bu və fizika tədrisi ilə bağlı digər məsələlər praktik müəllimlər üçün seminarlar zamanı həll edilməlidir.

Fizika tədrisinin keyfiyyətinin artırılması üçün tövsiyələr:

- Təhsil prosesini təşkil edərkən, Vahid Dövlət İmtahanının qiymətləndirmə materiallarında istifadə edilən bütün tipoloji qruplardan tapşırıqların şagirdlərlə davamlı işdə istifadəsinə diqqət yetirin: struktur, çətinlik səviyyəsi, fizika kursu bölmələri, sınaqdan keçirilmiş bacarıqlar, məlumatların təqdim edilməsi metodları və s. üzrə təsnif edilmiş tapşırıqlar;
- müxtəlif tipli keyfiyyət və hesablama məsələlərinin həllinə kifayət qədər diqqət yetirin və ardıcıl məntiqi əsaslandırma və öyrənilən qanunauyğunluqlara istinad daxil olmaqla tam, düzgün cavab üçün çalışın;
- "Bu bölmədəki əsas problemlərin növlərini öyrənmək" sistemindən ümumi problem həll etmə bacarıqlarının öyrədilməsinə keçid;
- müxtəlif mənbələrdən istifadə edərək müstəqil məlumat axtarışı, təhlili və seçimi təcrübəsi qazanmaq üçün iş təşkil etmək.

MƏDİNƏ ABDULLAYEVA
Lənkəran Dövlət Universiteti
Magistrant
medine.memmedli1996@gmail.com

AZƏRBAYCANDA TƏHSİL İSLAHATLARI: YENİ YANAŞMALAR

Bu tezisdə Azərbaycanda həyata keçirilən təhsil islahatları və bu sahədə tətbiq olunan yeni yanaşmalar təhlil edilmişdir. Təhsil sistemində aparılan dəyişikliklərin əsas məqsədinin təhsilin keyfiyyətinin artırılması, eyni zamanda ölkənin sosial-iqtisadi inkişafına, insan kapitalının gücləndirilməsinə və milli təhsil sistemimizin qlobal təhsil məkanına inteqrasiyasına xidmət etdiyi vurğulanmışdır.

Açar sözlər: *təhsil islahatları, kurikulum, Milli Kurikulum, interaktiv metodlar, yeni yanaşmalar*

Ötən illərdə bir çox sahədə olduğu kimi, təhsil sahəsində də həyata keçirilən islahatlar ölkəmizin sosial-iqtisadi inkişaf strategiyası birbaşa bağlıdır. Həyata keçirilən təhsil islahatlarının əsas məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq standartlara uyğun təhsil modelinin qurulması, ölkənin kadr ehtiyacını qarşılayacaq potensiallı şəxsiyyətlər yetişdirmək məqsədi daşıyır. Bu islahatlar ənənəvi tədris modellərini arxa plana qoymuş, şagirdyönümlü, şəxsiyyətyönümlü, kompetensiya əsaslı və nəticəyönümlü yanaşmaları ön plana çəkmişdir.

2006-cı ildə qəbul olunmuş “Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)” aparılan islahatlar üçün əsas baza rolunu oynayır. Müasir kurikulum modeli ənənəvi metodlardan fərqli olaraq şagirdlərin yalnız nəzəri biliklərə sahib olmasını deyil, həm də əldə olunan biliyin praktikaya tətbiqini, 21-ci əsrin vacib bacarıqları olan tənqidi və yaradıcı düşünmə, eləcə də problem həlletmə qabiliyyəti kimi “yumşaq bacarıqlara” yiyələnməsini hədəfləyir. Bu da öz növbəsində müəllimdən bilikləri hazır formada ötürməyi deyil, fasilitator rolunda çıxış edərək şagirdlərə istiqamət verməyi, interaktiv metodların tətbiqini və şagirdlərin təlim prosesində aktiv iştirakını tələb edir. Kompetensiya əsaslı bu kurikulum vasitəsilə şagirdlərə “nəyi öyrənmək” deyil, “necə öyrənmək” prinsipi aşılanır.

Təshil sahəsindəki yeni yanaşmalar arasında digər bir mühüm istiqamət rəqəmsal və innovativ texnologiyaların təhsilə inteqrasiyasıdır. Bir çox onlayn təhsil platformalarının və elektron resursların istifadəsi, eləcə də distant təhsil imkanlarının genişlənməsi qlobal çağırışlar fonunda təhsil sisteminin çevikliyini və effektivliyini artırmışdır. Bu da şagird marağının artmasına, daha yüksək səviyyəli təlim materiallarının əldə olunmasına və qlobal təhsilin əlçatanlığına öz töhvəsini verir. “Elektron məktəb” və məsafədən təhsil platformalarının (məsələn, Microsoft Teams platforması üzərindən “Virtual Məktəb”) , eləcədə STEAM mərkəzlərinin yaradılması və təkmilləşdirilməsi, burada tətbiq olunan layihə əsaslı öyrənmə mühiti bu islahatın nümunələrindəndir.

Qiymətləndirmə sistemində də nəzərəçarpan dəyişikliklər mövcuddur. Belə ki, qiymətləndirmə sistemində gündəlik rəqəmlə qiymətləndirmənin formativ və summativ qiymətləndirmə ilə əvəzlənməsi şagird nailiyyətlərinin daha obyektiv ölçülməsinə, təlim prosesinin davamlı monitorinqinə və geribildirimin (feedback) formalaşmasına xidmət edir.

Müəllimlərin pedaqoji-psixoloji və metodiki hazırlığı sahəsində də yeni yanaşmalar tətbiq olunur. Müəllimlərin sertifikasiyası və müxtəlif təlim proqramlarına cəlb olunması onların pedaqoji və metodiki bacarıqlarının artırılmasına yönəlib.

Ali təhsil müəssisələrinin beynəlxalq standartlara uyğunlaşdırılması islahatların mühüm hissəsidir. Bu islahat fonunda “2019-2023-cü illər üçün Dövlət Proqramı” çərçivəsində dünyanın aparıcı universitetləri ilə ikili diplom proqramları da daxil olmaqla bir çox mübadilə və digər təhsil proqramları yaradılmışdır.

Təhsil sahədə aparılan islahat nümunələrindən biri də əmək bazarının tələblərinə uyğun kadr hazırlığı üçün peşə təhsilinə ayrılan diqqətdir. Bu diqqətin bariz nümunəsi kimi son illərdə regionlarda açılan peşə-tədris mərkəzlərini və həmin mərkəzlərdə artırılan ixtisasları göstərmək olar.

Azərbaycanda həyata keçirilən təhsil islahatları və tətbiq olunan yeni yanaşmalar sadəcə struktur dəyişikliyi deyildir. Bu islahatlar eyni zamanda təhsil sisteminin qlobal tələblərlə ayaqlaşmasına və insan kapitalının inkişafına yönəlmiş bir sistemdir. Bu prosesin davamlılığı və effektivliyi isə islahatların sistemli şəkildə tətbiqindən və bütün maraqlı tərəflərin fəal iştirakından asılıdır.

ÜLVİYYƏ FƏTƏLİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
ulviyyefeteliyeva@nmi.edu.az

MÜƏLLİMLƏRİN PEŞƏKAR ÜNSİYYƏT BACARIQLARININ FORMALAŞDIRILMASI

Tezis müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının formalaşdırılmasını elmi əsaslarla araşdırır. Effektiv ünsiyyət bacarıqları müəllimlərin tələbələrlə, valideynlərlə və həmkarlarla münasibətlərini yaxşılaşdırır, dərs prosesini, motivasiyanı və əməkdaşlığı gücləndirir. Bacarıqların inkişaf etdirilməsi refleksiya, praktik məşqlər və peşəkar dəstək vasitəsilə həyata keçirilir. Təlim və seminarlar müəllimlərə müxtəlif ünsiyyət strategiyalarını öyrənməyə imkan verir. Bu bacarıqlar məktəbdə inklüziv, dəstəkləyici və səmərəli öyrənmə mühitinin yaradılmasına töhfə verir.

Açar sözlər: *peşəkar ünsiyyət, müəllim bacarıqları, pedaqogika, refleksiya, əməkdaşlıq*

Giriş. Peşəkar ünsiyyət müəllimlər üçün əsas bacarıqdır və təhsil müəssisələrində effektiv tədris, sinif idarəçiliyi və əməkdaşlıq münasibətlərinin təməlini təşkil edir. Müasir təhsildə müəllimin rolu biliklərin sadə ötürülməsindən kənara çıxır; o, rəhbərlik, motivasiya və müsbət şəxslərarası dinamikanın inkişafını əhatə edir. Müəllimlər hər gün şagirdlər, valideynlər və həmkarlarla qarşılıqlı əlaqədə olurlar və bu qarşılıqlı əlaqələrin keyfiyyəti şagirdlərin təlim nəticələrinə, sinif mühitinə və məktəbin peşəkar mühitinə birbaşa təsir göstərir. Peşəkar ünsiyyət bacarıqlarının formalaşması şifahi, qeyri-şifahi və yazılı bacarıqların məqsədyönlü şəkildə inkişaf etdirilməsini əhatə edir. Bu, empatiya, aktiv dinləmə, ifadənin aydınlığı, uyğunlaşma və münaqişələri konstruktiv şəkildə idarə etmək bacarığı tələb edir. Bəzi fərdlərdə fitri ünsiyyət qabiliyyətləri ola bilsə də, bu bacarıqlar hədəflənmiş təcrübə və peşəkar inkişaf təşəbbüsləri vasitəsilə sistematik şəkildə inkişaf etdirilə və təkmilləşdirilə bilər.

Tədrisdə effektiv ünsiyyət bir neçə ölçünü əhatə edir. Birincisi, şifahi ünsiyyət fikirləri aydın şəkildə ifadə etmək, anlayışları izah etmək və konstruktiv rəy vermək bacarığını əhatə edir. Müəllimlər məlumatları müxtəlif qabiliyyətlərə və öyrənmə üslublarına malik şagirdlər üçün əlçatan şəkildə təqdim edə bilməlidirlər. İkincisi, jestlər, üz ifadələri və bədən dili daxil olmaqla qeyri-verbal ünsiyyət şifahi mesajları gücləndirir və şagirdlərlə qarşılıqlı anlaşma yaratmağa kömək edir. Üçüncüsü, dərs planları, hesabatlar və elektron poçtlar kimi yazılı ünsiyyət məktəblə bağlı sənədlərdə aydınlıq və peşəkarlıq təmin edir. Emosional intellekt peşəkar ünsiyyətlə sıx bağlıdır. Öz emosiyalarını başa düşən və idarə edən, eyni zamanda başqalarının emosiyalarını tanıyan və onlara cavab verən müəllimlər dəstəkləyici və məhsuldar təlim mühiti yarada bilərlər. Empatiya müəllimlərə şagirdlərin fərdi ehtiyaclarına effektiv şəkildə cavab verməyə imkan verir, özünütənzimləmə isə çətin vəziyyətlərdə belə peşəkar qarşılıqlı əlaqələri təmin edir. Peşəkar ünsiyyət bacarıqları effektiv tədris üçün vacibdir və onların inkişafı düşünülmüş və sistemli yanaşmalar tələb edir. Ən təsirli strategiyalardan biri refleksiv təcrübədir ki, bu da müəllimləri güclü və təkmilləşdirilməli sahələri müəyyən etmək üçün şagirdlər, həmkarlar və valideynlərlə qarşılıqlı əlaqələrini müntəzəm olaraq təhlil etməyə təşviq edir. Refleksiv jurnallar, həmyaşıd müşahidəsi və özünüqiymətləndirmə kimi vasitələr vasitəsilə müəllimlər özünü inkişaf etdirir, ünsiyyətlərindəki nümunələri tanıyır və qarşılıqlı əlaqələrdə aydınlığı, empatiyanı və cavabdehliyi artırmaq üçün məqsədyönlü düzəlişlər edirlər. Refleksiv təcrübə təkcə ünsiyyəti yaxşılaşdırmaqla yanaşı, həm də tənqidi düşüncəni və davamlı özünütəkmilləşdirməni təşviq etməklə peşəkar inkişafa kömək edir. Digər əsas yanaşma seminarlarda və strukturlaşdırılmış təlim proqramlarında iştirak etməkdir. Bu sessiyalar müəllimlərə effektiv ünsiyyət, münaqişələrin həlli və emosional zəka üçün praktik alətlər və üsullar təqdim etmək üçün nəzərdə tutulmuşdur. Seminarlar müəllimlərə aktiv dinləmə təcrübəsi keçirməyə, konstruktiv rəy vermək üçün strategiyalar öyrənməyə və sinifdəki çətin vəziyyətləri həll etmək üçün metodları araşdırmağa imkan verir. Təlim sessiyalarına həmçinin tez-tez öyrənməni gücləndirən və ünsiyyət

nəzəriyyələrinin real həyatda təhsil mühitində tətbiqini təşviq edən qrup müzakirələri və iş araşdırmaları kimi interaktiv komponentlər daxildir.

Əməkdaşlıq təlimi üçüncü vacib metod kimi xidmət edir. Komanda tədrisi, həmyaşıd mentorluğu və peşəkar təlim icmalarında iştirak etməklə müəllimlər müxtəlif ünsiyyət üslubları və strategiyaları ilə tanış olurlar. Bu əməkdaşlıq mühiti müəllimlərə effektiv ünsiyyət davranışlarını müşahidə etməyə, modelləşdirməyə və onlar haqqında düşünməyə imkan verir, eyni zamanda həmkarlarından rəy alır. Peşəkar şəbəkə daxilində təcrübə və fikir mübadiləsi həm şəxsiyyətlərarası bacarıqları, həm də pedaqoji təcrübələri gücləndirir, qarşılıqlı dəstək mədəniyyəti və davamlı peşəkar inkişaf yaradır. Simulyasiya və rol oyunu məşqləri müəllimlərə nəzarətli, real ssenarilərdə ünsiyyət tətbiq etmək imkanları verir. Simulyasiya edilmiş sinif qarşılıqlı əlaqələrində, rol oyunu məşqlərində və iş araşdırması təhlillərində iştirak etməklə müəllimlər mürəkkəb vəziyyətlərin öhdəsindən gəlməkdə, şagirdlərin müxtəlif ehtiyaclarına cavab verməkdə və münaqişələri konstruktiv şəkildə həll etməkdə özünəinam qazanırlar. Bu məşqlər müəllimlərə müxtəlif ünsiyyət üsulları ilə təcrübə aparmağa, dərhal rəy almağa və onları real həyatda tədris kontekstlərində tətbiq etməzdən əvvəl yanaşmalarını təkmilləşdirməyə imkan verir.

Nəhayət, uyğunlaşma və mədəni həssaslıq peşəkar ünsiyyətin vacib komponentləridir. Müəllimlər ünsiyyət üslublarını tələbələrin və həmkarlarının auditoriyasına, kontekstinə və mədəni mənşəyinə uyğun olaraq tənzimləyə bilməlidirlər. Müxtəliflik, inklüzivlik prinsipləri və sosial dinamikadan xəbərdar olmaq ünsiyyətin hörmətli, effektiv və bütün iştirakçıların ehtiyaclarına cavab verən olmasını təmin edir. Uyğunlaşa bilən və mədəni cəhətdən həssas yanaşma təkcə müəllim-tələbə münasibətlərini gücləndirmir, həm də bütün şagirdlərin dəyərli və başa düşülən hiss etdikləri inklüziv təlim mühitini formalaşdırır.

Beləliklə, müəllimlərdə peşəkar ünsiyyət bacarıqlarının inkişafı çoxşaxəli və davamlıdır. Refleksiv təcrübə, hədəflənmiş təlim, əməkdaşlıq təlimi, simulyasiya məşqləri və mədəni uyğunlaşma birlikdə müəllimlərə effektiv ünsiyyət qurmağa, müsbət münasibətlər qurmağa və məhsuldar və ahəngdar təhsil mühitinə töhfə verməyə imkan verən hərtərəfli bir çərçivə təşkil edir. Bu bacarıqları sistematik şəkildə inkişaf etdirməklə müəllimlər həm peşəkar səriştələrini, həm də təhsilin ümumi keyfiyyətini artırırlar. Yaxşı inkişaf etmiş ünsiyyət bacarıqlarına malik müəllimlər müsbət sinif mühitinə, effektiv şagird iştirakına və güclü peşəkar münasibətlərə töhfə verir. Aydın və empatik ünsiyyət etimadı artırır, anlaşılmazlıqları azaldır və birgə problem həllini asanlaşdırır. Bundan əlavə, peşəkar ünsiyyət bacarıqları liderlik və mentorluq rollarını dəstəkləyir, müəllimlərə həmkarlarına rəhbərlik etməyə və məktəbin inkişafı təşəbbüslərinə töhfə verməyə imkan verir.

Nəticə. Peşəkar ünsiyyət tədris mükəmməlliyinin dinamik, öyrənilə bilən və vacib bir hissəsidir. Onun inkişafı davamlı düşüncə, hədəflənmiş təcrübə və peşəkar inkişaf imkanlarına cəlb olunmağı tələb edir. Müəllimlər emosional zəka, uyğunlaşma və mədəni şüurla yanaşı, şifahi, qeyri-şifahi və yazılı ünsiyyət bacarıqlarını inkişaf etdirməklə effektivliyini artıra və təlim mühitinə müsbət təsir göstərə bilərlər. Təhsil müəssisələri müəllimlərin peşəkar inkişafını dəstəkləməkdə, təlim, əməkdaşlıq imkanları və rəy mexanizmləri təmin etməkdə mühüm rol oynayır. Nəticə etibarilə, peşəkar ünsiyyət bacarıqlarının sistemli şəkildə formalaşması müəllimlərə təhsil prosesinin ümumi uğuruna töhfə verərək, təhsilverən, mentor və lider kimi rollarını yerinə yetirməyə imkan verir.

PANEL 3. TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR - 01

RÖVŞƏN VƏLİYEV
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
veliyevrovshan1@gmail.com

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ RİYAZİYYATIN TƏDRİSİNDƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI VƏ SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ MƏSƏLƏLƏRİ

Tezisdə orta ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi prosesində İKT-dən istifadə, süni intellektin tədris prosesinə daxil edilməsinin zəruriliyi xüsusiyyətləri tədqiq olunmuşdur.

Müasir dövrdə dünyada gedən proseslər fonunda tədris prosesinin səmərəliliyinin yüksəldilməsi, şagirdlərin riyazi anlayışları daha dərindən mənimsəməsi, məntiqi təfəkkürünün inkişafı və müstəqil öyrənmə bacarıqlarının formalaşması baxımından İKT və süni intellektin mühüm rol oynadığı tədqiq olunmuşdur.

Açar sözlər: *informasiya, süni intellekt, riyaziyyat, tədris prosesi, dərs*

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) və süni intellektin (Sİ) sürətli inkişafı təhsil sistemində köklü dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə riyaziyyatın tədrisində bu texnologiyaların tətbiqi müəllim və şagirdlər üçün yeni imkanlar açır, tədris prosesini daha maraqlı, effektiv və interaktiv edir. Ənənəvi tədris metodları ilə yanaşı, müasir texnologiyaların istifadəsi şagirdlərin riyazi təfəkkürünün inkişafına, problem həll etmə bacarıqlarının güclənməsinə və öyrənməyə motivasiyanın artmasına mühüm təsir göstərir. Müasir dövrdə cəmiyyətin rəqəmsallaşması təhsil sistemində də ciddi dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı və süni intellektin (Sİ) təhsil sahəsinə inteqrasiyası təlim prosesinin daha səmərəli təşkilinə geniş imkanlar yaratmışdır. Xüsusilə riyaziyyatın tədrisində bu texnologiyalardan istifadə şagirdlərin məntiqi təfəkkürünün inkişafına, yaradıcı düşüncə qabiliyyətinin formalaşmasına və fənnə marağın artırılmasına müsbət təsir göstərir.

Riyaziyyat abstrakt anlayışlarla zəngin olduğundan ənənəvi tədris üsulları bəzi hallarda şagirdlərin mövzuları tam mənimsəməsində çətinlik yaradır. Bu baxımdan İKT vasitələri və süni intellekt texnologiyaları riyazi anlayışların vizuallaşdırılması, fərdiləşdirilmiş təlimin təşkili və interaktiv mühitin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu məqalədə riyaziyyatın tədrisində süni intellekt və İKT-dən istifadənin əhəmiyyəti, üstünlükləri, tətbiq formaları və qarşıda duran problemlər geniş şəkildə təhlil olunur.

Riyaziyyatın tədrisində istifadə olunan əsas İKT vasitələrinə aşağıdakılar daxildir: 1.**Təqdimat proqramları** – Müəllimlər mövzuları izah edərkən slayd təqdimatlarından istifadə etməklə dərsi daha sistemli və vizual şəkildə təşkil edə bilərlər. 2.**Riyazi proqramlar** – Bu proqramlar vasitəsilə mürəkkəb hesablamalar, qrafiklərin qurulması və funksiyaların tədqiqi daha asan həyata keçirilir. 3.**Onlayn platformalar** – Müxtəlif təhsil platformaları şagirdlərə əlavə məşğələlər, testlər və interaktiv tapşırıqlar təqdim edir. 4.**Elektron dərsliklər** – Ənənəvi dərsliklərdən fərqli olaraq, elektron dərsliklər multimedia elementləri ilə zəngin olur və şagirdlərin marağını artırır. 5.**Video dərslər və animasiyalar** – Çətin mövzuların izahında animasiyalar və video materiallar xüsusi əhəmiyyət daşıyır.Bu vasitələrin düzgün seçilməsi və məqsədyönlü tətbiqi dərsin effektivliyini əhəmiyyətli dərəcədə artırır.

Süni intellekt təhsil sahəsində inqilabi dəyişikliklər yaradan texnologiyalardan biridir. Riyaziyyatın tədrisində Sİ aşağıdakı istiqamətlərdə tətbiq olunur:

- Adaptiv öyrənmə sistemləri: Bu sistemlər şagirdin bilik səviyyəsini analiz edir və ona uyğun tapşırıqlar təqdim edir.

- Avtomatik qiymətləndirmə: Şagirdlərin cavablarını yoxlayan və dərhal geribildirim verən sistemlər mövcuddur.Virtual müəllimlər və chatbotlar: Şagirdlər istənilən vaxt suallarını verə və izah ala bilirlər.
- Məlumat analizi: Müəllimlər şagirdlərin zəif və güclü tərəflərini müəyyən edərək dərsi daha effektiv planlaşdıra bilirlər. Süni intellektin ən böyük üstünlüklərindən biri fərdiləşdirilmiş təhsil imkanları yaratmasıdır. Hər bir şagird fərqli sürətlə öyrəndiyi üçün bu texnologiya onların fərdi ehtiyaclarını qarşılayır.

Riyaziyyat dərslərində İKT və Sİ-nin tətbiq formaları müxtəlif formalarda həyata keçirilə bilər:

1. Elektron dərsliklər və platformalar

Onlayn platformalar vasitəsilə şagirdlər əlavə materiallara çıxış əldə edir, testlər həll edir və nəticələrini izləyə bilirlər.

2. Simulyasiya və modelləşdirmə

Həndəsə və cəbr mövzularında modelləşdirmə proqramları vasitəsilə fiqurların qurulması və dəyişdirilməsi mümkündür.

3. Oyun əsaslı öyrənmə

Riyazi oyunlar şagirdlərin marağını artırır və öyrənmə prosesini əyləncəli edir.

4. Video dərslər və animasiyalar

Çətin mövzular video və animasiyalar vasitəsilə daha sadə və anlaşıqlı şəkildə təqdim olunur.

Riyaziyyatın tədrisində süni intellekt və İKT-nin istifadəsi bir sıra mühüm üstünlüklər yaradır:

- Motivasiyanın artması: Texnologiya ilə zəngin dərslər şagirdlər üçün daha maraqlı olur;
- Fərdi yanaşma: Hər bir şagirdin səviyyəsinə uyğun tədris imkanı yaranır;
- Əlçatanlıq: Şagirdlər istənilən vaxt və məkanda təhsil ala bilirlər;
- Təhlil və monitorinq: Müəllimlər şagirdlərin inkişafını daha dəqiq izləyə bilirlər;
- Yaradıcı düşüncənin inkişafı: Şagirdlər problem həll etmə və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirirlər.

İKT-nin tətbiqi zamanı texniki avadanlıqların çatışmazlığı, müəllimlərin İKT bacarıqlarının kifayət qədər olmaması, internetə çıxış problemləri, şagirdlərin diqqətinin yayılması riski kimi bəzi problemlər də ortaya çıxa bilər. Bu problemlərin aradan qaldırılması üçün məktəblərin texniki bazasının gücləndirilməsi və müəllimlər üçün mütəmadi təlimlərin təşkili vacibdir.

Texnologiyanın inkişafına baxmayaraq, müəllim tədris prosesində əsas fiqur olaraq qalır. Süni intellekt və İKT müəllimi əvəz etmir, əksinə onun işini asanlaşdırır.

Riyaziyyatın tədrisində süni intellekt və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi müasir təhsil sisteminin inkişafında mühüm rol oynayır. Bu texnologiyalar tədris prosesini daha effektiv, interaktiv və əlçatan etməklə yanaşı, şagirdlərin riyazi bilikləri daha dərindən mənimsəməsinə şərait yaradır. Xüsusilə şagirdlərin fərdi xüsusiyyətlərini və bilik səviyyəsini nəzərə alan rəqəmsal yanaşmalar təlimin keyfiyyətinin yüksəlməsinə, onların məntiqi və analitik düşüncə qabiliyyətinin inkişafına müsbət təsir göstərir. İnteraktiv proqramlar, elektron resurslar, virtual təlim platformaları və süni intellekt əsaslı sistemlər riyaziyyat dərslərini daha maraqlı və motivasiyaedici edir. Süni intellekt texnologiyaları şagirdlərin nailiyyətlərini analiz etməyə, onların zəif və güclü tərəflərini müəyyənləşdirməyə və fərdiləşdirilmiş təlim imkanları yaratmağa kömək edir. Bu isə hər bir şagirdin fərdi inkişaf tempinə uyğun təhsil almasına imkan verir. Eyni zamanda İKT vasitələrinin tətbiqi müəllimlərin işini asanlaşdırır, qiymətləndirmə prosesini sürətləndirir və tədrisin təşkilində yeni imkanlar yaradır. Nəticə etibarilə, ümumtəhsil məktəblərində riyaziyyatın tədrisində informasiya-kommunikasiya texnologiyaları və süni intellektdən istifadə müasir təhsil sisteminin əsas tələblərindən biridir. Bu texnologiyalar təlim prosesinin səmərəliliyini artırır, şagirdlərin riyazi bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərir və təhsildə innovativ mühit formalaşdırır. Gələcəkdə rəqəmsal texnologiyaların daha da inkişafı riyaziyyatın tədrisində yeni metod və yanaşmaların tətbiqinə səbəb olacaqdır. Buna görə də məktəblərin texniki imkanlarının genişləndirilməsi, müəllimlərin peşəkar və texnoloji biliklərinin artırılması, həmçinin innovativ tədris metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır. Beləliklə, süni intellekt və İKT riyaziyyat tədrisinin

keyfiyyətini yüksəldən əsas vasitələrdən biri kimi çıxış edir və müasir təhsil sisteminin ayrılmaz hissəsinə çevrilir.

YAQUB SƏMƏDOV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
T.ü.f.d., dosent
yaqub.səmədov63@mail.ru
ELMİR HAQVERDİYEV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
Magistrant
qafarhaqverdiyev64@gmail.com

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN TARİX DƏRSLƏRİNDƏ RƏQƏMSALLAŞMA: SÜNİ İNTELLEKTİN TƏDRİS PROSESİNDƏ TƏTBİQİ İMKANLARI

Məqalədə müasir təhsil sistemində, xüsusilə tarix dərslərində rəqəmsallaşma meylləri və Süni intellekt (Sİ) texnologiyalarının tətbiqi məsələləri təhlil olunur. Süni intellektin tarixi hadisələrin vizuallaşdırılması, fərdiləşdirilmiş təlim metodikasının qurulması və şagirdlərin analitik təfəkküründün inkişafındakı rolu araşdırılmışdır. Həmçinin, bu texnologiyaların tarix təhsilində yaratdığı yeni perspektivlər və innovativ çağırışlar işıqlandırılmışdır.

Açar sözlər: *rəqəmsal təhsil, süni intellekt, tarix metodikası, innovasiya, interaktiv təlim, təhsil texnologiyaları*

Giriş. XXI əsr təhsil paradiqması rəqəmsal texnologiyaların sürətli inkişafı ilə xarakterizə olunur. Azərbaycan Respublikasında təhsilin rəqəmsallaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Xüsusilə, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda informasiya-kommunikasiya texnologiyalarının təhsilə inteqrasiyası mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Tarix fənni spesifik olaraq keçmişi canlandırmaq və faktları təhlil etmək üzərində qurulduğu üçün süni intellekt (Sİ) bu sahədə inqilabi dəyişikliklərə yol açа bilər.

Ümumtəhsil məktəblərinin tarix dərslərində də rəqəmsallaşma sadəcə elektron dərsliklərdən istifadə deyil, həm də süni intellekt vasitəsilə tarixi məkanların, hadisələrin və şəxsiyyətlərin virtual reallıqda "yenidən qurulması" prosesidir. Bu yanaşma şagirdlərin fənnə olan marağını artırmaqla yanaşı, onlara abstrakt tarixi hadisələri daha dərindən dərk etməyə imkan verir.

Süni intellekt texnologiyalarının ümumtəhsil məktəblərinin tarix dərslərinə inteqrasiyası bir neçə əsas istiqamətdə reallaşdırıla bilər. Birincisi, "Söhbət botları" (Chatbots) və generativ Süni intellekt modelləri (məsələn, ChatGPT, Claude) vasitəsilə tarixi şəxsiyyətlərlə simulyasiya edilmiş dialoqların qurulmasıdır. Şagirdlər Şah İsmayıl Xətai və ya Napoleon Bonapart kimi tarixi fiqurları təmsil edən intellektual sistemlərlə "ünsiyyət" quraraq, həmin dövrün siyasi və sosial mənzərəsini onların dilindən öyrənə bilərlər. Bu metod "tarixi empatiya" hissinin formalaşmasına xidmət edir.

İkincisi, adaptiv öyrənmə sistemləridir. Süni intellekt hər bir şagirdin qavrama sürətini və maraq dairəsini analiz edərək ona fərdi tapşırıqlar təqdim edir. Məsələn, bir şagird orta əsrlər tarixini xəritələr üzərindən daha yaxşı anlayırsa, sistem ona vizual ağırlıqlı materiallar təqdim edir. Bu, təhsildə inklüzivliyin və effektivliyin artırılması deməkdir.

Üçüncüsü, tarixi rekonstruksiya və vizuallaşdırmadır. Süni intellektin alqoritmləri arxeoloji qazıntılar və tarixi təsvirlər əsasında qədim şəhərləri (məsələn, Gəncə və ya Bərdə şəhərlərinin orta əsr mənzərəsini) 3D formatda bərpa edə bilir. Bu texnologiya dərsləri "zaman maşını" effektinə çevirərək dərsin vizual yaddaşda qalmasını təmin edir. Lakin bu prosesdə "hallüsinasiya" (Süni intellektin yanlış faktlar uydurması) riskləri də nəzərə alınmalı, müəllim tərəfindən məlumatların dəqiqliyi mütləq yoxlanılmalıdır.

Tədqiqatlar göstərir ki, rəqəmsal alətlərdən istifadə olunan dərslərdə şagirdlərin aktivlik səviyyəsi ənənəvi dərslərlə müqayisədə 40% daha yüksəkdir. Azərbaycanın ümumi təhsil müəssisələrində bu innovasiyaların tətbiqi, xüsusilə "Smart City" və "Smart Village" layihələri çərçivəsində qurulan məktəblərdə (məsələn, Zəngilan rayonunun Ağalı kəndi) müasir təhsil mühitinin formalaşmasına böyük töhfə verir.

Nəticə. Tarix dərslərində süni intellektin tətbiqi təhsilin keyfiyyətini artırmaqla yanaşı, şagirdləri gələcəyin rəqəmsal dünyasına hazırlayır. Süni intellekt müəllimi əvəz etmir, əksinə, müəllimin fəaliyyətini daha səmərəli edən güclü bir alətə çevrilir. Gələcəkdə bu texnologiyaların milli kurikulumla uzlaşdırılması və tarix müəllimlərinin Süni intellekt savadlılığının artırılması Azərbaycan təhsilinin qlobal rəqabətə davamlılığını təmin edəcəkdir.

ŞƏHLA FƏTƏLİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Dosent
ShahlaFataliyeva@nmi.edu.az

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ PEDAQOJİ PROSESİN TƏŞKİLİ PRİNSİPLƏRİ

Tezisdə ümüm təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri əsas götürülərək təhsilə cəlb edilmişdir.

Təhsil ölkənin davamlı inkişafı və iqtisadi artımını təmin edən faktorlardandır. Dünya tarixi bir sıra düzgün islahatlarla uğurlu nəticələr əldə etmişlər.

Bu ideyaların mərkəzində duran əsas ideya məhz keyfiyyət anlayışıdır.

***Açar sözlər**: təhsil, keyfiyyət, şagird, islahat*

Təhsil ölkənin davamlı inkişafı və iqtisadi artımın; təmin edən faktorlardır. Həyatın bütün sahələrində baş verən yeniliklər söz yox ki, təhsil sahəsindən də yan keçmir. Təhsil proqramına yeni yanaşma yüksək keyfiyyətli təhsil nəticəsinə yetişmək üçün həyata keçirilən islahatların mərkəzində dayanır. Bütün dövrlərdə olduğu kimi müasir təhsilin məqsədi insanı yaşadığı həyata hazırlamaq, onda tənqidi və yaradıcı düşüncələr, eyni zamanda milli və ümumbəşəri ideyaları, dəyərləri formalaşdırmaqdır.

Bu gün dünya ölkələrinin qarşısında duran əsas məsələ dünyada çox sürətlə gedən qlobal dəyişikliklərin fonunda kurikulumda lazımi dəyişikliklərin edilməsidir. Dünya tarixi həmişəki kimi müxtəlif mərhələlərində insanlıq üçün ciddi dəyişikliklərlə üz – üzə qalmış və aparılan bu cür düzgün islahatlarla uğurlu nəticələr əldə etmişlər.

Bu islahatların mərkəzində duran əsas ideya məhz keyfiyyət anlayışıdır. Keyfiyyətli kurikulumun bəzi göstəriciləri – onun aktuallığı, praktik olması, effektivliyi və davamlılığıdır.

Bu həqiqətdir ki, pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimlərin əlaqələndirici, istiqamətləndirici, məsləhətçi, şagirdlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında bir sıra prinsiplər nəzərə alınmaqla qurulur.

- Pedaqoji prosesin tamlığı - pedaqoji prosesdə təlimin məqsədləri ümumi olaraq kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirir, real nəticələrlə yekunlaşan müəllim və şgird fəaliyyətini əhatə edir.
- Təlimdə bərabər imkanların yaradılması – bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir.
- Şagirdyönümlülük – şagird pedaqoji prosesin mərkəzində dayanaraq təhsil prosesinə təsir göstərir. Bütün tədris və təlim işi şagird kollektivinin maraq və tələbatının ödənilməsinə, onların istedad və qabiliyyətinin, potensial imkanlarının inkişafına yönəldilir.
- İnkişafyönümlülük – bu məsələni diqqətdən yayındırmaq olmaz. Belə ki, şagirdlərin əqli fəallığı izlənir, qazandıqları nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərin inkişaf səviyyəsi tənzimlənir.
- Fəaliyyətin situmullşadırılması – istənilən pedaqoji prosesin səmərəli və effektiv qurulması üçün, şagirdlərin təlimə marağının artırılması üçün bu əsas şərtlərdəndir. Burada onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir. Nəticə etibarilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətlənməsini təmin edir.
- Dəstəkləyici mühitin yaradılması – bu məsələdə söz yox ki, pedaqoji prosesin münasib modeli – texniki baza əsasında və sağlam mənəvi – psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Təhsil sistemində pedaqoji prosesin prinsiplərini həyata keçirmək üçün bütün bu yaradıcılıqlarımızla kifayətlənmək olmaz. Pedaqoji proses daima yenilikləri öz fəaliyyətində cəmləşdirərək uğurlar qazanan bir sahədir. Bu danılmaz bir həqiqətdir.

TƏRANƏ QƏBULOVA
Naxçıvan Müəllimlər İnstitutu
Azərbaycan dili və ədəbiyyat kafedrası

TƏLİM PROSESİNDƏ RƏQƏMSAL VASİTƏLƏR VƏ SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ YOLLARI

Beynəlxalq təcrübə göstərir ki, rəqəmsal vasitələr və süni intellekt təlimin əsas məqsədi deyil, yalnız vasitəsidir. Əsas məqsəd şagirdlərdə tənqidi və analitik düşüncə, rəqəmsal savadlılıq, problem həll etmə və yaradıcı yanaşma bacarıqlarını inkişaf etdirməkdir. Texnologiyadan düzgün və məqsədyönlü istifadə edildikdə, o, təhsilin keyfiyyətinin yüksəldilməsinə və müasir öyrənmə mühitinin formalaşdırılmasına mühüm töhfə verir. Tezisdə əsasən müasir təlim prosesində rəqəmsal vasitələrin və süni intellekt texnologiyalarının tətbiq imkanları araşdırılır. Təhsil mühitində rəqəmsallaşmanın müəllim və şagird fəaliyyətinə təsiri, interaktiv təlim platformalarının üstünlükləri, süni intellekt əsaslı alətlərin fərdiləşdirilmiş təhsildə rolu təhlil edilir. Eyni zamanda təlim prosesində rəqəmsal texnologiyalardan istifadənin üstün və zəif tərəfləri müqayisəli şəkildə izah olunur. Müəllimlərin peşəkar inkişafı, şagird motivasiyası və XXI əsr bacarıqlarının formalaşdırılması baxımından rəqəmsal vasitələrin əhəmiyyəti böyükdür.

Açar sözlər: *rəqəmsal təhsil, süni intellekt, innovativ təlim, elektron təhsil, XXI əsr bacarıqları*

Təlimdə rəqəmsal vasitələr və süni intellektdən istifadə artıq seçim deyil, müasir təhsilin əsas tələblərindən biridir. UNESCO və OECD kimi beynəlxalq qurumların hesabatlarında da qeyd olunur ki, rəqəmsal texnologiyalar və süni intellekt həm ənənəvi tədris modelini yeniləyir, həm də müəllim və şagirdlər üçün yeni imkanlar yaradır. Bu imkanlara öyrənmənin fərdiləşdirilməsi, məlumatlara operativ çıxış, əməkdaşlıq və yaradıcılıq bacarıqlarının inkişafı daxildir. Bununla yanaşı, etik məsələlər, məlumat təhlükəsizliyi, bərabər imkanların təmin olunması və müəllim hazırlığı kimi vacib mövzular da diqqət mərkəzindədir. Bütün bunlar təhsildə rəqəmsal transformasiyanın planlı və məqsədyönlü şəkildə həyata keçirilməsini zəruri edir.

Bu baxımdan müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində mühüm dəyişikliklərə səbəb oldu. Ənənəvi təlim modelləri artıq rəqəmsal platformalar, elektron resurslar və süni intellekt texnologiyaları ilə zənginləşdirildi. Bu tədris üsulları ilə yanaşı, elektron platformalar, virtual siniflər, ağıllı qiymətləndirmə sistemləri və fərdiləşdirilmiş öyrənmə modelləri müəllim və tələbələr üçün yeni imkanlar açılır. Təhsil müəssisələrində rəqəmsal vasitələrin tətbiqi yalnız məlumatın ötürülməsində deyil, həm də şagirdlərin yaradıcı, tənqidi və analitik düşünmə bacarıqlarının inkişafına təkan verdi.

Rəqəmsal vasitələr və süni intellekt texnologiyaları təlim prosesinin daha səmərəli, interaktiv və əlçatan olmasına imkan verir. Rəqəmsal vasitələr dedikdə kompüterlər, planşetlər, interaktiv lövhələr, onlayn platformalar, mobil tətbiqlər və digər texnoloji resurslar nəzərdə tutulur. Bu vasitələr tədris prosesinin keyfiyyətini artıraraq müəllim və şagird arasında daha effektiv əlaqə yaradır. Bu vasitələr təlim prosesinin daha çevik, interaktiv və effektiv təşkilinə şərait yaradır. Elektron lövhələr, təqdimat proqramları, onlayn platformalar və mobil tətbiqlər müəllimlərin dərs prosesini müasir formada qurmasına imkan verir. Rəqəmsal vasitələrin tətbiqi müəllimlər üçün də geniş imkanlar yaradır. Müəllimlər dərs planlarını elektron şəkildə hazırlaya, şagird nailiyyətlərini izləyə və qiymətləndirməni daha obyektiv şəkildə apara bilirlər. Bundan əlavə, onlayn platformalar vasitəsilə müəllim və valideyn arasında operativ əlaqə qurulur. Bu vasitələr həmçinin şagirdlərin dərsə marağını artırır və onların dərs prosesində aktiv iştirakını təmin edir. Xüsusilə vizual və interaktiv materiallar mürəkkəb mövzuların daha asan mənimsənilməsinə kömək edir. Əsas rəqəmsal vasitələr bunlardır:

1. Elektron təhsil platformaları:-Moodle, Google Classroom və Microsoft Teams kimi platformalar dərslərin idarə olunması, tapşırıqların paylaşılması və qiymətləndirmə üçün geniş istifadə olunur.

2. Virtual sinif otaqları:-Zoom, Google Meet və digər videokonfrans proqramları məsafədən təhsili mümkün edir. Bu vasitələr xüsusilə pandemiya dövründə təhsilin davamlılığını təmin etmişdi.
3. İnteraktiv təqdimatlar və multimedia:-Video, animasiya, infoqrafika və simulyasiyalar mövzuların daha aydın mənimsənilməsinə kömək edir.
4. Mobil tətbiqlər:-Mobil öyrənmə tətbiqləri tələbələrin istənilən vaxt və məkanda bilik əldə etməsinə şərait yaradır.

Google Classroom, Kahoot, Quizizz, Canva for Education və ChatGPT kimi rəqəmsal platformalar dərs prosesinin daha səmərəli təşkilinə geniş imkan yaradır. Bu vasitələr dərs materiallarının hazırlanması, qiymətləndirmənin aparılması, şagird motivasiyasının artırılması və interaktiv mühitin formalaşdırılmasında mühüm rol oynayır. Müəllimlər bu alətlər vasitəsilə tapşırıqları sistemli şəkildə təqdim edə, şagirdlərin fəaliyyətini izləyə və onların səviyyəsinə uyğun fərdiləşdirilmiş fəaliyyətlər hazırlaya bilirlər.

Beynəlxalq yanaşmalar vurğulayır ki, rəqəmsal vasitələr və süni intellektin tədrisdə tətbiqi əsas məqsəd deyil, sadəcə vasitə rolunu daşımalıdır. Başlıca məqsəd şagirdlərdə tənqidi və analitik düşüncəni, həmçinin rəqəmsal savadlılığı inkişaf etdirməkdir. Yəni şagirdlər texnologiyadan düzgün istifadə edən, lakin ona tam asılı olmayan şüurlu fərdlər kimi formalaşdırılmalıdırlar. Bu məqsədə çatmaq üçün məktəblər və müəllimlər texnologiyanı kurikulum, qiymətləndirmə və sinif idarəetməsi ilə uyğunlaşdıran aydın strategiyalar hazırlamalıdırlar. UNESCO və OECD kimi beynəlxalq qurumların tövsiyələrinə əsaslanaraq, həm imkanlar, həm də risklər balanslı şəkildə idarə olunmalıdır.

Süni intellekt texnologiyalarının təhsil sahəsinə inteqrasiyası müəllim və şagird münasibətlərində yeni imkanlar yaratdır. Süni intellekt, əsaslı proqramlar şagirdlərin fərdi xüsusiyyətlərini təhlil edir, onların öyrənmə sürətinə uyğun tapşırıqlar təqdim edir və təlimin keyfiyyətini artırır. Bu baxımdan rəqəmsal vasitələr və süni intellekt müasir təhsil strategiyasının mühüm tərkib hissəsinə çevrilir. Süni intellekt insan düşünmə prosesini təqlid edən texnologiyalar toplusudur. Təhsil sahəsində bu texnologiyalar fərdi öyrənmə, avtomatik qiymətləndirmə və məlumat analizi kimi sahələrdə geniş istifadə olunur.

Hal hazırda daha çox istifadə edilən, tədris proqramına salınan ChatGPT — süni intellekt texnologiyası əsasında fəaliyyət göstərir, insan dilini anlayaraq cavab verə bilən rəqəmsal köməkçidir. İnternet vasitəsilə istifadə olunan bu sistem müxtəlif sahələrdə insanlara yardım edir: məlumat toplamaq və ümumiləşdirmək, esse, məqalə və məktub kimi mətnlər hazırlamaq, mətnləri redaktə və tərcümə etmək, proqramlaşdırma üzrə kod nümunələri yaratmaq, tədris və layihələr üçün ideyalar təqdim etmək, həmçinin bəzi hallarda şəkilləri təhlil edib izah vermək kimi funksiyalara malikdir. Tədris materiallarında ChatGPT düşünmə, yazı yazma və problemlərin həlli prosesində istifadəçiyə dəstək olan ağıllı köməkçi kimi təqdim edilir. Başqa sözlə, onu "universal rəqəmsal məsləhətçi" kimi qiymətləndirmək olar: verilən suallara bilik bazası və dil imkanları əsasında ardıcıl, məntiqli və faydalı cavablar verməyə çalışır. Bununla yanaşı, ChatGPT insanı əvəz edən vasitə deyil, daha çox işi asanlaşdıran, fikir formalaşdırmağa və mətn üzərində işləməyə kömək edən texnologiyadır.

ChatGPT həm gündəlik həyatda, həm də peşəkar fəaliyyət sahələrində geniş istifadə olunan çoxfunksiyalı rəqəmsal vasitədir. OpenAI şirkətinin məlumatlarına əsasən, istifadəçilər ondan praktik məsləhətlər almaq, məlumat axtarmaq, müxtəlif növ mətnlər hazırlamaq və redaktə etmək üçün yararlanırlar. Bundan əlavə, ideya toplamaq, beyin həmləsi aparmaq, mürəkkəb məlumatları sadələşdirərək izah etmək, proqramlaşdırma kodları hazırlamaq və texniki məsələlərin həllində də ChatGPT insanlara vaxt qazandıran faydalı köməkçi rolunu oynayır. Məhdudiyyət baxımından ChatGPT hamını əvəz edən ağıllı varlıq deyil, səhv məlumatlar verə bilər. Bir sözlə, məlumat və ideya üçün güclü köməkçi ola bilər, amma son qərar, seçim və məsuliyyət yenə də istifadəçinin öz üzərində qalmalıdır.

Tədris prosesində rəqəmsal vasitə və süni intellektin üstünlükləri əsasən təlimin daha maraqlı və interaktiv olması, vaxta və resurslara qənaət, fərdi yanaşmanın təmin edilməsi, məsafədən təhsil imkanlarının genişlənməsi, operativ qiymətləndirmə və təhsil resurslarının əlçatan olmasıdır. Bütün

bunlara baxmayaraq, rəqəmsal texnologiyaların tətbiqi zamanı müəyyən problemlərlə də qarşılaşıla bilər:

- Texniki avadanlıqların çatışmazlığı
- İnternetə çıxış problemləri
- Müəllimlərin rəqəmsal bacarıqlarının kifayət qədər olmaması
- Məlumat təhlükəsizliyi və məxfilik məsələləri
- Süni intellektdən həddindən artıq asılılıq riski

Bu problemlərin həlli üçün təhsil müəssisələrində rəqəmsal savadlılığın artırılması və texniki infrastrukturun gücləndirilməsi vacibdir.

Rəqəmsal vasitələr və süni intellekt müasir təlim prosesinin ayrılmaz hissəsinə çevrilir. Bu texnologiyalar təhsilin keyfiyyətini artırır, öyrənməni daha əlçatan və effektiv edir. Gələcəkdə süni intellektin inkişafı ilə təhsil sistemində daha innovativ yanaşmaların tətbiqi gözlənilir. Buna görə də müəllim və şagirdlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi və texnologiyalardan düzgün istifadə mədəniyyətinin formalaşdırılması mühüm əhəmiyyət daşıyır.

HUMAY ƏLİYEVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Baş mütəxəssis
h.cebiyeva@arti.edu.az

RƏQƏMSAL RESURSLARIN DƏRS PROSESİNDƏ İSTİFADƏSİ VƏ SƏMƏRƏLİLİYİ

Tezisdə rəqəmsal resursların tədris prosesində rolu və ümumtəhsil məktəblərində tətbiqi araşdırılmışdır. Elektron dərsliklərin, onlayn platformaların və interaktiv vasitələrin şagirdlərin öyrənmə fəaliyyətinə müsbət təsiri təhlil edilmişdir. Rəqəmsal texnologiyaların tətbiqinin tədrisin keyfiyyətini artırdığı və müəllim fəaliyyətinin səmərəliliyinə müsbət təsir göstərdiyi müəyyən edilmişdir.

Açar sözlər: *rəqəmsal resurslar, dərs prosesi, şagird, elektron dərslik*

Rəqəmsal texnologiyaların sürətli inkişafı müasir təhsil sistemində yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. İnformasiya-kommunikasiya texnologiyalarının tədris prosesində tətbiqi ümumtəhsil məktəblərində dərslərin təşkilinə və keçirilməsinə müsbət təsir göstərir. Bu baxımdan rəqəmsal resurslardan istifadə şagirdlərin təlim fəaliyyətinin gücləndirilməsi və dərslərin daha səmərəli təşkil olunması üçün mühüm vasitələrdən biri hesab edilir.

Rəqəmsal resurslar müxtəlif elektron vasitələri əhatə edir. Bunlara elektron dərsliklər, multimedia təqdimatları, video materiallar, interaktiv tapşırıqlar, onlayn testlər və tədris platformaları daxildir. Həmin vasitələr informasiyanın təqdim olunma formasını dəyişərək dərs prosesini daha vizual və anlaşıqlı edir. Şagirdlər məlumatı yalnız yazılı şəkildə deyil, həm də audio və vizual formada qəbul etdikləri üçün mövzuların mənimsənilməsi daha asan olur. Xüsusilə mürəkkəb mövzuların izahı zamanı animasiya və qrafiklərdən istifadə şagirdlərin mövzunu daha dərindən qavramasına şərait yaradır.

Rəqəmsal resursların tətbiqi şagirdlərin təlim prosesində fəallığının artırılmasına da mühüm təsir göstərir. Bu vasitələr şagirdlərə dərs materiallarını müstəqil şəkildə öyrənmək, mövzuları təkrar nəzərdən keçirmək və əlavə məlumat əldə etmək imkanı yaradır. Belə şəraitdə şagirdlər passiv dinləyici rolundan çıxaraq öyrənmə prosesinin fəal iştirakçısına çevrilirlər. Bu isə onların məsuliyyət hissinin formalaşmasına və təhsilə daha ciddi yanaşmasına kömək edir.

Müasir təlim prosesində fərdi yanaşmanın təmin olunması mühüm məsələlərdən biridir. Rəqəmsal resurslardan istifadə hər bir şagirdin bilik səviyyəsinə və öyrənmə tempinə uyğun fəaliyyət göstərməsinə imkan verir. Mövzunu daha sürətli mənimsəyən şagirdlər əlavə materiallardan istifadə etməklə biliklərini genişləndirə bilir, əlavə izaha ehtiyac duyan şagirdlər isə materialları təkrar etməklə mövzunu daha yaxşı qavrayırlar. Bu yanaşma təlim prosesində fərdi xüsusiyyətlərin nəzərə alınmasına şərait yaradır.

Rəqəmsal texnologiyaların tətbiqi qiymətləndirmə prosesinin daha operativ həyata keçirilməsinə də imkan verir. Onlayn testlər və interaktiv tapşırıqlar vasitəsilə şagirdlərin bilik səviyyəsini qısa müddətdə müəyyən etmək mümkündür. Bu üsul nəticələrin daha sürətli təhlil edilməsinə və tədris prosesində yaranan çatışmazlıqların vaxtında aradan qaldırılmasına kömək edir. Şagirdlər nəticələri dərhal gördükləri üçün öz bilik səviyyələrini qiymətləndirmək imkanı qazanırlar. Eyni zamanda bu yanaşma biliklərin möhkəmləndirilməsinə müsbət təsir göstərir.

Rəqəmsal resurslardan istifadə müəllimlərin fəaliyyətinə də müsbət təsir göstərir. Müxtəlif interaktiv və vizual vasitələrin tətbiqi dərslərin daha maraqlı və məzmunlu təşkilinə şərait yaradır. Bu isə şagirdlərin diqqətinin dərsə yönəlməsinə və mövzuya marağın artmasına səbəb olur. Bundan əlavə, rəqəmsal platformalar müəllim və şagird arasında ünsiyyətin davamlı saxlanılmasına kömək edir və tədris prosesinin fasiləsiz təşkilinə imkan yaradır.

Azərbaycanın təhsil sistemində də rəqəmsal resurslardan istifadə son illərdə genişlənmişdir. Ümumtəhsil məktəblərində elektron dərsliklərin tətbiqi, distant dərslərin təşkili və müxtəlif rəqəmsal platformalardan istifadə tədris prosesinin müasirləşdirilməsinə xidmət edir. Bu vasitələr şagirdlərin dərs materiallarını daha asan mənimsəməsinə, müəllimlərin isə dərsləri daha planlı və sistemli şəkildə təşkil etməsinə şərait yaradır.

Bununla yanaşı, rəqəmsal resurslardan səmərəli istifadə üçün müəyyən şərtlərin mövcud olması vacibdir. Məktəblərdə texniki avadanlıqların təmin edilməsi, internet bağlantısının keyfiyyəti və rəqəmsal resursların düzgün seçilməsi bu sahədə əsas amillər hesab olunur. Həmin şərtlərin təmin olunması rəqəmsal texnologiyaların tədris prosesində daha effektiv tətbiqinə imkan verir.

Nəticədə rəqəmsal resurslar tədris prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Bu vasitələrin düzgün və məqsədyönlü şəkildə tətbiqi şagirdlərin öyrənmə fəaliyyətini gücləndirir, dərslərin daha interaktiv təşkilinə şərait yaradır və təhsil sisteminin müasir tələblərə uyğun inkişafına xidmət edir. Buna görə də rəqəmsal resursların təhsil mühitində tətbiqi gələcək inkişaf istiqamətlərinin əsas komponentlərindən biri hesab edilə bilər.

İLHAMƏ İSMAYILOVA
Mingəçevir Dövlət Universiteti
ilhameismayilova32@gmail.com
AYGÜN İSMAYILOVA
Mingəçevir Dövlət Universiteti
aygun.smaylova.87@inbox.ru

MƏKTƏBƏQƏDƏR TƏHSİL SİSTEMİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİ

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. Rəqəmsal texnologiyalar təhsilin bütün pillələrində olduğu kimi məktəbəqədər təhsil sistemində də geniş tətbiq olunmağa başlamışdır. Bu məqalədə məktəbəqədər təhsil müəssisələrində rəqəmsal texnologiyaların tətbiqinin əsas istiqamətləri, onların təlim-tərbiyə prosesinə təsiri, üstünlükləri və tətbiq zamanı yarana biləcək problemlər elmi baxımdan təhlil edilir. Araşdırmalar göstərir ki, rəqəmsal texnologiyaların məqsədyönlü və balanslı istifadəsi uşaqların idrak inkişafına, yaradıcılıq qabiliyyətlərinin formalaşmasına və təlim prosesinin effektivliyinin artırılmasına müsbət təsir göstərir

Açar sözlər: *məktəbəqədər təhsil, rəqəmsal texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları, interaktiv təlim, erkən inkişaf*

Məktəbəqədər təhsil sistemi uşaqların intellektual, sosial və emosional inkişafının formalaşmasında mühüm rol oynayır. Bu mərhələdə istifadə olunan təlim metodları uşaqların gələcək təhsil uğurlarının əsasını təşkil edir. Buna görə də məktəbəqədər təhsil müəssisələrində rəqəmsal texnologiyaların tətbiqi xüsusi diqqət tələb edən məsələlərdən biridir. Rəqəmsal texnologiyalar vasitəsilə təlim prosesinin daha interaktiv və əyani formada təşkili mümkün olur. Multimedia materialları, təhsil proqramları və elektron resurslar uşaqların öyrənmə prosesinə marağını artırır və onların idrak fəaliyyətini stimullaşdırır. Rəqəmsal texnologiyaların təhsil sisteminə inteqrasiyası müasir pedaqogikanın əsas istiqamətlərindən biri hesab olunur. Bu texnologiyalar təlim prosesinin təşkilində yeni imkanlar yaradır və uşaqların öyrənmə fəaliyyətinin daha effektiv şəkildə təşkilinə şərait yaradır.

Məktəbəqədər təhsil müəssisələrində rəqəmsal texnologiyaların tətbiqi, əsasən aşağıdakı vasitələr vasitəsilə həyata keçirilir:

- interaktiv lövhələr və proyektorlar;
- multimedia təqdimatları;
- təhsil yönümlü kompüter proqramları;
- planşet və mobil tətbiqlər;
- elektron tədris resursları.

Bu vasitələr uşaqların öyrənmə prosesində fəal iştirakını təmin edir və onların diqqətinin daha uzun müddət saxlanmasına kömək edir. Vizual və audio materialların birgə istifadəsi uşaqların informasiyanı daha yaxşı qavramasına şərait yaradır.

Rəqəmsal texnologiyaların tətbiqi məktəbəqədər təhsil sistemində təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərir. Bu texnologiyalar vasitəsilə təlim prosesi daha maraqlı, interaktiv və effektiv olur. Multimedia vasitələrinin istifadəsi uşaqların öyrənmə motivasiyasını artırır. Animasiya, video və audio materiallar uşaqların diqqətini cəlb edir və onların mövzunu daha yaxşı mənimsəməsinə kömək edir. Bundan əlavə, rəqəmsal texnologiyalar uşaqların məntiqi təfəkküründün, yaradıcılıq bacarıqlarının və problem həll etmə qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir. Rəqəmsal texnologiyalar həmçinin tərbiyəçilərin pedaqoji fəaliyyətində də mühüm rol oynayır. Müəllimlər müxtəlif elektron resurslardan istifadə etməklə dərs materiallarını zənginləşdirə və daha müasir təlim metodlarını tətbiq edə bilirlər. Bu isə tədris prosesinin daha səmərəli təşkilinə imkan yaradır.

Rəqəmsal texnologiyaların tətbiqinin üstünlükləri aşağıdakılardır.

- təlim prosesinin interaktiv və maraqlı təşkili;
- uşaqların erkən yaşlarda rəqəmsal savadlılığının formalaşması;
- fərdi və differensial təlim imkanlarının genişlənməsi;
- tədris materiallarının müxtəlif və əlçatan olması;
- müəllim və valideynlər arasında informasiya mübadiləsinin asanlaşması.

Həmçinin, üstünlükləri ilə bərabər Rəqəmsal texnologiyaların tətbiqi zamanı bir sıra problemlər əmələ gəlmişdir. Bunlar aşağıdakılardır:

- uşaqların ekran qarşısında uzun müddət qalması;
- fiziki aktivliyin azalması;
- texnologiyadan həddindən artıq istifadə nəticəsində sosial ünsiyyət bacarıqlarının zəifləməsi;
- bəzi təhsil müəssisələrində texniki imkanların məhdud olması. Bu problemlərin qarşısını almaq üçün rəqəmsal texnologiyaların tətbiqi zamanı balanslı yanaşmanın qorunması və uşaqların yaş xüsusiyyətlərinin nəzərə alınması vacibdir.

Nəticə. Məktəbəqədər təhsil sistemində rəqəmsal texnologiyaların tətbiqi təhsil prosesinin modernləşdirilməsində mühüm rol oynayır. Bu texnologiyalar uşaqların idrak fəaliyyətinin inkişafına, yaradıcılıq qabiliyyətlərinin formalaşmasına və təlim prosesinin daha effektiv təşkilinə müsbət təsir göstərir. Bununla yanaşı, rəqəmsal texnologiyaların tətbiqi zamanı onların düzgün və məqsədyönlü istifadəsi təmin edilməlidir. Uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalı və texnologiyadan istifadə ənənəvi təlim metodları ilə uyğunlaşdırılmalıdır. Bu yanaşma məktəbəqədər təhsil sistemində keyfiyyətin yüksəldilməsinə və uşaqların hərtərəfli inkişafına töhfə verə bilər.

ARZU ƏSƏDOVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Aparıcı mütəxəssis
arzu.asadova@arti.edu.az

TƏHSİLİN İNKİŞAFINDA MÜASİR TEXNOLOGİYALARIN ROLU VƏ TƏTBİQİ İMKANLARI

Müasir təhsilin əsas məqsədi tədrisin səmərəliliyini artırmaq, gələcəkdə vətənimizi inkişaf etdirə bilən, öz düşüncəsi, ağlı, potensial enerjisi, güclü məntiqi ilə fənləri dərindən mənimsəyən və onu tətbiq etməyi, hər cür situasiyalarda işin məğzini tutub çıxış yolunu axtarmağı bacaran yüksək intellektli gənclər yetişdirməkdir. Bu xüsusda yeni təlim metodlarının tətbiqi labüddür. Müasir mərhələdə yeni təlim texnologiyalarından istifadə mühüm tələb kimi qarşıya qoyulur. Yeniliklər daima izlənir, yeni anlayışlarla, terminlərlə təzahür edir.

Açar sözlər: *müəllim, şagird, təhsil, tədris, texnologiya*

Bu günkü təhsili, tədrisi, pedaqoji prosesi texnika və texnologiyasız təsəvvür etmək çətindir.

Təlim texnologiyası seçilərkən diqqətli olmaq, metodik ədəbiyyata yaradıcılıqla yanaşmaq lazımdır. Tədris prosesində fəal-interaktiv təlim texnologiyalarının tətbiqi öyrənənlərin informasiya texnologiyalarından sərbəst istifadə etməklə onların bilik, bacarıq və vərdişlərinin inkişafına və yaradıcı tətbiqinə zəmin yaradır. Müasir təlim texnologiyaları dərsə qədər prosesində müəllimin, dərsdə isə şagirdlərin fəallığını tələb edir. Müasir təlim texnologiyalarının tədrisi prosesində inkişaf, tərbiyə məsələləri özünü daha qabarıq şəkildə büruzə verir və təlimin keyfiyyətinin yüksəldilməsinə səbəb olur. Yeni yanaşmanın mahiyyəti ondan ibarətdir ki, təlim şagirdlərin yaddaşının təkcə elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. İnteraktiv təlim dərsdə yaranan, meydana çıxan şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim-şagird birliyini nəzərdə tutur. Müasir dərsdə yaradıcı təxəyyülü inkişaf etdirməyə və idrakı müstəqilliyə xidmət göstərən problemli suallara, düşündürücü məsələlərə xüsusi yer verilməlidir.

Ötən əsrin 60-cı illərində Amerika və Avropa məktəblərində islahatlar keçirilmiş, təlimin texniki vasitələrinin geniş tətbiqinə başlanmış, tədris prosesinə texnikanın, tətbiqi zəminində təlimin yeni texnologiyaları yaranmışdır. İstər qabaqcıl təcrübənin, istərsə də xarici ölkələrin təhsil sahəsindəki innovasiaların öyrənilməsi məqsədi ilə sistemli və ardıcıl pedaqoji araşdırmaların aparılması vacib hesab edilməlidir. Müəllimlər və şagirdlər texnologiyaları öyrənməyi daima inkişaf etdirməli və öz tədris praktikasını dərinləşdirmək və təkmilləşdirmək məqsədilə öyrəndikləri yeni anlayışları və bacarıqları tətbiq edirlər. Keyfiyyətlə təhsilin aspektləri kifayət qədər genişdir və bunların yerinə yetirilməsi, təhsil işçilərinin pedaqoji ustalığının artırılmasından asılıdır. Elm və texnikanın inkişaf etdiyi bir dövrdə yeni fəal interaktiv metodlarından yararlanmaq, onları lazımınca qavramaq, dərsləri bu üsulla qurmaq böyük məsuliyyət və cəsarət tələb edir. Yeni təlim texnologiyalarından istifadə müəllimə imkan verir ki, şagirdlərlə daha səmərəli işləsin və onların intellektual potensialını maksimum aşkara çıxarsın. Bu isə müəllimin özündən fəallıq tələb edir.

Bu gün təhsilimizdə distant təhsil, virtual təhsil, innovativ təhsi, elektron dərslər, elektron lövhələr, elektron dərslik və dərs vəsaitləri, multimedialar, avtomatlaşdırılmış öyrədici sistemlər mövcuddur ki, bunlar tədris prosesini xeyli dərəcədə yeniləmiş və təkmilləşdirmişdir. Elmi yenilikləri daha tez və əlçatan şəkildə əldə etmək üçün şagirdləri texnologiyalardan istifadə etməyə həvəs yaratmalı və onlar dərk etməlidirlər ki, texnologiyalardan, istifadə etmədən yüksək nəticələr əldə etmək olmaz.

Təhsilin inkişafında texnologiyaların rolu və tətbiqi imkanları:

Distant və onlayn təhsil: Coğrafi məhdudiyyətləri aradan qaldıraraq, istənilən yerdən keyfiyyətli təhsil resurslarına çıxış imkanı yaradır.

Elektron dərsliklər və resurslar: Tədris materiallarının rəqəmsallaşdırılması şagirdlərin məlumatı daha rahat və maraqlı formada mənimsəməsinə kömək edir.

İnteraktiv tədris vasitələri: İnteraktiv lövhələr və proqram təminatı dərslərin daha interaktiv və vizual keçirilməsini təmin edir.

Fərdiləşdirilmiş öyrənmə: Süni intellekt əsaslı platformalar şagirdlərin sürətinə və ehtiyaclarına uyğun fərdi təhsil keyfiyyətini artırır.

Müasir təhsil infrastrukturu: Yüksək texnologiyalı məktəb binalarının və laboratoriyaların qurulması təhsilin keyfiyyətini artırır.

Bu texnologiyaların tətbiqi həm müəllimlərin işini asanlaşdırır, həm də şagirdlərin XXI əsrin bacarıqlarına yiyələnməsinə şərait yaradır.

Texnologiyaların seçilməsi fənnin məqsədləri, öyrədiləcək bilik və bacarıqların xarakteri həmçinin təhsilalanların yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir. Tətbiq olunan texnologiyalar ümumpedaqoji yanaşmaların konkret fənn müstəvisində praktik reallaşmasına xidmət edir. Məsələn, **Dil fənlərinin** tədrisində kommunikativ yanaşma şagirdlərin nitq bacarıqlarının inkişafına, ünsiyyət qabiliyyətinin formalaşdırılmasına və real dil mühitinə yaxın şəraitin yaradılmasına yönəlir. **Riyaziyyat fənnində** problemli təlim texnologiyası məntiqi düşünmənin, analitik bacarıqların və yaradıcı yanaşmanın inkişafını təmin edir. **Təbiət elmlərində** isə tədqiqat və eksperiment əsaslı texnologiyalar təhsilalanların elmi-tədqiqat bacarıqlarının formalaşdırılmasına, müşahidə və nəticəçıxarma qabiliyyətinin inkişafına şərait yaradır. Fənnin-metodik səviyyədə texnologiyaların düzgün tətbiqi təlim prosesinin məzmun baxımından zənginləşdirilməsinə, təhsilalanların fənnə marağının artmasına və biliklərin daha dərin mənimsənilməsinə imkan verir.

Hazırda təlimin qarşısında duran ən mühüm vəzifə şagirdəlrin fəallığına, müstəqilliyinə, təşəbbüskarlığına, özfəaliyyətinə nail olmaq, onların təfəkkürünü inkişaf etdirməkdir. Yaşadığımız yüksək texnologiyalar dövründə müasir dərs, metodlarından istifadənin vacibliyi tələb olunub və olunacaqdır.

XALİDƏ HÜSEYNOVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Aparıcı mütəxəssis
x.huseynova@arti.edu.az
https://orcid.org/0009-0008-4378-1819

RƏQƏMSAL QİYMƏTLƏNDİRMƏ ALƏTLƏRİNİN TƏTBİQİ VƏ ONLARIN ŞAGİRD NAİLİYYƏTLƏRİNƏ TƏSİRİ

Bu məqalədə təhsil prosesində rəqəmsal qiymətləndirmə alətlərinin tətbiqi və onların şagird nailiyyətlərinə təsiri araşdırılır. Müasir dövrdə texnologiyanın sürətli inkişafı təhsil sistemində yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. Xüsusilə qiymətləndirmə prosesində rəqəmsal alətlərin istifadəsi daha çevik və effektiv mühit yaradır. Məqalədə rəqəmsal qiymətləndirmənin üstünlükləri, tətbiq imkanları və qarşıya çıxan çətinliklər təhlil edilir. Eyni zamanda, müəllifin müşahidələrinə əsasən bu alətlərin şagirdlərin motivasiyasına və öyrənmə nəticələrinə müsbət təsiri əsaslandırılır.

***Açar sözlər**. rəqəmsal qiymətləndirmə, təhsil texnologiyaları, şagird nailiyyətləri, interaktiv öyrənmə, onlayn qiymətləndirmə*

Müasir dövrdə təhsil sistemi informasiya texnologiyalarının təsiri ilə sürətlə dəyişir. Bu dəyişikliklər yalnız tədris üsullarına deyil, həm də qiymətləndirmə prosesinə ciddi təsir göstərir. Ənənəvi qiymətləndirmə əsasən yekun nəticəni ölçməyə yönəldiyi halda, müasir yanaşma öyrənmə prosesinin özünü də qiymətləndirməyi tələb edir. Rəqəmsal qiymətləndirmə bu baxımdan yeni imkanlar yaradır. Bu yanaşma şagirdlərin inkişafını davamlı izləməyə və onların bilik səviyyəsini daha obyektiv qiymətləndirməyə şərait yaradır. Araşdırmalar göstərir ki, vaxtında verilən geribildirim şagirdlərin öyrənmə nəticələrinə əhəmiyyətli təsir göstərir.

Müəllim təcrübəsinə əsasən demək olar ki, şagirdlər dərhal nəticə gördükdə öz səhvlərini daha tez anlayır və növbəti tapşırıqlarda daha diqqətli olurlar. Bu da öyrənmə prosesinin keyfiyyətini artırır.

Rəqəmsal qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarının texnologiya vasitəsilə ölçülməsi prosesidir. Bu məqsədlə müxtəlif onlayn platformalardan istifadə olunur. Bu platformalar müəllimə qiymətləndirməni daha səmərəli təşkil etməyə kömək edir.

Rəqəmsal qiymətləndirmənin əsas üstünlüklərindən biri onun operativliyidir. Şagirdlər tapşırıqları yerinə yetirdikdən dərhal sonra nəticələrlə tanış ola bilirlər ki, bu da onlara öz öyrənmə prosesini anında dəyərləndirmək imkanı yaradır. Belə sürətli geribildirim şagirdlərin təlim prosesinə daha fəal cəlb olunmasına və öz səhvlərini vaxtında görərək düzəltməsinə şərait yaradır.

Digər mühüm üstünlük motivasiya amili ilə bağlıdır. Müasir təhsil yanaşmalarında şagird motivasiyası öyrənmə prosesinin əsas komponentlərindən biri hesab olunur. Rəqəmsal qiymətləndirmə alətləri, xüsusilə interaktiv və oyun əsaslı (gamification) üsullar, şagirdlərin dərsə marağını əhəmiyyətli dərəcədə artırır və onların təlim prosesində daha fəal iştirakını təmin edir. Belə alətlərdə vizual elementlərin, yarışma formatlarının, xalların toplanması və ani nəticə göstərilməsi kimi funksiyalar şagirdlər üçün dərsi daha cəlbedici edir. Bu yanaşma ənənəvi qiymətləndirmə üsullarından fərqli olaraq, şagirdləri yalnız nəticəyə deyil, prosesə də maraq göstərməyə yönləndirir.

Praktiki müşahidələr göstərir ki, bu tip tapşırıqlar zamanı şagirdlər daha yüksək motivasiya ilə iştirak edir, tapşırıqları yerinə yetirməyə daha çox səy göstərir və öyrənmə prosesinə daha aktiv qoşulurlar. Eyni zamanda, rəqabət elementi və dərhal nəticə görmək imkanı onların diqqətini artırır və öyrənmə fəaliyyətini daha davamlı edir.

Rəqəmsal qiymətləndirmə təlim prosesində fərdi yanaşmanın gücləndirilməsində mühüm rol oynayır. Ənənəvi qiymətləndirmə formalarından fərqli olaraq, rəqəmsal alətlər müəllimə şagirdlərin bilik və bacarıq səviyyəsini daha operativ və dəqiq şəkildə izləməyə imkan verir. Bu isə müəllimin hər bir şagirdin ehtiyacını daha yaxşı müəyyənləşdirməsinə və ona uyğun diferensiallaşdırılmış

tapşırıqlar hazırlamasına şərait yaradır. Nəticədə, təlim prosesi daha çevik və şagirdyönümlü xarakter alır.

Bununla yanaşı, bu sahədə müəyyən çətinliklər də mövcuddur. Texniki problemlər, internetin zəif olması və bəzi müəllimlərin rəqəmsal bacarıqlarının kifayət qədər olmaması qiymətləndirmə prosesini çətinləşdirə bilər. Eyni zamanda, bəzi hallarda şagirdlərin texnologiyadan düzgün istifadə etməməsi də müşahidə olunur.

Təhlil və müzakirə. Mövcud tədqiqatlar və praktik təcrübə göstərir ki, rəqəmsal qiymətləndirmə alətlərindən düzgün istifadə şagird nailiyyətlərinə müsbət təsir edir. Şagirdlər dərsə daha fəal qoşulur, tapşırıqları daha maraqla yerinə yetirirlər və nəticədə onların akademik göstəriciləri yüksəlir.

Müəllim baxımından isə bu alətlər böyük üstünlüklər yaradır. Onlar şagirdlərin nəticələrini daha sistemli şəkildə təhlil edə və tədris prosesini buna uyğun tənzimləyə bilirlər.

Mənim fikrimcə, rəqəmsal qiymətləndirmənin ən mühüm üstünlüklərindən biri şagirdlərdə məsuliyyət hissinin formalaşmasıdır. Şagird öz nəticəsini dərhal gördükdə, öz üzərində daha çox işləməyə başlayır. Bu isə onların müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir.

Nəticə. Nəticə olaraq qeyd etmək olar ki, rəqəmsal qiymətləndirmə alətləri müasir təhsil sistemində mühüm yer tutur. Bu alətlər öyrənmə prosesini daha effektiv, şəffaf və maraqlı edir. Şagirdlərin motivasiyası artır və onların nailiyyətləri yüksəlir. Eyni zamanda, bu alətlərin səmərəli tətbiqi üçün müəllimlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi, texniki imkanların yaxşılaşdırılması və metodiki dəstəyin gücləndirilməsi vacibdir.

Mən hesab edirəm ki, gələcəkdə rəqəmsal qiymətləndirmə təhsilin ayrılmaz hissəsinə çevriləcək və onun düzgün tətbiqi təhsilin keyfiyyətinin daha da yüksəlməsinə səbəb olacaqdır.

ŞƏBNƏM ƏLİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Dissertant
https://orcid.org/0000-0002-9716-7629

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ

Müasir dövrdə təhsil sistemində rəqəmsal texnologiyaların tətbiqi təlim prosesinin keyfiyyətinin artırılmasına mühüm təsir göstərir. Azərbaycan dili dərslərində elektron resurslardan, interaktiv platformalardan və rəqəmsal vasitələrdən istifadə şagirdlərin dərsə marağını artırır, onların dil bacarıqlarının inkişafına müsbət təsir edir.

Məqalədə rəqəmsal texnologiyaların Azərbaycan dili dərslərində istifadəsinin üstün cəhətləri, müəllimin rolu və qarşıya çıxan bəzi problemlər araşdırılmışdır.

Açar sözlər: *rəqəmsal texnologiyalar, Azərbaycan dili, interaktiv təlim, elektron resurslar, müasir təhsil*

Giriş. Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı cəmiyyətin bütün sahələrinə təsir etdiyi kimi, təhsil sistemində də mühüm dəyişikliklər yaratmışdır. Ənənəvi tədris metodları ilə yanaşı rəqəmsal texnologiyaların tətbiqi artıq müasir məktəbin əsas tələblərindən birinə çevrilmişdir. Bu dəyişikliklər müəllim və şagird münasibətlərinə, dərsin təşkilinə, qiymətləndirmə üsullarına və ümumilikdə təlim prosesinə yeni yanaşmalar gətirmişdir.

Azərbaycan dili dərslərində rəqəmsal texnologiyalardan istifadə xüsusilə aktual məsələlərdən hesab olunur. Çünki ana dili yalnız qrammatik qaydaların öyrədilməsi deyil, həm də şagirdlərin nitq mədəniyyətinin, ünsiyyət bacarıqlarının və məntiqi təfəkkürünün formalaşdırılması deməkdir. Müasir texnologiyalar bu bacarıqların inkişaf etdirilməsində müəllimə daha geniş imkanlar yaradır.

Hazırkı dövrdə şagirdlər texnologiya ilə iç-içə böyüdükləri üçün onların maraq dairəsinə uyğun tədris mühiti yaratmaq vacibdir. Əgər dərs müasir vasitələrlə təşkil olunarsa, şagirdlərin diqqətini cəlb etmək və onları fəal öyrənməyə təşviq etmək daha asan olur.

Əsas hissə. Azərbaycan dili dərslərində rəqəmsal texnologiyalardan istifadə müxtəlif formalarda həyata keçirilir. Elektron təqdimatlar, videodərslər, interaktiv tapşırıqlar, onlayn testlər, elektron dərsliklər və təhsil platformaları müəllim üçün mühüm resurs hesab olunur. Bu vasitələr dərsin daha əyani və maraqlı keçməsinə kömək edir. Məsələn, mətnlərin audio formatda dinlədilməsi şagirdlərin dinləyib-anlama bacarıqlarının inkişafına müsbət təsir göstərir. Video materiallar vasitəsilə müxtəlif mövzuların daha aydın izah olunması mümkündür. Eyni zamanda interaktiv testlər şagirdlərin biliklərini operativ şəkildə yoxlamağa və nəticələri qısa müddətdə qiymətləndirməyə imkan yaradır.

Azərbaycan dili dərslərində elektron resurslardan istifadə şagirdlərin müstəqil fəaliyyətini də gücləndirir. Şagirdlər internet resursları vasitəsilə əlavə məlumat əldə edir, müxtəlif mətnlər üzərində işləyir və təqdimatlar hazırlayırlar. Bu isə onların araşdırma aparmaq, məlumat toplamaq və düzgün təqdim etmək bacarıqlarını inkişaf etdirir.

Rəqəmsal texnologiyaların tətbiqi dərsdə interaktiv mühit yaradır. Qrup işləri, onlayn müzakirələr və rəqəmsal oyun elementləri şagirdlərin fəallığını artırır. Ənənəvi dərslərdə passiv iştirak edən bəzi şagirdlər rəqəmsal vasitələrdən istifadə zamanı daha həvəslə fəaliyyət göstərirlər. Bu da təlim prosesində motivasiyanın yüksəlməsinə səbəb olur.

Müasir dövrdə distant və hibrid təhsil modellərinin geniş yayılması rəqəmsal texnologiyaların əhəmiyyətini daha da artırmışdır. Xüsusilə pandemiya dövründə onlayn platformalar vasitəsilə təşkil olunan dərslər müəllimlərin və şagirdlərin texnologiyadan istifadə bacarıqlarının inkişafına səbəb olmuşdur. Bu proses Azərbaycan dili dərslərində də yeni tədris üsullarının tətbiqinə şərait yaratmışdır. Müəllimlər müxtəlif rəqəmsal proqramlardan istifadə etməklə şagirdlərin dərsə marağını qorumağa və onların fəal iştirakını təmin etməyə çalışmışlar.

Bundan əlavə, rəqəmsal texnologiyalar fərdi yanaşma imkanlarını da genişləndirir. Müəllim şagirdlərin səviyyəsinə uyğun tapşırıqlar hazırlaya, onların inkişaf dinamikasını izləyə və zəif tərəflərini müəyyən edə bilir. Bu isə təlim prosesinin daha məqsədyönlü və effektiv təşkilinə kömək edir. Xüsusilə dil qaydalarının mənimsədilməsi və yazı bacarıqlarının inkişaf etdirilməsi zamanı rəqəmsal vasitələrin tətbiqi mühüm nəticələr verir.

Eyni zamanda, rəqəmsal texnologiyaların tətbiqi zamanı bəzi çətinliklər də mövcuddur. Bəzi hallarda texniki problemlər, internet imkanlarının zəif olması və ya bütün şagirdlərin rəqəmsal vasitələrə eyni səviyyədə çıxış imkanının olmaması tədris prosesinə təsir göstərə bilər. Bundan əlavə, texnologiyadan həddindən artıq istifadə şagirdlərin diqqətinin yayınmasına da səbəb ola bilər. Buna görə müəllim rəqəmsal vasitələrdən məqsədyönlü və düzgün şəkildə istifadə etməlidir.

Müasir təhsil şəraitində müəllimin rolu yalnız məlumat ötürmək deyil, həm də şagirdləri düzgün istiqamətləndirməkdir. Müəllim rəqəmsal resursları seçərkən onların şagirdlərin yaş xüsusiyyətlərinə və təlim məqsədlərinə uyğun olmasına diqqət yetirməlidir.

Nəticə. Nəticə etibarilə, Azərbaycan dili dərslərində rəqəmsal texnologiyalardan istifadə təlim prosesinin effektivliyini artıran mühüm amillərdən biridir. Elektron resurslar və interaktiv metodlar şagirdlərin dərsə marağını artırır, onların dil və nitq bacarıqlarının inkişafına müsbət təsir göstərir. Bununla yanaşı, müəllimin peşəkarlığı və texnologiyadan düzgün istifadə bacarığı təlimin keyfiyyətində əsas rol oynayır. Müasir dövrdə rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası Azərbaycan dili fənninin daha səmərəli tədrisinə geniş imkanlar yaradır.

GÜLNARƏ SƏFƏROVA
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
GülnaraSafarova@nmi.edu.az

BİOLOGİYA DƏRSLƏRİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN ROLU

Məqalədə biologiya dərslərində rəqəmsal texnologiyaların tətbiqinin əhəmiyyəti araşdırılmışdır. Müasir texnologiyaların istifadəsinin biologiya tədrisinin keyfiyyətinə, şagird motivasiyasına və mövzuların daha asan mənimsənilməsinə təsiri izah edilmişdir. Virtual laboratoriyalar, interaktiv platformalar və elektron resursların biologiya dərslərində tətbiqinin üstünlükləri göstərilmiş, eyni zamanda mövcud problemlər və onların həlli yolları haqqında məlumat verilmişdir.

***Açar sözlər**: elm və texnologiya, fəal təlim, boiologiya, motivasiya*

Müasir dövrdə elm və texnologiyanın sürətli inkişafı təhsil sistemində də ciddi dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Xüsusilə rəqəmsal texnologiyaların tədris prosesinə tətbiqi müəllim və tələbələr üçün yeni imkanlar yaratmışdır. Bu dəyişikliklər biologiya fənninin tədrisində də özünü aydın şəkildə göstərir. Ənənəvi tədris üsulları uzun illər biologiyanın öyrədilməsində əsas vasitə hesab olunsa da, müasir dövrdə yalnız nəzəri məlumatlarla kifayətlənmək tələbələrin dərsi tam mənimsəməsi üçün yetərli hesab edilmir. Biologiya canlı aləmi, hüceyrə quruluşu, genetik proseslər və ekoloji sistemlər kimi mürəkkəb mövzuları əhatə etdiyi üçün bu fənnin tədrisində vizual və interaktiv vasitələrə xüsusi ehtiyac yaranır. Məhz bu səbəbdən rəqəmsal texnologiyalar biologiya dərslərinin daha maraqlı, anlaşıqlı və effektiv təşkilinə kömək edir.

Biologiya dərslərində rəqəmsal texnologiyaların tətbiqi şagirdlərin və tələbələrin mövzuları daha dərindən mənimsəməsinə şərait yaradır. Elektron lövhələr, virtual laboratoriyalar, təqdimat proqramları, animasiyalar və müxtəlif interaktiv platformalar biologiya dərslərinin keyfiyyətini artırır. Hüceyrənin quruluşu, fotosintez prosesi, insan orqanizminin sistemləri və ya genetik dəyişikliklər kimi mövzuların sadəcə mətn və şəkillərlə izahı bəzi hallarda kifayət etmir. Lakin animasiya və üçölçülü modellər vasitəsilə bu proseslərin nümayiş etdirilməsi şagirdlərin mövzunu daha asan qavramasına kömək edir. Vizual materiallar biologiya fənnində abstrakt görünən anlayışların konkret şəkildə başa düşülməsini təmin edir.

Rəqəmsal texnologiyalar şagirdlərin dərsə marağını artıran əsas vasitələrdən biridir. Müasir dövrün şagirdləri texnologiya ilə daim təmasda olduqları üçün elektron resurslarla təşkil olunan dərslərə daha böyük maraq göstərirlər. İnteraktiv oyunlar, test proqramları və virtual tapşırıqlar şagirdlərin biologiya dərslərində fəallığını artırır. Bu cür fəaliyyətlər dərsin monoton keçməsinin qarşısını alır və şagirdlərin təlim prosesində aktiv iştirakını təmin edir. Şagirdlər yalnız müəllimi dinləməklə kifayətlənmir, eyni zamanda müxtəlif rəqəmsal platformalarda araşdırma aparır, nəticələri müqayisə edir və öz fikirlərini sərbəst şəkildə ifadə edə bilirlər.

Biologiya dərslərində virtual laboratoriyaların istifadəsi xüsusi əhəmiyyət daşıyır. Bəzi bioloji təcrübələrin məktəb laboratoriyalarında aparılması çətin və ya təhlükəli ola bilər. Bu zaman virtual laboratoriyalar təhlükəsiz və əlçatan alternativ kimi istifadə edilir. Şagirdlər virtual mühitdə müxtəlif təcrübələr apararaq nəticələri müşahidə edə bilirlər. Belə fəaliyyətlər onların tədqiqat aparmaq bacarıqlarını inkişaf etdirir və elmi düşünmə qabiliyyətini gücləndirir. Eyni zamanda virtual laboratoriyalar vaxt və maddi resurslara qənaət etməyə imkan yaradır.

Rəqəmsal texnologiyaların tətbiqi biologiya dərslərində fərdi yanaşmanın təşkilinə də kömək edir. Hər bir şagirdin öyrənmə tempi və maraq dairəsi fərqli olduğuna görə rəqəmsal resurslar müəllimə müxtəlif səviyyələrə uyğun tapşırıqlar hazırlamaq imkanı verir. Bəzi şagirdlər vizual materiallarla daha yaxşı öyrəndiyi halda, digərləri interaktiv fəaliyyətlər vasitəsilə məlumatı daha asan mənimsəyirlər. Elektron platformalar vasitəsilə şagirdlər mövzuları təkrar izləyə, əlavə materiallardan istifadə edə və müstəqil şəkildə öyrənmə imkanları əldə edə bilirlər.

Müasir biologiya tədrisində internet resurslarının rolu da böyükdür. Şagirdlər internet vasitəsilə dünyanın müxtəlif elmi mərkəzlərinin materiallarına çıxış əldə edə bilirlər. Bu, onların dünyagörüşünün genişlənməsinə və elmi yeniliklərlə tanış olmasına kömək edir. Onlayn videolar, elmi məqalələr və virtual ekskursiyalar biologiya dərslərini daha zəngin və maraqlı edir. Xüsusilə ekologiya, biomüxtəliflik və insan sağlamlığı ilə bağlı mövzuların öyrədilməsində beynəlxalq resurslardan istifadə şagirdlərin qlobal problemlər haqqında məlumatlılığını artırır.

Bununla yanaşı, rəqəmsal texnologiyaların biologiya dərslərində tətbiqi müəyyən problemlərlə də müşayiət olunur. Bəzi təhsil müəssisələrində texniki avadanlıqların çatışmaması və internet problemləri rəqəmsal tədrisin imkanlarını məhdudlaşdırır. Müəllimlərin hamısı rəqəmsal vasitələrdən eyni səviyyədə istifadə bacarığına malik olmur. Buna görə müəllimlərin informasiya-kommunikasiya texnologiyaları üzrə davamlı təlimlərə cəlb olunması vacibdir. Digər tərəfdən, texnologiyadan həddindən artıq istifadə şagirdlərin diqqətinin yayınmasına səbəb ola bilər. Bu baxımdan müəllim rəqəmsal vasitələri məqsədəuyğun və balanslı şəkildə tətbiq etməlidir.

Nəticə etibarilə demək olar ki, rəqəmsal texnologiyalar biologiya dərslərinin daha müasir və səmərəli təşkilinə geniş imkanlar yaradır. Bu texnologiyalar şagirdlərin biologiya fənninə marağını artırır, onların tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir və öyrənməni daha interaktiv edir. Müasir təhsil sistemində rəqəmsal vasitələrin biologiya dərslərində düzgün tətbiqi gələcəkdə daha bilikli, yaradıcı və elmi düşüncəyə malik gənclərin formalaşmasına mühüm töhfə verəcəkdir.

NAİL ƏSƏDZADƏ
Lənkəran Dövlət Universiteti
Magistrant
nailesedzade744@gmail.com

TARİXİN TƏDRİSİNDƏ RƏQƏMSAL RESURSLARDAN İSTİFADƏ

Müasir informasiya-kommunikasiya texnologiyalarının təhsildə tətbiqi, xüsusilə tarixin tədrisində rəqəmsal resurslar, şagirdlərin aktiv öyrənməsini, tənqidi düşünməsini və analitik bacarıqlarını inkişaf etdirir, vizuallaşdırma və fərdi öyrənmə imkanlarını artıraraq tədrisin keyfiyyətini və effektivliyini yüksəldir və kompetensiya formalaşmasına töhfə verir.

***Açar sözlər**: rəqəmsal resurslar, müasir təhsil, yeni təlim texnologiyaları, informasiya-kommunikasiya texnologiyaları*

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı bütün sahələrin, eləcə də təhsil sahəsinin inkişafına müsbət təsir göstərmişdir. Humanitar fənlərin, o cümlədən tarixin tədrisində rəqəmsal resursların istifadəsi təlimi daha keyfiyyətli və əlçatan edir. Bu cür imkanların tədris prosesinə daxil edilməsi analitik düşüncə, səbəb-nəticə əlaqəsinin qurulması və tarixi təfəkkürün formalaşmasına təsiri baxımından olduqca əhəmiyyət kəsb edir.

Rəqəmsal resursların tədris prosesinə inteqrasiyası konstruktiv öyrənmə nəzəriyyəsi ilə əlaqəlidir. Belə ki, burada şagird bilikləri passiv şəkildə qəbul etmir, əksinə, onları aktiv fəaliyyət nəticəsində formalaşdırır. Rəqəmsal platformalar şagirdlərin müstəqil araşdırma aparmasına, müqayisə bacarıqlarının formalaşmasına və nəticə çıxarmasına imkan yaradır. Bildiyimiz kimi, tarixi düşüncə bacarıqları mənbələrlə işləmək, onların etibarlılığını müəyyən etmək və kontekstual analiz aparmaqla bağlıdır. Buna görə də, rəqəmsal resursların tarixin tədrisinə ən böyük töhfələrindən biri arxivlərə və onlayn məlumat bazalarına çıxışı əlçatan etməsidir. Müasir texnologiyaların köməyi ilə müxtəlif materialları vaxt itirmədən əldə edən şagirdin tarixə tənqidi yanaşması güclənir və şablon düşüncə tərzinin qarşısını alır. Rəqəmsal resursları biz müxtəlif qruplara bölərək onların rolunu daha aydın görə bilərik. Belə ki, şərti olaraq rəqəmsal resurslar informativ (məqalələr, arxiv materialları, elektron dərsliklər), vizual (şəkillər, xəritələr, videolar, sənədli filmlər), interaktiv (test platformaları, oyun əsaslı tədris alətləri, simulyasiyalar), kommunikativ (onlayn müzakirə platformaları, forumlar və təhsil şəbəkələri) olaraq qruplara ayrıla bilər.

Tarixin tədrisində rəqəmsal resursların ən əhəmiyyətli üstünlüklərindən biri şagirdi passiv roldan çıxararaq aktiv iştirakçıya çevirməsidir. İkinci bir üstünlük vizuallaşdırmadır. Yəni, tarixi hadisələr sadəcə mətn formasında deyil, eyni zamanda video, animasiya və ya 3D modellər vasitəsilə təqdim olunur ki, bu da şagirdlərin yaddaşında qalıcı təsir bağışlayır. Üçüncüsü fərdi öyrənmə imkanlarının artmasıdır. Bu gün ölkəmizdə şagirdlər öz səviyyəsinə uyğun müxtəlif mövzularda İKT avadanlıqlarının köməyi ilə çoxlu material əldə edə bilir. Bu yanaşma Bloom-un taksonomiyası çərçivəsində yüksək səviyyəli idrak bacarıqlarının inkişafına şərait yaradır. Nəticədə şagirdlərin inkişafına və eyni zamanda rəqabət mühitinin formalaşmasına imkan yaranır. Bu resursların tədrisdə tətbiqinin digər bir əhəmiyyəti tənqidi düşünmə bacarığının formalaşdırılmasıdır ki, burada da şagirdlərin müxtəlif mənbələri müqayisə etmək, məlumatları təhlil etmək və nəticə çıxarmaq bacarıqlarını inkişaf etdirmələri nəzərdə tutulur.

Belə bir fikir var ki, sadəcə insan oxuda, öyrədə və istiqamət verə bilər. Amma son dövrlərdə texnologiyaların inkişafı, habelə təhsil sahəsində tətbiqi bu yanaşmanın fərqli formatda da reallaşa biləcəyini göstərir. Yəni, müasir texnologiyaların sistemli yanaşması ilə müəyyən bir uğur əldə etmək mümkündür.

Nəticədə tarixin tədrisində rəqəmsal resurslardan istifadə tədrisin keyfiyyətini artırmaq və eyni zamanda şagirdlərdə müasir dövrün kompetensiyalarının formalaşmasına kömək edir, bu prosesi daha interaktiv, vizual və effektiv edir. Rəqəmsal texnologiyaların məqsədyönlü tətbiqi təhsilin səmərəliliyinin daha da yüksəldilməsinə, şagirdlərin daha dərin və şüurlu bilik əldə etməsinə mühüm töhfə verir.

ELNARƏ ƏHMƏDOVA
Şərur rayonu Kürkənd tam orta məktəbi
Direktor
elnarehmed87@gmail.com

RƏQƏMSAL TƏHSİL MÜHİTİNDƏ ŞAGİRDLƏRİN TƏNQİDİ TƏFƏKKÜRÜNÜN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Məqalədə rəqəmsal təhsil mühitində şagirdlərin tənqidi təfəkküründün inkişaf etdirilməsinin əhəmiyyəti, mövcud çağırışlar və effektiv pedaqoji yanaşmalar araşdırılır. Rəqəmsal texnologiyaların tənqidi düşüncəyə təsiri təhlil edilir.

Açar sözlər: *rəqəmsal təhsil, tənqidi təfəkkür, innovativ metodlar, şagird, pedaqogika*

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı təhsil sistemini köklü şəkildə dəyişdirmiş, həm imkanlar, həm də çağırışlar baxımından yeni bir mühit formalaşdırmışdır. Bu mühitdə şagirdlər böyük həcmdə informasiyaya çıxış imkanı əldə etmişlər. Lakin informasiyanın miqdarının artması, onun keyfiyyətinin qiymətləndirilməsini daha da çətinləşdirir. Buna görə də tənqidi təfəkkürün inkişafı müasir təhsilin ən prioritet vəzifələrindən birinə çevrilmişdir.

Tənqidi təfəkkürün formalaşması sahəsindəki tədqiqatlar göstərir ki, bu proses yalnız məktəb illərində deyil, erkən yaşlardan başlayaraq sistematik şəkildə inkişaf etdirilməlidir. Psixoloq Con Dyuinin konstruktivist yanaşmasına görə, düşüncə yalnız passiv məlumat qəbulu ilə deyil, aktiv problemhəll prosesləri vasitəsilə formalaşır. Bu nəzəriyyə müasir rəqəmsal mühitə tam uyğun gəlir: texnologiya şagirdlərə passiv izləyici olmaq imkanı verdiyi qədər, onları aktiv tədqiqatçıya çevirmək üçün də güclü bir vasitədir. Məsələn, virtual simulyasiyalar, interaktiv xəritələr və onlayn eksperiment platformaları şagirdlərə elmi düşüncə tərzini birbaşa tətbiq etmək imkanı yaradır.

Dünya təhsil praktikasına nəzər saldıqda görürük ki, inkişaf etmiş ölkələrin əksəriyyəti artıq tənqidi təfəkkürü müstəqil fənn kimi deyil, bütün fənlərin tədrisinə inteqrasiya edilmiş məqsəd kimi müəyyənləşdirib. Finlandiya, Sinqapur və Kanadanın təhsil modelləri bu baxımdan nümunəvi hesab edilir. Həmin ölkələrdə müəllimlər şagirdlərə cavab verməyi öyrətmir, sual verməyi öyrədir. Bu paradiqma dəyişikliyi xüsusilə rəqəmsal mühitdə böyük əhəmiyyət kəsb edir, çünki internet məkanında hər şeyin cavabı mövcuddur – lakin düzgün sualı vermək bacarığı yalnız inkişaf etmiş tənqidi zəkaya məxsusdur. Azərbaycan təhsil sistemində aparılan islahatlarda da bu istiqamətə getdikcə daha çox diqqət yetirilməkdədir. Xüsusilə yeni kurikulum çərçivəsinin fənn standartlarında tənqidi düşünmə, problem həll etmə və yaradıcı fəaliyyət kimi kompetensiyaların ön plana çıxarılması bu meyli açıq şəkildə göstərir.

Rəqəmsal mühitin tənqidi təfəkkürə təsirini araşdıran müasir tədqiqatlar bir sıra maraqlı nəticələr ortaya qoymuşdur. Belə ki, ekran qarşısında keçirilən uzun müddət şagirdlərin dərindən oxuma və mücərrəd düşüncə qabiliyyətini zəiflədə bilər. Bununla belə, düzgün pedaqoji rəhbərlik altında rəqəmsal alətlərdən istifadə əksinə, bu bacarıqları gücləndirir. Tədqiqatlar göstərir ki, müəllimin rəhbərliyi ilə aparılan onlayn müzakirələr, bloq yazıları, podcast hazırlanması və rəqəmsal layihələr şagirdlərin analitik düşüncəsini ənənəvi metodlara nisbətən daha sürətlə inkişaf etdirir. Bunun əsas səbəbi odur ki, rəqəmsal fəaliyyətlər şagirdlərdən öz fikirlərini yazılı, şifahi və vizual formada ifadə etmələrini tələb edir — bu isə düşüncənin strukturlaşmasına birbaşa kömək edir.

Tənqidi təfəkkürün rəqəmsal mühitdə inkişafı yalnız texnoloji infrastrukturdan deyil, həm də məktəb mədəniyyətindən asılıdır. Şagirdlərə suallar vermək, şübhə etmək, fikirlərini müdafiə etmək və səhvlərindən öyrənmək imkanı tanınan bir mühit yaratmaq – bu, rəqəmsal alətlərdən daha əhəmiyyətli bir pedaqoji şərtdir. Müəllim-şagird münasibətlərinin demokratik əsaslara köçürülməsi, sinif mühitinin açıq müzakirəyə əlverişli hala gətirilməsi rəqəmsal texnologiyaların effektliyini dəfələrlə artırır. Bu baxımdan rəqəmsal texnologiyalar tənqidi təfəkkürün inkişafında vasitə, müəllimin pedaqoji ustalığı isə əsas amil olaraq qalır.

Tənqidi təfəkkür – məlumatları təhlil etmək, məntiqi əlaqələr qurmaq, alternativ baxış bucaqlarını nəzərə almaq və əsaslandırılmış nəticəyə gəlmək bacarığıdır. Rəqəmsal mühit bu bacarığın inkişafı üçün həm əlverişli şərait yaradır, həm də ciddi maneələr törədir. Sosial mediada yayılan yanlış informasiyalar, süni intellekt tərəfindən generasiya edilən məzmun və alqoritm əsaslı məlumat süzgəcləri şagirdlərin tənqidi düşünmə qabiliyyətinə birbaşa təsir göstərir.

Rəqəmsal təhsil mühitində tənqidi təfəkkürün inkişaf etdirilməsinə yönəlmiş bir neçə effektiv yanaşma müəyyənləşdirilmişdir. Birincisi, problemə əsaslanan təlim (PBL) metodunun tətbiqidir. Bu metod şagirdləri real həyat problemlərini rəqəmsal alətlərin köməyi ilə araşdırmağa, müxtəlif mənbələri müqayisə etməyə və öz həll yollarını əsaslandırmağa sövq edir. İkincisi, mənbə tənqidi və media savadlılığının tədris prosesinə inteqrasiyasıdır. Şagirdlərə onlayn məlumatların etibarlılığını yoxlamaq, müəllifliyi, tarixçəni və məqsədi təhlil etmək bacarıqları aşılanmalıdır. Üçüncüsü, əməkdaşlıq əsaslı rəqəmsal layihələrin həyata keçirilməsidir. Birgə iş zamanı şagirdlər bir-birinin fikirlərini tənqidi qiymətləndirməyi, arqumentləri əsaslandırmağı öyrənirlər.

Müəllimin bu prosesdəki rolu da köklü şəkildə dəyişmişdir. Müasir müəllim bilik ötürücüsü deyil, tənqidi düşüncəni istiqamətləndirən fasilitator olmalıdır. Rəqəmsal alətləri pedaqoji məqsədlərə xidmət edəcək şəkildə tətbiq etmək, şagirdlərə informasiyanı qəbul etməyi deyil, onu sorğulamağı öyrətmək bugünkü pedaqoji fəaliyyətin əsas tələbidir.

Rəqəmsal təhsil mühiti tənqidi təfəkkürün inkişafı üçün zəngin imkanlar təqdim edir. Lakin bu imkanlardan səmərəli istifadə yalnız məqsədyönlü pedaqoji strategiyalar, müəllim hazırlığı və müvafiq tədris mühitinin formalaşdırılması ilə mümkündür. Bu sahədə aparılan tədqiqatların dərinləşdirilməsi Azərbaycan ümumi təhsilinin keyfiyyətinin artırılmasına əhəmiyyətli töhfə verəcəkdir.

PANEL 4. TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR - 02

HƏSƏNƏLİ EYVAZOV
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
HasanaliEyvazov@nmi.edu.az

DƏRS PROSESİNDƏ METODİK YANAŞMALARIN MÜASİR İSTİQAMƏTLƏRİ

Məqalədə, müasir tədqiqatçının qarşıya qoyduğu ideyanın elmi-nəzəri və təcrübi məsələlərinin həllinin müasir metodların tətbiqi ilə reallaşması yollarının araşdırılması öz əksini tapmışdır. Təhlili yanaşmaların ədəbiyyat dərslərinin tədrisi metodları üzrə araşdırılması üçün müxtəlif müəlliflərin əsərlərinə müraciət etməklə, göstərilən nümunələrin izahına geniş yer vürilmişdir.

Sonda məqalədə belə bir nəticəyə gəlinir ki, yeni təhsil islahatı müasir təhsilalanı dövrünün həyatına hazırlamalıdır. Buna görə də ədəbiyyat və onun tədrisi metodikası dəyişən dünyanın reallıqlarından kənarda qala bilməz. Danılmaz həqiqətdir ki, istənilən cəmiyyətin bir tam halında mövcudluğunu və inkişafını onun təlim və təhsil sistemi təmin edir.

Açar sözlər: *müasir tədqiqatçı, müasir metodlar, təhsilverənlər, dərs prosesi, yenilik, ədəbiyyatşünas alimlər, təhlil yolları*

Məlim həqiqətdir ki, hər bir ideyanın elmi-nəzəri və təcrübi məsələlərinin həlli müasir metodların yaradılması ilə reallaşır. Çünki müasir tədqiqatçının qarşıya qoyduğu ən mühüm məsələ təhsilalanların təfəkkürünün inkişaf etdirilməsi üçün yeni təlim üsullarını, metodlarını və yollarını aydınlaşdıraraq tətbiq etməkdən ibarətdir. Məlum məsələdir ki, təhsilverənlərin hər birinin dərs prosesində özünəməxsus yanaşma tərzi və metodik üsulları vardır. Bir çox hallarda tədiqatçılarımızın təqdim etdiyi bəzi metodik yanaşmalar və ya təhlili istiqamətlər pedaqoji cəmiyyətə ehkam kimi qəbul etdirilməyə çalışılır. Hansı ki, çoxsaylı təhsilverənlərin hər birinin, dərs prosesinin gedişinə yanaşma tərzi və metodik yönümü vardır. Ona görə ki, tədqiqatçıların da daim söyldiyi kimi, hər dərs prosesi ayrılıqda bir tədqiqat işinə bənzəyir. Bu prosesdə müsbət tərəflərlə yanaşı mənfi tərəflər də ola bilər. Cünki bugünkü təcrübələrin nəticələrinin əksəriyyətini elmi yenilik adı ilə məktəbə gətirmək heç də müsbət hal deyıı. Tədqiqatçı, yaxud müəllim dərs prosesində yeni tətbiq etdiyi metodik prosesi yenilik kimi təqdim edə bilməz. Hər bir yenilik praktikaya, təcrübəyə söykənməli və təsdiqini tapmalıdır.

Əgər fikirlərimizi ədəbiyyat dərslərinin tədrisi metodları istiqamətinə yönəltməli olsaq, onda bildirməliyik ki, Ədəbiyyat dərslərini tədris eləyən təhsilverən ilk növbədə təhsil islahatının qarşıya qoyduğu problemləri, prinsipləri və təhliletmə yollarını bilməlidir. Yanız ənənəvi təhsillə yeni islahatın tələblərini və fərqlərini bilməklə uzağa getmək olmaz. O, həm də dərsin tipini, quruluşunu, ən azından proqramın tələbini bilməlidir. Çünki, bu gün yeni texnologiyadan istifadə yeni problemlərə əsaslanan tədqiqatların aparılmasını aktuallaşdırmışdır.

Tədqiqatçılar, ədəbi tənqidçilər, yaxud ədəbiyyatşünas alimlərin fikirlərində mütəmadi olaraq qeyd olunur ki, XX əsr Azərbaycan ədəbiyyatı özündən əvvəlki dövrlərlə müqayisədə formasına, məzmununa və janr xüsusiyyətlərinə görə seçilmişdir. Ötən əsrin 20-80-ci illərdə yaranan ədəbiyyat nümunələri ideyasına və tərbiyəvi mahiyyətinə görə ümumilikdə götürdükdə əsasən sovet ideologiyasının prinsiplərini özündə əks etdirmişdir. Əlbəttə burada inkar ediləsi məsələ yoxdur. Çünki hər bir elmi araşdırma yazıldığı dövrə, ictimai farmasiyaya görə mənsub olduğu ideologiyaya dair münasibət bildirməyi ön planda saxlamağa çalışmışdır.

Lakin mənsub olduğu dövrün ictimai formasiyasının ideologiyasından ayrılan bir sıra sənətkarlar olmuşdur ki, onların mövzu seçimi, yaradıcılıq üslubu, sözün bədii dəyəri, xalq yaradıcılığı nümunələrinin bədii inikası ədəbiyyatın inkişafına güclü təsir göstərmişdir. Həmin qələm

sahiblərinin o dövrdə yazılan əsərləri bugünkü günümüzdə də tərbiyəedici xüsusiyyətlərini ifadə etməkdədir.

Yeni təhsil islahatının bugünkü inkişafetdirici dərs prosesinin təfəkkürə əsaslanmaqla mənimsədilməsinin müxtəlif məzmunlu və istiqamətli optimal yolları axtarılır.

Tədqiqatçı Şəhanə Ərşadli "Kurikulum üzrə ədəbiyyat dərslərində bədii əsərlərin təhlilinə metodik yanaşmalar" məqaləsində yazir: "Müəllimlərin istifadəsində olan metodik vəsairlər diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, bədii əsərin təhlilində müxtəlif yanaşmalar özünü göstərir. Ş.Mikayılov və A.Bəkirovanın tədqiqatında bədii əsərlərin təhlili ilə bağlı aparılan işlər konkretləşdirilir:" Məktəb təcrübəsində indiki şəraitdə ədəbiyyat tədrisi qarşısında qoyulan məqsəd və vəzifələri nəzərə alınaraq bədii əsərin təhlili zamanı aşağıdakı cəhətlər diqqət mərkəzində saxlanmalıdır:

Əvvəla əsərin janr xüsusiyyətlərinin nəzərə alınması, ikincisi, məzmunla formanın uyğunluğu, üçüncüsü dil və üslub məsələsi, dördüncü, əsərdən çıxarılan ideya-estetik nəticə nəzərə alınmalıdır.

Əlbəttə, həyat hadisələrinin bədii-obrazlı inikası o əsərləri formasına, üslubuna, həcminə görə başqa şəkildə də qruplaşdırmaq olar, lakin göstərilən şəkildə qruplaşdırmaq şagirdlərin fikri fəallığına, sərbəst düşünmələrinə və müstəqil fikir söyləmələrinə optimal şərait yaratdığını məktəb təcrübəsi sübut edir".

Müəlliflərin də qeyd etdikləri kimi həyat hadisələrinin bədii-obrazlı inikasını o əsərlərin formasına, üslubuna, həcminə görə başqa şəkildə də qruplaşdırmaq olar. Buradan görünür ki, müəllif nəzərdə tutduğu qaydaya qəti hökm vermir.

Yaxud, Azərbaycan Dövlət Pedaqoji Universitetinin disenti Fəxrəddin Yusifov yazır: "Ədəbi əsərlərin öyrənilməsində ən mühüm mərhələ onun təhlil olunmasıdır. Ədəbi təhsilin qarşısına qoyulan mühüm işlər məhz həmin mərhələdə reallaşır. Əsərin məzmununda əksini tapan məsələlər - əxlaqi-mənəvi dəyərlər, müsbət insani keyfiyyətlər, çatışmazlıqların tənqidi və s. bu əsərlərdə öz əksini tapır".

Eyni zamanda, bu gün ədəbiyyat dərslərində qarşıya qoyulan mühüm tələb interaktiv təlim metodlarından səmərəli və məqsədəuyğun istifadə etməkdir.

Bakı Dövlət Universitetinin dosenti Soltan Hüseynoğlu "kurikulum üzrə ədəbiyyat dərslərində bədii əsərlərin təhlilində interaktiv metodların tətbiqi daha səmərəlidir" ideyasını irəli sürərək yazır: "Tədqiqatçı interaktiv dərsin müxtəlif mərhələlərində bədii əsərlərin ideya-məzmununun, sənətkarlıq xüsusiyyətlərinin təhlili imkanlarını araşdıraraq bildirir ki, bədii təhlil aparılan dərslərdə təqdimatlar, qarşılıqlı dinləmələr və müzakirələr aparıcı yer tutur. Tədqiqat prosesində əldə edilmiş biliklərin, məlumatların mübadiləsi qazanılmışların ümumi mənzərəsi barədə təsəvvür yaratmaqla bərabər, həm də ciddi kəmkəsirlərin olduğunu da aşkara çıxarır. Belə ki, interaktiv metodların tətbiqi ilə əldə edilən məlumatları (bilikləri) birləşdirən fikirlər, ideyalar aydınlaşdırılır və onların yoxlanılan fərziyələrə nə dərəcədə uyğun olduğu müəyyənləşdirilir.

Bu o deməkdir ki, bugünkü şəraitdə, yeni təhsil islahatının tələblərinə uyğun olaraq ədəbiyyat dərslərinin tədrisi qarşısında qoyulan məqsəd və vəzifələri nəzərə alınaraq bədii əsərin təhlili zamanı aşağıdakı mühüm cəhətlər nəzər-diqqətdə saxlanmalıdır:

1.Təhlil zamanı canlı danışıq dilinin yazıldığı dövrə və ifadə tərzinə görə araşdırılması.

2. Satirik hekayələrin dövrə və zamana görə təhlili, müasir dövrlə müqayisəsi.

3. Bədii əsərlərdə obrazların təhlili zamanı problemin qoyuluşu.

4. Dövrlər və mövzular üzrə ənənəvi bağlılıq və yeni yanaşma metodları.

5. Folklor motivlərindən istifadə prosesində bədii əsər nümunələri ilə xalq deyimlərinin müqayisəli təhlili.

6. Bədii nümunələrdə surətlərin xarakterik xüsusiyyətlərinə görə ümumiləşdirilməsi və tipikləşdirilməsi.

Qeyd etdiyimiz bu plandan belə nəticə çıxarmaq olar ki, bədii əsərlərin dili üzrə işin yeni təhsil islahatının müasir tələblər baxımından təhlilin müxtəlif optimal variantları və ya planları üzrə aparıla bilər. Eyni zamanda dərsdə canlandırma məşğələləri üzrə müxtəlif formalarda həyata keçirmək olar. Bu isə işin sistemli şəkildə öyrənilməsi üçün vacib şərt hesab olunur.

Qarşıya qoyulan mühüm məsələ bu əsərlərin tədris prosesində müasir problemlərini metodik cəhətdən düzgün və hərtərəfli həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Buradan belə bir sual çıxır: ümümilikdə təhsil sistemimizin inkişafını XXI əsrin 25 ilindən sonra nə gözləyir? Biz təhsil sistemimizin işini hansı perspektivli istiqamətdə qurmalıyıq? **Bu sual bu gün də təhsil problemimizin müasir tələblər səviyyəsində düzgün qurmağı problem kimi qarşıya qoyur.**

ƏSMƏD ŞƏRİFOVA
Gəncə Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
Serifova.73@Mail.ru

İNNOVASİYALAR TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ MÜHÜM AMİL KİMİ

Təhsil insan həyatının ən mühüm tərkib hissəsidir. Təhsil insanın dünya görüşünün formalaşmasında, cəmiyyətdə düzgün sosiallaşasında, intellektual səviyyəsinin yüksəlməsinə xidmət edən vacib amillərdən biridir. Təhsilin keyfiyyətli və yararlı olması bütün dövrlərdə onun düzgün idarə edilməsindən, eyni zamanda cəmiyyətdə təhsilin düzgün mənimsənilməsindən asılıdır. Dünyanın qəbul etdiyi mühüm məqsədlərdən biri də məhz "təhsilin keyfiyyəti" problemidir.

Açar sözlər: *təhsil, keyfiyyət, innovasiyalar, intellektual səviyyə, dünyagörüş*

Təhsil insan həyatının ən mühüm tərkib hissəsidir. Təhsil insanı bilikləndirir, dünyagörüşünü genişləndirir, intellektual səviyyəsini yüksəldir, onu cahillikdən, avamlıqdan qurtarır. Təhsilin keyfiyyətli və yararlı olması onun düzgün idarə edilməsindən asılıdır. Dünyanın qəbul etddiyi mühüm məqsədlərdən biri məhz "təhsilin keyfiyyəti" problemidir. Keyfiyyətli təhsil isə bizim bir neçə il təhsil müəssisələrində təhsil almağımız deyil, əldə etmiş olduğumuz təhsilin həyatda tətbiq etmək bacarığı ilə ölçülür. Qazanılmış biliyin həyatda tətbiq edilməsi- təhsilin məqsədi və insanın öyrənməsi deməkdir. Məşhur filosof, praqmatist nəzəriyyənin banisi Con Dyui demişdir: "Təhsil həyata hazırlıq deyil, təhsil həyatın özüdür".

Təhsilin keyffiyyəti dövlətimiz üçün ən prioritet istiqamətlərdən biridir. Ölkəmizin Prezidenti cənab İlham Əliyev təhsilin keyfiyyəti haqqında demişdir:" Biz inkişaf etmiş ölkələrin təcrübəsindən görürük ki, o ölkələr ki, sözün əsl mənasında, inkişaf edir, orada təhsilin keyfiyyəti yüksəkdir. Biz çalışırıq ki, Azərbaycanda bu sahəyə daim diqqət göstərilsin, həm təhsil sisteminin maddi-texniki bazası güclənsin, eyni zamanda və ən önəmlisi təhsilin keyfiyyəti artsın. Həm orta, həm də ali məktəblərdə bu proses ardıcıllıqla, vahid sistem şəklində aparılmalıdır."

Azərbaycanda dünya təhsil sisteminin standartlarına uyğun təhsil yaratmaq və təhsilimizin keyfiyyətinin yüksəldilməsinin ən böyük uğuru ilk növbədə Ümummilli liderimiz Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli sərəncamına əsasən "Azərbaycan Respublikası Təhsil Sahəsində İslahat Proqramı" ilə başlamışdır. Təhsilimizin inkişafı ölkəmizdə xalqımızın vəziyyətinin yaxşılaşması və onların həyatının daha yaxşı səviyyədə qurulması üçün şərait yaratmış, təhsil alan əldə etmiş olduğu bilik sayəsində öz həyat yolunu seçmək mədəniyyətinə yiyələnmiş, etik davranışı ilə başqalarına nümunə olmuşdur.

Deyə bilərik ki, İslahatla bağlı olan yeniliklər və bu yeniliklərin təhsildə tətbiq edilməsi innovasiya hesab edilə bilər. Buraya yeni kurikulumların, yeni proqramların, layihələlrin hazırlanması, Boloniya təhsil prosesinin tətbiqi, ənənəvi təlimdən fəal və interaktiv təlimə keçid, təhsildə kredit sisteminin tətbiqi, təhsildə distant təhsilin, kompüter –İKT-nın, süni intellektin tətbiqi kimi məsələlər nümunə ola bilər.

İnnovasiya - yenilik, yeniliyin tətbiq edilməsi deməkdir. Bu gün bütün sahələrdə, o cümlədən təhsildə xeyli müasir innovasiyalar mövcuddur. İnnovasiyalardan səmərəli və yerində tətbiqi təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət etmiş olar.

İnnovasiyanı yaradan və tətbiq edən insanlara innovator və ya yenilikçi demək olar. İnnovator olmadan innovasiya və innovativ inkişaf da mümkün ola bilməz. İnnovator yaradıcı, qeyri-standart təfəkkürə, yüksək erudisiya və savada, yaradıcılığa, sahibkarlıq qabiliyyətinə malik olmalıdır. Bu xüsusiyyətlər isə yenə də keyfiyyətli təhsil hesabına yarana bilər.

Son 20 ildə isə innovasiyalar daha çox inkişaf etmişdir. Bu xüsusilə təhsildə İKT-nin sürətli inkişafı və təhsilin müxtəlif sahələrində geniş tətbiqidir. İKT -nin tətbiqi hesabına çoxsaylı yeni innovasiyaların da yaradılması, təhsilin keyfiyyəıtinin yüksəlməsinə səbəb olur.

“Təhsildə innovasiya dedikdə müxtəlif yeniliklərin təlim-tərbiyənin məqsəd, məzmun, metod və formalarına tətbiqi, təhsilin iqtisadiyyati, təşkili və idarə edilməsində pedaqoq və təhsilalanın müştərək fəaliyyətlərinin yeni biliklər əsasında təşkili nəzərdə tutulur”.

“Azərbaycan Respublikasında təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”nda – “təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması” mühüm istiqamət kimi göstərilmişdir.

Təhsildə keyfiyyəti yüksəltmək üçün innovasiyaların tətbiqi bir sıra zərurətlərdən meydana gəlmşdir ki, bunları belə ümumiləşdirə bilərik: Tədris prosesinin humanistləşməsi və demokratikləşdirilməsi, cəmiyyətdə təhsilin, elm və texnikanın prioritet sahəyə çevrilməsi, məktəblilərin təhsilinin durmadan inkişaf edən sənaye və iqtisadiyayta uyğunlaşdırılması, qlobal dünya ilə ayaqlaşmaq, gənc nəslin təhsilinin keyfiyyətinə verilən yüksək tələblər, milli, mədəni-mənəvi dəyərlərə istiqamət, yüksək potensiallı mütəxəssislər yetişdirmək, təhsilin elektronlaşdırılması.

Qeyd edə bilərik ki, innovasiyalar təlim prosesinin səmərəliliyinə təminat yaradan güclü amil olduğu kimi, təhsilin idarəedilməsində, keyfiyyətin yüksəldilməsində də güclü amildir. Bu gün müəllimlərin, məktəb rəhbərlərinin innovasiyalardan, yeni təlim texnologiyalarından, interaktiv metodlardan, İKT-dən istifadə etməsi təhsil sahəsində aparılan islahatlardan irəli gəlir və təhsilin keyfiyyətinin yüksəldilməsinə xeyli dərəcədə müsbət təsir göstərir.

MEHRİBAN ƏSƏDULLASOY
Naxçıvan Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
quliyeva.mehriban@list.ru

ANA DİLİNİN TƏDRİSİNDƏ İNNOVATİV VƏ MÜASİR YANAŞMALAR

Məqalədə ana dilinin tədrisində innovativ və müasir pedaqoji yanaşmaların tətbiqi, müəllimin fərdi iş təcrübəsi kontekstində araşdırılmışdır. Şagirdyönümlü metodların və rəqəmsal vasitələrin istifadəsi, eləcə də təlim prosesində qarşıya çıxan çətinliklərin həlli yolları təhlil edilmişdir. Bununla yanaşı, müəllim, məktəb və valideyn əməkdaşlığının təlim keyfiyyətinə təsiri nəzərdən keçirilmişdir. Tədris prosesində innovativ yanaşmaların təlimin effektivliyinin artırılmasındakı rolu xüsusi vurğulanmışdır.

Açar sözlər: *ana dili, təlim prosesi, müəllim, şagird, təhsil*

Ölkənin müasir inkişaf mərhələsində ümumi təhsil sistemində həyata keçirilən islahatlar təlimin məzmununa və tətbiq olunan metodlara mühüm təsir göstərməkdədir. Xüsusilə ana dilinin tədrisi sahəsində ənənəvi yanaşmalardan uzaqlaşaraq müasir, şagirdyönümlü metodlara keçid müşahidə olunur. Bu dəyişikliklər müəllimin tədris prosesinə yanaşmasında yeni üsul və vasitələrin tətbiqini zəruri edir. Müasir dövrdə ana dilinin tədrisi yalnız qaydaların öyrədilməsi ilə məhdudlaşmır; əsas məqsəd şagirdlərdə dinləmə, danışma, oxu və yazı bacarıqlarının kompleks şəkildə formalaşdırılmasıdır. Bu baxımdan kommunikativ yanaşma xüsusi əhəmiyyət daşıyır. Dərslərin interaktiv təşkili məqsədilə müxtəlif pedaqoji üsullardan istifadə olunur. Məsələn, mətnlə iş zamanı şagirdlərə yalnız oxu tapşırıqları deyil, eyni zamanda müzakirə, debat və yaradıcı yazı fəaliyyətləri təqdim edilir. Bu cür yanaşma onların tənqidi təfəkkürünü inkişaf etdirir, fikirlərini sərbəst ifadə etmə bacarıqlarını gücləndirir. Eyni zamanda rəqəmsal vasitələrdən istifadə təlim prosesinin keyfiyyətinə müsbət təsir göstərir. Müxtəlif rəqəmsal platformalar, təqdimatlar və interaktiv tapşırıqlar şagirdlərin marağını artırmaqla yanaşı, onların müstəqil öyrənmə bacarıqlarını da formalaşdırır. Xüsusilə distant və hibrid təlim şəraitində bu vasitələr mühüm rol oynayır. Bu mühitdə şagirdlərin dərs materiallarına çıxışı asanlaşır, onlar zaman-məkan məhdudiyyəti olmadan öyrənmə prosesində iştirak edə bilirlər. Eyni zamanda, interaktiv platformalar vasitəsilə müəllim və şagird arasında əlaqə daha çevik və səmərəli şəkildə qurulur. Bununla yanaşı, təlim prosesində müəyyən çətinliklər də mövcuddur. Bəzi şagirdlərdə oxu-anlama bacarıqlarının zəif inkişafı, məhdud söz ehtiyatı və dilə marağın aşağı olması öyrənməni çətinləşdirir. Bu problemlərin aradan qaldırılması üçün fərdi yanaşmanın tətbiqi, əlavə oxu materiallarının seçilməsi və motivasiyaedici fəaliyyətlərin təşkili vacibdir. Dərslərdə diferensial yanaşmanın tətbiqi müxtəlif səviyyəli şagirdlərin ehtiyaclarının nəzərə alınmasına imkan yaradır. Qrup işləri və layihə əsaslı fəaliyyətlər şagirdlərdə əməkdaşlıq bacarıqlarını inkişaf etdirir və onların dərsə fəal iştirakını təmin edir. Müəllim tərəfindən verilən tapşırıqların vaxtında yoxlanılması və məqsədyönlü əks-əlaqə şagirdlərin öyrənməyə həvəsini artırır. Müəllim, məktəb və valideyn əməkdaşlığı bu prosesdə əsas rol oynayır. Bu istiqamətdə atılan sistemli addımlar ana dilinin tədrisinin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Bununla yanaşı, müstəqil oxu vərdişlərinin formalaşdırılması onların ümumi nitq inkişafına müsbət təsir göstərir. Müasir təhsil şəraitində valideyn-məktəb əməkdaşlığı da mühüm amillərdən biri kimi çıxış edir və bu əməkdaşlıq şagirdlərin evdə də dil mühitində aktiv iştirakını təmin edir.

Ana dilinin tədrisində orijinal materiallardan istifadə şagirdlərin real dil mühiti ilə tanış olmasına şərait yaradır. Orijinal (autentik) materiallar dedikdə dərs məqsədi üçün sadələşdirilməmiş, real ünsiyyət mühitində istifadə olunan mənbələr nəzərdə tutulur. Bunlara qəzet məqalələri, xəbər reportajları, reklamlar, real dialoqlar, sosial media paylaşımları və gündəlik yazışmalar daxildir. Belə materialların istifadəsi şagirdlərə ana dilini süni dərs mühitində deyil, real kommunikasiya şəraitində öyrənmək imkanı yaradır. Bu cür yanaşma onların söz ehtiyatını genişləndirir və ana dilinin təbii strukturunu daha yaxşı qavramasına kömək edir. Nəticə etibarilə, autentik materiallar dil bacarıqlarının praktik və funksional inkişafına mühüm töhfə verir. Ana dilinin səmərəli tədrisi

müəllimin peşəkarlıq səviyyəsindən, tətbiq etdiyi metodların uyğunluğundan və yeniliklərə açıq olmasından birbaşa asılıdır. Müasir pedaqoji yanaşmaların düzgün tətbiqi şagirdlərin dil bacarıqlarının inkişafına və ümumi təlim nəticələrinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müasir təhsil mühitində ana dilinin tədrisi qloballaşma proseslərinin təsiri altında yeni çağırışlarla üzləşir. Xarici dillərin təsirinin artması bəzi hallarda ana dilinə marağın azalmasına səbəb olur. Bu isə milli-mədəni dəyərlərin qorunması baxımından xüsusi diqqət tələb edir. Şagirdlərin sosial şəbəkələrdə istifadə etdikləri qeyri-ədəbi dil formaları onların yazılı və şifahi nitqinə də təsir göstərir. Yaranmış vəziyyət ədəbi dil normalarının mənimsənilməsində çətinliklər yaradır. Müəllimlər bu çətinliyi aradan qaldırmaq üçün dərslərdə düzgün nitq nümunələrinə daha çox yer verməlidirlər. Digər mühüm məsələ şagirdlərin funksional savadlılıq səviyyəsinin kifayət qədər inkişaf etməməsidir. Bu hal oxunan mətnin mənasının dərindən anlaşılmamasına və əldə olunan biliklərin praktik situasiyalarda tətbiqində məhdudiyyətlərə səbəb olur. Təcrübə göstərir ki, şagirdlər dil materialını real həyat şəraiti ilə əlaqələndirdikdə onu daha səmərəli mənimsəyirlər. Problemin aradan qaldırılması üçün tapşırıqların real həyat vəziyyətinə inteqrasiya edilməsi, mətnlərin praktik məzmunla zənginləşdirilməsi və tətbiqyönümlü fəaliyyətlərin artırılması zəruridir. Eyni zamanda dərsliklərin məzmununun bütün şagirdlər üçün eyni dərəcədə uyğun olmaması da çətinliklər yaradır. Bəzi mətnlər şagirdlərin yaş və maraq səviyyəsinə tam uyğun gəlmir. Bu baxımdan müəllimin əlavə resurslardan istifadə etməsi vacib hesab olunur. Şagirdlər bəzən ana dili dərsini digər fənlərlə müqayisədə daha az maraqlı hesab edirlər. Bu vəziyyətin dəyişdirilməsi üçün dərslərdə yaradıcı və praktik fəaliyyətlərin payı artırılmalıdır. Bundan əlavə, qiymətləndirmə meyarlarının şagirdlər tərəfindən tam başa düşülməməsi onların nəticələrinə təsir edir. Şəffaf və aydın qiymətləndirmə sistemi şagirdlərin öz inkişafını izləməsinə imkan yaradır.

Tədris prosesinin daha səmərəli təşkili üçün metodik dəstəyin artırılması vacibdir. Metodik dəstək dedikdə müəllimlər üçün müasir kurikulum tələblərinə uyğun hazırlanmış tədris vəsaitləri, metodik göstərişlər və nümunə dərs işləmələri nəzərdə tutulur. Bu dəstəyə dərslərin planlaşdırılmasına kömək edən metodik tövsiyələr və təlim strategiyalarının izahı da daxildir. Eyni zamanda, müəllimlərin peşəkar inkişafını təmin edən seminarlar, təlimlər və ixtisasartırma proqramları metodik dəstəyin mühüm hissəsini təşkil edir. Təcrübə mübadiləsi məqsədilə təşkil olunan müəllim şəbəkələri və açıq dərs nümunələri də bu sistemə daxildir. Bundan əlavə, rəqəmsal tədris resurslarının və elektron platformaların istifadəsi üzrə metodik istiqamətləndirmə də mühüm rol oynayır. Digər tərəfdən, müasir texnologiyaların düzgün seçilməməsi və məqsədsiz istifadəsi də gözlənilən effekti vermir. Rəqəmsal vasitələr yalnız məqsədyönlü istifadə edildikdə təlimə müsbət təsir göstərir. Mövcud çətinliklərin aradan qaldırılması kompleks yanaşma tələb edir. Müəllimin fərdi iş təcrübəsi ana dilinin tədrisində müasir yanaşmaların uğurla tətbiqində həlledici rol oynayır. Təcrübə göstərir ki, müəllimin yaradıcı yanaşması və metodiki çevikliyi şagirdlərin dərsə marağını əhəmiyyətli dərəcədə artırır. Fərdi təcrübəyə əsaslanan üsullar dərslərin daha praktik və şagirdyönümlü təşkilinə imkan yaradır. Bu cür yanaşma şagirdlərin dil bacarıqlarının inkişafını sürətləndirməklə yanaşı onların özünüifadə imkanlarını genişləndirir. Müasir texnologiyaların məqsədyönlü tətbiqi müəllimin işini daha effektiv edir və təlim prosesini zənginləşdirir. Eyni zamanda, müəllimin davamlı özünüinkişafa açıq olması təhsilin keyfiyyətinə birbaşa təsir göstərir. Beləliklə, müəllimin fərdi təcrübəsi ilə müasir pedaqoji yanaşmaların vəhdəti ana dilinin tədrisinin səmərəliliyini təmin edən əsas amillərdən biridir.

ÜLVİYYƏ NAĞIYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
Baş müəllim
UlviyyeNagiyeva@nmi.edu.az

PEDAQOJİ TƏCRÜBƏNİN MƏQSƏDYÖNLÜ TƏŞKİLİ VƏ APARILMASI

Məqalədə pedaqoji təcrübənin məqsədyönlü təşkili və aparılmasının gələcək müəllimlərin peşəkar hazırlığında əhəmiyyəti araşdırılır. Təcrübənin planlı təşkili, müasir təlim metodlarının tətbiqi, metodiki dəstək, məktəb mühiti ilə əməkdaşlıq və praktik bacarıqların inkişafına təsiri geniş şəkildə təhlil olunur.

Açar sözlər: *Pedaqoji təcrübə, müəllim hazırlığı, peşəkar kompetensiya, təlim metodları, pedaqoji fəaliyyət*

Müasir dövrdə təhsil sisteminin inkişafı müəllim hazırlığının keyfiyyətinə xüsusi tələblər irəli sürür. Gələcək müəllimlərin peşəkar kompetensiyalarının formalaşdırılmasında pedaqoji təcrübə mühüm yer tutur. Pedaqoji təcrübə ali təhsil müəssisələrində əldə olunan nəzəri biliklərin məktəb mühitində tətbiqinə şərait yaradan əsas fəaliyyət istiqamətlərindən biridir. Bu baxımdan pedaqoji təcrübənin məqsədyönlü təşkili və səmərəli aparılması müəllim hazırlığının vacib şərtlərindən hesab edilir. Pedaqoji təcrübənin əsas məqsədi tələbələrin pedaqoji fəaliyyətə hazırlanması, onların tədris və tərbiyə işinin təşkili ilə bağlı bacarıqlarının inkişaf etdirilməsidir. Təcrübə prosesində tələbələr müəllimin peşə fəaliyyətinin xüsusiyyətlərini yaxından müşahidə edir, dərsin planlaşdırılması, təşkili və idarə olunması sahəsində praktik biliklər əldə edirlər. Eyni zamanda onlar şagirdlərlə düzgün ünsiyyət qurmaq, sinifdə sağlam psixoloji mühit yaratmaq və fərdi yanaşma prinsiplərini tətbiq etmək bacarıqlarını mənimsəyirlər. Pedaqoji təcrübənin məqsədyönlü təşkili ilk növbədə düzgün planlaşdırmadan asılıdır. Təcrübə proqramı hazırlanarkən onun məqsəd və vəzifələri aydın şəkildə müəyyən edilməli, tələbələrin yerinə yetirəcəkləri fəaliyyət növləri sistemli şəkildə təşkil olunmalıdır.

Təcrübə müddətində tələbələr müşahidə aparmaq, dərs təhlil etmək, açıq dərslərdə iştirak etmək və müstəqil dərs keçmək imkanları əldə etməlidirlər. Bu fəaliyyətlər onların peşəkar hazırlığının möhkəmləndirilməsinə xidmət edir. Pedaqoji təcrübənin səmərəliliyinə təsir göstərən əsas amillərdən biri ali məktəb ilə ümumtəhsil müəssisələri arasında əməkdaşlığın düzgün qurulmasıdır. Metodist müəllimlərin, məktəb rəhbərliyinin və təcrübə rəhbərlərinin tələbələrə verdiyi metodiki dəstək onların pedaqoji fəaliyyətə adaptasiyasını asanlaşdırır. Təcrübə rəhbərlərinin müntəzəm müşahidəsi və tövsiyələri tələbələrin mövcud çatışmazlıqları aradan qaldırmasına, öz üzərində işləməsinə və peşəkar inkişafına kömək edir. Pedaqoji təcrübə zamanı müasir təlim metod və texnologiyalarının tətbiqi də mühüm əhəmiyyət daşıyır. İnteraktiv təlim üsullarından istifadə, informasiya-kommunikasiya texnologiyalarının dərs prosesinə inteqrasiyası və innovativ yanaşmaların tətbiqi tələbələrin yaradıcı fəaliyyətini gücləndirir. Bu proses onların təşəbbüskarlıq, müstəqil qərarvermə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Bundan əlavə, pedaqoji təcrübə tələbələrin tərbiyə işinin təşkili sahəsində də təcrübə qazanmasına şərait yaradır. Onlar sinifdənxaric və məktəbdənkənar tədbirlərin hazırlanması və keçirilməsində iştirak edir, şagirdlərin sosial və mənəvi inkişafına təsir göstərən fəaliyyətlərdə fəallıq nümayiş etdirirlər. Bu isə gələcək müəllimlərin pedaqoji mədəniyyətinin və peşə məsuliyyətinin formalaşmasına müsbət təsir edir.

Pedaqoji təcrübə gələcək müəllimlərin peşə fəaliyyətinə uyğunlaşmasında mühüm vasitədir. Bu proses tələbələrdə məsuliyyət hissinin formalaşmasına, pedaqoji dünyagörüşünün genişlənməsinə və müəllim peşəsinə marağın artmasına şərait yaradır. Təcrübə zamanı tələbələr məktəbdaxili qaydalar, təhsil mühiti və şagird davranışlarının idarə olunması haqqında ətraflı məlumat əldə edirlər. Pedaqoji təcrübənin uğurlu təşkili üçün tələbələrin fərdi xüsusiyyətləri və ixtisas istiqamətləri nəzərə alınmalıdır. Təcrübə proqramı onların nəzəri hazırlıq səviyyəsinə uyğun qurulduqda öyrənmə prosesi daha effektiv olur. Xüsusilə ibtidai siniflərdə keçirilən təcrübə tələbələrin uşaqlarla işləmək bacarığını inkişaf etdirir, onlarda səbir, diqqət və yaradıcı yanaşma formalaşdırır. Təcrübə dövründə məktəbdə

keçirilən tədbirlərdə iştirak etmək də mühüm əhəmiyyət daşıyır. Müxtəlif seminarlar, sinif saatları, yarışlar və tədbirlər tələbələrin təşkilatçılıq bacarıqlarını gücləndirir. Bu fəaliyyətlər gələcək müəllimlərin sosial fəallığını artırır və kollektivlə işləmək vərdişlərini inkişaf etdirir.

Pedaqoji təcrübənin mühüm tərəflərindən biri də tələbələrin özünəinam hissinin artmasıdır. İlk dəfə auditoriya qarşısında çıxış etmək və dərs idarə etmək gələcək müəllimlər üçün praktik təcrübə qazandırır. Vaxt keçdikcə onlar pedaqoji fəaliyyətdə daha sərbəst və peşəkar davranmağa başlayırlar. Müasir dövrdə pedaqoji təcrübənin keyfiyyətinin artırılması üçün yeni yanaşmaların tətbiqi vacib hesab edilir. Təcrübə proqramlarının müasir təhsil standartlarına uyğun yenilənməsi, tələbələrin innovativ metodlarla işləməyə təşviq olunması və praktik fəaliyyətin genişləndirilməsi müəllim hazırlığının keyfiyyətinə müsbət təsir göstərir. Təcrübə prosesində müəllimin dərsə hazırlıq mərhələsi xüsusi əhəmiyyət daşıyır. Tələbələr dərs planı tərtib etməyi, məqsəd və nəticələri düzgün müəyyənləşdirməyi və dərsin mərhələlərini sistemli qurmağı mənimsəyirlər. Bu, onların gələcəkdə daha planlaşdırılmış və məqsədyönlü dərs aparmasına şərait yaradır.

Pedaqoji təcrübə zamanı şagirdlərin qiymətləndirilməsi də mühüm bacarıqlardan biridir. Tələbələr yalnız yazılı və şifahi qiymətləndirmə deyil, həm də formativ qiymətləndirmə üsullarını tətbiq etməyi öyrənirlər. Bu yanaşma şagirdlərin inkişafını davamlı izləməyə imkan verir və müəllimə daha obyektiv nəticə çıxarmağa kömək edir. Eyni zamanda təcrübə tələbələrdə vaxtın düzgün idarə olunması bacarığını da formalaşdırır. Pedaqoji təcrübədə valideynlərlə ünsiyyət də xüsusi yer tutur. Tələbələr valideyn iclaslarında iştirak edərək şagirdlərin davranış və təhsil nəticələri barədə məlumatlandırma prosesini öyrənirlər. Bu isə məktəb–ailə əməkdaşlığının əhəmiyyətini daha yaxşı dərk etməyə kömək edir. Müasir pedaqoji yanaşmalarda yaradıcı təlim metodları ön plana çıxır. Qrup işləri, layihə əsaslı öyrənmə, debatlar və interaktiv oyunlar təcrübə zamanı tətbiq edilir. Bu metodlar şagirdlərin dərsə marağını artırır və tələbələrə daha dinamik tədris mühiti yaratmağı öyrədir.

Nəticə etibarilə, pedaqoji təcrübə gələcək müəllimlərin həm peşəkar, həm də şəxsi inkişafında mühüm rol oynayır. O, müəllimlik fəaliyyətinə keçid mərhələsi olmaqla yanaşı, eyni zamanda pedaqoji ustalığın formalaşmasının əsas bazasını yaradır. Qeyd etmək olar ki, pedaqoji təcrübənin məqsədyönlü təşkili və düzgün aparılması gələcək müəllimlərin peşəkar hazırlığının ayrılmaz hissəsidir. Təcrübə prosesində əldə olunan bilik, bacarıq və vərdişlər müəllimlərin gələcək fəaliyyətində yüksək nəticələr əldə etməsinə zəmin yaradır. Buna görə də pedaqoji təcrübənin elmi-metodiki əsaslarla təşkil olunması və daim təkmilləşdirilməsi müasir təhsil sisteminin qarşısında duran mühüm vəzifələrdən biridir.

GÜNAY İSMAYILOVA
Naxçıvan Dövlət Universiteti nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
Müəllim
gunayismayilova1403@gmail.com

TEXNİKİ FƏNLƏRİN TƏDRİSİNDƏ İNNOVATİV YANAŞMA VƏ METODLAR

Tədris prosesində dinləyicilərin tədris materialı ilə özlərini eyniləşdirdikləri, öyrənilən vəziyyətə cəlb olunduqları, aktiv fəaliyyətə təşviq edildikləri, uğur hissi yaşadıqları və müvafiq olaraq davranışlarının motivasiya olunduğu metodlara diqqət yetirilməsi zəruridir. Eksperimental tədqiqatımızın məqsədi texniki fənlərin tədrisində aktiv və interaktiv formaların tətbiqinin mümkünlüyünü və effektivliyini müəyyən etməkdən ibarət olmuşdur. Yekunda mövzu üzrə ümumiləşdirilmiş nəticələr verilmişdir.

Açar sözlər: *innovativ yanaşma, tədris metodları, texniki fənlər, interaktiv tədris üsulları*

Giriş. İnnovativ texnologiyalar dedikdə, əsasən fənnin sadəcə mənimsənilməsi deyil, kompetensiyaların formalaşdırılması nəzərdə tutulur və bu məqsədlə aktiv və interaktiv tədris metodlarından istifadə edilir. Bu cür texnologiyalara, məsələn, informasiya və kommunikasiya texnologiyaları (texniki fənlərin tədrisində informatikanın tətbiqi), tələbəyönümlü texnologiyalar (tələbələrin təbii qabiliyyətlərinin və kommunikasiya bacarıqlarının inkişafı), didaktik texnologiyalar (tədris prosesində yeni üsul və metodların tətbiqi) və s. daxildir.

Əsas hissə. Texniki fənləri tədris edən müəllimlər tələbələrlə ilk görüşlərdən etibarən fənnin öyrənilməsinin məqsədləri və bu fənnin kompetensiyaların formalaşmasına verdiyi töhfə barədə konkret və aydın təsəvvür formalaşdırmalıdırlar. Bunun üçün tədris proqramı əsasən problemli və tədqiqat yönümlü xarakter daşımalı, gələcək məzunları zəruri kompetensiyaları əldə etməyə təşviq etməlidir.

Müəllimlərin fəaliyyətində istifadə olunan dərs təşkili metodlarının bir neçə əsas növünü ayırmaq qəbul edilmişdir. Passiv metod müəllim və tələbə arasında qarşılıqlı əlaqənin elə bir formasıdır ki, burada müəllim dərsin gedişatını idarə edən əsas subyekt kimi çıxış edir, tələbələr isə passiv dinləyici rolunda olurlar. Bununla belə, passiv metoddan tamamilə imtina edilməsini məqsədəuyğun hesab etmirik. Məsələ onun ümumi idrak prosesində tutduğu pay və nisbətlə bağlıdır. Bu metod üstünlük təşkil etməməlidir.

Aktiv tədris metodu tədris prosesinin elə təşkili formasıdır ki, bu zaman müəllimlə qarşılıqlı əlaqə passiv metodla müqayisədə daha yüksək səviyyədə həyata keçirilir. Əgər passiv metodlar daha çox avtoritar ünsiyyət üslubunu nəzərdə tuturdusa, aktiv metodlar demokratik yanaşmanı ön plana çıxarır. Eyni zamanda, müəllim "yalnız ənənəvi lövhə və təbaşir ilə məhdudlaşan tədris metodologiyasını yenidən nəzərdən keçirməlidir".

İnteraktiv metod. Müasir dövrdə yalnız öz sahəsində səriştəli olmaq və müəyyən həcmdə bilikləri tələbələrə ötürmək kifayət etmir. Hazırda müəllim tədris prosesini elə təşkil etməlidir ki, tələbələrin özləri bilik əldə etmə prosesinə fəal şəkildə cəlb olunsunlar. Bu isə aktiv və xüsusilə interaktiv tədris metodlarının tətbiqi ilə mümkün olur. Məlumdur ki, öyrənənlər tədris prosesində fəal iştirak etdikdə materialı daha asan qavrayır və yadda saxlayırlar.

İnteraktiv metod tələbələrin öz daxilində qarşılıqlı əlaqəsinin qurulmasına əsaslanır. Burada əsas məqam bilik əldə etmə prosesində tələbələrin bir-biri ilə ünsiyyətidir. İnteraktiv dərslərdə müəllimin rolu tələbələrin fəaliyyətini dərsin məqsədlərinə yönəltməklə məhdudlaşır. Başqa sözlə, interaktiv təlim ilk növbədə qarşılıqlı fəaliyyətə əsaslanan təlimdir.

Aktiv və interaktiv təlimin çoxsaylı formaları mövcuddur. Bunlara yaradıcı tapşırıqlar, səhvlərlə müşayiət olunan mühazirələr, beyin həmləsi, məruzələrin təqdimatı və müzakirəsi ilə müşayiət olunan konfranslar, tədris diskussiyaları, kompüter proqramları vasitəsilə tədris, keys metodu və s. daxildir.

Keys metodu mürəkkəb sistem kimi təqdim oluna bilər və o, daha sadə idrak metodlarını özündə birləşdirir. Bu metoda modelləşdirmə, sistem təhlili, problem metodu, düşüncə eksperimenti, simulyasiya, təsnifat metodları və oyun metodları daxildir ki, bunların hər biri keys metodunda öz funksiyasını yerinə yetirir.

Kompetensiyaların formalaşması fəaliyyətə əsaslanır. Bu isə o deməkdir ki, bilik, bacarıq və vərdişlərin mənimsənilməsi bilavasitə tələbələrin fəallığından asılıdır. Ali təhsil müəssisəsində müəllimin əsas vəzifəsi məhz bu fəaliyyəti düzgün təşkil etməkdən ibarətdir.

Tədqiqatın məqsədi. Tədris prosesinin uzunmüddətli müşahidələri abituriyentlərin riyazi hazırlıq səviyyəsinin getdikcə zəiflədiyini, müstəqillik və öyrənməyə marağın aşağı olduğunu, hər bir sual üzrə cavabı internetdə axtarma meylinin artdığını, diqqətin cəmlənməsində çətinlikləri, ictimai çıxışdan çəkinməyi və başqalarının fikirlərinə qarşı tolerantlığın yetərli olmadığını aşkar etmişdir. Bütün bunlar müasir tələbələrlə iş üzrə yeni yanaşmaların axtarılmasını zəruri etmişdir.

Tədris prosesində ilk növbədə elə metodlara diqqət yetirilməlidir ki, öyrənənlər tədris materialı ilə özlərini eyniləşdirsin, öyrənilən vəziyyətə cəlb olunsun, aktiv fəaliyyətə təşviq edilsin, uğur hissi yaşasın və nəticə etibarilə davranışları motivasiya olunsun. Məsələn, kiçik qruplarda aparılan müzakirələr hər bir iştirakçıya müzakirəyə öz töhfəsini vermək, müəllimdən müəyyən dərəcədə müstəqillik hiss etmək, liderlik keyfiyyətlərini nümayiş etdirmək və materialı təkrarlamaq imkanı yaradır.

Baxmayaraq ki, təlimə dair yeni yanaşmalar bütün müəllimlər tərəfindən tədris modellərinin dəyişdirilməsi üçün əsas kimi qəbul edilmir, aktiv yanaşmaların tətbiqinin effektiv təlim üsulu olduğunu göstərən elmi tədqiqat nəticələrini nəzərə almamaq mümkün deyil.

Aparılan eksperimental tədqiqatın əsas məqsədi texniki fənlərin tədrisində aktiv və interaktiv formaların tətbiqinin mümkünlüyünü və effektivliyini müəyyən etmək olmuşdur.

Tədqiqatın vəzifələri aşağıdakılardan ibarət olmuşdur: üç il ərzində bir sıra texniki fənlər üzrə bir neçə qrupda aralıq qiymətləndirmə nəticələrinin monitorinqinin aparılması; bəzi qruplarda ildən-ilə mühazirə, praktiki və laborator məşğələlərdə aktiv və interaktiv yanaşmaların payının tədricən artırılması; bir qrupda isə texniki fənlərin ənənəvi üsullarla tədrisinin həyata keçirilməsi; üç il ərzində aktiv metodların üstünlük təşkil etdiyi qruplarla ənənəvi tədris aparılan qrupun nəticələrinin müqayisəli təhlilinin aparılması; mümkün qədər qabaqcıl təcrübələr barədə məlumatların toplanması.

Bütün qruplarda dərslər eyni müəllim tərəfindən tədris olunmuşdur.

Nəticə. Beləliklə, bütün fənlər üzrə təlim nəticələrinin yaxşılaşdığını qeyd etmək olar, lakin dəyişikliklər xüsusilə “Praktiki mexanika” fənnində daha aydın müşahidə olunur. Belə ki, bu fənn üzrə 3 il ərzində orta bal 82,7 təşkil etmiş, üçüncü ildə isə orta göstəriciyə nisbətən artım 8,7% olmuşdur. Digər fənlər üzrə nəticələr nisbətən daha mülayim olsa da, belə qənaətə gəlmək olar ki, tədrisdə aktiv və interaktiv yanaşmaların tətbiqi dövlət təhsil standartlarının tələblərinin daha effektiv şəkildə yerinə yetirilməsinə imkan yaradır. İnnovativ texnologiyaların tətbiqi müəllimdən ciddi metodiki hazırlıq tələb edir: kartların, tapşırıqların, slaydların, tədris vəsaitlərinin hazırlanması və s. Bütün bunlar tədris materialının daha yüksək səviyyədə mənimsənilməsinə xidmət edir. Bundan əlavə, bu nəticələrə qeyri-standart məsələlərin həlli, universitetdaxili, şəhər və regional olimpiadalarda iştirak vasitəsilə də nail olmaq mümkündür. Məsələn, “Nəzəri mexanika” üzrə keçirilən olimpiadalarda universitet tələbələri fəal iştirak edirlər. Ümummədəni kompetensiyaların formalaşdırılması baxımından əsas nəticələr ondan ibarətdir ki, tələbələr tədris prosesində daha fəal olmuş, komanda şəklində işləmək bacarığı əldə etmişlər.

Gələcəkdə yeni tədris metodlarının tətbiqi təcrübəsinin “Mexatronika” (magistratura səviyyəsi), “Analitik mexanika”, “Materialların möhkəmliyi” kimi fənlərə də yayılması planlaşdırılır.

PÜSTƏ CƏFƏROVA
Naxçıvan Dövlət Universiteti
Müəllim
pustajafarova@ndu.edu.az

ÜMUMİ TƏHSİLDƏ İNNOVASİYALARIN TƏTBİQİ PROBLEMLƏRİ

Bu mətn ümumi təhsildə innovasiyaların tətbiqi ilə bağlı mövcud problemləri izah edir. Çətinliklər texnoloji imkanların qeyri-bərabərliyi, müəllimlərin rəqəmsal bacarıqlarının yetərsizliyi və innovasiyaların yalnız texniki səviyyədə tətbiq olunması ilə bağlıdır. Həll üçün texniki baza gücləndirilməli, innovativ yanaşmalar sistemli şəkildə tətbiq edilməlidir.

Açar sözlər: *ümumi təhsil, innovasiyalar, texnoloji imkanlar*

Ümumi təhsilin aktual problemlərindən biri innovasiyaların təhsil sisteminə effektiv şəkildə inteqrasiyasıdır. Müasir dövrdə texnologiyanın sürətli inkişafı təhsil sahəsində yeni yanaşmaların və metodların tətbiqini zəruri edir. Lakin bir çox hallarda məktəblər bu dəyişikliklərə tam hazır olmur və innovativ həllərin tətbiqində müxtəlif çətinliklərlə qarşılaşırlar.

Əsas problemlərdən biri məktəblər arasında texnoloji imkanların qeyri-bərabər paylanmasıdır. Bəzi təhsil müəssisələri müasir avadanlıqlarla təmin olunduğu halda, digərlərində bu imkanlar məhduddur. Bu isə şagirdlər arasında rəqəmsal bacarıqların inkişafında fərqlərə səbəb olur. Eyni zamanda, müəllimlərin innovativ texnologiyalardan istifadə bacarıqlarının kifayət qədər inkişaf etməməsi də ciddi maneələr yaradır. Müəllimlərin bir qismi yeni rəqəmsal alətlərdən istifadə etməkdə çətinlik çəkir və bu da tədris prosesinin müasirləşməsini ləngidir. Bundan əlavə, innovasiyaların tətbiqi bəzən yalnız texniki vasitələrlə məhdudlaşır və pedaqoji yanaşmaların yenilənməsi arxa planda qalır. Halbuki innovasiya təkcə texnologiya deyil, həm də təlim metodlarının, qiymətləndirmə sistemlərinin və ümumi təhsil mühitinin yenilənməsini əhatə edir. İnnovativ təhsil şagirdyönümlü yanaşmanı, tənqidi düşünməni və problem həll etmə bacarıqlarını inkişaf etdirməyi hədəfləməlidir.

Bu problemin həlli üçün məktəblərin texniki bazasının gücləndirilməsi, müəllimlərin rəqəmsal və pedaqoji bacarıqlarının artırılması, eləcə də innovativ tədris metodlarının geniş tətbiqi vacibdir. Həmçinin, innovasiyaların sistemli və davamlı şəkildə tətbiq olunması üçün dövlət səviyyəsində strateji planlaşdırma aparılmalıdır. Bu istiqamətdə atılan addımlar ümumi təhsilin keyfiyyətinin yüksəlməsinə və onun müasir tələblərə uyğunlaşmasına mühüm töhfə verə bilər.

NƏRGİZ QƏNBƏRLİ
Babək rayon Zeynəddin kənd tam orta məktəbi
Müəllim
nargisqnbrli@gmail.com

RİYAZİYYAT DƏRSLƏRİNDƏ TƏTBİQ OLUNAN SÜNİ İNTELLEKT ƏSASLI PLATFORMLARIN TƏHSİL PROSESİNƏ TƏSİRİ

Məqalədə riyaziyyat dərslərində tətbiq olunan süni intellekt əsaslı platformaların təhsil prosesinə təsiri araşdırılmışdır. Süni intellekt texnologiyalarının fərdiləşdirilmiş təlimin təşkili, şagird motivasiyasının artırılması, operativ qiymətləndirmə və interaktiv öyrənmə imkanları təhlil edilmişdir.

Açar sözlər: *Süni intellekt, rəqəmsal təhsil, innovativ texnologiyalar, interaktiv təlim*

XXI əsrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bütün sahələrdə olduğu kimi təhsil sistemində də mühüm dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsallaşma prosesi tədris metodlarının yenilənməsini, müəllim və şagird münasibətlərində yeni yanaşmaların formalaşdırılmasını zəruri etmişdir. Bu baxımdan süni intellekt texnologiyalarının təhsil mühitinə inteqrasiyası xüsusi aktuallıq kəsb edir. Süni intellekt əsaslı platformalar tədris prosesini daha çevik, fərdiləşdirilmiş və interaktiv şəkildə təşkil etməyə imkan verir. Xüsusilə riyaziyyat fənni məntiqi təfəkkürün, analitik düşünmənin və problem həll etmə bacarıqlarının inkişafında mühüm rol oynadığından bu sahədə innovativ texnologiyaların tətbiqi böyük əhəmiyyət daşıyır.

Ənənəvi tədris metodlarında bütün şagirdlərə eyni yanaşma tətbiq olunduğu halda, süni intellekt texnologiyaları hər bir şagirdin fərdi xüsusiyyətlərini, öyrənmə sürətini və bilik səviyyəsini nəzərə almağa imkan yaradır. Bu isə tədris prosesinin daha səmərəli təşkili və şagird nailiyyətlərinin yüksəldilməsi üçün mühüm şərait formalaşdırır.

Müasir dövrdə riyaziyyat dərslərində istifadə olunan Photomath, Khan Academy, GeoGebra, Quizizz, ChatGPT, Desmos və Wolfram Alpha kimi platformalar təlim prosesində geniş istifadə olunur. Bu platformalar riyaziyyat dərslərinin daha interaktiv və praktik şəkildə keçirilməsinə şərait yaradır.

Photomath platforması riyazi məsələlərin şəkil vasitəsilə tanınaraq addım-addım həllini təqdim edir. Bu tətbiq şagirdlərə səhvlərini anlamağa və həll mərhələlərini izləməyə kömək edir. Xüsusilə ev tapşırıqlarının yerinə yetirilməsi zamanı şagirdlər üçün əlavə dəstək rolunu oynayır.

GeoGebra platforması isə həndəsə və funksiyaların öyrədilməsində mühüm vasitələrdən biridir. Şagirdlər qrafiklər üzərində dəyişiklikləri real vaxt rejimində müşahidə edə bilir və riyazi anlayışları vizual formada qavrayırlar. Məsələn, xətti funksiyanın əmsallarında dəyişiklik edildikdə qrafikin necə dəyişdiyini müşahidə etmək şagirdlərin funksional asılılıq anlayışını daha yaxşı başa düşməsinə kömək edir. Bu vizual yanaşma abstrakt riyazi anlayışların konkret formada mənimsənilməsinə şərait yaradır. Şagirdlər sadəcə nəzəri məlumatları öyrənmir, həm də onları praktik şəkildə müşahidə edir və tətbiq edirlər.

Khan Academy platforması adaptiv təlim prinsipi əsasında fəaliyyət göstərir. Sistem şagirdlərin nəticələrini analiz edərək onların zəif və güclü tərəflərini müəyyən edir və uyğun tapşırıqlar təqdim edir. Bu isə fərdiləşdirilmiş təlimin təşkilinə imkan yaradır.

ChatGPT isə riyazi mövzuların izahı, məsələ həlli və əlavə məlumat əldə olunması üçün istifadə edilir. Şagirdlər anlamadıqları mövzular barədə sual verərək fərdi izahlar ala bilirlər. Bu platforma müəllim üçün də əlavə resurs rolunu oynayır.

Süni intellekt əsaslı platformaların tətbiqi tədris prosesində bir sıra mühüm üstünlüklər yaradır. Əsas üstünlüklərdən biri fərdiləşdirilmiş təlim imkanlarının genişlənməsidir. Hər bir şagirdin öyrənmə tempi və bilik səviyyəsi fərqli olduğundan süni intellekt sistemləri bu fərqləri nəzərə alaraq uyğun tapşırıqlar təqdim edir. Bu yanaşma zəif mənimsəyən şagirdlərə əlavə dəstək göstərməyə, güclü şagirdlərin isə daha mürəkkəb tapşırıqlarla inkişafına şərait yaradır. Digər mühüm üstünlük

operativ əks əlaqənin təmin edilməsidir. Şagird tapşırığı yerinə yetirdikdən dərhal sonra nəticəni görür, səhvlərini müəyyən edir və onları düzəltmək imkanı əldə edir. Bu proses özünənəzarət və müstəqil öyrənmə bacarıqlarının inkişafına müsbət təsir göstərir.

Süni intellekt platformaları müəllim fəaliyyətini də asanlaşdırır. Müəllimlər şagirdlərin nəticələrini sistem üzərindən izləyərək onların inkişaf dinamikasını təhlil edə bilir, hansı mövzuların daha çətin mənimsənildiyini müəyyənləşdirirlər. Bu isə dərslərin daha səmərəli planlaşdırılmasına imkan verir. Vizual və interaktiv tapşırıqlar şagird motivasiyasını artırır. Oyunlaşdırılmış təlim platformaları şagirdlər arasında sağlam rəqabət mühiti yaradır və onların dərsə marağını yüksəldir. Bu xüsusilə riyaziyyat fənninə marağı az olan şagirdlərin fəallığının artırılmasında mühüm rol oynayır.

Süni intellekt texnologiyalarının tətbiqi ilə yanaşı müəyyən problemlər də mövcuddur. Əsas problemlərdən biri şagirdlərin texnologiyadan həddindən artıq asılı vəziyyətə düşməsidir. Hazır cavabların təqdim olunması bəzi hallarda şagirdlərin analitik düşünmə və müstəqil problem həll etmə bacarıqlarının zəifləməsinə səbəb olur. Bundan əlavə, bütün məktəblərdə texniki imkanların eyni səviyyədə olmaması rəqəmsal bərabərsizlik yaradır. İnternetə çıxışın zəif olması, kompüter və planşet çatışmazlığı bəzi təhsil müəssisələrində bu texnologiyaların tətbiqini çətinləşdirir. Digər mühüm məsələ müəllimlərin rəqəmsal bacarıqları ilə bağlıdır. Bəzi müəllimlər innovativ texnologiyalardan istifadə zamanı çətinliklərlə qarşılaşırlar. Bu səbəbdən müəllimlərin davamlı peşəkar inkişaf proqramlarına cəlb olunması və rəqəmsal bacarıqlarının artırılması xüsusi əhəmiyyət daşıyır. Həmçinin süni intellekt texnologiyalarından istifadə zamanı məlumat təhlükəsizliyi və şəxsi məlumatların qorunması məsələləri də diqqətdə saxlanmalıdır.

Gələcəkdə süni intellekt texnologiyalarının daha da inkişaf edəcəyi və təhsil sistemində geniş tətbiq olunacağı gözlənilir. Virtual reallıq, artırılmış reallıq və adaptiv öyrənmə sistemlərinin inkişafı riyaziyyat dərslərinin daha interaktiv və praktik şəkildə təşkilinə imkan yaradacaqdır. Eyni zamanda süni intellekt texnologiyalarının müəllimi tam əvəz etməsi mümkün hesab edilmir. Müəllim təlim prosesində istiqamətləndirici və motivasiyaedici əsas şəxs olaraq qalır. Süni intellekt isə müəllim fəaliyyətini dəstəkləyən və təlim prosesini zənginləşdirən vasitə kimi çıxış edir.

Nəticə etibarilə, süni intellekt əsaslı platformaların riyaziyyat dərslərində tətbiqi təlim prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Bu texnologiyalar fərdiləşdirilmiş təlimin təşkili, operativ qiymətləndirmə, interaktiv öyrənmə və motivasiyanın artırılması baxımından geniş imkanlar yaradır. Süni intellekt texnologiyalarının düzgün və məqsədyönlü tətbiqi şagirdlərin həm nəzəri biliklərinin, həm də praktik bacarıqlarının inkişafına müsbət təsir göstərir. Müasir təhsil sistemində bu texnologiyaların səmərəli istifadəsi gələcəkdə riyaziyyat tədrisinin daha innovativ və effektiv şəkildə təşkilinə mühüm töhfə verəcəkdir.

SEVDA AXUNDOVA
Azərbaycan Dövlət Pedaqoji Universitetin nəzdində
Azərbaycan Pedaqoji Kolleci
Direktor müavini
sevda.appp@icloud.com
https://orcid.org/0000-0001-9192-2307

PEDAQOJİ KOLLECLƏRİN İNNİVATİV İDARƏ EDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Pedaqoji innovasiyanın obyekti onun təşəkkül tapması, inkişafı və tələbələr tərəfindən təlim və tərbiyə prosesində mənimsənilməsi təhsildə mütərəqqi dəyişiklikləri meydana gətirir və nəhayət, təlim keyfiyyətinin yüksəlməsinə imkan verir. Odur ki, pedaqoji innovasiyanın mövzusu pedaqoji şərait, pedaqoji vasitələr və pedaqoji qanunauyğunluqların qarşılıqlı əlaqə və vəhdətini tələb edir; çünki son nəticədə bu, həmin innovasiyanın işlənməsi, tətbiqi və pedaqoji reallığa çevrilməsi ilə sıx surətdə bağlıdır.

***Açar sözlər**: kollec, pedaqoji kolleclər, innovativ, innovativ idarə edilmə, innovasiya, tələbələr*

Pedaqojiyönlü kolleclərdə innovasiya təcrübəsinin mənbəyində və onun yaranış məzmununda bir sıra mühüm amillər dayanır. Onların: a) bir qismi bilavasitə innovasiya yaradanlarla bağlı olduğu halda, digər bir hissəsi b) bu innovasiyanın təsirləri ilə bağlı olan tələbələr, valideynlər, icma nümayəndələri, müvafiq qanunvericilik bazasının mövcudluğu və digər amillərlə əlaqədardır.

Heç kimdə şübhə yoxdur ki, insanlar hamı üçün qəbul olunmuş fərdi çərçivələri aşdıqda, hətta bəzən zamanı qabaqlayaraq yeni ideya irəli sürdükdə bu onlarda müəyyən tərəddüd yaradır, lakin çox hallarda zaman faydalılıq baxımından belə mübahisəli məsələlərə cavab tapa bilir. Bu kimi halların bir qismi müvəffəqiyyət qazandığı təqdirdə insanların həyatında yeni cığır açmaq qabiliyyətinə malik olur. İnnovasiyalar da sanki belə təbiətə malikdirlər.

İnnovasiyanın təhsillə bağlı olmasına dair araşdırmalarında rus alimləri də maraqlı mülahizələr irəli sürmüşlər. Onlar innovasiyları aydınlaşdırarkən göstərmişlər ki: “*Bu yeniliklər təhsil mühitinə məqsədyönlü şəkildə gətirilən, təhsilin müəyyən bir sahəsini və ya bütövlükdə təhsil sistemini yaxşılaşdıran sabit elementlərdir”*.

Buna baxmayaraq, keçən əsrin 60-70-ci illərində təhsil innovasiyalarına dair mühüm tədqiqatlar aparılmamış, innovasiyalar daha çox elmi idarəetmənin tərkib hissəsi kimi öyrənilmişdir. Sonralar bu konsepsiya daha çox “*yeni bir şeyin və ya üsulun uğurlu tətbiqi hesab edilmiş”* və ya *“dəyişiklik gətirən məxsusi bir şəxsin və ya qrupun yeniliyi”* kimi izah edilmişdir.

İnnovasiya fəaliyyətinin ənənəvi çərçivələrdən kənara çıxmaqla, yeniliyə yol açması, bizim əvvəl də göstərdiyimiz kimi, yenilik və innovasiya fəaliyyəti anlayışları arasındakı demarkasiya xətlərini aydınlaşdırmağı zəruri edir. Bu terminlərə pedaqoji və psixoloji ədəbiyyatda çox müraciətlərin olması, onlar arasında sərhəd xətlərinin müzakirəsində bir sıra ziddiyyətlər da yaradır. Digər bir fakt onunla bağlıdır ki, çoxsaylı komponentlərlə təsvir edilmiş innovasiyaya verilən tərifləri bolluğu da innovativ fəaliyyətin çoxşaxəli olması səbəbindən bəzən labüd görünür, çünki bu fəaliyyət nəinki çoxlu sahəni özündə birləşdirir, nəinki çoxşaxəli hesab edilir, eyni zamanda çoxmərhələli fəaliyyətin nəticəsi kimi diqqət mərkəzinə gəlir.

Pedaqoji innovasiya pedaqoji mühitdə yeni və ya təkmilləşdirilmiş bir məhsul kimi həyata keçirilən innovasiya fəaliyyətinin son nəticəsidir, praktik fəaliyyətdə istifadə olunan yeni və ya təkmilləşdirilmiş bir prosesdir.

İnnovasiya çoxşaxəli olduğundan, elmin, elmi pedaqoji və psixoloji hadisələrin, mədəni və iqtisadi və sair kimi problemlərin kəsişməsində öyrənilir. Həyatda rast gəldiyimiz hər hansı bir yenilik, alimlərin kəşfləri, müxtəlif elm sahələrində ki ixtiralar da öz təbiətinə və prosessualığına görə hələ innovasiya sayılmır. Bu terminlərdən ona ən yaxını patentlər olsa da (onlar da innovasiyalar kimi

tirajlanma xüsusiyyətinə malikdir), sonuncu da öz mahiyyətinə görə innovasiyadan fərqlidir. Cünki onun mahiyyətində leqal və kommersiya seqmentləri üstünlük təşkil etdiyindən, onun sahibi istədiyi vaxt belə yeniliyin başqasına kommersiya olunmasına qanunla qadağa qoya bilər, innovasiya isə patentlə müqayisədə daha çox ictimai təbiətə malikdir.

İnnovasiyanın mahiyyəti haqqında aşağıdakı mühüm ümumiləşdirmələr apara bilərik:

Birinci, innovasiyanın mahiyyəti onun ənənələri aşması ilə bağlıdır.

İkinci, innovasiya müxtəlif mərhələləri keçməklə əldə olunmuş müsbət, səmərəli və praktik nəticə ilə şərtlənir.

Üçüncü, innovasiya çoxsahəli və çoxşaxəlidir.

Dördüncü, onun strukturuna daxil olan elementlər özünün bənzəri olan digər terminlərə oxşadır.

Beşinci, pedaqoji innovasiya yalnız pedaqoji nəzəriyyə, metodik yanaşma, tədris texnikası, təlim vasitəsi və s. deyildir; o, həm də tirajlanmış səmərəlilikdir.

Altıncı, innovasiya yalnız əhəmiyyətli və səmərəli (sayıla bilən və sayıla bilməyən) dəyişiklik meydana gətirdiyi halda innovativ sayılır.

Yeddinci, innovativ düşüncənin bir qabiliyyət kimi tədqiqi, tarixən insanların ətrafında baş verən yeniliklərin onların həyatına təsirindən yaranan koqnitiv proseslərin yaranması, inkişaf etməsi və yayılması ilə əlaqədardır.

Səkkizinci, innovasiya dinamik səciyyədədir. O, daimi verilən və olduğu kimi qalan deyildir; o, müəyyən zaman və məkan çərçivəsində mövcuddur, öz funksiyasını yerinə yetirir və meydandan çıxır.

Doqquzuncu, köhnə innovativ yenilik zaman keçdikcə yeni, modifikasiya olunmuş şəkildə də dövriyyəyə daxil ola bilər.

Onuncu, onun inkişaf vektoru mürəkkəb proseslərlə bağlıdır və hesab edirik ki, zaman keçdikcə innovasiyanın yeni xüsusiyyətlərinin meydana gəlməsi də istisna olunmur.

Təhsildə innovasiya yalnız pedaqoqların, akademik sahədə çalışanların riyaziyyatı və ya fizikanı idarə etməsi kimi başa düşülmür. O, ictimai xidmət sahəsi kimi ölkə iqtisadiyyatının və bürokratik sistemin dəstəyi ilə inkişaf edir. Odur ki, müəyyən qədər sabit qalmış olsa da, biz pedaqoji innovasiyaya yalnız pedaqoqların innovativ üsulları kimi yanaşa bilmərik. O daha geniş mənada, sosial sifarişlərin dövlət tərəfindən dəstəklənməsi və daha mükəmməl təhsil, tədris və idarəetmə sisteminin yaranması ilə bağlıdır. Məhz ona görə də biz təhsil müəssisələrinin strukturunda olan inkişafı innovativ pedaqoji üsul və metodlardan ayrıca bir sistem kimi təhlil etmirik.

Bu baxımdan təhsilə kimlərin və necə cəlb olunması, təhsil trayektoriyaları, təhsilin idarə edilməsi, təhsilin tarixi inkişaf mexanizmləri və sair kimi problemlər dövlət sərəncamındakı məsələlərdir. Lakin fərqli pedaqoji üslub və yanaşmalar, yeniliklərin səmərəlilik baxımından fərdi nəticələrdə müxtəlifliyi, öyrənənlərin pedaqoji prosesə, dərketməyə, müxtəlif koqnitiv üsullardan istifadə etməklə cəlbi, həmyaşıdların fiziki və s. mühiti və sair kimi məsələlər fərdi pedaqoji metod özündə birləşdirir. Buna görə də, *"koqnitiv tədqiqat fəaliyyətinin təşkili həmişə təcrübəyönlü xarakter daşımalı və şəxsiyyətyönlü olmalıdır"*.

Beləliklə, pedaqoji innovasiyadan danışarkən, bürokratik məsələlərin bunlardan fərqli olmasını, lakin hər iki prosesin qarşılıqlı əlaqəsini qeyd etmək gərəkdir.

GÜLƏN İMAMQULİYEVA
Naxçıvan Müəllimlər İnstitutunun müəllimi
gimamquliyeva10@gmail.com
https://orcid.org/0009-0004-7828-1305

İNFORMASİYA TEXNOLOGİYALARININ TƏHSİLDƏ ROLU

Bu tezisdə informasiya texnologiyaları insan fəaliyyətinin hər bir aspektinə təsir göstərmiş, təhsil və təlim sahəsində, xüsusən də distant təhsildə onu innovativ təcrübə formasına çevirmək üçün potensial rol oynamışdır. Tədris prosesində yeni texnologiyalara ehtiyac daha da artır . İnformasiya dövrü, tədris prosesini gücləndirmək üçün kəşf, məlumat mübadiləsi, ünsiyyət və tədqiqat üçün etibarlı və misilsiz imkanlar təmin edən bilik dövrünə çevrilir. İnformasiya texnologiyaları bütün dünyada bilik mübadiləsi imkanlarının təşviqinə kömək edir. Bunlar müəllimlərə və şagirdlərə müasir məlumat və biliklərə sahib olmağa kömək edə bilər. Effektiv tədris və öyrənmə üçün dəqiq və düzgün məlumat vacibdir; informasiya texnologiyaları isə "düzgün insanlara düzgün zamanda düzgün məlumat verməyə kömək edə biləcək alətlər dəstidir". Tələbələr müstəqildirlər və təhsilləri, öyrənmə vaxtı, yeri və resursları ilə bağlı mümkün olan ən yaxşı qərarları verə bilərlər. Tələbələr əməkdaşlıq və interaktiv təlim mühitlərində işləyərək ətraf mühitdəki hər kəslə effektiv şəkildə ünsiyyət qura, məlumat paylaşa,fikir və öyrənmə təcrübələri mübadiləsi apara bilirlər.

Açar sözlər: *informasiya texnologiyaları, tədris prosesi, kompüterlər, bilik partlayışı, media, distant təhsil*

İnformasiyanın saxlanması və yayılması tarixi göstərir ki, insan informasiyanın saxlanması, nümayişi və ötürülməsi üçün müxtəlif vasitələrdən istifadə edir. Müxtəlif dövrlərdə insanlar informasiyanın saxlanması, bir yerdən digərinə və növbəti nəslə ötürülməsi üçün daşlar, papiruslar, xurma yarpaqları, heyvan dərisi və əl işi əlyazmalar kimi ünsiyyət üçün müxtəlif materiallardan və metodlardan istifadə edirdilər. İnformasiya effektivliyi və bərabər çıxışı üçün informasiya texnologiyaları adlanan müxtəlif rabitə kanallarının və ya texnologiyalarının istifadəsini əhatə edir və ona əsaslanır. İnformasiya Texnologiyaları "insanların informasiya ilə işləmək və bir təşkilatın informasiya və informasiya emalı ehtiyaclarını dəstəkləmək üçün istifadə etdiyi hər hansı bir kompüter əsaslı vasitədir". Buraya kompüterlər və əlaqəli texnologiyalar; WWW, İnternet və Videokonfrans və s. daxildir.

İnformasiya texnologiyaları dövründə effektiv və səmərəli təlim bütün səviyyələrdə, bütün saatlar boyu potensial olaraq mümkündür. Müəllimlərin böyük tələbə qruplarına məzmuna əsaslanan təqdimatının dominant tədris metodu olması üçün heç bir əsası ola bilməz. İnformasiya texnologiyaları dövründə müəllimlər sinif otaqlarında mühazirələr oxumaq əvəzinə, tələbələrə kömək etməyə daha çox vaxt sərf edəcəklər. Onlar qruplarda işləyəcək, tədris materiallarını hazırlayacaq və qiymətləndirəcək, məlumatları mənalı məlumatlara və əlçatan formalara çevirəcəklər. Onlar vaxtlarını tələbələrə kouçinq etməyə, böyük məlumatları nəzərdən keçirərək öyrənmələrinə kömək etməyə sərf edəcəklər. Onlar qrup təqdimatları təklif edəcəklər. Təqdimatlar yeni məlumatlar vermək üçün istifadə olunmayacaq, təqdimatlar mövcud sualları modelləşdirmək və cavablandırmaq, həmçinin müəyyən fənlərdəki mövcud problemləri həll etmək üçün diqqətlə hazırlanacaq. Onlar həmçinin problemli vəziyyətlərdə məlumatlardan istifadə etməklə tələbələrdə bacarıq inkişaf etdirmə potensialını nümayiş etdirəcəklər.

İnformasiya texnologiyaları bilik partlayışının nəticəsidir. Bunlara aparat və proqram təminatı texnologiyaları daxildir və tədris prosesini asanlaşdırır. İnformasiya Texnologiyalarından istifadə edən tələbələr artıq dünyanın hər yerində təlim icmalarında iştirak edə bilirlər. Onlar təhsil proqramlarını seçməkdə və resurslara çıxış əldə etməkdə müstəqil və sərbəstdirlər. Onlar birgə öyrənə, məlumat paylaşa, təlim təcrübələrini mübadilə edə və virtual təlim icmalarında əməkdaşlıq fəaliyyətləri vasitəsilə işləyə bilərlər. İnformasiya texnologiyaları tədris prosesini daha məhsuldar şəkildə asanlaşdırır. Eynilə, müəllimin rolu yeni şəraitdə ənənəvi sistemdən fərqlidir. Müəllim təlim

iştirakçılarına təlimçi və ya mentor rolunu oynayaraq təlim prosesində kömək edir və istiqamət verir. İndi müəllim ənənəvi siniflərdə olduğu kimi təlimin mərkəzində deyil və yeganə məlumat mənbəyidir. O, məzmunu/təcrübələri və/və ya fəaliyyətləri müəyyən edir, resursları tapır və tələbələrə lazımi nəticələr üçün məlumat əldə etmək və istifadə etmək yollarını göstərir. Bir sözlə, informasiya texnologiyaları tədris prosesini beynəlxalq standartlara cavab vermək üçün yenidən qurur.

İnformasiya texnologiyalarından istifadə edərək tələbələr təhsilləri, öyrənmə vaxtı, yeri və resursları barədə daha yaxşı bir şəkildə qərar verə bilərlər. Tələbələr daha dəstəkləyici mühitlərdə işləyə, müəllimlərdən və tələbələrdən kömək istəyə,öyrənmə təcrübələrini və ideyalarını daha məhsuldar şəkildə paylaşa bilərlər. Bu inkişaf etməkdə olan media və təcrübələrlə gücləndirilən innovativ pedaqogika növləri distant təhsilin və hazırda virtual təhsilin imkanlarını təşviq etmiş,məsafə və zaman maneələrini aradan qaldırmışdır. Təcrübələrin qlobal paylaşımı distant təhsildə qrup təqdimatı təlim formasını mümkün edəcəkdir. Distant təhsil, təlimi daha məhsuldar və daha fərdiləşdirmək, təlimi daha elmi əsaslandırmaq və onu daha uyğun və effektiv etmək, öyrənməni daha ani etmək və resurslara çıxışı bərabər etmək üçün informasiya texnologiyalarından istifadəni əhatə edir və onlara əsaslanır.

AYGÜN ƏSGƏROVA
Naxçıvan Dövlət Universiteti
aygun.askerova1989@gmail.com

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ SÜNİ İNTELLEKTİN İSTİFADƏSİ: ÜSTÜNLÜYÜ VƏ YARATDIĞI PROBLEMLƏR

Bu məqalədə süni intellektin ingilis dilinin tədrisində yaratdığı imkanlar və problemlər araşdırılır. Fərdiləşdirilmiş öyrənmə və sürətli cavab vermək üstünlük kimi təqdim olunur, lakin süni intellektdən asılılıq, akademik biliklərin idarə edilməsi və dil müxtəlifliyi kimi əsas problemlər də vurğulanır.

Açar sözlər: *süni intellekt, ingilis dilinin tədrisi, fərdiləşdirilmiş öyrənmə, rəqəmsal savadlılıq*

Süni intellekt son illərdə ingilis dilinin tədrisində mühüm yer tutmağa başlamış və həm sinif mühitində, həm də müstəqil öyrənmə prosesində ciddi dəyişikliklərə səbəb olmuşdur. Adaptiv öyrənmə platformaları, avtomatlaşdırılmış yazı köməkçiləri və dialoq qura bilən proqramlar artıq sadəcə əlavə vasitə deyil, tədris prosesinin əsas komponentlərindən birinə çevrilmişdir. Bu texnologiyaların geniş yayılmasının əsas səbəbi onların suallara sürətlə cavab verməsi, fasiləsiz əlçatanlıq və fərdiləşdirilmiş öyrənmə imkanları təqdim etməsidir. Lakin bu üstünlüklərlə yanaşı, süni intellekt bir sıra pedaqoji, etik və idrakla bağlı problemləri də gündəmə gətirir. Süni intellektin ingilis dilinin tədrisinə ən böyük töhfələrindən biri fərdiləşdirilmiş öyrənmə imkanlarının yaradılmasıdır. Ənənəvi tədris üsullarında orta səviyyəli tələbəyə uyğun materiallar təqdim olunduğu halda, süni intellekt hər bir öyrənənin səhvlərini, cavab sürətini və maraqlarını təhlil edərək ona uyğun məzmun hazırlayır. Bu yanaşma öyrənənlərin zəif tərəflərinə fokuslanmağa və onların maraqlarına uyğun materiallarla işləməyə imkan yaradır. Nəticədə həm motivasiya artır, həm də öyrənmə prosesi daha səmərəli olur. Bundan əlavə, süni intellekt alətləri rəy vermə prosesini sürətləndirir və dərsin keyfiyyətini artırır. Xüsusilə yazı bacarığında xarici dil öyrənənlər qrammatika, söz seçimi və mətn quruluşu ilə bağlı dərhal düzəlişlər əldə edərək öz işlərini bir neçə dəfə yenidən işləyə bilirlər. Bu isə onların dili daha dərin mənimsəməsinə kömək edir. Danışıq bacarığında isə süni intellekt proqramları öyrənənlərə təzyiqsiz mühitdə dialoq qurmaq imkanı verir və bu, onların özünəinamını artırır.

Müəllimlər üçün də süni intellektin tətbiqi mühüm üstünlüklər yaradır. Qiymətləndirmə, dərs planlarının hazırlanması və tələbə fəaliyyətinin izlənməsi kimi vaxt aparan proseslərin avtomatlaşdırılması müəllimlərə daha çox pedaqoji fəaliyyətə fokuslanmağa imkan verir. Beləliklə, müəllimin rolu məlumat verəndən daha çox istiqamətləndirici və fasilitator roluna keçir. Bununla yanaşı, süni intellektin tədris prosesinə daxil olması müəllim və tələbələrdən yeni bacarıqlar tələb edir. Artıq yalnız texnologiyadan istifadə etmək kifayət etmir, həm də onun necə işlədiyini, hansı məhdudiyyətlərə malik olduğunu və verdiyi nəticələrin necə qiymətləndirilməli olduğunu anlamaq vacibdir. Bu isə rəqəmsal savadlılığın və tənqidi düşünmənin inkişafını zəruri edir.

Eyni zamanda, süni intellektin istifadəsi bir sıra çatışmazlıqlarla da müşayiət olunur. Ən əsas problemlərdən biri texnologiyadan həddindən artıq asılılıqdır. Öyrənənlər süni intellektin verdiyi hazır cavablara güvəndikdə, öz səhvlərini analiz etmə və dili müstəqil şəkildə öyrənmə bacarıqları zəifləyə bilər. Bu isə onların real situasiyalarda çətinlik yaşamasına səbəb olur. Akademik dürüstlük məsələsi də ciddi problem olaraq qalır, çünki süni intellekt vasitəsilə yaradılan mətnləri tələbə işlərindən fərqləndirmək çətinləşir və bu, öyrənmə prosesinə mənfi təsir göstərir. Əlavə olaraq, dil müxtəlifliyi məsələləri də diqqət tələb edir. Süni intellekt əsasən standart ingilis dili üzərində qurulduğuna görə, fərqli aksentləri və dil variantlarını düzgün qiymətləndirməyə bilər. Həmçinin, verilən cavabların hər zaman düzgün olmaması yanlış məlumatların öyrənilməsinə səbəb ola bilər.

Qeyd etdiklərimlə yanaşı, süni intellektin ingilis dilinin tədrisində istifadəsi qiymətləndirmə sistemlərinə də ciddi təsir göstərir və bu sahədə yeni pedaqoji yanaşmaların formalaşmasını zəruri edir. Ənənəvi qiymətləndirmə üsulları əsasən nəticəyə yönəldiyi və tələbənin yekun məhsulunu ölçdüyü halda, süni intellektin geniş tətbiqi prosesyönümlü qiymətləndirmənin əhəmiyyətini daha da

artırır. Müasir tədris mühitində müəllimlər yalnız tələbənin təqdim etdiyi son yazılı işi deyil, eyni zamanda onun yazı prosesində keçdiyi mərhələləri, etdiyi düzəlişləri, istifadə etdiyi strategiyaları və ümumi inkişaf dinamikasını da nəzərə almalıdırlar. Bu yanaşma tələbələrin öyrənmə prosesinə daha fəal şəkildə cəlb olunmasına, öz səhvlərini dərk etməsinə və müstəqil şəkildə inkişaf etməsinə şərait yaradır. Eyni zamanda, süni intellektin yaratdığı akademik dürüstlük problemləri müəllimləri alternativ qiymətləndirmə üsullarına yönəldir. Bu baxımdan portfoliolar, layihə əsaslı tapşırıqlar, şifahi təqdimatlar və sinifdaxili performans qiymətləndirməsi daha aktual və etibarlı üsullar kimi ön plana çıxır. Belə qiymətləndirmə formaları tələbələrin yalnız nəticəni deyil, həm də öyrənmə prosesində göstərdikləri səyi və real dil bacarıqlarını əks etdirir. Bundan əlavə, müəllim və tələbə arasında davamlı rəy mübadiləsi, reflektiv tapşırıqlar və özünüqiymətləndirmə fəaliyyətləri öyrənənlərin məsuliyyət hissini gücləndirir və onların tədris prosesinə daha şüurlu yanaşmasına səbəb olur. Digər tərəfdən, süni intellektin qiymətləndirmə prosesində istifadəsi müəyyən üstünlüklər də təqdim edir. Məsələn, avtomatlaşdırılmış qiymətləndirmə sistemləri qrammatik səhvlərin aşkar edilməsində və ilkin rəyin verilməsində sürətli və effektiv ola bilər. Lakin bu sistemlər hələ də mətnin məzmununu, yaradıcılıq səviyyəsini və kontekstual uyğunluğunu tam qiymətləndirmək qabiliyyətinə malik deyil. Buna görə də, ən optimal yanaşma süni intellektlə insan qiymətləndirməsinin birgə tətbiqidir. Bu halda süni intellekt texniki və mexaniki aspektləri qiymətləndirərkən, müəllim daha dərin analitik və pedaqoji qiymətləndirməni həyata keçirir. Beləliklə, süni intellektin tədris prosesinə inteqrasiyası qiymətləndirmə anlayışını yenidən formalaşdırır və onu daha çevik, şəffaf və öyrənənmərkəzli edir. Bu dəyişikliklər yalnız qiymətləndirmə üsullarını deyil, ümumilikdə tədris fəlsəfəsini də transformasiya edir və müəllimləri daha innovativ və adaptiv yanaşmalar tətbiq etməyə sövq edir.

Nəticə olaraq, süni intellekt ingilis dilinin tədrisində həm böyük imkanlar, həm də ciddi çətinliklər yaradan mürəkkəb və çoxşaxəli bir vasitədir. Onun effektiv istifadəsi yalnız texnologiyanın tətbiqi ilə məhdudlaşmır, eyni zamanda düzgün pedaqoji yanaşmanın seçilməsini, məqsədyönlü planlaşdırmanı və tədris prosesində balansın qorunmasını tələb edir. Süni intellekt alətləri öyrənmə prosesini sürətləndirmək, fərdiləşdirmək və daha əlçatan etmək baxımından mühüm rol oynasalar da, onların nəzarətsiz və düşünülməmiş istifadəsi öyrənənlərin müstəqil düşünmə və dil bacarıqlarının zəifləməsinə səbəb ola bilər. Buna görə də, müəllimlər bu texnologiyanı tədris prosesində əsas deyil, köməkçi vasitə kimi istifadə etməli, onu ənənəvi metodlarla uyğunlaşdıraraq öyrənməni daha effektiv və məqsədyönlü hala gətirməlidirlər. Eyni zamanda, tələbələrin süni intellektdən düzgün istifadə etməsi üçün onların rəqəmsal savadlılığı və tənqidi düşünmə bacarıqları inkişaf etdirilməlidir. Öyrənənlər yalnız süni intellektin verdiyi cavabları qəbul etməklə kifayətlənməməli, bu cavabları analiz etməli, onların doğruluğunu qiymətləndirməli və lazım gəldikdə alternativ yanaşmalar axtarmalıdırlar. Bu, onların həm dil bacarıqlarını, həm də analitik düşünmə qabiliyyətlərini gücləndirəcəkdir. Bundan əlavə, akademik dürüstlük prinsiplərinin qorunması üçün tədris mühitində aydın qaydalar müəyyənləşdirilməli və tələbələrə süni intellektdən etik istifadə yolları öyrədilməlidir. Gələcək perspektivdə uğurlu tədris modeli insan intellekti ilə süni intellektin qarşılıqlı tamamlayıcı və harmonik şəkildə birləşməsinə əsaslanacaqdır. Bu modeldə süni intellekt texniki və mexaniki prosesləri sürətləndirən bir vasitə rolunu oynayacaq, insan isə yaradıcılıq, empatiya, tənqidi yanaşma və mədəni kontekstin dərk edilməsi kimi sahələrdə aparıcı mövqeyini qoruyacaqdır. Belə bir yanaşma yalnız dil öyrənməni deyil, həm də şəxsiyyətin hərtərəfli inkişafını təmin edəcəkdir. Nəticə etibarilə, əsas məqsəd texnologiyanın tətbiqi deyil, öyrənənin inkişafı, onun müstəqil, yaradıcı və məsuliyyətli fərd kimi formalaşması olmalıdır və süni intellekt bu məqsədə çatmaq üçün bir vasitə kimi dəyərləndirilməlidir.

JALƏ XƏLİLOVA
Şərur rayon Kosacan kənd tam orta məktəbi
Müəllim
jalexelilsoy7@gmail.com

SÜNİ İNTELLEKTİN ÜMUMİ TƏHSİLDƏ TƏTBİQİ VƏ MÜƏLLİM FƏALİYYƏTİNİN YENİ PEDAQOJİ İSTİQAMƏTLƏRİ

Məqalədə ümumi təhsil sistemində süni intellekt texnologiyalarının tətbiqi imkanları, bu prosesin pedaqoji fəaliyyətə təsiri və müəllimin dəyişən rolu araşdırılır. Süni intellekt əsaslı sistemlərin fərdiləşdirilmiş təlim, qiymətləndirmə və monitorinq sahəsində yaratdığı üstünlüklər təhlil edilir, eyni zamanda mövcud risklər və çağırışlar elmi aspektdən qiymətləndirilir.

Açar sözlər: *süni intellekt, ümumi təhsil, rəqəmsallaşma, müəllim rolu, innovasiya*

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində köklü dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə süni intellekt (Sİ) texnologiyalarının geniş tətbiqi tədris prosesinin təşkilinə, idarə edilməsinə və qiymətləndirilməsinə yeni yanaşmalar gətirmişdir. Rəqəmsallaşmanın sürətlənməsi ümumi təhsil müəssisələrində innovativ metodların tətbiqini aktuallaşdırmış, şagirdyönümlü və fərdiləşdirilmiş təhsil modelinin inkişafına şərait yaratmışdır.

Süni intellekt əsaslı platformalar öyrənənlərin fərdi xüsusiyyətlərini, bilik səviyyəsini və öyrənmə tempini analiz edərək adaptiv təlim mühiti formalaşdırır. Bu texnologiyalar vasitəsilə şagirdlərin zəif və güclü tərəfləri müəyyən edilir, onlara uyğun tapşırıqlar və təlim strategiyaları təqdim olunur. Araşdırmalar göstərir ki, süni intellekt texnologiyalarının təhsildə tətbiqi öyrənmə motivasiyasının yüksəlməsinə, akademik nəticələrin yaxşılaşmasına və tədris prosesinin daha çevik təşkilinə müsbət təsir göstərir. Bu baxımdan süni intellekt yalnız texnoloji yenilik deyil, həm də pedaqoji yanaşmaların transformasiyasına təsir edən mühüm amil kimi çıxış edir.

Süni intellekt texnologiyalarının tətbiqi müəllim fəaliyyətində də mühüm dəyişikliklər yaradır. Ənənəvi tədris modelində əsas informasiya mənbəyi kimi çıxış edən müəllim rəqəmsal mühitdə daha çox istiqamətləndirici, mentor və pedaqoji lider funksiyasını yerinə yetirir. Müəllim artıq yalnız bilik ötürən tərəf deyil, həm də şagirdlərin informasiya bolluğu şəraitində düzgün istiqamətləndirilməsini təmin edən şəxsə çevrilir. Bu yanaşma müəllimin peşəkar kompetensiyalarına yeni tələblər formalaşdırır və rəqəmsal bacarıqların inkişafını zəruri edir.

Elmi araşdırmalarda qeyd olunur ki, süni intellekt texnologiyalarının təhsildə tətbiqi tədris prosesinin optimallaşdırılmasına, vaxt resurslarından daha səmərəli istifadəyə və idarəetmənin təkmilləşdirilməsinə şərait yaradır. Xüsusilə avtomatlaşdırılmış qiymətləndirmə sistemləri müəllimlərin iş yükünü azaldır, tədris analitikası isə şagird nailiyyətlərinin daha obyektiv qiymətləndirilməsinə imkan verir. Bununla yanaşı, süni intellekt əsaslı sistemlər distant və hibrid təhsil modellərinin inkişafına da mühüm töhfə verir.

Lakin bu texnologiyaların tətbiqi müəyyən risk və çağırışlarla müşayiət olunur. İlk növbədə, texnoloji asılılığın artması şagirdlərin analitik və yaradıcı düşünmə bacarıqlarına mənfi təsir göstərə bilər. Digər mühüm problem məlumat təhlükəsizliyi və şəxsi məlumatların qorunması ilə bağlıdır. Süni intellekt sistemləri böyük həcmdə məlumat topladığı üçün bu məlumatların qorunması xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, müəllimlərin rəqəmsal hazırlıq səviyyəsinin müxtəlif olması texnologiyaların effektiv tətbiqinə maneə yaradan amillərdən biridir.

Etik problemlər də xüsusi diqqət tələb edir. Süni intellekt sistemlərinin qərarvermə mexanizmlərində şəffaflığın olmaması, alqoritmik qərəz və məlumatların düzgün interpretasiya edilməməsi təhsil prosesində müəyyən risklər yarada bilər. Bu səbəbdən süni intellekt texnologiyalarının tətbiqi yalnız texniki məsələ kimi deyil, həm də pedaqoji və etik məsuliyyət kontekstində qiymətləndirilməlidir.

Bütün bunlarla yanaşı, süni intellekt texnologiyalarının ümumi təhsildə tətbiqi gələcək təhsil modelinin formalaşmasında mühüm rol oynayır. Müasir məktəb mühiti artıq yalnız bilik ötürülən məkan deyil, həm də rəqəmsal bacarıqların, tənqidi düşüncənin və yaradıcı yanaşmanın inkişaf etdirildiyi sosial mühit kimi çıxış edir. Bu baxımdan süni intellektin təhsilə inteqrasiyası sistemli, mərhələli və pedaqoji prinsiplərə uyğun şəkildə həyata keçirilməlidir.

Son olaraq demək olar ki, süni intellekt texnologiyaları ümumi təhsil sistemində geniş imkanlar yaratsa da, onların effektiv tətbiqi müəllimlərin peşəkar hazırlığından, metodiki təminatdan və hüquqi-normativ tənzimləmədən birbaşa asılıdır. Təhsil prosesində insan amilinin qorunması, müəllimin aparıcı rolunun saxlanılması və texnologiyalardan balanslı istifadə müasir təhsil siyasətinin əsas prioritetlərindən biri hesab olunmalıdır.

TURAC BAYRAMOVA
Culfa şəhər 2 № li tam orta məktəb
İbtidai sinif müəllimi
e-mail: turacbayramova88@gmail.com

MÜASİR TƏHSİLİN GƏLƏCƏYİ: RƏQƏMSALLAŞMA VƏ SÜNİ İNTELLEKTİN İNTEQRASİYASI

Tezisdə müasir təhsil sistemində rəqəmsallaşma prosesləri, süni intellekt texnologiyalarının dərslərə inteqrasiyası və innovasiya fəaliyyətinin yaratdığı yeni reallıqlar təhlil olunur. Bu keçid mərhələsində qarşıya çıxan əsas çağırışlar və onların həll yolları araşdırılır.

Açar sözlər: *rəqəmsal təhsil, süni imtellekt, innovasiya, pedaqoji texnologiyalar, müasir çağırışlar.*

Bu gün dünyada ən sürətli dəyişən sahələrdən biri təhsildir. Xüsusilə rəqəmsallaşma, süni intellekt və innovasiya artıq sadəcə gələcəyin anlayışları deyil, bugünkü reallığımızdır. Əvvəllər şagirdlər məlumatı əsasən kitabdan və müəllimdən alırdısa, indi bir telefon və internet vasitəsilə dünyanın istənilən məlumatına çıxış mümkündür.

Bundan başqa onlayn dərslər, elektron jurnallar, interaktiv platformalar müəllim və şagirdlərin işini daha rahat edir. Xüsusilə pandemiya dövründə gördük ki, texnologiya olmasaydı, təhsil prosesi tamamilə dayanardı. Bu da göstərdi ki, müasir dövrdə texnologiya artıq seçim deyil, ehtiyacdır.

Süni intellekt isə təhsildə yeni mərhələ yaradır. Bu gün bəzi proqramlar şagirdin səviyyəsini analiz edir, ona uyğun tapşırıqlar təqdim edir, hətta müəllimə qiymətləndirmədə kömək edir. Məsələn, şagird anlamadığı mövzunu süni intellekt vasitəsilə daha sadə şəkildə öyrənə bilir. Bu, fərdi yanaşmanı gücləndirir və öyrənməni daha maraqlı edir. Daha aydın şəkildə desək, süni intellekt vaitəsilə vaxta qənaət etmiş oluruq. Artıq saatlarla bəzi sənədləşmələrə, test hazırlamağa, hətta onları yoxlamağa uzun vaxt sərf olunmur.

Daha sonra hər bir şagirdə fərdi yanaşma imkani eldə edilir. Şagirdlərin qavrama sürəti fərqlidir. Rəqəmsal proqramlar hər uşağın zəif və güclü tərəflərini analiz edib ona uyğun tapşırıqlar təklif edə bilir. Amma bütün bunlarla yanaşı, müəyyən çağırışlar da var. Bu inkişaf bəzən qarşımıza bəzi çətinliklər çıxarır. Ən böyük problemlərdən biri texnologiyadan düzgün istifadə məsələsidir. Bəzən şagirdlər hazır cavablara həddindən artıq öyrəşirlər və araşdırmaq, düşünmək bacarıqları zəifləyir. Bu da şagirddə tənbəllik faktoruna gətirib çıxarır, şagirdlərdə esse yazmaq, tapşırıq həll etmək bacarığını zəiflədir. Nəticədə şagirdin tənqidi təfəkküründü və yradıcılığını təhlükə altına qoyur.

Digər tərəfdən, hər kəsin eyni texniki imkanlara sahib olmaması da problemlər yaradır və bu da şagirdlər arasında rəqəmsal bərabərsizliyə səbəb olur.

Nəticə olaraq, süni intellekt nə qədər güclü olsa da müəllimi əvəz edə bilməz. Çünki texnologiya müəllimi əvəz etmir, əksinə müəllimin işini dəstəkləyir. Heç bir robot şagirdin gözündəki o öyrənmə işığını görə bilməz, ona emosional dəstək ola bilməz. Əsl müəllim şagirdə təkcə məlumat yox, düşünməyi, analiz etməyi və düzgün seçim etməyi öyrədir.

İnnovasiya fəaliyyəti də təhsilin inkişafında vacib rol oynayır. Yeniliklərə açıq olmaq, yeni metodlardan istifadə etmək və dəyişən dövrə uyğunlaşmaq artıq müasir müəllimin əsas xüsusiyyətlərindən biridir.

Sonda onu da vurğulamaq istəyirəm ki, rəqəmsallaşma və süni intellekt təhsil üçün böyük imkanlar yaradır. Ancaq bu imkanlardan düzgün istifadə etmək üçün həm müəllimlər, həm şagirdlər, həm də valideynlər birlikdə çalışmalıdırlar. Çünki gələcəyin təhsili texnologiya ilə insan düşüncəsinin düzgün balansı üzərində qurulacaq.

PANEL 5. TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR – 03

FƏXRİYYƏ CƏFƏROVA
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
FakhriyyaCafarova@nmi.edu.az

TƏHSİLDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQ PERSPEKTİVLƏRİ VƏ İNNOVATİV İDARƏETMƏ MEXANİZMLƏRİ

Ali təhsildə rəqəmsallaşma və süni intellekt tədrisi interaktiv, fərdi və səmərəli edir. Adaptiv proqramlar, virtual laboratoriyalar və Sİ alətləri tələbələrin analitik, yaradıcı və problem həll etmə bacarıqlarını artırır, müəllimlərin iş yükünü azaldır və distant təhsili əlçatan edir.

Açar sözlər: *təhsildə rəqəmsallaşma, süni intellekt, adaptiv öyrənmə, virtual laboratoriya, ali təhsil, interaktiv tədris, fərdi öyrənmə, distant təhsil*

Müasir dövrdə texnologiyanın sürətli inkişafı təhsil sahəsində köklü dəyişikliklərə səbəb olub. Təhsildə rəqəmsallaşma yalnız dərslərin elektron platformalara keçirilməsi deyil, həm də tədris prosesinin səmərəliliyini artırmaq, müəllim və tələbələr üçün öyrənmə mühitini daha interaktiv və əlçatan etmək üçün innovativ metod və alətlərin tətbiqini nəzərdə tutur. Bu sahədə süni intellekt (Sİ) xüsusi əhəmiyyət kəsb edir, çünki o, şagirdlərin və tələbələrin fərdi öyrənmə tərzini analiz edərək adaptiv tədris proqramları təqdim edir. Bu, hər bir öyrənənin öz sürətində və bacarıqlarına uyğun şəkildə öyrənməsinə şərait yaradır.

Ali təhsil müəssisələrində Sİ və rəqəmsal alətlərin tətbiqi təhsilin keyfiyyətini artırmaqla yanaşı, müəllim və tələbə arasında qarşılıqlı əlaqəni də gücləndirir. Müəllimlər dərs planlarını optimallaşdırmaq, qiymətləndirməni avtomatlaşdırmaq və tələbələrin fəaliyyətini təhlil etmək imkanına malik olur. Eyni zamanda, tələbələr üçün interaktiv simulyasiyalar, virtual laboratoriyalar və elektron kitabxanalar mürəkkəb mövzuların başa düşülməsini asanlaşdırır. Məsələn, Azərbaycan dili üzrə qrammatika və üslub mövzularında interaktiv testlər tələbələrə fərdi öyrənmə imkanları təqdim edir, ədəbiyyat dərslərində isə virtual oxu platformaları və rəqəmsal analiz alətləri şeirlər, nəsr nümunələri və dramaturgiyaları daha dərindən təhlil etməyə kömək edir. Bu yanaşma həm tələbələrin dil bacarıqlarını, həm də analitik və yaradıcı düşüncələrini inkişaf etdirir.

Rəqəmsallaşma və süni intellektin tətbiqi ali təhsildə həm reallıqlar**,** həm də çağırışlar ortaya qoyur. Onlayn platformalar vasitəsilə dərslərin və resursların əlçatanlığı artır, distant təhsil imkanları coğrafi və sosial məhdudiyyətləri aradan qaldırır. Lakin texnoloji asılılıq, məlumatların qorunması və müəllim-tələbə arasında effektiv interaksiyanın təmin olunması məsələləri diqqət tələb edir. Avtomatlaşdırılmış qiymətləndirmələr bəzən ədalətsiz nəticələr verə bilər ki, bu da tələbələrin akademik motivasiyasına təsir göstərə bilər. Eyni zamanda, tələbələrin texnoloji bacarıqlarının fərqli səviyyədə olması təhsildə bərabər imkanların yaradılmasına mane ola bilər.

Ali məktəblərdə rəqəmsallaşma və Sİ tələbələrin yaradıcı düşüncə və tədqiqat bacarıqlarının inkişafı üçün geniş imkanlar təqdim edir. Elektron laboratoriyalar, simulyasiya proqramları və adaptiv öyrənmə sistemləri tələbələrə eksperiment aparmaq, verilənləri təhlil etmək və nəticələr çıxarmaq imkanı verir. Məsələn, biologiya və kimya fakültələrində virtual təcrübələr tələbələrə təhlükəsiz və sürətli öyrənmə mühiti təqdim edir. Eyni zamanda, iqtisadiyyat və idarəetmə sahəsində Sİ alətləri tələbələrə real bazar şəraitində qərar qəbul etmə simulyasiyaları aparmaq və nəticələri analiz etmək imkanı verir. Bu yanaşma tələbələrin analitik və problem həll etmə bacarıqlarını gücləndirir.

Lakin texnologiyanın təhsilə inteqrasiyası bəzi çağırışları da özü ilə gətirir. İlk növbədə, müəllimlərin Sİ və rəqəmsal alətlərdən səmərəli istifadə bacarıqları mühüm rol oynayır. Onlar adaptiv proqramları tədris prosesinə daxil etməli, tələbələrin performansını izləməli və lazımi düzəlişləri vaxtında etməlidirlər. Bundan başqa, tələbələrin texnoloji savadlılığı, internetin düzgün istifadəsi və

məlumat təhlükəsizliyi məsələləri də diqqət tələb edir. Məktəb və universitetlər rəqəmsal savadlılıq proqramları tətbiq etməli, həm müəllim, həm də tələbə üçün müvafiq təlimlər təşkil etməlidirlər.

Reallıq göstərir ki, texnologiyaya tam keçid hər yerdə mümkün deyil. Kənd və ucqar bölgələrdə internet infrastrukturu, yüksək texnoloji avadanlıq və müəllimlərin Sİ ilə işləmək bacarığı məhduddur. Bu, təhsildə bərabər imkanların yaradılmasına mane olur. Eyni zamanda, tələbələrin texnoloji alətlərdən məsuliyyətli istifadəsi, valideyn nəzarəti və müəllim dəstəyi ilə birlikdə reallaşmalıdır ki, rəqəmsallaşmanın və süni intellektin üstünlükləri tam şəkildə istifadə olunsun.

Gələcəyə baxdıqda, ali məktəblərdə rəqəmsallaşma və süni intellekt daha inteqrasiya olunmuş, interaktiv və fərdi öyrənmə imkanları təqdim edən mühit yaradacaq. Müəllim və tələbələrin bu sistemlərə uyğunlaşması, rəqəmsal savadlılığın artırılması və məlumat təhlükəsizliyinin təmin olunması uğurlu tətbiqin əsas şərtlərindəndir. Rəqəmsal texnologiyalar və Sİ yalnız tədrisin səmərəliliyini artırmır, həm də tələbələrin analitik, yaradıcı və problem həll etmə bacarıqlarını inkişaf etdirir.

Bir sözlə, ali məktəblərdə rəqəmsallaşma və süni intellekt təhsilin ayrılmaz hissəsinə çevrilib. Bu yanaşma tələbələr üçün fərdi öyrənmə imkanlarını genişləndirir, tədrisi interaktiv və müasir edir, müəllimlər üçün isə dərs prosesinin idarəsini asanlaşdırır. Texnologiyanın gətirdiyi çağırışlar düzgün strategiyalarla həll edilərək təhsil sisteminin davamlı inkişafı təmin olunur. Təhsildə rəqəmsallaşma və süni intellekt gələcəyin öyrənmə mühitinin əsasını təşkil edir və ali məktəb tələbələrinin təhsil keyfiyyətinin yüksəldilməsində həlledici rol oynayır.

SÜDABƏ MƏMMƏDOVA
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
SudabaMammadova@nmi.edu.az

İKT VASİTƏSİLƏ RİYAZİYYAT DƏRSLƏRİNDƏ MÜRƏKKƏB MƏSƏLƏLƏRİN TƏDRİSİ

İnformasiya-kommunikasiya texnologiyalarının müasir təhsil sistemində tətbiqi rəqəmsallaşma və qloballaşma dövründə tədrisin məktəblərdə keyfiyyətinin yüksəldilməsi üçün mühüm əhəmiyyət daşıyır. Xüsusilə abstrakt və məntiqi düşüncə tələb edən bir fənn olaraq riyaziyyatda İKT-nin tətbiqi şagirdlərin bu sahəni daha dərindən anlamasına və mürəkkəb məsələləri daha asan həll etməsinə imkan yaradır.

Riyaziyyatda mürəkkəb məsələlər şagirdlərin yalnız nəzəri biliklərini deyil, həm də analitik düşünmə, məntiqi nəticə çıxarma, müqayisə etmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Bu baxımdan İKT vasitələrinin tətbiqi tədris prosesinə yeni imkanlar gətirir və dərsin keyfiyyətini yüksəldir. Bu yanaşmanın şagirdlərin marağını artırdığı, düşünmə qabiliyyətini inkişaf etdirdiyi, təlim prosesini fərdiləşdirdiyi, praktik bacarıqları gücləndirdiyi tezisdə öz əksini tapmışdır. Nəticə olaraq, İKT-nin düzgün və məqsədyönlü tətbiqi riyaziyyat təliminin keyfiyyətini yüksəldən və şagirdləri müasir dünyanın tələblərinə uyğun hazırlayan vasitə sayılır.

Açar sözlər: *mürəkkəb məsələlər, keyfiyyət, təlim prosesi, inkişaf, tətbiq*

Giriş. İnformasiya-kommunikasiya texnologiyalarının indi müasir təhsil sistemində tətbiqi zərurətə çevrilmişdir. Rəqəmsallaşma və qloballaşma dövründə tədrisin məktəblərdə keyfiyyətinin yüksəldilməsi üçün innovativ yanaşmaların mühüm əhəmiyyəti vardır. Xüsusilə abstrakt və məntiqi düşüncə tələb edən bir fənn olaraq riyaziyyatda İKT-nin tətbiqi şagirdlərin bu sahəni daha dərindən anlamasına və mürəkkəb məsələləri daha asan həll etməsinə imkan yaradır.

Riyaziyyatda mürəkkəb məsələlər şagirdlərin yalnız nəzəri biliklərini deyil, həm də analitik düşünmə, məntiqi nəticə çıxarma, müqayisə etmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Lakin ənənəvi tədris üsulları bu cür məsələlərin izahında bəzən kifayət qədər effektiv olmur. Bu baxımdan İKT vasitələrinin tətbiqi tədris prosesinə yeni imkanlar gətirir və dərsin keyfiyyətini yüksəldir.

İKT-nin təhsildə rolu və əhəmiyyəti. İnformasiya-kommunikasiya texnologiyaları təlim prosesində müxtəlif funksiyaları yerinə yetirir. Onlar həm informasiya mənbəyi, həm öyrənmə vasitəsi, həm də qiymətləndirmə aləti kimi çıxış edir. İnformasiya-kommunikasiya texnologiyalarının təhsildə əsas üstünlüyü təlimin vizuallaşdırılması, interaktiv mühit yaradılması, şagirdlərin fəallıqlarının artırılması, fərdiyanaşmanın təmin edilməsi və özünüqiymətləndirmə (refleksiya) imkanlarının genişləndirilməsi hesab edilir. Riyaziyyat dərslərində İKT-nin tətbiqi daha vacibdir, çünki bu fənn çoxlu abstrakt anlayışlarla zəngindir. Şagirdlər üçün çətinlik törədən mövzular vizual və interaktiv olaraq təqdim edilərkən daha da asan mənimsənilir.

Mürəkkəb məsələlərin tədris xüsusiyyətləri. Mürəkkəb riyazi məsələlər bir neçə mərhələdən ibarət olur və bir çox bacarıqları əhatə edir. Həmin bacarıqların alqoritmini verək:

1. Şərtin düzgün anlaşılması
2. Verilənlərin analiz edilməsi
3. Həll strategiyasının seçilməsi
4. Hesablamaların aparılması
5. Nəticənin yoxlanılması

Bu proses müəllim təkcə izahla kifayətlənərsə, şagirdlərə çətin görünə bilər və bəzi şagirdlər mövzunu tam qavramaya bilər. Odur ki, müasir yanaşmalar tələb olunur və bu halda İnformasiya-kommunikasiya texnologiyaları əsas rol oynaya bilər.

Mürəkkəb məsələlərin tədrisində İKT vasitələrinin tətbiqi:

1. Vizualizasiya və modelləşdirmə: İKT vasitələri mürəkkəb məsələlərin vizual şəkildə təqdim olunmasına imkan verir. Qrafik proqramlar, animasiyalar və simulyasiyalar vasitəsilə məsələnin gedişi addım-addım göstərilə bilər. Məsələn: Həndəsi fiqurların dinamik təsviri, Funksiyaların qrafikinin qurulması, Statistik məlumatların diaqramlarla təqdim edilməsi. Bu yanaşma şagirdlərin mövzunu daha aydın qavramasına kömək edir.

2. İnteraktiv təlim mühiti: İKT vasitələri dərsi passiv dinləmə prosesindən aktiv öyrənmə prosesinə çevirir. Şagirdlər müxtəlif proqramlar və platformalar vasitəsilə məsələlərin həllində birbaşa iştirak edirlər. İnteraktivlik müəyyən imkanlar yaradır: tapşırıqların dərhal yoxlanılması, səhvlərin anında aşkar edilməsi, alternativ həll yollarının araşdırılması. Bu isə şagirdlərin marağını artırır və motivasiyanı gücləndirir.

3. Fərdiləşdirilmiş təlim: Hər bir şagirdin öyrənmə tempi və səviyyəsi fərqlidir. İKT vasitələri bu fərqləri nəzərə almağa imkan verir. Məsələn: Müxtəlif çətinlik səviyyəli tapşırıqlar təqdim etmək, Zəif şagirdlər üçün əlavə izahlar vermək, Güclü şagirdlər üçün əlavə çətin məsələlər yaratmaq. Beləliklə, hər bir şagird öz səviyyəsinə uyğun inkişaf edir.

4. Simulyasiya və eksperiment imkanları: Riyaziyyatda bəzi mövzuların izahı üçün eksperiment aparmaq çətin olur. İKT vasitələri bu problemi aradan qaldırır. Simulyasiya vasitəsilə: Ehtimal məsələləri modelləşdirilir, Statistik proseslər təhlil olunur, Riyazi qanunauyğunluqlar müşahidə edilir. Bu üsul şagirdlərin tədqiqat bacarıqlarını inkişaf etdirir.

5. Qiymətləndirmə və geribildirim: İKT vasitələri vasitəsilə şagirdlərin biliklərini tez və obyektiv qiymətləndirmək mümkündür. Üstünlüklər: Avtomatik test sistemləri, Dərhal nəticə əldə etmə, Səhvlərin təhlili, Bu, müəllimə təlim prosesini düzgün planlaşdırmağa kömək edir.

İKT-nin üstünlükləri ilə yanaşı bəzi çətinliklər də mövcuddur: Texniki avadanlıqların çatışmazlığı, Müəllimlərin İKT bacarıqlarının yetərli olmaması, İnternet problemləri, Şagirdlərin diqqətinin yayınması. Bu problemlərin aradan qaldırılması üçün müəllimlərin davamlı təlimlərdə iştirakı və məktəblərin texniki təminatının gücləndirilməsi vacibdir.

Nəticə. Mürəkkəb məsələ =Analiz + Modelləşdirmə + Strategiya + İcra + Refleksiya

Bu model mürəkkəb məsələlərin həlli mərhələlərinin modelidir və mürəkkəb məsələlərin həllinin mərhələli, şüurlu və sistemli təfəkkür prosesi olduğunu göstərir. İKT vasitələrinin tətbiqi müəllimin rolunu azaltmır, əksinə onu daha məsuliyyətli edir. Müəllim dərsi düzgün planlaşdırmalıdır, uyğun İKT vasitəsini seçməlidir, şagirdləri istiqamətləndirməlidir, təlim prosesini idarə etməlidir. Müasir müəllim həm pedaqoq, həm də texnologiyanı düzgün istifadə edən bələdçi olmalıdır.

İKT vasitələrinin riyaziyyat dərslərində tətbiqi mürəkkəb məsələlərin tədrisini daha effektiv edir. Bu yanaşma şagirdlərin marağını artırır, düşünmə qabiliyyətini inkişaf etdirir, təlim prosesini fərdiləşdirir, praktik bacarıqları gücləndirir. Nəticə etibarilə, İKT-nin düzgün və məqsədyönlü tətbiqi riyaziyyat təliminin keyfiyyətini yüksəldir və şagirdləri müasir dünyanın tələblərinə uyğun hazırlayır.

DİLBƏR RÜSTƏMOVA
Naxçıvan Qarnizonu tam orta məktəb
Psixoloq

TƏHSİLDƏ İNNOVASİYA FƏALİYYƏTİNİN RƏQƏMSALLAŞMA VƏ SÜNİ İNTELLEKT KONTEKSTİNDƏ TƏHLİLİ

Son zamanlar təhsilin inkişafına maneə göstərən səbəblərdən biridə dövrün aktual problemlərindən olan gənclərin sosial şəbəkələrdən həddindən artıq istifadə etməsidir. Bu problem şagirdlərin real həyata maraqsız yanaşmasına, dərslərindən geri qalmasına və təhsilin səviyyəsinin aşağı düşməsinə səbəb olur. Gənclərin kitab oxumaqla əldə etməli olduğu savadı süni intellektlə əvəz edərək düşüncə qabiliyyətinin itirilməsinə gətirib çıxarır. Təhsildə rəqəmsallaşmanın dərslərdə müəllimlərin və şagirdərin işini asanlaşdırmaqla yanaşı həmdə çətinləşdirməsi nəzərə çarpır.

Açar sözlər: *Suni intellekt, rəqəmsallama, sosial şəbəkələr, reallıqlar, çağırışlar*

Dövrümüzdə təhsil sistemi getdikcə dəyişir, inkişaf edir. Lakin texnologiyanın insan həyatına daxil olmasıyla təhsil sistemində ciddi dəyişiklər baş vermişdir. Xüsusilə də süni intellekt və rəqəmsallaşmanın tədris prosesinə təsiri maraqlı və effektivdir. Bu kimi dəyişikliklər təhsildə prosesi asanlaşdırmaqla bərabər həmdə çətiləşdirir.

Təhsildə rəqəmsallaşdırma dedikdə təkcə şagirdlərin dərsdə komputerdən istifadəsi nəzərdə tutulmur həmdə şagirdlərin istənilən vaxt axtardığı materialı tapmasına kömək edir. Uzaqdan təhsilin həyata keçirilməsinə yardımçı olur. Lakin rəqəmsallaşmanın mənfi cəhətləridə vardır. Belə ki, valideylərin şagirdlərə telefondan istifadəyə icazə verməsi bəzi şagirdlərin bunu dərs oxumaq əvəzinə dərsə mane olacaq işlərlə məşğul olmasına səbəb olur. Şagirdlər bəzən bu yoldan sui istifadə edərək sosial şəbəkələrə aludə ola bilirlər. Bu zaman da dərsin keyfiyyətinin kəskin şəkildə aşağı düşməsi nəzərə çarpan hal kimi özünü biruzə verir. Təəssüflə qeyd etməliyəm ki, rastlaşdığımız hallardan biridə valideynin uşağa bilərəkdən telefon verməsi olur. Bu uşaqlar belə bir şəraitin yaradılması onların inkişafına mane olur və geriləməsinə səbəb olur. Belə uşaqlardan telefondan istifadə müddəti gün ərzində 20 dəqiqədən artıq olmamalıdır. Şagirdlərin saatlarla telefondan istifadə etməsi onlarda gözün zəifləməsi, beyinin kiçilməsi və boyun sümüyünün əyilməsinə səbəb olur. Artıq əvvəlki kimi kitabxanalarda gəncləri görmək mümkün olmur. Əlində kitab oxuyan gəncə rast gəlmək olmur. Bu görüntüləri artıq əlində telefonla gəzən gənclər əvəz etməkdədir. Bu hal beyinin inkişafına maneə törədir. Şagirdlər istədiyi məlumatı internetə yazıb hazır məlumat əldə edirlər. Beləliklə də beyin düşünmə qabiliyyətini itirir və düşüncə qabiliyyəti aşağı düşür.

Təhsildə innovasiya dedikdə dərslərdə texnologiya vasitələrindən geniş istifadə nəzərdə tutulur. Texnologiya vasitələrindən istifadə zamanı dərslərin daha yaddaqalan olması müşahidə olunur. Çünki dərsin nəzəri cəhətdən izah edilməsi əyani vasitələrdən istifadə zamanı mövzunu daha yadda qalan edir. STEM və STEAM kimi dərslərin təkmilləşməsinə şərait yaradır. Bundan başqa testlərin avtomatik yoxlanılmasında, virtual dərslərin keçirilməsində və onlayn dərslərin hazırlanmasında süni intellektin rolu danılmazdır. Şagirdlər əldə edə bilmədiyi kitabları, dərslikləri və mövzuları internet vasitəsilə əldə edir. Süni intellekt və rəqəmsallaşma işimizi asanlaşdırmaqla bərabər həmdə çətinləşdirir. Belə ki, hazır materiallardan istifadə zamanla şagirdlərin düşünmə qabiliyyətini əlindən alır. Problemi həll etmə bacarığını aşağı salır.

Süni intellekt və rəqəmsallaşmanın inkişaf etməsi hər ailənin internetə çıxışını asanlaşdırır. Bu hər nə qədər axtardığımız məlumatı əldə etməyimizə kömək etsə də bir o qədərdə həyatımızı təhlükəyə atır. Şagirdlərin şəxsi məlumatlarının qorunması vacib məsələlərdən biridir. Onlayn platformalarda kibertəhlükəsizliyin problemləri şagirdlərin həyatını riskə ata bilər. Buna görə də süni intellektdən istifadə zamanı övladlarımıza düzgün istifadə qaydalarını öyrətməliyik. Daxil olduqları saytlarda nələr öyrəndiklərini kimlərlə dostluq etdiklərinə diqqət yetirməliyik. Sosial şəbəkələrdən həddən artıq istifadə onlarda asılılıq yaratmasın deyə nəzarət etməliyik. Yeniyetmələrin yaşlarına uyğun olmayan platformalara daxil olmasına icazə verməməliyik. Bildiyimiz kimi yeniyetməlik dövrü yaş dövrləri arasında ən çətin dövrdür. Hansı ki, bu dövrü "Böhran dövrü" də adlandırıllar.

Yeniyetməlik yaş dövrünə keçid zamanı şagirdlər həm daxildən həm də xaricdən dəyişikliklərə məruz qaldığı üçün bədən buna çətin alışır və davranışlara təsir edir. Şagirdlər yeniyetməlik yaşına daxil olarkən özlərini çox zaman böyüklərlə müqayisə edir, fikirlərinə hörmətlə yanaşılmasını və sevmək sevilmək hissləri yaranır. Sevib sevilmək istəyi onlarda dost çevrəsinin genişlənməsinə ehtiyac yaradır. Bu zaman yeniyetmə bu ehtiyacı çox zaman internet üzərindən sosial şəbəkələrdə axtarır. Tanımadığı, bilmədiyi insanlarla dostluq edib şəxsi məlumatlarını paylaşa bilir. Ekranın digər tərəfində dost kimi görünən insan bəzən dələduzluq edərək şagirdin şəxsi məlumatlarını öz xeyrinə istifadə edə bilir. Gənc qızlar sevgi adlandırdığı münasibətə aldanaraq təhsilini yarıda qoyaraq kiçik yaşda erkən evliliyə imza ata bilirlər. Təəssüf ki, bu hallar dövrümüzdə rast gəlinən hadisələrdəndir. Yeniyetmə şagird gələcək həyatının təhlükədə olduğunu görməyə bilər lakin onların valideynləri və müəllimləri vəziyyətdən xəbərdardır və onları kibertəhlükəsizlikdən qorumağa qadirdirlər. Valideyn övladını hələ telefona əli uzanmamış onun təhlükələrindən bəhs etməli və tənbeh etməlidir. Məktəbdə müəllimlər internet təhlükəsizliyinə aid təlimləndirici dərslər keçməlidirlər. Bu kimi tərbiyəvi söhbətlər aparılarsa şagird fikrini yalnız dərsə verər.

Süni intellekt və rəqəmsallaşma müəllimlərin və şagirdlərin işini asanlaşdırsada, onlar üçün yeni imkanlar yaratsada onun düzgün istifadəsi balansın pozulmaması vacibdir. Texnologiyadan istifadə şagirdlər və müəllimlər üçün yalnız təhsilin inkişafında istifadə olunmalıdır. Təhsildə süni intellektdən istifadə pandemiya kimi hallar baş verən zaman distant təhsilin həyata keçməsinə kömək edir. Məkan məhdudiyyətini aradan qaldıraraq qrup işində müəllimlərin və şagirdlərin köməyinə çatır. Həm də vaxta qənaət etməsinə şərait yaradır. Lakin təssüf ki, bu imkanlardan istifadə hər məktəb üçün keçərli deyildir. Bəzi məktəblərdə texniki avadanlıqların çatışmazlığı şagird və müəllimlərin ondan istifadə etməsinə çətinlik yaradır. Müəllimlərin və şagirdlərin texnologiyadan istifadə etmək bacarıqlarını zəiflədir. Təhsil sistemi dünyanın dəyişən tələblərinə uyğunlaşarsa cəmiyyətin inkişafınada töhfələr verəcəkdir. Buna görə də süni intellekt və rəqəmsallaşmadan düzgün istifadə etmək ondan təhsil uğrunda istifadə etmək lazımdır.

GÜNEL ƏBİLOVA
Naxçıvan şəhər Cəmşid Naxçıvanski adına
11 №-li tam orta məktəb
Psixoloq
gunelabilova93@gmail.com

TƏHSİLİN RƏQƏMSAL MODERNLƏŞDİRİLMƏSİ ŞƏRAİTİNDƏ SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİNİN PRİORİTETLƏRİ

Müasir dövrdə təhsil sistemi sürətlə rəqəmsallaşır və süni intellekt texnologiyalarının tətbiqi genişlənir. Bu proseslər tədrisin keyfiyyətinə və əlçatanlığına müsbət təsir göstərməklə yanaşı, şagirdlərin psixoloji inkişafı, koqnitiv funksiyaları və motivasiya strukturu üzərində də əhəmiyyətli dəyişikliklər yaradır. Məqalədə təhsildə rəqəmsallaşma və süni intellektin psixoloji aspektləri təhlil olunur, onların yaratdığı imkanlar və potensial risklər araşdırılır, eyni zamanda bu sahədə psixoloqların rolu və müdaxilə istiqamətləri müəyyənləşdirilir.

Açar sözlər: *təhsildə rəqəmsallaşma, süni intellekt, koqnitiv proseslər, motivasiya*

XXI əsrdə texnologiyanın sürətli inkişafı təhsil sistemində köklü dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsal platformalar, onlayn tədris mühitləri və süni intellekt əsaslı alətlər tədris prosesinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu transformasiya yalnız pedaqoji yanaşmaları deyil, həm də öyrənənlərin düşünmə tərzini, emosional vəziyyətini və sosial davranışlarını dəyişdirir. Bu baxımdan, təhsildə rəqəmsallaşma prosesinə yalnız texnoloji deyil, həm də psixoloji aspektdən yanaşmaq zəruridir.

Rəqəmsallaşmanın koqnitiv proseslərə təsiri:

Rəqəmsal texnologiyalar şagirdlərin informasiya emalı və yaddaş proseslərinə birbaşa təsir göstərir. Araşdırmalar göstərir ki, sürətli və çoxşaxəli informasiya axını diqqətin davamlılığını azalda və səthi öyrənmə meyillərini gücləndirə bilər. Bu fenomen bəzən "Google effekti" kimi xarakterizə olunur; yəni fərd məlumatı yadda saxlamaq əvəzinə onu haradan əldə edəcəyini xatırlamağa üstünlük verir.

Bununla yanaşı, multimodal öyrənmə imkanları vizual və eşitmə yaddaşının inkişafına müsbət təsir göstərə bilər. Lakin bu prosesin effektivliyi şagirdin özünütənzimləmə bacarıqlarından və diqqət idarəetməsindən birbaşa asılıdır.

Motivasiya və öyrənmə davranışında dəyişikliklər:

Rəqəmsal tədris mühitlərində şagirdlərin motivasiya strukturu da dəyişir. Onlayn platformalarda qiymətləndirmə sistemləri, dərhal geri bildirim və rəqəmsal mükafatlandırma mexanizmləri xarici motivasiyanı artırır. Bu isə uzunmüddətli perspektivdə daxili motivasiyanın zəifləməsinə səbəb ola bilər.

Bundan əlavə, texnologiyaların təqdim etdiyi ani nəticə gözləntisi şagirdlərdə səbrin azalmasına və çətin tapşırıqlardan qaçma davranışına yol açа bilər. Bu baxımdan, öyrənmə prosesində səylə nəticə arasındakı əlaqənin qorunması mühüm psixoloji məsələ kimi çıxış edir.

Süni intellektin psixoloji təsirləri və riskləri:

Süni intellekt əsaslı alətlər fərdiləşdirilmiş öyrənmə imkanları təqdim etməklə təhsildə yeni perspektivlər açır. Lakin bu texnologiyaların istifadəsi müəyyən psixoloji risklər də yaradır.

İlk növbədə, şagirdlərdə asılılıq və koqnitiv passivlik riski artır. Hazır cavabların asan əldə olunması problem həll etmə və tənqidi düşünmə bacarıqlarının zəifləməsinə səbəb ola bilər. Digər tərəfdən, süni intellektlə davamlı qarşılıqlı əlaqə şagirdlərin özünə inamına ikili təsir göstərə bilər: bəzi hallarda bu alətlər dəstək rolunu oynayaraq özünə güvəni artırsa da, digər hallarda "mən bacarmıram, texnologiya edir" düşüncəsini formalaşdıra bilər.

İnnovasiya fəaliyyətinin psixoloji aspektləri:

Təhsildə innovativ yanaşmalar yaradıcılığın və fərdi inkişafın stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Rəqəmsal mühitlər şagirdlərə özlərini ifadə etmək və fərdi maraqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradır.

Lakin seçimlərin çoxluğu və yüksək gözləntilər bəzi şagirdlərdə qərarsızlıq, performans təzyiqi və emosional gərginlik yarada bilər. Bu isə psixoloji rifahın qorunması üçün balanslı yanaşmanın vacibliyini ön plana çıxarır.

Psixoloji müdaxilə istiqamətləri və tövsiyələr:

Təhsildə rəqəmsallaşma prosesinin effektiv və sağlam şəkildə həyata keçirilməsi üçün psixoloji dəstək mexanizmləri gücləndirilməlidir. Bu istiqamətdə aşağıdakı tədbirlər məqsədəuyğun hesab olunur:

- ✓ Şagirdlərdə rəqəmsal gigiyena və ekran vaxtının idarə olunması bacarıqlarının formalaşdırılması;
- ✓ Metakoqnitiv bacarıqların inkişaf etdirilməsi və şüurlu öyrənmə strategiyalarının tətbiqi;
- ✓ Daxili motivasiyanın gücləndirilməsi üçün maraq əsaslı tədris yanaşmalarının təşviqi;
- ✓ Süni intellektdən istifadə etikası və məqsədyönlü tətbiq prinsiplərinin öyrədilməsi;
- ✓ Sosial-emosional öyrənmə komponentlərinin tədris prosesinə inteqrasiyası.

Təhsildə rəqəmsallaşma və süni intellektin tətbiqi qaçılmaz və zəruri prosesdir. Lakin bu transformasiya yalnız texnoloji deyil, həm də psixoloji dəyişiklikləri əhatə edir. Şagirdlərin koqnitiv, emosional və sosial inkişafını nəzərə almadan həyata keçirilən yeniliklər uzunmüddətli perspektivdə mənfi nəticələr doğura bilər. Buna görə də, təhsil sistemində texnologiyanın tətbiqi insan mərkəzli və psixoloji əsaslı yanaşma ilə müşayiət olunmalıdır.

NATELLA RZAYEVA
Naxçıvan şəhər V.Mahmudov adına 9 nömrəli tam orta məktəb
Direktor
nrzayeva2020@gmail.com

RƏQƏMSAL TƏHSİL MÜHİTİNDƏ SÜNİ İNTELLEKTİN ROLU VƏ İNNOVATİV TRANSFORMASİYA PROSESİ

Təhsildə rəqəmsallaşma, süni intellekt və innovasiya tədrisin keyfiyyətini artırır, fərdiləşdirilmiş öyrənmə imkanı yaradır və əlçatanlığı genişləndirir. Bu yanaşmalar şagirdlərin yaradıcılığını, tənqidi düşünməsini inkişaf etdirir və onları gələcəyin tələblərinə uyğun hazırlayır.

Açar sözlər: *rəqəmsallaşma, süni intellekt, innovativ təhsil, fərdiləşdirilmiş öyrənmə, təhsil texnologiyaları*

Müasir dövrdə dünya sürətlə dəyişir və bu dəyişikliklərin mərkəzində texnologiya dayanır. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, rəqəmsal alətlərin geniş yayılması və süni intellektin həyatımıza daxil olması bütün sahələrdə olduğu kimi təhsildə də köklü yeniliklərə səbəb olmuşdur. Artıq ənənəvi təhsil modeli tədricən yerini daha çevik, interaktiv və texnologiyaya əsaslanan təhsil sisteminə verir. Bu baxımdan təhsildə rəqəmsallaşma, süni intellekt və innovasiya fəaliyyəti yalnız bir seçim deyil, həm də dövrün əsas tələbinə çevrilmişdir.

Bu gün məktəb yalnız bilik ötürən məkan deyil, həm də yaradıcı düşünən, problem həll etmə bacarığına malik, texnologiyadan düzgün istifadə edən və dəyişən dünyaya uyğunlaşa bilən şəxsiyyət yetişdirən mühüm bir inkişaf mühitidir. Müasir əmək bazarında uğur qazanmaq üçün şagirdlərin yalnız nəzəri biliklərə deyil, həm də rəqəmsal bacarıqlara, analitik düşüncəyə və innovativ yanaşmalara sahib olması vacibdir. Buna görə də təhsil sistemində həyata keçirilən rəqəmsal transformasiya gələcəyin qurulmasına xidmət edən strateji addım hesab olunur.

Rəqəmsallaşma təhsil prosesinin daha effektiv, əlçatan və şəffaf təşkilinə imkan yaradır. Elektron dərsliklər, onlayn platformalar, virtual sinif otaqları və rəqəmsal qiymətləndirmə sistemləri müəllim və şagird arasında əlaqəni daha da gücləndirir. Ənənəvi dərs metodları ilə müqayisədə rəqəmsal mühitdə şagirdlər daha fəal iştirak edir, müxtəlif mənbələrdən istifadə edərək biliklərini genişləndirə bilirlər. Xüsusilə pandemiya dövründə distant təhsilin tətbiqi rəqəmsallaşmanın nə qədər vacib olduğunu bütün dünyaya göstərdi. Bu proses nəticəsində coğrafi məhdudiyyətlər aradan qalxdı və hər kəs üçün təhsilə çıxış imkanları genişləndi.

Rəqəmsal texnologiyalar dərslərin daha maraqlı və interaktiv təşkilinə də şərait yaradır. Video dərslər, animasiyalar, virtual laboratoriyalar və simulyasiya proqramları şagirdlərin mövzuları daha asan qavramasına kömək edir. Şagird artıq yalnız dinləyici deyil, həm də araşdıran, tətbiq edən və yaradan tərəfə çevrilir. Bu isə təlimin keyfiyyətinə müsbət təsir göstərir və öyrənməyə marağı artırır.

Süni intellekt isə təhsildə fərdiləşdirilmiş yanaşmanın tətbiqində mühüm rol oynayır. Ənənəvi sinif mühitində müəllimin bütün şagirdlərə eyni səviyyədə diqqət ayırması çətin olduğu halda, süni intellekt əsaslı sistemlər hər bir şagirdin bilik səviyyəsini, öyrənmə sürətini və ehtiyaclarını analiz edərək fərdi tədris planı təqdim edə bilir. Bu isə təhsilin keyfiyyətini artırır və şagirdlərin potensialının daha səmərəli şəkildə üzə çıxarılmasına şərait yaradır. Adaptiv öyrənmə platformaları şagirdin cavablarına əsasən növbəti tapşırıqları müəyyən edir, zəif tərəfləri aşkarlayır və onların inkişafına yönəlmiş fəaliyyət təşkil edir. Bununla yanaşı, süni intellekt müəllimlərin işini də asanlaşdırır. Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri, elektron idarəetmə proqramları və analitik platformalar müəllimlərə vaxt qazandırır. Müəllim artıq yalnız bilik ötürən şəxs deyil, həm də istiqamətverici, mentor və motivator rolunu oynayır. Bu dəyişiklik müəllim peşəsinin mahiyyətini daha da zənginləşdirir və pedaqoji fəaliyyətin keyfiyyətini yüksəldir.

İnnovasiya fəaliyyəti isə təhsildə yeniliklərin tətbiqi və inkişafı üçün əsas hərəkətverici qüvvədir. Müasir dövrdə innovativ yanaşmalar olmadan yüksək nəticə əldə etmək mümkün deyil. STEAM yanaşması, layihə əsaslı öyrənmə, tədqiqat fəaliyyəti və oyunlaşdırma metodları şagirdlərdə tənqidi düşünmə, yaradıcılıq, əməkdaşlıq və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Bu bacarıqlar XXI əsr insanının əsas kompetensiyaları hesab olunur. Xüsusilə oyunlaşdırma metodunun tətbiqi şagirdlərin dərsə marağını artırır və onların motivasiyasını gücləndirir. Müxtəlif rəqəmsal oyun elementləri, yarışlar və interaktiv tapşırıqlar vasitəsilə tədris prosesi daha canlı və maraqlı olur. Şagirdlər öyrənməni məcburiyyət deyil, inkişaf və kəşf prosesi kimi qəbul etməyə başlayırlar.

Təhsildə rəqəmsallaşmanın və süni intellektin əsas üstünlüklərindən biri də məlumatların toplanması və təhlilidir. Təhsil müəssisələri bu məlumatlar əsasında qərarvermə prosesini daha düzgün qura bilir, tədris keyfiyyətini artırmaq üçün konkret addımlar ata bilirlər. Hansı mövzuların daha çətin qavranıldığı, hansı şagirdlərin əlavə dəstəyə ehtiyacı olduğu kimi məsələlər analitik sistemlər vasitəsilə asanlıqla müəyyən edilir. Bu isə idarəetmədə daha çevik və düzgün qərarların qəbuluna imkan yaradır.

Digər mühüm üstünlük isə inklüzivliyin təmin olunmasıdır. Rəqəmsal texnologiyalar və süni intellekt xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün də təhsili əlçatan edir. Görmə və eşitmə məhdudiyyəti olan şagirdlər üçün xüsusi proqramlar, səsli oxu sistemləri, subtitrlər və digər texnoloji vasitələr onların təhsil prosesində daha fəal iştirakına şərait yaradır. Bu isə bərabər təhsil imkanlarının formalaşmasına mühüm töhfə verir. Lakin bütün bu üstünlüklərlə yanaşı, müəyyən çağırışlar da mövcuddur. Rəqəmsal bərabərsizlik, texnoloji savadlılığın aşağı olması, internet resurslarına çıxış problemləri, müəllimlərin yeni texnologiyalara adaptasiyası və məlumat təhlükəsizliyi kimi məsələlər diqqət mərkəzində saxlanılmalıdır. Xüsusilə kənd məktəblərində texniki imkanların zəif olması rəqəmsal təhsilin tam tətbiqinə maneə yarada bilər. Buna görə də dövlət səviyyəsində güclü strategiyaların hazırlanması, müəllimlərin davamlı peşəkar inkişafının təmin edilməsi və müasir infrastrukturun qurulması vacibdir.

Nəticə etibarilə, təhsildə rəqəmsallaşma, süni intellekt və innovasiya fəaliyyəti müasir təhsil sisteminin ayrılmaz hissəsinə çevrilmişdir. Bu amillər təhsilin keyfiyyətini artırmaqla yanaşı, onu daha əlçatan, çevik və effektiv edir. Gələcəyin uğurlu cəmiyyətini formalaşdırmaq üçün bu gündən texnologiyaya, innovativ düşüncəyə və ağıllı təhsil sisteminə investisiya qoymaq zəruridir. Çünki gələcəyin güclü dövləti məhz müasir düşüncəli, rəqabətqabiliyyətli və yaradıcı gənclərin yetişdirilməsi ilə mümkündür. Ağıllı təhsil sistemi isə güclü gələcəyin ən möhkəm təməlidir.

AYDIN ADİLXANOV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
Müəllim
aydnadilxanov@mail.ru

SÜNİ İNTELLEKT VƏ RƏQƏMSALLAŞMANIN TƏHSİL PSİXOLOGİYASINA TƏSİRİ: YENİ REALLIQLAR VƏ PSİXOLOJİ ÇAĞIRIŞLAR

Məqalədə süni intellekt və rəqəmsallaşmanın təhsil psixologiyasına təsiri araşdırılır. Rəqəmsal texnologiyaların yaratdığı yeni imkanlar, şagirdlərin psixoloji inkişafında baş verən dəyişikliklər və təhsil mühitində meydana çıxan psixoloji çağırışlar təhlil olunur.

Açar sözlər: *süni intellekt, rəqəmsallaşma, təhsil psixologiyası, rəqəmsal təhsil, psixoloji çağırışlar*

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində mühüm dəyişikliklər yaratmışdır. Xüsusilə süni intellekt texnologiyalarının tətbiqi tədris prosesinin daha çevik, fərdiləşdirilmiş və əlçatan olmasına şərait yaratmışdır. Bu dəyişikliklər yalnız texnoloji sahədə deyil, həm də təhsil psixologiyası baxımından yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur.

Süni intellekt əsaslı platformalar şagirdlərin fərdi xüsusiyyətlərini analiz edərək onların bilik səviyyəsinə uyğun tədris materialları təqdim edir. Bu isə öyrənmə motivasiyasını artırır və təhsil prosesinin effektivliyini yüksəldir. Rəqəmsal təhsil mühiti şagirdlərdə müstəqil öyrənmə bacarıqlarının inkişafına müsbət təsir göstərir. Eyni zamanda müəllimlərin iş yükünü azaltmaqla onların daha yaradıcı fəaliyyət göstərməsinə imkan yaradır.

Lakin rəqəmsallaşmanın təhsil psixologiyasına təsiri yalnız müsbət istiqamətlərlə məhdudlaşmır. Virtual mühitdə uzun müddət qalmaq şagirdlərdə diqqət dağınıqlığı, sosial ünsiyyət problemləri və emosional yorğunluq yarada bilər. Xüsusilə məktəb yaşlı uşaqlarda texnologiyadan asılılıq halları psixoloji sağlamlığa mənfi təsir edir. Bundan əlavə, müəllim və şagird arasında canlı ünsiyyətin azalması empatiya və sosial münasibətlərin zəifləməsinə səbəb ola bilər.

Rəqəmsal texnologiyaların geniş tətbiqi müəllimlərin də psixoloji hazırlığını vacib məsələyə çevirmişdir. Müasir müəllim yalnız fənn biliklərinə deyil, həm də rəqəmsal bacarıqlara və psixoloji uyğunlaşma qabiliyyətinə malik olmalıdır. Bu baxımdan təhsil müəssisələrində psixoloji dəstək proqramlarının və rəqəmsal savadlılıq təlimlərinin təşkili mühüm əhəmiyyət daşıyır.

Nəticə etibarilə, süni intellekt və rəqəmsallaşma təhsil psixologiyasında yeni imkanlarla yanaşı müəyyən psixoloji çağırışlar da yaradır. Bu prosesin düzgün idarə olunması üçün texnologiyanın insan amili ilə balanslı şəkildə tətbiqi vacibdir. Təhsil sistemində rəqəmsal yeniliklərin psixoloji aspektlərinin nəzərə alınması daha sağlam və effektiv öyrənmə mühitinin formalaşmasına xidmət edəcəkdir.

KƏMALƏ BAYRAMOVA
Naxçıvan Müəllimlər İnstitutu
“Məktəbəqədər təhsil” ixtisası üzrə məzun
alizadakamala98@gmail.com

MÜASİR TƏHSİLDƏ SÜNİ İNTELLEKT ƏSASLI İNNOVASİYALARIN ELMİ-PEDAQOJİ TƏHLİLİ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 19.03.2025-ci il tarixli sərəncamı ilə “2025-2028-ci illər üçün Suni İntellekt Strategiyası” sənədini təsdiqləyib. Həmin sənədin əsas məqsədləri bütün sahələrdə (kənd təsərrüfatı, nəqliyyat,təhsil və s.) innovasiya və rəqəmsal qabiliyyətlərin artırılması, ixtisaslı kadr hazırlığı, bilik və bacarığın genişləndirilməsi, yaradıcı təfəkkürün inkişafını nəzərdə tutur. Bu tezisdə məktəbəqədər təhsildə rəqəmsallaşmanın əhəmiyyəti, suni intellektin tətbiq imkanları təhlil edilmişdir.

Açar sözlər: *məktəbəqədər təhsil, rəqəmsallaşma, suni intellekt, innovasiya, rəqəmsal texnologiyalar*

Dünyada suni intellekt sürətlə inkişaf edir. Bəzi insanlar artıq texnologiyanın bu yönlü dəyişimini həyatlarının hər sahəsində rahatlıqla istifadə edirlər. Ölkəmizdə bu cür qlobal tendensiyanın nəzərə alınması ilə bağlı müxtəlif tədbirlər görülmüşdür. Müasir informasiya cəmiyyətində təhsilin rəqəmsallaşması, suni intellekt texnologiyalarının inteqrasiyası və innovasiya fəaliyyəti qlobal təhsil sistemlərinin ən mühüm inkişaf istiqamətlərindən birinə çevrilmişdir. Bu proses xüsusilə son onillikdə sürətlənərək təhsilin məzmununu, metodlarını və idarəetmə mexanizmlərini əsaslı şəkildə dəyişdirməkdədir. Rəqəmsallaşma və suni intellekt təhsildə yeni imkanlar yaradır. Adaptiv öyrənmə platformaları hər bir uşağın fərdi bilik səviyyəsinə, öyrənmə tempinə və maraqlarına uyğun məzmun təqdim edərək təhsilin effektivliyini artırır. Suni intellekt müəllimlərin gündəlik işlərini (dərs planlarının hazırlanması, testlərin qiymətləndirilməsi, fərdi inkişaf hesabatlarının yaradılması) avtomatlaşdıraraq onlara daha çox fərdi yanaşma üçün vaxt qazandırır. Bundan əlavə, virtual və artırılmış reallıq texnologiyaları, data analitikası və intellektual sistemlər təhsili daha inklüziv və əlçatan edir. Bu imkanlar UNESCO və OECD-nin son hesabatlarında da geniş şəkildə əks olunur.

Məktəbəqədər təhsildə rəqəmsallaşma və suni intellekt (Sİ). Məktəbəqədər təhsil uşağın şəxsiyyətinin əsasının qoyulduğu ən həssas dövr olduğundan, burada rəqəmsallaşma və suni intellektin tətbiqi xüsusi ehtiyatlılıq tələb edir. Bu sahədə suni intellekt interaktiv oyunlar, adaptiv hekayələr, səs tanıma sistemləri və emosiya analizi alətləri vasitəsilə hər uşağın fərdi inkişaf tempinə uyğun dəstək verə bilir. Sİ müəllimlərə uşaqların inkişaf dinamikasını izləmək, fərdi müşahidə qeydləri hazırlamaq və valideynlərlə əlaqəni gücləndirmək imkanı yaradır. Xüsusilə, Sİ əsaslı yaradıcı fəaliyyətlər (nağıl davam etdirmə, rəsm və musiqi tərtib etmə) uşaqların təxəyyülünü, yaradıcı təfəkkürünü və STEAM bacarıqlarını erkən yaşdan inkişaf etdirməyə kömək edir.

Rəqəmsallaşma tədris prosesinin daha maraqlı və effektiv təşkilinə şərait yaradır. Elektron lövhələr, təhsil tətbiqləri, interaktiv oyunlar və multimedia vasitələri uşaqların diqqətini cəlb edir və onların idrak fəaliyyətini gücləndirir. Rəqəmsal texnologiyalar vasitəsilə uşaqlar məlumatı daha sürətli qavrayır və öyrənmə prosesində fəal iştirak edirlər.Bundan əlavə, rəqəmsallaşma müəllim-valideyn əlaqələrinin gücləndirilməsinə də kömək edir. Elektron platformalar vasitəsilə valideynlər uşaqların inkişafını izləyə və təlim prosesində daha yaxından iştirak edə bilirlər.

Həmçinin məktəbəqədər yaşda ekran vaxtının həddindən artıq olması sosial-emosional inkişafı, real ünsiyyət bacarıqlarını və fiziki fəaliyyəti məhdudlaşdıra bilər. Uşaqların şəxsi məlumatlarının qorunması, mədəni və pedaqoji uyğunluq, həmçinin müəllim-uşaq emosional əlaqəsinin prioritetliyi ən vacib çağırışlardır. Texnologiya burada heç vaxt insan münasibətlərini əvəz etməməli, yalnız dəstəkləyici rol oynamalıdır.

Texnologiyaların təhsildə tətbiqi ilə yanaşı müəyyən problemlər də mövcuddur. İlk növbədə, bəzi müəllimlərin rəqəmsal bacarıqlarının kifayət qədər olmaması innovativ texnologiyaların effektiv istifadəsini çətinləşdirir. Digər mühüm məsələ uşaqların ekran qarşısında həddindən artıq vaxt keçirməsidir ki, bu da onların psixoloji və fiziki inkişafına mənfi təsir göstərə bilər.

Bundan başqa, bütün məktəbəqədər müəssisələrin texniki imkanları eyni səviyyədə deyil. İnternet, kompüter və digər texnoloji avadanlıqların çatışmazlığı rəqəmsallaşma prosesini ləngidir.

Müasir dövrdə rəqəmsallaşma və suni intellekt artıq gələcəyin deyil, bu günün reallığıdır. Təhsil sistemi də bu dəyişikliklərə uyğunlaşmağa çalışır. Xüsusilə məktəbəqədər təhsil mərhələsində tətbiq olunan innovativ texnologiyalar uşaqların dünyagörüşünün formalaşmasına, yaradıcılıq qabiliyyətlərinin inkişafına və öyrənməyə maraqlarının artmasına mühüm təsir göstərir. Lakin burada əsas məsələ texnologiyanın mövcudluğu deyil, ondan necə istifadə olunmasıdır.

Suni intellekt uşaqlara daha sürətli öyrənmək imkanı yaratsa da, heç bir texnologiya müəllimin qayğıkeş münasibətini, ünsiyyətini və tərbiyəedici rolunu əvəz edə bilməz. Çünki məktəbəqədər yaş dövründə uşağın ən çox ehtiyac duyduğu amil sevgi, diqqət və sosial ünsiyyətdir. Əgər texnologiya düzgün istiqamətləndirilməzsə, bu inkişaf vasitəsi olmaqla yanaşı, uşaqların sosiallaşmasına və psixoloji inkişafına mənfi təsir də göstərə bilər.

Bu baxımdan gələcəyin təhsili texnologiya ilə insan amilinin balanslı vəhdəti üzərində qurulmalıdır. Məktəbəqədər təhsildə rəqəmsallaşmanın əsas məqsədi uşaqları texnologiyaya bağlı etmək deyil, onları müasir dünyanın tələblərinə uyğun, yaradıcı, düşünən və sosial fərd kimi yetişdirmək olmalıdır. Çünki bu gün məktəbəqədər təhsildə atılan hər bir addım gələcək cəmiyyətin formalaşmasına təsir göstərir.

GÜLYAZ QULİYEVA
Mingəçevir Dövlət Universiteti
Magistrant
guliyevagulyaz253@gmail.com

MÜASİR TƏHSİLİN TƏŞKİLİNDƏ SÜNİ İNTELLEKTİN ROLU: FƏRDİLƏŞDİRİLMİŞ TƏLİM

Müasir təhsilin təşkilində süni intellektin də özünəməxsus rolu var. Süni intellekt (AI) fərdiləşdirilmiş öyrənmə ideyasının həyata keçirilməsində əsas rol oynayır. Belə ki, süni itellekt yolu ilə öyrənmə, onun məzmunu və tempini hər bir tələbənin xüsusi ehtiyaclarına uyğun tənzimləyir.

Açar sözlər: *təhsil, fərdiləşdirilmiş təlim, süni intellekt*

Süni intellekt təhsil alanın güclü, zəif tərəflərini, qabiliyyətlərini və məqsədlərini nəzərə alaraq fərdiləşdirilmiş təhsil trayektoriyasını inkişaf etdirə bil’n yeni texnoloji vasitədir. Bundan əlavə, bu texnologiya istənilən vaxt və hər yerdə öyrənməyə imkan yaratmaqla təhsili demokratikləşdirir və təhsil müəssisəsinə gedə bilməyən təhsilalanlara öz potensiallarını tam şəkildə həyata keçirməyə kömək edir. Süni intellekt mövcud mənbələrdən alınan məlumatları təhlil edərək və fərdiləşdirilmiş təhsil yollarının yaradılması üçün tövsiyələr yaradaraq, bilik və məlumatların öyrənilməsinə və müqayisəsinə sərf olunan vaxtı əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. Bununla yanaşı süni intellekt valideynlərin təhsilə cəlb edilməsini asanlaşdırır, onlara təkcə övladının tərəqqisini müşahidə etmək deyil, həm də prosesdə birbaşa iştirak etmək imkanı verir. Məktəb rəhbərləri hər bir şagird və müəllimə təsir edə biləcək qərarların qəbul edilməsinə cavabdehdirlər.

Süni intellekt tələbələrin qarşıdakı onillikdə istifadə edəcəkləri təhsil təcrübələrinin, təcrübələrinin və imkanlarının təməlinin formalaşmasına töhfə verəcək. Təhsildə süni intellekt artıq tələbələrə, müəllimlərə, məktəb rəhbərlərinə, valideynlərə, idarəçilərə və provayderlərə nəzərəçarpacaq faydalar təqdim edir və dəyişiklik üçün güclü katalizator olmağa davam edəcək.

İnkişaf etməkdə olan ölkələr arasında internetə və ağıllı cihazlara çıxış baxımından fərq tez bir zamanda “rəqəmsal uçurum” adlandırıldı və texnologiya bunu ödəyə bilən məktəblərdə kurrikulumun bir hissəsinə çevrildikcə, bütün millətlərdən olan daha az imkanlı tələbələrin dezavantajlı olacağı ilə bağlı narahatlıqlar artırıldı. Eyni zamanda, bir çox insanlar hesab edirdilər ki, texnologiyaya və sərfəli mobil cihazlara çıxış formal təhsil sistemindəki çatışmazlıqların yaratdığı təhsil boşluğunu aradan qaldırmağa və məktəbi tərk etmiş və ya heç vaxt buna imkanı olmayanları işə cəlb etməyə kömək edə bilər. Bu, savadlılıq kimi bir sıra qlobal problemlərin həllinə kömək edə bilər.

Bu yeni texnologiyaların meydana çıxması ilə XXI əsr bacarıqları adlandırılan texnologiyalara yenidən diqqət yetirildi. Biliklərin əldə edilməsi əsas prioritet olmaqdan çıxıb və komandalarda işləmək, əməkdaşlıq etmək və effektiv ünsiyyət qurmaq bacarığı, eləcə də analitik və rəqəmsal bacarıqların inkişaf etdirilməsi tələbələri orta məktəbdən sonra tapacaqları dünyaya daha yaxşı hazırlamaq üçün kurikulumlarda və tədris dizaynında prioritetə çevrilib. Fərdiləşdirilmiş təlim konsepsiyası - hər bir fərdi tələbənin xüsusi ehtiyaclarına uyğun olaraq təlimin təşkilini, məzmununu və sürətini uyğunlaşdırmaq bacarığı - təhsil islahatlarının əsas məqsədini müəyyən etmişdir. Texnologiyanın potensialı onun fərdi öyrənmə trayektoriyalarını dəstəkləmək qabiliyyətindədir, lakin buna yalnız aparat və ya proqram təminatı vasitəsilə nail olmaq mümkün deyil. Şagirdlərin 21-ci əsr bacarıqlarını inkişaf etdirib-inkişaf etdirmədiyini müəyyən etmək üçün müxtəlif mənbələrdən əldə edilən çoxlu məlumatı qiymətləndirmək lazımdır.

Fərdiləşdirilmiş təlim konsepsiyası - hər bir fərdi tələbənin xüsusi ehtiyaclarına uyğun olaraq təlimin təşkilini, sürətini və sürətini uyğun ehtiyaclarına uyğun olaraq - təhsil islahatlarının əsas istiqamətləri. Texnologiyanın özünün fərdi öyrənmə trayektoriyalarını əldə etmək mümkündür. Şagird 21-ci əsr bacarıqlarını inkişaf etdirib-inkişaf etdirmədiyini etmək üçün xüsusi imkanlardan əldə edilən çoxlu məlumatı qiymətləndirmək lazımdır.

NURANƏ CƏFƏRZADƏ
Naxçıvan Qarnizonu tam orta məktəb
nuranəceferzade1@gmail.com

TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ CAĞIRIŞLAR

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının surətli inkişafı təhsil sistemində koklu dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsallaşma və suni intelektin tətbiqi tədris prosesinin səmərəliliyini artırmaqla yanaşı, yeni imkanlar və çağırışlarda yaratmışdır. Bu məqalədə təhsildə rəqəmsallaşdırmanı və suni intelekt texnologiyalarının rolu, innovasiya fəaliyyətinin əhəmiyyəti, mövcud reallıqlarvə qarşıda duran əsas problemlər təhlil olunur.

Açar sözlər: *innovasiya, rəqəmsallaşma, süni intelekt, texnologiya, təhsil*

Muasir dövrdə texnologiyanın sürətli inkişafı həyatımızın bütün sahələrinə, xüsusilə də təhsil sisteminə ciddi təsir göstərməkdədir. Ənənəvi təhsil modeli artıq təkbaşına kifayət etmir və onu rəqəmsal texnologiyalarla zənginləşdirmək zərurəti yaranmışdır. İlk olaraq qeyd etmək lazımdır ki, rəqəmsallaşma təhsil prosesində informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqini ifadə edir. Bu proses elektron dərsliklərin, onlayn platformaların, məsafədən təhsil imkanlarının yaranmasına səbəb olmuşdur. Rəqəmsallaşma təhsilə çıxışı asanlaşdırır, zaman və məkan məhdudiyyətlərini aradan qaldırır və öyrənmə prosesini daha çevik edir. Digər mühüm istiqamət isə suni intelektin təhsildə tətbiqidir. Suni intelekt artıq təhsil sahəsində müxtəlif formalarda istifadə olunur. Məsələn adaptiv öyrənmə sistemləri tələbələrin bilik səviyyəsini analiz edərək onlara fərdi yanaşma təqdim edir. Avtomatik qiymətləndirmə sistemləri müəllimlərin iş yükünü azaldır və qiymətləndirmə prosesini daha obyektiv edir. Bundan əlavə virtual müəllimlər və chatbotlar tələbələrə 24 saat dəstək göstərmək imkanına malikdir.

Təhsildə inkişafın digər vacib istiqaməti isə innovasiya fəaliyyətidir. İnnovasiyalar yeni tədris metodlarının tətbiqini, yaradıcı yanaşmaların inkişafını və texnologiyaların təhsilə inteqrasiyasını əhatə edir. Bu baxımdan STEAM yanaşması, layihə əsaslı öyrənmə və startap mədəniyyətinin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Hazırda bu sahədə bir sıra reallıqlar mövcuddur. Qlobal səviyyədə təhsil sistemləri sürətlə rəqəmsallaşır. Xüsusilə son illərdə məsafədən təhsilin geniş yayılması bu prosesi daha da sürətləndirmişdir. Təhsil müəssisələrində rəqəmsal resursların istifadəsi artmış, müəllim və tələbələrin texnologiyalara marağı yüksəlmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və Elm və təhsil Nazirliyinin Təhsil İnstutunun dəstəyi ilə 2019-2020-ci tədris ilindən start götürən "STEAM Azərbaijan" layihəsi, "Rəqəmsal bacarıqlar" və digər proqramlarının tətbiqinə başlanılması ölkədə STEAM təhsilinə marağı artirmışdir. 2019-cu ildən artıq bəzi məktəblərdə STEAM layihələrinin tətbiqinə başlanılıb. STEAM təhsilini uğurla tətbiq etmək üçün müəllimlərin peşekar inkişafı və onların fənlərarası yanaşmanı mənimsəməsi əsas şərtlərdəndir. STEAM təhsili yalnız hər bir fənnin müstəqil tədrisini deyil, həm də bu fənlər arasında əlaqələrin yaradılmasını tələb edir. Bunun üçün müəllimlər həm texniki biliklərə, həm də yaradıcı düşünmə, layihə əsaslı öyrənmə, rəqəmsal savadlılıq və əməkdaşlıq bacarıqlarına malik olmalıdırlar. STEAM təhsilini uğurla tətbiq etmək üçün müəllimlərin fənlərarası bacarıqlarının artırılması əsasdır. Müəllimlərin peşekar inkişafı STEAM metodologiyasının uğurla tətbiqində həlledici rol oynayır. Müəllimlər təlimlərdə fənlərarası əlaqələrin qurulması, rəqəmsal savadlılıq və texnologiyaların istifadəsi, layihə əsaslı təlim və komanda işinin təşviqi modulları üzrə zəruri bilik və bacarıqlara yiyələnirlər. STEAM təhsilinin tətbiqi ölkənin iqtisadı və sosial inkişafına da müsbət təsir göstərə bilər. Yenilikçı texnologiyaların inkişafı üçün yaradıcı və tənqidi düşünən gənc nəslə ehtiyac var. Bu yanaşma yalnız akademik nəticələri artırmaqla qalmır, eyni zamanda tələbələri sosial problemlərin həllinə də cəlb edir. STEAM tədris metodunun geniş yayılması təkcə təhsil sektorunun deyil, ümumilikdə iqtisadiyyatın və cəmiyyətin inkişafına böyük töhfə verəcəkdir.

Lakin bütün bu müsbət inkişaflarla yanaşı bir sıra çağırışlar və problemlər də mövcuddur. Bunlara rəqəmsal bərabərsizlik, texniki infrasturuktun zəifliyi, müəllimlərin rəqəmsal bacarıqlarının yetərli olmaması, məlumat təhlükəsizliyi və suni intellektin etik istifadəsi kimi məsələlər daxildir. Xüsusilə qeyd etmək lazımdır ki, texnologiyalara çıxış imkanlarının qeyri-bərabər olması təhsildə sosial fərqlərin artmasına səbəb ola bilər. Bu problemlərin həlli üçün bir sıra tədbirlərin həyata keçirilməsi vacibdir. İlk növbədə müəllimlərin rəqəmsal bacarıqları artırılmalı, onlar üçün davamlı təlim proqramları təşkil edilməlidir. Eyni zamanda təhsil müəssisələrinin texniki bazası gücləndirilməli, dövlət və özəl sektor arasında əməkdaşlıq genişləndirilməlidir. Süni intelektin tətbiqi ilə bağlı etik və hüquqi mexanizmlər də formalaşdırılmalıdır. Sonda qeyd etmək istərdim ki, rəqəmsallaşma və suni intellekt təhsilin gələcəyini formalaşdıran əsas amillərdəndir. Bu texnologiyalardan düzgün və səmərəli istifadə etməklə daha keyfiyyətli, əlçatan və müasir təhsil sistemi qurmaq mümkündür.

ASUDƏ MƏMMƏDOVA
Naxçıvan şəhər İ.Səfərli adına 1 nömrəli tam orta məktəb
ilkin85.sm@gmail.com

TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR

Məqalədə təhsil sistemində rəqəmsallaşma prosesinin mahiyyəti, süni intellekt texnologiyalarının tədrisdə tətbiqi və innovasiya fəaliyyətinin inkişaf istiqamətləri araşdırılmışdır. Eyni zamanda rəqəmsal transformasiya dövründə meydana çıxan sosial, texnoloji və pedaqoji çağırışlar təhlil olunmuş, onların müasir təhsil mühitinə təsiri və gələcək inkişaf perspektivləri elmi baxımdan qiymətləndirilmişdir.

Açar sözlər: *rəqəmsallaşma, süni intellekt, innovasiya fəaliyyəti, rəqəmsal təhsil, təhsil texnologiyaları*

XXI əsrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı cəmiyyət həyatının bütün sahələrində olduğu kimi təhsil sistemində də mühüm dəyişikliklərə səbəb olmuşdur. Qloballaşma, rəqəmsal transformasiya və innovativ texnologiyaların geniş yayılması təhsil prosesinin təşkilinə yeni yanaşmalar gətirmişdir. Müasir dövrdə təhsil yalnız ənənəvi bilik ötürmə prosesi deyil, eyni zamanda texnologiyalar vasitəsilə interaktiv, çevik və innovativ inkişaf modeli kimi xarakterizə olunur. Bu baxımdan rəqəmsallaşma və süni intellekt texnologiyalarının tətbiqi təhsil sisteminin modernləşdirilməsinin əsas istiqamətlərindən biri hesab edilir.

Rəqəmsallaşma təhsil prosesində elektron resursların, rəqəmsal platformaların və onlayn kommunikasiya vasitələrinin istifadəsini genişləndirmişdir. Elektron gündəliklər, virtual siniflər, distant təhsil sistemləri və onlayn qiymətləndirmə mexanizmləri tədrisin daha əlçatan və səmərəli təşkilinə imkan yaratmışdır. Xüsusilə pandemiya dövründə distant təhsilin tətbiqi rəqəmsal texnologiyaların əhəmiyyətini daha aydın şəkildə ortaya qoymuşdur. Müxtəlif rəqəmsal platformalar vasitəsilə müəllim və tələbələr arasında fasiləsiz kommunikasiya təmin edilmiş, təhsil prosesinin davamlılığı qorunmuşdur.

Süni intellekt texnologiyaları təhsildə fərdiləşdirilmiş öyrənmə imkanlarının genişlənməsinə şərait yaradır. Süni intellekt əsaslı proqramlar tələbələrin bilik səviyyəsini, öyrənmə sürətini və fərdi xüsusiyyətlərini analiz edərək onlara uyğun tədris materialları təqdim edir. Bu texnologiyalar tələbələrin zəif və güclü tərəflərini müəyyən etməyə, təlim prosesini optimallaşdırmağa və təhsil keyfiyyətini artırmağa kömək edir. Eyni zamanda avtomatlaşdırılmış qiymətləndirmə sistemləri müəllimlərin vaxt itkisini azaldaraq onların daha çox elmi və pedaqoji fəaliyyətlə məşğul olmalarına imkan yaradır.

Müasir innovasiya fəaliyyəti təhsil müəssisələrinin inkişafında mühüm rol oynayır. İnnovativ yanaşmaların tətbiqi interaktiv dərs metodlarının, virtual laboratoriyaların, simulyasiya proqramlarının və rəqəmsal təlim modellərinin geniş istifadəsinə səbəb olmuşdur. Bu yeniliklər tələbələrin tənqidi düşünmə, problem həll etmə və yaradıcı yanaşma bacarıqlarının formalaşmasına müsbət təsir göstərir. Bundan əlavə, innovativ texnologiyalar tədris prosesində müəllim və tələbə arasında əməkdaşlıq mühitinin inkişafına şərait yaradır.

Rəqəmsal texnologiyaların təhsil sisteminə inteqrasiyası bir sıra üstünlüklərlə yanaşı müəyyən problemlər və çağırışlar da yaradır. Əsas problemlərdən biri texnoloji bərabərsizliyin mövcud olmasıdır. Bəzi regionlarda internetə çıxış imkanlarının məhdudluğu və texniki avadanlıqların çatışmazlığı təhsil prosesində bərabər imkanların təmin edilməsinə mane olur. Bundan əlavə, rəqəmsal savadlılığın aşağı səviyyədə olması müəllim və tələbələrin yeni texnologiyalara uyğunlaşmasını çətinləşdirir.

Əsas hissə. İnformasiya təhlükəsizliyi və şəxsi məlumatların qorunması da mühüm problemlərdən biridir. Rəqəmsal platformalarda istifadə olunan məlumatların təhlükəsiz şəkildə saxlanılması və kibertəhlükələrdən qorunması müasir dövrdə xüsusi aktuallıq kəsb edir. Süni intellekt

texnologiyalarının tətbiqi zamanı etik məsələlər, məlumatların məxfiliyi və akademik dürüstlük prinsiplərinin qorunması da diqqət mərkəzində saxlanılmalıdır.

Təhsildə rəqəmsallaşmanın uğurlu tətbiqi üçün müəllimlərin peşəkar inkişafına xüsusi diqqət yetirilməlidir. Müəllimlərin rəqəmsal bacarıqlarının artırılması, yeni texnologiyalar üzrə təlimlərin təşkili və innovativ pedaqoji metodların öyrədilməsi təhsil sisteminin inkişafında mühüm əhəmiyyət daşıyır. Eyni zamanda dövlət səviyyəsində rəqəmsal infrastrukturun gücləndirilməsi və təhsil müəssisələrinin müasir texnologiyalarla təmin olunması vacib məsələlərdəndir.

Müasir dünyada rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması üçün təhsil sistemində innovativ yanaşmaların tətbiqi zəruri hesab olunur. Süni intellekt və rəqəmsal texnologiyalar tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, biliklərin daha effektiv mənimsənilməsinə və təhsil idarəçiliyinin təkmilləşdirilməsinə geniş imkanlar yaradır. Bu baxımdan gələcək dövrdə təhsil sistemində rəqəmsal transformasiyanın daha da sürətlənəcəyi gözlənilir.

Beləliklə, təhsildə rəqəmsallaşma, süni intellekt və innovasiya fəaliyyəti müasir cəmiyyətin inkişafının əsas istiqamətlərindən biri kimi çıxış edir. Bu sahədə qarşıya çıxan çağırışların aradan qaldırılması, rəqəmsal savadlılığın artırılması və innovativ texnologiyaların səmərəli tətbiqi təhsil sisteminin dayanıqlı inkişafına mühüm töhfə verə bilər.

Nəticə. Müasir dövrdə təhsildə rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi və innovasiya fəaliyyətinin genişlənməsi təhsil sisteminin inkişafında mühüm rol oynayır. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı tədris prosesinin daha çevik, əlçatan və effektiv şəkildə təşkil olunmasına geniş imkanlar yaratmışdır. Elektron təhsil platformaları, distant təhsil sistemləri və rəqəmsal resurslar müəllim və tələbələr arasında qarşılıqlı əlaqənin güclənməsinə, biliklərin daha operativ mənimsənilməsinə və təhsil keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

Süni intellekt texnologiyalarının təhsil sahəsində tətbiqi fərdiləşdirilmiş öyrənmə modelinin formalaşmasına şərait yaradır. Bu texnologiyalar tələbələrin fərdi xüsusiyyətlərini və bilik səviyyələrini analiz etməklə onların ehtiyaclarına uyğun tədris imkanları təqdim edir. Eyni zamanda avtomatlaşdırılmış qiymətləndirmə sistemləri və rəqəmsal idarəetmə mexanizmləri təhsil müəssisələrinin fəaliyyətinin daha səmərəli təşkilinə kömək edir. İnnovativ yanaşmaların tətbiqi isə tələbələrdə yaradıcı düşüncə, tənqidi analiz və problem həll etmə bacarıqlarının inkişafına mühüm təsir göstərir.

Təhsildə rəqəmsallaşmanın uğurla həyata keçirilməsi üçün dövlət dəstəyi, müasir texnoloji infrastrukturun yaradılması və müəllimlərin peşəkar inkişafının təmin olunması vacib şərtlərdən biridir. Müəllimlərin rəqəmsal bacarıqlarının artırılması, innovativ pedaqoji metodların tətbiqi və yeni texnologiyalara uyğunlaşma prosesinin sürətləndirilməsi təhsil sisteminin davamlı inkişafına mühüm töhfə verə bilər.

Beləliklə, rəqəmsallaşma, süni intellekt və innovasiya fəaliyyəti müasir təhsil sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu sahədə mövcud problemlərin aradan qaldırılması və innovativ texnologiyaların səmərəli tətbiqi gələcəkdə daha keyfiyyətli, əlçatan və rəqabətqabiliyyətli təhsil mühitinin formalaşmasına şərait yaradacaqdır.

RAMİLƏ HƏSƏNOVA
Şahbuz şəhər 1 nömrəli tam orta məktəb
İnformatika müəllimi
hesenli2407.rh@gmail.com

TƏHSİLDƏ RƏQƏMSALLAŞMA VƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

Məqalədə ümumi təhsil müəssisələrində rəqəmsal texnologiyaların və süni intellektin tətbiqinin tədris prosesinə təsiri müəllim təcrübəsi əsasında araşdırılmışdır. İnformatika dərslərində istifadə olunan rəqəmsal vasitələrin şagirdlərin fəallığına, məntiqi düşünməsinə və müstəqil öyrənmə bacarıqlarına müsbət təsiri izah edilmişdir.

Açar sözlər: *rəqəmsal təhsil, informatika, süni intellekt, innovativ təlim, elektron resurslar*

Son illərdə təhsil sahəsində texnologiyanın rolu daha da artmışdır. Əvvəllər dərslərdə əsasən kitab və lövhədən istifadə olunurdusa, hazırda elektron resurslar, onlayn platformalar və müxtəlif rəqəmsal proqramlar tədrisin ayrılmaz hissəsinə çevrilmişdir. Bu dəyişikliklər müəllimlərin iş üsuluna, şagirdlərin öyrənmə tərzinə və ümumilikdə təlim mühitinə təsir göstərmişdir.

Fəaliyyətim zamanı müşahidə etmişəm ki, şagirdlər texnologiyadan istifadə edilən dərslərə daha böyük maraq göstərirlər. Dərslərdə təqdimatlar, interaktiv tapşırıqlar və elektron testlər tətbiq edildikdə şagirdlərin diqqəti daha uzun müddət qorunur. Xüsusilə praktik çalışmalar zamanı onların məntiqi düşünmə, problem həll etmə və araşdırma bacarıqları daha sürətlə inkişaf edir.

Onlayn platformalar vasitəsilə keçirilən testlər şagirdlərin nəticələrinin qısa müddətdə qiymətləndirilməsinə imkan yaratmışdır. Bu zaman həm müəllim, həm də şagird öz zəif tərəflərini daha asan müəyyən edə bilir. Distant və hibrid tədris dövründə isə rəqəmsal vasitələr təhsilin fasiləsiz davam etdirilməsində mühüm rol oynamışdır.

Süni intellekt texnologiyalarının təhsildə tətbiqi də mühüm yeniliklərdən biridir. Bu texnologiyalar şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun tapşırıqların hazırlanmasına, nəticələrin təhlilinə və öyrənmə prosesinin izlənilməsinə kömək edir. Hesab edirəm ki, gələcəkdə süni intellektdən istifadə tədris prosesini daha da səmərəli edəcəkdir.

Bununla yanaşı, müəllimlərin rəqəmsal bacarıqlara yiyələnməsi vacib məsələlərdən biridir. Müasir müəllim yalnız fənni biliklə kifayətlənməməli, həm də texnologiyadan düzgün istifadə etməyi bacarmalıdır. Müxtəlif təlimlərdə iştirak etmək və yeni proqramlarla işləməyi öyrənmək müəllimin peşəkar inkişafına müsbət təsir göstərir.

Dərs prosesində istifadə etdiyim bəzi rəqəmsal üsullar şagirdlərin fəallığının artırılmasına müsbət təsir göstərmişdir. Məsələn, mövzuların izahı zamanı qısa videolar, animasiyalar və interaktiv tapşırıqlardan istifadə etdikdə şagirdlər mövzunu daha tez mənimsəyirlər. Ənənəvi üsulla izah edilən mövzularla müqayisədə rəqəmsal təqdimatlarla keçirilən dərslərdə iştirak səviyyəsinin daha yüksək olduğu müşahidə edilir.

İnformatika dərslərində təhlükəsiz internet istifadəsi, rəqəmsal etik davranış və informasiya təhlükəsizliyi mövzularına da xüsusi diqqət yetirirəm. Şagirdlərin texnologiyadan düzgün istifadə etməsi onların gələcək həyatında mühüm rol oynayır. Bu səbəbdən yalnız proqram biliklərinin deyil, həm də rəqəmsal mədəniyyətin formalaşdırılması vacib hesab olunur.

Bəzi hallarda texnologiyanın düzgün istifadə edilməməsi müəyyən çətinliklər də yarada bilər. İnternetdən hazır məlumatların köçürülməsi, diqqətin yayınması və texniki problemlər tədris prosesinə mənfi təsir göstərə bilir. Buna görə müəllim rəqəmsal vasitələrdən istifadə zamanı nəzarəti düzgün təşkil etməli və şagirdlərdə məsuliyyət hissi formalaşdırmalıdır.

Nəticə olaraq qeyd etmək olar ki, rəqəmsallaşma və süni intellekt müasir təhsil sisteminin inkişafında mühüm əhəmiyyət daşıyır. Düşünürəm ki, texnologiyanın düzgün tətbiqi şagirdlərin dərsə marağını artırır, onların yaradıcı və analitik düşünməsini inkişaf etdirir və müasir cəmiyyətə uyğun bilikli fərdlərin yetişməsinə kömək edir. Gələcəkdə təhsil müəssisələrində rəqəmsal imkanların daha da genişlənməsi müəllim və şagirdlərin inkişafına yeni imkanlar yaradacaqdır.

Müasir dövrdə şagirdlərin texnologiyaya marağı əvvəlki illərlə müqayisədə daha yüksəkdir. Bu səbəbdən müəllim dərs prosesində onların maraq dairəsinə uyğun vasitələrdən istifadə etdikdə nəticə daha uğurlu olur. İnformatika dərslərində bəzən şagirdlərə təqdimat hazırlamaq, sadə alqoritmlər qurmaq və müxtəlif elektron layihələr hazırlamaq tapşırığı verirəm. Bu zaman onların öz ideyalarını daha sərbəst ifadə etdiklərini müşahidə edirəm.

Rəqəmsal təhsil mühitinin əsas üstünlüklərindən biri də vaxtdan səmərəli istifadə edilməsidir. Elektron platformalar vasitəsilə tapşırıqların göndərilməsi, qiymətləndirilməsi və nəticələrin izlənilməsi müəllimin işini asanlaşdırır. Ənənəvi üsullarla müqayisədə rəqəmsal sistemlər məlumatların daha sürətli emal olunmasına imkan verir.

Təcrübə göstərir ki, texnologiyadan düzgün istifadə edən müəllim şagirdlərlə daha yaxın ünsiyyət qura bilir. Şagirdlər elektron tapşırıqları və interaktiv fəaliyyətləri daha maraqlı qəbul etdikləri üçün dərsə davamiyyət və iştirak səviyyəsi də yüksəlir. Bu baxımdan rəqəmsal tədris vasitələri yalnız texniki yenilik deyil, həm də motivasiyaedici vasitə kimi çıxış edir.

Mənim fikrimcə, müasir məktəbdə informatika fənninin rolu daha da artmışdır. Çünki digər fənlərin tədrisində də texnologiyadan istifadə genişlənir və şagirdlərin rəqəmsal bacarıqlara yiyələnməsi vacib məsələyə çevrilir. İnformatika dərslərində əldə edilən biliklər şagirdlərin gündəlik həyatında və gələcək peşə fəaliyyətində mühüm əhəmiyyət daşıyır.

Eyni zamanda, müəllimlərin texnologiyadan istifadəsi zamanı etik qaydalara diqqət etməsi vacibdir. Elektron resurslardan düzgün istifadə, müəllif hüquqlarına hörmət və informasiya təhlükəsizliyi məsələləri həm müəllim, həm də şagirdlər üçün önəmli mövzulardır. Bu istiqamətdə maarifləndirmə işlərinin aparılması rəqəmsal mühitdə təhlükəsiz davranışın formalaşmasına kömək edir.

Süni intellekt texnologiyalarının gələcəkdə təhsil sisteminə daha geniş şəkildə inteqrasiya ediləcəyi gözlənilir. Artıq bir çox ölkələrdə şagirdlərin bilik səviyyəsini analiz edən və fərdi inkişaf istiqamətlərini müəyyənləşdirən proqramlardan istifadə olunur. Hesab edirəm ki, belə texnologiyalar Azərbaycan təhsilində də geniş tətbiq olunarsa, təlim keyfiyyətinin artırılmasına müsbət təsir göstərə bilər.

Bununla yanaşı, texnologiyanın müəllimi tam əvəz edə bilməyəcəyi də unudulmamalıdır. Müəllimin şagirdə mənəvi dəstəyi, motivasiya verməsi və düzgün istiqamətləndirməsi təlim prosesinin əsas hissəsidir. Texnologiya yalnız müəllimin fəaliyyətini dəstəkləyən və tədrisi daha effektiv edən vasitə rolunu oynayır.

Beləliklə, rəqəmsallaşma və süni intellekt müasir təhsil sisteminin inkişafında mühüm rol oynayır. Bu texnologiyaların düzgün tətbiqi şagirdlərin bilik və bacarıqlarının inkişafına, müəllim fəaliyyətinin daha səmərəli təşkilinə və təhsilin keyfiyyətinin yüksəlməsinə mühüm töhfə verir. Müasir müəllim yeniliklərə açıq olmalı, daim öz üzərində işləməli və texnologiyanın imkanlarından səmərəli istifadə etməyi bacarmalıdır. Bu texnologiyaların düzgün və məqsədyönlü tətbiqi şagirdlərin yaradıcı düşünmə qabiliyyətini inkişaf etdirir, tədris prosesinin keyfiyyətini artırır və müasir dövrün tələblərinə uyğun vətəndaşların formalaşmasına şərait yaradır.

ABBASƏLİ TARVERDİYEV
Nehrəm qəsəbəsi 3 nömrəli tam orta məktəb
Gənclərin Çağırışaqədərki Hərbi Hazırlıq rəhbəri
tarverdiyevabbaseli1@gmail.com

TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR

Məqalədə müasir təhsil mühitində rəqəmsallaşma meyilləri, süni intellekt alətlərinin tədris prosesinə inteqrasiyası və innovativ fəaliyyətin fundamental əsasları geniş şəkildə araşdırılmışdır. Yeni nəsil texnologiyaların şagird və müəllim fəaliyyətinə fundamental təsiri təhlil edilərək, pedaqoji sahədə tətbiq olunan yeniliklərin səmərəliliyi qiymətləndirilmişdir.

Eyni zamanda regional fərqliliklər, texnoloji adaptasiya və rəqəmsal təhlükəsizlik kimi cari çağırışlar və mövcud problemlər araşdırılaraq həlli istiqamətində elmi-praktik mülahizələr irəli sürülmüşdür.

Açar sözlər: *rəqəmsallaşma, süni intellekt, innovasiya, rəqəmsal təhsil, müəllim fəaliyyəti, hərbi hazırlıq,tədris metodikası*

Giriş

Qlobal Təhsil Paradizmində Rəqəmsal Transformasiya

Müasir dünyada informasiya texnologiyalarının və rəqəmsal infrastrukturun sürətli inkişafı sənayenin bütün sahələrində olduğu kimi, təhsil sistemində də köklü və sistemli dəyişikliklər yaratmışdır. Rəqəmsallaşma artıq sadəcə texnoloji bir alət deyil, təhsil sahəsinin dayanıqlı inkişafını təmin edən əsas strateji istiqamətlərdən biri hesab olunur. Elektron tədris resursları, qlobal onlayn təhsil platformaları, interaktiv təlim vasitələri və xüsusilə süni intellekt alqoritmləri tədris prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına geniş imkanlar yaradır. Bu transformasiya kontekstində təhsil mühiti daha çevik, inklüziv və əlçatan xarakter almaqdadır.

Azərbaycanda Rəqəmsal Təhsilin İnkişaf Dinamikası

Son illərdə Azərbaycan Respublikasının təhsil sistemində rəqəmsal transformasiyanın sürətləndirilməsi istiqamətində dövlət səviyyəsində mühüm strateji addımlar atılmışdır. Ölkə miqyasında məktəblərdə uğurla tətbiq edilən elektron jurnal və gündəlik sistemləri, rəqəmsal qiymətləndirmə mexanizmləri və distant təhsil idarəetmə platformaları tədrisin keyfiyyətinə və şəffaflığına birbaşa müsbət təsir göstərmişdir. Xüsusilə qlobal pandemiya və ondan sonrakı bərpa dövründə rəqəmsal texnologiyaların həyati əhəmiyyəti daha aydın şəkildə özünü biruzə vermişdir. Bu proses həm də pedaqoji heyətin rəqəmsal savadlılığının və İKT bacarıqlarının institusional şəkildə artırılmasını zəruri etmişdir.

Süni İntellekt: Təhsildə Yeni İnnovativ Alətlər və Metodologiyalar

Süni intellekt (Sİ) texnologiyaları müasir təhsil idarəçiliyində və sinifdaxili fəaliyyətdə görünməmiş innovativ imkanlar formalaşdırır. Bu qabaqcıl texnologiyalar hər bir şagirdin fərdi qavrama sürətini, bilik səviyyəsini və maraq dairəsini dərindən analiz etməyə imkan verir. Bunun əsasında süni intellekt fərdiləşdirilmiş təlim trayektoriyaları və adaptiv tədris materialları formalaşdıraraq təhsil alanların potensialını maksimum dərəcədə üzə çıxarır. Virtual köməkçilər, avtomatlaşdırılmış rəqəmsal qiymətləndirmə sistemləri və intellektual mentor platformaları müəllimlərin inzibati yükünü əhəmiyyətli dərəcədə azaldır, onlara daha çox yaradıcı və tərbiyəvi fəaliyyətlərlə məşğul olmağa zaman qazandırır.

Regional Təcrübə: Nehrəm Qəsəbə 3 Nömrəli Tam Orta Məktəbin Nümunəsi

Regionlarda yerləşən təhsil müəssisələrinin, o cümlədən Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbin daxili təcrübəsində də rəqəmsal vasitələrin tətbiqi öz real bəhrələrini verməkdədir. Tədrisdə multimedia resurslarından, rəqəmsal xəritələrdən və interaktiv simulyasiyalardan istifadə edilməsi

şagirdlərin dərslərə olan daxili motivasiyasını və marağını əhəmiyyətli dərəcədə yüksəldir. Xüsusilə Gənclərin Çağırışaqədərki Hərbi Hazırlığı kimi mühüm və strateji fənlərdə rəqəmsal əyani vəsaitlərin, taktiki simulyasiyaların və hərbi-tarixi vizualların tətbiqi şagirdlərdə həm müstəqil araşdırma keyfiyyətlərini, həm də vətənpərvərlik ruhunu rəqəmsal dövrün tələblərinə uyğun olaraq inkişaf etdirir. Müasir müəllim artıq sadəcə klassik bilik ötürücüsü rolunda çıxış etməməli, eyni zamanda rəqəmsal texnologiyalardan milli maraqlar çərçivəsində düzgün istifadə etməyi bacaran innovativ dizayner olmalıdır.

Mövcud Çağırışlar, Problemlər və Real Maneələr

Rəqəmsallaşma prosesinin gətirdiyi böyük üstünlüklərlə yanaşı, həlli vacib olan bir sıra ciddi regional və qlobal çağırışlar da mövcuddur. Texniki infrastrukturun və maddi-texniki bazanın bütün regionlarda və ucqar kənd məktəblərində tam eyni səviyyədə olmaması rəqəmsal bərabərsizliyə yol açır. Bəzi ərazilərdə yüksəksürətli internetə çıxış imkanlarının məhdudluğu, yaşlı müəllim heyətinin rəqəmsal adaptasiya sürətinin aşağı olması və qlobal şəbəkədə məlumat təhlükəsizliyinin, kibergigiyenanın tam qorunmaması bu sahədə qarşıda duran əsas maneələrdəndir. Süni intellektin təhsilə gətirdiyi etik məsələlər və şagirdlərin hazır materiallardan asılılıq riski də pedaqoqlar tərəfindən ciddi nəzarətdə saxlanılmalıdır.

Nəticə və Perspektiv Təkliflər

Nəticə etibarilə vurğulamaq olar ki, təhsildə rəqəmsallaşma, süni intellekt sistemlərinin tətbiqi və daimi innovasiya fəaliyyəti müasir dövrün qaçılmaz və mütləq tələbidir. Bu strateji istiqamətdə uğur qazanmaq üçün müəllimlərin davamlı peşəkar inkişaf təlimlərinə cəlb edilməsi, regional məktəblərin rəqəmsal və texniki bazasının dövlət proqramları çərçivəsində daha da gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Yalnız texnoloji nailiyyətlərlə milli pedaqoji dəyərlərin sintezi sayəsində gələcək nəsilləri rəqəmsal dünyanın çağırışlarına tam hazır və rəqabətədavamlı şəxsiyyətlər kimi yetişdirmək mümkün olacaqdır.

RƏŞAD RÜSTƏMLİ
Babək rayonu Cəhri qəsəbə 2 nömrəli tam orta məktəb
Direktor
resad_cehrili@inbox.ru

TƏHSİLDƏ RƏQƏMSALLAŞMA, SÜNİ İNTELLEKT VƏ İNNOVASİYA FƏALİYYƏTİ: REALLIQLAR VƏ ÇAĞIRIŞLAR

Məqalədə təhsildə rəqəmsallaşma, süni intellekt və innovasiya fəaliyyətinin müasir təhsil sistemində yaratdığı imkanlar və problemlər araşdırılmışdır. Şagirdlərin bilik və bacarıqlarının inkişafında rəqəmsal texnologiyaların rolu, milli-mənəvi dəyərlərin qorunması, vətənpərvərlik tərbiyəsi, nizam-intizamın formalaşdırılması, müəllim və valideyn əməkdaşlığının əhəmiyyəti təhlil edilmişdir.

Açar sözlər: *rəqəmsallaşma, süni intellekt, innovasiya, milli dəyərlər, vətənpərvərlik, distant təhsil, rəqəmsal təhlükəsizlik*

Süni intellekt texnologiyalarının təhsil sahəsində tətbiqi yalnız texniki yenilik deyil, həm də tədris prosesinin fərdiləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Ənənəvi təhsil modelində müəllim eyni anda çoxsaylı şagirdlə işlədiyi üçün hər bir şagirdin fərdi xüsusiyyətlərini tam şəkildə izləmək və hər birinə uyğun ayrıca metod tətbiq etmək müəyyən çətinlik yaradır. Süni intellekt isə bu sahədə müəllimə köməkçi rolunu oynayaraq tədris prosesini daha sistemli və effektiv təşkil etməyə imkan verir.

Süni intellekt əsaslı platformalar şagirdlərin fəaliyyətini davamlı şəkildə analiz edir. Bu analiz yalnız qiymətlər əsasında deyil, eyni zamanda şagirdin tapşırığı yerinə yetirmə müddəti, hansı mövzularda tez-tez səhv etməsi, hansı tip suallara daha çox maraq göstərməsi, dərslərdə aktivliyi və öyrənmə tempi əsasında aparılır. Məsələn, əgər bir şagird riyaziyyatda düsturların tətbiqində çətinlik çəkirsə, sistem bunu müəyyən edir və ona daha sadə izahlar, nümunələr, videodərslər və mərhələli çalışmalar təqdim edir. Əgər digər şagird mövzunu tez mənimsəyirsə, sistem onun üçün daha mürəkkəb və yaradıcı tapşırıqlar təklif edir. Bu yanaşma şagirdlərin fərdi potensialının inkişafına kömək edir və onların dərsə marağını artırır.

Süni intellektin digər mühüm üstünlüyü çətin həll olunan tapşırıqların müəllim olmadan belə izah edilməsidir. Müasir proqramlar riyazi məsələləri addım-addım həll edə, qrammatik qaydaları sadə formada izah edə və müxtəlif məntiqi tapşırıqların həll yollarını göstərə bilir. Bu, xüsusilə ucqar kənd məktəblərində və əlavə hazırlıq imkanları məhdud olan ailələr üçün mühüm əhəmiyyət daşıyır. Şagird günün istənilən vaxtında sistemə müraciət edərək dərsi təkrar öyrənə bilir. Bu imkan təhsildə bərabərliyin təmin olunmasına da müsbət təsir göstərir.

Lakin burada çox mühüm bir məqam mövcuddur: süni intellekt müəllimi əvəz edən vasitə deyil. Texnologiya məlumat verə bilər, lakin şagirdin xarakterinin formalaşdırılması, vətənə sevgi hissinin aşılanması, milli-mənəvi dəyərlərin qorunması və sosial davranışların tənzimlənməsi yalnız insan faktoru ilə mümkündür. Müəllim şagirdin psixoloji vəziyyətini, emosional ehtiyaclarını və davranış xüsusiyyətlərini daha düzgün qiymətləndirə bilir. Buna görə də müasir təhsil modelində texnologiya ilə müəllim faktoru paralel şəkildə inkişaf etdirilməlidir.

Rəqəmsallaşmanın yaratdığı əsas problemlərdən biri də şagirdlərin internet mühitində nəzarətsiz qalmasıdır. Müasir dövrdə şagirdlər internetdən həm təhsil məqsədilə, həm də əyləncə üçün istifadə edirlər. Lakin internetdə zərərli məlumatlar, qeyri-etik məzmunlar və yaş səviyyəsinə uyğun olmayan platformalar da mövcuddur. Müəllim məktəbdə müəyyən nəzarət həyata keçirə bilsə də, şagirdin bütün internet fəaliyyətinə nəzarət etməsi mümkün deyil. Bu səbəbdən yalnız müəllim nəzarəti kifayət etmir.

Bu problemin həlli üçün "müəllim – şagird - valideyn" əməkdaşlıq modeli, yəni bir növ təhsil piramidası qurulmalıdır. Bu piramidanın əsas məqsədi şagirdin həm məktəbdə, həm də evdə düzgün istiqamətləndirilməsini təmin etməkdir. Müəllim şagirdə texnologiyadan düzgün istifadə yollarını

öyrətməli, valideyn isə evdə nəzarət və dəstək funksiyasını həyata keçirməlidir. Əgər məktəbdə verilən tərbiyə ailədə davam etdirilmirsə, rəqəmsal təhlükələrin qarşısını almaq çətin olur.

Valideynlərin rəqəmsal savadlılığının artırılması da mühüm məsələdir. Bir çox hallarda valideynlər uşaqların internetdə hansı platformalardan istifadə etdiyini, hansı məlumatlarla qarşılaşdığını və hansı təhlükələrin mövcud olduğunu tam bilmirlər. Buna görə məktəblərdə valideynlərlə maarifləndirici seminarların keçirilməsi, təhlükəsiz internet istifadəsi qaydalarının izah olunması və rəqəmsal etik davranışın təbliği vacibdir.

Bundan əlavə, şagirdlərdə milli-mənəvi dəyərlərin qorunması məsələsi də rəqəmsal dövrdə xüsusi əhəmiyyət daşıyır. Qlobal informasiya axını bəzən gənclərin milli kimlikdən uzaqlaşmasına səbəb olur. Buna görə məktəblərdə Azərbaycan tarixi, milli qəhrəmanlar, ana dili, adət-ənənələr və vətənpərvərlik ruhu texnologiyalar vasitəsilə daha maraqlı formada tədris edilməlidir. Elektron dərsliklər, virtual muzeylər, sənədli videolar və interaktiv layihələr bu istiqamətdə mühüm rol oynaya bilər.

Nəticə olaraq qeyd etmək olar ki, süni intellekt və rəqəmsallaşma təhsilin inkişafı üçün geniş imkanlar yaratsa da, bu texnologiyaların düzgün idarə olunması mühüm şərtdir. Təhsil sistemində texnologiya, müəllim, valideyn və şagird arasında sağlam əməkdaşlıq qurulmalı, rəqəmsal imkanlarla yanaşı milli-mənəvi dəyərlərin qorunmasına da xüsusi diqqət yetirilməlidir. Yalnız bu halda müasir texnologiyalar həm savadlı, həm də mənəvi cəhətdən güclü vətəndaşların yetişməsinə xidmət edə bilər.

PANEL 6. ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏ MƏSƏLƏLƏRİ

AYŞƏN MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti
Müəllim
aysenmemmedova99@mail.ru

İBTİDAİ TƏHSİL SİSTEMİNDƏ TƏLİM ÇƏTİNLİKLƏRİNİN DİAQNOSTİKASINDA MÜASİR YANAŞMALAR VƏ MONİTORİNQ MODELLƏRİ

Bu məqalədə ibtidai təhsil sistemində təlim çətinliklərinin diaqnostikasında müasir yanaşmalar və monitorinq modellərinin rolu təhlil olunur. Erkən aşkarlama, davamlı izləmə, formativ qiymətləndirmə və fərdiləşdirilmiş yanaşmaların təlim prosesinin keyfiyyətinə və şagird inkişafına təsiri əsaslandırılır.

Açar sözlər: *təlim çətinlikləri, monitorinq, diaqnostika*

Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər təkcə proqram və məzmun yenilikləri ilə məhdudlaşmır, eyni zamanda təlimə daha fərqli və müasir yanaşmanın tətbiqini tələb edir. Xüsusilə, ibtidai təhsil mərhələsi daha çox diqqətdə saxlanılmalıdır. Çünki, məhz bu dövrdə uşağın öyrənmə vərdişləri formalaşır, idrak fəaliyyətinin əsasları qoyulur və onun gələcək akademik inkişafının istiqaməti müəyyənləşir. Bu səbəbdən ibtidai siniflərdə təlim çətinliklərinin vaxtında aşkar edilməsi və düzgün diaqnostika olunması yalnızca cari təlim nəticələri üçün deyil, şagirdin ümumi inkişafı baxımından da həlledici rol oynayır. Təcrübə göstərir ki, erkən mərhələdə diqqətdən kənarda qalan çətinliklər sonrakı illərdə daha mürəkkəb və aradan qaldırılması çətin problemlərə çevrilə bilər ki, bu da şagirdin həm akademik nailiyyətlərinə, gələcək fəaliyyətinə, həm də özünəinamına mənfi təsir göstərir.

Baxmayaraq ki, təlim çətinliyi daha geniş və çoxşaxəli xarakter daşıyır, əfsuslar olsun ki, çox vaxt sadələşdirilmiş şəkildə yalnız zəif oxuma, yazma və ya hesablama bacarıqları ilə əlaqələndirilir. Ümumiyyətlə, ibtidai sinif şagirdlərində təlim çətinlikləri diqqətin davamlı saxlanılmaması, yaddaşın zəifliyi, nitq inkişafındakı ləngimələr, eləcə də sosial-emosional sahədə müşahidə olunan çətinliklər şəklində özünü göstərə bilər. Bəzi hallarda bu çətinliklər uşağın fərdi inkişaf xüsusiyyətləri ilə bağlı olur, digər hallarda isə təlim mühitinin təşkilindən, istifadə olunan metodların uyğun olmamasından və ya pedaqoji yanaşmanın yetərincə fərdiləşdirilməməsindən qaynaqlanır. Məhz buna görə də, müasir yanaşmalar bu məsələyə daha geniş prizmadan baxmağı və şagirdi yalnız nəticələrinə görə deyil, bütöv bir inkişaf sistemi daxilində qiymətləndirməyi tələb edir.

Monitorinq modelləri bu prosesin sistemli şəkildə həyata keçirilməsinə xidmət edir. Müasir təhsil sistemində monitorinq yalnız qiymətlərin qeyd olunması ilə məhdudlaşmır, daha geniş və kompleks yanaşmanı əhatə edir. Şagirdin dərsdə aktivliyi, tapşırıqlara münasibəti, əməkdaşlıq bacarıqları, motivasiya səviyyəsi və ümumi davranışı da monitorinqin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu cür çoxşaxəli yanaşma müəllimə şagirdin inkişafını daha dolğun şəkildə görməyə və diaqnostik qərarları daha əsaslı şəkildə verməyə imkan yaradır. Davamlı monitorinq həm də dəyişikliklərin vaxtında aşkar olunmasına və erkən müdaxilə imkanlarının genişlənməsinə şərait yaradır.

Müasir texnologiyaların təhsil prosesinə inteqrasiyası monitorinq və diaqnostika imkanlarını daha da genişləndirmişdir. Elektron təhsil platformaları və rəqəmsal alətlər vasitəsilə şagirdin fəaliyyəti daha sistemli şəkildə izlənə, nəticələr analiz edilə və fərdi inkişaf dinamikası müəyyən edilə bilər. Bu vasitələr müəllimə daha obyektiv məlumatlar təqdim edir və qərarvermə prosesini asanlaşdırır. Eyni zamanda, valideynlərin də bu prosesə qoşulması mümkün olur ki, bu da şagirdin inkişafına vahid yanaşmanın formalaşmasına kömək edir.

Bu baxımdan texnoloji avadanlıqların köməyi ilə tətbiq olunan standartlaşdırılmış testlər geniş şəkildə istifadə olunur. Bu testlər şagirdlərin müəyyən bacarıqlar üzrə səviyyəsini müqayisəli şəkildə qiymətləndirməyə imkan verir və diaqnostik prosesdə ilkin məlumatların əldə olunmasına kömək

edir. Məsələn, oxu bacarıqlarını, söz ehtiyatını və mətnin qavranılmasını ölçən testlər vasitəsilə şagirdin hansı mərhələdə çətinlik yaşadığı daha aydın şəkildə müəyyən edilə bilər. Lakin yalnız standart testlərlə kifayətlənmək düzgün nəticə verməyə bilər, çünki bu testlər hər zaman şagirdin fərdi öyrənmə xüsusiyyətlərini tam əks etdirmir. Alternativ olaraq, müəllim tərəfindən hazırlanmış diaqnostik tapşırıqlar da geniş tətbiq olunur. Bu tapşırıqlar konkret mövzu və ya bacarıq üzrə şagirdin vəziyyətini daha dərindən təhlil etməyə imkan verir. Məsələn, yazı bacarıqlarını qiymətləndirmək üçün şagirdə sərbəst mətn yazdırmaq və onun strukturunu, fikrin ifadə olunmasını və dil xüsusiyyətlərini analiz etmək daha dolğun nəticələr verir. Bu cür tapşırıqlar müəllimə şagirdin yalnız nə bildiyini deyil, həm də necə düşündüyünü anlamağa kömək edir.

Formativ qiymətləndirmə çərçivəsində istifadə olunan qısa testlər, sual-cavab üsulları, müşahidə qeydləri və portfoliolar da diaqnostika prosesində mühüm rol oynayır. Xüsusilə, portfoliolar şagirdin müəyyən zaman ərzində inkişaf dinamikasını izləməyə imkan verir və onun güclü və zəif tərəflərini daha aydın şəkildə üzə çıxarır. Bu yanaşma nəticəyə deyil, prosesə fokuslandığı üçün təlim çətinliklərinin erkən mərhələdə müəyyənləşdirilməsində daha effektiv hesab olunur. Eyni zamanda, psixoloji və pedaqoji testlər də bəzi hallarda diaqnostika prosesinə daxil edilir. Diqqət, yaddaş və idrak səviyyəsini ölçən testlər şagirdin təlim çətinliklərinin əsas səbəblərini müəyyən etməyə kömək edir. Məsələn, diqqət çatışmazlığı olan şagirdlərlə aparılan qiymətləndirmə onların akademik çətinliklərinin yalnız biliklə deyil, diqqət mexanizmləri ilə də bağlı olduğunu göstərə bilər. Bu isə daha düzgün müdaxilə strategiyalarının seçilməsinə şərait yaradır.

Bütün bu amillər göstərir ki, ibtidai təhsil sistemində təlim çətinliklərinin diaqnostikası sadəcə qiymətləndirmə proseduru deyil, çoxşaxəli və davamlı bir prosesdir. Bu prosesdə müəllimin rolu xüsusilə önəmlidir, çünki o, şagirdlə birbaşa təmasda olan və onun inkişafını gündəlik müşahidə edən əsas şəxsdir. Müəllimin peşəkar hazırlığı, müşahidə qabiliyyəti və fərdiləşdirilmiş yanaşma bacarığı diaqnostikanın keyfiyyətinə birbaşa təsir göstərir. Nəticə etibarilə, müasir yanaşmaların və monitorinq modellərinin tətbiqi təlim çətinliklərinin vaxtında və düzgün müəyyənləşdirilməsinə imkan yaradır, bu isə şagirdlərin həm akademik, həm də şəxsi inkişafı üçün daha əlverişli şərait formalaşdırır.

AYGÜN VERDİYEVA
"Odlar Yurdu" Universiteti
Müəllim
aygunverdiyeva.86@gmail.com
https://orcid.org/0000-0965-4532-1289

TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ MONİTORİNQ -QİYMƏTLƏNDİRMƏ SİSTEMİNİN ROLU

Mövcud pedaqoji ədəbiyyatda diaqnostika və korreksiya məsələlərinə, təlimin monitorinqi və qiymətləndirilməsi sisteminin ayrılmaz hissələri kimi, yetərincə diqqət yetirilmir. Bununla bağlı müxtəlif elmi yanaşmaların mövcudluğu isə praktikada vahid yanaşmanın formalaşmasına və tətbiqinə mane olur. Nəticə etibarilə bu hal təlim prosesinin hərtərəfli öyrənilməsini və onun səmərəli idarə olunmasını xeyli çətinləşdirir.

Açar sözlər: *təhsil, təhsilin keyfiyyəti, təhsilin keyfiyyətinin yüksəldilməsi, monitorinq, qiymətləndirmə, sistem*

Hazırda təhsilin keyfiyyətinin qiymətləndirilməsi monitorinqi (PİSA) 70-dən çox ölkəni əhatə edən nüfuzlu beynəlxalq bir sistemə çevrilmişdir. Beynəlxalq monitorinq ayrı-ayrı ölkələrin təhsil sisteminin vəziyyətini aşkara çıxarmağa, təhsil sahəsində strateji qərarların səmərəliliyini qiymətləndirməyə kömək göstərir. "Bu beynəlxalq yarışmada təhsilalanların müxtəlif fənlər üzrə aldıqları bilik və bacarıqları real həyati problemlərin həllində kompleks tətbiq etmək və informasiyalardan müstəqil istifadə etmək sahəsində səriştələri yoxlanıb qiymətləndirilir. Bu da müxtəlif ölkələrdə təhsilin vəziyyətini müqayisə etməyə, rəqabəti gücləndirməyə və təhsilin keyfiyyətini stimullaşdırmağa imkan verir.

Tədqiqatlardan görünür ki, ənənəvi təhsilin idarə edilməsindəki bir sıra qasurlar korreksiya işlərinə birtərəfli, yanlış baxışla əlaqədardır. Belə ki, bu zaman əsas diqqət, adətən, təhsilalanların bilik və bacarıqlarındakı səhvlərin aşkara çıxarılmasına istiqamətlənir, lakin təlimin məqsəd və məzmununda, vasitə və metodlarında, bütövlükdə təlim prosesinin özündə özünə yer alan çatışmazlıqlar üzə çıxarılmamış qalır. Başqa sözlə, yoxlama, adətən təlim prosesinin nəticəsinə yönəlir, prosesin özü, onun təşkili, metod və texnologiyaları lazımi dərəcədə tənzimlənmir. Bu isə, təlim prosesinin nəticəsinə - bilik və bacarıqların mənimsənilməsi səviyyəsinə mənfi təsir edir. Monitorinq sistemində isə nəzarət, qiymətləndirmə və digər ünsürlər öz ənənəvi funksiyaları ilə yanaşı yeni funksiya – bütövlükdə təlim prosesi və onun nəticələrinin keyfiyyətini idarə etmək funksiyasını yerinə yetirir.

Monitorinq öyrənilən prosesin vəziyyətinin dəyişmə dinamikasını müəyyənləşdirməyə və tənzimləməyə xidmət edir.

Diaqnostikanın düzgün təşkili üçün ilk növbədə pedaqoji diaqnostika anlayışının mahiyyətinin, məqsəd və funksiyalarının aydın şəkildə müəyyənləşdirilməsi zəruridir. Belə konseptual yanaşma yalnız bu sahənin səmərəli şəkildə öyrənilməsi və tətbiqi üçün baza yarada bilər.

İnformasiya əsri, hər sahədə olduğu kimi, təhsili də yeni əsasda qurmağı tələb edir. Yeni təhsil paradiqması təhsil prosesini bir-birindən təcrid olunmuş ayrı-ayrı ünsürlərin, funksiyaların mexaniki məcmusu kimi deyil, dinamik inkişafda olan kompleks bir sistem kimi, keyfiyyətin idarə olunması prosesi kimi qurmağı nəzərdə tutur. Məhz bu baxımdan müəyyən fəaliyyət sistemi olmaqla monitorinq təhsil prosesini və onun dinamik inkişafını təmin edən səmərəli idarəetmə amili kimi özünü göstərir.

İdarəetmə mühüm informasiya prosesi kimi özünü göstərir: burada informasiyanın (bilik və bacarıqların) verilməsi – informasiyanın mənimsənilməsi prosesi və ona nəzarət – informasiyanın mənimsənilməsi səviyyəsi ilə bağlı əks əlaqə – əldə olunmuş informasiyanın təhlili, təlim prosesində müəyyən düzəliş və dəyişikliklər aparmaq üçün qərar çıxarılması vahid prosesin tərkib hissələrini təşkil edir. İdarəetmə aktı kimi monitorinqdə təlim prosesi yoxlama və qiymətləndirmə ilə bitmir; o,

nəticənin əldə edilməsi və daha da yaxşılaşdırılması ilə tamamlanan bütöv və davamlı bir sistem təşkil edir. Başqa sözlə, monitorinq təlim prosesi və onun nəticələrinin keyfiyyəti üzərində müntəzəm nəzarətin həyata keçirilməsinə yönələn idarəetmə funksiyasıdır.

Təhsil monitorinqi təlim prosesi və onun nəticələri ilə bağlı real vəziyyətə dair obyektiv və etibarlı informasiyaların toplanması, mühafizəsi, işlənməsi (təhlili) və yayılmasını həyata keçirən idarəetmə funksiyası olmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinin çox vacib vasitəsi rolunu oynayır. Əlbəttə, monitorinqi təhsil prosesinin idarə edilmısinin müstəqil bir funksiyası kimi nəzərdən keçirmək şərti xarakter daşıyır. Real təhsil prosesində monitorinq idarəetmənin bütün funksiyaları və pillələri ilə sıx bağlıdır. Buna görə də monitorinqi tam və dolğun şəkildə yalnız təhsili idarəetmə prosesinin digər pillələri ilə vəhdət halında səciyyələndirmək mümkündür.

Qiymətləndirmə ilə əlaqədar nəzərdən keçirilən tələblər bütün monitorinq sahələri üçün ümumi səciyyə daşıyır, lakin hər bir sahəyə uyğun müəyyən xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər sahənin məqsədi, məzmunu və xarakteri ilə bağlıdır. Təhsil prosesinin sahələrindən asılı olaraq monitorinqin aşağıdakı obyektləri fərqləndirilir:

– təlimin keyfiyyəti;
– təlimin vasitə, metod və texnologiyaların tətbiqi vəziyyəti;
– təhsilalanların bilik və bacarıqlarının səviyyəsi;
– təhsilverənlərin (müəllimlərin) pedaqoji fəaliyyəti, peşəkarlıq səviyyəsi.

Qeyd edilən hər bir sahədə monitorinqin aparılması üçün kompleks göstəricilər müəyyənləşdirilir; bu göstəricilər əvvəlcədən mütəxəssislər tərəfindən təhlil olunub dəqiqləşdirilərək müvafiq idarəetmə qurumlarına təqdim edilir. Yuxarı idarəetmə qurumunda göstəricilər bir qədər geniş miqyasda müzakirə edilməklə rəsmiləşdirilir.

Ali məktəbdə təhsilin keyfiyyətinin monitorinqi təlim prosesi və onun nəticələrini – hər bir tələbənin mənimsəmə yolundakı hərəkətini, inkişafını izləməyə, tənzimləməyə və proqnozlaşdırmağa, eləcə də pedaqoji sistemin fəaliyyətini idarə etməyə əlverişli şərait yaradır. Əsas məsələ təhsil prosesində qarşıya qoyulan məqsəd və vəzifələri düzgün müəyyənləşdirməkdən, informasiyaların toplanması vasitələrinin düzgün seçilib tətbiq edilməsindən ibarətdir. Son vaxtlar respublikamızın qabaqcıl ali təhsil müəssisələrində bu məqsədlə müasir, innovativ vasitə və metodlardan, informasiya texnologiyalarından geniş istifadə olunur. Bu sahədə BDU-nun özünü doğrultmuş müsbət təcrübəsi vardır. Bu tədris müəssisəsində apardığımız təcrübi-eksperimental iş monitorinq sisteminin dördkomponentli belə bir modelinə əsaslanmışdır: təşkilati, tədqiqat, təhlil, korreksiya və proqnozlaşdırma komponentləri.

Təşkilati komponentə monitorinqin təşkilati məsələləri, informasiyaların toplanması və ölçmə vasitələrinin kompleksi, məlumat bazası daxildir.

Monitorinqin tədqiqat komponenti müxtəlif metod və vasitələrin köməyi ilə (nəzarət, anket, test, sorğu və s.) lazımi informasiyaların toplanmasını nəzədə tutur.

Təhlil komponenti toplanmış informasiyaların təhlili, işlənməsi, sistemləşdirilməsi və istifadəsi, eləcə də məlumat bazasının (bankının) yaradılması məsələlərini özündə birləşdirir.

İnformasiyaların istifadəsi, korreksiya və proqnozlaşdırma komponenti hazır informasiyaların müvafiq icra qurumlarına (dekanlıq və kafedralara) yönəldilməsi, lazımi korrektə və proqnozlaşdırma işlərinin aparılması üçün tövsiyələrin hazırlanması məsələlərini əhatə edir.

Nəzərdən keçirilən model üzrə təhsildə monitorinq və qiymətləndirmə işi müxtəlif səviyyələrdə – universitet, fakültə və kafedra səviyyələrində aparıla bilər. Monitorinqin keçirilməsi zamanı ali təhsil müəssisəsinin bütün qurumları, struktur bölmələri bir-biri ilə əlaqəli, əməkdaşlıq şəraitində çalışmalıdırlar. Monitorinqlə bilavasitə bağlı olan qurumlar – tədris hissəsi, monitorinq və qiymətləndirmə şöbəsi, tədrisin təşkili və nəzarət şöbəsi, dekanlıqlar, tyutorlar və kafedralar, universitet və fakültələr üzrə tədris-metodik şuralar bu sahədə daha çox fəallıq göstərir, təhsilin keyfiyyəti və idarə olunmasının kollektiv subyektləri kimi çıxış edirlər.

Monitorinq texnologiyası təhsilalanların bilik və bacarıqlarının sistemli yoxlanması, qiymətləndirilməsi, diaqnostika və korreksiya işləri aparılmasını nəzərdə tutur. Monitorinqin məqsədi təlim prosesi və onun nəticələrinin səmərəliliyini təmin etməkdən, təhsilin keyfiyyətini yüksəltməkdən

ibarət olmuşdur. Texnologiya nəzəri biliklərin mənimsənilməsi ilə yanaşı tələbələrdə müstəqil iş bacarıqlarının, zehni və əməli fəaliyyət priyomlarının formalaşdırılmasını da nəzərdə tutur.

Texnologiya müxtəlif pillələrlə həyata keçirilən əməliyyatlar sistemindən ibarətdir. *İlkin (hazırlıq) pilləsində* texnologiyanın məqsəd və vəzifələri, tətbiqi qaydaları, şərtləri müəyyənləşdirilir, semestr (tədris ili) ərzində keçiriləcək tədris materialının məzmunu müəyyən məntiqi hissələrə - tədris vahidlərinə (modullara) bölünür. Hər modul üzrə əsas problemlər, tələbələrin bilik və bacarıqlarına verilən konkret tələblər (tələbə nələri bilməli və nələri bacarmalı və hansı səriştələrə yiyələnməlidir) və onları ölçmə vasitələri (diaqnostik sual və tapşırıqlar, testlər, tətbiqi, situativ və peşə-kompetensiya xarakterli pedaqoji məsələ və tapşırıqlar və s.) hazırlanır.

AYŞƏN İSGƏNDƏROVA
Gəncə Dövlət Universiteti
Müəllim

ÜMUMTƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ KONTEKSİNDƏ TƏSVİRİ İNCƏSƏNƏT MƏŞĞƏLƏLƏRİNDƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNİN HƏYATİ BACARIQLARININ FORMALAŞDIRILMASI

Məqalədə ümumi təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri və istiqamətləri kontekstində təsviri incəsənət məşğələlərində yuxarı sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması məsələləri araşdırılır. Fənlərarası inteqrasiya, kompetensiya əsaslı yanaşma və interaktiv təlim metodlarının tətbiqinin şagirdlərin yaradıcı və düşünmə qabiliyyətlərinin inkişafına təsiri təhlil edilir.

Açar sözlər: *Təsviri incəsənət, ədəbiyyat, musiqi, fənn, həyati bacarıq, inteqrasiya*

Giriş. Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması ilə bağlı bütün fənn müəllimləri ilə yanaşı təsviri incəsənət müəllimləri qarşısında da mühüm təxirəsalınmaz vəzifələr qoyluur.

Müasir təhsil sistemində baş verən islahatlar təlimin məzmun və mahiyyətində ciddi dəyişikliklərə səbəb olmuşdur. Ümumtəhsil sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri şagirdlərdə yalnız nəzəri biliklərin deyil, eyni zamanda həyati bacarıqların formalaşdırılmasıdır. Bu yanaşma kompetensiya əsaslı təlim modelinin tətbiqi ilə birbaşa əlaqəlidir. Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyasında şəxsiyyətyönümlü təhsilin yeni məzmunun yaradılması fənn müəllimlərindən,o cümlədən təsviri incəsənət müəllimlərindən şagirdlərə biliklərin əsaslarını verməklə yanaşı, onları bir şəxsiyyət kimi yetişdirmək də tələb olunur. Deməli, fənn müəllimləri təlim prosesində öz kompotensiyalarına əsaslanaraq şəxsiyyətyönümlü təhsilin yeni məzmunun yaradılmasına cəhd göstərməli və bu problemin həllinə nail olmalıdırlar. Əslində digər fənlərin tədrisinə nisbətən təsviri incəsənət dərslərində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması üçün daha geniş imkanlar mövcuddur. Ən əsas ona görə ki, təsviri incəsənət dərslərində və məşğələlərində şagirlərə bir çox təsviri sənət bacarıqları aşılanır. Həmin bacarıqların əksəriyyəti isə şagirdlər üçün zəruri sayılan həyati bacarıqlar hesab olunur.

Dövlət Dövlət siyasətində müəyyən olunmuş şəxsiyyətyönümlülük, inteqrasiya və innovativlik prinsipləri təlim prosesində fənlərarası əlaqələrin genişləndirilməsini zəruri edir. Bu baxımdan, təsviri incəsənət fənni xüsusi əhəmiyyət kəsb edir. Çünki bu fənn şagirdlərin yaradıcı düşünmə, estetik zövq, emosional ifadə və kommunikasiya bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradır. V-IX siniflərdə təsviri incəsənət məşğələlərinin düzgün təşkili şagirdlərin müastəqil düşünmə, problem həll etmə və qərar vermə kimi həyati bacarıqlarının inkişafına ciddi təsir göstərir. Bu baxımdan, fənlərarası inteqrasiya və müasir təlim metodlarının tətbiqi aktual məsələlərdən biri kimi çıxış edir

Metodika: Tədqiqat prosesində müşahidə, müsahibə, sorğu, müqayisə, təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Onu da qeyd etmək lazımdır ki, digər fənlərin tədrisi prosesində olduğu kimi, təsviri incəsənət dərslərində də V-IX sinif şagirdlərinin həyati bacarıqlarının formalaşdırılması məqsədilə müasir təlim texnologiyalarından istifadə edilməsi fənn müəllimləri qarşısında duran əsas vəzifələrdən biridir.

Fənlərarası inteqrasiya çərçivəsində təsviri incəsənət dərslərində müxtəlif fənlərlə əlaqələr qurulmuşdur. Bu əlaqə zamanı müvafiq pedaqoji tələblərin gözlənilməsinə ehtiyac duyulur. Təsviri incəsənətin inteqrasiyası prosesində ilkin inteqrasiyasını Azərbaycan dili ilə etmək faydalıdır. Çünki Azərbaycan dili dərlsərində təqdim olunan personajlar, surətlər, folklor nümunələri, o cümlədən qəhrəmanlıq dastanları, nağıllar, digər bədii yaradıcılıq nümunələri ilə əlaqədar olan cümlələrin təhlili demək olar ki, şagirdlərin gündəli fəaliyyəti üçün zərurət yaradır.

Ədəbiyyat fənni ilə inteqrasiya zamanı obrazların vizuallaşdırılması yolu ilə şagirdlərin təxəyyül və interpretasiya bacarıqları inkişaf etdirilmişdir. Musiqi fənni ilə inteqrasiya isə şagirdin emosional zəkasını stimullaşdıran və estetik-bədii zövqlərini formalaşdıran ən güclü vasitədir. Təsviri incəsənət dərslərində azərbaycan dili,ədəbiyyat və müsiqi fənlərinin üçqat inteqrasiyası isə V-IX sinif şagirdlərinin həm şəxsiyyətyönümlülük səviyyəsinin, həm də həyati bacarıqlarının formalaşdırılması üçün əvəzolunmaz hesab olunur.

Həmçinin, layihə əsaslı təlim yanaşmasının tətbiq olunması yuxarı sinif şagirdlərində həyati bacarıqların inkişafına mühüm təsir göstərir. Şagirdlər qruplar şəklində işləyərək müəyyən mövzular üzrə təqdimatlar hazırlayır, müzakirələr aparır və nəticələr çıxarırlar. Bu fəaliyyətlər onların əməkdaşlıq, ünsiyyət və tənqidi düşünmə bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.

Nəticə. Aparılan təhlillər göstərir ki, təsviri incəsənət məşğələlərində fənlərarası inteqrasiya prosesində fənlərin düzgün seçilməsi və müasir təlim metodlarının tətbiqi yuxarı sinif şagirdlərində həyati bacarıqların formalaşmasında və şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Hansıki fənlərarası inteqrasiya şagirdlərin yaradıcı və tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirir, onların sosial və kommunikativ bacarıqlarını gücləndirir.

Eyni zamanda, müəyyən olunmuşdur ki, dövlət təhsil siyasətinin əsas prinsiplərinə uyğun təşkil olunan təlim prosesi daha effektiv nəticələr verir.

RƏFİQƏ CAVADOVA
Lənkəran Dövlət Universiteti
Magistrant
cavadovarefiqe10@gmail.com

FORMATİV QİYMƏTLƏNDİRMƏNİN TƏTBİQİ ZAMANI QARŞIYA ÇIXAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Tezisdə formativ qiymətləndirmənin tətbiqi zamanı qarşıya çıxan konseptual, metodoloji və zamanla bağlı problemlər təhlil olunur. Tədqiqatda mövcud çətinliklərin həlli üçün diferensial yanaşma, effektiv geribildirim və valideynlərlə əməkdaşlığın rolu elmi-pedaqoji baxımdan əsaslandırılır, müəllim hazırlığının təkmilləşdirilməsi vacib şərt kimi irəli sürülür.

Açar sözlər: *formativ qiymətləndirmə, konseptual anlaşılmazlıq, geribildirim, vaxtın idarə olunması, valideyn faktoru*

Müasir təhsil paradiqmasında baş verən transformasiyalar, xüsusilə şagirdyönümlü yanaşmanın prioritetə çevrilməsi qiymətləndirmə sisteminin də mahiyyətcə yenilənməsini zəruri etmişdir. Bu baxımdan formativ qiymətləndirmə yalnız nəticənin ölçülməsi deyil, öyrənmə prosesinin fasiləsiz monitorinqi və tənzimlənməsi funksiyasını yerinə yetirən pedaqoji mexanizm kimi çıxış edir.

Tədqiqatçılar Paul Black və Dylan Wiliam qeyd edirlər ki, “formativ qiymətləndirmə şagird nailiyyətlərinin yüksəldilməsində ən güclü təsirə malik tədris strategiyalarından biridir”. Bu yanaşma qiymətləndirmənin yalnız nəticəyönümlü deyil, prosesyönümlü xarakter daşıdığını bir daha təsdiqləyir.

Bununla belə, aparılan müşahidə və təhlillər göstərir ki, formativ qiymətləndirmənin praktik tətbiqində bir sıra sistemli çətinliklər mövcuddur. Bu çətinliklər əsasən metodik yanaşma, pedaqoji bacarıqlar və iştirakçıların (müəllim-şagird-valideyn) qiymətləndirməyə münasibəti ilə bağlıdır.

Əsas problemlərdən biri konseptual anlaşılmazlıqdır ki, bu da şagirdlərin öyrəndikləri bilikləri mexaniki şəkildə mənimsəməsi ilə xarakterizə olunur. Belə vəziyyətdə reproduktiv fəaliyyət üstünlük təşkil edir, lakin analitik və tətbiqi düşünmə formalaşmır. Bu isə formativ qiymətləndirmənin əsas məqsədi olan öyrənmənin dərinləşdirilməsi prinsipinə ziddir. Problemin aradan qaldırılması üçün diaqnostik sualların tətbiqi, metakoqnitiv bacarıqların inkişaf etdirilməsi və fərqləndirilmiş təlim yanaşmasının gücləndirilməsi zəruridir.

Digər mühüm problem vaxt resursunun məhdudluğu ilə bağlıdır. Böyük siniflərdə fərdi yanaşmanın təmin edilməsi və davamlı geribildirim verilməsi çətinləşir. Bu hal formativ qiymətləndirmənin effektivliyini azaldaraq onu formal prosedura çevirə bilir.

Eyni zamanda, geribildirim mədəniyyətinin yetərincə formalaşmaması da diqqət çəkən problemlərdəndir. John Hattie tərəfindən aparılan tədqiqatlarda vurğulanır ki, “effektiv geribildirim şagirdin harada olduğunu, hara getməli olduğunu və ora necə çatacağını aydın şəkildə göstərməlidir”. Bu yanaşma geribildirimin yalnız qiymətləndirmə deyil, həm də öyrədici funksiya daşıdığını göstərir.

Valideyn amili də formativ qiymətləndirmənin tətbiqinə təsir edən sosial-pedaqoji faktor kimi çıxış edir. Ənənəvi qiymətləndirmə stereotipləri valideynlərin yeni yanaşmanı qəbul etməsində çətinlik yaradır. Bu isə məktəb–ailə əməkdaşlığında müəyyən disbalans formalaşdırır. Problemin həlli üçün valideynlərin pedaqoji maarifləndirilməsi və qiymətləndirmə prosesinə cəlb olunması vacibdir.

Nəticə olaraq qeyd etmək olar ki, formativ qiymətləndirmənin effektivliyi onun yalnız texniki tətbiqindən deyil, pedaqoji fəlsəfəsinin düzgün anlaşılmasından və sistemli şəkildə həyata keçirilməsindən asılıdır. Bu isə təhsil subyektləri arasında qarşılıqlı əlaqə və koordinasiyanın gücləndirilməsini tələb edir. **Təkliflər**

1. Müəllimlərin formativ qiymətləndirmə üzrə metodik hazırlığını artırmaq məqsədilə davamlı ixtisasartırma proqramları təşkil olunmalıdır.
2. Təlim prosesində diferensial və fərdiləşdirilmiş yanaşmalar geniş tətbiq edilməlidir.

3. Geribildirim mexanizmləri konkret, deskriptiv və inkişafyönümlü prinsiplər əsasında qurulmalıdır.
4. Rəqəmsal qiymətləndirmə alətlərinin istifadəsi sistemli xarakter almalıdır.
5. Valideynlərin qiymətləndirmə prosesində maarifləndirilməsi və aktiv iştirakı təmin edilməlidir.

SONA İSMAYILOVA
Naxçıvan Dövlət Universiteti nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
Müəllim
https://orcid.org/0009-0006-1337-8805

TƏDRİS MÜHİTİNDƏ REFLEKSİYA ÜSULLARININ TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

Müasir pedaqogikada refleksiya müəllim və tələbələrin təlim-tədris prosesinə əks olunuşunu dəyərləndirən vacib alət hesab olunur. Refleksiya yuxarıdan aşağıya düzgün təşkil edildikdə təhsilin səmərəliliyini artırır, şagirdlərin motivasiyasını yüksəldir və müəllimlərin peşəkar inkişafına şərait yaradır. Son onillikdə aparılmış tədqiqatlar göstərir ki, reflektiv metodların tətbiqi nəticəsində şagirdlərin akademik nailiyyətləri əhəmiyyətli dərəcədə yüksəlib (meta-analizdə effekt ölçüsü g≈0.79), onların dərin öyrənmə motivasiyası güclənib. Eyni zamanda müəllimlər arasında kollegial əməkdaşlıqla aparılan refleksiya onların pedaqoji bacarıqlarının və yenilikçi dərs metodlarının təkmilləşməsinə gətirib çıxarır. Aşağıdakı hissələrdə refleksiyanın nəzəri bazası, üsulların təsnifatı, empirik sübutlar, tətbiq nümunələri, addım-addım göstərişlər və qiymətləndirmə meyarları, qarşılaşan çətinliklər və müvafiq idarəçilik tövsiyələri geniş təhlil olunur. Nəticə və tövsiyələrdə isə prioritetlər və resurs qiymətləndirməsi nəzərə alınır.

Açar sözlər: *refleksiya, tədris prosesində refleksiya, pedaqoji refleksiya, özünüqiymətləndirmə, tənqidi düşünmə*

Giriş. Refleksiya (latınca *reflexio* – geriyə baxış) təcrübəni dəyərləndirmə, öyrənilənləri təhlil etmə və gələcək fəaliyyətə istiqamət vermə prosesidir. Dewey refleksiyanı şagirdlərin və ya müəllimlərin yaddaşındakı fəal davamlı proses kimi təsvir edərək keçmiş təcrübə ilə indiki hərəkəti birləşdirir. Schön isə tərbiyəçi praktikada “fəaliyyət zamanı refleksiya” (reflection-in-action) və “fəaliyyətdən sonra refleksiya” (reflection-on-practice) anlayışlarını irəli sürüb; bu, müəllimlərə dərs gedişatını dərhal təhlil etməyə və sonra nəticələrini dəyərləndirməyə imkan verir. Kolb-un təcrübə-ədəbiyyat çevrimində isə refleksiya təcrübənin dərinləşdirilməsi üçün vacib mərhələdir: müəllim dərs keçdikdən sonra öz öyrətmə təcrübəsini qiymətləndirərək gələcək dərsi planlaşdırır. Refleksiya Boud və s. (1985) modelində intellektual və emosional fəaliyyətdir – keçmiş təcrübəyə nəzər salaraq yeni bilik formalaşdırır. Beləliklə, nəzəri olaraq refleksiya təhsil prosesində yüksək səviyyəli düşünmə bacarıqları, tənqidi təhlil və adaptiv davranış inkişaf etdirən mexanizm kimi qəbul edilir.

Son on ildə refleksiyanın təsirini araşdıran çoxsaylı tədqiqatlar aparılıb. Məsələn, Zhai 25 tədqiqatı (2,111 iştirakçı) əhatə edən meta-analizində belə nəticəyə gəlinib ki, reflektiv müdaxilələr akademik uğur üzərində böyük təsir göstərir (ortalama effekt ölçüsü $g \approx 0.793$, $p < 0.001$). Həmçinin refleksiya şagirdlərin dərindən öyrənmə motivasiyasını artırır və onların metakoqnitiv strategiyalarını gücləndirir.

Təcrübə tədqiqatlarında da oxşar tendensiya müşahidə olunub. Kollec tələbələri üzərində aparılan tədqiqatda reflektiv jurnallarla (özü haqda yazı) müntəzəm məşğul olan tələbələrin motivasiyası əhəmiyyətli dərəcədə artmışdır. Onlar göstəriblər ki, gündəlik suallar və motivasiyaverici bildirişlər kombinasiya olunmuş qrupda (nudge tətbiqləri ilə) şagirdlərin sinifə davamiyyəti və dərsə hazırlığı da yaxşılaşıb. Eyni zamanda rəy sorğularından istifadə edərək dərs keyfiyyətini yaxşılaşdıran müəllimlər şagirdlərin fəallığının və məmnunluğunun yüksəldiyini görmüşdür (məs., tarix müəllimi Google Forms-da şagird rəylərini toplamış və növbəti dərslərdə onların ehtiyaclarına uyğun yeniləmələr etmişdir).

E-portfoliolar əsasında aparılan bir araşdırmada isə öyrənənlərdə özünüqiymətləndirmə və refleksiyanın mənimsənilməsi artırılmışdır. Bu tədqiqatda proqramlaşdırma mövzusunda self-həll tətqiqatı aparılmış, nəticədə e-portfolioların istifadə olunması tələbələrin özünü şüurlu dərk etməsini (self-awareness) və öyrənmə səylərini yüksəltdiyi göstərilmişdir. Tələbələrin motivasiyasına da

vurğu edilmişdir ki, texnologiya ilə zəngin və qarşılıqlı əlaqəli dərs üsulları onların marağını qorumağa kömək edir.

Müəllimlər üzrə tədqiqatlar göstərir ki, refleksiya onların peşəkarlığını artırır. Məsələn, Li Britaniyada təcrübə mühitində aparılan araşdırmada pre-service müəllimlər strukturlaşdırılmış refleksiya prosesinə cəlb edilib; nəticədə onların pedaqoji bacarıqları, metodoloji anlayışları və özünəinamı əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Bu araşdırmada müəllimlərdən əldə olunan sübutlar göstərir ki, strukturlaşdırılmış refleksiya yeni müəllimlərin peşəkar inkişafına katalizator rolunu oynayır.

Həmkarlar arasında aparılan kollektiv refleksiya da müəllim keyfiyyətlərinə müsbət təsir edir. Məsələn, ABŞ-da 170 məktəb müəllimi arasında aparılmış tədqiqat müəllimləri müstəqil və kollegial refleksiya proseslərinə cəlb etmişdir. Nəticələr göstərir ki, müəllimlər daha çox bir-birini müşahidə edib rəy mübadiləsi etdikcə reflektiv davranışları güclənir və şagird nailiyyətlərini artırmağa yönəlik dəyişikliklər edirlər. Araşdırma müəllimlərə öz tədris metodlarını "nə işləyir, nə işləməz və nəyi dəyişdirmək lazımdır" prinsipi əsasında təhlil etməyi öyrədib və nəticədə peşəkar əməkdaşlığın reflektiv inkişafda əsas rol oynadığını vurğulamışdır.

Yekunda, empirik sübutlar refleksiyanın təhsilin müxtəlif aspektlərinə müsbət təsirini göstərir: tələbələrin akademik nəticələri və motivasiyası yüksəlir, müəllimlərin isə kritik təhlil bacarığı və metodoloji dəqiqliyi artır.

Refleksiyanın tədris prosesinə inteqrasiyası məktəbdə və universitetdə müxtəlif praktik modellərlə edilə bilər. Məktəb səviyyəsində, refleksiya üçün məsələn, həftəlik müəllim kollegiyasında (iclaslarda) və ya dərsdən sonra şagirdlər arasında keçən qısa müzakirələrdə zaman ayrılır. Müəllimlər öz dərs jurnallarını doldurub sonra nəticələri bir-biri ilə müzakirə edə bilər. Universitetdə, tələbələrin layihə portfoliolarına və semestr ərzində saxlanılan reflektiv gündəliklərə xüsusi yer verilir. Həmçinin, müəllimlər üçün tədris videolarının yığılması və pedaqoji yığıncaqlarda ekspertlərin video-müşahidələri kimi təcrübələr vardır.

Addım-addım tətbiq üçün ümumi yoxlama siyahısı (checklist) belə formalaşa bilər:

1. Məqsədlərin müəyyənləşdirilməsi: Refleksiyanın nə üçün, hansı aspektlərdə aparılacağı əvvəlcədən aydınlaşdırılır.

2. Metod seçimi: Məqsədə uyğun refleksiya üsulu (jurnal, diskussiya, video analizi, anket və s.) seçilir.

3. Resurs və vasitələrin hazırlanması: Lazımi vasitələr (jurnal dəftəri, elektron formalar, video kameralar) təmin edilir.

4. İcrası: Dərsdə və ya dərs sonrası refleksiya fəaliyyəti həyata keçirilir (məsələn, şagirdlərlə fikir mübadiləsi, müəllim jurnalı doldurma, dərs video nəzərdən keçirmə).

5. Nəticələrin toplanması: Yazılı qeydlər, şagird rəyləri, müşahidə qeydiyyatları və s. toplanır.

6. Təhlil və qiymətləndirmə: Toplanmış məlumatlar müəllim tərəfindən və ya kollegiya müzakirəsində analiz edilir. Hansı metodlar və məzmunun daha müsbət nəticə verdiyi qiymətləndirilir.

7. Növbəti addımların planlanması: Təhlil əsasında dərs planı yenilənir, uğurlu üsullar genişləndirilir, problemlər həll edilir.

Qarşılaşılan çətinliklər və həllər

Tədris prosesinə refleksiya inteqrasiyası bəzi çətinliklər doğura bilər. Ən çox qarşılaşılan problemlərdən bəziləri:

- Vaxt çatışmazlığı: Müəllimlər dərs üçün ayrılmış vaxtın artıq hissəsini refleksiyaya ayıra bilməyə bilərlər. *Həll:* kiçik refleksiya tapşırıqlarını (məs., dərsin sonunda bir sual) rutin hissəsinə daxil etmək, texnoloji vasitələrlə (anket, elektron jurnallar) vaxt sərfini azaltmaq tövsiyə edilir.
- Təlim və bacarıq: Bəzi müəllimlər refleksiya üsullarını bilməyə və ya tətbiq etməyə alışıq olmaya bilər. *Həll:* Təhsil müəssisələri müəllimlərə refleksiya üzrə davamlı peşəkar inkişaf təlimləri təşkil etməlidir (seminarlar, vebinarlar) və kollegial mentorluq mexanizmlərini qurmalıdır.
- Tələbə motivasiyası: Bəzi şagirdlər refleksiv tapşırıqları maraqsız hesab edə, yaxud dürüst cavab verməyə çəkinə bilərlər. *Həll:* Refleksiyanı qiymətləndirmə meyarlarına daxil etmək (məs., şagirdlərin çıxışları balla qiymətləndirilə bilər) və təhlükəsiz mühit yaratmaq – şagirdləri açıqlamağa

həvəsləndirən müəllim mövqeyi önəmlidir.

- Texnologiya məhdudiyyətləri: Onlayn anketlər və e-portfoliolar kimi alətlər effektivdir, lakin sinifdə texnoloji infrastruktur olmalıdır. *Həll:* Sadə mobil tətbiqlərdən (məs., “Google Forms”) başlamaq, sonradan imkan olduqca daha inkişaf etmiş sistemlərə keçmək.

Bu və digər çətinliklərin həlli üçün təhsil müəssisələri arasında təcrübə mübadiləsi (mentorluq, vebinarlar), həmçinin Məktəb kollegiyasında uğurlu təcrübələrin müzakirəsi faydalıdır.

Material və metodlar. Bu tədqiqatın həyata keçirilməsi zamanı həm nəzəri, həm də empirik yanaşmaların inteqrasiyasına əsaslanan kompleks metodoloji çərçivədən istifadə olunmuşdur. Tədqiqatın material bazasını pedaqogika, təhsil psixologiyası və müasir təlim texnologiyaları sahəsində aparılmış elmi araşdırmalar, eləcə də refleksiya üsullarının tətbiqinə dair mövcud metodik vəsaitlər və beynəlxalq təcrübə təşkil edir. Bununla yanaşı, müxtəlif təhsil səviyyələrində fəaliyyət göstərən müəllim və tələbələrin iştirak etdiyi empirik məlumatlar da tədqiqat materiallarına daxil edilmişdir.

Tədqiqatın empirik hissəsində məlumatların toplanması məqsədilə sorğu, müsahibə və müşahidə metodlarından istifadə olunmuşdur. Sorğular vasitəsilə tədris prosesində refleksiya üsullarının tətbiq səviyyəsi, onların effektivliyi və qarşıya çıxan çətinliklər barədə respondentlərin fikirləri öyrənilmişdir. Müsahibələr müəllimlərin reflektiv yanaşmaya münasibətini və praktik tətbiq təcrübələrini daha dərindən təhlil etməyə imkan vermişdir. Müşahidə metodu isə real tədris mühitində refleksiya fəaliyyətlərinin necə təşkil olunduğunu birbaşa izləmək və qiymətləndirmək üçün tətbiq edilmişdir.

Eyni zamanda, tədqiqat çərçivəsində müqayisəli təhlil və sistemli yanaşma metodlarından da istifadə olunmuşdur. Müqayisəli təhlil vasitəsilə refleksiya üsullarının tətbiq olunduğu və olunmadığı tədris mühitləri arasında fərqlər müəyyən edilmiş, onların öyrənmə nəticələrinə təsiri araşdırılmışdır. Sistemli yanaşma isə refleksiyanın tədris prosesində yerini və rolunu bütöv bir mexanizm kimi dəyərləndirməyə imkan yaratmışdır.

Toplanmış məlumatların işlənməsi zamanı keyfiyyət və kəmiyyət analiz metodlarından istifadə edilmişdir. Statistik təhlil nəticələrin obyektivliyini təmin etmək məqsədilə tətbiq olunmuş, keyfiyyət analizi isə respondentlərin fikirlərinin daha dərin interpretasiyasına şərait yaratmışdır. Bu metodların birgə istifadəsi tədqiqatın nəticələrinin etibarlılığını və elmi əsaslılığını artırmışdır.

Müzakirə. Müasir təhsil yanaşmaları göstərir ki, öyrənmə yalnız informasiyanın ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda bu informasiyanın mənimsənilməsi, dərk edilməsi və fərdi təcrübə ilə əlaqələndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan refleksiya üsullarının tədris mühitində tətbiqi öyrənmə prosesinin keyfiyyətini artıran əsas amillərdən biri kimi çıxış edir. Refleksiya, öyrənənin öz bilik, bacarıq və təcrübələrini təhlil etməsinə, əldə etdiyi nəticələri qiymətləndirməsinə və gələcək fəaliyyətini daha məqsədyönlü şəkildə planlaşdırmasına imkan yaradır.

Müzakirə kontekstində qeyd etmək olar ki, refleksiya üsullarının tətbiqi tələbələrdə tənqidi düşünmə və analitik yanaşma qabiliyyətlərinin formalaşmasına müsbət təsir göstərir. Tələbələr yalnız öyrəndiklərini təkrarlamaqla kifayətlənmir, həm də həmin biliklərin tətbiq imkanlarını, məhdudiyyətlərini və real həyatla əlaqəsini dərk edirlər. Bu isə onların müstəqil düşünmə bacarıqlarını inkişaf etdirərək daha çevik və adaptiv qərarvermə qabiliyyətinə malik olmalarını təmin edir.

Araşdırmalar göstərir ki, refleksiya üsullarının sistemli tətbiqi öyrənənin metakoqnitiv bacarıqlarının inkişafına səbəb olur. Bu bacarıqlar öyrənənin öz öyrənmə prosesini planlaşdırmaq, izləmək və qiymətləndirmək imkanlarını genişləndirir. Nəticədə, öyrənmə prosesi daha şüurlu və məqsədyönlü xarakter alır ki, bu da akademik nailiyyətlərin yüksəlməsinə gətirib çıxarır.

Nəticə. Son illərin tədqiqatları sübut edir ki, refleksiya tədrisdə keyfiyyətli dəyişiklik yaradan güclü alətdir. Refleksiya müəllimə və şagirddə metakoqnitiv bacarıqları möhkəmləndirməyə, motivasiyanı yüksəltməyə və dərs prosesini optimallaşdırmağa imkan verir. Hesabatda təqdim olunan metodların müqayisə cədvəli və müvafiq praktik qaydalar məktəb və universitet səviyyəsində tətbiq üçün rəhbər ola bilər. Tətbiq zamanı əsas çətinliklər (vaxt, hazırlıq, texnika) planlı həll yolları ilə aradan qaldırılmalıdır.

Məktəblərdə refleksiya tədbirlərini rutinə salmaq üçün mütəmadi müəllim iclasları təşkil edin, onlayn rəy formaları ilə şagirdlərlə geri dönüş sistemini qurun. Təhsil Nazirliyi isə müəllimlərin təliminə reflektiv yanaşmaları inteqrasiya etməli, refleksiya üzrə protokollar və qiymətləndirmə alətləri hazırlamalıdır. Resurs baxımından ilkin mərhələdə əlavə büdcə ayrılmasına ehtiyac duyulmaya bilər (mövcud vaxtın səmərəli bölüşdürülməsi və pulsuz texnoloji həllərlə başlanğıc mümkündür). Ümumi məqsəd, refleksiyanın hər bir dərsin ayrılmaz komponentinə çevrilməsi və nəticədə təhsil keyfiyyətinin davamlı yüksəlməsi olmalıdır.

TÜRKAN MÜSLÜMLÜ
Lənkəran Dövlət Universiteti
Magistrant
muslumluturkan@gmail.com

AZƏRBAYCANDA RƏQƏMSAL QİYMƏTLƏNDİRMƏNİN TƏTBİQ VƏZİYYƏTİ VƏ ƏSAS PROBLEMLƏRİ

Müasir təhsil sistemlərində rəqəmsal texnologiyaların tətbiqi ölçmə və qiymətləndirmə proseslərinin təkmilləşdirilməsinə mühüm təsir göstərir. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda vurğulandığı kimi, rəqəmsal texnologiyaların tətbiqi “təhsilin keyfiyyətinin artırılması və müasir standartlara uyğunlaşdırılması üçün prioritet istiqamətdir”. Bu çərçivədə ölkəmizdə “Virtual məktəb” və müxtəlif LMS platformaları təhsil prosesinə inteqrasiya edilmişdi. Bununla yanaşı, Kahoot və Quizizz kimi interaktiv vasitələr formativ qiymətləndirmədə geniş istifadə edilir.

Açar sözlər: *rəqəmsal qiymətləndirmə, təhsildə İKT, onlayn imtahanlar, akademik dürüstlük*

Lakin mövcud infrastruktur fərqlilikləri, akademik dürüstlüyün təmin olunması ilə bağlı çətinliklər, müəllimlərin rəqəmsal bacarıqlarındakı fərqliliklər və kurikulum uyğunluğu problemləri bu sahədə əsas çağırışlar olaraq qalır. Tədqiqatda bu problemlər təhlil edilir və onların aradan qaldırılması üçün təkliflər irəli sürülür.

Təhsildə rəqəmsal transformasiya yalnız tədris metodlarını deyil, eyni zamanda qiymətləndirmə sistemlərini də əhatə edir. Rəqəmsal qiymətləndirmə ənənəvi yanaşmaların avtomatlaşdırılmış, daha obyektiv və çevik modellərlə əvəz olunmasını nəzərdə tutur. Azərbaycanda bu istiqamətdə müəyyən irəliləyişlər müşahidə olunsa da, sistemli problemlər hələ də qalmaqdadır.

Rəqəmsal qiymətləndirmə sahəsində əsas problemlər aşağıdakı istiqamətlər üzrə qruplaşdırıla bilər:

Birinci problem regionlar üzrə rəqəmsal infrastrukturun qeyri-bərabərliyidir. Xüsusilə kənd və ucqar bölgələrdə internetə çıxış və texnoloji təminatın zəif olması “rəqəmsal uçurum” yaradır və qiymətləndirmədə bərabərlik prinsipini pozur. UNESCO-nun rəsmi sənədlərində qeyd edildiyi kimi, “təhsildə İKT siyasəti rəqəmsal bərabərsizliyi aradan qaldırmağa və inklüziv öyrənmə mühitini təmin etməyə xidmət etməlidir”.

İkinci mühüm problem akademik dürüstlük məsələsidir. Onlayn imtahan mühitində nəzarət mexanizmlərinin məhdudluğu köçürmə və digər qeyri-etik davranış risklərini artırır. Mövcud proktorinq sistemləri isə ya texniki cəhətdən kifayət qədər inkişaf etməmiş, ya da geniş tətbiq üçün əlverişli deyil.

Üçüncü problem müəllimlərin rəqəmsal kompetensiyalarının fərqli səviyyədə olmasıdır. Bu fərqlilik rəqəmsal qiymətləndirmə vasitələrinin effektiv istifadəsinə mane olur.

Dördüncü problem isə istifadə olunan platformaların milli kurikulum və qiymətləndirmə standartları ilə tam uyğunlaşdırılmamasıdır. Bu, daha çox yüksək səviyyəli düşünmə bacarıqlarının deyil, yalnız faktoloji biliklərin ölçülməsinə gətirib çıxarır.

Belə nəticəyə gəlmək olar ki, Azərbaycanda rəqəmsal qiymətləndirmə sistemləri inkişaf mərhələsində olsa da, mövcud problemlər onların effektivliyini məhdudlaşdırır. Bu problemlərin həlli yalnız texnoloji yeniliklərlə deyil, həm də pedaqoji yanaşmaların yenilənməsi və institusional dəstəyin gücləndirilməsi ilə mümkündür. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na əsasən, “təhsildə rəqəmsal transformasiyanın sürətləndirilməsi innovativ iqtisadiyyatın qurulmasının əsas şərtlərindən biridir”.

Mövcud problemlərin aradan qaldırılması üçün aşağıdakı istiqamətlər təklif olunur:

1. Regionlarda rəqəmsal infrastrukturun gücləndirilməsi və texnoloji bərabərliyin təmin edilməsi
2. Vahid milli rəqəmsal qiymətləndirmə platformasının yaradılması
3. Süni intellekt əsaslı proktorinq və analitik sistemlərin tətbiqi
4. Müəllimlər üçün davamlı rəqəmsal pedaqoji təlim və sertifikasiya proqramlarının təşkili
5. Qiymətləndirmə tapşırıqlarında yüksək səviyyəli düşünmə bacarıqlarını ölçən modellərin artırılması
6. Məxfilik və etik prinsipləri qoruyan balanslaşdırılmış nəzarət sistemlərinin tətbiqi.

AYSUN MƏMMƏDOVA
Lənkəran Dövlət Universiteti
aysun292003@gmail.com
https://orcid.org/0009-0009-9324-4197

TƏLİMDƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN PEDAQOJİ VƏ PSİXOLOJİ MEYARLARI

Tezisdə şagird nailiyyətlərinin qiymətləndirilməsində pedaqoji və psixoloji meyarların rolu araşdırılmışdır. Müəyyən edilmişdir ki, bu meyarların kompleks tətbiqi təlim motivasiyasını, fərdiləşdirilmiş yanaşmanı və təhsilin keyfiyyətini artıraraq şagirdlərin hərtərəfli inkişafına şərait yaradır.

Açar sözlər: *təlim, şagird nailiyyətləri, qiymətləndirmə meyarları, pedaqoji və psixoloji meyarlar, təlim motivasiyası, təlimin effektivliyi*

Müasir təhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsi yalnız biliklərin ölçülməsi vasitəsi kimi deyil, həm də təlim prosesinin tənzimlənməsi və inkişaf etdirilməsi mexanizmi kimi çıxış edir. Kurikulum əsaslı təhsil modelində qiymətləndirmə şagirdyönümlü yanaşmanı təmin etməklə yanaşı, şagirdlərin fərdi inkişaf dinamikasının izlənilməsinə xidmət edir. Tədqiqatçılar göstərirlər ki, qiymətləndirmənin effektiv təşkili şagird nailiyyətlərinin yüksəldilməsində mühüm rol oynayır. Bu baxımdan pedaqoji və psixoloji meyarların elmi əsaslarla müəyyənləşdirilməsi xüsusi aktuallıq kəsb edir.

Pedaqoji meyarlar təlim məqsədləri və gözlənilən nəticələrlə birbaşa əlaqəli olub, şagirdin akademik nailiyyətlərinin obyektiv qiymətləndirilməsini təmin edir. Bu meyarlar aşağıdakı istiqamətləri əhatə edir:

1. Tədris məzmununun mənimsənilmə səviyyəsi.
2. Biliklərin praktik tətbiqi bacarıqlar.
3. Təfəkkür əməliyyatlarının (analiz, sintez, müqayisə, ümumiləşdirmə) inkişaf səviyyəsi.
4. Müstəqil fəaliyyət və qərarvermə qabiliyyəti.
5. Kurikulum üzrə nəzərdə tutulan kompetensiyaların formalaşma dərəcəsi.

Bloomun taksonomiyasına əsasən, şagird nailiyyətlərinin qiymətləndirilməsi yalnız yadda saxlama səviyyəsində deyil, daha yüksək səviyyəli təfəkkür bacarıqlarını da əhatə etməlidir. Bu baxımdan pedaqoji meyarların düzgün seçilməsi qiymətləndirmənin obyektivliyini və etibarlılığını təmin edir.

Psixoloji meyarlar şagirdin fərdi-psixoloji xüsusiyyətlərini və idrak proseslərinin inkişaf səviyyəsini nəzərə almaqla qiymətləndirmənin humanist və inkişafyönümlü xarakterini təmin edir. Bu meyarlar aşağıdakı komponentləri özündə birləşdirir:

– idrak proseslərinin (diqqət, yaddaş, təfəkkür, qavrama) inkişaf səviyyəsi;
– təlim motivasiyası və öyrənməyə maraq;
– emosional vəziyyət və psixoloji komfort səviyyəsi;
– şagirdlər arasında mövcud olan fərdi fərqlər;
– şagird potensialının daha dəqiq qiymətləndirilməsinə;
– təlim prosesinin fərdiləşdirilməsinə;
– motivasiyanın yüksəldilməsinə;
– qiymətləndirmədə subyektivliyin azaldılmasına imkan verir.

Müasir yanaşmalarda pedaqoji və psixoloji meyarlar qarşılıqlı vəhdətdə çıxış edir. Pedaqoji meyarlar təlim nəticələrinin ölçülməsini təmin etdiyi halda, psixoloji meyarlar həmin nəticələrin formalaşmasına təsir edən daxili amilləri açıqlayır.Şagird nailiyyətlərinin qiymətləndirilməsində pedaqoji və psixoloji meyarların kompleks və qarşılıqlı əlaqədə tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Bu tədqiqat çərçivəsində belə qənaətə gəlinir ki, qiymətləndirmə yalnız nəticələrin yoxlanılması deyil, həm də şagirdin inkişafına yönəlmiş çoxşaxəli

proses kimi təşkil olunmalıdı.Praktik baxımdan, müəllimlər tərəfindən qiymətləndirmə zamanı həm pedaqoji, həm də psixoloji meyarların nəzərə alınması şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun təlim mühitinin formalaşdırılmasına və onların hərtərəfli inkişafına xidmət edir.

Təlim motivasiyası şagirdlərin öyrənməyə marağını, fəallığını və davamlılığını təmin edən əsas psixoloji amillərdən biridir. Motivasiya iki əsas növə bölünür: daxili motivasiya (şagirdin öz marağı və öyrənmək istəyi ilə bağlı) və xarici motivasiya (mükafat, qiymət, müəllim və valideyn təsiri ilə bağlı). Daxili motivasiya daha davamlı və effektiv nəticələrə səbəb olur. Təlimin effektivliyi isə tədris prosesinin məqsədlərə nə dərəcədə çatdığını göstərir. Effektiv təlim zamanı şagirdlər yalnız məlumatı yadda saxlamır, həm də onu anlayır, tətbiq edir və təhlil edə bilir. Bu prosesdə müəllimin düzgün metod seçimi, fərdi yanaşma, interaktiv üsullar və müsbət psixoloji mühit mühüm rol oynayır.Motivasiya ilə təlimin effektivliyi bir-biri ilə sıx bağlıdır. Yüksək motivasiyaya malik şagirdlər dərsdə daha aktiv iştirak edir, tapşırıqları məsuliyyətlə yerinə yetirir və nəticədə daha yüksək nailiyyət əldə edirlər. Buna görə də müasir təlimdə motivasiyanın artırılması və şagird mərkəzli yanaşmanın tətbiqi təlimin keyfiyyətini yüksəldən əsas şərtlərdən hesab olunur.

Təkliflər: Qiymətləndirmə prosesində şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması, formativ qiymətləndirmə üsullarından istifadənin genişləndirilməsi və şagirdyönümlü təlim metodlarının tətbiqi məqsədəuyğun hesab olunur. Bununla yanaşı, müsbət psixoloji mühitin yaradılması, motivasiyanın artırılması və özünüqiymətləndirmə bacarıqlarının inkişaf etdirilməsi təlimin effektivliyinin yüksəldilməsinə xidmət edə bilər.

AYSUN NİYAZZADƏ
Lənkəran Dövlət Universiteti
Magistrant
niyazzadaysun@gmail.com

PEDAQOJİ PROSSESİN QİYMƏTLƏNDİRİLMƏSI MEYARLARI

Pedaqoji prosesin qiymətləndirilməsi təhsilin keyfiyyətini müəyyən edən əsas mexanizmdir. Bu proses məqsədlər, metodlar, resurslar, şagird fəallığı və müəllim fəaliyyətini əhatə edir, obyektiv meyarlarla təhlil edilərək təlimin səmərəliliyini və davamlı inkişafını təmin edir.

Açar sözlər: *pedaqoji proses, qiymətləndirmə, qiymətləndirmə meyarları, təhsil sistemi, tədris keyfiyyəti, təlim-tərbiyə prosesi*

Pedaqoji prosesin qiymətləndirilməsi müasir təhsil sistemində keyfiyyətin təmin olunmasının əsas şərtlərindən biri kimi çıxış edir və tədrisin effektivliyinin artırılmasında mühüm rol oynayır. Təhsil müəssisələrində təlim-tərbiyə prosesinin səmərəliliyi yalnız yekun nəticələrlə deyil, eyni zamanda bu nəticələrə aparan pedaqoji fəaliyyətin məqsədyönlü təşkili, tətbiq olunan metod və texnologiyaların düzgün seçimi, eləcə də müəllim və şagird arasında qurulan qarşılıqlı münasibətlərin səviyyəsi ilə müəyyən edilir. Bu baxımdan pedaqoji prosesin qiymətləndirilməsi sistemli, obyektiv və elmi əsaslara söykənən meyarlar əsasında həyata keçirilməli və tədrisin bütün komponentlərini əhatə etməlidir.

Pedaqoji prosesin qiymətləndirilməsində əsas meyarlar sırasında təlim məqsədlərinin dəqiq və ölçülə bilən şəkildə müəyyənləşdirilməsi, dərsin səmərəli planlaşdırılması, müasir tədris metod və üsullarının seçilməsi, istifadə olunan resursların effektivliyi, şagirdlərin fəallıq və motivasiya səviyyəsi, eləcə də qiymətləndirmə üsullarının adekvatlığı xüsusi yer tutur. Bu meyarlar qarşılıqlı əlaqədə çıxış edərək tədris prosesinin bütövlükdə keyfiyyətini formalaşdırır. Məsələn, məqsədlərin konkret və nəticəyönümlü müəyyən edilməsi dərsin strukturlaşdırılmasını asanlaşdırır və gözlənilən nəticələrin əldə olunmasına şərait yaradır. Eyni zamanda, interaktiv metodlardan istifadə şagirdlərin dərsdə fəal iştirakını təmin edir, onların tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir.

Bu istiqamətdə görkəmli pedaqoq Misir Mərdanovun elmi-pedaqoji yanaşmaları xüsusi əhəmiyyət kəsb edir. Onun fikrincə, müasir təhsil sistemində qiymətləndirmə yalnız yekun nəticələrin ölçülməsi ilə məhdudlaşmamalı, həm də təlim prosesinin bütün mərhələlərini əhatə etməlidir. Müəllimin metodik hazırlığı, dərsin təşkili, innovativ pedaqoji texnologiyaların tətbiqi, şagirdlərlə səmərəli ünsiyyətin qurulması və fərdi yanaşmanın təmin edilməsi pedaqoji prosesin qiymətləndirilməsində əsas göstəricilər kimi çıxış edir. Bu yanaşma təhsil prosesinə kompleks baxışı təmin etməklə yanaşı, müəllimlərin peşəkar inkişafını da stimullaşdırır.

Pedaqoji prosesin qiymətləndirilməsində ölçmə şkalalarının tətbiqi də mühüm əhəmiyyət daşıyır. Bu şkalalar vasitəsilə tədris fəaliyyəti müxtəlif səviyyələr üzrə – aşağı, orta, yaxşı və yüksək – sistemli şəkildə qiymətləndirilir. Belə yanaşma subyektivliyin azalmasına, nəticələrin daha obyektiv və müqayisəolunan olmasına imkan yaradır. Məsələn, dərsdə şagird fəallığı, müəllimin izah bacarığı və ya istifadə olunan metodların effektivliyi konkret göstəricilər əsasında dəyərləndirilə bilər. Bu isə pedaqoji fəaliyyətin dinamik izlənilməsinə və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə şərait yaradır.

Müasir təhsil idarəetməsi şəraitində pedaqoji prosesin qiymətləndirilməsi yalnız nəzarət funksiyası daşımır, eyni zamanda inkişafyönlü və stimullaşdırıcı mexanizm kimi çıxış edir. Bu proses vasitəsilə təlimin güclü və zəif tərəfləri sistemli şəkildə təhlil olunur, mövcud problemlərin aradan qaldırılması üçün məqsədyönlü tədbirlər hazırlanır və gələcək fəaliyyət üçün strateji planlaşdırma aparılır. Tədqiqat prosesində belə bir nəticəyə gəldik ki, pedaqoji prosesin qiymətləndirilməsi təkcə təhsil alanlar üçün deyil, müəllimlər üçün də xüsusi önəm daşıyır. Bu baxımdan müəllimin pedaqoji

fəaliyyətinin də keyfiyyət göstəriciləri hasil qiymətdə istifadə olunur. Təhsil müəssisəsində idarəetmənin səmərəliliyi artır və ümumi təhsil keyfiyyəti yüksəlir.

Nəticə etibarilə, pedaqoji prosesin qiymətləndirilməsi meyarlarının elmi əsaslara uyğun şəkildə müəyyənləşdirilməsi və ardıcıl tətbiqi müasir təhsil sisteminin davamlı inkişafının əsas şərtlərindən biridir. Obyektiv və çoxşaxəli qiymətləndirmə sistemi həm müəllimlərin peşəkar inkişafına təkan verir, həm də şagirdlərin təlim nailiyyətlərinin yüksəldilməsinə müsbət təsir göstərir. Bu baxımdan, pedaqoji prosesin qiymətləndirilməsi yalnız mövcud vəziyyətin təhlili deyil, həm də gələcəyə yönəlmiş strateji inkişaf vasitəsi kimi çıxış edir.

NATAVAN CƏFƏRLİ
ADU-nun Psixologiya və Pedaqogika kafedrasının müəllimi
jafarli.natavan@hotmail.com

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ İNKLÜZİVLİYİN PROBLEMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Tezisdə ümumi təhsil sistemində mövcud olan problemlər elmi araşdırmalar əsasında təhlil olunur və inklüziv təhsil kontekstində qiymətləndirilir. İnklüziv yanaşmanın tətbiqi zamanı qarşıya çıxan çətinliklər, onların səbəbləri və aradan qaldırılması yolları araşdırılır. Eyni zamanda müasir pedaqoji yanaşmalar və innovativ həll mexanizmləri təqdim olunur.

Açar sözlər: *inklüziv təhsil, ümumi təhsil, təhsil problemləri, pedaqoji yanaşmalar, bərabər imkanlar*

Müasir dövrdə təhsil sisteminin inkişafı cəmiyyətin sosial-iqtisadi tərəqqisinin əsas amillərindən biri kimi çıxış edir. Ümumi təhsil sistemi isə bu inkişafın təməlini təşkil edir. Lakin qloballaşma, texnoloji inkişaf və sosial dəyişikliklər fonunda ümumi təhsil sistemində bir sıra problemlər meydana çıxmışdır. Bu problemlər xüsusilə inklüziv təhsil sahəsində daha qabarıq şəkildə özünü göstərir. İnklüziv təhsil hər bir fərdin fərdi xüsusiyyətlərindən asılı olmayaraq keyfiyyətli təhsil almasını təmin etməyə yönəlmiş yanaşmadır və müasir təhsilin əsas prioritet istiqamətlərindən biridir. Elmi araşdırmalar göstərir ki, ümumi təhsil sistemində inklüzivliyin təmin olunması bir sıra sistemli problemlərlə müşayiət olunur. Bu problemlərdən biri pedaqoji kadrların inklüziv təhsil sahəsində yetərli səviyyədə hazırlanmamasıdır. Müəllimlərin əksəriyyəti fərqli təlim ehtiyaclarına malik şagirdlərlə işləmək üçün xüsusi metodik biliklərə malik olmur. Bu isə təlim prosesində effektivliyin azalmasına səbəb olur. Digər mühüm problem təhsil müəssisələrinin infrastrukturunun inklüziv tələblərə tam cavab verməməsidir. Fiziki mühitin əlçatan olmaması, xüsusi tədris avadanlıqlarının çatışmazlığı və uyğunlaşdırılmış tədris materiallarının azlığı inklüziv təhsilin tətbiqinə mane olan əsas amillərdəndir. Bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, inklüziv mühitin formalaşdırılması yalnız pedaqoji deyil, həm də texniki və təşkilati yanaşmaların inteqrasiyasını tələb edir. 2026-cı ilin “Şəhərsalma və Memarlıq ili” elan olunması inklüziv yanaşmanın aktuallığını daha da ön plana çıxarır. Bu çərçivədə istərdim ki, inklüziv şəhər mühitinin formalaşdırılması istiqamətində daha məqsədyönlü və sistemli tədbirlər həyata keçirilsin. Xüsusilə nəqliyyat infrastrukturunda, ictimai nəqliyyat vasitələrində və piyada zonalarında əlçatanlıq standartlarının təmin olunması vacib hesab olunur. Eyni zamanda tikinti və memarlıq sahəsində yeni layihələrin hazırlanması zamanı inklüziv dizayn prinsiplərinə ciddi şəkildə əməl edilməli, mövcud obyektlər isə bu tələblərə uyğunlaşdırılmalıdır. Bundan əlavə, qiymətləndirmə və monitorinq mexanizmlərinin yetərincə fərdiləşdirilməməsi də problemlər sırasına daxildir. Ənənəvi qiymətləndirmə üsulları bütün şagirdlər üçün eyni meyarları tətbiq etdiyindən, fərqli inkişaf xüsusiyyətlərinə malik şagirdlərin real nailiyyətlərini tam əks etdirmir. Bu isə inklüziv təhsilin mahiyyətinə ziddir. Cəmiyyətin inklüziv təhsilə münasibəti də mühüm rol oynayan amillərdəndir. Sosial stereotiplər və məlumat çatışmazlığı inklüziv mühitin formalaşmasını çətinləşdirir. Bu baxımdan maarifləndirmə işlərinin aparılması və inklüziv dəyərlərin təşviqi vacibdir. Müasir yanaşmalar inklüziv təhsilin inkişafı üçün yeni imkanlar yaradır. Diferensiallaşdırılmış təlim, fərdiləşdirilmiş təhsil proqramları və universal dizayn prinsipləri inklüziv mühitin effektiv təşkilinə şərait yaradır. Eyni zamanda rəqəmsal texnologiyaların və süni intellektin tətbiqi təhsildə əlçatanlığı artırır və fərqli ehtiyaclara uyğun təlim imkanları təqdim edir. Distant təhsil platformaları isə fiziki məhdudiyyətləri olan şagirdlərin təhsilə inteqrasiyasını daha da asanlaşdırır. Nəticə olaraq qeyd etmək olar ki, ümumi təhsil sistemində inklüziv təhsilin tətbiqi və inkişafı bir sıra problemlərlə müşayiət olunsa da, bu problemlərin həlli üçün geniş imkanlar mövcuddur. Elmi araşdırmalar göstərir ki, inklüziv təhsilin uğurlu tətbiqi üçün kompleks yanaşma tələb olunur. Bu yanaşma pedaqoji hazırlığın gücləndirilməsi, infrastrukturun təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi və ictimai dəstəyin artırılmasını əhatə etməlidir. Yalnız bu halda

ümumi təhsil sistemində inklüzivliyin təmin olunması və hər kəs üçün bərabər təhsil imkanlarının yaradılması mümkün olacaqdır.

SAMİRƏ MUSTAFAYEVA
Naxçıvan Dövlət Universiteti nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
samire.mustafayeva@ndu.edu.az
https://orcid.org/0009-0006-0552-8172

MÜASİR DÖVRDƏ FƏNLƏRİN TƏDRİSİNDƏ MÜƏLLİM-ŞAGİRD QARŞILIQLI FƏALİYYƏTİNİN YENİ MODELLƏRİ

Bu tezisdə müasir təhsildə müəllim-şagird qarşılıqlı fəaliyyətinin yeni modelləri, onların pedaqoji əsasları və tətbiq istiqamətləri araşdırılır. Rəqəmsal texnologiyaların interaktiv təlim mühitinə inteqrasiyasının əhəmiyyəti vurğulanır.

Açar sözlər: *qarşılıqlı fəaliyyət, interaktiv təlim, müəllim-şagird münasibəti, rəqəmsal texnologiya, pedaqoji model*

XXI əsrin təhsil mühiti müəllim ilə şagird arasındakı əlaqənin mahiyyətini köklü surətdə dəyişdirmişdir. Bilik ötürülməsinə əsaslanan ənənəvi tədris modelindən fərqli olaraq, müasir pedaqoji yanaşmalar şagirdi öyrənmə prosesinin fəal iştirakçısına çevirir. OECD-nin araşdırmaları göstərir ki, dərin öyrənmənin baş verməsi üçün şagirdlər yalnız dinləyici rolunda deyil, tənqidi düşünən, problem həll edən və qərarvermə prosesində iştirak edən subyekt kimi fəaliyyət göstərməlidir. Bu kontekstdə müəllim-şagird qarşılıqlı fəaliyyətinin yeni modellərinin işlənib hazırlanması aktual elmi-pedaqoji məsələyə çevrilmişdir.

Müasir təhsil mühitində bu dəyişikliklərin əsas hərəkətverici qüvvəsi rəqəmsallaşma, qloballaşma və əmək bazarının yeni tələbləridir. İnformasiya bolluğu şəraitində bilik əldə etmək artıq əsas məqsəd deyil; əsas prioritet bu bilikdən düzgün istifadə etmək, onu təhlil etmək və yeni situasiyalara tətbiq etmək bacarığıdır. Bu isə müəllim və şagird arasında qarşılıqlı fəaliyyətin xarakterini dəyişir. Müəllim ənənəvi “məlumat verən” rolundan uzaqlaşaraq fasilitator, mentor və öyrənmə prosesinin təşkilatçısı funksiyasını yerinə yetirir. Şagird isə passiv qəbul edən deyil, aktiv tədqiqatçı və əməkdaş kimi çıxış edir.

Bununla yanaşı, müasir pedaqoji yanaşmalar – problem əsaslı öyrənmə, layihə əsaslı təlim, kooperativ öyrənmə və rəqəmsal platformalar üzərində qurulan interaktiv mühit – qarşılıqlı fəaliyyətin yeni formalarını meydana gətirmişdir. UNESCO tərəfindən irəli sürülən yanaşmalarda da vurğulanır ki, təhsil yalnız bilik ötürülməsi deyil, həm də sosial qarşılıqlı əlaqə, əməkdaşlıq və birgə öyrənmə prosesidir. Bu baxımdan müəllim-şagird münasibətləri daha çevik, dinamik və qarşılıqlı hörmətə əsaslanan xarakter alır.

Distant və hibrid təhsil modellərinin geniş yayılması bu münasibətləri yeni mərhələyə çıxarmışdır. Onlayn mühitdə müəllim və şagird arasında kommunikasiya fərqli vasitələrlə həyata keçirilir ki, bu da pedaqoji yanaşmaların yenilənməsini zəruri edir. Belə şəraitdə effektiv qarşılıqlı fəaliyyətin qurulması üçün texnoloji savadlılıq, kommunikativ bacarıqlar və fərdiləşdirilmiş yanaşma xüsusi əhəmiyyət kəsb edir.

Müasir pedaqogikada müəllim-şagird münasibətlərini izah edən bir neçə əsas model formalaşmışdır. Bunların içərisində ən çox diqqəti cəlb edəni «görünən öyrənmə» (Visible Learning) konsepsiyasıdır. John Hattie bu konsepsiyanı 100-dən artıq ölkədə aparılan meta-analitik tədqiqatlara əsaslanaraq inkişaf etdirmişdir. Həmin tədqiqatlara görə, müəllimin öz tədrisinə refleksiv münasibəti və şagirdlərə konstruktiv əks-əlaqə verməsi təhsil nəticələrinə ən güclü müsbət təsiri göstərən amillər sırasında yer alır. Bu model müəllimi «fəal aktivatorlar» kimi xarakterizə edir – yəni müəllim şagirdin düşüncə prosesini formalaşdıran, onu istiqamətləndirən şəxsdir.

İkinci mühüm model formativ qiymətləndirməyə əsaslanan müəllim-şagird dialoqudur. Dylan Wiliam bu yanaşmanı müəllimin şagirdin hazırkı bilik səviyyəsini müntəzəm olaraq diaqnostika etməsi və tədris strategiyasını buna uyğun tənzimləməsi kimi müəyyənləşdirir. Belə bir yanaşma sinifdə «öyrənmə üçün qiymətləndirmə» mədəniyyətini formalaşdırır. UNESCO-nun 2021-ci il

hesabatında da vurğulanır ki, gələcəyin məktəbi müəllim ilə şagird arasında ikitərəfli, dialoqa əsaslanan əlaqəni mərkəzə qoymalıdır.

Rəqəmsal texnologiyaların sinfə inteqrasiyası müəllim-şagird qarşılıqlı fəaliyyətini yeni mərhələyə çıxarmışdır. Dünya Bankının 2022-ci il hesabatı göstərir ki, texnologiyadan məqsədyönlü istifadə edən müəllimlər şagirdlərin idrak fəallığını əhəmiyyətli dərəcədə artıra bilir. Avropa Komissiyasının «Rəqəmsal Təhsil Fəaliyyət Planı (2021-2027)» müəllimlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsini prioritet istiqamət kimi müəyyən edir. Bu sənəddə xüsusi vurğu edilir ki, texnologiya müəllimi əvəz etmək üçün deyil, onun pedaqoji fəaliyyətini gücləndirmək üçün vasitədir.

Sugata Mitranın «Bulud məktəbi» konsepsiyası isə müəllimin rolu barədə daha radikal bir fikir irəli sürür: müəllim bilik mənbəyi olmaqdan çox, öyrənmə mühitinin yaradıcısına çevrilir. Bu yanaşma xüsusilə fənlərin tədrisində şagirdlərin özünütənzimli öyrənmə bacarıqlarının formalaşdırılması baxımından diqqətçəkicidir. Linda Darling-Hammond və həmkarlarının «Dərin Öyrənmə» üzrə tədqiqatları da bu fikri dəstəkləyir: şagirdlərdə davamlı maraq, kritik düşüncə və əməkdaşlıq bacarıqlarının inkişafı müəllim-şagird münasibətlərinin keyfiyyətindən birbaşa asılıdır.

Azərbaycan Respublikasının 2020-2024-cü illəri əhatə edən ümumi təhsil islahatları çərçivəsində müəllim-şagird münasibətlərinin yenilənməsinə xüsusi diqqət yetirilmişdir. Təhsil Nazirliyi tərəfindən hazırlanmış kurikulum sənədlərində şagirdyönümlü tədris prinsipi əsas metodoloji istiqamət kimi müəyyənləşdirilmişdir. Müəllimlərin sertifikatlaşdırılması sistemi isə pedaqoji bilik və bacarıqların qiymətləndirilməsini əməli fəaliyyətlə üzvi şəkildə əlaqələndirməyə xidmət edir. Bu islahatlar Michael Fullanın «dəyişim lideri» konsepsiyası ilə məzmunca üst-üstə düşür: sistemli pedaqoji dəyişiklik yalnız ayrı-ayrı fərdlərin deyil, bütöv məktəb mədəniyyətinin transformasiyasını tələb edir.

Müasir dövrdə fənlərin tədrisində müəllim-şagird qarşılıqlı fəaliyyətinin yeni modelləri üç əsas özəldə cəmləşir- refleksiv müəllim fəaliyyəti, formativ qiymətləndirməyə əsaslanan dialoq və rəqəmsal texnologiyaların məqsədyönlü inteqrasiyası. Bu modellərin ölkəmizin ümumtəhsil məktəblərində tətbiqi müəllimin peşə inkişafına sistemli yatırım edilməsini, metodoloji dəstəyin gücləndirilməsini və interaktiv öyrənmə mühitinin yaradılmasını zəruri edir. Aparılan beynəlxalq tədqiqatlar sübut edir ki, müəllim-şagird münasibətlərinin keyfiyyəti uşaqların akademik nailiyyətlərini müəyyən edən əsas amillərdən biridir.

Bununla yanaşı, qeyd etmək vacibdir ki, qarşılıqlı fəaliyyətin keyfiyyəti yalnız təlim nəticələrinə deyil, həm də şagirdlərin sosial-emosional inkişafına, məktəbə münasibətinə və öyrənməyə motivasiyasına birbaşa təsir göstərir. Etibara və qarşılıqlı hörmətə əsaslanan münasibətlər şagirdlərdə özünüifadə, təşəbbüskarlıq və məsuliyyət hissini gücləndirir. Müəllimin refleksiv yanaşması isə dərs prosesinin davamlı təkmilləşdirilməsinə imkan yaradır və fərdi yanaşmanın effektivliyini artırır. Eyni zamanda, formativ qiymətləndirmə vasitəsilə qurulan açıq dialoq şagirdlərin öz öyrənmə prosesini dərk etməsinə və inkişaf istiqamətlərini müəyyənləşdirməsinə şərait yaradır. Rəqəmsal texnologiyaların düzgün və balanslı tətbiqi isə bu qarşılıqlı əlaqəni daha çevik və əlçatan edir. Bu baxımdan, müasir təhsil mühitində müəllim-şagird əməkdaşlığı yalnız pedaqoji deyil, həm də strateji əhəmiyyət daşıyan amil kimi çıxış edir.

ELZA MƏMMƏDOVA
Babək rayon Cəhri qəsəbəsi 1№-li tam orta məktəb
İbtidai sinif müəllimi
mamedova.elza.72@mail.ru

TƏHSİLVERƏNLƏRİN SERTİFİKATLAŞDIRILMASININ ÜMUMİ TƏHSİLİN İNKİŞAFINA TƏSİRİ

Məqalədə təhsilverənlərin sertifikatlaşdırılması prosesinin ümumi təhsilin keyfiyyətinə təsiri araşdırılmışdır. Sertifikatlaşdırmanın müəllimlərin peşəkar inkişafına, tədris prosesinin səmərəliliyinə və şagird nailiyyətlərinin yüksəlməsinə təsiri nəzəri və praktik aspektdən təhlil edilmişdir. Eyni zamanda proses zamanı meydana çıxan problemlər və inkişaf perspektivləri də araşdırılmışdır.

***Açar sözlər**: sertifikatlaşdırma, müəllim fəaliyyəti, təhsil keyfiyyəti, peşəkar inkişaf, ümumi təhsil*

Giriş. Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər müəllim fəaliyyətinə olan tələbləri daha da artırmışdır. Artıq müəllimdən yalnız fənn biliyi deyil, həm də müasir pedaqoji yanaşmaları tətbiq etmək, şagirdlərdə yaradıcı düşüncə formalaşdırmaq və təlim prosesini effektiv təşkil etmək bacarığı tələb olunur.

Təhsil sisteminin keyfiyyəti bir çox hallarda müəllimin peşə hazırlığından və onun öz üzərində davamlı işləməsindən asılıdır. Buna görə də dünyanın bir çox ölkələrində müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi və peşəkar inkişafının stimullaşdırılması üçün müxtəlif mexanizmlər tətbiq olunur.

Azərbaycan Respublikasında həyata keçirilən təhsil islahatları çərçivəsində tətbiq edilən sertifikatlaşdırma prosesi də bu məqsədə xidmət edir. Bu proses müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsi ilə yanaşı, onların peşəkar inkişafına motivasiya yaratmağa yönəlmişdir.

Son illərdə sertifikatlaşdırma mövzusu cəmiyyətdə geniş müzakirə olunan məsələlərdən birinə çevrilmişdir. Müxtəlif yanaşmaların mövcud olmasına baxmayaraq, prosesin əsas məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsi və məktəblərdə daha güclü pedaqoji mühitin formalaşdırılmasıdır.

Sertifikatlaşdırmanın mahiyyəti və məqsədi. Sertifikatlaşdırma müəllimin peşə fəaliyyətinin müəyyən meyarlar əsasında qiymətləndirilməsi prosesidir. Bu proses vasitəsilə müəllimlərin həm nəzəri hazırlıq səviyyəsi, həm də praktik pedaqoji bacarıqları müəyyən edilir.

Sertifikatlaşdırmanın əsas məqsədlərindən biri müəllimlərin peşəkar inkişafını stimullaşdırmaqdır. Müəllim fəaliyyətinin müasir təhsil tələblərinə uyğun qurulması üçün davamlı inkişaf vacib hesab olunur. Təhsil sahəsində yenilənən kurikulumlar, rəqəmsal texnologiyalar və yeni təlim metodları müəllimdən daim öyrənməyi tələb edir.

Bu proses eyni zamanda müəllim məsuliyyətinin artırılmasına xidmət edir. Sertifikatlaşdırma müəllimləri öz fəaliyyətlərinə daha ciddi yanaşmağa, metodiki hazırlıqlarını gücləndirməyə və tədris prosesində daha fəal olmağa təşviq edir.

Bununla yanaşı, sertifikatlaşdırma məktəblərdə sağlam rəqabət mühitinin formalaşmasına da müsbət təsir göstərir. Yüksək nəticə göstərən müəllimlərin maddi və mənəvi stimullaşdırılması pedaqoji fəaliyyətə marağı artırır.

Sertifikatlaşdırmanın müəllim fəaliyyətinə təsiri. Müəllim fəaliyyətinin keyfiyyəti təhsil sisteminin əsas göstəricilərindən biridir. Sertifikatlaşdırma prosesi müəllimlərin peşə fəaliyyətinə bir sıra istiqamətlərdə təsir göstərmişdir.

İlk növbədə müəllimlər arasında özünüinkişaf meyli güclənmişdir. Bir çox müəllim əlavə vəsaitlərdən istifadə etməyə, metodiki materiallar hazırlamağa və yeni təlim üsullarını öyrənməyə başlamışdır. Bu isə tədrisin keyfiyyətinə müsbət təsir göstərmişdir.

Sertifikatlaşdırma müəllimlərin dərsə hazırlıq səviyyəsini də artırmışdır. Əvvəllər daha çox ənənəvi üsullara üstünlük verən bəzi müəllimlər hazırda interaktiv təlim metodlarından istifadə

etməyə çalışırlar. Şagirdyönümlü yanaşmanın tətbiqi isə dərslərin daha maraqlı və effektiv keçməsinə səbəb olur.

Bu proses müəllimlərin rəqəmsal bacarıqlarının inkişafına da təsir göstərmişdir. Elektron resurslardan istifadə, onlayn platformalarla işləmək və rəqəmsal qiymətləndirmə vasitələrinin tətbiqi artıq müəllim fəaliyyətinin vacib hissəsinə çevrilmişdir.

Müşahidələr göstərir ki, sertifikatlaşdırmadan sonra bir çox məktəbdə müəllimlər arasında əməkdaşlıq da güclənmişdir. Təcrübə mübadiləsi, birgə müzakirələr və metodiki dəstək mühiti pedaqoji kollektivin fəaliyyətinə müsbət təsir göstərir.

Sertifikatlaşdırmanın şagird nailiyyətlərinə təsiri. Müəllimin peşəkar inkişafı şagird nailiyyətlərinə birbaşa təsir göstərir. Daha hazırlıqlı müəllim şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların bilik və bacarıqlarının inkişafına da müsbət təsir edir.

Müasir təlim metodlarından istifadə şagirdlərin sərbəst düşünmə, problem həll etmə və tədqiqat aparma bacarıqlarını inkişaf etdirir. Ənənəvi əzbərçiliyə əsaslanan dərslərlə müqayisədə interaktiv təlim şagirdlərin fəallığını artırır.

Bəzi məktəblərdə aparılan müşahidələr göstərir ki, sertifikatlaşdırmadan sonra summativ qiymətləndirmələrin nəticələrində müəyyən yüksəliş müşahidə olunmuşdur. Bu isə müəllim fəaliyyətində yaranan müsbət dəyişikliklərlə əlaqələndirilir.

Eyni zamanda şagird-valideyn-müəllim münasibətlərində də müəyyən müsbət dəyişikliklər müşahidə edilir. Müəllimlərin daha məsuliyyətli yanaşması valideynlərin məktəbə olan etimadını artırır.

Sertifikatlaşdırma prosesində mövcud problemlər. Sertifikatlaşdırmanın müsbət tərəfləri ilə yanaşı müəyyən problemləri də mövcuddur. Ən çox müzakirə olunan məsələlərdən biri qiymətləndirmənin bütün müəllimlər üçün eyni şərtlərlə aparılmasıdır.

Müxtəlif bölgələrdə çalışan müəllimlərin imkanları və resurslara çıxışı eyni deyil. Bu səbəbdən bəzi müəllimlər hazırlıq prosesində çətinliklərlə qarşılaşırlar.

Digər problem psixoloji gərginliklə bağlıdır. Xüsusilə uzun illər fəaliyyət göstərən müəllimlər üçün yenidən qiymətləndirmə prosesindən keçmək müəyyən narahatlıq yaradır.

Bəzi hallarda test əsaslı qiymətləndirmənin müəllimin real pedaqoji fəaliyyətini tam əks etdirmədiyi də qeyd olunur. Müəllimin sinif idarəetməsi, şagirdlərlə münasibəti və praktik tədris bacarıqları da nəzərə alınmalıdır.

Bu baxımdan sertifikatlaşdırma prosesinin daha da təkmilləşdirilməsi və qiymətləndirmə mexanizmlərinin inkişaf etdirilməsi vacib hesab olunur.

Nəticə. Beləliklə, təhsilverənlərin sertifikatlaşdırılması ümumi təhsilin inkişafına təsir göstərən mühüm mexanizmlərdən biridir. Bu proses müəllimlərin peşəkar inkişafını stimullaşdırır, tədrisin keyfiyyətini artırır və şagird nailiyyətlərinə müsbət təsir göstərir.

Sertifikatlaşdırma eyni zamanda müəllim məsuliyyətinin güclənməsinə, məktəblərdə sağlam pedaqoji mühitin formalaşmasına və müasir təlim metodlarının tətbiqinin genişlənməsinə şərait yaradır.

Bununla yanaşı, prosesin daha effektiv həyata keçirilməsi üçün müəllimlərə metodiki dəstəyin artırılması, bölgələr üzrə imkan fərqlərinin azaldılması və qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi vacibdir.

Müasir dövrdə keyfiyyətli təhsil güclü müəllim amilindən asılı olduğuna görə sertifikatlaşdırma gələcək illərdə də təhsil sisteminin əsas inkişaf istiqamətlərindən biri kimi aktuallığını qoruyacaqdır.

GÜLAYƏ NOVRUZOVA
Babək rayonu Sirab kənd tam orta məktəbi
İbtidai sinif müəllimi

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Son illərdə ibtidai təhsildə şagirdlərin bacarıqlarının yoxlanılması üçün dördüncü siniflərdə monitorinq imtahanlarının keçirilməsi təhsilimizdə mühüm bir addımdır. Monitorinq imtahanları təhsilimizdə olan problemləri üzə çıxarmaqda bizlərə dəstək olur. Hər nə qədər bu imtahanlar təhsilin keyfiyyətini artırmaq üçün keçirilsə də,lakin bu prosesin nəticələri araşdırılan zaman bəzi problemlər narahatlıq yaradır.

Açar sözlər: *dərsliklərlə uyğunsuzluq, şagirdlərə psixoloji təsir*

Monitorinq imtahanlarında ana dilində istifadə olunan suallar məntiqi təfəkkürü, oxuyub-anlamanı yoxlayan beynəlxalq qiymətləndirmə standatlarına əsaslanır. Amma dərsliklərin əsas hissəsi hələ də yaddaşa və qayda əzbərləməyə yönəlib. Dərslikdəki proqramı keçən müəllimlə imtahan sualları arasında ziddiyət yaranır. Şagirdlər imtahanda qaydalardan sual düşmədiyi halda nə üçün onları əzbərlədiklərini bildirirlər. Qaydalardan sualların salınmaması ana dilindən nəticələrin aşağı olmasına təsir edir. Əgər imtahanda oxuyub-anlama tələb olunursa, bu tələb il boyu keçirilən dərslərin və dəsliklərində əsas fəlsəfəsi olmalıdır. Sinifdə qayda əsaslanan təhsil verib, imtahanda məntiqi təfəkkürü yoxlamaq şagirdləri düzgün qiymətləndirməyə imkan vermir. Bir çox şagirdlərdə oxuduqları mətni anlama və təhlil etmə bacarığı zəif olduğu üçün həcmcə iri mətnlərin müəyyən vaxt müddətində işləmələri onlarda çətinlik yaradır. Kurikulum, dərslik və qiymətləndirmə mütləq bir-birini tamamlamalıdır.

Monitorinq imtahanlarının nəticələrinə təsir edən amillərdən biri olaraq regionlar arasında internet paylaşımlarının eyni keyfiyyətdə olmaması təhsil şöbələri tərəfindən təşkil olunan onlayn sınaqlarda şagirdlərin hamısının iştirak edə bilməməsinə gətirib çıxarır. Bu problemlə üzləşən şagirdlərə dəstək olmaq məqsədi ilə əyani formalı sınaqlarda təşkil olunmalıdır. Bu imtahanda mənfi cəhətlərdən biri şagirdlərin yalnız öz sinif müəllimlərinin rəhbərliyi ilə sinif daxilində keçirilmiş sınaqlara öyrəşməsidir.İmtahanların başqa nəzarətçilərin iştirakı ilə fərqli məktəblərdə keçirilməsi uşaqlarda stress və həyəcan yaradır. Bunun aradan qaldırılması üçün məktəb daxilində il ərzində bir neçə dəfə bu formada sınaqların təşkil olunması şagirdlərə psixoloji dəstək rolunu oynamış olar.

Dördüncü sinif ibtidai təhsilin yekunu sayılır. Bu mərhələdə monitorinq imtahanları nəticəsində aşkar olunan boşluqlar vaxtında doldurularsa, şagirdin yuxarı sinifin ilk pilləsində uğurunun əsası qoyular. Bu imtahanlar təhsilimzdə olan mövcud problemləri göstərməkdə bizı dəstək olur. Gördüyümüz problemləri aradan qaldıraraq uğurlu gələcəyə çata bilərik. Əsl uğur imtahanların yaratdığı psixoloji gərginliyi azaltmaq,regionlar arasındakı fərqi aradan qaldırmaq, əldə olunan nəticələri təhlil edib zəif göstəricilər üzərində çalışmaqdır. Aşağı nəticə göstərən məktəblərə metodiki dəstək, təcrübəli kadr və əlavə resurs ayrılmalıdır. Yalnız bundan sonra monitorinqlər sadəcə bir yoxlama deyil, təhsilin keyfiyyətini yüksəldən bir islahata çevrilə bilər.

ИНАРА ДЖАФАРОВА
преподаватель Азербайджанского Государственного Педагогического Колледжа при Азербайджанском Государственном Педагогическом Университете
ceferova.nara@list.ru

РАЗВИТИЕ ТВОРЧЕСКИХ СПОСОБНОСТЕЙ УЧАЩИХСЯ В УЧЕБНОМ ПРОЦЕССЕ

Развитие творческих способностей учащихся является важным аспектом современного образования. Одна из основных задач современного педагога является развитие творческой активности учеников в учебном процессе. Интерактивные методы, открытые задания, исследовательские проекты, могут эффективно способствовать развитию творческого мышления учащихся.

Ключевые слова: *учебный процесс, самостоятельная работа, творческая деятельность, интерактивные методы, ученик*

Среди факторов, влияющих на качество обучения учащихся в учебном процессе, серьезное внимание уделяется творческой деятельности. В учебнике «Школьная педагогика» говорится: «Высшей формой деятельности является творческая деятельность. Для творческой деятельности характерны исследование и поиск способов решения поставленной задачи, её выполнение, а иногда и выявление оригинальных средств. Творческая деятельность играет важную роль в формировании ученика как сознательной личности. Уровень активности и самостоятельности ученика в обучении во многом определяет его будущую жизненную позицию». В соответствии с тематикой исследования следует отметить, что существует множество факторов, стимулирующих творческую активность учеников. В этой связи целесообразно перечислить некоторые особенности, важные для активности учеников в процессе обучения.

К ним относятся:

- ✓ когнитивные операции в учебной деятельности учеников;
- ✓ формы проявления когнитивных операций в учебной деятельности учеников;
- ✓ извлечение мотивации в учебной деятельности учеников;
- ✓ изучение познавательных интересов учеников в их учебной деятельности;
- ✓ определение места педагогической коммуникации в учебной деятельности учеников.

Логическим выводом из этой классификации является то, что, как видно, формы проявления ученической активности в процессе обучения можно разделить на три группы: внешняя активность, внутренняя активность и творческая активность. Оказалось, что высшей формой деятельности является творческая деятельность. Творческая деятельность имеет множество преимуществ. В процессе обучения и преподавания ученик занимается самосовершенствованием, а преподаватели усваивают примеры применения полученных знаний, используя правильные, обоснованные теоретические и методические возможности. Потенциальная важность для учеников приобретения навыка самостоятельной работы в процессе творческой деятельности поистине велика. Творческий потенциал и эмоциональность, присущие природе педагогической деятельности, позволяют оптимизировать образовательный процесс как в среднем, так и в высшем образовании. Учитель – это творческая личность, которая в процессе обучения влияет на качество усвоения знаний учеником. В организации самостоятельной работы он подходит к творческой деятельности со всеми своими талантами и способностями, готовит своих учеников к жизни в направлении свободного мышления, самостоятельной деятельности, деловой психологии, глубокого аналитического анализа. Учитель также следит за творческим мышлением (уровнем креативности) учеников, заботится о мобилизации учеников с определенными творческими способностями, наряду с детьми высокого уровня, и учениками, отстающими в обучении. То есть учитель мобилизует всю свою творческую натуру для эффективной организации

предстоящего урока: «концентрирует внимание, моделирует содержание и сущность урока, продумывает привлекательную творческую задачу, разбивает этот вопрос на отдельные подзадачи. Иными словами, учитель «встречается» с условиями, в которых будет проходить урок, с психологической точки зрения, что способствует формированию его «влиятельной линии поведения». Стимулирование творческой активности учащихся в процессе обучения имеет большое значение. Для этого в структурные компоненты деятельности включаются следующие элементы:

1) готовность к выполнению заданий;
2) стремление к самостоятельности;
3) осознанное выполнение заданий;
4) систематическое вовлечение в обучение;
5) стремление к повышению личностного уровня.

Для стимулирования активности учащихся на уроках используется создание активизирующих ситуаций. В педагогической литературе упоминаются различные их типы:

- ✓ отстаивание собственного мнения;
- ✓ участие в дискуссиях;
- ✓ задавание вопросов;
- ✓ оценивание ответов сверстников;
- ✓ обратная связь ;
- ✓ помогать отстающим;
- ✓ работать самостоятельно;
- ✓ находить несколько решений одной и той же проблемы;
- ✓ решать проблемы, применяя комплексные методы и т. д.

Учитель должен стремиться стимулировать активность каждого ученика, превращать обучение в привлекательную и приятную деятельность, используя рассматриваемые мотивы и стимулы своевременно и умело».

Как видно, когда творческая деятельность учащихся в процессе обучения осуществляется на научной основе, с использованием современных инноваций, проверенных методических средств и диагностических требований, расширяются творческие горизонты ученика. Он легко сможет заложить прочную основу для этапа «обучения учиться». Активируя мотивацию к обучению и когнитивные мотивы на равном уровне, он сможет повысить свою готовность к самостоятельному мышлению в исследовательской деятельности. В зависимости от обогащения структурных элементов педагогической деятельности, крайне актуальной и важной задачей является профессиональная, творческая организация ее новых направлений на основе высококлассной методической работы. Без знания методических основ правильной организации творческой деятельности учащихся, их психологического состояния и общих вопросов невозможно овладеть необходимыми в этой области профессионально-художественными компетенциями на основе серьезных ценностей. Поэтому многое зависит от профессионального совершенствования и улучшения функциональных технологий и особенностей применения творческой деятельности.

PANEL 7. TARİX VƏ COĞRAFİYA FƏNLƏRİNİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

AYTƏKİN QƏHRƏMANOVA
Naxçıvan Müəllimlər İnstitutu
Tarix üzrə fəlsəfə doktoru

TARİX DƏRSLƏRİNDƏ FƏAL TƏLİM METODLARI VƏ ETNOQRAFİK MƏZMUN

Tarix dərslərində fəal təlim metodları ilə etnoqrafik materialların tətbiqi şagirdlərdə analitik düşüncə, tədqiqat bacarıqları və milli kimlik hissini formalaşdırır. Naxçıvanın zəngin etnoqrafik irsi əsasında aparılan tədris prosesi biliklərin daha səmərəli və maraqlı mənimsənilməsinə şərait yaradır.

Açar sözlər: *tarix tədrisi, fəal təlim, etnoqrafiya, Naxçıvan, maddi-mənəvi dəyərlər, interaktiv metodlar*

Müasir təhsil sistemində tarix fənninin tədrisi şagirdlərə fakt və hadisələrin öyrədilməsi ilə yanaşı, həm də onlarda milli kimlik, milli-mənəvi dəyərlərə bağlılıq, vətənpərvərlik hisslərinin və analtik düşünmə tərzini formalaşdırılması kimi məqsədlər daşıyır. Bu baxımdan, tarix elminin tərkib hissələrindən biri olan etnoqrafiya elmi onun bütövlüyünün, tamlığını təsdiqləyir. Çünki, etnoqrafiya elmi xalqı və onun həyat tərzini, təsərrüfat həyatını, ailə-məişət münasibətlərini, adət-ənənələrini, dünyagörüşünü, maddi mədəniyyətini və s. əks etdirərək tarixə canlılıq, dolğunluq və bütövlülük gətirir.

Azərbaycan tarixinin müxtəlif problemlərinin öyrənilməsində etnoqrafiya elmi mühüm rol oynayır. Hər bir xalqın tarixi onun maddi mədəniyyət abidələrində və milli-mənəvi dəyərlərində qorunub saxlanılır. Onların tədqiq edilməsi ilə etnik varislik, mədəniyyətin milli mənsubluğu, yayılma arealı məsələlərini təyin etmək və aydınlaşdırmaq mümkündür. Bu baxımdan da qədim sivilizasiya ocaqlarından və ilk isan məskənlərindən biri olan Naxçıvan diyarının zəngin etnoqrafik materiallarının tarix dərslərinə tətbiq edilməsi xalqımızın tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Xalqların, ölkələrin bir-birinə daha çox inteqrasiya olunduğu, dərin qloballaşma proseslərinin getdiyi indiki şəraitdə xalqımızın maddi mədəniyyəti ilə yanaşı, onun milli kimlik pasrotu olan xalq yaradıcılığının qorunub saxlanması və inkişaf etdirilməsi, xalq sənət nümunələrinin, milli mətbəxin, adət-ənənlərin, milli rəqs və mahnı sənətinin daha geniş, sistemli şəkildə təbliğ olunması, böyüməkdə olan gənc nəslə milli-mənəvi dəyərlərin aşılanmasında mühüm rol oynayır.

Etnoqrafik materialları tarix dərslərinə tətbiq edərkən fəal təlim metodlarından istifadə edildikdə daha yüksək nəticə əldə etmək olar. Belə ki, fəal təlim metodlarının tədris prosesinə tətbiqi nəticəsində şagirdlər passiv dinləyici kimi deyil, aktiv iştirakçı kimi çıxış edirlər. Tarixin tədrisi prosesində mövzuya uyğun etnoqrafik materialladan istifadə edilərkən interaktiv təlim metodlarından olan **beyin həmləsi, diskussiya və debat, rol oyunları, layihə üsulları, problem əsaslı öyrənmə** və s. kimi yanaşmalar şagirdlərdə **tədqiqat aparmaq, müqayisə etmək, nəticə çıxarmaq kimi bacarıqları** inkişaf etdirir, maddi və milli-mənəvi dəyərlərimizə hörmət və məhəbbət hissi aşılayar. Bunla yanaşı, etnoqrafik materialların tarix dərslərinə tətbiqi tarixi hadisələri daha canlı və anlaşılan edəək şagirdlərdə azərbaycançılıq ideyasını, milli kimlik hissini gücləndirir.

Yazılı mənbələrlə yanaşı, xalq arasında aparılan sorğular xalqımıza xas olan adət-ənənələri, ümumiyyətlə, maddi və milli-mənəvi dəyərləri öyrənmək şagirdlərin biliklərinin möhkəmləndirir və onların tarixi yaddaşını gücləndirir, xalqımızın mili dəyərlərini öyrənərək onları yaşadır və sonrakı nəsillərə ötürürür.

Bu baxımdan etnoqrafik çalarlarla zəngin olan Naxçıvan materiallarından: maddi mədəniyyət nümunələri (yaşayış məskənləri, nəqliyyat növləri, sənətkarlıq sahələri, geyimlər, yeməklər və s.), milli-mənəvi dəyərlər (adət-ənənələr, mərasimlər, ailə-məişət məsələləri və s.) tədris üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan tarixinin müəyyən mövzularının tədrisində bölgənin etnoqrafik materiallarının tətbiqi prosesində fəal təlim metodlarından istifadə edilməsi nəticəsində şagirdlərdə tarixi biliklərin konkret faktlar əsasında mənimsənilməsinə şərait yaradır. Məsələn, 7-ci sinif Azərbaycan tarixinin “Əhalinin məşğuliyyəti və həyat tərzi” mövzusunun tədrisi prosesində müəllim mövzunu Naxçıvan materialları əsasında təqdim etdiyinə görə ən uyğun fəal təlim metodlarından olan **“Konseptual”** cədvəldən isitifadə etsə daha yüksək nəticə əldə etmiş olar. Lövhədə çəkilən cədvəl əsasən aşağıdakı formada olur:

Əhalinin məşğuliyyəti	**Nə istehsal olunurdu**
Əkinçilik	Taxıl (buğda, arpa, darı və s.)
Maldarlıq	Ət, süd (ət və süd məhsulları)
Toxuculuq	Xalça, kilim, palaz, parça
Qırmız böcəyi	Qırmızı boya
Sənətkarlıq	Dulusçuluq, misgərlik, şalbaflıq və s

Bu prosesdə şagirdlər həm yazılı mənbələrdən, həm də çöl-etnoqrafik materiallara istinadən bu ərazidə qədim dövrlərdən etibarən xalçaçılıq, dulusçuluq, şalbaflıq və s. haqqında material toplayaraq qruplar şəklində cədvəli doldururlar.

Şagirdlər Orta əsrlərdə Naxçıvan əhalisinin əsas məşğuliyyət sahələrinin əkinçilik, maldarlıq, sənətkarlıq və s.olduğunu öyrənirlər. Hətta, şagirdlər Naxçıvanın Arazboyu ərazilərində yayılan və qırmızı boya almaq üçün istifadə olunan qırmızı böcəyin toplanması əhalinin köməkçi məşğuliyyət sahələrindən biri olduğu haqqında da məlumat toplayırlar. Bu faktı qeyd etməklə şagirdlər Orta əsrlərdə Naxçıvanda sənətkarlığın, xüsusilə də boyaqçılıq və toxuculuğun inkişaf etdiyini vurğulayırlar. Bu cür etnoqrafik nümunələrin tarix dərslərində istifadə olunması tarixi biliklərin yerli materiallar əsasında mənimsənilməsinə, maddi mədəniyyətə marağın artmasına, şagirdlərdə **tədqiqat və müqayisə** bacarıqlarının formalaşmasına kömək edir.

İnteraktiv təlim metodlarından biri olan **“Rol oyunu”** Naxçıvan etnoqrafik materialları əsasında tarix dərslərinə tətbiq edərkən “Naxçıvanda Novruz adətləri” mövzusu bu əsasda təşkil olunur. Belə ki, bu metod vasitəsi ilə şagirdlərin müəyyən obrazı canlandırması vasitəsi ilə tarixi-etnoqrafik hadisələri daha dərindən dərk etməsinə zəmin yaradır. Bu zaman şagirdlərdə **ünsiyyət, təqdimetmə və əməkdaşlıq bacarıqları** formalaşır. Məsələn, rollar belə ola bilər: Aliə başçısı (bayrama hazırlıq), ana (səməni qoyması və bayram şirniyyatının hazırlanması), uşaq (papaqatdı), kosa, keçəl və s. Müəllim bu zaman şagirdlərə belə belə sualla müraciət edə bilər: Naxçıvanda Novruz bayramına necə hazırlaşırlar? Şagirdlər bunu səhnəcik kimi təqdim edə bilərlər: ev təmizlənməsi, səməni qoyulması, bayram süfrəsinin hazırlanması, papaqatdı, kosa-keçəl oyunu və s.

Bu metodun tədbiqi nəticəsində şagirdlərdə milli dəyərlərə hörmət hissi, tarixi-mədəni irsə maraq, **təqdimetmə və əməkdaşlıq bacarıqları, o cümlədən yaradıcı düşüncələri** inkişaf edir.

“Müasir dövrümüzdə milli dəyərlərin qorunması və yaşadılması” mövzusunun tədrisində “**Diskussiya“** metodunun tətbiqi məqsədəuyğundur. Bu proses zamanı şagirdlər müxtəlif mövqedən çıxış edərək öz fiklərini əsaslandırır, fakt və nümunələrə istinad edir, qarşı tərəfin fikirlərini təhlil edir və nəticə çıxarmaq bacarıqlarını inkişaf etdirirlər. Bu zaman şagirdlərdə tənqidi düşünmə, analtik təhlil, şagird yoldaşlarının fikrinə hörmət bacarıqlarını formalaşdırır. Diskussiya metodunun tətbiqində əsas məqsəd şagirdləri **fəal öyrənmə** prosesinə cəlb etməkdir. Diskussiya zamanı şagirdlər xalqın yartdığı, əsrlərin süzcəgindən ələnərək günümüzə qədər gəlib çatmış milli dəyərlərimizin cəmiyyətdəki rolunu müzakirə edir, öz mövqelərini faktlara və dəlillərə istinadən bildirir və fərqli baxışlarla öz müstəqil fikirlərini şərh edirlər. Bu cür yanaşmada şagirdlərdə həm vətəndaşlıq mövqeyinin, həm də milli-mənəvi dəyərlərə şüurlu münasibətlərin formalaşması prosesi gedir.

Tarix dərslərində etnoqrafik materialları tətbiqi zamanı muzeylərə və tarixi abidələrə **ekskursiya**ların təşkil edilməsi zamanı **müşahidə**lərin aparılması şagirdlərin nəzəri biliklərinin praktik təcrübə ilə möhkəmləndirilməsinə köməklik edir. Məsələn, Naxçıvan şəhərində yerlən “Milli-Mənəvi Dəyərlər Muzeyi”nə, “Naxçıvan Dövlət Tarix Muzeyinə”, tarixi abidələrdən “Mömünə

Xatun” türbəsinə “Yusif Küseyir” məqbərəsinə, “Xan sarayı”na, rayonlarda isə diyarşünaslıq muzeylərinə, həmin rayonda mövcud olan tarixi abidələrə və s. tarixi yerlərə ekskursiyalar təşkil olunaraq şagirdlər real etnoqrafik nümunələrlə tanış edilir. Bu, **nəzəri biliklərin praktik təcrübə ilə möhkəmlənməsinə** köməklik göstərir.

Nəticə etibarı ilə demək olar ki, tarix dərslərində interaktiv/fəal təlim metodlarının tətbiqi zamanı etnoqrafik materiallarından istifadə edilməsi şagirdlərin həm bilik səviyyəsini artırar, həm də milli-mənəvi dəyərlərimizə hörmət və məhəbbət hissi aşılayar. Naxçıvan diyarının zəngin etnoqrafik irsi bu istiqamətdə daha geniş imkanlar yaradır.

Tarix dərslərinin daha keyfiyyətli tədrisi üçün digər fənlərə, o cümlədən etnoqrafik materialların sistemli şəkildə tətbiq edilməsi, müəllimlərin fəal təlim metodlarına tam yiyələnməsi, resurs və vizual materiallardan məqsədə uyğun şəkildə istifadə edilməsi tövsiyə edilir.

SONA MƏHƏRRƏMOVA
Sumqayıt Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
sona.maharramova@sdu.edu.az

TARİXİN TƏDRİSİNDƏ İNTEQRATİV YANAŞMALAR: NƏZƏRİ-METODOLOJİ ƏSASLAR VƏ PRAKTİKİ TƏTBİQ PERSPEKTİVLƏRİ

Müasir təhsil sistemində baş verən transformasiyalar fənlərarası inteqrasiyanın və multidissiplinar yanaşmaların tətbiqini zəruri etmişdir. Tarix fənninin tədrisində inteqrativ yanaşma şagirdlərin yalnız faktoloji biliklər əldə etməsini deyil, həm də onların analitik, tənqidi və yaradıcı təfəkkürünün formalaşdırılmasını təmin edir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, inteqrativ yanaşmalar tədris prosesinin səmərəliliyini artırır və şagirdlərin bilikləri sistemli şəkildə mənimsəməsinə şərait yaradır.

Açar sözlər: *tarix tədrisi, inteqrativ yanaşma, fənlərarası əlaqə, konstruktivizm, analitik düşüncə*

XXI əsrdə təhsil sistemi yalnız bilik ötürən mexanizm kimi deyil, həm də şəxsiyyət formalaşdıran kompleks sosial institut kimi çıxış edir. Bu baxımdan təhsil prosesində tətbiq olunan metod və yanaşmaların yenilənməsi mühüm əhəmiyyət kəsb edir. Ənənəvi təlim modeli əsasən informasiyanın ötürülməsi və yadda saxlanmasına yönəldiyi halda müasir təhsil konsepsiyaları şagirdlərin aktiv iştirakını, müstəqil düşünməsini və problemlərin həllinə yaradıcı yanaşmasını ön plana çıxarır.

Tarix fənni bu kontekstdə xüsusi əhəmiyyətə malikdir. Çünki tarix yalnız keçmişin öyrənilməsi deyil, həm də müasir proseslərin anlaşılması üçün əsas vasitədir. Lakin ənənəvi tarix tədrisi çox vaxt faktların əzbərlənməsi ilə məhdudlaşır və şagirdlərin analitik düşünmə bacarıqlarının inkişafına kifayət qədər imkan yaratmır. Bu problemin həlli yollarından biri inteqrativ yanaşmanın tətbiqidir. İnteqrativ yanaşma müxtəlif fənlər arasında qarşılıqlı əlaqələrin yaradılması və biliklərin kompleks şəkildə təqdim olunmasını nəzərdə tutur. Bu yanaşma tarix dərslərində hadisələrin yalnız xronoloji ardıcıllıqla deyil, həm də sosial, iqtisadi, coğrafi və mədəni kontekstlərdə öyrənilməsinə imkan verir.

İnteqrativ təlim ideyası pedaqoji elmdə uzun müddətdir müzakirə olunur. Bu yanaşma xüsusilə XX əsrin ikinci yarısından etibarən geniş yayılmışdır. Drake və Burns inteqrativ kurikulumun şagirdlərin bilikləri əlaqələndirmə və real həyat situasiyalarında tətbiq etmə bacarıqlarını inkişaf etdirdiyini qeyd edirlər. Onların fikrincə, inteqrasiya olunmuş təlim modeli şagirdlərə daha mənalı və funksional biliklər qazandırır. Tarix tədrisində inteqrativ yanaşmanın nəzəri əsaslarından biri “tarixi düşüncə” konsepsiyasıdır. Bu yanaşma şagirdlərin yalnız faktları yadda saxlamasını deyil, həm də mənbələri təhlil etməsini, müxtəlif baxışları müqayisə etməsini və nəticə çıxarmasını tələb edir. Tarixi düşüncə şagirdlərdə səbəb-nəticə əlaqələrinin qurulması və hadisələrin çoxşaxəli şəkildə qiymətləndirilməsi bacarığını formalaşdırır.

İnteqrativ yanaşmanın əsas ideoloji bazasını isə Konstruktivist təlim nəzəriyyəsi təşkil edir. Bu nəzəriyyəyə görə, biliklər hazır formada qəbul edilmir, əksinə, şagird tərəfindən aktiv şəkildə qurulur. Bu prosesdə sosial mühit, qarşılıqlı əlaqə və təcrübə mühüm rol oynayır. Bu baxımdan inteqrativ yanaşma şagirdlərin öyrənmə prosesində aktiv iştirakını təmin edir və onların idrak fəaliyyətini stimullaşdırır. Müasir tədqiqatlar göstərir ki, fənlərarası inteqrasiya şagirdlərin motivasiyasını artırır, onların dərsə marağını gücləndirir və öyrənilən materialın daha uzunmüddətli yadda qalmasına səbəb olur. Eyni zamanda bu yanaşma şagirdlərdə kompleks düşünmə və problemlərin həlli bacarıqlarını inkişaf etdirir.

Tarixin tədrisində inteqrativ yanaşma müxtəlif elmi sahələrin qarşılıqlı əlaqədə öyrənilməsini nəzərdə tutur. Bu yanaşma şagirdlərə hadisələri yalnız faktlar toplusu kimi deyil, kompleks sistem kimi dərk etməyə imkan verir. İnteqrativ yanaşmanın əsas xüsusiyyətlərinə - biliklərin sistemli şəkildə təqdim olunması, fənlərarası əlaqələrin qurulması, şagirdlərin aktiv iştirakının təmin edilməsi,

real həyatla əlaqələndirmə daxildir. Bu xüsusiyyətlər tarix dərslərinin daha interaktiv və səmərəli təşkilinə şərait yaradır.

Tarixin tədrisində fənn daxili (şaquli) və fənlərarası (üfiqi) inteqrasiyanın aparılması məqsədəuyğundur. Fənlərarası inteqrasiya Tarix təliminin elmi əsaslarını möhkəmləndirir, biliklərin daha dərin və məqsədyönlü mənimsənilməsinə şərait yaradır.Tarix təlimində coğrafiya, ədəbiyyat, iqtisadiyyat, politologiya, riyaziyyat, biologiya, sosiologiya və sair fənnlərlə inteqrasiya tarixi hadisə və proseslərin şagirdlər tərəfindən analiz, təhlil və tətbiq etmə qabiliyyətini daha da dərinləşdirir.

İnteqrativ yanaşmanın tətbiqi bir sıra mühüm pedaqoji üstünlüklər var. Belə ki, inteqrativ yanaşma analitik və tənqidi düşünmə bacarıqlarının inkişaf etdirir, şagirdlərin dərsə marağını artırır, tarixi biliklərin praktik tətbiq imkanlarını öyrənir, müstəqil tədqiqat bacarıqları formalaşır. Həmçinin, bu yanaşma şagirdlərdə kompleks və sistemli düşünmə qabiliyyətini inkişaf etdirir.

İnteqrativ yanaşmanın tətbiqi müəllimdən xüsusi elmi və metodiki hazırlıq səviyyəsi tələb edir. Belə ki, inteqrasiya prosesini həyata keçirmək üçün müəllim dərin elmi biliklərə və dünyagörüşünə malik olmalı, dərsliklərin inteqrativ yanaşmaya tam uyğun olub olmamasından asılı olmayaraq inteqrasiyanı təşkil edə bilməli, vaxtı düzgün idarə etməli, qiymətləndirməni həyata keçirməlidir.

Nəticə etibarilə, tarixin tədrisində inteqrativ yanaşma müasir təhsil sisteminin tələblərinə cavab verən effektiv metodoloji yanaşmadır. Bu yanaşma şagirdlərin yalnız bilik səviyyəsini deyil, həm də onların analitik, tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirir. Onları passiv məlumat alan deyil, aktiv bilik yaradan subyektə çevirir.

AYTAC TAĞIYEVA
Bakı Dövlət Univesiteti
Fəlsəfə doktoru proqramı üzrə dissertant
aytac760@mail.ru

COĞRAFİYANIN TƏDRİSİNDƏ MOTİVASİYA MƏRHƏLƏSİNİN TƏŞKİLİ ZAMANI AZƏRBAYCAN COĞRAFİYASI MATERİALLARINDAN İSTİFADƏ İMKANLARI

Məqalədə coğrafiya dərsinin motivasiya mərhələsinin Azərbaycan coğrafiyasına aid materiallar əsasında təşkilinin istifadə imkanları araşdırılır. Tədqiqatın məqsədi lokal, vizual və kartoqrafik materialların motivasiya mərhələsində şagirdlərin idrak marağını, əvvəlki biliklərinin aktuallaşmasını və yeni mövzuya psixoloji hazırlığını necə təmin etdiyini müəyyənləşdirməkdir. Azərbaycan coğrafiyasına aid təbii obyektlər, xəritələr, fotoşəkillər, diaqram və xəritə-sxemlər kimi materiallardan istifadə şagirdləri real həyat təcrübəsinə hazırlayır, səbəb-nəticə əlaqələrinin qurulmasını gücləndirir və coğrafi təfəkkürün inkişafına həmçinin vətəndaş təfəkkürü və milli-mənəvi dəyərlərin formalaşmasına xidmət edir.

Açar sözlər: *motivasiya, coğrafiyanın tədrisi, Azərbaycan coğrafiyası, vizual materiallar, lokal məkan*

Ümumi təhsil standartlarında coğrafiya fənni üzrə şagirdin coğrafi hadisə və proseslərin mahiyyətini izah etməsi, ölkəsinin coğrafi özəllikləri və iqtisadi inkişaf potensialı haqqında məlumatları müqayisəli şəkildə şərh etməsi, kartoqrafik bacarıqlar nümayiş etdirməsi və müxtəlif mənbələr əsasında təqdimatlar etməsi əsas nəticələr kimi müəyyənləşdirilmişdir. Bu tələblər dərsin başlanğıc mərhələsinin sadəcə diqqət toplama funksiyası daşımadığını, əksinə, sonrakı idrak fəaliyyətinin istiqamətini müəyyən edən didaktik mexanizm olduğunu göstərir. Təlim psixologiyasına dair araşdırmalar da təsdiq edir ki, düzgün qurulan motivasiya şagirddə məqsəd aydınlığı, intensiv maraq və daxili idrak tələbatı yaradır; problemli situasiya isə təfəkkürü fəallaşdıraraq yeni biliyin mənimsənilməsi üçün başlanğıc marağını formalaşdırır.

Azərbaycan coğrafiyası materiallarının motivasiya mərhələsində üstünlüyü onların şagird üçün tanış, müşahidə oluna bilən və həyati əhəmiyyət daşıyan məzmun təqdim etməsidir. Diyarşünaslıq yönümlü yanaşma şagirdə “uzaq coğrafiya”nı deyil, əvvəlcə yaşadığı və ya tanıdığı coğrafi məkanı dərk etdirməklə coğrafi müşahidə, müqayisə və ümumiləşdirmə bacarıqlarını fəallaşdırır. Bu baxımdan Xəzərsahili ərazilər, Kür-Araz ovalığı, Böyük və Kiçik Qafqaz, Abşeron yarımadası, Lənkəran təbii kompleksi kimi materiallar motivasiya üçün yalnız faktoloji baza deyil, həm də şagirdin şəxsi təcrübəsi ilə birbaşa əlaqələnən mənalı məzmundur. Elmi ədəbiyyatda bu cür materialların coğrafi müşahidə və tədqiqata əlverişli şərait yaratdığı, milli-məkan şüurunun və ekocoğrafi düşüncənin formalaşmasına xidmət etdiyi vurğulanır.

Vizual materiallar motivasiya mərhələsində şagirdin diqqətinin cəmlənməsi, idrak marağının formalaşması və problemli təfəkkürün aktivləşdirilməsi baxımından mühüm rol oynayır. Coğrafiya tədrisində məkan-zaman təfəkküründün formalaşması üçün əyani vasitələr ilkin empirik istinad nöqtəsi kimi çıxış edir; xəritə üzrə müqayisə, xəritə-sxem tərtibi, kartoqrafik modelləşdirmə və vizual təqdimat şagirdin səbəb-nəticə əlaqələrini dərk etməsini asanlaşdırır. VARK modelinə dair tədqiqatlar şəkillər, diaqramlar və digər vizual materialların mənimsəmə prosesini asanlaşdırdığını göstərir. Bu baxımdan motivasiya mərhələsində foto, xəritə, diaqram və qısa statistik qrafiklərdən istifadə təsadüfi vasitə deyil, coğrafi anlayışların əməlgəlmə məntiqinə uyğun metodik seçimdir.

Məktəb dərsliklərinin strukturu da bu yanaşmanı təsdiq edir. Məsələn: VI sinif dərsliyində “Maraqoyatma” ayrıca struktur elementi kimi təqdim olunmuş, mövzunun maraqlı situasiya, hadisə və faktların təsviri ilə başlanması nəzərdə tutulmuşdur; elə həmin dərslikdə “Azərbaycan – mənim vətənimdir” mövzusunda şəkillər əsasında ölkənin təbiəti və iqtisadiyyatını şərh etmək, müzakirə sualları vasitəsilə əvvəlki bilikləri aktuallaşdırmaq təklif olunur. VIII sinif dərsliyində Azərbaycanın

bitki və heyvanlar aləmi, ekoloji vəziyyəti və turizm-rekreasiya ehtiyatları kimi mövzular lokal məzmunun motivasiya potensialını genişləndirir. IX sinif dərsliyində isə coğrafi informasiyanın mətn, şəkil, cədvəl, qrafik, xəritə, aerofotoşəkil, kosmik şəkil, kartoqram və kartodiaqram vasitəsilə təqdim oluna bilməsi ayrıca metodik məzmun kimi verilir. Bu faktlar göstərir ki, motivasiya mərhələsi üçün Azərbaycan coğrafiyası mövzuları yalnız fakt mənbəyi deyil, həm də metodik baxımdan hazır didaktik resursdur.

Motivasiya mərhələsinin təşkili zamanı Azərbaycan coğrafiyasına aid lokal məlumatlardan və problemli situasiyalardan istifadə ilə bağlı aşağıdakı nümunələri göstərmək olar:

– "İqlim və onun yaranması" mövzusunda şagirdlərə Bakıda yay aylarında temperaturun yüksək olmasına baxmayaraq, Lənkəranda daha rütubətli hava şəraitinin müşahidə edilməsinin səbəbi haqqında problemli sual təqdim edilir;
– "Ətraf mühitin çirklənməsi" mövzusunda Abşeron yarımadasında neft hasilatının ekoloji təsiri ilə bağlı fotoşəkil nümayiş etdirilərək şagirdlərdən problemin mümkün nəticələrini müəyyənləşdirmək tələb olunur;
– "Təbii ehtiyatlar" mövzusunda Qarabağ və Naxçıvanın mineral ehtiyatları haqqında qısa statistik məlumat təqdim edilərək həmin ehtiyatların təsərrüfat əhəmiyyəti barədə fərziyyələrin irəli sürülməsi təşkil olunur; –
– "Daxili sular" mövzusunda Kür çayının müxtəlif məntəqələrdə çəkilmiş şəkilləri nümayiş etdirilərək suyun təsərrüfat və məişətdə rolu haqqında müzakirə yaradılır.

Bu tip motivasiya nümunələri şagirdin şəxsi müşahidəsi ilə təlim materialı arasında əlaqə yaradır, coğrafi düşünməni fəallaşdırır və dərsin praktik yönümünü gücləndirir. Eyni zamanda lokal materiallardan istifadə milli-məkan şüurunun və ekoloji məsuliyyət hissinin formalaşmasına xidmət edir.

Aparılmış təhlil göstərir ki, coğrafiyanın tədrisində motivasiya mərhələsinin səmərəli təşkili üçün Azərbaycan coğrafiyasına aid materiallardan istifadə metodik baxımdan olduqca məqsədəuyğundur. Lokal məzmun şagird üçün öyrənilən mövzunun şəxsi və ictimai əhəmiyyətini artırır, vizual və kartoqrafik vasitələr məkan təfəkkürünü, müqayisə və təhlil bacarıqlarını gücləndirir, problemli suallar isə daxili idrak motivasiyasını hərəkətə gətirir. Buna görə də coğrafiya müəllimi motivasiya mərhələsində Azərbaycan coğrafiyasını sadəcə nümunə bazası kimi deyil, coğrafi düşüncənin formalaşdırılmasının başlanğıc mexanizmi kimi dəyərləndirməlidir. Bu yanaşma dərsin elmi səviyyəsini yüksəldir, şagirdin fəallığını artırır və coğrafi biliklərin daha şüurlu mənimsənilməsinə şərait yaradır.

İLKİN ABDULLAYEV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ilkinabdullayev712@gmail.com
https://orcid.org/0009-0009-1828-1756

ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ COĞRAFİYANIN TƏDRİSİ VƏ ŞAGİRD FƏALİYYƏTİNİN YARADILMASINDA MOTİVASİYANIN ƏHƏMİYYƏTİ

Məqalədə ümumtəhsil müəssisələrində coğrafiya fənninin tədrisi xüsusiyyətləri araşdırılmışdır. Coğrafiya fənninin tədrisi prosesində dialoji təlimin üstünlükləri, şagirdlərin aktiv fəaliyyətə cəlb olunması kimi məsələlər işıqlandırılmışdır. Motivasiyanın yaradılma yolları, imkanları araşdırılmış və bu istiqamətdə müəyyən metodiki tövsiyələr qeyd olunmuşdur. Fənn proqramlarında coğrafiya fənninə ayrılan saatların miqdarı qeyd olunmuşdur. Tədrisi imkanlarına əsasən motivasiyanın yaradılması üsulları, cəlbetmə prosesində şagirdlərin aktiv iştirakını təmin edəcək müəyyənləşdirilmiş və bir sıra təkliflər irəli sürülmüşdür.

Açar sözlər: *ümumtəhsil məktəbləri, motivasiya, coğrafiyanın tədrisi, kurikulum, şagird fəaliyyəti*

Bu gün müasir təhsil sistemimiz dünya təhsil sisteminə inteqrasiya etmişdir. Artıq ənənəvi tədrisdən fərqli olaraq təhsilin qarşısında olduqca mühüm vəzifələr durur. Bu gün təhsil prosesində əsas mühüm vəzifələrdən biri şagird şəxsiyyətinin formalaşdırılması, habelə şagirdin bilikləri müstəqil şəkildə əldə etməsi nəticəsində özünüinkişaf və özünütərbiyədir. Müasir təhsil sistemi şagirdlərin qarşısına bilikləri hazır formada deyil, müstəqil fəaliyyət nəticəsində öyrənərək yiyələnməyi qoyur. Bəs necə və hansı formada? Sovet dövründə və müstəqilliyin ilk illərində yazılan dərsliklər şagirdlərə əsasən hazır biliyi verirdi. Bir sıra sadə tapşırıqlar vasitəsilə şagirdləri fəaliyyətə cəlb etmək mümkün olurdu. Lakin bu da tam olaraq davam edə bilmirdi. Müstəqillik əldə olunduqdan sonra vacib istiqamətlərdən biri məhz dərsliklərin yenidən tərtibi idi. Yeni dərsliklərdə artıq hazır biliklər bir qədər azalmağa və şagirdləri sərbəst fəaliyyəti nəticəsində yeni-yeni bilikləri əldə etməsinə şərait yaradırdı. Dərsliklərdə verilən tapşırıqlar, xüsusən fəaliyyət hissələri şagirdlərin inkişafında mühüm rol oynayır. Belə ki, müstəqil fəaliyyət nəticəsində şagird artıq araşdırma aparır, fikir irəli sürür, özünü qiymətləndirməyi bacarır. Bu kimi keyfiyyətlər isə şəxsiyyətin formalaşmasında olduqca mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, bu kimi fikirləri bütün fənlərin tədrisinə və tədris imkanları sırasına aid edə bilərik, o cümlədən coğrafiyanın.

Azərbaycanda 2006-cı ildə qəbul olunmuş “Azərbaycan Respublikasının ümumi təhsilin konsepsiyası (Milli Kurikulum)” sənədi təhsil sistemində köklü dəyişikliklər yaratdı. Bu sənədə əsasən ayrı-ayrı fənnlər üzrə fənn kurikulumları qəbul olunmağa başlandı və 2013-cü ildən etibarən coğrafiya fənn kurikulumu təsbit olunmuşdur. Hazırda coğrafiyanın ümumtəhsil məktəblərində tədrisi xüsusiyyətlərinə nəzər salsaq görərik ki, coğrafiyanın tədrisi siniflər üzrə aşağıdakı kimidir:

- VI sinif- həftədə 2 saat;
- VII sinif-həftədə 2 saat;
- VIII sinif- həftədə 2 saat;
- IX sinif- həftədə 2 saat;

Təmayül siniflərində isə vəziyyət bir qədər fərqlidir. Belə ki, riyaziyyat-iqtisadiyyat təmayüllü X və XI siniflərdə həftədə 5 saat, humanitar, texniki və riyaziyyat-iqtisadiyyat, humanitar və riyaziyyat-iqtisadiyyat təmayüllü X-XI siniflərdə isə həftədə 3 saat olmaqla tədris olunur.

Günümüzdə coğrafiyanın rolu hər bir sahədə danılmazdır. Belə bir fənnin şagirdlərə ətraflı və dövrümüzün tələbələrinə uyğun öyrədilməsi lazımdır. Tədris prosesini, yəni 45 dəqiqəni aktiv şəkildə həyata keçirmək, şagirdləri yaradıcı və aktiv fəaliyyətə cəlb etmək, coğrafi biliklərin mənimsənilməsinə, həyatla əlaqələndirilməsinə, mənimsənilən biliklərin praktik tətbiqinə maraq oyatmaq bütün coğrafiya müəllimlərinin ən əsas məqsədidir. Müəllim dərs prosesini elə qurmalıdır

ki, şagirdləri aktiv fəaliyyətə cəlb edə bilsin. Şagird fəallığının bütün dərs prosesi boyunca davam etməsi müəllimin əsas uğurudur.

Müasir dərs prosesi, o cümlədən coğrafiya dərsi motivasiya, tədqiqatın təşkili, tədqiqatın aparılması, məlumatın, informasiyanın mübadiləsi, məlumatın müzakirəsi, nəticələrin çıxarılması, yaradıcı tətbiqetmə, refleksiya və qiymətləndirmə mərhələlərindən ibarətdir.

Müəllim işinin ən çətin hissələrindən biri düzgün motivasiyanın qurulmasıdır. "Motivasiya" latıncadan tərcümədə hərəkətə gətirmək, motiv etmək, hər hansı bir işlə bağlı təhrik etmək mənalarını verir. Müəllim düzgün motivasiya qurarsa demək olar ki, dərsin 50%-nin tam uğurla keçməsinə nail olar. Motivasiya elə qurulmadır ki, şagirdləri idrak fəallığı əsasında aktiv fəaliyyətə cəlb edə bilsin. Dərs prosesinin əvvəlində yaradılan motivasiya şagirdlərdə həvəs oyadaraq onlarda 45 dəqiqənin sonunadək mövzunu maraqla dinləməyə stimullaşdırır. Müəllim bu prosesdə bütün şagirdlərin iştirakına diqqət yetirməli, onlara lazımi təqdirdə istiqamət verməlidir. Məşhur tədqiqatçı Robert Filipsin fikrincə ,motivasiya bir növ "şagirdi qarmağa keçirmək"dir. Nəzər salsaq görərik ki, həqiqətəndə tam motivə edilmiş şagird istənilən hər bir işin üstəsindən mahir şəkildə gələ bilər.

Motivasiyanın yaradılma yolları müxtəlifdir. Hər bir müəllim eyni mövzuya ayrı-ayrı motivasiyalar yarada bilər. İlk növbədə şagird qarşısına problem qoyulmalı və həlli yollarının araşdırılmasına diqqət yetirilməlidir. Motivasiyanın həyatla əlaqəli olması şagirdlərin dərsə diqqətinin daha da artmasına səbəb olur. Dünya təhsil praktikasında motivasiyanın yaradılma yolları əsasən aşağıdakılar qəbul edilir:

- Əyani vasitələrdən istifadə-məsələn Telluri cihazı ilə,
- Müxtəlif təlim üsullarından istifadə;
- Açıq tipli sualların verilməsi;
- Daxilində səhvlərin olduğu hər hansı bir mətn parçası vermək və onlardan səhvləri tapmağı və düzgün yazılması yolu ilə;
- Hekayə oxumaqla, mövzu ilə əlaqəli nağıl parçası danışmaqla;
- Coğrafi oyunlardan istifadə ;
- Şəkil, qrafik, video, dərslə əlaqəli müxtəlif səs yazısı və digər motivasiyanın yaradılması yollarından istifadə etməklə;

Məsələn, 8-ci sinif coğrafiya dərsliyindən "Əhalinin təbii artımı və miqrasiyası" mövzusu üzrə nümunə göstərək:

1. Motivasiya- kiçik hekayə danışmaqla;

"Təsəvvür edin ki, sinifinizdə hazırda 20 şagird təhsil alır. Getdikcə şagird sayı çoxalmağa başlayır və artıq keçən 2 ay müddətində şagird sayı 7 şagird nəfər artdı. Sizlər üçün nələr dəyişdi? Hansı problemlər yarandı və ya müsbət hadisələr baş verdi ?" deyə kiçik hekayə danışmaqla yeni mövzu haqqında şagirdlərin mövcud biliklərini müəyyənləşdirmək və onlarda dərsə maraq oyatmaq olar. Daha sonra problemin qoyuluşu hissəsində müəllim aşağıdakı sualları verə bilər:

- Sinifdə şagird sayı hansı çətinlikləri yaratdı ?
- Son 3 ildə sinifinizə neçə nəfər şagird gəldi, neçə nəfəri çıxdı?

Tipik suallardan sonra müəllim şagirdlərin fikrini alır və fərziyyələri lövhədə qeyd etməsi məsləhət görülür. Daha sonra isə tədqiqat sualı qoyaraq şagirdləri tədqiqatın təşkili mərhələsinə hazırlayır. Tədqiqat sualı:- Əhali artımı (sinif nümunəsində) təhsil mühiti və həyat şəraitində hansı problemlər və imkanlar yaradır?

Məsələn, 9-cu sinif coğrafiya dərsliyindən "Tüstüsüz sənaye-turizm" mövzusunda bir neçə motivasiyanın yaradılma üsulları haqqında metodik tövsiyyələrə diqqət yetirək:

➢ Rollu oyun: Sinifdən 3 nəfər şagird seçilir və həmin şagirdlərə müvafiq olaraq sahibkar, turizm naziri və ya nazirliyin əməkdaşı, ekoloq rolları verilir. Digər şagirdlər isə vətəndaş rolunu icra edirlər. Tipik nümunə üçün aşağıdakı sualı verə bilərik ?

- Ölkədə turizmin inkişafı sizdən asılıdır. Ölkədə turizmi inkişaf etdirmək üçün nə edərdiniz ?

Cavab olaraq Turizm naziri, ekoloq və sahibkar öz subyektiv fikirlərini söyləyirlər və vətəndaşlar isə həmin fikirləri dinləyir. Daha sonra müəllim vətəndaşlara söz verir və onların fikirlərini alır və mümkün qədər qeyd etməyə çalışır. Bu prosesə ümumilikdə 5-8 dəq vaxt ayrılır.

- Şəkil vasitəsilə motivasiya:

Lövhəyə iki müxtəlif şəkil asılır. Birinci şəkil zavodların tüstüləri ilə əhatə olunmuş X şəhərini, ikinci şəkil isə gözəl təbiətə malik və turistlərlə dolu Y şəhərinin mənzərəsini əks etdirir. Şagirdlərə aşağıdakı sual ünvanlanır və onlar aktiv fəaliyyətə istiqamətləndirilir:

- Hansı şəhərdə yaşamaq istərdiniz? Niyə ?

Yönəldici suallar olaraq məsələn, “Hansı fəaliyyət sahələri diqqətinizi cəlb etdi ?”,“Yaşadığınız ərazidə bu sahələrdən hansılarına daha çox rast gəlirsiniz?”, “Gələcək illər üçün hansı model daha perspektivlidir?” və s. bu kimi sullar verməklə şagirdlərdə “beyin firtınası” yaratmağa cəhd etmək tövsiyə olunur. Tədqiqat sualı olaraq isə aşağıdakı sualı vermək və şagirdləri tədqiqatın aparılması mərhələsinə yönəltmək olar.

- Sənaye ilə turizm arasında hansı ki iqtisadi və ekoloji baxımdan fərqlər mövcuddur və hansının inkişafını daha vacib hesab edirsiniz ?

Nəticə olaraq qeyd edək ki, belə suallar verməklə şagirdləri tam şəxsiyyət kimi formalaşdırmaq, onlarda özünəinam yaratmaq mümkündür. Unutmayaq ki, düzgün motivasiya həm müəllimin, həm də şagirdin uğuru və nailiyyətidir.

HƏBİBƏ VƏLİYEVA
Culfa rayon Kırna kənd tam orta məktəbi
Müəllim
hebibe.veliyeva@bk.ru

ÜMUMİ TƏHSİLDƏ STRATEJİ TRANSFORMASİYA: COĞRAFİYA TƏDSİRİNDƏ STEAM METODOLOGİYASI VƏ SÜNİ İNTELLEKT ELEMENTLƏRİNİN METODİK SİNERGİYASI

Tədqiqat işində ümumi təhsil sistemində rəqəmsallaşma meyilləri fonunda coğrafiya fənni üzrə dərslərin innovativ və fənlərarası mexanizmlərlə qurulması məsələləri araşdırılır. Tədris prosesinə STEAM yanaşmasının, rəqəmsal geoməlumat alətlərinin və süni intellekt (Sİ) texnologiyalarının inteqrasiyasının şagirdlərin fəza təfəkkürünə, ekoloji şüuruna və analitik bacarıqlarına təsiri elmi-metodik baxımdan təhlil edilir. Ənənəvi dərslik modelindən interaktiv rəqəmsal ekosistemə keçidin reallıqları və çağırışları müəllimin fərdi iş təcrübəsi kontekstində əsaslandırılır.

Açar sözlər: *coğrafiya tədrisi, rəqəmsal transformasiya, STEAM, süni intellekt, fəza təfəkkürü, proqnozlaşdırma*

Giriş və Aktuallıq. XXI əsrin qlobal çağırışları, rəqəmsal iqtisadiyyata keçid və Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartlarında təsbit olunmuş kompetensiyalar pedaqoji korpusun qarşısında təlim metodlarının köklü şəkildə yenilənməsi tələbini qoyur. Müasir dövrdə ümumi təhsil müəssisələrində aparılan sertifikatlaşdırılma və struktur islahatları da aydın şəkildə nümayiş etdirir ki, müasir müəllim sadəcə hazır elmi informasiyanın ötürücüsü rolunda çıxış etməməli, rəqəmsal öyrənmə mühitinin aktiv dizayneri və moderatoruna çevrilməlidir. Bu kontekstdə coğrafiya fənni həm təbiət, həm də humanitar-ictimai elmlərin kəsişməsində yerləşməklə, təhsildə rəqəmsallaşma, STEAM və süni intellekt (Sİ) trendlərinin tətbiqi üçün ən geniş manipulyasiya imkanlarına malik fundamental sahədir. Coğrafiya təhsilinin müasir rəqəmsal ekosistemə adaptasiyası dərslərin səmərəlilik indeksini yüksəltməklə yanaşı, şagirdlərin elmi idrak fəallığını maksimum dərəcədə stimullaşdırır.

Coğrafiya Tədrisində Rəqəmsal Ekosistem və 3D Vizualizasiya

Ənənəvi coğrafiya dərslərində şagirdlərin qarşılaşdığı ən böyük çətinliklərdən biri mücərrəd fəza anlayışlarını, mürəkkəb təbiət hadisələrini və daxili dinamikanı vizuallaşdıra bilməməsidir. Məsələn, litosfer tavalarının tektonik hərəkətləri, okean cərəyanlarının qlobal sirkulyasiyası, biosferin şaquli zonallıq qanunauyğunluqları və ya relyef formalarının horizontallarla xəritə üzərində təsviri statik dərslik materialı və ikiölçülü xəritələr vasitəsilə tədris edildikdə şagird təfəkküründə tam olaraq canlanmır. Bu da biliklərin deklarativ səviyyədə qalmasına və qısa müddətdə unudulmasına səbəb lava açır. STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) metodologiyası və rəqəmsal texnologiyalar məhz bu metodik boşluğu aradan qaldırır. Coğrafiya dərslərinə Google Earth, virtual geoməlumat sistemləri (GİS) və Tinkercad kimi 3D dizayn və modelləşdirmə platformalarının inteqrasiyası şagirdə relyef formalarını və landşaft elementlərini sadəcə passiv müşahidə etməyə deyil, onları rəqəmsal mühitdə yenidən dizayn etməyə imkan verir. Şagird relyef xəritəsindəki horizontallarla əsasən hər hansı bir dağ sisteminin və ya çay dərəsinin 3D modelini qurduqda, prosesə həm riyazi hesablama, həm mühəndislik, həm də fəza təfəkkürü daxil olur. Beləliklə, fənlərarası sinergiya təmin edilir və coğrafiya dərsi real tədqiqat laboratoriyasına çevrilir.Süni İntellekt (Sİ) Elementlərinin Pedaqoji Potensialı və Tətbiq Mexanizmləri.Süni intellekt texnologiyalarının ümumi təhsil sisteminə daxil olması fərdiləşdirilmiş və differensiallaşdırılmış təlim prinsiplərini keyfiyyətcə yeni bir mərhələyə daşıyır. Coğrafiya dərslərində süni intellekt elementlərindən istifadəni iki fundamental istiqamətdə qruplaşdırmaq olar:

1. Adaptiv Qiymətləndirmə və Monitorinq: Süni intellekt əsaslı intellektual qiymətləndirmə platformaları şagirdlərin mövzunu mənimsəmə zəifliyini və güclü tərəflərini real vaxt rejimində analiz edir. Sistem hər bir şagirdin fərdi qavrama sürətinə və intellektual potensialına

uyğun olaraq çevik tapşırıqlar ekosistemi formalaşdırır ki, bu da sinifdaxili geriqalmanı minimuma endirir.

2. Prediktiv (Proqnozlaşdırıcı) Modelləşdirmə: Coğrafiya elminin əsas funksiyalarından biri təbiət və cəmiyyətdə baş verən dəyişiklikləri proqnozlaşdırmaqdır. Şagirdlər Sİ alətlərinin imkanlarından yararlanaraq qlobal ekoloji böhranların, iqlim dəyişikliklərinin və demoqrafik proseslərin gələcək ssenarilərini simulyasiya edə bilirlər. Məsələn, "Kür çayının su səviyyəsinin azalması və regional ekoloji təhlükəsizlik" mövzusunda şagirdlər süni intellekt datalarından və statistik göstəricilərdən istifadə edərək yaxın 10 il üçün çayın rejiminin dəyişmə modelini qururlar. Bu proses şagirdlərdə tənqidi təfəkkürü, böyük verilənlərlə (Big Data) işləmək bacarığını və ekoloji şüuru maksimum dərəcədə inkişaf etdirir.

Reallıqlar və Çağırışlar

Təhsildə rəqəmsallaşma təkcə məktəblərin texniki avadanlıqlarla təchiz edilməsi ilə ölçülmür. Əsər pedaqoji reallıq – müəllimin innovasiya fəaliyyətinə konseptual baxımdan hazır olması, dərsi milli kurikulumun prinsiplərinə uyğun, fənlərarası əlaqə zəminində qura bilmək bacarığıdır. Bununla yanaşı, proses müəyyən çağırışları da bərabərində gətirir. Şagirdlərin rəqəmsal resurslardan istifadə edərkən informasiya kirliliyinə məruz qalmaması, süni intellekt alətlərindən hazır cavab tapmaq üçün deyil, analitik tədqiqat üçün istifadə etməsi (rəqəmsal gigiyena və etika) tənzimlənməlidir. Müəllimin fərdi iş təcrübəsi məhz bu riskləri düzgün idarə etməkdə və rəqəmsal alətləri dərsin əsas məqsədinə çevirmədən, onu dərsin hədəflərinə xidmət edən səmərəli vasitə kimi tətbiq etməkdə özünü büruzə verir.

Nəticə. Tədqiqat və pedaqoji təhlillər göstərir ki, ümumi təhsil müəssisələrində coğrafiya dərslərində STEAM metodologiyasının və süni intellekt alətlərinin sinergik tətbiqi dərsin keyfiyyət indeksini əhəmiyyətli dərəcədə yüksəldir. Bu yanaşma coğrafiya elmini "keçmişi və bu günü təsvir edən" passiv fəndən "gələcəyi proqnozlaşdıran və modelləşdirən" dinamik bir elm sahəsinə çevirir. Rəqəmsal ekosistemin dərs mühitində uğurlu tətbiqi ümumi təhsilin dövlət strategiyasına və müasir təhsil islahatlarının çağırışlarına fundamental töhfə verir.

GÜNAY ƏLİZADƏ
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
Gunayalizade@nmi.edu.az

TARİX DƏRSLƏRİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏNİN ÜSTÜNLÜKLƏRİ

Tarix dərslərinin tədrisində müasir informasiya texnologiyalarının istifadəsi tədrisin keyfiyyətini artırır. Elektron təqdimatlar, videoçarxlar, şagirdlərin mövzunu yaxşı məimsəməsinə köməklik göstərir, eyni zamanda tənqidi təfəkkürü, tədqiqat bacarıqlarını inkişaf etdirir. Şagirdlərdə tədqiqat zamanı əldə olunan məlumatları müqayisə etməklə nəticə çıxarmaq bacarığını formalaşdırır.

Açar sözlər: *tarixin tədrisi, informasiya texnologiyaları, interaktiv öyrənmə, tənqidi təfəkkür*

Müasir dövrdə informasiya texnologiyalarıdan bütün sahələrdə geniş istifadə olunur. Təhsil sistemi də bu dəyişikliklərdən kənarda qalmamışdır. Xüsusilə tarix fənninin tədrisində informasiya texnologiyalarından istifadə müəllim və şagirdlər üçün geniş imkanlar yaradırr. Tarix dərslərində yeni texnologiyalardan istifadə dərsin keyfiyyətini artırır, öyrənmə prosesini maraqlı edir və şagirdlərin tarixi hadisələri daha dərindən dərk etməsinə kömək göstərir.

Tarix fənni keçmişdə baş vermiş hadisələri, prosesləri və şəxsiyyətləri öyrənən bir elm sahəsidir. Bu hadisələrin təsəvvür olunması bəzən şagirdlər üçün çətin olur. Sadəcə dərslik mətni ilə məhdudlaşdıqda şagirdlər tarixi faktları əzbərləsələr də, onların mahiyyətini tam qavraya bilmirlər. Müasir informasiya texnologiyaları isə tarixi hadisələri vizual şəkildə təqdim etməyə imkan verir.

Elektron təqdimatlar tarix dərslərində ən geniş istifadə olunan vasitələrdən biridir. Müəllim slaydlar vasitəsilə mövzuya aid şəkillər, xəritələr, cədvəllər təqdim edir. Bu üsul məlumatın sistemli şəkildə çatdırılmasını təmin edir. Vizual materiallar şagirdlərin diqqətini cəlb edir və onların mövzunu daha asan qavramasına şərait yaradır. Eyni zamanda tarix dərslərində video materiallardan istifadənin mühüm üstünlükləri vardır. Sənədli filmlər, animasiyalar və qısa videolar tarixi hadisələri canlı şəkildə canlandırır. Məsələn, müharibələr, inqilablar və mühüm siyasi proseslər haqqında videolar şagirdlərdə daha güclü təəssürat yaradır. Onlar hadisələrin gedişatını daha yaxşı anlayırlar. Bundan əlavə tarix dərslərində geniş istififadə olunanelektron xəritələr coğrafi dəyişiklikləri izləmək, dövlətlərin ərazilərinin zamanla necə dəyişdiyini görmək və tarixi yürüşləri xəritə üzərində müəyyən etmək şagirdlərin məkan təsəvvürünü inkişaf etdirir. Tarixi hadisələrin coğrafi mühitlə əlaqəsini anlamaq daha asan olur.

İnternet resursları tarix fənni üzrə əlavə məlumatların əldə edilməsinə şərait yaradır. Elektron kitabxanalar, elmi məqalələr və arxiv sənədləri şagirdlərin araşdırma aparmasına imkan verir. Onlar müxtəlif mənbələri müqayisə etməyi və məlumatları təhlil etməyi öyrənirlər. Bu bacarıqlar tənqidi təfəkkürün inkişafı üçün vacibdir. Bunlardan əlavə müasir texnologiyalar fərdi yanaşmanı gücləndirir. Hər bir şagird öz qabiliyyətinə uyğun öyrənə bilir. Həmçinin, elektron platformalarda tapşırıqların çətinlik dərəcəsini tənzimləmək mümkündür. Beləliklə, həm zəif, həm də yüksək nəticə göstərən şagirdlər üçün uyğun şərait yaradılır.

Elektron məlumatların saxlanması və paylaşılması olduqca rahatdır. Müəllim hazırladığı təqdimatları, testləri və sənədləri uzun müddət istifadə edə bilər. Materiallar şagirdlərlə asanlıqla paylaşılır. Bu, həm vaxt itkisini azaldır, həm də tədris prosesini səmərəli edir. Həmçinin, tarixi mənbələrin müqayisəli təhlili informasiya texnologiyalarının köməyi ilə daha asan həyata keçirilir. Müxtəlif müəlliflərin fikirlərini tədqiq etmək və onları müqayisə etmək şagirdlərdə obyektiv düşüncə tərzi formalaşdırır. Onlar tarixə tək bir mənbə əsasında deyil, çoxşaxəli yanaşma ilə baxmağı öyrənirlər.

Nəticə etibarilə deyə bilərik ki, tarix dərslərində müasir informasiya texnologiyalarından istifadə çoxsaylı üstünlüklərə malikdir. Bu vasitələr dərsləri maraqlı, interaktiv və effektiv edir. Şagirdlərin bilik səviyyəsi, tənqidi təfəkkürü, tədqiqat və rəqəmsal bacarıqları inkişaf edir. Müəllim

üçün tədris prosesi daha səmərəli təşkil olunur. Buna görə də tarix fənninin tədrisində informasiya texnologiyalarının geniş tətbiqi müasir təhsilin vacib tələblərindən biri hesab olunur.

MƏKAN AĞAVERDİYEV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistrant
mkanagaverdiyev@gmail.com

COĞRAFİYA MÜƏLLİMLİYİ ÜZRƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ÇÖL TƏCRÜBƏLƏRİNİN APARILMASI: ELMİ-TƏDQİQAT VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR KONTEKSTİNDƏ

Tezisdə işğaldan azad edilmiş ərazilərdə coğrafiya yönümlü pedaqoji kadrların hazırlanması prosesində praktik sahə fəaliyyətlərinin təşkili məsələləri araşdırılır. Qarabağ və Şərqi Zəngəzur bölgələrində uzun müddət davam edən işğal nəticəsində təbii mühitin və tarixi-coğrafi irsin zərər görməsi, ekoloji tarazlığın pozulması kimi problemlər meydana çıxmışdır. Müasir dövrdə bu ərazilərdə aparılan bərpa və yenidənqurma işləri elmi-tədqiqat və tədris baxımından yeni imkanlar yaradır.

***Açar sözlər**: coğrafiya təhsili, sahə təcrübəsi, işğaldan azad edilmiş ərazilər, Qarabağ, Şərqi Zəngəzur, elmi-tədqiqat, milli-mənəvi dəyərlər*

Giriş. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası azad edilmiş bölgələrin yalnız siyasi və iqtisadi deyil, həm də elmi və tədris baxımından əhəmiyyətini artırmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında uzun müddət davam edən işğal nəticəsində təbii mühitə və tarixi-coğrafi irsə ciddi ziyan dəymiş, bir çox ərazilərdə ekoloji tarazlıq pozulmuşdur.

Pedaqoji istiqamətli ali təhsil sistemində coğrafiya sahəsi üzrə ixtisaslaşan şəxslərin peşə formalaşmasında praktik müşahidəyə əsaslanan fəaliyyətlər mühüm yer tutur. Bu tip fəaliyyətlər nəzəri biliklərin real mühitdə tətbiqinə, müşahidə və analitik təfəkkürün inkişafına şərait yaradır. Azad edilmiş ərazilər isə bu baxımdan zəngin təbii və sosial-coğrafi potensiala malik praktik öyrənmə mühiti kimi çıxış edir.

Həmin ərazilərdə həyata keçirilən sahə yönümlü təlimlər çərçivəsində geomorfoloji quruluş, iqlim göstəriciləri, su şəbəkəsi, torpaq və bitki örtüyü kimi komponentlər birbaşa öyrənilə bilir. Bununla yanaşı, müharibədən sonra dəyişmiş landşaftların tədqiqi, ekosistemlərin bərpası dinamikasının izlənilməsi və insan təsirinin qiymətləndirilməsi kimi istiqamətlər də xüsusi aktuallıq kəsb edir.

Bu fəaliyyətlərin təşkili zamanı təhlükəsizlik məsələləri, ərazilərin minalardan təmizlənmə səviyyəsi, logistika imkanları, marşrutların planlaşdırılması və tədris məqsədlərinə uyğunluq kimi amillər nəzərə alınmalıdır. Eyni zamanda, bu proseslər iştirakçılarda vətənə bağlılıq, milli kimlik və mənəvi dəyərlərin möhkəmlənməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Müasir yanaşmalara uyğun olaraq, bu tip fəaliyyətlərdə coğrafi informasiya sistemləri, rəqəmsal alətlərdən istifadə edilməsi xüsusi önəm kəsb edir.

İşğaldan azad olunmuş rayonlarda həyata keçirilən sahə yönümlü təlim fəaliyyətləri bu ərazilərin həm təbii-coğrafi, həm də sosial-iqtisadi xüsusiyyətlərinin kompleks şəkildə öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu bölgələrdə uzun müddət davam edən işğal nəticəsində yaranmış dəyişikliklər landşaftın strukturunda, torpaq örtüyündə və hidroqrafik şəbəkədə özünü aydın şəkildə göstərir. Bu səbəbdən həmin ərazilər təbii proseslərin və antropogen təsirlərin qarşılıqlı əlaqəsinin öyrənilməsi üçün əlverişli mühit yaradır.

Azad edilmiş rayonlarda aparılan müşahidələr zamanı ərazilərin bərpa prosesinin müxtəlif mərhələlərini izləmək mümkündür. Yeni salınan yaşayış məntəqələri, yenidən qurulan nəqliyyat infrastrukturu, su və enerji təminatı sistemlərinin yaradılması bu ərazilərin sürətli inkişaf dinamikasını əks etdirir. Bu isə iştirakçılara regionun iqtisadi-coğrafi transformasiyasını real mühitdə izləmək imkanı verir.

Eyni zamanda, bu rayonlarda ekoloji vəziyyətin öyrənilməsi xüsusi diqqət tələb edir. Meşə sahələrinin məhv edilməsi, torpaqların deqradasiyası və su ehtiyatlarının çirklənməsi kimi problemlərin nəticələri sahə müşahidələri zamanı daha aydın görünür. Bununla yanaşı, həyata

keçirilən bərpa tədbirləri, yaşıllaşdırma layihələri və təbii ehtiyatların qorunmasına yönəlmiş fəaliyyətlər də müsbət dəyişikliklərin göstəricisi kimi qiymətləndirilə bilər.

İşğaldan azad olunmuş ərazilərdə keçirilən bu tip fəaliyyətlər həm də tarixi-coğrafi irsin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Dağıdılmış yaşayış məntəqələri, mədəniyyət abidələri və digər obyektlər regionun keçmişi haqqında əyani təsəvvür yaradır. Bu isə təcrübəçilərdə tarixi yaddaşın formalaşmasına və milli irsə qarşı həssas münasibətin inkişafına müsbət təsir göstərir.

Bundan əlavə, bu ərazilərdə aparılan sahə fəaliyyətləri zamanı regionun təbii ehtiyat potensialının qiymətləndirilməsi də mümkün olur. Kənd təsərrüfatı üçün yararlı torpaqların, su ehtiyatlarının və digər təbii resursların öyrənilməsi gələcəkdə bu ərazilərin davamlı inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə kömək edə bilər.

Nəticə. Beləliklə, işğaldan azad olunmuş rayonlarda təşkil olunan sahə yönümlü təlim fəaliyyətləri yalnız tədris baxımından deyil, həm də elmi-tədqiqat və vətəndaşlıq şüurunun formalaşması baxımından çoxşaxəli əhəmiyyətə malikdir. Bu ərazilərin real şəraitdə öyrənilməsi gələcək mütəxəssislərin həm peşəkar, həm də sosial məsuliyyətinin inkişafına mühüm töhfə verir.

QORXMAZ HACIZADƏ
Naxçıvan Müəllimlər İnstitutu

QƏDİM DÖVLƏTLƏRDƏ QULLARA QARŞI FƏRQLİ MÜNASİBƏTLƏRİN TƏDRİSİ MƏSƏLƏLƏRİ

Tarixdə insanların özgürlüyünün əlindən alınması, digərlərinin malı hesab edilməsini köləlik adlandırırlar. Demək olarki bütün qədim sivilizasiyalarda köləlik institutuna rast gələ bilərik. Həmin cəmiyyətlərdə insanlar iki sinfə bölünürdülər: azadlar və qullar. Bu fərq qanuni olaraq sayılırdı. Azad şəxslər hüquqların sahibləri, qullar isə hüquqlardan asılı olanlar hesab edilirdi. Əksər hüquqlardan və hətta həyat təhlükəsizliyindəyyn məhrum olan qullar, alınıb-satıla ağaları tərəfindən verilən istənilən cəzaya dözmək məcburiyyətində qalaraq şəxsi mülk hesab edilirdi. Bütün qədim xalqlar üçün ümumi bir sistem olan kölәliyi ləğv etməyi heç kim düşünməmişdi.

Açar sözlər: *qul, əsir, kölə, borc, cəza, hərbi, satmaq*

Qədim Misirdə yarımkölələr və qullar təbəqəsi mövcud idi. Kölәlik əsasən müharibələrdəki əsirlərdən və borc səbəbindən yaranırdı. Qulların bir hissəsindən Misirin daxilində istifadə edilir, bir hissəsinidə başqa tayfalara satırdılar. Hərbi əsirlərlə bərabər, xüsusəndə Sudan və Asiyadan ticarət vasitəsilə də qullar ölkəyə gətirilirdi. Misir qanunlarında azad insanlar özlərini və ya övladlarını qul kimi sata bilərdilər. Misirdə "Saxu" adlanan əsirlər ömürlük olaraq Şah və məbəd təsərrüfatında işləyirdilər.

İlk vaxtlarada Erkən Şumer şəhər dövlətləri arasında iqtisadi əlaqələr geniş olmadığına görə burada sinfi təbəqələşmə zəif inkişaf edirdi. Ona görə ilk vatlar qulların sayı burada az idi. Kölәlik Şumerlərdə əsasən müharibə və borc ilə əlaqəli idi. Azad insanda bəzi səbəblərdən kölə ola bilirdi. Övladlığ kimi qəbul edilən uşaqlar ailələrini rədd etdikdə onlar uşaqlarını kölə kimi sata bilərdilər. Şumer yazılarında ataya tabesizlikdə kölәliyə səbəb idi. Şumerlər öz qullarına azad insanlardan ayırmaq üçün damğa vururdular. Qulları insan kimi yox heyvan kimi baş-baş qeyd edirdilər. Əsir kölələrə "saq", xüsusi qullara isə "urdu" və ya "ere" deyilirdi. Şumerlərdə borc kölәliyidə mövcud idi.

Borca görə qul olmaq Akkad qanunlarında çox önəmli idi. Borc səbəbinə görə tacirin özündən savayı, övladları da kölə olurdu. Araşdırmalarla burada müharibə və digər səbəblərə görə qula çevrilmədə geniş yayılmışdı. Burada övladların qul kimi satılması adi bir hala çevrilmişdi. Digər ölkələrdəki kölәlik məsələlərinin akkadlarda da olmasına şübhə etmirik.

Qədim Hindistanda Manu qanunlarında kölәliyin səbəbinin aşağıdakılar olduğu qeyd edilir: müharibəyə görə, ailəni dolandırmaq üçün könüllü kölәlik, kölə anadan olmaq, satış və ya hədiyyə vasitəsi ilə kölәlik, miras və cəza ilə kölәlik, borca görə kölәlik, qumar oynamaqla yaranan, dinə görə dünya ləzzətlərindən imtina edərək qul olmaq və s. Burada kölәliyin müddətinə görə qullar arasında müəyyən fərqlər var idi.

Qədim Çin qanunlarında görə ancaq hərbi əsirlər qul hesab edilirdi. Çinlilər kölə deyildilər. Çinli bir insan əsarətə düşsəydi, onun qarşılığında mütləq qisas alınırdı. Buna görə də, potensial münaqişənin qarşısını almaq üçün Çin xalqı əsarət altına alınmırdı. Qulların sayı Çində digər qədim dövlətlərlə müqayisədə az idi. Onlardan kənd təsərrüfatında istifadə olunmurdu. Onları ancaq təsərrüfatda çoban kimi işlədirdilər. Bizim eramızın I əsrində İmperator Vanq Mangın göstərişilə xüsusi şəxslərə qullardan istifadəni qanunla qadağan etmiş və hər qulun dövlət qulu kimi işə götürülməsini tapşırmışdı.

Qədim Babilistanada kölәliyin ilk yaranma səbəbi xaricdən qul gətirilməsi və müharibədəki əsirlərlə bağlı idi. Erkən Sülalə dövründə müharibə kölәliyin yeganə səbəbi idisə, III Ur sülaləsindən (e.ə. 2112) etibarən azad vətəndaşların borc və ya işsizlik üzündən özlərini və ya övladlarını kölәliyə satmağa başladığını görürük. Bu insanlara heç bir qiymət ödənilmirdi. Onlara ancaq yemək, paltar və sığınacaq verilirdi. Buna baxmayaraq, Babil mənşəli qullar xaricə satıla bilməzdi. Bu halda, satılan babillilər azad olurdu. Yəhudilərdə qullar iki kateqoriyaya ayrılırdı. Əcnəbi və ibrani qullar. Yadelli

qullar, sahibləri tərəfindən azad olmadıqca, həmişəlik olaraq qul qalırdılar. Burada borc və yoxsulluq səbəbindən qul olan ibrani qullar altı il keçəndən sonra avtomatik olaraq azad olurdular.

Assuriyada köləliyin əsas mənbəyi borc, ikincisi isə müharibə idi. Burada da digər quldar ölkələr kimi qullar da mülkiyyət sayılırdı. Ancaq qullarında müəyyən hüquqları var idi. Yalnız ailəsi ilə birlikdə qullar alınıb satılırdı. Qadın qullar tez-tez cariyə və ya süd anası kimi istitfadə olunurdu. Assuriya qanunlarında bədən cəzası sadəcə qullara şamil edilirdi. Azad adam etdiyi bütün cinayətlərə, hətda insan öldürmə və oğurluğ etdiysə ancaq cərimələnirdisə, bu cəza qullara fərqli maddələrlə şamil edilirdi. Buna uyğun bir qanunda deyilir ki, cadu edən azad şəxs cərimə ödədiyi halda, qul bu işi görərsə ölümə məhkum edilirdi. Assur hüququ, oğurluğa görə qulun qulaqlarının kəsilməsini qeyd edirdi. Burada qul ticarəti çox yayılmışdı. Bu işlə məşğul olanlar dövlətin ən varlı və sayılan şəxslərindən idilər.

Azərbaycanın qədim dövlətlərindən olan Kutilərin zamanında İkiçayarasında müharibələrə və şəhərlərarası münaqişələrə son qoyularaq əmin-amanlıq hökm sürmüş, ticarət yolları bərpa edilmiş, sökülmüş və dağıdılmış məbədlər bərpa edilmişdir. Kuti çağına aid bir sumer yazısında deyilir ki, «(artıq) qulluqçu öz xanımına tay olmuşdu, qullar öz sahibi ilə yanaşı gedirdi, varlılar yetimə, güclülər dul qadına xətər yetirmir.

Nəticə olaraq bütün qədim sivilizasiyaların hüquq sistemləri tədqiq edildikdə, kölelik institutunun mövcudluğu dərhal aydın görünür. Çox fərqli sosial və iqtisadi quruluşa malik bu dövlətlərdə köləliyin qanuni olaraq qəbul edildiyini daha əvvəl bildirmişdik. Kölelik institutu bu sivilizasiyaların hər birində oxşar şəkildə təşkil edilmişdir. Köləliyin səbəbləri qulların mülkiyyət hesab edilərək hüquq obyektinə çevrilməsi, onların fəaliyyət qabiliyyətinin olmaması, lakin insan xarakterinə baxmayaraq, mütləq qismən fəaliyyət qabiliyyətinə malik olması, törətdikləri cinayətlərə görə müxtəlif cəzalara məruz qalmaları, yaşadıqları cəmiyyətin sivil səviyyəsinə və adət-ənənələrinə uyğun olaraq müxtəlif mərhələlərdə azadlığa nail ola bilmələri idi.

SUZANA VƏLİZADƏ
Lənkəran Dövlət Universiteti
Magistrant
suzannavlizad@gmail.com

AZƏRBAYCANLILARIN QƏRBİ AZƏRBAYCANDAN DEPORTASİYASI TARİXİNİN TƏDRİSİ MƏSƏLƏLƏRİ

1918-1920-ci illərdə azərbaycanlıların deportasiyası erməni millətçi siyasətinin nəticəsi olaraq həyata keçirilmişdir. Bu proses zamanı minlərlə azərbaycanlı tarixi torpaqlarından qovulmuş, yaşayış məntəqələri dağıdılmış və regionun etnik-demoqrafik vəziyyətində ciddi dəyişikliklər baş vermişdir.

***Açar sözlər**: Qərbi Azərbaycan, deportasiya, Azərbaycan tarixi, milli yaddaş*

1918-1920-ci illərdə azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası və etnik təmizləməyə məruz qalması Cənubi Qafqaz regionunda baş verən mürəkkəb ictimai-siyasi proseslərin nəticəsi kimi meydana çıxmışdır. I Dünya müharibəsinin başa çatması, Rusiya imperiyasının süqutu və regionda yeni siyasi qüvvələrin formalaşması milli münasibətlərin daha da kəskinləşməsinə səbəb olmuşdur. Bu dövrdə bölgədə hakimiyyət uğrunda gedən mübarizə etnik qarşıdurmaları daha da dərinləşdirmiş, müxtəlif xalqlar arasında münasibətlərin gərgin xarakter almasına şərait yaratmışdır. Məhz belə bir tarixi şəraitdə erməni millətçi dairələri "Böyük Ermənistan" ideyasını reallaşdırmağa çalışmış, bu məqsədlə azərbaycanlıların yaşadığı tarixi torpaqlarda sistemli zorakılıq və deportasiya siyasəti həyata keçirilmişdir. Həmin siyasət yalnız müəyyən yaşayış məntəqələrinin boşaldılması məqsədi daşımamış, eyni zamanda regionun etnik-demoqrafik mənzərəsinin dəyişdirilməsinə və gələcək ərazi iddialarının əsaslandırılmasına yönəlmişdir.

1918-ci ildə Ermənistan Respublikasının yaradılmasından sonra İrəvan quberniyası, Zəngəzur, Göyçə, Vedibasar, Dərələyəz və digər bölgələrdə yaşayan azərbaycanlı əhali ciddi təzyiq və zorakılıqlarla üzləşmişdir. Daşnak silahlı dəstələri tərəfindən kəndlərə hücumlar təşkil edilmiş, yaşayış məntəqələri dağıdılmış, dinc əhali qətlə yetirilmişdir. Bir çox kəndlər tamamilə yandırılmış, əhalinin əmlakı talan edilmiş və insanlar doğma torpaqlarını tərk etməyə məcbur edilmişdir. Nəticədə minlərlə azərbaycanlı qaçqın vəziyyətinə düşmüş, onların böyük hissəsi müxtəlif bölgələrə sığınmağa məcbur olmuşdur. Bu hadisələrin əsas məqsədi bölgədə azərbaycanlı əhalinin sayını azaltmaq, etnik üstünlük yaratmaq və gələcək siyasi planların həyata keçirilməsi üçün əlverişli şərait formalaşdırmaq idi. Deportasiya prosesi yalnız əhalinin məcburi köçürülməsi ilə məhdudlaşmamış, azərbaycanlıların sosial-iqtisadi və mənəvi həyatına da ağır zərbə vurmuşdur. Kənd təsərrüfatı ilə məşğul olan əhali öz torpaq və mülkiyyətindən məhrum edilmiş, ticarət əlaqələri pozulmuş, iqtisadi fəaliyyət ciddi şəkildə zəifləmişdir. Yüzlərlə yaşayış məntəqəsinin dağıdılması nəticəsində insanların uzun illər formalaşdırdığı həyat tərzi pozulmuşdur. Bununla yanaşı, tarixi-mədəni abidələr, məscidlər, qəbiristanlıqlar və digər dini-mədəni irs nümunələri dağıdılmış, xalqın maddi və mənəvi irsinə ciddi ziyan vurulmuşdur. Bu baxımdan deportasiya siyasəti yalnız humanitar faciə deyil, həm də azərbaycanlıların milli-mədəni yaddaşına qarşı yönəlmiş məqsədyönlü siyasət kimi qiymətləndirilir.

1918-1920-ci illərdə baş verən hadisələr Bakı, Şamaxı, Quba və Qarabağ bölgələrində azərbaycanlılara qarşı törədilən qırğınlarla paralel şəkildə həyata keçirilmişdir. Bu fakt deportasiya siyasətinin lokal xarakter daşımadığını, ümumilikdə regionda etnik və siyasi üstünlük əldə etməyə yönəlmiş genişmiqyaslı siyasətin tərkib hissəsi olduğunu göstərir. Həmin dövrdə azərbaycanlı əhaliyə qarşı həyata keçirilən zorakılıqlar nəticəsində çoxsaylı insan həlak olmuş, minlərlə ailə qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Eyni zamanda, bölgədə uzun illər formalaşmış sosial münasibətlər sistemi də ciddi şəkildə zədələnmişdir. Əhalinin kütləvi şəkildə köçürülməsi regionun demoqrafik vəziyyətinə uzunmüddətli təsir göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti baş verən hadisələrin qarşısını almaq, zorakılıqları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və hüquqi-siyasi qiymət verilməsi istiqamətində mühüm addımlar atmışdır. Bu məqsədlə yaradılmış

Fövqəladə Təhqiqat Komissiyası azərbaycanlılara qarşı törədilən cinayətlərin sənədləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Komissiya tərəfindən toplanmış materiallar, şahid ifadələri və rəsmi sənədlər həmin dövr hadisələrinin öyrənilməsi üçün mühüm tarixi mənbələr hesab olunur. Bu sənədlər deportasiya və qırğın siyasətinin miqyasını müəyyənləşdirmək baxımından müasir tarixşünaslıq üçün böyük əhəmiyyət daşıyır.

Müasir dövrdə 1918-1920-ci illər deportasiya hadisələrinin tədqiqi və tədrisi xüsusi aktuallıq kəsb edir. Bu mövzunun tarix tədrisində öyrədilməsi gənc nəslin milli yaddaşının formalaşdırılması, tarixi həqiqətlərin düzgün mənimsənilməsi və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, deportasiya siyasətinin beynəlxalq hüquq və insan hüquqları kontekstində araşdırılması region tarixinin obyektiv şəkildə qiymətləndirilməsinə imkan yaradır. Tarixi faktların elmi əsaslarla öyrənilməsi və gələcək nəsillərə çatdırılması milli kimliyin qorunması baxımından mühüm vəzifələrdən biri hesab olunur.

Nəticə etibarilə, 1918-1920-ci illərdə azərbaycanlıların deportasiyası Azərbaycan xalqının tarixi yaddaşında dərin iz buraxmış faciəli hadisələrdən biri olmuşdur. Bu hadisələr nəticəsində minlərlə insan doğma yurdlarından didərgin salınmış, regionun etnik-demoqrafik vəziyyətində ciddi dəyişikliklər baş vermişdir. Deportasiya siyasəti yalnız bir dövrün faciəsi kimi deyil, həm də xalqın milli yaddaşına və tarixi irsinə qarşı həyata keçirilmiş sistemli siyasət kimi qiymətləndirilməlidir. Buna görə də həmin hadisələrin elmi şəkildə araşdırılması və tarix tədrisində geniş şəkildə öyrədilməsi mühüm əhəmiyyət daşıyır.

ƏHƏD ƏHƏDOV
Lənkəran Dövlət Universiteti
Magistrant
akhadakhadov@gmail.com

44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNİN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİSİ MƏSƏLƏLƏRİ

44 günlük Vətən Müharibəsinin tədrisi gənc nəsildə milli yaddaşın, vətənpərvərlik hissinin və tarixi təfəkkürün formalaşdırılmasına xidmət edir. Mövzunun elmi, obyektiv və müasir pedaqoji metodlarla öyrədilməsi tarix təhsilinin keyfiyyətini və analitik düşüncə bacarıqlarını inkişaf etdirir.

Açar sözlər: *Vətən müharibəsi, Qarabağ, tarixin tədrisi, milli kimlik*

44 günlük Vətən Müharibəsi Azərbaycan tarixində mühüm dönüş nöqtəsidir. Azərbaycanın ərazi bütövlüyünün böyük hissəsinin bərpası ölkənin tarixşünaslığında yeni mərhələ açmış, eyni zamanda təhsil sistemində də bu hadisənin necə öyrədilməsi məsələsini aktuallaşdırmışdır. Məlumdur ki müasir dövrdə tarixin tədrisi milli kimliyin, vətəndaş mövqeyinin və analitik düşüncə bacarıqlarının da formalaşdırılması vasitəsi kimi çıxış edir. Buna görə də 44 günlük Vətən Müharibəsinin tədris olunması xüsusi pedaqoji yanaşma tələb edir.

Gənc nəslin milli kimlik və vətəndaşlıq mövqeyinin formalaşmasında mühüm rolu olan Vətən müharibəsi mövzusu Azərbaycan təhsil sistemində xüsusi aktuallıq kəsb edir. Belə ki, bu mövzu hadisələrin səbəb və nəticələrini təhlil etmək, şagirdlərdə tənqidi düşüncə və obyektiv yanaşma formalaşdırmaq üçün kifayət qədər genişdir. Mövzuda hərbi əməliyyatlarla yanaşı, beynəlxalq münasibətlər, geosiyasi proseslər, informasiya müharibəsi, diplomatik fəaliyyət və milli həmrəylik kimi məsələlər də öz əksini tapır. 44 günlük Vətən Müharibəsinin tədrisində ənənəvi izahlı metodlarla yanaşı, müasir pedaqoji texnologiyalardan geniş istifadə olunmalıdır. Burada əsas məsələlərdən biri xronoloji yanaşmadır. Hadisələrin 44 gün ərzində ardıcıl şəkildə öyrədilməsi şagirdlərdə müharibə dinamikasını anlamağa imkan yaradır. İkinci bir məsələ rəsmi sənədlər, çıxışlar, beynəlxalq təşkilatların qərarları və media materiallarının dərs prosesinə daxil edilməsidir ki, bu da mövzunun əhəmiyyətini bir daha göstərir. Üçüncüsü, multimedia və rəqəmsal resurslar (xəritələr, animasiyalar, video materiallar və interaktiv platformalar) şagirdlərin mövzunu daha dərindən qavramasına kömək edir. Burada müxtəlif videoçarxlar, təqdimatlar və vizual materillar şagirdlərdə real təsəvvür yaratmağa kömək edir. Başqa bir məsələ isə, dərs prosesində diskussiya və debat kimi metodlardan istifadə edilməsidir ki, bu da öz növbəsində şagirdlərdə analitik düşüncənin inkişafına müsbət təsir edər.

44 günlük Vətən Müharibəsinin tədrisi zamanı vətənpərvərlik tərbiyəsi məsələsi xüsusi diqqət mərkəzində saxlanmalıdır. Burada Azərbaycan xalqının milli birliyi və dövlətə bağlılığı vurğulanmalı, eyni zamanda xalqın mənəvi dəstəyinin döyüşçülərimizə yüksək döyüş ruhu, qələbə əzmi və mənəvi stimul aşıladığı xüsusi qeyd edilməlidir. Mövzunun tədrisi zamanı şəhidlik anlayışının, qəhrəmanlıq nümunələrinin və milli dəyərlərin izahı da xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın ərazi bütövlüyü uğrunda həyatını itirən insanların qəhramanlığı gənclərdə vətən sevgisinin və milli məsuliyyət hissinin güclənməsinə təsir göstərir. 44 günlük Vətən Müharibəsinin tədrisi gələcək nəsillərin milli yaddaşının formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Çünki tarixi yaddaş xalqın milli kimliyini müəyyən edən əsas amillərdən biridir və onun qorunması təhsil vasitəsilə həyata keçirilir.

Nəticə etibarilə, 44 günlük Vətən Müharibəsinin tədrisi müasir Azərbaycan tarix təhsilinin mühüm istiqamətlərindən biridir və bu mövzunun düzgün elmi əsaslarla öyrədilməsi gənc nəslin milli kimliyinin formalaşmasına, vətənpərvərlik hisslərinin güclənməsinə və tarixi proseslərə obyektiv yanaşmanın inkişafına xidmət edir. Müasir metodlar, rəqəmsal texnologiyalar və yeni elmi yanaşmalar da bu mövzunun tədrisində keyfiyyətin yüksəldilməsinə imkan yaradır. 44 günlük Vətən Müharibəsinin tədrisi həm tarix elmi, həm də pedaqoji fəaliyyət baxımından xüsusi əhəmiyyətə malik mövzulardan biri hesab olunur.

SƏRİYYƏ HÜSEYNLİ
Azərbaycan Dillər Universiteti
Psixologiya və Pedaqogika kafedrasının doktorantı
huseynlisariyya@gmail.com

İBTİDAİ TƏHSİLDƏ İNCƏSƏNƏT NÜMUNƏLƏRİNİN İNTEQRASİYASININ ŞAGİRDLƏRİN İNKİŞAFINA TƏSİRİ

Məqalədə ibtidai siniflərdə incəsənət nümunələrinin tədris prosesinə inteqrasiyasının əhəmiyyəti araşdırılır. Müxtəlif fənlərdə incəsənət elementlərinin istifadəsinin şagirdlərin estetik zövqünün, yaradıcı və tənqidi düşünmə bacarıqlarının inkişafına təsiri göstərilir. Eyni zamanda bu yanaşmanın onların emosional inkişafına, motivasiyasına və dərsə fəal iştirakına müsbət təsir etdiyi əsaslandırılır.

Açar sözlər: *tədris prosesi, inteqrasiya, yaradıcı düşünmə, motivasiya, emosional inkişaf*

Müasir təhsil yanaşmaları şagirdlərin yalnız nəzəri biliklər əldə etməsini deyil, eyni zamanda onların şəxsiyyət kimi formalaşmasını prioritet hesab edir. Bu baxımdan incəsənət nümunələrinin tədris prosesinə inteqrasiyası ibtidai siniflərdə təlimin keyfiyyətini artıran mühüm vasitələrdən biri kimi çıxış edir. İncəsənət şagirdlərin emosional, estetik və intellektual inkişafına kompleks şəkildə təsir göstərərək onların dünyanı daha dərindən qavramasına şərait yaradır.

İbtidai sinif mərhələsində şagirdlər ətraf aləmi daha çox obrazlar və emosiyalar vasitəsilə dərk etdikləri üçün incəsənət elementlərinin dərslərdə istifadəsi onların marağını artırır və öyrənmə prosesini daha effektiv edir. Xüsusilə rəsm əsərləri, musiqi nümunələri, folklor materialları və bədii mətnlər şagirdlərin diqqətini cəlb etməklə yanaşı, onların yaradıcı düşünmə qabiliyyətini inkişaf etdirir.

İbtidai siniflərdə təlim və təlimdənkənar məşğələlərdə incəsənət nümunələrinin inteqrativ tətbiqi şagirdlərin məktəbə marağını artırır, mövzuların daha dərindən mənimsənilməsinə şərait yaradır və təlimin keyfiyyətinə müsbət təsir göstərir..F.B.Sadıqov qeyd edir ki, *ibtidai siniflərdə şagirdlərin estetik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir. Şagirdlərlə keçilən təsviri fəaliyyət, musiqi və incəsənətin digər növlərinin təlim prosesinə daxil edilməsi Vətənin təbiətinə sevgi hissləri aşılayır, onlara musiqini dərk etməyi və qiymətləndirməyi öyrədir.*

Milli və dünya incəsənət nümunələrinin paralel şəkildə təqdim edilməsi şagirdlərdə həm milli dəyərlərə bağlılıq, həm də ümumbəşəri mədəniyyətə açıq münasibət formalaşdırır. Bu yanaşma mədəniyyətlərarası əlaqələrin dərk edilməsinə, tolerantlığın inkişafına və fərqli dünyagörüşlərinin qəbuluna müsbət təsir göstərir. Şagirdlər müxtəlif xalqların incəsənət nümunələri ilə tanış olduqca onların həyat tərzi, ənənələri və tarixi haqqında daha geniş təsəvvür əldə edirlər.

İncəsənət nümunələrinin tədris prosesində istifadəsi şagirdlərin estetik zövqünün formalaşmasında mühüm rol oynayır. Gözəlliyi dərk etmək və qiymətləndirmək bacarığı tədricən inkişaf edərək şagirdlərin gündəlik həyatında da öz əksini tapır. Bu isə onların ətraf mühitə və cəmiyyətə münasibətində müsbət dəyişikliklər yaradır.

Bununla yanaşı, incəsənət əsaslı fəaliyyətlər şagirdlərin emosional zəkanın inkişafına da töhfə verir. Musiqi dinləmək, rəsm çəkmək, hekayə qurmaq və səhnəciklər hazırlamaq kimi fəaliyyətlər onların hisslərini ifadə etməsinə və başqalarının emosiyalarını anlamağa kömək edir. Bu proses ünsiyyət bacarıqlarının formalaşmasına və sosial münasibətlərin inkişafına şərait yaradır.

Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Fənn kurikulumlarında (I-IV siniflər) təsviri incəsənət və musiqi kurikulumlarının məzmunu verilmişdir.

Burada təsviri incəsənət və musiqinin xarakterik cəhətləri açıqlanmış, fənnin əhəmiyyəti, məqsədi və vəzifələri göstərilmişdir. İbtidai təhsil pilləsində şagirdlərin əldə edəcəkləri bacarıq və vərdişlərə malik olmaları nəzərə çatdırılmışdır.

İbtidai siniflərdə incəsənətin tətbiqi müəllimin yaradıcılıq yanaşmasından birbaşa asılıdır. Müəllim tədris prosesində müxtəlif incəsənət növlərini məqsədyönlü şəkildə inteqrasiya etməklə

şagirdlərin dərsə marağını artırmalı, onları passiv dinləyici deyil, aktiv iştirakçıya çevirməlidir. Bu zaman interaktiv metodlardan, vizual və audio materiallardan, eləcə də yaradıcı və praktik tapşırıqlardan istifadə xüsusi əhəmiyyət kəsb edir. Müəllimin düzgün seçilmiş metodik yanaşması şagirdlərin həm idrak fəallığını artırır, həm də onların fərdi qabiliyyətlərini üzə çıxarmağa imkan yaradır.

Məsələn, Azərbaycan dili dərslərində şagirdlərə hər hansı bir rəsm əsəri təqdim edilərək onların təsvir əsasında hekayə qurması, dialoq yaratması və ya esse yazması tələb oluna bilər. Bu yanaşma şagirdlərin nitq bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların söz ehtiyatını zənginləşdirir və yaradıcı təxəyyülünü genişləndirir. Ədəbiyyat elementləri ilə zənginləşdirilmiş bu tip fəaliyyətlər şagirdlərdə bədii düşüncə tərzinin formalaşmasına da şərait yaradır.

Riyaziyyat dərslərində incəsənət elementlərinin tətbiqi ilk baxışda çətin görünsə də, praktik yanaşmalar bu inteqrasiyanı mümkün edir. Məsələn, simmetriya, fiqurlar və naxışlar mövzularının izahında milli ornamentlərdən və dekorativ-tətbiqi sənət nümunələrindən istifadə etmək şagirdlərin mövzunu daha asan qavramasına kömək edir. Eyni zamanda şagirdlər özləri sadə naxışlar yaradaraq həm riyazi biliklərini möhkəmləndirir, həm də estetik zövqlərini inkişaf etdirirlər.

Həyat bilgisi dərslərində incəsənət vasitəsilə təbiət, cəmiyyət və ətraf mühit mövzuları daha maraqlı şəkildə təqdim edilə bilər. Məsələn, fəsillər mövzusu öyrədilərkən rəsm əsərləri, musiqi parçaları və ya qısa video materiallardan istifadə olunması şagirdlərdə mövzuya qarşı emosional bağlılıq yaradır və öyrənməni daha təsirli edir.

Təsviri incəsənət və musiqi dərslərində isə bu inteqrasiya daha geniş imkanlar açır. Şagirdlər müxtəlif rəsm texnikalarını öyrənməklə yanaşı, musiqi dinləyərək həmin musiqinin yaratdığı emosiyaları rəsm vasitəsilə ifadə edə bilərlər. Bu isə onların həm emosional, həm də yaradıcı inkişafına müsbət təsir göstərir. *"Biz inanırıq ki, hər bir uşaq musiqiyə meyillidir və musiqi məşğələlərindən zövq ala bilər. Bunun üçün bütün şəraiti yaratmaq və şagirdlərin marağına və həvəsinə əsaslanan təşəbbüsünü dəstəkləmək vacibdir. Məsələn, futbol həvəskarına özünün şəxsi futbol himnini yazmağı, kompüter oyunları həvəskarına isə sevdiyi oyunlara uyğun melodiya səsləndirməyi təklif etmək olar"*.

Eyni zamanda fiziki tərbiyə dərslərində belə incəsənət elementlərindən istifadə mümkündür. Ritmik hərəkətlər, musiqi müşayiəti ilə oyunlar və sadə rəqs elementləri şagirdlərin dərsə marağını artırır və onların koordinasiya bacarıqlarını inkişaf etdirir. "Fiziki tərbiyə" dərslərində Ü.Hacıbəyovun "Cəngi" əsərinin səsləndirilməsi şagirdlərdə ruh yüksəkliyi yaradır. *"Vətənpərvər ruha söykənən "Yallı"lar hər zaman ifaçıların, tamaşaçıların, seyircilərin ruh yüksəkliyinə təkan verir. "Yallı"ları ifa edən uşaqlar və gənclərin özləri də vətənpərvərlik ruhunda ucalaraq gələcəyə addımlayırlar"*.

Müasir texnologiyaların tətbiqi incəsənət nümunələrinin daha geniş və effektiv şəkildə təqdim olunmasına imkan yaradır. Virtual muzeylərə səyahət, rəqəmsal qalereyalar, videoçarxlar və interaktiv təqdimatlar vasitəsilə şagirdlər dünya incəsənəti ilə daha yaxından tanış ola bilirlər. Bu cür texnologiyalar şagirdlərdə həm vizual yaddaşı gücləndirir, həm də öyrənmə prosesini daha cəlbedici və dinamik edir.

Bundan əlavə, rəqəmsal alətlərdən istifadə etməklə şagirdlər öz yaradıcılıq məhsullarını – rəqəmsal rəsmlər, sadə animasiyalar və təqdimatlar hazırlaya bilərlər. Bu isə onların həm texnoloji savadlılığını artırır, həm də özünüifadə imkanlarını genişləndirir.

Beləliklə, müxtəlif fənlərdə incəsənət nümunələrinin inteqrasiyası tədris prosesini daha maraqlı, interaktiv və effektiv edir, şagirdlərin hərtərəfli inkişafına xidmət göstərir və onların öyrənməyə qarşı müsbət motivasiyasını gücləndirir.

Tədqiqatlar göstərir ki, incəsənət nümunələrinin tədris prosesinə inteqrasiyası şagirdlərin yaradıcı qabiliyyətlərinin inkişafına, müstəqil düşünmə bacarıqlarının formalaşmasına və ümumi akademik nailiyyətlərinin yüksəlməsinə müsbət təsir göstərir. Bu yanaşma şagirdlərin dərslərə daha fəal qoşulmasına və öyrənməyə qarşı müsbət münasibət formalaşdırmasına səbəb olur.

Nəticə olaraq qeyd etmək olar ki, incəsənətin ibtidai təhsil prosesinə inteqrasiyası şagirdlərin hərtərəfli inkişafını təmin edən mühüm pedaqoji vasitədir. Bu yanaşma onların estetik zövqünü formalaşdırmaqla yanaşı, yaradıcı potensialını üzə çıxarır və onları müasir cəmiyyətin tələblərinə

uyğun şəxsiyyət kimi yetişdirir. Buna görə də tədris prosesində incəsənət nümunələrindən sistemli və məqsədyönlü şəkildə istifadə edilməsi zəruri hesab olunur.

NURLANƏ NOVRUZİ
Naxçıvan Müəllimlər İnstitutu
Biologiya üzrə fəlsəfə doktoru
nnurlana91@mail.ru

EKOLOJİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASINDA BİOLOGİYA DƏRSLƏRİNİN ROLU

Qlobal istiləşmə və antropogen təsirlərin canlı təbiətə təsirləri daimi olaraq müzakirə obyektidir. Bu istiqamətdə dünya ölkələrinin qəbul etdiyi konvensiyalar, onların tətbiqi, daimi təşkil olunan konfranslar, mədəni tədbirlər və s. buna bariz nümunədir. Qlobal istiləşmə prosesinin davam etməsi nəticəsində buzlaqların əriməsi, su hövzələrinin quruması, yağıntının az olması, normal iqlim olan ərazilərdə səhralaşma prosesinin başlaması göz qabağındadır. Bu baxımdan dövrün tələbidir ki, ekoloji davamlılıq, ekoloji mədəniyyət terminləri auditoriyalara daxil eidlsin, bu istiqamətdə maarifləndirmə dərsləri keçirilsin, öyrənənlərdə ekoloji mədəniyyət və ekoloji davranış, ətraf mühitə qarşı yaxşı münasibət formalaşdırılsın.

Biologiya dərslərində, öyrədənlər, canlıların izahını verən zaman qida zəncirini, orada bitkilərin və ümumilikdə təbiətin rolunu, hər canlının bir-birindən asılılığının mahiyyətini öyrənənlərə düzgün çatdırmalı, mahiyyətini başa salmalı və ətraf mühitə qarşı davranış modelinin formalaşdırılmasında tələbkar olmalıdırlar. Öyrənənlər dərk etməlidir ki, biologiyanın öyrənilməsi yalnız akademik biliklərin artırılması üçün deyil, həm də onların təbiətə münasibətini formalaşdırmaq, ekoloji düşüncə və məsuliyyət bacarıqlarını inkişaf etdirmək üçün vacibdir. Öyrədən öyrədənlərə biologiya elm sahəsinin bir qolu olan botanikanın ekologiya ilə sıx əlaqəli olduğunu aşılamalı, bitkilərin biosferin əsas komponentlərindən biri olduğunu təbliğ etməlidir.

Açar sözlər: *ekologiya, biologiya, qlobal istiləşmə, antropogen təsirlər, şüurluluq prinsipi*

Qlobal istiləşmə və antropogen təsirlərin canlı təbiətə təsirləri daimi olaraq müzakirə obyektidir. Bu istiqamətdə dünya ölkələrinin qəbul etdiyi konvensiyalar, onların tətbiqi, daimi təşkil olunan konfranslar, mədəni tədbirlər və s. buna bariz nümunədir. Qlobal istiləşmə prosesinin davam etməsi nəticəsində buzlaqların əriməsi, su hövzələrinin quruması, yağıntının az olması, normal iqlim olan ərazilərdə səhralaşma prosesinin başlaması göz qabağındadır. Belə ki, ən sadə nümunə olaraq biz 1940-cı illərin xəritələrini analiz etdikdə, Naxçıvan Muxtar Respublikasının Dərələyəz silsiləsinin bir sıra dağlarında aydın şəkildə meşəliklərin təsvirini, yayılma arealını və genişliyini görə bilirik. Təbii ki, bura bitki növləri, formasiyalar və assosasiyalar ilə zəngindir. Lakin, bugün həmin ərazilərdə sadəcə istiyədavamlı kol və yarımkollar, səhra və yarımsəhra bitkiliyi dominantlıq təşkil etməklə yanaşı lentşəkilli quruluşda düzülmüşdür. Lentşəkilli bitki düzülüşü bitkilərin bir növü özlərini kəskin isti və soyuqdan qorumaq şəklidir. Günümüzdə meşəliklər kiçik formada yalnız yarımkollar və kollardan təşkil olunmuşdur. Bu baxımdan dövrün tələbidir ki, ekoloji davamlılıq, ekoloji mədəniyyət terminləri auditoriyalara daxil eidlsin, bu istiqamətdə maarifləndirmə dərsləri keçirilsin, öyrənənlərdə ekoloji mədəniyyət və ekoloji davranış, ətraf mühitə qarşı yaxşı münasibət formalaşdırılsın.

Ekoloji mədəniyyət, insanın ətraf mühitə münasibətini əks etdirən, təbiətin qorunmasına yönəlmiş bilik, bacarıq, mənəvi dəyərlər və davranış normaları sistemidir. Ekoloji mədəniyyətin əsasında şüurluluq prinsipi durur. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, insan təbiətə qarşı şüurlu, məsuliyyətli və qoruyucu yanaşma sərgiləməlidir. Bu mədəniyyətin formalaşdırılması isə məktəblərdə erkən yaşdan başlanmalıdır. Biologiya dərslrində ekoloji mədəniyyətin formalaşdırılması və ətraf mühitə davranış modelinin yaradılması biologiya müəllimlərinin əsas prioritet məsələlərindən biri olmalıdır. Erkən yaşdan formalaşdırılan şüurlu yanaşma prinsipi, təbiətin qorunmasında, onun gələcək nəsillərə ötürülməsində əsas amildir.

Biologiya dərslərində, öyrədənlər, canlıların izahını verən zaman qida zəncirini, orada bitkilərin və ümumilikdə təbiətin rolunu, hər canlının bir-birindən asılılığının mahiyyətini

öyrənənlərə düzgün çatdırmalı, mahiyyətini başa salmalı və ətraf mühitə qarşı davranış modelinin formalaşdırılmasında tələbkar olmalıdırlar. Əks halda qlobal istiləşmənin aktuallığı ilə yanaşı, antropogen təsirlərin də dominantlığı sözün əsl mənasında təbiətə ciddi ziyan vurur və məhvinə yol açır. Burada meşələrin qırılması, sənaye tullantılarının dəniz və okeanlara axıdılması, nəqliyyat vasitələrinin yaratdığı hava çirkliliyi ilə bərabər tullantıların təbiətə buraxılması, buna diqqət eidlməməsi də ciddi önəm daşıyır. Antropogen təsirlərin bir başqa tərəfi də təbiətdən kortəbii istifadədir. Ehtiyac olub-olmamasından asılı olmayaraq bitkilərin toplanması, kortəbii şəkildə istifadə, kahaların qazılması, yaylaq və otlaq kimi yaşıllıq zolaqlarından istifadələr zamanı normalara əməl olunmaması burada zəhərli, tikanlı və istifadəyə yarasız növlərin, alaq otlaqlarının artıb çoxalmasına səbəb olur.

MƏHƏBBƏT PAŞAYEVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
pmahabbat@mail.ru
https://orcid.org.0000-0003-1982-9276

BİOLOGİYANIN TƏDRİSİNDƏ MÜXTƏLİF TAPŞIRIQ NÖVLƏRİNDƏN İSTİFADƏ YOLLARI

Əsər təlim metodlarının təkmilləşdirilməsi məsələlərinə, yəni tədrisə və fənnə uyğun yeni təlim metod və vasitələrinin öyrənilib, müvafiq olduqda tətbiq edilməsi yollarının araşdırılmasına həsr edilmişdir. Tezisdə nümunələr əsasında "Keys metodunun" mahiyyəti və tətbiqi göstərilmişdir.

***Açar sözlər*:** *təlim metodları, Keys metodu, tapşırıqlar, qruplarda iş*

Müasir dövrdə təhsil sistemimizdə islahatlar davam edir. Kurikulum islahatı ilə əlaqədar təhsilə gətirilən yeni metodlar, üsüllar tətbiq olunub və onların özünü doqrultması, effektivliyi yoxlanılır, müvafiq olmayanlar tədrisdən çıxarılır.

Bununla yanaşı, bəzi metod və üsulların daha da inkişafı və tədris prosesinə tətbiqi tələb olunur.

Kurikulum islahatı fənlərin tədrisinin qarşısında bir sıra tələblər qoymuşdur, bunlardan biri daim təkmilləşməyə, dəqiqləşməyə ehtiyacı olan təlim metodları, müxtəlif tapşırıq növləri, qiymətləndirmə məsələləridir. Müxtəlif tapşırıq növlərinin daha da inkişaf etdirilib işlənməsinə və dərsdə istifadəsinə ehtiyac vardır.

Tapşırıqların hazırlanmasında müxtəlif öyrənmə nəzəriyyələrindən, məsələn test nəzəriyyəsi, tapşırıq nəzəriyyəsi, tapşırığın sosiomədəni nəzəriyyəsi, əks-əlaqə nəzəriyyəsi, etika nəzəriyyəsi və s. istifadə edilməsi tədrisi müasirləşdirir, məqsədə nail olmağı asanlaşdırır, zamanın tələblərinə uyğun edir.

Tapşırıqların, layihələrin, Keyslərin hazırlanması zamanı, onlara verilən tələblər, tapşırıqların konstruksiyası, dizaynı çox vacib bir məsələdir.

"Tapşırıq nəzəriyyəsi"nə əsasən, tapşırıqların qurulması və təqdim olunması müəyyən meyarlara cavab verməlidir. Belə ki, tapşırıqlar: şagirdin səviyyəsinə uyğun olmalıdır, praktik və düşünməyə yönəlməlidir, tədricən çətinləşməlidir

"Keys" metodunu tədrisdə necə istifadə etmək olar?

Təhsildə "keys" adətən hadisə təhlili üsulu mənasında işlədilir. Bu, şagirdlərə (tələbələrə) real və ya reala yaxın vəziyyətlərin təqdim olunması və onların həmin vəziyyəti təhlil edib, həll yolları tapması üçün istifadə olunan bir tədris metodudur. "Keys" - real vəziyyət üzərində düşünərək öyrənmə üsuludur. "Keys" – problemli təlim elementləri olan tapşırıq növüdür. Bu tapşırıqlar praktik yönümlüür.

Beləliklə "Keys metodu" işlənildikdə – şagirdlərə (tələbələrə) konkret bir problem, hadisə və ya situasiya təqdim olunur və onlar vəziyyəti təhlil edir, problemləri müəyyən edir, mümkün həlli yolları təklif edir, qərar verir və onu əsaslandırır.

Bu metodu tətbiq etmək üçün müəllim tərəfindən qabaqcadan tədris olunan fənnə və mövzuya aid "Keys tapşırıqları" hazırlanmalıdır.

"Keys tapşırıqları" şagirdlərin (tələbələrin) dərsdə müstəqil işləmələri üçün nəzərdə tutulur. Sinif 4-5 nəfərdən ibarət 4 qrupa bölünürsə, "Keys tapşırıqlarının" sayı 4 olmalıdır, yəni dərsdə hər qrupa qabaqcadan hazırlanan ayrıca bir "Keys tapşırıqı" verilir.

Bu tapşırığın yerinə yetirilməsinə şagirdlərə dərsdə 20 dəqiqə verilir və sonra qrup işlərinin təqdimatları aparılır. Hər təqdimata 5 dəqiqə ayrılır.

Keys metodunun üstünlükləri ondan ibarətdir ki, metod şagirdlərdə (tələbələrdə) tənqidi düşüncəni inkişaf etdirir, praktiki bilik qazandırır, müzakirə və komanda işini gücləndirir, öyrənilən problemin həlli yollarının axtarışına yönəldir, real həyatda qərar verməyə hazırlayır.

Biologiya fənni üzrə "Keys tapşırıqları" nümunələrini belə vermək olar. Məsələn, "Ümumi Biologiya" (10-11-ci sinif) fənni üzrə.

Keys nümunəsi 1:

Bir fermer istixanada pomidor yetişdirir. O müşahidə edir ki: gün ərzində istixanada temperatur və işıq kifayət qədər yüksəkdir. Bitkilər yaxşı inkişaf edir, amma məhsuldarlıq gözləniləndən aşağıdır. Gecə vaxtı istixana tam qapalı olur və havalandırma aparılmır. Bir müddət sonra məlum olur ki, istixanada karbon qazının səviyyəsi gecələr xeyli artır, gündüz isə sürətlə azalır.

Tapşırıq: Aşağıdakı suallara əsaslandırılmış cavab ver:

– Bu vəziyyətdə fotosintez və tənəffüs prosesləri necə gedir?

Karbon qazının səviyyəsinin dəyişməsi bitkilərə necə təsir edir? Niyə yüksək işıq və temperatur olmasına baxmayaraq məhsuldarlıq aşağıdır? Fermer problemi həll etmək üçün hansı tədbirləri görə bilər?

Köməkçi suallar: Fotosintez üçün hansı şərtlər vacibdir? Tənəffüs prosesi nə vaxt baş verir? Bitkilər gecə nə edir?

Bu “Keys tapşırığı” şagirdin fotosintez və tənəffüs proseslərini müqayisə edə bilmələrini, mühit amillərinin təsirini analiz etmə, real situasiyada biologiya biliklərini tətbiq etməsini, məntiqi nəticə çıxartma bacariqlarını yoxlayır.

Nümunə 2. 10–11-ci sinif Ekologiya bölməsinə aid “Keys nümunəsi”. Öyrənilən mövzu üzrə problemin mətni:

Bir bölgədə yerləşən göldə son illərdə aşağıdakı dəyişikliklər müşahidə olunur: suyun rəngi yaşıllaşır, balıqların sayı azalır, bəzi balıqlar kütləvi şəkildə ölür, Gölün yaxınlığında kənd təsərrüfatı sahələrində gübrələrdən geniş istifadə olunur. Alimlər hesab edir ki, bu dəyişikliklər insan fəaliyyəti ilə bağlıdır.

Tapşırıq: Aşağıdakı suallara cavab ver: Bu göldə baş verən hadisənin əsas səbəbi nə ola bilər? Gübrələrin su hövzəsinə düşməsi hansı prosesə səbəb olur? Niyə balıqlar kütləvi şəkildə məhv olur? Bu problemin qarşısını almaq üçün hansı tədbirlər görülə bilər?

Köməkçi suallar: Azot və fosfor maddələri suya düşəndə nə baş verir? Yosunların həddindən artıq artması nəyə gətirib çıxarır? Suda oksigenin azalması canlılara necə təsir edir?

Bu keys ekosistem anlayışını, İnsan fəaliyyətinin təbiətə təsirini, Səbəb–nəticə əlaqələri, Ekoloji problemlərin həlli yollarınln şagird tərəfindən bilməsini yoxlayır.

Qruplarda İşin icrasına dərsin 20 dəqiqəsi verilir. Bu zaman keyslə tanışlıq, iş bölqüsü, işin icrası və təqdimata hazırlıq prosesi qedir. Sonrakı mərhələdə qrup liderləri hazırladıqları cavabların təqdimatını aparır. Hər cavaba dərsin 5 dəqiqəsi ayrılır. Qiymətləndirmə qabaqcadan hazırlanmış meyarlar əsasında müəllim tərəfindən aparılır.

Qrup işlərinin təqdimatı zamanı tapşırıqda qoyulan problemin müzakirəsinə butun sinif şagirdləri (tələbələr) cəlb olunmalıdır.

Bu zaman informasiya mübadiləsi baş verir, suallara cavab axtarışında tərəfdaşlıq qurulur. Bu prosesdə müəllimin rolu istiqamətverici və təşkilatçılıqdır. Müəllim polemikanı idarə edir və şagirdlərə (tələbələrə) cavabın tapılmasında tam olmasa da, ona yaxınlaşmaqda kömək edir. O, faktların şərhçisi, orijinal ideyaların mənbəyi, tənqidi düşüncənin daşıyıcısı kimi çıxış edir. Cavablar mübahisə və polemika üçün imkan yaratmalıdır. Şagirdlərə polemika mədəniyyətini, yəni çıxışları aqressiyasız, yumşaq üslubla aparılmasını aşılamaq lazımdır.

Bu prosesdə əsas məsələlərdən biri müəllimin mövqeyidir, onun polemikanı aparmaq bacarığı çox əhəmiyyətlidir. Bəzən əsas olan cavab deyil, ona aparan yol olur, bərabər əsaslarla aparılan mübahisə prosesi olur, bu isə dialoji düşüncəni formalaşdırır.

Beləliklə, hal hazırda bir çox texnologiyalar, metodlar, üsullar istifadə edilir, lakin bununla yanaşı onların təkmilləşdirilməsinə, dəqiqləşdirilməsinə, yeni metod və vasitələrin araşdırılıb öyrənilməsinə və tədrisə qətirilərək tətbiq edilməsinə böyük ehtiyac vardır.

Tədrisin keyfiyyətinin yüksək olması müəllimin metodiki savadlılığının yüksəldilməsini və bu istiqamətdə təcrübəsinin artırılmasını, təkmilləşdirilməsini tələb edir.

HƏBİBƏ ALLAHVERDİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
HabibaAllahverdiyeva@nmi.edu.az
https://orcid.org/0000-0003-4056-9173

TƏSVİRİ İNCƏSƏNƏTDƏ KOMPOZİSİYA ƏSAS İFADƏ VASİTƏLƏRİNDƏN BİRİ KİMİ

Tezisdə təsviri incəsənət ilkin ifadə vasitəsi olan kompozisiyadan, onun təsviri incəsənətdə, eləcə də təsviri sənətin müxtəlif sahələrinin tədrisində yeri və rolundan, nəzəri əsaslarından, xüsusiyyətlərindən, yaranması tarixindən, əhəmiyyətindən bəhs olunur. Kompozisiya süjetli təsvirlərin yaranması ilə təşəkkül tapmış, inkişaf etmiş və müasir dövr təsviri incəsənətində yeni üslubların yaranması onun inkişafına böyük təsir göstərmişdir.

Açar sözlər: *Təsviri incəsənət, kompozisiya, rəssam, ifadə vasitəsi, rəng və forma*

Hər bir rəsm əsəri bütün ifadə vasitələrinin vəhdətilə meydana gəlir. Əsərin işlənməsi üçün qarşıda ilkin olaraq detalların, fiqurların müəyyən materialda – kətanda, kartonda, kağızda və s. yerləşdirilməsi məsələsi durur. Təsviri sənətdə kompozisiya yaradıcılığın ilkin mərhələsi olmaqla bərabər, həm də ən mühüm sahəsi hesab olunur. Təsviri incəsənətin və onun müxtəlif sahələrinin tədrisində ilk olaraq kompozisiya anlayışı haqqında danışılır. Çünki, kompozisiya təsviri incəsənətin ilk təsvir vasitəsidir. Yaradılmış hər hansı bir tabloda qurulmuş kompozisiya rəssamın qabiliyyəti, fantaziyası, müşahidəlik qabiliyyətini ortaya qoyur. Bu sahədə rəssam təsviri incəsənətin təsvir vasitələrindən düzgün istifadə etməklə və əsərin ideyasından asılı olaraq lazım olan, yəni ideyanın açılmasına xidmət edən detalları düzgün yerləşdirməklə buna nail olur.

"Kompozisiya" – latın sözü olub "compositio" sözündən əmələ gəlib, "mübahisə edən tərəflərin razılığa gəlməsi", "əlaqə yaratmaq", "yan-yana durma" mənasını daşıyır. Kompozisiya bütün detalların və hissələrin vahid sistemdə bütövləşməsi, qanunauyğun qurulmasıdır. Hər hansı bir əsərdə kompozisiya bədii formanın əsas təşkiledici forması, onu təşkil edən hissələrinin ümumi halda verilməsi qaydasıdır. Yəni, sadə dillə desək, kompozisiya ayrı-ayrı hissələrdən ibarət qanunauyğun şəkildə bütövləşmiş bir təsvirdir. Kompozisiya qanunları bizi əhatə edən aləmdə olan forma və detalları, təbiət qanunlarını, cəmiyyətdə baş verən hadisələri estetik ifadə vasitələrlə təsvir etmə bacarığını əsas tutur. Lakin burada təsvir müxtəlifliyi vardır. Yəni, kompozisiyanın təsviri sənətin növündən və istifadə materiallardan aslı olaraq onun tərkib hissələrinin qanunları da dəyişir. Real və xəyali, forma, simmetriya, asimmetriya, miqyas, ritm, hissələrin vəhdəti, nüans və təzadlar, tarazlıq, perspektiva və rəng-kolorit məsələləri də bu zəmindəndir. Bizi əhatə edən aləmdə, canlı təbiətdə rast gəldiyimiz kompozisiyanın əsasını təşkil edən qanunauyğunluqlar vardır.

Plastik sənətdə kompozisiya yaradılan tablonun bir növ sanki, anatomiyasını – skletini təşkil edir. Onu vəhdət halına salaraq, ümumiləşmiş "xaricini görünüşünü", əsərin ideyasının, ümumi ahəngini tamaşaçılara çatdırır. Yaradılan bu "informasiya" öz dövrünün güzgüsüdür. Müxtəlif dövrlərdə yaradılan sənət nümunələri əslində həmin dövrü əks etdirir. Çünki, təsviri incəsənət tarixində yaradılan əsərlərə, kompozisiyalara nəzər salındıqda, onun necə inkişaf yolu keçdiyi aydın şəkildə görünür. Həmin əsərlər dövrün həm ictimai, siyasi, həm də sosial və mədəni görnüşünü əks etdirir. Bu inkişaf yoluna nəzər saldıqda həm də onun da tarixinin nə qədər qədim olduğunu aydın olur. Cəmiyyətin ictimai, siyasi qanunları, eləcə də sosial tələblər, eyni zamanda maddi və mənəvi ehtiyaclar, təbii qanunlar əsasında kompozisiya uzun yol qət etmişdir. Məsələn, Qədim Misirdə sənətin inkişaf yolunda hakimiyyətdə olan fironların fikir və ideyalarının təsiri aydın şəkildə hiss olunur. Kompozisiya süjetli təsvirlərin yaranması ilə təşəkkül tapıb, inkişaf etmişdir. Məsələn, qayaüstü rəsmlərdə kompozisiya quruluşunun qanunları yox idi. Rəsmlərdə məkan olmadığı üçün fiqurların hansının harada çəkilməsinin bir zərurət daşımır, heç bir qanunauyğunluğa tabe olmamışdır. Kompozisiya ilk olaraq Şumer əsatirlərdə, Qədim Yunan mədəniyyətində rast gəlinir. Bu dövrdə yaranmış kompozisiyada həyat və hadisələr vahid mərkəzə (eyni zaman və məkana) tabe

olur və o mərkəzin ətrafında cərəyan edir. Orta əsrlərdə dini-əfsanəvi mövzular ikonalar və monumental rəsmlərində daha çox təcəssüm tapırdı. Yaradılan belə təsviri sənət nümunələri, ikonalar din xadimlərinin sifarişi ilə çəkilir, onların zövqünə, istəklərinə uyğun şəkildə hazırlanırdı. Bu dövrdə təsviri sənətdə kompozisiya bu formada idisə, İntibah dövründən başlayaraq artıq fərqli istiqamətdə inkişaf edirdi. Orta əsrlərdə rəssamlar əsərlərini sifarişçinin istəyinə, zövqünə görə kompozisiya yaradırdılar, lakin İntibah dövründə rəssamlar tablolarında əsasən təsviri incəsənətin elminə əsasən, ifadə vasitələrinə, qurma qaydaları, perspektiva qaydaları və s. əsasında kompozisiya qururdular.

XVIII-XIX əsrlərdə artıq təsviri sənət nəzəriyyəçiləri kompozisiya haqqında yeni elmi materiallar hazırlamışlar. Nəzəriyyəçilər təsviri incəsənətin əsas vasitələrindən olan kompozisiya haqqında Leanardo da Vinçi və Albertinin yazdıqlarını araşdırmış, bu elm onun əsasında daha da inkişaf etdirmişdir. XIX əsrdə yaranmış yeni cərəyanlar kompozisiya sahəsində yeni inkişaf perspektivləri yaratmış oldu. Əsas vasitələr olan rəng, işıq – kölgə vasitələrinə yeni nəzər, yeni yanaşma kompozisya imkanlarının daha da artırılmasına zəmin oldu. Bu dövrdə Peterburq Rəssamlıq Akademiyasında kompozisiya fənninin inkişaf etdirilməsi fərmanı kompozisiyanın inkişafı üçün böyük zəmin yaratmış oldu.

Kompozisiyanın inkişafına yeni üslubların yaranması da böyük təsir göstərmişdir. XX əsrdə isə Qərbi Avropada və Rusiyada yeni üslub cərəyanları – avanqardizm, kubizm, taşizm, futurizm, sürrealizm, dadaizm cərəyanları yaranmağa başladı. Avanqardizm əvvəl Fransada yaranıb, sonralar Almaniya, İtaliya və başqa ölkələrə yayılmağa başladı. Bu cərəyanın nümayəndələri klassik normalarla deyil, fərdi üslub rəngarəngliyi ilə fərqli ideyalarla təsviri sənətin ifadə dilini zənginləşdirib, yeni üslub rəngi qatmışdırlar. Bu kimi cərəyanlara görə kompozisiyanın metodikası, o cümlədən quruluş xüsusiyyətləri daha da dərinləşmişdir. Yaradılan təsviri sənət nümunələrini təhlilindən görünür ki, kompozisiya qaydaları və metodlarında ənənəvi qaydalar saxlanılsa da zaman keçdikcə, müəyyən qədər əvvəlki mahiyyətini itirərək yeni kompozisiya üsulları meydana gəlir, metodları daha da genişlənməyə başlayır.

Ümumiyyətlə, tematik kompozisiyalar yaradan rəssamlar, təsviri sənət ustaları təbii yola, başqa sözlə ifadə etsək, praktik üsullarla və yeni-yeni yaradılan nəzəri biliklərə əsaslanaraq şüurlu şəkildə kompozisiya qanunlarına əməl edirlər. Təsviri sənətdə kompozisiyanın inkişaf tarixini öyrənməklə tələbələr, gənc həvəskar rəssamlar həm də sistemli olaraq kompozisiya nəzəriyyəsinə aid biliklər əldə edirlər. Onlar kompozisiyanın qanun və metodlarını, qaydalarını nəzəri öyrənərək, həm də özlərindən daha təcrübəli sənətkarların kompozisiya sahəsindəki yaradıcılıq təcrübəsindən bəhrələnərək daha təkmil tematik tablolar, dekorativ əsərlər, heykəltəraşlıq nümunələri yaratmağa nail olurlar.

FƏRAHİM ZEYNALOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Əməkdar rəssam
https://orcid.org/0009-0001-2759-3622

İBTİDAİ SİNİFLƏRDƏ TƏSVİRİ İNCƏSƏNƏTİN DİGƏR FƏNLƏRLƏ İNTEQRATİV TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

Tezisdə ibtidai siniflərdə təsviri incəsənətin digər fənlərlə inteqrativ tədrisinin mühüm problemləri tədqiq edilmişdir. Araşdırmalar göstərir ki, təsviri-incəsənətin digər fənlərlə inteqrativ tədrisi keyfiyyətinin yüksəldilməsi, şagird fəallığının artırılması və şəxsiyyətin formalaşdırılmasında xüsusi rol oynayır.

Açar sözlər: *təsviri incəsənət, ibtidai sinif, şagird, inteqrativ tədris, müəllim, təbiət, riyaziyyat, həyat bilgisi, bacarıq*

Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsilin məzmununda xeyli yeniləşmə aparılmışdır. Bu günkü həyat daha çox yaradıcı fəaliyyət göstərə bilən şəxsiyyətin formalaşmasına xüsusi diqqət yetirilməsini tələb edir. Bu baxımdan ibtidai siniflərdə təsviri incəsənətin digər fənlərlə əlaqəli tədrisinin böyük təlim-tərbiyə əhəmiyyəti vardır.

Təsvirin incəsənət dərslərində tədris olunan materiallar ibtidai sinif şagirdlərini təbiət və cəmiyyət hadisələrilə tanış etməklə yanaşı, məktəblilərdə müstəqil düşünmək, fikir yürütmək qabiliyyətini yaradır.

Tədrisin müxtəlif mərhələlərində təsviri incəsənətin riyaziyyatla, Həyat bilgisi ilə əlaqələndirilməsi imkanları genişdir. Məsələn, III sinifdə təsviri incəsənət məşğələlərində Səttar Bəhlulzadənin əsərlərinin reproduksiyası üzrə iş aparılmalıdır. Belə bir cəhəti qeyd edək ki, əvvəllərdə Həyat bilgisi məşğələlərində respublikamızın təbiəti, ekologiyası ilə əlaqədar şagirdlərə məlumatlar verilmişdir. Ona görə də müəllim məktəblilərin diqqətini müxtəlif fəsillərdə təbiətin görkəmilə bağlı şəkillərə yönəldir və təbiət təsvirini xatırladan əsərlər üzərində müsahibə aparılır və sözlə təbiətin təsvirini verir.

Bundan sonra o, S.Bəhlulzadənin əsərlərinin reproduksiyası ilə şagirdləri tanış edir və onlara lazımi tapşırıqlar verir.

Yaxud, başqa bir nümunə göstərək: III sinifdə təsviri incəsənət dərslərində T.Salahov əsərlərinin reproduksiyası üzrə iş aparılmalıdır. Bundan əvvəl şagirdlər riyaziyyat dərslərində müxtəlif həndəsi fiqurların (düzbucaqlı və kvadratın) qurulması ilə bağlı müəyyən məlumatlar almış, yazı taxtasında və dəftərlərində qeyd olunan həndəsi fiqurların qurulması üzrə praktik iş yerinə yetirmişlər.

Riyaziyyat və ya Həyat bilgisi dərslərində aparılan həmin işlər şagirdlərə müəyyən bilik və praktik bacarıqlar aşılanır. Riyaziyyat və Həyat bilgisi üzrə məşğələlərlə vaxtilə yiyələndikləri bilik və bacarıqlara əsasən, təsviri incəsənət dərsində M.Abdullayevin əsərlərinin reproduksiyası üzərində işləyərkən çətinlik çəkmirlər. şagirdlər həmin fənlərdən qazandıqları bilikləri yadlarına sayır, ayrı-ayrı faktları ümumiləşdirmək bacarığına yiyələnirlər.

İbtidai siniflərdə təsviri incəsənətin digər fənlərlə inteqrativ yaradıcılıq fəaliyyətinin təşkili mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, yaradıcılıq fəaliyyəti şüurlu xarakter daşıyır. Çünki adətən hər bir insan ən əvvəl yaradıcı fəaliyyətin məqsəd və vəzifələrini, məqsədə çatmağın yollarını dəqiqləşdirəndən sonra belə bir fəaliyyətə başlayır.

Araşdırmalar göstərir ki, proqram materialları planlaşdırılarkən yaradıcı fəaliyyətin təşkilinə daha çox imkan verən iş nümunələri seçilməlidir. belə bir cəhətə diqqətin yetirilməsi elə ilk günlərdən şagirdlərin müstəqillik və fəallığının təmin olunmasına zəmin yaradır, müxtəlif fənlərdən (Həyat bilgisi, riyaziyyat və s.) əldə edilmiş biliklərin tətbiqinə imkan verir.

Təsviri incəsənətin digər fənlərlə inteqrativ tədrisi prosesində ibtidai sinif şagirdlərinin yaradıcı fəaliyyətini təşkil edərkən yaradıcı fəaliyyətin qabiliyyət, maraq və meyllər, təsəvvür və

biliklər, yaradıcılıq vərdişləri kimi tərkib hissələrindən kompleks şəkildə istifadə olunması məqsədəuyğundur.

İbtidai siniflərdə təsviri incəsənətin digər fənlərlə inteqrativ tədrisinin aktual problemləri mövzusu müasir pedaqoji yanaşmalar baxımından xüsusi əhəmiyyət daşıyır.

Müasir təhsil sistemi yalnız bilik ötürülməsini deyil, eyni zamanda yaradıcı düşüncə tərzinə malik, müstəqil qərar verməyi bacaran və estetik zövqü formalaşmış şəxsiyyət yetişdirməyi qarşıya məqsəd qoyur. Bu baxımdan təsviri incəsənət fənninin digər fənlərlə əlaqəli şəkildə tədrisi həm şagirdlərin ümumi inkişafına, həm də təlim nəticələrinin yüksəlməsinə ciddi təsir göstərir.

İbtidai sinif yaş dövrü uşaqların dünyagörüşünün, emosional qavrayışının və yaradıcılıq imkanlarının sürətlə inkişaf etdiyi mərhələdir. Məhz bu səbəbdən təsviri incəsənət dərslərinin təbiətşünaslıq, həyat bilgisi, riyaziyyat, ana dili və musiqi kimi fənlərlə inteqrativ əsasda qurulması şagirdlərdə müxtəlif bilik sahələri arasında məntiqi əlaqələrin yaranmasına imkan verir. Məsələn, riyaziyyat dərslərində öyrədilən həndəsi fiqurların rəsm prosesində tətbiqi uşaqlarda həm forma duyumunu, həm də məkan təsəvvürünü inkişaf etdirir. Eyni zamanda simmetriya, ölçü, nisbət və ritm kimi anlayışlar praktik fəaliyyət zamanı daha dərindən mənimsənilir.

Təcrübə göstərir ki, bəzən ibtidai sinif şagirdlərinin yaradıcılıq məqsədi müəyyən nəzəri müddəanı praktikada tətbiq etmək meylindən irəli gəlir. Bu baxımdan məsələyə yanaşsaq, göstərməliyik ki, yaradıcılıq məqsədinin təşəkkülü şagirdlərin hiss və xəyalları, geniş maraq dairəsi ilə əlaqədar ola bilər. Şagirdlərin görüş dairəsi genişləndikcə, onun qarşıya qoyduğu yaradıcılıq məqsədi də böyük olur.

Təsviri incəsənət dərslərində şagirdlərin yaradıcılıq işi ilə bağlı fənlərarası əlaqədən istifadə edilməsi təlimin keyfiyyətini xeyli dərəcədə yüksəlməyə şərait yaradır. Məsələn, məlumdur ki, təsviri incəsənətin tədrisində “simmetriya”, “simmetrik cisim”, “simmetriya xətti”, “nisbət”, “üfüqi xətt” və s. anlayışlardan istifadə edilir. Bu anlayışların mahiyyəti şagirdlərdə mənimsədilərkən riyaziyyatdan öyrənilmiş biliklərə istinad edilir. Məhz bu zaman şagirdlərin yaradıcı fəaliyyətin təşkili işində daha müsbət nəticələr əldə etmək olur. Bu baxımdan həmin nəticəni aşağıdakı şəkildə konkretləşdiririk:

1. Təbiət gözəlliklərinin, təbiət gözəllikləri ilə təsviri incəsənətin əlaqəsi dərk olunur;
2. Təsvirdə rəng əlaqələrinin, üfüqi xəttin, mənzərədə planın əhəmiyyəti başa düşülür, əşyanın uzaq-yaxınlığından asılılığı məsələsi mahiyyətcə aydınlaşır;
3. İnsan və heyvan fiqurlarının quruluşunun, onların müxtəlif orqanlarının (məsələn: baş, əl, ayaq və s.) bir-birinə nisbətinin təhlil edilərək təsvir olunması asanlaşır;
4. “Ritm”, “simmetriya”, “simmetrik cisim”, “simmetriya xətti” və s. anlayışlar daha dərindən mənimsədilir və bu da şagirdlərdə öz əsərlərini, eyni zamanda yoldaşlarının rəsm əsərlərini tənqidi şəkildə qiymətləndirmək bacarıqlarının formalaşmasına imkan verir.

İnteqrativ tədrisin tətbiqində maddi-texniki təminat da nəzərə alınmalıdır. Əyani vəsaitlərin, reproduksiyaların, rəngli materialların, rəqəmsal resursların və yaradıcı iş üçün münasib mühitin olmaması dərsin keyfiyyətinə mənfi təsir göstərə bilər. Xüsusilə müasir dövrdə interaktiv lövhələr, elektron təqdimatlar və virtual muzey materialları şagirdlərin sənətə marağını artırmaq üçün geniş imkanlar yaradır. Buna görə məktəblərdə təsviri incəsənət kabinetlərinin zənginləşdirilməsi məqsədəuyğun hesab olunur.

Şagirdlərin yaradıcı fəaliyyətinin təşkili də bu sahədə əsas problemlərdən biridir. Yaradıcılıq yalnız istedad məsələsi deyil; o, düzgün istiqamətləndirilmiş pedaqoji mühitdə formalaşır. Şagirdlərə sərbəst mövzu seçimi, kollektiv layihələr, müşahidəyə əsaslanan tapşırıqlar və fərdi təqdimatlar vermək onların təşəbbüskarlığını gücləndirir. Eyni zamanda digər fənlərdən əldə etdikləri bilikləri tətbiq etməyə şərait yaradır. Məsələn, nağıl qəhrəmanlarının təsviri zamanı ana dili dərsində öyrənilən mətnlərin məzmunu rəsm vasitəsilə yenidən canlandırılır.

Buna görə də ibtidai təhsil pilləsində bu istiqamətə sistemli yanaşmaq, müəllim hazırlığını gücləndirmək, metodik vəsaitləri yeniləmək və məktəblərin resurs imkanlarını genişləndirmək vacibdir. Yalnız bu halda təsviri incəsənət dərsləri uşaqlar üçün sadəcə bir fənn deyil, dünyanı dərk etməyin yaradıcı vasitəsinə çevrilə bilər.

Ümumiyyətlə, apardığımız araşdırmalar göstərir ki, ibtidai siniflərdə təsviri incəsənətin digər fənlərlə inteqrativ tədrisi keyfiyyətin yüksəldilməsinə, şagirdlərin idrak fəallığının artırılmasına, onların şəxsiyyət kimi formalaşmasına ciddi təsir göstərir. Ona görə də təlim prosesində problemin həllinə ardıcıl, sistemli yanaşılmalıdır.

YEGANƏ MUSTAFAYEVA
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
mustafayeva_y@mail.ru

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRİN MUSİQİ ƏSƏRİNİN QAVRANILMASINDA BƏDİİ-SEMANTİK TƏHLİL MÜHÜM AMİL KİMİ

Məqalədə ümumtəhsil məktəblərində şagirdlərin musiqi əsərini qavramasında bədii-semantik təhlilin rolu araşdırılır. Bu yanaşmanın musiqinin emosional və ideya məzmununun dərkində, analitik düşüncənin inkişafında və estetik zövqün formalaşmasında mühüm əhəmiyyət daşıdığı göstərilir. Təhlil şagirdlərin fəal və şüurlu dinləyici kimi formalaşmasına xidmət edir.

Açar sözlər: *musiqi qavrayışı, bədii-semantik təhlil, estetik tərbiyə, musiqi tədrisi, şagird inkişafı*

Ümumtəhsil məktəblərində şagirdlərin musiqi əsərinin qavranılması təkcə estetik zövqün formalaşdırılması ilə məhdudlaşmır, həm də onların idraki, emosional və mənəvi inkişafında mühüm rol oynayan kompleks pedaqoji proses kimi çıxış edir. Bu prosesdə bədii-semantik təhlil xüsusi əhəmiyyət daşıyır, çünki musiqi əsərinin yalnız səslər toplusu kimi deyil, mənəvi və ideya məzmununa malik bədii sistem kimi dərk olunmasına şərait yaradır. Müasir təhsil yanaşmaları musiqi tədrisini ifaçılıq bacarıqlarının formalaşdırılması ilə yanaşı, şagirdlərin analitik düşüncə qabiliyyətinin inkişafına yönəldir ki, bu da məhz bədii-semantik təhlilin tətbiqi ilə daha effektiv həyata keçirilir.

Musiqi əsərinin qavranılması psixoloji və estetik mexanizmlərin vəhdətində baş verir. Şagird əvvəlcə musiqini duyğusal səviyyədə qəbul edir, daha sonra isə müəllimin istiqamətləndirici fəaliyyəti nəticəsində onun struktur, janr, ifadə vasitələri və ideya məzmunu haqqında təsəvvür formalaşdırır. Bu baxımdan bədii-semantik təhlil musiqi materialının dərindən anlaşılmasına imkan verən metodik vasitə kimi çıxış edir. Təhlil zamanı musiqi əsərinin melodik xətti, ritmik strukturu, harmoniya sistemi və tembr xüsusiyyətləri ilə yanaşı, onun daşıdığı emosional məna və bədii ideya da diqqət mərkəzində saxlanılır. Bu yanaşma şagirdlərdə musiqiyə yalnız dinləmə obyekti kimi deyil, düşüncə və təhlil predmet kimi yanaşma vərdişini formalaşdırır.

Ümumtəhsil məktəblərində musiqi dərslərinin əsas vəzifələrindən biri şagirdlərdə musiqi mədəniyyətinin formalaşdırılmasıdır. Bu mədəniyyət isə yalnız müxtəlif əsərlərin ifası və dinlənilməsi ilə deyil, onların mahiyyətinin dərk olunması ilə inkişaf edir. Bədii-semantik təhlil bu baxımdan şagirdləri musiqinin daxili məntiqinə yönəldir, onları əsərin yaranma konteksti, bəstəkarın yaradıcılıq niyyəti və dövrün sosial-mədəni xüsusiyyətləri ilə tanış edir. Nəticədə şagird musiqi əsərini izolə olunmuş estetik obyekt kimi deyil, geniş mədəni və tarixi kontekstin tərkib hissəsi kimi qavramağa başlayır.

Musiqi qavrayışında semantik yanaşmanın tətbiqi şagirdlərin təxəyyül və assosiativ düşüncə imkanlarını genişləndirir. Musiqi əsəri sözlə ifadə olunmayan fikirlərin, hisslərin və obrazların daşıyıcısı olduğundan, onun mənalandırılması xüsusi pedaqoji yanaşma tələb edir. Bu prosesdə müəllim şagirdləri musiqinin ifadə etdiyi emosional çalarları sözlə ifadə etməyə, obrazlar qurmağa və musiqi ilə həyat təcrübəsi arasında əlaqə yaratmağa istiqamətləndirir. Beləliklə, bədii-semantik təhlil musiqinin abstrakt xarakterini konkret idraki və emosional strukturlara çevirməyə xidmət edir.

Tədris prosesində bədii-semantik təhlilin tətbiqi şagirdlərin fəal dinləyici kimi formalaşmasına şərait yaradır. Ənənəvi yanaşmada şagirdlər daha çox passiv dinləyici rolunda çıxış edirdilərsə, müasir pedaqoji modeldə onlar musiqi əsərinin təhlilində fəal iştirak edən subyektə çevrilirlər. Bu isə

onların tənqidi düşünmə bacarıqlarını, estetik qiymətləndirmə qabiliyyətini və ümumi mədəni savadlılığını artırır. Musiqi əsərinin strukturunun və məzmununun birlikdə təhlili şagirdlərdə sistemli düşünmə vərdişlərini formalaşdırır ki, bu da digər tədris fənlərinə də müsbət təsir göstərir.

Bədii-semantik təhlilin mühüm cəhətlərindən biri də musiqinin emosional təsir gücünün şüurlu şəkildə dərk olunmasına imkan yaratmasıdır. Şagird musiqinin hansı vasitələrlə müəyyən emosional vəziyyət yaratdığını anladıqda, onun qavrayışı daha dərin və məqsədyönlü xarakter alır. Bu zaman melodiyanın yüksəliş və enişləri, ritmik dinamika, lad dəyişiklikləri və harmoniya keçidləri emosional məna daşıyıcısı kimi dəyərləndirilir. Belə yanaşma musiqi tədrisini yalnız texniki biliklərin ötürülməsi deyil, həm də emosional-intellektual inkişaf prosesi kimi səciyyələndirir.

Eyni zamanda, bədii-semantik təhlil şagirdlərin milli və ümumbəşəri musiqi mədəniyyətinə inteqrasiyasını təmin edir. Azərbaycan və dünya musiqi nümunələrinin müqayisəli təhlili şagirdlərdə mədəni müxtəlifliyə hörmət hissi formalaşdırır, onların estetik dünyagörüşünü zənginləşdirir. Milli musiqi nümunələrinin semantik qatlarının açılması isə şagirdlərin milli kimlik şüurunun güclənməsinə xidmət edir. Bu baxımdan musiqi tədrisi həm də ideoloji və tərbiyəvi funksiyaya malik olur.

Müasir pedaqoji yanaşmalar göstərir ki, musiqi əsərinin qavranılmasında bədii-semantik təhlilin sistemli tətbiqi təlimin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Bu metod şagirdlərin musiqiyə münasibətini dəyişdirərək onu daha şüurlu, dərin və analitik xarakterə gətirir. Musiqi dərslərində belə yanaşmanın tətbiqi müəllimdən yüksək peşəkarlıq, metodik hazırlıq və yaradıcılıq tələb edir. Çünki hər bir musiqi əsərinin semantik açılımı onun fərdi xüsusiyyətlərindən asılı olaraq dəyişir və standart yanaşma ilə məhdudlaşmır.

Nəticə etibarilə, ümumtəhsil məktəblərində şagirdlərin musiqi əsərinin qavranılmasında bədii-semantik təhlil mühüm amil kimi çıxış edir və tədris prosesinin keyfiyyətini yüksəldən əsas pedaqoji vasitələrdən biri hesab olunur. Bu yanaşma şagirdlərin estetik zövqünün formalaşması ilə yanaşı, onların idraki qabiliyyətlərini, emosional intellektini və mədəni dünyagörüşünü inkişaf etdirir. Musiqinin dərin semantik qatlarının açılması onun yalnız eşidilən deyil, həm də dərk olunan bir sənət növü kimi mənimsənilməsinə imkan yaradır. Beləliklə, bədii-semantik təhlil müasir musiqi tədrisinin ayrılmaz tərkib hissəsi kimi çıxış edərək, şagirdlərin hərtərəfli inkişafına xidmət edir.

RUQİYYƏ TAĞIYEVA
Gəncə Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
AYŞƏ MƏMMƏDOVA
Gəncə Dövlət Universiteti
Müəllim
https: //orcid.org/ 0009-0002-7563-4676

TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ MƏNZƏRƏ JANRININ TƏDRİSİNİN PEDAQOJİ-PSİXOLOJİ MƏSƏLƏLƏRİ

Məqalədə təsviri incəsənət dərslərində mənzərə janrının tədrisinin pedaqoji və psixoloji təsirləri araşdırılır. Kompozisiya, perspektiv və rəng duyumu bacarıqlarının inkişafında sistemli tədrisin rolu göstərilir, tələbələrin yaradıcılıq, müşahidə və emosional qavrama qabiliyyətlərinin formalaşması vurğulanır.

Giriş. Təsviri incəsənət dərslərində mənzərə janrının tədrisi təsviri incəsənətin ilkin mərhələsində vizual təfəkkürün və bədii ifadə bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Bu proses tələbələr üçün yalnız yeni material və texnikaların mənimsənilməsi deyil, həm də əsas bədii prinsiplərin – kompozisiya, perspektiv və rəng qavrayışının tətbiqi ilə bağlıdır.

Tədris prosesində sistemli yanaşma və mərhələli məşğələlərin təşkili xüsusi əhəmiyyət kəsb edir və tələbələrin fərdi yaradıcılıq qabiliyyətlərinin inkişafına yönəlir. Təsviretmənin xüsusiyyətləri tələbələrdən dəqiq müşahidə, səbir və düzgün texniki icra tələb etdiyindən, düzgün qurulmuş metodika tədrisin keyfiyyətinə birbaşa təsir göstərir.

Buna görə təhsilalanlarda mənzərə janrının tədrisi metodikasının təkmilləşdirilməsi aktual məsələ kimi çıxış edir.

Metodika

Problem: Təsviri incəsənət dərslərində mənzərə janrının öyrədilməsi prosesində kompozisiya quruluşunun, perspektiv qanunlarının və rəng-ton münasibətlərinin mənimsənilməsində çətinliklər müşahidə olunur. Mövcud tədris metodikalarının kifayət qədər sistemli olmaması tələbələrin bədii təfəkkürünün inkişafını ləngidir və onların təbiət motivlərini ifadə etmək imkanlarını məhdudlaşdırır.

Məqsəd: Tədqiqatın məqsədi təhsilalanlarda mənzərə janrının tədrisinin elmi-metodik əsaslarını müəyyənləşdirmək, həmçinin bu prosesin pedaqoji və psixoloji təsirlərini araşdırmaq və onların kompozisiya, perspektiv və rəng duyumu bacarıqlarını inkişaf etdirən effektiv tədris modelini formalaşdırmaqdır.

Metodlar: Tədqiqat zamanı pedaqoji müşahidə, tələbələrin yaradıcılıq fəaliyyətinin təhlili, mərhələli tədris yanaşması və müqayisəli metoddan istifadə olunmuşdur. Praktik məşğələlərdə “nəm üzərində işləmə” və “quru texnika”, ton keçidləri və perspektiv quruluşların tətbiqi öyrənilmişdir. Tələbələr qısa və uzunmüddətli etüdlər yerinə yetirərək təbiət obyektlərinin müşahidəsi, kompozisiya qurulması və işıq-kölgənin düzgün verilməsi bacarıqlarını inkişaf etdirmişlər.

Təbiətin təsvirində əsas və ən mühüm şərt maraqlı və ifadəli kompozisiyanın qurulması, həmçinin düzgün qrafik həllin verilməsidir. Kompozisiya bütövlükdə işin əsasını təşkil edir və bədii təsvirin uğurlu alınmasında həlledici rol oynayır. Gözəl və ifadəli mənzərə ilk növbədə tamaşaçının diqqətini cəlb edir. İlin fəsilindən – yaz və ya qış olmasından asılı olmayaraq, təbiətin seçilmiş kiçik fraqmenti estetik baxımdan təsirli və maraqlı olmalıdır.

Kompozisiya qaydalarına uyğun olaraq işin qurulması üfüq xəttinin düzgün müəyyənləşdirilməsi və uyğun formatın seçilməsi ilə bağlıdır. Üfüq xəttinin rəsmin mərkəzində yerləşdirilməsi təsviri statik və hərəkətsiz edir. Buna görə də təsvirin iki bərabər hissəyə bölünməsi arzuolunan hesab edilmir. Kompozisiyanın ilkin mərhələsində üfüq xəttinin düzgün yerləşdirilməsi əsas prinsiplərdən biridir.

Üfüq xəttinin yuxarı və ya aşağı qaldırılması kompozisiyanın emosional və məkan təsirini dəyişdirir: yuxarı yerləşdirildikdə tamaşaçıya aşağı baxış effekti yaradır və hündürlük hissini gücləndirir, aşağı yerləşdirildikdə isə səma və genişlik daha çox vurğulanır. Əgər əsas təsvir obyekti səma olarsa, diqqət daha çox yuxarı planlara yönəldilir.

Metodiki ardıcıllıq:

1. Üfüq xəttinin əsas element kimi müəyyən edilməsi
2. Perspektiv qanunlarına uyğun düz xətlərin tətbiqi
3. Tonal vasitələrlə işıq-kölgə keçidlərinin verilməsi
4. Səma təsvirində yalnız mavi deyil, müxtəlif rəng çalarlarının istifadəsi
5. Yaşıl çəmənlik və çiçəklərin ümumiləşdirilmiş rəng kütləsi kimi verilməsi

Mənzərə müxtəlif materiallarla – karandaş, akvarel, yağlı boya və pastel ilə yerinə yetirilə bilər. Lakin əsas əhəmiyyət ton münasibətlərinin və işıq-kölgənin düzgün verilməsinə verilir. Təsvir perspektiv qanunlarına uyğun olmalıdır. Ton işığın və qaranlığın fərqlərini göstərir və ağ fondan ən tünd rəngə qədər keçidi təmin edir. Ən azı 3-4 ton səviyyəsindən istifadə olunması tövsiyə edilir. Akvarel ilə işləyərkən qat-qat rəngləmə üsulu tətbiq edilir. Hər qat quruduqdan sonra yeni qat əlavə olunur. Nəm kağız üzərində işləmə sərbəst faktura yaradır, quru texnika isə daha dəqiq formalar verir. Təsvirə başlamazdan əvvəl, təbiət uzun müddət müşahidə edilməlidir. Bu hər bir rəssam üçün vacib mərhələdir. Su səthləri (dəniz, çay, göl) mənzərəni daha ifadəli edir. Əkslər və işıq parıltısı real təsir yaradır.

Təsviri incəsənət dərslərində mənzərə janrının tədrisi yalnız bədii bacarıqların formalaşdırılmasına deyil, eyni zamanda tələbələrin pedaqoji və psixoloji inkişafına da mühüm təsir göstərir. Bu proses şagirdlərin təlimə olan marağını artırır, onların diqqətini mərkəzləşdirmə qabiliyyətini gücləndirir və sistemli düşünmə bacarıqlarını inkişaf etdirir.

Pedaqoji baxımdan mənzərə janrının öyrədilməsi tələbələrdə müşahidə etmə, analiz etmə və nəticə çıxarma bacarıqlarını formalaşdırır. Kompozisiya quruluşu, perspektiv qanunları və rəng münasibətlərinin öyrənilməsi onlarda ardıcıl və məntiqi düşünmə vərdişlərini gücləndirir. Eyni zamanda, mərhələli tədris prosesi tələbələrin təlim materialını daha asan qavramasına şərait yaradır və onların yaradıcılıq fəaliyyətini stimullaşdırır.

Psixoloji baxımdan isə mənzərə mövzusunun işlənməsi tələbələrin emosional dünyasına müsbət təsir göstərir. Təbiət təsvirləri onların estetik zövqünü formalaşdırır, daxili sakitlik və harmoniyanı gücləndirir. Rənglərlə işləmə prosesi tələbələrdə emosional ifadəliliyi artırır və özünüifadə imkanlarını genişləndirir. Eyni zamanda, akvarel texnikasının xüsusiyyətləri – səbir, diqqət və dəqiqlik tələb etməsi – tələbələrin psixoloji dayanıqlığını və özünə inamını inkişaf etdirir.

Beləliklə, mənzərə janrının tədrisi həm pedaqoji, həm də psixoloji baxımdan kompleks inkişaf imkanı yaradır və tələbələrin bədii təfəkkürünün formalaşmasında mühüm rol oynayır.

Nəticə. Tədqiqat göstərir ki, mənzərə janrının sistemli tədrisi tələbələrin həm bədii bacarıqlarını, həm də pedaqoji və psixoloji inkişafını gücləndirir. Bu proses onların yaradıcılıq potensialını artırır, estetik zövqünü formalaşdırır və düşünmə qabiliyyətini inkişaf etdirir.

OKTAY RZAYEV
Naxçıvan Dövlət Universiteti
Dosent
oktay_rzayev@mail.ru
GÜLNAR BABAYEVA
Naxçıvan MR Əməkdar müəllimi
Qabaqcıl təhsil işçisi
https://orcid.org/0009-0007-6377-255X

AZƏRBAYCANDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAF TARİXİNİN ELMİ-METODOLOJİ ƏSASLARI

Məqalədə Azərbaycanda bədən tərbiyəsi və idmanın formalaşması uzun tarixi yol keçmişdir və bu inkişaf yalnız idman fəaliyyətinin təşkili ilə məhdudlaşmır. Bu sahə cəmiyyətin sosial-mədəni, hərbi-siyasi, iqtisadi və ideoloji həyatının mühüm tərkib hissəsi kimi çıxış edir. Tarixi tədqiqatlar göstərir ki, fiziki hazırlıq, hərbi bacarıqlar, ovçuluq, döyüş sənətləri və kollektiv oyunlar Azərbaycanın əhalisinin həyatında ən qədim dövrlərdən mövcud olmuş və müəyyən funksional vəzifələri yerinə yetirmişdir kimi məsələlər öz əksini tapmışdır. Bu fəaliyyət formaları əhalinin müharibələrə hazırlanmasında, əmək məhsuldarlığının artırılmasında, yaşamaq instinktlərinin möhkəmləndirilməsində, milli ənənələrin qorunub saxlanılmasında və onların nəsildən-nəslə ötürülməsində mühüm rol oynamışdır. Belə ki, etnoqrafik materiallar təsdiq edir ki, xalq oyunları, milli idman növləri və yarışlar dini mərasimlər, bayram tədbirləri və ictimai hadisələrlə sıx bağlı olmuşdur. Bədən tərbiyəsi və idmanın inkişafına təsir edən əsas amillərdən biri müxtəlif tarixi dövrlərdə mövcud olmuş dövlət quruluşu və idarəetmə sistemi olmuşdur. Tarixi proseslər göstərir ki, dövlət idmanın təşkili və inkişafında həm stimullaşdırıcı, həm də məhdudlaşdırıcı rol oynaya bilərdi. Bu tarixi proseslərin elmi-metodoloji öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bədən tərbiyəsi və idmanın tarixi yalnız faktların toplanması ilə məhdudlaşmır. Bu sahənin mahiyyətini anlamaq üçün mədəni, sosial və elmi-metodoloji yanaşmaların kompleks şəkildə tətbiqi vacibdir. Elmi-metodoloji təhlil tarixi mərhələlər arasındakı əlaqələri müəyyən etməyə, inkişaf istiqamətlərini izləməyə, tədris və tədqiqat metodlarını sistemləşdirməyə, müasir idman siyasətini qiymətləndirməyə və gələcək inkişaf perspektivlərini proqnozlaşdırmağa imkan verir.

Açar sözlər: *bədən tərbiyəsi, idman fəaliyyəti, fiziki hazırlıq, bədən tərbiyəsi hərəkatı, sosial-iqtisadi münasibətlər, bədən tərbiyəsinin tarixi, bədən tərbiyəsinin inkişafı*

Azərbaycanda bədən tərbiyəsi və idmanın formalaşması uzun tarixi yol keçmişdir və bu inkişaf yalnız idman fəaliyyətinin təşkili ilə məhdudlaşmır. Bu sahə cəmiyyətin sosial-mədəni, hərbi-siyasi, iqtisadi və ideoloji həyatının mühüm tərkib hissəsi kimi çıxış edir. Tarixi tədqiqatlar göstərir ki, fiziki hazırlıq, hərbi bacarıqlar, ovçuluq, döyüş sənətləri və kollektiv oyunlar Azərbaycanın əhalisinin həyatında ən qədim dövrlərdən mövcud olmuş və müəyyən funksional vəzifələri yerinə yetirmişdir. Bu fəaliyyət formaları əhalinin müharibələrə hazırlanmasında, əmək məhsuldarlığının artırılmasında, yaşamaq instinktlərinin möhkəmləndirilməsində, milli ənənələrin qorunub saxlanılmasında və onların nəsildən-nəslə ötürülməsində mühüm rol oynamışdır. Etnoqrafik materiallar təsdiq edir ki, xalq oyunları, milli idman növləri və yarışlar dini mərasimlər, bayram tədbirləri və ictimai hadisələrlə sıx bağlı olmuşdur.

Bədən tərbiyəsi və idmanın inkişafına təsir edən əsas amillərdən biri müxtəlif tarixi dövrlərdə mövcud olmuş dövlət quruluşu və idarəetmə sistemi olmuşdur. Tarixi proseslər göstərir ki, dövlət idmanın təşkili və inkişafında həm stimullaşdırıcı, həm də məhdudlaşdırıcı rol oynaya bilərdi. Sosial-iqtisadi münasibətlər, təsərrüfat həyatının xüsusiyyətləri, urbanizasiya səviyyəsi, hərbi-siyasi təhlükələr və xarici mədəni təsirlər bu sahənin inkişaf tempini müəyyən edirdi. Xüsusilə Azərbaycanın coğrafi mövqeyi və onun strateji əhəmiyyəti digər region ölkələri ilə əlaqələrin möhkəmlənməsinə və mədəni mübadiləyə şərait yaratmış, bu da idman ənənələrinə təsir göstərmişdir.

XX əsrdə bədən tərbiyəsi və idmanın inkişafı daha sistemli xarakter almışdır. Bu dövrdə dövlətin ideoloji-siyasi məqsədləri çərçivəsində əhalinin kütləvi şəkildə idmana cəlb olunması, idman məktəblərinin və ixtisaslaşmış təhsil müəssisələrinin yaradılması, elmi-metodik bazanın möhkəmləndirilməsi və beynəlxalq idman təmsilçiliyinin genişləndirilməsi sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Bu dövrdə idman yalnız məşq və yarış fəaliyyəti kimi deyil, həm də sağlamlığın möhkəmləndirilməsi, əmək məhsuldarlığının artırılması, ordunun hazırlanması və dövlətin beynəlxalq nüfuzunun yüksəldilməsi üçün mühüm vasitə kimi qiymətləndirilirdi. Həmin mərhələnin təcrübəsi Azərbaycanda peşəkar idmanın və idmançıların hazırlanması sisteminin əsaslarını formalaşdırmışdır.

1991-ci ildə müstəqillik bərpa edildikdən sonra Azərbaycan idman siyasətini milli maraqlara uyğun şəkildə yenidən qurmağa başlamışdır. Bu mərhələdə normativ-hüquqi baza genişləndirilmiş, idman federasiyaları, məktəblər və klublar islahat edilmiş, beynəlxalq təşkilatlarla əməkdaşlıq gücləndirilmiş və idmanın maddi-texniki infrastrukturu modernləşdirilmişdir. Paralel olaraq beynəlxalq arenada da əhəmiyyətli nəticələr əldə edilmişdir: Azərbaycan idmançıları dünya və Avropa çempionatlarında medallar qazanmış, Olimpiya Oyunlarında uğurlu çıxışlar etmişlər. İdmanın populyarlaşdırılması, sağlam həyat tərzinin formalaşdırılması və idman turizminin inkişafı istiqamətində geniş proqramlar həyata keçirilmişdir.

Bu tarixi proseslərin elmi-metodoloji öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bədən tərbiyəsi və idmanın tarixi yalnız faktların toplanması ilə məhdudlaşmır. Bu sahənin mahiyyətini anlamaq üçün mədəni, sosial və elmi-metodoloji yanaşmaların kompleks şəkildə tətbiqi vacibdir. Elmi-metodoloji təhlil tarixi mərhələlər arasındakı əlaqələri müəyyən etməyə, inkişaf istiqamətlərini izləməyə, tədris və tədqiqat metodlarını sistemləşdirməyə, müasir idman siyasətini qiymətləndirməyə və gələcək inkişaf perspektivlərini proqnozlaşdırmağa imkan verir.

Beləliklə, Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixinin öyrənilməsi nəzəri, metodoloji və praktik baxımdan aktualdır və əldə edilən nəticələr idman təhsili, kadr hazırlığı, idman idarəçiliyi və sahənin uzunmüddətli inkişaf strategiyasının formalaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Hazırda bədən tərbiyəsi və idman insan tərbiyəsinin mühüm vasitəsi kimi ümumxalq əhəmiyyəti qazanmışdır və millətlərarası, beynəlxalq ünsiyyət fenomeni kimi çıxış edərək ictimai münasibətlərin formalaşmasına xidmət edir. Bədən tərbiyəsi və idmanın inkişafı insanların fiziki keyfiyyət və qabiliyyətlərinin təkmilləşdirilməsi sahəsində əldə olunan maddi və mənəvi nailiyyətlərlə xarakterizə olunur. Bu sahə insanların fəallığının və əmək qabiliyyətinin artmasına, sağlamlığın möhkəmlənməsinə xidmət edən xüsusi bacarıq və biliklərin mənimsənilməsinə kömək edir. Bədən tərbiyəsi yalnız cəmiyyətin ümumi mədəni nailiyyətləri ilə vəhdətdə formalaşaraq inkişaf edə bilmişdir.

Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı aparılmış tədqiqatlarda bir çox alimlər sübut edirlər ki, Azərbaycan xalqı yerli Qafqaz tayfalarından formalaşmışdır və xüsusilə yerli xalq köklərini vurğulayırlar. Tarixi Azərbaycanın ərazisi qədim dövrlərdən müxtəlif tayfalar tərəfindən məskunlaşdırılmışdır və ən qədim tayfa birliklərindən biri məhz bu ərazilərdə meydana gəlmişdir.

Bu nəticələr tədqiqat üçün prinsipial əhəmiyyət daşıyır. Bəzi tədqiqatçılar qədim Azərbaycanda fiziki tərbiyə sisteminin mövcudluğunu İran, Yunanıstan, Assuriya və digər qədim xalqların təsiri ilə izah etməyə çalışırlar və hesab edirlər ki, qədim azərbaycanlılar bu sahədə orijinal heç nə yaratmamış, yalnız digər sivilizasiyaların təcrübəsini mənimsəmişlər. Lakin çoxsaylı faktlara əsaslanaraq azərbaycanlı tədqiqatçılar belə qənaətə gəlirlər ki, ibtidai icma quruluşu dövründə Zaqafqaziyanın əsas xalqlarının həyat tərzi və mədəniyyəti ümumi xüsusiyyətlərə malik olmuş və Azərbaycan xalqının formalaşmasının kökləri məhz bu regionda yerləşmişdir.

Azərbaycan xalqının qədim dövrlərdən bu günə qədər bədən tərbiyəsi və idmanın inkişafının elmi-metodoloji əsaslarının öyrənilməsi, bədən tərbiyəsinin xalq həyatındakı rolunun müəyyənləşdirilməsi pedaqogika elmi üçün mürəkkəb və eyni zamanda zəruri vəzifədir və xalqın tarixi-pedaqoji maarifləndirilməsinin mühüm hissəsini təşkil edir.

Azərbaycanda bədən tərbiyəsi və idmanın tarixinin öyrənilməsi, onların xalqın maariflənməsindəki rolunun dərin şəkildə dərk edilməsi həyatın qarşıya qoyduğu vəzifələrin düzgün

və vaxtında həllinə kömək edəcəkdir. Bu qanunauyğunluqların öyrənilməsi və şüurlu şəkildə tətbiqi qoyulan vəzifələrin həllində subyektiv və iradi yanaşmaların aradan qaldırılmasına, respublikada bədən tərbiyəsi və idmanın inkişafında yeni yüksəlişə səbəb olacaqdır

Hələ də fiziki tərbiyə və idmanın cəmiyyət həyatındakı əhəmiyyətinin qiymətləndirilməsində bəzən bir tərəfli yanaşma rast gəlinir; belə ki, onları yalnız insanın fiziki tərbiyəsi, fiziki mükəmməlliyi, sağlamlığın möhkəmləndirilməsi və bərpası vasitəsi kimi nəzərdən keçirirlər. Bu yanaşmada fiziki tərbiyə və idmanın ictimai-pedaqoji fenomen kimi, xalqın tərbiyəsi və sosial dünya görüşünün formalaşdırılması istiqamətində əhəmiyyəti daralır.

Bu problemin öyrənilməsinin aktuallığı həm də ondan irəli gəlir ki, bu günə qədər Azərbaycan xalqının həyatında fiziki tərbiyə və idmanın əhəmiyyəti və onun tarixi inkişafının elmi-metodoloji təhlili ilə bağlı fundamental araşdırmalar yoxdur.

Mövcud ayrı-ayrı məqalələr xaraktercə ümumiləşdirici olduğundan, Azərbaycan xalqının fiziki tərbiyəsinin müxtəlif dövlətçilik mərhələlərində formalaşması və inkişafı tarixini izləməyə imkan vermir. Fiziki tərbiyənin tarixinin, onun elmi-metodoloji əsaslarının araşdırılması Azərbaycan dövlətçiliyi tarixinin və respublikada pedaqoji fikrin inkişafının öyrənilməsi ilə sıx bağlıdır. Azərbaycanda pedaqoji fikrin formalaşması və gələcək inkişafı tarixinin öyrənilməsində böyük xidmətlər görən tanınmış pedaqoqlar arasında A.Seidov, M.Mehtizadə, M.Muradxanov, G.Əhmədov, A.Qaşımov, Y.Talıbov, N.Qəzəmov, F.Seidov və başqalarını qeyd etmək olar.

Azərbaycan dövlətçiliyi tarixi məsələləri tanınmış alimlər Z.Bünyatov, T.Məmmədov, İ.Əliyev, F.Məmmədova, İ.D’yakonov, Z.Yampolski, A.Aşurbəyli, A.Əlizadə və başqalarının əsərlərində əks olunub. Yaxın xarici ədəbiyyatda (keçmiş SSRİ ölkələrində) bu ölkələrin xalqlarında fiziki tərbiyənin formalaşması, inkişafı və xüsusiyyətlərini öyrənən çoxlu araşdırmalar mövcuddur.

Müxtəlif xalqların fiziki tərbiyə və idmanının tarixi xüsusiyyətlərinə həsr olunmuş bir sıra dissertasiya işləri yerinə yetirilib: Gürcüstan (V.A.Əlaşvili 1956, M.A.Qorqadze 1959, A.E.Tsibadze 1975); Qazaxıstan (M.B.Brusilovski 1961, M.T.Tanikeev 1961); Uzaq Şimal (G.Ş.Absalamov 1963); Latviya (A.V.Kisass 1966); Komi (E.V.Moroz 1967); Kabardino-Balkariya (V.A.Apekov 1968); Şimali Osetiya (F.V.Kaziev 1970); Buryatiya (B.L.Sandalov 1970); Tacikistan (T.Suyarkulov 1966); Qırğızıstan (L.P.Sokolov 1963); Türkmənistan (A.Bekiev 1974); Özbəkistan (Y.S.Şolominski 1961, A.B.Sunik 1968, K.P.Ten 1969, R.İsmayılov 1971) və s.

Azərbaycanda da fiziki tərbiyənin müxtəlif aspektlərinin inkişafına dair müəyyən araşdırmalar aparılıb. Xüsusilə, fiziki tərbiyə hərəkatının tarixi ilə bağlı ayrı-ayrı lokal məsələlərə həsr olunmuş dissertasiyalar yerinə yetirilib: E.T.Rəhimov (1949), M.A.İskəndərov (1963), İ.V.Musaev (1964), G.Ağayev (1969), K.T.Rzayev (1964), M.İ.Məmmədov (1973), G.N.Məmmədov (1974), R.Z.Əliyev (1975), F.Ə.Acjalov (1987). Məktəblilərin fiziki-tərbiyə fəaliyyətində tərbiyəsi məsələsinə həsr olunmuş işlər: B.S.Kuliyeva (1978), M.A.Nəsrullayeva (1987), X.T.Fətəliyeva (1989), G.A.Qəmidova (1994), İ.G.Əkbərova (1998).

Bizim problemimizlə əlaqəli tanınmış elmi əsərlər M.A.İskəndərovun “Azərbaycan SSR-də idmanın inkişafı tarixi (1946-1960)”, K.T.Rzayevin “Azərbaycan SSR-də fiziki tərbiyə və idmanın inkişafı (1917-1937)”, G.N.Məmmədovun “Azərbaycan SSR-in ümumtəhsil məktəblərində fiziki tərbiyənin inkişafı tarixi” dissertasiyalarıdır. E.T.Rəhimovun dissertasiyası milli güləşin formalaşması və inkişafı məsələlərinə həsr olunub.

Yuxarıda sadalanan işlərdə Azərbaycanın fiziki tərbiyə və idmanının müxtəlif tarixi dövrlərdə inkişaf və formalaşmasının müəyyən aspektləri açılır. İ.V.Musayevin dissertasiyasında isə internat məktəblərində fiziki tərbiyənin məqsəd və məzmunu, fiziki tərbiyə dərslərinin səmərəli təşkili yolları göstərilib. A.Ağayevin dissertasiyasında Azərbaycan xalq oyunları ilə bağlı etnoqrafik məlumatlar təqdim olunur; müəllif onları yaş qruplarına görə qruplaşdırmış, bəzi oyunların qaydalarını işləyib hazırlamışdır. A.Ş.Qaşımovun “Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri” (1971) doktorluq dissertasiyası cəmiyyətdə fiziki tərbiyənin çoxsahəliliyinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir; burada o, xalqın şifahi yaradıcılığında fiziki tərbiyə məsələlərini və gənc nəsilin tərbiyəsində onun rolunu ətraflı şəkildə işıqlandırır.

X.T.Fətəliyevanın “Məktəblilərin mənəvi tərbiyəsində hərbi-idman oyunları” (1989) doktorluq dissertasiyası gənclərin mənəvi tərbiyəsində fiziki tərbiyənin rolunu əhatəli şəkildə göstərir, hərbi-idman oyunlarının təşkili formaları və metodları barədə tövsiyələr verir.

Fiziki tərbiyənin elmi-metodoloji əsaslarının, xalq mədəniyyətinin bir hissəsi kimi tarixi inkişafının öyrənilməsində A.Nabiyev böyük əhəmiyyət kəsb edir. O, “Xalq mahnıları, tamaşalar” (1988) monoqrafiyasında Azərbaycan xalq yaradıcılığını ümumiləşdirərək xalq oyunlarının, tamaşaların və fiziki məşqlərin sosial mahiyyətini işıqlandırır, idman tamaşalarının və xalq oyunlarının milli xüsusiyyətlərini təhlil edir, milli idman növlərinin xalq həyatında əhəmiyyətini vurğulayır. Onları rəqs oyunları, rituallı oyunlar, gündəlik oyunlar, ictimai məzmunlu oyunlar, uşaqlar üçün oyunlar kimi təsnif edir.

Bizim apardığımız tədqiqat müəyyən dərəcədə bu təsnifatın genişləndirilməsinə imkan verir. Məsələn, qədim Azərbaycan rəqsləri dini, mahnılı, gündəlik və hərbi rəqslərə bölünə bilər. Dini rəqslər isə iki növdə olub: birində dini ekstaz əks olunub və dini kultun tərkib hissəsi olub; digərləri isə formal olaraq dini kultla bağlı olub, əslində isə xalqın fiziki məşqlərinin bir hissəsini təşkil edib və s.

Klassik ədəbiyyat, arxiv mənbələri və dissertasiya işlərinin elmi-metodoloji təhlili göstərir ki, Azərbaycan xalqının fiziki tərbiyəsinin formalaşması və inkişafı tarixi xüsusi tədqiqat predmetinə çevrilməmişdir.

Fiziki tərbiyənin tarixi və elmi-metodoloji əsaslarının xüsusi araşdırılmaması müəllimləri, fiziki tərbiyə işçilərini və ictimaiyyəti gənc nəsilin tarixi nümunələr üzərində tərbiyəsi, fiziki mədəniyyət və idmanın xalq həyatına tətbiqi sahəsində zəruri elmi biliklərlə təmin etməyə imkan vermir.

Eyni zamanda, Azərbaycan xalqının fiziki tərbiyə və idmanının inkişaf yollarının tarixi-elmi təhlili və onların gənclərin tərbiyəsində sosial əhəmiyyətinin öyrənilməsi cəmiyyət həyatına kütləvi fiziki tərbiyənin effektiv formalarının və metodlarının tətbiq mexanizmini və tendensiyalarını daha dolğun müəyyən etməyə, Azərbaycanda fiziki tərbiyə və idmanın inkişaf miqyasını dəqiq göstərməyə, fiziki tərbiyə və idmanın tarixi sahəsində elmi bilikləri genişləndirməyə imkan verəcək.

ZEYNAB MEHDİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
ZeynabMehdiyeva@nmi.edu.az

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN EKOLOJİ VƏ ESTETİK TƏRBİYƏSİNDƏ DİDAKTİK OYUNLARIN ROLU

Mətn məktəbəqədər yaşlı uşaqların ekoloji və estetik tərbiyəsində didaktik oyunların əhəmiyyətindən bəhs edir. Didaktik oyunlar uşaqlarda təbiətə sevgi, estetik zövq, ekoloji mədəniyyət və ətraf mühitə düzgün münasibət formalaşdırır, onların emosional və zehni inkişafına müsbət təsir göstərir.

***Açar sözləri**: məktəbəqədər təhsil, uşaq, ekoloji tərbiyə, didaktik oyun, estetika*

Məktəbəqədər təhsil sistemindəki ətraf mühit məzmunu uşaqlarla cəmiyyət arasındakı münasibətləri, uşaqlarla ətrafdakı sosial və təbii mühit arasındakı münasibətləri əhatə edir. Uşaqlarla ətraf mühit arasında sağlam münasibətlərin qurulması əsasən estetikanı əhatə edən ekoloji mədəniyyətin inkişaf etdirilməsindən asılıdır. Bu mədəniyyət uşaqların bir-biri ilə və təbiətlə qarşılıqlı əlaqəsinin bütün aspektlərinə təsir göstərməlidir.

Uşaqlarda ekoloji mədəniyyətin formalaşması gənc nəslin ekoloji və estetik tərbiyəsinə əsaslanır. Məktəbəqədər yaşlı uşaqlara xüsusi diqqət yetirilməlidir, çünki bu yaş ətrafdakı dünyaya qarşı şüurlu, emosional cəhətdən müsbət münasibətlərin inkişafı üçün ən əlverişlidir. Pedaqoq və psixoloqların fikrincə, məktəbəqədər dövr uşağın zehni inkişafında mühüm mərhələdir və yeni zehni strukturların formalaşması üçün təməl qoyur.

Buna görə də, ekoloji təhsil təbiətin gözəlliyini qiymətləndirmələ başlamalıdır. Ekoloji təhsil yalnız ətrafımızdakı dünya haqqında elmi biliklər çatdırmaqla yanaşı, həm də estetik cəhətdən zəngin olmalıdır. Bu, məktəbəqədər yaşlı uşaqlarda ətrafımızdakı dünya haqqında bədii və estetik qavrayışın inkişafına məhz didaktik oyunlar zamanı daha çox kömək edir.

Bu baxımdan əsas məqsəd ətraf aləm gözəlliyinə emosional cəhətdən müsbət münsibət bəsləməklə uşaqlara təbiət haqqında zəruri elmi biliklər vermək, təbiətin vəhdəti və müxtəlifliyi, daimi dəyişiklik və inkişaf, təbiətdəki canlılar arasında əlaqələrin uyğunluğu haqqında biliklərin əsaslarını təmin etmək, uşağa ətraf aləm və insanın oradakı yeri haqqında vahid bir anlayış yaratmağa kömək etmək və insanla təbiət arasındakı ikitərəfli əlaqəni nümayiş etdirmək idi.

Didaktik oyunlar uşaqlarla işləməkdə bu prinsiplərin həyata keçirilməsinin vacib vasitəsidir. Oyunda uşaqlar yalnız biliklərini aydınlaşdırmaq və möhkəmləndirməklə yanaşı, tanış hadisələri və həyat vəziyyətlərini emosional olaraq yenidən yaşayacaqlar. Oyun uşağın ətrafındakı dünyaya təsir etmək ehtiyacını oyadır.

Məktəbəqədər təhsil müəssisələrinin təhsil prosesində didaktik oyunların istifadəsi, ilk növbədə, oyunun bu yaşda aparıcı fəaliyyət olması ilə əlaqədardır. Lakin, məktəbəqədər yaşlı uşaqların ekoloji və estetik tərbiyəsində didaktik oyunların istifadəsini öyrənməyə yönəlmiş tədqiqatlar demək olar ki, mövcud deyil.

NİZAMİ QULİYEV
Naxçıvan Müəllimlər İstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
Nizamiguliyev@nmi.edu.az

TEXNOLOGİYA FƏNNİNİN ŞAGİRDLƏRİN PRAKTİK BACARIQLARININ FORMALAŞMASINDA ROLU

Texnologiya fəninin tədris prosesi şagirdlərdə müxtəlif praktik vərdişlərin, əl qabiliyyətinin və texniki təfəkkürün inkişafına xüsusi təsir göstərir. Tədqiqat zamanı şagirdlərin fəaliyyətinin müşahidəsi, müəllimlərlə müsahibələr və praktiki işlərin təhlili metodlarından istifadə edilmişdir. Məlum olmuşdur ki, texnologiya dərsləri şagirdlərdə material və alətlərlə işləmək, sadə texniki konstruksiyalar hazırlamaq, iş prosesini planlaşdırmaq və təhlükəsizlik qaydalarına əməl etmək bacarıqlarını formalaşdırır. Fənnin praktik yönümlü tədrisi şagirdlərin yaradıcı potensialının üzə çıxarılmasına, onlarda əməksevərliyin və məsuliyyət hissinin aşılanmasına kömək edir. Məqalədə praktik bacarıqların formalaşdırılmasında texnologiya fənninin xüsusiyyətləri, bu prosesin psixoloji-pedaqoji əsasları və səmərəliliyin artırılması yolları ətraflı şəkildə şərh edilmişdir. Nəticədə texnologiya fənninin şagirdlərin hərtərəfli inkişafında və gələcək həyat fəaliyyətlərinə hazırlanmasında mühüm rol oynadığı qənaətinə gəlinmişdir.

Açar sözlər: *texnologiya fənni, praktik bacarıqlar, şagird inkişafı, əmək tərbiyəsi, texniki fəaliyyət, əl qabiliyyəti, problemlə üzləşmə bacarığı, yaradıcı düşüncə, istehsalat təcrübəsi*

Ümumi təhsil məktəblərində tədris olunan fənlər sırasında texnologiyanın xüsusi yeri və əhəmiyyəti vardır. Bu fənni tədris prosesinin əsas məqsədi yalnız müəyyən bilik və bacarıqların aşılanması deyil, həm də şagirdlərdə praktik fəaliyyətə hazırlığın formalaşdırılmasıdır. Texnologiya fənni şagirdləri əmək fəaliyyətinə cəlb edir, onlarda əl qabiliyyəti inkişaf etdirir və müxtəlif materiallarla işləmək vərdişləri aşılayır. Müasir təhsil konsepsiyası şagirdlərin nəzəri biliklərlə yanaşı praktiki bacarıqlara da yiyələnməsini tələb edir və məhz bu baxımdan texnologiya fənni öz aktuallığını saxlayır. Tədqiqatın əsas məqsədi texnologiya fənninin şagirdlərin praktik bacarıqlarının formalaşmasında rolunu elmi əsaslandırmaq və bu prosesin səmərəliliyini artırmaq yollarını müəyyənləşdirməkdir. Araşdırma metodları kimi şagirdlərin praktiki fəaliyyətinin müşahidəsi, müəllimlərlə dərinləşdirilmiş müsahibələr, şagird işlərinin təhlili və ədəbiyyatın öyrənilməsi tətbiq edilmişdir. Texnologiya fənninin tədrisi şagirdlərdə əl qabiliyyətinin və motor bacarıqlarının inkişafına böyük təsir göstərir. Praktiki işlər zamanı şagirdlər müxtəlif əl alətləri ilə tanış olur, onlardan düzgün istifadə etməyi öyrənir və sadə texniki əməliyyatları yerinə yetirirlər. Bu prosesdə şagirdlərin barmaq əzələləri inkişaf edir, göz-əl əlaqəsi güclənir və dəqiq hərəkətlər etmək bacarığı formalaşır. Ağac, metal, plastik və digər materiallarla işləmək şagirdlərə bu materialların fiziki xassələrini praktiki yolla öyrənməyə imkan yaradır. Onlar materialların sərtliyini, elastikliyini, möhkəmliyini və digər xüsusiyyətlərini hiss edərək, onlara uyğun iş üsullarını seçməyi öyrənirlər. Bu bacarıqlar gündəlik həyatda da tətbiq olunur və şagirdlərin müstəqil həyat tərzinə hazırlanmasına xidmət edir. Məsələn, evdə sadə təmir işləri aparmaq, mebel yığmaq və ya əşyalar düzəltmək üçün zəruri olan əl bacarıqları məhz texnologiya dərslərində formalaşdırılır.Problemlərin həlli bacarığının inkişafı texnologiya fənninin digər mühüm təsir istiqamətidir. Praktiki işlər zamanı şagirdlər müxtəlif texniki problemlərlə üzləşirlər və onların həlli yollarını özləri tapmalı olurlar. Bu prosesdə onlarda məntiqi təfəkkür inkişaf edir, səbəb-nəticə əlaqələrini görmək bacarığı formalaşır və qərar qəbul etmək vərdişləri aşılanır. Şagirdlər verilmiş material və alətlərdən istifadə edərək konkret məqsədə çatmaq üçün müxtəlif variantları düşünür, onların üstünlük və çatışmazlıqlarını müqayisə edir və optimal həlli seçirlər. Bu bacarıq yalnız texniki fəaliyyət üçün deyil, həyatın digər sahələrində də tətbiq olunur və şagirdlərin müstəqil düşünməsinə kömək edir. Texniki yaradıcılıq tapşırıqları şagirdlərin təsəvvürünü inkişaf etdirir, onlara mövcud vasitələrdən yeni məqsədlər üçün istifadə etməyi öyrədir. Bu prosesdə şagirdlər standart olmayan hallarda da öz düşüncələrini tətbiq etməyi, çətinliklərdən çıxış yolu tapmağı öyrənirlər. Texnologiya fənni şagirdlərdə iş prosesini planlaşdırmaq

və təşkil etmək bacarıqlarının formalaşmasına da töhfə verir. Hər hansı bir əşya hazırlayarkən şagird əvvəlcə onun görünüşünü və quruluşunu təsəvvür etməli, işin ardıcıllığını müəyyənləşdirməli, lazımi material və alətləri seçməli və vaxtı səmərəli bölüşdürməlidir. Bu bacarıqlar gələcək peşə fəaliyyətində və şəxsi həyatda çox vacibdir. Şagirdlər kiçik yaşlardan etibarən məqsədyönlü fəaliyyətə öyrəşdirilir, onlarda işin mərhələlərlə aparılması vədi aşılanır. Kompleks tapşırıqların yerinə yetirilməsi zamanı şagirdlər böyük həcmli işi kiçik hissələrə bölməyi, hər bir mərhələnin nəticələrini qiymətləndirməyi və növbəti addımları planlaşdırmağı öyrənirlər. Bu bacarıqlar onlarda sistemli düşüncə formalaşdırır və hər hansı bir işə yanaşmada metodiklik aşılayır. Təhlükəsizlik qaydalarına əməl etmək vərdişinin aşılanması texnologiya fənninin mühüm təsir istiqamətlərindən biridir. Praktiki işlər zamanı şagirdlər alətlərin və avadanlıqların təhlükəsiz istifadə qaydalarını öyrənir, fərdi mühafizə vasitələrindən istifadə etməyi mənimsəyir və potensial riskləri qiymətləndirmə bacarığı əldə edirlər. Bu vərdişlər onların gələcək həyatlarında müxtəlif təhlükəli situasiyalarda özünü qorumasına kömək edir. Şagirdlər anlayırlar ki, hər hansı bir işə başlamazdan əvvəl təhlükəsizlik tədbirlərini görmək, iş yerini hazırlamaq və qəza hallarında davranış qaydalarını bilmək vacibdir. Bu məlumatlar yalnız məktəbdəki praktiki işlər üçün deyil, evdə, yolda və istehsalatda da tətbiq olunur. Təhlükəsizlik mədəniyyətinin formalaşdırılması şagirdlərdə məsuliyyət hissi yaradır və onların öz həyatlarına və sağlamlıqlarına laqeyd yanaşmamasına səbəb olur. Texnologiya fənni şagirdlərdə əməksevərlik və məhsuldar əmək vərdişlərinin formalaşmasına da xüsusi təsir göstərir. Praktiki işlərin nəticəsində əldə edilən konkret məhsul şagirdlərdə əməyin faydalılığına inam yaradır. Onlar görürlər ki, səylərinin nəticəsində real, ələ tutulan bir şey əmələ gəlir və bu onlarda işgüzarlıq hissi inkişaf etdirir. Müvəffəqiyyət hissi şagirdləri yeni işlərə cəlb edir, onlarda öz güclərinə inam formalaşdırır. Kollektiv şəraitdə aparılan praktiki işlər şagirdlərdə əməkdaşlıq vərdişləri aşılayır, onlara birgə fəaliyyətin üstünlüklərini göstərir. Qrup işləri zamanı şagirdlər bir-birinin işini əvəz etməyi, köməkləşməyi və birgə məqsədə çalışmağı öyrənirlər. Bu bacarıqlar müasir cəmiyyətdə komanda işində uğur qazanmaq üçün zəruridir. Əməyin nəticəsinin görünməsi şagirdlərdə əməyə hörmət hissi yaradır və onları gələcəkdə müxtəlif peşələrə hazırlayır. Yaradıcı potensialın üzə çıxarılması və estetik zövqün formalaşması texnologiya fənninin digər mühüm rolu olaraq qeyd edilməlidir. Praktiki işlər zamanı şagirdlər yalnız funksional əşyalar yaratmır, həm də onların görünüşünə diqqət yetirirlər. Bu prosesdə onlarda estetik duyum inkişaf edir, gözəllik anlayışı formalaşır və bədii zövq aşılanır. Şagirdlər müxtəlif bəzək elementləri hazırlayır, əşyaların rəng və formalarını seçir və onları bədii cəhətdən təkmilləşdirirlər. Bu fəaliyyət onların yaradıcı təfəkküründü inkişaf etdirir və gələcək dizayn fəaliyyətinə hazırlayır. Texniki estetika anlayışı şagirdlərə əşyanın yalnız faydalı deyil, həm də gözəl olmasının vacibliyini öyrədir. Bu baxımdan texnologiya fənni incəsənət və bədii tərbiyə ilə sıx əlaqədədir. Texnologiya fənninin praktik bacarıqların formalaşmasında rolu onun digər fənnlərlə inteqrasiyasında da özünü göstərir. Riyaziyyat biliklərinin ölçü aparmaq, hesablamaq və konstruksiya hazırlamaq zamanı tətbiqi şagirdlərdə bu fənnin praktik əhəmiyyətini aşkar edir. Fizika və kimya biliklərinin materialların xassələrini başa düşməkdə istifadəsi şagirdlərə elm və texnikanın vəhdətini göstərir. İnformatika və texnologiya fənlərinin əlaqəsi müasir texnoloji proseslərin öyrənilməsinə imkan yaradır. Bu inteqrasiya şagirdlərdə vahid dünya görüşü formalaşdırır və bilikləri əlaqəli şəkildə mənimsəməyə kömək edir. Fənnlərarası əlaqələr şagirdlərin konkret vəziyyətlərdə müxtəlif biliklərini sintez etmək bacarığını inkişaf etdirir. Praktik bacarıqların formalaşmasında texnologiya fənninin rolunun artırılması üçün bir sıra tədbirlər görülməlidir. Birinci növbədə praktiki işlərin həcminin artırılması və onların keyfiyyətinin yüksəldilməsi zəruridir. Hər dərsdə şagirdlərin fəal iştirakı təmin edilməli, onlara müstəqil işləmək imkanı yaradılmalıdır. Müasir texnologiyaların tətbiqi şagirdləri yeni materiallar və üsullarla tanış edir, onların müasir istehsalat proseslərinə hazırlanmasına kömək edir. Müəssisələr və texniki kolleclərlə əməkdaşlıq şagirdlərə real istehsalat şəraiti ilə tanış olmağa, peşəkarların iş prosesini müşahidə etməyə imkan yaradır.

Nəticə etibarilə qeyd etmək olar ki, texnologiya fənni ümumi təhsil məktəblərində şagirdlərin praktik bacarıqlarının formalaşmasında müstəsna rol oynayır. Bu fənni tədris prosesi şagirdlərdə əl qabiliyyəti, problemləri həll etmək bacarığı, iş prosesini planlaşdırmaq və təşkil etmək vərdişləri,

təhlükəsizlik qaydalarına əməl etmək vərdişi, əməksevərlik və yaradıcı potensialın inkişafına xüsusi təsir göstərir. Texnologiya dərsləri şagirdləri real əmək fəaliyyətinə hazırlayır, onlarda həyat üçün zəruri olan praktik bilik və bacarıqlar formalaşdırır. Bu fənnin tədrisinin səmərəliliyinin artırılması məktəblərin maddi-texniki bazasının gücləndirilməsini, müəllimlərin peşəkar hazırlığının yüksəldilməsini və tədris prosesinin praktiki yönümlü təşkilini tələb edir. Gələcəkdə texnologiya fənninin şagirdlərin hərtərəfli inkişafında və onların müasir cəmiyyətin tələblərinə uyğun hazırlanmasında rolu daha da artacaqdır. Tədqiqatlar bu sahənin davamlı inkişafı üçün yeni metod və üsulların işlənib hazırlanmasına, uğurlu təcrübələrin öyrənilməsinə və yayılmasına yönəldilməlidir.

ŞƏHLA TARVERDİYEVA
Babək rayon Hacıvar kənd tam orta məktəbi
Musiqi müəllimi
Sehla.tarverdiyeva@gmail.com

ÜMUMİ TƏHSİL MƏKTƏBLƏRİNDƏ MUSİQİ FƏNNİNİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ VƏ İNNOVATİV YANAŞMALAR

Açar sözlər: *musiqi tədrisi, estetik tərbiyə, innovativ metodlar, canlı ifa*

Əsas hissə. Müasir dünyada baş verən qlobal sosial-mədəni və texnoloji dəyişikliklər təhsil sisteminin bütün pillələrində yenidənqurma işlərinin aparılmasını və innovativ yanaşmaların tətbiqini zəruri edir. Azərbaycan Respublikasında ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, milli mənəvi dəyərlərə sadiq və eyni zamanda qlobal cəmiyyətin tələblərinə cavab verən şəxsiyyətlərin yetişdirilməsi istiqamətdə mühüm islahatlar həyata keçirilməkdədir. İnsan mənəviyyatına birbaşa təsir edən, onun daxili dünyasını zənginləşdirən ən güclü vasitələrdən biri, şübhəsiz ki, musiqi sənətidir. Bu baxımdan orta məktəblərdə tədris olunan musiqi fənni gənc nəslin bədii zövqünün inkişafında, milli və bəşəri musiqi mədəniyyəti ilə tanışlığında, həmçinin yaradıcı təfəkküründün formalaşdırılmasında əvəzsiz rola malikdir.

Lakin müasir rəqəmsal dövrün tələbləri, informasiya axınının sürətlənməsi və məktəblilərin maraq dairəsinin köklü şəkildə dəyişməsi musiqi fənninin ənənəvi tədris metodologiyasının yenilənməsini tələb edir. İndi musiqi dərslərinin qarşısında duran əsas çağırış dərslərin yalnız quru nəzəriyyə və birtərəfli, monoton mahnı oxumaq fəaliyyətindən ibarət olmasının qarşısını almaqdır. Tədris prosesini müasir şagird üçün cəlbedici etmək məqsədilə fənlərarası inteqrasiyadan, İKT imkanlarından, elektron musiqi proqramlarından və bəstəkarların həyatını, yaradıcılıq yolunu bədii şəkildə əks etdirən videoçarxlardan mütəmadi istifadə olunmalıdır. Məsələn, dərslərdə virtual muzey turlarının təşkili (Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Niyazinin ev-muzeyləri və s.) şagirdlərin vizual və emosional yaddaşını gücləndirir, fənnə olan daxili marağı və sevgini stimullaşdırır.

Təcrübəmə və pedaqoji fəaliyyətimə əsasən qeyd edə bilərəm ki, keçilən hər bir mövzuya uyğun seçilmiş xüsusi yüksək keyfiyyətli audio materiallardan, klassik və müasir bəstəkarların canlı səs yazılarından dərslərdə istifadə edilməsi dərsin dinamikasını tamamilə müsbət istiqamətə dəyişir. Bu metod şagirdlərdə təkcə musiqi dinləmək deyil, həm də musiqi əsərini dərindən təhlil etmək, onun strukturunu anlamaq və musiqi mədəniyyətinə yiyələnmək bacarığını formalaşdırır. Audio resursların düzgün seçimi sinifdə emosional fon yaradır və şagirdlərin dərs boyu diqqətli qalmasını təmin edir.

Musiqi fənninin tədrisində digər bir aktual məsələ isə şagirdlərdə zəngin milli musiqi irsimizə – muğam sənətinə, aşıq yaradıcılığına, xalq mahnı və rəqslərinə dərin hörmət və sevgi aşılamaqla yanaşı, qlobal musiqi trendlərini düzgün analiz etmək bacarığının formalaşdırılmasıdır. Sinifdə yaradıcı və azad mühitin qurulması, bədii ritm oyunları, kollektiv qrup işləri hər bir şagirdin gizli qalan potensialını və musiqi duyumunu üzə çıxarmağa şərait yaradır. Bu istiqamətdə tətbiq etdiyim ən səmərəli və şagirdlər tərəfindən böyük maraqla qarşılanan metodlardan biri də musiqi məktəblərində, dərnəklərdə xüsusi alətlər üzrə təhsil alan istedadlı şagirdlərin öz fərdi musiqi alətlərini (tar, kamança, skripka, qarmon, nağara və s.) ümumtəhsil dərslərinə gətirməsini təşviq etməkdir. Bu vasitə ilə sinifdəki digər uşaqları real musiqi alətlərinin quruluşu, səslənmə xüsusiyyətləri və tarixi ilə yaxından tanış edir, keçilən mövzuya tam uyğun gələn bəstəkar və ya xalq musiqilərinin canlı ifasını birgə reallaşdırırıq. Bu cür canlı ifa mühiti dərsi həm vizual, həm də akustik cəhətdən zənginləşdirir. Musiqi alətinin sinif yoldaşı tərəfindən canlı olaraq ifa edilməsi digər şagirdlərdə musiqiyə qarşı böyük maraq oyadır, estetik təsir gücünü artırır və sinifdə real yaradıcılıq atmosferi formalaşdırır. Eyni zamanda, ifaçı şagirdlərin özünəinam hissi artır və öz həmyaşıdları qarşısında yaradıcılıq hesabatı vermiş olurlar.

Bu tipli müasir çağırışların və qarşıda duran hədəflərin uğurla öhdəsindən gəlmək üçün musiqi müəlliminin həm pedaqoji-nəzəri, həm də praktiki-metodik fəaliyyətinin davamlı olaraq təkmilləşdirilməsi, innovativ texnologiyalara yiyələnməsi günümüzün əsas tələblərindəndir.

Nəticə olaraq qeyd etmək olar ki, ümumi təhsil məktəblərində musiqi fənninin tədrisinin keyfiyyəti, şagirdlərin dərslərdə fəal iştirakı birbaşa olaraq innovativ metodların tətbiqindən, müasir texnoloji imkanlardan və canlı musiqi təcrübələrindən asılıdır. Musiqi dərsləri təhsil sənədlərində sadəcə ikinci dərəcəli bir fənn kimi deyil, şagirdin yaradıcı təfəkkürünü, mənəvi dünyasını, emosional zəkasını və ümumi dünyagörüşünü formalaşdırın fundamental bir vasitə kimi qəbul edilməli və inkişaf etdirilməlidir. Bu istiqamətdə reallaşdırılan hər bir yenilik bütövlükdə Azərbaycan təhsilinin humanistləşdirilməsinə və estetik səviyyəsinin yüksəldilməsinə xidmət edəcəkdir.

XATIN AĞAYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
KhatinAgayeva@nmi.edu.az
https://orcid.org/0000-0003-4406-456X

BASKETBOL DƏRSLƏRİNƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR

Müasir dövrdə idmanın tədrisi yalnız fiziki bacarıqların formalaşdırılması ilə məhdudlaşmır. Xüsusilə basketbol kimi dinamik və kollektiv idman növlərinin tədrisi tələbələrin fiziki hazırlığı, psixoloji inkişafı, taktiki düşüncəsi və sosial bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır. Basketbolun tədrisində müasir tələblər isə ənənəvi metodlardan fərqli olaraq innovativ texnologiyaların, interaktiv yanaşmaların və fərdi inkişaf prinsiplərinin tətbiqini nəzərdə tutur.

Açar sözlər: *idman, basketbol, fiziki hazırlıq, ali təhsil, müəllim, məşqçi*

Basketbol dərslərinin düzgün təşkili tələbələrdə çeviklik, sürət, koordinasiya, dözümlülük və komanda ruhunun inkişafına şərait yaradır. Buna görə də müasir təhsil sistemində basketbolun tədrisi yeni metodik yanaşmalar əsasında qurulmalıdır.

Basketbol tədrisinin mahiyyəti və əhəmiyyəti

Basketbol dünyada geniş yayılmış idman növlərindən biridir. Bu oyunun tədrisi tələbələrin həm fiziki, həm də mənəvi inkişafına müsbət təsir göstərir.

- sağlam həyat tərzini formalaşdırır;
- kollektiv düşüncəni inkişaf etdirir;
- qərarvermə bacarıqlarını artırır;
- liderlik keyfiyyətlərini formalaşdırır;
- tələbələrdə məsuliyyət hissi yaradır.

Ali təhsil müəssisələrində basketbolun tədrisi yalnız texniki elementlərin öyrədilməsi deyil, həm də gələcək müəllim və məşqçilərin peşəkar hazırlığının mühüm hissəsidir.

Müasir basketbol tədrisinin əsas tələbləri

1. İnnovativ tədris metodlarının tətbiqi - müasir basketbol dərslərində interaktiv və innovativ metodlardan istifadə mühüm əhəmiyyət daşıyır. Video analizlər, elektron təlim vasitələri, simulyasiya proqramları və rəqəmsal təqdimatlar dərslərin keyfiyyətini artırır.

2. Fərdi yanaşma prinsipi - müasir tədris sistemində hər bir tələbənin fiziki və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Bütün tələbələrin eyni səviyyədə olmaması müəllimdən fərdi yanaşma tələb edir.

3. Fiziki hazırlığın təkmilləşdirilməsi - basketbol yüksək fiziki hazırlıq tələb edən idman növüdür. Buna görə müasir tədrisdə sürət, çeviklik, koordinasiya, dözümlülük və güc hazırlığı xüsusi yer tutur.

4. Taktiki düşüncənin inkişafı - müasir basketbolda yalnız texniki hazırlıq kifayət etmir. Oyunçular taktiki düşünməyi bacarmalıdırlar.

5. Psixoloji hazırlıq - basketbol emosional gərginlik yaradan oyun növlərindən biridir. Buna görə psixoloji hazırlıq vacib hesab olunur.

6. Təhlükəsizlik qaydalarının tədrisi - basketbol dərslərində təhlükəsizlik əsas tələblərdən biridir. Müəllim isinmə hərəkətlərini düzgün təşkil etməli və zədələrin qarşısını alma yollarını öyrətməlidir.

Müasir tədrisdə müəllimin rolu

Basketbol müəllimi yalnız texniki bilik verən şəxs deyil, həm də pedaqoq, psixoloq, təşkilatçı və motivator rolunu yerinə yetirir.

Müasir müəllim daim öz üzərində işləməli, yeni metodikaları öyrənməli və texnologiyalardan istifadə etməlidir.

Basketbol tədrisində müasir tələblər təhsil prosesinin daha səmərəli və keyfiyyətli təşkilinə yönəlmişdir. İnnovativ metodların tətbiqi, fərdi yanaşma, taktiki və psixoloji hazırlıq, təhlükəsizlik qaydalarının öyrədilməsi müasir basketbol tədrisinin əsas istiqamətlərini təşkil edir.

Ali təhsil müəssisələrində basketbolun müasir yanaşmalar əsasında tədrisi sağlam, peşəkar və yaradıcı gənclərin formalaşmasına mühüm töhfə verir.

SƏBİNƏ İSMAYILOVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı
ARTİ-nin dissertantı
sebineismayilova7799@gmail.com

BİOLOGİYANIN TƏDRİSİNDƏ MÜASİR DİDAKTİK YANAŞMALARIN TƏTBİQİNİN PEDAQOJİ ASPEKTLƏRİ

Məqalədə biologiyanın tədrisində müasir didaktik yanaşmaların pedaqoji əhəmiyyəti və onların təlim prosesində tətbiqi məsələləri əks olunur. Biologiya dərslərində interaktiv təlim metodlarından və informasiya-kommunikasiya texnologiyalarından istifadənin şagirdlərin idrak fəallığının inkişafına təsiri göstərilir. Həmçinin müəllim-şagird əməkdaşlığının təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rolu əsaslandırılır.

Açar sözlər: *biologiyanın tədrisi metodikası, didaktik yanaşmalar, interaktiv təlim, müəllim-şagird əməkdaşlığı, pedaqoji fəaliyyət*

Müasir təhsil islahatları ümumtəhsil məktəblərində təlim prosesinin yeni pedaqoji yanaşmalar əsasında təşkilini zəruri etmişdir. XXI əsrin tələbləri məktəblərdə yalnız nəzəri biliklərin ötürülməsini deyil, həm də şagirdlərdə tədqiqatçılıq, məntiqi düşünmə, problem həll etmə və müstəqil öyrənmə bacarıqlarının formalaşdırılmasını ön plana çıxarır. Bu baxımdan biologiyanın tədrisində müasir didaktik yanaşmaların tətbiqi xüsusi aktuallıq kəsb edir.

Didaktika təlimin məzmununu, prinsiplərini və təşkili yollarını öyrənən pedaqoji sahə kimi biologiya dərslərinin məqsədyönlü və sistemli qurulmasına imkan yaradır. Təlimin elmilik, sistemlilik, əyanilik, şüurluluq və yaradıcı fəallıq prinsipləri biologiyanın tədrisində mühüm əhəmiyyət daşıyır. Bu prinsiplərin tətbiqi şagirdlərin bioloji anlayışları daha dərindən mənimsəməsinə, müşahidə və müqayisə aparmasına, elmi nəticələr çıxarmasına şərait yaradır. Xüsusilə problemli təlim, tədqiqat üsulları və praktik tapşırıqlar şagirdlərin idrak fəaliyyətini gücləndirən əsas vasitələrdəndir.

Biologiyanın tədrisində informasiya-kommunikasiya texnologiyalarından istifadə müasir didaktik yanaşmaların əsas istiqamətlərindən biridir. Elektron resurslar, multimedia vasitələri, virtual laboratoriyalar və təqdimatlar dərslərin daha əyani və maraqlı təşkilinə imkan verir. İKT vasitələrinin tətbiqi biologiya dərslərində canlı aləmin, bioloji proseslərin və təcrübələrin vizual şəkildə təqdim olunmasına şərait yaradır. Bu isə şagirdlərin mövzunu daha yaxşı qavramasına, onların məntiqi və tənqidi təfəkkürünün inkişafına müsbət təsir göstərir. Eyni zamanda informasiya texnologiyalarından istifadə şagirdlərin müstəqil araşdırma aparmaq bacarıqlarını inkişaf etdirir.

Müasir biologiya dərslərində müəllim yalnız məlumat verən şəxs deyil, həm də istiqamətləndirici və fasilitator funksiyasını yerinə yetirir. Təlim prosesində müəllim-şagird əməkdaşlığının demokratik və humanist prinsiplər əsasında qurulması şagirdlərin fəallığını artırır və onların dərsə motivasiyasını gücləndirir. Əməkdaşlıq şəraitində təşkil olunan dərslərdə şagirdlər sərbəst fikir mübadiləsi aparır, qrup işlərində iştirak edir və öz yaradıcılıq potensiallarını nümayiş etdirirlər. Bu isə onların kommunikativ bacarıqlarının və sosial münasibətlərinin inkişafına müsbət təsir göstərir.

Biologiyanın tədrisində interaktiv təlim metodlarının tətbiqi də xüsusi pedaqoji əhəmiyyətə malikdir. Diskussiya, beyin həmləsi, layihə üsulu, təqdimatlar və praktik fəaliyyətlər şagirdlərin dərsə marağını artırır, onları aktiv öyrənmə prosesinə cəlb edir. Fəal təlim metodlarının tətbiqi biologiya dərslərində əzbərçiliyin qarşısını alır, şagirdlərdə yaradıcı və tənqidi təfəkkürün formalaşmasına şərait yaradır.

Nəticə olaraq qeyd etmək olar ki, biologiyanın tədrisində müasir didaktik yanaşmaların tətbiqi təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Təlim texnologiyalarından, interaktiv metodlardan və müəllim-şagird əməkdaşlığından səmərəli istifadə şagirdlərin elmi dünyagörüşünün

formalaşmasına, onların idrak fəallığının və tədqiqatçılıq bacarıqlarının inkişafına geniş imkan yaradır.

COŞQUN QURBANOV
Naxçıvan Müəllimlər İstitutu
Müəllim
csqnqrbnv@gmail.com

ÜMUMİ TƏHSİL MƏKTƏBLƏRİNDƏ TEXNOLOGİYA FƏNNİNİN TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

Müasir texnoloji inkişafa baxmayaraq, təhsil müəssisələrində texnologiya fənnin tədrisi bir sıra çətinliklərlə üzləşir. Əsas problemlər arasında laboratoriya və təchizat çatışmazlığı, dərs vəsaitlərinin müasir tələblərə cavab verməməsi, müəllimlərin metodik hazırlıq səviyyəsinin aşağı olması və dərs saatlarının yetərsizliyi göstərilir. Həlli yolları sırasında laboratoriya bazasının yenilənməsi, müəllimlər üçün səmərəli təlim proqramlarının təşkili, fənn kurikulumunun praktiki yönümlü təkmilləşdirilməsi, digər fənnlərlə inteqrasiyanın gücləndirilməsi və alternativ qiymətləndirmə metodlarının tətbiqi prioritet təşkil edir. Nəticədə texnologiya fənninin tədrisinin keyfiyyətinin yüksəldilməsi şagirdlərin praktiki bacarıqlarının inkişafına və onların gələcək peşə hazırlığına müsbət təsir göstərəcəyi qənaətinə gəlinmişdir.

***Açar sözlər**: ümumi təhsil, texnologiya fənni, tədris problemləri, metodik yeniliklər, laboratoriya təchizatı, peşəkar inkişaf, fənn kurikulumu, praktiki bacarıqlar*

Müasir dövrdə cəmiyyətin texnoloji inkişafı təhsil sistemindən də yeni tələblər irəli sürür. Ümumtəhsil məktəblərində texnologiya fənni şagirdlərin praktiki bacarıqlarının formalaşdırılması, texniki təfəkkürünün inkişafı və gələcək peşə seçimlərində istiqamətləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Lakin son illərdə aparılan tədqiqatlar və təcrübə göstərir ki, bu fənnin tədrisi bir sıra sistemli problemlərlə üzləşir ki, bunların həlli təhsilin keyfiyyətinin yüksəldilməsi üçün zəruridir. Məktəblərdə texnologiya fənninin tədrisi zamanı yaranan çətinliklər təkcə metodik xarakterli deyil, həm də infrastruktur, kadrların hazırlığı və kurikulum planlaşdırılması ilə bağlıdır. Bu problemlərin kompleks şəkildə öyrənilməsi və həlli yollarının işlənib hazırlanması aktual elmi-praktiki əhəmiyyət kəsb edir. Tədqiqatın əsas məqsədi ümumi təhsil məktəblərində texnologiya fənninin tədrisi prosesində mövcud olan problemləri sistemləşdirmək və onların aradan qaldırılması istiqamətində təkliflər hazırlamaqdır. Araşdırma zamanı müxtəlif təhsil müəssisələrindəki vəziyyət öyrənilmiş, müəllimlərin fikirləri toplanmış və mövcud ədəbiyyat təhlil edilmişdir. Əldə olunan məlumatlar göstərir ki, problemlər bir-biri ilə sıx bağlıdır və təcrid olunmuş şəkildə həll edilə bilməz. Məsələn, laboratoriya şəraitinin olmaması nəzəri dərslərin üstünlük təşkil etməsinə, bu isə öz növbəsində şagirdlərdə fənnə marağın azalmasına gətirib çıxarır. Beləliklə, problemlərin kompleks həlli yanaşması tələb edir. Birinci növbədə qeyd etmək lazımdır ki, əksər məktəblərdə texnologiya fənni üçün laboratoriya şəraiti və praktiki təchizat kifayət qədər deyil. Müşahidələr göstərir ki, bir çox ümumi təhsil məktəblərində bu fənn üçün ayrıca otaqlar mövcud olmadığından, dərslər adətən ümumi sinif otaqlarında keçirilir. Belə şəraitdə şagirdlərin əl alətləri ilə tanış olması, materialların xassələrini praktiki yolla öyrənməsi və sadə texniki konstruksiyaların hazırlanması mümkün olmur. Təchizatın köhnəlməsi də ciddi problemdir. Hətta laboratoriyası olan məktəblərdə də avadanlıqların əksəriyyəti sovet dövründən qalmadır və müasir texnologiyalarla heç bir əlaqəsi yoxdur. Şagirdlər köhnə tornalar, dəzgahlar və alətlərlə çalışmaq məcburiyyətində qalırlar ki, bu da onların müasir istehsalatda tətbiq olunan texnologiyalarla tanış olmasına mane olur. Bundan başqa, təhlükəsizlik qaydalarına əməl etmək üçün zəruri olan fərdi mühafizə vasitələrinin və təlim materiallarının çatışmazlığı da müşahidə olunur. Dərslik vəsaitləri məsələsi də öz aktuallığını saxlayır. Hazırda istifadə olunan dərsliklərin bir çoxu praktik yönümlü olmadığından, şagirdlər nəzəri bilikləri praktiki fəaliyyətə çevirməkdə çətinlik çəkirlər. Dərsliklərdə verilmiş tapşırıqlar çox vaxt gündəlik həyatla əlaqəsiz olur və şagirdlərdə maraq oyatmır. Eyni zamanda, dərs vəsaitlərində müasir texnologiyalar, yeni materiallar və innovativ istehsalat üsulları kifayət qədər əks olunmamışdır. Bu vəziyyət fənnin praktik əhəmiyyətini aşağı salır və şagirdlərdə texnologiya fənninin sadəcə əlavə dərs olduğu təəssüratı

yaradır. Müasir təhsil standartlarına uyğun olaraq dərsliklərdə layihə-tədqiqat fəaliyyətinə, problemlərin həllinə yönəlmiş tapşırıqlara və qrup işinə daha çox yer ayrılması zəruridir. Lakin mövcud vəsaitlər bu tələblərə cavab vermir. Müəllim kadrlarının hazırlığı və peşəkar inkişafı sahəsində də ciddi problemlər mövcuddur. Bir çox texnologiya müəllimi ali təhsilini bu ixtisas üzrə almadığından, fənnin məzmununu dərindən bilmir və müasir tədris metodlarından istifadə etməkdə çətinlik çəkir. Metodik hazırlıq kurslarının keçirilməsi sahəsində də çatışmazlıqlar var. Müəllimlər yeni tədris proqramları, innovativ metodlar və müasir texnologiyalarla tanış olmaq imkanlarından məhrumdurlar. Peşəkar inkişaf proqramları çox vaxt formal xarakter daşıyır və praktiki fayda vermir. Bundan əlavə, texnologiya müəllimlərinin əməkhaqqı digər fənn müəllimlərininkindən fərqlənmədiyindən, bu sahəyə maraq göstərən mütəxəssislərin sayı azalır. Təcrübəli müəllimlərin təqaüdə çıxması və yeni kadrların hazırlanmaması problemi daha da dərinləşdirir. Dərs saatlarının və fənn kurikulumunun strukturu ilə bağlı məsələlər də diqqət tələb edir. Hazırki kurikulumda texnologiya fənninə ayrılan saatlar praktiki bacarıqların formalaşdırılması üçün yetərsizdir. Həftədə cəmi bir saat ayrılan bu dərsdə nəzəri materialın izahı, praktiki işin aparılması və şagirdlərin fərdi işinin yoxlanılması mümkün olmur. Nəticədə dərslər çox vaxt yalnız nəzəri müstəvidə aparılır və şagirdlər praktiki bacarıqlar əldə edə bilmirlər. Kurikulumda praktiki işlərə ayrılan vaxtın artırılması və nəzəri materialın minimuma endirilməsi zəruridir. Eyni zamanda, fənnin digər fənnlərlə inteqrasiyası zəifdir. Texnologiya dərslərində riyaziyyat, fizika, kimya və informatika biliklərinin tətbiqi gözlənilsə də, bu əlaqələr kurikulumda aydın şəkildə əks olunmamışdır. STEAM yanaşmasının tətbiqi imkanları məhduddur. Problemlərin həlli yolları kompleks və sistemli yanaşma tələb edir. Birinci növbədə məktəblərin maddi-texniki bazasının gücləndirilməsi prioritet məsələdir. Dövlət tərəfindən məktəblərin texnologiya kabinetlərinin təchizatı üçün xüsusi investisiya proqramlarının həyata keçirilməsi, müasir avadanlıqların alınması və laboratoriya şəraitinin yaradılması zəruridir. Alternativ həll yolu kimi, müəssisələr arasında laboratoriya resurslarının paylaşılması, mobil laboratoriyaların yaradılması və müasir texnoloji mərkəzlərlə əməkdaşlıq mümkündür. Yerli şəraitdə sadə texniki qurğuların hazırlanması və şagirdlərin öz əlləri ilə əşyalar düzəltməsi üçün imkanların yaradılması da effektiv yoldur. Təhlükəsizlik qaydalarına riayət olunması üçün zəruri şəraitin yaradılması və müntəzəm yoxlamaların aparılması vacibdir. Dərslik vəsaitlərinin təkmilləşdirilməsi sahəsində müəllimlərin və metodistlərin birgə fəaliyyəti zəruridir. Yeni nəsil dərsliklərdə praktiki yönümlü tapşırıqların, layihə işlərinin və gündəlik həyatla bağlı məsələlərin payının artırılması, müasir texnologiyaların və materialların əks olunması təmin edilməlidir. Rəqəmsal vəsaitlərin və interaktiv proqram təminatının hazırlanması, onlayn platformaların yaradılması müasir təhsil tələblərinə cavab verəcəkdir. Müəllimlər üçün metodik vəsaitlərin hazırlanması, onların praktiki dərs nümunələri ilə tanış edilməsi dəstək verəcəkdir. Dərsliklərin müntəzəm olaraq yenilənməsi və müasir tələblərə uyğunlaşdırılması prosesi davamlı olmalıdır. Müəllim hazırlığı sisteminin təkmilləşdirilməsi uzunmüddətli strategiya tələb edir. Pedaqoji universitetlərdə texnologiya müəllimi ixtisasının prestijinin artırılması, bu sahəyə maraq göstərən abituriyentlərə təqaüd və üstünlüklərin verilməsi tövsiyə olunur. Çalışan müəllimlər üçün səmərəli peşəkar inkişaf proqramlarının təşkili, onların mütəmadi olaraq təlimlərə cəlb edilməsi və yeni metodlarla tanış edilməsi zəruridir. Təcrübəli müəllimlərin gənc həmkarlarına mentorluq etməsi, ən yaxşı təcrübənin öyrənilməsi və yayılması üçün platformaların yaradılması faydalı olacaqdır. Müəllimlərin əməkhaqqının və sosial təminatının yaxşılaşdırılması bu sahəyə marağı artıracaq, nəticədə yüksək ixtisaslı kadrların cəlb edilməsi mümkün olacaqdır. Kurikulumun təkmilləşdirilməsi və tədris prosesinin təşkili sahəsində də islahatlar aparılmalıdır. Texnologiya fənninə ayrılan dərs saatlarının artırılması, xüsusilə praktiki işlərə vaxtın çatdırılması təmin edilməlidir. Fənnin digər fənnlərlə inteqrasiyasının gücləndirilməsi, layihə-based learning yanaşmasının tətbiqi şagirdlərin kompleks bilik və bacarıqlarının inkişafına imkan yaradacaqdır. Alternativ qiymətləndirmə metodlarının tətbiqi, şagirdlərin praktiki bacarıqlarının, layihə işlərinin və yaradıcılıqlarının qiymətləndirilməsi üstünlük təşkil etməlidir. STEAM yanaşmasının tətbiqi üçün şərait yaradılması, texnologiya dərslərinin laboratoriya şəraitində keçirilməsi, şagirdlərin müxtəlif texniki yaradıcılıq dərnəklərinə cəlb edilməsi tövsiyə olunur. Valideynlərin və yerli icmaların prosesə cəlb edilməsi, məktəblərin müəssisələr və texniki kolleclərlə əməkdaşlığı praktiki təcrübə imkanlarını genişləndirəcəkdir.

Nəticə etibarilə qeyd etmək olar ki, ümumi təhsil məktəblərində texnologiya fənninin tədrisinin səmərəliliyinin artırılması üçün kompleks tədbirlər görülməlidir. Problemlər təkcə infrastruktur və ya metodika ilə məhdudlaşmır, bunlar bir-biri ilə sıx bağlı olan sistemli çətinliklərdir. Laboratoriya bazasının yenilənməsi, müəllim hazırlığının yaxşılaşdırılması, dərslik vəsaitlərinin təkmilləşdirilməsi və kurikulumun praktiki yönümlü olması birgə həll edilməli olan məsələlərdir. Bu istiqamətdə görülən işlər şagirdlərin praktiki bacarıqlarının inkişafına, texniki təfəkkürünün formalaşmasına və onların gələcək peşə fəaliyyətinə hazırlanmasına müsbət təsir göstərəcəkdir. Təhsil siyasətinin bu sahəyə xüsusi diqqət yetirməsi, müvafiq dövlət proqramlarının qəbul edilməsi və investisiyaların artırılması zəruridir. Yalnız belə halda texnologiya fənni öz funksiyasını yerinə yetirə bilər və şagirdlərin müasir texnoloji cəmiyyətin tələblərinə uyğun hazırlanmasına xidmət edə bilər. Gələcək tədqiqatlar bu problemlərin regional və yerli xüsusiyyətlərinin daha dərindən öyrənilməsinə, müvəffəqiyyətli təcrübələrin sistemləşdirilməsinə və geniş tətbiqinə yönəldilməlidir.

EMİLYA HƏSƏNOVA
Gəncə Dövlət Universiteti
Baş müəllim

TƏSVİRİ İNCƏSƏNƏTİN TƏDRİSİNDƏ YENİ PEDAQOJİ YANAŞMALAR: VII SİNİF DƏRSLİYİ VƏ METODİK VƏSAİTİN ANALİZİ

Məqalədə VII sinif təsviri incəsənət dərsliyində dərs-söhbətlərin təşkili imkanları, onların şagirdlərin estetik dünyagörüşünün, yaradıcı təfəkkürünün və nitq bacarıqlarının inkişafına təsiri, həmçinin metodik vəsaitin bu prosesdə didaktik və istiqamətverici rolu təhlil olunur.

Giriş. Təhsilin inkişafı dövlətlərin hər birində inkişaf konsepsiyasının əhəmiyyətli tərkib hissəsidir. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan təhsilimizi forma və məzmunca yeni inkişaf səviyyəsinə çatdırılması ilə bağlı zəruri tədbirlər görür və görməkdədir. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş islahatlar hazırda cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bunlar isə, ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsildə uğurların qazanılmasına, Azərbaycan dövlətinin sürətli inkişafına imkan və şərait yaradır.

Ümumtəhsil fənləri sırasında təsviri incəsənət fənni özünəməxsus rola malikdir. Təsviri incəsənət fənninin səmərəli tədrisi məqsədilə müxtəlif vasitələrdən istifadə olunur. Həmin vasitələr sırasında incəsənətə dair dərs-söhbətlərin özünəməxsus əhəmiyyəti vardır. Bu fənnin məqsədi məktəblilərin estetik dünyagörüşünün və hissiyyat aləminin inkişaf etdirilməsi qayğısına qalmaq, bədii təsvir vasitələrindən faydalanmaqla hadisələri canlandırmaqdan ibarətdir. Fənn yaradıcı təxəyyülə malik, incəsənət əsərlərini duyaraq qiymətləndirən, obrazlı və simvolik düşünmə qabiliyyətinə yiyələnmiş şəxsiyyətin formalaşdırılmasına istiqamətlənmişdir.

Dərs-söhbətlərin bir sıra üstünlükləri vardır. Dərsdə söhbət (dərs-söhbət) uşaqların yaradıcı təxəyyülünü fəallaşdırır, onların nitqini və yaddaşını inkişaf etdirir, məktəblilərə öz fikirlərini savadlı ifadə etməkdə kömək göstərir. Aparılmış söhbətdən sonra şagirdlərin rəsmə başlaması faydalı olur. Onlar şəkilçəkmədə, hadisə və əşyaları canlandırmaqda daha az səhvlərə yol verirlər. Fantaziya güclənir. Dərs-söhbətlər tərbiyəedici funksiyaya malikdir. Azərbaycan və xarici ölkə rəssamlarının əsərləri ilə tanışlıq nəticəsində incəsənətə maraq artır, gözəlliyə meyil hissi, eyni zamanda doğma təbiətə məhəbbət duyğusu inkişaf edir.

VII sinfin dərsliyinə yazılmış "Müəllim üçün metodik vəsait"də Təsviri incəsənət fənnindən dərsliyin tədris vahidləri üzrə məzmunu diqqətə çatdırılır. Dərslikdə Azərbaycanın və Avropanın orta əsrləri incəsənəti haqqında şagirdlər üçün yeni məlumat və anlayışlar verilmişdir. Mövzularda sənətkarlıq, memarlıq, təsviri sənətin növ və janrları, dekorativ-tətbiqi sənətlər, geyimlər inkişaf tarixi baxımından şərh edilir. Dərslikdə istifadə olunan elmi anlayış və zəngin reproduksiyalar əhatəli məzmunla müşayiət olunur. Dərsliyə daxil olan mövzuların ənənəvi qaydada da, interaktiv təlim metodlarının, informasiya kommunikasiya texnologiyalarının köməyi ilə də tədrisi mümkündür. Lakin bütün bunlarla yanaşı, şagirdlərin Təsviri incəsənət dərslərinə və fənninə marağını artırmaq məqsədi ilə dərs-söhbətlərdən də istifadə olunması məsləhət bilinir.

VII sinfin Təsviri incəsənət dərsliyində mövzular aşağıdakı bölmələr üzrə əks etdirilib: 1. Təsviri sənət orta əsrlərdə. 2. Təsviri sənətdə janrlar. 3. Dövr, xalq və geyimlər. 4. Dekorativ-tətbiqi sənət və bədii dizayn.

Bölmələrdəki mövzular, bilavasitə dərs-söhbətlərin keçirilməsi üçün imkanlar açır. Bu siniflərdə əsasən "Təsviri sənət orta əsrlərdə" bölməsinə daxil olan "Orta əsr heykəltəraşlığı", "Azərbaycanın memarlıq məktəbləri"; "Təsviri sənətdə janrlar" bölməsinə daxil olan "Təsviri sənətdə əfsanəvi obrazlar", "Təsviri sənətdə işıq və kölgə" və "Heykəltəraşlıqda insan obrazı"; "Dövr, xalq və geyimlər" bölməsinə daxil olan "Geyimin cəmiyyətdə rolu", "Rəssam əsərində zadəgan geyimləri" "Azərbaycan baş geyimləri", "Əsrlərin xəzinəsi: Azərbaycan milli geyimləri"; "Dekorativ-tətbiqi sənət və bədii dizayn" bölməsinə daxil olan "Əl ilə yaradılan möcüzələr", "Naxışlarda əbədiləşən

həyat”, “Zaman və qablar”, “Dünya muzeyləri” və s. mövzular üzrə dərs-söhbətlərin keçirilməsi məqsədəuyğun hesab edilirdi.

VII sinfin “Müəllim üçün metodik vəsait”ində göstərilir ki, Təsviri incəsənət dərsliyində hər bir mövzu üzrə təlim materialları müəyyən metodoloji ardıcıllıqla verilir. Daha sonra həmin ardıcıllıq aşağıdakı şəkildə öz ifadəsini tapır:

a) *İncəsənətə dair dialoq* – mövzuya maraq oyatmaq (motivasiya) üçün sual, şəkil, anlayışların çıxarılması; b) *Xatırla* - əvvəlki siniflərdə qazanılmış biliklərə əsaslanan suallar şagirdləri aktiv fəaliyyətə cəlb edir; c) Təsviri sənətin tarixi, onun cəmiyyətdə rolu, yeni anlayışlar haqqında giriş məlumatları, məzmunun mənimsənilməsinə xidmət edən və şagirdlərin təfəkkürünü fəallaşdırmaq üçün vacib sayılan müzakirə sualları verilmişdir; ç) *Tanış ol* - Dərs zamanı müstəqil tanış olmaq və müzakirə üçün verilən məzmun. d) *Təsviri sənət qalereyası* – şagirdin estetik münasibət bildirməsi üçün Azərbaycan və dünya rəssamlarının qrafika, rəngkarlıq və dekorativ-tətbiqi sənət əsərlərinin nümayişi.e) *Görkəmli rəssamlar* - Azərbaycanın və dünyanın görkəmli təsviri sənət nümayəndələrinin həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası – cədvəl şəklində verilmişdir.f) *Sərbəst iş üçün tapşırıqlar* – mövzu ilə bağlı nəzəri və praktik tapşırıqlar, yeni qazanılmış bacarıqların tətbiqi, onların izahı və rəsm zamanı şagirdlərə yardım edən təsvir ardıcıllığının metodikası”.

Digər siniflərdə olduğu kimi, VII sinfin “Müəllim üçün metodik vəsait”ində də dərs-söhbətlər yada salınmır. Lakin biz bu sinifdə də qeyri-standart dərslərin, o cümlədən dərs-söhbətlərin imkanlarından faydalanmağı məqsədəuyğun hesab edirik.

Dərs-söhbətlərin təşkili zamanı kurikulumda öz ifadəsini tapmış məqsəd və vəzifələrin aşağıda göstərilən məzmun xətlərinin köməyi ilə reallaşdırılması məsləhətdir:“ Cəmiyyət və təsviri incəsənət; Təsviri və dekorativ yaradıcılıq; Estetik reaksiya”.

Cəmiyyət və təsviri incəsənət məzmun xətti dərs-söhbətlər zamanı təsviri incəsənətin əhəmiyyəti, cəmiyyət və təsviri incəsənət arasındakı qarşılıqlı münasibətləri, tarixi hadisələrə bələdlikdə təsviri incəsənət əsərlərinin rolu, Azərbaycan və xarici ölkə təsviri incəsənət nümayəndələrinin xidmətləri və onların yaratdığı möhtəşəm yaradıcılıq məhsulları barədə məlumatları özündə birləşdirir.

Təsviri və dekorativ yaradıcılıq məzmun xətti dərs-söhbətlər zamanı böyük imkanlara malikdir. Məktəbli təsviri canlandırmaqla hadisə, obyekt və predmetləri yetərincə anladığını, qiymətləndirdiyini büruzə verir. Hadisə, obyekt və predmetlərin qarşılıqlı əlaqələrinə, mahiyyətinə və fərdi xüsusiyyətlərinə öz münasibətini ifadə edir. Yaradıcılığa bağlılıq şagirddə daxili aləmlə xarici aləm arasında əlaqələrin meydana gəlməsini, ayrı-ayrı təsvir üslub və üsullarına yiyələnməyə kömək göstərir, həm də tərtibat, quraşdırma, dizayın bacarıqları formalaşdırır.

Nəticə. Araşdırma göstərir ki, VII sinif təsviri incəsənət dərsliyi və müəllim üçün metodik vəsait dərs-söhbətlərin təşkilində mühüm didaktik baza yaradır. Bu yanaşma şagirdlərin estetik zövqünü, yaradıcı düşünmə qabiliyyətini və bədii ifadə bacarıqlarını inkişaf etdirir. Nəticə etibarilə, dərs-söhbətlər fənnin daha effektiv və interaktiv tədrisinə şərait yaradır.

TEYBƏ ƏFƏNDİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
"Pedaqogika və psixologiya" kafedrasının müəllimi
efendiyevateybe1962@gmail.com

FƏNLƏRİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Məqalədə müasir təhsil sistemində fənlərin tədrisi zamanı qarşıya çıxan aktual problemlər və onların həlli yolları araşdırılır. İnnovativ təlim metodları, rəqəmsallaşma, tələbəyönümlü yanaşma və qiymətləndirmə mexanizmlərinin tətbiqinin təlimin keyfiyyətinə təsiri elmi-praktik baxımdan təhlil edir.

Açar sözlər: *təlim prosesi, innovativ metodlar, rəqəmsallaşma, tələbəyönümlü təlim, qiymətləndirmə*

Giriş. Təhsil cəmiyyətin inkişafını müəyyən edən əsas sahələrdən biridir. Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı tədris prosesinə yeni tələblər irəli sürür. Ənənəvi təlim üsulları artıq müasir tələbələrin öyrənmə tərzini tam qarşılamır. Bu səbəbdən fənlərin tədrisinin yenilənməsi, təlimin keyfiyyətinin artırılması və innovativ yanaşmaların tətbiqi aktual məsələ kimi çıxış edir. Müasir təhsil mühitində dəyişən tələblər - Qloballaşma və rəqəmsal texnologiyaların inkişafı təhsil sisteminə ciddi təsir göstərmişdir. Bu baxımdan təhsil sisteminin əsas məqsədi aşağıdakılardır:

- tənqidi düşüncənin inkişafı;
- problem həll etmə bacarıqlarının formalaşdırılması;
- müstəqil öyrənmə vərdişlərinin yaradılması.

1. Ənənəvi metodların üstünlük təşkil etməsi - Bir çox hallarda dərslər mühazirə formasında keçirilir və tələbələr passiv dinləyici rolunda qalırlar.

2. Praktik yönümlülüyün zəifliyi

Bəzi fənlərdə nəzəri biliklər üstünlük təşkil edir, praktiki fəaliyyətlər isə məhduddur. Halbuki müasir təhsil biliklərin real həyatda tətbiqinə yönəlməlidir.

3. Rəqəmsal texnologiyaların yetərsiz tətbiqi

Rəqəmsal vasitələrin dərs prosesinə inteqrasiyası hələ də bütün təhsil müəssisələrində eyni səviyyədə deyil. Bu isə təlim prosesinin effektivliyinə təsir edir.

Tədrisin təkmilləşdirilməsi yolları. İnteraktiv təlim metodlarının tətbiqi. İnteraktiv metodlar tələbələrin dərsdə fəallığını artırır. Bu metodlara daxildir:

- müzakirələr və debatlar;
- qrup işi,layihə əsaslı öyrənmə;
- problem əsaslı öyrənmə.

Bu yanaşma tələbələrin ünsiyyət və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir.

Rəqəmsallaşma və innovasiya. Rəqəmsal texnologiyalar təlim prosesini daha maraqlı və əlçatan edir. Əsas vasitələr:

- onlayn platformalar;
- interaktiv təqdimatlar;
- virtual laboratoriyalar.

Tələbəyönümlü təlim modeli,müasir təlimdə tələbə əsas subyekt hesab olunur. Bu model:

- fərdi fərqlilikləri nəzərə alır;
- tələbələrin fəal iştirakını təmin edir;
- motivasiyanı artırır.

Müəllimin dəyişən rolu, Müasir müəllim yalnız bilik ötürən deyil, həm də:

- təşkilatçı;
- bələdçi;
- motivator rolunu yerinə yetirir.

Nəticə. Fənlərin tədrisinin müasirləşdirilməsi təhsil sisteminin prioritet istiqamətlərindən biridir. İnteraktiv metodların tətbiqi, rəqəmsallaşma və tələbəyönümlü yanaşma təlimin keyfiyyətini yüksəldir.Bu dəyişikliklər nəticəsində təhsil yalnız bilik ötürən sistem deyil, həm də bacarıq və kompetensiyalar formalaşdıran mühitə çevrilir.

SƏDAQƏT HƏSƏNOVA
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə elmlər doktoru, professor
sedagethesenova@gmail.com

SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR

Sintaktik vahidlərin tədrisi dil təhsilinin mühüm tərkib hissəsini təşkil edir və öyrənənlərin qrammatik bacarıqlarına, eləcə də ünsiyyət səlisliyinə təsir göstərir. Söz birləşmələrinin tədrisi qrammatikanın öyrənilməsində mühüm sahələrdən biridir. Məqalədə söz birləşmələrinin tədrisi ilə bağlı problemlərdən bəhs olunur.

Açar sözlər: *dil, qrammatika, sintaksis, söz birləşməsi, tədris*

Giriş. Sintaksis mənanın anlaşılmasına kömək edən ifadə vasitəsi təqdim edir və subyekt-obyekt münasibətini göstərir. Araşdırmalarda qeyd olunur ki, sintaksisin əhəmiyyəti yalnız dil düzgünlüyü ilə məhdudlaşmır; o, öyrənənlərin fikirlərini dəqiqliklə ifadə etməsi və mürəkkəb diskursa daxil olması üçün vasitə rolunu oynayır. Bu baxımdan, qrammatikanın öyrənilməsi və anlaşılmasında söz birləşmələri mühüm rola malikdir. Cümləni anlamaq üçün oxucu müxtəlif sintaktik və söz mənası ilə bağlı məlumatları yaddaşda saxlamalı və tətbiq etməlidir. Bu mənada, söz birləşmələri təbii və səlis ünsiyyətin əsasını təşkil edən dil faktlarından biridir. Onlar yüksək işlənmə tezliyi və çoxfunksiyalılığı ilə xüsusi əhəmiyyət kəsb edir. Dilin qrammatik quruluşunda müəyyən qaydalara əsaslanan söz birləşmələri tədris zamanı çox vaxt ya nəzərdən qaçırılır, ya da kifayət qədər diqqət mərkəzində olmur. Əsas çətinlik ondan ibarətdir ki, söz birləşmələri ciddi qrammatik qaydalarla tənzimlənmir. Halbuki onlar elastiklik, semantik şəffaflıq və işlənmə tezliyi baxımından fərqlənən sintaktik vahidlərdir.

Söz birləşmələrinin öyrədilməsində çətinliklər

Hər bir birləşmə söz sırası, sintaktik əlaqələr kimi qrammatik qaydalar sistemi daxilində fəaliyyət göstərir. Onlar müxtəlif sintaktik və semantik funksiyalar yerinə yetirir. Belə ki, söz birləşmələri müxtəlif cümlə üzvləri kimi işlənir. Problemli məsələlərdən biri söz birləşmələrinin çox vaxt bir-birinin daxilində yerləşməsidir. Məsələn, *əlimdəki kitabın rəngli şəkilləri*. Belə iç-içə strukturların təhlili və düzgün qurulması öyrənənlər üçün çətinlik yaradır. Tədris zamanı söz birləşmələrinin çoxmənalılığına diqqət etmək lazımdır. Belə ki, onlar məkan (qapının ağzı), zaman (səhər vaxtı) və s. mənalar ifadə edə bilir. Bu semantik müxtəliflik tədris zamanı çətinlik yaradır. Bundan başqa, öyrənənlərin qaydaları həddindən artıq ümumiləşdirərək söz birləşmələrini uyğun olmayan kontekstlərdə tətbiq etməsi çaşqınlığa səbəb olur. Mürəkkəb sintaktik strukturlar koqnitiv yükü artırır və real ünsiyyət zamanı düzgün cümlə qurmağı çətinləşdirir. Öyrənənlər söz birləşmələrini real kommunikativ şəraitdə tətbiq etmək imkanı əldə etmirlər. Mexaniki tapşırıqlar isə real ünsiyyət bacarıqlarının inkişafına mane olur. Dərsliklərdə söz birləşmələrinin təqdimatının kifayət qədər olmaması və ya sistemsiz şəkildə verilməsi istənilən nəticəni əldə etməyə imkan vermir. Tədqiqatlarda "ismi birləşmələrin və feili birləşmələrin sintaktik rolunun düzgün müəyyənləşdirilməməsi" də Azərbaycan dili dərslərində sintaksisin tədrisi zamanı şagirdlərin qarşılaşdığı çətinliklərdən sayılır.

Söz birləşmələri üzrə biliklərin qiymətləndirilməsi mürəkkəbdir. "Tədris, öyrənmə və qiymətləndirmə fasiləsiz prosesin tərkib hissələridir. Tədris əsasən müəllimin yanaşması və dünyagörüşünün nəticəsi kimi formalaşır. Tədris fəlsəfəsi öyrənənlərin necə öyrəndiyi, hansı təlimatların daha dərin və konkret öyrənmə üçün uyğun olduğu və bu təlimatların həyata keçirilməsi üçün hansı addımların atılmalı olduğu barədə anlayışlar üzərində qurulur". Söz birləşmələrinin çox vaxt kontekstdən kənarda öyrədilməsi onların praktik tətbiqini zəiflədir. "Müasir dil tədrisi yalnız qrammatik qaydaların əzbərlənməsinə deyil, həm də dilin praktik istifadəsinə əsaslanır". Öyrənənlər

sintaktik strukturları mənimsəmək üçün kifayət qədər kommunikativ təcrübə əldə etmirlər. Sintaktik biliklərin yoxlanılması üçün daha kontekstual və məhsuldar üsullar tələb olunur. Müntəzəm təkrar və yenidən istifadə uzunmüddətli yaddaşı gücləndirir. Öyrənənlər qaydaları dərk etmədən əzbərləməyə çalışır, bu isə qeyri-sabit istifadə ilə nəticələnir. Sintaktik vahidlərin **real ünsiyyətdə istifadə olunan materiallar** əsasında öyrədilməsi mənimsəməni gücləndirir. Söz birləşmələrinin tədrisində kommunikativ fəaliyyətlərə üstünlük verilməlidir. Belə ki, rol oyunları, müzakirələr və yazı tapşırıqları praktik istifadəni təmin edir.

Nəticə. Söz birləşmələrinin tədrisi onların struktur mürəkkəbliyi, semantik müxtəlifliyi və uyğunsuz mətnlər səbəbindən ciddi çətinliklər yaradır. Bununla belə, bu sintaktik vahidlər qrammatik dəqiqlik və kommunikativ bacarıqların formalaşması üçün əhəmiyyətlidir. Kontekst əsaslı, öyrənənyönümlü və istifadəyə əsaslanan yanaşmaların tətbiqi bu problemlərin effektiv həllinə imkan verir. Qaydaya əsaslanan tədrisdən daha dinamik və inteqrativ metodologiyaya keçid uğurlu mənimsənilmə üçün zəruridir.

NURAY ƏLİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya elmləri doktoru, dosent
naliyeva22@mail.ru

ANA DİLİ TƏDRİSİNİN MİLLİ KİMLİYİN FORMALAŞMASINDA ROLU

Məqalədə göstərilir ki, Azərbaycan dilinin tədrisinin şagirdlərin milli mədəniyyətimizi mənimsəməsində, adət-ənənələrimizi yaxşı öyrənərək gələcək nəsillərə çatdırmasında, həmçinin tariximizin öyrənilməsində də mühüm rolu vardır. Bu isə şagirdlərin milli özünüdərkinə və vətənpərvər şəxsiyyət kimi formalaşmasına imkan verir.

Açar sözlər: *Azərbaycan dili, tədris, mədəniyyət, tarix, adət-ənənələr*

Müasir dövrümüzdə cəmiyyətin, texnologiyanın sürətli inkişafı xalqların milli dəyərlərini təhdidlərlə qarşı-qarşıya qoyur. Ona görə də dünya xalqlarının milli, fərdi xüsusiyyətlərinin qorunması məsələsi günümüzdə olduqca aktualdır. Bunların içərisində birinci yerdə ana dili gəlir. Çünki ana dili sadəcə bir tədris fənni, yaxud ünsiyyət vasitəsi deyil, eyni zamanda tarixi yaddaşımızı, milli dəyərlərimizi özündə əks etdirən bir məfhumdur. Ana dili xalqı yaşadan, onu digər xalqlardan fərqləndirən, özünəməxsusluğunu səciyyələndirən bir dəyərdir və onun mövcudluğu xalqın mövcudluğu ilə birbaşa əlaqəlidir. Bu baxımdan tədris fənləri sistemində Azərbaycan dili tədrisinin çox mühüm bir yeri var, həmçinin bu fənn şagirdlərin milli kimliyinin formalaşmasında da böyük rol oynayır.

Azərbaycan dili fənni xalqın milli-mənəvi dəyərlərinin sonrakı nəsillərə ötürülməsində əsas vasitələrdən biri kimi çıxış edir. Dilimizin tədrisi həm də mədəniyyətimizin gənclərə aşılanmasında aparıcı rol oynayır. Milli mədəniyyətimizin təbliğində, qorunmasında, gələcəyə daşınmasında ana dili əsas vasitə kimi çıxış edir. Çünki onlar hər ikisi bir-biri ilə qarşılıqlı əlaqədə formalaşır və bir-birini inkişaf etdirir. Bunu dilin milli-mədəni funksiyası da adlandırmaq olar. Eyni zamanda mədəniyyətimiz də dilimizin öyrənilməsində mühüm rol oynayır. Çünki hər bir xalqın mədəni dəyərləri, folkloru məhz dil vasitəsilə mənimsənilir. Eyni zamanda digər xalqlarla mədəni əlaqələrin yaranmasında dil əsas faktor kimi çıxış edir və bu mədəniyyətlərin bir-birinə təsir edərək bir-birini zənginləşdirməsinə də imkan yaradır.

Azərbaycan dilinin tədrisi prosesində eyni zamanda təhsilalanlar xalqın tarixini də öyrənirlər. Dil xalqın tarixini özündə yaşadan, onun həyatında baş vermiş hadisələri birbaşa özündə əks etdirən dəyərli bir mənbədir. Xalqın inkişafının müxtəlif mərhələləri xronoloji ardıcıllıqla dildə əks olunur və hər bir xalqın dilinin inkişaf dövrlərinin araşdırılması onun tarixi haqqında da müəyyən fikirlər söyləməyə imkan verir.

Eyni zamanda şagirdlərimiz dili öyrənərkən həm də milli adət-ənənələrimizlə tanış olur, xalqımızın özünəməxsusluqlarını mənimsəyirlər. Bu isə adət-ənənələrimizin unudulmasının qarşısının alınmasında ən effektli üsuldur. Çünki müasir dövrdə adət-ənənələr tədricən unudulumağa doğru gedir. Azərbaycan dili dərslərində onların tədrisi və təbliği şagirdləri kiçik yaşlardan adət-ənənələrimizə bağlı şəxsiyyətlər kimi formalaşdırır, onlarda milli şüur inkişaf edir.

Azərbaycan dili dərsləri şagirdlərin hərtərfəli inkişafı üçün ən uyğun mühitdir. Bu baxımdan bu fənnin tədrisi ilə məşğul olan müəllimlərin üzərinə daha böyük məsuliyyət düşür. Çünki bu dərslərdə onlar təkcə dilimizin qrammatik quruluşunu öyrətməklə məhdudlaşmır, eyni zamanda şagirdlərə milli dəyərlərimizi də aşılayırlar. Bu zaman müxtəlif vasitələrdən istifadə olunur ki, onların içərisində ən yaxşıları bədii nümunələr və folklor nümunələridir. Bu örnəklərin tədris prosesində bir mənbə kimi, dil nümunəsi kimi şagirdlərə təqdim olunması və onların üzərində aparılan təhlillər dərs prosesində həm bədii ədəbiyyatımızın, həm də folklorumuzun dərindən mənimsənilməsinə imkan verir. Nəzərə alsaq ki, bu nümunələr xalq həyatı ilə sıx bağlıdır və xalqa məxsus əsas milli dəyərlər məhz burada geniş şəkildə əks olunub, onların öyrənilməsinin əhəmiyyəti bir daha diqqəti cəlb edir. Belə ki, şagirdlər dil qaydaları ilə yanaşı atalar sözlərimizi, nağıllarımızı, əfsanələrimizi, əsatirlərimizi yaxşı öyrənir, eyni zamanda klaassiklərimizin irsi və müasir ədəbiyyat nümunələrimizlə

də yaxından tanış olurlar. Belə mətnlər şagirdlərə həm dilimizi sevdirir, həm də onlarda vətənpərvərlik hisslərini gücləndirir, onların müstəqil və yaradıcı təfəkkürünü inkişaf etdirir. Nəticədə ana dilimiz onların düşünmə və qavramasına da təsir göstərərək dünyanı dərk etməkdə, yeni məlumatlar, biliklər əldə etməkdə də bir vasitə kimi çıxış edir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan dilinin tədrisi şagirdlərin milli kimliyinin formalaşmasında çox böyük bir vasitədir.

ASİF HACIYEV (ŞİRVANELLİ)
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
haciyev_asif@mail.ru

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ MƏTN ÜZƏRİNDƏ İŞ ŞAGİRDLƏRİN HƏRTƏRƏFLİ NİTQ FƏALİYYƏTİNƏ YİYƏLƏNMƏSİNDƏ MÜHÜM VASİTƏ KİMİ

Mətn nitq fəaliyyətinin məhsulu olub ünsiyyətin yazılı və şifahi formalarda həyata keçirilməsini təmin edən vasitədir. Ona görə də ümumtəhsil məktəblərinin Azərbaycan dili dərslərində mətn üzərində işlərə daha geniş yer verilir. Belə ki, dinləmə, danışma, oxu və yazı prosesində müxtəlif məzmunlu mətn nümunələrindən istifadə şagirdlərin anlama, düşünmə, ünsiyyətqurma, fikri ifadəetmə bacarıqlarını formalaşdırmaqla yanaşı, dil duyumunu həssaslaşdırmağa, lüğət ehtiyatını zənginləşdirməyə xidmət edir. Bu göstəriciləri nəzərə alaraq fənnin tədrisində mətn üzərində işin səmərəli təşkili metodik aktuallıq kəsb etmiş və hazırda da gündəmdə duran vacib məsələlərdəndir.

Açar sözlər: *Azərbaycan dili, dərs, mətn, nitq fəaliyyəti, vasitə*

Mətn konkret məzmuna malik hər hansı bir fikrin müəyyən strukturda ardıcıl və məntiqi əsaslarla ifadəsini təmin edən bitkin nitq vahididir. Məhz buna görə də şagirdlərdə mədəni nitq vərdişləri formalaşdırmaq məqsədi daşıyan Azərbaycan dili təlimində mətn üzərində işlərə daha çox yer verilir. Nitqin fəaliyyət növləri üzrə müəyyənləşən məzmun xətləri ilə bağlı bilik və bacarıqların əsas qismi sinif səviyyəsinə uyğun müxtəlif növlü mətnlər vasitəsilə həyata keçirildiyindən onların seçimi, tərtibi və mənimsədilmə yolları fənn metodikasının mühüm problemlərindəndir ki, bununla bağlı bəzi mülahizələrimizi bölüşmək istərdirk.

Araşdırma göstərir ki, mətn seçimi, onlar üzərində işin təşkili məzmun xətləri üzrə aparılan işlərin mahiyyətindən çox asılıdır. Belə ki, dinləmə, danışma, oxu, yazı və dil qaydaları ilə bağlı iş prosesində istifadə olunan mətn nümunələri bir-birindən əsaslı şəkildə fərqlənir. Belə mətnlərin səciyyəvi xüsusiyyətlərini nəzərə almadan tədris materialı kimi istifadəsi təlimə ağırlıq gətirən, onu şagird üçün maraqsız edən amillərdəndir. Odur ki mətn nümunələrinin hansı məzmun xətti üzrə istifadə olunması önə çəkilməklə ilkin olaraq aşağıdakı şəkildə təsnif edilməlidir:

1. Dinləmə mətnləri

Dinləmə mətnləri "Dinləyib və danlama" məzmun xətti qarşısında qoyulmuş başlıca vəzifələr əsasında işlənilməlidir. Bu məzmun xəttinin müvafiq standartları tələb edir ki, şagirdlər dinlədikləri mətnin məzmun və ideyasını anlasın, fakt və hadisələri dəqiqləşdirsin, obrazlara münasibət bildirsin, mövzu ilə bağlı fikir mübadiləsi aparsın, məğzini yazılı və ya şifahi şəkildə ifadə etsin, genişləndirsin və ya ardını davam etdirsin, həmçinin bu kimi fəaliyyətlər üzrə tapşırıqlar yerinə yetirsinlər. Sinifdən sinfə keçdikçə sadədən mürəkkəbə doğru çətinləşən bu tapşırıqlar şagirdlərin hafizəsini, mühakiməyürütmə qabiliyyətlərini inkişaf etdirir, tanış olmayan sözlər, ifadələr üzərində düşünməklə lüğət ehtiyatlarını zənginləşdirir. Nəqli, təsviri və mühakimə xarakterli belə mətnlərin həcmində sözlərin miqdarının gözlənilməsi və ədəbi tələffüz normalarına uyğun səsləndirilməsi vacib metodik şərtlərdəndir. Məlumdur ki, linqvistik baxımdan mətn bir cümlədən də ibarət olur. Ona görə də aşağı siniflərdə cümlə şəklində ifadə olunmuş atalar sözü və məsəlləri dinləmə mətni kimi şagirdlərə təqdim etmək olar. Belə hikmətli kəlamlara şagird yanaşmaları, onun məzmunca açıqlanması, əsas fikrin müəyyənləşdirilməsi, müvafiq qarşılığının tapılması kimi işlər dərsə bir canlanma gətirir, sinfi fəallaşdırır. Təbii ki, yuxarı siniflərdə dinləmə mətnləri həcmcə bir qədər geniş olur, lakin bu həcmin sərf olunan vaxt müddətinə və şagirdlərin düşünmə qabiliyyətlərinə görə tənzimlənməsi mütləq şərtdir. Digər baxımdan, dinləmə mətnlərini texniki vasitələrədən istifadə yolu ilə səsləndirilərkən orfoepik normalara, heca və məntiqi vurğunun gözlənilməsinə əməl olunmalıdır. Mətnin qoyulan tələblər əsasında səsləndirilməsi həm də şagirdlərin emosional durumuna müsbət təsir göstərir. Əgər müəllimin texniki vasitələrdən istifadə imkanları məhduddursa, o özü də mətni səsləndirə bilər.

2. Oxu mətnləri

Məlumdur ki, dərsliklərdə verilən oxu mətnlərinin seçimi və tərtibi də müəyyən metodik tələblər əsasında həyata keçirilir. İlk növbədə, bu mətnlər şagirdlərin ümumi dünyagörüşünü, təbiət və cəmiyyət haqqında bilik və məlumat dairəsini yüksəltməklə yanaşı, mənəvi dəyərlərə yiyələnməsinə, tərbiyəli bir insan, vətəndaş-şəxsisyyət kimi formalaşmasına imkanlar açır. Bir qayda olaraq, oxu mətnləri bədii və elmi-kütləvi mətnlər əsasında tərtib edilir. Dilin bütün gözəllyi, zənginliyi, ifadəliliyi bədii üslubda yazılmış ədəbi əsərlərdə daha qabarıq əks olunduğu üçün oxu mətnlərində bədii nümunələrə geniş yer verilməsi xüsusilə önəmlidir. Lakin son illərin Azərbaycan dili dərsliklərində bədii mətnlərlə müqayisədə qeyri-bədii mətnlər kimi təqdim edilən elmi-kütləvi mətnlərə üstünlük verilmişdir ki, bu da düzgün seçim sayıla bilməz. Digər baxımdan, “Azərbaycan dili” dərsliklərində bədii əsərlər əsasında tərtib olunmuş oxu materiallarının üzərində aparılan işlər də fənnin qarşısında qoyulmuş vəzifələrə uyğun gəlmir. Problem ondan irəli gəlir ki, dərslik müəllifləri ibtidai təhsil səviyyəsi ilə orta və tam orta təhsil səviyyələri arasında qoyulmuş vəzifələrin fərqinə varmaamışlar. Bilindiyi kimi, ibtidai siniflər üçün Azərbaycan dili fənni inteqrativ fənn kimi nəzərdə tutulub və buna görə də dərsliklərdə dil materiaalları ilə yanaşı, sonrakı təhsil səviyyəsində keçilməsi nəzərdə tutulmuş ədəbiyyat, tarix, coqrafiya kimi fənlərə aid müəyyən təlim materiallarına da yer verilir. Artıq V-XI siniflərdə həmin fənlər ayrıca tədris edildiyindən “Azərbaycan dili” dərsliklərinin məzmunu bir qədər konkertləşir. Ancaq hazırda istifadədə olan dərsliklərdə bu metodik yanaşmaya əməl edilmədiyi açıq-aydın özünü göstərir. Belə ki, oxu materialı kimi verilmiş bədii əsərlər üzərində iş zamanı onun məzmunu, ideyası ilə birgə, ədəbiyyat fənninin birbaşa problemi olan janrı, süjet xətti, obrazları və onların səciyyəvi xüsusiyyətləri, hətta epiloq, proqloq kimi kompozisiya elementləri, ədəbiyyatşünaslıq terminləri kimi məsələlər haqqında bilgilər verilir və tapşırıqlar qoyulur. Bundan savayı, bədii nümunələrin bir çoxu xarici ölkə yazıçılarının əsərlərini əhatə edir ki, bu da dilimizin özünəməxsus xüsusiyyətlərinin tam qavranılmasında maneə rolunu oynayır.

Fikrimizcə, Azərbaycan dili dərsliklərində bədii və elmi-kütləvi mətnlər üzərində iş zamanı, ilk növbədə, belə mətnlərin strukturu, fikir axarı, abzaslar arasında məntiqi əlaqə və bu əlaqəni yaradan qrammatik vasitələrlə bağlı məsələlər önə çəkilməlidir.

3. Yazı ilə bağlı mətnlər

Şagirdlərin rabitəli nitq bacarıqlarının yazılı formada ifadəsi məqsədilə inşa, esse, hekayə, hətta layihələr üzərində işləməsi fənnin müvafiq məzmun xəttinə aid bacarıqların aşılanmasına xidmət edir. Təcrübə göstərir ki, yazılı nitqə yiyələnmə dinləmə və oxu mətnlərində üzərində aparılan tapşırıqların keyfiyyətindən birbaşa asılıdır. Ona görə də xüsusən oxu ilə bağlı dərslər mütləq yazı prosesi ilə tamamlanmalıdır. Başqa cür desək, dərs şagirdin şifahi nitqindən yazılı nitqinə doğru yaradıcı istiqamətdə keçilməsinə köklənməlidir. Yazı üçün nəzərdə tutulan mövzular şagirdlərin maraq dairəsinə uyğun olmalıdır ki, şəxsi duyğu və düşüncələrini ifadə edə bilsinlər.

4. Dil qaydalarının mənimsədilməsinə xidmət edən mətnlər

Dil qaydaları yalnız müvafiq linqvistik materialları nəzərə çarpdırmaqla deyil, mətn nümunələri üzərində məqsədyönlü iş aparmaqla lazımi vərdişlərə çevrilə bilir. Ona görə də dilin daxili quruluşunu əks etdirən bilgilərlə yanaşı, praktik vərdişlər formalaşdıran tapşırıqların kiçik həcmli mətnlər şəklində verilməsi daha səmərəli sayılır. Həm də dil qaydaları mətn sintaksisi əsasında mənimsədilməlidir ki, şagird dilin daxili quruluşunu bir bütöv kimi qavraya bilsin. Başqa sözlə, dil qaydaları ilə bağlı işlər *mətn – cümlə – söz – söz – cümlə – mətn* qapalı dairəsi üzrə gerçəkləşdirilməlidir. Bu təlim modeli ona görə faydalıdır ki, şagird mətni təşkil edən komponentlər üzərində sistemli şəkildə işləyə bilsin. Mətni (yaxud hər hansı sintaktik bötövu, abzası) cümlələrə ayırıb onlar arasında məna əlaqəsini və qarmmatik bağlılığı dərk edən şagird cümləni də cümlə üzvlərinə, sözlərə, sözləri heçalara, səslərə ayırmaqla dilin linqvistik quruluşunu mənimsəmiş olur. Sözün sözlə müqayisəsi və məna baxımından açıqlanması isə şagirdi söz ehtiyatını şüurlu şəkildə zənginləşdirməyə təhrik edir, təhliletmə və tərtibetmə bacarıqlarını cilalayır.

Beləliklə, mətn üzərində işlər şagirdlərin hərtərəfli nitq qabiliyyətinin yüksəldilməsində başlıca vasitəyə çevrilməklə dərsləri daha yaradıcı, düşündürücü təşkil etməyə imkanlar açmış olur.

SAMİRƏ HƏSƏNOVA
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
samirehesenova75@gmail.com
https://orcid.org/0009-0006-5933-3979

FƏNLƏRARASI VƏ FƏNDAXİLİ İNTEQRASİYANIN AZƏRBAYCAN DİLİ FƏNNİNİN TƏDRİSİNDƏ REALLAŞDIRILMASININ İMKAN VƏ YOLLARI

Azərbaycan dili fənninin tədrisində fənlərarası və fəndaxili inteqrasiya şagirdlərin bilik və bacarıqlarının kompleks inkişafına xidmət edir və bu əlaqələr onların ətraf mühitin aspektlərini ayrı-ayrı fənlərə aid olan məzmun vasitəsilə geniş tədqiqini təmin edir. Bu yanaşma dil qaydalarının ədəbiyyat, tarix, coğrafiya, informatika və digər fənlərlə əlaqəli şəkildə öyrədilməsini təmin edir. İnteqrativ təlim metodları şagirdlərdə məntiqi təfəkkürü, nitq mədəniyyətini, yaradıcı və tənqidi düşünmə qabiliyyətini inkişaf etdirir. Müxtəlif mətnlər, layihələr və praktik tapşırıqlar vasitəsilə şagirdlərin dil bacarıqları daha da möhkəmlənir, təlim prosesi isə daha maraqlı və səmərəli olur.

Açar sözlər: *Azərbaycan dili, fənlərarası və fəndaxili inteqrasiya, İnkişaf Konsepsiyası, şaquli və üfiqi inteqrasiya*

Müasir dövrdə baş verən sürətli inkişaf və informasiya axınının artması əldə edilən biliklərin tez bir zamanda aktuallığını itirməsinə səbəb olur və bu da biliklərin daha çevik və sürətli şəkildə mənimsənilməsini zəruri edir. Cəmiyyətdəki bu dəyişikliklərlə uyğunlaşmaq üçün müasir məktəbin qarşısında yeni məqsəd və vəzifələr formalaşır.

Əvvəlki təhsil modelində olduğu kimi yalnız biliklərin ötürülməsinə əsaslanan yanaşmadan uzaqlaşaraq, müasir tələblərə cavab verən yaradıcı, tələbəyönümlü və inteqrativ təhsil modelinə keçidə ehtiyac artır. Bu baxımdan, sürətlə dəyişən dünyaya uyğunlaşa bilən gənc nəsil sadəcə geniş bilik ehtiyatına malik olmaqla kifayətlənməməli, eyni zamanda biliklərini daim yeniləyərək daha yüksək səviyyəyə qaldırmağı bacaran, yaradıcı düşüncəyə sahib şəxsiyyət kimi formalaşmalıdır. N.Cəfərovanın sözləri ilə desək, məktəb qarşısında qoyulan məqsədə çatmaq – qarşıya çıxan məsələləri həll etmək üçün yeni texnologiya, yeni yanaşma, yeni innovasiya seçib təlimdə tətbiq edilməsi zərurəti yaranmışdır.

İnteqrativ təlim şagirdlərin ətraf mühitin aspektlərini ayrı-ayrı fənlərə aid olan məzmun vasitəsilə geniş tədqiqini təmin edir. Müəllim və şagirdlər üçün geniş imkanlar açır:

- Məsələlərə qlobal yanaşılır;
- Öyrəndikləri anlayışları əlamətləndirə bilir;
- Fənləri və mövzuları birləşdirə bilir;
- Eyni zamanda müxtəlif resurslardan istifadəb etmək imkanı əldə edir və s.

İnteqrativ təlimin üstün cəhətlərini aşağıdakı kimi göstərmək olar:

- Şagirdlər müxtəlif fənlərdən alınan bilik və bacarıqları əlaqələndirmək imkanı qazanırlar.
- Şagirdlərin bilik və bacarıqları həyati məsələlərlə əlaqələndirmək imkanı artır.
- Şagirdlər suallar qoymağı və birlikdə əməkdaşlıq edərək bu suallara cavab tapmağın yollarını öyrənirlər.

2012-ci il dekabr ayında Azərbaycan Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda ölkəmizdə aparılan təhsil islahatları və onun məzmununda edilən dəyişikliklər barədə geniş məlumat verilir və xüsusi olaraq qiymətləndirilir. Konsepsiyada göstərilir ki, təhsilin məzmununun yenilənməsində aparılan islahatlara dair bir çox işlər görülmüş, Azərbaycan təhsilinin Avropa təhsil sisteminə inteqrasiyası istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Müasir dünya təcrübəsində inteqrasiya fəndaxili və fənlərarası inteqrasiya olmaqla iki yerə ayrılır.

Yeni tərtib olunmuş dərsliklərdə və müəllimə aid metodik vəsaitlərdə fənlərarası, fəndaxili əlaqələr geniş şəkildə izah olunmuş, təlim prosesinin yüksək səviyyədə təşkil olunmasında bu əlaqələrin əsas məqsədi, konkret istiqamətləri müəyyənləşdirilmişdir. Tədrisin bu əlaqə modelinə uyğun qurulması

təhsilalanların nitqinin, təfəkküründün və yaradıcılıq qabiliyyətlərinin inkişafına, onlarda yeni bilik və bacarıqların formalaşmasına təkan verir.

Fəal-interaktiv təlimin obyektiv tələblərindən biri fəndaxili və fənlərarası inteqrasiyanın (şaquli və üfiqi formalarda) təmin olunmasıdır. Müasir inteqrasiya təlimin ayrı-ayrı fənlərin tədrisində qazanılmış biliklərin əlaqələndirilməsinə xidmət edir ki, bu da əlaqəli-inteqrativ tədrisin aktuallaşmasına səbəb olur. Sinifdən-sinfə tədricən dərinləşən və genişlənən məzmun xətləri arasında varisliyin təmin olunması, eləcə də fənn üzrə məzmun xətlərini əlaqələndirmək, müəyyən tədris vahidlərində müvafiq məzmun standartlarının ifadə olunmasını təmin etmək tədrisin keyfiyyətini və səmərəliliyini artırır. Həmçinin şagirdlərin qazandıqları bilikləri praktikada tətbiq etmək bacarıqlarını inkişaf etdirir, idrak fəaliyyətini yüksəldir, onlarda təlim prosesinə yaradıcı, şüurlu münasibət bəsləməyi formalaşdırır. **Şaquli ineqrasiya** sinifdən sinfə tədricən dərinləşən və genişlənən məzmun xətləri arasında varisliyin qarantı rolunda çıxış edir. **Üfiqi inteqrasiya**dan istifadə fənn üzrə məzmun xətlərini əlaqələndirmək məzmun standartlarının müəyyən tədris vahidlərində istifadə olunmasını təmin edir. Təlim kursunun bütövlükdə mənimsədilməsi fəndaxili əlaqənin sistemli, şüurlu qurulmasından asılıdır.

Azərbaycan dili fənni orta məktəblərdə V sinifdən başlayaraq, sistemli şəkildə tədris olunur və XI sinifdə tamamilə yekunlaşır. Bu müddət ərzində tədris olunan mövzular, bölmələr arasında qarşılıqlı əlaqəni bilmədən məfhumların, tərif və dil qaydalarının ardıcıl mənimsənilməsindən danışmaq olmaz. Morfologiyanı fonetika, leksikologiyanı fonetika və söz yaradıcılığına, sintaksisi morfologiya və fonetikaya istinad etmədən şüurlu mənimsətmək mümkün deyil.

Fənlərarası inteqrasiya müxtəlif fənlərin məzmun və metod baxımından qarşılıqlı əlaqələndirilməsini nəzərdə tutur. Bu inteqrasiya növü şagirdlərin ətraf aləmi bütöv şəkildə qavramasına, biliklər arasında əlaqə qurmasına imkan yaradır.

Bu gün Azərbaycan dili fənninin tədrisində bədii, publisistik, elmi-kütləvi, tarixi-mədəni irsimizə aid mətnlər üzərində dərslərin qurulması fənlərarası əlaqənin səmərəliliyini artırır, mətnlər vasitəsilə digər fənlərlə əlaqəni reallaşdırır. Azərbaycan dili təlimi qohum fənn kimi ədəbiyyat fənni və ona yaxın olan digər dil fənləri ilə əlaqəli şəkildə tədris olunmalıdır. Həmçinin bu fənn təkcə qohum olan ədəbiyyat, tarix fənləri ilə deyil, coğrafiya, musiqi, fiziologiya, psixologiya, fizika, təsviri incəsənət və s. fənlərlə əlaqənin bütün imkanlarını nəzərdən keçirməli və təlim prosesinə tətbiq etməlidir. Demək olar ki, Azərbaycan dili fənni tarix, ədəbiyyat, coğrafiya, biologiya və informatika kimi fənlərlə inteqrasiyada xüsusilə effektivdir. Tarixi və elmi mətnlərin oxusu zamanı şagirdlər həm dil bacarıqlarını, həm də digər fənlər üzrə biliklərini inkişaf etdirirlər.

Fikirlərimizi fənlərarası inteqrasiyaya aid nümunələrlə izah etsək daha effektiv olar. Hətta bu yanaşmanın əhəmiyyətini, təhsildə rolunu və zəruriliyini sübut etmiş olarıq. Məsələn, M.Şəhriyarın “Heydərbabaya salam” poemasının təhlili prosesində, “Oxuyaydım çoban qaytar quzunu” misrasını araşdırdıqda aydın olur ki, şair məşhur “Sarı gəlin” xalq mahnısına işarə edir. Mahnının tədqiqi musiqi fənni ilə inteqrasiyanı zəruriləşdirir.

Tədqiqatçılar qeyd edirlər ki, fənlərarası inteqrasiya təlimin motivasiyaedici xarakterini gücləndirir və şagirdlərin idrak fəallığını artırır. Bu zaman biliklər real həyat hadisələri ilə əlaqələndirilir və təlimin praktik əhəmiyyəti ön plana çıxır.

Qeyd etməliyik ki, fənlərarası inteqrasiyanın əhəmiyyəti aşağdakı mövqelərdən irəli gəlir:

- Tədris fənlərinin məzmunundakı müxtəlif müxtəlif əlaqələrlə gerçək aləmin prosesləri, hadisələri və obyektləri arasında real mövcud olan əlaqələrin əksini təşkil edir.
- Məktəbdə elmi biliklərə yiyələnmə hal-hazırda hər bir tədris fənninin sonradan tədris mövzularına parçalanan tədrisin məzmununun predmet quruluşuna əsaslanır.
- Tədrisin məzmununun hər bir sistem vahidi özünün əsaslı mövqeyinə malikdir.

Fəndaxili inteqrasiya – müəyyən bir fənn üzrə anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fəndaxili faktların sistemləşdirilməsidir.

Qeyd etmək lazımdır ki, bu yanaşma didaktik sistemin struktur-semantik bütövlüyünü qorumağa və biliklərin şüurlu mənimsənilməsinə xidmət edir.

Fəndaxili inteqrasiya təlimin məzmun komponentlərinin qarşılıqlı əlaqələndirilməsi əsasında reallaşan kompleks pedaqoji mexanizm kimi çıxış edir. Bu mexanizmin effektivliyi əvvəl əldə olunmuş

biliklərin aktuallaşdırılması, assosiativ əlaqələrin qurulması və transfer effektinin təmin olunması ilə birbaşa bağlıdır. Bu baxımdan əvvəlki biliklərə istinad, müqayisəli təhlil, sistemləşdirmə və ümumiləşdirmə kimi didaktik üsulların ardıcıl tətbiqi inteqrativ təlim nəticələrinin əldə olunmasını şərtləndirir.

Azərbaycan dilinin tədrisində fəndaxili əlaqənin reallaşdırılması xüsusilə morfoloji və sintaktik səviyyələrin qarşılıqlı əlaqəsində daha aydın təzahür edir. Belə ki, feili sifətin tədrisi zamanı feilin qrammatik-semantik xüsusiyyətləri ilə sifətin atributiv funksiyası arasında əlaqə yaradılır, onun feil və sifətlə oxşar və fərqli cəhətləri müqayisə edilir; zərfin izahında onun semantik-sintaktik xüsusiyyətləri sifət və feili bağlama ilə müqayisəli şəkildə təqdim olunur; ismi və feili xəbərin tədrisində isə predikativlik kateqoriyası isim və feil sistemləri kontekstində şərh edilir. Eyni zamanda, köməkçi nitq hissələrinin funksional-semantik xüsusiyyətləri əsas nitq hissələri ilə qarşılıqlı əlaqədə öyrədilir ki, bu da dil sisteminin çox şaxəli quruluşunun dərk edilməsinə imkan yaradır.

Təlim prosesində problemli situasiyaların yaradılması və evristik müsahibə metodunun tətbiqi fəndaxili əlaqənin reallaşdırılmasında mühüm didaktik vasitə kimi çıxış edir. Məsələn, “Cümlə üzvlərinin ifadə vasitələri” mövzusunun tədrisi zamanı “Nitq hissəsi nədir?” sualının qoyuluşu şagirdlərin metadil şüurunun aktivləşdirilməsinə, onların əvvəlki biliklərinin yenilənməsinə və yeni anlayışların mənimsənilməsinə şərait yaradır. Bu prosesdə anlayışlararası əlaqələrin qurulması, semantik diferensiasiya və kateqorial ümumiləşdirmə aparıcı rol oynayır.

Azərbaycan dili fənnində fəndaxili inteqrasiya aşağıdakı yollarla reallaşdırıla bilər:

- qrammatik mövzuların mətn əsasında öyrədilməsi;
- lüğət ehtiyatının oxu və yazı bacarıqları ilə əlaqələndirilməsi;
- dinləmə və danışma bacarıqlarının paralel inkişaf etdirilməsi.

Məsələn, isimlərin öyrədilməsi zamanı bədii və elmi mətnlərdən istifadə edilməsi şagirdlərdə həm qrammatik biliklərin, həm də oxu-anlama bacarıqlarının inkişafına şərait yaradır (Kurikulum, 2020).

Azərbaycan dili fənnində fəndaxili inteqrasiya fonetika, leksika və qrammatikanın nitq fəaliyyəti növləri ilə qarşılıqlı əlaqədə tədrisi vasitəsilə həyata keçirilir. Məsələn, qrammatik qaydaların izahı zamanı onların yazılı və şifahi nitqdə tətbiqi şagirdlərdə dil duyumunun formalaşmasına xidmət edir.

Fəndaxili inteqrasiyanın iki forması var: üfiqi və şaquli inteqrasiya

Üfiqi inteqrasiya – fənn üzrə məzmun xətlərini əlaqələndirməklə, müvafiq məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin edir.

Şaquli inteqrasiya – sinifdən-sinfə tədricən dərinləşən və genişlənən məzmun xətləri arasında varisliyi təmin edir.

İnteqrasiyanın ən yüksək səviyyəsi isə fənlərüstü inteqrasiya adlanır ki, buna transfənn inteqrasiya da deyilir. Bu inteqrasiya ilə məktəbdə tədris olunan mövzuların məzmunu ilə məktəbdən kənarda aldıqları məzmun sintez edilir. İnteqrasiyanın belə səviyyəsi günümüzdə aktuallığını daha da artırmış, o, məktəb-komplekslərlə yanaşı həm də təhsil paradiqmalarının dəyişməsini tələb edir. Belə məktəblərdə dərs gününün məzmunu şagird üçün vahid fəaliyyət sahəsi kimi qurulur.

Aparılan təhlillər göstərir ki, fəndaxili və fənlərarası inteqrasiya Azərbaycan dili fənninin tədrisində mühüm pedaqoji əhəmiyyətə malikdir. İnteqrativ yanaşma şagirdlərin dil bacarıqlarının kompleks şəkildə formalaşmasına, onların dünyagörüşünün genişlənməsinə və təlim motivasiyasının artmasına şərait yaradır. Bu yanaşmanın sistemli tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

AYTƏN CƏFƏROVA
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ORTA MƏKTƏBDƏ ƏDƏBİYYAT FƏNNİNİN TƏDRİSİ: YENİ METODLAR, SƏMƏRƏLİ ÜSULLAR

Orta məktəbdə ədəbiyyat fənninin qarşısında qoyulan ən ümdə və yeni fikirləri təbliğ edən vəzifələr tələb edir ki, hər bir mütəxəssis – müəllim bu fənnin tədrisinə yenilikçi düşüncələrlə yanaşsın, müasir ideologiyanın təbliğində bu fənnin əhəmiyyətli rolunu öncə özü dərk etsin, daha sonra şagirdlərə təbliğ etsin. Bunun üçün də, əlbəttə ki, ədəbiyyatı tədris edən müəllim özü müasir nəzəri biliklərə tam yiyələnməli, daim öz üzərində də çalışmalıdır. Ədəbiyyat dərslərini səmərəli təşkil etmək, təlim materialını şagirdlərə daha müasir üsullarla mənimsətmək müasir dövrün müəllimlərinin qarşısında duran ən mühüm vəzifələrdəndir. Digər fənlərin tədrisində olduğu kimi, insanın mənəvi cəhətdən kamilləşməsinə xidmət edən bu fənnin səmərəli təşkilində yeni təlim üsullarından bacarıqla və yaradıcılıqla istifadə etmək isə uğurlu nəticələr əldə etmək deməkdir.

Açar sözlər: *ədəbiyyat, fənn, yeni təlim üsulları, müasir, müəllim, tələb, ideologiya*

Ədəbiyyat insanın mənəvi aləminin tərbiyəsində böyük rola və əhəmiyyətə malik olan elm sahəsidir. Ədəbiyyatın predmeti də məhz bədii əsərlərdir. Lap qədim dövrlərdən təhsilin ibtidai vəziyyətində də ilkin tədris vəsaitləri məhz dövrə məlum olan bədii ədəbiyyat nümunələrindən ibarət toplular və onların tədrisi olub.

Uzunmüddətli pedaqoji təcrübələr göstərir ki, şagirdlərə bədii əsərləri tədris edərkən hər hansı bir mövzu ilə bağlı məlumatı dövrlə, şagirdin səviyyəsilə uyğunlaşdırmaq gözlənilən nəticəni verə bilər. Bədii əsərin tədrisində ilkin variant bədii əsərin dərs zamanı səsli şəkildə oxunmasının təmin edilməsidir. Ümumiyyətlə, ədəbiyyat dərslərində bədii əsərlərin oxunması çox mühüm yer tutur. Bədii əsərin oxunması prosesi, ilkin olaraq, şagirdlərin əsərin müəllifi ilə tanışlığıdır. Bu tanışlıqda gərəkdir ki, hər iki tərəf bir-birini yaxşı başa düşsün. Müasir ədəbiyyat dərsliklərində müəlliflə tanışlıq həm də onun həyat və yaradıcılığı haqqında qısa məlumatın təqdimatı ilə də tamamlanır. Doğrudur, ənənəvi təhsildə bu, daha geniş idi və demək olar ki, müsbət nəticə verirdi. Belə ki, ədəbiyyat dərsinin biri məhz bədii əsərin müəllifinin həyat və yaradıcılığına həsr olunurdu. Bu da şagirdin həmin müəllif barədə geniş məlumata malik olmasını təmin edirdi. Müasir dərsliklərdə isə bu məsələ çox məhdud şəklə salınıb. Hətta demək mümkündür ki, müəllifin həyatı və yaradıcılığı tamamilə ixtisarlaşdırılmış formada təqdim olunur. Və yaxud müəllifin həyatı və yaradıcılığı ilə məlumat, ümumiyyətlə, verilmir. Bəzi əsərlərin müəllifləri haqqında digər görkəmli şəxsiyyətlərin fikirləri verilməklə bu məsələ tamamlanır. Lakin müsbət və yeni olan məqam isə həmin məlumatda müəllifin öz həyatı haqqında olan fikirlərinin də olduğu kimi təqdim edilməsidir. Bir də fərqli olan odur ki, bədii əsər təqdim olunur, sonda isə onun müəllifi haqqında məlumatla dərsə yekun vurulur. Burada belə bir nəticə əldə olunur: şagird əsərin müəllifi haqqında məlumatı çox da dərindən mənimsəmir. Təbiidir ki, istisna hallar da mövcuddur.

6-cı sinif “Ədəbiyyat” dərsliyi kitabında ölməz şairə Mirvarid Dilbazinin “Müəllimim” şeiri təqdim olunur. Dərsdə Tapşırıq 1-də deyilir: “Əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparın. Əsəri oxuyarkən “Oxu zamanı” təlimatına əməl edin”. Qeyd edək ki, həmin təlimat dərsliyin 14 və 15-ci səhifəsində təqdim olunur. Əgər müəllim həmin təlimatı elə ilkin dərslərin materialı olaraq çox ciddi tədris edibsə, o zaman şagirdlərin də yeni bədii əsərlə və onun müəllifi ilə tanışlığı qənaətbəxş olacaqdır. Şairə haqqında məlumat isə lakonik şəkildə verilir. Burada müəllifin həyatı haqqında konkret faktlar müşahidə olunmur. Yalnız onun həyatı ilə bağlı olan özünün fikirləri təqdim olunur: “Bəy nəslinə mənsub olduğumdan əziyyətimiz çox oldu. Doğrudur, camaatımızın köməyilə sürgünlərdən, qırğınlardan uzaq düşdük. Lakin maddi çətinliklərin pəncəsindən qurtara bilmədik. Çünki bütün var-dövlətimizi müsadirə etmişdilər. Biz – iki bacı müəllimlik edərək anamızı da özümüz saxlayırdıq. O illərdə ölkədə hər şey qıt idi. Biz bacılar isə seminariyadan aldığımız iki qızıl

medalı və anamızın əldə olan-qalan qızıl zinətlərini qızıl mağazasına verərək bir-iki dəst paltarlıq parça ala bilmişdik".

İfadəli oxu ictimai məsələdir. Oxucu bədii əsərin məzmununu, paralel olaraq onun ideyasını, yazıçının məqsədini dinləyicilərə çatdırır. Buna görə də bədii əsəri lazımınca oxumamaq, müəllifin çatdırmaq istədiyi fikri təhrif etmək olmaz.

Müəllim dərsin keyfiyyətini artırmaq üçün internet resurslarından, eləcə də həyati faktlardan geniş istifadə etməyi bacarmalıdır. Yuxarıda haqqında bəhs edilən əsərlərə uyğun olaraq illüsturasiyalar, əsərlərin ideyasına yaxın olan hikmətamiz sözlər, atalar sözlərinin təqdimi, hətta lirik şeirin oxusunun təqdimatında həzin musiqilərdən də istifadə etmək əsərin şagird tərəfindən mənimsənilməsini tam təmin edə bilər.

Ümumiyyətlə, ədəbiyyatın tədrisində yeni interaktiv metodlardan istifadə etmək müasir günün tələblərinə daxildir. Hər bir müəllim çalışmalıdır ki, yeni metodlardan peşəkarlıqla istifadə etməyi bacarsın. Və bu bilik və bacarıqdan da uğurla şagirdlərə tədris etdiyi fənnin - ədəbiyyatın mənimsənilməsində istifadə etsin.

EYVAZ EMİNALIYEV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
Filologiya üzrə fəlsəfə doktoru
edebiyyatd.@bk.ru
https://orcid.org/0000-0002-2950-3424
TÜRKAN HÜSEYNOVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
Müəllim, doktorant
turkan.huseynova.8989@mail.ru
https://orcid.org/0009-0008-0507-0880

YAZIÇININ TƏRCÜMEYİ-HALININ TƏDRİSİ VƏ YARADICILIĞININ DƏRKİNDƏ ROLU

Tədqiqat işində ədibin tərcümeyi-halının yaradıcılığının formalaşmasındakı rolunu müəyyənləşdirməyə çalışdıq. İstər Azərbaycan ədəbiayyatı nümunələrinə, istərsə də dünya ədəbi incilərinə nəzər salanda görürük ki, bəzi ədəbi yaradıcılıq nümunələri yazıçının birbaşa şəkildə tərcümeyi-halı ilə bağlı olmasa da, ümumiyyətlə əlqali olmsa da, digər hər hansı bir yazıçının, şair və dramaturqun yaradıcılığı bütünlüklə həyat faktlarından təsirlənmiş, ondan bəhrələnərək ortalığa çıxmışdır.

Açar sözlər: *tərcümeyi-hal, yaradıcılıq, yazıçı, təsir*

Görkəmli alim Bilal Həsənli özünün “Ədəbiyyatın tədrisi metodikası” kitabında bu barədə yazır ki, ədəbiyyat dərslərində tərcümeyi-hal materiallarının öyrənilməsinin böyük təlim-tərbiyəvi əhəmiyyəti vardır. Tərcümeyi-halın öyrənilməsi şagirdlərin sənətkarın yaradıcı şəxsiyyəti barədə bilik əldə etmələrinə, həyat mövqeyini, tarixi, estetik baxışlarını öyrənmələrinə imkan yaradır. Yazıçı şəxsiyyətinin öyrənilməsi şagirdləri həm də həmin sənətkarın əsərlərinin dərk edilməsinə hazırlayır.

Bu sitatdan yola çıxaraq fikrimizi belə əsaslandıra bilərik ki, bədii əsərlərin öyrənilməsi və qavranılmasında tərcümeyi-hal materiallarının, həqiqətən, böyük əhəmiyyəti vardır. Bu həm əsərin mövzusunun, həm ortaya çıxdığı tarixi dövrün, mühitin, həm də əsərin əsas ideyasının dərki və müəyyənləşdirilməsində mühüm rol oynayır. Bunun üçün istər orta məktəblərdə, istərsə də ali təhsil müəssisələrində ümumilikdə ədəbiyyatla əlaqəli fənlərin tədrisində ədiblərin həyati faktları vacib rol oynayır.

Tərcümeyi-hal materiallarının öyrənilməsinin əhəmiyyətini vurğulayarkən mühüm məsələlərə diqqət yetirmək lazımdır. Bunlardan birincisi, nümunəvi tərcümeyi-hal materiallarıdır, belə ki, həm Azərbaycan, həm də ümumilikdə dünya ədəbiyyatında bir çox ədibin həyat fəaliyyəti nümunəvi xarakter daşıyır və onların labüd şəkildə tədris olunması həm şagirdlərdə, həm də tələbələrdə şəxsiyyətin formalaşmasında əsas faktora çevrilir. Təbii ki, ideal ömür yolu yoxdur və hər bir insanda olduğu kimi yazıçı və şairlərdə, dramaturqlarda da qüsur və nöqsanlar vardır. Bizim nəzərdə tutduğumuz əsas məsələ tərcümeyi-hal faktlarının ümumilikdə nümunəvi xarakter daşımasıdır. Bu cür şəxsiyyətlərin ömür yolunun öyrənilməsinin, həqiqətən də, şagird və tələbələrin dünyagörüşlərinin, şəxsiyyətlərinin formalaşmasında müstəsna rolu vardır. Bilal Həsənli qeyd edir ki, qüdrətli sənətkarın tərcümeyi-halı şagirdlərin mənəvi tərbiyəsi baxımından əhəmiyyətlidir. Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin doğma xalqına, vətəninə münasibətini, İmadəddin Nəsiminin əqidə, amal şəhidi olmasını, Qazi Bürhanəddinin, Şah İsmayıl Xətainin, Xəlil Rzanın qəhrəmanlığını öyrənən şagird daxilən, mənən zənginləşir. Fətəli Axundzadənin öz müəllimi Mirzə Şəfi Vazehlə məşhur söhbətini, seminariyaya daxil olmaq istəyən Səməd Vurğunun Firidun bəy Köçərliyə müraciətlə dediyi sözləri oxuyan şagird bu hadisələrdən ibrət dərsi alır, öz həyat yolunun, mənəvi mövqeyinin müəyyənləşdirilməsinə daha məsuliyyətlə yanaşır. Bu sənətkarların şəxsiyyəti, Vətənə xidməti şagirdlərdə dərin təəssürat yaradır, həyatda əməyin, əqidənin ləyaqətin rolunu əyani şəkildə göstərir.

Dünya ədəbiyyatı nümunələrini araşdırarkən bir çox yazarların əsərlərinin də onların yaşadıqlarından qaynaqlandığının şahidi oluruq. Amma burda bir məsələ diqqətimizi çəkir, belə ki, bu əsərlərin böyük bir qismi nümunəvi ömür yolunun deyil, ruhi travmaların məhsuludur. Bu cür əsərlərin də şagird və tələbələrə tədris olunması mühümdür, fikrimizcə. Çünki insan psixologiyasının dərindən öyrənilməsində bu əsərlər misilsiz, zəngin mənbə rolunu oynayır. Buna görə də təkcə nümunəvi həyat məhsulu olan əsərlərin yox, bu cür sıradan insan kədərindən, sevincindən, travmalarından yaranan əsərlərin də tədris olunması vacibdir. Əlbəttə ki, bunu müəyyən qədər yuxarı yaşlı və düşüncələri formalaşmış şagird və tələbələrə öyrətmək lazımdır. Bu cür əsərlərin öyrənilməsi onların empatiya hissini gücləndirir, qarşıdakını anlamaq duyğularını inkişaf etdirir, tolerant bir şəxsiyyətə çevirir. Bu baxımdan Fyodor Mixayloviç Dostoyevskinin, Frans Kafkanın, Nikolay Vasilyeviç Qoqolun və b. həyat və yaradıcılıqlarını öyrənmək, tədris etmək şagird və tələbələrdə insan psixologiyasına yaxından və tam bələd olmaq səriştəsini formalaşdırır.

Ədiblərdən bəzilərini də nümunə gətirə bilərik ki, onların yaradıcılığı əslində tərcümeyi-hal faktları əsasında formalaşmır. Onlar daha çox ətraf mühiti güclü müşahidə və təhlil nəticəsində yazırlar. Əsərlərində şəxsi hadisələrdən daha çox obyektiv gerçəkliklər ön planda olur. Bu cür yazarların da yaradıcılıqları geniş şəkildə təbliğ olunmalı, oxunmalıdır, baxmayaraq ki, əsərləri ömür yollarını əks etdirmir. Onlara nümunə kimi N.Gəncəvini, Sədi Şirazini, Viktor Hüqonu, L.N.Tolstoyu, Ştefan Svayqı və b. göstərmək olar. Bu cür yaradıcılıq məhsullarının tədris olunması şagird və tələbələrə yüksək müşahidə qabiliyyəti, həssaslıq, geniş təcrübə və zəngin dünyagörüş səriştələri qazandırır. Bütün bunlar da nəticədə daha sağlam və insani bir cəmiyyətin formalaşmasına səbəb olur.

Bədii ədəbiyyatın öyrənilməsi təkcə bu ixtisasda oxuyan şagird və tələbələr üçün deyil, ümumilikdə bütün tələbələrə vacibdir. İnsanı anlamaq, onu başa düşmək üçün ədəbiyyat çox vacib bir mənbə rolunu oynayır. Daha sağlam, anlayışlı, dözümlü bir cəmiyyətin yaranması üçün bədii ədəbiyyatın oxunması vacib faktordur. Ədəbiyyat insanın ruhunu zənginləşdirir, insanın insanı anlamasını, ona qarşı dözümlü olmasını asanlaşdırır. Bu baxımdan bədii əsərlərin mütaliəsini təbliğ etmək, genişləndirmək və artırmaq lazımdır.

Nəticə olaraq, fikrimizi belə yekunlaşdırırıq ki, istər orta təhsil müəssisələrində, istərsə də ali təhsil ocaqlarında ədəbiyyat fənlərinin tədrisi metodikası zamanı ədiblərin həyat fəaliyyətləri, ömür yolları tədris olunmalı, yaradıcılıqları ilə qarşılıqlı, müqayisəli şəkildə öyrədilməldir. Bu prosesin uğurla tamamlanması üçün müəllim, valideyn və tələbə (şagird) üçlüyünü qoruyub saxlamaq lazımdır.

GÜNAY ŞİRƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Naxçıvan Müəllimlər İnstitutu
shiraligunay@gmail.com
https://orcid.org/0009-0007-7723-4082

SÜNİ İNTELLEKT DÖVRÜNDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ YENİ ÜSULLAR

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində mühüm dəyişikliklər yaratmışdır. Xüsusilə süni intellekt texnologiyalarının meydana çıxması tədris prosesinə yeni yanaşmalar gətirmiş, müəllim və tələbə münasibətlərini daha çevik və interaktiv formaya çevirmişdir. Bu yeniliklər Azərbaycan dilinin tədrisində də özünü göstərməkdədir. Ənənəvi metodlarla yanaşı, innovativ üsulların tətbiqi dilin daha effektiv şəkildə öyrədilməsinə imkan yaradır.

Azərbaycan dili milli kimliyimizin, mədəniyyətimizin və mənəvi dəyərlərimizin əsas daşıyıcısıdır. Buna görə də onun düzgün və müasir metodlarla tədrisi olduqca vacibdir. Süni intellekt texnologiyaları bu istiqamətdə geniş imkanlar açır. Artıq dil tədrisində interaktiv proqramlardan istifadə olunur. Bu vasitələr şagirdlərin dil bacarıqlarını inkişaf etdirməyə, onların marağını artırmağa kömək edir.

Ənənəvi dərslərdə bütün şagirdlərə eyni yanaşma tətbiq edilsə də, süni intellekt hər bir şagirdin bilik səviyyəsini, marağını və öyrənmə sürətini analiz edərək ona uyğun tapşırıqlar təqdim edir. *Bu isə zəif mənimsəyən şagirdlərin daha çox dəstək almasına, güclü şagirdlərin isə biliklərini daha da inkişaf etdirməsinə şərait yaradır.*

İnteraktiv oyun texnologiyalarının tətbiqi də Azərbaycan dili dərslərini daha maraqlı edir. Dil oyunları, interaktiv tapmacalar, virtual dialoqlar və rəqəmsal hekayələr şagirdlərin diqqətini artırır, onların dərsə fəal qoşulmasını təmin edir. Bu metodlar xüsusilə ibtidai və orta məktəb şagirdləri üçün daha təsirli hesab olunur.

Süni intellekt dövründə müəllimin rolu da dəyişir. Müəllim artıq yalnız bilik ötürən şəxs deyil, həm də şagirdə istiqamət verən, texnologiyadan düzgün istifadəni öyrədən bələdçi funksiyasını yerinə yetirir. Bu baxımdan müəllimlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. *Müasir müəllim həm ənənəvi pedaqoji biliklərə, həm də texnoloji yeniliklərdən istifadə bacarığına malik olmalıdır.*

Lakin süni intellektin tədrisə tətbiqi ilə bağlı müəyyən problemlər də mövcuddur. Texnologiyadan həddindən artıq istifadə şagirdlərin kitab mütaliəsindən uzaqlaşmasına, canlı ünsiyyət bacarıqlarının zəifləməsinə səbəb ola bilər. Bundan başqa, bütün məktəblərin texniki imkanlarının eyni səviyyədə olmaması rəqəmsal bərabərsizlik yaradır. Buna görə də süni intellektdən istifadə balanslı və məqsədyönlü şəkildə həyata keçirilməlidir. Bu texnologiyalar tədrisin keyfiyyətini yüksəldir, şagirdlərin dil bacarıqlarını inkişaf etdirir və öyrənmə prosesini daha maraqlı edir. Gələcəkdə süni intellektin daha da inkişaf etməsi ilə Azərbaycan dili tədrisində yeni metodların yaranacağı şübhəsizdir. Əsas məqsəd isə texnologiyanı milli-mənəvi dəyərlərlə uzlaşdıraraq Azərbaycan dilinin qorunması və inkişafına xidmət etdirməkdir.

Məktəbdə tədris edilən bütün fənlərin, xüsusən Azərbaycan dili fənninin qarşısında duran mühüm vəzifələrdən biri də şagirdlərin təfəkküründü, nitqini inkişaf etdirməkdən ibarətdir. Şagirdlərin ana dilinin qayda-qanunlarını düzgün mənimsəməsi və istifadə edə bilməsi tədrisin əsas məqsədidir.

KÖNÜL ŞXƏLİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Fəlsəfə doktoru proqramı üzrə doktorant
konul.eliyeva.17@mail.ru

OXU DƏRSLƏRİNİN İNTERAKTİV TƏŞKİLİ ŞƏRAİTİNDƏ ŞAGİRDLƏRİN NİTQ VƏ TƏFƏKKÜR BACARIQLARININ İNKİŞAFI

Müasir təhsil sistemində oxu dərslərinin interaktiv təşkili şagirdlərin nitq və təfəkkür bacarıqlarının inkişafında mühüm rol oynayır. İnteraktiv metodlar – sual-cavab, qrup müzakirələri, rollu oyunlar və praktiki tapşırıqlar – şagirdlərin dərsə fəal qatılmasını təmin edir, onların yaradıcı və tənqidi düşünmə qabiliyyətlərini gücləndirir. Oxu dərsləri yalnız texniki oxu bacarığı formalaşdırmır, eyni zamanda şagirdlərin söz ehtiyatını zənginləşdirir, məntiqi təfəkkürünü inkişaf etdirir və nitq mədəniyyətini gücləndirir. Praktik tapşırıqların tətbiqi şagirdyönümlü təlimi təmin edir və dərs prosesinin səmərəliliyini artırır. Nəticədə, interaktiv oxu dərsləri ibtidai sinif şagirdlərinin kompleks inkişafı üçün əvəzsiz vasitədir.

Açar sözlər: *nitq, təfəkkür, oxu dərsləri, interaktiv təlim, şagird inkişafı*

Müasir dövrdə təhsil sistemində baş verən yeniliklər şagirdlərin yalnız bilik əldə etməsinə deyil, eyni zamanda onların şəxsiyyət kimi formalaşmasına, nitq və təfəkkür bacarıqlarının inkişafına yönəlmişdir. Bu baxımdan ibtidai – təhsil mərhələsi xüsusi əhəmiyyət daşıyır. Çünki məhz bu dövrdə şagirdlərin dil qabiliyyəti, düşünmə bacarığı və ünsiyyət vərdişləri formalaşmağa başlayır. Oxu dərsləri ibtidai siniflərdə şagirdlərin həm nitqinin, həm də təfəkkürünün inkişaf etdirilməsi üçün ən effektiv vasitələrdən biri hesab olunur. Şagirdlər mətnlə işləyərkən yalnız oxumaqla kifayətlənmir, həm də oxuduqlarını anlamağa, təhlil etməyə, müqayisə aparmağa və öz fikirlərini ifadə etməyə çalışırlar. Bu proses onların məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına şərait yaradır.

Müasir təlim yanaşmaları oxu dərslərinin təşkilində interaktiv metodların tətbiqini zəruri edir. İnteraktiv mühitdə təşkil olunan dərslər şagirdlərin fəallığını artırır, onları müstəqil düşünməyə və sərbəst fikir bildirməyə təşviq edir. Bu isə şagirdlərin nitq bacarıqlarının zənginləşməsinə və təfəkkürlərinin daha çevik inkişafına səbəb olur. Oxu dərsləri ibtidai təhsil sistemində aparıcı yer tutaraq şagirdlərin dil və təfəkkür bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Bu dərslər yalnız düzgün və sürətli oxu vərdişlərinin aşılanması ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin mətni anlama, təhlil etmə və öz fikirlərini ifadə etmə qabiliyyətlərinin inkişafına xidmət edir. Oxu prosesi idrak fəaliyyəti kimi şagirdin düşünmə mexanizmlərini aktivləşdirir və onu müstəqil nəticələr çıxarmağa yönəldir.

Oxu dərslərinin əsas mahiyyəti şagirdlərdə şüurlu oxu bacarığı formalaşdırmaqdan ibarətdir. Şüurlu oxu isə yalnız mətnin səsləndirilməsi deyil, onun məzmununun dərindən qavranılması, əsas ideyanın müəyyənləşdirilməsi və mətnə münasibətin bildirilməsi ilə xarakterizə olunur. Bu baxımdan, oxu dərsləri şagirdlərin həm nitqinin zənginləşməsinə, həm də təfəkkürünün inkişafına kompleks təsir göstərir. Görkəmli pedaqoq Yəhya Kərimov qeyd edirdi ki, "Oxu təlimi şagirdlərin yalnız savadlılığını deyil, həm də onların dünyagörüşünü, nitq və təfəkkür qabiliyyətini formalaşdıran əsas vasitələrdən biridir". Oxu dərslərinin ibtidai sinif şagirdlərinin nitq və təfəkkür bacarıqlarının inkişafında nə qədər vacib olduğunu bir daha təsdiqləyir ki, oxu yalnız texniki bacarıq deyil, eyni zamanda şagirdlərin məntiqi düşünməsini, fikir yürütməsini və söz ehtiyatını zənginləşdirməsini təmin edən mərkəzi pedaqoji vasitədir. Bu isə interaktiv oxu dərslərinin tətbiqinin əhəmiyyətini daha da artırır, çünki dərs zamanı şagirdlərin aktiv iştirakı onların həm nitq, həm də təfəkkür inkişafını sürətləndirir. Eyni zamanda, oxu dərsləri şagirdlərdə söz ehtiyatının zənginləşdirilməsinə, düzgün və ardıcıl danışıq bacarıqlarının formalaşmasına, məntiqi əlaqələrin qurulmasına və hadisələr arasında səbəb-nəticə münasibətlərinin müəyyənləşdirilməsinə şərait yaradır. Bu xüsusiyyətlər isə onların həm təlim prosesində, həm də gündəlik həyatda uğurlu ünsiyyət qurmasına zəmin yaradır.

Beləliklə, oxu dərsləri ibtidai siniflərdə yalnız bir fənn kimi deyil, şagirdlərin nitq və təfəkkür inkişafını təmin edən əsas pedaqoji vasitə kimi çıxış edir. Oxu dərsləri şagirdlərin təfəkkür

bacarıqlarının inkişafında mühüm rol oynayır. Şagirdlər mətn üzərində işləyərkən yalnız oxumur, həm də oxuduqlarını anlamağa, müqayisə etməyə, nəticə çıxarmağa və problem həll etməyə çalışırlar. Bu isə onların məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına şərait yaradır. Görkəmli pedaqoq və təlim nəzəriyyəçisi Lev Viqotski qeyd edir: “Uşaq təfəkkürü sosial qarşılıqlı təsir yolu ilə inkişaf edir; dil və oxu fəaliyyəti onun düşüncə qabiliyyətini zənginləşdirən əsas vasitələrdəndir”. Oxu dərsləri yalnız texniki bir bacarıq deyil, həm də şagirdin **idarə olunan və müstəqil düşünmə qabiliyyətlərini** inkişaf etdirən sosial və intellektual prosesdir. Viqotskinin nəzəriyyəsi vurğulayır ki, şagirdlərin təfəkkürü onların dili və mətnlə qarşılıqlı əlaqəsi ilə sıx bağlıdır. Oxu dərslərində interaktiv metodların tətbiqi – məsələn, sual-cavab, müzakirə, rol oyunları – şagirdlərin təfəkkürünü fəallaşdırır, onları yalnız mətni yadda saxlamağa deyil, həm də onu analiz etməyə və nəticələr çıxarmağa sövq edir. Bu isə təhsil prosesini daha məqsədyönlü və səmərəli edir.

Müasir təhsildə interaktiv təlim metodları oxu dərslərinin effektivliyini artırmaq üçün geniş tətbiq olunur. Bu üsullar şagirdlərin dərs prosesində passiv dinləyici deyil, fəal iştirakçı olmasını təmin edir və onların həm nitq, həm də təfəkkür bacarıqlarını paralel şəkildə inkişaf etdirir. Görkəmli pedaqoq David Johnson və Roger Johnson interaktiv təlimin üstünlüklərini belə ifadə edir: “İnteraktiv təlim üsulları şagirdlərin bir-biri ilə əməkdaşlıq etməsinə, problemləri birgə həll etməsinə və dərs materialını daha dərindən mənimsəməsinə imkan yaradır”. İnteraktiv təlim metodlarının mahiyyətini açıq şəkildə göstərir ki, şagirdlərin əməkdaşlıq və dialoq yolu ilə öyrənməsi onların dərs materialını daha yaxşı mənimsəməsinə və təfəkkürünü aktivləşdirməsinə xidmət edir. Bu isə oxu dərslərində sual-cavab, qrup müzakirələri, rollu oyunlar və problemli situasiyalar kimi metodların tətbiqinin nə qədər səmərəli olduğunu bir daha təsdiqləyir.

İnteraktiv metodlar şagirdlərin yalnız bilik əldə etməsinə deyil, həm də onların yaradıcı düşünmə, tənqidi təhlil və sərbəst ifadə bacarıqlarının inkişafına şərait yaradır. Bu isə ibtidai siniflərdə oxu dərslərinin məqsədinə tam uyğun gəlir və təhsilin keyfiyyətini artırır. Oxu dərslərində şagirdlərin nitq və təfəkkür bacarıqlarının inkişafı üçün **praktik üsul və tapşırıqlar** böyük əhəmiyyət kəsb edir. Bu üsullar dərsi şagirdyönümlü edir və onların fəal öyrənməsini təmin edir. Aşağıdakı üsullar ən effektiv hesab olunur:

1. Mətn üzrə sualların hazırlanması. Şagirdlər oxuduqları mətnlə bağlı suallar hazırlayarkən onların **təhlil və qiymətləndirmə bacarıqları** inkişaf edir. Bu üsul həm də onların məzmunu anlama, əsas fikri seçmək və mətnin strukturunu qavrama bacarıqlarını gücləndirir. Mətn üzərində sual hazırlamaq həm fərdi, həm də qrup şəklində aparıla bilər. Məsələn, şagirdlərdən “Mətnin əsas qəhrəmanı kimdir?”, “Hadisələr hansı ardıcıllıqla baş verir?” kimi suallar hazırlanması tələb olunur. Bu zaman şagirdlərin həm nitqi, həm də məntiqi təfəkkürü fəallaşdırır.

2. Hadisələrin davamını yazmaq. Şagirdlərdən oxuduqları mətndəki hadisələrin davamını yazmaq tələb olunduqda, onların **yaradıcı və analitik təfəkkürü i**nkişaf edir, şagirdləri mətni yalnız xatırlamağa deyil, həm də **öz ideyalarını və yaradıcılıqlarını** ifadə etməyə sövq edir. Şagirdlər hadisələri fərqli yollarla davam etdirə bildikdə, onların məntiqi təfəkkür və yaradıcı düşüncə qabiliyyətləri genişlənir.

3. Obrazların təhlilini etmək. Şagirdlərdən mətndəki obrazların xarakterini və davranışlarını təhlil etdikdə, onların **tənqidi və analitik təfəkkürü** inkişaf edir. Şagirdlərə mətnin məzmununu dərindən qavramağa, fərdi münasibət bildirməyə və nitqini daha dəqiq ifadə etməyə imkan verir. Məsələn, müəllim şagirdlərdən “Əsas qəhrəmanın davranışını necə izah edərdiniz?” və ya “Siz olsaydınız onun yerində nə edərdiniz?” kimi suallar verilə bilər.

4. Rollu oyunlar. Rollu oyunlar şagirdləri **məsələləri praktik şəkildə düşünməyə və ifadə etməyə** təşviq edir. Nümunə olaraq, bir hekayədəki hadisəni səhnələşdirərək oynamaq şagirdlərin **yaradıcı təfəkkürünü və şifahi nitqini** inkişaf etdirir. Həmçinin şagirdlər arasında əməkdaşlıq və kommunikasiya bacarıqlarını güclənir, onların fikir yürütmə və situasiyalara uyğun qərar vermə qabiliyyətini inkişaf edir.

5. Mətnin planının tərtibi. Şagirdlər oxuduqları mətni **müəyyən strukturda planlaşdırmaq tapşırığı verdikdə,** onların məntiqi təfəkkürü və **ardıcıl düşünmə bacarıqları** inkişaf edir. Bu

zaman şagirdlər mətni hissələrə ayırır, əsas və əlavə məlumatları fərqləndirir. Bu zaman həm də onların nitq və yazı bacarıqlarının təkmilləşməsinə şərait yaradır.

Yuxarıda qeyd olunan üsulların tətbiqi oxu dərslərini **interaktiv və şagirdyönümlü** edir. Hər bir tapşırıq həm nitqi, həm də təfəkkürü inkişaf etdirir, şagirdlərin dərsə marağını artırır və onların **fərdi düşünmə, yaradıcılıq və analitik bacarıqlarını** gücləndirir. Bu metodlar interaktiv təlim yanaşmaları ilə birləşdirildikdə, dərs prosesinin effektivliyi maksimuma çatır.

Oxu dərslərinin interaktiv təşkili şagirdlərin nitq və təfəkkür bacarıqlarının inkişafında mühüm rol oynayır. Dərslərin interaktiv xarakteri şagirdləri passiv dinləyici olmaqdan çıxarır, onları dərs prosesinə aktiv şəkildə qatılmağa, suallar verməyə, müzakirələrdə iştirak etməyə və fikirlərini sərbəst ifadə etməyə təşviq edir. Bu dərslər şagirdlərin yalnız oxuma bacarıqlarını deyil, həm də məntiqi və yaradıcı təfəkkürünü inkişaf etdirir, onların düşüncə prosesini sistemləşdirir və analiz etmə qabiliyyətini gücləndirir. Praktik tapşırıqlar, rollu oyunlar və qrup müzakirələri şagirdlərin nitqini zənginləşdirir, söz ehtiyatını artırır və mətnləri daha dərindən qavramalarına kömək edir. Nəticədə, oxu dərslərinin interaktiv təşkili ibtidai sinif şagirdlərinin şagirdyönümlü təlim şəraitində inkişafını təmin edən əsas vasitələrdən biri hesab olunur. Müəllimlərin bu yanaşmaları məqsədyönlü şəkildə tətbiqi dərslərin effektivliyini artırır və şagirdlərin nitq, təfəkkür və ümumi intellektual bacarıqlarının inkişafına uzunmüddətli təsir göstərir.

AYTƏKİN ZEYNALOVA
AMEA Naxçıvan bölməsi
Kiçik elmi işçi
aytekinimanova14@gmail.com

ŞAGİRDLƏRİN DİALOJİ NİTQ BACARIQLARININ İNKİŞAFINDA BƏDİİ MƏTNLƏRİN ROLU
(IX sinif materialları əsasında)

Məqalədə IX sinif Azərbaycan dili və ədəbiyyat dərslikləri əsasında bədii mətnlərin şagirdlərin dialoji nitq bacarıqlarının inkişafına təsiri araşdırılır. Bədii nümunələrin şagirdlərin nitq mədəniyyətinin formalaşmasında, söz ehtiyatının zənginləşməsində, sərbəst fikir yürütmə və məntiqi düşünmə qabiliyyətinin inkişafında mühüm rol oynadığı göstərilir.

Açar sözlər: *bədii mətn, dialoji nitq, nitq bacarığı, inteqrasiya, təlim*

Müasir təhsil sistemində şagirdlərin nitq bacarıqlarının inkişaf etdirilməsi əsas vəzifələrdən biri hesab olunur. Xüsusilə ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyat dərsləri şagirdlərin düzgün, məntiqli və ifadəli danışıq qabiliyyətinin formalaşmasına xidmət edir. Bu baxımdan bədii mətnlər nitq inkişafının ən mühüm vasitələrindən biri kimi diqqəti cəlb edir. Şagirdlərin dialoji nitqinin formalaşdırılması onların ünsiyyət bacarıqlarının, sərbəst fikir ifadə etmə qabiliyyətinin və dünyagörüşünün inkişafında mühüm rol oynayır.

Bədii mətnlər şagirdlərin lüğət ehtiyatını zənginləşdirir, onların nitqini daha təsirli və obrazlı edir. Şagirdlər hekayə, şeir, roman və digər janrlarla tanış olduqca yeni sözlər, ifadələr və cümlə quruluşları öyrənirlər. Bu isə onların həm şifahi, həm də yazılı nitqinin inkişafına müsbət təsir göstərir. Bədii əsərlərdə istifadə olunan dialoqlar, bədii təsvir və ifadə vasitələri şagirdlərdə nitqin emosional və estetik tərəflərini formalaşdırır.

IX sinif dərsliklərində təqdim olunan bədii nümunələr dialoji nitqin inkişafı baxımından xüsusilə əhəmiyyətlidir. Abdulla Şaiqin “Anabacı”, İsa Hüseynovun “Zəhər”, Elçinin “Talvar” hekayələri şagirdlərdə hadisələrə münasibət bildirmək, fikir söyləmək və müzakirə aparmaq bacarıqları yaradır. Bu əsərlərin təhlili zamanı şagirdlər qəhrəmanların xarakterini analiz edir, onların davranışlarına münasibət bildirir və öz fikirlərini əsaslandırmağa çalışırlar. Belə fəaliyyətlər şagirdlərdə sərbəst danışıq qabiliyyətini inkişaf etdirir.

Şeir nümunələri də nitq inkişafında mühüm rol oynayır. Əhməd Cavadın “Azərbaycan bayrağına”, Cəfər Cabbarlının “Ana”, Mikayıl Müşfiqin “Həyat sevgisi” şeirləri şagirdlərdə ifadəli oxu və düzgün intonasiya bacarıqları formalaşdırır. Şeirlərin emosional təsiri şagirdlərin nitqini daha canlı və təsirli edir. Eyni zamanda poetik nümunələrin mütaliəsi şagirdlərin estetik zövqünü inkişaf etdirir, onların ana dilinə sevgi hissini gücləndirir.

Azərbaycan dili və ədəbiyyat fənləri arasında inteqrasiya da nitq inkişafında mühüm əhəmiyyət daşıyır. Azərbaycan dili dərslərində öyrənilən dil qaydalarının bədii mətnlər üzərində tətbiqi şagirdlərin nəzəri biliklərini praktik şəkildə mənimsəməsinə imkan yaradır. Mətn üzərində aparılan müzakirələr, təqdimatlar və yaradıcı tapşırıqlar şagirdlərin dialoji nitqini daha da inkişaf etdirir. Müasir təlim metodlarının tətbiqi isə şagirdlərin dərsə marağını artırır, onların fəallığını və müstəqil düşünmə bacarıqlarını gücləndirir.

Bədii mətnlərin tədrisi zamanı tətbiq olunan sual-cavab, debat, müzakirə və rollu oyun metodları şagirdlərin dialoji nitq bacarıqlarının inkişafına xüsusi təsir göstərir. Şagirdlər əsərdəki obrazların yerinə özlərini qoyaraq onların düşüncə və davranışlarını izah etməyə çalışırlar. Bu proses zamanı onlar sərbəst fikir söyləmək, qarşı tərəfi dinləmək və arqumentlərlə cavab vermək bacarıqlarına yiyələnirlər. Xüsusilə, qrup işləri və təqdimatlar şagirdlərin ünsiyyət bacarıqlarını inkişaf etdirir, onların özünəinam hissini artırır. Belə fəaliyyətlər nəticəsində şagirdlərin nitqi daha aydın, ardıcıl və məntiqli olur.

Müasir dövrdə informasiya texnologiyalarının inkişafı şagirdlərin mütaliəyə marağının azalmasına müəyyən təsir göstərsə də, bədii mətnlər hələ də nitq inkişafının əsas vasitələrindən biri olaraq qalır. Elektron resurslardan və interaktiv təlim üsullarından istifadə etməklə bədii əsərlərin tədrisi daha maraqlı və effektiv təşkil edilə bilər. Müəllim şagirdlərin yaş və psixoloji xüsusiyyətlərini nəzərə alaraq mətn seçimində düzgün istiqamət müəyyənləşdirməlidir. Bu zaman şagirdlər həm bədii əsərlərin məzmununu daha dərindən qavrayır, həm də öz fikirlərini sərbəst şəkildə ifadə etməyə alışırlar.

Bədii mətnlər yalnız nitq bacarıqlarını deyil, həmçinin şagirdlərin mənəvi və əxlaqi keyfiyyətlərini də formalaşdırır. Əsərlərdə təqdim olunan vətənpərvərlik, humanizm, dostluq, sədaqət kimi ideyalar şagirdlərin şəxsiyyət kimi yetişməsində mühüm rol oynayır. Şagirdlər oxuduqları qəhrəmanları nümunə seçir, onların davranışlarını qiymətləndirir və həyatda düzgün mövqe tutmağa çalışırlar.

Nəticə olaraq qeyd etmək olar ki, bədii mətnlər şagirdlərin dialoji nitq bacarıqlarının inkişafında mühüm vasitədir. Bu mətnlər şagirdlərin söz ehtiyatını zənginləşdirir, məntiqi və yaradıcı düşünmə qabiliyyətini inkişaf etdirir, onların sərbəst və ifadəli danışıq bacarıqlarının formalaşmasına şərait yaradır. Buna görə də Azərbaycan dili və ədəbiyyat dərslərində bədii mətnlərin məqsədyönlü və sistemli şəkildə tədrisinə xüsusi diqqət yetirilməlidir.

CƏMİLƏ MƏHƏRRƏMOVA
AMEA Naxçıvan bölməsi
cemilenihatmeherremova@gmail.com
https://orcid.org/0009-0007-4494-1143

MÜASİR OXUCU VƏ BƏDİİ DİL PROBLEMLƏRİ: ÜMUMİ TƏHSİL KONTEKSTİNDƏ

Məqalədə bədii dilin xüsusiyyətləri müasir ümumi təhsil fonunda təhlil edilir. Tədqiqatda qeyd etmişik ki, bədii dil ümumxalq dili əsasında formalaşsa da, şagirdlərin estetik zövqünün formalaşmasında cilalanmış ifadə vasitəsi kimi çıxış edir. Yazıda müasir məktəblinin mütaliə problemləri, dərsliklərdə dilin həddindən artıq sadələşdirilməsinin fəsadları və şagird nitqində fərdiliyin qorunması məsələləri araşdırılır. Qeyd edək ki, yazıçı və pedaqoq canlı danışıq dilini bədii-estetik süzgəcdən keçirərək gənc nəslə ötürməlidir.

Açar sözlər: *bədii dil, ümumi təhsil, müasir şagird, mütaliə mədəniyyəti, estetik tərbiyə*

Giriş. Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı təkcə cəmiyyətin deyil, həm də təhsilalanların düşüncə tərzini köklü şəkildə dəyişmişdir. Bu dəyişikliklər özünü məktəb auditoriyasında daha qabarıq göstərir. Əvvəlki dövrlərin “dərin oxu” vərdişlərinə sahib şagird obrazını bu gün “ekran oxusu”na meylli, qısa və vizual informasiyaya üstünlük verən müasir şagird əvəz edir. Bu keçid bədii ədəbiyyatın tədrisində və bədii dilin qavranılmasında ciddi boşluqlar yaradır.

Bədii dil ədəbiyyatın əsas dayağı olmaqla yanaşı, ümumi təhsildə ana dilinin zənginliyini nümayiş etdirən ən mühüm vasitədir. Lakin bu gün şagirdlərin söz ehtiyatı ilə bədii mətnlərin dili arasında müəyyən bir “uçurum” yaranmaqdadır.

“Çiy” nitq və məktəbli üslubu. Bədii dildə söz həm həqiqi, həm də məcazi məna daşıyır. Pedaqoji prosesdə müşahidə olunur ki, şagirdlər çox zaman bədii mətndəki metaforik mənaları anlamaqda çətinlik çəkir, dili yalnız informativ vasitə kimi qəbul edirlər. Yazıçının “cilalanmış” dili ilə şagirdin gündəlik, çox vaxt slenqlərlə zəngin olan “çiy” nitqi arasındakı fərqi ortadan qaldırmaq təhsilin fundamental vəzifəsidir. Məqalədə qeyd olunan yazıçının dili *ədəbi təhlil süzgəcindən* keçirməsi zərurəti təhsildə şagird nitqinin formalaşması ilə paralellik təşkil edir. Pedaqoji prosesdə bədii dilin həm həqiqi, həm də məcazi məna daşıma imkanları şagirdə sadəcə bir qayda kimi deyil, bir hissiyyat və təfəkkür aləti kimi öyrədilməlidir. Yazıçının yerində işlətmədiyi bir söz dilin gözəlliyini pozduğu kimi, şagirdin də yanlış ifadə seçimi onun mənəvi-estetik dünyasının yoxsulluğuna işarədir.

Dilin sadələşdirilməsi və təhsil standartları. Müasir dərsliklərdə və gənclər üçün nəzərdə tutulan ədəbiyyatlarda dili sadələşdirmə meyli güclüdür. Bu, mətni anlaşqlı etsə də, şagirdin obrazlı təfəkkürünü və estetik duyumunu zəiflədir. Məqalədə vurğulanan *oxucunu itirməmək üçün dili sadələşdirmə* meyli müasir dərsliklərin və gənclər ədəbiyyatının da əsas “tələsinə” çevrilib. Mətni mütləq şəkildə sadələşdirmək, bəlkə də, şagirdin onu daha tez "həzm etməsinə" kömək edir, lakin məqalədə rəssamlıq və rənglər analogiyasında deyildiyi kimi, bədii təsvir vasitələri (metaforalar, epitetlər) olmadan ədəbi təhsil öz mahiyyətini itirir. Dilin həddindən artıq primitivləşdirilməsi şagirdin lüğət ehtiyatını formalaşdırmasını məhdudlaşdırır və onun klassik irsi (Füzulini, Sabiri və ya Mirzə Cəlili) anlamasını qeyri-mümkün edir. Təhsilin vəzifəsi oxucunu dilin səviyyəsinə qaldırmaqdır, dili oxucunun (şagirdin) məhdud lüğət ehtiyatına endirmək deyil.

Dialoq, monoloq və xarakter formallaşması. Bədii əsərdə qəhrəmanın nitqi (dialoq və monoloq) onun hansı mühitdə yaşamasını və mədəni səviyyəsini göstərir. Təhsildə şagirdlər bu modelləri təhlil edərək anlayırlar ki, nitq xarakterin güzgüsüdür. Əgər müasir şagird bədii dildəki fərdiliyi qavraya bilmirsə, o, öz şəxsi nitqində də fərdiliyi qoruya bilməyəcək və “internet dili”nin

şablon konstruksiyaları içində itib batacaqdır. Şagird bədii qəhrəmanın dialoq və monoloqlarını təhlil edərək, həm fərdi xarakterləri tanıyır, həm də öz nitqini fərdiləşdirməyi öyrənir.

Qloballaşma və "internet dili"nin təsiri. Müasir Azərbaycan məktəblisinin dilində alınma ifadələrin və əcnəbi dillərə xarakterik sintaktik konstruksiyaların (məsələn, ingilis dilinin cümlə quruluşu) artması bədii dilin saflığına təhlükə yaradır. Bu, milli ədəbi dil normalarının pozulmasına gətirib çıxarır. İnformasiya texnologiyalarının və internetin gətirdiyi sürət oxucu vərdişlərini dəyişdirdiyi kimi, təhsil dilinə də əcnəbi sintaktik konstruksiyaları və alınma ifadələri daxil edir Publisistik və informativ üslubun bədii dili üstələməsi şagirdlərdə emosional dərinliyin itməsinə səbəb olur. Onlar artıq informasiyanı alır, lakin hadisənin yaratdığı estetik zövqü (obrazlılığı) duya bilmirlər. Bu, məqalədə qeyd olunan *müasir oxucu ilə bədii əsər arasındakı uyğunsuzluq* probleminin təhsil müstəvisindəki təzahürüdür.

Nəticə. Müasir oxucu (şagird) sürət əsrinin övladıdır və onun tələbləri ilə bədii dilin ağırlığı arasında balans tapılmalıdır. Lakin bu balans dilin estetik keyfiyyətləri hesabına olmamalıdır. Ümumi təhsil müəssisələrində bədii mətnlərin təhlili zamanı təkcə məzmuna (süjetə) deyil, ifadə vasitələrinə (formaya) xüsusi diqqət yetirilməli, şagirdlərdə "sürətli oxu" ilə yanaşı, "analitik oxu" vərdişləri inkişaf etdirilməli və eyni zamanda milli dilin zənginliyi bədii nümunələr vasitəsilə şagirdin fərdi nitqinin ayrılmaz hissəsinə çevrilməlidir. Giriş hissəsində qeyd etdiyiniz müasir oxucunun "qısa və konkret informasiya" istəyi ən çox məktəb yaşlı uşaqlarda özünü göstərir. Ümumi təhsildə şagirdlər klassik əsərləri oxuyarkən bədii dilin ağırlığından, təsvir vasitələrinin bolluğundan sıxılırlar. Bu, təhsildə "passiv lüğət ehtiyatı" problemini yaradır. Şagird sözü tanıyır, amma onun bədii yükünü hiss etmir. Bədii mətnlərin dərsliklərə adaptasiya olunmuş (qısaldılmış və sadələşdirilmiş) şəkildə salınması şagirdin estetik zövqünün tam formalaşmasına mane ola bilər.

Təhsildə məqsəd təkcə "nə baş verdiyini" (süjeti) anlamaq deyil, həm də "necə deyildiyini" (üslubu) hiss etmək olmalıdır. Ümumi təhsil müəssisələrində şagirdlərin sosial şəbəkə dilinin təsiri altına düşməsi, əcnəbi sözləri bədii dildən üstün tutması aktual problemdir. Bədii dil problemləri təkcə ədəbiyyatşünaslığın deyil, həm də ümumi təhsil sisteminin aktual məsələsidir. Bu gün orta məktəblərdə şagirdlərin bədii mətni qavramaqda çətinlik çəkməsinin əsas səbəbi, onların vizual və qısa məlumatlara alışmasıdır. Əgər təhsil prosesində şagirdə bədii dilin estetik funksiyası aşılanmazsa, gələcəyin oxucusu obrazlı təfəkkürdən məhrum olacaqdır. Buna görə də, ana dili və ədəbiyyat dərslərində bədii təsvir vasitələrinin sadəcə texniki tərəfi deyil, onların insanın mənəvi dünyasını necə zənginləşdirdiyi ön plana çəkilməlidir. Bədii dilin qorunması məktəb partasından başlayır. Müasir oxucunun (şagirdin) tələblərini nəzərə alıb dili tamamilə "məişətləşdirmək" yox, əksinə, oxucunu o dilin səviyyəsinə qaldırmaq ümumi təhsilin əsas hədəfi olmalıdır. Müasir dövrdə bədii dilin qarşılaşdığı problemlər yalnız ədəbiyyatşünaslıq məsələsi deyil, həm də köklü bir pedaqoji və linqvistik problemdir. Bədii dilin ümumxalq dilindən seçilmiş, cilalanmış forması olması faktı müasir təhsilin təməlində dayanmalıdır. Çünki şagird və tələbə auditoriyası elə həmin "müasir oxucu"dur ki, onun dünyagörüşü informasiya texnologiyalarının təsiri ilə sürət üzərində köklənib.

XURAMAN HACIZADƏ
Babək rayon Xəlilli kənd tam orta məktəbi
Filologiya üzrə fəlsəfə doktoru
xuraman.hacizade4477@gmail.com
https://orcid.org/0009-0003-2328-2629

ORFOEPİK PROBLEMLƏRİN ARADAN QALDIRILMASINDA OYUN VƏ İNTERAKTİV ÜSULLARIN TƏTBİQİ

Məqalədə orfoepiyanın pozulma məqamları haqqında məlumat verilir və tədrisində müasir pedoqoji yanaşmaların, xüsusilə oyun və interaktiv üsulların tətbiqi məsələləri araşdırılır. Düzgün tələffüz bacarıqlarının formalaşmasında şagirdlərin təlimdə birbaşa fəal iştirakının, praktik fəaliyyətlərinin rolu olduqca əhəmiyyətlidir. Oyunlar, ineraktiv fəaliyyətlər şagirdlərdə dərin maraq yaradır, onların yaddasaxlama qabiliyyətini gücləndirir. Nəticədə məlum olur ki, oyun və interaktiv üsullar tətbiq olunduqda düzgün tələffüz vərdişlərinin formalaşması və nitq mədəniyyətinin inkişafı daha uğurlu şəkildə təmin edilir.

Məqalədə müxtəlif oyun nümunələrindən və interaktiv üsullardan bəhs olunur.

Açar sözlər: *Orfoepiya, düzgün tələffüz, oyun metodları, interaktiv təlim, nitq mədəniyyəti*

Orfoepiya düzgün tələffüz qaydalarından bəhs edir. Yazılı nitqimiz xüsusi qaydalar, yəni orfoqrafik qanunlar əsasında qurulduğu zaman düzgün hesab edilirsə, şifahi nitqimiz də orfoepik qaydalara uyğun olarsa, düzgündür. Yazılı ədəbi dilimizin düzgün olmasının vacibliyi qədər ədəbi tələffüzümüz də düzgün olmalıdır.

Azərbaycan dilçiliyində orfoepik qaydaları məzmununa görə dörd qrupa ayırmaq olar:

1. Fonemlərə aid qaydalar.
2. Sözlərin tələffüzünə aid qaydalar.
3. Qrammatik formaların tələffüzünə aid qaydalar.
4. Vurğu və intonasiyaya aid qaydalar.

Çox təəssüf ki, həmişə bu qaydalara əməl olunmur.

Dil müntəzəm olaraq inkişafda olan ictimai hadisədir. Cəmiyyətdə baş verən hadisələr hamı tərəfindən eyni dərəcədə mənimsənilmir. Bundan başqa, dilə müxtəlif peşə və bilik sahibi olan adamlar müraciət etdikləri üçün ünsiyyət prosesində ciddi fərqlər, bəzən də xoşagəlməz hallar meydana gəlir. Nəzarətsizlik və qayğısızlıq üzündən hazırda Azərbaycan orfoepiyasında saysız-hesabsız qüsurlar, təhriflər vardır.

Orfoepik qaydaların pozulması bir neçə səbəbdən olur: dialektlərin ədəbi dilə təsiri, başqa dillərə meyillilik, yaxud əcnəbi sözlərin lüzumsuz yerə işlədilməsi.

Düzgün tələffüz şagirdlərin nitq mədəniyyətlərinin əsas göstəricilərindən biridir. Təlim zamanı şagirdlərin orfoepik qaydaları öyrənmələri, həmçinin həmin qaydaları tətbiq etmələri zəruri məsələdir. Müasir dövrdə məktəb tədrisində orfoepiyanın öyrədilməsi təkcə nəzəri biliklərin verilməsi ilə məhdudlaşmamalı, praktik və yaradıcı fəaliyyətlərlə tamamlanmalıdır. Ənənəvi tədris üsulları, yəni nəzəri qaydaları əzbərlətmə və mexaniki təkrarlama şagirdlərdə uzunmüddətli yaddaş və motivasiya yaratmırdı. Buna görə də oyunların, interaktiv metodların tətbiqi müasir pedaqogikanın vacib istiqamətinə çevrilmişdir.

Şagirdlərin düzgün tələffüz bacarıqlarına yiyələnməsinə nail olmaq üçün təkcə nəzəri qaydaları öyrətmək kifayət etmir. Bu prosesdə şagirdlərin özləri də fəal iştirak etməlidirlər. Bu daha səmərəli nəticə verir. Beləliklə, öyrənmə prosesi həm də bir əyləncəyə çevrilir. Oyun və interaktiv üsullar dərsi maraqlı edir və öyrənmə prosesini sürətləndirir.

Bu metodun bir çox üstünlükləri vardır:

1. Şagirdlərin aktivliyi artır.
2. Dil qüsurlarını aradan qaldırır.
3. Qaydalar şagirdlərin yadında uzunmüddətli qala bilir.

4. Şagirdlərdə kollektiv işləmə bacarığı formalaşdırır.

Müasir təlim prosesində "Sözü düzgün tələffüz et (doğru-yanlış)", "Orfoepia dominosu", "Diksiya marafonu (yanıltmaclar)", "Sehrli mikrofon" kimi maraqlı oyunlar ofoepiyanın tədrisində effektli nəticə verə bilər.

"Sözü düzgün tələffüz et (doğru-yanlış)" oyununda sinif iki komandaya bölünür. Müəllim sözləri gah düzgün, gah da səhv tələffüz edir. Şagirdlər xüsusu kartlarla "dögru" və ya "yanlış" cavabı verirlər. Sürətli reaksiya verən tərəf xal qazanır.

"Orfoepia dominosu"nda kartların bir tərəfinə sözün düzgün yazılışı, digərinə düzgün tələffüzü qeyd olunur. Şagirdlər zəncirvari şəkildə yazılış və tələffüzü bir-birinə uyğunlaşdırırlar.

"Diksiya marafonu (yanıltmaclar)" zamanı çətin tələffüz olunan səslər üçün yanıltmaclar seçilir. Şagirdlər sürət və düzgün tələffüz üzrə yarışırlar. Onu da qeyd edək ki, bu üsul vurğu və intonasiyanı da yaxşı inkişaf etdirir.

"Sehrli mikrofon" üsulunda isə şagirdlərdən biri diktor rolunu oynayır və hər hansı bir mətni oxuyur. Digər şagirdlər isə "orfoepiya eksperti" qismində səhvləri qeyd edirlər. Sonda səhvlər müzakirə olunur və düzgün variant formalaşdırılır.

İbtidai siniflərdə "Səs ovçusu" oyunu da oynamaq olar. Müəllim sözləri tələffüz edir. Şagirdlər fərqli səs (səs uzanması, səs düşümü və s.) eşitdikdə əl çalırlar. Bu fonetik eşitmə qabiliyyətini yaxşılaşdırır.

Yuxarı siniflərdə (10-11-ci siniflər) "Ekspert və diktor" oyunu da effektlidir. Belə ki, bir şagird hər hansı bir publisistik mətni oxuyur. Sinifdəki digər şagirdlər isə onun tələffüzündəki səhvləri qeyd edirlər, sonra isə səhvlər müzakirə olunur. Bunu şagirdlər dərsdən sonra televiziya və radioda müşahidə aparmaqla da həyata keçirə bilərlər.

Tədris prosesində rəqəmsal vasitələrdən də istifadə etmək olar. Belə ki, şagirdlər əvvəlcə bir-birlərinin səslərini elektron vasitələrdən birinə yaza bilərlər. Sonra səsləri dinləyərək səhvləri müəyyənləşdirərlər. Bu da həm əyləncəli, həm də öyrədici oyun-yoldur. Şagirdlərdən televiziya və radioda rastlaşdıqları oproepiya qaydalarına aid qayda pozuntusunu müəyyən etməyi və bununla bağlı şagirdlərə və müəllimlərə məlumatvermə istənilə bilər. Bundan başqa, müəllim şagirdlərə tanınmış aktyorların bədii qiraət nümunələrini dinləmək və düzgün intonasiya xətlərini köçürməyi tapşıra bilər. Bu zaman şagirdlər həm orfoepik qaydalarla bağlı biliklərini dərinləşdirmiş olurlar, həm də onların müşahidə qabiliyyətləri artır. Analiz etməyi yaxşı bacarmış olurlar.

Beləliklə, oyun əsaslı təlim orfepiya dərslərini mexaniki prosesdən canlı ünsiyyət müstəvisinə keçir. Orfoepiyanın oyunlar vasitəsilə tədrisi dərsi quru nəzəriyyədən çıxarıb canlı ünsiyyət müstəvisinə gətirir. Şagirdlər təkcə qaydanı öyrənmir, həm də cəmiyyətdə düzgün və rəvan danışmaq vərdişlərinə yiyələnirlər. Düzgün tələffüz vərdişləri şagirdlərdə nitq mədəniyyətini və özünəinamı artırır. Bu yanaşma şagirdlərin dərsə marağını artırmaqla yanaşı, qorxu, çəkinmə baryerini qırır, öyrənilən qaydaların praktik vərdişə çevrilməsini təmin edir.

Bütün siniflərdə oyunlar və interaktiv üsulların tətbiqi məqsədəuyğundur.

NATAVAN İBRAHİMOVA
AMEA Naxçıvan Bölməsi
Nizami adına Ədəbiyyat İnstitutunun doktorantı
natavanibr.va777@gmail.com

HÜSEYN CAVİD YARADICILIĞININ TƏDRİSİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR

Romantizm ədəbi cərəyanı Azərbaycan ədəbiyyında iyirminci əsrin əvvəllərində yaranıb və inkişaf etmişdir. Müasir tədris metodları klassik irsi yeni metodlarla öyrətməyi tələb edir. Onun əsərlərində Şərq ədəbiyyatıyla yanaşı, həm də Qərb ədəbiyyatının izlərini görürük. Məqalədə XX əsrin əvvəllərində Azərbaycan romantik poeziyasında marş, ballada, sonet, terset kimi Avropa mənşəli yeni lirik janrların mövqeyini, həmin janrda qələmə aldığı əsərlərin ideya-bədii xüsusiyyətlərini araşdırmağı qarşımıza məqsəd qoymuşuq.

Açar sözlər: *Hüseyn Cavid, romantizm, lirik janrlar,metod, tədris*

Azərbaycan romantik poeziyasının görkəmli nümayəndəsi olan Hüseyn Cavidin yardıcılığı milli-mənəvi dəyərlərə və fəlsəfi ideyalara malik xüsusi bir mərhələdir. Müasir dövrdə Cavidin poeziyasını, bir-birindən mükəmməl olan klassik örnəkləri gənc nəslin dünyagörüşünü deyil, həm də fəlsəfi baxış dünyalarının açılmasında xüsusi rol oynadı. Romantik üslubda yazmış sənətkarlarımızın əsərləri ədəbiyyatımızın yüksəlişində çox böyük rol oynamışlar. Həm xalq-aşıq şeirindən və klassik lirika ilə bağlı janrlarada bacarıqla yazıb-yaradan romantizm cərəyanının nümayəndələri Avropa mənşəli yeni poetik formalarda da dolğun sənət axtarışları aparmışlar. Xüsusiylə vurğulamaq lazımdır ki, romantiklərin ədəbiyyatımıza gətirdiyi yeni Avropa mənşəli poetik janrlar şairlərin novatorluq axtarışlarının nəticəsi idi.

Azərbaycanın ən böyük söz ustadlarından biri də Hüseyn Cavid (1882-1941) olmuşdur. Romantik şairin xüsusi bir istedadla yazdığı şeirləri ədəbiyyatımızın əvəzsiz inciləri sırasına daxildir və ədəbiyyatımızın ideya-bədii yüksəlişinə əvəzsiz töhfələr vermişdir. “Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 fevral 2012-ci il tarixli Sərancamında qeyd olunduğu kimi: “Hüseyn Cavid dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir mərhələnin başlanğıcını qoymuşdur”.

Azərbaycan ədəbiyyatında romantizm cərəyanının ən böyük nümayəndəsi Hüseyn Cavid olmuşdur. Azərbaycan ədəbiyyat tarixindən bizə məlumdur ki, romantizmin ən qüdrətli nümayəndəsi olan Hüseyn Cavid Azərbaycan ədəbiyyatına soneti, marşı, terseti və ballada janrını gətirmişdir. İsa Həbibbəyli H.Cavidin poeziyaya yeniliklər gətirən novator şair olmasını açıqlayaraq, ədibin “həm əruz, həm də heca vəznlərində” yazıb-yaratmasına aydınlıq gətirmiş, “hər iki vəznə yaradıcı münasibət” bəslədiyini qeyd edərək, həmin vəznlərə “əsaslı keyfiyyət” dəyişiklikləri gətirməsi amilini də qabartmışdır.

Ədəbiyyatımızda marş janrının təşəkkülündə Hüseyn Cavidin xüsusi xidmətləri olmuşdur. Bu şeir növü gənclər arasında milli ruhu, vətənpərvərlik hissini təbliğ edir. Görkəmli sənətkarımız 1912-ci ildə “Maral” pyesinin daxilində Osmanlı şairi Mehmet Emin Yurdaqulun milli ruhda yazdığı “Anadoluda bir səs, yaxud cəngə gedərkən şeirindən bir neçə misranı daxil etmişdir. Romantik şairi 1916-ci ildə yazdığı “Şeyda” pyesinin daxilinə də marşlar daxil etmişdir. Bu da əsərin mövzusu ilə birbaşa bağlıdır. Yəni həmin marşlar insanları azadlıq üçün mübarizəyə səsləyirdi. “İblis” əsəri daxilində marş janrına müraciət olunmuşdur.

Dahi romantik şair Hüseyn Cavidin “Çəkinmə, gül!, “Mən istərəm ki” şeirlər də sonet janrına parlaq nümunələrdir. “Çəkinmə, gül! sonetində şairin nikbin düşüncələrini, saf sevgi hisslərini, humanist duyğularını görə bilirik. Professor Hüseyn Həşimli yazırdı: “Mən istərəm ki! Sonetinin romantizmin xarakterinə uyğun olaraq realla idealın, gerçəkliklə xəyali aləmin, yaxınla uzağın poetik nisbəti və qarşılaşması ön planda dayanır”. “Təşəkkül dövrünün sonetlərinin hamısı əruz vəznində yazılıb, ənənəvi bədii təsvir və ifadə vasitələrinə də xali deyil”.

Dünya ədəbiyyatında tersetin ilk nümunələri italyan ədəbiyyatında yaranmışdır. Azərbaycan ədəbiyyatınada sonetin gəlişi iyirminci əsrdə romantiklərlə bağlıdır. Romantik şair Hüseyn Cavid Azər poemasının daxilində terset janrına müraciət etmişdir. Terset 12 misralıq şeir şəklidir.

Nəticə. Aparılan təhlillər göstərir ki, XX əsrin əvvəllərində Azərbaycan romantik poeziyası ədəbiyyatımıza diqqətəlayiq yenilik, novatorluq gətirmişdir. Avropa janrından ədəbiyyatımıza daxil olan bu poetik janrlar ədəbiyyatımızın yüksəlişinə xidmət etmiş və romantik şairlərin yaratdıqları yeni poetik örnəklər söz sənətimizin qiymətli nümunələri siyahısına daxil olmuşdur. Bu janrların yeni tədrisində müəllif şeirin poetik quruluşunu, qafiyəlmə sistemini verməli, mətnaltı mənanı – yəni fəlsəfi məzmunu açmalı, izah etməlidir. Əsərlərlərdən balaca bi hisənin səhnələşdiriləsidə müsbət nəticə verə bilər. Avropa lirikjanrlarının tədris prosesi şagirdlərin dünya görüşünü genişləndirir, klassik ədəbiyyata maraq artırır və estetik dünyagörüşlərinin inkişafına təsir edir.

PANEL 10. XARİCİ DİLLƏRİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

FİRUZƏ RZAYEVA
Azərbaycan Dillər Universiteti
Pedaqogika elmləri doktoru, dosent
fira_350@mail.ru

İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI TƏLƏBƏLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİ YOLLARI

Təhsil prosesinin əsas məqsədlərindən biri təkcə elmli adam yetişdirməkdən ibarət deyildir, həm də zəngin mənəviyyata, yüksək mədəniyyətə, təşkilatçılıq bacarığına malik mütəxəssislər yetişdirməkdə buraya daxildir. Bu baxımdan, müstəqil işlərin imkanları çox genişdir. Deməli, müstəqil işlər məzmun dairəsinə, təşkil etmə üsullarına, iş forma və tərzlərinə görə tərbiyəvi xarakter özündə əks etddirməlidir. Bu, tələbə müstəqil iş təşkilinin mühüm prinsiplirindən biri kimi hesab edilir.

***Açar sözlər**: ingilis dili, ingilis dilinin tədrisi, ali məktəblər, müstəqil iş, müstəqil işin təşkili*

Tələbələrin müstəqil işinin səmərəliliyini təmin edən prinsiplərdən biri də vaxt bölgüsünün düzgün təmin olunmasından ibarətdir. Tədqiqatlar göstərir ki, bəzən tələbələr müstəqil işləmək prinsiplərinə bələd olmadıqlarından vaxt itkisinə yol verir, ehtiyac duyulmayan istiqamətdə enerji sərf edir və lazımi nəticəyə nail ola bilmirlər. Məhz, bu səbəbdən də, müstəqil işə maraq və həvəs azalır, onun icrası cəhdi sıfıra enir. Ya tələbə təhsil fəaliyyətini azaldır, məcburiyyətdən işi həyata keçirir, lakin bu zaman bir sıra məqamları unudaraq fərqli istiqamətdə proses davam edib vaxt itkisinə də yol verir.

Müstəqil iş tələbələrə bilik sistemləşdirməyə, təkminləşdirməyə, möhkəmləndirməyə, ixtisası üzrə nəzəri biliklərini və praktik bacarıqlarını daha da genişləndirməyə, müəyyən elmi-texniki, iqtisadi, istehsal və bir sıra bu kimi məsələləri həll etməyə imkan verir, onlarda müstəqil işləmə bacarığını inkişaf etdirir, elmi-tədqiqat metodlarından istifadə etmək və eksperiment aparmaq qabiliyyətini daha da zənginləşdirir.

Hazırda bir çox ali təhsil müəssisələrində tələbələrin fəallığı və müstəqilliyi hərtərəfli inkişaf etmiş şəxsiyyətin ən vacib komponentləri, təhsilin vacib bir məqsədi kimi qəbul edilir. Bu, müəyyən bir miqdar bilik əldə etməklə kifayətlənməyən, bilik və bacarıqlarını daim artırmağa və təkmilləşdirməyə hazır olan gənc mütəxəssisə artan tələblərlə şərtlənir.

Müstəqil iş sistemi əsas didaktik vəzifələrin həllinə - tələbələrin dərin və davamlı biliklərə yiyələnməsinə, idrak qabiliyyətlərinin inkişafına, bilikləri müstəqil əldə etmək, genişləndirmək və dərinləşdirmək bacarığının formalaşmasına və praktikada tətbiq olunmasına kömək etməlidir.

Müstəqil iş sistemi didaktikanın əsas prinsiplərini və hər şeydən əvvəl əlçatanlıq və sistemlilik prinsiplərini, nəzəriyyə ilə praktika, şüurlu və yaradıcı fəaliyyətlə əlaqəni və yüksək elmi səviyyədə tədris prinsipini təmin etməlidir.

Əsas didaktik məqsədə görə təsnif edilən müstəqil işləri nəzərdən keçirək:

– Yeni biliklər əldə etmək və müstəqil olaraq bilik əldə etmək bacarıqlarına yiyələnmək, dərsliklə işləmək, müşahidələr və təcrübələr aparmaq, analitik və hesablama xarakterli əsərlər əsasında həyata keçirilir;

– Biliklərin möhkəmləndirilməsi və dəqiqləşdirilməsi, anlayışların əlamətlərini, məhdudlaşdırılmasını və vacib xüsusiyyətləri vacib olmayanlardan ayırmağı aydınlaşdırmaq xüsusi bir təlim sisteminin köməyi ilə əldə edilir;

– Bilikləri praktikada tətbiq etmək qabiliyyətinin inkişafı müxtəlif tipli prob-lemlərin həlli, problemlərin ümumi formada həlli, təcrübə işi və s. vasitəsilə yerirnə yetirilir;

– Yaradıcı bacarıqların formalaşması inşa, referat yazarkən, hesabat hazırlayarkən, problemlərin yeni həlli yollarını, təcrübə üçün yeni variantları axtararkən tapşırıqlar verildikdə əldə

edilir.

Müstəqil iş anlayışının çoxşaxəli təbiəti müxtəlif meyarlara əsaslanan bir çox təsnifatlarla da təsdiqlənir: Müstəqil işlər didaktik məqsədə görə, bilik mənbələrinə görə, tapşırıqların növünə görə müxtəlif qruplara bölünür. Bu onu göstərir ki, bu günə qədər tədqiqatçılar bu konsepsiyanın xarici və daxili tərəflərini nəzərə alan müstəqil iş növlərinin universal təsnifatını yarada bilməmişlər. Lakin bəzi müəlliflər, xüsusən O.A.Nilson müstəqil işin xarici, təşkilati atributlarına əsaslanan ən mükəmməl təsnifatını işləyib hazırlamışdır.

Müstəqil iş gələcək mütəxəssisin şəxsiyyətinin formalaşmasına təsir göstərir, həmçinin müstəqil iş tələbələrin öyrənmə işində koqnitiv fəaliyyəti həyata keçirmələrinə imkan yaradır. Tələbə müstəqil işində vaxtdan dolğun istifadə və lazımsız fiziki yorğunluğa zehni yol verilməməsi prinsipini yeni bir prinsip - tələbə əməyinin elmi təşkili prinsipini aşkara çıxarır. Tələbənin təlim fəaliyyətini elmi əsaslarla qurmadan nə nəticə səmərəliliyi və məqsəd ardıcıllığını təmin etmək, nə də tələbənin məqsədəuyğun əmək qabiliyyətinin inkişafına nail olmaq mümkün hesab edilir. Tələbə müstəqil işlərinin təşkili prinsiplərindən biri də müstəqil fəaliyyət prosesdir. Bunu belə açıqlamaq olar ki, müstəqil işin icrası zamanı tələbə elmi informasiyaları axtarıb tapa bilir, bu və ya digər fikri, ideyanı əsaslandırır, idrakı fəallıq göstərir, başqa müəllifin fikrini təkrar etmir, icrasının tam yeni, orijinal yolunu və özünəməxsusu tərzini tapır. Bir sözlə, müstəqil işlər tələbənin tam elmi-praktiki xüsusiyyətlərini formalaşdırır. Tələbədə müstəqil elmi-pedaqoji işləri aparmaq imkanları geniş vüsət alır, müvafiq bacarıq və qabiliyyətlər təkminləşir.

Azərbaycan təhsilinin modernləşdirilməsi müstəqil iş həcminin rolunun artmasını təmin edir. Tələbələrdə, ilk növbədə universitetdənkənar müstəqil iş prosesində müvafiq bacarıqlar formalaşdırılmalı və nəticədə onlar sistemləşdirilmiş biliklərin əsaslarını mənimsəməlidirlər.

Müasir metodikada tələbələrin müstəqil işlərinin təşkilinə kompleks yanaşma prinsipini irəli sürür. Fərdi yanaşma prinsipi dedikdə, tələbələrin motivasiya edilməsi nəzərdə tutulur. Bu zaman müstəqil işi yerinə yetirərkən hər bir tələbənin bilik səviyyəsi, təcrübəsi, tələbləri, dünyagörüşü fərdi-şəxsi keyfiyyətləri və maraq dairəsi nəzərə alınır.

İngilis dilini öyrənmə prosesində təhsilalanların müstəqil iş bacarıq və vərdiş-lərinin formalaşması texnologiyası müəllimlə tələbənin qarşılıqlı fəaliyyəti olub, danışıq fəaliyyətinin (dinləmə, oxumaq) reseptiv tiplərinin bacarıq və qabiliyyətlərinin formalaşmasına yönəldilmişdir.

Metodik ədəbiyyatlarda tələbələrin müstəqil işlərinin artan əhəmiyyətinin aşağıdakı əsas səbəbləri aşkara çıxarılmışdır:

– elmi məlumatların sürətli artması;

– təhsil məlumatlarını ən yüksək səviyyədə təmin etmək;

– müasir mütəxəssisin şəxsiyyət keyfiyyətlərinin formalaşması və inkişafı: müstəqillik, fəaliyyət, inandırma və s.

Beləliklə, ali təhsil müəssisələrində xarici dilin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin metodoloji əsaslarını tədqiq edərkən elmi nəzəri ədəbiyyatlarda bu xüsusda qeyd edilən aşağıdakı mülahizələrin doğru olması qənaətinə gəlirik:

– ali məktəbin tədris planına daxil edilmiş auditoriya və aıiditoriyadankənar müstəqil işlər tələbələrin idrak fəallığını artırır, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, onlarda tədqiqatçılıq səriştəsi formalaşdırır, peşə-ixtisas hazırlığını təmin edir. Müstəqil iş tələbəni özünütəhsil, özünütərbiyə və özünütəkmilləşdirmə fəaliyyətinə təhrik edir, davamlı, "ömürboyu" təhsilə aparan yol kimi hesab edilir.

– tələbə müstəqil işləri məqsədyönlü, sistemli, mütəmadi, ardıcıl və müqayisəli təşkil olunduğu təqdirdə səmərəli və məhsuldar yerinə yetirir.

– ali məktəbdə müstəqil işin müxtəlif formaları varislik əsasında vəhdət təşkil etdikdə daha uğurlu əldə edilir.

– tələbə müstəqil işinin təşkili zamanı keyfiyyəti təmin etmək məqsədilə müvafiq fizioloji, tibbi, sosial, pedaqoji, psixoloji, didaktik, metodik qaydalara əməl olunmalıdır.

– tələbə müstəqil işinin səmərəli təşkili və keyfiyyətli icrası ali təhsil müəssisəsinin professor-müəllim heyətindən, icraçı rəhbərdən, onun iaqnozlaşdırıcı, proqnozlaşdırıcı fəaliyyətindən, tələbəni müvafiq istiqamətə yönəltmək məharətindən, ustalığından öyrənənlə əməkdaşlıq etmək

qabiliyyətindən çox asılıdır, ali məktəbdə təlim-tərbiyə fəaliyyətində olduğu kimi, tələbə müstəqil işinin təşkilində də əsas “yük” istiqamətçi - müəllimin üzərinə düyür. İstiqamətçi - müəllim tələbəyə hazır bilik “vermir”, biliyi müstəqil surətdə əldə etməyi göstərir, gələcək davamçılarında elmə, tədqiqatçılığa, axtarıcılığa həvəs və meyl yaradır, elmdə təsdiqini tapmış gerçəklikləri araşdırmağı bacaran gənclər yetişdirir, yalnız peşəkar mütəxəssis deyil, yaradıcı ixtisasçı formalaşdırır və bu mürəkkəb quruluşda təlim-tərbiyənin, ələxsusda müstəqil işin lazımi imkanlarından, növlərindən, metod üsullarından və formalarından istifadə etməyin öhdəsindən gəlir.

İngilis dilinin öyrənilməsi prosesində tələbələrin müstəqil işinin təşkili aşağıdakı xüsusiyyətlərdən qaynaqlanır: dil mühitinin yaradılması; ingilis dili fəaliyyətinin bütün növlərinin paralel inkişafı: danışma, oxumaq, yazmaq, dinləmək; hər növ yaddaşın aktivləşdirilməsi və s.

FƏRİDƏ HÜSEYNOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
feridehuseynova21@gmail.com
https://orcid.org/0000-0002-0250-3467

TƏLƏBƏLƏRİN İNGİLİS DİLİ BACARIQLARININ QİYMƏTLƏNDİRİLMƏSİNDƏ SÜNİ İNTRELLEKTİN ROLU

Məqalə ingilis dilinin tədrisində süni intellektin (Sİ) rolunu araşdırır. Məqalədə süni intellektin effektivliyi və auditoriyada tətbiqi zamanı qarşıya çıxan maneələr vurğulanır. Məlumdur ki, süni intellekt alətləri dilin tədrisini optimallşadırmış, müəllimlər öz rollarını yenidən nəzərdən keçirməyə cəlb edilmişdir. İngilis dilinin tədrisində süni intellektin rolu fərdiləşdirilmiş öyrənmədəi, formativ qiymətləndirmədə və tələbələrin iştirakı zamanı yeni metodları təşviq edir.

Açar sözlər: *ingilis dilinin tədrisi, süni intellekt, optimal mühit*

Giriş

1. İngilis dilinin tədrisində süni intellektin istifadəsinin məqsədi

Son tədqiqatlar sübut edir ki, süni intellekt artıq innovativ bir anlayış deyil; o, gündəlik həyatımızın vacib bir hissəsinə çevrilib və 21-ci əsrin ən transformativ texnologiyalarından biri kimi ortaya çıxıb. İngilis dilinin müasir tədrisində gedən dəyişikliklər göstərir ki, süni intellektin istifadəsi yeni transformativ bir zərurətdir. Bundan əlaəv, süni intellektin tədris və öyrənmənin məzmununa daxil olması və həyata keçirilməsi yeni səriştələr tələb edir.

Əsasən, tələbə mərkəzli yanaşmanın təkmilləşdirilməsi üçün süni intellektlə işləyən alətlərdən istifadəyə əsaslanan intellektual kompüter dəstəkli dil öyrənməsi, süni intellekt dil öyrənməsinin inkişafına təkan vermişdir. Süni intellekt texnologiyaları illər ərzində tələbələri motivasiya etmək, əlçatanlığı yaxşılaşdırmaq və tədris və öyrənmənin səmərəliliyini artırmaq üçün tədrisə inteqrasiya edilmişdir.

Süni intellekt texnologiyaları ingilis dilinin tədrisində müxtəlif tədris və təlim materialları təqdim edir.

Adaptiv təlim: Süni intellektinin əsas töhfələrindən biri fərdiləşdirilmiş öyrənmə təcrübələri təqdim etmək qabiliyyətidir. Ənənəvi əyani dərslər müxtəlif təcrübə və idrak bacarıqlarına malik tələbələrin fərqli ehtiyaclarını ödəmək üçün daim mübarizə aparır. Süni intellekt bu boşluğu tələbələrin səmərəliliyini araşdıran, müsbət və mənfi cəhətlərini müəyyən edən və irəliləyişi təmin etmək üçün məzmun tempini, mürəkkəbliyini və tədris texnikalarını tənzimləyir.

1.2. İngilis dilinin qiymətləndirilməsində süni intellektin rolu

Süni intellekt ingilis dilinin qiymətləndirilməsində yazı və danışıq üzrə ani, avtomatlaşdırılmış qiymətləndirmə təmin etmək, müəllimlərin iş yükünü azaltmaq və qiymətləndirmə tezliyini artırmaq üçün istifadə edilə bilər. Bu, çətinliyi dinamik şəkildə tənzimləyən, ani rəy verən və danışıq qiymətləndirməsi üçün çatbotlardan istifadə edən fərdiləşdirilmiş adaptiv testlərə imkan verir.

İngilis dili qiymətləndirməsində süni intellektin əsas rollarına aşağıdakılar daxildir:

Avtomatlaşdırılmış qiymətləndirmə və rəy: Süni intellekt alətləri yazı və nitqi qiymətləndirir, qrammatika, səlislik və tələffüz üzrə ani rəy təklif edir və daha sürətli qiymətləndirmə dövrlərinə imkan verir.

Adaptiv test: Platformalar testlərin məzmununu tələbənin bacarıq səviyyəsinə uyğunlaşdırmaq üçün süni intellektdən istifadə edir ki, onlar qiymətləndirmələri çox asan və ya çox çətin hesab etməsinlər, onları cəlb edir və narahatlığı azaldır.

İnteraktiv qiymətləndirmə: Süni intellekt çatbotları real həyatda danışıq vəziyyətlərini simulyasiya etmək və müəllimlərə təhlükəsiz və nəzarətli mühitlərdə danışıq bacarıqlarını qiymətləndirməyə imkan vermək üçün istifadə olunur.

Tapşırıqlar yaratmaq: Süni intellekt müəllimlərin vaxtına qənaət edərək oxumaq, yazmaq və lüğət üçün test tapşırıqları yaratmağa kömək edir.

Nəticə. Belə bir nəticəyə gəlmək olar ki, süni intellekt ingilius dilinin tədrisndə müasir yanaşma kimi fərdiləşdirilmiş öyrənmə yolları, ani rəy, daha çox qiymətləndirmə təcrübəsi və daha da əhəmiyyətlisi, daha yaxşı öyrənən iştirakı təmin etmək kimi böyük üstünlüklərə malikdir. Süni intellektin ingilis dilinə uğurlu inteqrasiyası, innovasiyanın təhsil təcrübəsinin keyfiyyətini artırmasını təmin etmək üçün təhsil işçiləri, texnoloqlar və siyasətçilər də daxil olmaqla, təhsildəki bütün maraqlı tərəflərin birgə səylərindən asılı olacaq və eyni zamanda inklüzivliyi, etik narahatlıqları və peşəkar inkişafı təşviq edəcək.

BƏYİM TARVERDİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
BayimTarverdiyeva@nmi.edu.az

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ İNGİLİS DİLİ FƏNNİNİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİNƏ DAİR

Müasir dövrdə ingilis dili beynəlxalq ünsiyyət vasitəsi kimi böyük əhəmiyyət daşıyır və bu səbəbdən onun keyfiyyətli tədrisi vacib məsələlərdən biridir. Əsas problemlər kimi müəllimlərin peşəkar hazırlıq səviyyəsinin bəzən yetərli olmaması, dərslik və metodik vəsaitlərin müasir tələblərə tam cavab verməməsi, şagirdlərin danışıq bacarıqlarının zəif inkişaf etməsi və texnoloji imkanlardan kifayət qədər istifadə edilməməsi göstərilə bilər. Eyni zamanda siniflərdə şagird sayının çox olması, motivasiya çatışmazlığı və praktiki dil mühitinin olmaması da tədrisin keyfiyyətinə mənfi təsir edən amillər kimi vurğulanır.

Açar sözlər: *dil mühiti, kommunikativ yanaşma, müəllim hazırlığı, audio-vizual resurslar*

Uzun illər ərzində istifadə olunan köhnə dərsliklər artıq müasir kommunikativ standartlara cavab vermir. Yeni nəsil "Game Changer" dərslik komplekti tətbiq edilməyə başlanılıb, lakin onun məktəblərə adaptasiyası və müəllimlər tərəfindən səmərəli istifadəsi hələdə tam təmin edilməyib. Tədris hələ də çox vaxt qrammatika və tərcümə üzərində qurulur. Dinləmə, danışıq, oxu və yazı bacarıqları bütöv şəkildə ölçülmür. Bu da dilin praktik istifadəsində şagirdlərin çətinlik çəkməsinə səbəb olur. Bir çox məktəblərdə xarici dil resursları, audio-video vasitələr və müasir tədris texnologiyaları çatışmır. Bu, interaktiv və kommunikativ dərs metodlarının tətbiqini məhdudlaşdırır. Tədrisin maraqlı və praktik yönümlü olmaması, eləcə də imtahan sisteminin kommunikativ bacarıqları qiymətləndirməməsi nəticəsində şagirdlərdə ingilis dilinə qarşı motivasiya azalır.

Qeyd olunan problemlərin həlli üçün əsas istiqamətlər bunlardır: müəllim hazırlığı və peşəkar inkişaf proqramlarının gücləndirilməsi, dərs saatlarının artırılması və kurikulumun dörd bacarıq prinsipinə uyğunlaşdırılması, müasir dərslik və texnologiyaların effektiv tətbiqi, qiymətləndirmənin beynəlxalq standartlara uyğun aparılması, şagird motivasiyasını artıran praktik yönümlü metodların tətbiqi.

Dil tədrisinin keyfiyyətini artırmaq üçün müxtəlif yanaşmalar və metodlar mövcuddur. Əsas məqsəd şagirdlərin dili yalnız nəzəri deyil, praktik şəkildə mənimsəməsini təmin etməkdir. Dil tədrisində keyfiyyətin əldə olunması üçün aşağıdakı üsullar xüsusilə effektiv sayılır:

1. Kommunikativ yanaşma- dərslərdə əsas diqqət danışıq və ünsiyyət bacarıqlarının inkişafına yönəldilməlidir. Dərs prosesində şagirdlər real həyat situasiyalarını canlandıraraq dili aktiv istifadə etməlidirlər;

2. İnteraktiv metodlardan istifadə - qrup işləri, debatlar, rollu oyunlar və müxtəlif mövzularda təşkil edilmiş müzakirələr şagirdlərin dərsdə aktiv iştirakını artırır və öyrənməni daha maraqlı edir;

3. Texnologiyanın tətbiqi - mobil tətbiqlər, onlayn platformalar, videolar və interaktiv oyunlar dil öyrənmə prosesini daha effektiv və əlçatan edir;

4. Fərdiləşdirilmiş tədris - hər bir şagirdin səviyyəsi və öyrənmə tərzi fərqlidir. Buna görə də, müəllimlər tərəfindən fərdi yanaşma tətbiq edilməli, təhsil alanların zəif və güclü tərəfləri nəzərə alınmalıdır;

5. Daimi qiymətləndirmə - müntəzəm testlər və şifahi qiymətləndirmə şagirdin inkişafını izləməyə kömək edir. Qiymətləndirmə ilə bağlı düzgün və vaxtında verilən məlumat motivasiyanı artırır;

6. Dil mühitinin yaradılması - sinifdə mümkün qədər hədəf dildə danışmaq, əlavə olaraq film, musiqi və kitablar vasitəsilə dil mühiti yaratmaq vacibdir;

7. Müəllimlərin peşəkar inkişafı – fənn müəllimləri yeni metod və texnologiyalarla tanış olmalı, davamlı olaraq təlim və seminarlarda iştirak etməlidirlər;

8. Motivasiya və marağın artırılması – dərs prosesində şagirdlərin maraq dairəsinə uyğun mövzular seçilməlidir.

Yuxarıda qeyd olunan üsulların birlikdə və sistemli şəkildə tətbiqi dil tədrisinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

Dil dərslərində şagirdlər ilk gündən danışmağa təşviq olunmalıdır. Sadə sual-cavablar, gündəlik ifadələr və dialoqlar əsas rol oynamalıdır. Qrammatikanın tədrisi yalnız bu prosesə dəstək kimi verilməli, əsas məqsəd olmamalıdır. **Gündəlik mövzular üzərində dərs quran zaman m**övzular real həyatdan seçilməlidir: alış-veriş, səyahət, sosial media, iş müsahibəsi və s. Bu, dili daha praktik yönümlü və istifadə edilə bilən edir. Dərs zamanı müəllim və şagirdlər maksimum dərəcədə ingilis dilində danışmalıdır. Çətin hallarda ana dilində qısa izah verilə bilər, ancaq ümumi dil mühiti ingilis dilində təşkil olunmalıdır. Şagird səhv edəndə dərhal dayandırmaq əvəzinə, nitq bitdikdən sonra düzəliş etmək daha effektivdir. Bu, danışıq qorxusunu azaldır. **Dinləmə bacarığının inkişaf etdirmək üçün müxtəlif audio-vizual resurslar istifadə edilə bilər.** Bu resurslar şagirdlərin tələffüz və anlama qabiliyyətini gücləndirir. Yeni sözlər ayrı-ayrılıqda deyil, cümlə və situasiya daxilində öyrədilməlidir. Öyrənilən söz və ifadələr mütəmadi olaraq təkrar edilməlidir. Bunun üçün rəqəmsal tətbiqlər istifadə oluna bilər. **Yazı bacarığının inkişaf etdirmək üçün** müxtəlif yazı nümunələri yazdırmaq faydalıdır. Bu, həm qrammatikanı, həm də düşünmə bacarığını inkişaf etdirir. Fənn üzrə təşkil olunmuş müxtəlif yarışlar, viktorinalar şagirdlərin marağını artırır və öyrənməni əyləncəli edir.

HƏYAT ƏLİYEVA
Babək rayon Cəhri qəsəbəsi 1 №li tam orta məktəb
Fransız dili müəllimi
aliyevahayat2@gmail.com

FRANSIZ DİLİNDƏ FELİN KEÇMİŞ ZAMAN NÖVLƏRİNİN ÖYRƏNİLMƏSI ZAMANI TƏHSİLALANLARIN QARŞILAŞDIQLARI ÇƏTİNLİKLƏR

Məqalədə xarici dil öyrənənlərin fransız dilində keçmiş zaman formalarını öyrənərkən qarşılaşdıqları qrammatik və semantik çətinliklər araşdırılır. Passé composé, imparfait və digər zaman formalarının istifadəsi təhlil edilir, ana dilinin təsiri və effektiv tədris metodlarının əhəmiyyəti müəyyənləşdirilir.

Açar sözlər: *fransız dili, keçmiş zaman, dilöyrənənlər, passé composé, passé simple, imparfait*

Giriş. Müasir dövrdə xarici dillərin öyrənilməsi təhsil sisteminin əsas istiqamətlərindən birinə çevrilmişdir. Xüsusilə fransız dili beynəlxalq münasibətlər, elm, mədəniyyət və təhsil sahəsində mühüm yer tutur. Lakin fransız dilinin qrammatik sistemi, xüsusilə fel zamanları xarici dil öyrənənlər üçün müəyyən çətinliklər yaradır. Bu çətinliklər arasında keçmiş zaman formalarının mənimsənilməsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dilini ana dili kimi danışan ali məktəb tələbələri və şagirdlər üçün fransız dilindəki keçmiş zaman növlərinin semantik və qrammatik fərqlərini anlamaq bəzən mürəkkəb prosesə çevrilir.

Fransız dilində *passé composé, imparfait, plus-que-parfait və passé simple* kimi müxtəlif keçmiş zaman formalarının mövcudluğu dilöyrənənlərdə qarışıqlıq yaradır. Bu zaman formalarının hər biri fərqli məna və üslubi xüsusiyyət ifadə edir. Ana dilində belə geniş zaman sistemi olmayan öyrənənlər üçün həmin formaların düzgün seçilməsi və istifadəsi ciddi problemlər doğurur.

Fransız dilində keçmiş zamanların öyrənilməsi zamanı ən çox rast gəlinən problemlərdən biri *passé composé* və *imparfait* zamanlarının fərqləndirilməsidir. Passé composé fransız dilində ən çox istifadə olunan zaman formasıdır və keçmişdə baş vermiş hadisələri təsvir etmək üçün istifadə olunur. Benveniste-in fikrincə, "passé composé tamamlanmış hadisələri və konkret zaman nöqtəsində baş vermiş hadisələri təsvir etmək üçün istifadə olunur". İmparfait isə keçmişdə davam edən vəziyyəti, vərdişi və ya hadisənin fonunu göstərir. Xarici dil öyrənənlər çox vaxt bu iki zamanın istifadə sahələrini qarışdırırlar. Məsələn: *J'ai regardé un film* – "Mən filmə baxdım. *Je regardais un film* – "Mən filmə baxırdım".

Birinci cümlədə hərəkətin tamamlanması, ikinci cümlədə isə prosesin davam etməsi ifadə olunur. Azərbaycan dilində bu fərqlər əsasən kontekst vasitəsilə müəyyənləşdiyi üçün tələbələr və şagirdlər fransız dilində zaman seçərkən çətinlik yaşayırlar.

Digər mühüm problemlərdən biri passé composé zamanının düzəldilməsi üçün köməkçi fellərin düzgün seçilməsidir. Fransız dilində bu zaman "avoir" və "être" köməkçi felləri ilə düzəlir. Hər bir felin hansı köməkçi feil ilə işlənməsini yadda saxlamaq tələbələr üçün çətin olur. Xüsusilə être feli ilə işlənən fellərdə səhvlər daha çox müşahidə edilir. Məsələn: *Je suis allé à l'école.- Mən məktəbə getdim. Elle a mangé une pomme.- O bir alma yedi.*

Birinci cümlədə "être", ikinci cümlədə isə "avoir" köməkçi felindən istifadə olunmuşdur. Azərbaycan dilində belə bir sistem olmadığı üçün tələbələr və şagirdlər bu qaydanı tez-tez pozurlar.

Keçmiş zamanların öyrənilməsində participe passé formasının uzlaşması da xüsusi problem yaradır. M.Əsgərovanın da qeyd etdiyi kimi: "Être" köməkçi feli ilə işlənən fellərdə participe passé mübtəda ilə cinsə və kəmiyyətə görə uyğunlaşır". Məsələn: *Elle est arrivée.- O gəlib çatdı. Ils sont partis.- Onlar yola düşdülər.* Dilöyrənənlər çox vaxt bu sonluqları unudur və ya səhv yazırlar. Bunun əsas səbəbi Azərbaycan dilində belə qrammatik uyğunluğun olmamasıdır.

Fransız dilində *passé simple* zamanının mənimsənilməsi də xarici dil öyrənənlər üçün mürəkkəbdir. Bu zaman forması əsasən bədii ədəbiyyatda və tarixi mətnlərdə işlədilir. Danışıq dilində az istifadə olunduğu üçün şagirdlər onu həm tanımaqda, həm də tərcümə etməkdə çətinlik çəkirlər. Məsələn: *Il entra dans la salle.-O otağa daxil oldu. Vous fîtes.- Siz etdiniz.* Nümunələrdən də

göründüyü kimi *p*assé simple zamanın düzəldilməsi zamanı feillərin şəxs sonluqlarının aid olduqları qrupa və şəxslərə görə dəyişməsi bu zaman formasının öyrənilməsini mürəkkəbləşdirir.

Fransız dilində feillər 3 qrupa bölünür : I, II, III qup feillər. Hər qrupa məxsus feillərin feli sifət forması fərqlidir. Xüsusilə III qrup feillər kökündən dəyişir. Bu da onların yadda saxlanmasını və öyrənilməsini çətinləşdirir. Buradan aydın olur ki, passé composé və pasé simple zamanının mənimsənilməsi imparfait zamanı ilə müqayisədə daha da çətindir.

Fransız dilində keçmiş zamanların düzgün istifadəsinə ana dilinin təsiri də böyük rol oynayır. Bu hadisə dilçilikdə “interferensiya” adlanır. Azərbaycan dili ilə fransız dilinin qrammatik quruluşu fərqli olduğundan tələbələr və şagirdlər ana dilinin qaydalarını fransız dilinə tətbiq etməyə çalışırlar. Nəticədə zaman seçimi zamanı semantik və qrammatik səhvlər meydana çıxır. Keçmiş zamanların öyrədilməsi zamanı yalnız nəzəri qaydaların izahı kifayət etmir. Praktik çalışmalar, kommunikativ fəaliyyətlər və kontekstual tapşırıqların tətbiqi daha səmərəli nəticə verir. Müxtəlif dialoqların qurulması, mətn təhlilləri, dinləmə fəaliyyətləri və yazılı tapşırıqlar tələbələrin zaman formalarını daha düzgün mənimsəməsinə kömək edir.

Müasir tədris metodlarında vizual sxemlər və zaman xətləri də mühüm rol oynayır. Bu üsullar vasitəsilə tələbələr hadisələrin ardıcıllığını və zamanlar arasındakı fərqi daha asan qavraya bilirlər. Müqayisəli yanaşma, yəni Azərbaycan və fransız dillərindəki zaman sistemlərinin paralel təhlili də öyrənmə prosesini asanlaşdırır.

Nəticə. Beləliklə, fransız dilində keçmiş zamanların öyrənilməsi xarici dil öyrənənlər üçün mürəkkəb və çoxşaxəli prosesdir. Əsas çətinliklər zaman formalarının çoxluğu, semantik fərqlər, köməkçi fellərin seçilməsi, participe passé uyğunluğu və ana dilinin interferensiyası ilə bağlıdır. Xüsusilə passé composé və imparfait zamanlarının fərqləndirilməsi şagirdlər üçün ən problemli məsələlərdən biri hesab olunur.

Bu problemlərin aradan qaldırılması üçün kommunikativ və müqayisəli tədris metodlarından istifadə vacibdir. Praktik çalışmalar, vizual materiallar və kontekst əsaslı tapşırıqlar tələbələrin keçmiş zaman formalarını daha yaxşı mənimsəməsinə şərait yaradır. Fransız dilinin keçmiş zaman sisteminin düzgün öyrədilməsi dilöyrənənlərin həm yazılı, həm də şifahi nitq bacarıqlarının inkişafında mühüm rol oynayır.

AYNUR MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti
Müəllim
https://orcid.org/0009-0008-9320-8770
aynurmammadova202@gmail.com

İNGİLİS DİLİNDƏ İCTİMAİ-SİYASİ LEKSİKANIN TƏDRİSİNDƏ KONTEKSTUAL ANLAYIŞLAR

Məqalə ingilis dilində ictimai-siyasi leksikanın tədrisində kontekstual anlayışların öyrənilməsi yollarından bəhs edir. Məqalənin məqsədi ingilis dilində kontekstualladırma sahəsində istifadə olunan anlayış və sözlərin istifadəsi qaydalarını izah etməkdir. Məlumdur ki, ingilis dilində ictimai-sosial lüğətin istifadəsi kifayət problemlərlə üzləşir. Bu baxımdan məqaələ bu lüğətin istifadəsində kontekstaullaşdrmanın mahiyyətini, istifadə texnikalarını təqdim edir. Məqalə həm müəllimlərə və həmçinin tələbələrə istifadə olunacaq faydalı bir mənbə olacaq.

Açar sözlər: *ictimai-siaysi lüğət, kontekstuallaşdırma, pedaqoji texnikalar*

Giriş

1. İctimai-siyasi leksikanın istidafəsində kontekstuallaşdırma

İngilis dilində ictimai-siyasi lüğətin kontekstləşdirilməsi siyasi və sosial terminləri yalnız əzbərləmək əvəzinə, mənalı real həyat ssenariləri, mədəni işarələr, media və ünsiyyət fəaliyyətləri çərçivəsində öyrənməyi əhatə edir. Bu məqsədlə, ingilis dilində ictimai-siyasi lüğəti öyrətməyin ən yaxşı yolu, kontekstual anlayışı inkişaf etdirmək üçün tələbələri xəbər məqalələri, debatlar və çıxışlar kimi orijinal, cari materiallara cəlb etməkdir. Siyasi leksikonun ingilis dilində tədrisi siyasi ünsiyyət dilini, ölkə daxilində müəyyən sosial və siyasi ideyaları təşviq etmək, vətəndaşlara emosional təsir göstərmək, onları cəmiyyəti irəli aparacaq müəyyən siyasi hərəkətlər etməyə təşviq etmək və ictimai rəğbət qazanmaq üçün istifadə olunan dili öyrətmək deməkdir .

Bu yanaşma öyrənənlərə yalnız lüğətin nə demək olduğunu deyil, həm də onun orijinal diskursda, ideologiyada, debatda və cəmiyyətdə necə işlədiyini anlamağa imkan verir.

İctimai-siyasi lüğətin tədrisi tərifləri əzbərləməklə deyil, kontekstləşdirilməli və real, mənalı vəziyyətlərə daxil edilməlidir. Bu yanaşma sözləri sosial ədalət, siyasi xəbərlər və vətəndaş həyatı kimi real dünya məsələlərinə bağlayır, anlayışı və tənqidi düşüncəni inkişaf etdirir. Dil öyrənənlərin xüsusi ehtiyaclarına uyğun yaradıcı, sistemli və gələcəyə yönəlmiş tədris modellərindən istifadə edilir.

Bundan əlavə, səmərəli strategiyalar tematik söz siyahılarından (məsələn, demokratiya, siyasət, insan hüquqları) istifadə etmək və debatlar, rol oyunları və siyasi cizgi filmlərinin təhlili kimi aktiv, tələbə mərkəzli fəaliyyətlərdən istifadə etmək olardı.

Əsas ictimai-siyasi lüğət sahələrinə aşağıdakılar daxildir:

– hökumət və idarəetmə: demokratiya, monarxiya, kapitalizm, kommunizm, dövlətin suverenliyi, bürokratiya, qanunvericilik;

– siyasi fəaliyyət bülleten, namizəd, seçicilər, vəzifədə olan şəxs, mandat, mitinq, ərizə.

– ictimai-siyasi məsələlər: insan hüquqları, bərabərsizlik, siyasət, islahat, etiraz, nəzarət, sığınacaq.

Beləliklə, kontekstual anlayışların vacibliyi onunla izah olunur ki, ictimai-siyasi leksikonun istfadəsində daha çox mücərrəd terminlər mədəni cəhətdən yüklənmiş, emosional və ya ideoloji cəhətdən həssas xarakterə malikdir. Kontekst olmadan tələbələr tərifləri əzbərləyə bilərlər, lakin bunlara nail ola bilməzlər: nüansları şərh edə, qərəzliliyi aşkarlaya və ya qeyd edə, terminlərdən düzgün istifadə edə bilərlər.

2. Əsas pedaqoji texnikalar

İngilis dilində ictimai-siyasi leksikonun kontekstləşdirmə üsulları, auditoriyadan, ideologiyadan, mədəniyyətdən, tarixi mühitdən və diskurs məqsədindən asılı olaraq siyasi və sosial lüğəti izah etmək, çərçivəyə salmaq, uyğunlaşdırmaq və ya şərh etmək üçün linqvistik və

kommunikativ metodlardır.

Dövlət, hakimiyyət və hökümət sahələrində tətbiq olunan ideologiyalar və sosial problemlər ingilis dilinin sosial və siyasi lüğətinin bir hissəsidir. Kontekstual anlayışlar olaraq olaraq demokratiya, avtoritarizm, qanunvericilik, sərtlik, seçki hüququ kimi anlayışlar mövcuddur. Bu anlayışlar və sözlər cari hadisələri, siyasət dəyişikliklərini və vətəndaş hüquqlarını müzakirə etmək üçün vacibdir.

Sosial-siyasi leksikonun zənginləşməsində kontestuallaşdırmaya daxil olna anlayışları bilmək çox vacib şərtdir.

1) Kontekstuallaşdırmaya xəbər agentliklərindən və bitərəf ingilisdilli mediadan real dünya ssenarilərindən istifadə edərək terminləri təyin etmək daxildir.

2) Məzmuna əsaslanan təlimat: seçki, xarici siyasət və ya sosial aktivizm kimi müvafiq mövzular vasitəsilə lüğəti öyrədin.

3) Aktiv təcrübə burada tələbə olunan mühüm amillərdəndir. Bu amillərə aşağıdakılar daxildir:

– Debatlar və müzakirələr: Buraya qısa müddətli videoların istifadəsi daxildir. Məsələn, videoda verilən, “Yaxşı lideri nə edir?” suali ətrafında siyasi hadisələr kimi mövzuları müzakirə etmək daha faydalı üsullardandır.

– Simulyasiya kampaniyaları: Tələbələr nitq, manifest və ya kampaniya materialları yazırlar.

– Lüğət qeydiyyatı: mediada tapılan yeni sözlərin “Siyasi gündəliyi”ni aparmaq səmərəlilik dərəcəsini artırır

Nəticə. Beləliklə, səmərəli kontekstləşdirmə balanslaşdırılmış materiallar və hörmətli müzakirə normaları tələb edir. ingilis dilində ictimai-siyasi lüğəti kontekstləşdirmək lüğət öyrənməsini əzbərləməkdənsə, mənalı sosial ünsiyyətə çevirir. Sözləri orijinal müzakirələrdə, mədəni reallıqlarda və interaktiv tapşırıqlarda yerləşdirməklə, öyrənənlər təkcə leksik səriştəyə deyil, həm də ingilisdilli ictimai-siyasi ünsiyyəti tənqidi şəkildə anlamaq və iştirak etmək qabiliyyətinə yiyələnirlər.

SƏİDƏ İSMAYILOVA
Qərbi Kaspi Universiteti
Fəlsəfə doktoru proqramı üzrə doktorant
Saidahuseynzade12@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ "TƏBİƏT" KONSEPTİNİN TRANSFORMASİYASI VƏ ONUN XARİCİ DİL TƏDRİSİNƏ TƏSİRİ

Məqalədə müasir ingilis dilində "təbiət" konseptinin linqvopraqmatik transformasiyası və bu dəyişikliklərin xarici dil tədrisinə təsiri araşdırılır. Konseptin yenilənmiş məzmununun dil öyrənmədə kommunikativ və koqnitiv bacarıqların inkişafına töhfə verdiyi göstərilir.

Açar sözlər: *təbiət konsepti, linqvopraqmatika, ingilis dili, dil tədrisi, transformasiya*

Müasir dilçilikdə konsept anlayışı dil və təfəkkür münasibətlərinin öyrənilməsində mühüm yer tutur. Xüsusilə "təbiət" konsepti insanın dünyanı qavrama formasını əks etdirən universal anlayışlardan biri hesab olunur. İngilis dilində bu konsept zaman keçdikcə semantik və praqmatik baxımdan müəyyən dəyişikliklərə məruz qalmışdır. Qloballaşma, texnoloji inkişaf və ekoloji problemlərin aktuallaşması "təbiət" anlayışının yeni məna çalarları qazanmasına səbəb olmuşdur. Bu baxımdan, müasir ingilis dilində "təbiət" konseptinin transformasiyasını araşdırmaq və onun xarici dil tədrisinə təsirini müəyyən etmək aktual məsələlərdən biridir.

George Lakoff və Mark Johnson-un fikrincə, konseptual sistem insan təfəkküründün əsasını təşkil edir və dil bu sistemin əsas ifadə vasitəsidir. Eyni zamanda metaforların diskursda və ideoloji çərçivədə funksionallığını araşdıran Charteris-Black qeyd edir ki, metaforlar yalnız dil hadisəsi deyil, həm də müəyyən sosial və mədəni mənaların formalaşmasında mühüm rol oynayır.

"Təbiət" konsepti ingilis dilində həm fiziki mühit, həm də metaforik məna daşıyaraq insanın daxili dünyasını ifadə etmək üçün istifadə olunur. Məsələn, "Storm of emotions" və "natural reaction" kimi ifadələrdə təbiət hadisələri insanın daxili psixoloji vəziyyətinin konseptuallaşdırılması üçün əsas sahə kimi çıxış edir. Birinci ifadədə "storm" (fırtına) leksik vahidi yüksək intensivlik, xaotiklik və nəzarət olunmayan dinamiklik xüsusiyyətlərini daşıyaraq emosional vəziyyətə transfer olunur. Nəticədə insanın daxili aləmində baş verən hisslərin güclü, qarışıq və idarəolunmaz xarakteri metaforik şəkildə ifadə edilir. "Natural reaction" ifadəsində isə "natural" komponenti hadisənin spontan, qeyri-süni və daxili motivasiyaya əsaslanan xarakterini vurğulayır. Bu halda reaksiya daha çox insanın təbii psixoloji vəziyyətindən irəli gələn bir davranış modeli kimi təqdim olunur.

Linqvopraqmatik baxımdan qeyd olunan nümunələr onu göstərir ki, təbiət konsepti abstrakt psixoloji proseslərin ifadəsində effektiv konseptual vasitə rolunu oynayır. Bu cür metaforik modelləşdirmə nitqin ekspressivliyini artırmaqla yanaşı, kommunikativ məzmunun daha aydın və təsirli şəkildə ötürülməsinə xidmət edir.

Son dövrlərdə "təbiət" konsepti yeni semantik istiqamətlər qazanmışdır. Ekoloji problemlər, iqlim dəyişikliyi və texnologiyanın inkişafı bu anlayışın məzmununa güclü təsir göstərmişdir. Zoltán Kövecses qeyd edir ki, konseptlər cəmiyyətin dəyişən dəyərlərinə uyğun olaraq transformasiya olunur. Müasir ingilis dilində "green thinking", "sustainable future", "eco-friendly lifestyle" kimi ifadələr "təbiət" konseptinin genişlənmiş və yenilənmiş formasını əks etdirir. Bu isə konseptin artıq yalnız təbii mühiti deyil, həm də insanın ona münasibətini ifadə etdiyini göstərir.

"Təbiət" konseptində baş verən dəyişikliklər xarici dil tədrisinə də təsirsiz qalmır. Müasir tədris metodlarında dil yalnız qrammatik qaydalar sistemi kimi deyil, həm də mədəni və praqmatik fenomen kimi öyrədilir.Bu baxımdan müxtəlif üsul və vasitələrdən istifadə olunur: şagirdlərə yalnız söz mənaları ilə deyil, onların kontekstual istifadəsi öyrədilir,ekoloji mövzular əsasında dərslər təşkil olunur, autentik materiallardan daha çox istifadə edilir. Jeremy Harmer qeyd edir ki, müasir dil tədrisində real həyat kontekstləri əsas rol oynayır və bu, şagirdlərin kommunikativ bacarıqlarını inkişaf etdirir.

"Təbiət" konseptinin tədrisdə istifadəsi müxtəlif üsullarla həyata keçirilə bilər: Mətn analizi (ekoloji mövzulu məqalələr), Metaforaların izahı və tətbiqi, Diskussiya və debatlar, Layihə əsaslı

öyrənmə. Bu yanaşmalar şagirdlərin həm dil bacarıqlarını, həm də tənqidi düşünmə qabiliyyətini inkişaf etdirməyə kömək edir.

Aparılan təhlil göstərir ki, müasir ingilis dilində “təbiət” konsepti dinamik inkişaf edən və transformasiyaya uğrayan anlayışdır. Bu transformasiya xarici dil tədrisində də yeni yanaşmaların tətbiqinə şərait yaradır. “Təbiət” konseptinin tədris prosesinə inteqrasiyası şagirdlərin dil, koqnitiv və kommunikativ bacarıqlarının inkişafına müsbət təsir göstərir.

FİDAN QULİYEVA
Azərbaycan Dillər Universiteti
Magistrant
fidan.kulievaa@mail.ru

ORTA MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNƏ MOTİVASİYANIN ARTIRILMASI MƏQSƏDİ İLƏ TEXNOLOJİ ALƏTLƏRDƏN İSTİFADƏ

İnformasiya texnologiyalarının həyatın hər sahəsinə nüfuz etdiyi müasir dünyada onun təhsildə istifadəsi getdikcə aktuallaşır. Bu proses kompüter texnologiyasının öyrənmə effektivliyini artırmaq üçün güclü alətə çevrilə biləcəyi xarici dil tədrisinə də aiddir.

Açar sözlər: *məktəb, ingilis dili, texnoloji alətlər*

Xarici dilin şagirdlər tərəfindən mənimsənilməsi zamanı kompüter texnologiyalarından istifadə son illərdə daha da vacib komponentə çevrilmişdir. Bu proses əsasən internetin, mobil cihazların, süni intellektin və yeni öyrənmə imkanları açan digər texnologiyaların sürətli inkişafı ilə bağlıdır. Bu, müəllimlərin və tədqiqatçıların xarici dillərin tədrisi üçün müasir vasitələrin təklif etdiyi potensialın, eləcə də təhsil sisteminin müasir cəmiyyətin tələblərinə uyğunlaşdırılması zərurətindən irəli gəlir.

Son illərdə yeni texnologiyalar biliklərin mənimsədilməsində əsas vasitəyə çevrilərək, şagirdlərin kitablara, videolara, dərs vəsaitlərinə, proqram təminatına daxil olmasını və müəllimlər, həmyaşıdları və hətta doğma ingiliscə danışanlarla ünsiyyət qurmasını asanlaşdırır. Yeni texnologiyalar şagirdlərə nəinki ayrılmış dərs saatında təhsil almağa, həm də fərdi tələbatlara uyğun olaraq müstəqil məkan və zamanda tədris və təlim fəaliyyətini həyata keçirməyə imkan verir. Eyni zamanda müasir texnoloji baza şagirdləri motivasiya və marağı stimullaşdıraraq tədris və təlim prosesində fəal iştirakçı olmağa təşviq edilir. Onlar müxtəlif informasiya və təhsil kanalları vasitəsilə ingilis dilinin tədrisinə və öyrənilməsinə töhfə verirlər.

Hazırda orta məktəblərdə tətbiq edilən interaktiv metodlar mənimsəmənin məzmundan, eləcə də şagirdin fərdi ehtiyaclarından asılı olaraq müxtəlif texnika və metodlardan istifadə etməyə imkan verir. Onlar ənənəvi şəxsi öyrənməni tamamlayır.

İngilis dilinin tədrisində yeni texnologiyaların əhəmiyyəti və şagirdlərin xarici dili mənimsəmədə hiss orqanları nə qədər çox istifadə edilərsə, məzmun bir o qədər yaxşı mənimsənilir. Tədris prosesi zamanı şagirdlər yeni texnologiyadan istifadə etdikdə, daha çox konsentrasiya nümayiş etdirirlər. Bu proses zamanı diqqət və yaddaş kimi idrak funksiyaları təfəkkürün və dilin inkişafına kömək edir. Mövcud metodlar qrammatik qaydaların və lüğətin öyrənilməsində yararlı olsa da, praktiki dil bacarıqlarının inkişafına kifayət qədər uğurlu deyil. Nəticədə, bir çox tələbələr, hətta geniş lüğət və qrammatik biliyə malik olsalar da, dialoqlar aparmağa və ya hədəf dildə monoloqlar çatdırmağa cəhd edərkən mübarizə aparırlar.

Təcrübəyə diqqətin olmaması tələbələrin əldə etdikləri bilikləri real həyatda kommunikativ vəziyyətlərdə tətbiq edə bilməməsinə gətirib çıxarır. Bu, dil öyrənmək üçün aşağı motivasiyaya səbəb olur.

Şifahi nitqin tədrisi çox vaxt standart və qəlibləşmiş linqvistik ifadələrdən istifadə etməklə məhdudlaşdırılır. Bu da şagirdlərin fərdi nitqini inkişaf etdirməkdə və dil maneələrini aradan qaldırmaqda çətinlik yaradır. Rəqəmsal texnologiyaların tədris prosesinə tətbiqi tələbələrin təlim prosesində daha fəal iştirakını və onların müstəqilliyinin inkişafını nəzərdə tutur.

F. İsayevanın da qeyd etdiyi kimi: "Müasir dövrdə rəqəmsal texnologiya dünyamızda və gündəlik həyatımızda mühüm dəyişikliklər edir. Texnologiya biliklərin insan həyatının praktik məqsədlərinə və ya insan mühitini dəyişdirmək və manipulyasiya etmək üçün tətbiqidir"

Ənənəvi metodlardan fərqli olaraq, rəqəmsal texnologiyalardan istifadə zamanı şagird materialı müstəqil mənimsəmiş fəal iştirakçıya çevrilir, müəllim isə təlim prosesinin təşkilatçısı və vasitəçisi kimi çıxış edir.

Yeni texnologiyalar tələbələrə yazılı və şifahi mətnləri anlamaq və hazırlamaq imkanı verən ünsiyyət, qrammatik və linqvistik bacarıqlar əldə etməyə kömək etməklə keyfiyyətli təhsilinin inkişafını daha da əlçatan edir.

Mövcud təhsil prosesində məktəblərin kompüterlələ təmin edilməsi yeni texnologiyalar vasitəsi ilə ingilis dilinin tədrisi və öyrənilməsi prosesini asanlaşdıran mühüm vasitədir.

Yeni texnologiyalar ingilis dilini öyrənmə bacarıqlarının inkişafını asanlaşdırır, tələbələrin şifahi və yazılı anlama bacarıqlarını əldə etməyə, eləcə də onların istehsalına imkan verən interaktiv məşqlərlə lüğət və qrammatik strukturların mənimsənilməsini dəstəkləyir.

GÜLMİRƏ ƏLİYEVA
Naxçıvan Müəllimlər İnstitututu
Müəllim
GulmirAliyeva@nmi.edu.az

XARİCİ DİL ÖYRƏNİLMƏSİNDƏ KOMMUNİKATİV KOMPETENSİYANIN FORMALAŞDIRILMASI YOLLARI

Tezisdə xarici dil öyrənilməsi prosesində kommunikativ kompetensiyanın formalaşdırılması məsələləri araşdırılmışdır. Kommunikativ yanaşmanın mahiyyəti, danışıq bacarığının inkişaf etdirilməsində interaktiv metodların rolu, müasir informasiya texnologiyalarının tətbiqi və müəllimin təlim prosesindəki funksiyaları təhlil edilmişdir. Tədqiqat zamanı kommunikativ mühitin yaradılmasının şagirdlərin xarici dili praktik şəkildə mənimsəməsinə müsbət təsiri müəyyən edilmişdir.

Açar sözlər: *kommunikativ kompetensiya, xarici dil tədrisi, danışıq bacarığı, kommunikativ yanaşma, interaktiv metodlar*

Müasir dövrdə təhsil sistemində xarici dil bilikləri xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma prosesinin sürətlənməsi, beynəlxalq əməkdaşlıq əlaqələrinin genişlənməsi və informasiya texnologiyalarının inkişafı xarici dillərin öyrənilməsini zəruri etmişdir. Xarici dil yalnız akademik bilik sahəsi deyil, eyni zamanda beynəlxalq ünsiyyət vasitəsi kimi çıxış edir. Buna görə də ümumi təhsil müəssisələrində xarici dil tədrisinin əsas məqsədi şagirdlərdə kommunikativ kompetensiyanın formalaşdırılması hesab olunur. Kommunikativ kompetensiya anlayışı ilk dəfə dilçilik və metodika sahəsində kommunikativ yanaşmanın inkişafı ilə əlaqədar meydana çıxmışdır. Bu anlayış şəxsin dili yalnız nəzəri baxımdan bilməsini deyil, onu müxtəlif kommunikativ situasiyalarda düzgün və məqsədəuyğun şəkildə istifadə edə bilməsini ifadə edir. Kommunikativ kompetensiya dinləmə, danışma, oxu və yazı bacarıqlarının qarşılıqlı əlaqədə inkişafını nəzərdə tutur. Müasir təhsil sistemində əsas məqsəd şagirdin dili əzbər qaydalar toplusu kimi deyil, praktik ünsiyyət vasitəsi kimi mənimsəməsinə nail olmaqdır. Ənənəvi xarici dil tədrisində əsas diqqət qrammatik qaydaların və yeni sözlərin əzbərlənməsinə yönəlirdi. Belə təlim prosesində şagirdlər müəyyən nəzəri biliklər əldə etsələr də, real ünsiyyət zamanı öz fikirlərini ifadə etməkdə çətinlik yaşayırlar. Müasir kommunikativ yanaşma isə dili aktiv istifadə etməyə əsaslanır. Bu yanaşmanın əsas məqsədi şagirdlərin sərbəst danışıq bacarıqlarını inkişaf etdirmək, onları müxtəlif situasiyalarda ünsiyyət qurmağa hazırlamaqdır. Kommunikativ kompetensiyanın inkişaf etdirilməsində danışıq bacarığı xüsusi əhəmiyyət daşıyır. Təcrübə göstərir ki, bir çox şagird qrammatik qaydaları yaxşı bilsə də, danışıq zamanı tərəddüd edir və sərbəst ünsiyyət qura bilmir. Bunun əsas səbəblərindən biri dərs prosesində praktik danışıq fəaliyyətlərinə kifayət qədər yer ayrılmamasıdır. Bu səbəbdən müəllim dərsləri daha interaktiv şəkildə təşkil etməli və şagirdlərin aktiv iştirakını təmin etməlidir.

Danışıq bacarığının inkişafı üçün rollu oyunlar, dialoqlar, debatlar, təqdimatlar, qrup işləri və situasiya əsaslı tapşırıqlar mühüm rol oynayır. Məsələn, “restoranda sifariş vermək”, “hava limanında ünsiyyət”, “həkim qəbulunda dialoq” kimi gündəlik situasiyalar şagirdlərin dili real həyat şəraitində tətbiq etməsinə kömək edir. Bu fəaliyyətlər şagirdlərdə özünəinam yaradır və dil baryerinin azalmasına müsbət təsir göstərir.Kommunikativ kompetensiyanın formalaşdırılmasında müasir texnologiyaların tətbiqi də böyük əhəmiyyətə malikdir. Audio və video materiallardan istifadə, onlayn platformalar, interaktiv tətbiqlər və elektron resurslar şagirdlərin dinləmə və danışma bacarıqlarını inkişaf etdirir. Xarici dildə filmlərin izlənilməsi, podkastların dinlənilməsi və müxtəlif rəqəmsal platformalarda ünsiyyət qurulması şagirdlərin dili daha təbii şəkildə mənimsəməsinə imkan yaradır. Xüsusilə autentik materiallardan istifadə dil mühitinin yaradılmasına və şagirdlərin düzgün tələffüz bacarıqlarının inkişafına kömək edir.

Kommunikativ yanaşmada müəllimin rolu da xüsusi əhəmiyyət daşıyır. Müasir təlim prosesində müəllim yalnız məlumat verən şəxs deyil, həm də istiqamətləndirici və motivasiyaedici funksiyanı yerinə yetirir. Müəllim şagirdlər arasında sərbəst ünsiyyət mühiti yaratmalı, onların

fikirlərini ifadə etməsinə şərait yaratmalı və dil səhvlərinə həddindən artıq müdaxilə etməməlidir. Bu yanaşma şagirdlərdə özünəinam hissini artırır və onların xarici dili daha rahat istifadə etməsinə şərait yaradır.Kommunikativ kompetensiyanın formalaşdırılmasında motivasiya amili də mühüm rol oynayır. Şagirdlər xarici dilin gündəlik həyatda və gələcək peşə fəaliyyətində əhəmiyyətini dərk etdikdə öyrənməyə daha həvəsli yanaşırlar. Buna görə də müəllim mövzuları şagirdlərin maraq dairəsinə uyğun seçməli, dərsləri praktik və maraqlı şəkildə təşkil etməlidir. Şagirdyönümlü yanaşma və müasir metodların tətbiqi xarici dil tədrisinin keyfiyyətini yüksəldən əsas amillərdəndir.

Beləliklə, xarici dil öyrənilməsində kommunikativ kompetensiyanın formalaşdırılması müasir təhsil sisteminin əsas istiqamətlərindən biridir. Kommunikativ yanaşmanın tətbiqi, interaktiv metodlardan istifadə və müasir texnologiyaların tədris prosesinə inteqrasiyası şagirdlərin xarici dili praktik şəkildə mənimsəməsinə imkan yaradır. Bu yanaşma gələcəkdə şagirdlərin beynəlxalq ünsiyyət mühitində daha uğurlu fəaliyyət göstərməsinə şərait yaradır.

FATMA KƏRİMOVA
Babək Rayon Gülşənabad kənd ümumi orta məktəbi
İngilis dili müəllimi
novruzova128@gmail.com

ÜMUMİ TƏHSİLDƏ MƏSAFƏDƏN TƏLİMİN AKTUAL MƏSƏLƏLƏRİ

Məqalədə ümumi təhsil sistemində məsafədən (distant) təhsilin müasir vəziyyəti və onun tətbiqi zamanı qarşıya çıxan əsas problemlər araşdırılmışdır. Distant təlim prosesində texnoloji təminat, müəllim və şagird hazırlığı, motivasiya və qiymətləndirmə məsələləri təhlil edilmişdir. Eyni zamanda məsafədən təhsilin üstün cəhətləri və tədris keyfiyyətinə təsiri nəzərdən keçirilmişdir.

Açar sözlər: *distant təhsil, məsafədən təlim, rəqəmsallaşma, onlayn dərs, elektron təhsil, innovativ təlim*

Giriş. İnformasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində yeni təlim modellərinin formalaşmasına səbəb olmuşdur. Müasir dövrdə distant təhsil yalnız alternativ tədris forması deyil, həm də çevik və əlçatan təhsil imkanlarından biri kimi qiymətləndirilir. Xüsusilə son illərdə dünyada baş verən qlobal dəyişikliklər məsafədən təlimin əhəmiyyətini daha da artırmışdır.

Ənənəvi təhsil modeli ilə müqayisədə distant təhsil müəllim və şagird arasında ünsiyyətin rəqəmsal platformalar vasitəsilə qurulmasına əsaslanır. Bu sistem müxtəlif texnoloji vasitələrdən istifadə etməklə tədrisin fasiləsiz davam etdirilməsinə imkan yaradır. Bununla yanaşı, məsafədən təlim prosesində müəyyən çətinliklər və aktual problemlər də mövcuddur.

Əsas hissə

Texnoloji təminat problemləri. Məsafədən təlimin əsas şərtlərindən biri texniki imkanların mövcudluğudur. Kompüter, planşet və sabit internet bağlantısının olmaması bəzi şagirdlərin onlayn dərslərdə tam iştirak etməsinə mane olur. Xüsusilə region məktəblərində internet sürətinin zəif olması distant təhsilin keyfiyyətinə mənfi təsir göstərir.

Bundan əlavə, istifadə olunan platformaların texniki imkanları da tədris prosesinə təsir edir. Bəzi hallarda proqramlarda yaranan texniki problemlər dərsin gedişində fasilələrə səbəb olur və müəllim-şagird əlaqəsini çətinləşdirir.

Müəllim və şagird hazırlığı. Distant təlim müəllimdən yalnız fənn biliyi deyil, həm də rəqəmsal bacarıqlar tələb edir. Müasir müəllim elektron platformalarda işləməyi, interaktiv tapşırıqlar hazırlamağı və rəqəmsal resurslardan düzgün istifadə etməyi bacarmalıdır. Təcrübə göstərir ki, rəqəmsal savadlılıq səviyyəsi yüksək olan müəllimlər onlayn dərsləri daha səmərəli təşkil edə bilirlər.

Şagirdlərin də distant təlimə uyğunlaşması mühüm əhəmiyyət daşıyır. Bəzi şagirdlər onlayn dərslərdə diqqəti uzun müddət saxlamaqda çətinlik çəkirlər. Bu isə onların dərsə marağının azalmasına və nəticələrin zəifləməsinə səbəb ola bilir.

Motivasiya və ünsiyyət məsələləri. Ənənəvi sinif mühitində müəllim və şagird arasında birbaşa ünsiyyət təlim prosesinin vacib hissəsidir. Distant təhsil zamanı isə canlı ünsiyyətin məhdudlaşması şagirdlərin sosial fəallığına təsir göstərə bilir. Xüsusilə kiçik yaş qruplarında müəllim nəzarətinin zəifləməsi motivasiya problemini daha qabarıq şəkildə ortaya çıxarır.

Müşahidələr göstərir ki, interaktiv metodlardan istifadə olunan onlayn dərslərdə şagirdlərin fəallığı daha yüksək olur. Video təqdimatlar, elektron oyunlar və qrup fəaliyyətləri distant dərslərin daha maraqlı təşkilinə imkan yaradır.

Qiymətləndirmə prosesi. Məsafədən təlimdə aktual problemlərdən biri də biliklərin obyektiv qiymətləndirilməsidir. Onlayn imtahan və tapşırıqlar zamanı akademik dürüstlüyün qorunması müəyyən çətinliklər yaradır. Bu səbəbdən müəllimlər daha çox layihə, təqdimat və praktiki tapşırıqlardan istifadə etməyə üstünlük verirlər.

Formativ qiymətləndirmə üsullarının tətbiqi şagirdlərin inkişafını davamlı izləməyə imkan verir və onların təlim prosesində fəal iştirakını stimullaşdırır.

Nəticə. Beləliklə, distant təhsil müasir təhsil sisteminin mühüm istiqamətlərindən biri hesab olunur. Bu təlim forması təhsilin əlçatanlığını artırsa da, onun effektiv təşkili üçün texnoloji təminatın

gücləndirilməsi, müəllimlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi və şagird motivasiyasının artırılması vacibdir.

Müasir dövrdə məsafədən təlimin keyfiyyətli təşkili innovativ yanaşmaların və rəqəmsal resursların düzgün tətbiqindən birbaşa asılıdır. Bu istiqamətdə aparılan davamlı yeniliklər distant təhsilin gələcək inkişafında mühüm rol oynayacaqdır.

SAKINA RUSTAMOVA
Mingachevir State University
Teacher
sakina.rustamova@mdu.edu.az

THE ROLE OF READING IN THE DEVELOPMENT OF COMMUNICATIVE SKILLS IN FOREIGN LANGUAGE EDUCATION

Effective reading instruction in foreign language education develops both comprehension and communicative skills. Properly organized reading fosters cognitive growth, moral and aesthetic values, and vocabulary enrichment, while enabling students to express themselves confidently in oral and written forms. Extracurricular reading enhances extensive reading habits and overall literacy.

Keywords: *reading skills, foreign language education, communicative competence, comprehension*

One of the primary objectives in teaching a foreign language is to develop reading not only as a receptive skill but also as a communicative competence. Proper organization and instruction of reading aim to foster knowledge and skills in students based on accurate, imaginative representations of the surrounding world and real-life events. Although reading is a required skill in foreign language education, its effective organization and teaching still present significant challenges. Frequently, students consider their reading activity complete when they translate texts and answer a few comprehension questions, without fully engaging in meaningful understanding of the content. Such traditional habits rarely motivate students to engage in free communication on the topic.

Historically, reading proficiency in our context has been equated with reading technique alone. It was assumed that if a student could read fluently, they had acquired reading skills. However, methodologies for assessing comprehension have been inadequately developed in our national education system. At best, a few sentences from the text would be transformed into questions as exercises.

It must be emphasized that the correct development of reading activities and skills serves as a key to effective communication and lays the foundation for independent thinking. Engaging students with new words and expressions through discussion and visual materials, as well as guiding them to understand the content consciously, enhances reading comprehension. To achieve this, reading exercises should include engaging speaking tasks, brief commentaries, comparisons, analyses, and creative applications of reading, which have often been overlooked. Extracurricular reading activities, the development of extensive reading habits, exposure to interesting literature, and fostering a reading culture during secondary education constitute essential requirements. Extensive reading develops students' cognitive abilities and intellectual activity. At this stage, reading also contributes to the rapid formation of students' ideological, moral, and aesthetic skills, nurturing values such as patriotism, respect for family, loyalty, kindness, courage, selflessness, modesty, and integrity.

The communicative dimension of reading promotes students' abilities to express themselves both orally and in writing, enabling conscious, accurate, fluent, and expressive reading, as well as comprehension and interpretation of text content. Methodologies built around these principles broaden students' worldviews, enrich their vocabulary, and enhance their linguistic culture. Assignments and activities designed to formalize communication and develop logical thinking, such as identifying logical connections in texts, comparing and contrasting objects and events, generalizing, and drawing conclusions, reinforce these skills. Conducting reading exercises within listening, speaking, and writing activities further strengthens communication competencies.

Developing reading at a creative level, personalizing texts, organizing independent writing after reading, illustrating content verbally, and dramatizing literary works have proven effective in achieving desired outcomes.

In conclusion, reading activities in the secondary education stage (grades 5-6) should be organized in a manner that directly develops students’ communicative competencies and facilitates the acquisition of communicative language skills.

ALLAHVERDİ ALLAHVERDİYEV
Naxçıvan Dövlət Universiteti nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
allahverdi@1998.gmail.com

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDYÖNÜMLÜ TƏLİM STRATEGİYALARININ TƏTBİQİ VƏ FƏRDİ İŞ TƏCRÜBƏSİ

İngilis dili dərslərində şagirdyönümlü təlim strategiyalarının tətbiqi müasir təhsil mühitində effektivliyi artıran vacib amillərdən biridir. Fərdi iş təcrübəsi göstərir ki tələbələrin maraqlarına uyğun seçilmiş interaktiv metodlar onların dil bacarıqlarını daha sürətlə inkişaf etdirir. Bu yanaşma öyrənmə prosesində fəallığı təmin edərək müstəqil ünsiyyəti stimullaşdırır. Müəllimin dəstəyi ilə reallaşan fərdi yanaşma həm də şagirdlərin daxili motivasiyasını yüksəldir.

Açar sözlər: *şagirdyönümlü təlim,ingilis dili,strategiya, fərdi iş, interaktiv metodlar*

Müasir ingilis dili dərslərində şagirdyönümlü yanaşmanın tətbiqi dərsin keyfiyyətini köklü şəkildə dəyişir. Bu metod hər bir fərdin potensialını üzə çıxarmağa imkan yaradır. Təlim prosesində interaktiv oyunlar və qrup işləri dilin praktik mənimsənilməsini sürətləndirir. Fərdi təcrübələr göstərir ki, tələbələr öz maraqlarına uyğun mövzularla işlədikdə öyrənmə mühiti daha səmərəli olur. Müəllimin rolu burada sadəcə istiqamət verməkvə dəstək olmaqdan ibarətdir. Texnoloji resursların dərslərə inteqrasiyası şagirdlərin müstəqil tədqiqat bacarıqlarını formalaşdırır. Dinləmə və danışıq vərdişləri real ünsiyyət şəraitində daha təbii inkişaf edir. Hər bir dərs şagirdin özünü ifadə etməsi üçün platformaya çevrilir. Bu sistem təhsilin gələcəyini daha yaradıcı və çevik edir. Məqsəd yalnız qrammatik qaydaları deyil, canlı dili sevdirməkdir.

İngilis dili tədrisində müasir yanaşmalar şagirdlərin fərdi xüsusiyyətlərini ön plana çəkir. Bu prosesdə tətbiq edilən şagirdyönümlü strategiyalar təhsilin keyfiyyətini yeni mərhələyə daşıyır. Müəllim mərkəzli dərslərdən fərqli olaraq, burada hər bir öyrənənin ehtiyacları dərsin strukturunu müəyyən edir. Bu metodun ən böyük üstünlüyü şagirdi öyrənmə məsuliyyətini öz üzərinə götürməyə sövq etməsidir. Dil öyrənmək sadəcə söz ehtiyatını artırmaq deyil, həm də həmin dildə düşünmək və özünü ifadə etmək bacarığıdır. Şagirdyönümlü mühit bu bacarıqların inkişafı üçün ən əlverişli platformadır.

Fərdi iş təcrübəsi göstərir ki, şagirdlərin dərslərdəki passivliyi adətən onlara uyğun olmayan metodların seçilməsindən qaynaqlanır. Hər bir şagirdin informasiyanı qəbul etmə kanalı fərqlidir. Bəziləri vizual materiallarla, bəziləri isə eşidərək daha yaxşı öyrənirlər. Bu fərqlilikləri nəzərə alan müəllim hər kəs üçün əlçatan bir öyrənmə modeli yaradır. Strategiyaların tətbiqi zamanı interaktiv lövhələrdən, onlayn resurslardan və multimedia vasitələrindən istifadə dərsi maraqlı edir. Şagirdlər özlərini təhlükəsiz və sərbəst hiss etdikləri mühitdə xarici dildə danışmağa daha çox meyil göstərirlər. Təlim prosesində layihə əsaslı işlərin xüsusi çəkisi var. Bu cür tapşırıqlar şagirdlərə real həyat problemlərini ingilis dilində həll etməyə imkan verir. Onlar qruplar şəklində işləyərkən həm əməkdaşlıq edir, həm də bir-birindən öyrənirlər. Müəllim isə bu zaman prosesi kənardan izləyir və ehtiyac olduqda istiqamət verir. Bu metod şagirdlərdə müstəqil tədqiqat aparmaq vərdişlərini formalaşdırır. Dilin qrammatik qaydaları kontekst daxilində öyrədildikdə daha qalıcı olur. Beləliklə, quru qaydalar deyil, funksional dil bilikləri aşılanır.

Motivasiya amili dil öyrənmədə həlledici rol oynayır. Şagirdyönümlü təlimdə şagirdin şəxsi maraqları dərsin mövzusuna inteqrasiya edilir. Məsələn, texnologiya ilə maraqlanan şagirdə bu sahədə mətnlər təqdim etmək onun dərsə olan həvəsini ikiqat artırır. Fərdi yanaşma həm də zəif nəticə göstərən şagirdlərin özünəinamını bərpa etməyə kömək edir. Onlara kiçik, lakin uğurlu addımlarla irəliləmə şansı verilir. Bu sistemdə qiymətləndirmə yalnız rəqəmlərdən ibarət deyil, həm də inkişafın monitorinqidir.

Müasir dünyada ingilis dili qlobal ünsiyyət vasitəsidir. Bu dili öyrənən gənclər fərqli mədəniyyətlərlə təmas qurmağı bacarmalıdırlar. Şagirdyönümlü strategiyalar şagirdlərdə mədəniyyətlərarası səriştəni də inkişaf etdirir. Dərslərdə müxtəlif ölkələrin adət-ənənələri,

coğrafiyası və tarixi haqqında müzakirələr aparılır. Bu, həm dünya görüşünü artırır, həm də dilin tətbiq sahələrini genişləndirir. Şagirdlər başa düşürlər ki, dil sadəcə məktəb fənni deyil, dünyaya açılan bir pəncərədir.

Yaradıcı tapşırıqların dərslərə daxil edilməsi öyrənmə prosesini canlandırır. Şagirdlər esselər yazır, hekayələr qurur və ya ingilis dilində qısa videolar hazırlayırlar. Bu fəaliyyətlər onların təxəyyülünü inkişaf etdirir. Dil öyrənmənin hər bir mərhələsi fərdi yaradıcılıqla zənginləşir. Şagirdyönümlü dərslər həm də vaxtın səmərəli idarə olunmasını öyrədir. Şagirdlər öz işlərini planlaşdırır və müəyyən edilmiş vaxt ərzində nəticə təqdim edirlər. Bu bacarıqlar onlara gələcək peşəkar həyatlarında çox lazım olacaqdır.

Təhsilin rəqəmsallaşması bu strategiyaların tətbiqi üçün yeni imkanlar açır. Virtual siniflər, oyunlaşdırılmış dil proqramları və süni intellekt dəstəkli platformalar şagirdlərin fərdi ehtiyaclarını qarşılayır. Müəllim hər bir şagirdin tərəqqisini rəqəmsal olaraq izləyə bilir. Bu da hər kəsə fərdi rəy verməyə və çatışmazlıqları vaxtında aradan qaldırmağa şərait yaradır. Şagirdyönümlü təlim bir tərəfdən texnologiyaya söykənir, digər tərəfdən isə insani münasibətləri və empatiyanı qoruyub saxlayır.

Tədris proqramlarının elastikliyi şagirdyönümlü yanaşmanın əsas şərtlərindəndir. Standart proqramlar şagirdin qavrama səviyyəsinə uyğun olaraq adaptasiya edilməlidir. Bu zaman həm güclü, həm də nisbətən zəif şagirdlər eyni dərəcədə inkişaf edə bilirlər. Fərdi iş təcrübəsi göstərir ki, differensial tapşırıqlar sinifdəki bərabərliyi təmin edir. Hər kəs öz səviyyəsinə uyğun çətinlikdə işləyir və nəticədə ümumi irəliləyiş əldə olunur. Bu yanaşma təhsildə inklüzivliyi və ədaləti dəstəkləyir.

Sonda qeyd etmək lazımdır ki, şagirdyönümlü təlim strategiyaları yalnız bilik vermir, həm də xarakter formalaşdırır. Öyrənməyi öyrənən şagirdlər hər zaman bir addım öndə olurlar. Müəllimin yaradıcı yanaşması və fərdi təcrübəsi bu prosesin uğurunu təmin edən əsas sütundur. İngilis dili dərsləri belə metodlarla daha səmərəli, dinamik və gələcəyə yönümlü olur. Bu sistemin tətbiqi cəmiyyət üçün savadlı, geniş dünyagörüşlü və müstəqil fərdlərin yetişməsinə xidmət edir. Dil tədrisi bu yolla öz həqiqi missiyasını yerinə yetirmiş olur.

AYGÜN XUDİYEVA
Naxçıvan Dövlət Universiteti
Müəllim
Kurdovaaygun@gmail.com
https://orcid.org/0009-0008-5003-0933

SOSİAL DƏYİŞİKLİKLƏR VƏ ONLARIN DİL TƏDRİSİNƏ TƏSİRİ

Müasir cəmiyyətlərdə sosial dəyişikliklər dilin funksional rolunu və dil tədrisinin məzmununu əsaslı şəkildə dəyişdirir. Qloballaşma, miqrasiya və texnoloji inkişaf dillərin statusuna və istifadəsinə birbaşa təsir göstərir. Dil yalnız kommunikasiya vasitəsi deyil, həm də sosial identiklik və mədəni mənsubiyyətin formalaşmasında mühüm rol oynayır. Bu səbəbdən dil tədrisi sosial proseslərdən kənar deyil, əksinə onlarla sıx bağlıdır. Müasir yanaşmalar dili canlı sosial sistem kimi qəbul edərək kommunikativ və fəaliyyət yönümlü metodlara üstünlük verir. Nəticə etibarilə, dil tədrisi sosial inteqrasiya və bərabər imkanların təmin edilməsində mühüm vasitəyə çevrilir.

Açar sözlər: *sosial dəyişikliklər, dil tədrisi, sosial inteqrasiya, dil siyasəti, mədəni identiklik*

Müasir cəmiyyətlərdə sosial dəyişikliklər dilin sosial həyatdakı rolunu və dil tədrisinin məzmununu əsaslı şəkildə transformasiya edir. Qloballaşma, urbanizasiya, miqrasiya axınları, texnoloji inkişaf və sosial strukturun diferensiasiyası dillərin statusunu, istifadə sahələrini və prestijini dəyişdirir. Dil bu proseslərdə yalnız kommunikativ vasitə kimi deyil, həm də sosial identiklik, mədəni mənsubiyyət və sosial iştirak mexanizmi kimi çıxış edir. Buna görə də dil tədrisi
sosial dəyişikliklərdən kənar neytral fəaliyyət deyil; əksinə, sosial dinamikanın birbaşa təsirinə məruz qalan institusional praktikadır.

Sosial dəyişikliklərin dilə təsiri ilk növbədə dilin funksional diferensiasiyasında özünü göstərir. Müasir cəmiyyətlərdə dillər fərqli sosial sahələrdə müxtəlif statuslar qazanır: bir dil rəsmi və institusional sahələrdə üstün mövqedə olduğu halda, digər dillər ailə, icma və qeyri-rəsmi ünsiyyət mühitlərində istifadə olunur. Bu vəziyyət dil iyerarxiyalarını formalaşdırır və təhsil sistemi vasitəsilə legitimləşdirilir. Dil tədrisi bu iyerarxiyaların ya təkrar istehsalına, ya da tənqidi şəkildə yenidən düşünülməsinə xidmət edə bilər. Elmi tədqiqatlar göstərir ki, dil tədrisi sosial bərabərsizliyin həm azaldılması, həm də dərinləşdirilməsi potensialına malikdir.

Sosial dəyişikliklər şəraitində dil tədrisinin məzmunu da dəyişir. Ənənəvi dil tədrisi modelləri əsasən normativ dil biliklərinin ötürülməsinə fokuslanırdısa, müasir yanaşmalar dili sosial kontekstlərdə fəaliyyət göstərən canlı sistem kimi təqdim edir. Dilin sosial variasiyası, diskurs praktikaları və kontekstual istifadə formaları tədrisin ayrılmaz hissəsinə çevrilir. Bu yanaşma öyrənənlərin dili real sosial situasiyalarda effektiv istifadə etməsinə imkan yaradır və dili sosial praktikalarla əlaqələndirir.

Sosial dəyişikliklərin dil tədrisinə təsiri metodoloji müstəvidə də özünü göstərir. Cəmiyyətin dinamikliyi və kommunikasiya formalarının müxtəlifliyi tədrisdə çevik və adaptiv metodların tətbiqini zəruri edir. Dil artıq sabit qaydalar toplusu kimi deyil, sosial qarşılıqlı təsirdə formalaşan proses kimi öyrədilir. Bu kontekstdə kommunikativ və fəaliyyət yönümlü yanaşmalar (communicative and action-oriented approaches – kommunikativ və fəaliyyət yönümlü yanaşmalar) sosial reallığa daha uyğun hesab olunur. Belə metodlar dili sosial fəaliyyətin tərkib hissəsi kimi təqdim edir və öyrənənlərin sosial kompetensiyalarını inkişaf etdirir.

Sosial dəyişikliklər dil tədrisinin məqsədlərinə də təsir göstərir. Müasir cəmiyyətlərdə dil bilikləri təkcə akademik uğur üçün deyil, sosial inteqrasiya, məşğulluq və ictimai iştirak üçün əsas şərt kimi qiymətləndirilir. Xüsusilə miqrasiya proseslərinin intensivləşdiyi şəraitdə dil tədrisi sosial inteqrasiyanın əsas mexanizminə çevrilir. Dilin öyrədilməsi bu kontekstdə yalnız linqvistik bacarıqların deyil, sosial normların, mədəni kodların və ictimai davranış modellərinin mənimsənilməsini də əhatə edir.

Sosial dəyişikliklərin dil tədrisinə təsiri müəllimin peşəkar rolunda da aydın görünür. Müəllim artıq yalnız dil qaydalarını ötürən mütəxəssis deyil, sosial vasitəçi və mədəni interpretator kimi çıxış

edir. O, dil öyrənənlərin fərqli sosial təcrübələrini, mədəni mənsubiyyətlərini və dil kapitalını nəzərə almalı, tədris prosesini bu müxtəliflik üzərində qurmalıdır. Elmi ədəbiyyatda vurğulanır ki, sosial həssaslıq nümayiş etdirən müəllim modeli dil tədrisinin effektivliyini və sosial qəbulunu əhəmiyyətli dərəcədə artırır.

Sosial dəyişikliklər şəraitində dil tədrisinin qiymətləndirilməsi də yeni yanaşmalar tələb edir. Standartlaşdırılmış qiymətləndirmə modelləri çox zaman öyrənənlərin sosial və mədəni fərqliliklərini nəzərə almır. Bu isə təhsildə ədalətsiz nəticələrə gətirib çıxara bilər. Buna görə də müasir dil tədrisində qiymətləndirmə öyrənənlərin real kommunikativ fəaliyyətini, sosial kontekstlərdə dili istifadə etmə bacarığını və inkişaf dinamikasını əks etdirməlidir. Bu yanaşma dil tədrisinin sosial reallıqla əlaqəsini gücləndirir.

Nəticə etibarilə, sosial dəyişikliklər dil tədrisini yalnız məzmun və metod baxımından deyil, ideoloji və sosial missiya baxımından da dəyişdirir. Dil tədrisi müasir cəmiyyətlərdə sosial iştirak, identiklik formalaşması və bərabər imkanların təmin olunması üçün strateji əhəmiyyət daşıyır. Elmi-nəzəri təhlil göstərir ki, sosial dəyişiklikləri nəzərə alan dil tədrisi modeli daha çevik, inklüziv və sosial baxımdan məsuliyyətli təhsil sisteminin formalaşmasına xidmət edir.

YAQUB MƏMMƏDOV
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə elmlər doktoru, dosent
YagubMammadov@nmi.edu.az

RİYAZİ MƏSƏLƏLƏRİN HƏLLİNDƏ SONLU FƏRQLƏR ÜSULUNUN TƏDRİSİ TEXNOLOGİYALARI

Ətraf aləmdə baş verən hər hansı problemin həlli modelləşdirmə nəticəsində riyazi məsələlərin həllinə gətirilir. Alınmış riyazi məsələlərin həlli üçün qrafiki, analitik və ədədi üsullar tətbiq edilir. Bəzən praktikada elə riyazi məsələlərə rast gəlinir ki, onları nəinki həll etmək çətindir, hətta dəqiq həll etmək mümkün deyildir. Bu tip riyazi məsələləri həll etmək üçün ədədi üsullardan istifadə edilir.

Tədqiqat işində sonlu fərqlər üsulundan istifadə etməklə Koşi məsələsinin təqribi həllinin tapılmasına baxılır, konkret misal üzərində sonlu fərqlər sxemi qurulur və həll alqoriminin Turbo Pascal proqramlaşdırma dilində proqramı tərtib edilir.

Açar sözlər: *sonlu fərqlər, riyazi modelləşdirmə, qrafik üsul, analitik üsul, ədədi üsul*

Gündəlik həyatımızda baş verən hər hansı problemin həlli riyazi modelləşdirmə nəticəsində riyazi məsələlərin həllinə gətirilir. Alınmış riyazi məsələlərin həlli üçün qrafiki, analitik və ədədi üsullar tətbiq edilir.

Qrafiki üsullar bir çox hallarda axtarılan kəmiyyətin tərtibini təyin etməyə imkan verir. Qrafik üsulun əsas ideyası ondan ibarətdir ki, həll həndəsi qurmalar nəticəsində tapılır. Məsələn, $f(x) = 0$ tənliyinin köklərini tapmaq üçün $y = f(x)$ funksiyasının qrafiki qurulur, qrafikin absis oxu ilə kəsişmə nöqtələri axtarılan köklər qəbul edilir.

Analitik üsullardan istifadə etdikdə məsələnin həlli düstur vasitəsilə tapılır. Xüsusi halda, əgər riyazi məsələ sadə cəbri və yaxud transendent, diferensial, inteqral və s. tənliklərin həllindən ibarətdirsə, onda riyaziyyat kursundan bizə məlum olan üsullar dəqiq kökləri təyin etməyə imknan verir.

Praktikada elə riyazi məsələlər yarana bilər ki, onları nəinki həll etmək çətindir, hətta dəqiq həll etmək mümkün deyildir. Bu tip riyazi məsələləri həll etmək üçün əsas alət ədədi üsullardır. Bu üsulların köməyi ilə məsələnin həlli ədədlər üzərində sonlu sayda hesab əməliyyatlarının ardıcıl olaraq aparılmasına gətirilir və nəticələr ədədi qiymətlər çəklində tapılır. Bəzi ədədi üsullar çoxdandır ki, tədqiqatçılar tərəfindən araşdırılmışdır, lakin kompüterdən istifadə etmədən hesablamalar aparılarkən onlardan çox da çətin olmayan məsələlərin həllində istifadə olunmuşdur.

Sonralar kompüterlərin yaranması ilə əlaqədar olaraq ədədi üsulların sürətli şəkildə inkişafı və praktikada tətbiq olunması başlandı. Yalnız kompüterdən istifadə etməklə müasir məsələlərin həlli üçün lazım olan miylonlarla, milyardlarla, hətta daha çox əməliyyatları qısa vaxt ərzində yerinə yetirmək olar.

Beləliklə, ədədi üsulların əsas xüsusiyyəti müəyyən vaxt ərzində qoyulmuş məsələnin ədədi həllini tapmaqdan ibarətdir. Ədədi üsulların bir vacib xüsusiyyətini də qeyd etmək lazımdır ki, onlar hesablama prosesində xətalar yarada bilərlər. Ona görə də çalışmaq lazımdır ki, belə üsullar nəzərə çarpmayacaq dərəcədə az xətalar əmələ gətirsinlər.

Sonlu fərqlər üsulundan istifadə etməklə Koşi məsələsinin təqribi həllinin tapılması məsələsinə baxaq. Əvvəlcə sonlu fərqlər üsulunun mahiyyətini daxil edək.

İlkin olaraq arqumentin kəsilməz dəyişilmə oblastı (məsələn, parça) düyün nöqtələri adlanan diskret nöqtələr çoxluğu ilə əvəz olunur. Bu düyün nöqtələri fərqlər şəbəkəsi əmələ gətirirlər. Kəsilməz arqumentli axtarılan funksiya baxılan şəbəkədə diskret arqumentli funksiya şəbəkə funksiyası ilə təqribi olaraq əvəz olunur. Tənliyə daxil olan törəmə üçün isə uyğun sonlu fərqlər münasibətləri istifadə olunur. Diferensial tənliyin fərqlər tənliyi ilə belə əvəz olunmasına onun

şəbəkədə approksimasiyası deyilir. Beləliklə, diferensial tənliyin həlli məsələsi şəbəkənin düyün nöqtələrində şəbəkə funksiyasının qiymətlərinin axtarılması məsələsinə gətirib çıxarır.

Aşağıdakı Koşi məsələsinə baxaq:

$$\frac{dy}{dx} = F(x), \;\; x > x_0, \qquad y(x_0) = y_0.$$

h addımlı müntəzəm şəbəkə daxil edək və düyün nöqtələri olaraq arqumentin $x_0, x_1, \ldots$ nöqtələrini qəbul edək. Düyün nöqtələrində axtarılan həlli approksimasiya edən şəbəkə funksiyasının qiymətlərini $y_0, y_1, y_2, \ldots$ ilə işarə edək, yəni $y(x_i) = y_i, \;\; i = 1,2, \ldots.$ Onda sonlu fərqlər sxemini aşağıdakı şəkildə yazmaq olar:

$$\frac{y_{i+1}-y_i}{h} = F_i, \quad i = 0,1, \ldots; \quad y(x_0) = y_0. \qquad (1)$$

Burada F_i –fərqlər tənliyinin sağ tərəfinin x_i nöqtəsindəki qiymətidir:

$$F(x_i) = F_i (i = 1,2, \ldots).$$

(1) tənliyini həll etməklə

$$y = y_i + hF_i \quad (i = 1,2, \ldots)$$

rekurent ifadəsini alarıq, burada $y_0 = a$ başlanğıc qiyməti verilmişdir.

Misal. Sonlu fərqlər üsulundan istifadə edərək

$$\frac{dy}{dx} = 3x^2 + 5, \;\; y(0) = 1$$

Koşi məsələsinin həll proqramını Turbo Pascal proqramlaşdırma dilində tərtib edək.

```
program Sonlu  ferqler;
uses crt;
const n=6;
type t=array[0..n] of real;
var y:t;h,x,a:real;i:integer;
function f(x:real);
 begin
 f:=3*x*x+5;
 end;
 begin clrscr;
   h:=0.1;a:=0;y[0]:=1;
   for i:=0 to n-1 do begin
   x:=a+i*h;
 y[i+1]:=y[i]+h*f(x);writrln('y[',I,']=',y[i]);end;
 end.
```

NAZİLƏ MURADOVA
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
nazilamuradova@gmail.com

MƏKTƏB RİYAZİYYATI KURSUNDA VII SİNİFLƏRDƏ MƏRKƏZİ SİMMETRİYANIN TƏDRİSİ XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Məqalədə məktəb riyaziyyatı kursunda həndəsi çevrilmələrin növü olan dönmənin xüsusi halı mərkəzi simmetriyanın tədrisinin əhəmiyyəti və metodiki xüsusiyyətləri araşdırılmışdır. Mərkəzi simmetriya şagirdlərin məntiqi təfəkkürünü və analitik bacarıqlarını inkişaf etdirir, gündəlik həyatdakı bir çox obyekt və hadisələrin dərk edilməsində mühüm rol oynayır. Bu baxımdan mərkəzi simmetriya və onun xassələrinin sistemli və praktikyönümlü şəkildə tədrisi riyaziyyat təliminin keyfiyyətinin yüksəldilməsinə, həndəsi modelləşdirmə və problem həlletmə bacarıqlarının inkişafına imkan yaradır.

Açar sözlər: *həndəsə məzmun xətti, həndəsi çevrilmələr, mərkəzi simmetriya*

Riyaziyyatın tədrisində həndəsi çevrilmələr və onların tətbiqləri şagirdlərin məntiqi təfəkkürünü və analitik bacarıqlarını inkişaf etdirir, gündəlik həyatdakı bir çox obyekt və hadisələrin dərk edilməsində mühüm rol oynayır. Məktəb riyaziyyatı kursunda VII sinifdə mərkəzi simmetriyanın tədrisi varislik prinsipi gözlənilməklə qazanılmış biliklərin daha da genişləndirilməsinə xidmət edir. Bu zaman şagirdlərdə nəzəri biliklərlə yanaşı həndəsi modelləşdirmə və problem həlletmə bacarıqlarının elmi əsaslarla inkişaf etdirilməsinə xüsusilə diqqət etmək lazımdır.

Aparılmış tədqiqatlardan aydın olur ki, paralellik, müstəvidə istiqamət və iki müxtəlif istiqamət arasındakı bucaq anlayışının daxil edilməsi fiqurun nöqtə ətrafında məlum bucaq qədər dönməsinin öyrənilməsinə zəmin yaradır. Belə ki, V-VI siniflərdə şagirdlər dönmə anlayışı ilə, VII sinifdə isə dönmənin xüsusi halı olan mərkəzi simmetriya ilə tanış olurlar.

Əvvəlcə dönmə və onun xassələrini qısaca şərh edək.

Verilmiş iki kəsişən düz xəttə nəzərən ardıcıl iki ox simmetriyası nəticəsində alınan çevrilməyə dönmə deyilir.

İxtiyari α bucağı altında kəsişən iki l_1 və l_2 düz xətti götürək və onların kəsişmə nöqtəsini O ilə işarə edək. Tutaq ki, $l_1(A) \to A_1$, $l_2(A_1) \to A'$-dır. Onda bu iki ardıcıl ox simmetriyası nəticəsində A nöqtəsi A' nöqtəsinə çevrilmiş olur. Bu halda O nöqtəsinə dönmə mərkəzi deyilir. Dönmə mərkəzini A və A' nöqtələri ilə birləşdirsək alınan $\angle AOA' = \varphi$ bucağına dönmə bucağı deyilir. Adətən, saat əqrəbinin hərəkətinin əksi istiqamətindəki dönməni müsbət qəbul edirlər.



Dönmənin aşağıdakı əsas xassələrini qeyd edək:

Xassə 1. Dönmə fiquru özünə bərabər və onunla eyni istiqamətlənmiş fiqura çevirir.

Xassə 2. Dönmə mərkəzi fırlanmanın yeganə ikiqat nöqtəsidir. Dönmə bucağı düz bucaqdan fərqli olduqda ikiqat düz xətt yoxdur.

Xassə 3. Dönmə bucağı 180^0 olduqda ona mərkəzi simmetriya deyilir. Mərkəzi simmetriyada simmetriya mərkəzindən keçməyən düz xətt ona paralel olan düz xəttə çevrilir.

Xassə 4. Dönmə bucağı 360^0 olduqda müstəvinin bütün nöqtələri özü-özünə keçir, yəni eyni çevrilmə yaranır.

Qeyd etdik ki, mərkəzi simmetriya dönmə çevrilməsinin xüsusi halıdır. VII sinifdə şagirdlər müstəvi üzərində fiqurların hərəkəti - mərkəzi simmetriya ilə tanış edilir. Mərkəzi simmetriya şagirdlər üçün həndəsi qurma kimi elə bir çətinlik törətmir. Çünki verilmiş fiqura verilən nöqtəyə nəzərən simmetrik fiqur qurmaq üçün fiqurun ixtiyari nöqtəsini mərkəzlə birləşdirib, alınan parçanı özü qədər uzatmaq kifayətdir. Bu qayda ilə axtarılan simmetrik fiqur qurulur.

VII sinifdə nöqtəyə nəzərən verilmiş fiqura simmetrik fiqurun qurulması alqoritmi aşağıdakı kimi izah edilir:

Verilmiş A və O nöqtələri düz xətt vasitəsilə birləşdirilir. Bu düz xətt üzərində O nöqtəsindən sol tərəfdə uzunluğu OA parçasının uzunluğuna bərabər olan OA_1 parçası ayrılır. Beləliklə, hər hansı O nöqtəsinə nəzərən verilmiş A nöqtəsinə simmetrik olan A_1 nöqtəsini qurmaq üçün A nöqtəsindən O-ya qədər məsafəni O nöqtəsindən əks tərəfə OA məsafəsi qədər uzatmaq lazımdır.



O və A nöqtəsindən keçən düz xətt üzərində $OA_1 \cong OA$ şərtini ödəyən A_1 nöqtəsinə O nöqtəsinə nəzərən A nöqtəsi ilə simmetrik nöqtə deyilir. O nöqtəsi simmetriya mərkəzi adlanır və öz-özünə simmetrik nöqtədir.

Nöqtəyə nəzərən simmetrik fiqurlar mərkəzi simmetrik və hər hansı nöqtəyə nəzərən simmetrik fiqurlar olmaqla öyrənilir. Müəllim hər iki qurmanı müxtəlif fiqurlar üzərində nümayiş etdirməklə şagirdlərdə təlim nəticəsini formalaşdırmağa çalışa bilər. Daha sonra şagirdlərə sərbəst tapşırıqlar verməklə onlarda müəyyən bacarıqların formalaşmasına imkan yarada və simmetrik fiqurların xassələri şagirdlərlə birlikdə araşdıra bilər.

Nöqtəyə nəzərən simmetriyanın xüsusiyyətləri aşağıdakılardır:

1. Mərkəzi simmetriyada məsafə saxlanılır.
2. Mərkəzi simmetriyada nöqtə nöqtəyə, düz xətt düz xəttə, şüa şüaya, parça isə özünə bərabər olan parçaya çevrilir.
3. Mərkəzi simmetriyada fiqur özünə konqruyent olan fiqura çevrilir.

Tədris olunan mövzuya dair tarixi incəsənət arxitektura nümunələri üzərində şagirdlərə simmetrik fiqurların araşdırılması sərbəst tapşırıq şəklində verilməli və onların əhəmiyyəti haqqında müzakirələr aparılmalıdır. Belə ki, simmetrik fiqurlara incəsənətdə, memarlıqda, texnikada, məişətdə tez-tez rast gəlinir. Xalçalarda, parçalarda, divar kağızlarında, tarixi abidələrdə olan naxışların əksəriyyəti simmetriya mərkəzinə malik olan fiqurlardır.

Qeyd etmək lazımdır ki, nöqtəyə nəzərən simmetrik fiqurların qurulması zamanı təlim nəticəsi zəif olan şagirdlərə daha asan tapşırıqların verilməsi məqsədəuyğundur. Çünki VII sinif şagirdi ən azı nöqtəyə simmetrik olan nöqtəni qurmağı bacarmalıdır. Təlim nəticəsi yüksək olan şagirdlərə isə daha mürəkkəb tapşırıqların verilməsi məqsədəuyğundur. Belə ki, simmetriya mərkəzini həndəsi fiqurların (üçbucağın, düzbucaqlının və s.) tərəfi üzərində, daxilində qeyd edərək həmin nöqtəyə nəzərən bu fiqura simmetrik olan fiquru qurmağı tapşırmaq olar.

Apardığımız tədqiqat və metodiki təhlillər onu göstərir ki, riyaziyyat fənn kurikulumunun 3.2.1 alt-standartı (“Verilmiş nöqtəyə nəzərən verilmiş fiqurla simmetrik fiqur qurur”) üzrə müəyyən olunmuş təlim nəticələrinin effektiv reallaşdırılması şagirdlərdə fundamental həndəsi kompetensiyaların formalaşmasında xüsusi rol oynayır. Təlim prosesində bu hədəflərə çatmaq şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırır:

- fiqurların mərkəzi simmetriya zamanı invariantlığının (formasının və ölçülərinin) saxlanılmasını və fırlanma hərəkətini (180^0 istiqamət dəyişməsini) zehnində canlandırmaqla mücərrəd həndəsi anlayışları vizuallaşdırmaq bacarığı qazanırlar;

- praktik-konstruktiv bacarıqlar, yəni həndəsi alətlərlə alqoritmik ardıcılığa əməl etməklə reallaşdırılan qurma bacarıqları formalaşdırılır;
- ətraf aləmdəki obyektlərin və həndəsi fiqurların strukturundakı simmetriya elementlərini müstəqil şəkildə identifikasiya etmək, onları digər həndəsi çevrilmələrdən fərqləndirmək və analitik mühakimə yürütmək kompetensiyasına yiyələnirlər.

Nəticə. Ümumiyyətlə, məktəb riyaziyyatı kursunda təlim nəticələrinə əsaslanan dərslərin təşkili şagirdlərin yalnız riyazi bilikləri mexaniki mənimsəməsinə deyil, həm də onlarda həndəsi modelləşdirmə və problem həlletmə bacarıqlarının elmi əsaslarla inkişaf etdirilməsinə xidmət edir.

SAHİB ƏLİYEV
Naxçıvan Müəllimlər İnstitutu
SahibAliyev@nmi.edu.az
TƏRANƏ ƏLİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
TaranaAliyeva@nmi.edu.az

MÜƏYYƏN İNTEQRALIN DÜZBUCAQLILAR ÜSULU İLƏ TƏQRİBİ HESABLANMASINDA İKT-DƏN İSTİFADƏ TƏCRÜBƏSİNDƏN

Komputerin insan fəaliyyətinin bütün sferalarına tətbiqi müxtəlif sahələrdə çalışan ixtisascılardan hesablanma texnologiyasında istifadə bacarığını tələb edir. Ali məktəblərin riyaziyyat və informatika ixtisasında oxuyan tələbələr I kursdan başlayaraq tədris dövrü ərzində daima kompüterlə təmasda olurlar. Əvvəlcə onlar alqoritmik dili , sonra isə sadə riyaziyyat və fizika məsələlərinin həlli proqramlarını tətbiq etməyi öyrənirlər. Yuxarı kurslarda tələbələrə təqribi hesablama üsullarının tədrisi kompüterlərdən istisadə bacarığının vacibliyini bir daha təsdiq edir.

Burada məqsədimiz müəyyən inteqralın təqribi hesablama qaydalarından istifadə etməklə İKT dən istifadəni araşdırmaqdır.

Düzbucaqlılar üsulunda interpolyasiyadan istifadə olunur, yəni $y = f(x)$ funksiyasının qrafiki (x_k, y_k) nöqtələrini birləşdirən əyrilər şəklində təsəvvür olunur. Bu halda bütün fiqurun (əyrixətli trapesiyanın) sahəsi elementar düzbucaqlıların sahələri cəminə bərabər götürülür. Düzbucaqlılar üsuluna əsasən müəyyən inteqral.

$$\int_a^b f(x)dx = h \cdot \sum_{k=0}^{n-1} f(\alpha + k \cdot h) + R_n(\alpha, f) \quad (1)$$

inteqral cəmi ilə əvəz olunur, burada $R_n(\alpha, f)$ -qalıq həddir , o, $f(x)$ funksiyasının formasından və α, n parametrlərinin seçilməsindən asılıdır. Praktik işlərdə (1) düsturunun aşağıdaki üç xüsusi hallarından istifadə olunur:

a) *Sol düzbucaqlılar düsturu* $(\alpha = a)$:
$\int_a^b f(x)dx = h \cdot (y_0 + y_1 + \cdots + y_{n-1}) + R_n(a, f)$;

b) *Sağ düzbucaqlılar düsturu* $(\alpha = a + h)$:
$$\int_a^b f(x)dx = h \cdot (y_1 + y_2 + \cdots + y_n) + R_n(a + h, f)$$

c) *Orta düzbucaqlılar düsturu* $(\alpha = a + h/2)$:

$$\int_a^b f(x)dx = h \cdot \sum_{k=0}^{n-1} f\left(a + (k + \frac{1}{2} \cdot h\right) + R_n(a + h/2, f) \quad (2)$$

Əgər $[a, b]$ parçasında $f(x)$ funksiyasının ikinci tərtib törəməsi varsa və kəsilməzdirsə, onda hər hansı $\theta \in [a, b]$ üçün (2) düsturundakı qalıq həddi belə qiymətləndirilir:

$$R_n\left(a + \frac{h}{2}, f\right) = \frac{(b-a)^3}{24n^2} f''(\theta), \theta = [a, b] \quad (3)$$

Konkret hallarda istənilən $\varepsilon > 0$ ədədi üçün bu qiymətləndirmə *n*- i elə seçməyə imkan verir ki, $|R_n| < \varepsilon$ şərti ödənilsin.

Aşağıda bir misal üzərində müəyyən inteqralın hesablanması üçün orta düzbucaqlılar üsulunun proqramı verilmişdir (qeyd edilmiş n-ə görə). Proqramın icrası prosesində inteqralaltı $f(x)$ funksiyasının $a + h/2, a + 3h/2, ., b - h/2$ nöqtələrindəki qiymətlərini hesablamaq üçün alt proqrama müraciət olunur.

Misal 1 . $\varepsilon = 0{,}001$ dəqiqliyi ilə

$$\chi = \int_0^1 e^{-x^2} dx$$

inteqralını hesablayın.

Əvvəlcə qalıq hədini qiymətləndirək. f(x) funksiyasının ikinci tərtib törəməsini tapaq:

$$f''(x) = 2e^{-x^2}(2x^2 - 1).$$

Onda [0,1] parçasənda $f''(x)$ –in mütləq qiyməti $x = 0$ olduqda ən böyük qiymətini alır. Deməli,

$$|R_n| \leq \frac{(b-a)^3}{24n^2} \cdot \max_x |f''(x)| = \frac{1}{12n^2}$$

olur və tələb olunan dəqiqliyi almaqdan ötrü n=10 qəbul etmək kifayətdir.

```
program Ortadüzbucaq;
uses crt;
 var s,a,b,c,h:real;
 i.n:integer;
 function f(x:real):real;
 begin
 f:=exp (-x*x);
 end ;
begin clrscr ;
read (a,b,n) ;
 h:=(b-a)/n;s:=0;c:=a-h/2;
 for i= 1 to no do
 begin
 c:=c+h;s:=s+h*f(c);end;
 writeln ('int=',s:8:3);
end
```

Proqramın icrası nəticəsində $\chi \approx 0.747$ qiyməti tapılır.

Analoji olaraq aşağıda sol düzbucaqlılar üsulunun proqramı vermək olar.

FATMA HACIYEVA
Naxçıvan Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru

İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT VƏ İNFORMATİKA DƏRSLƏRİNİN İNTEQRASİYASI

Məqalədə ibtidai siniflərdə riyaziyyat və informatika fənlərinin inteqrasiyasının nəzəri və praktik əsasları araşdırılmışdır. Fənlərarası inteqrasiyanın şagirdlərin məntiqi, alqoritmik və yaradıcı təfəkküründün inkişafında, problem həll etmə bacarıqlarının formalaşmasında rolu təhlil edilmişdir. Riyaziyyat və informatika arasında mövcud olan məzmun əlaqələrinin təlim prosesində səmərəli istifadəsinin imkanları göstərilmiş, rəqəmsal texnologiyaların və interaktiv təlim metodlarının inteqrativ təhsildə əhəmiyyəti əsaslandırılmışdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, bu fənlərin qarşılıqlı əlaqədə tədrisi şagirdlərin təlim motivasiyasını artırır, onların rəqəmsal savadlılığının formalaşmasına və əldə olunan biliklərin praktik tətbiqinə müsbət təsir göstərir. Nəticə etibarilə, riyaziyyat və informatika dərslərinin inteqrasiyası ibtidai təhsilin keyfiyyətinin yüksəldilməsi və müasir cəmiyyətin tələblərinə cavab verən şəxsiyyətin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: *ibtidai təhsil, riyaziyyat, informatika, inteqrasiya, alqoritmik düşüncə, rəqəmsal savadlılıq, fənlərarası əlaqə, STEAM təhsili, innovativ təlim*

Müasir dövrdə təhsil sistemində baş verən yeniliklər fənlərarası inteqrasiyanın əhəmiyyətini daha da artırmışdır. İnformasiya cəmiyyətinin formalaşması, rəqəmsal texnologiyaların həyatın bütün sahələrinə nüfuz etməsi və əmək bazarının yeni tələbləri təhsil qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrdən biri şagirdlərdə erkən yaşlardan məntiqi təfəkkür, problem həll etmə, yaradıcı yanaşma və rəqəmsal savadlılıq bacarıqlarının formalaşdırılmasıdır. Bu baxımdan ibtidai siniflərdə riyaziyyat və informatika fənlərinin inteqrasiyası xüsusi aktuallıq kəsb edir.

İbtidai təhsil şagird şəxsiyyətinin formalaşmasının əsas mərhələlərindən biridir. Bu dövrdə qazanılan bilik, bacarıq və vərdişlər sonrakı təhsil pillələrində uğurun əsasını təşkil edir. Riyaziyyat fənni şagirdlərdə məntiqi düşünmə, analiz və müqayisə aparmaq, nəticə çıxarmaq kimi bacarıqlar formalaşdırır. İnformatika isə informasiya ilə işləmək, alqoritmik düşünmək, rəqəmsal vasitələrdən istifadə etmək və problemləri sistemli şəkildə həll etmək bacarıqlarını inkişaf etdirir. Hər iki fənnin məqsəd və məzmun baxımından yaxınlığı onların inteqrativ şəkildə tədrisini zəruri edir.

Riyaziyyat və informatika arasında sıx əlaqə mövcuddur. Riyazi hesablamalar, ardıcıllıqlar, cədvəllər, məntiqi tapşırıqlar və modellər informatika fənnində istifadə olunan alqoritmlərin və proqramlaşdırma elementlərinin əsasını təşkil edir. Şagirdlər sadə alqoritmlər qurarkən, verilənləri qruplaşdırarkən və ya müxtəlif rəqəmsal proqramlarda tapşırıqlar yerinə yetirərkən riyazi biliklərdən istifadə edirlər. Bu proses onların nəzəri biliklərini praktik fəaliyyətlə əlaqələndirməyə imkan verir.

İnteqrasiya olunmuş dərslərin tətbiqi şagirdlərin dərsə marağını və fəallığını artırır. Müxtəlif rəqəmsal platformalar, interaktiv lövhələr, təlim oyunları və elektron resurslar vasitəsilə riyazi anlayışların daha aydın təqdim olunması mümkündür. Məsələn, həndəsi fiqurların qurulması, ölçmə və müqayisə tapşırıqları, müxtəlif məntiq oyunları və elektron məşğələlər şagirdlərin mövzuları daha asan mənimsəməsinə kömək edir. Bu yanaşma həm də təlim prosesini daha maraqlı və motivasiyaedici edir.

Riyaziyyat və informatikanın inteqrasiyası şagirdlərdə alqoritmik düşüncənin formalaşmasına xüsusi təsir göstərir. Alqoritmik düşüncə problemin mərhələli şəkildə həll olunmasını, planlaşdırmanı və nəticələrin qiymətləndirilməsini nəzərdə tutur. Bu bacarıqlar yalnız informatika deyil, həm də riyaziyyatın uğurlu mənimsənilməsi üçün vacibdir. Şagirdlər müxtəlif məsələlərin həlli zamanı müəyyən ardıcıllığa əməl etməyi, məntiqi əlaqələri müəyyənləşdirməyi və düzgün qərarlar qəbul etməyi öyrənirlər.

İnteqrativ təlimin digər mühüm üstünlüyü fərdi yanaşma imkanlarının genişlənməsidir. Rəqəmsal təlim vasitələri hər bir şagirdin bilik səviyyəsinə uyğun tapşırıqlar təqdim etməyə imkan verir. Bu isə zəif və güclü şagirdlərlə diferensial iş aparılmasına şərait yaradır. Eyni zamanda müəllim şagirdlərin nailiyyətlərini daha operativ şəkildə izləyə və qiymətləndirə bilir.

Müasir dövrdə STEM və STEAM təhsil yanaşmalarının geniş yayılması da riyaziyyat və informatika inteqrasiyasının əhəmiyyətini artırır. Bu yanaşmalar şagirdlərin praktik fəaliyyətə cəlb olunmasını, yaradıcılıq qabiliyyətlərinin inkişafını və real həyat problemlərinin həllinə yönəlmiş bacarıqların formalaşdırılmasını nəzərdə tutur. Riyaziyyat və informatikanın qarşılıqlı əlaqədə öyrədilməsi gələcəkdə proqramlaşdırma, mühəndislik və texnologiya sahələrinə marağın yaranmasına da müsbət təsir göstərir.

Nəticə olaraq qeyd etmək olar ki, ibtidai siniflərdə riyaziyyat və informatika dərslərinin inteqrasiyası şagirdlərin məntiqi, yaradıcı və alqoritmik təfəkkürünün inkişafına, rəqəmsal savadlılığının formalaşmasına və təlim nəticələrinin yüksəldilməsinə mühüm töhfə verir. Bu səbəbdən müasir təhsil prosesində inteqrativ yanaşmaların geniş tətbiqi təhsilin keyfiyyətinin artırılması baxımından vacib istiqamətlərdən biri hesab olunur.

ARZU SƏFƏROVA
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru
arzusafarova078@gmail.com
https://orcid.org/0000-0003-2892-2974

RİYAZİYYAT DƏRSLƏRİNDƏ TƏNQİDİ VƏ YARADICI TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASI

Tənqidi düşüncə və yaradıcı düşüncə riyaziyyatın və eləcə də digər fənlərin qarşıya çıxan əsas və başlıca məsələlərdəndir. Mütləq mənada riyaziyyat elmi bir tədris fənni kimi tətbiqdə böyük əhəmiyyət daşıyır və elə bu baxımdan da həm riyaziyyatın tədrisi prosesində, həm də mənimsənilməsi prosesində, forma və xüsusiyyətləri öz aktuallığı ilə həmişə diqqət mərkəzində olan məsələlərdəndir. Bu məsələlərin mahiyyətini və imkanlarını, xüsusiyyətlərini bilmədən və nəzərə almadan elmin müfəvvəqiyyətlə idarə edilməsi mümkün deyil.

Baxılan bu işdə məqsəd təlim üsullarının, xüsusilə analiz və sintez üsulunun təlim prosesində tədqiqi xüsusiyyətləri, mümkünlüyü, forması və məzmunu ilə bağlı olan məsələləri araşdırıb, təlim prosesinin səmərəliliyinin artırılması işinə xidmət edən ümumi və əsaslı xüsusiyyətə malik olan nəticələr almaqdan ibarətdir ki, konkret olaraq bu işlə bağlı olan məsələlər təlim prosesinə tətbiqi mümkün olan üsul və formaları ayırd etmək, onlarla bağlı olan ümumiləşmələr aparmaq, tətbiqi xüsusiyyətə malik olan nümunələr və tətbiqi xarakterli şərhlər verməkdən ibarətdir.

Açar sözlər: *tənqidi düşüncə, yaradıcı düşüncə, təhlil etmək, nəticə çıxarmaq, qiymətləndirmə*

Giriş. Mürəkkəb təlim prosesində yaradıcı və tənqidi düşünmək qabiliyyəti daha mühüm əhəmiyyət kəsb edir. Bu iki idrak bacarığı insan zəkasının və yeniliyinin təməli kimi qəbul edilir. Yaradıcı düşüncə bizə yeni ideyalar yaratmağa, imkanları təqdim etməyə və problemlərə unikal perspektivlərdən yanaşmağa, tənqidi düşüncə isə məlumatları qiymətləndirməyə və əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir. Bu bacarıqların məktəblərdə uşaqlara kiçik yaşlarından başlayaraq aşılanması, test materiallarının və öyrənmə prosesinin bunun üzərində qurulması böyük əhəmiyyətə malikdir. Şagirdlərin hələ kiçik yaşlarından etibarən düşünmək, analiz etmək və öz fikirlərini müstəqil şəkildə ifadə etmək üçün şərait yaratmaq özünə inam hissinin artırılmasına gətirib çıxaracaqdır. Bu sahədə aparılan tədqiqatlar sübut edir ki, düşüncə prosesi, həqiqətən də zamanla inkişaf etdirilə bilən bacarıqdır.

Tənqidi və yaradıcı düşünmənin hazırkı dövrümüzdə daha aktual bir mövzu olduğunu nəzərə alsaq, bu bacarıqların şagidlərdə inkişaf etdirilməsi işinin təkmilləşdirilməsi və onların təlimdə hansı müsbət nəticələrə gətirib çıxara biləcəyi də daim tədqiqatçıların diqqət mərkəzində olmalıdır.

Təhsil anlayışı haqqında deyilən fikirlər, tədqiqatlar və irəli sürülən fərziyyələr birbirindən fərqlənir. Albert Eynşteyn təhsil anlayışını bu cür ifadə edib: “Təhsil faktları öyrənmək deyil, ağlı düşünməyə təşviq edən təlimdir”. O iddia edirdi ki, bir insanın öyrənmək üçün məktəb və ya kollec təhsili almasına ehtiyac yoxdur. Məktəb və ya kollec təhsilinin məqsədi: dərsliklərin edə bilməyəcəyi şəkildə düşünməyi öyrətmək, eləcə də inteqrasiya olunmuş dərketmə qabiliyyətini və bilikləri ağılla tətbiq etmək bacarığını inkişaf etdirməkdir. Bunlar bizim bu gün də arzuladığımız təhsil mədəniyyətinin əsas aspektləridir. Dinamik inkişaf edən təhsil sahəsində öyrənmə paradiqmaları bilik əldə etməyin əzbərləmə və standart qiymətləndirmələrdən kınara çıxdığını qəbul etməklə ciddi dəyişikliklərə məruz qalır. Bu transformasiyanın mərkəzində tənqidi və yaradıcı düşünmə bacarıqlarının qarşılıqlı əlaqəsi dayanır. Bu təkcə təhsil mənzərəsini yenidən təsəvvür etməyib, həm də intellektual imkanların yeni dövrünü ifadə edən iki sütunu formalaşdırır.

Tənqidi düşüncə

Insanların əsas qabiliyyətlərindən biridə tənqidi düşünmə qabiliyyətidir. Tənqidi təfəkkür vasitəsilə insanlar analiz edir və araşdırır. Tənqid yunan sözüdür “critic” və ya “kritike” sözlərindən yaranıb və “ciriticus” kimi latın dilinə keçdikdən sonra müxtəlif dillərdə “mühakimə sənəti” kimi

istifadə olunub. Mühakimə sənəti çərçivəsində düşüncəni təkmilləşdirmək cəhdləri e.ə. 600-cü ildə Sokrat tərəfindən verilmişdir.

Təhsil müəssisələrinin əsas vəzifəsi insanın düşüncə qabiliyyətini inkişaf etdirməkdir. Bu gün inkişaf etməkdə olan ölkələrin təhsil sistemlərində belə ən çox tənqid edilən məsələ odur ki, dərs materialları tənqidi düşünmə bacarıqlarının inkişafına imkan verecək şəkildə hazırlanmır. Tənqidi təfəkkürün və həmçinin tənqidi şüurun inkişaf etdirilməsi müasir insanların reallıqlarını dərk etmək və dəyişdirmək üçün tənqidi təfəkkürün inkişafının öyrənilməsi zəruridir. Bunun nəticəsidir ki, tənqidi düşüncə və və təsviredici tədqiqatların sayı sürətlə artır.

Tənqidi düşünməyə həvəsləndirməklə şagirdləri başqa biliklərlə yanaşı, fikirləri faktlardan ayırmağa , sübutları qiymətləndirməyə və səthi düşüncədən qaçmağa imkan yaradacaqdır. Bu cür yanaşmada intelektual müstəqilliyin və yaradıcılığın inkişafına imkan verir. Tənqidi düşüncə ömür boyu öyrənmənin bir hisssidi. Bu isə yaradıcı düşünməyə kömək edir. Fikirləri təhlil və tənqid etməyi, fənlər arasında əlaqə qurmağı, habelə məzmunu daha dərin və uzunmüddətli səviyyədə başa düşməyi bacarırlar. İnformasiya bolluğu ilə dünyamız çox sürətlə inkişaf edir və dəyişilir. Bunları nəzərə alaraq bu nəticəyə gəlirik ki, düşüncənin inkişafı şagirdləri təhlil etmək və nəticə çıxarmaq üçün vacib olan bacarıqlarla təchiz edir. Bu da şagirdlərdə şəxsi, peşəkar və akademik kontekstlərdə düzgün seçimlər etməyə kömək edərək onlara ziddiyyətli fikirləri müəyyən etməyə və və onlar arasında fərq qoymağa imkan verir. Müəllimlər şagirdlərin fikirlərinə , fərziyyələrinə daim alternativ həll yolları axtarmağa maraq yaradır. Çünki düşüncənin formalaşdırılması təkcə dərsdə mənimsədikləri deyil, həmçinin dəesdənkənar fəaliyyətlərinində dəsdəyi olur. Poblemlərin nəzərdən keçirilməsi və xüsusi struktur əsasında sistematik həlli və analiz edilməsi şagirdlərin inkişafı üçün vacib bir amildir. Bu cür metodik və adaptiv yanaşma şəkli peşəkar karyera uğruna və eyni zamanda cəmiyyətin tələbatlarını ödəyən gənclərin yetişdirilməsinə səbəb ola bilir. Tənqidi düşüncə təhsildə böyük əhəmiyyətə malikdir, çünki o şagirdlərə məlumatları tənqidi qəbul etməyə, müstəqil düşünməyə və mürəkkəb problemləri effektiv şəkildə həll etməyə imkan verir. Müəllimlər tənqidi düşünmə bacarıqlarını inkişaf etdirərək şagirdləri akademik müvəffəqiyyətə hazırlarırlar.

Yaradıcı Düşüncə

Yaradıcılıq elmlərin inkişafına baxmayaraq müəyyən edilməsi və izahla ifadə edilməsi çətin olan anlayışdır. Çoxşaxəli bir məfhum olan yaradıcılıq anlayışı fənlərə, məktəblərə, yanaşmalara və xüsusiyyətlərə görə müxtəlif formalarda müəyyən edilir. Yaradıcılıq yeni bir ideya ortaya qoymaq deyil, mövcud bilgilərdən yeni sintez yaratmaq , problemlərə yeni həll yolları tapmaq, yeni formaya uyğunlaşdırmaqdır. Buna görədə yaradıcılıq ömür boyu davam edən bacarıqdır.

Yaradıcı insanlar başqaları ilə ünsiyyət qurmaqda daha uğurludurlar və eyni zamanda yaxşı dinləyicidirlər. Açıq fikirlidirlər, yeni həllər təqdim etməkdən və ideyaları analiz etməkdən, risk etməkdən çəkinmirlər.

Təhsil kontekstində yaradıcı düşüncə böyük əhəmiyyətə malikdir. Təhsildə yaradıcılıq bədii ifadədən kənara çıxır; müxtəlif perspektivlərdən mürəkkəb problemlərə qeyri ənənəvi həll yolları tapmaq qabiliyyəti ilə xarakterizə edilir.

Problemlərə fərqli prizmalardan yanaşa bilmək qabiliyyəti yaradıcı düşüncənin əsas cəhətlərindən biri hesab olunur. Əzbər və standart testlərdən fərqli olaraq yaradıcı düşüncə şagirdlərdə qeyri-ənənəvi həllər tapmağa və ənənəvi çərçivədən kənar düşünməyə imkan verir. Bu problemi həll etmə bacarığını deyil, həmçinin intelektual çevikliyi və sörətli düşünməni inkişaf etdirir.

Yaradıcı düşüncə fənlərarası inteqrasiya vasitəsilə şagirdlərin nəzəri biliklərini praktikada tətbiq etməyə, müxtəlif fənlər arasındakı əlaqələri araşdırmağa kömək edir. Bu inteqrasiya sayəsində müəllimlər şagirdləri əlavə materiallarla təmin edib onların fəaliyyətlərinə şərait yaradırlar. Müxtəlif media vasitələri və resurslarla təchiz olunmuş şagirdlər bilik və bacarıqlarını yaradıcı şəkildə tətbiq edə və öyrənə bilirlər. Yaradıcı düşüncə, həmçinin özünü ifadə edir, şagirdlərdə özünə məxsus istedadlardan istifadə etməyə imkan verir. İncəsənət, yazı, dizayn və digər vasitələrlə yaradıcı ifadə üçün imkanlar təmin etməklə təhsil şagirdlərdə özünə inam, özünüdərk və müstəqillik hissini inkişaf etdirir. Bu təkcə onların akademik inkişaflarını artırmaqla qalmır, həm də onları müasir cəmiyyətin

problemlərini yaradıcı və empatik şəxsiyyət kimi idarə etmək üçün lazım olan bacarıq və düşüncə tərzi ilə yetişdirir.

Nəticə. Belə bir nəticəyə gəlirik ki, yaradıcı və tənqidi düşünmə bacarıqları müasir dünyanın problemlərini həll etmək üçün əvəzsiz vasitədir. Bu bacarıqların arxasında duran psixologiyanı anlamaq bizim yenilik etmək, problem həll etmək və əsaslandırılmış qərarlar qəbul etmək qabiliyyətimizin əsasında duran mürəkkəb prosesləri ortaya qoyur. Bu bacarıqların inkişaf etdirilməsi təkcə şəxsi prioritet deyil, həm də ictimai bir zərurətdir. Təhsil sistemlərinin bu bacarıqları erkən yaşlarından inkişaf etdirməyə üstünlük verməsi vacibdir. Marağın təşviqi, tədqiqat imkanlarının təmin edilməsi və tənqidi düşünən şafirdlər üçün zəmin yarada bilər. Davamlı peşəkar inkişaf və hazırlıq proqramları hər yaşda əlçatan olmalı və öyrənmə mədəniyyətinin formalaşmasına kömək etməlidir.

AYGÜN SULTANOVA
Naxçıvan Müəllimlər İnstitutu
Naxçıvan Dövlət Universiteti
Fizika üzrə fəlsəfə doktoru, dosent
aygunsultanova60@gmail.com
https://orcid.org/0009-0006-7406-6055

FİZİKANIN TƏDRİSİNDƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Fizika insan həyatını rahat edən bir çox texnologiya və mühəndislik tətbiqlərinə əhəmiyyətli töhfə verən əsas elmdir. Təcrübə və izahlara əsaslanan bir fənndir. Təcrübə və izahatlar olmadıqda şagirdlərin fizikanı başa düşmələri çətinləşir. Fizika prinsipləri çox mücərrəddir və tələbələrə izah etmək üçün dərin bilik və təcrübə tələb olunur.

Bu gün bəşəriyyətdə baş verən kordinal dəyişiklər daha zəngin elmi biliklərin əldə edilməsini, prinsipcə yeni texnologiyaların yaradılmasını, fənlərin tədrisi metodikasına yeni pedaqoji yanaşma zərurətini meydana çıxarır. Məktəbdə fizikanın tədrisində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi dərslərin fərdiləşdirməni, modelləşdirilməsini, fərdi yanasmanı, o cümlədən interaktiv təlimin tətbiqinə geniş imkan açır. İnformasiya texnologiyalarının inkişaf istiqaməti, texnika və texnoloji əsasların formalaşdırılması üçün elektron dərslikdən, avtomatlaşdırılmış təlim sistemindən, fəal təlim üsullarından optimal istifadə fizika təlim prosesində əsaslı dəyişiklərin edilməsinə imkan verir.

Açar sözlər: *informasiya, elektron dərslik, perspektivlər, kompüter texnologiyası*

Fizika təbiət haqqında elmdir. Fizika təbiətin bir sahəsini deyil, eləcə də digər təbiət elmlərindən fərqli olaraq bütün sahələrini öyrənir. Bu baxımdan fizikanı praktikasız, təcrübəsiz, laboratoriyasız, müşahidəsiz öyrənmək olmaz. İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) konseptual fizikanı asanlaşdırmaq, marağı stimullaşdırmaq və fizika təhsilində təlim nəticələrini artırmaq potensialına görə vacib olur.

Fizika dərslərində təcrübələri laboratoriyada və ya kabinetdə aparmaq imkanı olmadıqda internet vasitəsi ilə nümayiş etdirmək olar. İnformatika dərsinin tədrisi asağı siniflərdə şagirdlərə fizika dərsində elektron dərsliklərindən müstəqil surətdə istifadə etməsini təmin edir. Bu səbəbdən fizika dərsində şagirdə elektron dərslikdən istifadə etmək qaydasını öyrətmək asan olur. Fizika qanunları və düsturları, laboratoriya işləri, testlər, fiziki hadisələrin modelləşdirilmiş videogörüntüsü, alimlər haqqında məlumatları toplayan fizika elektron dərsliyi ilə dərsi yüksək səviyyədə keçirtmək olar.

Fizikanın tədrisində bu gün İKT-dən istifadənin böyük rolu vardır. Kompüterlə müasir dövrdə çox şeyi öyrənmək olar. Şagirdlərə qruplar şəklində müəyyən məsələləri araşdırıb məlumat toplamağı izah etmək olar. Şagirdlər bu tapşırıqları İnternet vasitəsilə yerinə yetirə və slaydlar hazırlaya bilər. Şagird növbəti dərsdə həmin slaydları təqdim edərək əldə etdiyi materialı müzakirəyə verə bilər. Dərsin bu formada gedişi şagirdlərin fənnə marağını artırır, onları fəallaşdırır, yaradıcı təfəkküründü inkişaf etdirir.

Fizika dərsində həmçinin müxtəlif proqramlarda hazırlanan mövzular şagirdlər tərəfindən daha yaxşı qavranılır. Tədrisdə İKT-dən istifadə ümumiyyətlə, müəllim və şagirdləri əzbərləyici xarakter daşıyan, onları passivləşdirən dərslərdən uzaqlaşdırır. İKT-dən istifadə müasir dövrdə imkanları sürətlə artır. Buna görə də müəllim daim çalışmalı və bu imkanlardan istifadə etməyə səy göstərməlidir. Müasir məktəb müəllimdən bunu tələb edir.

Kompüter texnologiyasi ilə və interaktiv metodla keçilən dərs ənənəvi dərsdən fərqli olaraq, şagirdlər üçun daha maraqlıdır. Bu vasitələrdən istifadə etməklə fənnə böyük maraq oyatmaq olar.

İnnovasiya istiqamətlərindən biri də ali məktəbin tədris prosesində təlimdə elektron təhsil resurslarından, müasir informasiya texnologiyalarından istifadədir. Müəllim üçün kompüter

savadlılığı günün tələbidir və hər zaman İKT-dən istifadə etmək imkanı yaradılmalıdır. Ölkəmizin ali təhsil müəssisələrində İKT-dən istifadədə geniş imkanlar yaradılıb.

XX əsrdə tədris prosesi əsasən ənənəvi təlim bazasında qurulduğu üçün müəllim aparıcı informasiya mənbəyi idi. XXI əsrdə informasiya mənbələri müəllim ilə tələbələr arasında vasitəçi funksiyasını yerinə yetirməli və tələbəyə informasiya əldə etmə yollarını, səmərəli iş metodlarını öyrətməlidir. Bu da təhsilin texnologiyasını və məzmununu təkmilləşdirməyi tələb edir. Buna görə də, ali məktəb müəllimləri informasiya tələblərinə uyğun iş sistemi qurmalıdırlar .

İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) konseptual fizikanı asanlaşdırmaq, marağı stimullaşdırmaq və fizika təhsilində təlim nəticələrini artırmaq potensialına görə vacib olur. İKT məlumatı bölüşmək, istehsal etmək, ötürmək və saxlamaq üçün resurslar və texniki vasitələr toplusudur. Fizika Elmində mücərrəd mövzuları asanlaşdırmaq, marağı stimullaşdırmaq və tədris-təlim nəticələrini artırmaq qabiliyyətinə görə İKT çox faydalı olur.

Fizikanın bir çox hadisə, proses və cihazlarını kompüterlə işləyən informasiya kommunikasiya texnologiyaları ilə daha yaxşı başa düşmək olar. Tələbələrin Fizika təlimini təkmilləşdirmək üçün həyata keçirilən strategiyalar təklif olunur və onun tam onlayn formatda və hibrid formatda həyata keçirilməsi və nəticələri müzakirə olunur.

Nəticə. Tədris prosesinin təskili üçün kompüter texnologiyasi yeni imkanlar verir. Yalnız elektron dərsliklərlə kifayətlənmək lazim deyil. Kompüterin köməyi ilə ən sadə halda POWER POİNT və ya digər qrafika proqramlardan istifadə etməklə müxtəlif animasiyalar yaratmaq, müxtəlif fiziki hadisələrin üçölçülü modellərini qurmaq olar. Şagirdlərə belə materiallar keçdikləri mövzuları mənimsəməyə və bu mövzu barədə duzgun fikir yürütməyə böyük kömək edir.

Ənənəvi dərsdən fərqli olaraq, kompüter texnologiyasi ilə və interaktiv metodla keçilən dərs şagirdlər üçun daha maraqlıdır. Sagirdlərdə bu vasitələrdən istifadə etməklə fənnə böyük maraq oyatmaq olar.

SAHİL ƏLİYEV
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru, baş müəllim
SahilAliyev@nmi.edu.az

AVTOMATLAŞDIRILMIŞ TƏHSİL SİSTEMLƏRİ (ATS) VƏ ONLARIN TƏTBİQ XÜSUSİYYƏTLƏRİI

ATS-lər avtomatlaşdırılmış informasiya sistemi olaraq, virtual siniflərdə (auditoriyalarda) təhsil prosesinin keyfiyyətinin yüksəldilməsi məqsədilə yaradılır və öyrənən, öyrədən tədris-metodiki, didaktik və digər təhsil yönümlü materialları özündə birləşdirən avtomatlaşdırılmış informasiya sistemlərinə deyilir.

***Açar sözlər*:** avtomatlaşdırma, təhsil sistemləri, analiz və sintez, qiymətləndirmə, alt sistem

Avtomatlaşdırılmış Təhsil Sistemləri və bu məqsədlə yaradılmış köməkçi vasitələr müxtəlif iş rejimlərində fəaliyyət göstərən obyektlərin işini tənzimləyir və həmin obyektlərin müstəqil idarə olunmasının təmin edilməsində istifadəçiyə kömək edir.



Şəkil.1. Avtomatlaşdırılmış təlim sistemlərinin ümumiləşdirilmiş blok sxemi

ATS-nin bəzi əsas üstünlükləri:

- Riyazi modellərlə adekvatlılığın olması;
- İdarəetmə orqanlarının yaxşı təsəvvür olunması imkanlarının olması, modelləşdirilən obyektin indeksasiyalaşdırılması imkanları;
- Elektron mühazirələrin virtual auditoriyalarda genişləndirilmiş istifadəçi heyəti üçün yararlılığı

Ümumiyyətlə, ATS-nin tətbiqi xüsusi yanaşma tələb edir. Bu tələblər əsasən aşağıda gösərilən mərhələləri əhatə edir:

1. Ənənəvi Təhsil Sistemindən (ƏTS) Avtomatlaşdırılmış Təhsil Sisteminə keçid *inqilabi* xarakter daşımamalıdır. Yəni mövcud təhsil sistemini *deklorativ* qaydada dəyişdirmək yolverilməzdir və burada bütün islahatlar tədricən həyata keçirilməlidir.

2. ATS-lər təhsilin müxtəlif sahələrini əhatə edən kompleks alt sistemlərdən ibarət olması məqsədəuyğundur və bu alt sistemlər hazırlanarkən müəyyən qanunauyğunluğa riayət olunması, bütün prosesin texnoloji *mərhələlər* və *tələblər* əsasında aparılması diqqətdə saxlanılmalıdır.

3. ATS-in tam həcmdə (bütün kompleks alt sistemlərilə) istismarının aşağıdakı mərhələlər üzrə həyata keçirilməsi məqsədəuyğundur:

- ATS-lərin tətbiqinə minimum sayda pilot təhsil müəssisələrində tədricən başlanılır (ibtidai, natamam orta, orta-ixtisas, ali təhsil müəssisələrində) və bu zaman ortaya çıxan problemlər aradan qaldırıldıqca sistemin seçilmiş müəssisələrdə daha geniş miqyasda tətbiqi başlanılır. Sonrakı mərhələdə pilot təhsil müəssisələrinin sayı artırılması, ATS-in istismarı regional və mərkəzi təhsili idarəetmə qurumları cəlb olunması ilə davam etdirilir. Bu qurumların tərkibində ATS strukturlarının yaradılması həyata keçirilir.

Yalnız ATS-n pilot müəssisələrdə tətbiqindən gözlənilən nəticələr özünü doğrultduğu halda onun müəssisələrdə tam tətbiqinə başlanması məqsədəuyğun sayıla bilər.

2. ATS-in kompleks alt sistemləri

Avtomatlaşdırılmış Təhsil Sistemləri əsasən bir-birinə bağlanmış (ümumi interfeysə malik) 5 əsas kompleks alt sistemləri əhatə edir. Həmin alt sistemlərin birgə tətbiqi ATS-in tam funksional fəaliyyət göstərməsinə imkan yaradır. Kompleks alt sistemlərə (mühümlük dərəcəsinə görə sıralanmış) aşağıdakılar aid edilir:

2.1. Ümumi İnformasiya Bankı Sistemi (ÜİBS)

Bu alt sistem əsasən ATS-in digər alt sistemlərinin fəaliyyətini təmin etmək üçün nəzərdə tutulub, aşağıdakı məlumatları özündə cəmləyir:

- Dövlət və qeyri-dövlət informasiya mənbələrindən, təhsillə bağlı statik və dinamik informasiyaları, o cümlədən, qanunvericilik aktlarını, hüquqi sənədləri, təhsil standartlarını və s.
- Təhsillə bağlı beynəlxalq status daşıyan sənədləri;
- Xarici ölkələrin təhsil sistemi ilə bağlı məlumatlari;
- Təhsillə bağlı elektron kitabxana resurslarını(dərsliklər, metodik vəsaitlər, elmi əsərlər, analitik məqalələr və s.);
- Yeni təhsil texnologiyaları haqqında informasiyaları;

Bu və digər məlumatlar toplanmış avtomatlaşdırılmış bazalar əsasən aşağıdakı *funksionaltələblərə* cavab verməlidirlər:

- Məlumatların saxlanılması, arxivləşdirilməsi, bərpası;
- Çeşidləmə və axtarış;
- Analiz və sintez;
- Kommunikasiya xətləri vasitəsilə ötürülmə.

ÜİBS ATS-in digər kompleks alt sistemlərinin hazırlanmasında və gələcək inkişafında önəmli yer tutduğu üçün *birinci növbədə* yaradılmalı və istismara buraxılmalıdır. ÜİBS-in “İstismar” mərhələsinə cəlb olunmuş mütəxəssislər təhsil məsələlərilə bu və ya digər şəkildə əlaqəsi olan dövlət qurumlarına ekspert xidmətləri göstərməklə yanaşı, ATS-lə dövlət qurumları arasındakı münasibətlərin tənzimlənməsi, birgə işin təşkil olunması istiqamətində müəyyən biliklərə malik olmalıdırlar.

2.2. Təhsildə Yoxlama, qiymətləndirmə və keçid alt sistemi (TYQKS)

Bütün tip təhsil sistemlərində təhsil pillələri arasında keçid, öyrənənin (şagirdin, tələbənin və s.) biliklərinin yoxlanılması və qiymətləndirilməsi ilə həyata keçirilir. Bu baxımdan ATS-in həmin sahəyə tətbiqi prinsipial xarakter daşıyır və təhsilin avtomatlaşdırılması zamanı prioritet mövqe tutur. ATS-in əsas funksional kompleks alt sisteminə aid edilən TYQKS-nin əsas üstünlükləri aşağıdakılardır:

1. Təhsil pillələrinin sayına məhdudiyyət götürülür. Bununla təhsilin kəsilməzliyi təmin olunur.
2. Çoxballı sistemin tətbiqinə və beləliklə, biliklərin daha dəqiq qiymətləndirilməsi üçün yaxşı imkanlar açılır.

3. Çoxcavablı, *çox düzgün* cavablı test tapşırıqlarının tətbiqinə imkan yaradır.
4. Test tapşırıqlarının özlərinin qiymətləndirilməsi alqoritmləri bir çox problemlərin operativ həll olunmasına şərait yaradır. Məsələn, keyfiyyətsiz və ya təhsil standartlarına uyğun gəlməyən tədris elementlərinin operativ şəkildə təhsil sistemindən çıxarılması və ya redaktə olunması.
5. TYQKS-nin tərkibində həm də, öyrənənlərin şəxsi qiymət kartlarının avtomatlaşdırılmış analizi alt-sisteminin olması, ATS-in digər kompleks alt sistemlərinin fəaliyyət göstərməsi üçün zəruri parametrləri müəyyən edir və aşağıdakı qlobal problemlərin həllinə yardım edir:

- Təhsil standartları bazasının hazırlanması (TSS) və təhsil standartları minimumlarının operativ olaraq dəyişdirilməsi imkanlarının yaradılması:

Qeyd etmək lazımdır ki, "*Əmək haqqlarının pedaqoji nəticələrə görə hesblanması*", "*Təhsil müəssisələrinin maliyələşdirilməsi*", "*Pedaqoji kadrların attestasiyası*", "*Təhsil strukturlarının fəaliyyətlərinin analizi*" və s. kimi funksiyaların avtomatlaşdırılması üçün nəzərdə tutulan bu alt-sistem tədrisin təşkilində və idarə olunmasında mühüm yer tutur.

- Ənənəvi və Avtomatlaşdırılmış dərsliklərdəki mövzuların operativ şəkildə korrektəsi və ya yenilənməsi. (TTTS)
- Dövlət və qeyri-dövlət strukturlarında kadr probleminin effektiv həlli(TAİS).
- Təhsil sistemində şəffaflığın təminatı.

ZİNYƏT ƏLİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
zinyataliyeva@nmi.edu.az

İNFORMATİKA DƏRSLƏRİNDƏ LAYİHƏ ƏSASLI TƏLİMİN ROLU VƏ TƏTBİQİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Tezisdə ümumtəhsil məktəblərində informatika fənninin tədrisində layihə əsaslı təlim yanaşmasının tətbiqi və onun pedaqoji əhəmiyyəti araşdırılır. Bu yanaşmanın şagirdlərin müstəqil düşünmə, yaradıcı fəaliyyət və praktiki bacarıqlarının formalaşmasına təsiri təhlil olunur. Eyni zamanda tətbiq prosesində rast gəlinən əsas çətinliklər – metodik hazırlığın yetərli olmaması, texniki imkanların məhdudluğu və qiymətləndirmə mexanizmlərinin qeyri-dəqiqliyi kimi məsələlər nəzərdən keçirilir.

Açar sözlər: *informatika tədrisi, layihə əsaslı təlim, innovativ pedaqogika, rəqəmsal bacarıqlar, fəal təlim, təhsil texnologiyaları*

Müasir təhsil sistemi informasiya texnologiyalarının sürətli inkişafı fonunda yeni çağırışlarla üz-üzədir. Bu çağırışlar məktəblərdə yalnız nəzəri biliklərin ötürülməsi ilə kifayətlənməyən, eyni zamanda şagirdlərdə praktik bacarıqların formalaşdırılmasına yönəlmiş təlim modellərinin tətbiqini zəruri edir. Xüsusilə informatika fənni bu baxımdan daha geniş imkanlara malikdir və innovativ metodların tətbiqi üçün əlverişli mühit yaradır.

Layihə əsaslı təlim yanaşması şagirdlərin öyrənmə prosesində aktiv iştirakını təmin edən müasir pedaqoji üsullardan biridir. Bu metod çərçivəsində şagirdlər konkret bir problem və ya mövzu üzərində işləyərək biliklərini praktik müstəvidə tətbiq edirlər. İnformatika dərslərində bu yanaşma proqramlaşdırma tapşırıqları, rəqəmsal məhsulların hazırlanması, təqdimatların qurulması və müxtəlif layihələrin icrası vasitəsilə həyata keçirilə bilər.

Bu metodun əsas üstünlüklərindən biri şagirdlərin tədqiqat bacarıqlarını inkişaf etdirməsidir. Layihə üzərində işləyən şagirdlər məlumat toplamaq, onu təhlil etmək, nəticə çıxarmaq və əldə olunan nəticələri təqdim etmək kimi mərhələlərdən keçirlər. Bu proses onların həm fərdi, həm də qrup şəklində işləmə bacarıqlarını gücləndirir. Eyni zamanda layihə fəaliyyəti şagirdlərin motivasiyasını artırır və dərsə marağını yüksəldir.

Bununla yanaşı, layihə əsaslı təlimin informatika dərslərində tətbiqi bir sıra çətinliklərlə müşayiət olunur. Ən mühüm problemlərdən biri müəllimlərin bu sahədə yetərli metodik hazırlığa malik olmamasıdır. Layihə fəaliyyətinin düzgün təşkili, vaxtın idarə olunması və şagirdlərin fəaliyyətinə nəzarət xüsusi pedaqoji bacarıqlar tələb edir. Digər tərəfdən, bəzi məktəblərdə texniki avadanlıqların və proqram təminatının məhdud olması bu metodun effektiv tətbiqinə maneə yaradır.

Qiymətləndirmə məsələsi də diqqət tələb edən əsas məqamlardan biridir. Layihə əsaslı təlimdə yalnız yekun nəticə deyil, həm də prosesin özü qiymətləndirilməlidir. Lakin bu istiqamətdə vahid və dəqiq meyarların olmaması müəllimlər üçün müəyyən çətinliklər yaradır. Şagirdlərin fərdi töhfəsinin və qrup işinin obyektiv qiymətləndirilməsi üçün yeni yanaşmaların tətbiqi vacibdir.

Mövcud problemlərin aradan qaldırılması üçün kompleks tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur. İlk növbədə müəllimlərin peşəkar inkişaf proqramlarında layihə əsaslı təlim metoduna xüsusi yer verilməlidir. Bundan əlavə, məktəblərin maddi-texniki bazası gücləndirilməli, müasir texnologiyalara çıxış imkanları artırılmalıdır. Eyni zamanda layihə fəaliyyətinin təşkili və qiymətləndirilməsi üçün metodik vəsaitlərin hazırlanması zəruridir.

Layihə əsaslı təlimin informatika dərslərində tətbiqi həm də şagirdlərdə rəqəmsal və sosial kompetensiyaların paralel inkişafına şərait yaradır. Şagirdlər layihə üzərində işləyərkən təkcə texniki biliklər qazanmır, eyni zamanda ünsiyyət qurma, vaxtı planlaşdırma və məsuliyyət bölgüsü kimi bacarıqları da mənimsəyirlər. Xüsusilə qrup layihələri zamanı əməkdaşlıq mühiti formalaşır və şagirdlər fərqli fikirlərə hörmət etməyi öyrənirlər. Bu isə onların gələcək akademik və peşə fəaliyyətində mühüm rol oynayır.

Bundan əlavə, layihə əsaslı təlimin informatika fənninə inteqrasiyası digər fənlərlə əlaqəli öyrənmə imkanlarını da genişləndirir. Məsələn, şagirdlər riyaziyyat, coğrafiya və ya fizika fənləri ilə bağlı məlumatları informatik alətlər vasitəsilə emal edərək kompleks layihələr hazırlaya bilərlər. Bu cür inteqrativ yanaşma biliklərin daha dərindən mənimsənilməsinə və şagirdlərdə sistemli düşüncə tərzinin formalaşmasına kömək edir. Nəticədə təlim prosesi daha maraqlı, dinamik və effektiv xarakter alır.

Nəticə etibarilə, layihə əsaslı təlim informatika dərslərinin daha effektiv və müasir şəkildə təşkili üçün geniş imkanlar yaradır. Bu yanaşma şagirdlərin yalnız bilik əldə etməsinə deyil, həm də həmin bilikləri tətbiq etmə bacarıqlarının formalaşmasına xidmət edir və onların gələcək peşə fəaliyyətinə hazırlığında mühüm rol oynayır.

AYSEN MƏMMƏDOVA
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
Aysenmemmedova@nmi.edu.az
https://orcid.org/0009-0003-1928-0743

RİYAZİ FƏNLƏRİN ÖYRƏNİLMƏSİ PROSESİNDƏ TƏLƏBƏLƏRİN İDRAK FƏALİYYƏTİNİN GÜCLƏNDİRİLMƏSİ ÜÇÜN METODİK SİSTEM

Müəllimlik ixtisası üzrə təhsil alan tələbələrin, xüsusən riyaziyyat müəllimlərinin gələcək peşəkar inkişafının əsas məqsədlərindən biri də təlimin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş tədris vəsaitlərinin seçilməsidir. Bu məqsədə tədris prosesini şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsinə yönəltməklə nail olmaq olar. Ona görə də riyaziyyat müəllimi hazırlığının mühüm istiqaməti həm riyaziyyat dərslərində, həm də sinifdənkənar fəaliyyətlərdə riyazi məzmun komponentlərinin (anlayışlar, teoremlər, qaydalar, məsələlər) öyrənilməsində müxtəlif yaş qrupları üzrə şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi vasitələrinin öyrənilməsidir. Bu məqalədə tələbələrin, gələcək riyaziyyat müəllimlərinin tələbələrin idrak fəaliyyətini artırmaq üçün hazırlanması üçün metodik sistem təsvir edilmişdir. O, sistemin əsas komponentlərini məzmun və texnologiya, həmçinin bu komponentlərin həyata keçirilməsinə imkan verən alətlər toplusu təsvir edir.

Açar sözlər: *şagird hazırlığı sistemi, idrak fəaliyyətinin aktivləşdirilməsi, substantiv və texnoloji komponentlər, riyazi məzmun komponentləri*

İbtidai sinif şagirdlərindən tutmuş ali məktəb tələbələrinə qədər müxtəlif yaş qruplarında olan şagirdlərin idrak fəaliyyətinin artırılması problemi müasir elmi-metodiki ədəbiyyat üçün yeni deyil. Bununla belə, bu, müasir pedaqoji elm və praktikada aktual problem olaraq qalır. Bunun səbəbi, tələbələrin idrak fəaliyyətinin inkişafı və nəticədə, öyrənmənin artırılması üçün yeni metodların inkişafı və mövcud metodların müasirləşdirilməsi Təhsil Standartlarının əsas prioritetləridir. Təlim prosesi zamanı şagirdlərin idrak fəaliyyətinin artırılmasına diqqət yetirilməsi ümumi təhsildə müasirləşmənin aparıcı sahələrindən biridir və ayrı-ayrı fənlərin tədrisi metodlarında müvafiq dəyişikliklər tələb edir.

Bir neçə onilliklər ərzində bu problemin müxtəlif aspektləri tədqiq edilmişdir. Bu günə qədər onun nəzəri aspektləri hazırlanmışdır: "aktivləşdirilmiş təlim" anlayışı və onun törəmələri psixoloji və pedaqoji ədəbiyyatda təhlil edilmiş və aydınlaşdırılmışdır, təhsil və idrak fəaliyyətinin optimallaşdırılması üçün psixoloji və didaktik tövsiyələr hazırlanmışdır, müxtəlif fənlərdə ümumi və idrak fəaliyyətinin aktivləşdirilməsi modelinin inkişafı üçün tədqiqatlar aparılır.

Bu problemin tədqiqi əsasən tələbələrin idrak fəaliyyətinin artırılmasının optimal vasitələrinin müəyyən edilməsinə və inkişafına yönəldilmişdir: konkret fənnin məzmunu, texnologiyaları, metodları və tədris üsulları, onların tədris prosesində istifadəsi potensialı. Riyaziyyat fənlərinin öyrənilməsində idrak fəaliyyətinin artırılması məsələsini nəzərdən keçirək. Bu sahədə biz aşağıdakı sahələri vurğulayırıq:

- konkret riyazi fənnin, ayrıca mövzunun və ya riyazi komponentin məzmunundan istifadə əsasında tələbələrin idrak fəaliyyətinin aktivləşdirilməsi (məsələn, təcrübə yönümlü məsələlərdən, tədqiqat problemlərindən, qeyri-standart məsələlərdən, maraqlı riyazi faktlardan və s. istifadə);
- müxtəlif pedaqoji metod və texnologiyalardan (məsələn, layihə metodundan istifadə, düzgün seçilmiş tapşırıqlar metodu, fərdi təhsil trayektoriyasının yaradılması texnologiyası və s.) istifadə etməklə tələbələrin idrak fəaliyyətinin aktivləşdirilməsi;
- müxtəlif pedaqoji üsullardan istifadə etməklə (məsələn, idrak müstəqilliyini, axtarış və yaradıcılıq fəaliyyətini, beyin həmləsini və s. inkişafına yönəldilmiş) şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi;

– müasir kompüter əsaslı tədris vasitələrindən (məsələn, mobil texnologiyalar, rəqəmsal təhsil resursları, distant təhsil və s.) istifadə etməklə tələbələrin idrak fəaliyyətinin aktivləşdirilməsi.

Beləliklə, müasir elm tələbələrin idrak fəaliyyətinin aktivləşdirilməsi mövzusunda çoxlu material toplamışdır. Bu materialdan təkcə müəyyən bir sahəni birbaşa inkişaf etdirənlər tərəfindən deyil, həm də tələbələrə və gələcək riyaziyyat müəllimlərinə peşəkar işlərində istifadə etmək üçün ötürülməsi vacibdir. Məktəblilərin idrak fəaliyyətini aktivləşdirmək üçün tələbələrin məqsədyönlü hazırlığı və əldə edilmiş nəzəri biliklərin və praktiki bacarıqların peşə fəaliyyətində sistemli istifadəsi tələbələrin riyazi nəzəriyyəni, riyazi aparatı daha dərindən dərk etməyə marağını və təlim profilinin seçiminə şüurlu münasibətini stimullaşdıracaqdır.

Riyaziyyat və metodik fənlər üzrə tələbələrin hazırlanması təcrübəsini təhlil edərək və ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, tələbələrə öyrənmə üçün təklif oluna bilən öyrənmə və idrak fəaliyyətinin aktivləşdirilməsi alətləri konkret metodik sistem çərçivəsində təqdim edilməlidir. Bu sistemi təxminən iki komponentə bölmək olar: məzmun və texnologiya. Tələbələrin peşə hazırlığının məzmun komponenti universitetin bütün təhsil prosesi boyunca həyata keçirilə bilər və tələbələr müxtəlif riyazi fənlər vasitəsilə idrak fəaliyyətinin artırılması haqqında biliklər əldə etdikcə, texnoloji komponentlə inteqrasiya olunur. Bu inteqrasiya tələbələrin metodik dövrün fənlərini öyrənməsi zamanı baş verir.

Tələbələrin metodik fənləri öyrənməsinin ilkin mərhələsində idrak fəaliyyətinin aktivləşdirilməsinin maddi və metodik komponentləri riyazi məzmun komponentləri ilə sıx bağlıdır. Şagirdlərdə anlayışlar, qaydalar və teoremlərlə işləmək üçün metodların qurulması bacarıqlarını inkişaf etdirərkən diqqət hər bir komponent üzərində işin mərhələlərinə yönəldilir və idrak fəaliyyətinin ən effektiv şəkildə aktivləşdirilə biləcəyi mərhələlər müəyyən edilir. Eyni zamanda, həm tədris materialının (məzmun komponentinin), həm də bu mərhələlərin həyata keçirilməsi üçün tədris prosesinin təşkilinin ən məhsuldar üsullarının (texnoloji komponentin) müəyyən edilməsində bacarıqlar inkişaf etdirilir.

Anlayışın tərifini təqdim etməyə, teoremin məzmununu açmağa və ya qayda və ya alqoritmin tətbiqinə hazırlıq mərhələsində tələbələrin idrak fəaliyyətini artırmaq üçün fəal təlim metodlarından istifadə edilə bilər. Bu üsullar şagirdlərin yeni bilik və fəaliyyət metodlarının axtarışında və mənimsənilməsində müstəqil, fəal iştirakını təşviq edir. Ümumi tədris metodları sistemində bura problemli təqdimat, qismən kəşfiyyat və ya evristik və kəşfiyyat daxildir.

Problemli təqdimat üsulu ilk növbədə dialoq monoloqu vasitəsilə həyata keçirilir. Qismən axtarış metodu evristik söhbət və müstəqil tədqiqat işi vasitəsilə həyata keçirilir. Kəşfiyyat metodu müstəqil tədqiqat işi vasitəsilə həyata keçirilir (bu, tələbələrin qismən axtarış metodundan daha çox tədqiqat bacarıqlarına malik olmasını tələb edir).

Belə bir nəticəyə gəlmək olar ki, riyaziyyatın öyrənilməsi prosesində şagirdlərin idrak fəallığını artırmaq üçün bu günə qədər yuxarıda qeyd olunan komponentləri özündə birləşdirən metodik sistem işlənib hazırlanmışdır. Tələbələrin tədris təcrübəsi zamanı onun effektivliyi yoxlanılıb: dərs qeydləri, dərsdənkənar tədbirlər, hesabat sənədləri təhlil edilir, tələbələrin hazırlıq səviyyəsini müəyyən etmək üçün metodist və müəllimlərlə müzakirələr aparılır. Eyni zamanda, tələbələrin nəzəri bilikləri və onların praktiki tətbiqi ilə bağlı sorğu aparılır, tədqiqatlar aparılır, metodik və tədris materialları hazırlanır. Bütün bunlar bizə sistemi təkmilləşdirməyə və yeni metodik ideyaları tədqiq etməyə, bununla da gələcək riyaziyyat müəllimlərinin peşəkar hazırlığını dərinləşdirməyə və şaxələndirməyə imkan verir.

HİCRAN QURBANOVA
Naxçıvan şəhər C.Məmmədquluzadə adına 2 №-li tam orta məktəb
Müəllim

FƏNLƏRİN TƏDRİSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Müasir dövrdə təhsil sisteminin qarşısında duran ən mühüm vəzifə sadəcə informasiya daşıyıcısı olan fərdlər deyil, qlobal dünyanın çağırışlarına cavab verən, tənqidi təfəkkürə və praktiki bacarıqlara malik şəxsiyyətlər yetişdirməkdir. Bu baxımdan, "Fənlərin tədrisinin aktual məsələləri" mövzusu təhsil islahatlarının mərkəzində dayanır. Bu gün fənn müəllimi sinfə daxil olarkən yalnız dərslikdəki materialı deyil, onun real həyatla əlaqəsini və gələcəyin rəqəmsal dünyasındakı rolunu şagirdə çatdırmalıdır. Məruzəmdə tədris prosesində qarşılaşdığımız aktual məsələləri və onların həlli yollarını diqqətinizə çatdırmaq istəyirəm.

1. Fənlərarası İnteqrasiya və STEAM yanaşması

Ənənəvi təhsildə fənlər bir-birindən təcrid olunmuş şəkildə tədris edilirdi. Lakin real həyatdakı problemlər yalnız fizika, riyaziyyat və ya coğrafiya ilə həll olunmur.

Məsələ: Şagirdlər fərqli fənlərdən aldıqları bilikləri vahid bir müstəvidə birləşdirməkdə çətinlik çəkirlər.

Həlli: Tədrisdə STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) yanaşmasının genişləndirilməsi. Fənlərin inteqrasiyası şagirdlərdə layihə təfəkkürünü inkişaf etdirir. Məsələn, bir biologiya mövzusu eyni zamanda riyazi hesablama və texnoloji modelləşdirmə ilə sintez olunmalıdır.

2. Rəqəmsallaşma və Süni İntellektin tədrisə inteqrasiyası

Süni intellektin (AI) sürətlə inkişaf etdiyi müasir dövrdə tədris metodları köhnələ bilməz. Müəllim artıq informasiyanın yeganə mənbəyi deyil.

Məsələ: İnformasiya bolluğu şəraitində şagirdlərin diqqətini dərsə cəlb etmək və texnologiyadan düzgün istifadə vərdişləri aşılamaq.

Həlli: Tərs-sinif (Flipped Classroom) və hibrid təhsil modellərinin tətbiqi. Şagird nəzəriyyəni rəqəmsal resurslardan öyrənir, sinif müstəvisində isə müəllimin bələdçiliyi ilə müzakirə və tətbiq prosesi baş tutur. Süni intellekt alətləri isə fərdi öyrənmə trayektoriyalarının qurulmasına kömək etməlidir.

3. Kompetensiyalara əsaslanan təhsil (Bilikdən bacarığa)

Müasir kurikulum islahatlarının təməlində "nəyi öyrətmək" deyil, "necə tətbiq etmək" fəlsəfəsi
dayanır.

Məsələ: Hafizəyə əsaslanan, qaydaların əzbərlənməsinə yönəlmiş köhnə vərdişlərin hələ də tam tamına sıradan çıxmaması.

Həlli: Beynəlxalq qiymətləndirmə (PISA, TIMSS) standartlarının dərslərə adaptasiyası. Dərslərdə 4K bacarıqları kimi tanınan funksional savadlılıq elementləri ön plana çəkilməlidir:

A. *Kritik (Tənqidi) təfəkkür*
B. *Kreativlik (Yaradıcılıq)*
C. *Kommunikasiya (Ünsiyyət)*
Ç. *Kooperasiya (Əməkdaşlıq)*

4. Qiymətləndirmənin yenidən qurulması

Fənlərin tədrisində ən çox müzakirə olunan məsələlərdən biri də şagird nailiyyətlərinin düzgün ölçülməsidir.

Məsələ: Qiymətləndirmənin yalnız summativ testlərdən ibarət olması şagirdin real potensialını və ilboyu keçdiyi inkişaf yolunu tam əks etdirmir.

Həlli: Formativ qiymətləndirmənin mexanizmlərinin təkmilləşdirilməsi. Rəqəmsal portfolioların yaradılması və şagirdin fərdi inkişaf dinamikasının izlənilməsi rəsmi imtahan həyəcanını azaldır və öyrənməni artırır.

5. İnklüziv təhsil və diferensial yanaşma

Hər bir sinif müxtəlif qavrama səviyyəsinə, maraqlara və ehtiyaclara malik şagirdlərdən ibarətdir.

Məsələ: Standart dərs metodlarının bütün şagirdlərə eyni dərəcədə effektiv olmaması, xüsusi qayğıya ehtiyacı olan uşaqların prosesdən kənarda qalma riski.

Həlli: Müəllimlərin diferensial təlim strategiyalarına yiyələnməsi. Eyni mövzunun fərqli öyrənmə tiplərinə (vizual, auditor, kinetik) uyğun vizuallaşdırılması və tapşırıqların çətinlik dərəcəsinə görə qruplaşdırılması.

Nəticə. Hörmətli həmkarlar, fənlərin tədrisindəki aktual məsələlərin həlli birbaşa olaraq müəllimin fərdi iş təcrübəsinin islahatlara uyğunlaşmasından asılıdır. Müasir müəllim sadəcə fənnini tədris edən şəxs deyil, həm də mühəndis, psixolog və texnologiya meneceridir. İslahatların uğuru, sinif otaqlarında tətbiq etdiyimiz bu innovativ yanaşmaların davamlılığından asılı olacaqdır.

AYGÜN MƏMMƏDOVA
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
AygunEfendiyeva@nmi.edu.az

RİYAZİ ANALİZİN TƏDRİSİ METODİKASININ İKİŞAXƏLİ MƏSƏLƏSİNİN HƏLLİ MEYARI

Riyazi analiz tədrisi prosesində varislik prinsipinə hökmən istifadə etmək lazımdır. Varislik prinsipinə riyazi analizin tədrisi metodikası sisteminin elementi kimi baxsaq görürük ki, onun nəzərə alınması tədris işinin mühazirə və məsləhət formalarını dəyişə bilər. Deməli, bu prinsip metodik sistemin komponentlərindən biri-təlimin formaları ilə əlaqəlidir. Digər tərəfdən, müxtəlif vəsaitlər riyazi analiz proqramında nəzərdə tutulan materialdan daha geniş olduğundan bu vəsaitlər riyazi analizin tədrisinin digər riyazi kursların şərhi ilə əlaqələndirilmə vasitələridir. Bu isə o deməkdir ki, varislik prinsipi ilə metodik sistemin digər komponeneti-təlimin vasitələri arasında əlaqə mövcuddur. Belə əlaqələr mühazirələrdə, praktik məsləhətlərdə və təlimin digər formalaşrında reallaşır. Varislik prinsipinin atributlarına görə digər riyazi kursların öyrənilməsi üçün hazırlanmış vəsaitlərdə riyazi analizin tətbiqləri nəzərdə tutulur.

Açar sözlər: *varislik prinsipi, ali məktəb, ikişaxəli məsələ, riyazi analiz, fundamentallıq, ardıcıllıq*

Riyaziyyat müəllimləri hazırlanan ali məktəblərdə riyazi analiz kursunun tədrisi metodikası sisteminin prinsiplərinin hər birinin riyazi analizin tədrisi metodikasının ikişaxəli məsələsinin həlli üçün zəruri şərt olduğunu göstərək. Tutaq ki, fundamentallıq prinsipinə istinad olunmur. Onda riyazi analiz kursunun şərhi ardıcıllığı pozular, daxili məntiqi əlaqələr kəsilər, şərhin ciddiliyinə əməl olunmur. Beləliklə, mənimsəmənin səviyyəsi, riyazi biliklərdən düzgün istifadə bacarığı xeyli zəifləyir. Deməli, riyazi analiz tədris fənni kimi əsassız bir şeyə çevrilir. Bu isə riyazi analizin elm kimi dağılmasına gətirib çıxarar. Deməli, teoremləri, düsturları, qaydaları isbatsız tədris etmək ümumiyyətlə düzgün deyildir. Tədrisin belə qurulması aşağıdakı səbəblərdən ola bilər: vaxt azlığı, müəllimin intuitiv-əyani şərh üsuluna həvəsi olması.

Həm intuitiv-əyani şərh tərəfdarları, həm də akademik stil şərh tərəfdarları riyaziyyatın tədrisində istinadın zəruriliyini fundamentallıq prinsipinə istinadın zəruriliyini vurğulayırlar. Son zamanlar şərhin akademik stili sürətlə əlaqədar inkişaf etməyə başlamışdır. Deməli, riyaziyyat kursu ümumi aksiomatika əsasında, yalnız quruluşuna görə tərtib edilir. Məsələn, E.Landaunun kitabında riyazi analiz hər hansı istifadə edilmədən şərh olunmuşdur. Qeyd edək ki, məşhur riyaziyyatçıların heç də hamısı dərslik və dərs vəsaitlərinin mütləq akademik stili ilə yazılması tərəfdarı deyillər.

Şərhin akademik stili ilə yanaşı ədəbiyyatda məntiqi ciddilik stili də mövcuddur. Belə şərh ciddi aparılmaqla əyanilik və intuiasiya elementlərinə də əsaslanır. Bu ciddilik səviyyəsinin variyasiyası üsulu adlanır. Bu üsuldan istifadənin çətin yol olduğu müəllimlərə məlumdur. Ona görə də aksiomatika əsasında ciddi yanaşmanın yayılma səbəblərini öyrənmək müəllimlərin işini xeyli asanlaşdırar. Dərs vəsaitlərində verilən material aydın, ardıcıl olduğundan onun tələbələrə çatdırılması müəllimlər üçün ağır olmaz.

Beləliklə, əgər riyazi analizin tədrisi metodikasının ikişaxəli məsələsi həll edilmişsə, onda aşağıdakılar labüddür:

- proqram əsasında riyazi analiz tam kurs olaraq şərh edilmişdir;
- kursun ardıcıllığı gözlənilmişdir;
- riyazi təkliflər əsaslandırılmışdır;
- riyazi obyektlər arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq gözlənilmişdir.

Bu isə o deməkdir ki, riyazi analizin tədrsi metodikasının ikişaxəli məsələsinin həllində fundamentallıq prinsipinə istinad etmək zəruri şərtdir.

İndi tutaq ki, uyğunluq prinsipinə istinad olunmur. Onda riyazi analiz kursu qapalı quruluşa çevrilir və yalnız ümumi inkişaf funksiyasını yerinə yetirir.

Riyaziyyatın tətbiqi məsələlərinə kifayət qədər metodik işlər həsr olunmuşdur. Onların bəzilərini nəzərdən keçirdikdə belə bir ümumi cəhətin olduğunu görürük: riyazi fənlərin tədrisində nəzəri məsələlərin ciddi şərhi və mücərrəd təfəkkürün inkişafı kursun tətbiq istiqamətləri ilə birləşdirilməlidir. Deməli, riyazi təhsil özündə qapalı olmamamlı, ətraf aləmin dərk edilməsində onun qeyri-məhdud imkanlarından istifadə edilməlidir.

Riyaziyyatçı mütəxəssislər qarşısında aşağıdakı mühum problemləri qoyulur: riyazi təhsilin məzmununu müasir istehsalatın təbiətşunaslığın tələblərinə uyğunlaşdırmaq; ali pedaqoji məktəblərdə tədris olunan riyazi kurslarla digər fənlər arasında sıx əlaqə yaratmaq; hər bir riyazi kursa aid ixtisasın tələblərini nəzərə alan dərslik və dərs vəsaitləri hazırlamaq.

Bu problemlərin hər biri yalnız uyğunlaşma prinsipinə istinad edilməklə həll oluna bilər.

Beləliklə, riyazi analizin tədrisinin ikişaxəli məsələlərindən biri ondan digər fənlərin öyrənilməsində istifadə olunduğundan uyğunlaşma prinsipi məsələnin həllində zəruri şərt kimi mövcud olur.

İndi tutaq ki, aparıcı ideyalar prinsipinə istinad edilməmişdir. Onda müəllimlər riyazi analiz kursunun tədrisini orta məktəb riyaziyyat kursu ilə əlaqələndirmək qayğısına qalmırlar. Bu isə tələbələrdə riyazi analizi öyrənməyə marağı azaldar. Tələbələr düşünərlər ki, riyazi analizin tədrisi onların gələcək fəaliyyəti üçün əhəmiyyətsizdir. Onlar yeni riyazi obyektlər öyrənmək istəməzlər. Beləliklə, riyazi təhsili daha yüksək səviyyəyə qaldırmaq müşkül iş olar.

Riyaziyyatın təlimində məqsəd öyrənənlərə müəyyən bilik, riyazi üsullardan istifadə bacarığı, riyazı mədəniyyət tərbiyəsi qazandırmaqdır.

Bundan əlavə, ali məktəblərdə çoxpilləli təhsil sisteminə keçildiyi bir dövrdə müəyyən qrup tələbənin riyazi mədəniyyətinin daha da yüksək olması üçün aparıcı ideyalar prinsipinə istinad etmək zəruridir.

Əgər riyazi analizin tədrisi ikişaxəli məsələsi həll edilmişsə, bu o deməkdir ki, aşağıdakılar doğrudur: riyazi analiz kursu müəyyən həcmdə, müəyyən ardıcıllıqla əsaslandırılmış şəkildə şərh olunmuşdur; tələbələrə digər fənləri öyrənmək üçün zəruri olan riyazı obyektlər haqqında tam məlumat verilmişdir.

Bu isə o deməkdir ki, riyazi analizin şərhi zamanı verilən məlumatların tam olmamasından kursun özündə qaçılmaz situasiya yaranır. Bu halda şərhi bu və ya digər formada riyazi məlumatlarla tamamlamaq lazım gəlmir, yəni aparıcı ideyalar prinsipinə istinad etmək zəruridir.

İndi isə, tutaq ki, varislik prinsipinə istinad olunmamışdır.

Onda riyazi təhsil aşağı kurslarda yekunlaşar. Diferensial həndəsə, diferensial tənliklər, funksional analiz, riyazi funksiyanın tənlikləri, hesablama riyaziyyatı və s. fənlərin tədrisi izolə edilmiş vəziyyətə düşər. Tələbələr bu fənlərdə tətbiq olunacaq riyazi analiz anlayışları haqqında aydın təsəvvürlər ala bilməzlər.

Sadalanan bu faktlara əsasən deyə bilərik ki, varislik prinsipi riyazi analizin tədrisi metodikasının ikişaxəli məsələsinin həllinin zəruri şərtidir.

Indi göstərək ki, dörd prinsipə birgə istinad olunması riyazi analizin tədrisi metodikasının ikişaxəli məsələsinin həlli üçün kafidir.

Doğurdan da, fundamentallıq və aparıcı ideyalar prinsiplərinin reallaşması riyazi analiz kursunun proqram əsasında tam həcmdə, ardıcıl və əsaslandırılmış şərhini tam təmin edir.

Bu prinsiplərin atributlarına əməl olunduqda tələbələr bu ya digər məsələni nə üçün öyrəndiklərini, öyrəndikləri materialların gələcək fəaliyyəti ilə necə əlaqəsi olduğunu, məktəb riyaziyyat kursunun qurulmasında meydana çıxan məntiqi boşluqları və onların aradan qaldırılması yollarını görürlər. Beləliklə, riyazi analizin tədrisinin ikişaxəli hissəsinin həlli tam təmin olunur.

Uyğunlaşma və varislik prinsiplərinin atributlarına əməl edilməsi riyazi analizin digər fənlərdə tətbiqi üçün tədris olunmasını təmin edir. Riyazi analizdə obyektlərin seçilməsi digər fənlərin öyrənilməsi üçün zəruridirsə, bu obyektlərin interpretasiyası, tətbiqi məsələlərin riyazi modelləşdirilməsi bütün bu elementlərin hamısı riyazi analiz kursundan digər fənlərin öyrənilməsində müvəffəqiyyətlə istifadə edilməsi üçun kafi şərtdir.

Qeyd edək ki, pedaqoji təmayüllü ali məktəblərin riyaziyyat fakültəsində riyazi analiz kursunun qurduğumuz metodik sisteminin elementləri ilə A.M.Pışkalonun məşhur metodik sisteminin elementləri arasında əlaqə vardır. A.M.Pışkaloya görə metodik sistem komponentləri təlimin məqsədi, məzmunu, üsulları, formaları və vasitələri olan bır quruluşdur. Məlumdur ki, ikişaxəli elementi təlimin məqsədi ilə ekvivalentdir. Deməli, yuxarıdakı prinsiplərin hər biri bazis elementi vasitəsilə metodik sistemin aparıcı komponenti ilə təlimin məqsədi ilə əlaqəlidir.

Beləliklə, pedaqoji təmayüllü ali məktəblərin riyaziyyat fakültəsində riyazi analizin tədrisi metodikasına elementləri olan, bu elementlər arasında əlaqə olan, tam quruluşlu, ətraf mühitə malik sistem kimi tam baxmaq olar.

KƏMALƏ İBRAHİMOVA
Naxçıvan Müəllimlər İnstitutu
kamalaibraqimova100@mail.com
https://orcid.org/0000-0003-1033-3629

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ İNFORMATİKA VƏ ONUN TƏDRİSİ

İnformatika fənni XXI əsrin təhsil sistemində xüsusi yer tutur. Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə şagirdlərin yalnız nəzəri biliklərə malik olması kifayət etmir; onların praktiki bacarıqları, alqoritmik və analitik düşüncə qabiliyyətləri də formalaşdırılmalıdır. İnformatika dərsləri şagirdlərin problem həll etmə, məlumatları işləmə, proqramlaşdırma və rəqəmsal savadlılıq bacarıqlarının inkişafına yönəlib. Bu səbəbdən onun keyfiyyətli tədrisi müasir təhsil siyasətinin əsas prioritetlərindən biri hesab olunur və ölkənin rəqəmsal cəmiyyətinə inteqrasiyası üçün strateji əhəmiyyət daşıyır.

Ümumtəhsil məktəblərində informatikanın tədrisi son illərdə xeyli genişlənmişdir. Şagirdlərə kompüterdən düzgün istifadə, internet resurslarından səmərəli faydalanma və proqramlaşdırmanın əsas prinsipləri ilə bağlı ilkin biliklər verilməyə başlanmışdır. Müxtəlif proqram təminatı, elektron dərsliklər, tədris materialları və interaktiv platformalar dərs prosesini daha maraqlı və cəlbedici edir, şagirdlərin dərslərdə fəal iştirakını təmin edir. Bununla belə, real vəziyyət göstərir ki, informatikanın tədrisində hələ də bir sıra əhəmiyyətli problemlər mövcuddur. Məktəblərin texniki avadanlıqları hər zaman müasir tələblərə cavab vermir, müəllimlərin ixtisas səviyyəsi isə bəzən yetərli olmur. Bu çatışmazlıqlar dərslərin keyfiyyətinə birbaşa təsir göstərir və şagirdlərin real texnologiyalara hazırlığını zəiflədir.

Problemlərin aradan qaldırılması üçün ilk addım məktəblərin texniki bazasının gücləndirilməsidir. Kompüter sinifləri müasir avadanlıqla təmin olunmalı, internet sürəti fasiləsiz olmalı və proqram təminatı aktual vəziyyətdə saxlanılmalıdır. Laboratoriya şəraiti şagirdlərin praktiki məşğələlər keçməsi üçün yetərli olmalı, əlavə texniki avadanlıqlar, interaktiv lövhələr və proqramlaşdırma platformaları təmin edilməlidir. Bu, şagirdlərin öyrəndikləri bilikləri praktikada tətbiq etməsinə imkan yaradacaq və onların texniki bacarıqlarını artıracaq.

Demək ki, maddi-texniki baza tədrisin inkişafına mane olan əsas faktorlardandır**.** Köhnə kompüterlər, zəif internet bağlantısı və məhdud laboratoriya imkanları praktiki dərslərin keçirilməsini çətinləşdirir. Şagirdlər proqramlaşdırma bacarıqlarını yalnız nəzəri dərslər vasitəsilə öyrənir və real proqramlaşdırma layihələrinə cəlb olunmur. Bu isə onların kreativlik və praktiki bacarıqlarını məhdudlaşdırır. Eyni zamanda, fənnin ikinci dərəcəli kimi qəbul edilməsi və qiymətləndirmə sisteminin praktiki bacarıqları əhatə etməməsi şagirdlərin motivasiyasını azaldır.

Eyni zamanda, müəllimlərin ixtisasartırması prioritet olmalıdır. Müəllimlər davamlı təlimlər, seminarlar və kurslar vasitəsilə proqramlaşdırma, alqoritmik düşüncə, kompüter şəbəkələri və müasir texnologiyalar üzrə biliklərini artırmalıdır. Bu, müəllimlərin dərsləri interaktiv və layihə əsaslı üsullarla keçməsinə imkan verəcək. Müasir müəllim yalnız nəzəriyyəni ötürməklə kifayətlənməməli, eyni zamanda şagirdləri təcrübə və eksperimentlər vasitəsilə öyrətməlidir. Məsələn, şagirdlərə kiçik proqramlaşdırma layihələri və ya sadə robot texnologiyaları ilə işləmək imkanı verilməlidir.

Azərbaycan dilində tədris resurslarının artırılması da vacibdir. Elektron dərsliklər, proqram təminatı və tədris materialları yerli dilə uyğun hazırlanmalı, şagirdlərin və müəllimlərin istifadəsi üçün əlçatan olmalıdır. Bu, öyrənmə prosesini asanlaşdıracaq və xarici resurslardan asılılığı azaldacaq. Eyni zamanda, yerli dil resursları şagirdlərin anlayışını daha da möhkəmləndirir, texniki terminlərin düzgün qavranmasına kömək edir.

İnformatika tədrisində aktual problemlərdən biri kurikulumun müasir İT tələblərinə uyğun olmamasıdır. Mövcud proqramlar şagirdlərin praktik bacarıqlarını tam formalaşdırmır və onların real texnoloji dünyaya hazırlığını zəiflədir. Proqramın nəzəriyyəyə daha çox üstünlük verməsi şagirdlərin proqramlaşdırma, məlumat bazaları və kompüter şəbəkələri kimi sahələrdə praktik bacarıq qazanmasını çətinləşdirir. Bundan əlavə, bəzi məktəblərdə informatika dərsləri yalnız nəzəri xarakter daşıyır, praktik məşğələlər və layihə əsaslı tapşırıqlar yetərli deyil. Bu da şagirdlərin öyrəndiklərini real həyat problemlərinə tətbiq etmə imkanını azaldır.

Bu problemlərin həlli üçün bir neçə vacib addım atılmalıdır. Kurikulum müasir İT tələblərinə uyğun yenilənməli**,** praktik bacarıqlar dərs proqramının əsas hissəsinə çevrilməlidir. Müəllimlərin ixtisasartırma kursları ilə təmin edilməsi, texniki baza və laboratoriyaların gücləndirilməsi tədrisin keyfiyyətini artıracaq. Azərbaycan dilində rəqəmsal resursların hazırlanması**,** layihə əsaslı və interaktiv öyrənmə metodlarının tətbiqi şagirdlərin bilik və bacarıqlarının inkişafını sürətləndirə bilər. İnformatikanın əsas fənn kimi qiymətləndirilməsi isə şagirdlərin motivasiyasını yüksəldəcək və dərsin ciddiliyini artıracaq.

Əlavə olaraq, şagirdlərin marağını artırmaq üçün interaktiv tədris metodları tətbiq edilməlidir**.** Oyunlaşdırma üsulları, laboratoriya məşğələləri, komanda layihələri və proqramlaşdırma yarışmaları dərsi daha maraqlı edir. Bu üsullar həm analitik və yaradıcı düşüncəni inkişaf etdirir, həm də şagirdlərin komanda işinə, əməkdaşlığa və kommunikasiya bacarıqlarına töhfə verir. Məsələn, şagirdlər kiçik proqramlaşdırma layihələri, robot texnologiyaları və ya veb səhifə hazırlamaq kimi tapşırıqlar üzərində işləyərək real bacarıqlar əldə edə bilərlər.

Deməli, ümumtəhsil məktəblərində informatika fənninin tədrisi ölkənin rəqəmsal inkişaf strategiyasının tərkib hissəsidir. Tədrisin keyfiyyətinin artırılması şagirdlərin rəqəmsal bacarıqlarını inkişaf etdirəcək, onların problemləri həll etmə və proqramlaşdırma qabiliyyətlərini gücləndirəcək. Bu isə həm şəxsi inkişaf, həm də milli informasiya cəmiyyətinə inteqrasiya baxımından strateji əhəmiyyət daşıyır. Gələcəkdə bu sahədə atılacaq addımlar ölkənin texnologiya və innovasiya sahəsində rəqabət qabiliyyətini də yüksəldəcək, şagirdlərin dünya səviyyəsində rəqəmsal bacarıqlara malik olmasına imkan yaradacaq.

FATMA CƏFƏROVA
Naxçıvan şəhəri 1 №-li tam orta məktəb
Müəllim

ORTA MƏKTƏBDƏ RİYAZİYYATIN TƏDRİSİNDƏ YENİ YANAŞMALAR

Məqalədə riyaziyyatın tədrisində müasir yanaşmalar, şagirdyönümlü təlim, texnologiya istifadəsi və problem əsaslı öyrənmənin əhəmiyyəti vurğulanır, şagirdlərin düşünmə və tətbiq bacarıqlarının inkişafına təsiri göstərilir.

Açar sözlər: *riyaziyyat, müasir yanaşmalar, əmək bazarı, fasilitator, məntiqi düşünmə*

Orta məktəbdə riyaziyyatın tədrisi uzun illər ərzində əsasən qaydaların izahı və onların tətbiqinə yönəlmiş ənənəvi üsullara əsaslanmışdır. Lakin müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər bu yanaşmanın yenilənməsini zəruri etmişdir. İnformasiya cəmiyyətinin formalaşması, texnologiyanın sürətli inkişafı və əmək bazarının dəyişən tələbləri riyaziyyat tədrisində daha çevik, yaradıcı və şagirdyönümlü metodların tətbiqini ön plana çıxarmışdır. Bu baxımdan orta məktəbdə riyaziyyatın tədrisində yeni yanaşmaların tətbiqi həm şagirdlərin akademik nailiyyətlərini artırmaq, həm də onların analitik və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Müasir yanaşmaların əsas xüsusiyyətlərindən biri şagirdin təlim prosesində passiv dinləyici deyil, aktiv iştirakçı kimi çıxış etməsidir. Bu modeldə müəllim bilik ötürən yeganə mənbə rolundan çıxaraq daha çox istiqamətverici və fasilitator funksiyasını yerinə yetirir. Şagirdlər isə müzakirələrdə iştirak edir, problemlər üzərində düşünür və öz fikirlərini əsaslandırmağa çalışırlar. Bu cür yanaşma şagirdlərdə məsuliyyət hissini artırır, onların öz öyrənmə prosesinə nəzarət etməsinə imkan yaradır və nəticədə daha dərin bilik əldə etməyə şərait yaradır.

Riyaziyyatın tədrisində problem əsaslı öyrənmə də mühüm yer tutur. Bu yanaşmada şagirdlərə hazır formul və qaydalar təqdim etmək əvəzinə, onları real həyatla bağlı problemlərlə qarşı-qarşıya qoymaq məqsədəuyğundur. Məsələn, gündəlik həyatda rast gəlinən maliyyə hesablamaları, ölçmə və ya statistik məlumatların təhlili kimi tapşırıqlar şagirdlərdə riyaziyyata qarşı marağı artırır. Belə tapşırıqlar şagirdlərin yalnız hesablama bacarıqlarını deyil, həm də məntiqi düşünmə, analiz etmə və qərar qəbul etmə bacarıqlarını inkişaf etdirir.

Bununla yanaşı, diferensial təlim yanaşması da müasir riyaziyyat dərslərinin ayrılmaz hissəsinə çevrilmişdir. Hər bir şagirdin öyrənmə tempi və qabiliyyəti fərqli olduğu üçün bütün sinfə eyni üsulla yanaşmaq effektiv nəticə vermir. Diferensial təlim vasitəsilə müəllim müxtəlif səviyyəli tapşırıqlar təqdim edir, zəif mənimsəyən şagirdlərə əlavə dəstək göstərir, daha yüksək səviyyəli şagirdlər üçün isə çətinləşdirilmiş fəaliyyətlər təşkil edir. Bu yanaşma sinifdə hər bir şagirdin potensialını maksimum dərəcədə reallaşdırmağa imkan yaradır.

Texnologiyanın tədris prosesinə inteqrasiyası da yeni yanaşmaların mühüm tərkib hissəsidir. İnteraktiv lövhələr, riyazi proqramlar və onlayn platformalar dərslərin daha maraqlı və vizual şəkildə təqdim olunmasına kömək edir. Xüsusilə qrafiklərin qurulması, funksiyaların vizuallaşdırılması və mürəkkəb anlayışların modelləşdirilməsi texnologiya vasitəsilə daha aydın izah edilə bilir. Bu isə şagirdlərin mövzunu daha tez və effektiv mənimsəməsinə şərait yaradır.

Formativ qiymətləndirmə də müasir yanaşmalar arasında xüsusi yer tutur. Ənənəvi qiymətləndirmə əsasən nəticəyə yönəldiyi halda, formativ qiymətləndirmə öyrənmə prosesinin bütün mərhələlərini əhatə edir. Müəllim dərs zamanı şagirdlərin fəaliyyətini izləyir, onlara dərhal geribildirim verir və ehtiyac olduqda təlim strategiyasını dəyişir. Bu üsul şagirdlərin səhvlərdən öyrənməsinə, öz inkişaflarını izləməsinə və daha yaxşı nəticələr əldə etməsinə kömək edir.

Riyaziyyat dərslərində oyun elementlərinin tətbiqi də şagirdlərin motivasiyasını artıran effektiv vasitələrdən biridir. Oyun əsaslı öyrənmə vasitəsilə dərslər daha maraqlı və interaktiv olur. Riyazi oyunlar, yarışlar və müxtəlif tapmaca tipli fəaliyyətlər şagirdlərin dərsə aktiv qoşulmasını təmin edir və onların riyaziyyata qarşı müsbət münasibət formalaşdırır.

Nəhayət, tədqiqat və kəşf yönümlü öyrənmə yanaşması şagirdlərdə müstəqil düşünmə bacarıqlarını inkişaf etdirir. Bu zaman şagirdlərə hazır bilik təqdim olunmur, əksinə, onlar müəyyən istiqamət üzrə

araşdırma aparır, hipotezlər irəli sürür və nəticələr çıxarırlar. Bu proses şagirdlərin yaradıcılığını artırır və onları gələcəkdə qarşılaşacaqları problemləri müstəqil şəkildə həll etməyə hazırlayır.

Beləliklə, orta məktəbdə riyaziyyatın tədrisində yeni yanaşmaların tətbiqi təhsil prosesinin keyfiyyətini yüksəldir və şagirdlərin hərtərəfli inkişafına xidmət edir. Bu yanaşmalar sayəsində şagirdlər yalnız riyazi biliklər əldə etmir, həm də həyatda zəruri olan düşünmə, analiz və problem həll etmə bacarıqlarını mənimsəyirlər. Müasir dövrün tələblərinə cavab verən bu metodların geniş tətbiqi gələcəkdə daha bilikli, yaradıcı və çevik düşünən nəsil yetişdirilməsinə mühüm töhfə verəcəkdir.

ZƏRNİŞAN İSAYEVA
Naxçıvan Dövlət Universiteti
Müəllim
zernisanisayeva94@gmail.com
QƏLƏMZƏR HÜSEYNOVA
Naxçıvan Dövlət Universiteti
Bakalavr
huseynovah049@gmail.com

RİYAZİYYATIN TƏDRİSİNDƏ YENİ METODLARIN TƏTBİQİNƏ DAİR

Məqaləmizdə şagirdlərdə riyaziyyat fənninə marağın artırılması və sevdirilməsi üçün hansı yeni metodları tətbiq edə biləcəyimiz haqqında bəhs etmişik. Riyaziyyatın tədrisində bir çox yeni və effektiv metodları tətbiq edə bilərik bunlara nümunə olaraq təcrübə və eksperimentlər, interaktiv texnologiyalardan istifadə, əks çevrilmiş sinif metodu, oyunlaşdırma və.s.

Açar sözlər: *yeni metodlar, müvəffəqiyyət, effektiv üsullar, öyrənmə, innovativ yanaşma*

Elm və texnologiyanın sürətlə dəyişdiyi bir dünyada riyaziyyatın əhəmiyyəti artır və bütün insanlar tərəfindən vacib sayılır. Şagirdlər cəmiyyətdə məhsuldar fərd olmaq, sosial hadisələri başa düşmək, müxtəlif peşə və şəxsi problemləri həll etmək və ixtisaslı işə sahib olmaq üçün riyaziyyata əhəmiyyət verirlər. Bununla belə, bəzən şagirdlər üçün "çətin", "zəhlətökən" və "əyləncəli olmayan" kimi təyin olunan riyaziyyat müəllimlər üçün "tədris etmək çətin" və "şagird marağının aşağı olması" kimi qəbul edilir. Bu təsəvvürlərin əsası ondan ibarətdir ki, sinifdə istifadə olunan tədris metodları və təcrübələri qeyri-adekvat və ya tamamilə yanlışdır. Elm və texnologiyanın sürətli inkişafı hər elm sahəsində olduğu kimi riyaziyyat sahəsinə də öz təsirini göstərmiş, tələbələrin maraq, istək və ehtiyacları dəyişmiş və bu mənada riyaziyyat dərslərinin tədrisi də dəyişmişdir. Bu vəziyyət nəticəsində riyaziyyatın tədrisi ilə bağlı müasir anlayış, yaradıcı təfəkkürün həyata keçirilməsində şagirdin effektivliyinə əsaslanaraq yaranmışdır. İnformasiya texnologiyalarından istifadə etməklə yanaşı, animasiya, hekayələr və müxtəlif fəaliyyətlər vasitəsilə riyaziyyat fənlərini daha asan, daha başa düşülən və daha zövqlü etmək üçün səylər göstərilir.Bunlar arasında, informasiya texnologiyalarından istifadə etməklə yanaşı, mövzuları canlandıraraq, hekayələr və müxtəlif fəaliyyətlərlə daha başa düşülən və zövqlü hala gətirmək üçün səylər davam etdirilir.

Yaşadığımız informasiya əsrində müəllimin mərkəzdə olduğu birbaşa izahat üsulu adekvat deyil. Tələbəni öyrənmə mühitinin mərkəzinə qoyan və onu fəallaşdıran üsullara ehtiyac var. Aktiv tədris metodları adlanan üsullara qısa animasiyalar, qrup müzakirələri, problem həlli və rol oyunu kimi üsullar daxildir. Fəal təlim metodlarından istifadə edilən tədris-təlim prosesində şagirdin iştirakı artır, motivasiya artır. Şagirdlər daha çox onları maraqlandıran və onlar üçün vacib hesab etdikləri məlumatları öyrənirlər. Ona görə də sinifdə təlim və tədris prosesi şagirdlərin diqqətini cəlb edəcək şəkildə planlaşdırılmalı və bu prosesdə şagirdlərə fəal rol verilməlidir. Bu, şagirdi mərkəzləşdirən və onların dərsdə fəal olmasına şərait yaradan üsullardan istifadə etməklə mümkündür. Fəal öyrənən tələbələr öyrəndikləri haqqında danışa, bu barədə yaza və keçmiş təcrübələri ilə əlaqələndirə, həmçinin gündəlik həyatlarında tətbiq edə bilərlər.

Son illərdə şagirdlərin riyaziyyat nailiyyətlərinin azalması ilə şagirdlərin təlim mühitində fəal iştirakını təmin etmək məqsədilə riyaziyyatın tədrisində alternativ metodlardan istifadə olunmağa başlanmışdır. Riyaziyyatın tədrisində illərdir istifadə olunan və artıq effektivliyini itirmiş metodlar əvəzinə yeni alternativ tədris metodları və təcrübələri hazırlanır. Buna görə riyaziyyat tədrisində, İnformasiya texnologiyaları ilə dəstəklənən tədris, əməkdaşlıqla öyrənmə, drama və oyunlarla öyrənmə, konsepsiya xəritələri ilə öyrənmə, vizuallaşdırma yolu ilə öyrənmə və problem həll etmə metodu kimi alternativ öyrənmə üsulları üzərində araşdırmalar aparılır. Riyaziyyat dərslərində əyləncəli və yeni metodları tətbiq edərək şagirdlərdə bu fənnə marağı artırmış oluruq. Riyaziyyatın tədrisində yeni metodların tətbiqi müasir təhsil sistemində çox önəmlidir və şagirdlərin öyrəniləcək olan mövzunun daha yaxşı mənimsəmələrinə və riyaziyyat fənninə marağın artırılması üçün zəruridir.

Yeni və effektiv metodların tətbiq edərək dərs keçirilən zaman şagirdlər öyrəniləcək yeni mövzunu asanlıqla öyrənirlər,bu zaman şagird motivasiyası artır. Motivasiyası yüksək olan şagirddə həmin fənnə maraq artır və o fənni sevərək öyrənir. Elm və texnologiyanın sürətlə dəyişdiyi bir dünyada riyaziyyatın əhəmiyyəti artır və bütün insanlar tərəfindən öyrənilməsi zəruri olur. Riyaziyyatın tədrisində illərdir istifadə olunan və artıq effektivliyini itirmiş metodlar əvəzinə yeni alternativ tədris metodları və təcrübələri hazırlanır. Buna görə riyaziyyat tədrisində, informasiya texnologiyaları ilə dəstəklənən tədris, əməkdaşlıqla öyrənmə, drama və oyunlarla öyrənmə, konsepsiya xəritələri ilə öyrənmə, vizuallaşdırma yolu ilə öyrənmə və problem həll etmə metodu,oyun əsaslı öyrənmə kimi alternativ öyrənmə üsullarından istifadə edilməlidir.

SOLMAZ HƏSƏNLİ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Dosent
solmazhasanli@hotmail.com

MƏKTƏB PSİXOLOQUNUN VALİDEYNLƏRLƏ BİRGƏ İŞİNİN MAHİYYƏTİ

Məktəb psixoloqu sadəcə müəllim, şagird və valideynlərə psixoloji xidmətlər göstərmir, eyni zamanda hər hansı bir problemin həllində onlarla əməkdaşlıq edir. Bu, məktəb psixoloqlarının fəaliyyətinin əsas aspektlərindən biridir. Bu tezisdə məktəb psixoloqunun valideynlərlə işinin mahiyyəti və psixoloji yardım prosesində qarşılıqlı iştirakın önəmi analiz edilmişdir.

Açar sözlər: *məktəb psixoloqu, valideyn, şagird, valideynlərlə iş metodları*

Valideynlərin təhsil prosesində iştirakı uşaqların məktəbə sosial-psixoloji adaptasiyasına və akademik uğurlarına müsbət təsir göstərir. Psixoloqlar və valideynlər arasında əməkdaşlıq uşaqların təlim-tərbiyəsinin, sağlam psixo-sosial inkişafının effektivliyini artırır. Məktəb psixoloqunun valideynlərlə apardığı psixoloji maarifləndirmə fəaliyyətləri nəticəsində psixoloji biliklərə yiyələnən valideynlər uşaqlarının fərdi xüsusiyyətlərini nəzərə alaraq onların inkişafı üçün uyğun şəraitin yaradılması ilə bağlı var olan imkanları dəyərləndirməyə başlayırlar.

Uşaqlarda psixoloji problemlərin qarşısının alınması psixoloq və valideynlər üçün prioritet olmalıdır. Təhsil qurumlarında uşaqların sistemli monitorinqi və valideynlərlə ünsiyyət vasitəsilə vaxtında aparılan diaqnostik işlər uşaqlarda emosional və davranış problemlərini, onların yaranmasının erkən mərhələlərində aşkara çıxarmağa və həll etməyə yardım edir. Məktəb psixoloqu və valideynlər uşaq üçün uyğun inkişaf mühiti yaratmaqla onların sosial mühitə sağlam psixoloji uyğunlaşmasına nail olmalıdırlar. Psixoloq və valideynlər arasında birlik uşaq üçün münbit bir inkişaf mühiti yaradır və təhsil prosesinin bütün iştirakçıları ilə qarşılıqlı əlaqənin təməlini gücləndirir.

Praktik psixoloq valideyn-uşaq münasibətlərini yaxşılaşdırmağa, maneələri aradan qaldırmağa və ailə daxilində emosional bağları gücləndirməyə kömək edir. Məktəb psixoloqunun valideynlərlə qarşılıqlı əlaqəsinin əsas məqsədi uşağının öyrənmə potensialını reallaşdırmaq və onların sağlam psixo-sosial inkişafı üçün ən yaxşı şərait yaratmaqdır.

Ailələrlə aparılan psixoloji yardım fəaliyyətlərinin əsas sahələri bunlardır:

Psixodiaqnostika- valideynlərin şəxsiyyət xüsusiyyətlərinin onların övlad ilə qarşılıqlı əlaqələrinə təsirini öyrənmək, uyğun olmayan ailə tərbiyəsini, ailə münasibətlərini araşdırmaq və uşağın ailə üzvlərinin təhsil potensialını qiymətləndirmək.

Psixoloji məsləhət- valideynlərə uşağın inkişafı, tərbiyəsi və təhsili məsələlərində dəstək olmaq, çətin vəziyyətləri təhlil etmək və konfliktlərin həllində yardım etmək.

Psixoloji maarifləndirmə- valideynlərin övladlarının yaş və fərdi xüsusiyyətləri ilə bağlı bilgi verməklə onların psixoloji və pedaqoji savadlılığını artırmaq.

Psixoloqun məktəbdə valideynlərlə birgə işinə uşağın və valideynin məktəb mühitinə uyğunlaşması, məktəbə hazırlığın qiymətləndirilməsi, uyğunlaşma prosesinin monitorinqi, adaptasiya problemlərinin aradan qaldırılması, akademik uğursuzluğun psixoloji səbəblərinin öyrənilməsi, dəstək strategiyalarının hazırlanması, müəllimlərlə işin əlaqələndirilməsi, görülən tədbirlərin effektivliyinin monitorinqi, karyera rəhbərliyi, uşaqların qabiliyyət və maraqlarının qiymətləndirilməsi, peşə seçiminə yardım edilməsi, tövsiyələrin hazırlanması və s. daxildir

Məktəb psixoloqunun valideynlərlə birgə işinin səmərəliliyi üçün uşağın idrak proseslərinin (qavrayış, yaddaş, diqqət, düşüncə və təxəyyül) inkişafının qiymətləndirilməsi və stimullaşdırılması ən önəmli fəaliyyətlərdəndir. Psixoloq valideynlərə uşağın koqnitiv inkişafı ilə bağlı gərəkli bilgiləri verərək təhsil qurumunda və evdə bu prosesləri inkişafı üçün tövsiyələr hazırlamalıdır.

Emosional inkişafla bağlı olaraq məktəb psixoloqu valideynlərə uşaqlardakı qorxu və fobiyalarının aradan qaldırılması, emosional zəkanın inkişaf etdirilməsi və stressin idarə olunması kimi bacarıqlar formalaşdırılmasında mütəxəssis yardımı həyata keçirməli, məktəbdəki fəaliyyətlər evdə də valideynlər tərəfindən dəstəklənməlidir.

Eyni zamanda, sosiallaşma, ünsiyyət bacarıqlarının inkişafında da mütləq valideynlərlə məktəb psixoloqunun birgə işi əsasdır. Belə ki, sosial bacarıqların formalaşması sadəcə təhsil qurumundakı fəliyyətlərlə həyata keçirilə bilməz. Bildiyimiz kimi, sosiallaşmada ilkin qurum ailədir. Məktəb psixoloqu bununla bağlı da valideynləri maarifləndirməli və ailədə uğurlu sosiallaşma üçün gərəkli mühitin yaradılmasında valideynlərə dəstək olmalıdır.

Məktəb psixoloqu ilə valideynlər arasında fərdi psixoloji konsultasiyalar canlı və ya onlayn şəkildə aparıla bilər. Valideynlərlə psixoloq arasındakı konsultasiyaların üç növ vardı: ilkin (diaqnostik), korreksiyaedici və ekstremal (böhran). Bu konsultasiyalar zamanı məktəb psixoloqu valideynin güvənini qazanmalıdır. Valideyn inanmalıdır ki, psixoloqun fəaliyyəti uşağın gərəkli psixo-sosial inkişafına zəmin hazırlayacaqdır. Psixoloq, eyni zamanda valideynlərlə fərdi psixoloji konsultasiya zamanı bir sıra prinsiplərə də əməl etməlidir. Bu prinsiplər əsasən aşağıdakılardır:

Gizlilik prinsipi- etibarlı atmosfer yaradılmalı və ailə bilgilərin açıqlanmamasına inanmalıdır.

Sistemli və strukturlaşdırılmış- davamlı görüşlər, aydın planlaşdırma, ardıcıl iş, irəliləyişin monitorinqi həyata keçirilməlidir.

Tərəfdaşlıq- valideynlərin mövqelərini qərəzsiz qəbul etmək, anlayış və hörmətlə yanaşmaq, əməkdaşlıq münasibətləri qurmaq və aktiv dinləmə.

Məqsədyönlü iş- real məqsədlərin birgə qoyulması, praktik tövsiyələr hazırlanması, fəaliyyətlə bağlı düşüncələrin öyrənilməsi və nəticələrin qiymətləndirilməsi.

Resurs əsaslı yanaşma- ailənin güclü tərəflərinə əsaslanmaq, davamlı dəyişikliklərin təmin edilməsi və valideynlərin motivasiyasının dəstəklənməsi.

Praktik psixoloqların valideynlərlə qrup konsultasiyalarına psixoloji-pedaqoji seminarları- məsələn, yaşla bağlı böhran problemi, ümumi problemlərin həlli üzrə praktik seminarlar (ev tapşırığını yerinə yetirmək istəməmək, aqressivlik, öyrənmə motivasiyasının itirilməsi və s.), psixoloji dəstək qrupları və bir çox fəaliyyətlər daxil ola bilər.

Psixoloqun valideynlərlə birgə işi fəaliyyətlərin planlaşdırılmasını, konsultasiyaların və maarifləndirmənin həyata keçirilməsini və sənədləşmənin aparılmasını əhatə edir. İş üç mərhələdə qurulur: hazırlıq (bilgi toplamaq), fəaliyyətlərin həyata keçirilməsi və nəticələrin təhlili.

Psixoloq tərəfindən valideynlərlə iş metodları əsasən bunlardır:

Diaqnostik metodlar: Standartlaşdırılmış anketlər və testlər - PARI metodu, Varqa-Stolin Valideyn Münasibətləri Anketi, Eidemiller Ailədaxili Münasibətlərin Analizi Anketi, Markovskayanın Valideyn-Uşaq Qarşılıqlı Əlaqəsi Metodu və s.

Proyektiv metodlar - “Ailə rəsmi”, “Ailə sosioqramı” və s.

Valideyn-uşaq qarşılıqlı əlaqələrinin müşahidə metodları – strukturlaşdırılmış müşahidə, ünsiyyətin qiymətləndirilməsi, birgə fəaliyyətlərin təhlili.

Bioqrafik metodlar - genoqram, ailə tarixinin təhlili.

Metodların seçimi valideynlərin ehtiyacları, uşağın yaşı, problemin mahiyyəti və ailənin əməkdaşlığa hazırlığı nəzərə alınaraq müəyyən edilir. Məktəb psixoloqu maarifləndirmə fəaliyyətləri çərçivəsində valideynlərlə uyğun mövzularda interaktiv mühazirələr, seminarlar və vebinarlar keçirməli, valideynlərlə görüşlər, dəyirmi masalar təşkil etməli, məlumat materialları (broşürlər, paylama və infoqrafik materialları) yaratmalı və yaymalı, təhsil qurumunun veb saytında psixoloji bloq yaratmalı, elektron materialların paylanmasını təmin etməlidir.

Məktəb psixoloqları konsultasiya fəaliyyətlərində koqnitiv davranış terapiyası, ailə terapiyası, art terapiya, Gestalt terapiyası və psixodrama elementlərindən istifadə edə bilərlər.

Psixoloqun valideynlərlə birgə işi mürəkkəb və çoxşaxəli bir prosesdir. Bu, yüksək peşəkarlıq, empatiya və sistemli yanaşma tələb edir. Uğur yalnız uşaqların inkişafında müsbət dəyişikliklərlə deyil, həm də valideyn səriştəsinin artırılması, ailə münasibətlərinin möhkəmləndirilməsi, məktəbdə və evdə dəstəkləyici mühitin yaradılması ilə ölçülür.

ELÇİN CAVADOV
Gəncə Dövlət Universiteti
Texnika üzrə fəlsəfə doktoru, dosent
ELÇİN MƏMMƏDOV
Gəncə Dövlət Universiteti
Müəllim
elcin.55@bk.ru

TƏHSİL MÜHİTİ VƏ İNKLÜZİV TƏHSİL ŞƏRAİTİNDƏ İNTERAKTİV VƏ FƏRDİ YANAŞMALARIN TƏTBİQİ

Məqalədə inklüziv təhsil şəraitində təhsil mühitinin əsas komponentləri və onların şagirdlərin fiziki, psixoloji və akademik inkişafına təsiri geniş şəkildə araşdırılır. Sanitar-gigiyenik tələblər, iş yerlərinin ergonomik təşkili, sinif otağının işıqlandırılması, vizual materialların uyğunlaşdırılması, dərs prosesinin təşkili və dərs ritminin tənzimlənməsi məsələləri əhatəli şəkildə təhlil olunur. Şagirdlərin sağlamlığının qorunması məqsədilə iş pozasının dəyişdirilməsi, dinamik fasilələrin təşkili və qısa fiziki məşqlərin tətbiqi tövsiyə edilir. Eyni zamanda interaktiv tədris metodlarının tətbiqi, müxtəlif fəaliyyət növlərinin növbələşdirilməsi və fərdi yanaşma şagirdlərin diqqətinin, motivasiyasının, sosial bacarıqlarının və yaradıcılıq potensialının inkişafına mühüm təsir göstərir. Məqalədə həmçinin inklüziv təhsil mühitinin təşkili ilə bağlı praktiki tövsiyələr və tətbiq nümunələri təqdim olunur.

Açar sözlər: *təhsil mühiti, inklüziv təhsil, ergonomika, dərs ritmi, interaktiv metodlar, fərdi yanaşma*

Təhsil mühiti müasir pedaqogik yanaşmalara görə yalnız fiziki məkan deyil, həm də sosial və psixoloji münasibətlər, tədris prosesinin təşkili, texniki və maddi resursların qarşılıqlı təsiri nəticəsində formalaşan mürəkkəb bir sistemdir. Bu mühit şagirdlərin öyrənmə fəaliyyətinə, onların fiziki və emosional vəziyyətinə, eləcə də sosial adaptasiyasına birbaşa təsir göstərir. İnklüziv təhsil şəraitində isə təhsil mühitinin düzgün təşkili daha böyük əhəmiyyət kəsb edir, çünki müxtəlif inkişaf xüsusiyyətlərinə malik uşaqların bərabər təhsil imkanlarına malik olması üçün uyğun və əlçatan şəraitin yaradılması vacibdir.

İnklüziv təhsil mühitinin əsas elementlərindən biri sanitar-gigiyenik tələblərin təmin edilməsidir. Məktəb mühitində gigiyena qaydalarına riayət olunması şagirdlərin sağlamlığının qorunmasına və onların tədris prosesində səmərəli iştirakına müsbət təsir göstərir. Sinif otaqlarında işıqlandırma səviyyəsi, havalandırma sistemi, temperatur rejimi və səs-küy səviyyəsi kimi amillər tədrisin keyfiyyətinə birbaşa təsir edir. Bu baxımdan sinif otaqlarının kifayət qədər işıqlandırılması xüsusilə vacibdir. Görmə qabiliyyətində problemlər yaşayan şagirdlər üçün əlavə işıq mənbələrinin təmin edilməsi və işıqlandırma səviyyəsinin artırılması tövsiyə olunur. Eyni zamanda sinif lövhəsinin ölçüsü, rəngi və səth xüsusiyyətləri şagirdlərin görmə qabiliyyətinə uyğun seçilməlidir ki, yazılar sinfin bütün nöqtələrindən aydın şəkildə görünə bilsin. Belə yanaşma yalnız vizual rahatlığı təmin etmir, həm də şagirdlərin dərsə konsentrasiyasını artırır və yorğunluğu azaldır.

Sinif otağında istifadə olunan mebelin ergonomik xüsusiyyətləri də təhsil mühitinin mühüm komponentlərindən biridir. Şagirdlərin yaş və boy xüsusiyyətlərinə uyğun seçilmiş parta və stullar onların düzgün oturuş pozasının formalaşmasına kömək edir və skelet-əzələ sistemində yarana biləcək problemlərin qarşısını alır. Xüsusi təhsil ehtiyacı olan şagirdlər üçün fərdi xüsusiyyətlərə uyğunlaşdırılmış mebel və texniki vasitələrdən istifadə məqsədəuyğundur. Məsələn, hərəkət məhdudiyyəti olan və ya serebral iflicdən əziyyət çəkən şagirdlər üçün xüsusi dayaqlar və ayaqüstə işləməyə imkan verən iş yerlərinin yaradılması onların dərs prosesində daha rahat iştirak etməsinə şərait yaradır. Bundan əlavə, görmə problemləri olan şagirdlər üçün istifadə olunan vizual materialların ölçüsü və kontrastlığı xüsusi diqqətlə seçilməlidir. Əgər təqdim olunan vizual material

şagird üçün kifayət qədər əlçatan deyilsə, həmin informasiya alternativ formada – böyüdülmüş mətn, elektron material və ya audio kitab şəklində təqdim edilə bilər.

İnklüziv təhsil mühitində səs-küy səviyyəsinin tənzimlənməsi də mühüm əhəmiyyət daşıyır. Tədqiqatlar göstərir ki, yüksək səs-küy şagirdlərin diqqətinin azalmasına və onların öyrənmə fəaliyyətinin səmərəliliyinin aşağı düşməsinə səbəb ola bilər. Buna görə də sinif otaqlarında səs təzyiqi gigiyenik normalardan artıq olmamalıdır. Bu xüsusilə autizm spektr pozuntusu və ya diqqət çatışmazlığı olan şagirdlər üçün daha böyük əhəmiyyət kəsb edir, çünki onlar səs stimullarına daha həssas reaksiya verə bilirlər.

Xüsusi təhsil ehtiyacı olan şagirdlərin tədris prosesində uğur qazanması üçün fərdi yanaşma və adaptiv tədris proqramlarının tətbiqi vacibdir. Fərdi tədris planları şagirdlərin tibbi göstəriciləri, psixoloji xüsusiyyətləri və öyrənmə ehtiyacları nəzərə alınaraq hazırlanır. Bu planlar çərçivəsində dərs yükünün optimallaşdırılması, bəzi fəaliyyət növlərinin dəyişdirilməsi və alternativ tədris metodlarının tətbiqi mümkün olur. Bəzi hallarda şagirdlərin təhsil fəaliyyəti tibbi və reabilitasiya tədbirləri ilə paralel təşkil oluna bilər. Məsələn, psixoloq, loqoped və ya defektoloqla aparılan məşğələlər şagirdlərin ümumi inkişafına müsbət təsir göstərir və onların sosial adaptasiya imkanlarını artırır.

Dərs prosesində şagirdlərin uzun müddət oturaq vəziyyətdə qalması fiziki yorğunluq və statik gərginlik yarada bilər. Bu səbəbdən tədris prosesində müxtəlif fiziki aktivlik elementlərinin tətbiqi tövsiyə edilir. Şagirdlərin bədən mövqeyinin dəyişdirilməsi, qısa dinamik fasilələrin təşkili və sadə fiziki məşqlərin yerinə yetirilməsi onların sağlamlığına müsbət təsir göstərir. Belə fasilələrin müddəti adətən 2–5 dəqiqə arasında dəyişir və şagirdlərin yorğunluq səviyyəsinə uyğun tənzimlənir. Bundan əlavə, nəfəs gimnastikası, göz məşqləri və barmaq gimnastikası kimi fəaliyyətlər də dərs prosesinə inteqrasiya edilə bilər. Bu cür fəaliyyətlər şagirdlərin diqqətini bərpa etməyə və onların ümumi iş qabiliyyətini artırmağa kömək edir.

İnteraktiv tədris metodlarının tətbiqi inklüziv təhsil mühitində xüsusilə səmərəli hesab olunur. Bu metodlar şagirdlərin aktiv iştirakını təmin edir və onların yaradıcılıq, tənqidi düşünmə və problem həll etmə bacarıqlarının inkişafına kömək edir. Qrup müzakirələri, layihə fəaliyyəti, rollu oyunlar və təqdimatlar kimi metodlar şagirdlərin sosial bacarıqlarının inkişafına da müsbət təsir göstərir. Müəllim bu metodlardan istifadə edərkən şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalı və hər bir şagirdin fəaliyyətə cəlb olunmasını təmin etməlidir.

Beləliklə, inklüziv təhsil mühitinin yaradılması çoxşaxəli və kompleks yanaşma tələb edən bir prosesdir. Bu prosesdə sanitar-gigiyenik tələblərin təmin edilməsi, fiziki mühitin uyğunlaşdırılması, fərdi yanaşmanın tətbiqi və interaktiv tədris metodlarının istifadəsi xüsusi əhəmiyyət kəsb edir. İnklüziv təhsilin əsas məqsədi yalnız biliklərin ötürülməsi deyil, həm də uşaqların fiziki, psixoloji və emosional sağlamlığının qorunması, onların fərdi bacarıqlarının inkişaf etdirilməsi və yaradıcı potensialının aktivləşdirilməsidir.

GÜLBƏNİZ SULTANOVA
Xəzər Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
gsultanova@khazar.org

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRƏ PEDAQOJİ-PSİXOLOJİ DƏSTƏYİN ƏSAS AMİLLƏRİ

Konfransa təqdim edilən tezisdə müasir dövrdə kiçikyaşlı məktəblilərin şəxsiyyət kimi formalaşması üçün pedaqoji-psixoloji dəstək, adaptasiya dövrünün düzgün idarə edilməsi, müəllim-şagird münasibəti və oyun əsaslı təlimin vacibliyi vurğulanmışdır. Həmçinin texnologiyadan faydalanmanın müsbət tərəfləri ilə yanaşı, kiçikyaşlı məktəblilərdə yarana biləcək risklər də tezisdə öz əksini tapmışdır.

Açar sözlər: *pedaqoji-psixoloji dəstək, təhsilin idarəedilməsi, müasir texnologiya, süni intellekt, kiçikyaşlı məktəblilər*

Müasir dövrdə şagirdlərin şəxsiyyət kimi formalaşması prioritet vəzifələrdən biridir. Təbii ki, kiçikyaşlı məktəblilərin şəxsiyyət kimi formalaşması çox mürəkkəb və əziyyətli bir dövrdür. Bu zaman pedaqoji-psixoloji dəstəyin olması başlıca amildir. 6-10 yaş arasında olan məktəblilərə göstərilən bu dəstək onlarda həm nailiyyətin, həm də emosional sabitliyin əsasını qoyur.

Kiçikyaşlı məktəblilərə pedaqoji-psixoloji dəstəyin əsas amillərindən biri onların adaptasiya dövrünün idarə olunmasıdır. Oyun fəaliyyətindən təlim fəaliyyətinə keçid edən uşaq üçün maraqlı mühit yaradılmalıdır. Yəni, onlar üçün psixoloji mühit təmin edilməlidir.

Müəllim-şagird arasında sağlam münasibətin qurulması kiçikyaşlı məktəblilərə pedaqoji-psixoloji dəstəyin əsas amillərindəndir. Nəzərə alaq ki, valideyndən sonra müəllim uşaq üçün çox böyük nümunədir, müəllim fərdi yanaşmaya üstünlük verməli, onların səhvlərini bildirməklə yanaşı, kiçik nailiyyətlərini belə xüsusi vurğulamalı, onların motivasiyalarını artırmaq və daha aktiv olmaları üçün onlara verilən tapşırıqlara oyun elementərinin daxil edilməsi məqsədəuyğundur. Bu münasibət davamlı şəkildə həyata keçirilməlidir.

Kiçik yaşlı məktəblilər oyun fəaliyyətindən təlim fəaliyyətinə keçid etdikləri üçün tədris prosesində oyun vasitələrindən, məsələn, rollu oyunlardan faydalanarlarsa, bu, onların tıdris materialını daha yaxşı qavramalarına kömək göstərə bilər. Həmçinin müasir texnologiyalardan məqsədəuyğun istifadə uşağın məktəbə, eləcə də oxumağa marağını artırır. Çünki, bu yaşda olan uşaqlar oyuna meyilli olduğundan müasir texnologiyadan, süni intellekt proqramlarından səmərəli istifadə tədris prosesini daha maraqlı və əyləncəli edir, eyni zamanda onlar arasında sağlam rəqabəti formalaşdırır, öyrənmə motivasiyasını yaradır. Nəticədə onlar öz uğurlarını visual olaraq görə bilirlər.

Müasir texnologiyanın tədris prosesində istifadəsinin müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri də vardır. Xüsusilə texnologiyadan məqsədəuyğun faydalanmaqla, kiçikyaşlı məktəblilər üçün diqqət dağınıqlığına səbəb ola bilər, uşaqların yaş və psixologiyasına uyğun gəlməyən məzmunun olması onların tərbiyəsinə mənfi təsir göstərə, həddindən artıq asılılıq onların sosiallaşmasının azalmasına səbəb ola bilər. Ona görə də, kiçikyaşlı məktəblilər üçün texnologiyanın yaratdığı bu riskləri nəzərə almaq lazımdır.

İbtidai sinif şagirdlərini məktəb mühitinə alışdırmaq üçün ailə-məktəb-psixoloq əməkdaşlığı böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq sayəsində təhlükəsiz, strukturlu və emosional mühit yaranır. Bu isə, kiçikyaşlı məktəblilərdə dəstək mexanizminin səmərəliliyini artırır. Bura vahid tələblər, psixoloji diaqnostika və məsləhətləşmələr daxildir.

Valideynlər məktəbin daxili nizam-intizam qaydalarını dəstəkləməli, məktəb psixoloqu isə müxtəlif metodlarla uşağın idrak proseslərini izləməli və yaş böhranları ilə bağlı valideynləri məlumatlandırmalıdır.

Uşaq 6 yaşından etibarən məktəbəqədər dövrdən ibtidai təhsil mərhələsinə keçid edir. Bu dövrdə təlim fəaliyyəti ilə yanaşı, sosial şüurun inkişafı da diqqət çəkir. Evdə diqqət mərkəzində olmağa öyrəşən uşaq məktəbdə hər kəslə bərabərhüquqlu olduğunu anlamayaraq, bəzən psixoloji

gərginlik kimi qəbul edir. Xüsusilə məktəbəqədər hazırlıq keçməyən uşaqlarda bu proses daha qabarıq şəkildə özünü göstərir. Belə vəziyyətdə valideyn uşaqla ünsiyyət qurub yeni mühitin qaydalarını ona izah etmək əvəzinə avtoritar mövqe nümayiş etdirərsə, uşaqda dəyərsizlik hissi yarana bilər. Bu isə həm onun təlim nailiyyətlərinə, həm də davranışlarına mənfi təsir göstərir.

JALƏ MƏMMƏDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Müəllim
m_jale@rambler.ru
https://orcid.org/009-003-1716-9750

KİÇİK MƏKTƏB YAŞLI UŞAQLARDA DİQQƏT VƏ TƏLİM UĞURU ARASINDAKI ƏLAQƏ

Kiçik məktəb yaşlı uşaqlarda diqqət öyrənmə fəaliyyətinin əsas şərtlərindən biridir. Diqqətin səviyyəsi informasiyanın qavranılması, emalı və mənimsənilməsinə təsir edir. Düzgün pedaqoji yanaşmalar diqqətin inkişafını dəstəkləyir və akademik uğurun formalaşmasında mühüm rol oynayır.

Açar sözlər: *diqqətin inkişafı, kiçik məktəbli, təlim uğuru, öyrənmə*

Əsas hissə: Müasir dövrdə təlim prosesinin səmərəliliyini artırmaq, şagirdlərin idrak fəaliyyətini inkişaf etdirmək psixoloji tədqiqatların əsas istiqamətlərindən biridir. Təhsil sistemində uşağın təlim uğurunu müəyyən edən əsas psixoloji amillərdən biri diqqətdir. Bu dövrdə uşağın dərs materialını qavraması, müəllimin tapşırıqlarını yerinə yetirməsi və akademik nailiyyət əldə etməsi diqqətin inkişaf səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Diqqət təlim fəaliyyətinin tərkib hissəsi olmaqla idrak proseslərinin inkişafını tənzimləyir və uşağın öyrənmə fəaliyyətinin səmərəliliyinə birbaşa təsir edir.

Bilirik ki, 6-10 yaşı əhatə edən kiçik məktəbli yaşı dövrünün başlıca xüsusiyyətləri uşaqların məktəbli olması, əsas fəaliyyətin təlim fəaliyyəti olmasıdır. Bu vaxtdan etibarən oyun fəaliyyəti onun həyatında mühüm yer tutsa da aparıcı rolunu itirir. Bu dəyişiklik uşağın düşüncə tərzində, davranışında, münasibətlərində dərin dəyişikliklər yaradır, davranış motivləri, psixi inkişafı əsaslı şəkildə dəyişir.

Şəxsiyyətin bir çox xüsusiyyətlərinin əsası da məhz kiçik məktəbli yaşı dövründə qoyulur. Uşaq məktəbə qədəm qoymaqla yeni sosial status qazanır. O, artıq şagirddir. Uşaq yeni həyat tərzinə uyğunlaşmalı, məktəbin tələblərini qəbul etməli, öyrənmə rejiminə alışmalıdır. Artıq uşağın gündəlik fəaliyyəti tədris tapşırıqları və məsuliyyətlər üzərinə qurulur. Uşaq onun üçün tamamilə yeni olan bir şəraitə düşür. Qaydalara əməl etmək, dərsin sonuna kimi sakit oturmaq, özünü idarə etmək, tapşırıqları ardıcıl və düzgün yerinə yetirmək, diqqətini müəyyən müddət ərzində bir fəaliyyət üzərində saxlamaq, sinifdən çıxmaq və daxil olmaq üçün müəllimdən icazə almaq və s. şəxsiyyətin inkişafına ciddi təsir edir.

Bu yaş dövründə uşağın idrak sferasında əhəmiyyətli dəyişikliklər baş verir. Bu dövrdə xüsusilə diqqətin inkişaf səviyyəsi uşağın dərs materialını qavraması, tapşırıqları yerinə yetirməsi və ümumilikdə təlim motivasiyasına təsir edir. İbtidai sinif mərhələsində diqqətin inkişaf xüsusiyyətlərinin öyrənilməsi, məqsədyönlü şəkildə diqqətin inkişaf etdirilməsi pedaqoji prosesin əsas vəzifələrindən birinə çevrilir.

Diqqət problemi psixologiya elminin əsas tədqiqat isitqamətlərindən biri olmuş və müxtəlif dövrlərdə bir çox yerli və xarici alimlər tərəfindən geniş şəkildə araşdırılmışdır. Azərbaycan psixologiyasında bu mövzuya toxunan bir sıra tədqiqatşılar olmuşdur. Ə.Ə.Əlizadə, Y.Ş.Kərimov, İ.Ə.Məmmədov, Ə.Ə.Qədirov, M.Ə.Həmzəyev və digər müəlliflər tərəfindən kiçik yaşlı məktəblilərdə diqqətin inkişafı, təlim fəaliyyətinə təsiri və uşaqlarda diqqət pozulmaları zamanı dəstək yolları ilə bağlı qiymətli elmi araşdırmalar aparılmışdır.

Məlumdur ki, diqqət insanın psixi fəaliyyətinin müəyyən obyekt və fəaliyyət üzərinə cəmləməsidir. Təlim prosesində diqqət uşağın məlumatı qəbul etməsinə, seçməsinə və emal etməsinə imkan yaradır. Bu bacarıq olmadan uşağın dərs materialını mənimsəməsi çətinləşir. Məktəb həyatının ilk illərində uşaqlarda diqqət hələ tam sabit xarakter daşımasa da, daha çox maraqlı, emosional cəhətdən cəlbedici obyektlərə yönəlsə də, təlimin sonrakı illərində diqqət tədricən ixtiyari və iradi xarakter qazanmağa başlayır. Uşaq artıq məqsədyönlü şəkildə diqqətini toplamağı öyrənir. Kiçik məktəb yaşının sonunda – 4cü sinifdə diqqətin həcmi və davamlılığı, keçiriciliyi və mərkəzləşməsi

demək olar ki, əsasən böyüklərdə olan səviyyəyə çatır. Bu baxımdan birinci, ikinci sinif şagirdləri üçün müəllimin onların diqqətini yönəltdiyi sahə əhəmiyyətlilik kəsb edir.

Qeyd edildiyi kimi, diqqət təlim uğurunun əsas şərtlərindən biridir. Diqqəti yaxşı inkişaf etmiş uşaqlar müəllimin izahını daha düzgün qavrayır, tapşırıqları daha dəqiq yerinə yetirir və məlumatı yadda saxlamaqda uğurlu olur. Onlar dərs zamanı verilən təlimatları izləyə, fəaliyyətlərini planlaşdıra və səhvlərini nəzarətdə saxlaya bilirlər. Diqqətin xüsusiyyətləri uşaqlarda təlimin keyfiyyətinə, dərs materialının qavranılmasına və davranışın tənzimlənməsinə birbaşa təsir edir. Uşaqların diqqət xüsusiyyətlərinin inkişafı onların intellektual və emosional inkişafı üçün də vacib şərtdir. Belə ki:

- diqqətin həcmi kifayət qədər böyük olan uşaqlar daha çox məlumatı eyni zamanda qavraya bilir;
- diqqətin davamlılığı yüksək olan uşaqlar dərs zamanı uzun müddət diqqətini qoruyub saxlaya bilir;
- diqqətin yüksək paylanma xüsusiyyəti uşağın bir neçə tapşırığı eyni vaxtda yerinə yetirməsini təmin edir;
- diqqətin keçirilmə bacarığı ilə diqqət bir obyekt üzərindən digərinə yönələ bilir.

Həmçinin, diqqətli şagird tapşırığı düzgün başa düşür və səhvlər etmir və ya az edir. Diqqət daxili intizam və məsuliyyət hissini formalaşdırır. Uzunmüddətli diqqət öyrənmə prosesinin davamlılığını və sabitliyini təmin edir, oxu, yazı, hesab və məntiqi düşünmə proseslərinə təsir edir, səhvlərin azalmasına gətirib çıxarır.

Əksinə, diqqət zəif inkişaf etdikdə, uşaqlarda müxtəlif təlim çətinlikləri müşahidə olunur. Belə uşaqlar tapşırıqları yarımçıq qoyur, tez-tez səhvlər edir, dərs zamanı yayınır və akademik fəaliyyətlərdə geriləmə yaşayırlar. Bu fəaliyyət zamanla uşağın motivasiyasının azalmasına və özünə inamın zəifləməsinə səbəb ola bilər.

Təlim prosesində diqqətin önəminin xüsusi vurğulanması və araşdırılması müəllim və valideynlər üçün sadəcə “uşağın diqqətli olub-olmamasını” göstərmir. Bu onların uşağa düzgün istiqamət verməsinə, uyğun metod seçməsinə və birlikdə hərəkət etməsinə imkan yaradır.

Həmçinin, diqqətin özü də təlim prosesində inkişaf edir. Çünki təlim prosesi şagirdlərin diqqətinə yeni tələblər – şagirdi maraqlandıran obyektlərlə yanaşı, maraqsız gələn lakin lazımlı şeylərə də diqqət etmək, həm sinifdə dərs boyu, həm də evdə tapşırıqları yerinə yetirərkən diqqətlə işləmək tələbləri irəli sürür.

Təlim təkcə bilik və bacarıqların mənimsənilməsi deyil, eyni zamanda uşağın psixi proseslərinin xüsusilə diqqətin formalaşması üçün əsas vasitədir. Uğurlu təlim prosesi nəticəsində uşaqda diqqət məqsədyönlü, davamlı və iradi xarakter alır. Həmçinin, uşağın dərs zamanı keçdiyi mərhələlər, müəllimin istifadə etdiyi metodlar, tapşırıqların məzmunu və tədris mühiti diqqətin səviyyəsini müəyyən edir.

Beləliklə, kiçik məktəbli yaşda təlim uğurunu müəyyən edən əsas psixoloji amillərdən biri olan diqqətin inkişaf səviyyəsi uşağın təlim fəaliyyətinə uyğunlaşmasına, akademik niliyyətlərinə və ümumi idrak inkişafına birbaşa təsir göstərir. Bu səbəbdən diqqətin erkən yaşlardan inkişaf etdirilməsi, diqqət çətinliyi yaşayan uşaqlara vaxtında dəstək göstərilməsi və müəllim-valideyn əməkdaşlığının qurulması olduqca vacibdir.

AYNUR QASIMOVA
Bakı Slavyan Universiteti
Müəllim
aynurmehdiyeva84@gmail.com
https://orcid.org/0009-0008-2730-6153

MÜASİR TƏHSİLDƏ İNKLÜZİV YANAŞMALAR

Məqalə öz aktuallığı ilə seçilən, müasir təhsil ekspertlərinin inklüziv təhsil sahəsində apardıqları tədqiqat və kurrikulum nəzəriyyələrinə əsaslanır. Eyni zamanda, məqalədə inklüziv təhsilə keçid üçün fəlsəfi transformasiyanı nəzərə almaqla təhsilin mahiyyətinə baxışın dəyişdirilməsi, amerikalı psixoloq Jerome Brunerin "spiral kurikulum" konsepsiyasının tətbiqində hər hansı bir mövzunu uşağa dürüst bir formada aşılana bilinəcəyi məsələlərinə toxunulur. Daha sonra, məqalədə diferensiallaşmanın proaktiv bir yanaşma olması, şagirdlərin hazırlıq səviyyəsi, maraqları və öyrənmə profillərinin nəzərə alınması vacib hesab edilir. Eyni zamanda məqalədə müasir yanaşma modeli olan, inklüziv təcrübədə "skaffoldinq" şagirdin müstəqil şəkildə bacarmadığı tapşırığı yerinə yetirməsi üçün müvəqqəti dəstək quruluşuna uyğunlaşdırılaraq tətbiqinin səmərəsi məsələsi işıqlanıdırılır. Hansı ki, L.Vıqotskinin "Yaxın inkişaf zonası" konsepsiyasına əsaslanır. Bu yanaşmanın mahiyyəti isə Skaffoldinq vasitəsilə müəllimin tapşırığı kiçik hissələrə ayırması, vizual olaraq ipucları verməklə şagirddə inamın artması ilə dəstəyin tədricən azaldılmasıdır. İnklüziv siniflərdə şagirdlərə seçim haqqının verilməsi, ehtiyyacının nəzərə alınması məsələləri də şərh edilir.

Eyni zamanda, məqalədə inklüziv təhsildə müəllimin "formativ qiymətləndimə" modelindən istifadə etməsi, uşaqların daimi öz inkişafını izləməsi, özünü qiymətləndirmə bacarıqlarının inkişafı və davamlı müəllimdən rəy alması məsələlərinə toxunulur. Müəllimlərin öyrənmə çətinliyi olan uşaqlarla işləmə bacarığının əhəmiyyəti, valideynlərlə əməkdaşlığın və dəstəkləyici mühitin mühüm məqamları məqalədə öz əksini tapmışdır. Müasir təhsilin əsas vəzifəsi hər bir şagirddə "mən bacarıram" hissini formaladırmaqdan ibarət olması, müxtəlifliyin problem olmaması, şagirdin hazırlıq səviyyəsi, öyrənmə profili, maraqları, imkanlar palitrasının yaradılması məsələləri məqalədə şərh edilmişdir.

Məqalədə inklüziv müəllimin humanist mövqeyi, eyni zamanda inklüzivliyin texniki yox etik duruşu təhlil edilir.

Açar sözlər: *müasir yanaşmalar, inklüzivlik, təhsil ehtiyyacı,təlim modelləri, diferensiallaşma*

İnklüziv təhsil sadəcə bir metodologiya deyil, hər bir uşağın keyfiyyətli təhsil almaq hüququna malik olduğu inancına əsaslanan mənəvi bir öhdəlikdir. Bu yanaşmanın beynəlxalq səviyyədə hüquqi əsası 1994-cü il Salamanca Bəyannaməsi ilə qoyulmuşdur. Bəyannamə tələb edir ki, məktəblər fiziki, intellektual, sosial, emosional və ya linqvistik vəziyyətindən asılı olmayaraq bütün uşaqları qəbul etməlidir. Müasir dövrdə inklüzivlik, şagirdi mövcud sistemə uyğunlaşdırmaq deyil, sistemi şagirdlərin müxtəlifliyinə uyğun şəkildə yenidən qurmaq deməkdir. İnklüziv təhsil müasir təhsil sisteminin inkişafının əsas istiqamətlərindən biridir. O, bərabərlik prinsiplərinə, insan ləyaqətinə hörmətə və təhsil müxtəlifliyinin qəbuluna əsaslanır.

Tədqiqtçıların fikrincə, inklüziv təhsilə keçid üçün *fəlsəfi transformasiyanı* nəzərə almaqla təhsilin mahiyyətinə baxışı dəyişmək olar. Məşhur filosof və təhsil xadimi olan Paulo Freire klassik təhsil sistemini "bankçılıq modeli" adlandıraraq tənqid edir. Bu modeldə müəllim biliyi "əmanət qoyan", şagird isə onu sadəcə qəbul edən passiv "anbar" rolundadır. İnklüzivlik isə şagirdi biliyin ortaq yaradıcısına çevirərərək təlim prosesinin əsas aktiv iştirakçısına çevirir.

Amerikalı psixoloq Jerome Brunerin "spiral kurikulum" konsepsiyası hər hansı bir mövzunun hər bir uşağa dürüst bir formada öyrədilə biləcəyini müdafiə edir ki, bu da inklüzivliyin akademik əlçatanlıq prinsipini dəstəkləyir. İnklüziv siniflərin idarə olunmasında amerikalı təhsilşünas Carol Ann Tomlinsonun "diferensial" təlim" modeli mərkəzi rol oynayır. Diferensiallaşma şagirdlərin akademik müxtəlifliyini qaçılmaz hesab edən və müəllimləri qərarlarında bu fərqlilikləri nəzərə

almağa yönəldən bir yanaşmadır. Bu, sadəcə normal planlara əlavə edilən bir şey deyil, təlimin elə ən başından şagird ehtiyaclarına görə planlaşdırıldığı proaktiv bir yanaşmadır. Bu proses müəllim tərəfindən verilən şagird mərkəzli, sağlam düşüncəli qərarlar silsiləsi kimi xarakterizə olunur. İnklüziv pedaqogika şagirdləri çətinlik çəkənlər və normal öyrənənlər kimi qruplara ayırmaqdan imtina edir. Bunun əvəzinə, diqqət hər kəs üçün zəngin öyrənmə imkanlarının yaradılmasına və hər bir şagirdin təlim prosesində bərabər iştirakına yönəlir.

Mənbələr qeyd edir ki, diferensiallaşma hər bir şagirdin akademik inkişafını maksimallaşdırmaq üçün ən yaxşı təlim təcrübəsini təmin etməlidi.

Tədqiqatçılar hesab edirlər ki, diferensiallaşma şagirdlərin hazırlıq səviyyəsi, maraqları və öyrənmə profillərinə əsaslanan bir yanaşmadır. Əsasən, müəllimlər təlimin dörd komponentini diferensiallaşdıra bilərlər:

1) *Məzmun* - şagirdlərin nəyi öyrəndiyi və informasiyaya necə çıxış əldə etməsi komponenti. Məsələn, eyni mövzunu bəzi şagirdlər mətn vasitəsilə, digərləri isə vizual modellərlə öyrənə bilər.

2) *Proses* - şagirdlərin biliyi necə emal etməsi komponenti. Müəllim müxtəlif qruplaşma strategiyaları və “skaffoldinq” vasitəsilə hər kəsin fəaliyyətdə olmasını təmin edir.

3) *Nəticə/məhsul* - şagirdlərin nə öyrəndikləri və necə nümayiş edəcəkləri komponenti. Şagirdlərə inşa yazmaq, poster hazırlamaq və ya təqdimat etmək kimi seçimlər verilməlidir.

4) *Öyrənmə mühiti* - sinfin fiziki düzülüşü və emosional iqlimi.

Effektiv diferensiallaşma müəllimdən şagird müxtəlifliyini üç əsas istiqamətdə nəzərə almağı tələb edir: hazırlıq səviyyəsi, maraqlar və öyrənmə profili.

Carol Ann Tomlinson qeyd edir ki, hazırlıq səviyyəsi şagirdin qabiliyyəti ilə eyni deyil, bu, şagirdin müəyyən bir təlim məqsədinə hazırkı yaxınlıq dərəcəsidir. Şagirdlərin maraqları isə öyrənmə üçün əsas hərəkətverici qüvvədir. Müəllim tədris proqramını şagirdin şəxsi maraqları ilə əlaqələndirdikdə (məsələn, riyaziyyatı sevdiyi musiqi və ya idman vasitəsilə izah etdikdə) öyrənmə daha effektiv baş verir. Öyrənmə profili isə şagirdin mədəniyyəti, cinsi və intellektual üstünlükləri tərəfindən formalaşan öyrənmə tərzidir. Müəllimin vəzifəsi şagirdləri müəyyən kateqoriyalara bölmək deyil, sinifdə onların hər birinin özünə uyğun olanı seçə biləcəyi geniş imkanlar palitrası yaratmaqdır. Seçim şagirdlərə eyni konsepsiyanı öyrənmək və ya tətbiq etmək üçün fərqli fəaliyyət yolları təklif edir; məsələn, bir şagird hekayənin sonunu yazı ilə ifadə etdiyi halda, digəri bunu poster və ya mahnı vasitəsilə nümayiş etdirə bilər. Bu yanaşma şagirdlərə öz öyrənmə yollarını seçmək imkanı verərək onları öyrənmə prosesinin aktiv *ekipajına* çevirir, sadəcə passiv *sərnişin* rolundan çıxarır. Həmçinin, *öyrənmə menyuları* vasitəsilə müəllim şagirdlərə fərqli çətinlik səviyyələrində və formatlarda tapşırıqlar təklif edərək hər birinin öz *yaxın inkişaf zonasında* çalışmasını təmin edir.

Müasir yanaşma modeli olan, inklüziv təcrübədə “skaffoldinq” şagirdin müstəqil şəkildə bacarmadığı tapşırığı yerinə yetirməsi üçün müvəqqəti dəstək quruluşudur. Bu, L.Vıqotskinin *yaxın inkişaf zonası* konsepsiyasına əsaslanır. Skaffoldinq vasitəsilə müəllim tapşırığı kiçik hissələrə ayırır vizual ipucları verir və şagird inam qazandıqca bu dəstəyi tədricən azaldır.

Təhsil ekspertlərinin təqdim etdiyi “çoxsəviyyəli təlim” isə fərqli qabiliyyətlərə malik şagirdlərin eyni mövzu ətrafında, lakin müxtəlif çətinlik dərəcələrində çalışmasıdır. Məsələn, riyaziyyat dərsində bəzi şagirdlər tək rəqəmli vurma əməliyyatlarını yerinə yetirərkən, digərləri daha mürəkkəb məsələlər üzərində işləyə bilər, lakin hər kəs vurma konsepsiyasını öyrənir.

Müsair yanaşmalarda inklüziv sinif yalnız akademik uğur deyil, həm də bir icma qurmaq məqsədini daşıdığı qeyd edilir. Tony Booth və Mel Ainscowun modelinə görə, inklüziv məktəb mədəniyyəti, inklüziv siyasət və təcrübələrin təməlidir. Belə bir mühitdə “müsbət intizam” metodlarından istifadə olunmalıdır. Müsbət intizam cəza vermək deyil, şagirdə öz davranışını idarə etməyi və məsuliyyətli seçimlər etməyi öyrətməkdir. Cəza həm hüquqi cəhətdən qadağandır, həm də təhsil baxımından səmərəsizdir. Bunun əvəzinə, “skaffoldinq” kimi davranışın da modelləşdirilməsi və müsbət davranışın möhkəmləndirilməsi tətbiq olunmalıdır.

Şagirid biliyinin qiymətləndirilməsi isə ədalətə əsaslanan prinsipə uyğunlaşdırılmalıdır. İnklüziv təhsildə qiymətləndirmə metodunda köklü şəkildə dəyişmələrin olması labüddür. Standartlaşdırılmış testlər çox vaxt şagirdlərin real potensialını gizlədir. İnklüziv müəllim formativ

qiymətləndirmə modelinə keçir. Bu prosesdə şagird öz inkişafını izləyir, özünü qiymətləndirmə bacarıqlarını inkişaf etdirir və müəllimdən davamlı rəy alır. Diferensiallaşdırılmış qiymətləndirmə şagirdə öz biliyini fərqli yollarla (şifahi, vizual, praktiki) nümayiş etdirməyə imkan verir. Burda şagirdlərə seçim imkanı verilir və şagird öz biliyini istədiyi formada təqdim edir.

Müasir dərsin quruluşunda artıq belə bir qənaətə gəlinmişdir müəllimlər öyrənmə çətinliyini şagirdin qüsuru deyil, öz peşəkar inkişafları üçün bir sınaq kimi görməlidirlər. Belə ki, inklüziv müəllim peşə keyfiyyətlərini bu məqamda göstərməlidir. Müəllimlərin ixtisas və peşə səriştələrinə malik olmaları, keyfiyyətli təlim təcrübələri, şagirdin potensialını genişləndirməyə xidmət etməlidir. Bu baxış müəllimə şagirdin hazırkı çətinliklərini onun sonu kimi deyil, inkişaf etdirilməli olan bir mərhələ kimi görməyə imkan verir. Michael Fullanın qeyd etdiyi kimi, təhsil islahatları müəllimlərin mənəvi məqsədləri və əməkdaşlıq ruhu ilə sıx bağlıdır. Müəllim sinifdə şagirdləri üçün həm mentor, həm də öyrənmə ortağı olmalıdır. Müəllim sinifdə həm yüksək qayğı göstərən, həm də yüksək tələbkarlıq nümayiş etdirən *isti tələbkar* rolunda olmalıdır. Klinik psixoloq Haim Ginottun qeyd etdiyi kimi, müəllim sinifdəki *iqlimi* yaradan əsas elementdir və onun reaksiyası böhranı böyüdə və ya insanlaşdıra bilər. Michael Fullan vurğulayır ki, təhsil islahatlarının uğuru müəllimlərin mənəvi məqsədləri və mürəkkəb dəyişiklik qüvvələri ilə baş etmə bacarıqlarından asılıdır. Müasir inklüziv təhsildə müəllim biliyi ötürən bir texnik deyil, hər bir şagirdin ləyaqətini qoruyan, onlara inanan və potensiallarını reallaşdırmaq üçün mühit hazırlayan bir mənəvi liderdir.

Nəticə olaraq, inklüzivlik sabit və ya son nöqtə deyil, daim təkmilləşən bir səyahətdir. Bu səyahət məktəb rəhbərliyindən müəllimlərə, valideynlərdən şagirdlərə qədər hər kəsin əməkdaşlığını tələb edir. Müasir təhsilin əsas vəzifəsi hər bir şagirdin "mən bacarıram" hissini yaşadığı, öz potensialını maksimum reallaşdıra bildiyi və müxtəlifliyin bir problem deyil, bir zənginlik kimi qəbul edildiyi mühitlər yaratmaqdır. Yalnız belə bir yanaşma ilə biz ədalətli və bərabərhüquqlu bir cəmiyyət qura bilərik.

ELVAR ƏLİYEV
Lənkəran Dövlət Universiteti
elvarliyev42@gmail.com

ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKLUZİV MÜHİTİN QORUNMASI

Bu tezisdə inklüziv təhsilin müasir mahiyyəti, məktəblərdə tətbiqi zamanı yaranan çətinliklər və onların həlli yolları araşdırılır. Həmçinin, fərdi ehtiyaclara uyğun tədris metodlarının, süni intellektin təhsilə inteqrasiyasının və sağlam sosial mühitin şagirdlərin gələcək inkişafındakı rolu təhlil edilir.

Açar sözlər: *inklüziv təhsil, fərdi ehtiyaclar, süni intellekt, qiymətləndirmə metodları, sosial münasibətlər*

İnklüziv təhsil dedikdə sadəcə sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması nəzərdə tutulmur. İlk dəfə meydana çıxdığı dövrdə inklüzivlik sadəcə əlil uşaqların təhsilə və cəmiyyətə qəbul olunması demək idi. Müasir dövrdə bu anlayış xeyli dəyişib. Belə ki, bu gün müəyyən psixoloji səbəblərdən, məsələn, utancaqlıq səbəbindən ya da öyrənmə qabiliyyəti zəif olduğu üçün sosial münasibətlərdən və təhsildən kənara qalan şəxslər, hətta istedadlı şagirdlər də inklüzivliyin əsas mövzularından biri hesab olunur. İnklüzivlik bu şəxslərin nadir tapılan xüsusiyyətlərinin anlayışla qarşılanması və onlara hörmət edilməsi prinsipini irəli sürmək deməkdir. Məlumdur ki, bir şəxs sosial münasibətlər olmadan əqli inkişafdan geri qalma təhlükəsi ilə üzləşir. Fərqli xüsusiyyətlərə malik şəxslərin cəmiyyətdən təcridi onların inkişafına mane olur. Halbuki onlar da yaşamaq və inkişaf etmək hüququna sahibdirlər.

Bu gün dövlətin təhsil müəssisələrində kurrikulumu prioritet elan etməsi ilə məktəblərdə inklüziv təhsilə maraq artmışdır. Buna baxmayaraq, hələ də bəzi məktəblər inklüziv təhsil sistemini tətbiq etməkdən çəkinir. Buna səbəb çox vaxt digər uşaqların fərqli uşağı qəbul etməmələri, ona uyğunlaşmamaları və bəzən də həmin uşağın digərlərinə uyğunlaşmaması olur. Hətta müəyyən hallarda valideynlər fərqli uşağın övladları ilə birlikdə təhsil almasına qarşı çıxır. Məktəb rəhbərliyi bu məsələyə ciddi yanaşmalıdır. Xüsusilə, sağlamlıq imkanları məhdud olan şagirdlərin siniflə əlaqəsinin qurulmasına yardım üçün vasitəçi şəxs təyin olunmalıdır. Bu şəxs istedadlı şagirdlər arasından da seçilə bilər. Məktəb rəhbərliyi sinif kollektivinin bir-birini yad hesab etməsinin qarşısını almaq üçün müəyyən addımları atmalıdır.

Əvvəl də deyildiyi kimi, inklüziv təhsil bütün fərdi ehtiyaclara sahib şagirdlərin təhsilə cəlb olunması deməkdir. Buraya kinestetik, vizual, audio vasitəsilə öyrənənlər də aiddir. Bir müəllimin dərs zamanı 45 dəqiqə müddətində bütün bu fərdi ehtiyaclara sahib şagirdləri nəzərə alaraq dərs keçməsi çox məsuliyyətli və diqqət tələb edən işdir. Buna görə də müəllim dərs zamanı bunların hamısını nəzərə alaraq bütün növ metodlardan istifadə edərək dərs keçməlidir. Dərs prosesinin düzgün idarə olunması mühüm olduğu kimi, qiymətləndirmə prosesi də dərs prosesinin əsas hissəsi olaraq çox vacibdir. Hər bir şagirdin fərqli öyrənmə bacarıqları olduğu üçün standart qiymətləndirmə metodları ədalətli olmaya bilər. Buna görə də, müəllim fərdi qiymətləndirmə metodlarından istifadə etməlidir.

Sinifdə inklüziv mühitin qurulmasında ən əsas manea də həmyaşıdların bir-birinə dəstəkçi yox, rəqib kimi baxmasıdır. Sinifdə bu mövzu ilə bağlı təşkilat saatları, məlumatlandırıcı və maarifləndirici tədbirlər təşkil olunmalıdır ki, şagirdlər yoldaşları ilə necə münasibət qurmaq lazım olduğunu öyrənsinlər. Əlbəttə ki, bu tədbirləri görməkdə müəllimin təkbaşına uğurlu olma ehtimalı azdır. Psixoloq və digər işçilər də bu sahədə müəllimlə əməkdaşlıq etməlidir. Valideynlərin də bu məsələdə könüllü dəstəyi qiymətləndirilməlidir.

Müasir texnologiya inklüzivliyin imkanlarını genişləndirir. Şagird ağıllı lövhədə həm şəkil çəkə bilir, həm video izləyə bilir və həm də mahnıya qulaq asır. Texnologiya öyrənməni asanlaşdırır və əlverişli, zəngin mühit yaradır. Süni intellektin statistik təhlil və qiymətləndirmə metodlarında tətbiqi

şagirdlərin fərdi ehtiyaclarını ödəyir, diferensial yanaşmanı təmin edir. Süni intellekt şagirdlərin nəticələrini izləyir və qiymətləndirmə meyarlarını ona əsasən hazırlayır, şagirdin intellekt səviyyəsini və öyrənmə yolunu müəyyən edir.

Məktəbdə inklüzivliyin tətbiqi, həm də şagirdləri gələcək həyata hazırlamağa kömək edir. Fərqli bacarıqlar və xüsusiyyətlərə sahib yoldaşları ilə yaxşı davrandıqca, onlarla əlaqə qurduqca onlar ədəb qaydalarını, vicdanlı olmağı və xeyirxahlığı öyrənirlər. Onlar əlilliyi olan yoldaşlarına kömək etdikcə mənəvi bacarıqları öyrənirlər. İnklüziv təhsil,bəlkə də, sabah cəmiyyətə faydalı olacaq şəxslərin fərqli xüsusiyyətlər səbəbindən inkişafdan geri qalmalarının qarşısını alır.

NÜŞABƏ MƏMMƏDOVA
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
nushabamammadova@nmi.edu.az

PSİXODİAQNOSTİKANIN MÜASİR PROBLEMLƏRİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Məqalədə psixodiaqnostika sahəsində mövcud olan müasir problemlər və onların yaranma səbəbləri təhlil olunmuşdur. Eyni zamanda bu problemlərin aradan qaldırılması üçün mümkün inkişaf istiqamətləri göstərilmişdir. Psixodiaqnostikanın effektiv inkişafı üçün həm elmi, həm də praktik tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanmışdır.

Açar sözlər: *psixodiaqnostika, test metodları, psixometrika, diaqnostika, etik prinsiplər, təhsil, sertifikatlaşdırma*

Giriş. Son illərdə psixodiaqnostika sahəsində bir sıra problemlər toplanmış və bu məsələlər psixoloji-pedaqoji ictimaiyyət tərəfindən geniş şəkildə müzakirə olunmağa başlanmışdır. Bəzi problemlər o qədər kəskin xarakter almışdır ki, artıq yalnız peşəkar dairələrdə deyil, hüquqi müstəvidə də müzakirə predmetinə çevrilir. Bu xüsusilə diaqnostika prosesinin uşaqlar və onların valideynləri üçün mənfi psixoloji təsirlərlə nəticələndiyi və hüquqların pozulmasına səbəb olduğu hallarda özünü göstərir.

Müasir dövrdə müəllimlərin və praktik psixoloqların daha dərin psixoloji biliklərə malik olması zəruri hesab olunur. Fərdi xüsusiyyətlər haqqında əldə olunan məlumatların obyektivliyi istifadə olunan metodların elmi əsaslı və etibarlı olmasından birbaşa asılıdır. Psixoloji test metodları yalnız şəxsiyyət xüsusiyyətlərinin deyil, həm də bilik və bacarıqların qiymətləndirilməsini daha yüksək və müasir səviyyəyə çatdırır. Buna görə də müəllimlər və psixoloqlar test metodlarından düzgün və müstəqil şəkildə istifadə etməyi bacarmalıdırlar. Bu isə testlərin hazırlanması və tətbiqi mədəniyyətinə xüsusi diqqət yetirilməsini tələb edir.

Psixodiaqnostika sahəsində mövcud vəziyyət bir çox mütəxəssislər tərəfindən böhran kimi qiymətləndirilir. Bu böhranın əsas səbəblərindən biri peşəkar psixodiaqnostik mütəxəssislərin sayının az olmasıdır. Yeni metodların hazırlanması, uyğunlaşdırılması və standartlaşdırılması ilə məşğul olan mütəxəssislərin çatışmazlığı sahənin inkişafını ləngidir. Digər mühüm problem isə psixoloqların psixodiaqnostik və xüsusilə psixometrik sərişdəsinin kifayət qədər olmamasıdır. Bu da test nəticələrinin düzgün şərh edilməməsinə və qeyri-dəqiq nəticələrə gətirib çıxarır.

Eyni zamanda, psixodiaqnostik təhsil proqramlarının məzmununun köhnəlməsi də ciddi problemlərdən biridir. Bir çox hallarda tələbələrə müasir metodlar deyil, artıq aktuallığını itirmiş yanaşmalar öyrədilir. Bu isə gələcək mütəxəssislərin praktiki fəaliyyətində çətinliklər yaradır. Digər tərəfdən, açıq mənbələrdə psixodiaqnostik metodların geniş yayılması və hər kəs üçün əlçatan olması da onların düzgün istifadə olunmaması riskini artırır.

Psixodiaqnostik metodların azlığı və mövcud olanların bir qisminin köhnəlmiş olması da diqqət çəkən problemlərdəndir. Xarici metodlara həddindən artıq etibar edilməsi, eyni zamanda yerli metodların kifayət qədər inkişaf etdirilməməsi sahədə balanssızlıq yaradır. Bu vəziyyət bəzən tədqiqatçıları yalnız bir dəfə istifadə olunan qeyri-peşəkar metodlar hazırlamağa məcbur edir ki, bu da elmi nəticələrin etibarlılığına mənfi təsir göstərir.

Mövcud problemlərin həlli üçün bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə, psixodiaqnostik metodların və mütəxəssislərin sertifikatlaşdırılması sistemi tətbiq olunmalıdır. Bu, həm metodların keyfiyyətinə nəzarəti təmin edər, həm də mütəxəssislərin peşəkar səviyyəsinin artırılmasına xidmət edər. Bundan əlavə, psixodiaqnostika üzrə təhsil proqramları yenilənməli, müasir tələblərə uyğunlaşdırılmalı və praktik yönümlü olmalıdır.

Digər mühüm istiqamət yerli psixodiaqnostik metodların hazırlanması və inkişaf etdirilməsidir. Bununla yanaşı, beynəlxalq təcrübədən də istifadə olunmalı, lakin tam asılılıqdan

qaçılmalıdır. Optimal yanaşma yerli və xarici metodların balanslı şəkildə tətbiq edilməsidir. Psixodiaqnostika sahəsində etik məsələlər də xüsusi əhəmiyyət kəsb edir. Diaqnostika prosesində şəxsi məlumatların qorunması, nəticələrin düzgün istifadəsi və müştərinin razılığının alınması vacib şərtlərdir. Bu baxımdan psixoloqlar üçün etik kodeksin hazırlanması və tətbiqi mühüm addım hesab olunur.

Nəticə. Aparılan təhlil göstərir ki, psixodiaqnostika sahəsində mövcud problemlər sistemli xarakter daşıyır və onların həlli kompleks yanaşma tələb edir. Müasir dövrdə bu sahənin inkişafı üçün peşəkar kadr hazırlığı, metodların təkmilləşdirilməsi, etik normaların tətbiqi və beynəlxalq təcrübənin düzgün inteqrasiyası əsas istiqamətlər kimi çıxış edir. Bu tədbirlərin həyata keçirilməsi psixodiaqnostikanın həm elmi, həm də praktik əhəmiyyətini daha da artıracaqdır.

KİŞVƏR SEYİDOVA
Naxçıvan şəhər V.Mahmudov adına 9 №-li tam orta məktəb
Psixoloq
seyidovakusvr@gmail.com

RƏQƏMSALLAŞMA DÖVRÜNDƏ ŞAGİRDLƏRİN PSİXOLOJİ RİFAHI VƏ MƏKTƏB MÜHİTİNƏ ADAPTASİYASI

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi şagirdlərin inkişafına yeni imkanlar yaratmaqla yanaşı, müəyyən psixoloji risklər də formalaşdırır. Belə ki, rəqəmsallaşmanın təhsil mühitinə təsiri fonunda şagirdlərin psixoloji rifahı və məktəbə adaptasiya problemləri aktuallaşmışdır. Emosional gərginlik, sosial təcrid və rəqəmsal asılılıqların qarşısının alınmasında məktəb psixoloqunun, müəllim və valideyn əməkdaşlığının, həmçinin psixoloji təhlükəsiz mühitin formalaşdırılması mütləqdir.

Açar sözlər: *rəqəmsallaşma, psixoloji rifah, məktəb mühiti, adaptasiya, şagird, məktəb psixoloqu*

XXI əsr informasiya və texnologiya əsri kimi xarakterizə olunur. Müasir dövrdə rəqəmsallaşma həyatın bütün sahələrinə, xüsusilə də təhsil sisteminə ciddi təsir göstərmişdir. Elektron təhsil resursları, onlayn platformalar, süni intellekt əsaslı proqramlar və rəqəmsal kommunikasiya vasitələri tədris prosesinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu dəyişikliklər təhsilin keyfiyyətinin artırılması, informasiyaya əlçatanlığın genişlənməsi və şagirdlərin fərdi inkişaf imkanlarının artması baxımından mühüm əhəmiyyət daşıyır. Müasir məktəbdə tətbiq edilən rəqəmsal texnologiyalar şagirdlərin bilik əldə etmə imkanlarını genişləndirir, onların yaradıcı və tənqidi düşünmə bacarıqlarının inkişafına müsbət təsir göstərir. İnteraktiv dərslər, virtual laboratoriyalar, elektron dərsliklər və məsafədən təhsil platformaları şagirdlərin təlim prosesində daha fəal iştirak etməsinə şərait yaradır. Bununla yanaşı, rəqəmsallaşmanın sürətli inkişafı ilə əlaqədar şagirdlərin psixoloji rifahı və sosial adaptasiyası ilə bağlı yeni problemlər də meydana çıxmışdır.

Son illərdə məktəblilər arasında emosional gərginlik, sosial təcrid, internet və oyun asılılığı, diqqət dağınıqlığı və ünsiyyət problemləri daha çox müşahidə olunur. Uzun müddət ekran qarşısında vaxt keçirmək şagirdlərdə yorğunluq, əsəbilik və psixoloji yüklənmə yaradır. Sosial şəbəkələrə həddindən artıq bağlılıq isə onların real sosial münasibətlərinə mənfi təsir göstərir. Virtual ünsiyyətin üstünlük təşkil etməsi bəzi hallarda şagirdlərin kollektivə uyğunlaşma və öz fikirlərini sərbəst ifadə etmə bacarıqlarını zəiflədir.

Rəqəmsal dövrdə kibertəhlükəsizlik və kibertəzyiq məsələləri də xüsusi aktuallıq kəsb edir. Sosial mediada təhqir, psixoloji təzyiq və virtual zorakılıq halları uşaqların emosional vəziyyətinə ciddi təsir göstərir. Bu problemlər şagirdlərdə özünəinamın azalmasına, tənhalıq hissinin yaranmasına və sosial təcridə səbəb ola bilir. Xüsusilə yeniyetməlik dövründə sosial şəbəkələrdə aparılan müqayisələr şagirdlərin psixoloji durumuna mənfi təsir göstərərək narahatlıq və narazılıq hissi yaradır.

Psixoloji rifah insanın özünü təhlükəsiz, dəyərli və emosional baxımdan rahat hiss etməsi ilə xarakterizə olunur. Məktəb yaşlı uşaqlarda psixoloji rifahın qorunması onların təlim nailiyyətlərinə, davranışına və sosial münasibətlərinə birbaşa təsir edir. Psixoloji cəhətdən sağlam olan şagirdlər tədris prosesində daha fəal iştirak edir, məktəb mühitinə daha asan uyğunlaşır və kollektiv münasibətlərdə daha müsbət davranış nümayiş etdirirlər.

Şagirdlərin məktəb mühitinə adaptasiyası onların həm akademik, həm də sosial inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Adaptasiya prosesi şagirdin məktəb qaydalarına, kollektivə və tədris

mühitinə uyğunlaşmasını əhatə edir. Rəqəmsal mühitin təsiri ilə bu proses daha mürəkkəb xarakter almışdır. İnformasiya bolluğu və sürətli rəqəmsal mühit şagirdlərin uzunmüddətli diqqətini saxlamağı çətinləşdirir, nəticədə tədris motivasiyası azalır və akademik nəticələr zəifləyir.

Bu istiqamətdə məktəb psixoloqunun rolu olduqca vacibdir. Məktəb psixoloqu şagirdlərin emosional vəziyyətini izləməli, risk qrupuna daxil olan uşaqları müəyyən etməli və onlara psixoloji dəstək göstərməlidir. Psixodiaqnostik işlər, fərdi söhbətlər, treninqlər və maarifləndirici tədbirlər şagirdlərin məktəb mühitinə uğurlu adaptasiyasında mühüm rol oynayır. Psixoloq həmçinin şagirdlərin özünəinamının artırılması, emosional dayanıqlığının gücləndirilməsi və sağlam ünsiyyət bacarıqlarının formalaşdırılması istiqamətində fəaliyyət göstərməlidir.

Müəllimlərin də bu sahədə məsuliyyəti böyükdür. Müasir müəllim yalnız bilik ötürən şəxs deyil, həm də şagirdin psixoloji vəziyyətini anlayan və ona dəstək göstərən pedaqoq olmalıdır. Dərslərdə müsbət psixoloji mühitin yaradılması, şagirdlərin fikirlərinə hörmətlə yanaşılması və motivasiyaedici metodlardan istifadə onların məktəbə bağlılığını artırır. Sağlam münasibətlərə əsaslanan məktəb mühiti şagirdlərin emosional rifahına müsbət təsir göstərir.

Valideyn-məktəb əməkdaşlığı da xüsusi əhəmiyyət daşıyır. Valideynlər uşaqların rəqəmsal fəaliyyətinə nəzarət etməli, onların internetdən təhlükəsiz istifadəsi ilə bağlı maarifləmli və ailədə sağlam emosional mühit yaratmalıdırlar. Uşağın ailədə gördüyü dəstək və diqqət onun məktəbdəki davranışına və psixoloji vəziyyətinə birbaşa təsir göstərir.

Rəqəmsallaşma dövründə şagirdlərin psixoloji rifahının qorunması üçün məktəblərdə psixoloji xidmətin gücləndirilməsi, rəqəmsal savadlılıq və təhlükəsizlik mövzusunda maarifləndirmə işlərinin aparılması vacibdir. Eyni zamanda şagirdlərin ekran qarşısında keçirdiyi vaxta nəzarətin artırılması, onların idman, incəsənət və sosial fəaliyyətlərə cəlb olunması mühüm əhəmiyyət daşıyır. Bullinq və kibertəzyiqə qarşı preventiv tədbirlərin genişləndirilməsi, psixoloq-müəllim-valideyn əməkdaşlığının gücləndirilməsi də bu istiqamətdə mühüm rol oynayır.

Beləliklə, rəqəmsallaşma müasir təhsil sisteminin əsas inkişaf istiqamətlərindən biri olmaqla yanaşı, şagirdlərin psixoloji rifahı və sosial adaptasiyası ilə bağlı yeni çağırışlar da yaratmışdır. Müasir məktəbdə psixoloji təhlükəsiz mühitin yaradılması, şagirdlərin emosional sağlamlığının qorunması və rəqəmsal risklərin minimuma endirilməsi prioritet məsələlərdən biri olmalıdır. Məktəb psixoloqları, müəllimlər və valideynlər birgə əməkdaşlıq şəraitində fəaliyyət göstərərək şagirdlərin sağlam, balanslı və sosial cəhətdən aktiv şəxsiyyət kimi formalaşmasına dəstək verməlidirlər.

AYTƏKİN HACIYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistrant
aytekinhc@mail.ru

İNTELLEKTUAL GERİLİYİ OLAN İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏSİNDƏ PEDAQOQUN ROLU VƏ İSTİFADƏ ETDİYİ METODLAR

Bu məqalədə intellektual cəhətdən geri qalan ibtidai sinif şagirdlərinin özünüqiymətləndirmə xüsusiyyətləri və bu prosesdə pedaqoqun rolu geniş şəkildə araşdırılır.

Özünüqiymətləndirmə uşağın şəxsiyyət inkişafının mühüm komponentlərindən biri hesab olunur və onun təlim fəaliyyətinə, sosial münasibətlərinə və emosional vəziyyətinə birbaşa təsir göstərir. İntellektual inkişafında gerilik müşahidə olunan uşaqlarda özünüqiymətləndirmə çox vaxt qeyri-adekvat formada formalaşır. Bu isə onların sosial uyğunlaşmasına, təlim motivasiyasına və psixoloji rifahına mənfi təsir göstərə bilər. Məqalədə pedaqoqun dəstəkləyici mövqeyi, fərdi yanaşma prinsipi, müsbət möhkəmləndirmə, differensial təlim və inklüziv pedaqoji strategiyaların uşaqların adekvat özünüqiymətləndirməsinin formalaşmasına təsiri təhlil edilir. Həmçinin, praktiki pedaqoji yanaşmalar və müəllim üçün metodiki tövsiyələr təqdim olunur.

Açar sözlər: *özünüqiymətləndirmə, intellektual inkişaf geriliyi, ibtidai sinif şagirdləri, xüsusi təhsil, pedaqoji fəaliyyət, inklüziv təhsil, sosial adaptasiya*

İntellektual inkişafında gerilik olan uşaqların psixoloji inkişafı bir sıra spesifik xüsusiyyətlərlə səciyyələnir.

Bu uşaqlarda idrak proseslərinin inkişaf səviyyəsi aşağı olduğu üçün öz imkanlarını və bacarıqlarını düzgün qiymətləndirməkdə çətinliklər yarana bilər.

Belə uşaqlarda tez-tez aşağı özünüqiymətləndirmə müşahidə edilir. Onlar müxtəlif fəaliyyətlərdə iştirak etməkdən çəkinir, özlərini digərləri ilə müqayisədə zəif hesab edir və uğursuzluqdan qorxurlar. Bu isə onların sosial münasibətlərinə və təlim fəaliyyətinə mənfi təsir göstərir.

Bəzi hallarda isə əksinə olaraq şişirdilmiş özünüqiymətləndirmə də müşahidə oluna bilər. Bu zaman uşaq öz imkanlarını real vəziyyətdən daha yüksək qiymətləndirir və bu da sosial münasibətlərdə anlaşılmazlıqlar yaradır.

Bu səbəbdən pedaqoji prosesdə uşaqlarda adekvat özünüqiymətləndirmənin formalaşdırılması mühüm vəzifələrdən biri hesab olunur.

Psixoloji ədəbiyyatda özünüqiymətləndirmə şəxsiyyətin özünüdərk sisteminin əsas elementlərindən biri kimi qeyd edilir. Bu anlayış insanın öz keyfiyyətlərini, imkanlarını və sosial statusunu necə qəbul etməsi ilə bağlıdır.

Özünüqiymətləndirmə insanın davranışına, qərar qəbul etməsinə və fəaliyyət motivasiyasına təsir edən mühüm psixoloji mexanizmdir.

Tədqiqatçılar özünüqiymətləndirmənin müxtəlif səviyyələrini fərqləndirirlər: aşağı, yüksək və adekvat özünüqiymətləndirmə. Aşağı özünüqiymətləndirmə insanın özünü zəif və bacarıqsız hesab etməsi ilə xarakterizə olunur. Şişirdilmiş özünüqiymətləndirmə isə insanın öz imkanlarını real vəziyyətdən daha yüksək qiymətləndirməsi ilə müşahidə olunur. Adekvat özünüqiymətləndirmə isə insanın öz imkanlarını real və obyektiv şəkildə qiymətləndirməsi ilə səciyyələnir.

Uşaqlarda özünüqiymətləndirmə əsasən sosial qarşılıqlı münasibətlər vasitəsilə formalaşır. Valideynlərin və müəllimlərin uşağa münasibəti onun özünə münasibətinin formalaşmasına birbaşa təsir göstərir.

İbtidai məktəb dövrü uşağın şəxsiyyətinin formalaşması və sosial münasibətlər sisteminə daxil olması baxımından ən mühüm inkişaf mərhələlərindən biridir. Bu dövrdə uşaqlarda özünüdərk, özünə münasibət və özünüqiymətləndirmə kimi mühüm psixoloji xüsusiyyətlər tədricən formalaşır.

Özünüqiymətləndirmə insanın öz bacarıqlarını, imkanlarını, davranışlarını və fəaliyyət nəticələrini qiymətləndirməsi prosesidir. Bu xüsusiyyət uşağın təlim motivasiyasına, sosial münasibətlərinə və ümumi psixoloji inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Psixoloji və pedaqoji tədqiqatlarda qeyd olunur ki, uşağın özünüqiymətləndirməsi ilk növbədə sosial mühitin təsiri ilə formalaşır. Ailə, müəllim və yaşıdlar uşağın özünə münasibətinin formalaşmasında mühüm rol oynayır. İbtidai sinif müəllimi isə uşağın özünüqiymətləndirməsinin inkişafında əsas pedaqoji fiqurlardan biridir.

İntellektual geriliyi olan uşaqlarda özünüqiymətləndirmə prosesi daha mürəkkəb xarakter daşıyır. Bu uşaqların idrak proseslərinin inkişaf səviyyəsi, təfəkkürün xüsusiyyətləri və emosional sferası onların öz bacarıqlarını düzgün qiymətləndirməsinə çətinlik yaradır. Bəzi hallarda belə uşaqlar özlərini həddindən artıq aşağı qiymətləndirir, bəzi hallarda isə real imkanlarından artıq qiymətləndirirlər. Bu isə onların təlim fəaliyyətinə və sosial münasibətlərinə mənfi təsir göstərə bilər.

Bu baxımdan pedaqoqun əsas vəzifələrindən biri intellektual geriliyi olan ibtidai sinif şagirdlərində adekvat və müsbət özünüqiymətləndirmənin formalaşdırılmasıdır.

Pedaqoq uşağın inkişafında mühüm sosial fiqur hesab olunur. Xüsusilə intellektual inkişafında gerilik olan uşaqlar üçün müəllimin dəstəkləyici mövqeyi böyük əhəmiyyət daşıyır.

Müəllim şagirdin yalnız akademik inkişafını deyil, həm də emosional və sosial inkişafını dəstəkləməlidir. Müsbət münasibət və təşviq uşağın özünə inamının artmasına kömək edir.

Şagirdin kiçik uğurlarının belə qeyd olunması onun motivasiyasını artırır. Müəllim şagirdin səhvlərinə tənqidi deyil, inkişafetdirici yanaşma ilə yanaşmalıdır.

Fərdi yanaşma prinsipi də burada mühüm rol oynayır. Müəllim hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq təlim prosesini təşkil etməlidir.

Bu məqsədlə müəllim müxtəlif pedaqoji metodlardan və psixoloji yanaşmalardan istifadə etməlidir.

Müşahidə metodu xüsusi pedaqogika və xüsusi psixologiyada ən çox istifadə olunan metodlardan biridir. Bu metod pedaqoqa uşağın davranışını, emosional reaksiyalarını və fəaliyyətə münasibətini təhlil etməyə imkan verir. Müşahidə zamanı müəllim uşağın dərs prosesində, oyun fəaliyyətində və sosial münasibətlərdə davranışını izləyir.

Müşahidə nəticəsində pedaqoq uşağın özünə münasibətini və özünüqiymətləndirmə səviyyəsini müəyyən edə bilər. Məsələn, bəzi uşaqlar kiçik uğursuzluq zamanı belə özlərini bacarıqsız hesab edir və fəaliyyətlərini davam etdirmək istəmirlər. Digər uşaqlar isə çətinliklərlə qarşılaşdıqda aqressiv və ya emosional reaksiyalar göstərə bilirlər.

Bu məlumatlar müəllimə uşağın inkişaf xüsusiyyətlərini daha yaxşı anlamağa və ona uyğun pedaqoji strategiya seçməyə kömək edir. Sistemli müşahidə nəticəsində pedaqoq hər bir şagirdin güclü və zəif tərəflərini müəyyən edir və fərdi yanaşma tətbiq edə bilir. Söhbət metodu pedaqoji prosesdə uşaqlarla ünsiyyət qurmaq və onların daxili dünyasını anlamaq üçün mühüm vasitədir. Bu metod vasitəsilə pedaqoq uşaqlarla fərdi və ya qrup şəklində ünsiyyət qurur və onların öz bacarıqları haqqında fikirlərini öyrənir.

Söhbət zamanı uşaqlar öz nailiyyətləri və çətinlikləri haqqında danışırlar. Müəllim isə onların fikirlərini diqqətlə dinləyir və onları müsbət istiqamətləndirir. Bu proses uşaqlarda öz fikirlərini ifadə etmək bacarığını inkişaf etdirir.

İntellektual geriliyi olan uşaqlarla aparılan söhbətlər sadə və aydın formada qurulmalıdır. Müəllim uşaqlara onların nailiyyətlərini xatırladaraq müsbət emosional mühit yaradır və onların özünə inamını artırır.

Oyun fəaliyyəti ibtidai sinif yaş dövründə uşaqların aparıcı fəaliyyət növü hesab olunur. Bu səbəbdən pedaqoqlar özünüqiymətləndirmənin formalaşdırılmasında oyun metodundan geniş istifadə edirlər. Didaktik oyunlar və rol oyunları uşaqların sosial bacarıqlarını inkişaf etdirir və onların özlərini daha sərbəst ifadə etməsinə imkan yaradır.

Oyun zamanı uşaqlar müxtəlif rolları yerinə yetirir, müəyyən tapşırıqları icra edir və öz bacarıqlarını nümayiş etdirirlər. Bu proses uşaqlarda müsbət emosiyalar yaradır və onların özünə inamını artırır. Pedaqoq oyun prosesində uşaqların uğurlarını qeyd edərək onları motivasiya edir.

Xüsusilə kollektiv oyunlar uşaqlarda əməkdaşlıq, qarşılıqlı yardım və sosial münasibətlər

bacarığını inkişaf etdirir. Bu isə özünüqiymətləndirmənin formalaşmasına müsbət təsir göstərir.

Şagirdlərin fəaliyyət nəticələrinin qiymətləndirilməsi pedaqoji prosesin mühüm komponentlərindən biridir. Müəllim uşaqların yerinə yetirdikləri tapşırıqları təhlil edir və onların nailiyyətlərini qeyd edir.

İntellektual geriliyi olan uşaqlar üçün müsbət qiymətləndirmə xüsusi əhəmiyyət kəsb edir. Kiçik uğurların belə qeyd edilməsi uşağın özünə inamını artırır və onu gələcək fəaliyyətə həvəsləndirir.

Qiymətləndirmə prosesində müəllim yalnız səhvlərə diqqət yetirməməli, eyni zamanda uşağın müsbət tərəflərini də vurğulamalıdır. Bu yanaşma uşağın öz bacarıqlarına inamını gücləndirir.

Vizual metodlar intellektual geriliyi olan uşaqlarla işləyərkən xüsusilə effektiv hesab olunur. Bu uşaqlar informasiyanı daha yaxşı vizual formada qəbul edirlər. Buna görə də pedaqoqlar qiymətləndirmə və təlim prosesində müxtəlif vizual vasitələrdən istifadə edirlər.

Şəkillər, simvollar, rəngli kartlar və müxtəlif işarələr uşaqlara öz fəaliyyətlərini qiymətləndirməyə kömək edir. Məsələn, uşaqlar öz işlərini gülən üz, ulduz və ya rəngli dairələr vasitəsilə qiymətləndirə bilərlər.

Bu metod qiymətləndirmə prosesini uşaqlar üçün daha sadə, maraqlı və anlaşıqlı edir.

Motivasiya və mükafatlandırma metodunun tətbiqi özünüqiymətləndirmənin inkişafında mühüm rol oynayır. Müəllim uşaqların nailiyyətlərini müxtəlif stimullaşdırıcı üsullarla qiymətləndirir.

Bu stimullar tərif, alqış, kiçik mükafatlar və ya motivasiyaedici sözlər şəklində ola bilər. Bu cür yanaşma uşaqların özünə inamını artırır və onları yeni nailiyyətlər əldə etməyə həvəsləndirir.

Psixoloji tədqiqatlar göstərir ki, müsbət möhkəmləndirmə uşaqların təlim motivasiyasını və fəaliyyətə marağını artırır.

İntellektual geriliyi olan uşaqların inkişaf səviyyəsi və psixoloji xüsusiyyətləri fərqli olduğu üçün pedaqoq hər bir şagirdə fərdi yanaşma tətbiq etməlidir. Fərdi yanaşma uşağın real imkanlarını nəzərə almağa və onun inkişafını daha effektiv şəkildə dəstəkləməyə imkan verir.

Müəllim hər bir uşağın güclü tərəflərini müəyyən etməli və bu bacarıqları inkişaf etdirməyə çalışmalıdır. Eyni zamanda uşağın çətinlikləri də nəzərə alınmalı və uyğun korreksiya tədbirləri həyata keçirilməlidir.

Bu yanaşma uşağın özünü daha rahat hiss etməsinə və öz bacarıqlarını daha düzgün qiymətləndirməsinə kömək edir.

Müəllimlər üçün aşağıdakı pedaqoji tövsiyələr mühüm hesab olunur:

- şagirdin nailiyyətlərini müntəzəm olaraq qeyd etmək və təşviq etmək;
- şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaq;
- təlim prosesində vizual və praktik materiallardan istifadə etmək;
- şagirdlər arasında əməkdaşlıq mühitini formalaşdırmaq;
- şagirdin öz fikrini ifadə etməsinə şərait yaratmaq;
- uşaqlarda uğur hissini gücləndirən fəaliyyətlər təşkil etmək.

Beləliklə, intellektual geriliyi olan ibtidai sinif şagirdlərinin özünüqiymətləndirməsinin formalaşdırılmasında pedaqoqun rolu çox böyükdür. Müəllimin istifadə etdiyi metodlar uşağın özünə münasibətinə və təlim fəaliyyətinə birbaşa təsir göstərir.

Müşahidə, söhbət, oyun, fəaliyyət nəticələrinin qiymətləndirilməsi, vizual metodlar, motivasiya və fərdi yanaşma kimi metodların sistemli şəkildə tətbiqi uşaqlarda adekvat özünüqiymətləndirmənin formalaşmasına kömək edir.

Bu metodların düzgün tətbiqi uşaqların özünə inamını artırır, onların sosial münasibətlərini yaxşılaşdırır və təlim fəaliyyətində daha fəal iştirak etməsinə şərait yaradır.

Müəllimin dəstəkləyici münasibəti, fərdi yanaşması və düzgün pedaqoji strategiyalar tətbiq etməsi uşaqların özünə inamının artmasına və adekvat özünüqiymətləndirmənin formalaşmasına kömək edir. Bu isə onların sosial adaptasiyasına, emosional rifahına və təlim fəaliyyətinin səmərəliliyinə müsbət təsir göstərir.

Bu səbəbdən xüsusi təhsil sahəsində çalışan pedaqoqların psixoloji-pedaqoji hazırlığı və metodik bilikləri xüsusi əhəmiyyət kəsb edir.

MİRZƏ HƏŞİMOV
Naxçıvan Muxtar Respublikası Ordubad rayon Dəstə kənd tam orta məktəbi
hesimovmirze85@gmail.com

MÜASİR TƏLİMDƏ MOTİVASİYANIN FORMALAŞDIRILMASININ PSİXOLOJİ MEXANİZMLƏRİ

Məqalədə təlim motivasiyasının mahiyyəti, psixoloji-pedaqoji əsasları və formalaşdırılması yolları araşdırılmışdır. Daxili və xarici motivasiya amilləri, müəllimin rolu, interaktiv təlim metodları və rəqəmsal texnologiyaların təsiri təhlil edilmişdir. Nəticədə, motivasiyanın təhsil keyfiyyətinin yüksəldilməsində, idrak fəallığının artırılmasında və yaradıcı şəxsiyyətin formalaşmasında mühüm əhəmiyyətə malik olduğu müəyyən edilmişdir.

Açar sözlər: *motivasiya, təlim prosesi, müəllim, interaktiv təlim, rəqəmsal texnologiyalar, şəxsiyyətin formalaşdırılması*

Giriş. Müasir dövrdə təhsil sistemində baş verən yeniliklər təlim prosesinin yalnız bilikvermə funksiyası ilə məhdudlaşmadığını göstərir. Təhsil artıq şəxsiyyətin inkişafına, onun yaradıcılıq potensialının üzə çıxarılmasına və sosial adaptasiyasına xidmət edən mürəkkəb psixoloji-pedaqoji proses kimi qiymətləndirilir. Bu baxımdan motivasiya təlim fəaliyyətinin əsas komponentlərindən biri hesab edilir.

Psixoloqların fikrincə, motivasiya insan fəaliyyətinin istiqamətini və intensivliyini müəyyən edən daxili psixoloji mexanizmdir. Təlim prosesində motivasiya şagirdin öyrənməyə marağını artırır, onun idrak fəallığını gücləndirir və müstəqil düşünmə qabiliyyətini inkişaf etdirir. Qeyd etmək lazımdır ki, təlim yalnız maraq və daxili ehtiyac əsasında qurulduqda inkişafetdirici xarakter daşıyır.

Müasir təhsil sistemində əsas problemlərdən biri şagird və tələbələrdə davamlı təlim motivasiyasının yaradılmasıdır. İnformasiya bolluğu, rəqəmsal texnologiyaların geniş yayılması və sosial dəyişikliklər motivasiya mexanizmlərinə də təsir göstərmişdir. Buna görə də pedaqoji və psixoloji yanaşmaların inteqrasiyası mühüm əhəmiyyət kəsb edir.

Motivasiya termini latın mənşəli “movere” sözündən yaranmış və “hərəkətə gətirmək” mənasını ifadə edir. Psixologiyada motivasiya insan davranışını istiqamətləndirən daxili və xarici amillərin məcmusu kimi izah edilir.

Motivasiya təlim prosesinin səmərəliliyini müəyyən edən əsas psixoloji amillərdən biridir. Müasir pedaqogika və psixologiyada motivasiya insan fəaliyyətini istiqamətləndirən daxili və xarici səbəblərin məcmusu kimi xarakterizə olunur. Təlim motivasiyası isə şagird və tələbələrin öyrənməyə marağını, biliyə olan tələbatını və təhsil fəaliyyətində fəallığını təmin edən mühüm komponent hesab edilir.

Azərbaycan psixoloqu Əbdül Əlizadə qeyd edir ki, təlim motivasiyası şagirdin idrak fəaliyyətinin əsas hərəkətverici qüvvəsi olmaqla yanaşı, onun şəxsiyyət kimi formalaşmasına da təsir göstərir. Müəllifin fikrincə, motivasiya olmadan təlim prosesi formal xarakter daşıyır və şagirdin yaradıcı fəallığını təmin etmir.

Pedaqoq Fərrux Rüstəmov motivasiyanı təhsilin keyfiyyətini müəyyən edən əsas pedaqoji şərtlərdən biri hesab edərək yazır ki, müəllim tərəfindən yaradılan müsbət psixoloji mühit şagirdlərin təlim fəaliyyətinə münasibətinə birbaşa təsir göstərir.

Müasir pedaqogikada motivasiyanın iki əsas növü fərqləndirilir: daxili və xarici motivasiya. Daxili motivasiya şagirdin şəxsi marağı və mənəvi tələbatı əsasında formalaşır. Bu halda şagird bilik əldə etməkdən zövq alır və təlim fəaliyyəti onun üçün daxili ehtiyaca çevrilir. Xarici motivasiya isə qiymət, mükafat, valideyn nəzarəti və ya sosial təsir nəticəsində yaranır.

Akif Abbasov qeyd edir ki, müasir təlim texnologiyaları şagirdlərdə daxili motivasiyanın formalaşdırılmasına daha çox imkan yaradır. Xüsusilə interaktiv metodlar şagirdlərin müstəqil düşünməsini və yaradıcılıq bacarıqlarını inkişaf etdirir.

Təlim motivasiyası isə şagirdin təhsil fəaliyyətinə marağını, öyrənmək istəyini və biliyə olan ehtiyacını əks etdirir. Təlim motivasiyası aşağıdakı funksiyaları yerinə yetirir:

istiqamətləndirici funksiya;

stimullaşdırıcı funksiya;

tənzimləyici funksiya;

inkişafetdirici funksiya.

Müasir pedaqogikada motivasiyanın iki əsas növü fərqləndirilir:

Daxili motivasiya insanın fəaliyyəti şəxsi maraq və mənəvi tələbat əsasında yerinə yetirməsi ilə bağlıdır. Bu zaman şagird qiymət və ya məcburiyyət üçün deyil, bilik əldə etmək istədiyi üçün öyrənir.

Məsələn, biologiya fənninə maraq göstərən şagird əlavə kitablar oxuyur, videolar izləyir və tədqiqat aparmağa çalışır. Bu fəaliyyət onun daxili motivasiyasının göstəricisidir.

Xarici motivasiya mükafat, qiymət, valideyn təzyiqi və ya sosial təsir nəticəsində yaranır. Bu halda fəaliyyətin əsas məqsədi bilik deyil, müəyyən nəticə əldə etmək olur.

Təlim motivasiyasının yaranması və inkişafı mürəkkəb psixoloji prosesdir. Bu prosesdə emosional vəziyyət, maraq, ehtiyaclar, sosial münasibətlər və özünüqiymətləndirmə mühüm rol oynayır.

Maraq motivasiyanın əsas psixoloji komponentlərindən biridir. Maraqlı təqdim olunan dərs şagirdin diqqətini daha çox cəlb edir və onun fəallığını artırır.

Təlim motivasiyasının formalaşması mürəkkəb psixoloji proses olmaqla bir sıra daxili və xarici amillərlə bağlıdır. Bu prosesdə maraq, emosional vəziyyət, özünüqiymətləndirmə, sosial münasibətlər və müəllim-şagird ünsiyyəti mühüm rol oynayır.

Psixoloq Ənvər Abbasov yazır ki, müsbət emosional mühit şagirdin özünəinamını artırır və onun təlim fəaliyyətində daha fəal iştirak etməsinə səbəb olur. Əksinə, davamlı tənqid və psixoloji təzyiq şagirdlərdə qorxu və passivlik yaradır.

Müasir məktəb təcrübəsində müəllimin interaktiv metodlardan istifadə etməsi motivasiya formalaşdırılmasının effektiv vasitələrindən biri hesab edilir. Məsələn, debat və qrup işi metodları şagirdlərin həm ünsiyyət bacarıqlarını, həm də kollektiv fəaliyyətə marağını artırır. Bu barədə Hüseyn Əhmədov qeyd edir ki, fəal təlim metodları şagirdləri passiv dinləyicidən aktiv iştirakçıya çevirir və onların təlimə marağını gücləndirir.

Praktik müşahidələr göstərir ki, müəllimin dərsdə rəqəmsal texnologiyalardan istifadə etməsi də motivasiyanın yüksəlməsinə müsbət təsir edir. Məsələn, təqdimatlar, interaktiv testlər və təhsil platformaları şagirdlərin diqqətini artırır və dərs prosesini daha maraqlı edir.

Rəhilə Hüseynzadə müəllim-şagird münasibətlərinin motivasiya prosesində xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq qeyd edir ki, müəllimin humanist münasibəti şagirdin özünüifadə imkanlarını genişləndirir və onun təhsil fəaliyyətinə müsbət təsir göstərir.

Məsələn, müəllim tarix dərsində yalnız faktları sadalamaq əvəzinə sənədli videolar, xəritələr və debat üsullarından istifadə etdikdə şagirdlərin marağı artır.

Müsbət emosional atmosfer motivasiya üçün mühüm şərtdir. Təzyiq, qorxu və həddindən artıq tənqid şagirdin təlimə marağını azaldır.

Müəllim tərəfindən verilən dəstək və psixoloji təhlükəsizlik hissi şagirdin özünüifadəsini gücləndirir. Xüsusilə yeniyetməlik dövründə emosional münasibətlər təlim nəticələrinə ciddi təsir göstərir.

Şagirdin öz qabiliyyətlərinə inanması onun motivasiyasını artırır. Uğursuzluq qorxusu və aşağı özünüqiymətləndirmə isə passivliyə səbəb olur.

Müasir pedaqoji yanaşmalarda müəllim yalnız bilik ötürən şəxs deyil, həm də motivasiya yaradan psixoloji lider hesab edilir. Müəllimin peşəkarlığı, ünsiyyət bacarığı və emosional davranışı təlim motivasiyasına birbaşa təsir göstərir.

Pedaqoq Ə.Əlizadə yazır ki, "müəllimin şəxsiyyəti təlim motivasiyasının formalaşmasında ən güclü amillərdən biridir".

Müəllimin motivasiya yaratmaq üçün istifadə etdiyi əsas vasitələr bunlardır:

- interaktiv metodlardan istifadə;

- fərdi yanaşma;
- şagird nailiyyətlərinin qiymətləndirilməsi;
- əməkdaşlıq mühitinin yaradılması;
- müasir texnologiyaların tətbiqi.

Məsələn, dərsdə layihə üsulunun tətbiqi tələbələrin həm yaradıcı düşünməsini, həm də kollektiv fəaliyyət bacarıqlarını inkişaf etdirir. Bu isə motivasiyanın davamlılığını təmin edir.

Müasir pedaqoji yanaşmalarda müəllim yalnız bilik verən şəxs deyil, həm də şagirdlərdə öyrənməyə maraq yaradan əsas psixoloji faktor hesab olunur. Müəllimin peşəkar kompetensiyası, ünsiyyət mədəniyyəti və pedaqoji davranışı təlim motivasiyasının formalaşmasına birbaşa təsir göstərir. Müəllim tərəfindən yaradılan demokratik və əməkdaşlığa əsaslanan mühit şagirdlərin dərsə fəal qoşulmasına şərait yaradır.

Əbdül Əlizadə qeyd edir ki, “müəllimin emosional münasibəti şagirdin təlim fəaliyyətinə münasibətini müəyyən edən əsas amillərdəndir”. Müəllifin fikrincə, müəllim şagirdə dəstək verən və onu motivasiya edən pedaqoji mövqe nümayiş etdirməlidir.

Fərrux Rüstəmov yazır ki, müəllimin əsas vəzifələrindən biri şagirdlərdə müstəqil düşünmə və yaradıcı fəaliyyət üçün motivasiya yaratmaqdır. Bu baxımdan müəllimin istifadə etdiyi metod və vasitələr xüsusi əhəmiyyət daşıyır.

Məsələn, müəllim dərs zamanı problemli situasiyalar yaratdıqda şagirdlər mövzu üzərində daha fəal düşünməyə başlayırlar. Belə yanaşma onların həm idrak fəallığını, həm də daxili motivasiyasını gücləndirir.

Müasir təhsil sistemində interaktiv metodlar motivasiyanın formalaşdırılmasının ən effektiv vasitələrindən biri hesab olunur. Bu metodlar şagirdi passiv dinləyicidən aktiv iştirakçıya çevirir.

Ən geniş istifadə olunan interaktiv metodlar bunlardır:

- beyin həmləsi;
- debat;
- rollu oyunlar;
- layihə üsulu;
- case-study;
- qrup işi.

Tədqiqatlar göstərir ki, interaktiv mühitdə təhsil alan tələbələrin akademik nailiyyətləri daha yüksək olur. Çünki bu zaman şagird özünü təlim prosesinin iştirakçısı kimi hiss edir.

Məsələn, psixologiya dərsində rollu oyun metodunun tətbiqi tələbələrin empatiya və ünsiyyət bacarıqlarını inkişaf etdirir. Bu da onların fənnə marağını artırır.

Müasir təhsil sistemində interaktiv təlim metodları motivasiya formalaşdırılmasının ən effektiv vasitələrindən biri hesab olunur. Bu metodlar şagirdlərin dərs prosesində fəal iştirakını təmin edir və onların sərbəst düşünmə qabiliyyətini inkişaf etdirir.

Akif Abbasov qeyd edir ki, interaktiv təlim metodları şagirdlərin kommunikativ bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların təlimə marağını da artırır.

Debat, beyin həmləsi, rollu oyun və layihə üsulu kimi metodlar şagirdlərin dərs prosesinə emosional və intellektual cəhətdən daha fəal qoşulmasına səbəb olur. Xüsusilə layihə üsulu şagirdlərdə məsuliyyət hissi və yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Hüseyn Əhmədov yazır ki, “fəal təlim metodları şagirdin passiv yaddaş fəaliyyətini aktiv təfəkkür prosesinə çevirir”. Bu isə motivasiyanın davamlılığını təmin edən əsas amillərdən biridir.

Praktik nümunə kimi qeyd etmək olar ki, qrup işi zamanı şagirdlər bir-biri ilə əməkdaşlıq edir, fikir mübadiləsi aparır və nəticədə dərsə maraqları artır. Bu cür fəaliyyət onların sosial bacarıqlarının inkişafına da müsbət təsir göstərir.

Rəqəmsal texnologiyalar müasir təhsil sisteminin ayrılmaz hissəsinə çevrilmişdir. Elektron platformalar, onlayn kurslar və multimedia vasitələri motivasiya imkanlarını genişləndirmişdir.

Lakin rəqəmsal mühitin düzgün təşkil edilməməsi diqqət dağınıqlığı və asılılıq problemləri də yarada bilər. Buna görə müəllim texnologiyanı məqsədyönlü şəkildə tətbiq etməlidir.

Məsələn, Kahoot, Quizizz və digər interaktiv platformalar şagirdlər arasında rəqabət və maraq yaradır. Bu üsullar xüsusilə məktəb yaşlı uşaqlarda motivasiyanı gücləndirir.

Rəqəmsal texnologiyaların inkişafı təhsil sistemində yeni imkanlar yaratmışdır. Elektron təhsil platformaları, multimedia vasitələri və interaktiv proqramlar təlim prosesini daha maraqlı və əlçatan edir. Müasir şagirdlərin informasiya texnologiyalarına marağı nəzərə alındıqda rəqəmsal vasitələr motivasiya yaratmaq üçün mühüm vasitəyə çevrilir.

Ənvər Abbasov qeyd edir ki, müasir texnologiyaların məqsədyönlü tətbiqi şagirdlərdə öyrənməyə marağı artırır və onların idrak fəaliyyətini fəallaşdırır.

Məsələn, müəllimin dərs zamanı elektron təqdimatlardan, interaktiv testlərdən və onlayn platformalardan istifadə etməsi şagirdlərin diqqətini daha uzun müddət saxlamağa imkan verir. Kahoot və Quizizz kimi platformalar dərs prosesində rəqabət və maraq mühiti yaradır.

Rəhilə Hüseynzadə yazır ki, rəqəmsal təhsil mühitində müəllim yalnız informasiya ötürücüsü deyil, həm də istiqamətləndirici və motivasiyaedici funksiyanı yerinə yetirməlidir.

Bununla yanaşı, texnologiyaların düzgün idarə olunmaması diqqət dağınıqlığı və informasiya asılılığı kimi problemlər də yarada bilər. Buna görə rəqəmsal vasitələrin pedaqoji məqsədlərə uyğun tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Nəticə. Aparılan təhlillər göstərir ki, təlim motivasiyası müasir təhsil sisteminin əsas psixoloji-pedaqoji problemlərindən biridir. Motivasiya şagirdin təlim fəaliyyətinə münasibətini, akademik nailiyyətlərini və şəxsiyyət inkişafını müəyyən edən mühüm amildir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, motivasiyanın formalaşdırılmasında daxili maraq, emosional mühit, müəllim amili və interaktiv metodlar xüsusi rol oynayır. Müasir pedaqoji texnologiyaların tətbiqi isə motivasiya imkanlarını daha da genişləndirir.

Beləliklə, təlim prosesində motivasiyanın düzgün təşkili təhsilin keyfiyyətinin yüksəldilməsi, yaradıcı və fəal şəxsiyyətin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

LEYLA XANLAROVA
Mingəçevir Dövlət Universiteti
Magistrant
leyla.xanlarova@icloud

MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ UŞAQLARIN İNKLÜZİV TƏHSİL MÜHİTİNƏ SOSİAL-PSİXOLOJİ ADAPTASİYASI

İnklüziv mühit həm tipik inkişafı olan uşaqlar, həm də əlilliyi olan uşaqlar üçün eynidir. Buna görə sosial və psixoloji uyğunlaşma prosesi bütün məktəbəqədər uşaqlara təsir göstərir və bu mühit optimallaşdırılması məqsədləri bütün iştirakçılara yönəldilmişdir.

İnklüziv qrup uşağın başqalarının imkanlarını pozmadan müxtəlif insanlarla ünsiyyət qurmağı, sosial normaları mənimsədiyi təhsil məkanıdır.

Açar sözlər: *məktəbəqədər, inklüziv, təhsil, sosial-psixoloji*

İnklüziv qrupda adətən inkişaf edən uşaqlar kiçik yaşlarından əlilliyi olan həmyaşıdlarının da onlar kimi olduğunu anlamağa başlayırlar. Birgə kurikulum fəaliyyətləri vasitəsilə məktəbəqədər uşaqlar davamlı olaraq yeni bacarıqlara yiyələnir, bacarıqlarını təkmilləşdirir və qorxmadan ünsiyyət qurmağı, bir-birinə güvənməyi və qarşılıqlı münasibətlərdə bərabərhüquqlu tərəfdaş olmağı öyrənirlər. Buna görə də, məktəbəqədər uşaqların inklüziv qrupa uyğunlaşması üçün optimal imkanları və effektiv yollarını müəyyən etmək vacibdir.

Bir çox müasir təhsil tədqiqatçıları (J.Piaget, L.S.Vıqotski, A.V.Zaporojets, A.A.Nachaldzhyan, A.A.Rean və bir çox başqaları) uyğunlaşma prosesinin xüsusiyyətləri üzərində ciddi elmi araşdırmalar aparmışlar. Məktəbəqədər uşaqların sosial və psixoloji uyğunlaşması (bundan sonra - SPA) prosesinin optimallaşdırılması hazırda müxtəlif sağlamlıq imkanlarına malik uşaqları (adətən inkişaf edən müxtəlif inkişaf qüsurları olan uşaqlarla) inklüziv qrupda birləşdirdikdən sonra apaptasiya prosesinə və sosiallaşma məsələlərinə xüsusi diqqət ayrılır. Belə ki, yeni şəraitə operativ uyğunlaşma bacarığı fərdin inkişafında və sosiallaşmasında mühüm amildir.

Psixoloqların, müəllimlərin və təhsil sisteminə cəlb olunan digər mütəxəssislərin təcrübəsi göstərir ki, sağlamlıq imkanları məhdud uşaqların sosial təcrübələri məhduddur. Bu da onların davranış reaksiyalarında, ünsiyyət bacarıqlarının zəifliyində, emosiyaların yersiz ifadə və qavranmasında özünü göstərir. Tipik olaraq inkişaf edən uşaqlar da öz növbəsində fərdi xüsusiyyətlərə malikdirlər və çox vaxt əlilliyi olan uşaqların davranışlarını, ehtiyaclarını və emosional ifadələrini səhv başa düşürlər və yanlış şərh edirlər. Bu, uşaqlar arasında münaqişələrə, qrup daxilində narahat psixoloji və emosional mühitə gətirib çıxarır.

Bununla belə, əlilliyi olan məktəbəqədər uşaqların sosial-psixoloji uyğunlaşmasına dair nəzəri tədqiqatların və empirik tədqiqatların toplanmış təcrübəsi, həm fiziki, həm də psixoloji sağlamlığı müxtəlif səviyyələrdə olan uşaqları əhatə edə bilən inklüziv qruplarda spesifikliyi baxımından hələ də kifayət qədər təhlil edilməmişdir. Mövcud elmi məlumatlar əlavə, ümumiləşdirmə və sistemləşdirmə tələb edir.

Təhsilin humanistləşdirilməsi və yenidən qurulması ilə əlaqədar olaraq məktəbəqədər uşaqların təhsil müəssisələrində qalmasının sosial sistemi yenidən qurulur. İnklüziv mühitin təşkili psixoloqlara inklüziv qruplarda məktəbəqədər yaşlı uşaqlar üçün sosial dəstək sisteminin optimallaşdırılması problemi qoyur. Bu məsələlərin həlli zərurətini, onların ümumi sosial və elmi əhəmiyyətini, nəzəri və praktiki inkişafın olmaması nəzərə alınaraq bu mövzusu seçilmişdir.

AYXAN HÜSEYNLİ
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
aykhanhuseynli@nmi.edu.az

MƏKTƏBDƏ PSİXOLOJİ XİDMƏTİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ VƏ MÜASİR YANAŞMA

Məqalə müasir təhsilin tələblərinə uyğun olaraq, gənc nəslin məktəblərdə psixoloji hazırlığı məsələlərindən bəhs edir. Şagirdlərin məktəbə qəbulu üzrə diaqnostik işlərin həyata keçirilməsi, psixoloji xidmətin məzmununa dair tələblərin yerinə yetirilməsinə dair sistemli fəaliyyətin təşkili məqalədə öz əksini tapmışdır. Nəticədə, məktəbdə psixoloji xidmətin təşkili müasir təhsilin ən mühüm şərti sayılır.

***Açar sözlər**: psixoloji xidmət, psixi inkişaf, təfəkkür tərzi, texnoloji vasitə, tərbiyə*

Təhsil bəşəriyyətin mənafeyinin və sivilizasiyanın inkişafının obyektiv amilidir. Gənc nəslin fəal qurucusu, əsl vətəndaş kimi böyüyüb formalaşmasında təhsilin, təlimin və xüsusən də tərbiyənin rolunu inkar etmək olmaz. Heç də təsadüfi deyil ki, BMT XXI yüzilliyi "Təhsil əsri" elan etməklə bir daha xalqların və millətlərin gələcək inkişafının təhsillə bağlı olduğunu ön plana çəkmişdir.

Məktəblərdə psixoloji xidmətin təşkili təcrübəsindən səmərəliliyin artırılmasına nail olmaq üçün ilk növbədə, onun məqsəd və məzmununa nəzər salınmalı, yerinə yetirilən işlərdə qeyd olunanlar başlıca prinsip kimi əsas götürülməlidir. Psixoloji xidmətin əsas məqsədləri ondan ibarətdir ki, şagirdlərin hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmaları üçün köməklik göstərilsin, təhsil prosesinin bütün iştirakçılarına öz yaradıcılıq imkanlarını həyata keçirilməsi üçün yardım edilsin. Məktəblərdə psixoloji xidmətin məzmununun nəzərə alınması da müvafiq sahənin səmərəliliyinin artırmaq baxımından əhəmiyyətlidir. Məktəblərdə psixoloji xidmətin məzmununa aşağıdakılar daxildir:

- Təlim-tərbiyə işini şagirdlərin inkişafının yaş, fərdi, psixoloji xüsusiyyətləri əsasında həyata keçirmək;
- Adaptasiya prosesinə köməklik göstərmək;
- Pedaqoji prosesin psixoloji təminatı;
- Risk qrupuna aid edilən şagirdlərin deviant davranışının səbəblərinin araşdırılması və bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsidir.

Məktəbdə psixoloji xidmətin istiqamətlərindən biri uşaqların məktəbə hazırlığının diaqnostikasını verməkdir. Uşağın məktəbə, məktəb təliminə hazırlıq səviyyəsini müəyyənləşdirmək bir tərəfdən həmin sahədəki qüsurları aradan qaldırmaq, digər tərəfdən məktəbdə ilk gündən şagirdlərin imkanlarına uyğun iş aparmaq üçün şərait yaradır. Məktəbə hazırlıq siniflərinin diaqnostikasını verərkən 3 mühüm göstəriciyə istinad etmək lazım gəlir:

1) Uşağın məktəbdə məşğul olacağı fəaliyyət növü – təlim fəaliyyəti ondan ixtiyari işlərin icrasını tələb edir.

2) Əyani obrazlı təfəkkürün inkişaf səviyyəsindən asılıdır.

3) Şəxsiyyət xarakteristikası üzrə göstəriciləri (emosional cəhət, ünsiyyətin xüsusiyyətləri, kollektiv fəaliyyətə daxil olmaq və.s) təlim fəaliyyətinə köməklik göstərəni və maneə olanı nəzərə alınmalıdır.

Təlim prosesinin şagirdlərin meyl və maraqlarına görə qurulması, istedadlı şagirdlərin aşkara çıxarılması, onların potensial imkanlarının müəyyənləşdirilməsi və seçmə fənlərə istiqamətləndirilməsi məktəbdə psixoloji xidmətin vəzifələrindəndir. Məktəb psixoloqları 6 yaş uşaqların təlimi, şagirdin qabiliyyəti və istedadının düzgün müəyyənləşdirilməsinə, məktəb və ailə tərbiyəsində çətin və ziddiyyətli hallar meydana çıxarkən, müəllim və valideynlər üçün psixoloji məsləhət və başqa məsələlərin uğurlu həllinə yaxından kömək göstərməlidir.

Qeyd etmək lazımdır ki, şagirdlərdə "yeni təfəkkür forması" yaranıb və ciddi şəkildə öyrənilməsi vacibdir. Elm və texnologiyanın sürətli inkişafı, informasiya axınının qarşısında insan

psixikası sanki özünü itirir. Həmişə fəxr etdiyimiz nəsillər arasında anlaşıqlılıq tədricən itməkdədir. Böyüməkdə olan gənc nəsillə yaşlı nəsil arasında köklü ziddiyyət özünü göstərir. Tərbiyəçi və tərbiyə olunan, müəllim və şagird, valideyn və övlad cəmiyyət həyatını, borc, vəzifə və hüquqlarını fərqli şəkildə qavrayır, dərk edirlər. Gənclər hüquqlarını indi dərk edir, tələb edirlər bu yaxşıdır, lakin özlərinin cəmiyyət, valideynlər qarşısındakı borclarını unudurlar. İndi təhsil sferasında “hafizə məktəbindən”-“təfəkkür məktəbinə” keçilməsi ilə bağlıdır. Biliyin bacarığa çevrilməsi fikridir. Təhsildə testləşdirmə ön plana keçdiyindən şagirdlər öz fikirlərini yazılı şəkildə ifadə etməkdə çətinlik çəkirlər. İndiki uşaq və gənclər 20 il əvvəlki həmyaşıdlarından xeyli fərqlənirlər. Bir məsəldə deyildiyi kimi “Atı zorla çaya apara bilərsən, lakin onu su içməyə məcbur edə bilməzsən”. İndi şagirdlərin daha çox bilik əldə etmələrinə, beyninin biliklərlə doldurulmasına çalışırlar. Bunu valideynlər də istəyir. Təbii bilik qazanılması onun bacarığa çevrilməsi vacibdir, lakin bu biliklər reallıqda istifadə olunurmu? İndi təhsillə mədəni səviyyə arasında bağlılıq az qala itir. Əgər, XIX-XX əsrlərdə təhsilli adam, həm də geniş dünyagörüşü, mədəni səviyyəsi olan şəxs idisə, indi bunu söyləmək çətindir. Onlar cəmiyyətin digər üzvləri üçün nümunə olmaq funksiyasını itirməkdədir.

Məktəblilərin psixi inkişafına, təfəkkür tərzinə təsir edən amillərdən biri texnoloji alətlərdir. Amerika psixoloqu S.C.Xarrisin maraqlı bir deyimi var: “Qorxulu orası deyil ki, vaxt gələcək komputer insan kimi fikirləşəcək. Qorxulu olan odur ki, vaxt gələcək, insanlar komputer kimi düşünəcək”.

Pedaqoq və psixoloqların qarşısında duran mühüm vəzifələrindən biri texnoloji vasitələrin məktəblilərin şüuruna, davranışına təsirini öyrənməkdən ibarətdir. Texnoloji imkanlar hesabına uşaq, yeniyetmə və gənclər yalnız real həyatdan uzaq düşmürlər, həm də onlarda sosial normalara biganəlik, aqressivlik, deviant davranış özünü göstərir. İnsanın yaratdığı və böyük nailiyyət hesab olunan internet, texnoloji kəşflər tədricən böyük problemə çevrilir. İnsan öz yaratdığını idarə etməkdə çətinlik çəkir. V.A.Suxomlinski yazırdı: “İnsan özünün tərbiyəçisi o zaman olur ki, insanı və insanlığı dərk edir”. Təhsilin məktəbdə psixoloji xidmət qarşısında qoyduğu məqsəd kreativ təfəkkürə, yaradıcı təxəyyülə, milli-mənəvi dəyərlərə, yüksək mədəniyyətə malik olan ləyaqətli vətəndaşlar formalaşdırmaqdır.

Yekun olaraq qeyd etmək olar ki, məktəbdə psixoloji xidmətin təşkilində dünyada qəbul olunmuş “Ziyan vurma, kömək et, sirri qoru” prinsipi əsas götürülməlidir.

AYSEL ABDULLAYEVA
Babək rayon Zeynəddin kənd tam orta məktəbi
İngilis dili müəllimi
sukurovramiz9@gmail.com

İNKLÜZİV TƏHSİLDƏ MÜƏLLİMİN ROLUNA MÜASİR YANAŞMALAR

İnklüziv təhsil bütün uşaqlar üçün bərabər imkanların yaradılmasına xidmət edən mühüm təhsil modelidir. Bu sistemin uğurla həyata keçirilməsində müəllim başlıca rol oynayır. Müəllim yalnız bilik verən deyil, eyni zamanda uşaqların sosial və emosional inkişafını dəstəkləyən xüsusi şəxsdir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləmək müəllimdən daha çox bilik və peşəkar hazırlıq tələb etdiyindən müəllimlərə xüsusi dəstək göstərilməsi vacibdir. Bu məqsədlə düşünürəm ki, müəllimlər üçün ayrıca təlimlər, seminarlar və inkişaf proqramları təşkil olunmalıdır. Müəllimlərin metodiki və psixoloji cəhətdən dəstəklənməsi inklüziv təhsilin keyfiyyətinin artırılmasına və bütün uşaqlar üçün daha əlverişli təhsil mühitinin yaradılmasına kömək edəcək.

Açar sözlər: *inklüziv təhsil, müəllim, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, müasir yanaşmalar, differensial təlim, müəllim hazırlığı, pedaqoji dəstək*

Əsas hissə. Müasir dövrdə təhsil sistemində əsas məqsədlərdən biri bütün uşaqlara bərabər təhsil imkanlarının yaradılmasıdır. Bu baxımdan inklüziv təhsilin xüsusi əhəmiyyəti var. İnklüziv təhsil sağlamlıq vəziyyətindən, fiziki və ya zehni xüsusiyyətlərindən asılı olmayaraq bütün uşaqların birlikdə təhsil almasını nəzərdə tutur. Bu sistem uşaqlar arasında bərabərlik, tolerantlıq və sosial inteqrasiyanın formalaşmasına kömək edir. İnklüziv təhsilin uğurlu həyata keçirilməsində isə müəllimin rol danılmaz bir faktdır.

Müəllim inklüziv təhsil prosesinin mərkəzində duran əsas şəxsdir. O, yalnız şagirdlərə bilik verən deyil, həm də onların sosial, emosional və psixoloji inkişafını dəstəkləyən bir pedaqoqdur. İnklüziv sinifdə hər bir uşağın fərdi xüsusiyyətləri və ehtiyacları fərqli olduğu üçün müəllim bütün şagirdlərə uyğun yanaşma tətbiq etməlidir.Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləmək müəllimdən yüksək peşəkarlıq, səbir və bilik tələb edir. Müəllim sinifdə sağlam psixoloji mühit yaratmalı, uşaqlar arasında bir-birinə hörmət və əməkdaşlıq münasibətlərini formalaşdırmalıdır. Bundan əlavə, müəllim şagirdlərin imkanlarına uyğun tədris metodlarından istifadə etməli və onların dərs prosesində fəal iştirakını təmin etməlidir. Müəllimin digər mühüm vəzifələrindən biri valideynlər və digər mütəxəssislərlə birgə əməkdaşlıq etməsidir. Psixoloq, loqoped və xüsusi pedaqoqlarla birgə fəaliyyət uşaqların inkişafına müsbət təsir göstərir və tədrisin keyfiyyətini birə-beş artırır.

İnklüziv təhsildə müasir yanaşmalar tədris prosesinin daha effektiv təşkil olunmasına kömək edir. Bu yanaşmalardan biri differensial təlimdir. Differensial təlim zamanı müəllim şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun müxtəlif tapşırıqlar və tədris üsulları tətbiq edir. Belə olduqda, hər bir şagird öz imkanlarına uyğun inkişaf edir.

Şagirdyönümlü yanaşma da müasir təhsildə əsas yer tutur. Bu zaman şagird dərs prosesində daha aktiv iştirak edir, sərbəst düşünür və bir sıra araşdırma aparır. Müəllim isə istiqamət verən rolunu oynayır.

Rəqəmsal texnologiyaların tətbiqi inklüziv təhsildə yeni imkanlar yaradır. Elektron dərsliklər, audiokitablar, interaktiv lövhələr və xüsusi proqramlar xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almasını asanlaşdırır və müəllimin işini daha səmərəli və yararlı edir. Birgə öyrənmə yanaşması isə şagirdlər arasında əməkdaşlıq münasibətlərini gücləndirir. Qrup işləri zamanı uşaqlar bir-birilərinə dəstək olur, ünsiyyət bacarıqları inkişaf edir və sosial uyğunlaşma güclənir.

Müasir dövrdə inklüziv təhsil sistemi "şagirdyönümlü" və "universal öyrənmə dizaynı" prinsiplərinə əsaslanır. Bu yanaşmaya görə, uşaq sistemə deyil, sistem uşağa uyğunlaşmalıdır. Differensial təlim: Müəllim sinifdəki hər bir uşağın qavrama səviyyəsinə uyğun olaraq tapşırıqları fərdiləşdirir.

Sosial-emosional öyrənmə - uşaqların təkcə zehni deyil, həm də emosional inkişafı və sinif yoldaşları ilə sağlam sosial ünsiyyəti gücləndirir.

Texnoloji inteqrasiya - yardımçı texnologiyalar (məsələn, görmə və ya eşitmə məhdudiyyətli uşaqlar üçün xüsusi proqramlar) tədris prosesinə daxil edilir.

Müəllim inklüziv sinifdə sadəcə pedaqoq deyil, həm də bir bələdçi, psixoloq və fasilitatordur. O, xüsusi ehtiyacı olan uşaqla digər şagirdlər arasında körpü rolunu oynayır, sinifdə ayrı seçkiliyin qarşısını alır və təhlükəsiz mühit yaradır.

Amma reallıqda müəllimlər bu müqəddəs missiyanı yerinə yetirərkən ciddi problemlərlə üzləşirlər. Məsələn: Metodik hazırlığın çatışmazlığı: Bir çox müəllimlər ali təhsil illərində ümumi pedaqogikanı öyrənsələr də, xüsusi qayğıya ehtiyacı olan uşaqların psixologiyası və metodologiyası barədə dərin biliyə sahib deyillər. Psixoloji gərginlik: Fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqların eyni bir sinifdə cəmləşməsi müəllimdən böyük enerji və səbr tələb edir ki, bu da çox vaxt peşəkar tükənməyə səbəb olur. Resurs və vaxt məhdudiyyəti: Böyük siniflərdə həm ümumi proqramı çatdırmaq, həm də xüsusi uşağa fərdi zaman ayırmaq fiziki olaraq işi çətinləşdirir.İnklüziv təhsilin uğursuzluqları çox vaxt səhvən müəllimin səriştəsizliyi kimi qiymətləndirilir. Hərçəndki, müəllimin özünün də mənəvi dəstəyə ciddi ehtiyacı var. Müəllimi təkbaşına bu mürəkkəb prosesin içinə buraxmaq həm müəllimə, həm də uşaqlara qarşı haqsızlıqdır.Hal-hazırda məktəblərdə olan uşaqlarla (autizm, Daun sindromu, hiperaktivlik, fiziki məhdudiyyətlər və s.) effektiv işləmək üçün müəllimlərə aşağıdakı istiqamətlərdə xüsusi təlimlərin keçirilməsinin vacib olduğunu düşünürəm: Müəllimlər üçün Tələb Olunan Təlim İstiqamətləri: Xüsusi Psixologiya və Defektologiyanın Əsasları: Müxtəlif diaqnozlu uşaqların davranış dilini anlamaq. Sinifin İdarə Edilməsi: Sinifdə yarana biləcək emosional partlayışlar və ya aqressiya anlarında düzgün müdaxilə üsulları. Fərdi Təhsil Planının Tərtibi: Hər bir xüsusi uşaq üçün fərdi inkişaf xəritəsinin hazırlanması. Müəllimlər mütəmadi olaraq peşəkar məsləhət almalı, məktəblərdə müəllim köməkçiləri (tütorlar) və məktəb psixoloqları ilə sıx komanda şəklində işləməlidir. Müəllim bilməlidir ki, çətinliyə düşdükdə arxasında ona yol göstərəcək bir mütəxəssis heyəti var.

Nəticə.Bir sözlə demək olar ki, inklüziv təhsil cəmiyyətin inkişafında mühüm rol oynayır. Bu sistem uşaqlar arasında bərabərlik və tolerantlığın formalaşmasına xidmət edir. İnklüziv təhsilin uğuru isə son dərəcədə müəllimin hazırlığından və ona göstərilən köməkdən asılıdır. Bu səbəbdən müəllimlərin peşəkar inkişafına xüsusi diqqət yetirilməli və onların inklüziv təhsil sahəsində bilik və bacarıqları mütəmadi olaraq artırılmalıdır.

GÜNEL ALLAHVERDİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Müəllim
allahverdi.gunel90@gmail.com

DEVİANT DAVRANIŞ VƏ ONUN TƏSNİFATI

Bu məqalədə deviant davranış anlayışının mahiyyəti, yaranma səbəbləri və əsas təsnifat istiqamətləri elmi-pedaqoji baxımdan təhlil olunur. Deviant davranış cəmiyyətdə qəbul olunmuş sosial və etik normalardan kənara çıxan davranış forması kimi xarakterizə edilir və fərdin sosial mühitlə uyğunlaşma çətinlikləri ilə sıx bağlıdır.

Məqalədə deviant davranışın formalaşmasına sosial (ailə mühiti, sosial nəzarətin zəifliyi), psixoloji (emosional gərginlik, frustrasiya, aşağı özünəqiymətləndirmə) və bioloji amillər təsir göstərdiyi qeyd edilib. Bu amillərin qarşılıqlı təsiri nəticəsində fərddə normativ davranış modellərindən uzaqlaşma müşahidə olunur.

Açar sözlər: *deviant davranış, sosial norma, davranış pozuntuları, destruktiv davranış, asosial davranış, sosiallaşma, psixoloji amillər, pedaqoji yanaşma*

Deviant davranış (latınca – "deviation" kənara çıxma) - cəmiyyətin qəbul etdiyi norma və qaydalara uyğun gəlməyən, sosial gözləntilərə zidd olan hərəkətlərdir. Sosiologiyada deviant davranış mühakimə olunan şəxslərin mənfi davranışı kimi də başa düşülür. İlk dəfə bu termin "İntihar" əsərini yazan Emile Durkheim tərəfindən elmə gətirilmiş və o, müasir deviantologiyanın banisi hesab edilir.

Deviant davranış probleminin sosioloji, tibbi, pedaqoji və psixoloji aspektlərdə tədqiqi Z.Freyd, E.Dyurkheym və başqa alimlər tərəfindən həyata keçirilmişdir. Z.Freyd özünün psixoanaliz eliminə əsaslanaraq qeyd etmişdir ki, cinayətin əsasında onu törədənin zəif eqosu dayanır və bu da insanı normal davranışlardan kənara çıxmalara sövq edir. E.İ.Xolostova isə deviant davranışı cəmiyyətin və ya sosial qrupun dəyərlərindən, normalarından, münasibətlərindən və gözləntilərindən yayınan davranış kimi xarakterizə edir. XX əsrin 60-cı illərindən sonra problemin daha geniş və hərtərəfli tədqiqatına başlanılmış və problemin tədqiqinə dair əsərlər yazılmışdır. XX əsrin sonlarında isə sosiologiya, psixologiya, pedaqogika və korreksiyaedici elmlərin uyğun sahələrini özündə birləşdirən **deviantologiya** elmi meydana gəlmişdir.

Müasir deviantalogiyanın əsasını qoyanlardan biri fransız sosioloqu Emil Dyurkheym hesab olunur. O, hələ 1897-ci ildə yazdığı "Özünəqəsd" əsərində sosiologiya elminə "anomiya" anlayışını daxil etmiş və bununla cəmiyyətdə böhranlar və radikal sosial dəyişikliklər zamanı yaranan qarışıqlıq və çaşqınlıq vəziyyətlərini ifadə etmişdir. Dyurkheym bunu cəmiyyətdə gözlənilməz iqtisadi tənəzzül və yüksəliş dövrlərində intiharların sayının artması nümunəsində təhlil etmişdir.

Deviant davranışın əsas xüsusiyyəti ondan ibarətdir ki, o müxtəlif sosial dezadaptasiya vəziyyətləri ilə müəyyən olunur. Bu davranış forması mütləq şəkildə insanı xəstəliyə və ölümə gətirib çıxarmır, ancaq qanunauyğun olaraq sosial dezadaptasiya vəziyyətini meydana çıxarır və gücləndirir. Dezadaptasiya vəziyyəti öz növbəsində müstəqil şəkildə deviant davranışın səbəbi ola bilir.

Deviant davranışın mərhələləri:

- deviant davranışın simptomlarının əmələ gəlməsi;
- bir sıra sosial tələblərə (ailə, məktəb və s. tərəfindən qoyulan tələblər) məhəl qoyulmaması, onların inkar edilməsi və onlara riayət edilməməsi;
- ictimai normalar, qaydalar və tələblərdən getdikcə daha da kənara çıxmaların və ilkin qanuna zidd hərəkətlərin müşahidə olunması;
- qanuna zidd hərəkətlərin ağırlığı ilə xarakterizə olunan davamlı deviant davranışın əmələ gəlməsi, daha sərt davranışlara sövq edən qruplara qoşulma;
- ictimaiyyətin tələblərinə qətiyyən cavab verməyən daha təhlükəli və davamlı deviant davranış. Bu mərhələdə artıq körpülərin çoxu yandırılmışdır, yəni cəmiyyətə qarşı yadlaşma baş vermişdir və yaxşı bir sonluğun olması ehtimalı çox kiçikdir.

Deviant davranın əsas xüsusiyyətlərinə aiddir:

1. Səbəbləri- tərbiyə, sosial mühit, iqtisadi və psixoloji faktorlar deviant davranışın yaranmasına səbəb ola bilər;
2. Norma pozuntusu- cəmiyyətin və ya hər hansı bir sosial qrupun etik, hüquqi və mədəni qaydalara zidd olan hərəkətlər;
3. Cəmiyyətin reaksiyası- cəmiyyət və insanalarbu davranışlara neqativ yanaşır və onları cəzalandıra və ya qınaq obyektinə çevirə bilər.

Ümumiyyətlə, deviant davranış özündə 3 əsas elementi birləşdirir:

1. İnsanın dəyərlərə və normalara (siyasi, mənəvi, hüquqi) münasibəti: Hər bir şəxsiyyət yaşadığı cəmiyyətdə formalaşmış əxlaqi, mənəvi, hüquqi normaları, mental xüsusiyyətləri bilməli və onlara riayət etməlidir. Bu işdə ailə, məktəb, ətrafdakı insanlar, ictimai təşkilatlar, mətbuat, radio və televiziya, sosial şəbəkələr və s. ona köməkçi olmalıdırlar.

2. İnsanı qiymətləndirən qrup və təşkilatlar: Aydındır ki, hər hansı şəxsiyyətin əməl və hərəkətlərinin ictimai normalara uyğun olub-olmaması müəyyən meyara əsaslanaraq müvafiq qrup və təşkilatlar tərəfindən qiymətləndirilir. Məsələn, əxlaqi normalara uyğunsuzluq müxtəlif insan qrupları (iş kollektivi, qonşular, qohumlar və s.), hüquqi normalara uyğunsuzluq inzibati orqanlar (polis, məhkəmə, prokurorluq və s.) tərəfindən qiymətləndirilir.

Deviant davranışın müsbət və mənfi növləri var:

Müsbət deviant davranış – cəmiyyət normalarına uyğun gəlməyən, amma faydalı olan davranışlardı (məsələn, qəhrəmanlıq, fədakarlıq, dahilik, müqəddəslik, novatorluq).

Mənfi deviant davranış- cəmiyyətə zərər verən və qanuna zidd hərəkətlər (məsələn, cinayətkarlıq, korrupsiya, alkoqolizm, narkomanlıq, özünəqəsd, fahişəlik, terrorçuluq və s). Deviant davranış əsasən neqativ olur.

V.A.Kleyberq isə müsbət və mənfi deviasiyalarla yanaşı sosial-neytral deviasiyanı da qeyd edir. Məsələn, dilənçilik, səfillik və s.

Deviant davranışın digər növlərinə aid edilir:

1. Pozitiv deviant davranış: elmi inqilab və yeniliklər, qəhrəmanlıq (ətrafda olan insanları təhlükədən qorumaq üçün öz həyatını riskə atmaq), fədakarlıq (həyatını başqalarının xilasına, qorunmasına həsr etmək);

2. Sosial normadan kənar davranışlar: ailədaxili zorakılıq, qeyri-etik hərəkətlər (yalan danışmaq, kimisə təhqir etmək), asosial davranış (ictimai yerlərdə qaydaları pozmaq);

3. Asılılıq və zərərli vərdişlər: qumar asılılığı, narkomaniya, alkoqolizim;

4. Cinayətkar deviant davranış: korrupsiya, qətl, oğurluq, vandalizm və s.

Deviant davranışlar birbaşa və ya dolayı olaraq gənclərin səhhətinə və həyatlarına təsir edən və potensial olaraq mənfi nəticələri ola biləcək davranışlar olaraq müəyyən edilir.

PANEL 13. ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ İDARƏETMƏNİN AKTUAL MƏSƏLƏLƏRİ

RUHİYYƏ MEHDİYEVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
ruhi_mehdi@mail.ru
https://orcid.org/0009-0006-7815-6816

TƏHSİLDƏ UĞURLU İDARƏETMƏNİN FORMULU: İNSAN İNTELLEKT İLƏ SÜNİ ZƏKANIN SİNTEZİ

Konfransa təqdim edilən tezisdə müasir dövrdə təhsildə uğurlu idarəetmənin formulu kimi insan zəkası ilə süni zəkanın əməkdaşlığı vurğulanır. Bununla yanaşı, təhsilin səmərəli idarəedilməsinə təsir göstərən əsas amillər təhlil edilir, onların müsbət və mənfi tərəfləri araşdırılır.

Açar sözlər: *süni intellekt, təhsilin idarəedilməsi, müasir texnologiya*

Müasir dövr texnologiya dövrüdür və süni intellekt bu dövrün ən böyük texnoloji inqilabı hesab edilir. Bütün sahələrdə olduğu kimi, təhsil sferasında da süni intellektin təsir gücü artmaqdadır. Çünki süni intellekt alətləri istər müəllimlər, istərsə şagirdlər, istərsə də idarəedənlər üçün faydalı imkanlar yaradır. Buna baxmayaraq, ondan səmərəli istifadə edilmədikdə bəzi xoşagəlməz hallarla rastlaşa bilərik, yəni onun faydalı tərəfləri ilə yanaşı, riskli tərəfləri də vardır. Təhsildə uğurlu idarəetməyə nail olmaq üçün insanın emosional və kreativlik intellekti ilə süni intellektin analitik sürət və rəqəmsal imkanlarını birləşdirən sintez mütləqdir.

Yuxarıda qeyd edildiyi kimi, süni intellektin həm müsbət, həm də mənfi təsirləri vardır. Bu texnologiyanın təhsil sahəsində üstünlükləri olaraq aşağıdakıları qeyd etmək olar:

✓ Süni intellekt alətləri təhsildə əlçatanlığı və həmçinin fərdləşdirilmiş təlimi təmin edir. Məlumdur ki, hər bir fərdin (şagirdin) informasiyanı qavrama sürəti və forması müxtəlifdir. Məhz süni zəka alqoritmləri fərdin potensialına uyğun materiallar və tapşırıqlar tövsiyə edir. Xüsusi qayğıya ehtiyacı olan öyrənənlər üçün təlim vasitələri, məsələn, görmə qabiliyyəti məhdud olanlar üçün audio məzmun və ya disleksiyası olanlar üçün xüsusi oxu vasitələri tövsiyə edir. Eləcə də, şagirdlər sualları olduğu təqdirdə, istənilən zaman çatbotlar vasitəsilə cavab tapa bilirlər. Bu isə şagirdlərin öyrənmə prosesinin davamlılığını təmin edir.

✓ Süni zəka alətlərinin dəstəyi ilə inzibati işlərin rəqəmsallaşdırılması təhsil sahəsindəmüsbət tərəflərdən biridir. Məlumdur ki, müəllimlərin vaxtlarının böyük əksəriyyəti tədris prosesində davamiyyətin və həmçinin qiymətləndirmə vasitələrinin yoxlanmasına sərf olunur. Bu isə, müəllimlərin öz işlərinə yaradıcı yanaşmalarına maneə törədir. Lakin texniki işlərin rəqəmsallaşdırılması vaxt itkisinin qarşısını alır. Bu da müəllimlərə daha kreativ olmaları üçün vaxt qazandırır.

Müasir dövrdə texnologiyanın sürətli inkişafı müsbət hal olaraq dəyərləndirilsə də, ondan təhsildə istifadə edilmədikdə bir çox risklərlə qarşılaşılır. Belə ki, süni intellektin qeyd edilən müsbət təsirləri ilə yanaşı, onun mənfi təsirləri və risklər də vardır. Onların yaratdığı mənfi təsirləri və yarana biləcək risklərin bir neçəsini qeyd edə bilərik:

✓ Müəllimlərin verdikləri tapşırıqları şagirdlərin süni zəkadan istifadə edərək həll etmələri onlarda istər tənqidi, istərsə də yaradıcı təfəkkürün inkişafının geriləməsinə səbəb olur, həmçinin akademik dürüstlüyə maneə olur.

✓ Süni intellekt alətlərindən məqsədəuyğun olmayan istiqamətdə və fasiləsiz istifadə edilməsi şagirdlərdə emosional intellektin və ünsiyyət bacarıqlarının inkişaf etməməsinə səbəb olur. Bu isə onların sosiallaşmasına mane olur.

✓ Digər risklərdən biri də məlumat məxfiliyinin təmin olunması məsələsidir. Belə ki, təhsil platformalarında təhsilalanlar haqqında toplanan məlumatlardan necə istifadə olunacağı sual yaradır. Onların şəxsi məlumatlarının qorunması mütləqdir, ona görə də bu platfirmalarından istifadə zamanı risklər nəzərə alınmalıdır.

Beləliklə, müasir dövrün texnoloji inqilabı sayılan süni intellekt heç bir zaman müəllimi əvəz edə bilməz. Lakin o, müəllimin işinin səmərəliliyini artıran köməkçi vasitə ola bilər. Yəni, süni zəka müəllimin pedaqoji prosesdə gündəlik etməli olduğu texniki işlərin avtomatlaşdırılmasını təmin edir. Artıq müasir tələblərə cavab verən müəllim yalnız bilik ötürən deyil, həmçinin o, həm fasilitator, həm mentor, həm də tənqidi düşüncəni formalaşdıran bir pedaqoq olmalıdır.

Müasir dövrdə bütün sahələrdə olduğu kimi, süni intellektdən təhsildə də istifadə olunması qaçılmazdır. Əsas məqsəd bu texnologiyadan səmərəli istifadə edərək təhsildə keyfiyyətli idarəetməyə və keyfiyyətli təhsilə nail olmaqdır. Yəni təhsildə uğurlu idarəetmənin formulu insan intellekti ilə süni intellektin qarşılıqlı əməkdaşlığıdır.

FATMA SOFİYEVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Baş mütəxəssis
fatma.sofiyeva@arti.edu.az

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ STRATEJİ İDARƏETMƏNİN TƏTBİQİ

Məqalədə ümumi təhsil sistemində strateji idarəetmənin mahiyyəti və tətbiq mexanizmləri təhlil olunur. İƏİT yanaşmaları və Finlandiya təcrübəsi əsasında məktəb muxtariyyəti, hesabatlılıq və nəticəyönümlü maliyyələşmənin rolu əsaslandırılır. Azərbaycan təcrübəsi göstərir ki, əsas problem strategiyanın yoxluğu deyil, onun icrasında mövcud boşluqlardır.

Açar sözlər: *strateji idarəetmə, məktəb muxtariyyəti, təhsil siyasəti, hesabatlılıq*

Müasir dövrdə ümumi təhsil sistemini idarə etmək dedikdə, sadəcə kağız üzərində uzunmüddətli planlar qurmaq başa düşülməməlidir. Əslində, strateji idarəetmə təhsilin gələcəyini dizayn etməkdir. Bu proses məqsədləri dəqiq seçməkdən tutmuş, əlimizdəki resursları düzgün bölüşdürməyə və işin gedişatını mütəmadi izləməyə qədər böyük bir zənciri əhatə edir. OECD-nin 2019-cu il hesabatında da vurğulandığı kimi, əsl idarəetmə məktəblərə sərbəstlik verməli, eyni zamanda onları nəticəyə görə məsuliyyətli etməlidir. Deməli, strategiya sadəcə rəsmi bir sənəd deyil, real nəticələrə hədəflənmiş canlı bir mexanizmdir.

Dünya təhsil sistemlərinə nəzər saldıqda, Finlandiya modeli strateji idarəetmənin sadəcə kağız üzərindəki qərarlar deyil, real icraat mexanizmi olduğunu sübut edir. Bu ölkədə idarəetmə fəlsəfəsinin kökündə mərkəzləşdirilmiş bürokratiya deyil, yerindən idarəetmə (desentralizasiya) dayanır. Yəni, təhsilin gələcəyi nazirlik otaqlarında deyil, bilavasitə sinif otaqlarında formalaşır. İƏİT-in apardığı təhlillər göstərir ki, Finlandiya məktəbləri kurikulumun tətbiqi, tədris metodlarının seçilməsi və hətta dərsliklərin müəyyən edilməsində misilsiz müstəqilliyə malikdir. Burada dövlət sadəcə ümumi strateji çərçivəni və milli hədəfləri cızır, lakin bu hədəflərə hansı yolla, hansı sürətlə və hansı pedaqoji alətlərlə çatacağı müəllimlərin və məktəb rəhbərliyinin peşəkar seçiminə buraxılır. Bu yanaşma müəllimi sadəcə "icraçı" statusundan çıxarıb "təhsilin strateqi" səviyyəsinə qaldırır. Belə bir çevik struktur məktəblərə imkan verir ki, onlar cəmiyyətdə baş verən dəyişikliklərə və şagirdlərin fərdi ehtiyaclarına dərhal reaksiya versinlər. Nəticə etibarilə, yuxarıdan aşağıya (top-down) əmr zənciri deyil, aşağıdan yuxarıya (bottom-up) inkişaf modeli Finlandiya təhsilinin qlobal uğurunun əsasını təşkil edir.

Bu modelin uğurunu təmin edən vacib bir detal da daxili qiymətləndirmədir. Məktəblər kənardan kimsənin onlara irad tutmasını gözləmədən, öz fəaliyyətlərini özləri analiz edirlər. Onu da qeyd edək ki, maliyyə dəstəyinin birbaşa əldə olunan uğurlarla əlaqələndirilməsi təhsil müəssisələrini daha yaxşı nəticə göstərməyə sövq edir.

Beynəlxalq təcrübə göstərir ki, idarəetmənin "saat kimi" işləməsi üçün üç prinsip mütləqdir:

- məktəb muxtariyyəti: Məktəbin öz ehtiyacına uyğun qərar vermək gücü.
- hesabatlılıq: Görülən işin nəticəsini ölçə bilmək.
- ictimai iştirakçılıq: Valideynlərin və cəmiyyətin bu prosesdə söz sahibi olması. Əgər bu zəncirin bir halqası zəifdirsə, strateji idarəetmə sadəcə formal bir prosedurdan o yana gedə bilmir.

Azərbaycanın təhsil mühitində də bu qlobal trendlərdən kənarda qalmamaq üçün "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" timsalında genişmiqyaslı islahatlara start verilmişdir. Kağız üzərində, yəni normativ-hüquqi baza səviyyəsində yanaşsaq, ölkəmizin hədəfləri müasir dünyanın qabaqcıl standartları ilə tam şəkildə səsləşir. Strategiyada xüsusilə məktəblərin idarəetmədə müstəqilləşməsi, təhsil prosesinin rəqəmsal platformalara daşınması və qərarların qəbulunda ictimaiyyətin iştirakı kimi mütərəqqi prinsiplər öz əksini tapmışdır. Lakin bu strateji yol xəritəsinin real müstəvidəki tətbiqi bir sıra obyektiv və subyektiv çətinliklərlə üz-üzədir. İslahatların bəyan etdiyi "məktəb muxtariyyəti" ideyası ilə mövcud mərkəzləşdirilmiş idarəetmə vərdişləri arasında hələ də

müəyyən bir boşluq (gap) qalmaqdadır. Rəqəmsallaşma sürətlənsə də, idarəetmə funksiyalarının bölüşdürülməsində və yerlərdəki təşəbbüskarlıq səviyyəsində həllini gözləyən ciddi məqamlar mövcuddur. Bir sözlə, sənədin elmi və hüquqi potensialı yüksək olsa da, onun praktikada “canlanması” üçün idarəetmə aparatının aşağı həlqələrində daha çevik və nəticəyönümlü mexanizmlərin qurulmasına ehtiyac duyulur.

Əsas problem strategiyanın yoxluğu deyil, onun icra mexanizmlərindəki boşluqlardır. Kağız üzərində məktəblərə sərbəstlik verilsə də, reallıqda mərkəzləşdirilmiş idarəetmə hələ də dominantlıq edir. Maliyyələşmə hələ tam olaraq real nəticəyə bağlanmayıb, bu da məktəblərin təşəbbüskarlığını zəiflədir. Finlandiya ilə müqayisə etsək, bizdə qərarların böyük hissəsinin mərkəzdən verilməsi məktəblərin hərəkət imkanlarını məhdudlaşdırır.

Yekun olaraq deyə bilərik ki, təhsil sistemini yeniləmək üçün yalnız gözəl yazılmış sənədlər kifayət deyil. Bizə real sərbəstlik, obyektiv ölçmə sistemləri və nəticəyə əsaslanan maliyyələşmə lazımdır. Əks halda, bütün bu strateji planlar sadəcə rəflərdə qalan normativ sənədlər toplusu olaraq qalacaq və təhsilin keyfiyyətinə real təsir göstərməyəcək.

LAMİYƏ HÜSEYNZADƏ
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Mütəxəssis
lamiya.huseynzada@arti.edu.az

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ İDARƏETMƏNİN SƏMƏRƏLİLİYİ: PROBLEMLƏR VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Bu məqalədə Azərbaycan Respublikasının ümumi təhsil sistemində idarəetmə mexanizmlərinin effektivliyi təhlil edilir, mövcud problemlər sistemli şəkildə araşdırılır və onların aradan qaldırılması istiqamətində əsas inkişaf meylləri müəyyənləşdirilir. Tədqiqat göstərir ki, idarəetmənin yüksək səviyyədə mərkəzləşdirilməsi, ixtisaslaşmış idarəçi kadrların çatışmazlığı, şəffaflıq və hesabatlılıq mexanizmlərinin yetərsiz inkişafı, həmçinin rəqəmsal texnologiyaların məhdud tətbiqi təhsil sisteminin ümumi səmərəliliyini azaldan əsas amillərdir. Məqalədə qeyd olunan problemlərin həlli üçün desentralizasiya siyasətinin genişləndirilməsi, idarəçi kadrların peşəkar inkişafının gücləndirilməsi, ictimai iştirakçılığın artırılması və rəqəmsal idarəetmə alətlərinin tətbiqi prioritet istiqamətlər kimi əsaslandırılır.

Açar sözlər: *təhsil idarəetməsi, ümumi təhsil, məktəb muxtariyyəti, desentralizasiya, şəffaflıq, rəqəmsallaşma, təhsil siyasəti*

Müasir dövrdə təhsil sisteminin keyfiyyəti yalnız tədris proqramlarının məzmunu ilə deyil, eyni zamanda idarəetmə mexanizmlərinin effektivliyi ilə müəyyən olunur. Təhsil idarəetməsi planlaşdırma, təşkil etmə, resursların bölüşdürülməsi və nəticələrin qiymətləndirilməsi kimi əsas funksiyaları özündə birləşdirir. Səmərəli idarəetmə məktəblərin fəaliyyətinin məqsədyönlü qurulmasına, resurslardan optimal istifadəyə və şagird nailiyyətlərinin yüksəldilməsinə şərait yaradır.

Azərbaycan təhsil sistemində son illərdə islahatlar həyata keçirilsə də, idarəetmə sahəsində müəyyən sistemli problemlər qalmaqdadır. Xüsusilə, qərarvermənin mərkəzləşdirilmiş xarakter daşıması və məktəblərin məhdud muxtariyyəti bu sahədə effektivliyin artırılmasını zəruri edir.

Problemlər. Azərbaycanın ümumi təhsil sistemində əsas problemlərdən biri idarəetmənin yüksək səviyyədə mərkəzləşdirilməsidir. Qərarların, əsasən mərkəzi icra strukturları tərəfindən qəbul olunması məktəblərin yerli ehtiyaclara uyğun çevik qərarlar verməsini çətinləşdirir və təşəbbüskarlığı məhdudlaşdırır.

Digər mühüm problem idarəçi kadrların peşəkar hazırlıq səviyyəsi ilə bağlıdır. Bir çox hallarda məktəb rəhbərləri idarəetmə üzrə xüsusi təlim keçmədən və ya sistemli liderlik hazırlığı olmadan fəaliyyət göstərirlər. Bu isə strateji planlaşdırma və dəyişikliklərin idarə olunması bacarıqlarının zəif inkişafına səbəb olur.

Şəffaflıq və hesabatlılıq mexanizmlərinin yetərincə inkişaf etməməsi də diqqət çəkən problemlər sırasındadır. Qərarvermə prosesində maraqlı tərəflərin iştirakının məhdud olması ictimai etimadı zəiflədir.

Bundan əlavə, rəqəmsal texnologiyaların idarəetməyə inteqrasiyasının zəifliyi məlumatların operativ təhlilini çətinləşdirir və qərarların daha çox subyektiv yanaşmalara əsaslanmasına səbəb olur.

İnkişaf perspektivləri və həll yolları. Mövcud çətinliklərin aradan qaldırılması istiqamətində idarəetmədə desentralizasiya (idarəetmə səlahiyyətlərinin mərkəzdən yerli səviyyələrə ötürülməsi) prinsiplərinin tətbiqi prioritet hesab olunur. Məktəblərə daha geniş səlahiyyətlərin verilməsi onların müstəqil qərar qəbul etmə imkanlarını artırır və yerli ehtiyaclara uyğun daha çevik və operativ qərarlar qəbul etməsinə şərait yaradır. Bununla yanaşı, desentralizasiya prosesinin idarəetmə keyfiyyətində müəyyən fərqlərin yaranmasına səbəb ola biləcəyi də nəzərə alınmalı, bu risklərin minimuma endirilməsi üçün effektiv monitorinq və nəzarət mexanizmləri formalaşdırılmalıdır.

İdarəçi kadrların peşəkar inkişafı da əsas prioritet istiqamətlərdən biridir. Davamlı təlim proqramlarının təşkili və liderlik bacarıqlarının sistemli şəkildə inkişaf etdirilməsi təhsil idarəetməsinin keyfiyyətinə birbaşa təsir göstərir.

Rəqəmsallaşma isə idarəetmə proseslərinin səmərəliliyini artıran əsas amillərdən biridir. Elektron idarəetmə sistemlərinin tətbiqi məlumatların daha operativ, dəqiq və obyektiv şəkildə işlənməsinə imkan yaradır.

Mövcud problemlərin effektiv şəkildə aradan qaldırılması üçün bir sıra kompleks tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə, məktəblərə inzibati və maliyyə baxımından daha geniş muxtariyyət verilməsi idarəetmənin çevikliyini artıran əsas addımlardan biri kimi qiymətləndirilir.

Bununla yanaşı, məktəb rəhbərləri üçün sertifikatlaşdırılmış və davamlı inkişaf proqramlarının tətbiqi vacibdir. Bu, onların strateji planlaşdırma, qərarvermə və dəyişikliklərin idarə olunması bacarıqlarını gücləndirir.

Şəffaflıq və hesabatlılığın artırılması məqsədilə məktəb səviyyəsində ictimai iştirak mexanizmlərinin genişləndirilməsi, valideyn və müəllimlərin qərarvermə prosesinə daha fəal cəlb olunması vacib hesab olunur.

Eyni zamanda, rəqəmsal idarəetmə platformalarının tam inteqrasiyası təmin edilməli, məktəblər arasında vahid məlumat bazası formalaşdırılmalıdır. Bu yanaşma idarəetmədə obyektivliyi artırmaqla yanaşı, resursların daha səmərəli bölüşdürülməsinə şərait yaradır.

Aparılan təhlillər əsasında aşağıdakı **tövsiyələr** irəli sürülür:

– idarəetmədə səlahiyyətlərin mərhələli şəkildə məktəblərə ötürülməsi;
– daəçi kadrlar üçün davamlı və sertifikatlaşdırılmış təlim proqramlarının təşkili;
– qərarvermə proseslərində ictimai iştirakın genişləndirilməsi;
– rəqəmsal idarəetmə platformalarının tətbiqinin sürətləndirilməsi;
– məktəblərin maliyyə və inzibati muxtariyyətinin artırılması;
– qısa, orta və uzunmüddətli idarəetmə strategiyalarının hazırlanması.

Nəticə. Təhlil göstərir ki, Azərbaycan ümumi təhsil sistemində idarəetmənin səmərəliliyinin artırılması kompleks və çoxşaxəli yanaşma tələb edir. Xüsusilə desentralizasiya və peşəkar idarəçi kadrların inkişafı bu sahədə ən kritik istiqamətlər kimi çıxış edir. Şəffaflıq və rəqəmsallaşma isə bu proseslərin effektivliyini təmin edən əsas dəstək mexanizmləridir. Bu istiqamətlərdə həyata keçiriləcək sistemli tədbirlər təhsil sisteminin keyfiyyətinin yüksəldilməsinə və onun beynəlxalq standartlara uyğun inkişafına mühüm töhfə verə bilər.

NATİQ MƏMMƏDOV
Babək rayon Cəhri qəsəbəsi 1№-li tam orta məktəb
Təlim-tərbiyə işləri üzrə direktor müavini
natiq.mamedov@mail.ru

ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM-TƏRBİYƏ İŞLƏRİ ÜZRƏ DİREKTOR MÜAVİNİNİN İDARƏETMƏ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Məqalədə ümumi təhsil müəssisələrində təlim-tərbiyə işləri üzrə direktor müavininin fəaliyyət istiqamətləri və məktəbin idarə olunmasındakı rolu araşdırılmışdır. Tədris prosesinin təşkili, müəllim fəaliyyətinin əlaqələndirilməsi, məktəbdaxili nəzarət, şagird inkişafı və idarəetmə keyfiyyətinin yüksəldilməsi məsələləri praktik və nəzəri aspektdən təhlil edilmişdir.

***Açar sözlər**: ümumi təhsil, məktəb idarəetməsi, direktor müavini, təlim prosesi, təhsil keyfiyyəti*

Giriş. Müasir dövrdə məktəb yalnız təhsil verilən müəssisə deyil, eyni zamanda cəmiyyətin inkişafına təsir göstərən sosial institutlardan biridir. Təhsil sistemində həyata keçirilən yeniliklər məktəblərin idarə olunmasına da ciddi təsir göstərmişdir. Əvvəllər əsas diqqət inzibati məsələlərə yönəldildiyi halda, hazırda idarəetmədə pedaqoji liderlik və keyfiyyətə nəzarət anlayışları ön plana çıxır.

Ümumi təhsil müəssisələrində bu proseslərin həyata keçirilməsində təlim-tərbiyə işləri üzrə direktor müavini xüsusi yer tutur. O, məktəbdə tədris prosesinin təşkilinə rəhbərlik edən, müəllim və şagird fəaliyyətini əlaqələndirən, təhsil keyfiyyətinin yüksəldilməsi üçün sistemli iş aparan əsas idarəedicilərdən biridir.

Məktəbin uğurlu fəaliyyəti bir çox hallarda məhz direktor müavininin peşəkarlığından, təşkilatçılıq qabiliyyətindən və pedaqoji yanaşmasından asılı olur. Bu baxımdan onun fəaliyyətinin elmi baxımdan araşdırılması aktual məsələlərdən biri hesab edilir.

Təlim-tərbiyə işləri üzrə direktor müavininin fəaliyyət mahiyyəti. Təlim-tərbiyə işləri üzrə direktor müavini məktəbdə pedaqoji prosesin təşkilinə cavabdeh olan əsas vəzifəli şəxslərdən biridir. O, tədrisin planlı şəkildə həyata keçirilməsinə nəzarət edir, müəllim fəaliyyətini əlaqələndirir və şagird nailiyyətlərinin yüksəldilməsi üçün müxtəlif tədbirlər həyata keçirir.

Direktor müavininin fəaliyyəti yalnız sənədləşmə və inzibati nəzarətlə məhdudlaşmır. Müasir məktəb idarəetməsində o, həm də pedaqoji lider kimi çıxış etməlidir. Bu baxımdan direktor müavini:

- müəllimlərə metodiki dəstək göstərməli;
- yeni təlim texnologiyalarının tətbiqinə şərait yaratmalı;
- tədrisin keyfiyyətini davamlı izləməli;
- şagirdlərin inkişaf dinamikasını təhlil etməlidir.

Bu vəzifələrin düzgün icrası məktəbin ümumi fəaliyyətinə birbaşa təsir göstərir.

Tədris prosesinin təşkilində rolu. Məktəbdə tədris prosesinin səmərəli qurulması direktor müavininin əsas fəaliyyət istiqamətlərindən biridir. O, illik fəaliyyət planlarının hazırlanmasında iştirak edir, dərs bölgüsünə və dərs cədvəllərinin düzgün tərtibinə nəzarət edir.

Direktor müavini dərslərin keyfiyyətinin artırılması məqsədilə mütəmadi olaraq dərs dinləmələri aparır. Bu proses zamanı müəllimin:

- mövzunu təqdim etmə bacarığı,
- şagirdlərlə ünsiyyəti,
- qiymətləndirmə üsulları,
- müasir metodlardan istifadə səviyyəsi təhlil olunur.

Əldə olunan nəticələr əsasında müəllimlərə metodiki tövsiyələr verilir. Bu yanaşma tədris prosesində mövcud çatışmazlıqların aradan qaldırılmasına kömək edir.

Bununla yanaşı, direktor müavini məktəbdə kurikulumun düzgün tətbiqinə də nəzarət edir. Müasir təhsil modelində şagirdyönümlü yanaşmanın əsas götürülməsi müəllim fəaliyyətinə yeni

tələblər qoyur. Bu tələblərin yerinə yetirilməsində direktor müavininin istiqamətləndirici rolu mühüm əhəmiyyət daşıyır.

Müəllim fəaliyyətinin əlaqələndirilməsi

Məktəbin təhsil keyfiyyəti müəllimlərin peşəkar fəaliyyətindən birbaşa asılıdır. Bu səbəbdən direktor müavini pedaqoji kollektivin işinin düzgün təşkilinə xüsusi diqqət yetirməlidir.

Müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi aşağıdakı istiqamətləri əhatə edir:

- metodik birliklərin fəaliyyəti;
- açıq dərslərin təşkili;
- qarşılıqlı dərs dinləmələri;
- seminar və təlimlərin keçirilməsi;
- gənc müəllimlərlə iş.

Xüsusilə gənc müəllimlərin məktəb mühitinə uyğunlaşmasında direktor müavininin rolu böyükdür. O, yeni müəllimlərə metodiki kömək göstərir və onların pedaqoji fəaliyyətini istiqamətləndirir.

Son illərdə müəllimlərin sertifikatlaşdırılması prosesinin tətbiqi də direktor müavinlərinin fəaliyyətinə yeni məsuliyyətlər əlavə etmişdir. Müəllimlərin hazırlıq səviyyəsinin artırılması və onların peşəkar inkişafının təşkilində direktor müavinləri fəal iştirak etməlidirlər.

Şagirdlərlə aparılan təlim-tərbiyə işi. Məktəbdə tərbiyə işinin düzgün qurulması şagirdlərin şəxsiyyət kimi formalaşmasına mühüm təsir göstərir. Direktor müavini bu sahədə sinif rəhbərləri, psixoloqlar və valideynlərlə birgə fəaliyyət göstərir.

Tərbiyə işində əsas məqsəd milli-mənəvi dəyərlərə bağlı, intizamlı, məsuliyyətli, vətənpərvər gənclərin formalaşdırılmasıdır.

Məktəbdə keçirilən tədbirlər, müsabiqələr, layihələr və görüşlər şagirdlərin sosial inkişafına müsbət təsir göstərir. Bu tədbirlərin planlaşdırılması və koordinasiyası əsasən direktor müavini tərəfindən həyata keçirilir.

Eyni zamanda direktor müavini məktəbdə nizam-intizamın qorunmasına nəzarət edir. Şagird davranışlarında yaranan problemlərin araşdırılması və həlli istiqamətində profilaktik tədbirlərin görülməsi onun fəaliyyətinin vacib hissəsidir.

Məktəbdaxili nəzarət və idarəetmə mexanizmləri. Effektiv məktəb idarəetməsi davamlı nəzarət və təhlil tələb edir. Direktor müavini məktəbdaxili monitorinq sisteminin təşkilində mühüm rol oynayır.

Bu nəzarət aşağıdakı istiqamətləri əhatə edir:

- davamiyyətin izlənməsi;
- summativ qiymətləndirmələrin nəticələri;
- dərs sənədlərinin yoxlanılması;
- müəllimlərin fəaliyyətinin təhlili;
- şagird nailiyyətlərinin müqayisəli analizi.

Bu məlumatlar əsasında məktəbin inkişaf istiqamətləri müəyyənləşdirilir və növbəti fəaliyyət planları hazırlanır.

Müasir dövrdə rəqəmsal texnologiyaların tətbiqi idarəetmədə yeni imkanlar yaratmışdır. Elektron jurnal və digər rəqəmsal platformalar direktor müavinlərinin işini daha sistemli və operativ şəkildə təşkil etməyə şərait yaradır.

Qarşıya çıxan problemlər və çətinliklər. Direktor müavinlərinin fəaliyyətində müəyyən problemlər də mövcuddur. Ən çox rast gəlinən problemlərdən biri iş yükünün həddindən artıq olmasıdır. Bir çox hallarda həm inzibati, həm pedaqoji, həm də təşkilati məsələlərin eyni şəxs tərəfindən idarə olunması çətinlik yaradır.

Digər mühüm problem bəzi məktəblərdə maddi-texniki bazanın zəif olmasıdır. Resurs çatışmazlığı müasir təlim metodlarının tətbiqinə mənfi təsir göstərir.

Valideyn-məktəb əməkdaşlığının kifayət qədər yüksək səviyyədə olmaması da təlim-tərbiyə prosesində müəyyən problemlər yaradır. Şagirdlərin inkişafında ailə və məktəbin birgə fəaliyyəti mühüm əhəmiyyət daşıdığı üçün bu əməkdaşlığın gücləndirilməsi vacib hesab olunur.

Nəticə. Beləliklə, təlim-tərbiyə işləri üzrə direktor müavini ümumi təhsil müəssisəsinin idarə olunmasında mühüm yer tutur. O, tədris prosesinin təşkili, müəllim fəaliyyətinin koordinasiyası, şagird inkişafı və məktəbdaxili nəzarət sisteminin həyata keçirilməsində əsas idarəedici funksiyanı yerinə yetirir.

Müasir təhsil islahatları fonunda direktor müavinlərinin fəaliyyəti daha da aktuallaşmışdır. Təhsil keyfiyyətinin yüksəldilməsi, məktəbdə sağlam pedaqoji mühitin formalaşdırılması və müasir idarəetmə prinsiplərinin tətbiqi bu vəzifənin əhəmiyyətini artırır.

Gələcəkdə məktəb idarəetməsinin daha səmərəli təşkili üçün direktor müavinlərinin peşəkar hazırlığının gücləndirilməsi, onların idarəetmə bacarıqlarının inkişaf etdirilməsi və müasir təhsil texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi vacib hesab olunur.

SARA QURBANLI
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
sarafikretqizi@gmail.com

TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ OLUNMASINDA İNNOVATİV YANAŞMALAR

Məqalədə təhsil müəssisələrinin idarə olunmasında innovativ yanaşmaların əhəmiyyəti araşdırılmışdır. Müasir dövrdə rəqəmsal texnologiyaların tətbiqi, strateji idarəetmə və liderlik prinsipləri təhsil sisteminin inkişafında mühüm rol oynayır. İnnovativ idarəetmə təhsilin keyfiyyətinin yüksəldilməsinə və səmərəli təşkilinə şərait yaradır.

***Açar sözlər**: təhsil idarəetməsi, innovativ yanaşmalar, rəqəmsallaşma, məktəb rəhbərliyi, təhsildə keyfiyyət*

Giriş. Müasir dövrdə cəmiyyətin sürətli inkişafı və qloballaşma prosesi təhsil sistemində mühüm dəyişikliklərin həyata keçirilməsini zəruri etmişdir. İnformasiya texnologiyalarının inkişafı, rəqəmsallaşma və yeni təlim metodlarının meydana çıxması təhsil müəssisələrinin idarə olunmasında innovativ yanaşmaların əhəmiyyətini artırmışdır. Ənənəvi idarəetmə üsulları müasir dövrün tələblərinə tam cavab vermədiyi üçün yeni idarəetmə modellərinin tətbiqi aktuallaşmışdır.

Təhsil müəssisələrinin idarə olunması yalnız inzibati fəaliyyətlə məhdudlaşmır. Bu proses təhsilin keyfiyyətinin təmin olunması, müəllim və şagird fəaliyyətinin koordinasiya edilməsi, innovativ mühitin yaradılması və strateji inkişafın təşkilini əhatə edir. Müasir idarəetmə sistemində rəhbərin əsas vəzifəsi kollektivdə əməkdaşlıq mühiti yaratmaq, motivasiyaedici idarəçilik həyata keçirmək və təlim prosesinin effektivliyini artırmaqdır.

İnnovativ idarəetmə dedikdə idarəçilikdə yeni metodların və texnologiyaların tətbiqi nəzərdə tutulur. Bu yanaşmaların əsas məqsədi təhsil müəssisələrinin fəaliyyətini daha səmərəli təşkil etmək, idarəetmədə çevikliyi artırmaq və təlim keyfiyyətini yüksəltməkdir. Müasir məktəblərdə elektron idarəetmə sistemlərinin tətbiqi, rəqəmsal platformalardan istifadə və strateji planlaşdırma innovativ idarəetmənin əsas istiqamətlərindən hesab olunur.

Rəqəmsallaşma təhsil idarəetməsində mühüm dəyişikliklər yaratmışdır. Elektron jurnal və gündəlik sistemləri, onlayn qiymətləndirmə platformaları, virtual iclaslar və elektron sənəd dövriyyəsi idarəetmə prosesini daha operativ etmişdir. Xüsusilə distant təhsil modelinin tətbiqi innovativ idarəetmənin əhəmiyyətini daha da artırmışdır.

Təhsil müəssisələrinin idarə olunmasında liderlik prinsipləri də mühüm əhəmiyyət daşıyır. Müasir rəhbər yalnız idarə edən şəxs deyil, həm də kollektivə istiqamət verən və innovativ ideyaları dəstəkləyən lider olmalıdır. Effektiv liderlik müəllimlərin peşəkar inkişafına və təlim nəticələrinin yaxşılaşmasına müsbət təsir göstərir.

İnnovativ yanaşmalar müəllimlərin peşəkar inkişafında da mühüm rol oynayır. Müasir təhsil sistemində müəllimlərin yeni texnologiyalara yiyələnməsi, interaktiv təlim metodlarından istifadə etməsi və davamlı inkişaf prinsiplərinə əməl etməsi vacib hesab olunur. Təhsil müəssisələrinin rəhbərləri müəllimlərin inkişafını dəstəkləməli və müxtəlif seminarların təşkilinə xüsusi diqqət yetirməlidirlər.

Müasir təhsil müəssisələrində innovativ idarəetmə yanaşmaları məktəbin ümumi fəaliyyətinin inkişafına mühüm təsir göstərir. İdarəetmədə çevik qərarvermə mexanizmlərinin tətbiqi müəllim və şagirdlərin təhsil prosesində daha fəal iştirakına şərait yaradır. Bu yanaşmalar təhsil müəssisələrində əməkdaşlıq mühitinin formalaşmasına və idarəetmə prosesinin daha demokratik şəkildə həyata keçirilməsinə imkan verir.

Müasir məktəblərdə layihə əsaslı fəaliyyətin təşviqi də innovativ idarəetmənin əsas istiqamətlərindən biridir. Müxtəlif sosial və təhsil layihələrinin həyata keçirilməsi şagirdlərin yaradıcı düşünmə bacarıqlarının inkişafına, müəllimlərin isə peşəkar təcrübəsinin artmasına kömək edir.

Layihələrin təşkili zamanı komanda işi prinsiplərinin tətbiqi məktəbdaxili münasibətlərin güclənməsinə müsbət təsir göstərir.

İnnovativ idarəetmə məktəb-valideyn münasibətlərinin inkişafında da mühüm rol oynayır. Elektron kommunikasiya vasitələrinin istifadəsi valideynlərlə operativ əlaqənin qurulmasını asanlaşdırır. Valideyn iclaslarının onlayn formada keçirilməsi, elektron məlumatlandırma sistemləri və rəqəmsal platformalar təhsil müəssisələrinin fəaliyyətində şəffaflığın təmin olunmasına şərait yaradır.

İnnnovativ idarəetmə məktəbdaxili münasibətlərin inkişafına da müsbət təsir edir. Demokratik idarəetmə prinsiplərinin tətbiqi müəllim, şagird və valideyn əməkdaşlığının güclənməsinə səbəb olur. Sağlam psixoloji mühitin yaradılması və kollektiv qərarvermə prosesinin təşviq olunması idarəetmənin səmərəliliyini artırır.

Müasir təhsil müəssisələrində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi innovativ inkişafın əsas istiqamətlərindən hesab olunur. Xarici ölkələrin qabaqcıl təhsil modellərinin araşdırılması və uyğun təcrübələrin tətbiqi təhsil sisteminin yenilənməsinə şərait yaradır. Bu yanaşma idarəetmədə yeni metodların formalaşmasına və təhsil keyfiyyətinin yüksəlməsinə səbəb olul

İnnovativ yanaşmaların tətbiqi zamanı etik idarəetmə prinsiplərinə də xüsusi diqqət yetirilir. Rəhbərlə kollektiv arasında qarşılıqlı hörmətin qorunması, ədalətli qərarların qəbul olunması və şəffaf idarəetmə mühiti sağlam əməkdaşlıq münasibətlərinin formalaşmasına kömək edir. Bu prinsiplər təhsil müəssisəsində etibarlı və müsbət iş atmosferi yaradırñ

Bundan başqa, innovativ idarəetmə təhsil müəssisələrinin cəmiyyətlə əlaqələrinin gücləndirilməsinə də şərait yaradır. Məktəblərin ictimai tədbirlərdə fəal iştirakı, sosial layihələrin təşkili və müxtəlif qurumlarla əməkdaşlıq münasibətlərinin qurulması təhsil müəssisəsinin nüfuzunun artmasına müsbət təsir göstərir. Bu əməkdaşlıq şagirdlərin sosial bacarıqlarının inkişafına da mühüm töhfə verir.

SƏADƏT MƏNƏFOVA
Azərbaycan Respublikası Təhsil İnstitutu
Mütəxəssis
saadat.manafova@arti.edu.az

ÜMUMTƏHSİL SİSTEMİNDƏ STRUKTUR PROBLEMLƏRİN TƏHLİLİ VƏ TƏHSİL KEYFİYYƏTİNƏ TƏSİR EDƏN AMİLLƏR

“Təhsil millətin gələcəyidir.”
Heydər Əliyev

Tezisdə Azərbaycanda təhsil sahəsinin inkişafı, dövlət qayğısı və əldə olunan nailiyyətlər fonunda mövcud problemlər, müəllim-şagird-valideyn münasibətləri, şagird şəxsiyyətinin formalaşmasında məktəbin rolu və regional kadr çatışmazlığı məsələləri kompleks şəkildə təhlil edilir.

Açar sözlər: *ümumtəhsil, təhsil siyasəti, şagird inkişafı, pedaqoji münasibətlər, təhsil keyfiyyəti, sosial-psixoloji mühit*

Hər bir uşaq ailəsi üçün doğma, əziz olduğu kimi dövlətimiz üçün çox əzizdir, doğmadır və önəmlidir. Dövlətimiz uşaqlara daim sevgi, qayğı ilə yanaşır və bu qayğı hər zaman davam etməkdədir. Ölkəmizdə müasir tipli məktəblərin gün-gündən çoxalması, uşaq yaradıcılıq mərkəzlərinin fəaliyyət göstərməsi, uşaq bağçalarına olan diqqət buna əyani sübutdur. Böyük şəhərlərimizdə olduğu kimi bölgələrimiz də də artıq yeni müasir təhsil ocaqlarının sayı artmaqdadır. Bu çox sevindirici bir haldır, çünki gələcək nəslin savadlı, elmli yetişməsi bütövlükdə bir cəmiyyətin savadlı olması deməkdir. Danılmaz faktdır ki, müasir Azərbaycan məktəblisi son illərdə sürətlə inkişaf edir. Geniş, hərtərəfli dünyagörüşünə malik olan Azərbaycan məktəblisi öz fikrini sərbəst ifadə edə bilən, müstəqil qərar verməyi bacaran bir gənc olaraq yetişməkdədir. Bu gün buna görə biz ilk növbədə dövlətimizə təşəkkür etməliyik. Müasir Azərbaycan məktəbliləri dünyanın nüfuzlu ali təhsil ocaqlarında təhsil almaq imkanlarına malikdirlər. Çox qürurvericidir ki, uşaqlara dövlətimiz qayğı ilə yanaşır, eyni zamanda gənclərin təhsilini dövlət öz gəlirləri hesabına maliyyələşdirir. Bu gün Azərbaycan gənci olmaq çox şərəfli və qürurvericidir!

İstər ölkəmizdə, istərsə də xarici ölkələrdə təhsil almaq istəyən gənclərimizin sayı gün-gündən artır. Azərbaycanda ali təhsilə olan maraq dünyanın çox az sayda ölkəsində var. Azərbaycan insanına xas olan bu xüsusiyyət xalqımızın elmə, biliyə olan həvəsindən xəbər verir. Artıq Azərbaycan universitetlərinin böyük əksəriyyəti dünya üniversitetlərinin siyahısına daxil edilmişdirlər. Sözsüz ki, istənilən nailiyyətlərin əsas təməli ümümtəhsil məktəblərində qoyulur.

Məktəbdə verilən təhsil uşaqların şəxsiyyətinin formalaşmasında böyük rol oynayır. Hər bir insanın biliklərinin əsası orta məktəbdən başlayır, eyni zamanda şağirdlərin psixoloji inkişafının formalaşması da məhz bu dövrə təsadüf edir. Uşaqları hər zaman psixoloji təyziqlərdən, təhdidlərdən qorumaq bir zəruriyyətdir, əks təqdirdə bu kimi hallar məktəblilərin psixoloji vəziyyətinə mənfi təsir göstərərək, xoşagəlməyən problemlər ilə üzləşdirə bilər. Bu cür məsələləri həll etmək üçün məktəb proqramına uşaqlar və müəllimlər üçün nəzərdə tutulmuş təhlükəsiz mühit yaratmaq istiqamətində işlər aparilması məqsədəuyğundur. Bu baxımdan şagirdlərə və müəllimlərə konflikt situasiyalarda vəziyyəti idarəetmə vərdişlərinin öyrədilməsi zəruriyyəti yaranır. Problemlərdən biri də məktəb və valideyinlər arasında münasibətlərin azlığı və ya olmamasıdır. Adətən ibtidai siniflərdə valideyinlər məktəblə sıx təmasda olur, lakin yuxarı siniflərdə bu kommunikasiya azalır. Valideynlər tərəfdən məktəb ilə kommunikasiyanın azlığı uşaqların dərsə hazırlıqlarına da öz təsirini göstərir. Uşağı məktəbə göndərib bütün məhsuliyyəti tam olaraq məktəbin üzərinə atmaq da, fikrimcə düzgün yanaşma deyildir.

Məktəb bəzən şagirdləri real həyata hazırlanmasında çətinliklər ilə üzləşir. Praktik bilik, vərdiş və bacarıqların olmaması uşaqların həyata uyğunlaşmasında çətinlik yaradır. Məktəb proqramlarına real həyatı əhatə edən kurslar daxil etmək düşünürəm ki, məqsədəuyğundur.

Hər bir zamanda olduğu kimi, bu gün də ümumtəhsil problemləri təhsilin prioritet məsələlərindən hesab olunur. Müasir dünyada təhsil hər bir insanın həyatında mühüm yer tutur. Müasir təhsil ekspertlərinin fikrincə, ümumtəhsil sistemində yaranan boşluqları iqtisadi sahədə yaranmış olan problemlərdən, ölkənin inkişafından asılı olmayaraq, aradan qaldırmaq mümkündür. Mütəxəssislər bu istiqamətdə uğurlu inkişaf üçün islahatlar təklif edir. Bu yeni islahatlar təcrübəyə əsaslanır. Məsələn:

1. Ən uğurlu nailiyyətlər qarşiya qoyulmuş məqsədlərə doğru gedən konkret meyarlar və onlara çatmaq istiqamətində görülən işlər hesab olunur.

2. Təhsildə ərsəyə gəlmiş modernləşmənin uğur qazanması təhsil prosesində iştirak edən şəxslərin hər birinin fəal olmasından asılıdır. Bura məktəb rəhbərləri, müəllimlər, şagirdlər, valideyinlər birlikdə komanda olaraq daxildir.

3. Təhsildə aparılan islahatların nailiyyəti yalnız müəllimlərdən deyil, eləcə də valideyinlərdən də asılıdır.

4. Təhsilin keyfiyyətinin yüksəlməsi, müntəzəm aparılan yoxlamanın nəticəsinə əsaslanır. Mükəmməl təhsil sistemi hər bir məqama diqqət yetirərək, ehtiyac yarandıqda zəruri düzəlişlər edir.

5. Ən mükəmməl təhsil sistemi yeniliklərə açıq olub, əldə olunan nəticələri diqqətlə izləyib, mükəmməl seçim etməkdir.

Orta ümumtəhsil məktəblərində yaranmış problemlərin həlli tədris-təhsil prosesində maraqlı olan tərəflərin komanda şəklində birləşərək yanaşması məqsədəuyğundur (şagirdlər-müəllimlər-valideyinlər-məktəb). Məktəbdə tədris proqramının inkişafına, yeni metodlardan maksimum istifadə, müəllimlərin səmimi münasibəti, valideyinlərlə sıx əlaqə - ədalətli, effektiv bir mükəmməl təhsil sistemi yaratmağa kömək etmiş olar.

ARZU QURBANOVA
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
ArzuQurbanova@nmi.edu .az

ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ MÜASİR YANAŞMALAR VƏ PROBLEMLƏR

Ümumi təhsil sistemində idarəetmənin aktual məsələləri mövzusu təhsil sistemində idarəetmənin düzgün təşkili təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Müasir dövrdə ümumi təhsilin idarə olunması sahəsində bir sıra vacib məsələlər mövcuddur.Bunlar təhsilin keyfiyyətinin yüksəldilməsi, bərabər təhsil imkanlarının yaradılması ,rəqəmsallaşma və inklüzivliyin təmin olunması əsas çağırışlar sırasındadır.

Açar sözlər: *təhsil, sistem, müəllim, cəmiyyət*

Giriş. Ümumi təhsil hər bir cəmiyyətin sosial-iqtisadi inkişafının təməl sütunlarından biridir. Təhsilin keyfiyyəti ölkənin sosial-iqtisadi inkişafına insan kapitalının formalaşmasına, yeni nəslin dünyagörüşünə birbaşa təsir göstərir. Hazırda qloballaşma, rəqəmsallaşma və sürətli informasiya axını təhsil sahəsində yeni tələblər formalaşdırır. Qlobal trendlər, texnologiyaların inkişaf, sosial dəyişikliklər və əmək bazarının tələbləri təhsil sistemində idarəetmə modellərinin müasirləşdirilməsini zəruri edir. Təhsil müəssisələrində elektron idarəetmə sistemlərin tətbiqi pedaqoji heyətin peşəkar inkişafı valideyn-məktəb əməkdaşlığı kimi məsələlər idarəetmənin əsas istiqamətlərindən sayılır.

1. İdarəetmə sisteminin müasir tələblərə uyğunlaşdırılması

Müasir təhsil sisteminin effektiv fəaliyyəti onun çevik, şəffaf və nəticəyönümlü idarə olunmasından asılıdır. Müasir dövrdə cəmiyyətin sürətli inkişafı informasiya texnologiyalarının geniş yayılması idarəetmə sisteminin yenilənməsini zəruri edir. İdarəetmə sisteminin müasir tələblərə uyğunlaşdırılması təşkilatların və müəssisələrin inkişafında mühüm rol oynayır. Bununla yanaşı məktəb rəhbərlərinin idarəetmə səlahiyyətlərinin məhdudluğu, qərarvermədə təşəbbüskarlığın azlığı və resursların qeyri-bərabər bölgüsü kimi məsələlər hələ də aktuallığını saxlayır. Məktəblərin maliyyə müstəqilliyinin artırılması və direktorların peşəkar hazırlığının yüksəldilməsi bu istiqamətdə atılan əsas addımlardan hesab olunur.

2. Rəqəmsallaşma və təhsilin idarə olunması

Pandemiya dövründə rəqəmsal texnologiyaların təhsildə rolu ön plana çıxdı. Bu dövrdə məsafədən təhsil və elektron idarəetmə sistemlərinin sürətli inkişafı təhsilin idarə olunmasında yeni yanaşmaların zəruriliyini ortaya qoydu. Rəqəmsallaşma təhsil müəssisələrinin fəaliyyətini müasir tələblərə uyğun qurmağa kömək edir. Təhsilin idarə olunmasında rəqəmsal texnologiyaların tətbiqi idarəetmə işini asanlaşdırır. Elektron jurnal və gündəlik sistemləri, onlayn qiymətləndirmə vasitələri və statistik hesabatların elektronlaşdırılması idarəetmədə şəffaflığı və operativliyi artırır. Lakin region məktəblərində internet və texniki infrastrukturun zəif olması ,müəllim və şagirdlərin rəqəmsal bacarıqlarının kifayət qədər inkişaf etməməsi kimi problemlər bu sahədə inkişafın qarşısını qismən alır.

3. Təhsildə insan resurslarının idarə olunması

Təhsildə insan resurslarının idarə olunması müəllimlərin rəhbər işçilərin və digər təhsil əməkdaşlarının fəaliyyətinin planlaşdırılması prosesidir. Ümumi təhsilin idarə olunmasında müəllim heyətinin keyfiyyətli seçimi, onların peşəkar inkişafının təmin edilməsi və stimullaşdırılması mühüm yer tutur. Azərbaycanda son illər müəllimlərin işə qəbulu üzrə müsabiqə sisteminin tətbiqi şəffaflığın artırılması baxımından vacibdir. Lakin bu sistemdə də müəyyən problemlər qalmaqdadır. Bəzi regionlarda ixtisaslı kadr hazırlığı, yeni müəllimlərin adaptasiya problemləri və motivasiya çatışmazlığı müşahidə olunur. Həmçinin direktorların təyinat və attestasiyası sisteminin daha şəffaf və obyektiv meyarlarla aparılması təhsilin keyfiyyətinə birbaşa təsir göstərir.

Nəticə. Ümumi təhsilin idarə olunması dinamik və çoxşaxəli prosesdir. Onun səmərəli təşkili üçün sistemin çevik, şəffaf, insan mərkəzli və texnoloji baxımdan dayanıqlı olması vacibdi. Nəticə etibarilə, ümumi təhsil sistemində idarəetmənin aktual məsələlərinin həlli şagirdlərin bilik və bacarıqlarının inkişafına, həmçinin cəmiyyət üçün savadlı gənc nəslin formalaşmasına xidmət edir. Gələcəkdə idarəetmə mexanizmlərinin daha da təkmilləşdirilməsi ,müstəqil və hesabatlı məktəb modellərinin tətbiqi, müəllim və rəhbər heyətin inkişafı, eyni zamanda rəqəmsal imkanların genişləndirilməsi ilə ümumi təhsilin keyfiyyəti və əlçatanlığı daha da artacaqdır.

BULQEYİS NAĞIYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Tyutor
Tebiettyutorbulqeyis@nmi.edu.az

ÜMUMTƏHSİL SİSTEMİNDƏ İDARƏETMƏNİN NƏZƏRİ VƏ PRAKTİKİ PROBLEMLƏRİ

Ümumtəhsil sistemi cəmiyyətin inkişafında mühüm rol oynayan əsas sahələrdən biridir. Təhsil yalnız bilik verməklə kifayətlənmir, həm də şəxsiyyətin formalaşmasına, milli-mənəvi dəyərlərin qorunmasına və gələcək nəslin hazırlanmasına xidmət edir. Müasir dövrdə təhsil sistemində baş verən yeniliklər idarəetmənin daha çevik, səmərəli və müasir tələblərə uyğun təşkil edilməsini vacib hesab edir.

Açar sözlər: *ümumtəhsil, praktiki bilik, məktəb, tədris*

Təhsildə idarəetmə məktəbin fəaliyyətinin planlaşdırılması, təşkili, nəzarəti və qiymətləndirilməsi prosesidir. İdarəetmənin əsas məqsədi məktəbdə sağlam təhsil mühitinin yaradılması, müəllim və şagird fəaliyyətinin düzgün istiqamətləndirilməsi, təlim keyfiyyətinin yüksəldilməsi və məktəbin ümumi inkişafının təmin edilməsidir.

Müasir məktəb idarəetməsi yalnız rəhbərlik etmək deyil, həm də kollektivlə əməkdaşlıq etmək, problemləri vaxtında müəyyənləşdirmək və onların həlli yollarını tapmaq deməkdir. Məktəb rəhbəri idarəçi olmaqla yanaşı, həm də pedaqoji lider kimi fəaliyyət göstərməlidir. Təhsilin idarəetməsində aşağıdakı problemlər mövcuddur:

1. Təhsilin keyfiyyətinin aşağı səviyyədə olması – bəzi məktəblərdə tədrisin keyfiyyəti müasir tələblərə tam cavab vermir. Şagirdlərin bilik səviyyəsində fərqlər yaranır, bəzi hallarda təlim daha çox əzbərçiliyə əsaslanır. Bu problem idarəetmədə düzgün nəzarətin və metodiki işin zəif təşkil olunması ilə bağlıdır.

2. Müəllimlərin peşəkar inkişaf problemləri - müəllimlərin daim yenilənən təhsil proqramlarına uyğun hazırlanması vacibdir. Lakin bəzi hallarda müəllimlər yeni texnologiyalardan və müasir təlim metodlarından istifadə etməkdə çətinlik çəkirlər. Bu isə təlim prosesinin keyfiyyətinə mənfi təsir göstərir.

3. Rəqəmsal idarəetmə problemləri - müasir dövrdə məktəblərdə elektron jurnal, rəqəmsal platformalar və onlayn idarəetmə sistemləri geniş tətbiq olunur. Lakin bəzi məktəblərdə texniki imkanların zəif olması və müəllimlərin rəqəmsal bacarıqlarının kifayət qədər inkişaf etməməsi problemlər yaradır.

4. Məktəb - valideyn əlaqələrinin zəifliyi - təhsil prosesində valideyn iştirakı mühüm əhəmiyyət daşıyır. Ancaq bəzi hallarda məktəb və valideyn arasında əməkdaşlıq zəif olur. Bu isə şagirdlərin davranışına və təhsil nəticələrinə mənfi təsir edir.

5. Kadr idarəçiliyində çətinliklər - bəzi məktəblərdə müəllim çatışmazlığı və ya ixtisasına uyğun olmayan müəllimlərin fəaliyyət göstərməsi problemlər yaradır. İdarəetmədə düzgün kadr seçimi və yerləşdirilməsi təhsil keyfiyyətinin yüksəlməsi üçün vacib şərtdir.

Ümumtəhsil müəssisələrində mövcud problemlər sistemli xarakter daşıyır və onların həlli kompleks yanaşma tələb edir. Ən əsas məsələ təhsilin əmək bazarına uyğunlaşdırılması və praktik yönümlü olmasıdır. Bu istiqamətdə atılacaq addımlar həm təhsil sisteminin inkişafına, həm də ölkənin iqtisadi və sosial tərəqqisinə müsbət təsir göstərəcəkdir.

FATMA İSLAMLI
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
IslamliFatma@nmi.edu.az

ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ PROSESİNDƏ EMOSİONAL İNTELLEKTİN ROLU

Tezisdə ümumi təhsil müəssisələrində idarəetmə prosesində emosional intellektin rolu araşdırılır. Müasir təhsil sistemində idarəetmə fəaliyyəti yalnız inzibati bacarıqlarla deyil, həm də psixoloji amillərlə əlaqələndirilir. Emosional intellekt dedikdə rəhbərin öz emosiyalarını anlaması, onları idarə etməsi və kollektiv üzvlərinin emosional vəziyyətlərinin düzgün qiymətləndirilməsi cəhətdən mühüm əhəmiyyəti başa düşülür. Tədqiqatda emosional intellektin ümumi təhsil müəssisələrində psixoloji iqlimin formalaşmasına, müəllimlərin motivasiyasına və konfliktlərin idarə olunmasına təsiri geniş şəkildə təhlil olunmuşdur. Nəticə olaraq qeyd edilir ki, təhsil müəssisələrində emosional intellekt səviyyəsinin yüksəldilməsi təhsildə səmərəliliyi artıran əsas amillərdən biridir.

Açar sözlər: *emosional intellekt, təhsil idarəetməsi, məktəb rəhbərliyi, psixoloji iqlim*

Müasir dövrdə təhsil sistemində baş verən bütün yenilik və dəyişikliklər idarəetmə prosesinə dair tələbləri daha da artırmışdır. Təhsil müəssisələrində səmərəli fəaliyyət göstərmək sadəcə inzibati və təşkilati bacarıqlarla deyil, eyni zamanda psixoloji amillərin nəzərə alınması ilə mümkün olur. Bu cəhəti nəzərə alaraq qeyd etmək olar ki, məktəb idarəçiliyində insan amili, xüsusilə rəhbər şəxslərin fərdi-psixoloji xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edir.

Son dövrlərdə emosional intellekt anlayışı idarəetmə sahəsində geniş diqqət mərkəzinə çevrilmişdir. Emosional intellekt dedikdə insanın öz emosiyalarını anlaması, onları idarə etməsi, başqalarının da emosional vəziyyətini anlayıb ona uyğun davranış strategiyaları seçmə bacarığı kimi xarakterizə olunur. Təhsil mühitində də belə bacarıqların olması məktəb rəhbərlərinin kollektivlə daha səmərəli ünsiyyət qurmasına, sağlam psixoloji iqlim yaratmasına və idarəetmə prosesində qarşıya çıxan maneələri daha effektiv həll etməsinə şərait yaradır. Məktəb rəhbərlərinin emosional intellekt səviyyəsi müəllimlərin motivasiyasına, əməkdaşlıq mühitinə və ümumən təlim-tədris prosesinin keyfiyyətinə birbaşa təsir edir. Bu yanaşmadan emosional intellektin idarəetmə prosesində rolunun araşdırılması aktual elmi və praktik əhəmiyyətə malikdir. Tezisin əsas məqsədi də ümumi təhsil müəssisələrində idarəetmə prosesində emosional intellektin rolunu təhlil edib araşdırmaq və onun təhsil mühitinə təsirini müəyyənləşdirməkdir.

Müasir psixologiyada emosional intellekt fərdin həm öz emosiyalarını, həm də başqalarının emosiyalarını anlayıb idarə etmə bacarığı kimi izah olunur. Özünü dərketmə, tənzimləmə, empatiya və sosial bacarıqlar onun əsas komponentlərinə daxildir. Bu komponentlər xüsusilə idarəetmə fəaliyyətində mühüm əhəmiyyətə malikdir, çünki idarə edən şəxsin davranış və qərarları birbaşa kollektivin psixologiyasına da təsir göstərir. Ümumi təhsil müəssisələrində idarəetmə prosesi çoxşaxəli və mürəkkəb xarakterə malikdir. Məktəb rəhbərləri gündəlik fəaliyyətlərində müxtəlif sosial qruplarla ünsiyyətdə olurlar. Bu prosesdə emosional intellekti yüksək olan rəhbərlər daha səmərəli ünsiyyətə malik olurlar və qarşı tərəfin emosional vəziyyətini düzgün qiymətləndirib ona uyğun davranış strategiyaları seçə bilirlər. Bu da öz növbəsində idarəetmə prosesinin səmərəliliyini artırır.

Emosional intellektin yüksək səviyyədə olması məktəbdəki psixoloji mühitin də formalaşmasına müsbət təsir edir. Bu cür keyfiyyətə malik rəhbərlər kollektivdə qarşılıqlı hörmət, etimad və əməkdaşlıq mühiti yarada bilirlər. Nəticədə də müəllimlərin işə motivasiyası artır, onların peşələrinə münasibəti müsbət yöndə dəyişir. Bu da təlim-tədris prosesinin keyfiyyətinə yaxşı təsir göstərir.

Bütün bunlarla yanaşı, emosional intellekt müəssisə daxilində konfliktlərin idarə olunmasında da mühüm rola malikdir. Məktəb mühitində müxtəlif səbəblərdən yaranan konfliktlər qaçınılmazdır. Lakin emosional intellekti yüksək olan rəhbərlər bu münaqişəli vəziyyətləri konstruktiv şəkildə həll

edir və tərəflər arasında balans yaradır, bu da gərginliyin azalmasına səbəb olur. Əksinə emosional intellekti aşağı səviyyədə olan rəhbərlər isə bir sıra problemlərlə qarşılaşır. Belə hallarda rəhbər emosiyalarını idarə etməkdə çətinlik çəkir, qərarvermə prosesində subyektivliyi artırır, bu da kollektivdə narazılıqlara yol açır. Bütün bunlar da müəllimlərin motivasiyasının azalmasına, peşə tükənmişliyinə və ümumi iş mühitinin pisləşməsinə gətirib çıxarır.

Nəticə etibarilə, emosional intellekt müasir təhsil idarəçiliyində əsas psixoloji amillərdən hesab edilir və onun inkişafına yönəlmiş məqsədyönlü tədbirlərin həyata keçirilməsi təhsil sisteminin ümumi keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verə bilər.

SANUR BƏYLƏRLİ-SƏDİYEVA
Mingəçevir Dövlət Universiteti
sanur.baylarli.sadiyeva@mdu.edu.az

ÜMUMİ TƏHSİLİN İDARƏ OLUNMASINDA QANUNVERİCİLİYİN ROLU

Bu məqalədə Azərbaycan Respublikasında ümumi təhsil sisteminin hüquqi əsaslarını müəyyən edən "Təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunların mahiyyəti, məqsədləri və tətbiq mexanizmləri təhlil edilir. Qanunların ümumi təhsil sisteminin idarə olunması, keyfiyyətinin artırılması, təhsil prosesinin təşkili və təhsil iştirakçılarının hüquq və vəzifələrinin müəyyənləşdirilməsində rolu araşdırılır. Həmçinin bu normativ sənədlərin təhsil siyasətinin formalaşmasına, təhsildə islahatların həyata keçirilməsinə və müasir təhsil mühitinin yaradılmasına təsiri elmi-praktik baxımdan qiymətləndirilir.

***Açar sözlər**: təhsil qanunvericiliyi, ümumi təhsil, normativ-hüquqi baza, təhsil siyasəti, təhsil islahatları*

Müasir dövrdə təhsil hər bir cəmiyyətin sosial-iqtisadi inkişafında mühüm rol oynayan əsas amillərdən biri hesab olunur. Cəmiyyətin inkişaf səviyyəsi, insan kapitalının formalaşması və dövlətin gələcək inkişaf strategiyası birbaşa təhsil sisteminin keyfiyyətindən asılıdır. Bu baxımdan təhsil sahəsində həyata keçirilən dövlət siyasətinin hüquqi əsaslarının möhkəm və sistemli şəkildə qurulması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında təhsil sisteminin inkişafı və idarə olunması bir sıra normativ-hüquqi sənədlərlə tənzimlənir. Bu sənədlər arasında "Təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlar xüsusi yer tutur. Hər iki qanun təhsil sisteminin təşkilati, hüquqi və pedaqoji əsaslarını müəyyənləşdirərək təhsil sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsinə xidmət edir.

Bu məqalənin əsas məqsədi qeyd olunan qanunların ümumi təhsil sisteminin normativ-hüquqi bazası kimi rolunu təhlil etmək, onların tətbiqi mexanizmlərini araşdırmaq və təhsil sisteminin inkişafında əhəmiyyətini elmi baxımdan qiymətləndirməkdir.

Azərbaycan Respublikasının "Təhsil haqqında" qanunu ölkənin təhsil sisteminin ümumi hüquqi əsaslarını müəyyən edən fundamental normativ sənəddir. Bu qanun təhsil sahəsində dövlət siyasətinin prinsiplərini, təhsil sisteminin quruluşunu, təhsil müəssisələrinin fəaliyyətini və təhsil iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir. Qanunda təhsilin əsas məqsədi kimi şəxsiyyətin hərtərəfli inkişafı, vətənpərvər və yaradıcı düşüncəli vətəndaşların yetişdirilməsi göstərilir. Bu yanaşma müasir dövrdə təhsilin yalnız bilik ötürülməsi ilə məhdudlaşmadığını, həm də sosial, mədəni və mənəvi inkişafı təmin edən kompleks bir proses olduğunu göstərir. Qanuna əsasən, Azərbaycan Respublikasında təhsil aşağıdakı prinsiplərə əsaslanır: humanizm, demokratiklik, bərabərlik, milli və ümumbəşəri dəyərlərin vəhdəti, fasiləsizlik və varislik. Bu prinsiplər təhsil sisteminin bütün pillələrində vahid yanaşmanın təmin edilməsinə imkan yaradır.

Həmçinin, qanun təhsil müəssisələrinin idarə olunması, maliyyələşdirilməsi və akkreditasiyası kimi məsələləri də tənzimləyir. Bu isə təhsil sisteminin effektiv fəaliyyətinə və keyfiyyətin yüksəldilməsinə şərait yaradır.

"Ümumi təhsil haqqında" qanun ümumi təhsil pilləsinin təşkilini və fəaliyyətini tənzimləyən əsas normativ sənədlərdən biridir. Bu qanun ümumi təhsil müəssisələrinin fəaliyyət prinsiplərini, təhsil proqramlarının məzmununu və tədris prosesinin təşkili qaydalarını müəyyən edir. Qanuna görə ümumi təhsil pilləsi ibtidai, ümumi orta və tam orta təhsil mərhələlərindən ibarətdir. Hər bir mərhələ şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olaraq onların bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasına yönəldilir. Bu qanun həmçinin şagirdlərin hüquqlarının qorunması, müəllimlərin peşə fəaliyyətinin dəstəklənməsi və məktəb idarəçiliyinin təkmilləşdirilməsi kimi mühüm məsələləri əhatə edir. Beləliklə, ümumi təhsil sistemində keyfiyyətli təhsil mühitinin yaradılması üçün hüquqi əsaslar təmin olunur. Müasir dövrdə ümumi təhsil sahəsində aparılan islahatlar da əsasən bu qanunun

müddəalarına uyğun şəkildə həyata keçirilir. Bu isə təhsil sisteminin davamlı inkişafına və beynəlxalq standartlara uyğunlaşdırılmasına şərait yaradır.

Təhsil sisteminin səmərəli fəaliyyət göstərməsi üçün güclü normativ-hüquqi baza vacib şərtlərdən biridir. Azərbaycan Respublikasında qəbul edilmiş təhsil qanunları bu sahədə vahid hüquqi mexanizmin formalaşdırılmasına xidmət edir. “Təhsil haqqında” və “Ümumi təhsil haqqında” qanunlar təhsil sistemində iştirak edən bütün tərəflərin fəaliyyətini tənzimləyir. Bu sənədlər dövlət, təhsil müəssisələri, müəllimlər, şagirdlər və valideynlər arasında hüquqi münasibətlərin düzgün qurulmasını təmin edir. Eyni zamanda bu qanunlar təhsil siyasətinin həyata keçirilməsi üçün hüquqi baza yaradır. Dövlət proqramlarının hazırlanması, kurikulum islahatlarının həyata keçirilməsi və təhsil standartlarının müəyyənləşdirilməsi məhz bu normativ sənədlərə əsaslanır. Normativ-hüquqi bazanın möhkəm olması təhsil sisteminin dayanıqlığını artırır və idarəetmə prosesinin daha səmərəli təşkilinə imkan yaradır.

Son illərdə Azərbaycanda təhsil sahəsində genişmiqyaslı islahatlar həyata keçirilmişdir. Bu islahatların əsas məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir təhsil texnologiyalarının tətbiqi və beynəlxalq təhsil məkanına inteqrasiyanın təmin edilməsidir. Qeyd olunan islahatların həyata keçirilməsində təhsil qanunvericiliyi mühüm rol oynayır. Qanunlar təhsil sisteminin inkişaf istiqamətlərini müəyyən edir və həyata keçirilən yeniliklərin hüquqi əsaslarını təmin edir. Məsələn, kurikulum islahatları, müəllimlərin sertifikatlaşdırılması, məktəb idarəetməsinin təkmilləşdirilməsi və rəqəmsal təhsil mühitinin yaradılması kimi təşəbbüslər məhz normativ-hüquqi sənədlərin tələblərinə uyğun şəkildə həyata keçirilir. Bu baxımdan qanunvericilik təhsil sistemində baş verən dəyişikliklərin ardıcıl və planlı şəkildə reallaşdırılmasına imkan yaradır.

Aparılan təhlillər göstərir ki, “Təhsil haqqında” və “Ümumi təhsil haqqında” qanunlar Azərbaycan Respublikasında ümumi təhsil sisteminin əsas normativ-hüquqi bazasını təşkil edir. Bu qanunlar təhsil sisteminin təşkilati quruluşunu, fəaliyyət prinsiplərini və inkişaf istiqamətlərini müəyyənləşdirir. Hər iki qanun təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayır və təhsil sisteminin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Onların tətbiqi nəticəsində təhsil prosesinin idarə olunması daha sistemli xarakter alır və təhsil iştirakçılarının hüquqları daha səmərəli şəkildə qorunur. Ümumilikdə, təhsil sahəsində normativ-hüquqi sənədlərin mövcudluğu yalnız hüquqi tənzimləmə funksiyası daşımır. Bu sənədlər həm də təhsil sisteminin strateji inkişaf istiqamətlərini müəyyən edir. Qanunların tətbiqi nəticəsində təhsil müəssisələrində idarəetmə mexanizmləri təkmilləşir, müəllimlərin peşə fəaliyyəti üçün daha əlverişli şərait yaradılır və şagirdlərin keyfiyyətli təhsil alma hüququ təmin olunur.

ARİF BAĞIROV
Payız kənd tam orta məktəbi
Azərbaycan dili və ədəbiyyat müəllimi
bagirovarif895@gmail.com

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ EFFEKTİV İDARƏETMƏ MODELİNİN FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Ümumi təhsil sistemində idarəetmə təhsil prosesinin səmərəli təşkili, resursların düzgün bölüşdürülməsi və tədrisin keyfiyyətinin yüksəldilməsini təmin edir. Bu idarəetmədə əsas məsələlərə məktəblərin fəaliyyətinin planlaşdırılması, müəllimlərin peşəkar inkişafı, şagird nailiyyətlərinin qiymətləndirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və təhsil siyasətinin icrası daxildir. Eyni zamanda, idarəetmədə şəffaflıq, məsuliyyət və əməkdaşlıq prinsiplərinin tətbiqi mühüm rol oynayır. Bu sistemin effektivliyi təhsilin ümumi keyfiyyətinə birbaşa təsir göstərir.

Açar sözlər: *ümumi təhsil sistemi, təhsil idarəetməsi, planlaşdırma, məktəb idarəçiliyi, müəllimlərin inkişafı, şagird nailiyyətləri, qiymətləndirmə, təhsil keyfiyyəti, resursların bölüşdürülməsi, təhsil siyasəti, şəffaflıq, məsuliyyət, əməkdaşlıq*

Giriş. Ümumi təhsil sistemi hər bir dövlətin sosial, iqtisadi və mədəni inkişafının əsasını təşkil edir. Bu sistemin effektivliyi təkcə tədris proqramlarının məzmunu ilə deyil, eyni zamanda idarəetmə mexanizmlərinin düzgün qurulması ilə müəyyən olunur. Müasir dövrdə təhsil idarəetməsi daha kompleks xarakter almış, ənənəvi inzibati yanaşmalardan strateji və nəticəyönümlü idarəetmə modellərinə keçid güclənmişdir. Qloballaşma, rəqəmsal texnologiyaların sürətli inkişafı və əmək bazarının dəyişən tələbləri ümumi təhsil sistemində idarəetmənin yeni çağırışlarla üzləşməsinə səbəb olmuşdur. Bu baxımdan məktəb idarəetməsi həm çevik, həm də innovativ olmalı, dəyişən şəraitə tez uyğunlaşa bilməlidir.

Strateji idarəetmənin gücləndirilməsi

Müasir təhsil idarəetməsinin əsas istiqamətlərindən biri strateji planlaşdırmadır. Məktəblər yalnız gündəlik fəaliyyətin icrası ilə kifayətlənməməli, uzunmüddətli inkişaf planları hazırlamalıdır.

Strateji idarəetmə aşağıdakıları əhatə edir:

- Məktəbin inkişaf hədəflərinin müəyyənləşdirilməsi;
- təhsil keyfiyyətinin davamlı monitorinqi;
- resursların səmərəli bölüşdürülməsi, risklərin idarə olunması.

Rəqəmsallaşma və innovativ idarəetmə

Son illərdə təhsil sistemində rəqəmsallaşma mühüm aktuallıq qazanmışdır. Elektron jurnal sistemləri, onlayn qiymətləndirmə platformaları və rəqəmsal tədris resursları idarəetməni daha şəffaf və operativ edir.

Rəqəmsallaşmanın üstünlükləri – məlumatların operativ toplanması və analizi, valideynlərlə daha effektiv kommunikasiya, tədris prosesinin izlənməsi, inzibati iş yükünün azalmasıdır.

Təhsil keyfiyyətinin idarə olunması

Keyfiyyətin idarə olunması təhsil sistemində əsas prioritetlərdən biridir. Təhsilin keyfiyyəti yalnız nəticələrlə deyil, prosesin özünün səmərəliliyi ilə ölçülməlidir.

Keyfiyyətin təmin olunması – davamlı monitorinq və qiymətləndirmə, daxili və xarici nəzarət mexanizmləri, şagird nailiyyətlərinin təhlili, tədris proqramlarının təkmilləşdirilməsidir.

Keyfiyyətli idarəetmə şagirdlərin bilik və bacarıqlarının inkişafına birbaşa təsir göstərir. Təhsil sisteminin əsas dayağı müəllimlərdir. Buna görə də onların peşəkar inkişafı idarəetmənin əsas istiqamətlərindən biridir.

Aktual məsələlər:

- Davamlı ixtisasartırma təlimləri
- Yeni pedaqoji metodların tətbiqi
- Motivasiya və stimullaşdırma sistemləri
- Performansın qiymətləndirilməsİ

İdarəetmədə liderlik və məktəb mühiti

Məktəb rəhbərinin liderlik bacarıqları təhsil müəssisəsinin ümumi atmosferinə birbaşa təsir edir. Müasir rəhbər yalnız idarəçi deyil, həm də motivator və təşkilatçı olmalıdır.

Nəticə. Ümumi təhsil sistemində idarəetmənin aktual məsələləri çoxşaxəlidir və daim inkişaf edir. Strateji planlaşdırma, rəqəmsallaşma, müəllimlərin peşəkar inkişafı, keyfiyyətin idarə olunması və inklüziv təhsil kimi istiqamətlər müasir idarəetmənin əsas prioritetlərini təşkil edir. Effektiv idarəetmə modeli təhsilin keyfiyyətini yüksəldir, şagirdlərin inkişafına şərait yaradır və cəmiyyətin ümumi tərəqqisinə xidmət edir. Buna görə də təhsil idarəetməsi daim yenilənməli və müasir çağırışlara uyğunlaşdırılmalıdır.

Müasir dövrdə təhsil cəmiyyətin inkişafının əsas göstəricilərindən biri hesab olunur. Dünyada baş verən sosial, iqtisadi və texnoloji dəyişikliklər təhsil sisteminin qarşısında yeni vəzifələr qoyur. Xüsusilə ümumi təhsil sahəsində yaranan problemlər həm elmi, həm də praktik baxımdan daim diqqət mərkəzindədir. Təhsil yalnız bilik ötürən sistem deyil, eyni zamanda şəxsiyyət formalaşdıran, cəmiyyətin inkişafına təsir edən mühüm sosial institutdur. Buna görə də ümumi təhsilin aktual elmi problemlərinin araşdırılması böyük əhəmiyyət daşıyır.Ümumi təhsilin əsas problemlərindən biri təlimin keyfiyyəti məsələsidir. Bir çox hallarda məktəblərdə verilən biliklər müasir dövrün tələblərinə tam uyğun olmur. Ənənəvi tədris metodları daha çox nəzəri məlumatların əzbərlədilməsinə əsaslanır. Halbuki müasir cəmiyyət yaradıcı düşünən, problem həll etməyi bacaran və praktik bacarıqlara malik insanlara ehtiyac duyur. Bu səbəbdən təhsil proqramlarının yenilənməsi və müasir yanaşmaların tətbiqi zəruri hesab edilir.

Müasir təhsildə aktual problemlərdən biri də rəqəmsallaşma məsələsidir. İnformasiya texnologiyalarının sürətli inkişafı təhsil sisteminə də təsir göstərmişdir. Elektron təhsil, distant təlim və onlayn platformalar yeni imkanlar yaratsa da, bir sıra çətinlikləri də ortaya çıxarmışdır. Məktəblərin texniki təminatının zəif olması, internet imkanlarının məhdudluğu və bəzi müəllimlərin rəqəmsal bacarıqlarının kifayət qədər inkişaf etməməsi tədrisin keyfiyyətinə mənfi təsir göstərir. Pandemiya dövründə bu problemlər daha aydın şəkildə müşahidə olundu. Buna görə də məktəblərin müasir texnologiyalarla təmin olunması və müəllimlərin rəqəmsal hazırlığının artırılması aktual elmi məsələlərdən biridir.

Nəticə olaraq demək olar ki, ümumi təhsilin aktual elmi problemləri çoxşaxəli və mürəkkəb xarakter daşıyır. Təhsilin keyfiyyətinin artırılması üçün müasir təlim texnologiyalarının tətbiqi, müəllim hazırlığının gücləndirilməsi, qiymətləndirmə sisteminin təkmilləşdirilməsi və şagird motivasiyasının artırılması vacibdir. Təhsil sistemində aparılan islahatlar yalnız bilikli deyil, həm də yaradıcı, vətənpərvər və müasir bacarıqlara malik gənc nəslin formalaşmasına xidmət etməlidir.

ORXAN BABAYEV
Şahbuz rayonu Badamlı kənd tam orta məktəbi
Direktor
babaorkhan1987@gmail.com

MƏKTƏB İDARƏETMƏ SİSTEMİNDƏ MÜASİR İSLAHATLARIN PEDAQOJİ ASPEKTLƏRİ

Ümumtəhsil sistemində idarəetmənin aktual məsələləri məqaləsində toxunulacaq mövzu əsas etibarı ilə məktəbdaxili prosesin əhatəli idarə olunması və məktəb-valideyn əlaqələrinin məktəb idarəetməsində əsas faktor olması,digər aspektlər və ümumtəhsil sisteminin idarə olunmasının və təhsil menecmentliyinin mükəmməl təşkili barədə araşdırma vasitəsilə nailiyyətlərin və uğurların müzakirəsini təşkil etməkdir.

Açar sözlər: *menecment, idaretmə, məktəb, strateji planlaşdırma*

Müasir dövrdə ümumtəhsil sistemlərinin idarəetmə sahəsində əsas prioritet məsələ problemlərə daha diqqətli yanaşma, ziddiyət təşkil edən məsələlərin araşdırılıb təhlil edilməsi, eləcə də təhlillər və araşdırmalar zamanı obyektivlik və şəffaflığın təmin edilməsidir. Ümumtəhsil idarəetmə fəaliyyətini təmin edilməsi üçün uzun müddətli planlaşdırma təşkil olunmalıdır. Müasir dövrün tələblərinə uyğun olaraq təhsil menecmentliyi bu sahə üzrə yeni metod və üsulların həyata keçirilməsini təmin edir. Ümumtəhsil idarəetmə sahəsi-təhsil menecmentliyinə əsasən idarəetmə fəaliyyəti strateji planlaşdırma ilə təməli qoyulur. Belə ki, hər hansı ümumtəhsil məktəbinin uzunmüddətli və şaxəli inkişafı, yeni dövrün tələblərinə uyğun müasir çağırışların həyata keçirilməsi və daha uğurlu nəticələrin əldə edilməsi yolu strateji planlaşdırma mərhələsi ilə əsası qoyulur.

Planlaşdırma - ümumtəhsil sistemində strateji planlaşdırmanın əsas məqsədi hər hansı təhsil müəssisəsi üçün inkişaf istiqamətlərinin və meyarlarının müəyyənləşdirilməsidir. Ümumtəhsil müəssisələri üçün innovativ yanaşmalar tətbiq etməklə uzunmüddətli uğurlarla və keyfiyyətlərlə dolu fəaliyyət üzrə müsbət və səmərəli dinamika hədəf kimi götürülə bilər. Strateji planlaşdırma zamanı ən çox diqqət ayrılası sahə zənnimcə məktəblər arası və sinif daxilində rəqabət üstünlüyünün formalaşdırılması və texnoloji amillərin inkişaf etdirilməsi üsullarıdır. Eyni zamanda ümumtəhsil müəssisələrində formalaşdırılan gələcək idarəetmənin daha şəffaf və ideal həyəta keçirilməsini təmin edəcək strateji planlaşdırma hər bir ümumtəhsil müəssisəsinin əsas prioritet məsələsi olmalı və hər bir məktəb rəhbərliyi bu strateji planlaşdırmanın məktəbdə Təhsil Qanunu və Ümumtəhsil müəssisələrin idarəetmə qaydalarına əsasən tətbiqinin həyata keçirilməsinə nail olmalıdır.

Ümumtəhsil sistemində idarəetmənin aktual məsələləri arasında əsas məsələlərdən biri də kadrların idarə edilməsi, düzgün seçilməsi, inkişaf və motivasiyasıdır.

İdarəetmənin əsas prinsiplərindən biri də vəzifələrin, hüquqların və məsuliyyətin səmərəli bölünməsi və həyata keçirilməsi məsələsidir.

Ümumtəhsil sistemində vəzifələr hər hansı bir şəxsin və ya şəxslərin ictimai tələblər, qaydalar, eləcə də Təhsil Şöbəsi və ya Təhsil Nazirliyi tərəfindən verilən qərarlara uyğun olaraq, ya da, daxili hisslərin oyanması nəticəsində yerinə yetirdiyi əməllər dairəsinə daxil olan prosesdir. Vəzifələr kiminsə üzərinə qoyulmuş və hansısa bir vəzifəni icra etməklə əlaqədar olan zəruri hərəkətlər dairəsi kimi mütləq yerinə yetirilməli olan işlər, tapşırıqlar kimi də başa düşülə bilər. Hər hansı vəzifəli şəxs müəssisə daxili prosesin idarə olunması zamanı öz vəzifə və səlahiyyətlərini yerinə yetirmədiyi, eləcə də sui-istifadə etdiyi təqdirdə müəssisə daxili idarəetmə prosesində prinsiplər pozulur və əsas etibari ilə nizam-intizam, davamiyyət və digər problemlərin başlanmasına, digər ciddi probləmlərin dərinləşməsinə təməl olur.

Hüquqlar hər bir şəxsə-istər təhsilverənə, istər sə də təsil alana öz fəaliyyətləri istiqamətində sərbəstlik və yeni imkanlar yaradır.

Məsuliyyət isə öz hərəkətlərinə, əməllərinə, gördüyü işlərə görə hesabat vermək zərurəti və mümkün nəticələrə, o cümlədən işin öhdəsindən layiqincə gəlmək və cavabdehlik daşımaqdan ibarətdir.

Yekun olaraq bildirmək istəyirəm ki, ümumtəhsil sistemində idarəetmənin aktual məsələlərindən olan planlaşdırma, təşkilatçılıq, nəzarət, məktəb-valideyn münasibətləri, düzgün analiz və təhlil, tənzimləmə və digər başqa metod və üsullar, eləcə də müasir dövrün tələb və metodları-təhsil menecmenliyi üzrə formalaşdırılmalıdır. İdarəetmənin əsas aktual problemlərindən biri də klassik metodlarda uzaqlaşmaq yeni dövrün yeni çağırışları üzrə müəssisə daxili fəaliyyət ətşkil etməkdir. Təşkil edilən fəaliyyət mexanizması uzun müddətli strateji planlaşdırma üzrə formalaşmalı və həyata keçirilməsi sadə və şəffaf üsullarla təmin edilməlidir. Ümumtəhsil sistemində idarəetmənin əsas prioritet və aktual məsələlərindən sayılan müəllim-şagird-valideyn piramidası üzrə sıx fəaliyyət qurulmalı, şagirdin özünüdərk prosesi zamanı diqqət yetiriləcək xüsusi məsələlərin yerindəcə analiz və təhlil edilərək həll edilməsi olmalıdır. Ümumtəhsil sitemində idarəetmənin daha şəffaf və ideal formada həyata keçirlməsi üzrə hər hansı bir vəzifəli və müəllim hər zaman yeniliyə açıq olmalı, öz üzərində işləməli, inkişaf etməlidir.

SEVİNC TAĞIYEVA
Babək rayon Gülşənabad kənd ümumi orta məktəb
cahid25011988@gmail.com

TƏHSİLİN İDARƏ OLUNMASININ AKTUAL PROBLEMLƏRİ

Təhsil sistemi cəmiyyətin inkişafında və dövlətin gələcəyinin formalaşmasında mühüm rol oynayır. Müasir dövrdə təhsilin keyfiyyətinin artırılması, idarəetmə sisteminin təkmilləşdirilməsi və səriştəyə əsaslanan təhsil modelinin formalaşdırılması aktual problemlərdən biri hesab olunur. Məqalədə təhsilin idarə olunması sahəsində mövcud problemlər, pedaqoji və psixoloji amillərin rolu və məktəb idarəçiliyində qarşıya çıxan çətinliklər təhlil edilmişdir.

Açar sözlər: *təhsil, strategiya, idarəetmə, sosium, pedaqogika, keyfiyyət*

Təhsil cəmiyyətin inkişafının əsasını təşkil edən mühüm sahələrdən biridir. Müasir dövrdə elm və texnologiyanın sürətli inkişafı təhsil sisteminin daim yenilənməsini tələb edir. Buna görə də təhsilin idarə olunması, keyfiyyətin yüksəldilməsi və müasir tələblərə uyğunlaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab olunur.

Təhsil sistemi və onun məzmunu ölkənin gələcəyinə xidmət edir. Dövlətin tərəqqisi ilk növbədə təhsilin səviyyəsindən asılıdır. Buna görə də təhsilin məzmunu elə formalaşdırılmalıdır ki, gənclər həm yüksək biliyə malik olsunlar, həm də müasir dövrün tələblərinə cavab verə sbilsinlər.

Təhsildə keyfiyyət məsələsi hər zaman aktual olmuşdur. Müasir dövrdə pedaqogika, psixologiya, menecment və marketinq elmlərinin nailiyyətlərindən istifadə olunaraq təhsilin keyfiyyətinin idarə olunması yolları araşdırılır. Müxtəlif müəllim və pedaqoqların qiymətləndirməyə fərqli yanaşmaları isə müəyyən problemlərin yaranmasına səbəb olur.

Şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi yalnız pedaqoji məsələ deyil, eyni zamanda məktəb rəhbərlərinin və təhsil menecerlərinin fəaliyyətinə aid olan mühüm idarəetmə problemidir.

Təhsildə keyfiyyətin təmin olunması üçün aşağıdakı nəticələrə diqqət yetirilməlidir:

- bilik, bacarıq və vərdişlərin formalaşdırılması;
- tərbiyəlilik səviyyəsinin yüksəldilməsi;
- şəxsiyyətin inkişaf səviyyəsinin sstəmin olunması;
- şəxsiyyətin sosiallaşmasının gücləndirilməsi.

Hazırda məktəblərin idarə olunmasında, qiymətləndirmə sistemində və təlim prosesində müəyyən problemlər mövcuddur. Bu problemlərin həlli üçün müəllim-valideyn-şagird münasibətləri düzgün qurulmalı, məktəb idarəçiliyində şəffaflıq təmin olunmalı və innovativ təlim metodlarından istifadə edilməlidir.

Nəticə olaraq qeyd etmək olar ki, təhsilin idarə olunmasının təkmilləşdirilməsi müasir cəmiyyətin əsas tələblərindən biridir. Təhsil sistemində keyfiyyətin artırılması üçün pedaqoji və psixoloji yanaşmalar gücləndirilməli, müəllimlərin peşəkar hazırlığı yüksəldilməli və innovativ metodların tətbiqinə xüsusi diqqət yetirilməlidir. Təhsilin düzgün idarə olunması gələcək cəmiyyətin inkişafına və dövlətin tərəqqisinə mühüm töhfə verəcəkdir.

ASYA PİRİYEVA
Culfa şəhər 2 nömrəli tam orta məktəb
İbtidai sinif və STEAM müəllimi
asyaadigozelova@gmail.com

ÜMUMİ TƏHSİL İSLAHATLARI KONTEKSTİNDƏ FƏNLƏRİN TƏDRİSİNDƏ ŞƏXSİYYƏTYÖNÜMLÜ VƏ STEAM ƏSASLI YANAŞMANIN ƏHƏMİYYƏTİ

Tezisdə Azərbaycan dili dərsində STEAM yanaşmasının tətbiqi imkanları araşdırılır. Müasir təhsil sistemində şəxsiyyətyönümlü təhsilin əhəmiyyəti vurğulanır. STEAM metodunun şagirdlərin yaradıcı, tənqidi düşünmə və kommunikativ bacarıqlarına təsiri təhlil olunur. Nəticədə göstərilir ki,bu yanaşma tədrisin keyfiyyətini artırır və şagirdlərin fəal öyrənməsini təmin edir.

Açar sözlər: *ümumi təhsil, təhsil islahatları, STEAM, Azərbaycan dili tədrisi, XXI əsr bacarıqları*

Müasir dövrdə cəmiyyətin inkişafı təhsil sisteminin daim yenilənməsini zəruri edir. Qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı və əmək bazarının dəyişən tələbləri təhsildə yeni yanaşmaların tətbiqini aktuallaşdırmışdır. Azərbaycanda həyata keçirilən ümumi təhsil islahatları da məhz müasir dövrün çağırışlarına uyğun olaraq şagirdyönümlü, kompetensiya esaslı və inteqrativ təlim modelinin formalaşdırılmasına yönəlmişdir. Bu baxımdan şəxsiyyətyönümlü və STEAM əsaslı yanaşma xüsusi əhəmiyyət daşıyır.

Təhsil islahatlarının əsas məqsədlərindən biri yalnız nəzəri biliklərə malik şagird deyil, həm də tənqidi düşünən, problem həll edən, yaradıcı və təşəbbüskar şəxsiyyət yetişdirməkdir. Ənənəvi təlim modelində müəllim əsas informasiya mənbəyi hesab olunurdusa ,müasir təlimdə şagird fəal iştirakçı kimi çıxış edir. Bu isə tədris prosesində yeni metod və texnologiyaların tətbiqini zəruri edir.

Şəxsiyyətyönümlü yanaşma şagirdin fərdi xüsusiyyətlərinin,maraq və qabiliyyətlərinin nəzərə alınmasına əsaslanır. Bu yanaşmada müəllim sadəcə bilik ötürən deyil, həm də istiqamətverici, motivasiyaedici və təşkilatçı rolunu yerinə yetirir. Şagirdlər sərbəst düşünməyə, araşdırma aparmağa və əldə etdikləri bilikləri praktik şəkildə tətbiq etməyə təşviq olunurlar. Belə təlim mühiti şagirdlərin özünəinamının artmasına, kommunikativ bacarıqlarının inkişafına və sosial fəallığının güclənməsinə səbəb olur.

Müasir təhsil sistemində geniş tətbiq olunan yanaşmalardan biri də STEAM tehsil modelidir. Bu yanaşmanın əsas məqsədi şagirdlərdə yaradıcı düşüncə, analitik təfəkkür, tədqiqatçılıq və praktik bacarıqları inkişaf etdirməkdir. STEAM əsaslı təlim zamanı şagirdlər layihələr hazırlayır, təcrübələr aparır, müxtəlif problemlərin həlli yollarını araşdırır və komanda şəklində işləməyi öyrənirlər.

STEAM yanaşmasının tətbiqi xüsusilə ibtidai və orta təhsil pilləsində mühüm nəticələr verir. Şagirdlər yalnız nəzəri məlumatlarla kifayətlənmir, həm də öyrəndiklərini gündəlik həyatda tətbiq etməyi bacarırlar.Məsələn,təbiət mövzularının tədrisi zamanı şagirdlər həm mətn üzərində işləyir, həm təcrübə aparır, həm də təqdimat hazırlayırlar. Bu isə onların həm akademik biliklərini, həm də praktiki bacarıqlarını inkişaf etdirir.

Təcrübə göstərir ki, Azərbaycan dili dərslərində STEAM yanaşmasının tətbiqi şagirdlərin oxu, yazı və nitq bacarığının inkişafına müsbət təsir göstərir. Şagirdlər mətnləri təhlil edir, mövzu ilə bağlı arasdırmalar aparır, təqdimatlar hazirlayır və yaradıcı layihələr həyata keçirirlər. Belə fəaliyyətlər onların funksional savadlılığının formalaşmasına kömək edir. Funksional savadlılıq isə müasir təhsilin əsas istiqamətlərindən biri hesab olunur.

Mətn STEAM –ə çevriləndə iki nəticə alınır:

1. Dil bacarığı-şagird mətni məqsədli oxuyur, çünki bilir ki, layihə hazırlayacaq. Qrammatik qayda termindən çıxıb iş alətinə çevrilir.

2. STEAM səriştəsi-mətndəki problem Elm,Texnologiya, Mühəndislik, İncəsənət, Riyaziyyat suallarına bölünür.

Dil işi- oxu, anlama, yazı mütləqdir. Steam isə dili mənalandıran kontekstir.

Niyə məhz Azərbaycan dili mətnini mərkəzə qoymalıyıq? Çünki ibtidai sinifdə bütün fənlərin açarı oxu və yazıdır. Şagird mətni anlamadan problemi həll edə, hadisələri izah edə bilməz.

PİSA beynəlxalq qiymətləndirmə proqramının nəticələri göstərir ki, müasir dövrdə şagirdlərin yalnız nəzəri biliklərə yiyələnməsi kifayət deyil. Onlar əldə etdikləri bilikləri real həyatda tətbiq etməyi bacarmalıdırlar. Bu baxımdan STEAM və şəxsiyyətyönümlü təhsil şagirdlərin XXI əsr bacarıqlarına yiyələnməsində mühüm rol oynayır. Tənqidi düşünmə, əməkdaşlıq, rəqəmsal savadlılıq və problem həll etmə bacarıqları insan üçün əsas keyfiyyətlər hesab olunur.

Təhsil islahatlarının uğurlu həyata keçirilməsi müəllimlərin peşəkar inkişafından da bilavasitə asılıdır. Müasir müəllim innovativ təlim metodlarını tətbiq etməyi, rəqəmsal vasitələrdən istifadə etməyi və şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almağı bacarmalıdır. Müəllimin yaradıcı fəaliyyəti və düzgün təşkil olunmuş dərs prosesi şagirdlərin motivasiyasını artırır və onların təlim nəticələrinə müsbət təsir göstərir.

Nəticə olaraq qeyd etmək olar ki, ümumi təhsilin məzmununun islahatlara uyğun yenilənməsi şagirdin gələcəyə hazırlığının əsas şərtidir. Bu proses davamlı olmalı, müəllimlərin peşəkar inkişafı ilə paralel aparılmalı və qiymətləndirmə sistemi ilə uzlaşdırılmalıdır.

STEAM və şəxsiyyətyönümlü təhsil şagirdi XXI əsr bacarıqlarına hazırlamaq üçün güclü vasitədir.

PANEL 14. ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

KAMAL CAMALOV
Naxçıvan Müəllimlər İnstitutunun professoru
Pedaqogika elmləri doktoru
Azərbaycan Respublikasinin Əməkdar müəllimi

XAQANİ ŞİRVANİ YARADICILIĞINDA VƏTƏN SEVGİSİ VƏ VƏTƏN HƏSRƏTİNİN TƏRƏNNÜMÜ

Xaqani Şirvani yaradıcılığında vətən sevgisi əsas ideyalardan biridir. O, vətəni yalnız torpaq deyil, milli kimliyin, mənəvi dəyərlərin, mədəniyyətin və tarixi irsin daşıyıcısı kimi təqdim etmişdir. Şair doğma Şirvanı yüksək məhəbbətlə tərənnüm etmiş, xalqının mərifətini, əxlaqını və birliyini ön plana çəkmişdir. Qürbətdə yaşadığı ayrılıq və həsrət hissləri onun vətənə bağlılığını daha da gücləndirmiş, əsərlərində vətəni insanın mənəvi dayağı və ilham mənbəyi kimi təsvir etmişdir.

Açar sözlər: *Xaqani Şirvani, ana, vətən sevgisi, Şamaxı-Təbriz, maarif və mədəniyyət*

Vətən sevgisi Xaqani Şirvaninin yaradıcılığında ən vacib mövzulardan biridir və ədalətin başlanğıcı hesab olunur. “Torpaq insanın yaşayış və əbədiyyət məskənidir”. Xaqaninin əsərlərində vətənpərvərlik təkcə torpağa sevgi kimi deyil, həm də dil, mədəniyyət, mənəviyyat və xalqların birliyi ilə bağlı daha geniş mənada təcəssüm olunur. Xaqani əsərlərində vətəni təkcə coğrafi məkan kimi deyil, həm də müqəddəs və əziz bir dəyər kimi təqdim edir. Xaqaninin qürurlu ruhu vətəniinsanın ruhunun və kimliyinin bir hissəsi kimi göstərir. Şair üçün vətən insanın mənəvi sığınacağı və dayağıdır. Xaqaninin fikrincə vətən təkcə torpaqdan ibarət deyil, həm də xalqı təmsil edir. Onun şeirlərində insanların rifahı, ədalət və birlik ideyaları ön plandadır. O, vətənin gücünü insanların mənəvi saflığında və birliyində görürdü. Şair əsərlərində vətənin tarixi irsinin, mədəniyyətinin və mənəvi dəyərlərinin qorumasını ən vacib əməllərdən biri hesab edir. Xaqani Şirvanin əsərlərində vətənə sevgi xalqın birliyi, mənəvi dəyərlərin qorunması və ədalətli cəmiyyət ideyası vasitəsilə təsvir olunur. Onun əsərlərində vətən sevgisi real, romantik və fəlsəfi mənalar daşıyır və milli kimlik anlayışı ilə sıx bağlıdır. Beləliklə, şair öz yurduna, vətəninə sevgisini formalaşdırarkən milli birlik ideyaları şairin düşüncəsinin əsasını təşkil edir.

Böyük bir qəlbə malik şair Xaqani Şirvaninin şeirləri köklərə bağlılıq qədər tarixi və mədəni irsi də nümayiş etdirir. O, adi vətəndaşlardan tutmuş şairlərə, mütəfəkkirlərə və alimlərə qədər xalqını öz dövrünün ən dəyərli xəzinəsi kimi qiymətləndirirdi.

Vətənin keçmişi və yaşadığı dövr şairin nəzərində mənəvi xəzinə kimi qəbul edilir və bu xəzinə gələcək nəsillərə ötürülməlidir. İrsin qorunması, həm də kimliyin qorunması deməkdir. Xaqani üçün vətən, insanın ruhunun və kimliyinin ayrılmaz bir hissəsidir və buna görə də vətənə olan sevgi insanın daxili aləmində dərin bir həsrət və bütövlük arzusu oyadır. Xaqaninin vətənə olan sevgisini özünə qayıtmaq həsrəti və istəyi kimi də təqdim edə bilərik. Şairin vətənə olan sevgisi həm də xalqın xidmətlərinə, ədalət prinsiplərinə sadiqliyinə və vətənin gələcəyini təmin etməkdəki əzmkarlığına da aid edilə bilər. Xaqani Şirvaninin vətəninə olan sevgisini ifadə edərkən, bunu həm də qeyri-şərtsiz qəbul və təbiətlə harmoniya kimi də təsvir etmək olar. Vətəni sevmək və ona xidmət etmək, təbiətin dövrlərinə uyğunlaşmaq kimidir. Vətən insanın daxilindəki mənəvi həyatın və enerjinin əksidir. Xaqanin fikrincə, insanın daxilindəki “vətən sevgisi”, onun xarici dünyada necə yaşayacağını, necə davranacağını və öz kimliyini necə qoruyacağını müəyyən edir.

Dövrünün fövqaladə şahidi olan Xaqani Şirvani doğma yurdunu tərifləyərək yazır:

Şirvan ki var, hər cəhətdən ülviyyətin anasıdır,
Onun hər cür səhər yeli dərdlərimin dəvasıdır,
Mən vətənə qurban olum, qurulmuşdur sədaqətdən,
Bağdadı da dolandıran onun bollu qidasıdır.
Vətənimin fəqirləri dözümlüdür hər zəhmətə,

Gözləri tox, ürəkləri sanki kərəm dəryasıdır.
Çörəkləri arpadan da olsa, yenə qanedirlər,
Düyü qədər pulu olsa, qürrələnməz, ədasıdır.
İndi Şirvan mənə həsrət qalmış ağır intizarda,
Çünki, ora ədəb yurdu, cəsur şirlər yuvasıdır.

Bu beytlərdə Şirvanın müqəddəsliyi və xalqın yüksək mənəvi dəyərləri haqqında çox dərin hisslər və düşüncülər var. Burada, şairin vətənə və Şirvana olan sevgisi canlı şəkildə təsvir edilmişdir. Beytlərdə Şirvanın xalqının tarixi, mədəni irsi və insanların gözəl xüsusiyyətlərini tərənnüm etməklə yanaşı, bu torpağa olan sevgi və sədaqət də əks olunub.

Fəlsəfi düşüncə sahibi Xaqani Şirvani Şamaxını "ülviyyətin anası" kimi təqdim etmişdir. Burada Şirvanın ucalığı, mənəvi və mədəni mükəmməlliyi vurğulanır. Şirvan şairin nəzərində, ruha və cəmiyyətə xidmət edən məkan kimi görünür. Şirvanın gözəl səhər mehinin dərdlərə çarə olması bu diyarın rahatladıcı və sakitləşdirici təsirini təmsil edir. Vətənə sevginin həm mənəvi, həm də praktik əhəmiyyəti var.

Hikmət sahibi Xaqani Şirvani vətənə sədaqətini və fədakarlığını vurğulayır. Şirvandakı bolluğu və əlverişli şəraiti təqdim edir. "Bağdadı da dolandıran onun bollu qidasıdır" ifadəsi, Şirvanın bütün bölgə üçün əhəmiyyətini və çiçəklənməsini simvollaşdırır. Bu, həm də vətənin iqtisadi gücünü, zəhmətkeşliyini və vətənin böyüklüyünü göstərir.

Şair qeyd edir ki, Şirvandakı fəqirlər dözümlüdürlər və hər bir çətinliyə müqavimət göstərirlər. Çörək arpadan hazırlansa da, pulu düyü qədər olsa da, insanlar qürurla və məmnunluqla yaşayırlar. Bunu nəzərə alaraq şair xalqın sadə həyat tərzini və mədəniyyətini tərifləyir. Onların rəğbəti və mənəvi zənginliyi ən vacib mədəni göstəricilərdir.

Şirvanın bilik baxımından yüksəkdə durması və ərəblərdən çox fərqli olması bu diyarda mədəniyyətin və təhsilin əhəmiyyətini vurğulayır. Şairin fikrincə, Şirvan xalqı yüksək əxlaqa, savada və insanlığa malikdir. Bu, Şirvanın mədəniyyətinin incəliyini və düşüncə dərinliyini əks etdirir.

Bu misralarda vətənə sevgi, xalqın yüksək əxlaqı, Şirvanın bolluğu və mədəniyyəti birlikdə təqdim edilir. Şairin vətənə olan sevgisi yalnız torpağa olan sevgi ilə məhdudlaşmır; bu, həm insanların mədəniyyətinə, kimliyinə və gələcəyinə dərin bir sevgi və münasibətdir. Vətənin və Şirvanın böyüklüyü bu torpaqda yaşayan insanların mənəvi zənginliyi və vətənə sonsuz sədaqəti ilə bağlıdır.

Mərifətdə Şirvan əhli yüksək durur ərəblərdən,
Xaqaniyə həyat verən doğma yurdun havasıdır.

Bu beytlərdə Şirvanın mədəni və intellektual üstünlüyünü vurğulayan çox təsirli bir ifadə var. Burada şair Şirvanın maarifçilik və təhsil dəyərlərinə yüksək münasibətini bədii şəkildə təqdim edir. "Mərifətdə Şirvan əhli yüksək durur ərəblərdən" cümləsində, o, Şirvanın mədəniyyətinin və zəkasının yüksək səviyyəsini vurğulamaq istəyir. Burada Şirvan xalqı maarifçilik (mədəniyyət, bilik, ağıllı düşüncə) sahəsində ərəblərdən (o dövrdə mədəniyyətdə mühüm yer tutan İslam mədəniyyəti) üstün hesab olunurdu. Şirvanın mədəniyyəti, təhsil, elm və ədəbiyyat sahələrində atdığı irəliləyişlər təsvir olunur. Bu ifadə, xüsusilə Şirvanın maddi sərvətini deyil, həm də zəngin mədəni irsini və intellektual səviyyəsini tərifləyir.

Bu fikirdə müqayisə göstərir ki, Şirvanın məşhur alimlərin, şairlərin və mütəfəkkirlərin yetişdirdiyi bir mədəniyyət mərkəzi olmuşdur. Ərəblər o dövrdə Şərq dünyasının mədəniyyət və elmi mərkəzi hesab edilsə də, Xaqani burada Şirvanın onlardan daha yüksək məqamda olduğunu vurğulayır.

"Xaqaniyə həyat verən doğma yurdun havasıdır" beytində Şirvanlıların, xüsusən də Xaqani Şirvani kimi böyük şairlərin ilham və həyat verdiyi açıqlanır. Xaqaninin yaradıcılığına ilham verən əsas amil onun doğma diyarının ab-havası və mədəni zənginliyidir. Şirvanın havası, qəribəlikləri və təbii mühiti şairin əsərlərində əsas rol oynayır.

Şairin torpağa və mədəni mühitə olan yüksək hörməti onun vətəninə və böyüdüyü mühitin yadıcılığına təsirinə qarşı həssaslığı göstərir. Xaqani deyirdi ki, mənim böyük sənətkar olmağımın səbəbi tərbiyəm, gözəl mühitim, mədəni irsim və doğma torpağımın mənə verdiyi ilham olub. "Xaqani vətənpərvərliyi ən gözəl bir keyfiyyət kimi mədh edirdi".

Fəxr edirəm Şirvanla, vətənimdir o diyar,
Günəş qərbin önündə haqlı edər iftixar.

Bu parçada şairin Şirvanı və vətəninə olan sevgisini necə yüksək və mənəvi cəhətdən dəyərli şəkildə ifadə etdiyini görürük. Şairin sevinci Şirvanın bütün gözəlliklərində, tarixi irsində, mədəniyyətində və insanlarında aydın şəkildə ifadə olunur.

Şair vətəninə olan sevgisi, kimliyini formalaşdıran bu torpağa olan sevgisi və mədəniyyətinin gözəlliyinə olan qüruru onun yaradıcılığının əsas mövzularıdır. Şirvanın bütün gözəllikləri, tarixi irsi, mədəniyyəti və insanları ilə şairin fərəhi aydın şəkildə ifadə olunur. Şairin vətənə olan sevgisi, şəxsiyyətini formalaşdıran bu torpağa olan məhəbbəti və onun mədəniyyəti ilə qürur duyma hissi, onun yaradıcılığında mərkəzi mövzudur.

Şair Şirvanı təkcə coğrafi məkan kimi deyil, həm də kimlik, mənəvi dəyər və yüksək ruh kimi təqdim edir. Bu, vətənpərvərliyin və öz millətinə olan sevginin ən yüksək təzahürüdür. “Günəş qərbin önündə haqlı edər iftixar” – buradakı “günəşin qərbin önündə olması” metaforası, Şirvanın və ya ümumimiyyətlə, vətənin əhəmiyyətini vurğulamaq üçün istifadə olunur. Şair günəşi hər şeydən üstün tutur və günəşin qərbdə olduğunu göstərməklə Şirvanın əzəmətinə və böyüklüyünə işarə edir. Günəş şərqdən qərbə geniş bir ərazini işıqlandırdığı kimi, Şirvanın yüksək mədəniyyəti və torpağının əhəmiyyəti də dünyanın qalan hissəsinə işıq saçır.

Qürur burada ədalətli və əxlaqi bir kamillik, əsl qürur kimi təqdim edilir. Şair bu qüruru Şirvanı onun təbii və mədəni irsini vəsf edtməklə dünyaya təqdim edir. Günəşin qüruru – burada Şirvanın parlaq gələcəyi onun dünya xalqları tərəfindən tanınan və hörmət edilən bir mədəniyyət kimi ortaya çıxması ilə bağlıdır.

Vətən insanın varlığını formalaşdıran bir anadır; vətən köklərimizin bağlı olduğu bir vətəndir. Anamız bizə həyat verdiyi kimi, vətən də bizə kimlik, dəyərlər və mənəvi güc verir. Bu düşüncə tərzində vətəni ana kimi görmək, onun bizə verdiyi həyat qüvvəsi ilə əlaqələndirilir. Vətən övladlarını qanadı altında daşıyan bir ana kimi, bizi qoruyan, bizə dəstək olan və yolumuza işıq saçan qüvvədir. “Vətən bir anadır, çünki ora sığındıqca bizə ümid, sevgi və mənəvi həyat verir”.

Bu fikir vətənin bir ana kimi təqdimatını daha poetik və sevgi dolu bir şəkildə izah edir. Bir ana kimi, vətən də insanın kimliyini və varlığını qoruyur, sevir, bəsləyir, qayğısına qalır.Bir ana kimi, vətən o biri dünyada (əbədi uyuyacaq dünyada) sığınacaq, möhkəm bir təməl kimi göstərilir.

Ana təkcə həyat verən deyil, həm də qayğımıza qalan, bizi bəsləyən, kimliyimizi formalaşdıran biridir.

Əgər olmasaydı ana zəhməti,
Qazana bilməzdim mən bu şöhrəti.
Mənalar kişisi o qoca anam,
İkinci Rabiə kimiydi tamam.
Rabiə söyləmək səhv olar ona,
O, bir Rabiəydi göy qızlarına.
O, hikmət evinde bir baş hərəmdi,
İsmət aləmində çox möhtərəmdi...
Zəfər çalmaq üçün, bunu da deyim,
Mənə sübh telindən tikmişdi geyim.
O razı qalarsa, xoş olar halım,
Onun duasıyla gülər iqbalım.
Onun hər sözündən alıram qüvvət,
Qaladır verdiyi hər bir nəsihət.
Kəsilsə düşmənlə qarşıda yolum,
O qoca qarıdan güc alar qolum.
Onun duaları olmasaydı, ah,
Ömrüm puç olardı, yəqin bir sabah.
Onunla fəxr edir bu doğma vətən,
Üveys kimi bəndəm o arvada mən.

Burada onunçun mən düşüb qaldım,
Özümü min dərdə, bəlaya saldım.
Onun haqqı çoxdur boynumda, bişəkk,
Sevimli əmimin haqqı olan tək.

Qəlbin təfsirçisi Xaqani Şirvani ana və vətən mövzusunu güclü şəkildə əlaqələndirir və ana sevgisinin insanın həyatında mərkəzi rol oynadığını qeyd edir. Bu misralarda şairin vətənə və həyatındakı ananın yerini olan bağlılığını həm mənəvi, həm də fiziki cəhətdən istifadə etdiyi çox dərin bir hiss var. Ana ilə vətən arasındakı münasibət şeirdə çox oxşar və mənalı şəkildə təsvir olunur. Burada ana insanın şəxsiyyət kimi formalaşmasında və ruhunun tərbiyəsində böyük rol oynayır. O, təkcə həyat verən deyil, həm də insanın kimliyini müəyyən edən varlıqdır. Ana insanın ilk müəllimidir; xəstəlik və ya çətinlik çəkəndə ona sevgisi və sədaqəti onu ayağa qalxmağa və güc toplamağa vadar etdi.

Eyni şəkildə, vətən insana kimlik, dəyərlər, özünəinam və etibar bəxş edir. Vətən insan ruhu üçün güc mənbəyidir və eyni zamanda ona həyat vermək, onu yüksəltmək və maarifləndirmək deməkdir. Beləliklə, vətən öz övladlarına, vətəni sevməyə və ona xidmət etməyə əzm edənlərə həyat və uğur bəxş edir.

Söz sənətkarı Xaqani ananın işini insanın uğurunun ilk səbəbi kimi təqdim edir. Bu, həm də vətənin yüksəlişi, uğuru və gələcəyi ilə bağlıdır. Burada şair öz həyat təcrübələrindən istifadə edərək anasının işinin onun şöhrətinə necə təsir etdiyini vurğulayır. Aydındır ki, vətənə xidmət edən hər bir insan həm mənəvi, həm də fiziki əməyi, millətin gələcəyinə verdiyi töhfələr nəticəsində şöhrət qazanıb – fikrini irəli sürür.

Şairin Rabiə ilə müqayisə etdiyi ana, həm də müdrik və mənəvi bir bələdçi kimi göstərir (VIII əsrin ortalarında yaşamış Rabiə al-Ədaviya müsəlman dünyasında şəfqət və səmimiyyət anlayışlarının təbliğatçısı kimi məşhur idi. O, bütün həyatını Tanrı sevgisinə həsr etmiş və insanları həmişə sevgi və əxlaqla yaşamağa çağırmışdır). Şairin anasını "göy qızları" ilə müqayisə etməsi onun yüksək dəyərlərini və ilahi təbiətini göstərir. Xaqani anasının həyatındakı əhəmiyyətini, dualarının və analıq məsləhətlərinin gücünü dərindən təsvir edir. Burada ana yalnız mənəvi dəstək, mənəvi rəhbərlik və özünəinam mənbəyi kimi təqdim olunur.

Şairin dediyi kimi, anasının duaları və nəsihətləri onun həyatındakı uğur və mübarizələr üçün əsas güc mənbəyi olub. Bu şairin həyatındakı ilk və əsas dəstəyi anasının ona verdiyi doğru tərbiyədə görməsi ilə əlaqədardır. "Sübh telindən tikilmiş geyim" ifadəsi ananın zəhmətini və fədakarlığını ifadə edir. Sübh – yeni bir başlanğıcların, sabahın və ilkin gücün simvoludur. Burada şairin anası ona mənəvi cəhətdənilham verir və dəstək olur, eyni zamanda onun uğuru üçün zəmin yaradır. Ona həyat verən ana və ona göstərdiyi qayğı bu qələbənin əsasını təşkil edir. Anasının razılığınıvə duasını ən yüksək arzusu hesab edən şair deyir: "O razı qalarsa, xoş olar halım, / Onun duasıyla gülər iqbalım". Buradakı "Razı qalmaq" ifadəsi ana ilə mənəvi və sevgi dolu bağın ən vacib təsirini göstərir. Şair inanır ki, anasının duaları onun həyatına uğur gətirəcək. İqbal (uğur, müvəffəqiyyət) anasının duaları bağlıdır. Şair üçün, əgər anası ondan razıdırsa həyatında yaxşı nəticələr və uğurlu bir gələcək olacaq.

"Onun hər sözündən alıram qüvvət,
Qaladır verdiyi hər bir nəsihət".

Bu sətirdə anasının sözləri və nəsihətləri şairin həyatındakı bir güc mənbəyi kimi göstərilir. Ana nəsihətləri şairin mənəvi inkişafında və həyat yolunda ona rəhbərlik edir. Anasının məsləhətləri şairə həm mənəvi inkişafında, həm də həyat yolunda yol göstərir. Qüvvət və qaladır ifadələri ananın ona verdiyi gücü və müdafiəni simvollaşdırır. Bu nəsihətlər şairin həyatındakı bütün çətinliklərə qarşı təhlükəsizlik və güc hissini təmsil edir.

"Kəsilsə düşmənlə qarşıda yolum,
O qoca qarıdan güc alar qolum".

Bu ayələr ananın təsirinin daha dərin olduğunu göstərir. Şair düşmənlərlə qarşılaşanda belə, anasının duaları və gücləndirici təsiri ona qalib gəlmək və mübarizə aparmaq üçün lazım olan dəstəyi verir. Burada "Qoca qarı" ananı simvolizə edir və onun yaşını və təcrübəsini göstərir. Şair anasının gücünü və dəstəyini həyat yolunda bir silah və qoruyucu mələk kimi qəbul edir.

Sözün ilahisi Xaqani Şirvanidən hər bir nəsihətinin gücünü götürmək, anaya olan sevginin və ona öyrətdiyi həyati dərslərin insanın ruhunu necə bərpa etdiyini və onu həyata necə hazırladığını göstərir. Müdriklik evinin başçısı olan ana, həm də insanın həyatını istiqamətləndirən və doğru yolu göstərən bir bələdçidir.

“Onun duaları olmasaydı, ah,
Ömrüm puç olardı, yəqin bir sabah”.

Bu ayələrdə ananın mənəvi dualarına və dəstəyinə olan ehtiyacı onun mənəvi cəhətdən güclü olması ilə əlaqələndirilir. Dua insanın həyatında çox vacib bir yer tutur, çünki şəxsi və mənəvi sərvətlər bu dualarda cəmləşir. Şair çətinliklərin öhdəsindən gəlmək və anasının dualarının gücü ilə daha güclü olmaq qabiliyyətini ifadə edir. Bu, həmçinin vətənpərvərlik və millətə xidmət arasında körpü yaradır. Vətənə xidmət edənlər də vətənin duasından güc alırlar. Bu ananın həmişə insanlar üçün mənəvi köməkçi olduğunun əlamətidir. Duanın gücü gələcəyə və tərəqqiyə ümid etmək üçün də vacibdir.

Son sətirlərdə şair vətənə və ana sevgisinə olan sonsuz həsrətini ifadə edir. “Üveys kimi bəndəm o arvada mən” misrası, Üveys əl-Qarninin (Üveys Məhəmməd Peyğəmbərin (s.a.s) dövründə yaşamış bir insan idi. Onun həyatı və mənəvi təcrübələri müasir sufilər və müsəlman dünyası üçün böyük ilham mənbəyi olmuşdur. Müasiri olduğu hər kəs onun duasına ehtiyac duyub, çünki o, çox yaxşı bir insan və Allahın rızasına layiq bəndə olub. Hz. Məhəmmədlə(s.a.s) görüşmək şansına malik olub. Ancaq anasının xəstəliyi üzündən, Hz. Məhəmmədlə (s.a.s) görüşə getməyib. Anasının qulluğunda durmağı Hz. Məhəmmədlə (s.a.s) görüşdən üstün bilib. Ona görə də Üveys ana sevgisinin və anaya olan xidmətin təcəssümüdür. O, vətənin və ananın haqqı üçün hər zaman özünü qurban verməyə hazır olmuşdur) işarə edir. Vətən və ana haqqını bilmək hər bir gənc vətənpərvərin əsas arzularından biri olmalıdır.

Şairin “Onun haqqı çoxdur boynumda” cümləsi övladın anaya olan borcunu və vətəninə olan məsuliyyətini göstərir. “Sevimli əmimin haqqı olan tək” – bu ifadə ilə şair bir daha əmisi Osman Ömər Kafiəddinin zəhmətini xatırlayır və ailəsinə və bu haqqın nə qədər ağır olduğuna minnətdarlığını bildirir.

İstedadı ilə Şirvanşah Mənuçehrin diqqətini cəlb edən Xaqani Şirvani, Əbül Üla Gəncəvinin dəvəti ilə Şirvanşahlar sarayına gətirildi. İlk baxışdan bu dəvət onun həyatında yeni bir fəsil açacaqdı, amma tezliklə sarayın parlaq divarları daxilindəki ikiüzlüluk və riyakarlıq atmosferi onun gözündə çöküşə çevrildi. Xalqın əzabları və sarayın səs-küyü arasında sanki itib-batmış şair saray mühitinin daxili simasını tez bir zamanda dərk edir.

Sarayda gördüyü təkəbbür və laqeydlik Xaqanini daxildən boğan bir işgəncəyə çevrildi. Bütün bu ziddiyyətlərin ortasında saraydan çıxmaq istəyən lakin “girmək var, çıxmaq yoxdur” prinsipindən xəbərsiz olan gənc şair, bir müddət sarayda yaşadığı çətinliklərlə sınağa çəkilir. Şirvanşah Mənuçehrin oğlu şah Axsitan öz iradəsini göstərdi və şairi Şabran qalasında həbs etdi. İşgəncələr şairin ruhuna zərər verdi, eyni zamanda onun üçün yeni bir dönüş nöqtəsi oldu. “Günahsız şair həbs olunmasının səbəbini elmində, ağlında, istedadında görmüş, dühası ilə yenə də düşmənlərinə meydan oxumuşdur”.

Azadlıq və özünü ifadə etmək arzusuyla saray mühitindən qurtulmağa çalışan Xaqani sonunda (1173-cü ildə), həm də “ailəsi ilə birlikdə Cənubi Azərbaycana – Təbrizə köçür və ömrünün sonunadək orada yaşayır. Burada azadlığını tapan Xaqani istədiyi dünyagörüşünü və poetik missiyasını daha geniş şəkildə gerçəkləşdirə bildi və ömrünün qalan hissəsini yalnız o qədər də asan olmayan bir mübarizədən sonra bu yolda keçirdi.

Şamaxı! Ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum.
İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,
Ümidim, pənahım Təbrizdir, Təbriz,
O şəhər də mənə doğmadır, əziz.

Siz mənə həyatı etdiniz əta,
Sən mənə anasan, Təbrizdir ata.
Anasından küsən körpə bir uşaq
Ata ağuşunda yer tapar ancaq!

Bu sətirlərdə şairin Şamaxı ilə bağlı emosional xətirəsi ilə Təbrizə olan yeni ümidi arasında psixoloji gərginlik hiss olunur. Şamaxı onun anası və ilk vətən olsa da, Təbriz yeni yurd və qoruyucu ata rolunu oynayır. Şairin bu iki şəhər arasında daxili mübarizəsi onun vətəninə olan sevgisini və yeni bir başlanğıc ehtiyacını əks etdirir.

Şair Şamaxıya olan dərin həsrətini ifadə etmişdir. "Qoynunda xaniman qurdum" ifadəsi Şamaxının ona verdiyi sədaqət və əlverişli bir mühitdə yaşaması mənasında güclü mənaya daşıyır. Şair bu şəhəri öz vətəni kimi görür və burada öz mövcudluğunu formalaşdırır. Buradakı "xaniman qurmaq" ifadəsi şairin Şamaxıda kök saldığını, burada ailə qurduğunu, özünü burada təməli ilə gördüyünü vurğulayır.

Şair Şamaxını tərk etmək məcburiyyətində qalmağı ziddiyyətlərini göstərir, lakin onun Şamaxını "ana"ya bənzətməklə ona olan güclü sevgisi də göz qabağındadır. Şairin Şamaxı ilə münasibəti ana və körpə uşaq münasibətinə bənzəyir. "Acığın tutmuşdur" ifadəsi vətənindən ayrı düşmək qorxusunu və narahatçılığını açıq şəkildə ifadə edir. Şair burada Təbrizə də sevgi bəsləyir, amma eyni zamanda buranı "doğma" adlandıra bilməyəcəyi bir yerdir. "Təbriz" şairə yeni bir sığınacaq və yeni bir başlanğıc təklif edir, lakin bu yeni vətən hələ də onun üçün tamamilə doğma deyil. "Təbrizdir, Təbriz" ifadəsi bu şəhərə qarşı qarışıq hisslər və tərəddüdləri ifadə edir – bu şəhər yeni bir ata kimi əvvəlki bioloji anasının yerini tuta bilməz.

Şair "ana" rolunu Şamaxıya , "ata" rolunu isə Təbrizə həvalə edir. Şamaxı şairin ilk torpağı, ilk vətəni olduğu üçün ana adlanır. Təbriz ata kimidir, çünki şairin yeni evi, yeni başlanğıcıdır. Bu bənzətmə ilə şair paralel olaraq doğma yurdunu tərk etməyin psixoloji yarasını və yeni bir məkanla qarşılaşmaqdan qaynaqlanan təhlükəsizlik hissini göstərir.

"Anasından küsən körpə bir uşaq
Ata ağuşunda yer tapar ancaq!"

Bu son sətirlərdə şair Şamaxını tərk etməyin kədərini və Təbrizə köç etməyin yaratdığı əlverişli şəraiti təsvir edir. "Anasından küsən körpə" obrazı şairin Şamaxını tərk etməsinin nə qədər çətin və ağır olduğunu təsvir edir. Lakin "Ata ağuşunda yer tapar ancaq!" ifadəsi! Bu ifadə, ümidinvə nəticədə yeni bir yerə, Təbrizə aparılmağın sığınacağın göstərir. Körpənin atasının qucağında tapdığı sığınacaq, onun yeni həyatda özünü kəşf etməsini təmsil edir.

Məni Vətəndə ikən o, çağırdı ibn-cəla,
Salıbdır indi məni qürbətə həmin adla.
Vətən batırdı mənim bağrıma zəhərli tikan,
Fəqir idim, canıma qəsd hazırladı dövran...
Yad ölkələr ətimi çeynədi, tüpürdü mənim,
Cığır tutub gedirəm, qarşıda əziz Vətənim...
"Vətən! Vətən!" deyərək ağladım, canım yandı,
Sümüklərim gözümün yaşı ilə odlandı.

Bu şeir Xaqani Şirvaninin yaradıcılığında vətən sevgisi, sürgün və vətəndən ayrılıq mövzusunun bariz nümunəsidir. Şairin daxili aləmində gedən mübarizələri və yad ölkədə yaşadığı çətinlikləri poetik dildə göstərən bu misralar, eyni zamanda,vətənə dərin bağlılığı və ümumi təzyiqlərə qarşı dözümlüyünü əks etdirir. Vətən şairinin daxili ziddiyyətləri və vətəni tərk etmək ehtiyacı aydın şəkildə göstərilir. Bizcə "İbn-cəla" ifadəsi bir növ təhqir və ya "xəyanət" deməkdir. Yəni, şair vətənindən və onun təməl dəyərlərindən uzaqlaşır. Şairin daxili ziddiyyəti və ali mənası da burada gizlənir: kimsə onu çağırsa da, o, vətənini (Şamaxı, Təbriz və ya başqa bir şəhər) tərk etməyə məcbur olur. Bu, şairin daxili qarışıqlığını, sürgün olmasının olmasının gətirdiyi tənhalığı göstərir.

"Vətən batırdı mənim bağrıma zəhərli tikan,
Fəqir idim, canıma qəsd hazırladı dövran...".

Şair burada vətənə olan sevgisində ağrı və kədəri ifadə edir. "Zəhərli tikan" rəmzi şairin vətənindəki mübarizəsini və mənəvi ağrısını təsvir edir. "Zəhərli tikan" – ifadəsi həyatın ağlasığmaz

zərbələrini və ya amansız təzyiqlərini ifadə edir. Şair “Fəqir idim” deməklə özünün yoxsulluq vəziyyətinə, sosial, mənəvi və iqtisadi çətinliklərinə işarə edir. Şairin əvvəlki həyatını təhlil edərək, onun belə yoxsulluq vəziyyətinə düşməsinin mənəvi təsirini izah edir. Buradakı “Dövranın qəsdi” həyatın sərtliyini və ədalətsiz təzyiqləri əks etdirir.

“Yad ölkələr ətimi çeynədi, tüpürdü mənim,
Cığır tutub gedirəm, qarşıda əziz Vətənim...”.

Şair qürbətdə yaşadığı çətinlikləri çox ağrılı bir şəkildə ifadə etmişdir. “Yad ölkələr” şairin yad ölkədə yaşadığı çətinlikləri ifadə edir. “Ətimi çeynədi, tüpürdü” ifadəsi, şairin yaşadığı çətinliyi daha aydın şəkildə göstərir. Burada şair qürbətdə olan mənəvi əzabı təsvir edir. “Cığır tutub gedirəm” ifadəsi göstərir ki, şair nəhayət öz yolunu tapıb və vətəninə qayıtma arzusu ilə addımlayır. Lakin o, “qarşıda əziz Vətənim” dedikdə, şairin qəlbində vətənin hələ də ən əziz yer olduğunu və ona olan bağlılığını ortaya qoyur. Şairin “Vətən! Vətən!” deyərək fəryad etməsi, “Vətən” çağırışı onun vətənə olan sevgisinin dərinliyini və bu sevginin yaratdığı ağrını göstərir. “Canım yandı” ifadəsi şairin vətəndən uzaqda olmasının ona verdiyi psixoloji zədəni və ya travmanı göstərir. Bu, həm də ailəsindən və vətəndən uzaqda olmağın yaratdığı kədəri deməkdir. “Sümüklərim gözümün yaşı ilə odlandı” ifadəsi şairin kədərinin bütün varlığına təsir etdiyini və mənəvi yanğı hissini ifadə etdiyini göstərir. Göz yaşları və odla əlaqəli obrazlar şairin daxili əzabının və səbrinin burada necə bir araya gəldiyini göstərir.

Mən Xorasan həvəsilə vətəni tərk etdim,
İstərəm dönməyə Şirvanə, məni qoymurlar.
Həm vətən ayrısıyam, həm də Xorasandan uzaq,
Alaraq dövrəmi, bir yanə məni qoymurlar.

Bu misralar şairin vətəninə olan dərin sevgisini və yad bir diyarda çəkdiyi daxili mübarizələri çox güclü şəkildə ifadə edir. Şairin Şirvanla Xorasan arasında yaşadığı mənəvi boşluq və vətənindən uzaqlaşma hissi onun daxili qarışıqlığını və mənəvi çöküşünü göstərir. Misralar şairin oxucuya verdiyi daxili gərginliyi aydın şəkildə əks etdirir. O, vətənindən ayrılaraq Xorasana getmiş, orada da öz köklərini itirməmiş, əksinə Şirvana qayıtmaq arzusu ilə yeni torpağında özünü tənha və qərib hiss etdi. Şirvan və Xorasan onun daxili mübarizəsini, eləcə də hər iki yerə olan heyranlığını ortaya qoyur. Şairin “qoymurlar” ifadəsi, onun qayıtmaq istəyinə mane olan mühitin, vəziyyətin və ya dünyanın təzyiqini göstərir. Bu, həm də insanın həyatda qarşılaşdığı maneələri və məhdudiyyətləri qəbul etmək cəhdinin təzahürüdür.

Şairin vətənindən getməsi həm coğrafi, həm də mənəvi cəhətdən böyük bir sınaq oldu. Daxili aləmində olarkən bir tərəfdən Xorasanda yeni həyatla uyğunlaşmağa çalışır, digər tərəfdən isə Şirvana dönmək istəyir, lakin bu məqsədə çatmadıqda çətinliklərlə üzləşir. Bu, onun vətənə olan daha dərin sevgisinin və doğulduğu torpağa bağlılığının nümunəsidir.

Vətən həsrətilə töküb göz yaşı,
“Ah, vətən!” deyərəm mən hər söz başı.

Bu beyt şairin vətənə olan sevgisini və həsrətini ən dərin şəkildə ifadə edir. “Vətən canımdır, gözlərimin işığıdır, xörəyimin duzudur, dilimin sözüdür, dizimin taqəti, qollarımınqüvvətidir. Vətən Tanrının cənnətidir” – deyən Xaqaninin bütün varlığının ən vacib mövzusudur və onun əzabını ağrılı ayrılığını vətənə olan sevgisi hər bir aləmdə daha da güclənir. Şairin göz yaşları onun çəkdiyi acıları və ağrılı ayrılığını ifadə edir. Bu, həm də vətənin milli kimliyin və şəxsiyyətin yaradılmasındakı rolunu, eləcə də insanın doğma torpağı ilə münasibətini vurğulayan poetik təsvirdir.

Məna daşıyıcısı Xaqani Şirvani burada vətəni müqəddəs və dərin bir sevgi ilə sevən bir varlıq kimi təqdim olunur. Vətənə həsrəti və kədəri, onda ruhun və mənəviyyatın nə qədər güclü və təsirli olduğunun göstəricisidir. Şairin “Vətən!” deməsi hər sözünün əvvəlində həyatının hər anında vətənə olan sevgi və həsrəti hiss etdiyini və onu heç vaxt unuda bilməyəcəyini göstərir. Bu misralar vətənə olan sevgini və mənəvi bağlılığı ən təsirli poetik bir ifadə ilə çatdırır. Göründüyü kimi, “Xaqani öz doğma vətəni Şirvanı qəlbən sevdiyini təkrar-təkrar demiş və vətəninin gözəl təbiətini, bol məhsulunu tərənnüm etmişdir”.

"Həkim Xaqani" Şirvaninin vətən, yurd haqda olan görüşlərini sonda belə nəticələndirə bilərik:

1. Düşüncə aydını Xaqani Şirvani vətən sevgisini və yurd həsrətini yalnız bir coğrafi məkan ilə əlaqəli deyil, həm də insanın kimliyi, mədəniyyəti, tarixi irsi və mənəvi gücü ilə əlaqələndirmişdir;
2. Vətən şairin mədəniyyətini, tarixini, sadiq ənənələrini və həyat fəlsəfəsini özündə daşıyan canlı bir varlıq olmuşdur;
3. Gözəllik, incəlik və estetik zövq sahibi olan Xaqani Şirvani vətəninə yalnız doğma diyar kimi deyil, həm də kimliyi formalaşdıran, dəyərlər yaradan və güc verən bir varlıq kimi baxmışdır;
4. Vətənini sığınacaq və dayaq nöqtəsi kimi görən şair, nə qədər uzaqda olsa da, öz daxilindəki boşluğu vətəninin gücü ilə doldurmuş və kimliyini sona qədər qorumağa çalışmışdır;
5. Şairin fikrincə, Vətən yalnız geosiyasi ərazi deyil, həm də bəşəriyyətin ən yüksək dəyərlərinin qorunub saxlanıldığı və yaşandığı bir məkandır;
6. Mənəvi gözün sahibi Xaqani Şirvani yaradıcılığı boyunca sevimli vətənini və xalqını təmsil edərək, onların hüquqlarını, öz dəyərlərini və mədəniyyətini simvolizə etmişdir;
7. Gizli mənalar şairi Xaqani Şirvani vətəninə olan bağlılığını sadəcə torpaqla olan sevgisi ilə məhdudlaşdırmamış, həm də onu insanlıq, ədalət və azadlıq kimi ümumbəşəri dəyərlərlə əlaqələndirmişdir.

ZEYNƏB QULİYEVA
Naxçıvan Müəllimlər İnstitutu
Tarix elmləri doktoru, dosent
zeynebguliyeva@outlook.com

GƏNCLƏRDƏ TARİXİ YADDAŞIN FORMALAŞDIRILMASINA TƏSİR EDƏN SOSİAL-MƏDƏNİ AMİLLƏR

Tarix təliminin aktual sahələrindən biri gənclərdə vətənpərvərlik və milli düşüncənin formalaşdırılması ilə bağlıdır. Bu istiqamətdə həyata keçirilən təlim və tədris prosesi tarixi yaddaşın möhkəmləndirilməsi və milli düşüncənin inkişafına xidmət edir. Müasir texnologiyanın verdiyi imkanlar bu sahədə sosial-mədəni amillərin təsir gücünü artırmaqdadır. Tarixi memarlıq abidələrinə virtual səyahətlər etmək, arxeoloji tapıntılarla əyani surətdə tanışlıq, maddi mədəniyyət nümunələrinə toxunuşlar artıq kifayət qədər əlçatandır. Lakin onlara yanaşma tərzi, gənclərin milli kimlik hissinin formalaşmasında tarixi dəyərlərin rolu təkcə təlim və təhsil prosesində deyil, ailə, sosial media vasitələri və ictimai mühitin də təlim prosesi ilə vəhdət halında bu işə cəlb olunmasını tələb edir.

***Açar sözlər**: tarix təlimi, milli yaddaş, mənəvi irs, sosial-ictimai mühit, arxeoloji abidələr*

Giriş. Tarix təlimi milli yaddaşın gücləndirilməsində həlledici rol oynayır. Sürətli qloballaşma dövründə milli dəyərlərin qorunmasına daha çox ehtiyac duyulur. Bu prosesdə gənclərdə milli-mənəvi dəyərlərə bağlılığın artırılması, eləcə də tarixi abidələrimizə onların marağının stimullaşdırılması mühüm təsiredici amil kimi çıxış edir. Lakin müasir dünyanın texnoloji imkanları bəzən bu amillərin qarşısında cəlbedici maneələr də yarada bilir. Müxtəlif sosial şəbəkələrdə olan əyləncə yönümlü faktorlar bəzən gəncləri real inkişaf yolundan daha çox çəkir. Bunun qarşısının alınması zərurəti tarixi yaddaş və milli şüurun möhkəmləndirilməsi yolunda həyata keçirilən tədbirlərin də innovativ üsullarla təbliğni şərtləndirir. Bu sahədə 3 istiqamət xüsusi olaraq mühüm əhəmiyyət kəsb edir: tarix dərslərində innovativ üsulların gücləndirilməsi; abidələrə əyani yaxud virtual səyahətlərin intensivləşdirilməsi; tarixi-mədəni dəyərlərin təbliğinə sosial-ictimai mühitin aktiv şəkildə cəlb edilməsi.

Tarix dərslərində innovativ üsulların gücləndirilməsinin əhəmiyyəti

Gənclərdə milli şüurun gücləndirilməsində ilk növbədə onların tarixi hadisələrə, deyilmiş fikirlərə, yazılmış əsərlərə yaradıcı yanaşmasını tələb edir. Yəni onlar əvvəl hadisələri dərindən anlayıb, özləri üçün aydınlaşdırdıqdan sonra bu dəyərləri qoruya və gələcək nəsillərə çatdıra bilərlər. Bu isə onlarda sərbəst şəkildə özünüifadə bacarığının formalaşdırılmasını tələb edir. İnnovativ dərs modelləri məhz bu zaman köməyə gəlir. İnteraktiv dərlərin gedişində qruplar halında mövzuları araşdıran, təhlil edən tələbələr fikir mübadiləsi və təqdimatlarla tarixi hadisələrlə bağlı öz düşüncə tərzini ortaya çıxara bilirlər. Auditoriyadan başlanan nəzəri bilgilər, təhlil düşüncəsi, tarixi yaddaşa bağlılıq kimi vacib dəyərlər daha sonra praktik olaraq abidələrimizi, onlardan aşkarlanan maddi-mədəniyyət nümunələrini əyani şəkildə görməklə daha da təkmilləşdirirlər.

Abidələrə əyani yaxud virtual səyahətlərin intensivləşdirilməsi

Tarix dərslərində müxtəlif abidələrə əyani yaxud virtual səyahətin təşkil olunması, eləcə də müxtəlif profilli muzeylərin xüsusilə tarix-diyarşünaslıq muzeylərinin ziyarət edilməsi mühüm təsir gücünə malikdir. Gənclər kitablardan oxuduqları tarixi faktları- maddi mədəniyyət nümunələrini əyani şəkildə görməklə mədəni irsə birbaşa toxunuş etmək imkanı qazanırlar ki, bu da tarixi yaddaşın möhkəmləndirilməsində mühüm rol oynayır. Onlar Möminə xatun türbəsinin incə çalarlarını, I Kültəpənin 9 minillik qədim tarixini gözləri ilə görməklə keçmiş dəyərlərin qorunmasının vacibliyini dərk edirlər.

Tarixi-mədəni dəyərlərin təbliğinə sosial-ictimai mühitin aktiv şəkildə cəlb edilməsi

Tarixi yaddaşın və vətənpərvərlik şüurunun möhkəmləndirilməsinin üçüncü mərhələsi öz təsirini sosial-ictimai mühitdə daha aydın göstərir. Bu mərhələdə gənclər artlq bu vaxtadək əldə

etdikləri dəyərləri geniş təbliğ etmək imkanı qazanırlar. Bu bir tərəfdən də onları məlumat kirliliyindən qorumağın ən optimal yollarından biri kimi əhəmiyyət daşıyır. Onlar tarixi mənəvi dəyərləri qorumağın və tanıtmağın innovativ vasitələrindən aktiv şəkildə istifadə edərək tarixə töhfə vermək fürsəti qazanırlar.

Nəticə. Araşdırmalar göstərir ki, gənclərdə milli yaddaş və tarixi kimliyin qorunmasında 3 mərhələ bir-birinə bağlı şəkildə vacib əhəmiyyət daıyır. İnnovativ üsulları mənimsəyən müasir texnologiyanı yaxşı bilən, vətəninin tarixini, mədəni dəyərlərini əyani şəkildə tanıyan və özünüifadə qabiliyyətinə malik olan gənclər Azərbaycan dəyərlərini qlobal məkanda da tanıtmaqda, gələcək nəsillərə çatdırmaqda mənəvi körpü rolunu oynayıırlar.

RƏHİMƏXANIM MƏMMƏDZADƏ
Azərbaycan Dillər Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
Rahimaxanum.mamedzade@mail.ru
https://orcid.org/0009-0008-2256-3185

TƏRBİYƏ TEXNOLOGİYALARI MƏNƏVİ TƏRBİYƏNİN SƏMƏRƏLİLİYİNİ ŞƏRTLƏNDİRƏN AMİL KİMİ

Ümumtəhsil məktəblərində, kolleclərdə və ali təhsil müəssisələrində şagirdlərin və tələbələrin mənəvi keyfiyyətlərinin daha da inkişaf etdirilməsi üçün bir sıra tərbiyə texnologiyalarından istifadə olunur.

Pedaqojiyönlü təhsil müəssisələrində Pedaqogikadan “Mənəvi tərbiyə” mövzusu keçilərkən mühazirədə aşağıdakı məsələlər diqqət mərkəzində dayanır: “Mənəviyyat” ərəb sözüdür. O, “məna” sözündən qaynaqlanıb. Şəxsiyyətin mənası, qiyməti, dəyəri anlamındadır. Mənəviyyat dedikdə, bu və ya digər şəxsin ürəyinin, qəlbinin, paklığı, düzlüyü, təmizliyi, gücü başa düşülməlidir.

***Açar sözlər**: texnologiya, tərbiyə texnologiyası, tərbiyə, mənəvi tərbiyə, səmərəlilik, səmərəlilik şərti, tələbələrin mənəvi tərbiyəsi*

Mənəviyyat şəxsiyyətin daxili dünyasını, adamlara, ətraf aləmə, hadisələrə münasibətini göstərən fərdi kateqoriyadır, onun intellektual və təbii mahiyyətidir. Bütün bunlar şəxsin mənəvi, ruhi tərbiyəsini, daxili dünyasını səciyyələndirir. Buraya, hər şeydən əvvəl şəxsiyyətin (*bizim tədqiqatda tələbənin*) vətənə məhəbbəti, vicdanı, namusu, ləyaqəti, şərəfi, vətəndaşlıq qeyrəti, milli-mənlik şüuru, milli-mənəvi dəyərlərə hörməti, fədakarlığı, dünənimizi, bu günümüzü, adət və ənənələrimizi, mədəniyyətimizi, dilimizi dərindən öyrənməsi, eyni zamanda müasirliyi, mərhəmət və qayğıkeşliyi, tolerantlığı, xeyirxahlığı, humanizmi və həssaslığı, insanlara hörmət və sevgisi və s. bu kimi mənəvi keyfiyyətlər aiddir.

Müsbət mənəvi keyfiyyətlərə yiyələnmə tələbənin necə varsa eləcə görünməsi, göründüyü kimi olmasıdır. Mənəviyyat şəxsiyyətin (tələbənin) daxili dünyasının zənginliyini ifadə edir. Mənəvi baxımdan zəngin şəxsin səhhəti yaxşı olur. Onun gün-güzəranı ürəkaçan olur, həyatından razı qalaraq rahat yaşayır. Mənəvi baxımdan zəngin insan çətinliklərə tablaşır, çətin məqamlarda da düzgün qərar qəbul edə bilir.

Təhsil müəssisələrində, o cümlədən institut və universitetlərdə mənəvi keyfiyyətlərin formalaşdırılması və inkişaf etdirilməsi üzrə işlər sahəsində işlərin aşağıdakı istiqamətlərdə qurulması məqsədəuyğundur:

1. Tələbələrdə mənəvi şüuru tərbiyələndirmək (vətən, millət sevgisi, xeyirxahlığı və bədxahlığı, yaxşılığı və pisliyi, gözəli və çirkini, doğrunu və doğru olmayanı fərqləndirə bilmək, mərdlik, milli mənlik, mübarizlik, milli-mənəvi şüur və soykökünə bağlılıq)
2. Tələbələrə mənəvi hisslər aşılamaq (vətənpərvərlik, vətəndaşlıq, məsuliyyət, vicdan, namus, ismət, ləyaqət, şərəf, inam, borc və s.)
3. Tələbələrdə mənəvi mövqe formalaşdırmaq (çətin vəziyyətlərdən çıxmağı bacarmaq, insanlara hörmət, qarşılıqlı münasibətlərdə xeyirxah olmaq, qayğıkeş, humanist, həssas, ədalətli olmaq, ehtiyacı olan insanlara kömək göstərmək və s.)
4. Təhsilalanlarda mənəvi keyfiyyətləri - tolerantlıq, hövsələli və səbirli, cəsur, sədaqətli, mədəni, mərhəmətli, qayğıkeş, sadə və təvazökar, dəqiq olmaq, mübarizlik, mütəşəkkillik və nəzakətlilik, düzlük və doğruçuluq, dostluq və yoldaşlıq və s. inkişaf etdirmək.

Mənəvi tərbiyə ikitərəfli proses kimi özünü göstərir. Valideyn, tərbiyəçi, müəllim tələbəyə (şagirdə) tərbiyəvi təsir edir və tələbələrdə mənəvi kamilləşmə onların hərəkət və davranışlarında özünü biruzə verir. Mənəvi keyfiyyətlər sadəcə əzbərlədilmir, bu və ya digər keyfiyyət müvafiq hərəkət, rəftar və davranış gedişində təşəkkül tapır.

Tələbələrdə mənəvi şüuru, mənəvi təfəkkürü, mənəvi davranış təcrübəsini formalaşdırmaq

(özünü Vətənə, xalqa xidmətə hazırlamaq, adət və ənənələrimizə hörmət, nümunəvi davranışa yiyələnmək, müstəqil və düzgün qərara gəlmək, nəzakətli, mərifətli və ədəbli olmaq, başqalarına xeyirxah münasibət)

"*Düzlük və doğruçuluq*" mövzusu keçilərkən müəllim professor A.N. Abbasovun professor H.Ə.Əlizadə ilə birlikdə yazdığı və 2024-cü ildə işıq üzü görmüş "Pedaqogika" dərsliyinin materiallarından faydalanır. Dərslikdəki "Mənəvi tərbiyə" adlı XVIII fəslin 6-cı paraqrafı "Düzlük və doğruçuluq" adlanır. Həmi mövzu ilə bağlı mühazirədə aşağıdakı fikirlər səslənir: Təhsilalanlarda düzlük və doğruçuluqla bağlı ata-anaların ailədə gördükləri işlər uşaq bağçalarında – tərbiyəçilər, ümumtəhsil məktəblərində - məktəbdə müəllimlər və pedaqoji kollektivin başqa üzvləri tərəfindən davam etdirilir.

Bu istiqamətdə tərbiyə işləri aparan şəxslər düzlük və doğruçuluqla əlaqədar təsəvvürlərin təhsilalanların şüurunda təşəkkül tapmasına çalışmalıdırlar. Ali təhsil müəssisələrində tələbələr düzlük və doğruluğa dair məlumatlara sahiblənməklə yanaşı həmçinin nəzərə almalıdırlar. Etiraf edək ki, istər şagirdlər, istərsə də tələbələr, hətta müəyyən yaş həddinə çatmış bəzi insanlar konkret vəziyyətdə nə edəcəyini çox yaxşı bilir, fəqət yalan danışmaqdan qalmır. Bu, o deməkdir ki, əslində belə şəxsin təsəvvürü ilə həqiqi davranışı arasında uyğunsuzluq vardır.

Tələbələrdə düzlük və doğruçuluğun yaradılmasında müəllimin öz nümunəsi də güclü təsirə malikdir. Doğruçuluq düzlüklə sıx bağlı olan bir məsələdir. Doğrucul olmaq hər bir şəxsə yaxşı nüfuz kəşf edir. Doğrucul insan həqiqət tərəfdarıdır, ədalətlidir. O, həmişə sözün düzünü deyir.

Bəzən elə ekstremal vəziyyətlər yaranır ki, bu zaman həqiqəti söyləmək sadəcə qeyri-mümkündür və əslində lazım deyildir. Buraya müharibə zamanı düşmənə yalan demək, həkimin xəstədən yalanı gizlətməsi və s. daxildir.

Düzlüyün əksi əyrilikdir. Bu, mənfi keyfiyyətdir. Əgər düzlüyün əksi əyrilikdirsə, doğruçuluğun əksi də yalançılıqdır. Valideynin də, müəllimin də borcu təhsilalanları doğruçuluğa öyrətməkdir. Tələbələr artıq çox yaxşı bilirlər ki, yalan danışmaq insanı hörmətsiz edir. Heç də təsadüfi deyildir ki, həzrəti Məhəmməd əleyhissəlam imam Əliyə məsləhət görərdi ki, yalan danışmasın, yoxsa onun gözəlliyi və xoş siması pozular.

Bəzən yaşlı adamlar da gənc nəslə pis nümunə göstərir.. Sözün düzünü, həqiqəti deməkdənsə yalana əl atırlar. Belə münasibət yolverilməszdir.

Professor. A.N.Abbasovun yazdığı kimi, "Məktəbli oğlan və qızların yalan danışması bəzi səbəblərlə bağlıdır. Onlar bir sıra hallarda yalnız yalanı ona görə deyirlər ki, əslində ailədə yaranmış vəziyyətdə həqiqəti söyləmək qeyri-mümkündür. Müəllim belə bir həqiqəti unutmamalıdır ki, əgər o, öz yetirməsinə düzlük və doğruçuluq kimi çox gözəl keyfiyyətləri aşılamaq istəyirsə, həqiqəti eşitməklə də təşvişə düşməməlidir. Şagird həqiqəti söylədiyinə görə, cəzalandırılarsa, cəzadan yaxasını qurtarmaq üçün yalan danışmaq məcburiyyətində qalacaqdır".

Seminar məşğələsində *A.N.Abbasovun "Heç kim səni görməyəndə tərbiyə texnologiyası"* köməyə gəlir. Mövzu ilə bilavasitə bağlı olan aşağıdakı əhvalat diqqət mərkəzinə gətirilir.

Cavid adlı bir nəfər gəlib keçir. Yol gedə-gedə dəsmalını çıxarıb tərini silir. Kasıb bir qız (adı olsun Xuraman) oturacaqda əyləşib. Baxır. Dəsmalı çıxaranda Cavidin cibindən pulqabı yerə düşür. Xuraman onu çağırır, Cavid eşitmir. Qız ayağa qalxıb pulqabını açıb baxır. İçərisində xeyli pul var. Gün günorta yerinə qalxıb. Xuraman hələ də yemək yeməyib. Nə isə almağa pulu yoxdur. Amma Cavidin dalınca qaçır. Cavid ayaq saxlayır:

– Xanım, nə olub? Niyə dalımca düşmüsən?

Xuraman pulqabını ona uzadır:

– Sizdən düşüb.

– Bir gör ha. Xəbərim olmayıb.

O, pulqabını alıb baxır. Pullara dəyən olmayıb. Təəccüblə qızdan soruşur:

– Adın nədir?

– Xuraman.

– Xuraman, sənə öz minnətdarlığımı bildirirəm. Çox sağ ol. Bir sualım var. Üst-başına baxıram, kasıb qızsan, nə əcəb pulu mənimsəmədin? Axı səni görən olmayıb. Heç mənim də xəbərim olmayıb ki, onu sən tapmısan. Üzünü çevirib niyə getməmiş, dərdinə-sərinə xərcləməmisən.

– Doğru deyirsiniz. Pul tapdığımı heç kim görməyib. Fəqət Allah bütün hərəkət və əməllərimizə şahiddir. Bundan başqa, başqasına aid olanı necə mənimsəmək olar?

Cavid sözünə davam etdi:

– Sənin kimi doğru-düzgün adan həyatda azdır. Bir çox adam gözünü onun-bunun var-dövlətinə dikib. Bir-birinin paxıllığını çəkənlər var. Bu paxıllıq səbəbindən bir-birinə tor qururlar. Sənə heyran oldum. Bu pulları anamın müalicəsi üçün götürmüşdüm. Xəstəxanadadır.

Sonra Cavid pulları Xuramana uzadaraq:

– Ürəyin istəyən qədər bu pullardan götür.

Xuraman götürmədi.

Müəllim – Təsvir olunan bu əhvalatda diqqətinizi nə cəlb etdi?

Tələbə Simuzər: Kasıb qız Xuramanlın nəcib hərəkəti. O, pulu mənimsəyə bilərdi. Axı itirilmiş pulu tapanda onu heç kim görməmişdir. O qədər şeyə ehtiyacı vardı. Amma vicdanı deyilənlərə yol vermədi.

Tələbə Lamiə: Pulu itirən şəxs – Cavid Xuramana sual verir: Üst-başına baxıram, kasıb qızsan, nə əcəb pulu mənimsəmədin? Axı səni görən olmayıb. Heç mənim də xəbərim olmayıb ki, onu sən tapmısan. Üzünü çevirib niyə getməmiş, dərdinə-sərinə xərcləməmisən. Xuraman cavabında deyir: Doğru deyirsiniz. Pul tapdığımı heç kim görməyib. Fəqət Allah bütün hərəkət və əmməllərimizə şahiddir. Bundan başqa, başqasına aid olanı necə mənimsəmək olar?

Tələbə Xalidə: Bizim hər birimiz, düz olmalıyıq, doğruçu olmalıyıq. Tamahkarlıq, yalançılıq bizdən uzaq durmalıdır.

Pedaqogikadan mühazirə və seminar məşğələsində ailə tərbiyəsində valideynin rolu və yol verilmiş nöqsanlardan söz açılarkən tələbələrin diqqətinə çatdırılır ki, tərbiyə işlərini, hər şeydən, hər kəsdən əvvəl ata-analar həyata keçirirlər. Uşağın gələcəkdə necə bir ölkə vətəndaşı olmasının əsasları məhz ailədə qoyulur.

İRADƏ ƏMİRƏLİYEVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
amiraliyeva_i@mail.ru

ŞAGİRDLƏRDƏ TOLERANTLIĞIN TƏRBİYƏ OLUNMASI

Tolerantlıq digər şəxslərin fərqli düşüncə, davranış və rəftarlarını başa düşmək və onlara hörmət bəsləmək qabiliyyətidir. Çox zaman tolerantlığı bu və ya digər şəxsə müsbət yanaşma kimi də nəzərdən keçirirlər. Bu, o deməkdir ki, insanlar bir-birlərini həqiqətdə olduğu kimi (necə varsa) qəbul etməlidirlər.

Açar sözlər: *tolerantlıq, intolerantlıq, tolerant şəxs, intolerant şəxs, tolerantlığın formalaşdırılması*

Dövlətimiz uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olmağı, onların vətənimizin ləyaqətli üzvləri kimi böyüməsini təmin etməyi ailənin üzərinə mühüm vəzifə kimi qoyur. Bu xüsusda ölkəmizin Əsas Qanununda – Konstitusiyasının "Ailə, uşaqlar və dövlət" adlandırılan 17-ci maddəsində də deyilir:

"I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir*"*.

Eyni zamanda təhsil müəssisələri də belə məsuliyyət daşıyır.

Konstitusiyamızda bəyan edilir "*Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir"*.

Ailələr nə qədər möhkəm olsalar, uşaqların tərbiyəsi ilə nə qədər yüksək səviyyədə məşğul olunsa, məktəb təhsilalanların təlim və tərbiyəsini nə qədər səmərəli qursalar dövlətimiz, cəmiyyətimiz də bir o qədər möhkəm olar.

Uşaqların tərbiyəsindən danışarkən professor A.N.Abbasov yazır: *"*Gənc nəsli biliklər sistemi ilə silahlandırmaq, onda onda dünyagörüşü yaratmaq öz-özlüyündə azdır, mənəvi cəhətdən kamil, əxlaqca saf vətəndaşlar tərbiyələndirmək cəmiyyətimizin özülünü, dayaqlarını möhkəmləndirmək deməkdir".

Ailədə valideynlər, məktəbdə müəllimlər böyüməkdə olan nəsli nümunəvi davranışa yiyələndirməyə, onların mənəvi keyfiyyətlərini formalaşdırmağa çalışırlar.

Şəxsiyyətin yiyələnməli olduğu bir sıra keyfiyyətlər vardır. Onların arasında tolerantlıq kimi mühüm keyfiyyətə sahiblənmək son dərəcə vacibdir.

İnsanlar zahirən fərqli olduqları kimi daxilən də duyğuda, düşüncədə, inancda, demək olar ki, hər sahədə bir-birindən fərqlənirlər. Bu fərqləri aradan qaldırıb, bir insan tipi formalaşdırmaq mümkün deyildir. Bunun əvəzində müxtəlifliklərı nəzərə alıb, onları münaqişəyə cəlb etmədən, bir yerdə yaşamaq yollarını araşdırmaq lazımdır. Daha açıq deyilsə, iki yol var: ya bir-birimizlə münaqişəli vəziyyətlərdə olmalı, dava, müharibə etməliyik, ya da bir-birimizi başa düşməli, bir-birimizi qəbul etməliyik, uyğunlaşmalıyıq. Tolerantlıq bu uyğunlaşma yolunu seçmək bacarığıdır.

Real həyatda insanlar arasında qarşılıqlı münasibətlər müsbət və mənfi yanaşmalar əsasında qurulur. Müsbət yanaşma şagirdin öz həmkarlarına, yaxud həmkarlarının ona, həmçinin müəllimin şagirdlərə, şagirdlərin müəllimə və başqalarına onlar necə varsa (*mövcud olduğu kimi*) və hörmətlə yanaşmasını zəruri sayır. Burada şagirdlərin bir-birləri, yaxud müəllimlə münasibətlərinə, yaxud məktəblilərin hər hansı sahədəki nöqsanlarına, səhvlərinə, çatışmayan cəhətlərinə diqqətin yönəlməsinə deyil, müsbət keyfiyyətlərinə və hərəkətlərinə, bacarıq və qabiliyyətlərinə əsaslanılır. Münasibətlərin bu şəkildə qurulması şagirddə özünə inam hissini qüvvətləndirir, onun

təşəbbüskarlığını, özfəaliyyətini, müstəqilliyini artırır.

Mənfi yanaşmada insanlara, o cümlədən məktəblilərə mənfi münasibət başlıca yer tutur. Münasibətlər artıq məcburetmə, təzyiq və təhrik, mənfi qiymətləndirməyə əsaslanır. Nəticədə şagirdlər təşəbbüskarlıq, idrak müstəqilliyi və yaradıcı fəallıq göstərməyə meyilli olmurlar. Tolerantlığın tərbiyə olunmasında yanaşma tərzləri əhəmiyyətli rol oynayır.

Tolerantlığın bir çox sahələri, növləri vardır. M.S.Matkovski tolerantlığın aşağıdakı əsas sahələrini qeyd edir:

1. ***Gender tolerantlığı*** - digər cins nümayəndəsinə qərəzsiz (obyektiv) münasibət.

2. ***Yaş tolerantlığı*** – insanın aprior (təcrübədən qabaq mövcud olan) yaşı ilə əlaqədar olan (qocaların gəncləri başa düşmək istəməməsi, gənclərdə zəruri təcrübə və biliyin mövcud olmaması) qüsuruna obyektivlik (qərəzsizlik).

3. ***Təhsil tolerantlığı*** – yüksək təhsilli insanların nisbətən az təhsilli insanların fikir və mülahizələrinə və davranışına dözümlü münasibət.

4. ***Millətlərarası tolerantlıq*** – müxtəlif millətlərin nümayəndələrinə münasibət və müxtəlif millətlərin nümayəndələrinin qüsurlarının və mənfi hərəkətlərinin həmin millətlərin başqa insanlarına da aid etməmək qabiliyyəti. Hər hansı insana “milli günahsızlıq ehtimalı” mövqeyindən yanaşmaq.

Millətlərarası dözümsüzlüyün əlamətləri:

– etnosentrizm – fərdin, yaxud qrupun mədəni və dil xarakteristikaları əsasında hüququ tapdalama (hüquq bərabərliyini pozma) . Bir mədəniyyətin digər mədəniyyət üzərində üstünlüyü əqidəsinə söykənir;

– ksenofobiya - xaricilərin və digər mədəniyyətlərin qorxusu və onları qəbul etməmək.

5. ***İrqi tolerantlıq*** - digər irq nümayəndələrinə inamsızlığın olmaması. İrqi tolerantlığın mövcud olmaması, rasizmi, başqa sözlə, irqi prinsipə görə insanların hüquq bərabərliyini pozmağı nəzərdə tutur.

6. ***Dini tolerantlıq*** - dindar və dindar olmayan insanlar, həmçinin müxtəlif dini qrup nümayəndələri tərəfindən müxtəlif möminlik və dindarlıq ehkamlarına, xristianların ən əsas ibadət ayini olan liturgiyanın xüsusiyyətlərinə münasibətdir.

7. ***Coğrafi tolerantlıq*** - çox da böyük olmayan, yaxud əyalət şəhərlərinin, kəndlərin və digər regionların sakinlərinə paytaxt sakinləri (yaxud əksinə) tərəfindən qərəzsizlik (obyektivlik).

8. ***Fizioloji tolerantlıq*** - xəstələrə, şikəstlərə, fiziki baxımdan qüsurlu olanlara və xarici görünüşündə qüsurlu olan şəxslərə münasibət.

9. ***Siyasi tolerantlıq*** - müxtəlif partiyalara və birliklərin fəaliyyətinə, onların üzvlərinin fikirlərinə münasibət. Siyasi tolerantlığın olmamasına faşizm və siyasi repressiyaların özünəməxsus totalitar rejimi aid ola bilər.

10. ***Seksual yönəlmə tolerantlığı*** – qeyri-ənənəvi seksual yönümlü insanlara münasibətdə qərəzsizlik.

11. ***Dilənçilərə, narkomanlara, alkoqollara, məhbuslara və b. münasibət üzrə tolerantlıq***.

12. ***Sosial-iqtisadi tolerantlıq*** - müxtəlif sosial-iqtisadi təbəqələrin nümayəndələrinə və əhali qrupuna münasibət.

M.S.Matkovski tolerantlığın əsas sahələrini düzgün müəyyənləşdirmiş və onların mahiyyətini açmışdır. Lakin nədənsə şəxsiyyətlərarası tolerantlığı və pedaqoji tolerantlığı qeyd etməyi unutmuşdur. Şəxsiyyətlərarası tolerantlıqdan və pedaqoji tolerantlıqdan başqa, həmin sahələrə bəzi başqa əlavələr də oluna bilər. Onları göstərək:

1. Şəxsiyyətlərarası münasibətlərdə tolerantlıq.
2. Pedaqoji tolerantlıq (müəllim və tələbə, müəllim və şagird, müəllim və valideyn münasibətlərində tolerantlıq, müəllimlərin öz aralarındakı münasibətlərində tolerantlıq).
3. Öz-özünə münasibətdə tolerantlıq.
4. Sevdiyi oğlana (qıza) münasibətdə tolerantlıq.
5. Yoldaşlıq və dostluq münasibətlərində tolerantlıq.
6. Oğlanlar və qızlar arasındakı münasibətlərdə tolerantlıq.

7. Ailə münasibətlərində tolerantlıq (ər və arvad münasibətlərində tolerantlıq, gəlin-qayınana münasibətlərində tolerantlıq, gəlin-baldız münasibətlərində tolerantlıq, kürəkən-qayınana münasibətlərində tolerantlıq, kürəkən-qayınata münasibətlərdə tolerantlıq, ailə üzvləri arasındakı münasibətlərdə tolerantlıq).

8. Öz xalqının ənənələrinə münasibətdə tolerantlıq.

9. Mədəniyyətlərarası tolerantlıq.

10. Gündəlik rastlaşdığı, lakin tanımadığı şəxslərə münasibətdə tolerantlıq.

11. Tələbə yoldaşlarına münasibətdə tolerantlıq.

12. Dövlətlərarası münasibətlərdə tolerantlıq.

13. Beynəlxalq münasibətlərdə tolerantlıq.

14. Rəhbər işçi və tabe işçi arasındakı münasibətlərdə tolerantlıq.

Tolorentlıq (*tolerant olmaq*) kimi mühüm mənəvi keyfiyyətə malik olmaqla şəxs, şagird, tələbə intolerantlıın təsiri altına düşmür. Tolerantlıq (hövsələli, səbirli, dözümlü, təmkinli olmaq) müsbət keyfiyyətdirsə, intolerantlıq (dözümsüzlük, hövsələsizlik, səbirsizlik, təmkinsizlik) mənfi keyfiyyətdir.

Tolerantlığın əsasını idraki, emosional və davranış komponenti təşkil edir.

EMİLYA HÜSEYNOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
emilya.huseynova95@gmail.com

MƏKTƏBLİLƏRİN FƏAL VƏTƏNDAŞLIQ TƏRBİYƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması şəxsiyyətin (bizim tədqiqatda yuxarı sinif şagirdlərinin) mənəvi aləminin zənginləşdirilməsini, onun yüksək ictimai məqsədlərə və əxlaqi kamilliyə yiyələndirilməsi, şüurluluq səviyyəsinin, siyasi və mənəvi mədəniyyətinin artırılması istiqamətində məqsədyönlü, sistemli və fasiləsiz işlərin aparılmasını nəzərdə tutur. Azərbaycan vətəndaşı – müstəqil və suveren Azərbaycan Respublikasının tarixi nailiyyətidir. O, müstəqillik uğrunda mübarizələrdə böyüyüb formalaşmış, düşmənə qarşı müharibələrdə mətinləşmişdir.

***Açar sözlər**: fəal, fəal mövqe, vətəndaşlıq, vətəndaşlıq mövqeyi, məktəblilər, vətəndaşlıq mövqeyinin tərbiyə olunması*

Fəal vətəndaşlıq mövqeyinə fəaliyyət növü kimi baxdıqda, onun bir-birinə zidd iki təzahürü diqqət mərkəzinə gəlir: fəallıq və qeyri-fəallıq. Müasir dövrdə məktəblilərin, o cümlədən X-XI sinif şagirdlərinin fəal vətəndaşlıq mövqeyinə yiyələnmələri üçün hər cür imkan və şərait vardır.

“Vətəndaşlıq” anlayışı “vətəndaş” və “vətəndaşlıq hüququ” anlayışları ilə sıx surətdə bağlıdır.

“Azərbaycan dilinin izahlı lüğətin”ndə “vətəndaş” terminina aşağıdakı şəkildə aydınlıq gətirilir: 1. Müəyyən bir dövlət əhalisinə mənsub olub, öz dövlətinin qanunları ilə müəyyən edilmiş bütün tələbləri yerinə yetirəcəyinə borclu olan şəxs. 2. Yaşlı adam, kişi”.

“...lüğət”də “vətəndaşlıq” anlayışının mahiyyəti belə izah olunur: “1. Bir şəxsin müəyyən dövlətin vətəndaşları arasında olması; vətəndaşın hüquqi vəziyyəti. 2. Həqiqi vətəndaşa aid və xas olan”.

Eyni zamanda, “vətəndaşlıq hüququ” ifadəsinin mənası da açıqlanır. Diqqət yetirək: “vətəndaşlıq hüququ” - hər bir vətəndaşın adi hüquqları.

Vətəndaşlıq rus və bolqar dillərində - гражданство, ingilis dilində - citizenship, türk dilində - vatandaşlık, belorus dilində грамадзянства, macar dilində - polgárság, ispan dilində - ciudadanía, alman dilində - staatsbürgerschaft, polyak dilində - obywatelstwo, fin dilində - kansalaisuus, fransız dilində - citoyenneté, xorvat dilində - crađanstvo, eston dilində - kodakondsus, alban dilində - qytetari, indoneziya dilində - kewarganegaraan, island dilində - ríkisfang, qazax dilində - азаматтығы, makedoniya dilində државјанство, portuqal dilində - cidadania sözləri ilə ifadə olunmuşdur.

Hüquqşünas L. Abdullayevin qənaətincə, “Vətəndaşlıq dedikdə, şəxsin dövlətə mənsubiyyəti, şəxslə dövlət arasında onların qarşılıqlı hüquq və vəzifələrində ifadə olunan daimi siyasi hüquqi əlaqə başa düşülür. Dövlətin ilkin və mühüm vəzifələrindən birini Konstitusiyada nəzərdə tutulan şəxsiyyətin konstitusion hüquqlarını və vəzifələrini qorumaqdan ibarətdir. Bu sahədə vətəndaşlıq mühüm yer tutur. Vətəndaşlıq dedikdə, şəxsin müvafiq dövlətə hüquqi mənsubiyyəti başa düşülür, yəni şəxsin dövlət tərəfindən Konstitusiya-hüquq münasibətlərinin tamhüquqlu subyekti kimi tanınması nəinki öz ölkələrində, həmçinin xarici ölkələrdə olduqda belə təsbit edir”.

“Mövqe” özü nə deməkdir? Yenə “Azərbaycan dilinin izahlı lüğətin”ə müraciət edək: Mövqe – 1. Yer, məhəl // Bir şeyin baş verdiyi, olduğu yer. 2. Hər hansı bir adamın cəmiyyətdə, ictimai həyatda yeri, rolu, vəziyyəti. Mövqe tutmaq –yer tutmaq, əhəmiyyətli olmaq, nüfuz qazanmaq // vəzifə, rütbə, dərəcə 3. Hərbi əməliyyat sahəsi, döyüş meydanı, cəbhə”.

Mövqe isə, ingilis dilində - position, rus və bolqar dililərndə - позиция, türk dilində - pozisyon, çex dilində - pozice, indoneziya dilində - posisi, itlyan dilində - posizione, latın dilində - statum, lüksemburq dilində - positioun, alman dilində - position, polyak dilində - pozycja, rumın dilində - poziție, özbək dilində - holati, fransız dilində position, çex dilində pozice, eston dilində positsion sözləri ilə ifadə edilmişdir.

Şəxsiyyətin mənəviyyatca təşəkkül tapıb formalaşmasında şagird kollektivləri özünəməxsus rol oynayır. Şagird kollektivləri şəxsiyyətlərarası münasibətlər sisteminin həlledici pilləsidir. Hər bir insan öz ömrünün ən fəal, şüurlu hissəsini bu və ya digər kollektivdə, yaxud kollektivlərdə keçirir. Eynilə də məktəblilər (tələbələr) həyatlarının fəal və şüurlu anlarını, vaxtlarını şagird (tələbə) kollektivlərində keçir. Bu kollektivlərdə, o cümlədən şagird kollektivində psixoloji atmosfer və mənəvi mühit necədir? Bunun əhəmiyyəti çox mühümdür. Axı bu kollektivdə yüksək mənəvi davranışa malik şəxsiyyət formalaşacaqdır.

Fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması ümumtəhsil məktəblərində təlim və tərbiyə prosesinin hansı səviyyədə təşkil edilməsindən çox asılıdır. Təbii ki, bu işin elmi şəkildə təşkili məqsədəuyğundur. Yeni tipli mənəvi şəxsiyyət tərbiyə etmək istiqamətində səmərəli ola biləcək iş sisteminin yaradılması vacibdir. Fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması mənəvi tərbiyənin mühüm vəzifələrindən biridir. Tam, bütöv bir proses olan mənəvi tərbiyə isə tədricən daha çox elmi idarəetmə səciyyəsi daşıyır.

Tərbiyənin qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi mənəvi tərbiyənin nəzəri və praktik məsələlərinin aydın təsəvvür edilməsini tələb edir. Burada ictimai şüurun komponentlərindən biri olan mənəvi şüurun və onun başlıca kateqoriyası sayılan "xeyir" kateqoriyasının xüsusiyyətləri ilə bu və ya digər dərəcədə şərtlənir. Şəxsiyyətin zəruri mənəvi keyfiyyətlərindən biri olan məqsədyönlü xeyirxahlığın tərbiyə olunmasını, əxlaqi şüurun spesifikasına əsasən mənəvi mədəniyyətin xüsusiyyəti sayıla bilər. Yeni pedaqoji təfəkkür şəraitində yeni tipli şəxsiyyətin yaradıcılıq axtarışı, onun müstəqilliyi, təşəbbüskarlığı və ictimai fəallığı onun xeyirxahlığının haqqında danışılan meyarı ilə müəyyən edilir.

Fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması işinin təşkili bu prosesin idarə olunmasının önəmli funksiyalarındandır. Haqqında söz açılan funksiya planlaşdırma, nəzarət, tənzimetmə və s. kimi digər funksiyalarla sıx surətdə bağlıdır. Eyni zamanda mənəvi tərbiyənin səmərəliliyi – onun məqsədinin və vəzifələrinin uğurla yerinə yetirilməsindən xeyli dərəcədə asılıdır və müvafiq təşkilat formaları ilə təmin olunur.

Yuxarı sinif şagirdi şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafı yeni pedaqoji təfəkkür şəraitində obyektiv tələbat kimi nəzərdən keçirilə bilər. Azərbaycan Respublikası inkişaf etdikcə, möhkəmləndikcə, dünya ölkələri sırasında özünəməxsus layiqli yer tutduqca, maddi və mənəvi sərvətləri qibtə doğurduqca onun vətəndaşının hərtərəfli və ahəngdar inkişafına tələbat daha da artır. Hazırda insanın, vətəndaşın hərtərəfli və ahəngdar inkişafına obyektiv tələbat ölkənin maddi-texniki bazasının yaradılmasının, şəxsiyyətlərarası münasibətlərin təkmilləşdirilməsinin, həyat tərzinin möhkəmləndirilməsinin və inkişafının, yeni tipli insanın tərbiyə olunması qanunauyğunluqlarının təzahürü ilə diqqət mərkəzinə gəlir.

Azərbaycan cəmiyyəti vətəndaşının çox zəruri cəhətləri mənəvi əqidəlilik, cəmiyyət qarşısında yüksək mənəvi borc və məsuliyyət hissi hesab edilir. Əxlaqi şəxsiyyətdən ötrü çox vacib keyfiyyət fəal vətəndaşlıq mövqeyidir. Fəal vətəndaşlıq mövqeyi şəxsiyyətin, o cümlədən yuxarı sinif şagirdinin sistem keyfiyyəti, onun ayrılmaz əlaməti kimi nəzərdən keçirilməlidir. Bütün bunlar da cəmiyyətin tələblərinə yönəlmiş əsas davranış motivlərini, şəxsiyyətin ideallarını, məqsədlərini özündə ehtiva edir.

Dərk edilmiş və yuxarı sinif şagirdlərinin davranışında öz ifadəsini tapmış mənəvi prinsiplər onları səfərbər edir, onların özlərini nümunəvi aparmalarına, xeyirxah, doğrucul, səmimi, obyektiv, prinsipial, ciddi, tələbkar olmalarına, şəxsiyyətlərarası münasibətləri düzgün qurmağa kömək göstərir. Belə mövqe də, təbii ki, həyatı dərin ictimai məna ilə zənginləşdirir, Azərbaycan ideallarına xidmət etmək mənasında nəcibləşdirir.

Azərbaycan mənəviyyatı ictimai və şəxsi mənafeyi sıx surətdə bir-birinə bağlayır. Şəxsiyyətə ölkəmizin tərəqqisində, xalqın xoşbəxtliyi naminə mübarizələrdə fəal vətəndaşlıq mövqeyinə yiyələnməkdə yardımçı olur.

Fəal vətəndaşlıq mövqeyi yüksək şüurluluq, Vətənə sonsuz məhəbbət və onun müdafiəsinə hazır olmaq, millətə bağlılıq, əqidəlilik, iradə zənginliyi, qətiyyətlilik, məsuliyyət tələb edir. Fəal vətəndaşlıq mövqeyi mövcud mənəvi sərvətləri ilə öz daxili dünyasını zənginləşdirməyi, böyüyən

nəsli həyata hazırlamağı qarşıya məqsəd kimi qoyur. Məktəblilər nəinki “Kim olmalı?”, habelə “Necə insan olmalı?” suallarını özlərinə verməli, həyatda fəal mövqe tutmalıdırlar.

Yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması üzrə işin səmərəliliyi bu sahədə iş aparan müəllimin şəxsi keyfiyyətləri ilə, məktəblilərə nümunə olmaq, onların nəzərində nüfuzlu şəxs olmaq bacarığı ilə şərtlənir.

Fəal vətəndaşlıq mövqeyinin meyarı olmaq baxımından yüksək mənəvi əqidə mənəvi problemlərin mahiyyətini dərk etmək bacarığı, həmin problemlərə uyğun şəkildə özü üçün müəyyən vəzifələr müəyyənləşdirməkdən ibarətdir. Hər bir məktəbli, o cümlədən yuxarı sinif şagirdi öz mənəvi sağlamlığı qayğısına qalmalıdır. Mənəvi sağlamlığa qayğı yaxşı təhsil almağa və tərbiyələnməyə, normal yaşayışa və normal fəaliyyətə maneçilik törədən hərəkətlərə, təzahürlərə mübarizə ilə, ictimai və hüquq qaydalarının, birgəyaşayış normalarının pozulmaması, cəmiyyətdə narahatlığın olmaması ilə nəticələnir. Heç də təsadüfi deyildir ki, mənəviyyat problemi təhsil müəssisələri, ailələr, ictimaiyyət nümayəndələri, ictimai təşkilatlarla yanaşı eyni zamanda hüquq mühafizə orqanlarının da fəaliyyətində önəmli yer tutur.

Ona görə də hazırda hamıda, hər bir şəxsdə, məktəblilərdə, o cümlədən yuxarı sinif şagirdlərində yüksək mənəvi səviyyənin olması zəruridir. Bu, bir həqiqətdir ki, cəmiyyətə zidd bu və ya digər davranış tərzi birgəyaşayış qaydalarının, hüquq normalarının, əxlaq prinsiplərinin qəbul edilmiş normalarından kənaraçıxma nəticəsində meydana gəlir.

LALƏ MƏMMƏDLİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
lale23@mail.ru
https://orcid.org/0000-0003-0686-3627

FƏAL HƏYAT MÖVQEYİNİN FORMALAŞDIRILMASI İLƏ BAĞLI TƏLƏBƏLƏRİN ŞAGİRDLƏRLƏ APARDIĞI İŞLƏR

Mənəvi tərbiyənin mühüm komponentlərin, çox zəruri tərkib elementlərindən, dəyərli vəzifələrindən biri şəxsiyyətdə fəal həyat mövqeyinin forrmalaşdırılmasıdır. Yaşından, cinsindən, dinindən, irqindən, sosial vəziyyətindən asılı olmayaraq hər bir insan, şagird, tələbə həyatda, cəmiyyətdə fəal mövqeyə, fəal həyat mövqeyinə yiyələnməlidir.

***Açar sözlər**: pedaqoji təcrübə, fəallıq, həyat mövqeyi, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması, tələbələr, şagirdlər*

Bu konfrans materialında tələbələrin ümumtəhsil məktəbi şagirdləri ilə təlim-tərbiyə işləri apararkən onlarda da belə bir mövqeyi tərbiyələndirmək məsələlərindən danışılır. Bu nə zaman baş verir? Məlum olduğu kimi, pedaqoji institut (Naxçıvan Müəllimlər İnstitutu) və universitetdə (Azərbaycan Dövlət Pedaqoji Universiteti və filialları), təhsil alan tələbələr ümumtəhsil məktəblərində müəyyən müddət pedaqoji təcrübə keçirlər. Həmin tələbələr mühazirə və seminar məşğələlərində, auditoriyadankənar tədbirlər zamanı onlarla aparılmış sistemli, məqsədyönlü iş nəticəsində fəal həyat mövqeyinə yiyələnərək pedaqoji təcrübədə olduqları dövrdə şagirdlərdə də belə bir mövqeyin tərbiyə olunmasına çalışırlar.

Eyni zamanda, təkcə pedaqoji institut və universitet tələbələri deyil, təhsil müəssisələrinin pedaqoji fakültələrinin tələbələri də pedaqoji təcrübə keçirlər. Onlar da təhkim olunduqları siniflərin şagirdləri arasında həmin istiqamətlərdə iş aparırlar.

Azərbaycan Respublikasının baş naziri Əli Əsədov 30 dekabr 2023-cü il tarixdə, 489 №-li qərarla "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası"nı təsdiq etmişdir.

"...təcrübə keçmə qayda"sıın 3-cü maddəsinin 4-cü bəndində təcrübənin təşkili zamanı bir sıra tələblərin hesaba nəzərə alınması məqsədəuyğun hesab edilir. Onları nəzərdən keçirək:

"3.4.1. təcrübə bazasının tələbənin ixtisasına uyğunluğunun təmin edilməsi;

3.4.2. həyat və sağlamlıq üçün təhlükəsiz və zərərsiz təcrübə şəraitinin yaradılması;

3.4.3. tədris-öyrənmə və təcrübə arasında davamlı əlaqənin qurulması;

3.4.4. tələbənin yaradıcılıq və tədqiqat işlərində iştirakının təmin edilməsi;

3.4.5. tələbədə müasir informasiya texnologiyalarının tətbiqi istiqamətində bacarıqların artırılması;

3.4.6. tələbənin müasir texnologiyalarla, iş üsulları və digər yeniliklərlə tanış edilməsi;

3.4.7. peşəkar təcrübə rəhbərlərinin təyin edilməsi;

3.4.8. təcrübə bazasının infrastrukturunun əlilliyi olan tələbələr üçün müyəssər olması;

3.4.9. tələbələrin təcrübə bazasında məşğulluq imkanlarının nəzərə alınması".

Həmin "...təcrübə keçmə qayda"sında **"**Təcrübənin təşkili" adlanan 3-cü maddənin 11-ci bəndində deyilir: "Ali təhsilin bakalavriat səviyyəsində və orta ixtisas təhsili pilləsində istehsalat təcrübəsinin, ali təhsilin magistratura səviyyəsində elmi-pedaqoji təcrübənin, həmçinin magistrlik dissertasiyası hazırlayanlara münasibətdə elmi tədqiqat təcrübəsinin təşkili məcburidir".

Pedaqoji təcrübə zamanı tələbələr şagirdlərlə dərs keçməklə yanaşı onlarla həm təlim prosesində, həm də sinifdənxaric tədbirlərdə tərbiyə işləri aparırlar. Həmin tərbiyə işlərinin bir istiqaməti də məktəblilərdə fəal həyat mövqeyinin formalaşdırılması ilə bağlıdır. Məktəb

müəlliminin, sinif rəhbərinin həmin yönümdə gördükləri tərbiyəvi, təhsilləndirici və tərbiyələndirici işləri təcrübəçi tələbə davam etdirir. Aparılmış səmərəli işlər nəticəsində şagirdlər başa düşürlər ki, ailədə, təhsil ocağında, işləyəcəkləri müəssisədə sayılıb-seçilən şəxs olmaları, üzərlərinə düşən vəzifələri yerinə yetirmələri üçün hökmən müstəqillik, təşəbbüskarlıq, təşkilatçılıq bacarıqlarına yiyələnməli, fəal həyat mövqeyinə malik olmalıdırlar.

ŞƏHLA SÜLEYMANOVA
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
ShahlaSuleymanova@nmi.edu.az

FƏNLƏRİN TƏDRİSİ ZAMANI FƏAL TƏLİM METODLARI VASİTƏSİLƏ ESTETİK TƏRBİYƏNİN TƏŞKİLİ VƏ ŞAGİRDLƏRİN İSTEDAD POTENSİALININ İNKİŞAFI

Tezisdə estetik tərbiyənin şagirdlərdə ətraf aləmə, incəsənətə qarşı emosional münasibətini, fəal təlim metodları vasitəsilə fənnlərin tədrisi prosesində yaradıcı təəkkürün inkişafı, bədii istedadı formalaşdırmağın yolları araşdırılmışdır. Həmçinin, fəal təlim metodlarının tətbiqi məsələlərinə toxunulmuş, təlimdə estetik tərbiyənin səmərəli təşkili məsələləri qeyd olunmuşdur.

Açar sözlər: *estetik tərbiyə, bədii istedad, təlim metodları, şagird, müəllim, təlim prosesi*

Estetik tərbiyə uşaqların məşğulluğu və asudə vaxtları ilə bağlı sosial əhəmiyyətli məsələləri həll edir, şagirdlərin müxtəlif sənət sahələrində yaradıcı və peşəkar maraqlarının inkişafı üçün əlverişli şərait yaradır. İstedad isə bu estetik duyumu daha yüksək səviyyəyə qaldırır, bədii yaradıcılıq qabiliyyətini üzə çıxarır. Bu baxımdan fənlərin tədrisi zamanı müasir təlim metodlarından düzgün istifadə şagirdlərin estetik tərbiyəsinin düzgün formalaşmasında, istedadlarının inkişafında mühüm rol oynayır. I – IV siniflərdə "Azərbayan dili", "Təsviri incəsənət", "Musiqi", "Həyat bilgisi", "Texnologiya" fənnlərinin tədrisi zamanı şagirdlərdə bədii yaradıcılığı, estetik zövqü, estetik mədəniyyəti formalaşdırmaqda mövzuların fəal təlim metodlarına uyğun mənimsədilməsi əhəmiyyətlidir.

Təlim metodu müəyyən keyfiyyətləri inkişaf etdirmək üçün şagirdlərin şüuruna, iradəsinə, hisslərinə və davranışlarına təsir etmək vasitəsidir. Bu metodlardan istifadə edərkən müəllimin öz hisslərini, uşaqlara münasibətini necə çatdıracağını bilməsi və hissləri ifadə etmə üsullarını mənimsəməsi çox vacibdir.

Estetik tərbiyənin inkişafı üçün müxtəlif üsullardan istifadə olunur. Bu üsullar vasitəsilə şagirdin istedadının üzə çıxmasına, daha da inkişafında nail olmaq olar. Bu istiqamətdə fənnlərin tədrisi prosesində istifadə olunan ən effektiv müasir yanaşmaları aşağıdakı kimi qruplaşdırmaq olar:

- vizual, şifahi, praktik;
- izahlı və illüstrativ;
- problemli, tədqiqatçı, qismən kəşfiyyatçı.

Vizual, şifahi, praktik metodlar vasitəsilə şagirdlər gözəlliyi birbaşa müşahidə edərək rəng, forma, harmoniya anlayışlarını dərk edirlər. Məsələn, rəsm əsərlərinin təhlili onların estetik zövqünü inkişaf etdirir. Şifahi metodlar vasitəsilə müəllim estetik anlayışları sözlə izah edir, şagirdlər isə fikir bildirir. Bu, onların estetik düşünmə və ifadə bacarıqlarını formalaşdırır. Praktik metodların tətbiqi zamanı rəsm çəkmək, musiqi ifa etmək, əl işləri hazırlamaq kimi fəaliyyətlər bədii istedadın göstəricisidir. Bu zaman şagird "yaradaraq öyrənir". İzahlı-illüstrativ metodda müəllim hazır məlumatı təqdim edir və onu vizual vasitələrlə dəstəkləyir. Məsələn, müəllim bir sənət əsəri haqqında məlumat verir, eyni zamanda onun şəkli və ya videosu göstərilir. Bu yanaşma şagirdlərdə estetik anlayışların ilkin formalaşmasına gözəlliyi tanıma və fərqləndirmə bacarığına kömək edir

Problemli metod vasitəsilə şagirdlərə estetik mövzu ilə bağlı sual verilir. Məs."Müəyyən bir əsər niyə gözəl sayılır?", şagirdlər bu suala cavab axtararaq estetik meyarları dərk edirlər. Tədqiqatçı metod vasitəsilə şagirdlər müstəqil araşdırma apararaq estetik dünyagörüşlərini genişləndirirlər. Qismən kəşfiyyatçı metodda müəllimin istiqaməti ilə şagirdlər yeni nəticələrə özləri gəlirlər. Bu zaman həm düşünmə, həm də yaradıcılıq inkişaf edir.

Bundan başqa interaktiv və texnoloji metodlar, virtual səyahət, layihə əsaslı öyrənmə, rollu oyunlar, multimediya layihələri, rəqəmsal incəsənətdən istifadə, debat və b. istifadə etmək olar. İnteraktiv və texnoloji metodlar vasitəsilə şagirdlər yalnız rəsm çəkmir, həm də rəqəmsal incəsənət nümunələri yaradırlar. Virtual səyahət metodunda eynəkləri vasitəsilə dünyanın ən məşhur muzeylərinə virtual turlar təşkil etmək olar. Multimedia layihələri metodu vasitəsilə musiqi, təsviri

sənət və videonu birləşdirən qısa çarxların hazırlanması zamanı estetik tərbiyəni aşılamaq mümkündür. Layihə əsaslı öyrənmə metodunda məsələn, "Məktəbin həyətini necə gözəlləşdirək?" layihəsi çərçivəsində şagirdlər landşaft dizaynı ilə məşğul olurlar. Rollu oyunlar və teatrizasiya metodunun tətbiqi zamanı tarixi və ya ədəbi obrazları canlandıraraq estetik hisslərin emosional şəkildə mənimsənilməsi baş verir. Müzakirə və debat zamanı sənətdə "gözəllik" anlayışının müxtəlifliyini müzakirə edərək tənqidi düşüncəni inkişaf etdirmək olar.

Bu metodların düzgün seçimi qarşıya qoyulan məqsədə çatmaq baxımından əhəmiyyəlidir. Bu zaman müəllimin üzərinə mühüm vəzifələr düşür. Müasir müəllim artıq yalnız informasiya ötürücüsü deyil, bir fasilitator rolundadır. Müəllim şagirddə estetik tərbiyəni formalaşdırmaqla qalmır, onda tənqidi, yaradıcı, dizayn təfəkkürü, təxəyyülü, riyazi estetikanı inkişaf etdirir. Bu zaman şagird bir obyekti hazırlayarkən onun həm funksionallığını, həm də estetik görünüşünü eyni vaxtda düşünür, təbiətdəki naxışlar, fraktallar və "qızıl bölgü" prinsipi vasitəsilə riyaziyyatın gözəlliyini kəşf edir.

Estetik tərbiyə istedadın inkişafını stimullaşdırır, istedad isə estetik fəaliyyətin daha yüksək səviyyədə həyata keçirilməsinə imkan yaradır. Bu iki amil bir-birini tamamlayaraq uşağın hərtərəfli inkişafına xidmət edir. Müasir dövrdə estetik tərbiyə sadəcə gözəlliyi görmək deyil, həm də yaradıcı düşünmək, emosional intellekti inkişaf etdirmək və innovativ həllər tapmaq bacarığıdır. Müasir təlim metodları bu prosesi passiv dinləmədən aktiv yaradıcılığa çevirir.

Bu metodların birlikdə tətbiqi estetik zövqün formalaşmasına, yaradıcı düşüncənin inkişafına, gözəlliyi dərk və qiymətləndirmə bacarığına, incəsənətə marağın artmasına güclü təsir göstərir. Həmçinin, şagirdlərdə təbiəti və sənəti duymaq bacarığı, estetik dəyəri dərk etmək və təhlil etmək, öz bədii yaradıcılıq qabiliyyətini ortaya qoymaq kimi keyfiyyətlər formalaşır.

AYGÜN QAFAROVA
Xəzər Universiteti
Fəlsəfə doktoru proqramı üzrə doktorant
quliyevkamal 1@gmail.com

GƏNCLƏRİN MÜSTƏQİL TƏHSİL HƏYATINA HAZIRLANMALARI

Qərb həyat tərzini təbliğ edən qüvvələr Azərbaycan ailə ənənələrinə zərbə vurmaq məqsədi daşıyır. Ailə dəyərlərinə, ailə həyatına şübhə yaradılır, azad məhəbbət, ailə qarşısında məsuliyyətsizlik, təsadüfi əlaqələr, sərhədsiz seks və s. təbliğ edilir. Bütün bunlar gənc nəslin şüuruna təsir göstərir, onların məhəbbət, nikah və ailəyə ciddi yanaşmasına maneçilik törədir. Gənc ailələrdə ixtilafların sayını artırır, uşaqların tərbiyəsinə lazımi səviyyədə baxılmır, boşanmaları çoxaldır.

***Açar sözlər**: gənclər, ailə, ailə həyatı, ailə həyatına hazırlıq, müstəqil ailə həyatı, ailə münasibətlərində tolerantlıq*

Respublika Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri "2026-cı ilin yanvar-fevral aylarında 5.250 nikah bağlanma, 3376 boşanma halı qeydə alıb. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,7-dən 3,2-yə, boşanmaların sayı isə 2,1-dən 2,0-a düşmüşdür".

Uşaqlar valideynlərinin birindən məhrum olur. Müşahidə və tədqiqatlardan görünür ki, ailələrdə baş qaldıran çətinliklər, söz-söhbət gənclərin müstəqil ailə həyatına lazımi səviyyədə hazırlanmamasından irəli gəlir.

Müasir ailə ər-arvad qarşısında bir sıra mühüm vəzifələr qoyur. Məsələn, məhəbbətin əbədiliyi, ər və arvadın uyuşması, maddi və mənəvi dəyərlərin nisbəti.

Tələbələrin müstəqil ailə həyatına, ailə münasibətlərinə və övlad tərbiyəsinə hazırlanması tərbiyə və təhsil prosesinin humanistləşdirilməsi, təhsilin inteqrasiyası, təlim və tərbiyə metodlarından səmərəli şəkildə faydalanmanı nəzərdə tutur. Müstəqil ailə həyatına hazırlıq şəxsiyyətin sosial yetkinliyinin və əqli sağlamlığının mühüm göstəricisi sayılır. Bu hazırlıq prosesi aşağıdakılarla təmin olunur: mühazirə və seminar məşğələlərində müəllimin şəxsiyyətyönlü düşüncə və fəaliyyətinin inkişafı; tələbənin fərdi fəaliyyət tərzinə istinad; əlverişli mənəvi və psixoloji atmosferin mövcudluğu, fənlərarası inteqrasiyanın inkişaf edən imkanlarından məqsədyönlü və sistemli istifadə; problem əsaslı, dialoq və qeyri-ənənəvi (oyun, məsləhət, təlim) metod və formalarından bəhrələnmə; tələbən gənclərin birgə qrup fəaliyyətlərinin təşkili və s.

Tələbələrin müstəqil ailə həyatına, nikah və ailə münasibətlərinə hazırlığının inkişafı ontogenetik olaraq cərəyan edir. Bu proses çoxamillidir. Müasir sosiomədəni mühitdə tələbələrin hazırlığının inkişafında təhsil son dərəcə böyük rol oynayır. Gənc nəsli müstəqil ailə həyatına və nikah münasibətlərinə hazırlamağın əsas məqsədlərindən biri gələcək ailə üzvünün şəxsiyyətinin formalaşdırılmasıdır. Diqqət mənəvi şüurun, mənəvi təfəkkürün, mənəvi keyfiyyətlərin, mənəvi davranış təcrübəsinin və mənəvi vərdişlərin inkişaf etdirilməsinə, tələbələr arasında mənəvi şüurda, mənəvi davranışda və mənəvi hisslərdə birliyin bərqərar olmasına və təhsilalanların mənəvi səviyyəsinin yüksəldilməsinə istiqamətlənmişdir.

Təhsilin əsas sosial məqsədi və humanist missiyası tərəfləri müxtəlif sosial rolları (ailə həyatı da nəzərdə tutularaq) müvəffəqiyyətlə icra etməyə hazırlamaq, həm də onların özünüinkişaf (həyat yoldaşı, ata və ana kimi) qabiliyyətlərini stimullaşdırmaq və sosial (ailə) mühitini müsbət yönümdə dəyişdirməkdən ibarətdir.

Ailə və nikah rollarını səmərəli şəkildə həyata keçirmək üçün hər bir şəxs ailə həyatı ilə, ər-arvad, valideyn-uşaq münasibətləri ilə bağlı müəyyən bilik, bacarıq və qabiliyyətlərə sahiblənməlidirlər. Müstəqil ailə həyatı və nikah rollarını uğurla yerinə yetirmək üçün şəxsiyyət

güclü, xoşbəxt bir ailə yaratmağa və ailə funksiyalarını (reproduktiv, tərbiyə, iqtisadi və s.) məsuliyyətlə icra etməyə istiqamətlənmiş müsbət münasibətlər sistemini inkişaf etdirməlidir.

Ailə münasibətlərində tolerantlıq çox mühüm məsələdir. Ərin, arvadın tolerant şəxs olması ailədə yersiz söz-söhbətin baş qaldırmasının qarşısını alır. Professor Akif Abbasov bu xüsusda “Ailə pedaqogikası” dərsliyində yazır: “Ailə münasibətlərində tolerantlıq ixtilafların qarşısının alınmasında və aradan qaldırılmasında etibarlı vasitə ola bilər”.

Müstəqil ailə həyatına hazırlıqda önəmli vəzifə evlilik üçün motivasiya, həyat yoldaşını şüurlu şəkildə seçməyə mənəvi və psixoloji hazırlığın aydınlaşdırılmasıdır. Bu zaman lazımi məlumatın verilməsi vacibdir. Həmin məlumatlara aiddir: “insanın ən böyük kəşfinin məhəbbət olması” (Nazim Hikmət); sevginin çox mühüm hiss olduğu; sevənlərin davranış mədəniyyəti; nikah münasibətinə girməyə hazırlaşan qızlar üçün onların ismətinin ən qiymətli cehiz olması; psixoloji məsafənin saxlanması; ailəyə və nikaha ciddi münasibət və s.

Ailədə, ümumtəhsil məktəblərində, həmçinin ali təhsil müəssisələrində təhsilalanların müstəqil ailə həyatına hazırlığı üzrə işlər aparılarkan onlar ailənin funksiyaları ilə tanış olmalıdırlar. Ailənin funksiyaları ifadəsi altında onun həyat fəaliyyətinin əsas istiqamətləri başa düşülür. Həmin funksiyalara aiddir: reproduktiv, təsərrüfat-iqtisadi, tərbiyə, bərpaedici və s.

Tələbələr gənc ailələrin formalaşması xüsusiyyətləri ilə də tanış olmalıdırlar. Onları müstəqil ailə həyatına hazırlamaq məqsədi ailə və nikah münasibətlərini uğurla qura və uyğunlaşdıra bilən, nikah sabitliyini təmin edən, uzunömürlü nikah və valideynliyə əlverişli münasibət inkişaf etdirə bilən fəal mövqeyi inkişaf etdirməkdir.

Gənclər üçün ailə həyatına yüksək keyfiyyətli hazırlığın mühüm cəhətlərindən biri onların gələcək ailə həyatı ilə bağlı məlumatlılıq səviyyəsidir. Bu məlumatlılıq ailə və nikah münasibətlərinə dair bacarıq və qabiliyyətlər haqqında biliklərlə müəyyən edilir və aşağıdakı komponentləri lazım bilir:

1. Oğlan və qızların gündəlik həyatda onlara lazım olacaq iqtisadi bilikləri mənimsəmələri, məişət və iqtisadi hazırlıq.

2. Sosial müstəqillik - ər-arvadın ailənin möhkəmliyi, rifahı üçün məsuliyyət daşımaları. Onların iqtisadi müstəqilliklərini, ailəni maddi baxımdan təmin etmək, yaşayış üçün şəraiti (mənzil və s.) yaratmaq üçün real imkanları nəzərdən keçirmək;

3. Ailə və nikah münasibətlərinə dair sosial və hüquqi biliklər.

4. Cinsi təhsil - intim münasibətlərə aid zəruri biliklərə yiyələnmə.

5. Ailə həyatına mənəvi və psixoloji hazırlıq.

Ailədə valideynlər öz şəxsi nümunələri ilə (bir ata, ana, ər və arvad qarşılıqlı münasibətlərini düzgün qurmaqla, ailənin səadəti, möhkəmliyi, nikahın əbədi olmasına ciddi-cəhdlə çalışmalar, gəlin-qayınana münasibətlərini normal qurmaqla, ailədə qarşılıqlı güzəştə getmək, qarşılıqlı anlama şəraitini bərqərar etməklə, uşaqlarına qayğı göstərməklə); təhsil ocağında ayrı-ayrı fənlərin, ümumtəhsil məktəblərində - sinifdənxaric, ali məktəbdə auditoriyadankənar tədbirlərin tərbiyəvi, və təhsilləndirici imkanlarından faydalanmaqla tələbləri (şagirdləri) müstəqil ailə həyatına hazırlayırlar.

Aparılmış sistemli, məqsədyönlü işlər sayəsində tələbələr (şagirdlər) nikah yaşı, ailə hüququ, ər-arvadın vəzifələri, ailənin asudə vaxtı və onun təşkili, ailə tərbiyəsinin prinsipləri və metodları, vasitələri, ailənin mənəvi və hüquqi əsasları, psixoloji durumu, ab-havası, gender problemi, ailə münasibətlərində tolerantlıq və s. barədə zəruri məlumat alırlar.

Təhsilalanlar öyrənirlər ki, ailə həyatı nikah və ya qohumluq münasibətlərinə əsaslanır, birgə yaşayış, qarşılıqlı hörmət və məhəbbət, cavabdehlik tələb edir. Ailə milli-mənəvi dəyərlərin qoruyucusu, şəxsiyyətin fiziki və psixoloji xoşbəxtliyinin meyarı, dövlətin himayəsində olan sosial təsisatdır.

HİCRAN VERDİYEVA
Gəncə Dövlət Universiteti
Fəlsəfə doktoru proqramı üzrə dissertant
kamran.verdiyev.2005@mail.ru

ŞƏXSİYYƏTİNİN TƏŞƏKKÜLÜNDƏ QADIN TƏRBİYƏSİNƏ AİD ƏNƏNƏLƏRDƏN FAYDALANMANIN VACİBLİYİ

Azərbaycan dövləti uşaqların düzgün tərbiyə alması və qayğı ilə əhatə olunmasında maraqlıdır. Odur ki, ailələrin və təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr qoyur. Bu, təsadüfi deyildir. Həqiqətdir ki, ailə münasibətlərinin düzgün qurulduğu, ailədə qarşılıqlı anlama, qarşılıqlı səmimiyyət və qarşılıqlı hörmətin bərqərar olduğu, əsilli-nəsilli ailələrdə daha müsbət nəticələr qazanılır. Ailə ixtilafları, ailədə bitib-tükənməyən söz-söhbətlər isə, uşaqların mənəviyyatını zəhərləyir, ağır nəticələr verir.

***Açar sözlər**: şəxsiyyət, qız tərbiyəsi, qadın nümunəsi, tərbiyə ənənələri, qadın tərbiyəsi ənənələri*

Qədim türklər vətən əxlaqını, məslək əxlaqını və ailə əxlaqını son dərəcə yüksək qiymətləndirir, o yönümdə fəaliyyət göstərirdilər. Məlum olduğu kimi, hunlar əsrlər boyunca tez-tez döyüş meydanlarında, müharibələrdə olduqlarından at belində həyat keçirirdilər. Hunlarda ilk təlim və tərbiyə hərbi təlim, fiziki tərbiyə hesab edilirdi. Uşaqlara qətiyyətlilik, dözümlülük, cəsurluq, igidlik, qorxmazlıq, sağlamlıq, dəmir iradə kimi mühüm mənəvi keyfiyyətlər aşılanırdı. Onlar balaca vaxtlarından güləşər, ox atar, qılınc oynadardılar. Yetkinlik yaşında isə, at çapmaq, sərrast ox atmaq öyrənərdilər. Heç də təsadüfi olaraq türk məsəllərində deyilmir: "Türk çadırda doğular, at üstündə ölər".

O zamanlarda atlı dəstələrin tez bir zamanda bir yerə toplanması, döyüşə hazır olması tələb edilirdi. Qadınların, oğlan və qız uşaqlarının, yaşlı adamların düşməndən qorunması məqsədilə xüsusi planı da işlənib hazırlanırdı.

Doğum və ad günləri xalq mərasimlərinə, adət və ənənələrinə uyğun şəkildə təşkil edilirdi.

Oğlanların böyüyüb boya-başa çatmasında, mahir döyüşçü, doğma yurdun müdafiəçisi kimi yetişməsində atanın son dərəcə böyük rolu olurdu. Təlimlərdə qızlar da iştirak edib öz hünərlərini göstərir, oğlanlardan heç də geri qalmırdılar.

Qədim türklər ailəcanlı, uşaqcanlı olmuşlar. Onlar oğlan və qız uşaqları arasında fərq qoymazdılar. "Allahın bəxş etdiyi paydır. Oğlana da qurban, qıza da", -deyə düşünər, onlara övlad verdiyinə görə Tanrıya şükür edərdilər.

Qədim türklər qız uşaqlarının tərbiyə və təliminə xüsusi fikir verərdilər. Xalqın inancına görə, "oğul atasına, qız anasına çəkməli idi, yaxşı oğula "atac", yaxşı qıza "anac" deyərmişlər".

Göytürklər Hun tərbiyə və təhsil sistemi ənənələrini yaşatmış və davam etdirmiş, onu daha da təkmilləşdirmişlər. Hərbi təlimlər dövründə oğlanlarla qızlara fərq qoyulmazdı. Qızlar və qadınlar da ərləri, qardaşları kimi güləşər, ox atar, at minər və döyüşlərə qoşulardılar.

Kişilər kimi döyüşkən, cəsur, igid, qorxmaz olan qızlar, qadınlar həm də son dərəcə həyalı və ismətli idilər. Müharibələr zamanı qızların və qadınların əsir düşmələri rüsvayçılıq hesab olunurdu.

Qədim türklər övladlarının, o cümlədən qız uşaqlarının fiziki və mənəvi sağlamlığına diqqət yetirirdilər. Bu, hələ balaca yaşlarından onlara aşılanırdı. Qədim türklər müharibədə həlak, yaxud şəhid olmağı özlərinə şərəf sanır, bunu xəstələnərək ölməkdən üstün bilirdilər. Türklərin igidliyi, qəhrəmanlığı, cəsurluğu, mərdliyi, dözümlüyü, döyüşkənliyi düşmənləri təəccübləndirərdi.

Azərbaycan ailələrində də oğul və qız tərbiyəsi tarixən önəmli hesab olunmuşdur. Nikah ittifaqına girmək ərəfəsində olan qız üçün ən qiymətli cehiz tarixən onun isməti sayılmışdır. Yuxarıda deyilənlərdən görünür ki, tarixən digər xalqlarda olduğu kimi, qədim türklərdə və azərbaycanlılarda da qız tərbiyəsi önəmli əhəmiyyət daşımış, qızların tərbiyəsinə xüsusi fikir vermiş, onları təkcə ailə üçün deyil, cəmiyyət və vətən üçün faydalı şəxsiyyətlər kimi tərbiyələndirməyə çalışmışlar. Azərbaycanda qızların tərbiyəsində ailə ənənələri, ideal qadın obrazı mühüm yer tutmuşdur.

Lap qədimdən Azərbaycanda ailədə qızların tərbiyəsi xüsusi diqqət mərkəzində dayanır, onlarda ismət, şərəf, ləyaqət, sədaqət, böyüyə hörmət, kimi mühüm keyfiyyətlər, uşağa tələbat, onun qayğısına qalmaq kimi ülvi hisslər tərbiyələndirilirdi. Şərəf və ləyaqət deyəndə həm özünün, həm də ailəsinin şərəf və ləyaqətini qorumaq, eyni zamanda üzərində gəzib-dolandığı yurdun, elin, obanın, Vətənin şərəfini öz şərəfi, ailəsinin şərəfi bilmək kimi çox nəcib xüsusiyyətlər nəzərdə tutulurdu.

Vətən əxlaqı həmişə olduğu kimi, hazırda da türk xalqlarının, o cümlədən azərbaycanlıların çox mühüm istinadgahıdır. Ziya Göyalp türklərin müxtəlif əxlaq çevrələrini diqqət mərkəzinə gətirirdi. Həmin əxlaq çevrələrinə aid idi: Vətən əxlaqı; məslək əxlaqı; ailə əxlaqı; cinsi əxlaq; mədəni əxlaq (şəxsi əxlaq); millətlərarası (beynəlmiləl) əxlaq. Vətən əxlaqından danışarkən diqqətə aşağıdakı məsələləri çatdırırdı: “Əski türklərdə vətən əxlaqı çox qüvvətliydi. Heç bir türk öz Eli, yəni milləti üçün həyatını və ən sevdiyi şeylərini fəda etməkdən çəkinməzdi. Türk haraya getsə əsas yurdu unutmazdı, çünki ata-babalarının məzarı oradaydı. Uşaqlıq çağı, ata ocağı, ana qucağı orada qalmışdı.

Qədim azərbaycanlılarda həm Vətən əxlaqı, həm məslək əxlaqı, həm ailə əxlaqı, həm də şəxsi və beynəlmiləl əxlaq son dərəcə mükəmməl idi. Ailə əxlaqı möhkəm əsaslı olmuşdur. Qız uşaqlarında, xüsusilə yeniyetmə qızlarında qadının mənlik şüurunun və özünə hörmət hissinin təşəkkül tapmasına, qızın özünü bir qadın olaraq anlamasına xüsusi diqqət yetirilirdi.

“Avesta”da tərbiyə işləri maddi və mənəvi saflıq əsasında qurulurdu. Diqqət yetirək: 1) fiziki təmizlik (bədən, geyim, ev-eşik təmizliyi); 2) mənəvi təmizlik (əqidə və əməllərin saflığı).

Söhbət insanın həm bədəninin təmizliyindən, ev-eşik, geyim təmizliyindən, eyni zamanda mənəvi təmizlikdən, başqa sözlə, oğlanın, qızın, kişinin, qadının daxili təmizliyindən gedir. “Avesta”da insan şəxsiyyəti son dərəcə yüksək qiymətləndirilir, insanın ağlına, gözəl əməllərinə inam, humanistliyi, xeyirxahlığa çağırış, namuslu yaşamaq anlayışı dəyərləndirilir.

Azərbaycanda valideynlərə hörmət ta qədimdən adət halını almışdır. Uşaqlar, o cümlədən qızlar öz atalarına məhəbbət, qayğı bəsləmiş, onun nüfuzunu qorumağa çalışmış, valideynlərinin, o cümlədən atalarının qulluğunda dayanmış, onların yanında xoşagəlməz hərəkətlərə yol verməmiş, cəmiyyətdə də elə davranmışlar ki, ailələrinə, ata-analarına söz gəlməsin, ailənin şərəfi tapdalanmasın.

Övladlar atadan əvvəl süfrə başına keçməmiş, onun işdən gəlişini gözləmişlər. Qazan ağzı, adətən ata evə gəldikdən sonra açılardı.

Deyilənlərdən bu qənaətə gəlmək mümkündür ki, qadın tərbiyəsi ilə bağlı Azərbaycan ailələrində mövcud olmuş müsbət tərbiyə ənənələrindən müasir qızların tərbiyəsində faydalanmaq səmərəli nəticələnir.

ALTAY CƏFƏRLİ
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim

MƏDƏNİ İRSİN QORUNMASININ GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan qədim tarixə və zəngin mədəni irsə malik olan bölgələrdən biridir. Minilliklər boyu formalaşmış tarixi-memarlıq abidələri xalqımızın milli kimliyinin, dövlətçilik ənənələrinin və yüksək mədəniyyətinin mühüm göstəricisi hesab olunur. Bu abidələr yalnız daş və memarlıq nümunələri deyil, həm də xalqımızın tarixini, dünyagörüşünü və milli yaddaşını özündə yaşadan canlı tarix salnamələridir. Naxçıvan ərazisində yerləşən qədim türbələr, qalalar, məscidlər və digər tarixi tikililər Azərbaycan xalqının zəngin mədəniyyətindən və qədim dövlətçilik ənənələrindən xəbər verir. Tarixi-mədəni irsin qorunması müasir dövrdə dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi diqqət mərkəzində saxlanılır. Azərbaycan dövləti tərəfindən tarixi abidələrin bərpası və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlər xalqın milli yaddaşının qorunmasına və tariximizin yaşadılmasına xidmət edir. Xüsusilə gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsində tarixi-memarlıq abidələrinin rolu olduqca böyükdür. Tarixi abidələr gənclərdə vətənə bağlılıq hissini gücləndirir və onların milli kimlik şüurunun formalaşmasına müsbət təsir göstərir. Gənclər bu abidələri tanıdıqca xalqımızın keçdiyi tarixi inkişaf yolu haqqında daha geniş məlumat əldə edirlər. Tarixi-mədəni irsin qorunması həm də cəmiyyətin milli birliyinin və mənəvi dəyərlərinin möhkəmlənməsinə təsir göstərir. Azərbaycan müstəqillik qazandıqdan sonra uzun illər baxımsız qalan və müəyyən dağıntılara məruz qalan bir çox abidələr yenidən bərpa edilmişdir. Sovet dövründə lazımi səviyyədə diqqət göstərilməyən tarixi-mədəni irs nümunələri yenidən tədqiqata cəlb olunmuşdur. Dövlət tərəfindən həyata keçirilən bərpa və konservasiya işləri nəticəsində Naxçıvanda yerləşən bir çox memarlıq abidələri əvvəlki görkəmini yenidən qazanmışdır. Bu proses yalnız tarixi irsin qorunmasına deyil, həm də gənclərdə tarixə marağın artırılmasına xidmət edir. Tarixi-mədəni irsin təbliği gənclərin milli ruhda yetişməsində mühüm rol oynayır. Məktəblərdə və ali təhsil müəssisələrində keçirilən tədbirlər, ekskursiyalar və elmi seminarlar gənclərin tarixi abidələrə marağını artırır. Bu tədbirlər vasitəsilə gənclər öz xalqının qədim tarixini daha yaxından öyrənmək imkanı əldə edirlər. Tarixi abidələrin qorunması və təbliği vətənpərvərlik tərbiyəsinin əsas istiqamətlərindən biri hesab olunur. Gənclərdə milli irsə hörmət hissinin formalaşdırılması onların gələcəkdə vətənə daha bağlı və məsuliyyətli vətəndaş kimi yetişməsinə şərait yaradır. Bu baxımdan Naxçıvanda həyata keçirilən mədəni irsin qorunması siyasəti mühüm əhəmiyyət daşıyır. Tarixi abidələrin bərpası və qorunması xalqımızın qədim mədəniyyətinin yaşadılmasına xidmət edir. Eyni zamanda bu tədbirlər gənclərin milli-mənəvi tərbiyəsinin gücləndirilməsinə mühüm təsir göstərir. Mədəni irsin qorunması xalqın keçmişinə hörmətin ifadəsi olmaqla yanaşı, gələcək nəsillərin milli ruhda yetişməsinə də xidmət edir.

Naxçıvan şəhərinin simvolu hesab olunan Mömünə Xatun Türbəsi Azərbaycan memarlıq sənətinin ən möhtəşəm nümunələrindən biridir. Bu möhtəşəm memarlıq abidəsi XII əsrdə böyük Azərbaycan memarı Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. Türbə Azərbaycan Atabəylər dövlətinin yüksək inkişaf səviyyəsini və zəngin mədəniyyətini özündə əks etdirir. Şərq memarlığının nadir incilərindən hesab olunan bu abidə həm memarlıq quruluşu, həm də estetik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Mömünə Xatun Türbəsi səkkiz əsrdən artıq bir müddətdə öz əzəmətini və möhtəşəmliyini qoruyub saxlamışdır. Bu abidə Azərbaycan xalqının qədim tarixinin və milli mədəniyyətinin canlı nümunəsidir. Türbənin üzərindəki kitabələr və həndəsi ornamentlər orta əsr Azərbaycan memarlığının yüksək inkişaf səviyyəsindən xəbər verir. Abidənin UNESCO-nun Müvəqqəti İrs Siyahısına daxil edilməsi onun beynəlxalq əhəmiyyətə malik olduğunu göstərir. Dövlət tərəfindən türbənin qorunması və bərpası istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Xüsusilə 2003-cü ildə aparılan əsaslı bərpa işləri nəticəsində türbənin ilkin tarixi görkəmi qorunub saxlanılmışdır. Bu tədbirlər gənclərin milli irsə marağının artmasına və tarixə bağlılığının

güclənməsinə mühüm təsir göstərmişdir. Tarixi-memarlıq abidələrinin qorunması gənclərin milli kimlik şüurunun formalaşmasında mühüm rol oynayır. Ümummilli lider Heydər Əliyev Mömünə Xatun Türbəsinin Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutduğunu xüsusi vurğulamışdır. Onun bu abidə haqqında söylədiyi fikirlər gənclərdə milli qürur hissinin formalaşmasına təsir göstərir. Məktəblilərin və tələbələrin bu kimi tarixi abidələri ziyarət etməsi onların tarixə marağını daha da artırır. Gənclər tarixi abidələrlə tanış olduqca xalqımızın keçmişi və dövlətçilik tarixi haqqında daha dolğun məlumat əldə edirlər. Bu isə onların vətənə bağlılıq hissini gücləndirir. Mədəni irsin qorunması və təbliği vətənpərvərlik tərbiyəsinin əsas vasitələrindən biri hesab olunur. Tarixi abidələr gənclərə xalqımızın keçdiyi şərəfli tarixi yolu öyrədir. Bu abidələr həm də milli dəyərlərin qorunmasının vacibliyini gənc nəslə aşılayır. Mömünə Xatun Türbəsi bu gün də Azərbaycan xalqının zəngin mədəniyyətinin, qədim dövlətçilik ənənələrinin və yüksək memarlıq məktəbinin canlı nümunəsi kimi öz əhəmiyyətini qoruyub saxlayır. Abidənin qorunması gələcək nəsillərin milli ruhda yetişməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən tarixi-mədəni irsin qorunması istiqamətində həyata keçirilən tədbirlər dövlət siyasətinin mühüm istiqamətlərindən biri hesab olunur.

Naxçıvanın digər mühüm memarlıq nümunələrindən biri olan Yusif Küseyir Oğlu Türbəsi də milli-mədəni irsimizin qiymətli abidələrindən hesab olunur. Bu memarlıq nümunəsi 1162-ci ildə Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. Xalq arasında “Atababa türbəsi” adı ilə tanınan bu abidə özünəməxsus memarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edir. Türbə Azərbaycanın qülləvari türbələri arasında xüsusi yer tutur. Abidənin üst hissəsinin səkkiz əsrdən artıq müddətdə dağılmadan qalması onun yüksək memarlıq keyfiyyətindən xəbər verir. Tarixi hadisələrin təsiri nəticəsində müəyyən dağıntılara məruz qalan türbə dövlət qayğısı nəticəsində yenidən bərpa edilmişdir. Xüsusilə 2019–2020-ci illərdə aparılan əsaslı bərpa işləri nəticəsində türbənin ilkin tarixi görkəmi qorunub saxlanılmışdır. Bərpa zamanı abidənin daxili və xarici hissələrində aparılan işlər onun tarixi xüsusiyyətlərinin yaşadılmasına xidmət etmişdir. Türbənin həndəsi və nəbati ornamentləri əvvəlki formasına uyğun şəkildə bərpa olunmuşdur. Bu kimi tədbirlər xalqımızın tarixi irsinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Tarixi-memarlıq abidələrinin qorunması gənclərin milli-mənəvi tərbiyəsində mühüm vasitələrdən biri hesab olunur. Gənclər bu abidələrlə tanış olduqca xalqımızın zəngin tarixi və mədəniyyəti haqqında daha geniş məlumat əldə edirlər. Bu proses onların milli kimlik şüurunun formalaşmasına və vətənə bağlılıq hissinin güclənməsinə müsbət təsir göstərir. Tarixi abidələrin məktəblərdə və ali təhsil müəssisələrində təbliği vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə kömək edir. Müxtəlif ekskursiyaların və maarifləndirici tədbirlərin təşkili gənclərin tarixi irsə marağını daha da artırır. Gənclər tarixi abidələri yaxından öyrəndikcə milli dəyərlərə daha böyük hörmətlə yanaşırlar. Tarixi-mədəni irsin qorunması cəmiyyətin milli yaddaşının yaşadılmasına xidmət edir. Bu proses həm də gənclərdə xalqın keçmişinə və mədəniyyətinə sahib çıxmaq məsuliyyəti yaradır. Mədəni irsin qorunması yalnız tarixçilərin və memarların deyil, bütövlükdə cəmiyyətin əsas vəzifələrindən biri hesab olunur. Çünki tarixi irsin yaşadılması xalqın milli kimliyinin qorunması deməkdir. Bu baxımdan Naxçıvanda həyata keçirilən mədəni irsin qorunması siyasəti mühüm əhəmiyyətə malikdir. Tarixi abidələrin bərpası və qorunması gənclərin milli ruhda yetişməsinə və vətənpərvərlik tərbiyəsinin güclənməsinə mühüm təsir göstərir. Nəticə etibarilə mədəni irsin qorunması xalqımızın keçmişinin yaşadılması ilə yanaşı, gələcək nəsillərin milli-mənəvi dəyərlər əsasında formalaşmasına da xidmət edir.

XƏYAL İSKƏNDƏROV
Bakı Avrasiya Universiteti
Müəllim
khayal.iskandarov97@gmail.com

GƏNCLƏRİN İQTİSADİ TƏRBİYƏ VƏ TƏHSİLİ

Müasir dövrdə iqtisadi tərbiyə və təhsilin ən mühüm sahələrindən biri yetişən gənc nəsildə iqtisadi şüur formalaşdırmaq, iqtisadi bilikləri mənimsətmək, onlarda qənaətcillik keyfiyyətləri aşılamaqdır. İqtisadi tərbiyə və təhsil olmadan insanın normal yaşayışı, həyat tərzi ola bilməz.

***Açar sözlər**: iqtisadi təhsil, iqtisadi tərbiyə, qənaətcillik*

Hər bir işdə qənaətcil olmaq, israf etməmək insanın maddi nemətlərdən səmərəli istifadə etməsinə əlverişli şərait yaratdığı kimi, həm də insanın mənəvi, əxlaqi keyfiyyətlərinin bir göstəricisi kimi qəbul edilə bilər. Dağ da olsa, ondan qənaətlə istifadə edilməsə, o da tükənər. Müdriklərdən biri demişdir: "Ey qənaət, səndən başqa varlanmağın başqa çarəsi yox!" Nəsihətamiz əsər olan "Kəlilə və Dimnə"də qənaətcillik haqqında belə yazılır:

Dağdan hey götürüb desən ki, çoxdur,
Bir də görəcəksən, dağ özü yoxdur.

Gənclərə iqtisadi təhsilin verilməsində və iqtisadi biliklərin mənimsədilməsində ilk növbədə onlarda iqtisadi şüur formalaşdırmaq lazımdır. İqtisadi təfəkkürün formalaşması, hər bir işdə onları qənaətcilliyə alışdırmaq iqtisadi tərbiyə və təhsil hesab edilə bilər.

Gənclərin iqtisadi təhsilində onlar anlayırlar ki, insanlar yeməyi, geyməyi və digər zəruri yaşayış vasitələrini hazır şəkildə təbiətdən almırlar. İnsanlar özlərini dolandırmaq, yaşamaq və yaşatmaq üçün maddi nemətləri istehsal etməlidirlər. Bunun üçün isə istehsalın texnologiyasını, yeni texnikanı bilmək və mükəmməl şəkildə bir peşəyə yiyələnmək lazımdır. İqtisadi təhsildə aşağıdakı amilləri nəzərə almaq lazımdır:

- İqtisadi təhsil üçün ilk növbədə gənclərin iqtisadiyyatın əsaslarına dair biliklərə yiyələnmələri lazımdır.
- İqtisadi təhsil gənclərdə qənaətcillik şüurunu və iqtisadi təfəkkürü formalaşdırmalıdır.
- İqtisadi təhsil gənclərdə iqtisadi əməl yaratmalıdır. Yəni iqtisadiyyat və qənaətcillik əməldə özünü göstərməlidir.
- İqtisadi təhsil gənclərdə sahibkarlıq və təsərrüfatçılıq qabiliyyət və bacarıqları formalaşdırmalıdır. Bu isə o deməkdir ki, gənclər yeraltı və yerüstü sərvətlərin qədrini bilməli, meşələrin, çayların, göllərin, dənizlərin təmiz saxlanmasına, maddi nemətlərin qayğısına qalmalıdırlar.
- İqtisadi təhsil gənclərdə qənaətcillik vərdişləri formalaşdırmalıdır. İqtisadi təhsil xeyirxahlıq, diqqətlilik, səliqəlilik, mütəşəkkillik, qənaətcillik kimi əxlaqi keyfiyyətlər formalaşdırmalıdır.

İqtisadi təhsilin vəzifələri bunlardır:

1. İqtisadi təhsil kiçik yaşlardan başlayaraq gənclərdə iqtisadi təfəkkürün sadə ünsürlərinin inkişafına zəmin yaratmalıdır;
2. Gəncləri iqtisadiyyatın, iqtisadi həyatın ən zəruri hadisələri ilə tanış etməli, onlarda iqtisadi təfəkkür və şüur formalaşdırmalıdır;
3. Gənclər ailədə gəlirin və çıxarın hesabını bilməli, il üçün ailə büdcəsinin planlaşdırılması və istifadəsini öyrənməli, xalq əmlakını qorumalı, əməyin və manatın qədrini bilməlidirlər.

TƏRANƏ PAŞAYEVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Fəlsəfə doktoru proqramı üzrə dissertant
ed4.k4y4@gmail.com

SƏFƏRƏLİ BƏY VƏLİBƏYOV AZƏRBAYCAN MAARİFÇİLİK HƏRƏKATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ KİMİ

Səfərəli bəy Şıxhəsən bəy oğlu Vəlibəyov XIX əsrin ikinci yarısında Azərbaycan maarifçiliyinin formalaşmasında əvəzsiz xidmətləri olan görkəmli ziyalı, pedaqoq və ictimai xadimdir. Onun həyatı və fəaliyyəti təkcə şəxsi bioqrafiya kimi yox, həm də bir dövrün mədəni, ictimai və siyasi mənzərəsinin güzgüsüdür. 1861-ci ildə Qarabağın mədəni mərkəzi olan Şuşa şəhərində dünyaya göz açan Səfərəli bəy uşaq yaşlarından zəngin Qarabağ mühitinin təsiri altında formalaşmışdır.

***Açar sözlər**: Səfərəli bəy, Vəlibəyov, maarifçilik, maarifçilik hərəkatı, nümayəndə, görkəmli nümayəndə*

XIX əsrin sonlarında Bakı neft sənayesinin inkişafı, şəhərləşmə və iqtisadi tərəqqi nəticəsində cəmiyyətdə yeni sosial təbəqələr formalaşdı. Savadlı kadrların, mühəndislərin, müəllimlərin və məmurların artan tələbatı maarifçilik ideyalarının yayılmasını sürətləndirdi. Ziyalı təbəqə maarifçilik hərəkatının ideoloji və təşkilati dayağına. Xeyriyyə cəmiyyətləri, məktəb açma təşəbbüsləri, qəzet və jurnal nəşri maarifçilik ideyalarının yayılması üçün əsas vasitələr oldu. Maarifçilər yalnız təhsilin əhəmiyyətini təbliğ etməklə kifayətlənmir, həm də pedaqoji məsələlər barədə düşünür, yeni dərs metodları, sinif-dərs sistemi və müəllim hazırlığı haqqında tövsiyələr verirdilər. Bu, maarifçilik hərəkatının pedaqoji məzmununu formalaşdırırdı.

Məhz bu mühitdə Səfərəli bəy Vəlibəyov (1861-1902) kimi müəllim və maarifçilər yetişdi. O, Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin ilk məzunlarından biri olmuş, uzun illər pedaqoji fəaliyyət göstərmiş, yeni məktəblərin açılmasında və tədris prosesinin təşkili məsələlərində mühüm rol oynamışdır. Səfərəli bəy Vəlibəyovun fəaliyyəti maarifçilik hərəkatının pedaqoji ideyalarının konkret ifadəsi kimi qiymətləndirilir. Onun pedaqoji görüşləri, dərs metodikası və müəllim hazırlığı sahəsində irəli sürdüyü təkliflər həmin dövrün milli təhsil ideologiyasının tərkib hissəsinə çevrilmişdir.

Beləliklə, Azərbaycan maarifçilik hərəkatı milli düşüncənin, ictimai tərəqqinin və pedaqoji fikir tarixinin mühüm mərhələsini təşkil etmişdir. Bu hərəkat cəmiyyətin modernləşməsinə, milli kimliyin möhkəmlənməsinə və təhsilin dünyəviləşməsinə xidmət etmişdir. Maarifçilik ideyalarının təsiri altında pedaqoji fikir sistemi formalaşmış, müəllimlik peşəsi və yeni məktəb hərəkatı yüksək nüfuza malik olmuşdur. Bu zəmin Səfərəli bəy Vəlibəyov kimi maarifçi pedaqoqların yetişməsi üçün əsas sosial-ideoloji mühit yaratmışdır və növbəti mərhələlərdə Səfərəli bəy Vəlibəyovun pedaqoji görüşlərinin təhlili bu kontekst üzərində aparılmalıdır.

Səfərəli bəy Vəlibəyov fəaliyyətində rus və Şərq maarifçilik ənənələrinin sintezindən çıxış edərək təhsilin milli dəyərlər üzərində qurulmasını vacib hesab etmişdir. Klassik Şərq təhsil sisteminə məxsus mənəvi-əxlaqi prinsipləri Avropa pedaqoji metodlarının elmi və praktik üstünlükləri ilə uzlaşdırmağa çalışan Səfərəli bəy Vəlibəyov təlim prosesində müasirlik və milli xüsusiyyətlərin vəhdətinə nail olmağa çalışmışdır. Bu yanaşma onun pedaqoji irsində həm metodik yeniliklərin, həm də milli maarifçilik ideallarının paralel şəkildə inkişaf etdiyini göstərir.

Səfərəli bəy Şıxhəsən bəy oğlu Vəlibəyov XIX əsrin ikinci yarısında Azərbaycan maarifçiliyinin formalaşmasında əvəzsiz xidmətləri olan görkəmli ziyalı, pedaqoq və ictimai xadimdir. Onun həyatı və fəaliyyəti təkcə şəxsi bioqrafiya kimi yox, həm də bir dövrün mədəni, ictimai və siyasi mənzərəsinin güzgüsüdür. 1861-ci ildə Qarabağın mədəni mərkəzi olan Şuşa şəhərində dünyaya göz açan Səfərəli bəy uşaq yaşlarından zəngin Qarabağ mühitinin təsiri altında formalaşmışdır.

Səfərəli bəy müasirləri arasında təkcə yaxşı müəllim kimi tanınmamışdı. O, həm də görkəmli maarif xadimi, ustad metodist, bacarıqlı tərcüməçi və hərtərəfli biliyə malik alim kimi şöhrətlənmişdi. Onun "Vətən dili" (II hissə, A.O.Çernyayevski ilə birlikdə) dərsliyi, rus dilindən etdiyi tərcümələr, "Qüdrəti-xuda", "Üsuli-cədid", tarix, ədəbiyyat, coğrafiya kitabları və görkəmli adamların tərcümeyi-halına dair məlumat verən "Xəzineyi-əxbar" adlı ensiklopedik səciyyəli əsəri uzun illər Azərbaycanda uşaqların sevdikləri kitablar olmuşdur.

Səfərəli bəyin pedaqoji görüşlərinin əsasını üç mühüm prinsip təşkil edirdi: birincisi, təhsilin ana dilində təşkili idi. O, hesab edirdi ki, milli kimliyin qorunması, mədəni irsin gələcək nəsillərə ötürülməsi üçün uşaqlar ilk təhsillərini mütləq ana dilində almalıdırlar. Bu, həm də uşaqların dərsi daha yaxşı mənimsəməsinə, şəxsiyyət kimi formalaşmasına yardım edirdi. İkinci prinsip müasir təlim metodlarının tətbiqi idi. O, Avropa pedaqogikasından öyrəndiyi metodları yerli şəraitə uyğunlaşdırır, dərslərində vizual vasitələrdən, əyani vəsaitlərdən istifadə edir, şagirdlərin diqqətini fəal şəkildə dərs prosesinə cəlb edirdi. Üçüncü mühüm prinsip müəllimin şəxsiyyət rolunun önə çıxarılması idi. S.Vəlibəyova görə, müəllim yalnız bilik ötürən deyil, həm də tərbiyəçidir; o, öz davranışı, əxlaqı, dünyagörüşü ilə şagirdlərə nümunə olmalıdır.

Vəlibəyovun müəllimlik fəaliyyəti dövrünün şərtlərinə uyğun olaraq qəbul edilərək, geniş yayılma qazanmış və öz dövründən sonrakı nəsillərə təsir etmişdir. O, Azərbaycan təhsil sisteminin inkişafına böyük töhfə vermək və milli mədəniyyətimizin qorunması və inkişafına xidmət etmək üçün əsaslı bir əmək sarf etmişdir.

Müəllimlik fəaliyyəti ilə Vəlibəyov, öz şagirdlərinə rəhbərlik edərək onları mənəviyyat və mədəniyyətə dəyər verən bədən və ruh sağlamlığına fokuslanmağa məşğul etməkdən çəkinmirdi. O, şagirdlərin sağlam və dengəli bir həyat tərzi qurmaq və mədəni, ədəbi və incəsənətə həvəs qazandırmaq üçün tədbirlər təşkil edirdi. Bu, şagirdlərin səmərəli, cəmiyyətə faydalı və dəyərli şəxsiyyətə çevrilməsinə yardımçı olurdu.

Vəlibəyovun müəllimlik metodları təşkilatçı, interaktiv və müzakirəyə əsaslanan idi. O, şagirdlərin aktiv iştirakını təmin edərək öz fikirlərini ifadə etmələrini dəstəkləyirdi. Həmçinin, sənətə əsaslanan tədris metodu ilə şagirdlərin yaradıcılığını inkişaf etdirməyə çalışırdı.

Vəlibəyovun müəllimlik metodları, dərs təşkilatı və tədris texnologiyaları öz zamanının şərtlərinə uyğun olmaqla, yenilikçi və məqsədəuyğun idi. O, şagirdlərin interaktiv şəkildə iştirak etməsini təmin etmək üçün təcrübələrini, məsələləri həll etmək üçün təşkilatçı və müzakirəyə əsaslanan metodlarını tətbiq edirdi. Bu, şagirdlərin aktiv iştirakını və öz fikirlərinin ifadəsini təmin edərək onların təhsil prosesində daha effektiv olmalarına kömək edirdi.

Azərbaycan dilində tərtib edilən oxu kitabları içərisində S.Vəlibəyovun 1888-ci ildə Tiflisdə "Kəşkül" qəzetinin mətbəəsində çap etdirdiyi risalə ayrıca əhəmiyyət kəsb edir. Kitabça belə adlanır: "İbtidai məktəb şagirdlərinə məxsus və hüsnü əxlaqa dair Azərbaycan dilində oxu risaləsi". Risaləyə "Qüdrəti Xuda" yəni "Allahın qüdrəti" sözləri epiqraf seçilmişdir. Kitabın Azərbaycan dilində olan titul səhifəsində onun Tiflisdə nəşr olunduğu göstərilir. Əsər Sankt-Peterburq şəhərindəki S.Şedrin adına Dövlət Kütləvi Kitabxanasının "SSRİ xalqlarının ədəbiyyatı" şöbəsində saxlanılır.

LEYLA BABAYEVA
Gəncə Dövlət Universiteti
Fəlsəfə doktoru proqramı üzrə dissertant
l.babayeva16@gmail.com

PEDAQOJİ TOLERANTLIQ GƏLƏCƏK MÜƏLLİMİN MÜHÜM MƏNƏVİ KEYFİYYƏTLƏRİNDƏN BİRİ KİMİ

Ali təhsil müəssisələrinin tələbələrində tolerantlığın, o cümlədən pedaqoji tolerantlığın tərbiyə olunmasında həm təlim prosesi, mühazirə və seminar məşğələləri, həm də auditoriyadankənar tədbirlər geniş imkanlara malikdir.

Məqalədə həm təlim prosesinin, həm də aauditoriyadankənar tədbirlərin tələbələrdə (gələcək müəllimlərdə) pedaqoji tolerantlığın formalaşdırılması baxımından imkanları araşdırılır.

***Açar sözlər**: mənəvi keyfiyyət, gələcək müəllim, tolerantlıq, pedaqoji tolerantlıq, pedaqoji tolerantlığın tərbiyə olunması*

Ölkəmizdə hər zaman milli və dini tolerantlıq mövcud olmuşdur. Azərbaycanda etnoslar və müxtəlif dinlərin nümayəndələri tarixən dinc yanaşı yaşamış, işləmiş, cəmiyyətin həyatında yaxından iştirak etmişlər. Xalqlar həmrəylik, dostluq, qardaşlıq münasibətində olmuşlar. Təkcə ermənilər xəyanətkar mövqe tutmuşlar.

Hər il Bakıda və respublikamızın hər bir şəhər və rayonunda 16 noyabr -Beynəlxalq Tolerantlıq Gününə həsr olunmuş tədbirlər, konfranslar təşkil olunur. Diqqət yetirək: Sabunçu Rayon Gənclər Evi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə “16 Noyabr - Beynəlxalq Tolerantlıq Günü və Azərbaycanın Multikulturalizm Modeli” mövzusunda seminar-mühazirə” (15 noyabr 2021-ci il); Kürdəmir rayonunda 16 noyabr – Beynəlxalq Tolerantlıq gününə həsr edilmiş tədbir (2021-ci il); F. Köçərli adına Respublika Uşaq Kitabxanasında vaxtaşırı təşkil olunan “Tolerantlıq həftəsi” və s. və i.a.

Tolerantlıq latınca *tolerantia* – təmkinli, hövsələli, səbirli, dözümlü olmaq, deməkdir. Tolerantlıq aqressiya olmadan hər hansı bir şəxsin fikrinə, hisslərinə, davranış, rəftar və hərəkətlərinə, mövqeyinə, özünü ifadə formalarına, adət-ənənələrinə, münasibətinə, həyat tərzinə, fərqli dünyagörüşünə təmkinli yanaşmanı, anlaşıqlı münasibəti nəzərdə tutur və insanların bir-biri ilə dinc yanaşı yaşamasına tələbata çevirir.

Tolerantlığın bir çox növləri vardır. Onların arasında pedaqoji tolerantlıq xüsusi əhəmiyyət daşıyır. Hər bir insan, o cümlədən müəllim tolerant olmalıdır, lakin pedaqoji peşə sahibinin eyni zamanda pedaqoji tolerantlığa yiyələnməsi son dərəcə vacibdir.

Pedaqoji tolerantlıq dedikdə, nə başa düşülməlidir?

Pedaqoji tolerantlıq dedikdə, digər şəxsi (müəllimin həmkarlarını, şagirdi, tələbəni, valideyni və b.) qəbul etmək, onu başa düşmək, ona rəğbət bəsləmək bacarığını özündə birləşdirir. Pedaqoji tolerantlıq gündəlik qarşılıqlı münasibətdə olduğu şəxslərlə açıq və etibarlı ünsiyyətdə öz ifadəsini tapır.

Azərbaycanda, eyni zamanda xarici ölkələrdə təhsilalanlarda tolerantlığın, həm də pedaqoji tolerantlığın formalaşdırılması probleminə həsr edilmiş bir sıra dissertasiyalar müdafiə olunmuş, kitab və kitabçalar, elmi məqalələr qələmə alınmışdır. Respublikamızda prof. A.N.Abbasov ailə münasibətlərində tolerantlıqla əlaqədar araşdırmalar aparmış, pedaqogika üzrə fəlsəfə doktoru İ.B.Əmirəliyeva – tələbələrdə tolerantlığın tərbiyə olunması ilə bağlı dissertasiya müdafiə etmişdir. P.B.Əliyevin təhsilalanlarda tolerantlıın formalaşdırılması ilə bağlı tədqiqatları da çox diqqətəlayiqdir.

MDB məkanına daxil olan ölkələrdə L.M.İvanova, N.V.Kukişkin, Q.Q.Maslova və b. tədqiqatları təhsilalanlarda - tolerantlığın; Y.Kalitova, N.O.Lipatova və b. əsərləri pedaqoji tolerantlığın tədqiqinə aiddir.

Tələbə oğlan vəz qızlarda tolerantlığın, o cümlədən pedaqoji tolerantlığın formalaşdırılmasında həm təlim prosesi, mühazirə və seminar məşğələləri, həm də auditoriyadankənar tədbirlər son dərəcə əhəmiyyətli rola malikdir.

Şəxsiyyətin başlıca fəaliyyət növlərindən olan təlim prosesi tədris və öyrənmə kimi mühüm prosesləri özündə birləşdirir. Təlimin təşkili zamanı müəllimin fəaliyyəti prosesi tarixən – tədris (öyrətmə), tələbənin fəaliyyəti – öyrənmə adlanmışdır.

Bildiyimiz kimi, təlimin 3 əsas funksiyası vardır: öyrətmək, tərbiyələndirmək, inkişaf etdirmək. Öyrətmək vəzifəsi birinci, ən müəyyənedici vəzifələrdəndir. Həmin vəzifənin başlıca məqsədi yalnız mühüm sayılan məlumatları seçib götürməkdən yox, eyni zamanda bilikləri mənimsəməkdən ibarətdir.

Müəllimin pedaqoji prosesi, təlim prosesini, mühazirə və seminar məşğələlərini idarə etməsi öyrətmə fəaliyyətinə aiddir.

Tələbələrdə pedaqoji tolerantlığın formalaşdırılması baxımından ali məktəb fənlərinin zəngin imkanları vardır. Təhsilə aid dövlət və hökumət sənədlərində, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanlarında və sərəncamlarında təlim və tərbiyə prosesinin təkmilləşdirilməsi zəruri məsələ olaraq diqqət mərkəzinə gətirilir.

Mənimsəmə sayəsində qazanılan biliklər müəyyən sistem təşkil edir və təcrübəyə tətbiq olunması mümkündür. Tələbələrin tapşırıqları icra etmələri, qazanılan bilik və məlumatlardan faydalanmaları, özünütəhsillə məşğul olmaları, bacarıq və vərdişlərə yiyələnmələri, idraki qabiliyyətlərini inkişaf etdirmələri öyrənmə fəaliyyətinə daxildir.

Müəllim fənlərin tədrisi zamanı səmərəli metod və vasitələrdən faydalanmaqla nəinki tələbələri zəruri biliklərlə silahlandırır, eyni zamanda ayrı-ayrı mövzuların tərbiyələndirici və təhsilləndirici imkanlarından istifadə edərək, şəxsiyyətlərarası münasibətləri, müəllim-tələbə münasibətlərini, pedaqoji əməkdaşlığı təmin edərək həm də təhsilalanlarda pedaqoji tolerantlığın inkişaf etdirilməsi qayğısına qalır.

Mühazirə və seminar məşğələləri müəyyən vaxt çərçivəsində aparıldığından bəzən bu və ya digər məsələnin üzərində geniş dayanmaq olmur. Bu baxımdan auditoriyadankənar tədbirlərin imkanları zəngindir. Vaxt baxımdan məhdudiyyət yoxdur, eyni zamanda auditoriyadankənar işin təşkili formaları çoxdur.

Auditoriyadankənar işlərin köməyilə tələbələrin vaxtları maraqlı və mənalı olur, həm də gənclər tələbə kollektivində özlərini reallaşdırmaq imkanı qazanırlar. Bütün bunlar fəaliyyətlərinin nəticələrindən məmnunluq hissi duymaqda onlara kömək göstərir. Tələbələr həm də zəruri praktik təcrübəyə yiyələnirlər. Auditoriyadankənar iş tələbələrə təşkilatçılıq qabiliyyətlərini, müstəqilliklərini, yaradıcı fəallıqlarını inkişaf etdirir.

Tədris-təlim prosesi və auditoriyadankənar iş bir-birini tamamlayır. Biri digərinin mövcudluğunu tələbata çevirir. Bir sıra hallarda təlim prosesində nəzərdən keçirilən məsələ auditoriyadankənar tədbirdə davam etdirilir.

Nəzərdən keçirdiyimiz problemin reallaşdırılması baxımından auditoriyadankənar iş ikili vəzifəni yerinə yetirir:

1) auditoriyadankənar işin hər hansı növü *bilavasitə* pedaqoji tolerantlıq probleminə həsr olunur. Məsələn, "Müəllimin pedaqoji tolerantlığı" (söhbət), "Müəllimin pedaqoji tolerantlılıq keyfiyyətinə malik olması hökmən lazımdırmı?" (disput), "İntolerantlıq: faydası varmı?" (dəyirmi masa ətrafında rəy mübadiləsi" və s.

2) auditoriyadankənar tədbir başqa problemə həsr olunur, lakin yeri gəldikcə müəllimin tolerantlıq mədəniyyəti, onun pedaqoji tolerantlığı peşə və şəxsi keyfiyyəti yada salınır, iştirakçıların

fikirləri öyrənilir (*problemlə bilvasitə bağlılıq*). Məsələn, “Müəllimin şəxsi keyfiyyətləri” (müzakirə), “Müəllimin pedaqoji ustalığı” (konfrans), “Müasir müəllim: o necə olmalıdır?” (disput) və s.

Auditoriyadankənar tədbirlərdə tələbələr nəyə qabil olduqlarını, ailədə, pedaqoji təcrübə zamanı qazandıqları bacarıqları qrup yoldaşlarına nümayiş etdirirlər. Təlim prosesinin məcburi elementi tədris materialının mənimsənilməsi işinə nəzarətdirsə, auditoriyadankənar tədbirdə bu kimi nəzarət yoxdur.

Auditoriyadankənar işlərin təşkili zamanı müəllim yaradıcı axtarışda olmalıdır. Tələbələrin şəxsiyyətinə bələd olmadan və qrup kollektivinin xüsusiyyətini bilmədən təlim və tərbiyə prosesini, auditoriyadankənar işi layihələndirərək idarə etmək çətinliklər yaradır.

Gənclərin psixoloji-pedaqoji baxımdan öyrənilməsi, onların arzu, istək, maraq və meyllərinin meydana çıxarılması, həm də təlimdə yetirməməsinin və bəzilərinin davranışındakı nöqsanların səbəblərinin müəyyən edilməsi düzgün pedaqoji təsirlər sistemi müəyyənləşdirməkdə ali məktəb müəlliminə və tələbəyə kömək göstərir.

Auditoriyadankənar tədbirlər vasitəsilə tələbələr kollektivin ümumi marağını, həm də mənafeyini uca tutur, təşəbbüskar olur, tapşırılan işə məsuliyyətlə yerinə yetirir, birgə fəaliyyət göstərirlər. Onlar həm də bir-birlərinə hörmətlə yanaşır, bir-birlərinin nüfuzunu qoruyurlar. Gənc oğlan və qızlar ali məktəbdə, ailədə, ictimai yerlərdə etik qaydaları yerinə yetirir, mütəşəkkillik nümayiş etdirir, ünsiyyətdə səmimiyyəti, mehribanlığı, xeyirxahlığı, xoş münasibəti gözləyir, ad günlərində bir-birlərini təbrik edirlər.

Tələbələr əxlaqi söhbətləri dinləyərək daxili və xarici gözəlliyin qarşılıqlı əlaqəsi ilə bağlı təsəvvürlərə, mərifət, nəzakətlilik, səliqəlilik, dəqiqlik və s. keyfiyyətlərə sahib olurlar.

Bakı Dövlət Universitetinin Qazax filialında “Müəllimin peşə və şəxsi keyfiyyətləri” mövzusunda tədbirdə “Qızlar oğlanlarla dostluq edə bilərmi?” problemi də diqqət mərkəzində dayanmışdır. Bu məsələdən danışılarkən aşağıdakı nümunə yada salınmışdır. *Bir şagirdin etirafı*: ”Mən öz sinfimizdə bir oğlanla dostluq edirdim. Bir gün dərsdən sonra məktəbə gəlmişdik. Növbəti divar qəzetinin materiallarını hazırlayırdıq. Müəllimlərdən biri bizi görən kimi: “Burada nə edirsiniz? Bir baş evə! Eyib olsun!”

Biz getdik. Ancaq “eyib olsun”un nə üçün deyildiyini hələ də anlamamışam.

Tələbələr münasibət bildirirlər: Müəllim səbirsizlik edir. Düşünmədən, məsələnin mahiyyətinə varmadan ona düzgün olmayan münasibət bildirir. Özü də bu münasibət təhqiredici, xoşagəlməzdir. Oğlan və qızların təmiz, saf münasibətlərinə kölgə salır.

Auditoriyadankənar işin söhbət, müzakirə, disput, tematik axşam, müsabiqə, tələbə konfransı, teatr, televiziya tamaşalarına, filmlərə, sərgilərə baxışlar və s. formalarından istifadə olunur. Tədbirlərdə “tolerantlıq”, “pedaqoji tolerantlıq”, “intolerantlıq” anlayışlarının mahiyyətinə aydınlıq gətirilir. Tolerantlığın – müsbət, intolerantlığın – mənfi keyfiyyət olduğu diqqətə çatdırılır. Hirslənən, qəzəblənən vaxtı hirsini, qəzəbini boğa bilməyən pedaqoji peşə sahibləri qınaq obyektinə çevrilir. Pedaqoji tolerantlıq kimi mühüm şəxsi və peşə keyfiyyətlərinə hər bir müəllim, o cümlədən tələbələr (gələcək müəllimlər) sahib olmalıdır.

Yuxarıda deyilənlərlə bağlı aşağıdakı nəticəyə gəlmək mümkündür: sistemli, məqsədyönlü və fasiləsiz aparılan auditoriyadankənar işlər tələbələrin (gələcək müəllimlərin) pedaqoji tolerantlığa yiyələnmələrinə öz köməyini göstərir.

PƏRİHAN ƏHMƏDOVA
Bakı Qızlar Universiteti
Magistrant
perihanehmedova@gmail.com

AĞARƏHİM RƏHİMOVUN TARİXİ ROMANLARINDA ŞAGİRDLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNİN QOYULUŞU

Məqalədə Ağarəhim Rəhimov tarixi romanlarında şagirdlərin mənəvi tərbiyəsi, vətənpərvərlik və əxlaqi dəyərlər təhlil olunur. Qəhrəmanların davranışları və mənəvi seçimləri gənclərin şəxsiyyət kimi formalaşmasına təsir baxımından araşdırılır, əsərlərin tərbiyəvi əhəmiyyəti vurğulanır.

Açar sözlər: *vətənpərvərlik, mənəvi tərbiyə, əxlaq, şagird*

Giriş. Azərbaycan ədəbiyyatında tarixi roman janrı xalqın milli yaddaşının, tarixi keçmişinin və mənəvi dəyərlərinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu janr yalnız hadisələrin xronoloji təsviri ilə kifayətlənmir, eyni zamanda oxucunun düşüncə tərzinə, dünyagörüşünə və mənəvi formalaşmasına təsir göstərir. Bu baxımdan Ağarəhim Rəhimov Azərbaycan ədəbiyyatında tarixi romanları ilə seçilən və gənc nəslin tərbiyəsinə xüsusi diqqət yetirən yazıçılardan biridir. Onun əsərlərində tarix sadəcə fon rolunu oynamır, əksinə, insanın mənəvi inkişafının, xüsusilə şagirdlərin şəxsiyyət kimi formalaşmasının əsas vasitəsinə çevrilir.

Müasir dövrdə gənclərin mənəvi tərbiyəsi cəmiyyətin ən aktual problemlərindən biridir. Texnologiyanın sürətli inkişafı, qloballaşma prosesləri və müxtəlif mədəni təsirlərin artması nəticəsində gənclərin dəyər sistemində dəyişikliklər baş verir. Belə bir şəraitdə ədəbiyyat, xüsusilə tarixi romanlar, milli-mənəvi dəyərlərin qorunması və təbliği baxımından mühüm vasitə kimi çıxış edir. Ağarəhim Rəhimovun yaradıcılığı da məhz bu funksiyanı yerinə yetirərək şagirdlərin tərbiyəsində əhəmiyyətli rol oynayır.

Əsas hissə

Ağarəhim Rəhimovun tarixi romanlarında şagirdlərin mənəvi tərbiyəsi çoxşaxəli şəkildə təqdim olunur və müxtəlif ideya-estetik vasitələrlə oxucuya çatdırılır. Yazıçının əsərlərində ilk növbədə vətənpərvərlik ideyası ön plana çıxır. Onun yaratdığı gənc obrazlar doğma torpağa bağlılıq, milli kimlik hissi və xalqın taleyinə məsuliyyət duyğusu ilə seçilirlər. Tarixi hadisələrin fonunda təsvir olunan bu qəhrəmanlar çətinliklər qarşısında geri çəkilməyərək, əksinə, mübarizə aparır, öz mövqelərini qoruyurlar. Bu isə şagirdlər üçün mühüm tərbiyəvi nümunə rolunu oynayır və onlarda vətənə sevgi hissinin formalaşmasına xidmət edir.

Yazıçının romanlarında mənəvi tərbiyənin əsas istiqamətlərindən biri də əxlaqi keyfiyyətlərin aşılanmasıdır. Onun qəhrəmanları dürüstlük, ədalət, mərdlik, sədaqət və vicdanlılıq kimi xüsusiyyətləri ilə seçilirlər. Bu keyfiyyətlər yalnız sözlə deyil, konkret hadisələr və situasiyalar vasitəsilə göstərilir. Məsələn, qəhrəmanların çətin seçim qarşısında qalması, şəxsi maraqlar ilə ümumi mənafelər arasında tərəddüd etməsi onların daxili dünyasını açır və oxucunu düşünməyə vadar edir. Bu cür bədii yanaşma şagirdlərdə analitik düşüncə qabiliyyətini inkişaf etdirir və onların mənəvi seçim etmə bacarığını gücləndirir.

Ağarəhim Rəhimovun əsərlərində müəllim və şagird münasibətləri də mühüm yer tutur. Müəllif bu münasibətləri sadəcə bilik ötürülməsi kimi deyil, həm də mənəvi dəyərlərin formalaşdırılması prosesi kimi təqdim edir. Müdrik müəllim obrazları şagirdlər üçün yalnız bilik mənbəyi deyil, həm də həyat yolunu göstərən rəhbər kimi çıxış edir. Onlar şagirdlərə doğru ilə yanlışı ayırmağı, məsuliyyətli qərarlar verməyi və insanlıq prinsiplərinə sadiq qalmağı öyrədirlər. Bu münasibətlərdə qarşılıqlı hörmət, etibar və anlayış əsas rol oynayır ki, bu da müasir pedaqoji prinsiplərlə səsləşir.

Şagirdlərin mənəvi tərbiyəsində ailə faktorunun rolu da yazıçının diqqətindən kənarda qalmır. Rəhimov göstərir ki, insanın xarakteri və dünyagörüşü ilk növbədə ailədə formalaşır. Valideynlərin davranışı, onların həyat prinsipləri və uşaqlara verdiyi tərbiyə gələcəkdə gəncin şəxsiyyət kimi inkişafında həlledici rol oynayır. Yazıçının əsərlərində ailə dəyərləri, böyüklərə hörmət, kiçiklərə

qayğı, milli adət-ənənələrə bağlılıq kimi xüsusiyyətlər geniş şəkildə təsvir olunur. Bu isə şagirdlərə düzgün davranış modelləri təqdim edir və onların sosial adaptasiyasını asanlaşdırır.

Bununla yanaşı, yazıçı cəmiyyətin və sosial mühitin də şagirdlərin tərbiyəsinə təsirini göstərir. Gənclər yalnız ailə və məktəb çərçivəsində deyil, həm də daha geniş ictimai mühitdə formalaşırlar. Dost çevrəsi, ictimai münasibətlər, sosial ədalət anlayışı onların dünyagörüşünə təsir edir. Rəhimov bu prosesləri real və inandırıcı şəkildə təsvir edərək göstərir ki, sağlam sosial mühitdə böyüyən gənclər daha möhkəm mənəvi dəyərlərə malik olurlar.

Tarixi romanlarda diqqət çəkən ən mühüm məsələlərdən biri mənəvi seçim problemidir və bu problem xüsusilə Ağarəhim Rəhimov yaradıcılığında dərin psixoloji və fəlsəfi məzmunla təqdim olunur. Yazıçı qəhrəmanlarını elə situasiyalara salır ki, onlar adi həyat şəraitində üzə çıxmayan daxili keyfiyyətlərini məhz sınaq anlarında nümayiş etdirməli olurlar. Bu sınaqlar təsadüfi deyil, tarixi şəraitin yaratdığı mürəkkəb və ziddiyyətli vəziyyətlərin nəticəsidir. Belə hallarda qəhrəmanlar yalnız xarici düşmənlə deyil, həm də öz daxilindəki tərəddüdlə, qorxu ilə, vicdan səsi ilə mübarizə aparırlar. Bu daxili mübarizə onların mənəvi portretini formalaşdırır və oxucuya insan xarakterinin dərin qatlarını anlamağa imkan verir.

Mənəvi seçim situasiyaları xüsusilə o baxımdan əhəmiyyətlidir ki, burada qəhrəmanlar çox vaxt iki ziddiyyətli yol arasında qalırlar: ya şəxsi rifahı, təhlükəsizliyi və maraqları seçmək, ya da daha böyük – ictimai, milli və ya mənəvi dəyərləri üstün tutmaq. Bu seçimlər heç də asan olmur, çünki hər bir qərarın ciddi nəticələri vardır. Bəzən qəhrəman öz həyatını risk altına qoymalı olur, bəzən ailəsini, yaxınlarını təhlükəyə atmaq ehtimalı ilə üzləşir. Lakin məhz bu məqamda onun əsl kimliyi üzə çıxır. Əgər o, ümumi mənafeləri seçirsə, bu, onun yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir. Bu cür obrazlar şagirdlər üçün güclü tərbiyəvi nümunə rolunu oynayır, onlara öyrədir ki, həqiqi insanlıq yalnız rahat və təhlükəsiz şəraitdə deyil, çətin və məsuliyyətli anlarda formalaşır.

Eyni zamanda, yazıçı mənəvi seçimlərin nəticələrini də xüsusi diqqətlə göstərir. Qəhrəmanın verdiyi qərar onun gələcək taleyinə birbaşa təsir edir. Doğru seçim edən obrazlar mənəvi baxımdan yüksəlir, cəmiyyət tərəfindən hörmət qazanır və daxili rahatlıq əldə edir. Əksinə, yanlış seçim edənlər vicdan əzabı, peşmançılıq və bəzən də faciə ilə üzləşirlər. Bu qarşılaşdırma üsulu şagirdlərə səbəb-nəticə əlaqəsini anlamağa kömək edir və onları daha məsuliyyətli düşünməyə sövq edir. Onlar başa düşürlər ki, hər bir qərar insan həyatında iz buraxır və bu iz yalnız şəxsi deyil, həm də ictimai xarakter daşıya bilər.

Yazıçının bədii dili və üslubu isə bu tərbiyəvi ideyaların oxucuya daha təsirli şəkildə çatdırılmasında mühüm rol oynayır. Ağarəhim Rəhimovun dili sadə olmaqla yanaşı, olduqca obrazlı və emosionaldır. O, təsvir etdiyi hadisələri elə canlı təqdim edir ki, oxucu özünü həmin mühitin içində hiss edir. Təbiət təsvirləri, döyüş səhnələri, insan münasibətləri incə detallar vasitəsilə canlandırılır və bu da hadisələrin reallıq təsirini gücləndirir. Obrazların daxili aləmi isə monoloqlar, dialoqlar və psixoloji təsvirlər vasitəsilə açılır. Bu üsullar oxucuya qəhrəmanın hisslərini, tərəddüdlərini və qərarvermə prosesini daha dərindən anlamağa imkan verir.

Emosionallıq da yazıçının üslubunun əsas xüsusiyyətlərindən biridir. O, hadisələri yalnız təsvir etmir, həm də oxucunun hisslərinə təsir göstərir. Qəhrəmanın keçirdiyi qorxu, sevinc, ümid və ya ümidsizlik hissləri oxucu tərəfindən də yaşanır. Bu emosional bağlılıq şagirdlərin əsərə münasibətini dəyişir: onlar artıq passiv oxucu deyil, hadisələrin fəal iştirakçısı kimi düşünməyə başlayırlar. Bu isə onların empatiya qabiliyyətini inkişaf etdirir, başqalarının hisslərini anlama bacarığını gücləndirir.

Beləliklə, bədii dilin ifadəliliyi və mənəvi seçimlərin dərinliyi bir-biri ilə sıx bağlı şəkildə şagirdlərin tərbiyəsinə xidmət edir. Oxucu yalnız hadisələri öyrənmir, eyni zamanda bu hadisələr vasitəsilə həyat dərsi alır. O, qəhrəmanların yerində özünü təsəvvür edir, “mən olsaydım necə davranardım?” sualını özünə verir. Məhz bu sual şagirdin mənəvi inkişafında dönüş nöqtəsi yaradır, onun həyat baxışlarının formalaşmasına, dəyərlər sisteminin möhkəmlənməsinə ciddi təsir göstərir.

Nəticə. Nəticə etibarilə, Ağarəhim Rəhimovun tarixi romanları şagirdlərin mənəvi tərbiyəsində mühüm rol oynayan dəyərli ədəbi nümunələrdir. Bu əsərlərdə vətənpərvərlik, əxlaq, humanizm, ədalət və milli dəyərlərə bağlılıq kimi keyfiyyətlər yüksək bədii səviyyədə təqdim olunur. Yazıçı

tarixi hadisələri ustalıqla təqdim etməklə yanaşı, gənc nəslin mənəvi dünyasının formalaşmasına da ciddi təsir göstərir.

Onun yaradıcılığı sübut edir ki, ədəbiyyat yalnız estetik zövq mənbəyi deyil, həm də güclü tərbiyə vasitəsidir. Bu baxımdan, Rəhimovun əsərləri məktəb proqramlarında və tərbiyə prosesində geniş istifadə oluna bilər. Bu əsərlərin oxunması şagirdlərin həm intellektual, həm də mənəvi inkişafına müsbət təsir göstərərək onları cəmiyyət üçün faydalı, məsuliyyətli və yüksək mənəvi keyfiyyətlərə malik fərdlər kimi formalaşdırır.

PANEL 15. ÜMUMİ TƏHSİLİN DİGƏR AKTUAL MƏSƏLƏLƏRİ ELMİ TƏDQİQATLARDA - 01

YUSİF SƏFƏROV
Naxçıvan Müəllimlər İnstitutunun professoru
Filologiya üzrə elmlər doktoru
YusifSafarov@nmi.edu.az

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ AKTUAL PROBLEMLƏRİN TƏDRİSİNƏ DAİR

Müasir dövrümüzdə çox sahədə, xüsusən elm, təhsil, mədəniyyət qrumlarının fəaliyyəti şəxsiyyətin inkişafına və kamilləşməsinə yönəldilmişdir. Təhsildə yeni texnologiyanın tətbiqi və idarə edilməsi təhsilalanların müasir səriştələrə yiyələnməsinə imkan verən təhsil sistemi müəllimlərin qarşısına yeni tələblər qoyur. S.Hüseynovun son illər pedaqoji ictimaiyyətə təqdim etdiyi kitabı ədəbiyyatın tədrisi metodikasının aktual promlərini əks etdirən metodik vəsait kimi dəyərlidir. Bu elmi-metodiki tədqiqat nəticəyönümlülüyü və şəxsiyyatyönümlülüyülə yanaşı, təhsildə qazanılan yeniliklərin təcrübədə təsdiqi yollarını göstərmək baxımından çox əhəmiyyətlidir.

Araşdırmada göstərilir ki, təhsilin aktual problemlərinin tədrisində mövzu rəngarəngliyinin incəsənətlə əlaqəli şəkildə şagirdlərin fəallığı şəraitində tədrisi effetli olur. Bu proses epik, lirik və dramatik janrlarda olan əsərlərin təhlilində daha çox tətbiq edilir. Ədəbi əsərlərin təhlili şəxsiyyətyönümlülük, milli-mənəvi dəyərlərə sahib çıxmaq, dövlətcilik, vətənçilik ənənələrinə bağlılıq kimi keyfiyyətlərin formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Odur ki, müəllimin ədəbi əsərlərin təhlilində ən səmərəli təlim metodlarından bacarıqla istifadə etməsi daha məqsədəuyğundur.

Açar sözlər: *ədəbiyyat, aktual problemlər, mövzu, metod, ədəbi əsərin təhlili*

Giriş: Dövr və zaman dəyişdikcə siyasətdən, iqtisadiyyatdan tutmuş təhsilə, mədəniyyətədək sosial-siyasi proseslər, təhsil, mədəniyyət qurumlarının fəaliyyəti şəxsiyyətin inkişafına və kamilləşməsinə yönəlmişdir. Avropaya inteqrasiya, xüsusilə təhsildə yeni texnologiyaların tətbiqi, idarə olunması, innovativ irəliləmə, təhsilalanların müasir səriştələrə yiyələnməsini təmin edən müasir təhsil sistemi böyük dəyişikliklərlə yanaşı, müəllimlər qarşısında mühüm vəzifə və tələblər qoyur. Bu araşdırmada da ümumtəhsil məktəblərində ədəbiyyatın tədrisinin inkişafı ilə bağlı bəzi məsələlərdən bəhs ediləcəkdir.

Əsas hissə: Taninmiş metodist alim S. Hüseynöğlunun gərgin araşdırmanın nəticəsi olaraq son illər pedaqoji ictimaiyyətə təqdim etdiyi “Ədəbiyyatın məktəbdə öyrədilməsi” adlı kitabı ədəbiyyatın tədrisi metodikasının aktual problemlərinə həsr edilmiş dəyərli əsərlərdən biridir. Metodik vəsaitdə ədəbiyyatın nəticəyönümlülüyü və şəxsiyyətyönümlülüyünün təlim prosesində formalaşdırılması əks etdirilmişdir**.** Bu metodik əsərdə müəllif haqlı olaraq göstərir ki, təhsildə qazanılan yeiliklər o vaxt tətbiq oluna bilər ki, təcrübədə yoxlanılıb təsdiqini tapsın.

Bu araşdırma səpgisində yazılmış digər araşdırmalardan da görünür ki, ədəbiyyat dərslərində təlimin keyfiyyətinin artırılmasında aktual görünən məsələlərdən biri də mövzu rəngarəngliyinin nəzərə alınmasıdır. Məlum olur ki, ədəbiyyat dərslərində təlim metodlarının tətbiqi zamanı belə nəzəri məsələlərin şagird fəallığı zəminində incəsənətin digər növləri ilə əlaqəli öyrədilməsi səmərəlidir. Bu prosesdə mütaliəyə marağın artırılması, lirik və dramatik əsərlərin tədrisində müəllimin diqqətindən kənarda qalmamalıdır.

Ümumiyyətlə, ümumtəhsil məktəblərində ədəbi əsərlərin təhlili qarşıda duran əsas məsələlərdən biridir. Şagirdyönümlülük, şəxsiyyətyönümlülük, səriştəlilik, milli-mənəvi dəyərlərə sahib çıxmaq, vətənsevərlik, dövlətçilik ənənələrinə sadiq qalmaq, mənəvi zənginlik kimi keyfiyyətlərin formalaşdırılmasında bu mərhələ həlledici rol oynayır.

Ədəbi əsərlər bir həyat məktəbidir. Bu məktəbdə insan üçün faydalı, müzakirə ediləcək, öyrənilməsi vacib olan məsələlər vardır. Bunları öyrətmək lazımdır. Buna görə müəllim metodikanı

yaxşı bilməlidir. “Əsərin təhlil edilməsi işində müəllimin sənətinə sevgisi, fəallığı, təşəbbüskarlığı da bu prosesdə az rol oynamır və bütün bu deyilənlər bütov bir kompleksi yaradır”.

Buna görə müəllim həm nəzəri, həm də təcrübi baxımdan mükəmməl olmalıdır. O, yalnız bundan sonra ədəbi əsərləri lazımı səviyyədə təhlil etdirər vı belə bir keyfiyyətləri şagirdlərinə aşılaya bilər”.

Ədəbi təhlil dərsləri lirik, epik, dramatik əsərlərdə obrazlara, onlarda ifadə olunan ideyaya, əsərin malik olduğu sənətkarlıq xüsuiyyətlərinə münasibətlərin aşkarlanması yolu ilə aparılmalıdır. Əsərdə təsvir olunan hadisə elə-belə danışılmır, buradakı təsvir və təkiyə müəyyən bir məqsəd daşıyır.

Nəticə. Beləliklə, təhlil dərslərində mövzunun xarakterindən, tələbindən asılı olaraq təhkiyənin, təsvirin və ya tərənnümün xüsusiyyətləri, mövz, ideya süjet, dil-üslub məsələləri, obrazların portreti, davranışı, fərdi keyfiyyətləri diqqətlə araşdırılıb öyrənilməlidir.

Bunlarla yanaşı, araşdırmaya görə, aşağıdakı qənaətlərə də gəlmək mümkündür;

- təhsildə yeni texnologiyanın tətbiqi təhsilalanların müasir səriştələrə yiyələnməsinə imkan verir;
- təhsildə qazanılan yeniliklər təcrübədə təsdiq olunduqdan sonra tətbiq oluna bilər;
- təhsilin aktual problemlərinin tədrisində mövzu rəngarəngliyinin incəsənətlə əlaqəli şəkildə tədrisi effetli ola bilər.
- ədəbi əsərlərin təhlili milli-mənəvi dəyərlərə sahib şıxılması, dövlətcilik, vətənçilik ənənələrinə sadiqlik kimi keyfiyyətlərin formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir.

ƏHRUZ MAHMUDOVA
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AhruzMahmudova@nmi.edu. az

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNİN SƏMƏRƏLİ TƏŞKİLİNDƏ MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMASINDA UYĞUN TƏLİM METODLARININ SEÇİLMƏSİ MƏSƏLƏLƏRİ

Tezisdə Azərbaycan dili dərslərinin səmərəli təşkil olunmasında interaktiv təlim metodlarının rolu araşdırılmışdır. Azərbaycan dili fənni tədris olunan digər fənlərin başlanğıcı olduğu üçün məzmun standartlarının reallaşdırılması, məzmun xətləri üzrə təlim metodlarının düzgün seçilməsi önəmli yer tutur. Düzgün seçilmiş təlim metodları tədrisdə qoyulmuş məqsədə: təhsilalanların ünsiyyət imkanları, dinləyib-anlama, yazı, oxu bacarıqlarını nümayiş etdirə bilməsi, tədqiqat aparmaq, dilin qrammatik qayda-qanunlarını öyrənərək nitq prosesində tətbiq etmək kimi bacarıqların yaranmasına, müstəqil düşünən və inkişaf edən şəxsiyyət kimi formalaşmasının optimallaşmasına kömək edir.

Xalqın milli təfəkküründün formalaşmasında həmin xalqın dilinin mükəmməl səviyyədə öyrədilməsi xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizin təhsil sistemində Milli Kurikulumların tətbiqi müxtəlif fənlərin, əsasən də ana dili fənninin tədrisi ilə başlanır.

Azərbaycan dili dərslərinin təşkilində müasir təlim texnologiyalarından istifadə edilməsi təlim və tədrisin optimallaşdırılmasında əhəmiyytli rola malikdir. Azərbaycan dilinin tədrisi tarixinə müraciət edəndə müxtəlif təlim metodlarından : səs-heca, təhlil-tərkib, dialoq, müəllimin şərhi, problemli şərh, ekskursiya, qrammatik təhlil, problemli təlim və s. istifadə olunduğunu görürük. Azərbaycan təhsil sistemində aparılmış islahatlar, Azərbaycan dili fənn kurikulumunun tətbiqi ilə təlim prosesində ənənəvi metodlarla bərabər interaktiv metodlardan da geniş istifadə olunur. “Elm və texnikanın inkişafı, informasiya bolluğu böyüməkdə olan gənc nəslə imkan verir ki, hadisələrin məcrasında bilavasitə özləri iştirak etsin, baş verən hadisələrdən nəticə çıxarmağı bacarsınlar. Onları bu sahədə düzgün istiqamətləndirmək isə məktəbin, müəllimlərin öhdəsinə düşür. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni əsrdə cəmiyyətin və insanların inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşmalıdır”.

Azərbaycan dili dərsləri təşkil olunarkən təhsilalanların ünsiyyət imkanları, dinləyib-anlama, yazı, oxu bacarıqlarını nümayiş etdirə bilməsi, tədqiqat aparmaq, dilin qrammatik qayda-qanunlarını öyrənərək nitq prosesində tətbiq etməsi üçün şərait yaradılmalıdır. Bunun üçün dərsin təşkilində uyğun təlim metodlarının seçilməsinin mühüm əhəmiyyəti vardır. Təlim metodlarını məzmun xətləri üzrə qruplaşdıraraq qoyulmuş məqsədə çatmaq olar.

Fənnin məzmununun mənimsədilməsində dinləyib-anlama bacarıqlarını reallaşdırmaq üçün aşağıadakı təlim üsulları tətbiq oluna bilər: məndən sonra de, informasiya boşluqları, səhvimi düzəlt, yarımçıq hekayə, zəncirli hekayə və s. Bu üsulların dinləyib-anlama vərdişləri yarada bilməsi üçün müəllimin mövzunu tədris edərkən cari planlaşdırmanı düzdün aparmasından, təlim üsulu seçməsindən çox asılıdir. Bu üsulların tətbiqi ilə dinləyib-anlama , məntiqi təfəkkür bacarıqları, qeydgötürmə, proqnozlaşdırma bacarıqları inkişaf etdirilir.

Danışma fəaliyyətini inkişaf etdirmək üçün istifadə olunan usullar da maraqlıdır. Bu üsulları belə qruplaşdırmaq olar: təqdimat, sinektika, debat, rollu oyun və simulyasiya. Bu üsullar tətbiq olunarkən müəllim təhsilalanlarla problemin həlli yollarını müzakirə edir, fikrini əsaslandırmağa çalışır, istənilən fikrə münasibət bildirərkən fakt və arqumentlərdən istifadə edə bilir. Onlarda

tədqiqatçılıq qabiliyyəti inkişaf edir, topladıqları məlumatları sistemləşdirir, vizuallaşdırır və auditoriya qarşısında çıxış etmək bacarıqlarını əldə edir. Nəticə çıxarır, sual tərtib edə bilir və s.

Oxu məzmun xəttini reallaşdırarkən oxuyub-anlamanı ölçməkdən ötrü daha çox yazı və danışma fəaliyyəti ilə bağlı üsullardan istifadə olunur. Oxunan mətn məlumatlandırıcı olmalı, açar sözlər müəyyənləşdirilməli, əsas faktlara diqqət olunmalı, mətndə qoyulmuş ideya açılmalıdır. Bunun üçün də sinkveyn, insert, cümləni tap və s. üsullar tətbiq olunur.

Təsviri yazılar (esse), informativ yazı (esse), arqumentativ yazı (esse), əməli yazılar, hekayə, nağıl və şəkil üzrə yazılar, məktublar, üç əlaqəsiz əşya, səhvlərlə yazı, xarakterlər xəritəsi və s. təlim üsullarının tətbiq olunduğu dərslər yazı bacarıqlarının ikişafına imkan yaradır. Hər bir üsulun tətbiqində təhsilalan yazılı şəkildə özünü ifadə etmək üçün müxtəlif bacarıqlar: yazılı nitq, təsviretmə, müxtəlif strukturlu cümlə qurmaq, qrammatik, orfoqrafik qaydaları tətbiq etmək, mətn tərtib etmək, nəticə çıxarmaq kimi qabiliyyətlər əldə edir və bu bacarıqlar ömürboyu yazılı nitqdə təzahür edir. Təhsilalan öz fikirlərini çatdırmaq üçün seçilən sözlərə diqqət edir, cümlə quruluşunda qrammatik qaydaları gözləyir, cümlənin strukturuna fikir verir. Belə olan surətdə onun yazılı şəkildə ifadə edəcəyi fikir aydın və anlaşılan olur.

Azərbaycan dili dərslərində tətbiq olunan hər bir təlim metodu təhsilalanların hafizəsinin gücləndirilməsinə, düşüncə tərzinin, sərbəst fikir söyləmək qabiliyyətinin formalaşmasına, ətrafda baş verən hadisələrə tənqidi yanaşmaq, baş verən hadisə və anlayışlara münasibət bildirmək kimi bacarıq və vərdişlərin inkişafına yönəlmişdir. Tədris prosesində tətbiq olunan təlim strategiyaları Azərbaycan dili fənninin məzmununun mənimsənilməsində müstəsna əhəmiyyət daşıyır.

LƏMAN MƏCİDOVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Mütəxəssis
leman.macidova@arti.edu.az

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ MƏSAFƏDƏN TƏLİMİN TƏTBİQİ: PROBLEMLƏR VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Məqalədə ümumi təhsil sistemində məsafədən təlimin tətbiqi müasir pedaqoji yanaşmalar kontekstində təhlil olunur. Tədqiqatın məqsədi distant təlim prosesində yaranan əsas çətinlikləri müəyyənləşdirmək və onların aradan qaldırılması üçün praktik və nəzəri əsaslı təkliflər irəli sürməkdir. Aparılan araşdırma göstərir ki, məsafədən təlim təhsil sistemində davamlılığı təmin edən mühüm vasitə olsa da, onun effektivliyi texnoloji infrastrukturun səviyyəsi, iştirakçıların rəqəmsal bacarıqları və təlim dizaynının keyfiyyəti ilə sıx bağlıdır. Nəticələr göstərir ki, qarışıq təlim modelinin tətbiqi və innovativ pedaqoji metodların genişləndirilməsi distant təhsilin keyfiyyətinin yüksəldilməsində əsas rol oynayır.

Açar sözlər: *məsafədən təlim, distant təhsil, rəqəmsal kompetensiya, təhsil texnologiyaları, qarışıq təlim*

Giriş. Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı təhsil sistemində yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. Ənənəvi təlim modelləri artıq təkbaşına müasir cəmiyyətin tələblərini ödəməkdə çətinlik çəkir və bu səbəbdən texnologiya əsaslı təlim formaları ön plana çıxır. Bu baxımdan məsafədən təlim yalnız alternativ deyil, həm də təhsil sisteminin struktur elementinə çevrilməkdədir. COVID-19 pandemiyası distant təlimin geniş tətbiqini sürətləndirmiş, lakin bu prosesin planlı deyil, zəruri xarakter daşıması bir sıra problemləri üzə çıxarmışdır. Bu vəziyyət “təcili distant təlim” anlayışını formalaşdırmış və onun ənənəvi onlayn təhsildən fərqləndiyini göstərmişdir.

Mövcud tədqiqatlarda məsafədən təlim geniş şəkildə araşdırılsa da, onun ümumi təhsil səviyyəsində tətbiqi zamanı yaranan problemlərin sistemli təhlili, xüsusilə lokal kontekstdə, kifayət qədər dərin işlənməmişdir. Bu məqalə həmin boşluğu qismən doldurmağa yönəlmişdir.

Tədqiqat əsasən keyfiyyət metodologiyasına əsaslanır. Mövzu üzrə mövcud elmi mənbələr analitik yanaşma ilə təhlil edilmiş, müxtəlif müəlliflərin nəzəri baxışları müqayisə olunmuşdur.

Bundan əlavə, distant təlimin tətbiqi zamanı müşahidə edilən praktik problemlər ümumiləşdirilərək sistemləşdirilmişdir. Bu yanaşma problemin çoxşaxəli xarakterini müəyyən etməyə və əsas tendensiyaları üzə çıxarmağa imkan vermişdir.

Məsafədən təlim anlayışı müxtəlif müəlliflər tərəfindən fərqli aspektlərdə izah olunur. Ümumilikdə bu model müəllim və öyrənənin məkan baxımından ayrıldığı, lakin təlim prosesinin texnologiyalar vasitəsilə təşkil edildiyi sistem kimi xarakterizə olunur.

Onlayn təhsil bu modelin internet üzərindən həyata keçirilən formasıdır, qarışıq təlim isə ənənəvi və distant yanaşmaların inteqrasiyasına əsaslanır. Tədqiqatçılar qarışıq təlimi müasir dövrdə ən balanslı və effektiv model kimi qiymətləndirirlər.

Məsafədən təlimin mühüm üstünlüklərindən biri təhsildə əlçatanlığın artmasıdır. Coğrafi məhdudiyyətlərin aradan qalxması daha geniş auditoriyanın təhsil prosesinə qoşulmasına şərait yaradır.

Eyni zamanda bu model:

– fərdi öyrənmə tempini dəstəkləyir
– müxtəlif rəqəmsal resurslardan istifadə imkanı yaradır
– öyrənmə prosesini daha çevik və adaptiv edir

Problemlər və çətinliklər

1. **Texniki problemlər.** İnfrastrukturun qeyri-bərabər inkişafı distant təlimin effektivliyini məhdudlaşdırır. Xüsusilə internetə çıxış imkanlarının məhdud olduğu ərazilərdə bu problem

daha qabarıqdır.

2. Rəqəmsal bacarıqların çatışmazlığı. Müəllim və şagirdlərin rəqəmsal kompetensiyalarının kifayət qədər inkişaf etməməsi tədris prosesinə mənfi təsir göstərir.

3. Pedaqoji çətinliklər. Ənənəvi dərs modellərinin dəyişdirilmədən onlayn mühitə tətbiqi effektiv nəticə vermir.

4. Psixososial təsirlər. Şagirdlərin sosial mühitdən uzaqlaşması onların emosional inkişafına təsir göstərə bilər.

5. Qiymətləndirmə problemləri. Onlayn mühitdə akademik dürüstlüyün qorunması və obyektiv qiymətləndirmə mexanizmlərinin tətbiqi çətinləşir.

İnkişaf istiqamətləri

Mövcud problemlərin aradan qaldırılması üçün aşağıdakı istiqamətlər vacib hesab olunur:

– rəqəmsal infrastrukturun sistemli şəkildə inkişaf etdirilməsi;

– müəllimlərin rəqəmsal pedaqogika üzrə davamlı hazırlanması;

– interaktiv və tələbəyönümlü metodların tətbiqi;

– qarışıq təlim modelinin genişləndirilməsi;

– qiymətləndirmə mexanizmlərinin yenilənməsi.

Nəticə. Aparılan təhlil göstərir ki, məsafədən təlim müasir təhsil sisteminin ayrılmaz hissəsinə çevrilmişdir. Onun effektiv tətbiqi yalnız texniki imkanlarla deyil, həm də pedaqoji yanaşmaların yenilənməsi ilə bağlıdır.

Nəticələr göstərir ki, distant təlimin inkişafı üçün kompleks yanaşma tələb olunur və qarışıq təlim modeli bu istiqamətdə ən perspektivli həllərdən biri kimi çıxış edir.

GÜLNAR CƏFƏROVA
Naxçıvan Qarnizonu tam orta məktəb
Gulnarceferova455gmail.com

ÜMUMİ TƏHSİLDƏ MƏSAFƏDƏN (DİSTANT) TƏLİMİN BƏZİ AKTUAL MƏSƏLƏLƏRİ

Bu təlim forması texnologiya vasitəsilə həyata keçirilsə də, bir sıra aktual problemlərlə müşayiət olunur. Əsas çətinliklərə texniki imkanların məhdudluğu, müəllim və şagirdlərin rəqəmsal bacarıqlarının yetərsizliyi, dərs prosesində fəallığın aşağı düşməsi və obyektiv qiymətləndirmənin çətinliyi daxildir. Bununla yanaşı, uzunmüddətli onlayn təhsil şagirdlərin psixoloji və sosial inkişafına da təsir edə bilər. Buna görə məsafədən təlimin effektiv təşkili üçün bu problemlərin aradan qaldırılması vacibdir.

Açar sözlər: *məsafədən təlim, texnologiya, əlçatanlıq, qiymətləndirmə, səmərəlilik*

Məsafədən (distant) təlim ümumi təhsil sistemində müəllim və şagirdlərin fiziki olaraq eyni məkanda olmadan, rəqəmsal texnologiyalar vasitəsilə qarşılıqlı əlaqədə olduğu təhsil formasıdır. Bu model xüsusilə son illərdə texnologiyanın inkişafı və qlobal hadisələr (məsələn, dünyada və Azərbaycanda 2020-2021-ci illərdə pandemiyalar) nəticəsində daha geniş tətbiq olunmağa başlamışdır.

Bu təlim formasının əsasını internet, kompüter və mobil cihazlar təşkil edir. Dərslər sinxron (eyni vaxtda canlı dərslər) və asinxron (video, təqdimat, tapşırıqlar şəklində) şəkildə keçirilə bilər. Müasir platformalar, məsələn Zoom, Google Classroom və Microsoft Teams vasitəsilə müəllimlər dərs keçə, material paylaşa, tapşırıqları yoxlaya və şagirdlərlə ünsiyyət qura bilirlər.

Məsafədən təlimin üstünlükləri kifayət qədərdir. Ən vacib üstünlüklərdən biri əlçatanlıqdır – şagirdlər istənilən məkandan təhsilə qoşula bilirlər. Bu, xüsusilə ucqar ərazilərdə yaşayan və ya fiziki məhdudiyyətləri olan şagirdlər üçün böyük imkan yaradır. Bundan əlavə, vaxt baxımından çeviklik təmin olunur, şagirdlər materialları təkrar izləyə və fərdi tempdə öyrənə bilirlər. Rəqəmsal resursların istifadəsi isə dərsləri daha vizual və maraqlı edir.

Bununla yanaşı, məsafədən təlim bir sıra aktual problemlərlə də müşayiət olunur. Əsas çətinliklərdən biri texniki təminatdır. Bütün şagirdlərin stabil internetə və uyğun cihazlara çıxışı olmaya bilər ki, bu da təhsil bərabərliyini pozur. Digər mühüm məsələ müəllim və şagirdlərin rəqəmsal savadlılıq səviyyəsidir. Texnologiyadan düzgün istifadə bacarıqları kifayət qədər inkişaf etmədikdə tədrisin keyfiyyəti aşağı düşür.

Pedaqoji baxımdan da çətinliklər mövcuddur. Ənənəvi sinif mühiti ilə müqayisədə onlayn dərslərdə şagirdlərin diqqətini saxlamaq daha çətindir. Ünsiyyətin məhdud olması, sosial qarşılıqlı əlaqənin azalması şagirdlərin motivasiyasına mənfi təsir göstərə bilər. Qiymətləndirmə prosesi də mürəkkəbləşir, çünki şagirdlərin biliyini obyektiv yoxlamaq və köçürmə hallarının qarşısını almaq çətin olur.

Psixoloji və sağlamlıq baxımından da müəyyən risklər var. Uzun müddət ekran qarşısında qalmaq göz yorğunluğu, hərəkətsizlik və diqqət dağınıqlığı yarada bilər. Eyni zamanda sosial təcrid hissi şagirdlərin emosional vəziyyətinə təsir edə bilər.

Bu problemlərin aradan qaldırılması üçün bir sıra tədbirlər vacibdir. İlk növbədə, texniki infrastruktur gücləndirilməli, bütün şagirdlərin internet və cihazlarla təmin olunması istiqamətində addımlar atılmalıdır. Müəllimlər üçün rəqəmsal bacarıqlar üzrə təlimlər təşkil edilməli, interaktiv və şagirdyönümlü metodlardan istifadə artırılmalıdır. Sadəcə mühazirə formasında keçilən dərslər diqqəti tez yayındırır, ona görə yanaşmanı dəyişmək lazımdır. Dərslərdə qrup işləri, müzakirələr, layihələr kimi fəaliyyətlərə yer verilməsi şagirdlərin fəallığını yüksəldə bilər.

Nəticə olaraq, məsafədən təlim müasir təhsilin ayrılmaz hissəsinə çevrilmişdir. Onun effektivliyi düzgün təşkilat, texniki imkanların yaxşılaşdırılması və pedaqoji yanaşmaların yenilənməsi ilə birbaşa bağlıdır.

GÜLNAR ZİYAD-ZADƏ
Mingəçevir Dövlət Universiteti
gulnar.ziyadzada@mdu.edu.az
https://orcid.org/0009-0009-7546-0857

ÜMUMİ TƏHSİLDƏ DİSTANT TƏHSİL VƏ RƏQƏMSALLAŞMA: AZƏRBAYCAN TƏCRÜBƏSİNDƏ PROBLEMLƏR VƏ HƏLL YOLLARI

Bu tezisdə ümumi təhsil sistemində distant təhsil və rəqəmsallaşma prosesinin tətbiqi zamanı Azərbaycanda müşahidə olunan əsas problemlər və onların praktik həll istiqamətləri təhlil edilir. Müşahidələr göstərir ki, texniki infrastrukturun qeyri-bərabərliyi, müəllimlərin rəqəmsal kompetensiyalarının yetərli səviyyədə olmaması və şagirdlərin distant mühitdə öyrənmə fəallığının azalması əsas çətinliklər sırasındadır. Bu problemlərin aradan qaldırılması üçün pedaqoji və təşkilati xarakterli konkret tədbirlər təklif olunur.

Açar sözlər: *distant təhsil, rəqəmsallaşma, ümumi təhsil, Azərbaycan, təhsil problemləri*

Giriş. Müasir dövrdə təhsil sisteminin inkişafı rəqəmsallaşma prosesləri ilə birbaşa əlaqəlidir. Azərbaycanda da ümumi təhsil səviyyəsində distant təhsil imkanlarının genişləndirilməsi istiqamətində son illərdə mühüm addımlar atılmışdır. Bununla belə, bu modelin praktik tətbiqi zamanı bir sıra çətinliklər meydana çıxır. Xüsusilə regionlarda mövcud olan texniki və pedaqoji məhdudiyyətlər distant təhsilin effektivliyinə birbaşa təsir göstərir. Bu baxımdan, mövcud problemlərin sistemli şəkildə təhlili və onların həlli yollarının müəyyən edilməsi aktual elmi-praktik əhəmiyyət daşıyır.

Əsas problemlər. Aparılan təhlillər göstərir ki, Azərbaycanda distant təhsilin tətbiqi bir neçə əsas problem istiqaməti üzrə formalaşır.

İlk növbədə, texniki infrastrukturun qeyri-bərabərliyi diqqətə çatdırılmalıdır. Regionlarda internet sürətinin aşağı olması və bəzi hallarda şagirdlərin zəruri texniki vasitələrlə tam təmin olunmaması tədris prosesinin keyfiyyətinə mənfi təsir göstərir.

Digər mühüm problem müəllimlərin rəqəmsal kompetensiyaları ilə bağlıdır. Ənənəvi tədris metodlarına üstünlük verən müəllimlər üçün rəqəmsal mühitdə dərs təşkil etmək əlavə çətinliklər yaradır və bu da təlimin səmərəliliyini məhdudlaşdıra bilir.

Bununla yanaşı, şagirdlərin distant mühitdə öyrənmə motivasiyasının azalması da nəzərəçarpan problemlərdəndir. Canlı ünsiyyətin məhdudluğu və nəzarət mexanizmlərinin zəifləməsi onların təlim prosesində fəallığını azaldır.

Eyni zamanda, qiymətləndirmə prosesində obyektivliyin təmin olunması da aktual çətinliklərdən biri olaraq qalır. Onlayn mühitdə şagird nailiyyətlərinin dəqiq və etibarlı ölçülməsi əlavə yanaşmalar tələb edir.

Həll yolları və praktiki təkliflər. Mövcud problemlərin aradan qaldırılması üçün kompleks və sistemli tədbirlərin həyata keçirilməsi zəruridir.

İlk olaraq, müəllimlərin rəqəmsal kompetensiyalarının inkişafı prioritet istiqamət kimi müəyyən edilməlidir. Bu məqsədlə praktik yönümlü təlim proqramlarının təşkili və fasiləsiz peşəkar inkişaf mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Texniki problemlərin həlli üçün regionlarda internet infrastrukturunun təkmilləşdirilməsi və şagirdlərin zəruri texniki vasitələrlə təmin olunması istiqamətində tədbirlər gücləndirilməlidir.

Şagirdlərin öyrənmə motivasiyasının artırılması üçün interaktiv təlim metodlarının tətbiqi genişləndirilməlidir. Xüsusilə onlayn testlər, qrup tapşırıqları və müzakirə əsaslı fəaliyyətlər təlim prosesinin daha effektiv təşkilinə şərait yaradır.

Qiymətləndirmə prosesində isə alternativ və formativ yanaşmaların tətbiqi məqsədəuyğundur. Layihə əsaslı qiymətləndirmə üsulları şagirdlərin bilik və bacarıqlarının daha obyektiv qiymətləndirilməsinə imkan verir.

Nəticə. Təhlil göstərir ki, distant təhsil və rəqəmsallaşma ümumi təhsil sisteminin inkişafı üçün mühüm imkanlar yaradır. Lakin bu imkanların səmərəli reallaşdırılması mövcud problemlərin

vaxtında müəyyən edilməsi və praktik həll yollarının tətbiqindən asılıdır. Bu baxımdan, distant təhsilin effektiv təşkili yalnız texnoloji deyil, həm də pedaqoji yanaşmaların yenidən qurulmasını tələb edən kompleks proses kimi qiymətləndirilməlidir. Təklif olunan tədbirlərin həyata keçirilməsi təhsil keyfiyyətinin yüksəldilməsinə və distant təhsilin səmərəliliyinin artırılmasına töhfə verə bilər.

SƏBİNƏ ƏLƏSGƏROVA
Mingəçevir Dövlət Universiteti
Magistrant
Sebineelesgerova140@gmail.com

PEDAQOJİ PROSES ZAMANI OYUN ƏSASLI TEXNOLOGİYALARIN TƏTBİQİ TƏCRÜBƏSİNƏ KONSEPTUAL BAXIŞ

Oyun texnologiyası pedaqoji fəaliyyətin effektiv forması kimi oyunun xüsusiyyətlərini izah edən və yeni tədris oyunlarının dizaynı üçün əsas yarada bilən nəzəri prinsiplərin işlənib hazırlanmasına xidmət edir. Oyun texnologiyası şagirdlərə oyunlar vasitəsi ilə həyatda davranışlarını dərk etməyi, yəni müstəqil fəaliyyət üçün məqsəd və proqramları formalaşdırmağı öyrətmək məqsədi daşıyır.

Açar sözlər: *pedaqoji, oyun, texnologiya, tədris, təlim*

Pedaqoji texnologiya müasir mədəniyyət kontekstində müəllimin yüksək mənəviyyatına və yaranan vəziyyəti psixoloji-pedaqoji dərk etməsinə əsaslanan təbii və ahəngdar davranışı kimi baxılır.

Oyun texnologiyasının bir neçə funksiyası təhsil və inkişaf məqsədlərinə çatmağa yönəlmiş xüsusi əməliyyatlar və hərəkətlər ardıcıllığını düzgün müəyyənləşdirir:

a) təhsil - ümumi təhsil bacarıq və bacarıqlarının inkişafı;

b) inkişaf - müxtəlif psixi funksiyaların inkişafı;

c) təhsil - şəxsi keyfiyyətlərin və ümumi mədəniyyətin inkişafı.

Problemi və onun həlli yollarını tapmalı olan iştirakçıların yaradıcı fəaliyyətində oyunlaşdırma əvvəlcədən həyata keçirilirsə, onda biz quru, analitik və ya imitasiya xarakterli, oynaq yaradıcı fəaliyyətdən məhrum, başqa sözlə, oyun deyil, ciddi şəkildə müəyyən edilmiş başqa bir çərçivə ilə qalırıq. Məhz oyunun gözlənilməzliyi onu təhsil və idrak fəaliyyətinin unikal formasına çevirir.

Pedaqoji nəzəriyyənin spesifik və əsas məqsədi təlim və təlim prosesinin qanunauyğunluqları, onların prinsipləri, qaydaları və üsulları haqqında biliklərdir. Pedaqoji texnologiyanın, xüsusən də təhsil oyun texnologiyasının məqsədi pedaqoji nəzəriyyənin praktiki həyata keçirilməsi və tədris prosesində əvvəlcədən müəyyən edilmiş nəticələrin əldə edilməsidir.

Oyun vasitəsi ilə öyrənmənin pedaqoji texnologiyasının bilavasitə məqsədi oyunçu şəxsiyyətinin kortəbii və istiqamətləndirilmiş inkişafıdır.

Oyun texnologiyasında öz əksini tapmış yüksək əhəmiyyətli şəxsi və ictimai dəyərlər kimi dünya miqyasında tanınan azad ünsiyyət, qarşılıqlı inam, biliklərin uyğunluğu, intellektual məzmun və oyun prosesi və cəlbedici oyun təcrübəsidir. Öz fəaliyyətinin arxasında duran motivlərin tədricən dərk edilməsi güclü şəxsi öhdəlik hissi və tapşırığı başa çatdırmaq üçün davamlı istək yaradır. Oyun texnologiyasının xüsusiyyətlərindən biri də odur ki, son oyunun ümumi müsbət nəticəsi həmişə təkrarlana bilər. Bu, oyun texnologiyasının əsas dəyərlərindən biridir, çünki təkrarlama öyrənmənin anası, bütün pedaqoji prinsiplərin əsasıdır.

Sosial təcrübə baxımından, müxtəlif mürəkkəb həyat vəziyyətlərində məsuliyyətli qərarlar qəbul etmək bacarıqları əldə edən tələbələr üçün oyun texnologiyası əvəzolunmazdır. İqtisadi məsələlərə sırf nəzəri, konseptual giriş və iqtisadi hadisələrin mahiyyətini anlamaq real həyatda praktiki hazırlıq üçün səmərəsizdir.

Oyun müxtəlif səviyyələrdə və müxtəlif məzmunlu sosial qarşılıqlı əlaqəni başlatan, oyunçuları məsuliyyəti öz üzərinə götürməyə və inkişaf edən situasiya əsasında konkret qərarlar qəbul etməyə məcbur edən bir modeldir. Oyun şagird və müəllim arasında qeyri-rəsmi ünsiyyətə imkan verir və həm onların şəxsi keyfiyyətlərini, həm də xarakterlərinin ən yaxşı tərəflərini üzə çıxarmağa imkan verir. Oyun texnologiyası münasibətləri humanistləşdirir, yeni kollektiv, fərdi-qrup və fərdi formaların yaradılmasına gətirib çıxarır.

Oyunla reallığı ayırd etmək çətindir, lakin otaqların təmizlənməsi, kitabxana kitablarının təmiri, ağacların əkilməsi və s.kimi fəaliyyətlər vasitəsi ilə real işlərin görülməsi mümkündür.

Oyun zamanı hər kəs yeni dəyərlərin qarşılıqlı, birgə öyrənilməsi prosesində həm müəllim, həm də tələbə olur. Bu, ortaq səylər nəticəsində əldə edilən ümumi nəticənin hər bir iştirakçının təkbaşına

hərəkət edərək əldə edə biləcəyi nəticələrin cəmindən çox olduğu bir effekt yaradır.

Bu, oyun texnologiyasının açdığı imkanlara tamamilə aiddir. Təkcə iqtisadi təhsil problemi həll etməyəcək; oyun təkcə tələbələrə iqtisadi terminlərin və ya hadisələrin mənasını anlamağa kömək etmir, həm də cəlbediciliyi ilə uşağın ruhu ilə əlaqə qurmağa imkan verir, bununla da tərbiyəvi aspekti artırır və reallığa mənəvi münasibət bəsləyir.

Oyun texnologiyası ətraf mühitin mənfi təsirinə baxmayaraq, insan mahiyyətini qoruyub saxlayaraq tərbiyəvi və əxlaqi keyfiyyətləri özündə qoruyub saxlaya bilmişdir. Qeyd edək ki, oyun texnologiyası digər tədris metodlarından onunla fərqlənir. Belə ki, bu proses şagirdlərin öyrənilən sistemin fəaliyyətində şəxsən iştirak etməyə imkan verir, bir müddət “real” həyat şəraitində “yaşamaq” imkanı verir, bu sistemin “daxili”ni yaşayır. Eyni zamanda, oyun texnologiyası məktəblilərin təlim və tərbiyəsinin ənənəvi üsullarını əvəz etmir.

Onları rasional şəkildə tamamlayır, müəllimin pedaqoji arsenalını genişləndirir, müəyyən bir dərsin və bütün akademik kursun məqsəd və vəzifələrinə daha səmərəli nail olmağa imkan verir.

NƏZMİYƏ QURBANLI
Naxçıvan Qarnizonu tam orta məktəb
Texnologiya müəllimi
nezmiye.qurbanli@gmail.com

TEXNOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ FƏNLƏRARASI İNTEQRASİYANIN TƏTBİQİ TƏCRÜBƏSİNDƏN

Müasir təhsil sistemində inteqrativ yanaşma şagirdlərin bilik, bacarıq və kompetensiyalarının kompleks şəkildə formalaşdırılmasında mühüm rol oynayır. Texnologiya fənni öz məzmunu etibarilə digər fənlərlə sıx əlaqədə olduğundan inteqrasiyanın tətbiqi üçün geniş imkanlar yaradır. Bu tezisdə texnologiya fənninin tədrisində inteqrasiyanın mahiyyəti, tətbiq formaları və praktik təcrübələri araşdırılır. Müəyyən edilmişdir ki, inteqrativ dərslər şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, əldə olunan biliklərin real həyatda tətbiqini asanlaşdırır və təlim motivasiyasını artırır.

Açar sözlər: *texnologiya fənni, inteqrasiya, fənlərarası əlaqə, layihə əsaslı təlim, kompetensiya, innovativ təhsil*

Təhsildə aparılan islahatlar müasir dövrdə şagirdyönümlü və nəticəyönümlü təlimin təşkilini zəruri edir. Bu baxımdan inteqrasiya tədris prosesinin səmərəliliyini artıran mühüm pedaqoji yanaşmalardan biridir. İnteqrasiya müxtəlif fənlər üzrə əldə olunan bilik və bacarıqların əlaqələndirilməsi, onların vahid məqsəd ətrafında birləşdirilməsi deməkdir.

Texnologiya fənni şagirdlərdə əmək vərdişlərinin, yaradıcı təfəkkürün, problem həll etmə bacarıqlarının və texniki biliklərin formalaşdırılmasına xidmət edir. Fənnin məzmununda riyaziyyat, fizika, informatika, təsviri incəsənət və təbiət elmləri ilə əlaqəli mövzuların geniş yer alması inteqrativ təlim üçün əlverişli şərait yaradır.

Texnologiya fənninin tədrisində inteqrasiya şagirdlərin müxtəlif fənlərdən qazandıqları bilikləri praktik fəaliyyət zamanı tətbiq etmələrinə imkan yaradır. Belə yanaşma nəticəsində təlim yalnız nəzəri biliklərin mənimsənilməsi ilə məhdudlaşmır, eyni zamanda real problemlərin həllinə yönəlir.

Fənlərarası inteqrasiya zamanı texnologiya dərslərində aşağıdakı əlaqələrdən istifadə olunur:

1) **Riyaziyyatla inteqrasiya:** ölçmə, hesablama, həndəsi fiqurların qurulması və layihələndirmə işləri;
2) **İnformatika ilə inteqrasiya:** kompüter proqramlarından istifadə, qrafik dizayn və modelləşdirmə;
3) **Fizika ilə inteqrasiya:** mexaniki hərəkət, enerji, materialların xüsusiyyətləri;
4) **Təsviri incəsənətlə inteqrasiya:** eskizlərin hazırlanması, dizayn elementlərinin tətbiqi;
5) **Biologiya və ekologiya ilə inteqrasiya:** ekoloji təmiz materiallardan istifadə və ətraf mühitin qorunması.

Bu inteqrasiya formaları şagirdlərdə sistemli düşüncə tərzinin formalaşmasına və əldə olunan biliklərin praktik əhəmiyyətinin dərk edilməsinə şərait yaradır.

Texnologiya fənnində inteqrasiyanın tətbiqi təcrübəsi

Texnologiya fənnində inteqrasiyanın səmərəli həyata keçirilməsi üçün dərslərin digər fənlərlə əlaqəli şəkildə planlaşdırılması mühüm əhəmiyyət daşıyır. Məktəb təcrübəsində müxtəlif siniflər üzrə tətbiq olunan inteqrativ mövzular şagirdlərin həm nəzəri biliklərini, həm də praktik bacarıqlarını inkişaf etdirir.

V sinifdə keçirilən **"Kağız və kartondan həndəsi fiqurların hazırlanması"** mövzusu riyaziyyat fənni ilə inteqrasiya olunur. Şagirdlər kvadrat, düzbucaqlı, üçbucaq və dairə kimi həndəsi fiqurların xüsusiyyətlərini öyrəndikdən sonra həmin fiqurlardan istifadə edərək müxtəlif maketlər hazırlayırlar. Bu zaman ölçmə, kəsmə və yapışdırma bacarıqları formalaşır, həndəsi anlayışlar praktik fəaliyyət vasitəsilə möhkəmləndirilir.

VI sinifdə tədris olunan **"Məişətdə istifadə olunan materialların xüsusiyyətləri"** mövzusu təbiət fənni ilə inteqrasiya edilir. Şagirdlər ağac, metal, plastik və şüşənin fiziki xüsusiyyətlərini

araşdırır, onların hansı məqsədlər üçün istifadə edilməsini müəyyənləşdirirlər. Bu fəaliyyət materialların seçilməsi və istifadəsi ilə bağlı düzgün qərarvermə bacarıqlarını inkişaf etdirir.

VII sinifdə keçirilən **“Otaq interyerinin layihələndirilməsi”** mövzusu təsviri incəsənət və riyaziyyat fənləri ilə inteqrasiya olunur. Şagirdlər otağın planını müəyyən miqyasda çəkir, rəng seçimini əsaslandırır və interyer dizaynı hazırlayırlar. Bu zaman miqyas anlayışı, ölçmə bacarıqları və estetik zövq inkişaf etdirilir.

VIII sinifdə öyrədilən **“Elektrik enerjisinə qənaət edən məişət avadanlıqları”** mövzusu fizika fənni ilə inteqrasiya olunur. Şagirdlər elektrik enerjisinin sərfi, enerji çevrilmələri və qənaət yolları haqqında biliklər əldə edir, müxtəlif məişət cihazlarının enerji istehlakını müqayisə edirlər. Dərsin sonunda enerji qənaəti ilə bağlı maarifləndirici təqdimatlar hazırlayırlar.

IX sinifdə həyata keçirilən **“Sadə avtomatik suvarma sisteminin modeli”** mövzusu informatika və fizika fənləri ilə inteqrasiya edilir. Şagirdlər sistemin iş prinsipini araşdırır, sadə elektron elementlərdən istifadə etməklə model hazırlayır və iş prosesini təqdim edirlər. Bu fəaliyyət problem həll etmə, tədqiqat aparma və texniki yaradıcılıq bacarıqlarının inkişafına xidmət edir.

Təcrübə göstərir ki, bu cür inteqrativ mövzuların tədrisi şagirdlərin dərsə marağını artırır, onların müxtəlif fənlər üzrə əldə etdikləri bilikləri əlaqələndirməsinə şərait yaradır və öyrənmənin praktik yönümünü gücləndirir. Beləliklə, texnologiya fənnində inteqrasiyanın tətbiqi təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Texnologiya fənninin tədrisində inteqrasiyanın tətbiqi müasir təhsil tələblərinə cavab verən effektiv yanaşmadır. Fənlərarası əlaqələrin qurulması şagirdlərin nəzəri biliklərini praktik fəaliyyətlə birləşdirir, onların yaradıcılıq və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. Layihə əsaslı və praktik fəaliyyətlər inteqrasiyanın uğurlu həyata keçirilməsində mühüm vasitə kimi çıxış edir. Buna görə də texnologiya müəllimlərinin dərs planlaşdırılması zamanı inteqrativ metodlardan daha geniş istifadə etmələri məqsədəuyğundur. Bu yanaşma şagirdlərin XXI əsr bacarıqlarının formalaşmasına və onların gələcək peşə fəaliyyətinə hazırlığına mühüm töhfə verir.

LEYLA ƏLİYEVA
Naxçıvan şəhər Ə.Sultanlı adına 10 №-li tam orta məktəb
İbtidai sinif müəllimi
leylaeliyeva@gmail.com

FƏNN MÜƏLLİMİNİN FƏRDİ İŞ TƏCRÜBƏSİ İSLAHATLAR KONTEKSİNDƏ

Məqalədə təhsil islahatları şəraitində fənn müəlliminin fərdi iş təcrübəsinin əhəmiyyəti araşdırılır. Müasir təlim metodlarının tətbiqi, şagirdyönümlü yanaşma, innovativ pedaqoji texnologiyalardan istifadə və müəllimin peşəkar inkişafının tədrisin keyfiyyətinə təsiri təhlil edilir. İbtidai təhsil pilləsində həyata keçirilən yeniliklərin şagirdlərin bilik, bacarıq və kompotensiyalarının formalaşmasında rolu xüsusi vurğulanır.

Açar sözlər: *fərdi iş təcrübəsi, islahatlar, kurikulum, fənn müəllimi, müasir təlim metodları, qiymətləndirmə*

Təhsil hər bir cəmiyyətin inkişafının əsas dayağıdır. Müasir dövrdə təhsil sahəsində həyata keçirilən islahatlar müəllimlərin fəaliyyətinə yeni yanaşmalar gətirmiş,onların peşəkar inkişafına daha geniş imkanlar yaratmışdır. Bu islahatlar konteksində fənn müəlliminin fərdi iş təcrübəsi xüsusi əhəmiyyət daşıyır. Çünki müəllimin şəxsi pedaqoji fəaliyyəti tədrisin keyfiyyətinə, şagirdlərin nailiyyətlərinə və onların şəxsiyyət kimi formalaşmasına birbaşa təsir göstərir.

İslahatların əsas məqsədi tədris prosesini şagirdyönümlü etmək, müasir təlim metodlarının tətbiqini genişləndirmək və təhsilin keyfiyyətini yüksəltməkdir. Bu baxımdan müəllimin iş təcrübəsi onun yeniliklərə açıq olması, müasir pedaqoji texnologiyalardan istifadə bacarığı və daim öz üzərində işləməsi ilə müəyyən olunur.

Fərdi iş təcrübəsi nə deməkdir?

Fərdi iş təcrübəsi müəllimin öz fənnini tədris edərkən formalaşdırdığı, sınadığı və nəticəsini təhlil etdiyi metod, üsul və yanaşmalar sistemidir. Bu təcrübə:

· Şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılır.
· Tədris materialının məzmununu həyatla əlaqələndirir.
· Qiymətləndirmə mexanizmlərini əhatə edir.
· Müəllimin peşəkar refleksiyası əsasında daim təkmilləşir.

İslahatlar konteksində fərdi təcrübə " köhnə vərdişlə işləmək" deyil, " standartları yaradıcı şəkildə tətbiq etmək" deməkdir.

İbtidai sinif müəllimi olaraq hesab edirəm ki, təməl biliklərin düzgün formalaşdırılması gələcək təhsilin uğurlu qurulmasının əsasını təşkil edir. Buna görə də dərslərimdə interaktiv təlim üsullarına, fərdi qiymətləndirmə vasitələrinə və şagirdlərin fəallığını artıran fəaliyyətlərə geniş yer verirəm.Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq diferensial yanaşmanın tətbiqi onların dərsə marağını artırır və daha yaxşı nəticələr əldə etməyə şərait yaradır.

Fərdi iş təcrübəsi göstərir ki, valideyn-müəllim əməkdaşlığı da tədris prosesinin səmərəliliyində mühüm rol oynayır. Valideynlərlə müntəzəm əlaqə, şagirdin inkişafının birgə izlənilməsi və qarşılıqlı əməkdaşlıq daha uğurlu nəticələrə gətirib çıxarır.

İbtidai sinif təcrübəsinə islahatların gətirdiyi dəyişikliklər:

1. **Kompetensiya nəticələri-** " Şagird 20-yə qədər toplayır" deyil, " Şagird 15 alma və 4 almanı birləşdirib cəmi deyə bilir"
2. **İnteqrasiya-** Riyaziyyat dərsində Həyat bilgisi fənnindən heyvanların ayaqlarını saymaq
3. **Formativ qiymətləndirmə-** Qırmızı, yaşıl kart, barmaqla göstərmə, " başa düşdüm-başa düşmədim lövhəsi
4. **Fərqləndirilmiş tapşırıq-** Güclü şagirdə 2 misal, zəifə 1 misal+şəkil dəstəyi.

Məsələn "Hərflər" mövzusunu keçəndə mən sinifdə hərf qutusu yaradıram. Uşaqlar qutudan hərfi çıxarıb onunla başlayan sözü tapır, plastilindən düzəldir, lovhədə yazır. Beləliklə oxu, yazı, danışıq və yaradıcılıq bir dərsdə birləşir.

İbtidai sinif müəllimi üçün islahatlar “ əlavə iş” deyil, “ uşağa yaxınlaşmaq üçün alət”dir. Fərdi iş təcrübəsi o zaman uğurludur ki, müəllim dərs planını dərsliyə deyil, sinifdəki 30 fərqli uşağın gözünə görə yazsın.

Kurikulum bizə istiqamət verir, amma o istiqaməti maraqlı edən, canlı edən müəllimin fərdi təcrübəsidir. Uşaq “ məktəbə gedirəm”deyəndə gözləri parlayırsa, demək təcrübəmiz doğru yoldadır.

GÜNEL İBRAHİMOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Müəllim
gunel_elili@mail.ru

TƏHSİL PROSESİNDƏ İDRAK FƏALİYYƏTİNİN VƏ ANALİTİK DÜŞÜNMƏ BACARIQLARININ İNKİŞAFINA MÜASİR YANAŞMALAR

Məqalədə təhsil prosesində idrak fəaliyyətinin və analitik düşünmə bacarıqlarının inkişaf etdirilməsinə müasir pedaqoji yanaşmalar təhlil olunur. Rəqəmsal texnologiyalar, interaktiv metodlar və tələbəyönümlü təlim strategiyalarının bu sahədə rolu araşdırılır. Təhsilalanlarda düşünmə bacarıqlarının formalaşdırılması yolları göstərilir.

Açar sözlər: *idrak fəaliyyəti, analitik düşünmə, interaktiv təlim, pedaqoji yanaşmalar, təhsilalan*

Müasir təhsil sistemi yalnız biliklərin ötürülməsinə deyil, həm də təhsilalanların idrak fəaliyyətinin inkişafına yönəlmişdir. Analitik düşünmə bacarığı insanın informasiya ilə işləmə, təhlil etmə və nəticə çıxarma qabiliyyətini formalaşdırır. Bu baxımdan, tədris prosesində yeni pedaqoji yanaşmaların tətbiqi aktuallıq kəsb edir.

İdrak fəaliyyətinin inkişafı təlim prosesində şagird və tələbələrin aktiv iştirakını tələb edir. Müasir pedaqogikada bu məqsədlə interaktiv təlim metodları geniş tətbiq olunur. Qrup işləri, problem əsaslı öyrənmə və layihə əsaslı təlim analitik düşünmənin formalaşmasına şərait yaradır.

Təhsil mühitində idrak fəaliyyətinin aktivləşdirilməsi və analitik düşünmə bacarıqlarının inkişaf etdirilməsi üçün innovativ və interaktiv metodların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Ənənəvi təlim metodlarından fərqli olaraq, bu yanaşmalar tələbənin təlim prosesində fəal iştirakını təmin edir, onun sərbəst düşünmə və qərarvermə qabiliyyətlərini inkişaf etdirir. Bu məqsədlə aşağıdakı metod və yanaşmaların tətbiqi daha məqsədəuyğun hesab olunur.

“Flipped classroom” (Çevrilmiş sinif) modeli.

Bu modeldə tələbələr mövzunu əvvəlcədən video, elektron resurs və ya təqdimatlar vasitəsilə öyrənirlər. Dərs zamanı isə əsas diqqət müzakirə, analiz və praktik fəaliyyətə yönəlir. Bu yanaşma tələbələrin dərs prosesində daha aktiv iştirak etməsinə və analitik düşünmə qabiliyyətlərinin inkişafına şərait yaradır.

Beyin həmləsi (Brainstorming) metodu

Beyin həmləsi tələbələrin yaradıcı və sərbəst düşünmə bacarıqlarını inkişaf etdirən ən effektiv üsullardan biridir. Bu metod zamanı iştirakçılar müəyyən problem ətrafında mümkün qədər çox fikir irəli sürürlər. Burada əsas məqsəd düzgün cavab tapmaq deyil, fərqli düşüncə istiqamətlərini ortaya çıxarmaqdır. Bu metod tələbələrdə çevik düşünmə və problemə müxtəlif aspektlərdən yanaşma bacarıqları formalaşdırır.

Case-study (Hadisə təhlili) üsulu

Bu metod real həyat hadisələrinin və problemlərinin təhlili üzərində qurulur. Tələbələr konkret situasiyanı araşdırır, problemləri müəyyən edir və həll yolları təklif edirlər. Case-study üsulu tələbələrdə qərarvermə, analiz və müqayisə aparmaq bacarıqlarının inkişafına kömək edir.

Reflektiv yazı texnikası

Müasir pedaqoji yanaşmalarda reflektiv düşünmə xüsusi əhəmiyyət daşıyır. Reflektiv yazılar vasitəsilə tələbələr öyrəndiklərini təhlil edir, öz fəaliyyətlərini qiymətləndirir və nəticələr çıxarırlar. Bu metod metakognitiv bacarıqların, yəni insanın öz düşünmə prosesini dərk etməsinin inkişafına müsbət təsir göstərir.

“Sokratik sual” metodu

Bu metod tələbələrə hazır cavab vermək əvəzinə, onları düşünməyə yönəldən suallar üzərində qurulur. Müəllim ardıcıl və məntiqi suallar vasitəsilə tələbələrin mövzu üzərində analiz aparmasına şərait yaradır. Bu yanaşma tənqidi və məntiqi düşünmənin inkişafında mühüm rol oynayır.

Rəqəmsal və interaktiv platformaların istifadəsi

Müasir texnologiyalar təlim prosesində idrak fəaliyyətini artırmaq üçün geniş imkanlar yaradır. İnteraktiv testlər, virtual müzakirə platformaları, simulyasiya proqramları və süni intellekt əsaslı tədris vasitələri tələbələrin təlimə marağını artırır. Xüsusilə, vizual və praktik öyrənmə mühiti analitik təfəkkürün formalaşmasına müsbət təsir göstərir.

Bu yanaşmaların tətbiqi nəticəsində təhsilalanların yalnız bilik səviyyəsi deyil, həm də onların düşünmə, analiz etmə və müstəqil qərarvermə bacarıqları inkişaf edəcəkdir. Müasir dövrdə məhz bu keyfiyyətlər cəmiyyətin intellektual inkişafının əsas göstəricilərindən biri hesab olunur.

Rəqəmsal təhsil mühiti də bu prosesə mühüm təsir göstərir. Elektron resurslar və süni intellekt əsaslı platformalar təhsilalanların fərdi tempdə öyrənməsinə imkan yaradır. Bu isə onların müstəqil düşünmə bacarıqlarını gücləndirir.

Bundan əlavə, müəllimin istiqamətləndirici rolu da xüsusi əhəmiyyət daşıyır. Müəllim yalnız bilik verən deyil, həm də düşünmə prosesini yönləndirən fasilitator kimi çıxış etməlidir. Bu yanaşma təhsilalanların analiz və sintez bacarıqlarının inkişafına xidmət edir.

Müasir təhsil yanaşmaları idrak fəaliyyətinin və analitik düşünmə bacarıqlarının inkişafına kompleks şəkildə təsir göstərir. İnteraktiv və rəqəmsal metodların tətbiqi təhsil prosesini daha effektiv edir və təhsilalanların düşünmə qabiliyyətini gücləndirir. Bu istiqamətdə müəllimin rolu və metodik yanaşmalar həlledici əhəmiyyət daşıyır.

GÜNEL KEÇİLİYEVA
Mingəçevir Dövlət Universiteti
Magistrant
gunelkeciliyeva278@gmail.com

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ TƏNQİDİ DÜŞÜNCƏ BACARIQLARININ FORMALAŞDIRILMASI: PEDAQOJİ YANAŞMALAR

Müasir təhsil sistemi qarşısında şəxsiyyətin hərtərəfli inkişafı ilə bağlı bir sıra vəzifələr durur. Bu vəzifələrdən şagirdlərdə tənqidi təfəkkürün inkişafı ilə bağlıdır.

Şagirdlərin tənqidi və məntiqi təfəkküründün səmərəli inkişafına çağırış, anlama, düşünmə kimi mərhələlərin sistemli şəkildə həyata keçirilməsi kömək edir.

Açar sözlər: *ibtidai təhsil, pedaqoji, üsul, düşüncə, şagird*

Anlama tənqidi təfəkkürün inkişafı üçün əsas prosesdir və bu proses zamanı şagirdlər məlumatı qəbul edir və emal edir. Anlama prosesində müəllimin əsas vəzifəsi müxtəlif üsullardan istifadə etməklə, şagirdlərin mövzuya marağını saxlamaq və onların materialın tədqiqinə həvəsini artırmaqdır. Bu proses xüsusən ibtida təhsil dövründə olduqca mühüm əhəmiyyət daşıyır. İbtida sinif şagirdlərində tənqidi düşüncə bacarıqlarının formalaşdırılması ilə bağlı aparılan araşdırmalara görə şagirdlərin tənqidi təfəkkürün inkişafı ilə əldə etdikləri məlumat qavrayış zamanı üç əsas mərhələdən keçir: problem, məzmunun qavranılması və əks olunması.

Yuxarıda göstərilən mərhələlərin hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Bu mərhələlər bir-biri ilə bağlıdır və vahid məqsədə, yəni tənqiqi təfəkkürün inkişafına yönəldilmişdir: Anlama mərhələsi şagirdin informasiya ilə işləmək, onu təhlil etmək və sistemləşdirmək bacarıqlarının inkişafına yiyələnməsəninə imkan yaradır.

Hazırda təhsil sistemi təkcə şagirdlərə müəyyən biliklərin ötürülməsi və müəyyən fənlər çərçivəsində bacarıqların formalaşdırılması deyil, həm də fərdin hərtərəfli və ahəngdar inkişafını təmin etmək vəzifəsi ilə üzləşir.

Tənqidi təfəkkürün inkişafı tələbələrin məlumatı şərh etmək və qiymətləndirmək üçün xüsusi üsulları mənimsəməyə, bu məlumatdakı ziddiyyətləri müəyyən etməyə, öz mövqeyini səriştəli və aydın şəkildə əsaslandırmağa, məlumatı ən optimal formada təqdim etmək bacarığına yönəldilmişdir.

Bu bacarıqlar praktiki işdə böyük əhəmiyyət kəsb edir. Tədris zamanı tənqidi təfəkkürü inkişaf etdirməklə şagirdlər yeni informasiya ilə işləməkdə yaradıcılıq qabiliyyətlərini, və bacarıqlarını inkişaf etdirirlər. Belə ki, ahəngdar şəxsi inkişaf üçün tənqidi və məntiqi təfəkkür vacibdir.

Bu məqsədə nail olmaq üçün həll edilməli olan vəzifələr aşağıdakılardır:

– tənqidi təfəkkürün inkişafının əsas mərhələlərini araşdırmaq;

– ibtidai sinif şagirdlərində tənqidi təfəkkürün inkişafında müəllimlərin imkan və funksiyalarını nümayiş etdirmək;

– məktəblilərdə konkret məktəb fənlərini mənimsədikcə tənqidi təfəkkürün necə inkişaf etdiyinə dair nümunələr göstərmək.

TAHİRƏ XASMƏMMƏDOVA
Qazax rayonu 3 nömrəli tam orta məktəb
Müəllim
tahirexasmammedova66@gmail.com
https://orcid.org/0000-0003-0706-7518

ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ XARİCİ DİLİN TƏDRİSİNDƏ OXU BACARIQLARI ÜZRƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ MƏSƏLƏLƏRİ (5-6-CI SİNİFLƏR)

Məqalədə ümumi təhsil məktəblərində 5-6-cı siniflərdə xarici dilin tədrisi zamanı oxu bacarıqları üzrə monitorinq və qiymətləndirmə məsələləri geniş şəkildə araşdırılır. Tədqiqatın əsas məqsədi şagirdlərin oxuyub-anlama bacarıqlarının inkişafında monitorinq və qiymətləndirmə mexanizmlərinin rolunu müəyyənləşdirməkdir. Məqalədə formativ qiymətləndirmə, davamlı müşahidə, özünüqiymətləndirmə və reflektiv yanaşmaların şagird nailiyyətlərinə təsiri elmi əsaslarla izah olunur. Eyni zamanda monitorinq prosesinin müəllimə tədrisin keyfiyyətini yüksəltmək, diferensial yanaşma tətbiq etmək və şagirdlərin fərdi inkişafını sistemli şəkildə izləmək baxımından verdiyi imkanlar təhlil edilir. Məqalə xarici dil müəllimləri və pedaqoji tədqiqatçılar üçün metodik baxımdan əhəmiyyətli mənbə kimi çıxış edir.

Açar sözlər: *oxu bacarıqları, monitorinq, qiymətləndirmə, formativ qiymətləndirmə, xarici dil tədrisi*

Giriş. Müasir təhsil sistemində xarici dilin tədrisi yalnız linqvistik biliklərin verilməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdlərdə kommunikativ və tənqidi düşünmə bacarıqlarının formalaşdırılmasına yönəlmişdir. Bu bacarıqlar arasında oxu fəaliyyəti xüsusi yer tutur. Oxu bacarığı şagirdlərin informasiya əldə etməsi, söz ehtiyatının genişlənməsi və mətnlərin dərin məzmununu dərk etməsi baxımından fundamental əhəmiyyət daşıyır. 5-6-cı sinif mərhələsində şagirdlər sadə və orta çətinlikli mətnləri oxuma, əsas ideyanı müəyyən etmə və mətn üzrə analitik sualları cavablandırma bacarıqlarını inkişaf etdirirlər. Bu dövrdə həyata keçirilən sistemli monitorinq təlim prosesinin effektivliyini artırır və müəllimə fərdi yanaşma imkanları yaradır.

Qiymətləndirmə yalnız yekun nəticələrin ölçülməsi deyil, həm də öyrənmə prosesinin davamlı dəstəklənməsi kimi qəbul olunur. Bu baxımdan formativ qiymətləndirmə müasir pedaqogikanın əsas elementlərindən biridir.

Monitorinq və qiymətləndirmə vasitələrinin məqsədi və faydaları:

Monitorinq və qiymətləndirmə vasitələrinin əsas məqsədi 5-6-cı siniflərdə xarici dilin tədrisi zamanı şagirdlərin oxu bacarıqlarını sistemli şəkildə izləmək, onların oxuyub-anlama səviyyəsini müəyyənləşdirmək və təlim prosesində əldə olunan nəticələri obyektiv qiymətləndirməkdir. Bu vasitələr həmçinin şagirdlərin fərdi öyrənmə ehtiyaclarını müəyyən etməyə, tədris prosesini daha məqsədyönlü və effektiv şəkildə planlaşdırmağa xidmət edir. Eyni zamanda, formativ yanaşma əsasında şagirdlərin inkişaf dinamikasını izləmək və öyrənməni davamlı şəkildə dəstəkləmək əsas məqsədlərdən biridir.

Faydaları

Bu tədqiqatın və ümumilikdə monitorinq və qiymətləndirmə sisteminin tətbiqi aşağıdakı əsas faydaları təmin edir:

- ❖ Şagirdlərin oxuyub-anlama bacarıqlarının sistemli şəkildə inkişaf etdirilməsi.
- ❖ Təlim prosesində şagirdlərin zəif və güclü tərəflərinin vaxtında müəyyənləşdirilməsi.
- ❖ Müəllimlərə diferensial təlim strategiyalarının tətbiqi üçün real imkanların yaradılması.
- ❖ Şagirdlərin dərsə motivasiyasının və fəallığının artırılması.
- ❖ Özünüqiymətləndirmə və refleksiya bacarıqlarının formalaşdırılması.
- ❖ Tədrisin keyfiyyətinin yüksəldilməsi və öyrənmə nəticələrinin davamlı izlənilməsi.
- ❖ Şagirdlərdə müstəqil öyrənmə və tənqidi düşünmə bacarıqlarının inkişafı.

Nəticə: Aparılan təhlillər göstərir ki, 5-6-cı siniflərdə xarici dilin tədrisində oxu bacarıqları üzrə monitorinq və qiymətləndirmə şagirdlərin akademik və kommunikativ inkişafında mühüm rol oynayır. Davamlı və məqsədyönlü monitorinq şagirdlərin oxuyub-anlama bacarıqlarını inkişaf etdirir, onların təlim prosesinə marağını artırır və özünəinam hissini gücləndirir.

Eyni zamanda bu yanaşma müəllimə tədris prosesini daha səmərəli planlaşdırmaq, diferensial təlim strategiyalarını tətbiq etmək və şagirdlərin fərdi inkişaf trayektoriyasını izləmək imkanı yaradır. Nəticə olaraq, formativ qiymətləndirmə və monitorinq müasir təhsil prosesinin ayrılmaz komponentlərindən biri kimi çıxış edir.

GÜNEL ABBASOVA
Naxçıvan Qarnizonu tam orta məktəb
İngilis dili müəllimi
gunel.abbasova87@gmail.com

FƏNLƏRİN TƏDRİSİNİN BƏZİ ÜMUMİ MƏSƏLƏLƏRİNƏ DAİR

Müasir təhsil sistemində fənlərin tədrisi bir sıra aktual problemlər və çağırışlarla üz-üzədir. Əsas məsələlərdən biri ənənəvi tədris üsullarının hələ də geniş tətbiq olunmasıdır ki, bu da şagirdlərin tənqidi düşünmə, yaradıcılıq və praktik bacarıqlarının kifayət qədər inkişaf etməsinə mane olur. Buna görə də interaktiv və şagirdyönümlü yanaşmaların tətbiqi zəruri hesab olunur

Açar sözlər: *müasir təhsil sistemi, bilik, fənn, rəqəmsal texnologiya, müəllim*

Müasir dövrdə təhsil sistemi cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Qloballaşma, rəqəmsal transformasiya və əmək bazarının sürətlə dəyişən tələbləri tədris prosesinin məzmununa və təşkilinə yeni yanaşmaların tətbiqini zəruri edir. Bu baxımdan fənlərin tədrisinin aktual məsələlərinin araşdırılması və onların həlli istiqamətində sistemli tədbirlərin görülməsi xüsusi əhəmiyyət kəsb edir.

İlk növbədə qeyd olunmalıdır ki, ənənəvi tədris metodlarının üstünlük təşkil etməsi müasir təhsil tələblərinə tam cavab vermir. Müasir təhsil yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmamalı, eyni zamanda şagirdlərdə analitik düşünmə, problem həll etmə, kommunikasiya və əməkdaşlıq bacarıqlarının formalaşdırılmasını təmin etməlidir. Bu isə müəllimlərdən daha çox interaktiv, şagirdyönümlü və nəticəyönümlü metodların tətbiqini tələb edir. Dərs prosesində müzakirə, layihə əsaslı öyrənmə, tədqiqat fəaliyyəti və praktik tapşırıqlara geniş yer verilməsi vacibdir.

Digər mühüm məsələ rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyasıdır. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsildə yeni imkanlar yaratsa da, bu imkanlardan səmərəli istifadə bütün hallarda təmin olunmur. Müəllimlərin rəqəmsal savadlılıq səviyyəsinin artırılması, müasir texnoloji vasitələrlə işləmək bacarıqlarının inkişaf etdirilməsi və məktəblərin texniki infrastrukturunun gücləndirilməsi bu istiqamətdə əsas prioritetlərdəndir. Eyni zamanda, rəqəmsal resursların düzgün seçilməsi və pedaqoji məqsədlərə uyğun istifadəsi də diqqət mərkəzində saxlanılmalıdır.

Fənlərin tədrisində qarşıya çıxan digər aktual problemlərdən biri qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsidir. Ənənəvi summativ qiymətləndirmə üsulları şagirdlərin yalnız müəyyən hissə biliklərini ölçməyə imkan verir. Halbuki müasir yanaşma şagirdlərin bilik və bacarıqlarının davamlı şəkildə izlənilməsini və inkişaf etdirilməsini nəzərdə tutur. Bu baxımdan formativ qiymətləndirmənin tətbiqi genişləndirilməli, şagirdlərin fərdi inkişaf dinamikası nəzərə alınmalıdır. Qiymətləndirmə yalnız nəticəni deyil, həm də öyrənmə prosesini əhatə etməlidir.

Bununla yanaşı, fənlərarası inteqrasiyanın zəifliyi də tədrisin səmərəliliyinə təsir edən amillərdəndir. Müasir dünyada problemlər kompleks xarakter daşıdığından onların həlli müxtəlif sahələr üzrə bilik və bacarıqların birgə tətbiqini tələb edir. Bu səbəbdən tədris proqramlarında fənlərarası əlaqələrin gücləndirilməsi, inteqrativ dərs modellərinin hazırlanması və tətbiqi mühüm əhəmiyyət daşıyır. Bu yanaşma şagirdlərin bilikləri daha dərindən mənimsəməsinə və onları real həyatda tətbiq etməsinə şərait yaradır.

Müəllim amili isə tədris prosesinin keyfiyyətini müəyyən edən əsas faktorlardan biridir. Müəllimlərin peşəkar inkişafı davamlı xarakter daşımalı, onların metodiki və pedaqoji bacarıqları mütəmadi olaraq təkmilləşdirilməlidir. Bu məqsədlə ixtisasartırma kurslarının, təlimlərin və təcrübə mübadiləsi proqramlarının təşkili xüsusi önəm kəsb edir. Eyni zamanda, müəllimlərin motivasiyasının artırılması və onların fəaliyyətinin obyektiv qiymətləndirilməsi də diqqətdən kənarda qalmamalıdır.

Sonda qeyd etmək lazımdır ki, fənlərin tədrisinin aktual məsələlərinin həlli kompleks və ardıcıl yanaşma tələb edir. Təhsil proqramlarının müasir tələblərə uyğun yenilənməsi, innovativ tədris

metodlarının tətbiqi, rəqəmsal texnologiyalardan səmərəli istifadə və müəllimlərin peşəkar inkişafının təmin olunması bu istiqamətdə əsas prioritetlər kimi çıxış edir. Yalnız bu halda təhsil sistemi cəmiyyətin gözləntilərinə cavab verə və rəqabətqabiliyyətli insan kapitalının formalaşmasına töhfə verə bilər.

TURANƏ ATAKİŞİYEVA
Naxçıvan şəhər 5 nömrəli orta məktəb
Müəllim
turaneatakisiyeva614@gmail.com

TƏHSİL SİSTEMİNİN RƏQƏMSAL TRANSFORMASİYASININ İMKANLARI VƏ YENİ ÇAĞIRIŞLAR

Məqalədə təhsildə rəqəmsal transformasiyanın əhəmiyyəti, süni intellekt, virtual reallıq və internet texnologiyalarının tədris prosesinə təsiri araşdırılır. Müasir texnologiyaların təhsilin keyfiyyətini artırdığı, əlçatanlığı genişləndirdiyi, eyni zamanda təhlükəsizlik və bərabərlik problemləri yaratdığı qeyd olunur.

Açar sözlər: *rəqəmsal transformasiya, süni intellekt, virtual reallıq, təhsil texnologiyaları, internet təhsili, informasiya təhlükəsizliyi*

Müasir texnologiyaların həyatımızın bütün sahələrinə təsiri danılmaz faktdır ki, bu da rəqəmsal transformasiya prosesini təhsil sisteminin ayrılmaz hissəsinə çevrilməsi zərurətini yaradır. O, tədris və öyrənmə üçün yeni imkanlar açır, təhsilin əlçatanlığını və keyfiyyətini yaxşılaşdırır, şagirdlərlə müəllimlər arasında qarşılıqlı əlaqəni gücləndirir.

İnformasiyanın getdikcə daha əlçatan olduğu müasir dünyada təhsil daha effektiv olmalıdır. Təhsildə rəqəmsal texnologiyaların və proqramların istifadəsi şagirdlərə bilikləri daha rahat və cəlbedici şəkildə əldə etməyə imkan verir. Onlar yeni mövzuları öz sürətlərində, onlara uyğun vaxt və məkanda araşdıra bilərlər. Bundan əlavə, onlayn kursların və proqramların mövcudluğu təhsili müxtəlif coğrafi bölgələrdən və sosial mənşələrdən olan insanlar üçün əlçatan edir. Təhsildə rəqəmsal transformasiyanın əsas komponentlərindən biri virtual reallıq, süni intellekt, verilənlərin analitikası və s. kimi müxtəlif texnologiya və proqramların istifadəsidir.

Bu texnologiyalar müəllimlərə 140-dan çox formada interaktiv dərs təşkil etməyə imkan verir ki, bu da şagirdlərin materialı daha dərindən başa düşməsini asanlaşdırır. Bundan əlavə, təhsildə rəqəmsal transformasiya müəllim və şagirdlərin rollarını da dəyişir.

Müəllim indi daha çox mentor və məsləhətçi rolunu oynayır, şagirdlərə suallarına cavab tapmağa və düzgün istiqamətdə inkişaf etməyə kömək edir. Şagirdlər də öz növbəsində müəllim heyəti ilə daha dərin səviyyədə qarşılıqlı əlaqə quraraq tədris prosesinin daha fəal iştirakçılarına çevrilirlər.

Dövrümüzün rəqəmsal transformasiyası əsasən süni intellektin (AI) yaranması və sürətli inkişafı ilə təmsil olunur. Təhsildə süni intellekt təhsil prosesini təkmilləşdirən, onu şagirdlər üçün daha effektiv və əlçatan edən texnologiyalar və metodologiyalar toplusunu təmsil edir.

Təhsildə süni intellektdən istifadə fərdi təlim proqramlarının yaradılmasından tutmuş müəllimlər tərəfindən istifadə edilmək üçün şagirdin qiymətləndirilməsi proseslərinin avtomatlaşdırılmasına və şagirdlərin istifadəsi üçün eyni dərəcədə geniş ola bilər.

AI-nin təhsildə ən vacib tətbiqlərindən biri fərdiləşdirilmiş təlim proqramlarının yaradılmasıdır. Bu proqramlar şagird məlumatlarının təhlili əsasında yaradıla bilər və hər bir şagird üçün unikal təhsil təcrübəsini təmin edər. Fərdiləşdirilmiş təlim proqramları şagirdlərə öz sürətləri ilə öyrənməyə və onları ən çox maraqlandıran mövzulara diqqət yetirməyə kömək edir. Bu, şagirdləri hansısa meyar əsasında fərqləndirmək demək deyil; əksinə, bu tədbirlər az və ya çox dərəcədə şagirdləri həvəsləndirmək, onların konseptual aparatını inkişaf etdirmək, həmçinin tədris prosesi üçün rahat atmosfer yaratmaq məqsədi daşıyır.

Təhsildə süni intellekt tətbiqinin başqa bir nümunəsi tədrisin və şagirdin qiymətləndirilməsinin avtomatlaşdırılmasıdır. IBM Watson, ALEKS və Carnegie Learning kimi sistemlər artıq xaricdəki bəzi məktəblərin tədris prosesində istifadə olunur.

Bu sistemlər bir neçə dəqiqə ərzində şagirdin biliyini qiymətləndirə, tapşırıqların və testlərin qiymətləndirilməsinə sərf olunan vaxtı azalda bilər. Təhsildə süni intellektdən istifadə həmçinin

şagirdin qeydiyyatı, dərslərin planlaşdırılması və təlim prosesinin təşkili kimi inzibati vəzifələri asanlaşdırır. Bu, kolleclərin və məktəblərin professor-müəllim heyətinə və rəhbər işçilərinə diqqəti tədris prosesinə və onun keyfiyyətinin yüksəldilməsinə yönəltməyə imkan verir. Burada bizi daha çox Hemis, Moodle və başqaları kimi əlavə CMS/LMS sistemləri maraqlandırır.

Beləliklə, süni intellektin təhsildə istifadəsi bu sahədə ən perspektivli texnologiyalardan biridir. Virtual reallıq (VR) texnologiyası uzun müddətdir müxtəlif sənaye sahələrində, o cümlədən təhsildə diqqət mərkəzində olmuşdur.

Bu gün VR texnologiyaları təhsil müəssisələrində və iş yerində təlimlərdə istifadə olunur, burada onlar öyrənməyi daha cəlbedici və interaktiv edir. VR təliminin əsas üstünlüklərindən biri reallığı tamamilə simulyasiya edən mühit yaratmaq bacarığıdır.

Virtual sinif otaqları və laboratoriyalar şagirdlərə potensial səhvlər və ya nəticələrdən narahat olmadan mürəkkəb anlayışları daha yaxşı başa düşməyə və bacarıqlarını təkmilləşdirməyə kömək edə bilər. VR simulyasiyaları şagirdlərə real dünya parametrlərində əlçatmaz ola biləcək praktiki təcrübə əldə etməyə imkan verir. Bundan əlavə, təlimdə VR texnologiyasından istifadə avadanlıq və infrastruktur xərclərini azaltmağa kömək edə bilər.

Virtual dərslər uzaqdan keçirilə bilər ki, bu da şagirdlərə və müəllimlərə bahalı səyahət xərclərini azltmaga imkan verir. Nəhayət, VR texnologiyası disleksiya və ya autizm kimi öyrənmə əlilliyi olan şagirdlərə kömək edə bilər.

Virtual dərslər bu şagirdlərin ehtiyaclarına uyğunlaşdırılaraq onların daha rahat və rahat mühitdə təhsil almasına şərait yarada bilər. Bunu nəzərə alsaq, VR texnologiyası təhsil sistemində böyük potensiala malikdir. Bu, şagirdlərə daha əlçatan və cəlbedici şəkildə akademik performanslarını təkmilləşdirməyə, praktik təcrübə qazanmağa və bacarıqlarını təkmilləşdirməyə kömək edə bilər.

Müasir texnologiyalar bir çox insanın, o cümlədən şagirdlərin həyatının ayrılmaz hissəsinə çevrilib. İnternet və mobil qurğular çoxdan təhsil prosesinin bir hissəsi olub və indi əsas öyrənmə vasitələridir.

Təhsildə internet və mobil cihazlardan istifadənin əsas üstünlüklərindən biri də çoxlu məlumat əldə etmək imkanıdır. Şagirdlər müxtəlif axtarış sistemlərindən və onlayn verilənlər bazalarından istifadə edərək lazım olan məlumatları asanlıqla tapa bilirlər. Bu, dərslərə və imtahanlara tez və effektiv hazırlaşmaq imkanı verir. Bundan əlavə, internet və mobil qurğular şagirdlər və müəllimlər arasında məlumat mübadiləsi üçün istifadə edilə bilər. Şagirdlər e-poçt, ani mesajlaşma, forumlar və digər onlayn platformalar vasitəsilə bir-biri ilə və müəllimlərlə əlaqə saxlaya bilərlər. Bu, akademik məsələlərin tez və effektiv müzakirəsinə və suallara cavab verməyə imkan verir. Şagirdlərə vaxt və təhsil prosesini təşkil etməyə kömək edən çoxsaylı proqramlar və onlayn resurslar da var, məsələn, vaxtın idarə edilməsi və tapşırıqların planlaşdırılması proqramları, onlayn təqvimlər və s. Bütün bunlar şagirdlərə vaxtlarını daha səmərəli istifadə etməyə və vacib tapşırıqları və hadisələri unutmamağa kömək edir. Yuxarıda deyilənləri nəzərə alaraq deyə bilərik ki, internet və mobil qurğular şagirdlərin informasiya əldə etməsinə, bir-biri ilə ünsiyyət qurmasına və onların təlim prosesini təşkil etməsinə kömək edən mühüm təlim vasitəsidir.

Təlim prosesində informasiya texnologiyalarından, o cümlədən VR və süni intellektdən istifadə təhsil texnologiyalarının inkişafında yeni mərhələni təmsil edir. Bununla belə, bütün üstünlüklərə baxmayaraq, belə istifadə həm də bir sıra çətinliklər və həll edilməli olan problemlər yaradır.İnformasiya cəmiyyətinin əsas problemi ondan ibarətdir ki, informasiya texnologiyalarından düzgün istifadə olunmasa, təhsilin keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər. Məsələn, lazımi monitorinq və əks əlaqə olmadan texnologiyadan müəllimləri əvəz etmək və ya tədris üçün istifadə etmək biliklərin mənimsənilməsinin keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər. Növbəti problem şagird məlumatlarının təhlükəsizliyinin və qorunmasının təmin edilməsi zərurəti ilə bağlıdır. Onlayn platformalar və proqramlar kiberhücumlara və məlumatların pozulmasına qarşı həssas ola bilər ki, bu da şəxsi məlumatların sızmasına və məxfiliyin pozulmasına səbəb ola bilər. Digər narahatlıq odur ki, təhsildə süni intellektdən istifadə təhsildə bərabərsizliklərə də səbəb ola bilər. Məsələn, şagirdləri qiymətləndirmək üçün kompüter öyrənmə alqoritmlərindən istifadə, alqoritmlər bütün fərdi xüsusiyyətləri nəzərə almadıqda bərabərsizliyə səbəb ola bilər. Təhsilin rəqəmsal transformasiyasını

sistem nöqteyi-nəzərindən nəzərdən keçirdikdə aydın olur ki, hər bir müsbət aspektdə çətinliklər gözləyir. Beləliklə, belə qənaətə gəlmək olar ki, cəmiyyətdə təhsilin rəqəmsal transformasiyası problemsiz deyil və olmayacaq da. Müəllimlər, İKT mütəxəssisləri, proqramçılar və öz sahələrinin digər mütəxəssisləri yuxarıda qeyd olunan problemlərlə bağlı problemləri minimuma endirmək üçün rəqəmsal texnologiyalardan istifadəni daim izləməli və qiymətləndirməlidirlər. Bütün potensial çətinliklərdən asılı olmayaraq, təhsil sisteminin rəqəmsallaşması qarşısıalınmazdır. O, bütün sektorlara nüfuz edir və İKT və texnologiya olmadan məhsuldar proseslər artıq mümkün deyil. Digər tərəfdən, müasir dünyanı əsaslı şəkildə dəyişən müsbət cəhətlər gələcək nəslə nəzəri və praktiki faydalar gətirdiyi üçün rəqəmsallaşma dayandırılmamalı, əksinə dəstəklənməlidir.

AYTƏN KƏRİMOVA
Naxçıvan Dövlət Universiteti
Doktorant
aytenkerimova567@gmail.com

FİZİKA MÜƏLLİMİNİN FƏRDİ TƏCRÜBƏSİNDƏ LAYİHƏ ƏSASLI TƏLİMİN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

Məqalədə fizika müəlliminin fərdi pedaqoji təcrübəsində layihə əsaslı təlim metodunun tətbiqi xüsusiyyətləri geniş şəkildə araşdırılmışdır. Layihə əsaslı təlimin şagirdlərdə tədqiqatçılıq, problem həll etmə, yaradıcı düşünmə, əməkdaşlıq və təqdimat bacarıqlarının formalaşdırılmasına təsiri təhlil edilmişdir.

Açar sözlər: *fizika tədrisi, layihə əsaslı təlim, innovativ metodlar, tədqiqat fəaliyyəti, interaktiv təlim*

Müasir dövrdə təhsil sistemində aparılan islahatlar tədris prosesində yeni pedaqoji yanaşmaların tətbiqini zəruri etmişdir. Ənənəvi təlim metodları əsasən nəzəri biliklərin ötürülməsinə yönəldiyi halda, müasir təhsil yanaşmaları şagirdlərin yaradıcı, tənqidi və analitik düşünmə bacarıqlarının inkişafına xüsusi önəm verir. Bu baxımdan layihə əsaslı təlim müasir məktəbdə tətbiq olunan ən aktual və effektiv metodlardan biri hesab olunur. Layihə əsaslı təlim şagirdlərin müəyyən problem üzərində araşdırma aparmasına, praktik fəaliyyət göstərməsinə və nəticə əldə etməsinə əsaslanan öyrənmə modelidir. Bu yanaşma şagirdlərin yalnız bilik əldə etməsinə deyil, həm də həmin bilikləri praktik şəkildə tətbiq etməsinə imkan yaradır. Fizika fənni təbiət hadisələrinin qanunauyğunluqlarını öyrəndiyi üçün layihə əsaslı təlimin tətbiqi baxımından geniş imkanlara malikdir. Fizika dərslərində layihə fəaliyyəti vasitəsilə şagirdlər müşahidə aparır, eksperimentlər həyata keçirir, müxtəlif cihaz və modellər hazırlayır, eləcə də real həyatda qarşılaşdıqları problemlərə elmi yanaşma tətbiq etməyi öyrənirlər. Müasir məktəbdə fizika müəlliminin əsas vəzifələrindən biri şagirdlərdə tədqiqatçılıq və praktik fəaliyyət bacarıqları formalaşdırmaqdır. Bu məqsədlə layihə əsaslı təlim metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Layihə əsaslı təlim XX əsrin əvvəllərində pedaqoji yanaşma kimi formalaşmış və zaman keçdikcə inkişaf etmişdir. Bu metodun əsas məqsədi şagirdlərin müstəqil fəaliyyətini təmin etmək, onların yaradıcı potensialını üzə çıxarmaq və real problemlərin həllinə yönəltməkdir.

Layihə əsaslı təlim zamanı şagird:

- problemi müəyyən edir;
- araşdırma aparır;
- məlumat toplayır;
- eksperimentlər həyata keçirir;
- nəticələri təhlil edir;
- əldə olunan nəticələri təqdim edir.

Bu metodun əsas xüsusiyyətlərindən biri şagirdin təlim prosesində passiv dinləyici deyil, aktiv iştirakçı kimi çıxış etməsidir. Müəllim isə istiqamətləndirici, məsləhətçi və təşkilatçı rolunu yerinə yetirir. Layihə əsaslı təlim konstruktivist təlim nəzəriyyəsinə əsaslanır. Bu nəzəriyyəyə görə bilik hazır formada ötürülmür, şagird onu fəaliyyət prosesində özü formalaşdırır. Bu isə öyrənilən məlumatların daha uzunmüddətli yadda qalmasına və praktik tətbiqinə şərait yaradır.

Fizika fənnində layihə əsaslı təlimin ən geniş yayılmış formalarından biri eksperiment əsaslı layihələrdir. Şagirdlər müəyyən fiziki hadisələri müşahidə edir, təcrübələr aparır və nəticələri təhlil edirlər. Məsələn:

- elektrik dövrəsinin qurulması;
- sadə elektromaqnit modelinin hazırlanması;
- işıq hadisələrinin müşahidəsi;
- mayelərin sıxlığı ilə bağlı eksperimentlərin aparılması;
- sürət və hərəkətin ölçülməsi kimi fəaliyyətlər layihə şəklində təşkil edilə bilər.

Müasir təhsil sistemində STEAM yanaşmaları geniş tətbiq olunur. Fizika dərslərində layihə əsaslı təlim bu istiqamətdə xüsusi rol oynayır. Bu tip layihələr şagirdlərin mühəndislik və texnologiya sahəsinə marağını artırır və onların gələcək peşə seçiminə müsbət təsir göstərir. Şagirdlər:

- robot modelləri hazırlayır;
- alternativ enerji mənbələrini araşdırır;
- günəş enerjisi ilə işləyən qurğular hazırlayır;
- sadə mühəndislik layihələri həyata keçirirlər.

Layihə əsaslı təlimin mühüm xüsusiyyətlərindən biri fizika qanunlarının gündəlik həyatla əlaqələndirilməsidir. Bu yanaşma şagirdlərdə fizika fənninə qarşı marağı artırır və öyrəndikləri biliklərin praktik əhəmiyyətini göstərir. Məsələn:

- enerji israfının araşdırılması;
- məişətdə elektrik təhlükəsizliyi;
- səs-küyün insan sağlamlığına təsiri;
- istilik izolyasiyası;

Layihə əsaslı təlim prosesində müəllimin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Müəllim layihənin məqsədini müəyyən edir, mövzu seçimini istiqamətləndirir və fəaliyyət planını hazırlayır. Fizika müəllimi layihənin mərhələlərini müəyyən edir, şagirdləri motivasiya edir, araşdırma prosesinə rəhbərlik edir, təhlükəsizlik qaydalarına nəzarət edir, nəticələrin təqdimatını təşkil edir. Müəllimin fərdi pedaqoji təcrübəsi layihənin keyfiyyətinə birbaşa təsir göstərir. Təcrübəli müəllim şagirdlərin maraq dairəsini nəzərə alaraq daha yaradıcı layihələr təşkil edə bilir. Müasir dövrdə müxtəlif simulyasiya proqramları, virtual laboratoriyalar və rəqəmsal platformalar fizika dərslərinin daha maraqlı təşkilinə imkan yaradır.

Nəticə etibarilə, layihə əsaslı təlim fizika dərslərinin daha effektiv və maraqlı təşkilində mühüm rol oynayır. Bu metod şagirdlərin nəzəri biliklərini praktik fəaliyyətlə əlaqələndirməyə, onların yaradıcı və tədqiqatçılıq bacarıqlarını inkişaf etdirməyə imkan yaradır. Fizika müəlliminin fərdi təcrübəsində layihə əsaslı təlimin tətbiqi şagirdlərin elmə marağının artırılmasına, dərs prosesində fəallığının yüksəlməsinə və müasir təhsil tələblərinə uyğun bacarıqlar qazanmasına şərait yaradır. Müasir təhsil islahatları şəraitində layihə əsaslı təlim metodlarının geniş tətbiqi fizika tədrisinin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və gələcəkdə daha innovativ təhsil mühitinin formalaşmasına xidmət edir.

PANEL 16. ÜMUMİ TƏHSİLİN DİGƏR AKTUAL MƏSƏLƏLƏRİ ELMİ TƏDQİQATLARDA - 02

NATİQ AXUNDOV
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Aparıcı elmi işçi
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim
natiq_axundov1953@mail.ru

ORTA ÜMUMİ TƏHSİL MƏKTƏBLƏRİNDƏ "TEXNOLOGİYA" FƏNNİNİN TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

Bu yazıda orta ümumi təhsil məktəblərində "Texnologiya" fənninin tədrisi vəziyyəti araşdırılmış, mövcud problemlər müəyyənləşdirilmiş və onların həlli üçün təklif və tövsiyələr irəli sürülmüşdür. Araşdırma göstərir ki, əsas problemlər maddi-texniki təminatın zəifliyində, pedaqoji kadrların hazırlığında və müasir texnologiyaların məhdud istifadəsindədir.

Açar sözlər: *Texnologiya fənni, maddi-texniki baza, STEAM təhsili, kadr potensialı, layihə əsaslı təlim, kurikulum, rəqəmsal bacarıqlar*

Yaşadığımız dövr texnoloji sahədə sürətli yeniliklərlə səciyyələnir. Bu yeniliklər cəmiyyətin bütün təbəqələrinə, o cümlədən təhsil sisteminə dərin təsir göstərir. Orta məktəb səviyyəsində "Texnologiya" fənni şagirdlərin əmək fəaliyyətinə hazırlanmasında, layihələndirmə bacarıqlarının inkişaf etdirilməsi, mühəndis-düşüncə tərzinin formalaşması və rəqəmsal biliklərin artırılmasında əhəmiyyətli rol oynayır. Ümumi təhsil müəssisələrində bu fənn I sinifdən başlayaraq IX sinif də daxil olmaqla tədris edilir. Əvvəllər "Əmək hazırlığı" adlanan bu fənn yeni kurikulum islahatlarından sonra "Texnologiya" adlandırılmaqla daha geniş məzmun qazanmışdır. Ölkəmizdə aparılan çoxsaylı təhsil islahatlarına baxmayaraq, bu fənnin tədrisi prosesində bir sıra problemlər mövcuddur. Əsas məqsədimiz həmin problemləri dərindən araşdıraraq müəyyən etmək və onların aradan qaldırılması üçün praktiki təkliflər irəli sürməkdir.

Problem 1: Maddi-texniki baza çatışmazlığı və avadanlıq təminatının zəif olması Məktəblərin çox böyük qismi emalatxana və müasir avadanlıqlarla təhciz edilməmişdir; emal texnologiyaları, texnika elementləri və məişət mədəniyyəti məzmun xətlərini həyata keçirmək üçün nəzərdə tutulan alət və cihazlar ya yoxdur, ya da sıradan çıxmış vəziyyətdədir. Toxuculuq, ağac və metal emalı alətləri köhnəlmiş, istifadəyə yararsız vəziyyətdədir.

Problemin aradan qaldırılması yolları: *Dövlət büdcəsindən ümumi təhsil məktəblərin tədris avadanlıqlarının yenilənməsi üçün xüsusi vəsait ayrılmalıdır; yerli sənaye müəssisələri ilə məktəblər arasında xeyriyyəçiliyə əsaslanan əməkdaşlıq razılaşmaları bağlanmalıdır (müəssisələr istifadə müddəti bitmiş, lakin işlək avadanlıqlarını məktəblərə hədiyyə edə bilər).*

Problem 2: Kadr çatışmazlığı və ixtisaslaşmış müəllimlərin azlığış. Çox halda texnologiya fənnini tədris edən müəllimlərin əksəriyyəti pensiya yaşına çatmış şəxslərdir və gənclərin bu sahəyə marağı olduqca aşağıdır; pedaqoji universitetlərdə "Texnologiya müəllimi" ixtisası tələbələr arasında populyar deyil (onlar daha çox informatika və ya fizika ixtisaslarına üstünlük verirlər); fəaliyyətdə olan müəllimlərin çoxu rəqəmsal texnologiyalar, robototexnika və 3D modelləşdirmə kimi müasir sahələrdə bilik və bacarıqlara malik deyillər.

Problemin aradan qaldırılması yolları: *Texnologiya fənnini tədris edən müəllimlər üçün mütəmadi (hər 3 ildənbir) ixtisasartırma kursları təşkil edilməli, bu kurslarda müasir texnologiya dərslərinə qoyulan tələblərə xüsusi diqqət yetirilməlidir; "Texnologiya müəllimliyi" ixtisası üzrə bakalavr pilləsinə tələbə qəbulu planları artırılmalı, tələbələrə yüksək təqaüd və işlə təminat zəmanəti verilməlidir; ümumi təhsil məktəblərində texnologiya fənn saatları artırılmalı; mühəndis-texnoloqlar üçün qısamüddətli pedaqoji hazırlıq proqramları təşkil edilərək onların məktəblərə cəlb edilməsi təmin edilməlidir.*

Problem 3: Kurrikulumun müasir çağırışlara cavab verməməsi və dərslik problemləri. Mövcud kurrikulumda sənayenin tələbləri (yaşıl enerji, rəqəmsal texnologiyalar, alternativ enerji

mənbələri, süni intellekt kimi mövzular) əks olunmayıb; layihə əsaslı təlim metodunun tətbiqi bəyan edilsə də, dərsliklərdə praktiki tapşırıqların sayı məhduddur, nəzəri hissə üstünlük təşkil edir.

Problemin aradan qaldırılması yolları: *Kurrikulum STEAM elementlərinin (elm, texnologiya, mühəndislik, riyaziyyat, incəsənət) daxil edilməsi ilə yenidən işlənməlidir; dərsliklərdə yaşıl enerji, rəqəmsal texnologiyalar, süni intellekt, alternativ enerji mənbələri əks olan mövzular öz əksini tapmalıdır; açıq təhsil resursları (video dərslər, interaktiv simulyasiyalar, 3D modellərin elektron kitabxanası) yaradılmalıdır.*

Problem 4: Dərs saatlarının azlığı və siniflərin sıxlığı, həftəlik dərs yükünün kifayət etməməsi. Texnologiya fənninə həftədə verilən saatlar azlıq təşkil edir ki, bu da tam hüquqlu bir layihəni yerinə yetirmək üçün yetərli deyil; siniflərdə şagirdlər 30-40 nəfər olduqda təhlükəsizlik qaydalarına nəzarət etmək və şagirdlərlə fərdi işləmək çətinləşir.

Problemin aradan qaldırılması yolları. *Həftəlik dərs ən azı 3 saata (2 saat nəzəri 1saat praktiki məşğələ) çatdırılmalıdır; Hər bir sinfin iki yarımqrupa bölünməsi üçün əlavə müəllim ştatları ayrılmalıdır.*

Problem 5: Ənənəvi metodların üstünlük təşkil etməsi. Müəllimlər əsasən “göstər və təkrarla” metodundan istifadə edir, problemə əsaslanan təlim, layihə metodu və tədqiqat metodu kimi müasir yanaşmalara az müraciət olunur; Qiymətləndirmə sistemi yalnız hazır məhsula yönəlib. Planlaşdırma, səhvləri təhlil etmə, proses bacarıqları nəzərə alınmır.

Problemin aradan qaldırılması yolları: *Texnologiya fənnini tədris edən müəllimlər üçün “Aktiv tədris metodları” üzrə məcburi təlimlər keçirilməlidir; portfoliodan geniş istifadə edilməli, şagirdin il ərzində yerinə yetirdiyi layihələr, səhvlər üzərində işi, tərəqqi dinamikası izlənilməlidir; məktəblərarası “Texnoloji yarışlar” və sərgilər təşkil edilərək rəqabət mühiti yaradılmalıdır.*

Problem 6: Cəmiyyət və valideynlərin “Texnologiya” fənninə münasibəti dəyişməlidir. Valideynlərin əksəriyyəti bu fənnə ciddi yanaşmır, “imtahan fənni deyil, vaxt itkisidir” düşüncəsi ilə çıxış edir; Şagirdlər texnologiya dərslərini “əyləncəli fasilə” kimi qəbul edir, nəticədə dərsdə nizamintizam pozulur; Qız şagirdlərin texniki bölmələrə (robototexnika, me-xanika) cəlb olunması olduqca zəifdir.

Problemin aradan qaldırılması yolları: *Valideynlər üçün açıq qapı günləri, şagird işlərindən ibarət sərgilər təşkil edilməlidir; KİV-də və sosial şəbəkələrdə uğurlu gənc texnoloqlar, eləcə də mühəndislər haqqında rubrikalar hazırlanmalıdır.*

Problem 7: Regional bərabərsizlik və inklüzivlik problemləri. Bakı, Sumqayıt, Gəncə kimi iri şəhərlərdə şərait nisbətən yaxşı olsa da, dağlıq və ucqar rayonlarda (Lerik, Qusar, Şəki və ətraf kəndlər) emalatxanalar tamamilə yoxdur; əlilliyi olan şagirdlər üçün uyğunlaşdırılmış texnoloji avadanlıqlar (hündürlüyü tənzimlənən masaüstü,) mövcud deyil.

Problemin aradan qaldırılması yolları: *Dövlət proqramı çərçivəsində səyyar mobil texnoloji laboratoriyalar (avtobus şəklində quraşdırılmış mini emalatxana) yaradılmalı və hər ay region məktəblərini gəzərək xidmət göstərməlidir;İnklüziv təhsil üçün xüsusi metodik vəsaitlər və məktəblərə yardımçı personal ayrılmalıdır.*

Nəticə. Ümumi təhsil müəssisələrində “Texnologiya” fənninin tədrisi ciddi struktur problemləri ilə üzləşir. Maddi-texniki baza köhnəlmişmiş, ixtisaslı müəllim çatışmazlığı var, tədris proqramı müasir tələblərə cavab vermir, cəmiyyətin bu fənnə münasibəti laqeyddir. Bütün bu səbəblər şagirdlərin gələcək **əmək bazarında rəqabətədavamlı** olmasına mane olur.

Strateji tövsiyələr:

1. **Dövlət səviyyəsində “Texnologiya təhsilinin modernləşdirilməsi konsepsiyası” qəbul edilməli və 2026-2030-cu illəri əhatə edən yol xəritəsi hazırlanmalıdır.**
2. **Hər bir rayonun ərazisində ən azı bir nümunəvi texnologiya məktəbi (resurs mərkəzi) yaradılmalıdır.**
3. **Texnologiya müəllimlərinin əmək haqqına artırılmış əmsal tətbiq edilməlidir (çətin və təhlükəli əməyə görə).**
4. **Texnologiya fənni üzrə Respublika olimpiadaları yenidən təsis edilməli (1990-cı illərdə olduğu kimi) və qaliblərə ali məktəblərə qəbulda imtiyazlar verilməlidir.**

ETİBAR MUSAYEV
Gəncə Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
etibaradiloglu @mail.ru
https://orcid.org/0000-0001-8567-0692
XƏDİCƏ MUSALI
Gəncə Dövlət Universiteti
Xarici dillər fakültəsi, tələbə

ONLAYN TƏDRİSİN EFFEKTİVLİYİ VƏ ŞAGİRD MOTİVASİYASI

Məqalədə onlayn tədrisin ümumi təhsildə tətbiqi, şagird motivasiyasına təsiri və çətinlikləri araşdırılmışdır. İnteraktiv dərslər və rəqəmsal platformalar öyrənmə fəallığını artırır, lakin sosial qarşılıqlı əlaqənin məhdudluğu və texniki problemlər hələ də çağırış yaradır.

Açar sözlər: *onlayn tədris, şagird motivasiyası, rəqəmsal təhsil platformaları, tədris effektivliyi*

Texnologiyanın sürətli inkişafı təhsil sahəsində dərin və əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə son illərdə onlayn tədris ümumi təhsildə mühüm rol oynamağa başlamışdır. Bu təhsil metodu şagirdlərə vaxt və məkan sərhədlərindən asılı olmadan öyrənmək imkanı verir, eyni zamanda təhsil keyfiyyətinin və motivasiyanın qorunması kimi yeni çağırışları gündəmə gətirir. Onlayn tədris yalnız texnologiyanın istifadəsi ilə məhdudlaşmır, həm də müəllim və şagird arasında qarşılıqlı fəaliyyətin yeni formatlarını tələb edir. Məqalənin əsas məqsədi onlayn tədrisin effektivliyini və şagird motivasiyasına təsirini araşdırmaqdır, həmçinin bu sahədəki çağırış və imkanları sistemli şəkildə təhlil etməkdir.

İlk olaraq ənənəvi tədrisdən fərqli olaraq onlayn tədrisin xüsusiyyətləri nəzərdən keçirək. Onlayn tədris müasir rəqəmsal texnologiyalardan istifadəni nəzərdə tutur və virtual dərs otaqları, interaktiv platformalar, video dərslər, test və tapşırıq sistemləri ilə dəstəklənir. Bu metod həm müəllim, həm də şagird üçün adaptasiya və texniki hazırlıq tələb edir. Müəllimlər dərs planlamasında texnologiyanın imkanlarını nəzərə almalı, dərsləri interaktiv və motivasiyaedici hala gətirməlidirlər. Eyni zamanda, şagirdlər texnologiyanı effektiv istifadə etməyi öyrənməli və özünüidarə bacarıqlarını inkişaf etdirməlidirlər.

Onlayn tədrisin şagird motivasiyasına təsirinin əsas istiqamətlərini və effektivliyini analiz edək. Şagird motivasiyası onlayn tədrisin effektivliyini birbaşa müəyyən edən əsas amillərdən biridir. İnteraktiv dərslər, qısa testlər, video-materiallar, oyunlaşdırılmış tapşırıqlar və onlayn forumlar şagirdlərin dərsə marağını artırır. Motivasiya yüksək olduqda öyrənmə nəticələri yaxşılaşır, şagird dərslərə daha fəal qatılır. Lakin sosial qarşılıqlı əlaqənin azlığı, texniki problemlər və müəllimin online dərs strategiyalarının zəifliyi motivasiyaya mənfi təsir göstərə bilər. Bu səbəbdən onlayn tədrisdə motivasiyanı qorumaq üçün davamlı qiymətləndirmə, fərdi diqqət və müntəzəm rəy mexanizmləri vacibdir.

Əlbəttə ənənəvi tədris prosesindən fərqli olaraq onlayn tədrisin həm üstünlükləri və həm də çətinlikləri vardır.

Üstünlüklər:

- Vaxt və məkan çevikliyi;
- Fərdi öyrənmə sürətinə uyğunlaşma;
- Rəqəmsal resurslardan geniş istifadə imkanı;
- Müasir texnologiyaların dərslərə inteqrasiyası ilə tədrisin interaktiv və maraqlı olması.
- Çətinliklər:
- Texniki problemlər və internet bağlantısı məhdudiyyətləri;
- Müəllim və şagirdin texnologiya bacarıqlarının fərqliliyi;
- Sosial qarşılıqlı əlaqənin azalması və təhsil prosesində izolasiya riski;

- Onlayn dərslərin diqqət və motivasiya itkisinin qarşısını almaq üçün əlavə strategiyaların tələb olunması.

Bütün bunlara baxmayaraq onlayn tədrisin effektivliyini də qeyd etmək vacibdir. Onlayn tədrisin effektivliyi bir neçə amillə sıx bağlıdır. Bunlara dərs planlamasının keyfiyyəti, müəllim hazırlığı, şagirdin özünüidarə bacarığı və texnologiyadan istifadənin səviyyəsi daxildir. Hibrid təlim modelləri, interaktiv resurslar, qrup işləri və fərdi tapşırıqlar şagird motivasiyasını artırır və tədris nəticələrini yaxşılaşdırır. Bundan əlavə, davamlı texniki dəstək, müəllimlərin peşə inkişafı və rəqəmsal resurslardan optimal istifadə distant təlimin səmərəliliyini yüksəldir.

Onlayn tədris müasir ümumi təhsil sistemində əhəmiyyətli potensiala malikdir. Şagird motivasiyasını artırmaq və öyrənmə nəticələrini yaxşılaşdırmaq üçün interaktiv və fərdi yanaşmalar tətbiq edilməli, texniki dəstək və müəllim hazırlığı gücləndirilməlidir. Bu yolla distant təlim yalnız effektiv deyil, həm də davamlı və innovativ təhsil modeli kimi inkişaf edə bilər. Gələcəkdə onlayn və hibrid təlim modellərinin tətbiqi təhsil keyfiyyətinin yüksəldilməsi və şagirdlərin fərdi bacarıqlarının inkişaf etdirilməsi üçün daha geniş imkanlar yaradacaqdır.

GÜLTƏKİN ƏRƏBOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Biologiya üzrə fəlsəfə doktoru, müəllim
gulu.arabova@mail.ru

SÜNİ İNTELLEKT DÖVRÜNDƏ MÜƏLLİM HAZIRLIĞI: PEDAQOJİ ELMİ ARAŞDIRMALAR VƏ GƏLƏCƏYİN KOMPETENSİYALARI

Süni intellekt müəllim hazırlığı, pedaqoji elmi araşdırmalar üçün yaratdığı metodoloji imkanlarla gələcəyin müəllim kompetensiyalarının formalaşmasına yönəlmiş dəyişiklikləri müəyyən etməyə imkan verir. Mövcud elmi ədəbiyyatın təhlili göstərir ki, süni intellekt texnologiyaları müəllimdən yeni bacarıqlar, yerində qərarvermə qabiliyyəti, data əsaslı düşüncə, rəqəmsal pedaqogika bilikləri və süni intellekt savadlılığı tələb edir. Ali pedaqoji təhsil sistemlərində süni intellekt əsasında yenilənən tədris modellərinin, kurikulum dəyişikliklərinin və elmi tədqiqat metodlarının mahiyyəti açıqlanır. Nəticələr göstərir ki, gələcəyin müəllimi həm texnologiya istifadəçisi, həm də onun pedaqoji nəzarətçisi rolunu daşımalıdır.

Açar sözlər: *süni intellekt, müəllim hazırlığı, Sİ savadlılığı, rəqəmsal pedaqogika, pedaqoji araşdırmalar, kompetensiyalar*

XXI əsrdə süni intellektin sürətli inkişafı təhsil sistemini əsaslı şəkildə dəyişdirir. Süni intellekt (Sİ) yalnız tədrisin texnoloji təminatı deyil, həm də tədrisin məzmunu, qiymətləndirmə yanaşması, öyrənmə prosesinin fərdiləşməsi və müəllimin peşə funksiyalarının transformasiyası üçün yeni imkanlar yaradır. Bütün dünyada aparılan tədqiqatlar göstərir ki, müəllim hazırlığı proqramları artıq ənənəvi pedaqoji və psixoloji hazırlıqla məhdudlaşmır, onlar Sİ savadlılığı, data analitikası, etik qərarvermə, rəqəmsal tədris dizaynı və adaptiv öyrənmə mühitlərinin idarə olunması kimi yeni bacarıqlar tələb edir.

Sİ-nin ən böyük töhfəsi hər bir şagirdin fərdi ehtiyaclarına uyğunlaşan **adaptiv öyrənmə platformalarının olmasıdır.** Bu sistemlər müəllimi rutin tapşırıqlardan azad edir, ona "mentor" və "fasilitator" funksiyasını yerinə yetirməyə imkan verir. Müəllim artıq hər kəsə eyni mühazirəni oxuyan şəxs deyil, sistemin verdiyi dataya əsasən çətinlik çəkən şagirdə fərdi dəstək göstərən mütəxəssisdir.

Müəllimlərin Sİ dövrünə hazırlanması bir neçə kritik istiqaməti əhatə edir. Bunlardan birincisi data analitikasıdır. Müəllimlər öyrənmə analitikasını oxumağı bacarmalıdır. Məsələn, şagirdin platformadakı fəallıq qrafikinə baxaraq onun "akademik risk" qrupunda olduğunu öncədən proqnozlaşdırmağı bacarmalıdır. Bu platformalardan istifadə edərək tədqiqatçılar minlərlə şagirdin davranış modelini analiz edərək hansı tədris metodunun daha effektiv olduğunu riyazi dəqiqliklə müəyyən edə bilirlər. Bununla pedaqoji tədqiqatlarda ənənəvi anket və müşahidə metodları yerini **big data**nın təhlilinə verir. Gələcəyin müəllimi həm də bir **tədris dizayneri** olmalıdır. O, Sİ alətlərini dərs planına elə inteqrasiya etməlidir ki, texnologiya məqsəd deyil, məqsədə çatmaq üçün vasitə olsun. Məsələn, Müəllim şagirdlərə Midjourney ilə tarixi bir hadisəni vizuallaşdırmağı tapşırırsa, burada əsas hədəf şəklin gözəlliyi deyil, şagirdin həmin dövrün detallarını nə dərəcədə düzgün analiz etməsidir.

Eyni zamanda Sİ istifadəsi zamanı müəllimlər etik məsuliyyət daşımalıdırlar. Generativ Sİ (məsələn, ChatGPT) istifadəsində plagiatın qarşısının alınması və alqoritmik qərəzliliyin dərk edilməsi mütləqdir. UNESCO-nun "Süni İntellektin Etikasına dair Tövsiyələr" sənədində qeyd edildiyi kimi, təhsil işçiləri texnologiyanın insan hüquqlarına və gizliliyə hörmət etməsini təmin edən nəzarətçilər olmalıdır.

Bu dəyişikliklərin fonunda pedaqoji elmi araşdırmaların metodologiyası da yenilənir: big data təhlili, öyrənmə analitikası, alqoritmik modelləşdirmə, simulyasiya-pedaqogika və generativ alətlərin tədqiqatlarda istifadəsi genişlənir. Sİ dövründə müəllim hazırlığının nəzəri və praktik əsaslarının araşdırılması gələcəyin təhsil siyasətinin qurulması üçün mühüm əhəmiyyət daşıyır. Müəllimin rolu genişlənir və mürəkkəbləşir. O, həm texnologiyanın istifadəçisi, həm etik nəzarətçisi, həm də tədris

dizaynerinə çevrilir. Pedaqoji elmi araşdırmalar bu dəyişiklikləri dərinləşdirir və elmi əsaslandırılmış strategiyaların hazırlanmasını zəruri edir. Gələcəyin müəllim hazırlığı Sİ-savadlı, etik məsuliyyətli, tədqiqat yönümlü və rəqəmsal pedaqogikanı mənimsəmiş mütəxəssislərə əsaslanmalıdır.

AFAQ QASIMOVA
Lənkəran Dövlət Universiteti
Pedaqogika üzrə elmlər namizədi, fəxri professor, dosent
https://orcid.org/0009-0007-4056-0159
MƏDİNƏ ABDULLAYEVA
Lənkəran Dövlət Universiteti
Magistrant
medine.memmedli1996@gmail.com

AZƏRBAYCANDA TƏHSİL İSLAHATLARI: YENİ YANAŞMALAR

Bu tezisdə Azərbaycanda həyata keçirilən təhsil islahatları və bu sahədə tətbiq olunan yeni yanaşmalar təhlil edirmişdir. Təhsil sistemində aparılan dəyişikliklərin əsas məqsədinin təhsilin keyfiyyətinin artırılması, eyni zamanda ölkənin sosial-iqtisadi inkişafına, insan kapitalının gücləndirilməsinə və milli təhsil sistemimizin qlobal təhsil məkanına inteqrasiyasına xidmət etdiyi vurğulanmışdır.

Açar sözlər: *təhsil islahatları, kurikulum, Milli Kurikulum, interaktiv metodlar, yeni yanaşmalar*

Ötən illərdə bir çox sahədə olduğu kimi, təhsil sahəsində də həyata keçirilən islahatlar ölkəmizin sosial-iqtisadi inkişaf strategiyası birbaşa bağlıdır. Həyata keçirilən təhsil islahatlarının əsas məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq standartlara uyğun təhsil modelinin qurulması , ölkənin kadr ehtiyacını qarşılayacaq potensiallı şəxsiyyətlər yetişdirmək məqsədi daşıyır. Bu islahatlar ənənəvi tədris modellərini arxa plana qoymuş, şagirdyönümlü, şəxsiyyətyönümlü, kompetensiya əsaslı və nəticəyönümlü yanaşmaları ön plana çəkmişdir.

2006-cı ildə qəbul olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) " aparılan islahatlar üçün əsas baza rolunu oynayır. Müasir kurikulum modeli ənənəvi metodlardan fərqli olaraq şagirdlərin yalnız nəzəri biliklərə sahib olmasını deyil, həm də əldə olunan biliyin praktikaya tətbiqini, 21-ci əsrin vacib bacarıqları olan tənqidi və yaradıcı düşünmə, eləcə də problem həlletmə qabiliyyəti kimi “yumşaq bacarıqlara” yiyələnməsini hədəfləyir. Bu da öz növbəsində müəllimdən bilikləri hazır formada ötürməyi deyil , fasilitator rolunda çıxış edərək şagirdlərə istiqamət verməyi , interaktiv metodların tətbiqini və şagirdlərin təlim prosesində aktiv iştirakını tələb edir. Kompetensiya əsaslı bu kurikulum vasitəsilə şagirdlərə "nəyi öyrənmək" deyil, "necə öyrənmək" prinsipi aşılanır.

Təshil sahəsindəki yeni yanaşmalar arasında digər bir mühüm istiqamət rəqəmsal və innovativ texnologiyaların təhsilə inteqrasiyasıdır. Bir çox onlayn təhsil platformalarının və elektron resursların istifadəsi, eləcə də distant təhsil imkanlarının genişlənməsi qlobal çağırışlar fonunda təhsil sisteminin çevikliyini və effektivliyini artırmışdır. Bu da şagird marağının artmasına , daha yüksək səviyyəli təlim materiallarının əldə olunmasına və qlobal təhsilin əlçatanlığına öz töhvəsini verir. "Elektron məktəb" və məsafədən təhsil platformalarının (məsələn, Microsoft Teams platforması üzərindən "Virtual Məktəb") , eləcədə STEAM mərkəzlərinin yaradılması və təkmilləşdirilməsi , burada tətbiq olunan layihə əsaslı öyrənmə mühiti bu islahatın nümunələrindəndir.

Qiymətləndirmə sistemində də nəzərəçarpan dəyişikliklər mövcuddur. Belə ki, qiymətləndirmə sistemində gündəlik rəqəmlə qiymətləndirmənin formativ və summativ qiymətləndirmə ilə əvəzlənməsi şagird nailiyyətlərinin daha obyektiv ölçülməsinə, təlim prosesinin davamlı monitorinqinə və geribildirimin (feedback) formalaşmasına xidmət edir.

Müəllimlərin pedaqoji-psixoloji və metodiki hazırlığı sahəsində də yeni yanaşmalar tətbiq olunur. Müəllimlərin sertifikasiyası və müxtəlif təlim proqramlarına cəlb olunması onların pedaqoji və metodiki bacarıqlarının artırılmasına yönəlib.

Ali təhsil müəssisələrinin beynəlxalq standartlara uyğunlaşdırılması islahatların mühüm hissəsidir. Bu islahat fonunda “2019-2023-cü illər üçün Dövlət Proqramı” çərçivəsində dünyanın

aparıcı universitetləri ilə ikili diplom proqramları da daxil olmaqla bir çox mübadilə və digər təhsil proqramları yaradılmışdır.

Təhsil sahədə aparılan islahat nümunələrindən biri də əmək bazarının tələblərinə uyğun kadr hazırlığı üçün peşə təhsilinə ayrılan diqqətdir. Bu diqqətin bariz nümunəsi kimi son illərdə regionlarda açılan peşə-tədris mərkəzlərini və həmin mərkəzlərdə artırılan ixtisasları göstərmək olar.

Azərbaycanda həyata keçirilən təhsil islahatları və tətbiq olunan yeni yanaşmalar sadəcə struktur dəyişikliyi deyildir. Bu islahatlar eyni zamanda təhsil sisteminin qlobal tələblərlə ayaqlaşmasına və insan kapitalının inkişafına yönəlmiş bir sistemdir. Bu prosesin davamlılığı və effektivliyi isə islahatların sistemli şəkildə tətbiqindən və bütün maraqlı tərəflərin fəal iştirakından asılıdır.

KÖNÜL MİKAYILOVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
P.ü.f.d., böyük elmi işçi
https://orcid.org/0000-0003-2817-5593
k.mikayilova@arti.edu.az

ÜMÜMİ TƏHSİLDƏ ÖYRƏNMƏ NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ FORMATİV VƏ DATA ƏSASLI YANAŞMALAR

Formativ qiymətləndirmə öyrənmə prosesini izləyərək operativ geribildirim təmin edir, data əsaslı qiymətləndirmə isə məlumatların təhlili əsasında qərarverməni dəstəkləyir. Bu yanaşmaların inteqrasiyası təhsilin keyfiyyətinin artırılmasına və şagirdlərin fərdi inkişafının təmin olunmasına xidmət edir.

Açar sözlər: *qiymətləndirmə, öyrənmə nəticələri, fərdiləşdirilmiş təlim, təhsil keyfiyyəti*

Giriş. Ümumi təhsil sistemində əsas prioritetlərdən biri şagirdlərin yalnız bilik əldə etməsi deyil, həm də bu bilikləri tətbiq etmə, təhlil etmə və yaradıcı şəkildə istifadə etmə bacarıqlarının inkişaf etdirilməsidir. Bu məqsədə nail olmaq üçün öyrənmə nəticələrinin düzgün və obyektiv qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu kontekstdə formativ qiymətləndirmə və data əsaslı yanaşmalar təhsildə keyfiyyətin artırılmasının əsas alətlərindən biri kimi çıxış edir.

Formativ qiymətləndirmə şagirdlərin öyrənmə prosesində əldə etdikləri nailiyyətləri davamlı şəkildə izləməyə, onların güclü və zəif tərəflərini müəyyən etməyə və təlim prosesini buna uyğun tənzimləməyə imkan verir. Bu yanaşma müəllim və şagird arasında qarşılıqlı əlaqəni gücləndirərək öyrənməni daha şəffaf və məqsədyönlü edir. Data əsaslı yanaşmalar isə şagirdə dair müxtəlif mənbələrdən (test nəticələri, müşahidələr, rəqəmsal platformalar və s.) toplanan məlumatların təhlili əsasında qərarvermə prosesini daha elmi və əsaslandırılmış edir. Bu isə fərdiləşdirilmiş təlimin təşkili, tədris strategiyalarının optimallaşdırılması və təhsil nəticələrinin davamlı şəkildə yaxşılaşdırılması üçün geniş imkanlar yaradır.

Beləliklə, formativ və data əsaslı qiymətləndirmə yanaşmalarının inteqrasiyası ümumi təhsildə daha effektiv, şəffaf və şagirdyönümlü təlim mühitinin formalaşmasına xidmət edir. Bu yanaşmalar yalnız nəticələrin ölçülməsi ilə məhdudlaşmır, eyni zamanda öyrənmənin keyfiyyətinin artırılması və hər bir şagirdin potensialının maksimum dərəcədə reallaşdırılması baxımından mühüm elmi-praktik əhəmiyyət daşıyır.

Formativ və data əsaslı qiymətləndirmənin məqsədləri

Formativ qiymətləndirmə öyrənmə prosesi zamanı şagirdlərin inkişafını izləmək və operativ geribildirim vermək məqsədi daşıyır. Bu yanaşma müəllimə təlim metodlarını tənzimləməyə, şagirdlərə zəif tərəfləri üzərində işləməyə və onların öyrənmə motivasiyasını artırmağa imkan verir. Müasir texnologiyalar – LMS platformaları, interaktiv testlər, onlayn tapşırıqlar – formativ qiymətləndirməni daha dəqiq və effektiv edir.

Data əsaslı qiymətləndirmə isə şagird fəaliyyətindən əldə olunan məlumatların sistemli təhlilinə əsaslanır. Bu yanaşma müəllimlərə öyrənmə nəticələrini daha obyektiv qiymətləndirməyə, problemli sahələri müəyyən etməyə və qərar qəbuletmə prosesini əsaslandırmağa imkan verir. Məsələn, tapşırıqların yerinə yetirilmə səviyyəsi, rəqəmsal platformalarda iştirak faizi və adaptiv test nəticələri təhlil edilərək təlim strategiyaları optimallaşdırılır.

Beləliklə, formativ və data əsaslı qiymətləndirmə yanaşmalarının inteqrasiyası öyrənmə nəticələrinin daha şəffaf, obyektiv və pedaqoji cəhətdən səmərəli qiymətləndirilməsini təmin edir. Bu isə həm şagirdlərin bilik və bacarıqlarının inkişafına, həm də ümumi təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Cədvəl 1. Formativ və data əsaslı qiymətləndirmənin müqayisəli təhlili

Meyar	Formativ qiymətləndirmə	Data əsaslı qiymətləndirmə
Əsas məqsəd	Öyrənmə prosesini izləmək və inkişaf etdirmək	Qərarverməni məlumatlara əsaslandırmaq və təlimi optimallaşdırmaq
Yanaşma tipi	Keyfiyyət yönümlü, prosesə fokuslanır	Kəmiyyət və keyfiyyət məlumatlarının analitik təhlilinə əsaslanır
Zaman çərçivəsi	Davamlı və dərs prosesində həyata keçirilir	Müəyyən dövrlərdə toplanan məlumatların sistemli təhlili ilə aparılır
Məlumat mənbələri	Müşahidə, şifahi cavablar, tapşırıqlar, refleksiya	Test nəticələri, rəqəmsal platformalar, statistik göstəricilər
Müəllimin rolu	Rəhbərlik edən, dəstək verən, geribildirim təqdim edən	Analitik, məlumatları şərh edən və qərar verən
Şagirdin rolu	Aktiv iştirakçı, özünüqiymətləndirmə aparan	Məlumat yaradan subyekt (nəticələr vasitəsilə)
Geribildirim	Dərhal və inkişaf yönümlü	Təhlilə əsaslanan, daha sistemli və ümumiləşdirilmiş
Fərdiləşdirmə imkanı	Yüksək – şagirdin ehtiyaclarına uyğunlaşır	Yüksək – data əsasında fərdi yanaşma qurulur
Texnologiya ilə əlaqə	Texnologiyadan istifadə oluna bilər, lakin zəruri deyil	Rəqəmsal alətlər və platformalar əsas rol oynayır
Üstün cəhətləri	Şagird motivasiyasını artırır; dərhal geribildirim imkanı verir; təlim prosesinə dərindən təsir edir, zəif tərəflərin vaxtında düzəldilməsini təmin edir; şagirdin aktiv iştirakını və özünüqiymətləndirməsini təşviq edir.	Obyektivlik və sistemli qiymətləndirmə imkanı verir; geniş miqyaslı məlumat analizi və strateji qərarverməni dəstəkləyir; fərdiləşdirilmiş təlim planlarının hazırlanmasına imkan yaradır; məktəb, rayon və ya sistem səviyyəsində tətbiq oluna bilir.
Məhdudiyyətlər	Subyektivlik riski mövcuddur; müəllimdən yüksək diqqət və vaxt tələb edir; texnologiya istifadəsi olmadan bəzi məlumatların toplanması çətin ola bilər.	Məlumatların düzgün toplanması və təhlili çətin ola bilər; analitik bacarıqlar tələb edir, müəllimlərin data savadı vacibdir; əsasən texnologiyaya bağlıdır; resurs çatışmazlığı mənfi təsir göstərə bilər.
Tətbiq səviyyəsi	Sinifdaxili və gündəlik təlim prosesi	Məktəb, rayon və ya sistem səviyyəsində də tətbiq olunur

Nəticə. Formativ qiymətləndirmə daha çox təlim prosesinin içində operativ inkişafı təmin etdiyi halda, data əsaslı qiymətləndirmə daha geniş miqyasda strateji planlaşdırma və təkmilləşdirmə

üçün istifadə olunur. Bu iki yanaşmanın inteqrasiyası daha effektiv və balanslı qiymətləndirmə sistemi yaratmağa imkan verir.

GÜLNARƏ ŞAHMURADOVA
Azərbaycan Respublikasını Təhsil İnstitutu
Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin elmi işçisi
gulnara.shahmuradova@mail.ru
https://orcid.org/0000-0003-1997-0317

RƏQƏMSAL TEXNOLOGİYALARIN ÜMUMİ TƏHSİLDƏ TƏTBİQİ İMKANLARI

Rəqəmsal texnologiyaların ümumi təhsildə tətbiqi səmərəli, effektiv, interaktiv, müasir tədris prosesinin qurulmasında mühim rola malikdir. Rəqəmsal texnologiyalrın imkanlarından istifadə dərslərin daha maraqlı, innovativ, əlçatan olmasını təmin etməklə yanaşı, şagirdlərin fəallığını, dərsə matovasiyasını artır, resurslara əlçatanlığı, informasiyalara sürətli, dayanıqlı çıxışı asanlaşdırır, onlayn və distant təhsil imkanlarını genişləndirir. Həmçinin, fərdi və komanda ilə işləmə bacarığını inkişaf etdirir ki, bu da, hər bir şagirdin öz səviyyəsinə uyğun inkişafını təmin edir.

Açar sözlər. *Müəllim, şagird, rəqəmsal, interaktiv, informasiya, savadlılıq*

Əsas hissə. Müasir dövrdə süni intellektin imkanları, intertet şəbəsəsinin əhatə dariəsi, informasiya və kommunikasiya texnologiyalarının inkişafı təhsil sistemində də mühüm dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsal texnologiyalar tədris prosesinin daha səmərəli təşkilinə, şagirdlərin bilik və bacarıqlarının inkişafına və təhsilin keyfiyyətinin yüksəldilməsinə geniş imkanlar yaradır. Buna görə də ümumi təhsil müəssisələrində rəqəmsal texnologiyaların tətbiqi aktual məsələlərdən biri hesab olunur.

Rəqəmsal texnologiyaların ümum təhsildə tətbiqi yalnız texniki bilik və bacarıqların ötürülməsi, artırılması ilə məhdudlaşmamalı, həm də innovativ düşüncə tərzinin formalaşdırılmasını da təmin etməlidir. Ümumi təhsildə rəqəmsal texnologiyaların tətbiqi müəllim və şagirdlər üçün yeni imkanlar yaradır.

İnteraktiv lövhələr, elektron dərsliklər, onlayn təhsil platformaları və müxtəlif rəqəmsal resurslar dərs prosesinin daha maraqlı və interaktiv şəkildə təşkilinə kömək edir. Bu vasitələr şagirdlərin dərsə marağını artırır, onların müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir və məlumatı daha asan mənimsəmələrinə şərait yaradır.

Eyni zamanda, rəqəmsal texnologiyaların ümumi təhsildə tətbiqinin dərslərin daha maraqlı, motivasiyaedici olması, daha geniş informasiya resurslarına çıxış, vaxt və məkan baxımından əlçatanlıq, təhsildə bərabər imkanların artması kimi üstünlüklərini də qeyd etmək olar. Habelə, şagirdlərdə bir sıra bacarıqların (tənqidi düşünmə, çevik qərar qəbul etmə, problem həll etmə, komanda ilə işləmə, düzgün analiz-sintez etmə, informasiya və rəqəmsal savadlılıq) formalaşmasında da mühim rola malikdir.

Rəqəmsal texnologiyaların tətbiqi həm də müəllimlərin işini daha səmərəli təşkil etməyə imkan verir. Müəllimlər elektron resurslardan istifadə etməklə dərs materiallarını daha vizual və sistemli şəkildə təqdim edə bilirlər. Həmçinin elektron qiymətləndirmə və onlayn tapşırıqlar vasitəsilə şagirdlərin bilik səviyyəsini daha operativ şəkildə müəyyən etmək mümkündür.

Bundan əlavə müəllimlər üçün ümumi təhsildə rəqəmsal texnologiyaların tətbiqi onlayn kurslar, təlimlər, vebinarlar, beynəlxalq təcrübə mübadiləsi, əməkdaşlıq, rəqəmsal resurs bazalarına çıxış kimi yeni imkanlar yaradır. Müəllimlərə ehtiyacları olan informasiyaya əlçatanlığı təmin edir.

Tədris prosesinin şəffaf, çevik, ədalətli qiymətləndirlməsi baxımından da rəqəmsal texnologiyalar xüsusi əhəmiyyət kəsb edir. Belə ki, rəqəmsal texnologiyalar müəllimlərə imkan verir ki, şagirdlərin bilik, bacarıq və inkişaflarını real vaxt çərçivəsində izləyib, müəyyən tədbirlər görsünlər, təlimin səmərəli təşkili, mənimsəmənin artması üçün strategiya müəyyənləşdirsinlər.

Müəllimlər rəqəmsal texnologiyanın imkanlarından istifadə edərək, onlayn testlər, avtomatik yoxlama sistemləri, elektron jurnallar, gündəliklər, statistika və analiz alətləri ilə daha səmərəli, effektiv işləyə bilirlər.

Həmçinin, rəqəmsal texnologiyaların ümumi təhsildə tətbiqi təhsilin gələcək inkişafına da mühim təsir göstərir. Belə ki, süni intellekt əsaslı tədris sistemləri, virtual dərslər, süni intellektin artan imkanları, ağıllı sinif otaqları gələcəkdə təhsilin qarşılaşa biləcəyi texnoloji inkişafdır.

Bununla yanaşı, rəqəmsal texnologiyaların ümumi təhsildə tətbiqi zamanı müəyyən problemlər də mövcuddur. Bəzi məktəblərdə texniki avadanlıqların çatışmazlığı, internet imkanlarının məhdudluğu, müəllimlərin rəqəmsal bacarıqlarının kifayət qədər inkişaf etməməsi, hamının eyni rəqəmsal imkanlara malik olmaması, şagirdlərin diqqətinin yayınmasına səbəb olan sosial media, məlumatların təhlükəsizliyi, məxfiliyi və digər məsələlər bu problemlər, çətinliklər sırasındadır. Bu da rəqəmsal texnologiyaların təhsilə effektiv tətbiqinə mənfi təsir göstərir və prosesi ləngidir. Buna görə də müəllimlərin rəqəmsal kompetensiyalarının artırılması, şagirdlərin rəqəmsal savadlılıq və məlumatlılığının, məktəblərin texniki təminatının gücləndirilməsi vacibdir.

Nəticə. Beləliklə, rəqəmsal texnologiyaların ümumi təhsildə tətbiqi tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, öyrənmə prosesinin müasirləşməsinə və müasir təhsil mühitinin formalaşdırılmasına mühüm töhfə verir. Eyni zamanda rəqəmsal texnologiyaların təhsil sisteminə uğurlu tətbiqi şagirdlərin fəallığının artırılmasına, gələcək əmək bazarının tələblərinə cavab verə biləcək bacarıqlara yiyələnmələrinə, çevik, dayanıqlı, adekvat qərar qəbul etmələrinə, informasiya təhlükəsizliyi və məxfiliyi savadlılığına malim olmalarına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu istiqamətdə sistemli, düşünülmüş, davamlı tədbirlərin, startegiyaların həyata keçirilməsi, düzgün planlaşdırma təhsilin müasir tələblərə uyğun qurulmasını və inkişafını təmin edəcək.

ADİLƏ NƏZƏROVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Aparıcı elmi işçi
Filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-4340-6882
adiyazadiyaz@gmail.com

ÜMUMİ TƏHSİLDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ: İMKANLAR VƏ RİSKLƏR

Məqalədə Azərbaycan ümumi təhsil sistemində süni intellektin tətbiqi məsələləri pedaqoji baxımdan təhlil olunur. Süni intellekt texnologiyalarının təlim prosesinə təsiri, fərdiləşdirilmiş öyrənmə imkanları və müəllim fəaliyyətində yaratdığı dəyişikliklər araşdırılır. Bununla yanaşı, bu texnologiyaların tətbiqi zamanı ortaya çıxan pedaqoji və etik risklər də nəzərdən keçirilir.

Açar sözlər: *süni intellekt, ümumi təhsil, təlim prosesi, qiymətləndirmə*

Giriş. Müasir dövrdə Azərbaycan təhsil sistemi qlobal çağırışlara uyğun şəkildə yenilənmə mərhələsini yaşayır. Rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi bu prosesin əsas istiqamətlərindən birini təşkil edir. Xüsusilə süni intellekt texnologiyalarının təhsil mühitinə daxil olması təlim prosesinin məzmununa və təşkilinə yeni yanaşmalar gətirir. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda da təhsildə müasir texnologiyaların tətbiqi prioritet istiqamət kimi müəyyən edilmişdir. Bu baxımdan süni intellektin ümumi təhsildə istifadəsi həm pedaqoji, həm də metodik baxımdan aktuallıq kəsb edir.

Süni intellektin ümumi təhsildə tətbiqi təlim prosesinin fərdiləşdirilməsi baxımından geniş imkanlar açır. Müasir rəqəmsal platformalar vasitəsilə şagirdlərin bilik səviyyəsi və öyrənmə xüsusiyyətləri təhlil edilir, onların fərdi inkişafına uyğun tapşırıqlar təqdim olunur. Bu yanaşma “Təhsil haqqında” Qanunda qeyd olunan şagirdyönümlü təhsil prinsipinə uyğun olaraq hər bir fərdin potensialının inkişafına şərait yaradır.

Süni intellekt texnologiyaları dərs planlarının yaradılması, plagiatın müəyyən edilməsi və tədris strategiyalarının dəqiqləşdirilməsi daxil olmaqla bir neçə prosedurun effektivliyinin artırılmasında mühüm əhəmiyyət kəsb edir. Bu imkanlar təhsil mühitində rəqəmsal alətlərin tətbiqini daha da aktuallaşdırır. Xüsusilə mobil təhsil proqramları öyrənmə prosesinə yeni dinamika gətirir. Bu proqramlarda oyun elementlərinin tətbiqi şagirdlərin marağını artırır, onların təlimə davamlılığını gücləndirir və öyrənməni daha cəlbedici edir. İnteraktiv tapşırıqlar, video dərslər və müxtəlif rəqəmsal resurslar vasitəsilə şagirdlər materialı daha rahat mənimsəyir. Bu cür yanaşma ənənəvi tədris üsulları ilə müqayisədə daha çevik və nəticəyönümlü görünür.

Digər tərəfdən, rəqəmsal qiymətləndirmə vasitələrinin tətbiqi təlim prosesinin izlənilməsində yeni imkanlar açır. Elektron qiymət sistemləri, avtomatlaşdırılmış testlər və analitik platformalar müəllimə şagirdlərin inkişafını daha dəqiq müşahidə etməyə şərait yaradır. Bu isə qiymətləndirmə prosesinin şəffaflığını artırır və təlimin keyfiyyətinə müsbət təsir göstərir.

İnteraktiv tədris mühitinin formalaşmasında rəqəmsal texnologiyalar mühüm rol oynayır. Müəllim və şagird arasında qarşılıqlı əlaqə daha aktiv xarakter alır, dərs prosesi daha cəlbedici təşkil olunur. İnteraktiv lövhələr, mobil tətbiqlər və onlayn platformalar tədrisin effektivliyini artırır, virtual laboratoriyalar və simulyasiyalar isə şagirdlərin praktik bacarıqlarının inkişafına şərait yaradır. Süni intellektə əsaslanan fərdiləşdirilmiş sistemlər hər bir şagirdə uyğun öyrənmə mühiti təqdim edir.

Eyni zamanda süni intellekt müəllimin fəaliyyətində də müəyyən dəyişikliklər yaradır. Müəllim əvvəlki kimi sadəcə bilik ötürən mövqedə qalmır, daha çox təlim prosesini quran və ona istiqamət verən şəxs kimi çıxış edir. Elektron qiymətləndirmə sistemləri və rəqəmsal tədris vasitələri müəllimin işini asanlaşdırır, onun diqqətini daha çox şagirdin inkişafına yönəltməyə imkan verir. Bu isə pedaqoji fəaliyyətin keyfiyyətinə müsbət təsir göstərir.

Süni intellektin tətbiqi şagirdlərin təlimə marağının artırılması baxımından da əhəmiyyətlidir. İnteraktiv mühit, adaptiv proqramlar və vizual vasitələr şagirdlərin dərs prosesində fəallığını

yüksəldir. Lakin bu prosesin düzgün tənzimlənməməsi müəyyən problemlər də yarada bilər. Şagirdlərin texnologiyadan həddindən artıq asılılığı, müstəqil düşünmə bacarıqlarının zəifləməsi kimi hallar pedaqoji baxımdan narahatlıq doğurur.

Digər mühüm məsələ isə etik və sosial risklərlə bağlıdır. Süni intellekt sistemlərinin istifadəsi zamanı şagird məlumatlarının qorunması, qiymətləndirmənin obyektivliyi və təlim prosesində insan amilinin rolu kimi məsələlər aktuallaşır. Azərbaycan Respublikasının təhsil siyasətində də şəxsiyyətin inkişafı və tərbiyəvi mühitin qorunması əsas prioritetlərdən biri kimi qeyd olunur. Bu baxımdan texnologiyanın tətbiqi pedaqoji prinsiplərlə uzlaşdırılmalıdır.

Aparılan yerli araşdırmalar və təcrübələr göstərir ki, süni intellektin təhsil mühitində tətbiqi təkcə texniki məsələ kimi qalmır, bu proses pedaqoji yanaşmanın yenilənməsini də zəruri edir. Təhsil İnstitutunun hesabatlarında qeyd olunur ki, rəqəmsal resurslardan səmərəli istifadə müəllimin metodik hazırlığı ilə birbaşa bağlıdır. Bu isə göstərir ki, texnologiyanın effektivliyi insan amili ilə sıx əlaqədədir.

Təhsil mühitində süni intellektin tətbiqi müəllim hazırlığı məsələsini də ön plana çıxarır. Müasir müəllim rəqəmsal alətlərdən istifadə etməyi bacaran, onları təlim məqsədlərinə uyğun seçən və tətbiq edən peşəkar kimi formalaşmalıdır. Bu istiqamətdə müəllimlərin ixtisasartırma proqramlarının yenilənməsi xüsusi əhəmiyyət daşıyır. Əgər müəllim texnologiyanın imkanlarını düzgün dəyərləndirə bilmirsə, tətbiq olunan vasitələr gözlənilən nəticəni vermir. Buna görə də süni intellektin təhsildə səmərəli istifadəsi müəllimin pedaqoji hazırlığı, metodik düşüncə tərzi və yeniliyə açıq mövqeyi ilə birbaşa bağlıdır. Bu yanaşma təlim prosesində texnologiya ilə pedaqoji məqsədlər arasında uyğunluğun qorunmasına şərait yaradır.

Nəticə. Beləliklə, süni intellektin Azərbaycan ümumi təhsil sistemində tətbiqi geniş imkanlarla yanaşı, müəyyən riskləri də özündə ehtiva edir. Bu texnologiyalar təlimin fərdiləşdirilməsi, müəllim fəaliyyətinin optimallaşdırılması və şagird motivasiyasının artırılması baxımından mühüm rol oynayır. Bununla belə, pedaqoji prinsiplərin qorunması, etik normaların gözlənilməsi və müəllim amilinin ön planda saxlanılması əsas şərt kimi çıxış edir. Yalnız bu halda süni intellekt təhsilin keyfiyyətinin yüksəldilməsinə real töhfə verə bilər.

TƏRANƏ ƏLİYEVA
Heydər Əliyev adına Hərbi İnstitut
aliyeva.tara70@gmail.com
https://orcid.org/0009-0003-6627-6739
VÜQAR ƏLİYEV
Heydər Əliyev adına Hərbi İnstitut
vuqarxaldanskiy@gmail.com
https://orcid.org/0009-0003-3287-6701

MESENCERLƏRİN TƏDRİSDƏ TƏTBİQİ

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sistemində yeni tədris metodlarının formalaşmasına səbəb olmuşdur. Bu texnologiyalar arasında mesencer tətbiqləri (messaging platforms) müəllim və tələbələr arasında operativ kommunikasiya, informasiya mübadiləsi və əməkdaşlıq üçün mühüm vasitə kimi çıxış edir. Məqalədə mesencerlərin tədris prosesində tətbiqinin nəzəri və metodoloji əsasları araşdırılır, onların pedaqoji potensialı və praktiki üstünlükləri təhlil edilir. Eyni zamanda bu texnologiyaların istifadəsi zamanı meydana çıxan problemlər – diqqətin yayındırılması, informasiya təhlükəsizliyi və kommunikasiya yükü kimi məsələlər də qiymətləndirilir. Mesencerlər tədris prosesində interaktivliyi artırır, müəllim və tələbə arasında operativ əlaqəni təmin edir və distant təhsilin inkişafına mühüm töhfə verir.

Rəqəmsal tətbiqlər hərbi təhsil müəssisələrində tədris prosesinin effektivliyinin artırılması, operativ informasiya mübadiləsinin təmin edilməsi və təlim prosesinin modernləşdirilməsi baxımından mühüm rol oynayır. Tədqiqat göstərir ki, rəqəmsal tətbiqlər hərbi tədris prosesində interaktivliyi artırır, təlimlərin daha real və simulyasiya əsaslı həyata keçirilməsinə imkan yaradır və gələcək zabit kadrlarının peşəkar hazırlıq səviyyəsini yüksəldir.

Açar sözlər: *rəqəmsal təhsil, mesencerlər, distant təhsil, kommunikasiya texnologiyaları, elektron tədris, hərbi təhsil, rəqəmsal texnologiyalar, elektron təlim, simulyasiya sistemləri, rəqəmsal kommunikasiya*

1. RƏQƏMSAL TƏHSİL MÜHİTİNDƏ KOMMUNİKASİYA VƏ PEDAQOJİ POTENSİAL

Giriş. XXI əsr informasiya texnologiyalarının sürətli inkişafı ilə xarakterizə olunur və bu proses təhsil sistemində ciddi transformasiyalara səbəb olmuşdur. Rəqəmsal texnologiyalar tədris metodlarının yenilənməsinə, təhsil mühitinin interaktivləşməsinə və təhsil prosesinin daha çevik təşkilinə imkan yaratmışdır. Bu kontekstdə kommunikasiya texnologiyaları, xüsusilə mesencer tətbiqləri müasir təhsil mühitində mühüm rol oynamağa başlamışdır. Bu dəyişikliklər hərbi təhsil sisteminə də təsirsiz ötüşməmişdir.

Müasir dövrdə hərbi təhsil yalnız nəzəri biliklərin verilməsi ilə məhdudlaşmır. Zabit və hərbi mütəxəssislərin hazırlanması kompleks və texnoloji baxımdan inkişaf etmiş tədris mühitini tələb edir. Bu baxımdan rəqəmsal tətbiqlər hərbi təhsil sisteminin modernləşdirilməsində mühüm rol oynayır.

Rəqəmsal texnologiyalar vasitəsilə təlim prosesində simulyasiya modelləri, virtual döyüş mühiti, interaktiv tədris platformaları və elektron kommunikasiya sistemləri tətbiq olunur. Bu texnologiyalar hərbi kadrların praktiki bacarıqlarının formalaşmasına və taktiki qərar qəbul etmə qabiliyyətinin inkişafına mühüm təsir göstərir.

Məqalənin məqsədi rəqəmsal tətbiqlərin hərbi təhsil sistemində rolunu təhlil etmək, onların tədris prosesinə təsirini araşdırmaq və istifadəsinin perspektiv istiqamətlərini müəyyənləşdirməkdir.

Mesencerlər real vaxt rejimində mesajlaşma, multimedia fayllarının ötürülməsi və qrup kommunikasiya imkanlarını təmin edən proqram təminatıdır. Bu platformalar yalnız şəxsi ünsiyyət vasitəsi kimi deyil, həm də təhsil və peşəkar fəaliyyət sahələrində effektiv kommunikasiya vasitəsi kimi istifadə olunur.

Son illərdə aparılan tədqiqatlar göstərir ki, mesencer tətbiqləri müəllim və tələbələr arasında kommunikasiya prosesini sadələşdirir və tədris materiallarının operativ şəkildə paylaşılmasını təmin edir. Xüsusilə distant təhsil və qarışıq təhsil modellərinin geniş yayılması bu platformaların təhsil sistemində tətbiqini daha da aktuallaşdırmışdır.

Bu məqalənin məqsədi mesencerlərin tədris prosesində tətbiqinin nəzəri əsaslarını araşdırmaq, onların pedaqoji potensialını təhlil etmək və istifadəsinin üstünlükləri ilə yanaşı problemlərini müəyyənləşdirməkdir.

Mesencer texnologiyalarının inkişafı və təhsil sisteminə inteqrasiyası

Rəqəmsal kommunikasiya texnologiyalarının inkişafı nəticəsində mesencer tətbiqləri müasir cəmiyyətin gündəlik həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Bu platformalar ilkin olaraq şəxsi ünsiyyət üçün yaradılmış olsa da, sonrakı mərhələlərdə onların funksional imkanları genişlənmiş və müxtəlif sahələrdə istifadə olunmağa başlanmışdır.

Mesencerlərin inkişafı mobil texnologiyaların yayılması ilə sıx bağlıdır. Smartfonların geniş istifadəsi nəticəsində internet əsaslı kommunikasiya platformaları qlobal miqyasda yayılmış və sosial, iqtisadi və təhsil sahələrində mühüm rol oynamağa başlamışdır.

Təhsil sistemində mesencerlərin tətbiqi bir neçə əsas amillə bağlıdır:

- kommunikasiya prosesinin sürətlənməsi
- tədris materiallarının operativ paylaşılması
- distant təhsil imkanlarının genişlənməsi
- tələbə-müəllim əməkdaşlığının inkişafı

Araşdırmalar göstərir ki, rəqəmsal kommunikasiya vasitələrinin tədris prosesinə inteqrasiyası tələbələrin motivasiyasını artırır və onların öyrənmə prosesində fəal iştirakını təmin edir.

Mesencerlərin tədris prosesində funksional imkanları

Kommunikasiya və operativ informasiya mübadiləsi

Mesencerlərin tədrisdə əsas funksiyalarından biri müəllim və tələbələr arasında operativ kommunikasiya mühitinin yaradılmasıdır. Bu platformalar vasitəsilə müəllimlər dərs cədvəli, tədris materialları və müxtəlif təşkilati məsələlər barədə məlumatları tələbələrə tez bir zamanda çatdıra bilirlər.

Real vaxt rejimində kommunikasiya imkanları tələbələrin suallarına operativ cavab verilməsinə və tədris prosesində yaranan problemlərin daha tez həll edilməsinə şərait yaradır.

Tədris materiallarının paylaşılması

Mesencer platformaları tədris materiallarının paylaşılması üçün effektiv vasitədir. Müəllimlər elektron dərsliklər, təqdimatlar, video mühazirələr və metodik vəsaitləri tələbələrlə rahat şəkildə paylaşa bilirlər.

Elektron resursların bu şəkildə paylaşılması tələbələrin tədris materiallarına daha asan çıxış əldə etməsinə imkan yaradır və onların müstəqil öyrənmə fəaliyyətini gücləndirir.

Qrup əməkdaşlığı və kooperativ öyrənmə

Mesencerlərin tədris prosesində istifadəsi tələbələr arasında qrup əməkdaşlığının inkişafına da müsbət təsir göstərir. Qrup çatları vasitəsilə tələbələr müxtəlif mövzular üzrə müzakirələr aparır, layihələr üzərində birgə işləyir və fikir mübadiləsi həyata keçirirlər.

Kooperativ öyrənmə müasir pedaqoji yanaşmalardan biri hesab olunur və mesencer platformaları bu metodun tətbiqi üçün əlverişli mühit yaradır.

Mesencerlərin tədrisdə üstünlükləri

Mesencerlərin təhsil sistemində tətbiqi bir sıra mühüm üstünlüklərə malikdir.

Operativlik.

Mesencerlər vasitəsilə informasiya real vaxt rejimində ötürülür və bu, tədris prosesinin çevikliyini artırır.

Əlçatanlıq.

Mobil texnologiyalar sayəsində tələbələr istənilən vaxt və məkandan tədris prosesinə qoşula bilirlər.

İnteraktivlik.

Mesencerlər müəllim və tələbələr arasında interaktiv ünsiyyət mühiti yaradır və bu, tədris prosesinin effektivliyini artırır.

Rəqəmsal bacarıqların inkişafı

Bu platformaların istifadəsi tələbələrin informasiya texnologiyaları üzrə bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərir.

Mesencerlərin tədrisdə istifadəsinin problemləri

Mesencerlərin tədris prosesində tətbiqi ilə yanaşı müəyyən problemlər də mövcuddur.

Diqqətin yayındırılması.

Mesencer tətbiqləri sosial kommunikasiya vasitəsi olduğu üçün tələbələrin diqqətinin dərsdən yayınmasına səbəb ola bilər.

İnformasiya təhlükəsizliyi.

Rəqəmsal kommunikasiya platformalarında şəxsi məlumatların qorunması mühüm məsələdir və bu sahədə təhlükəsizlik tədbirlərinin görülməsi zəruridir.

Kommunikasiya yükü.

Çoxsaylı mesajların olması tədris məlumatlarının sistemsiz şəkildə yayılmasına və informasiya yüklənməsinə səbəb ola bilər.

Distant təhsil sistemində mesencerlərin rolu

COVID-19 pandemiyası dövründə distant təhsil geniş yayılmış və mesencer platformaları bu prosesdə mühüm rol oynamışdır. Bu platformalar müəllim və tələbələr arasında kommunikasiya vasitəsi kimi istifadə edilmiş və tədris prosesinin davamlılığını təmin etmişdir.

Distant təhsil şəraitində mesencerlər aşağıdakı funksiyaları yerinə yetirmişdir:

- operativ kommunikasiya
- tədris materiallarının paylaşılması
- tələbə fəaliyyətinin koordinasiyası.

Tədqiqatlar göstərir ki, bu platformalar distant təhsil mühitində sosial qarşılıqlı əlaqəni qorumağa kömək edir.

Mesencerlərin pedaqoji potensialı

Mesencerlərin tədris prosesində istifadəsi pedaqoji baxımdan bir sıra mühüm imkanlar yaradır. Bu imkanlar tələbə mərkəzli təhsil modelinin inkişafına xidmət edir.

Mesencerlər:

- interaktiv öyrənmə mühiti yaradır
- operativ geribildirim təmin edir
- tələbə motivasiyasını artırır
- kollektiv öyrənməni təşviq edir.

Bu xüsusiyyətlər onların müasir təhsil sistemində effektiv pedaqoji vasitə kimi istifadə olunmasına şərait yaradır.

2. RƏQƏMSAL TƏTBİQLƏRİN HƏRBİ TƏHSİL SİSTEMİNDƏ ROLU VƏ PERSPEKTİVLƏRİ

Rəqəmsal texnologiyaların hərbi təhsil sistemində inkişafı

Son illərdə aparılan tədqiqatlar və hərbi münaqişələrin nəticələri inandırıcı şəkildə göstərir ki, müasir müharibə kompüter texnologiyaları olmadan baş verə bilməz. Dünya təhsil məqsədləri üçün aparat və proqram təminatının inkişafı, yaradılması və istifadəsi sahəsində xeyli təcrübə toplayıb. Bu texnologiyalar təkmilləşdikcə multimedia texnologiyalarının əsas üstünlükləri daha aydın olur.

Müasir hərbi təhsil sistemi texnoloji inkişafla sıx bağlıdır. Hərbi əməliyyatların xarakteri dəyişdikcə zabit hazırlığı sistemi də yeni texnologiyaların tətbiqini tələb edir.

Rəqəmsal texnologiyalar aşağıdakı istiqamətlərdə hərbi təhsil sisteminə inteqrasiya olunur:

- elektron tədris platformaları
- simulyasiya və virtual reallıq sistemləri
- rəqəmsal kommunikasiya platformaları
- təlim və qərar qəbuletmə modelləri.

Bu texnologiyalar hərbi təhsil müəssisələrində təlim prosesinin daha effektiv və realist şəkildə təşkilinə imkan yaradır.

Hərbi təhsil sistemində rəqəmsal tətbiqlərin funksional imkanları

Elektron tədris platformaları

Elektron tədris platformaları hərbi təhsil sistemində distant və qarışıq təhsil modelinin tətbiqinə imkan yaradır. Bu platformalar vasitəsilə kursantlar tədris materiallarına onlayn çıxış əldə edir və müstəqil öyrənmə prosesini həyata keçirirlər.

Elektron tədris mühiti aşağıdakı imkanları təqdim edir:

- elektron dərsliklər və metodik materiallar
- video mühazirələr
- interaktiv test sistemləri
- təlim nəticələrinin monitorinqi.

Bu texnologiyalar tədris prosesinin çevikliyini artırır və təhsil resurslarına çıxışı genişləndirir.

Simulyasiya və virtual təlim sistemləri

Hərbi təhsil sistemində rəqəmsal texnologiyaların ən mühüm istiqamətlərindən biri simulyasiya əsaslı təlimdir. Virtual təlim sistemləri real döyüş şəraitinin modelləşdirilməsinə imkan yaradır.

Simulyasiya sistemlərinin əsas üstünlükləri:

- təhlükəsiz təlim mühiti
- real döyüş şəraitinin modelləşdirilməsi
- taktiki qərar qəbuletmə bacarıqlarının inkişafı
- resursların qənaətli istifadəsi

Araşdırmalar göstərir ki, simulyasiya əsaslı təlim zabit hazırlığında praktiki bacarıqların formalaşmasına mühüm təsir göstərir.

Simulyasiya sistemlərinin real döyüş şəraitinin modelləşdirilməsi:

“Virtual taktiki şərait”: Kompüter vasitəsi ilə reallaşdırılır. Gecə, gündüz, ilin bütün fəsillərində və ərazilərdə seçilə bilən virtual döyüş sahəsi, 180/360 dərəcə panoramalı və dəyişən miqyaslı görüntü ilə istənilən nöqtədən müşahidə edilə bilir.

Virtual şəxsi heyət, silah, sursat, texnika və qurğu (bundan sonra “yunit”) hərbi vəzifəsinə, təyinatına, taktiki texniki xassəsinə uyğun imkan, qabiliyyət və bacarıqlar, hərbi fənlər üzrə öyrədilməsi nəzərdə tutulan baza biliklər tətbiqi olaraq modelləşdirilib. Əmrdə olan “yunit” komanda ilə idarə edilir, əhatə mühitinə və cərəyan edən hadisələrə adekvat cavab tədbirləri yerinə yetirir, interaktiv reaksiya verir - görür, eşidir, aşkar edir, məlumat verir, hücum edir, mövqe tutur, yeriyir, qaçır, sürünür, üzür, ağaca çıxır, texnikaya minir-düşür, silah və sursat seçir, daşıyır, silahı doldurulur, boşaldılır, nişan alır, ayaq üstə, dizi üstə, uzaraq atəş açır, qumbara atır, qorunur, gizlənir, yaralanır, qışqırır, çağırır, özünə və yoldaşına tibbi yardım göstərir, zədələnir, təmir edilir və s. fəaliyyətlər göstərə bilir. Təcrübə qazanır, təkmilləşə və effektliyini artıra bilir. Komanda verən və komanda alan arasında daimi fərdi və kollektiv əlaqə saxlanılır.

Virtual şəxsi heyət, silah, texnika, atış məsafələri, trayektoriyalar, mərmilərin xüsusiyyətinə görə yetirə biləcəyi xətər, ərazinin predmetləri, relyef və s. göstəricilər loqarifmik ölçüdə miqyaslaşdırılıb. Hər bir “yunit” öz vəzifəsinə müvafiq istənilən hərbi vəzifələri, tapşırıqları, işləri fərdi olarq müstəqil və ya bir başa idarə rejimdə yerinə yetirmək üçün proqramlaşdırılıb. Qrup tərkibində fəaliyyət göstərən zaman isə döyüş hazırlığı fənlərinin fundamental bilik bazasına əsaslanan tələblər avtomatik icra edilir.

Taktiki şəraitin tələblərinə müvafiq proqramlaşdırılmış düşmən tərəfin şəxsi heyəti, silah və texnikası hərbi fənlərin baza biliklərinin tələblərinə uyğun əvvəlcədən müəyyən edilmiş niyyət əsasında hücum edir, müdafiə olunur, yürüş edir, geri çəkilir. İnsan, silah, texnikanin ətraf mühitin və cərəyan edən hadisələrin vizual və səs effektləri, təqlidedici musiqi, insanın şüurunda real təəssuratlar oyadır və dinləyicini virtual cərəyan edən hadisələrin həqiqi iştirakçısına çevirir. Rəqibin müharibə dili öyrədilir. Doyüş “virtual reallıq”da aparılır.

Rəqəmsal kommunikasiya tətbiqləri

Rəqəmsal kommunikasiya tətbiqləri hərbi təhsil sistemində müəllim və kursantlar arasında

operativ informasiya mübadiləsini təmin edir. Bu platformalar tədris materiallarının paylaşılması və təlim tapşırıqlarının koordinasiyası üçün istifadə olunur.

Rəqəmsal kommunikasiya sistemləri təlim prosesində interaktiv mühit yaradır və kollektiv əməkdaşlığı gücləndirir.

Rəqəmsal tətbiqlərin hərbi təhsil sistemində üstünlükləri

Rəqəmsal tətbiqlərin istifadəsi hərbi təhsil sistemində bir sıra mühüm üstünlüklər yaradır.

Təlim prosesinin effektivliyinin artırılması

Rəqəmsal texnologiyalar tədris prosesində interaktivliyi artırır və təlimlərin daha effektiv təşkilinə imkan yaradır.

Praktiki bacarıqların inkişafı

Simulyasiya və virtual təlim sistemləri kursantların praktiki bacarıqlarının inkişafına müsbət təsir göstərir.

Operativ informasiya mübadiləsi

Rəqəmsal kommunikasiya vasitələri müəllim və kursantlar arasında operativ əlaqəni təmin edir.

Tədris resurslarının optimallaşdırılması

Elektron tədris platformaları tədris materiallarının daha səmərəli istifadəsinə imkan yaradır.

Rəqəmsal tətbiqlərin istifadəsi ilə bağlı problemlər

Rəqəmsal texnologiyaların hərbi təhsil sistemində tətbiqi bəzi problemlərlə də müşayiət olunur.

İnformasiya təhlükəsizliyi

Hərbi təhsil sistemində məlumatların məxfiliyi xüsusi əhəmiyyət daşıyır. Buna görə də rəqəmsal platformaların istifadəsi ciddi təhlükəsizlik tədbirləri tələb edir.

Texnoloji infrastruktur

Rəqəmsal tədris sistemlərinin effektiv fəaliyyəti üçün güclü texnoloji infrastruktur tələb olunur.

Kadr hazırlığı

Rəqəmsal texnologiyaların tətbiqi müəllim heyətinin yeni texnologiyalar üzrə əlavə hazırlığını tələb edir.

Hərbi təhsildə rəqəmsal transformasiyanın perspektivləri

Gələcəkdə rəqəmsal texnologiyaların inkişafı hərbi təhsil sistemində yeni imkanlar yaradacaqdır. Bu istiqamətdə aşağıdakı texnologiyalar xüsusi əhəmiyyət kəsb edir:

- süni intellekt əsaslı təlim sistemləri
- virtual və artırılmış reallıq texnologiyaları
- şəbəkə-mərkəzli təlim platformaları
- böyük verilənlərə əsaslanan qərar dəstəyi sistemləri

Bu texnologiyalar zabit hazırlığının keyfiyyətinin yüksəldilməsinə və müasir döyüş şəraitinə uyğun kadrların hazırlanmasına mühüm töhfə verəcəkdir.

Nəticə. Araşdırma göstərir ki, mesencer tətbiqləri müasir təhsil sistemində kommunikasiya və informasiya mübadiləsi üçün mühüm vasitədir. Bu platformaların istifadəsi tədris prosesinin çevikliyini artırır və müəllim ilə tələbə arasında operativ əlaqə yaradır.

Bununla yanaşı, mesencerlərin tədrisdə istifadəsi müəyyən risklərlə də müşayiət olunur. İnformasiya təhlükəsizliyi, diqqətin yayındırılması və kommunikasiya yükü kimi problemlər bu texnologiyaların tətbiqində nəzərə alınmalıdır.

Gələcək tədqiqatların məqsədi mesencerlərin təhsil sistemində daha effektiv və təhlükəsiz istifadəsini təmin edən metodoloji yanaşmaların hazırlanması olmalıdır.

Tədqiqat nəticələri göstərir ki, rəqəmsal tətbiqlər müasir hərbi təhsil sisteminin inkişafında mühüm rol oynayır. Bu texnologiyalar tədris prosesinin modernləşdirilməsinə, interaktiv təlim mühitinin yaradılmasına və kursantların peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsinə imkan yaradır.

Bununla yanaşı, rəqəmsal texnologiyaların effektiv tətbiqi üçün informasiya təhlükəsizliyi, texnoloji infrastruktur və kadr hazırlığı məsələləri xüsusi diqqət tələb edir.

Gələcəkdə rəqəmsal transformasiya hərbi təhsil sisteminin inkişafında əsas istiqamətlərdən biri olacaq və müasir texnologiyaların tətbiqi zabit hazırlığının keyfiyyətini daha da artıracaqdır.

GÜNAY HÜSEYNOVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Aparıcı mütəxəssis
gunay.huseynova@arti.edu.az

SÜNİ İNTELLEKTİN STRATEJİ PERSPEKTİVLƏRİ VƏ MÜASİR TƏHSİL SİSTEMİNDƏ TƏTBİQİ İMKANLARI

Ümumi təhsil sistemində süni intellekt texnologiyalarının tətbiqi öyrənmə prosesinin optimallaşdırılmasına, təhsilalanların nailiyyətlərinin yüksəldilməsinə və tədrisin fərdiləşdirilməsinə şərait yaradır. Bununla yanaşı, bu yanaşma informasiya təhlükəsizliyi, etik normalar və pedaqoji uyğunlaşma kimi mühüm məsələlərin həllini zəruri edir.

Açar sözlər: *süni intellekt, fərdi təhsil trayektoriyası, alqoritmik qərəzlilik, rəqəmsal transformasiya, təlim modulları*

Süni intellekt (Sİ) təhsil sistemində öyrənmə və tədris metodologiyalarını kökündən dəyişdirən strateji texnologiyadır. Bu innovasiya təhsilin fərdiləşdirilməsi, interaktiv təlim mühitinin qurulması və akademik idarəetmənin səmərəliliyinin artırılması üçün geniş imkanlar yaradır.

Süni intellektin tətbiqi imkanları

Sİ alətləri təhsilalanların fərdi öyrənmə trayektoriyasını təhlil edərək dinamik təlim modulları formalaşdırır ki, bu da təhsilin keyfiyyət göstəricisini əhəmiyyətli dərəcədə artırır. Belə sistemlər istifadəçilərə dərhal rəy təqdim edir, onların motivasiyasını artırır və çətin mövzuları daha asan mənimsəməyə kömək edir. Bununla yanaşı, Sİ müəllimlərin gündəlik iş yükünü azaldaraq onları daha çox yaradıcı-pedaqoji fəaliyyətə yönəldir və qiymətləndirmə proseslərini avtomatlaşdırır.

Qlobal təcrübədə Sİ tədris prosesində individual təlim trayektoriyasını gücləndirir, interaktiv və praktik materialların istifadəsinə imkan yaradır, həmçinin ənənəvi metodologiyadan kənar yeni təhsil modellərini formalaşdırır. Bu da təhsilalanların öyrənmə motivasiyasını və nailiyyət səviyyəsini yüksəldir.

Çətinliklər və məhdudiyyətlər

Təhsil prosesinin rəqəmsallaşması yalnız texniki nailiyyətlərlə məhdudlaşmır, bu proses həm də rəqəmsal ədalətlilik və etik normaların qorunması zərurətini ön plana çıxarır. Məsələn, məlumatların qeyri-obyektiv təhlili bəzi tələbələrə qarşı ayrı-seçkiliyə yol açа və onların bərabər təhsil almaq imkanlarını məhdudlaşdıra bilər. Bu baxımdan, süni intellektin tətbiqi prosesində texnoloji etibarlılığın təmin edilməsi və obyektiv qiymətləndirmə mexanizmlərinin qurulması mühüm şərtdir.

Təhsil mühitində süni intellektin praktik şəkildə tətbiqi

Süni intellektin imkanları sadəcə hazır dərsliklərin fərdi ehtiyaclara uyğunlaşdırılması ilə məhdudlaşmır. Bu texnologiya təhsilalanların öyrənmə prosesindəki hər bir addımını real vaxtda təhlil edərək, onların hansı mövzularda çətinlik çəkdiyini, hansılarda isə daha uğurlu olduğunu müəyyən edir. Nəticədə, sistem hər bir tələbənin akademik boşluqlarını hədəf alan fərdiləşmiş resurslar generasiya edir. Xüsusilə adaptiv öyrənmə sistemləri fərdi inkişaf trayektoriyasını avtomatik tənzimləyərək, təhsilin effektivliyini ən yüksək səviyyəyə çatdırır.

Müəllimlərin Sİ-yə adaptasiyası və peşəkar hazırlığı

Süni intellekt texnologiyalarının təhsil sisteminə uğurlu inteqrasiyası birbaşa müəllim heyətinin bu sistemləri mənimsəmə dərəcəsindən asılıdır. Tədqiqatlar sübut edir ki, sistemli təlim və seminarlar vasitəsilə müəllimlərin rəqəmsal səriştələrinin artırılması tədrisin keyfiyyətini yüksəldən əsas amildir. Bu çərçivədə müəllimlərə Sİ alətlərindən istifadə edərək obyektiv qiymətləndirmə aparmaq və operativ əks-əlaqə qurmaq metodları aşılanmalıdır.

Etik və hüquqi çərçivələr

Süni intellektin təhsilə inteqrasiyası prosesində etik və hüquqi aspektlərin rəhbər tutulması mütləq şərtdir. Alqoritmik qərəzlilik, fərdi məlumatların toxunulmazlığı və məxfilik məsələləri

sadəcə texniki boşluq deyil, həm də institusional-hüquqi məsuliyyət çərçivəsində dəyərləndirilməlidir. Bu baxımdan təhsil müəssisələri həm milli qanunvericiliyin, həm də beynəlxalq standartların tələblərinə cavab verən, şəffaf və təhlükəsiz idarəetmə strategiyalarını formalaşdırmalıdır.

Beynəlxalq təcrübə və perspektivlər

Dünya təcrübəsi göstərir ki, Sİ texnologiyaları təhsil sistemində fərdi təhsil trayektoriyalarının qurulması ilə yanaşı, virtual laboratoriyalar və simulyasiya əsaslı öyrənmə mühitləri formalaşdırır. Müxtəlif ölkələrin təcrübəsində Sİ ilə təkmilləşdirilmiş dərslər təhsilalanların dərketmə marağını artırır, müəllimləri isə mexaniki iş yükündən azad edir. Gələcəkdə bu innovasiyaların xüsusilə interaktiv və hibrid təhsil modellərinin əsasını təşkil edəcəyi proqnozlaşdırılır.

Ölkədaxili təcrübə

Azərbaycan təhsil sistemində Sİ-nin inteqrasiyası rəqəmsal platformaların təkmilləşdirilməsi və tədris resurslarının zənginləşdirilməsi baxımından strateji imkanlar yaradır. Bu texnologiyaların tətbiqi, xüsusilə ucqar bölgələrdə təhsilin inklüzivliyini və əlçatanlığını artırır, eyni zamanda müəllimlərin peşəkar inkişafını stimullaşdırır.

Süni intellekt ümumi təhsildə fərdiləşdirilmiş, səmərəli və interaktiv öyrənmə mühiti yaradır. Lakin onun uğurlu şəkildə tətbiq olunması pedaqoji adaptasiya, məxfilik siyasəti və etik standartların vəhdətindən asılıdır. Beləliklə, Sİ yalnız texniki yenilik deyil, həm də təhsil sisteminin rəqəmsal transformasiyasını təmin edən fundamental bir vasitədir.

NİZAMİ ƏKBƏROV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
K.f.d., dosent
nizamiakbarov60@gmail.com
YEGANƏ ƏSKƏROVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
P.f.d., baş müəllım
y.askerova@inbox.ru
NƏRMİNƏ QULİEVA
Bakı Mühəndislik Universiteti
K.f.d., dosent
nquliyeva@beu.edu.az

FƏNLƏRİN TƏDRİSİNƏ YENİ METODLARIN TƏTBİQİNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

Bu tezisdə qeyd olunmuşdur ki, müxtəlif fənlərin tədris prosesində müasir innovativ, interaktiv metodlardan istafədə edilməsi təhsilin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, mühazirə mətinlərinin müasir dünya ədəbiyyatlarından, internet resurslarından, son dövrün yeniliklərindən istifadə edilərək hazırlanması onları dha da zəngin məlumatlı və maraqlı edir.

Açar sözlər: *tədris, təhsil, innovasiya, metodlar, tədris planı*

Müasir dövrdə təhsl müəssisələrndə dərslərin müasir tədris metodlarlarından istifadə edərək, şagird və tələbələrə izah olunması günün aktual məsələlərindən biri hesab edilir. Bu, innovativ olaraq həyata keçirilir. "İnnovasiya" anlayışı yenilik, yenilik və dəyişiklik deməkdir; innovasiya bir vasitə və proses kimi yeni bir şeyin tətbiqini nəzərdə tutur. İnnovasiya pedaqoji prosesə tətbiq edildikdə, tədris və öyrənmənin məqsədlərinə, məzmununa, metodlarına və formalarına yeni şeylər daxil etmək, eləcə də müəllim və tələbə arasında birgə fəaliyyətlərin təşkili deməkdir.

Cəmiyyətdə baş verən yeni sosial-iqtisadi şərait orta ixtisas təhsili müəssisələrinin məzunları da daxil olmaqla, işçilər üçün peşə təhsilinin keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını tələb edir. İnnovativ ideyaların mənbələrinə ehtiyac duyulur. Sənaye müəssisələrinin texniki cəhətdən sürətli şəkilə yenidən təchiz olunması səbəbindən, ixtisaslı işçi anlayışı dəyişir. İndi yalnız yüksək dərəcədə təkmilləşdirilmiş, ixtisaslaşmış bacarıqları deyil, həm də əhəmiyyətli dərcədə nəzəri və praktk bilik spektrinə yiyələnmiş müəxəssilər tələb olur. Bunu dövlətn “kadr siyasəti” tələb edir və nəzərdə tutur.

Mövcud təhsil formalarının təhlili göstərdi ki, təhsil təşkilatının ənənəvi olaraq qurulmuş stereotipləri rəqabətə davamlı məzunların inkişafını və formalaşmasını təmin etmir. Ənənəvi tələblər bilikli məzunlar yetişdirsə də, yeni tələblər məzunlardan həm də bacarıqlı və yaradıcı şəxslər olmağı tələb edir. Müəyyən edilmişdir ki, innovativ formaların istifadəsi peşəkar bacarıq və qabiliyyətlərin tədrisi prosesini əhəmiyyətli dərəcədə tamamlayır və şaxələndirir, peşəkar cəhətdən əhəmiyyətli şəxsi keyfiyyətlərin inkişafına kömək edir, tələbələrdə yaradıcılıq və təşəbbüskarlığı inkişaf etdirir və praktik təlimin effektivliyini artırır.

Dərsin müxtəlif mərhələləri: izahat, möhkəmləndirmə və nəzarət zamanı tələbələrin müzakirə olunan mövzuların qavranalarında yaranan problemli vəziyyətləri aradan qaldərmağa xidmət etməlidir. Hər hansı bir fənnin tədrisində mühazirə materialları zəngin olmaqla, son yenilikləri də özündə əks etdirməlidir. Mühazirələr tələbələrlə diskussiya şəraitində slaydlar vasitəsilə əyani şəkildə prezentasiya kimi təqdim olunmalıdır. Sonda nəzəri biliklərin tamamilə mənimslməsini təmin etmək və onların praktik dəyərini yüksəltmək üçün bir neçə çalışma da həll olunmalıdır. Mühazirə materiallarından əldə olunan nəzəri biliklər və onların müəyyən bir praktik əhəmiyyət kəsb etməsi,

əqli düşüncə və məntiqi təfəkkür tələb edən çalışmaların tələbələrlə birlikdə müzakirə edilərək analiz olunmasında öz əksini tapır.

Təhsil prosesinin özündə innovativ modul - *tədris planı* kimi yanaşmalar tətbiq olunur və bu modullar peşəkar və şəxsi səriştəliyin əsas komponentlərini inkişaf etdirmək üçün hazırlanır. Tələbələrin innovativ fəaliyyəti akademik fənnin məzmununu tədris planındakı yeri baxımından təhlil etməklə, tədris materialının və onun metodlarının peşəkar və şəxsi inkişaf məqsədlərinə uyğunluğunu müəyyən etməklə, tədris kursunun özünütəhlili ilə, təlim nəticələrinin keyfiyyətini kollektiv şəkildə təhlil etməklə və materialın mənimsənilməsində rast gəlinən hər hansı çətinlikləri müəyyən etməklə nümayiş etdirilməlidir.

Müəllimin innovativ işi - fənlərarası kursun öyrənilməsində hərtərəfli nəticə əldə etməyə, tələbələrin fəaliyyətlərinin, biliklərinin, bacarıqlarının və qabiliyyətlərinin davamlı inkişafını təmin etməyə yönəlməlidir. Əsas məqsəd modul, səriştəyə əsaslanan təlimin tətbiqi və müasir təhsil texnologiyalarından istifadə etməklə təhsil xidmətlərinin keyfiyyətini artırmaqdır. Burada əsasən:

1. Tədris metodları
2. Peşəyönümlü mədris metodlarının müasirliyinə ciddi fikir vermək lazınmdır.

Yeni tədris metodlarında mövzulların tələbələr tərəfindən daha asanlıqla və aydın şəkildə mənimsənilməsi təhsilin keyfiyyətini yüksəldən əsas amillərdən hesab oluna bilər. Mövzuların sistemli şəkildə və müəyyən bir ciddi ardıcıllıqla, fəndasxili və mövzulararası əlaqələrdən istifadə etməklə izahı da təhsilin və tədrisin keyfiyyətinə müsbət təsir göstərir.

Müasir tədeis metodlarında fənlərarası peşəkar kurs proqramlarının təşkili də müəyyən təsirə malikdir. Onun məqsədi - tələbələrin tədris planı vasitəsilə seçdikləri peşəyə marağını fəal şəkildə artırmaqdır. Fənlərarası kurs zamanı nəzəri mövzular laboratoriya işləri və ya seminarlar, praktik məşğələlə vasitəsilə möhkəmləndirilir, tələbələr sonradan şəhərimizdəki və bölgəmizdəki şirkətlərdə təcrübə keçərkən istifadə edirlər və peşəkar mütəxəssis kimi (təcrübəli müəllimlərin nəzarəti altında) yetşirlər. Bu da məhz təhsilin və tədrisin yüksək səviyyədə təşkilindən stimullaşır .

ÜLVİYYƏ VERDİYEVA
Mingəçevir Dövlət Universiteti
pedaqoq1984@mail.ru

MÜASİR TƏHSİL MÜHİTİNDƏ SOSİAL ADAPTASİYA PROBLEMLƏRİN AKTUAL VƏZİYYƏTİ

Araşdırmada sosial adaptasiya problemlərinin yaranmasına təsir edən əsas amillər kimi fərdi-psixoloji xüsusiyyətlər, ailə mühiti, təhsil müəssisəsində mövcud psixoloji iqlim, sosial münasibətlər və müasir texnologiyaların təsiri təhlil edilmişdir. Müəyyən olunmuşdur ki, özünə inamsızlıq, ünsiyyət bacarıqlarının zəifliyi, ailədaxili emosional çatışmazlıqlar və sosial dəstəyin olmaması adaptasiya prosesini zəiflədir.

Açar sözlər. *Sosial adaptasiya, təhsil mühiti, şagird, sosiallaşma, psixoloji iqlim*

Müasir təhsil mühitində sosial adaptasiya problemləri son illərdə daha da aktuallaşmış və pedaqoji-psixoloji tədqiqatların əsas istiqamətlərindən birinə çevrilmişdir. Təhsil sisteminin transformasiyası, rəqəmsallaşma prosesləri, sosial münasibətlərin dəyişməsi və ailə strukturlarında baş verən yeniliklər şagird və tələbələrin təhsil mühitinə uyğunlaşma prosesinə ciddi təsir göstərir. Nəticədə, sosial adaptasiya artıq yalnız fərdi bir məsələ deyil, eyni zamanda sosial və institusional səviyyədə həll tələb edən kompleks problem kimi çıxış edir.

Hazırkı təhsil müəssisələrində müşahidə olunan vəziyyət göstərir ki, şagirdlərin müəyyən hissəsi kollektivə inteqrasiya olunmaqda çətinlik çəkir. Bu çətinliklər ünsiyyət qurmaqda passivlik, sosial fəaliyyətlərdən yayınma, özünüifadə bacarıqlarının zəifliyi və emosional gərginlik kimi hallarda özünü göstərir. Digər tərəfdən, bəzi şagirdlərdə aqressiv davranış, konfliktə meyillilik və sosial münasibətlərdə qeyri-sabitlik müşahidə olunur. Bu cür hallar sinif mühitində psixoloji tarazlığı pozur və ümumi təhsil prosesinin effektivliyini azaldır. Sosial adaptasiya problemlərinin aktual vəziyyətində fərdi-psixoloji amillər mühüm yer tutur. Şagirdlərin temperament xüsusiyyətləri, özünə inam səviyyəsi, emosional sabitliyi və ünsiyyət bacarıqları onların sosial mühitə uyğunlaşmasında əsas rol oynayır. Özünə inamsızlıq və sosial qorxu şagirdlərin kollektiv fəaliyyətlərdən uzaqlaşmasına, sosial münasibətlərdə passiv mövqe tutmasına səbəb olur. Xüsusilə yeniyetməlik dövründə emosional dəyişkənlik bu problemləri daha da kəskinləşdirir.

Ailə mühitinin təsiri də sosial adaptasiya prosesində həlledici amillərdən biridir. Valideynlərin uşağa göstərdiyi emosional dəstək, tərbiyə üsulları və ailədaxili münasibətlərin xarakteri uşağın sosial davranış modelini formalaşdırır. Ailədə sevgi və dəstəyin kifayət qədər olmaması, həddindən artıq sərt nəzarət və ya laqeyd münasibət uşağın özünüifadə qabiliyyətini zəiflədir və onun məktəb mühitinə uyğunlaşmasını çətinləşdirir. Ailədaxili münaqişələr isə bu prosesi daha da ağırlaşdırır.

Təhsil müəssisələrinin mövcud vəziyyəti də sosial adaptasiya problemlərinin formalaşmasında mühüm rol oynayır. Bəzi məktəblərdə psixoloji iqlimin zəif olması, müəllim-şagird münasibətlərində formal yanaşma və emosional yaxınlığın olmaması şagirdlərin özlərini təhlükəsiz və qəbul olunmuş hiss etməsinə mane olur. Bundan əlavə, bullinq və sosial təzyiq halları şagirdlərin sosial aktivliyini azaldır və onları təcridə meyilli edir. Belə mühitlərdə sosial adaptasiya prosesi ciddi şəkildə zəifləyir.

Müasir dövrdə texnologiyanın sürətli inkişafı və sosial şəbəkələrin geniş yayılması da aktual vəziyyətə ciddi təsir göstərir. Şagirdlərin virtual mühitdə uzun müddət vaxt keçirməsi real ünsiyyət bacarıqlarının zəifləməsinə gətirib çıxarır. Sosial əlaqələrin rəqəmsal platformalara köçməsi üzbəüz ünsiyyətin azalmasına səbəb olur və bu da sosial adaptasiya bacarıqlarını zəiflədir. Xüsusilə yeniyetmələr arasında bu tendensiya daha qabarıq şəkildə müşahidə olunur. Bununla yanaşı, sosial mühit və dost çevrəsinin də təsiri nəzərə alınmalıdır. Dəstəkverici sosial mühitin olmaması, neqativ

dost qrupları və sosial təcrid halları şagirdlərin kollektivə inteqrasiyasını çətinləşdirir. Sosial dəstəyin zəif olduğu mühitdə fərd özünü daha çox tənha hiss edir və adaptasiya prosesi ləngiyir.

Ümumilikdə, müasir təhsil mühitində sosial adaptasiya problemlərinin aktual vəziyyəti göstərir ki, bu məsələ çoxsahəli və kompleks xarakter daşıyır. Onun formalaşmasında fərdi, ailə, pedaqoji, sosial və texnoloji amillər eyni zamanda iştirak edir. Buna görə də sosial adaptasiya problemlərinin effektiv həlli üçün sistemli yanaşma tələb olunur. Məktəb, ailə və sosial institutların birgə fəaliyyəti, psixoloji xidmətlərin gücləndirilməsi və şagirdlərin sosial bacarıqlarının inkişaf etdirilməsi bu problemin azaldılmasında əsas istiqamətlər kimi çıxış edir.

NƏRMİN CABBARLI
Azərbaycan Dillər Universiteti
Müəllim
jabbarlinarmin303@gmail.com

İNTERAKTİV TƏLİM METODLARININ İBATİDAİ SİNİFLƏRDƏ YARADICI TƏFƏKKÜRÜN FORMALAŞMASINA TƏSİRİ

Bu tezisdə ibtidai siniflərdə interaktiv təlim metodlarının yaradıcı təfəkkürün formalaşmasına təsiri araşdırılır. Müəyyən edilir ki, bu metodlar şagirdlərin fəallığını artırır, onların sərbəst düşünmə, problem həll etmə və öyrənməyə maraq bacarıqlarını daha effektiv şəkildə inkişaf etdirir.

Açar sözlər: *interaktiv təlim, yaradıcı təfəkkür, ibtidai sinif, fəal öyrənmə, motivasiya*

Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər, xüsusilə də şagirdyönümlü yanaşmanın ön plana çıxması, təlim prosesində istifadə olunan metod və vasitələrin yenidən nəzərdən keçirilməsini zəruri edir. Ənənəvi tədris üsullarının yerini tədricən daha çevik, dinamik və şagirdin fəal iştirakını təmin edən metodlar almaqdadır. Bu baxımdan interaktiv təlim metodları ibtidai təhsil pilləsində xüsusi əhəmiyyət kəsb edir. Bildiyimiz kimi, ibtidai sinif dövrü uşağın təfəkkürünün formalaşdığı, dünyanı dərk etməyə başladığı və yaradıcı potensialın əsasının qoyulduğu mərhələdir. Bu mərhələdə tətbiq olunan təlim metodları yalnız bilik ötürmə funksiyası daşımır, eyni zamanda şagirdin düşünmə tərzinin, problemlərə yanaşma bacarığının və fərdi inkişafına birbaşa təsir göstərir. İnteraktiv təlim metodlarının tətbiqi isə bu prosesdə şagirdin passiv dinləyici deyil, aktiv iştirakçı kimi formalaşmasına şərait yaradır.

Pedaqoji ədəbiyyatlarda interaktiv təlim metodlarının əsas mahiyyəti qarşılıqlı fəaliyyətə, əməkdaşlığa və dialoqa əsaslanması ilə izah olunur. Bu metodlar çərçivəsində şagirdlər yalnız müəllimin təqdim etdiyi informasiyanı qəbul etmir, eyni zamanda müzakirə edir, suallar verir, fərqli fikirlər irəli sürür və öz nəticələrini formalaşdırırlar. Belə mühitdə şagirdlərin yaradıcı təfəkkürü daha fəal şəkildə inkişaf edir. Çünki yaradıcı təfəkkür yalnız hazır biliklərin mənimsənilməsi ilə deyil, yeni ideyaların irəli sürülməsi, alternativ həll yollarının tapılması və fərqli baxış bucaqlarının formalaşdırılması ilə bağlıdır. Məsələn, beyin həmləsi (brainstorming), rollu oyunlar, problem əsaslı öyrənmə, layihə üsulu kimi interaktiv metodlar şagirdləri düşünməyə, müqayisə aparmağa və ən əsası, nəticə çıxarmağa təşviq edir. Bu zaman şagirdlərin sərbəst fikirləri dəstəklənir, səhv etmək qorxusu aradan qalxır və yaradıcı yanaşma üçün əlverişli mühit yaranır.

İbtidai siniflərdə interaktiv metodların tətbiqi şagirdlərin yalnız intellektual deyil, həm də sosial və emosional inkişafına müsbət təsir göstərir. Qrup işi zamanı uşaqlar bir-biri ilə ünsiyyət qurmağı, fikirlərini ifadə etməyi və başqalarının mövqeyinə hörmətlə yanaşmağı öyrənirlər. Bu isə onların özünə inamını artırır və sərbəst düşünmə bacarıqlarını gücləndirir. Yaradıcı təfəkkürün inkişafı üçün vacib olan əsas amillərdən biri də məhz sərbəstlik və psixoloji rahatlıqdır. İnteraktiv təlim mühiti bu baxımdan daha əlverişli hesab olunur. Müəllim burada yalnız bilik verən şəxs deyil, həm də istiqamət göstərən, motivasiya edən və şagirdin potensialını üzə çıxaran fasilitator rolunda çıxış edir. Bu yanaşma isə şagirdin özünü ifadə etməsinə, fikirlərini həmyaşıdları ilə bölüşməsinə və yaradıcı fəaliyyətə təşəbbüs göstərməsinə imkan yaradır.

Eyni zamanda, qeyd etmək lazımdır ki, interaktiv təlim metodlarının effektivliyi onların düzgün və məqsədyönlü tətbiqindən asılıdır. Bu metodların sadəcə formal şəkildə tətbiqi gözlənilən nəticəni vermir. Müəllim dərsin məqsədinə uyğun olaraq uyğun metod seçməli, şagirdlərin yaş xüsusiyyətlərini və fərdi fərqlərini nəzərə almalıdır. İbtidai sinif şagirdləri üçün xüsusilə oyun elementləri ilə zəngin, vizual və praktik fəaliyyətlərə əsaslanan metodlar daha effektiv hesab olunur. Məsələn, didaktik oyunlar, yaradıcı tapşırıqlar, hekayə qurma fəaliyyəti və təsviri fəaliyyətlər şagirdlərin həm marağını artırır, həm də onların yaradıcı təfəkkürünü stimullaşdırır. Bu prosesdə müəllimin dəstəyi, yönləndirici sualları və müsbət münasibəti xüsusi rol oynayır.

Bununla yanaşı, interaktiv təlim metodlarının tətbiqi müəyyən çətinliklərlə də müşayiət oluna bilər. Sinifdə şagird sayının çox olması, vaxtın məhdudluğu və bəzi hallarda müəllimlərin bu metodlara tam bələd olmaması onların effektiv tətbiqinə maneə yaradır. Lakin bu çətinliklər məqsədyönlü planlaşdırma, müəllimlərin peşəkar inkişafı və təlim resurslarının düzgün seçilməsi ilə aradan qaldırıla bilər. Müasir təhsil sistemində müəllimlərin metodiki hazırlığının artırılması, innovativ yanaşmaların tədris prosesinə inteqrasiyası və şagirdyönümlü mühitin yaradılması xüsusi əhəmiyyət daşıyır.

İnteraktiv təlim metodlarının tətbiqi şagirdlərin tənqidi və yaradıcı düşünmə bacarıqlarının paralel şəkildə inkişafına şərait yaradır. Belə ki, şagirdlər təqdim olunan məlumatı yalnız qəbul etməklə kifayətlənmir, onu təhlil edir, müqayisə aparır və öz mülahizələrini formalaşdırırlar. Bu prosesdə müəllim tərəfindən verilən açıq tipli suallar, alternativ cavabların müzakirəsi və fərqli baxış bucaqlarının dəstəklənməsi xüsusi əhəmiyyət kəsb edir. İbtidai sinif şagirdləri üçün bu yanaşma onların düşüncə sərhədlərini genişləndirir və standart cavablardan kənara çıxmağa təşviq edir. Nəticədə şagirdlər yalnız mövcud bilikləri mənimsəmir, eyni zamanda yeni ideyalar yaratmaq və qeyri-adi həll yolları tapmaq bacarığı əldə edirlər ki, bu da yaradıcı təfəkkürün əsas göstəricilərindən biri hesab olunur.

Digər tərəfdən, interaktiv təlim mühiti şagirdlərin motivasiya səviyyəsinə də müsbət təsir göstərir. Ənənəvi dərs modellərində passiv iştirak edən şagirdlər çox vaxt dərsə maraq göstərmədikləri halda, interaktiv fəaliyyətlər zamanı onlar prosesin bir hissəsinə çevrilirlər. Tapşırıqların oyunlaşdırılması, əməkdaşlıq elementlərinin daxil edilməsi və şagirdlərin fərdi ideyalarının dəyərləndirilməsi onların təlimə qarşı münasibətini dəyişir. Bu isə yalnız akademik nəticələrin yüksəlməsinə deyil, həm də şagirdlərin öyrənməyə qarşı müsbət emosional münasibət formalaşdırmasına gətirib çıxarır. Belə bir mühitdə formalaşan yaradıcı təfəkkür isə daha davamlı və praktik xarakter daşıyır, çünki şagird bu bacarıqları real situasiyalarda tətbiq etməyi öyrənir.

Nəticə olaraq demək olar ki, interaktiv təlim metodları ibtidai sinif şagirdlərinin yaradıcı təfəkkürünün formalaşmasında mühüm rol oynayır. Bu metodlar şagirdlərin fəallığını artırır, onların müstəqil düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir, eyni zamanda təlim prosesini daha maraqlı və səmərəli edir. Yaradıcı təfəkkürün inkişafı isə yalnız məktəb dövrü üçün deyil, gələcək həyat fəaliyyəti üçün də əsas bacarıqlardan biridir. Bu baxımdan interaktiv təlim metodlarının ibtidai təhsil sistemində geniş tətbiqi və davamlı şəkildə təkmilləşdirilməsi zəruri hesab olunur.

HƏMDƏM HÜSEYNLİ
Baki Avrasiya Universiteti
Doktorant

AZƏRBAYCAN DİLİNİN LEKSİK-SEMANTİK SİSTEMİNİN PROBLEMLƏRİ

Müstəqillik illərində Azərbaycan dilinin leksik-semantik sistemini hərtərəfli başa düşmək üçün onun tarixi mənşəyini araşdırmaq zəruridir. Bir dilin tarixini araşdırmaq, bu gün onun lüğətinin ən mühüm problemlərindən birini həll etmək üçün çox vacibdir. Dilin sosial mahiyyətinin və sistematik quruluşunun qarşılıqlı əlaqəsi iki əsas elementdən asılıdır ki onlar - xarici sosiolinqvistika və daxili semantik sistem.

Açar sözlər: *sosiolinqvistika, leksikologiya, semasiologiya*

Dilin lüğət tərkibi, bir-birindən ayrılmış sözlərin sadəcə bir topluluğu deyil; əksər halda bu sözlər, bir-birilə bağlanaraq və bir-birinə qarşı duraraq, lüğət tərkibinin kompleks sistemini təşkil edir. Sözün mənası, əsasən, onun digər sözlərlə olan əlaqəsi ilə, yəni leksik sistemin strukturunda tutduğu mövqeyi ilə təyin olunur və bu mövqe yalnız o sistemin strukturunu öyrəndikdən sonra müəyyənləşdirilir. Dilin leksik sistemi sadəcə leksik-semantik qrupların bir araya gəlməsi deyil, əksinə, müxtəlif leksik-semantik birliklərin bir-birinə nəzarət etdiyi bir nitq hissələri sistemi kimi təsvir olunur.

Dilin lüğət tərkibi dəyişkən xüsusiyyətə sahibdir. Hər bir xalqın dilində yeni sözlər yaranır və köhnələr silinir. Dilin leksik sistemi sabit deyil, dəyişkəndir. Leksik sistemin içindəki sözlərin məzmun əlaqələrinin və kəmiyyət və keyfiyyətcə dəyişməsi, sistemin təsir göstərdiyi sahədir. Dilin leksik sistemi və ünsürləri müxtəlif məna münasibətlərinə girir. Leksik-semantik sistem üçün eyni sözün müxtəlif leksiksemantik qruplara daxil olması səciyyəvi sayılır.Bunun əsas səbəbi isə dilin tarixi proseslərdən təsirlənməsidir: “Dildəki sözlərin tarixi göstərir ki, dilin leksik vahidi olan söz qeyri-sabit xüsusiyyətə malikdir; onların həm formalaşmasında, həm də mənasında dəyişiklik ola bilir”.

Müstəqil Azərbaycan dilinin leksik-semantik sistemi, əsasən, tarixi, siyasi və mədəni müstəqillik illərinin təsiri altında formalaşıb. Bu dövrdə dilin zənginləşməsi və inkişafı üçün müxtəlif sahələrdə fəaliyyət göstərən Azərbaycan dilçiliyi təşkilatları və alimləri tərəfindən dəstəklənib. Müstəqil dövrdə Azərbaycan dilində özündə milli və mədəni identiteti əks etdirən bir çox söz və ifadə formalaşıb. Bu, əsasən, türk əsilli sözlər, yer adları, milli ədəbi terminlər və milli mifologiyadan gələn kəlimələr ilə əlaqəlidir. Həmçinin, mütəxəssislər dilin tərəqqi etməsi üçün fəaliyyət göstərir və ədəbiyyat, elm, texnologiya və sair sahələrdə inkişaf etmiş terminləri dilə mənimsətməyə çalışırlar. Bu, Azərbaycan dilinin funksional və zəngin bir leksik-semantik sistemi əldə etməsinə kömək edir.

Müasir Azərbaycan dilinin leksik-semantik sisteminin inkişafında bir sıra əsas istiqamətlər mövcuddur:

Texnologiya və Elm: Texnologiya və elmin inkişafı ilə əlaqədar yeni terminlər və ifadələr yaradılır. Bu, informasiya texnologiyaları, tibb, aviasiya və s. sahələrdə özünü göstərir.

Qlobal Əlaqələr: Beynəlxalq əlaqələr və global mədəniyyət, Azərbaycan dilində xarici kəlimələrin və ifadələrin özünü tapması və öz dilində bənzətməyə çalışması ilə əks olunur.

İqtisadi İnkişaf: İqtisadi sahədəki dəyişikliklər və inkişafların təsiri ilə iqtisadi terminlər və ifadələr dilin leksikasında özünü tapır.

Təhsil və Tədqiqat: Təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin dilin inkişafına təsiri yeni terminlər yaratmağa və əlavə etməyə nail olur.

Milli İdman: İdman sahəsindəki inkişafların dilə təsiri ilə yeni ifadələr və kəlimələr dilin leksikasına daxil olur.

İctimai Əlaqələr və Kommunikasiya: Sosial media, onlayn platformalar və kommunikasiya texnologiyalarının inkişafı, ictimai dilin və terminli ifadələrin leksikasına yeni təsir göstərir.

Çevrilmələr və Tərcümələr: Beynəlxalq mətnlərin daha aktiv şəkildə çevrilməsi və tərcümə edilməsi, dilin müxtəlif sahələrdə zənginləşməsinə nail olur.

Mədəniyyət və Turizm: Turizm inkişafları və mədəniyyət tədbirləri, ədəbi dilin və ifadələrinin məzmununu zənginləşdirir.

Qadın Hüquqları və Cins Tərəfdaşlıq: Cins tərəfdaşlıq və qadın hüquqları sahəsindəki dəyişikliklər, dilin qeyri-etik ifadələrdən azad olmağa və cinsiyət-neutral terminlərə yiyələnməsinə nail olmağa səbəb olur

Ənənəvi və Yerli Mədəniyyət: Ənənəvi mədəniyyət və dilinə öz ənənəvi ifadələrini qorumağa və dəstəkləməyə yönlənmiş fəaliyyətdir

Bu istiqamətlər, dilin həm inkişaf etməsini, həm də müxtəlif sahələrə adaptasiya olmağını təmin edir. Azərbaycan dilinin ən son inkişaf etmiş və müasir məsələlərlə əlaqəli leksik-semantik səviyyəsini qorumaq və artırmaq üçün bu sahələrdə davam edən fəaliyyət vacibdir.

“Məktəb” nəşriyyatının direktoru: Ənnağı Əsgərov
Redaktor: Tünzalə Abdullayeva
Korrektor: Aruzə Qurbanova

Yığılmağa verilmişdir: 18.05.2026
Çapa imzalanmışdır: 26.05.2026
Kağız formatı: A4
Şərti çap vərəqi: “Times New Roman” qarnituru

Tirajı: 200

Ünvan: Az – 7003, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti - 2

“Məktəb” nəşriyyatı